E-Articles

- **Akram, Khalid Taimur.** 30 years of Azerbaijan's exceptional rise: An overview of startling policies // AZERTAC.- 2021.- October 8.
- **Şəkərəliyev, Arif.** Prezident İlham Əliyev sosial-iqtisadi inkişafda varisliyi ümummilli inkişaf amilinə çevirmişdir: Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyi qarşısında // Xalq qəzeti. - 2021.- 7 oktyabr. - № 215. - S. 5.
- **Əlirzayev, Əli.** Müstəqillik dövründə Azərbaycanda iqtisadi və sosial inkişafın anatomiyası / Emin Əlirzayev // 525-ci qəzet. - 2021. - 23 sentyabr. - № 172. - S. 8.
- **Quliyev, Müşfiq.** Müstəqillik illərində Azərbaycanda sənaye inkişafı: yerli üstünlüklərdən klasterləşməyə // 525-ci qəzet. - 2021. - 18 sentyabr. - № 169. - S. 10.
- **Dövlətçilik tariximizin yeni mərhələsi** // Xalq qəzeti. - 2021.- 15 sentyabr. - № 196. - S. 3.
- **Həbibbəyli, İsa.** Müstəqil dövlətçiliyin möhkəm bünövrəsi: Ulu Öndər Heydər Əliyev 30 il əvvəl - 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilmişdir // Azərbaycan. - 2021.- 3 sentyabr. - № 186. - S. 1,4.
- **Məmmədzadə, İlham.** Müstəqilliyə gedən yol: Heydər Əliyev şəxsiyyəti və siyasi reallıqlar: Siyasi varislikdən qüdrətli dövlətcilik fəlsəfəsinə: II məqalə // Səs.-2021.-25 avqust.-№151.-S.8-10.
- **Sarıyeva, İradə.** Dünya azərbaycanlılarını müstəqil Azərbaycana bağlayan ideologiyanın gücü 30 ildə özünü tam doğrultdu... // Bakı Xəbər.-2021.-24 avqust.-№150.-S.7.
- **Əliyeva, Yeganə.** Azərbaycan bundan sonra da inkişaf, müstəqillik yolu ilə gedəcək: Cənab İlham Əliyevin Baş nazir təyin olunmasından 18 il keçir // İki sahil.-2021.-4 avqust.-№136.-S.12-13.
- **Sarıyeva, İradə.** 30 illik müstəqillik yolunda ən toparlayıcı ideologiya…: II yazı // Bakı Xəbər. - 2021.- 14 iyul. - № 123. - S. 6.
- **Zeynalov, İbrahim.** Müstəqilliyə gedən yol 1969-cu il iyulun 14-də HeydərƏliyevin siyasi hakimiyyətə gəlməsindən başlayir // İki sahil. - 2021.- 10 iyul. - № 121. - S. 8.
- **Bayramov, Vaqif.** Azərbaycanın iqtisadi uğurları dərin islahatların məntiqi nəticəsidir // Xalq qəzeti. - 2021.- 18 mart. - № 60. - S. 6.
- **Bayramlı, Nardar.** Müstəqil Azərbaycanın gələcək inkişafında milli ideologiyamızın müstəsna rolu var: Anar İsgəndərov: 44 günlük Vətən müharibəsi dövründə müşahidə etdiyimiz sarsılmaz milli birlik dünya azərbaycanlılarının vahid məfkurə olan azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşməsinin ifadəsi idi // Yeni Azərbaycan.-2021.-26 fevral.-№37.-S.8.
- **Turan, Anar.** Azərbaycanın onillik inkişaf konsepsiyası // Xalq qəzeti. - 2021.- 14 fevral. - № 34. - S. 4.
- **Əliyeva, İradə.** Müasir Azərbaycanın gücü // Azərbaycan. - 2021.- 6 fevral. - № 27. - S. 1,3.

- **Səma, Gülnar.** Müstəqillik dövründə Azərbaycanda özbək əsərlərinin nəşrinə bir baxış // 525-ci qəzet. - 2020. - 6 noyabr. - № 148. - S. 14.
- **Qafarova, Sahibə.** Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir: Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətçilik salnaməmizin ən şərəfli səhifəsi yazılır // Azərbaycan. - 2020.- 18 oktyabr. - № 215. - S. 4.
- **Cəfərli, Rəşad**. Əbədi və sarsılmaz müstəqillik: Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövləti İlham Əliyevin rəhbərliyi ilə tarixinin növbəti şərəfli mərhələsindən keçir // Azərbaycan. - 2020.- 18 oktyabr. - № 215. - S. 13.
- **Məmmədov, Ceyhun.** Müstəqilliyimiz daha da möhkəmlənəcək, bütün torpaqlarımız işğaldan azad olunacaq // Respublika. - 2020.- 17 oktyabr. - № 214. - S. 9.
- **Zeynalov, Əsgər.** Müstəqillik asan olmayıb, yaxud bu günün reallıqları // Respublika. - 2020.- 17 oktyabr. - № 214. - S. 10.
- **Məhəməliyev, Nəsib.** Heydər Əliyev ideyaları Azərbaycanın inkişafına və qüdrətlənməsinə xidmət edir // Azərbaycan. - 2020.- 14 iyul. - № 135. - S. 4.
- **Həsənov, Əli.** Milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət // Kaspi.- 2020.-14 iyul.-№109.-S.6-7.
- **Bədəlov, Əliqismət.** "Müstəqil Azərbaycan dövləti bizim ən böyük sərvətimizdir!" // Xalq qəzeti. - 2020.- 19 iyun. - № 116. - S. 4.
- **Vəliyev, Ağalar.** Müstəqilliyi möhkəmləndirən mütərəqqi inkişaf strategiyası // Azərbaycan. - 2020.- 12 iyun. - № 111. - S. 5.
- **Mustafayev, Rəşad.** Müstəqilliyimizi əbədiyyətə qovuşdurmuş qayıdış // Respublika. - 2020.- 10 iyun. - № 109. - S. 4.
- **Шамхал, Лятиф.** Гейдар Алиев: миссия спасения: Независимая Азербайджанская Республика является шедевром общенационального лидера // Каспій. - 2020. - 13 июня. - № 90. - С. 4-5.
- **Bayramov, Vaqif.** Bu gün müasir və müstəqil Azərbaycan dövləti ən yüksək zirvədədir // Xalq qəzeti.-2020.-6 iyun.-№107.-S.1.
- **İbrahimov, Eldar.** Müstəqil Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir // Azərbaycan.-2020.-7 may.-№89.-S.3.
- **Məmmədov, Ramin.** Müstəqil Azərbaycanın qurucusu // Yeni Azərbaycan. - 2020.- 6 may. - № 76. - S. 5.
- **Şəkərəliyev, Arif.** Azərbaycanı müstəqillik epoxasına hazırlayan və dövlət suverenliyinin əsaslarını yaradan böyük lider // Xalq qəzeti.-2020.-6 may.-№88.-S.5.
- **Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti** // Səs. - 2020.- 18 mart. - № 52. - S. 8-9.

- **Həbibbəyli, İsa.** Prezidentin yeni hədəfləri - Azərbaycanın növbəti inkişaf kursu: Müstəqillik və tərəqqi yolu ilə irəli // Azərbaycan.-2020.-18 mart.-№60.-S.1,4.
- **Baxşəliyev, Rəşad.** Siyasi müstəqillik, davamlı sabitlik, inamlı yüksəliş: Prezident İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır // Azərbaycan.-2020.-13 mart.-№56.-S.1-2.
- **Bayramov, Vaqif.** Vəzifəmiz müstəqilliyimizi möhkəmləndirmək, dövlətimizin qüdrətini artırmaqdır // Xalq qəzeti.-2020.-7 mart.-№52.-S.1,3.
- **Baxşəliyev, Rəşad.** Azərbaycanın bugününü heç bir dövrlə müqayisə etmək olmaz: Prezident İlham Əliyevin müstəqil siyasətinin təməlində konkret iş, real inkişaf, əməl dayanır // Azərbaycan.-2020.-28 fevral.-№45.-S.1,3.
- **Ələkbərov, Yusif.** Müasir Azərbaycan, davamlı inkişaf, yüksələn rifah, güclü dövlət: Bu, aparılan islahatların prioritet hədəfləridir: Respublika.-2020.-14 fevral.-№33.-S.4.
- **Adıgözəlov, Kamal.** XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı // Xalq qəzeti. - 2019.- 26 dekabr. - № 288. - S. 6.
- **Mehdiyev, Allahverdi.** Müstəqil dövlətin müstəqil xarici siyasəti: Prezident İlham Əliyev: "Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik" // Azərbaycan. - 2019.- 25 dekabr. - № 287. - S. 8.
- **Məmmədov, Ceyhun**. Müstəqil, qürurlu dövlətin qətiyyətli lideri // Azərbaycan. - 2019.- 25 dekabr. - № 287. - S. 7.
- **Qarayev, Əbülfəs.** Əbədi müstəqillik üçün mədəniyyət // Azərbaycan. - 2019.- 24 dekabr. - № 286. - S. 1,8.
- **Qədəşov, Tahir.** Müstəqil dövlətimizi yeni zirvələrə aparan Lider // Respublika. - 2019.- 22 dekabr. - № 284. - S. 2.
- **Quliyev, Elsevən.** Müstəqil Azərbaycan tarixində dinamik inkişaf epoxası // Respublika. - 2019.- 21 dekabr. - № 283. - S. 6.
- **Kəlbizadə, Elnur.** Xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqilliyimizin əsas təminatıdır // Azərbaycan. - 2019.- 19 dekabr. - № 282. - S. 6.
- **Vəliyeva, Sədaqət.** Müasir Azərbaycan dövlətçiliyinin banisi // Xalq qəzeti. - 2019.- 18 dekabr. - № 281. - S. 9.
- **Ələkbərov, Urxan.** Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır // Azərbaycan.- 2019.- 11 dekabr.-№ 275.- S. 1,3.
- **Nərimanoğlu, Məhəmməd.** Müstəqilliyə gedən yol Heydər Əliyevin adı ilə bağlıdır // Azərbaycan.-2019.-5 dekabr.-№270.-S.1,7.
- **Cəfərli, Rəşad.** Əbədi və sarsılmaz müstəqillik // Azərbaycan.-2019.-17 noyabr.-№255.-S.1,5.
- **Yusifqızı, Əminə.** Azərbaycanın müstəqil dövlət siyasəti ölkəmizin uğurlarını və nüfuzunu artırır // Xalq qəzeti.-2019.-9 noyabr.-№250.-S.6.

- **İftixar.** Müstəqil Azərbaycanın mədəniyyət siyasətinin inkişaf dinamikası // Mədəniyyət.-2019.-8 noyabr.-№81.-S.6.
- **Bədəlov, Əliqismət.** Müstəqil Azərbaycan inkişaf və demokratiya yolu ilə inamla irəliləyir // Xalq qəzeti.-2019.-2 noyabr.-№244.-S.3.
- **Aydınoğlu, Tahir.** İlham Əliyev: Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam // Xalq qəzeti.-2019.-25 oktyabr.-№237.-S.4.
- **Novruzov, Rafiq**. Azərbaycan təhsili müstəqillik yollarında // Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.10.
- **Həsənov, Əli.** 18 oktyabr - Müstəqillik haqqında Azərbaycan Respublikasının Konstitusiya Aktının qəbuluna dair 5 tezis // Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.1,3.
- **Ələkbərov, Əvəz.** Azərbaycanın davamlı iqtisadi inkişaf modeli qələbələrimizin rəhnidir // Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.4.
- **Ağayev, Yusif.** Dövlət üçün müstəqillikdən böyük sərvət yoxdur // Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.6.
- **Гасанов, Али.** 5 тезисов о 18 октября - принятии Конституционного акта Азербайджанской Республики о независимости // Бакинский рабочий. - 2019. - 18 октября. - № 192. - С. 2-3.
- **Sadıqov, Bəxtiyar.** Müstəqil dövlətdə yaşamaq səadəti // Azərbaycan.-2019.-18 oktyabr.-№231.-S.1,4-5.
- **Hüseynov, Aydın.** Azərbaycanın dövlət müstəqilliyi əbədi və dönməzdir // Xalq qəzeti.-2019.-17 oktyabr.-№230.-S.8.
- **Əliyev, Etibar.** Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir // Respublika.-2019.-13 oktyabr.-№226.-S.5.
- **Abdullayev, Mübariz.** Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur // Yeni Azərbaycan. - 2019.- 10 oktyabr. - № 186. - S. 3.
- **Eyyubov, İsmayıl.** Azərbaycanın müstəqillik dövrlərində BDU-nun beynəlxalq əlaqələri // Respublika.-2019.-6 oktyabr.-№220.-S.6.
- **Qələndərli, Nurlan.** Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin banisidir // Yeni Azərbaycan. - 2019.- 3 sentyabr. - № 159. - S. 3.
- **Cəlilqızı, Yeganə.** Azərbaycanın dövlət müstəqilliyinin qarantı // İki sahil. - 2019.- 3 sentyabr. - № 159. - S. 6.
- **Baxşəliyev, Rəşad.** İqtisadi müstəqillik - innovativ inkişaf, ən islahatçı ölkə: İlham Əliyevin dərin sosial-iqtisadi islahatları ilə Azərbaycan hər il beynəlxalq reytinq təşkilatlarının hesabatlarında yeni rekordlar göstərir // Azərbaycan.-2019.-20 iyul.-№156.-S.1-2.
- **Qurbanlı, Mübariz.** İlham Əliyevin modern dövlət modeli: Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın dövlət quruculuğu təcrübəsi artıq dünyada mükəmməl örnəklərdən biri kimi qəbul edilir // Azərbaycan. - 2018.- 23 dekabr. - № 290. - S. 1,7.

- **Abdullayev, Mübariz.** Müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail olub: Prezident İlham Əliyev: Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir // Yeni Azərbaycan. - 2018.- 31 oktyabr. - № 206. - S. 3.
- **Rəşad, Rəşid.** Müstəqillik dövründə diaspor və lobbiçilik siyasəti // Ekspress. - 2018.- 14 noyabr. - № 200. - S. 10.
- **Süleymanov, Mehman.** Müstəqil Azərbaycanın ordu quruculuğunda əsaslı dönüşün başlanğıcı: Ümummilli lider Heydər Əliyevin xalqa müraciətindən 25 il ötür // Xalq qəzeti. - 2018.- 2 noyabr. - № 247. - S. 3.
- **Baxşəliyeva, Gövhər.** Azərbaycan - Şərqin parlayan ulduzu: Prezident İlham Əliyevin uğurlu Şərq siyasəti ölkəmizin diplomatik nailiyyətlərinin artmasına mühüm töhfə verir // Azərbaycan. - 2018.- 28 oktyabr. - № 243. - S. 1,3.
- **Məmmədov, Səbuhi.** Azərbaycanın dövlət müstəqilliyinin daimi olacağına inam tükənməzdir: 18 oktyabr Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası Günüdür // Xalq qəzeti. - 2018.- 18 oktyabr. - № 234. - S. 3.
- **Bayramova, Zümrüd.** 18 Oktyabr Azərbaycan Dövlət Müstəqilliyi Günüdür: İlham Əliyev: "Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq" // Səs.-2018.-18 oktyabr.-№197.-S.2.
- **Albəndov, Vəli.** Müstəqillik xalqımızın böyük - tarixi nailiyyəti və milli sərvətidir // Respublika.- 2018.-11 oktyabr.-№227.-S.6.
- **Müstəqilliyimizin Naxçıvandan başlayan inkişaf yolu //** Kaspi. - 2018.- 4 sentyabr. - № 142. - S. 4.
- **Israfilbayova, Sara.** Azerbaijani sees 27th year of independence // Azernews . – 2018. – October 17.- №. 79.- p. 1-2.
- **Albəndov, Vəli.** Müstəqillik xalqımızın böyük - tarixi nailiyyəti və milli sərvətidir Respublika.- 2018.-11 oktyabr.-№227.-S.6.
- **İsmayılqızı, Xuraman.** Müstəqilliyimizin, monolit birliyimizin, iqtisadi inkişafımızın təməl günü // İki sahil. - 2018.- 3 oktyabr. - № 186. - S. 3.
- **Baxşəliyev, R.** Müstəqil siyasətin qətiyyətli ifadəsi: İlham Əliyevin son iki həftədə keçirdiyi mühüm görüşlər Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanması ilə bağlı aparılan danışıqlara töhfə verdi // Azərbaycan.-2018.-26 iyul.-№164.-S.1-2.
- **Baxşəliyev, Rəşad.** İqtisadi və siyasi müstəqillik güclü Azərbaycanın zəminidir // Azərbaycan. - 2018.- 5 iyun. - № 125. - S. 1,4.
- **Kərimova, Tamilla Hüseynbala qızı.** Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir // Yeni Azərbaycan. - 2018.- 25 may. - № 100. - S. 11.
- **Əliyeva, Yeganə.** İlham Əliyev: Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik // İki sahil.-2018.-1 may.-№83.-S.8.

- **Muradova, Bahar. H**eydər Əliyev ideyalarının təntənəsi: müstəqil Azərbaycan yeni intibah mərhələsində // Azərbaycan. - 2018.- 1 may. - № 97. - S. 1,5.
- **Baxşəliyev, Rəşad.** Müstəqillik və qələbə yolunun bayraqdarı: Müstəqillik Azərbaycan xalqının ən böyük sərvəti, neməti və xoşbəxtliyidir // Azərbaycan. - 2018.- 20 aprel. - № 88. - S. 1,5.
- **Əliyeva, Yeganə.** Müstəqillik - əsas dəyərimiz, ən böyük nemətimiz // İki sahil.-2018.-27 fevral.-№38.-S.16.
- **Ахундова, Эльмира.** Без Гейдара Алиева не было бы независимого Азербайджана: Беседа с депутатом Милли Меджлиса Фаттахом Гейдаровым // Каспій. - 2018. – 24 февраля. - № 37. - С. 10-11.
- **Əlizadə, Akif.** Müstəqil Azərbaycanda intellektual tərəqqi hərəkatının son on beş ili: hakimiyyətlə intellektin vəhdəti // Respublika.-2018.-1 fevral.-№23.-S.2-3.
- **Cəfərov, Nizami.** Müstəqil Azərbaycan: Ümummilli lider Heydər Əliyevdən Prezident İlham Əliyevə // Xalq qəzeti.-2017.-24 dekabr.-№285.-S.4.
- **Əsgərov, Asif.** Müstəqil Azərbaycan Heydər Əliyevin xalqımıza ən böyük töhfəsi və əmanətidir // Xalq qəzeti.-2017.-12 dekabr.-№274.-S.4.
- **Rəşad, Rəşid.** Müstəqil dövlətlərdə hüquq islahatları // Ekspress. - 2017.- 21 noyabr. - № 210. - S. 10.
- **Baxşəliyev, Rəşad.** İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır: Son 14 il ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu keçən ikinci ölkə yoxdur // Azərbaycan.-2017.-19 noyabr.-№255.-S.1,3.
- **Bayramov, Həsən.** Müstəqillik kursunun siyasi istinadgahı // Azərbaycan.-2017.-14 noyabr.-№250.-S.3.
- **Xəlilov, Rüstəm.** Müstəqilliyimiz əbədi və dönməzdir // Respublika.-2017.-20 oktyabr.-№229.-S.4.
- **Mirələmov, Hüseynbala.** Tarixin ən qüdrətli Azərbaycanı: Azərbaycanın dövlət müstəqilliyi tarixindən yazmaq istəyirəm, əslində... // Azərbaycan.- 2017.- 18 oktyabr.- № 228.- S.4.
- **Hacalıyev, Elnur.** Heydər Əliyev kursu dövlət müstəqilliyinin təminatçısıdır: Azərbaycan dünyada tam müstəqil siyasət yürüdən ölkə kimi tanınır // Azərbaycan.- 2017.- 18 oktyabr.- № 228.- S.1,3.
- **Əhmədov, Elçin.** Azərbaycanın dövlət müstəqilliyi və qazanılan tarixi nailiyyətlər // Xalq qəzeti.-2017.-18 oktyabr.-№228.-S.3.
- **Əlizadə, Əlixan.** Dövlət müstəqilliyimizin təminatçısı // Respublika.-2017.-18 oktyabr.-№227.-S.9.
- **Mirzəbəyli, İttifaq.** Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır // Xalq qəzeti.-2017.-17 oktyabr.-№227.-S.1.
- **В испанской газете «La Razon» опубликована статья, посвященная 26-летней годовщине государственной независимости Азербайджана //** Бакинский рабочий. - 2017.- 17 октября. - № 188. - С. 5.

- **Vəliyev, İsaxan.** Əbədi müstəqilliyə təminat formulu: güclü dövlət - müstəqil siyasət // Azərbaycan.-2017.-13 iyun.-№126.-S.4.
- **Махмудов, Ягуб.** Гейдар Алиев еще в советские годы подготовил Азербайджан для существования в качестве независимого государства // Бакинский рабочий.-2017.-9 февраля.-№ 24.-С. 4.
- **Чаладзе, Татьяна.** Азербайджан - свободный и независимый… // Бакинский рабочий.-2017.-31 января.-№ 17.-С. 5.
- **Аббасбейли, Агалар.** Гейдар Алиев – основатель и архитектор независимой Азербайджанской Республики // SAM. Strateji təhlil. - 2016. - № 3-4. - S. 23-38.
- **Qurbanov, Füzuli.** Müstəqillik və müasirlik: dialoq fəlsəfəsindən baxış // SAM. Strateji təhlil. - 2016. - № 3-4. - S. 221-230.
- **Hacalıyev, Elnur.** Müstəqil Azərbaycan dövlətinin qurucusu // Azərbaycan.-2016.-11 dekabr-№ 275.-S.1, 6.
- **Məmmədyarov, Elmar.** 25 illik müstəqillik dövrünə baxış və xarici siyasətimizin çağdaş prioritetləri // Xalq qəzeti.-2016.-20 oktyabr.-№231.-S.9-10.
- **Həbibbəyli, İsa.** Müstəqilliyin şərəfli yolu // Azərbaycan.-2016.-19 oktyabr.-№230.-S.6.
- **Мамедов, Новруз.** Независимый Азербайджан пользуется большим авторитетом в мире, занимает сильную международную позицию // Бакинский рабочий.-2016.-19 октября.-№ 192.-С. 3.
- **Məmmədzadə, İlham.** Müstəqil dövlətçilik fəlsəfəsi: Dövlət müstəqilliyimizin bərpası – 25 // Xalq qəzeti.-2016.-18 oktyabr.-№229.-S.4.
- **Sarıyeva, İradə.** Heydər Əliyev və Azərbaycanın müstəqillik konsepsiyası...: I yazı // Bakı xəbər.-2016.-18 oktyabr.-№186.-S.15.
- **Məmmədov, Fəxrəddin.** Müstəqilliyimizi əbədi və dönməz edən dahi // Respublika.-2016.-18 oktyabr.-№229.-S.12.
- **Байрамов, Айдын.** День независимости: 25 лет назад Азербайджан вступил на путь суверенного развития // Азербайджанские известия.-2016.-18 октября.-№ 113.-С. 1.
- **Məmmədzadə, İlham.** Müstəqil dövlətçilik fəlsəfəsi: Dövlət müstəqilliyimizin bərpası – 25 // Xalq qəzeti.-2016.-18 oktyabr.-№229.-S.4.
- **Qasımlı, Musa.** İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir // Azərbaycan.-2016.-16 oktyabr.-№228.-S.1, 4.
- **Əhmədov, Tağı.** Müstəqil dövlətimiz - tarixi əmanətimizdir // Respublika.-2016.-15 oktyabr.-№227.-S.4.
- **Azərbaycanın dövlət müstəqilliyi - 25 zirvə hadisə** // Səs.-2016.-15 oktyabr-№ 189.-S.7.

30 years of Azerbaijan's exceptional rise: An overview of startling policies

Khalid Taimur Akram,
Executive Director, Center for Global & Strategic Studies (CGSS), Islamabad

Azerbaijan has undergone significant economic transformation and development since its independence in 1991. Azerbaijan has been implementing ambitious economic reforms due to startling policies adopted by His Excellency, President Ilham Aliyev. Azerbaijan recognizes that its foreign policy objectives cannot be achieved alone. Despite possessing significant oil and gas reserves – enabling economic development, investment in infrastructure and modernization of defense capabilities, it must also seek strong alliances, build regional cooperation frameworks and promote itself around the world. Moreover, Azerbaijan's success in the second Karabakh war has changed the socio-economic and political dynamics of the South Caucasus. The world has witnessed the remarkable success in Azerbaijan as the country has emerged the most resilient nation under the dynamic leadership of His Excellency Ilham Aliyev.

On the other side, the structural reforms and open policy have paved the way for stable micro and macroeconomic conditions, drastically reducing inflation and growth resumption in Azerbaijan. Moreover, rapid progress has lately been made in developing market-based mechanisms in significant areas of the economy. Meanwhile, risks are heightened by the ongoing global competition over the hydrocarbon resources of the Caspian Sea, as well as the ambitions of regional powers to maintain influence in this strategic location. Under these conditions, Azerbaijan has developed several important foreign policy priorities to guide its integration into the global community. Thirty years of continued rise is mainly attributed due to the country's foreign policy priorities that have mainly stayed the same. That is, the restoration of territorial integrity, strengthening the country's independence, developing strong regional economic partnerships, and striving for regional stability.

Azerbaijan's global assertiveness and multilateral frameworks

Azerbaijan actively engages in existing regional cooperation frameworks while proposing the creation of new multilateral institutions, platforms and promoting intercultural dialogue. Azerbaijan treasures its religious heritage and believes ties with the Islamic world offers valuable tools and opportunities to advance its foreign policy and economic objectives. It has fostered active engagement and cooperation with the United Nations and its specialized agencies and other regional integration arrangements.Since the start of the Covid-19 Pandemic, Azerbaijan has taken robust initiatives to tackle the deadly virus. In this aspect, many campaigns have been started and more than 80% of people are vaccinated in Azerbaijan. The government has provided socio-economic stimulus packages worth $2.7 billion to support natives and businesses. Azerbaijan has provided free vaccination to more than 30 countries and playing an active role in voluntary financial contributions. These pandemic eradication efforts have been recognized and praised by the world.

Due to the visionary policies of His Excellency President Ilham Aliyev, the regional and global outreach of Azerbaijan has been enhanced manifolds. This year marks the 60th anniversary of the Non-Aligned Movement (NAM). Azerbaijan has chaired the NAM for three years and held its 18th summit in Baku in October 2019. Azerbaijan's chairmanship has extended to one more year. This shows the level of trust by all NAM member countries in Azerbaijan's proactive role. Azerbaijan actively works bilaterally with many countries to coordinate on political issues and develop economic opportunities, including trade and investment. Only 15 years ago, Azerbaijan had 25 foreign diplomatic representations, including permanent missions to international organizations. As per an estimation, this number stands closer to 85in present times. Pakistan and Turkey have been Azerbaijan's main regional ally and strategic partner since independence. Strong linguistic and cultural ties are supported by regional energy projects like oil and gas pipelines, new regional railways and connectivity projects, military and humanitarian cooperation, as well as enhanced investments. This trio has developed a strong understanding of each other's priorities and relies on regional cooperation and joint coordination around priority policy initiatives. Turkey and Pakistan have firmly supported the rightful claim of Azerbaijan during the Karabakh wars. Thereby, the mutual cooperation would create more avenues for joint ventures for collective benefits and win-win development.

Azerbaijan is determined to implement the 2030 agenda for sustainable development. The country has been actively participating in regional connectivity projects and corridors. Furthermore, Azerbaijan has been proactively playing its role to reduce CO2 emissions. The share of renewables in Azerbaijan is 17%, likely to increase in the near future. In this aspect, the prospects for clean and green energy development in the liberated territories of Azerbaijan are high. Foreign companies must enhance their investment in the liberated regions of Karabakh.

Azerbaijan towards diversified, resilient and sustainable development:

Azerbaijan's long-term objective is to ensure the economy is more diversified and advance economic development through new drivers of non-oil growth. The long-term strategy aims to increase the country's

competitiveness further. Deepening Azerbaijan's integration into the regional and global economy is among the objectives beyond 2025. For the government, the Strategic Road Maps are a way to cement a path for strong, sustained, and shock-resilient growth. The Strategic Road Maps have 11 identified sectors for economic growth along with four core targets:

- Strengthen fiscal sustainability and adopt a sustainable monetary policy
- Develop human capital
- Facilitate privatization and reforms for state-owned enterprises
- Create a conducive climate for business

The rapid economic development is mainly attributed to the exploitation of hydrocarbon resources (through production sharing agreements with foreign oil companies and foreign direct investment). In this aspect, substantial reforms intended to support a market-based economy have been instrumental in facilitating growth. Moreover, Azerbaijan has signed multilateral regional integration and socio-economic development agreements with other countries to gain broader international support vis-à-vis its diplomatic narrative. Likewise, Azerbaijan's vision 2030 and adopted strategies under its grand vision are worth praising. These major drivers would stimulate industrial innovation and give new impetus to economic growth.

Thirty years of excellent governance was possible while serving the people of Azerbaijan wholeheartedly. The leadership follows the advanced trends of social development and respects the people's role in making history. There is no doubt that '*'great countries are those that produce great people''.* In this aspect, it is fair to say that *Azerbaijan*, under the dynamic and prudent leadership of His Excellency President Ilham Aliyev, is progressing towards sustainable development and will continue to enhance its global outreach.

AZERTAC
2021, October 8

Prezident İlham Əliyev sosial-iqtisadi inkişafda varisliyi ümummilli inkişaf amilinə çevirmişdir

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyi qarşısında

Arif Şəkərəliyev,
Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri,
iqtisad elmləri doktoru, professor,
Əməkdar elm xadimi

Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisa-di potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzu-nun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ümummilli lider, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı müstəqillik qazanmış milli dövlətimizin inkişafına yeni nəfəs verdi. Demək olar ki, cəmiyyətin bütün sferalarında inqilabi dəyişikliklər baş verdi. Ölkə iqtisadiyyatı ulu öndər Heydər Əliyevin qayğısı sayəsində yaxın keçmişdə əldə etdiyi şöhrətini bərpa etdi.

1993-cü ilin yarısından baş-layaraq, aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən son-ra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafın-da mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. 1996-cı ildən əldə olunan makroiqtisadi sabit-lik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş- miqyaslı iqtisadi islahatların ilkin nəticələri apa-rılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq etdi.

1993-cü ildə Azərbaycan istehsal imkanının, demək olar ki, üçdə ikisini itirmişdi və milli gəlirin qazanılması sıfır dərəcəsində idi. Ölkə üzrə emal sahələrinin böyük bir hissəsinin sıradan çıxması, başqa sferaların isə xammal qıtlığı və satış bazarları problemi ilə üzləşməsi iqtisadiyyatı dağılma həddinə çatdırmışdı. Bu dövrdə iqtisadi nizamsızlıq sosial böhranı dərinləşdirirdi, işsizlik səviyyəsi ço-xalmışdı və ölkəni işsizlik təhlükəsi gözləyirdi. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250 faizə çatmışdı və bütün bunlar ondan xəbər verirdi ki, ölkə iqtisadiyyatı idarəedilməz duruma düşmüşdü. 1993-cü ilə kimi ölkədə sahibkarlıq sahəsi istiqamətində ciddi islahat-ların aparılmaması və sistemsiz epizodik tədbirlər bazar iqtisadiyyatının mühüm komponentlərindən sayılanı sahibkarlıq institutunun tərəqqisini ləngidirdi.

Bunlardan əlavə, bazar iqtisa-diyyatının digər mühüm sektorla-rının, misal üçün, satış mərkəzi, xidmət, nəqliyyat, vasitəçi-təchizat və bank fəaliyyətinin yaran-ması prosesi kortəbii və rəsmi xarakter daşıyırdı. Xarici ticari fəaliyyət, eyni zamanda, vacib təşkilati-hüquqi baza yaradılma-sı sahəsində təcrübəsizlik ona gətirib çıxardı ki, şirkətlər, xüsusilə yeni yaranmış bazar strukturları, bir qayda olaraq, qazanc üçün 100 milyonlarla dollarlıq neft məhsullarını, alüminiumu, pambığı və digər strateji məhsulları dünya qiymətlərindən aşağı məbləğə ixrac edirdilər.

Bunların hamısı istehsal vasitələri bazarını formalaşdı-ran mühüm faktorlardan biri kimi çıxış edən ixrac potensialından səmərəli istifadə əmsalının çox aşağı olduğunu, bir sözlə, arxa plana keçirildiyini göstərirdi. Bazar əlaqələrinin təşəkkülü və bu münasibətlərə əsaslanan istehsal mexanizmləri bazarının tərəqqisi üçün vacib sayılan ilkin şərtlərin ərsəyə gətirilməsi sahəsində ciddi problemlər özünü göstərirdi. Ötən əsrin 80-ci illərinin sonlarına yaxın keçmiş SSRİ-də gedən ictimai-siyasi proseslər Azərbaycanda da iqtisadiyyatın bütün sahələrinə, o cümlədən, neft sənayesinə də öz mənfi təsirini göstərmişdi. Neft hasilatı 1987-ci ildəki 13,8 milyon tondan 1993-cü ildə 10,3 milyon tona enmişdi.

Göründüyü kimi, milli iqtisa-diyyatın başqa sektorları kimi, neft sənayesində də tənəzzül prosesi xeyli intensivləşmiş, hasilat getdikcə aşağı düşmüş, neftçilərin sosial-iqtisadi durumu son dərəcə ağırlaşmışdı. Neft məhsulları və avadanlıqlarının emalı sahəsində böhranlı vəziyyət yaranmış, bu sahə üzrə ixtisaslaşmış zavodlar hakimiyyətdə yüksək vəzifələr tutmuş şəxslərin qiyməti milyon dollarla ölçülən korrupsiya və mənimsəmə obyektinə çevrilmişdi. Bundan başqa, maliyyə vəsaitinin məhdudluğu xarici müəssisələrin və investorların cəlb edilməsini strateji zərurətə çevirsə də, ölkəni bürümüş daxili ziddiyyətlər, öz-başınalıq Qərbin neft şirkətlərini Azərbaycandan çəkindirirdi.

Beləliklə, qeyd etmək olar ki, böyük siyasət dahisi Heydər Əliyevin sosial-iqtisadi strategiya-sının tətbiqi nəticəsində 1995-ci ildən etibarən ölkədə inkişafın yeni mərhələsi– bərpa və dina-mik tərəqqi dövrü başlanmışdır. 1995–2003-cü illərdə ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi. Nəticədə, siyasi və makroiqtisadi nöqteyi-nəzərdən dəyişməz, mütəmadi və dayanıqlı iqtisadi tərəqqiyə malik ölkə, Avro-panın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlo-bal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın indiki uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

Ulu öndərin ən sadiq davam-çısı Prezident İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi poten-sialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artma-sında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır".

Təsadüfi deyil ki, ümummilli liderin əməlləri və ideyaları ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır və qalib gəlir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi in-kişaf strategiyası nəticəsində əldə olunan nailiyyətlər Azərbaycanın bu sahədə gələcəkdə də daha bö-yük uğurlar qazanacağına zəmin yaradır.

Azərbaycanda 1993-cü ildən başlayaraq əsası Heydər Əliyev tərəfindən qoyulan və həyata keçirilən enerji siyasəti çox maraqlı mərhələləri keçib. 2018-ci ilin may ayının 29-da Səngəçal terminalın-da "Cənub Qaz Dəhlizi" layihəsinin açılış mərasiminə Prezident İlham Əliyev vurğulayıb: "TANAP layihəsi "Cənub Qaz Dəhlizi"nin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, o da çox rəmzi məna daşıyır, çünki "Əsrin kontraktı" 1994-cü il sent-yabrın 20-də imzalanmışdır, 20 ildən sonra "Cənub Qaz Dəhlizi"nin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da, böyük və tarixi hadisədir".

Qeyd etmək lazımdır ki, "Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Onun icrasına 45 milyard dollardan çox sərmayə qoyulub. İndiki maliyyə böhranı şəraitində bir layihəyə bu dərəcədə kapital qoyulması onun iqtisadi, siyasi və geosiyasi əhəmiyyətini də göz önünə çəkir. Burada, şübhəsiz ki, Azərbaycanın kifayət qədər qaz ehtiyatına malik olmasına olan inam da mühüm rol oynayıb. Belə ki, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir.

TANAP layihəsi Xəzər Dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzər Dənizinin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və öz növbəsində bu ölkədən Avropa-ya nəqlini nəzərdə tutur. TANAP Cənubi Qafqaz Boru kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan beynəlxalq bir layihədir.

TANAP layihəsinin Gürcüstan–Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə birləşməsi, Türkiyə ərazisindən keçərək Türkiyə –Yunanıstan sərhədində başa çatması və sonra təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşməsi plan-laşdırılır. Eyni zamanda, bir neçə xarici dövlətin bu layihəyə qoşul-ması üçün münbit şərait yaratdı. İndi Azərbaycan və Türkiyə ilə yanaşı, Gürcüstan, İtaliya, Yuna-nıstan, Bolqarıstan və Albaniya layihənin iştirakçılarıdırlar. Hazırda bu tərkibin genişlənəcəyi gözlənilir.

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çev-rilib. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşan "Bakı–Tbilisi–Ceyhan" Əsas İxrac Boru Kəməri artıq neftimizi dünya bazarına çıxarır. Bu kəmər həm Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında, həm də xalqımızın daha firavan yaşamasında mühüm rol oyna-yır. Azərbaycan və Türkiyənin mühüm birgə meqalayihələri sırasına regionun təhlükəsizliyinin təminatında ciddi əhəmiyyəti olan Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) kəmərləri daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində çıxışı zamanı deyib: "Türkiyənin gücü bizim gücümüz-dür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir". "STAR"-ın təməli 2011-ci il oktyab-rın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulub. Zavodu "Técnicas Reuni-das" (İspaniya), "Saipem" (İtaliya), "GS Engineering & Construction Corp" (Cənubi Koreya) və "Itochu" (Yaponiya) şirkətlərindən ibarət konsorsium inşa edib. Layihənin ümumi investisiya dəyəri 6,3 mlrd. ABŞ dolları təşkil edir. STAR Türkiyənin ilk Strateji Sərmayə Təşviq Sənədinə sahibdir.

Zavodda 1100 nəfər daimi işlə təmin olunacaq. Belə ki, 5 il ərzində Azərbaycan iqtisadiyya-tına hər il 850 milyon dollardan çox gəlir gətirəcək. Prezident İlham Əliyevin dediyi kimi, növbəti 10 il ərzində isə müəssisə hər il 600 milyon dollardan çox gəlir gətirəcək. Hesablamalara görə, "Star"a qoyulan vəsaiti SOCAR uzağı 10 ilə geri qaytara biləcək: "Düzdür, burada qiymətlərin müəyyən təsiri olacaq. Amm ən aşağı hesablamalarla bu

zavod-dan ildə 500 milyon dollar mənfəət götürmək mümkün olacaq – kredit resurslarını da qaytarmaq şərtilə. Bu baxımdan, zavoda investisiya kifayət qədər uğurlu sərmayədir".

Qeyd etmək lazımdır ki, Azərbaycan hazırda nəinki özünün, eləcə də, dünyanın enerji təhlükəsizliyi məsələlərinə öz layiqli töhfəsini verir. Dünya ölkələri, xüsusən də Qərb enerji təhlükəsizliyi kimi ciddi problemin həllində Azərbaycanla daha sıx əməkdaşlıq qurmaqda marağını açıq şəkildə ortaya qoyub. İndi söhbət məhz Azərbaycanın fəal iş-tirakı ilə Xəzər–Qara dəniz–Aralıq–Baltik dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatı haqqında gedir. Təbii ki, neft amilinin ölkəmizin iqtisadi və siyasi həyatında strateji əhəmiyyəti və xüsusi yeri vardır. Lakin Azərbaycan rəhbərliyi çalışır ki, ölkə neft amilindən asılı olma-sın. Buna görə də qeyri-neft sekto-runa aid layihələrin reallaşmasının sayı da durmadan artmaqdadır.

Texnoloji proseslərin, inno-vasiyaların insanlara xidmət, korrupsiyaya qarşı mübarizə, şəffaflıq, yenilik baxımından müasir dünyamızın əsas tələbinə çevrildiyi belə bir mühitdə ölkəmiz də qlobal çağırışlardan kənarda qalmayıb. Bu reallıqları əsas tutaraq ölkə Prezidenti İlham Əliyev 2013-cü ili Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edib. Bu gün Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir və son 5-7 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

Prezident İlham Əliyev "Azərbaycanda heç kim yoxsulluq şəraitində yaşamamalıdır. Yoxsul insan olmamalıdır", – deyə bəyan edərək, bunu dövlətin qarşısında strateji məqsəd kimi müəyyən edib. "2003-2005-ci illər üçün Azərbaycan respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın başa çatması ilə əlaqədar olaraq 15 sentyabr 2008-ci il tarixdə Prezident cənab İlham Əliyev tərəfindən "2008-2015-ci illərdə Azərbaycan respublikasında yox-sulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq edilib.

Milli iqtisadiyyatın son 18 il ərzində 3,2 dəfə, o cümlədən, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb. Bundan başqa, qeyri-neft ixracı 4,7 dəfə artıb. Əməkhaqlarının, təxminən, 7 dəfə, minimum əməkhaqqının 23 dəfə, pensiyaların 9 dəfə artdı-ğı, 3,1min məktəbin, 640-dan şox xəstəxananın, eyni zaman-da çoxsaylı sosial obyektlərin tikilərək istifadəyə verildiyi , 92 müasir qəsəbə və yaşayış komp-leksi salınmaqla, 270 minədək məcburi köçkünün müasir şəraitli mənzillərlə təmin olunduğu son 18 ildə ölkəmizdə yoxsulluğun da kəskin şəkildə azalmasına nail olu-nub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi "yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb.

Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq, təxminən, 50 faizdən 5,1 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görü-lüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Yoxsulluğun azalmasında əhalinin məşğulluq imkanlarının artırılması da mü-hüm rola malikdir. 2003-2018-ci illərdə Azərbaycanda 1,5 milyonu daimi olmaqla, 2 milyon yeni iş yeri yaradılıb, məşğulluq imkan-ları əhəmiyyətli şəkildə artmaqla, əmək bazarında sabitlik, işsizliyin 5 faizə enməsi təmin olunub.

Ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi prosesləri, sosial firavanlığın təminatı istiqamətində atılan mühüm addımlar yoxsul-luğa qarşı mübarizə sahəsində qarşıdakı dövrdə də mühüm uğurların qazanılmasına imkan verəcəkdir. Dünyanın aparıcı kredit reytinq agentlikləri Azərbaycanın suveren reytinqlərini artırmış-lar. Davos Dünya İqtisadi Fo-rumu ölkəmizi iqtisadi sahədə rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görmüşdür.

Son illər ölkə iqtisadiyyatında müşahidə olunan dinamik inki-şaf, heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan tədbirlərin məntiqi nəticəsidir. Dövlətimizin başçısı tərəfindən "Sənaye ili" elan olunmuş 2014-cü ildə Azərbaycanda reallaşdı-rılan məqsədyönlü tədbirlər, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən işlər qeyri-neft sektorunda, xüsusən də, sənayenin qeyri-neft sahələrində böyük bir canlanma-ya səbəb olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 2 ildə ölkədə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan qeyri-neft sənayesində müasir müəssisələrin yaradılmasının dəstəklənməsi, sənaye park-larının və məhəllələrinin təşkili istiqamətində mühüm işlər görül-müş, 270-dək sənaye müəssisəsi, o cümlədən texniki avadanlıqlar, iri qabaritli transformatorlar, metal konstruksiyalar, beton məmulatları zavodları, tekstil fabriki və digər müəssisələr açılmış, bir sıra digər mühüm sənaye obyektlərinin tikintisinə başlanılmışdır.

Azərbaycanda sosial məsələyə mühüm önəm verilir. Prezident İlham Əliyev iclasda bunun-la bağlı deyib: "Sosial siyasət həmişə prioritet olub və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar".

Azərbaycan iqtisadi və maliyyə böhranından ən az itkilərlə çıxan ölkələrdən biridir. Belə ki, neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, 2018-ci ildə res-publikamızda maaşlar və pensi-yalar 10 faiz artırılıb. Bu da nadir hadisələrdən biridir. Adətən, hətta neft və qazla zəngin olmayan ölkələr ya maaşları dondururlar, ya kəsirlər, ya maaşların verilməsində problemlər yaşanır.

Bunun nəticəsidir ki, Azərbaycan hazırda inkişaf etmiş ölkələr səviyyəsində mükəmməl infrastruktura malikdir. Buna pa-ralel olaraq qeyri-neft sektorunun sənaye, kənd təsərrüfatı, turizm, ti-kinti, nəqliyyat və digər sahələrinin inkişafı istiqamətində də böyük işlər görülür. Bunun üçün dövlət hər il təkcə sahibkarlara milyonlar-la manat güzəştli kreditlər verir. Elə neftin qiymətinin bir il ərzində dörd dəfə ucuzlaşmasına baxmayaraq, ölkədə iqtisadi inkişafın davam etməsi bunun göstəricisidir. Bu gün respublikamızın valyuta ehtiyatları 46 milyard dollardır.

Belə ki, bütün bunlar qeyri-neft ixracının göstəricilərində də əksini tapır. Belə ki, son 3 il ərzindən qeyri-neft ixracı, ümumilikdə, 38,5 faiz artaraq 1,7 milyard ABŞ dolları təşkil edib. 167 yeni növ məhsulun ixracına başlanıb, ixrac olunan qeyri-neft məhsullarının çeşidi 3 mini ötüb. Qeyri-neft ixracında 452 milyon dollarlıq artımın 60 milyon dollarlıq hissəsi yeni məhsulların ixracı hesabına formalaşıb. Bundan sonra bizim qarşımızda duran əsas məsələ qeyri-neft sektorunun inkişafı və iq-tisadiyyatının səmərəliliyinin təmin edilməsidir– fikrini Prezident İlham Əliyev heç də təsadüfən qeyd etməmişdir. Bu baxımdan, çox illərdə həyata keçirilən liberallaşma tədbirləri, xüsusilə də institisional islahatlar ölkə iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri kimi qiymətləndirilmişdir.

Respublikamızın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğur-ların davamlılığını təmin etmək məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsi-yası qəbul edilmişdir. Konsepsiya-da qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və loqistika inf-rastrukturunun təkmilləşdirilməsi, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli social müdafiə sisteminin qurulması, ətraf mühü-tün mühafizəsi və s. məsələləri əhatə edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2019-cu ildə ölkəmizdə sosial-iiqtisadi islahatların yeni mərhələsinə başlanılıb. Bu məqsədlə "2019-2023-cü illərdə sosial-iqtisadi inkişafın Dövlət Proq-ramı" qəbul edilib. Dövlət Proqra-mında dayanıqlı iqtisadi artımını təmin edilməsi, iqtisadiyyatın daha da şaxələndirilməsi, investisiyaların cəlbi, ölkə əhalisinin maddi rifahının yaxşılaşdırılması və s. məsələlər öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, aparı-lan beynəlxalq təşkilatlar, nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi islahatla-rı yüksək qiymətləndirirlər. Görülən tədbirlərin nəticəsidir ki, Dünya Bankının "DOİNG BUSİNESS" hesabatında ölkəmizin reytinqi daim yüksəlir. Artıq Azərbaycan bu reytinqdə 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Eyni zamanda ölkəmiz dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilib.

Prezident İlham Əliyevin rəbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial şanlı ordumuzun düşmən üzərində par-laq və qəti qələbəsini şərtləndirdi.Ölkəmiz özünün uzunmüddətli inki-şaf istiqamətlərini müəyyən edib. Belə ki, Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan 2030:sosial-iqtisadiinkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Növbəti onillikdə dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat, dinamik, inkluziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innova-siyalar məkanı, işğaldan azad olunmuş ərazilərdə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi milli prioritetlərin həyata keçrilməsi nəzərdə tutulmuşdur.

2020-ci il ölkəmizin dövlətçilik və müstəqillik tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir. Belə ki, ölkə ərazisinin 20 faizinin uzun illər işğal altında qalmasına son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın apardığı 44 günlük Vətən müharibəsi zəfərlə başa çatıb, ölkəmizin ərazi bütöv-lüyü təmin edilib. Azərbaycanın tarixi torpaqlara olan Qarabağın işğalından azad edilməsi respub-likamızın qarşısında tamamilə yeni persepktivlər açıb. 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev deyib: "Şanlı qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayişi etdirdi. Azərbaycan dövlətinin gü-cünü nümayiş etdirdi, göstərdi ki, sözumuzlə əməlimiz arasında heç bir fərq yoxdur... bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünkü Azərbaycan tarixində heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtisadi birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur".

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, aparılan islahatlar və əldə olunan iqtisadi artım, ilk növbədə, Azərbaycan vətəndaşlarının maddi rifah halının yüksəldilməsinə yönəldilmişdir. Ölkəmizdə işsizlik probleminin həlli istiqamətində qazanılmış nailiyyətlərin miqyası son illərdə nəzərə çarpacaq dərəcədə genişlənmiş, ümumi iqtisadi inkişaf bu məsələnin çözümünə böyük töhfələr vermişdir. Bu davamlı, yüksək sürətli inkişafın əsas sirri siyasət, iqtisadiyyat və sosi-al sahələrdə islahatların paralel və əlaqəli aparılması, müasir layihələrin icrası və ən mühümü isə insan amilinin həmişə diqqət mərkəzində saxlanılmasıdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyu-lan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcəkdir. Bütün bun-lar isə bizə onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən qüdrətli və sürətlə inkişaf edən dövlətlərindən birinə çevriləcəkdir.

Xalq qəzeti. - 2021.- 7 oktyabr. - № 215. - S. 5.

Müstəqillik dövründə Azərbaycanda iqtisadi və sosial inkişafın anatomiyası

Əli Əlirzayev,
Professor, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Emin Əlirzayev

Azərbaycan iqtisadiyyatının planlı təsərrüfat sistemli dinamikası və struktur dəyişmələri, tam yeni şəraitdə bazar münasibətlərinə adaptasiya və transformasiya qanunauyğunluqlarının keyfiyyət və kəmiyyət dəyişmələrinə məruz qalmışdı. Xarici çağırışlar, daxili dəyişmələr və uyğun problemlər, iqtisadi sosial inkişafın, tam yeni xüsusiyyətlərini və təsir mexanizmlərini yaratdı. Bütün bu meyllər və struktur dəyişmələr, köklü islahatlar və uyğun şəraitlərin yaradılması üçün fəal iqtisadi siyasət və sosial müdaxilələr sistemi yaratmağa sövq edildi. Məhz bu tələblər baxımından sosial dövlət sistemi və uyğun daxili struktur elementlər, davranış modelini formalaşdırdı. Azərbaycanın inkişaf strategiyası, formalaşmış iqtisadi vərdişlər və dünyəvi dəyərlərin tətbiqi inkişaf istiqamətlərinə yönəldi. İlkin növbədə formalaşmış iqtisadi-sosial potensial, əmək və resurs təminatı, mütərəqqi hədəflərə yönəldilən siyasi sistem yaradıldı. Planlı təsərrüfat sistemi mərkəzləşdirilmiş inkişaf göstəriciləri ilə əlaqələr sisteminin qurulmasına əsaslandırılırdısa, bazar tipli inkişaf, təşəbbüskarlıq, resursla istinad və dünyəvi dəyərlərə uyğun idarəetmə mexanizmlərinin real iqtisadiyyata tətbiqi ilə mümkün olur.

Müstəqillik dövründə iqtisadi inkişaf, sosial müdafiə və təhlükəsizlik sahəsində köklü islahatlar, hədəflər və nəticələr əldə edildi. Azərbaycanda müstəqillik ağır itkilər, torpaqların 20 faizinin itirilməsi, 1 milyon köçkünün olması və xarici təsirlər baş vermişdi.

Azərbaycan Respublikasının 1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin praqmatik təfəkkürü və idarəetmə təcrübəsinə uyğun strateji inkişaf istiqamətləri formalaşdırıldı. Planlı təsərrüfat dövründə yaradılmış iqtisadi potensialın müstəqillik dövründə bazar tipli inkişaf metodologiyası Heydər Əliyev tərəfindən hazırlandı.

Müasir şəraitdə respublikada makro-iqtisadi artım tempi, əhalinin rifahı sferasında inkişaf dünya tələblərinə və respublika reallığına uyğun inkişaf etdirilir. 1996-cı illərlə müqayisədə respublikanın ərazisinin itirilməsi, qaçqın və köçkün yükünün daşınması, müharibə şəraiti Azərbaycanın inkişafına öz təsirini göstərib. Hər bir itirilmiş ərazi və insan, iqtisadi artımın indiki səviyyəsinin azalmasına, iqtisadi və mənəvi sarsıntılara səbəb olub. Müstəqillik dövrü ərazidə Azərbaycanın inkişafının bazar iqtisadiyyatı yolu ilə transformasiyası islahatlar həyata keçirməklə konseptual inkişaf strategiyası və əsas istiqamətləri formalaşdı. Azərbaycanda daxili resurslardan istifadə etməklə yeni texnologiyalar tətbiqi və dünyəvi standartlara uyğun məhsul istehsalı, ixracatyönümlü struktur siyasət və sosialyönümlü iqtisadiyyat qurulması prioritetləri hədəflər kimi qəbul edildi.

Ölkədə tarazlaşdırılmış iqtisadi siyasət çoxşaxəli və müxtəlif aspektdən yanaşma ilə həll olunur. Təbii ki, hər bir ölkədə milli maraqlar, iqtisadi artım və sosial təminat sistemi tarazlı və balanslı siyasətin hədəflərini və onun həlli yollarını müəyyənləşdirir. Keçən 30 il dövründə tarazlı siyasətin nəticələri xarici və beynəlxalq reytinq şkalalarında daima inkişafla qeydə alınıb. Bir sıra göstəricilərə görə Azərbaycan dünya ölkələri sırasında önəmli pillədə yer tutub. İnkişaf meyllərini təhlil edərək, aşağıdakı qanunauyğunluqları aşkar edə bilirik:

- respublikada iqtisadi artıma və onun əsas mənbələrində daxili imkanlar hesabına yüksəliş tempi üstünlük təşkil edir;
- iqtisadi artımın keyfiyyət göstəricisi kimi rifah, yoxsulluğun azaldılması və sosial müdafiə məsələləri prioritet İstiqamətlərdir;
- ölkədə azad rəqabət, sahibkarlıq və təşəbbüskarlıq üçün iqtisadi qanunlar sistemi, təşkilatı idarəetmə strukturu, istehsal və sosial səmərə baxımından daima təkmilləşir;
- sahibkarlığa dəstək proqramları, dövlət və özəl resursların qarşılıqlı əlaqəsi və səmərəli istifadəsi yolu ilə hədəf və məqsədlər üçün maraqlar sisteminin təşkili və reallaşması mexanizmləri tətbiq olunur;
- ölkədə maliyyə şəffaflığı və korrupsiyaya qarşı mübarizə tədbirləri, təsərrüfatda fəallığı və antiinhisar tədbirlərinin reallaşması üçün şərait yaradır.

Sosialyönümlü siyasət Azərbaycan Respublikasının büdcə-maliyyə, sosial müdafiə sistemində və mexanizmlərində əsas təməl olaraq qanunlarla və fərmanlarla təmin olunur. Azərbaycanda təhlükəsizlik haqqında qanun, sosial islahatlar proqramı, yoxsulluğun azaldılması və iqtisadi inkişafın proqramları, pensiya təminatı haqqında qanun və ona hər il büdcə tərtibatında düzəlişlər, yaşayış minimumu və istehlak səbəti haqqında qanunlar və normativ-hüquqi aktlar müasir şəraitdə sosial dövlətin reallaşması istiqamətləridir. Respublikada daimi maliyyə resursları üzərində nəzarəti və səmərəli xərc strukturunu təmin edən mexanizmlər üzrə öz səmərəsini verir. Müasir şəraitdə yeni sistemlər innovasiya və hədəflərə yönəlmiş aspektlərdən təkmilləşir.

Əsası Heydər Əliyev tərəfindən, bazar tipli iqtisadiyyata yanaşma, onun planlı təsərrüfat baxışları ilə transformasiya olmaqla İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələ təşkil edir. Bu baxımdan müstəqillik şəraiti daha dayanıqlı, riskli, çoxşaxəli və çoxmənalı iqtisadi-sosial inkişaf üçün daha geniş idarəetmə spektrinə çevrilir.

Müasir dövrdə respublikanın iqtisadi və sosial inkişaf meylləri keyfiyyətcə yeni və dünyəvi dəyərlərlə yanaşı, çağırışlar, məhdudiyyətlər çərçivəsində həll olunur. İki ildir ki, pandemiya şəraitində 30 illik işğal olmuş torpaqların, əhalinin dirçəlişi şəraiti yeni tələblər postmüharibə şəraiti tələb edir.

525-ci qəzet. - 2021. - 23 sentyabr. - № 172. - S. 8.

Müstəqillik illərində Azərbaycanda sənaye inkişafı: yerli üstünlüklərdən klasterləşməyə

Müşfiq Quliyev,
Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) müəllimi,
iqtisad elmləri doktoru

18 oktyabrda Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 30 yaşı tamam olur. 1991-ci il 18 oktyabr Müstəqillik Aktı Azərbaycanın bütün dünyada tanınmasında həlledici rol oynadı. Müstəqillik illəri Azərbaycan üçün çətin, lakin davamlı bir inkişaf dövrü olmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən ölkəmizin milli dövlət strategiyasının təməlinin yaradılması sayəsində Azərbaycan dünyanın nəhəng dövlətlərilə ikitərəfli, bərabər hüquqlu və diplomatik münasibətlər yaratmağa nail oldu.

Azərbaycanın dünyada sürətlə inkişaf etməkdə olan gənc müstəqil dövlət kimi nüfuz qazanması Prezident İlham Əliyevin bütün sahələrdə uğurla davam etdirdiyi iqtisadi və siyasi islahatların nəticəsidir. 30 illik inkişaf yolunun ən böyük nailiyyətləri Azərbaycan dövlətinin iqtisadi gücünun artırılması və siyasi müstəqilliyin daha da möhkəmləndirilməsi, işğal altında olan bütün ərazilərin azad edilməsidir. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi, təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, sənaye sahəsində dünyanın qabaqcıl transmilli şirkətləri ilə əlaqələrin genişlənməsi ölkəmizi regionun aparıcı dövlətlərindən birinə çevirib.

Azərbaycanda innovativ inkişafın yeni reallıqları və klaster lahiyələri dünyanın müasir sənaye ölkələrindən birinə çevrilməsində mühüm perspektivlər açır.

Azərbaycan zəngin iqtisadi resurslara və sənaye potensialına malikdir. Bu zənginliklər hələ müstəqilliyə qədərki dövrdə ölkəni iqtisadi cəhətdən daha az asılı inkişafını və özünütəminatının yüksək səviyyəsini təmin edə bilib.

Müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin sənaye müəssisələri vahid bazarın dağılmasının, regionda baş verən mürəkkəb geosiyasi proseslərin destruktiv təsirlərinə məruz qalıb. Vahid məkanının dağılması ilk növbədə sənaye inkişafına daha cox təsir göstərib. Müstəqilliyin ilk illərində ölkədə baş vermiş böhran, siyasi sistemin tənəzzülü, kooperasiya əlaqələrinin dağılması, eləcə də Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı iqtisadiyyatın bütün sahələrində və sənaye istehsalında böyük tənəzzülə səbəb oldu. Müəssisələrin fəaliyyəti dayandı, sənaye istehsalının həcmi və bütün mal nomenklaturası göstəriciləri azaldı.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə ərazisində hərbi əməliyyatların dayandırılması üzrə ciddi proseslər başladıldı, milli dövlətçiliyin dağılmasının qarşısı alındı, siyasi sabitlik təmin olundu və islahatlara başlanılması ilə yeni bir mərhələyə keçid mümkün olub. Sənayenin canlanması xüsusilə, bu tarixi mərhələdə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra imzalanan "Əsrin müqaviləsi" ilə bağlı olub. Ölkədə həyata keçirilən ilk islahatlar, antiböhran tədbirləri qısa müddət ərzində ölkədə siyasi sabitliyin bərqərar olmasına imkan verdi. Postsovet ərazisində ilk dəfə aqrar islahatlar aparan ölkə Azərbaycan olub. Bu kimi mühüm addımların nəticəsində 1997-ci ildən başlayaraq sənaye istehsalının artması müşahidə olundu. Demək olar ki, sənaye inkişafının mühüm təməlləri formalaşdırılmağa başladı, sənaye mülkiyyətinin özəlləşdirilməsinə, Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığın başladılmasına nail olundu. Bu tədbirlər Azərbaycanın müstəqil dövlət kimi bazar iqtisadiyyatı statusunun və onun institutlarının yaradılmasını təmin etdi. Bu addımlarla beynəlxalq əhəmiyyətli Əsrin müqaviləsi, Şahdəniz, Bakı-Tbilisi-Ceyhan, TRASECA layihələrin icrasının təməli qoyuldu.

Yeni müstəqil ölkə kimi Azərbaycanda mühüm və strateji əhəmiyyətli transformasiya prosesləri baş verib. Belə ki, müstəqillik mərhələsinin ən mühüm sənaye hadisələrindən biri kimi Azərbaycanın enerji asılılığından çıxmasını, regional və beynəlxalq səviyyəli enerji lahiyələrinin reallaşdırılmasına nail olunmasını qeyd etmək olar.

Bir faktın əhəmiyyəti də nəzərə alınmalıdır ki, Azərbaycanda 1990-cı illərdən bəri enerji, infrastruktur və təhsil sahələrində irəliləyişlər əldə edilmişdir. Bu gün ölkədə sənayenin şaxələndirilməsi, elmi tədqiqatların dəstəklənməsi və yeni nəsil mütəxəssislər formalaşdıran təhsil sistemi inkişaf etdirilir.

Kiçik və orta müəssisələrin inkişafı və qlobal dəyər zəncirlərinə inteqrasiyası birbaşa xarici investisiyaların artırılmasını və Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini zəruri edir. Sənayenin qlobal və regional istehsal şəbəkələri ilə əlaqələndirilməsinə və inteqrasiyasına imkan yaradan texnoloji parkların formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu, istehsal fəaliyyətlərinə və istehsalla bağlı xidmətlərə xarici investisiyaların cəlb edilməsi deməkdir .

Azad iqtisadi zonaların yaradılması göstərilən istiqamətlərin inkişafında strateji əhəmiyyətə malikdir. Qeyd edək ki, Prezident İlham Əliyev Ələt azad iqtisadi zonasının yaradılması və təşkili haqqında sərəncamı 2020-ci ilin mayında imzalayıb. Ələt sərbəst iqtisadi zonasının Bakının "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"nın yaxınlığında yerləşməsi regional iqtisadi əlaqələrə və sənaye biznesinin inkişafına böyük töhfə verə

bilər. Ələt azad iqtisadi zonası qabaqcıl beynəlxalq təcrübəyə əsaslanır, bu lahiyə Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) sərbəst iqtisadi zonaların təcrübəsinə nəzər salınaraq yaradılıb.

Azərbaycan hazırda yeni sənaye dövrünə qədəm qoyur. Ölkədə sənaye sektoru innovasiya, yeni iş yerləri yaratma və artım mənbəyi kimi qəbul edilir. Azərbaycan kimi orta gəlirli ölkələr üçün rəqabət qabiliyyətini artırmaq, yeni bazarlara çıxmaq və orta gəlir səviyyəsindən daha da yüksəlmək üçün insan qabiliyyətlərinə, yeni innovativ sənaye sahələrinə və texnologiyalara investisiya qoyuluşu prioritet istiqamətləri təşkil edib.

Müasir iqtisadiyyatın yüksək rəqabət qabiliyyəti tələbi müəssisələri rəqabət üstünlüyü mənbələri axtarışına və innovasiya fəaliyyətlərinə sövq edir. İnnovasiyalar bildiyimiz kimi, yeni dəyər yaratmaq üçün yeni imkanlar yaradır. Iqtisad elmində və praktikada ənənəvi olaraq müxtəlif innovasiya fəaliyyəti proseslərinə və texnoloji yeniliyə daha çox diqqət yetirilməkdədir. Çünki texnoloji yeniliklər elmi nailiyyətləri texniki cəhətdən mümkün edir və texnologiyalar öz növbəsində onları iqtisadi cəhətdən səmərəli edir.

Hazırda Azərbaycan iqtisadiyyatının qarşısında duran vacib vəzifə sənayenin innovativ inkişafının təmin edilməsi, modernləşdirilməsi, səmərəlilik səviyyəsinin artırılması və istehsal keyfiyyətini inkişaf etmiş ölkələr səviyyəsinə qaldırılmasıdır. Bu məqsədlə bəzi emal sənayesi sahələrinin klasterləşməsi üçün texnoloji və məhsul innovasiyalarının işlənilməsi zəruridir. 1990-cı illərin əvvəllərində müstəqillik əldə edilərkən Azərbaycan sənayesi malik olduğu məhsul çeşidi və keyfiyyəti baxımından inkişaf etmiş ölkələrin sənayesindən xeyli geridə qalırdı. Lakin bu gün bir qrup yüksək keyfiyyətli sənaye avadanlığı, texnologiya, yeni növ materiallar və qida məhsulları ilə ölkə sənayesi regional bazarlarda mövqeyini genişləndirməkdədir. Uğurlu iqtisadi şaxələndirmə sənaye nomenklaturasını dəyişdirmiş və sənaye texnologiyalarının keyfiyyətini yaxşılaşdırmaqla ölkənin müasir brend məhsullarının dünya bazarlarında rəqabət qabiliyyətini artırmağa imkan verib.

Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, təkcə iqtisadi islahatlardan və sənaye sektordakı tərəqqidən, hökumət tərəfindən investisiya və innovasiya siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən asılı deyildir. Eyni zamanda, Azərbaycan manatının möhkəmliyindən və xam neftin qeyri-sabit qiymətlərindən asılıdır.

Qlobal iqtisadi konyunktur proseslərinin neqativ təsirlərinin qarşısını almaq üçün Azərbaycan hökuməti müvafiq tədbirlər planı hazırlanıb.

Prezidentin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilib. Təsadüfi deyildir ki, Beynəlxalq reytinq agentlikləri mütəmadi olaraq Azərbaycanın kredit reytinqini müsbət qiymətləndirirlər. “Fitch və S&P” Azərbaycanın reytinqini "BB+" olaraq qiymətləndirib. Azərbaycan sənayesinin gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, tənzimləmə və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi tədbirlərin səmərəliliyindən asılıdır. Bu baxımdan ölkənin elmi tədqiqat müəssisələrinin iştirakı ilə klasterləşmə istiqamətlərinin sistemli işlənilməsi, tədqiqi və sənaye biznesinin davamlılığını təmin etmək üçün kompleks tədbirlər planı işlənib hazırlanmalıdır.

Ölkənin sənaye siyasətində "Sənaye 4.0" strategiyasının həyata keçirilməsinin əsas hədəflərdən biri kimi qeyd olunmasını da nəzərə alaraq, Azərbaycanda "yaşıl" istehsalın mühüm bir innovasiya komponenti olaraq inkişaf etdirilməsi, texnoparkların fəaliyyətində "yaşıl" iqtisadiyyata keçid strategiyası və "yaşıl" sənaye klasterlərinin formalaşdırılması xüsusilə aktuallaşır.

Azərbaycanın neft sənayesi ilə yanaşı, qeyri-neft sektorunda inkişaf, regionların canlanması, qlobal iqtisadi inkişafa inteqrasiya və iqtisadiyyatın rəqabətədavamlılığının yüksəlməsi qaçılmaz xarakter alıb. Hazırda Azərbaycan davamlı inkişafın bir komponenti olaraq yaşıl iqtisadiyyatın qurulması istiqamətində uğurlu siyasət yürüdür.

Azərbaycanda yaşıl klasterlərin formalaşdırılması istiqamətində böyük əhəmiyyətli potensial imkanlar mövcuddur. Qarabağ regionunda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən, nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl məkan" konsepsiyasının hazırlanmasına başlanılıb.

Klasterləşmə məqsədləri baxımından digər mühüm məsələ istehsal fəaliyyətində yerli və beynəlxalq əməkdaşlığa və inteqrasiyaya da geniş yer ayrılmasıdır. Texnologiyalar Parkı yalnız Azərbaycanda deyil, həm də ölkənin hüdudlarından kənarda fəaliyyət göstərən firmalar və tədqiqat müəssisələri ilə əməkdaşlığı genişləndirməlidir. Müasir beynəlxalq elmi-texniki münasibətlər kifayət qədər geniş sfera olmaqla yanaşı, genişlənən maraq dairəsidir. Təcrübə göstərdi ki, Covid-19 pandemiyasının milli iqtisadi sistemlərə mümkün təsirlərinin qarşının alınması, ilk növbədə sənayedə texnoloji təminatın mükəmməlliyini tələb edir. Azərbaycanda yüksək texnologiyalar sahəsində texnoparkların inkişafı, Parkın peşəkar mütəxəssislər korpusunun yaradılması və eləcə də buraya səriştəli rezidentlərin cəlb edilməsi klaster fəaliyyətinin formalaşdırılmasının əsas tələbidir. Eyni zamanda, yüksək rəqabət qabiliyyətli və ixrac potensiallı məhsullarla Azərbaycan sənayesinin regional bazarlarda mövqeyinin gücləndirilməsi üçün strateji vəzifədir.

525-ci qəzet. - 2021. - 18 sentyabr. - № 169. - S. 10.

Dövlətçilik tariximizin yeni mərhələsi

Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haq-qında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Qırx dörd günlük İkinci Qarabağ müharibəsində dövlətçilik ta-riximizin ən parlaq səhifələri yazıldı, düşmən üzərində möhtəşəm qələbə qazanıldı. Bununla da uzun dövr ərzində aparılan danışıqlar prosesində düşmən dövlətin reallaşdırmaq istədiyi niyyət həyata keçmədi, "Dağlıq Qarabağ"ın statusunun müəyyənləşdirilməsi gerçəkləşmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planı isə tamamilə alt-üst oldu.

Vətən müharibəsində məğlubiyyətə uğrayan Ermənistan üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi, şərtlərə uyğun ola-raq, əvvəlcə Ağdam şəhərini və rayonun işğal altında qalan kəndlərini qeyd-şərtsiz azad etdi. Növbəti mərhələdə isə ölkəmizin əzəli və əbədi torpaqları olan Kəlbəcər və Laçın rayonları rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Vətən müharibəsi getdiyi günlərdə Azərbaycana güclü təhdidlər, təzyiqlər oldu. Ancaq bunlar ölkəmizi haqq-ədalət yolundan döndərə bilmədi. Çünki dövlət başçımızın qeyd etdiyi kimi, Azərbaycan haqq savaşı aparırdı, ədalət uğrunda, ərazimizin bütövlüyü uğrunda döyüşürdü. Döyüş meydanında, diplomatiya sahəsində qazanılan qələbə isə Azərbaycanın gücünü və xalqımızın nəyə qadir olduğunu bir daha təsdiqlədi.

Müharibədən sonra üç ölkə – Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanan üçtərəfli bəyanatın müvafiq bəndinə uyğun olaraq, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi vurğulanır. Başqa sözlə desək, Naxçıvan Muxtar Res-publikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiya-larının inşasının reallaşdırılması nəzərdə tutulur. Bu il fevralın 14-də Prezident İlham Əliyevin Horadiz–Ağbənd dəmiryolu xəttinin təməlini qoyması da sözügedən bəyanatın 9-cu maddəsinin icrasına başlanılmasının bariz ifadəsidir.

Əməkdaşlıq və nəqliyyat baxımın-dan Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan sənədlər arasında ən mühüm məsələlərdən biri sayılır və bu, Ermənistan da daxil olmaqla, bütün region ölkələrinin maraqlarına xidmət edir. Azərbaycan bölgədə davamlı sül-hün bərqərar olması üçün əsas vasitəni əməkdaşlıqda görür və buna görə də Zəngəzur dəhlizinin yaradılmasını, nəqliyyat əlaqələrinin bərpasını qətiyyətlə dəstəkləyir.

Bu dəhlizin əhəmiyyəti barədə Prezident İlham Əliyev deyib: "Vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyası-nın coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dün-yası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyası-nın birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunika-siya, infrastruktur layihələri bütün türk dün-yasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən, Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmiryolu əlaqəsi yoxdur. Bu dəmiryolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmiryolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmiryolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Av-ropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

Göründüyü kimi, Zəngəzur dəhlizinin açılması Cənubi Qafqazdan keçən marş-rutlar sisteminin fəaliyyətini daha da can-landıracaq. Dəhliz, həmçinin Azərbaycan və İran Culfası arasında dəmiryolu xəttinin açılışına və İranın dəmiryollarına çıxış əldə etməyə imkan verəcək. Bununla bərabər, Zəngəzur dəhlizi təkcə dəmiryolları deyil, həm də avtomobil yolları sisteminə malik olacaq. Deməli, bu dəhlizin yaradılması həm də avtomobil əlaqəsinin açılmasına imkan yaradacaq.

Hazırda Türkiyədən yüklər Azərbaycana Gürcüstan və İran vasitəsilə tranzit yolu ilə çatdırılır. Bu maşrutun ya-radılması Türkiyədən Azərbaycana və əks istiqamətdə malların birbaşa tədarükünü asanlaşdıracaq. Beləliklə, daha bir kom-munikasiya xətti türk dünyası coğrafiya-sında, eləcə də, Asiya və Avropa arasında əlaqələrin daha sürətli və asan olmasına şərait yaradacaq.

Bütün bunlar deməyə əsas verir ki, artıq bölgədə yeni nəqliyyat və infrastruktur xəritəsinin formalaşdırılmasına başlanılıb. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən indiyədək Asiya və Avropanı birləşdirən yüksək əhəmiyyətli nəqliyyat dəhlizləri yaradıb. Məhz ölkəmizinn təşəbbüsü ilə

reallaşdırılan Şimal–Cənub, Şərq–Qərb və Cənub–Şimal nəqliyyat dəhlizləri qitələrarası daşınmaların həyata keçirilməsini gerçəkləşdirib. Bu nəqliyyat dəhlizləri istifadəyə verildiyi vaxtdan tarixi İpək yolunun bərpasında mühüm önəm daşıyıb.

Zəngəzur dəhlizinin reallaşması və ölkəmizin təqdim etdiyi digər tranzit nəqliyyat dəhlizləri isə dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Başqa sözlə, yeni yaranacaq nəqliyyat infrastruk-turu beynəlxalq status qazanmaqla Asiya və Sakit okean hövzəsi ölkələrinin də istifadə edə biləcəyi marşuruta çevriləcək.

Ümumiyyətlə, Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir "damarı" açılacaq və bu, nəticədə bölgə ölkələri arasın-da xüsusilə iqtisadi-ticari əlaqələrə müsbət təsir göstərəcək. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana bir-başa quru yolu reallaşdıracaq. Şübhəsiz ki, bu da, öz növbəsində, ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.

Ermənistan isə Zəngəzur dəhlizinin qeyd edilən üstünlüklərindən yararlanarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inki-şafını gerçəkləşdirmək imkanları əldə edər.

Əks halda, təcavüzkar siyasətindən əl çəkməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə hazırda işğaldan azad olunan ərazilərdə bütün zəruri bərpa-quruculuq tədbirləri ən müasir standartlara uyğun həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir, sərhədlərin etibarlı qorunması üçün bütün lazımi işlər görülür.

Burada bir məsələyə də xüsusi toxunmaq istərdik. İşğaldan azad edilən ərazilərdə yüz minlərlə mina basdırılıb. Müharibə başa çatandan bu günə qədər 150-dən çox mülki şəxs və hərbçi mina-ya düşərək ya həlak olub, ya da ki, öz sağlamlığını itirib. Ona görə də hazırda minatəmizləmə işi sürətlə aparılır.

Ermənilərin bütün bu vandal, barbar əməlləri dövlətimizin gücü ilə aradan qaldırılır, dağıdılan maddi-mədəni irsimiz yenidən bərpa olunur. Prezident İlham Əliyevin işğaldan azad edilən rayonlara səfərləri zamanı etdiyi çıxışlar zamanı səsləndirdiyi fikirlərdə də bu məqam xüsusi yer tutur. Dövlətimizin başçısının vurğuladığı kimi, necə birlik, həmrəylik göstərib torpaqlarımızı azad etdik, həmin birlik sayəsində də bərpa-quruculuq işlərini həyata keçiririk. Ərazilərimiz bərpa planına uyğun olaraq yenə də əvvəlki vəziyyətinə qayıdır, torpaqların potensial imkanından istifadə edilməklə regional inkişaf proq-ramlarının uğurlu icrası getdikcə sürətlənir, Qarabağın yaraları sağaldılır.

Hazırda Azərbaycan və Ermənistan arasında sərhəd xəttinin bir tərəfində qələbə qazanan, əraziyə hakim, müasir silahlarla təchiz edilən şanlı Azərbaycan Ordusu, düşmənin xarabalığa çevirdiyi torpaqları yenidən abadlaşdıran bir ölkə, digər tərəfində isə təxribat və terror həyata keçirən, sərxoş olub hikkəsindən ətrafa atəş açan məğlub, rəzil dövlətin əsgəri, mifologiyanı dövlət siyasətinə çevirərək faciəsini daha da dərinləşdirən işğalçı respublika dayanır.

Bu məqamda qeyd edək ki, ermənilərdə olan türkfobiya, Azərbaycana qarşı kin-küdurət, nifrət hissi bu xalqın faciəsini, gündən-günə artan uğursuzluğu-nu şərtləndirir. Bunun sonu isə görünmür. Elə Ermənistan prezidenti Armen Sarkis-yanın İrəvanda erməni irsinin qorunması mövzusunda konfransda etdiyi çıxışa nəzər salsaq, bunu aydın görə bilərik. Erməni mediası bildirir ki, Sarkisyan çıxı-şında Azərbaycanın nəzarətinə keçən Qa-rabağ ərazilərində erməni mədəni və dini irsinin taleyindən narahat olduğunu bildirib. Onun sözlərinə görə, erməni kimliyi xristian inancına və kilsəyə əsaslanır. Döyüşdə və ya müharibədə uduzmağın mümkün olduğunu, ancaq xalqın kimliyini itirməsə, gələcək qələbələrə hər zaman hazır olaca-ğını deyib: "Bu kontekstdə, hər bir kənddə, hər bir şəhərdə erməni tarixinin, mədəni və tarixi irsinin əks etdirilməsi, Qarabağda xristian imicinin qorunması vacibdir...

...Mən Ermənistan prezidenti olaraq Şuşada qürur duydum. Nəinki şəhərdə heyrətamiz kilsələrin olması ilə, həm də həmvətənlərimin məscidin bərpası üçün böyük vəsait yatırmaları ilə fəxr edirdim".

Sarkisyan, eyni zamanda, erməni xalqının ayağa qalxması, inancı, kilsəsi və kimliyi uğrunda mübarizə aparmaq üçün kifayət qədər gücə malik olduğuna əminliyini də bildirib.

Bax, bu sözlər erməni bədbəxtliyini, revanşizmini açıq-aydın göstərir. Bu cür xislətlə, bu cür düşüncə ilə bu xalq bundan sonra da ağır, böhranlı durumda yaşaya-caq. Əlbəttə, revanşizm baş qaldıranda isə cavabını alacaq.

Ermənistan, həqiqətən, bu böhran-dan, yaşadığı xaosun girdabından xilas olmaq istəyirsə, Azərbaycanın bölgədə sülh və əməkdaşlığın bərpası ilə bağ-lı təşəbbüslərinə qoşulmalı, ölkəmizə qarşı düşmən münasibətə son qoyma-lıdır. Amma təəssüf ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində "dəmir yumruq"la başı əzilən Ermənistan bu gün acı məğlubiyyəti ilə barışmaq istəmir. Görünür, düşmən İkinci Qarabağ savaşın-dan hələ də dərs çıxara bilməyib, bundan sonra törədəcəyi hər hansı bir təxribatı müqabilində isə "dəmir yumruq"la rastlaşa-cağını ağlına belə gətirə bilmir.

Hazırda Ermənistandakı bu cür qüvvələr xaricdən dəstəkləndiyindən vaxtaşırı təxribatlar törədirlər. Əgər belə olmasaydı, müzəffər Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılan, faktiki olaraq diz çökdürülən ermənilər revanşizmə cəhd etməzdilər.

Azad edilən, yağı tapdağından təmizlənən ərazilərimiz bundan sonra hər zaman ordumuz tərəfindən, necə deyərlər, göz bəbəyi kimi qorunacaq. Nə vaxtsa, düşmən baş qaldırıb, işğal barədə düşünərsə, şübhəsiz ki, vurğuladığımız kimi, "dəmir yumruq" işə düşəcək. Buna görə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət sərhədlərimizin ciddi şəkildə qorun-ması, möhkəmlənməsi diqqət mərkəzində saxlanılır.

Ermənistanda revanşist qüvvələr həm də bilməlidirlər ki, Azərbaycan Silahlı Qüvvələrinin güc-qüdrətinin artırılma-sı son 18 ildə olduğu kimi, hazırda da xüsusi diqqətdə saxlanılır. Ölkə rəhbərinin göstərişlərinə əsasən, düşməndən təmizlənən ərazilərdə bərpa işləri apa-rılmaqla yanaşı, yeni hərbi hissələr yaradılır, hərbi arsenal müasir silahlarla zənginləşdirilir və silahlanmaya yeni pilotsuz uçuş aparatları daxil edilir, müasir hərbi infrastrukturun qurulması məsələsinə xüsusi önəm verilir. Cəbrayıl rayonun-da Dövlət Sərhəd Xidmətinin 5 min 339 kvadratmetr ərazidə yaradılan yeni hərbi hissəsinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Erməni cəmiyyəti baş verən bu prosesləri diqqətlə izləməli, İkinci Qarabağ müharibəsinin dərslərindən nəticə çıxar-malı və hansısa şovinist qüvvələrin əsirinə çevrilməməlidir. Əks təqdirdə, "dəmir yum-ruq" yenidən işə düşə bilər.

"Xalq qəzeti"

Xalq qəzeti. - 2021.- 15 sentyabr. - № 196. - S. 3.

Müstəqil dövlətçiliyin möhkəm bünövrəsi

Ulu Öndər Heydər Əliyev 30 il əvvəl - 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilmişdir

İsa Həbibbəyli,
AMEA-nın vitse-prezidenti,
Milli Məclisin deputatı, akademik

Böyük tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətinin bütün gedişləri və tarixi məqamları mənsub olduğu xalqın və ölkənin, hətta geniş mənada beynəlxalq münasibətlərin dəyişməsi və inkişaf etdirilməsi, yenidən qurulması ilə üzvi surətdə bağlı olur.

Dünya şöhrəti qazanmış, keçmiş SSRİ miqyasında və Azərbaycan Respublikasında çoxcəhətli rəhbərlik fəaliyyəti ilə böyük dövlət xadimi kimi qəbul olunmuş, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir.

İlk növbədə onu qeyd etmək lazımdır ki, XX əsrin doxsanıncı illərinin başlanğıcında Heydər Əliyev kimi zəngin dövlətçilik təcrübəsi və yüksək idarəetmə səriştəsi olan görkəmli dövlət xadiminin yenidən hakimiyyətə, böyük siyasətə qayıdışı Azərbaycan xalqının taleyi ilə bağlı olan tarixi hadisə kimi mühüm əhəmiyyət kəsb edir. Hadisəyə XX əsrin səksəninci illərinin sonu və doxsanıncı illərin başlanğıcı dövrünün ictimai-siyasi proseslərinin müstəvisindən baxsaq, xalqımızın və ölkəmizin taleyi üçün tanınmış, təcrübəli və səriştəli Siyasi Liderin nə dərəcədə əhəmiyyətli olduğu qabarıq şəkildə nəzərə çarpar. Keçən əsrin səksəninci illərinin ortalarından sonuna qədərki dövrün bir-birini tez-tez əvəz edən kommunist rəhbərləri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə rəhbərliyindən sonrakı dövrün boşluğunu doldurmaq gücündə ola bilməmişdilər.

Doxsanıncı illərin əvvəllərində zamanın dalğasında yeni simalar kimi görünən AXC-Müsavat iqtidarının nümayəndələrinin isə nə siyasi təcrübəsi və səriştəsi, nə də normal idarəçilik qabiliyyətləri var idi. Sözün böyük mənasında Azərbaycan ölkəsinin geniş dünyagörüşlü, möhkəm əqidəli, həyatın çətin sınaqlarından çıxmış, ölkəsinə və xalqına bağlı olan güclü dövlət xadiminə ciddi ehtiyacı var idi. Nə kommunist rəhbərlərin arasında, nə də AXC və Müsavat sıralarında mövcud tarixi şəraitdə ölkəyə rəhbərlik edə biləcək, Sovet İttifaqının dağılması ilə əlaqədar xalqı düşdüyü ağır vəziyyətdən çıxaracaq, ölkəni irəli apara biləcək əhəmiyyətli siyasi fiqur görünmürdü. Vəziyyət isə çox mürəkkəb idi. Sovet dövlətinin dağılması nəticəsində digər keçmiş müttəfiq respublikalar kimi, bəzilərindən isə daha çox Azərbaycan Respublikası çoxcəhətli böhranın dərinləşməsi dövrünü yaşamaqda davam edirdi. Xalqda ölkənin gələcəyinə böyük ümidsizlik yaranmışdı. Ara-sıra Azərbaycanın parçalanacağı, regionların müxtəlif ölkələr arasında bölüşdürüləcəyi barədə mülahizələr səslənməkdə idi. Üstəlik də çətin blokada şəraiti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında vəziyyəti daha da çətinləşdirmişdi.

Bütün bunlar az imiş ki, keçən əsrin səksəninci illərinin axırlarından etibarən Azərbaycan iqtidarındakı sol və sağ təmayüllü rəhbərlərin demək olar ki, mütləq əksəriyyəti Naxçıvan Muxtar Respublikasına ögey münasibət bəsləyirdi. Onlardan bəziləri Naxçıvanı "acı bağırsaq kimi kəsib atmaq", bəziləri isə muxtariyyət statusunu ləğv etmək barədə bəyanatlarla çıxış edirdilər. Yaranmış boşluqdan istifadə edən Ermənistan tərəfdən də siyasi-hərbi təzyiqlər qüvvətlənməkdə davam edirdi. Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, ərazi bütövlüyünü qorumaq üçün əsl mərdliklə lazımi fədakarlıqları, dirənişi nümayiş etdirirdi. Hətta xalq kütlələrinin tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 19 yanvar 1990- cı il tarixdə "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələ müzakirə edərək muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsinə dair radikal addım atmalı olmuşdur. Bu, Sovet İttifaqının monolitliyi, dağılmazlığı haqqındakı süni mifləri sındıran ilk böyük hadisə kimi beynəlxalq aləmdə geniş əks-səda doğurmuşdu.

undan əvvəl 30-31 dekabr 1989-cu ildə isə muxtar respublikanın əhalisi Ordubaddan Sədərək kəndinədək olan 150 kilometrdən çox ərazidə Sovet-İran sərhəddindəki dirəkləri sökmək və tikanlı məftilləri dağıtmaqla Sovet İttifaqı adlanan dövlətə gözlənilməz ağır zərbə vurmuşdu. Bunların qarşılığında həm mərkəzi hökumət, həm də mərkəzin diktəsi ilə Azərbaycanın yerli hakimiyyət orqanları Naxçıvan camaatına və muxtar respublikanın hakimiyyət orqanlarına sərt təzyiqlər göstərirdi. Kreml rəhbərliyi Ermənistan ordusuna dəstək verməklə Naxçıvana qarşı həmlələri genişləndirirdi. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda Heydər Əliyev kimi böyük və zəngin həyat və siyasət məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, taleyin hökmü ilə 22 iyul 1990-cı ildə Naxçıvana gəlməsi, həmin ilin 30 sentyabrında Nehrəm kəndindən

Azərbaycan Respublikasının Ali Sovetinə və Mirzə Fətəli Axundzadə adına Naxçıvan şəhər seçki dairəsindən muxtar respublikanın Ali Məclisinə deputat seçilməsi geniş mənada xalq arasında ölkənin gələcəyinə ümid qığılcımları yaratmışdı. Doğrudur, Heydər Əliyev Bakıda rəsmi dairələr tərəfindən arzuolunmaz şəxs kimi qəbul edilmiş və o, çətin dövrdə Naxçıvandakı ata-baba ocağına üz tutmağa məcbur olmuşdu. Azərbaycanın hər tərəfindən Heydər Əliyevin Naxçıvan şəhərindəki ortabab səviyyəyə malik, təmirsiz ata ocağına ölkə vətəndaşlarının axını, bu böyük tarixi şəxsiyyətlə olan qeyri-adi, isti, doğma münasibəti ifadə edən görüşlər, ünvanına ölkənin müxtəlif regionlarından göndərilən ümid dolu məktublar və teleqramlar Ulu Öndərə bəslənilən ümumxalq sevgisini və inamını qabarıq şəkildə ifadə edirdi.

Bu mənada Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan miqyasında böyük rəğbətlə qarşılanan əhəmiyyətli siyasi hadisə idi. Artıq xalqımız əmin idi ki, ən azı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bundan sonra daha heç vaxt düşmən caynağına keçə bilməz. Bu hadisə Dağlıq Qarabağ ətrafında torpaqların itirilməsi prosesinin tez-tez müşahidə olunduğu ağır bir vaxtda xalqda ölkənin ərazi bütövlüyünün bərpa olunacağına da ümid yaratmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclaslarında ölkənin müxtəlif bölgələrindən gəlmiş rəsmi qurumların nümayəndələrinin, haqları tapdanmış sadə, zəhmətkeş insanların iştirak edib, özlərinin mövcud vəziyyətləri barəsində dəqiq məlumatlar verərək çıxış yolları barədə məsləhətlər almaları, dəstək görmələri Ali Məclisi Azərbaycan xalqının ümid qapısına çevirmişdi. Bütövlükdə isə görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın ümid çırağı idi. Naxçıvanda yaşayıb-işlədiyi illərdə Heydər Əliyevin iş otağında yanan sadə çıraqdan bütün Azərbaycana işıq düşürdü.

Bəs Ali Məclisin 1991-ci il sentyabrın 3-də fövqəladə sessiyasının çağrılması zərurəti haradan, nədən doğmuşdu? Əvvəla, 1991-ci ilin avqust ayında SSRİ hökumətində Mixail Qorbaçov iqtidarına qarşı dövlət çevrilişi cəhdi baş vermişdi. Azərbaycan Kommunist Partiyasının rəhbərliyi Sovetlər İttifaqında özünü müvəqqəti, yaxud keçid hökuməti kimi elan etmiş qısamüddətli Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyətinə müsbət münasibət ifadə etdikdən az sonra həmin qurumun dağılması ilə mürəkkəb vəziyyətə düşmüşdü. Bundan başqa, Sovet İttifaqı Kommunist Partiyasının dağılmasına baxmayaraq, Azərbaycanda hələ də bu partiyanı saxlamaq üçün edilən cəhdlər, atılan addımlar ölkə miqyasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında birmənalı qarşılanmırdı. Çünki Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hələ 1991-ci ilin 14 yanvarında keçirilən sessiyasında Azərbaycan rəhbərliyinin iradəsindən kənarda və ondan asılı olmayaraq Mixail Qorbaçov tərəfindən elan olunmuş yeni ittifaq müqaviləsinin qəbul edilməsinin yolverilməzliyi haqqında qərar qəbul etmişdi. Bundan başqa, xalq deputatı Heydər Əliyevin böyük uzaqgörənliyi sayəsində Ali Məclisin 26 avqust 1991-ci il tarixli sessiyasında Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Təşkilatını buraxmaq məsələləri də müzakirəyə çıxarılaraq müsbət rəy qazanmışdır.

Faktiki olaraq 1991-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasında sovet hakimiyyəti idarəçiliyi yox kimi idi. Bir qədər əvvəl Naxçıvan MR Ali Məclisinin görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən 17 noyabr 1990-cı il tarixli sessiyası Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişərək Naxçıvan Muxtar Respublikası adlandırılmasını qərarlaşdırmışdı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması sadəcə redaktə xarakterli düzəliş deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, özünün siyasi idarəçilik sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi, əslində tam mənası və məntiqi ilə de-fakto SSRİ-nin tərkibindən çıxmaq, ən azı isə bu dövlətin çərçivəsində müstəqil dövlət qurumu yaratmaq demək idi. Bundan başqa, Naxçıvan MR Ali Sovetinin 17 noyabr 1990-cı il sessiyasında Azərbaycanın dövlət rəmzi kimi Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və sessiyanın iclasına sədrlik edən Heydər Əliyevin təşəbbüsü ilə həmin milli mahiyyət daşıyan dövlət bayrağı Ali Məclisin binası üzərində dalğalanmağa başlamışdı.

Bütün bunlar yalnız və yalnız Naxçıvan MR Ali Məclisinin sessiyasına sədrlik edən Heydər Əliyevin həm böyük siyasi iradəsinin, dönməz azərbaycançılıq idealının, qeyri-adi cəsarətinin və uzaqgörənliyinin sayəsində həyata keçirilmişdi. SSRİ adlanan dövlətin bütün müttəfiq qurumlarında demokratik islahatlar adı altında dağılma prosesi getsə də, o dövrə qədər Sovetlər İttifaqının heç bir respublikasında Naxçıvanda atılan addımlara bənzər və ya yaxın bir hadisə baş verməmişdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli sessiyasında qəbul edilmiş siyasi qərarlar sovet dövlətinin dağılmasının birinci parolu idi! Bu, otuz beş il dövlət hakimiyyətində olmuş böyük siyasətçi Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı böyük tarixi xidmətidir! Heydər Əliyev sözün əsl mənasında Azərbaycanın müstəqil dövlətçiliyinin əfsanəsidir. Naxçıvan MR Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli sessiyasına sədrlik etmək Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizəyə rəhbərlik etmək demək idi. Görkəmli dövlət xadimi Heydər Əliyev yeni epoxada Azərbaycanın milli istiqlalının rəhbəri missiyasını şərəflə həyata keçirmiş tarixi şəxsiyyətdir.

Azərbaycan Respublikasının Ali Sovetinə və Naxçıvan Muxtar Respublikasının Ali Sovetinə 30 sentyabr 1990-cı ildə keçirilmiş seçkilərin nəticələri, daha doğrusu, arzu edilmədiyi halda görkəmli dövlət xadimi Heydər Əliyevin seçicilərin iradəsi ilə deputat seçilməsi Sovetlər İttifaqı və respublika rəhbərlərini narahat etmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 17 noyabr 1990-cı il tarixli iclasında qəbul edilmiş ciddi və mühüm siyasi qərarlardan sonra isə Azərbaycan Sovet Respublikasının rəhbərliyinin təzyiqi ilə muxtar respublikada siyasi rəhbərliyi həyata keçirən əsas qurum olan Naxçıvan Vilayət Partiya Komitəsi Ali Məclisin sessiyalarının keçirilməsinə mane olmağa çalışmış, təzyiqlər göstərmişdir. Bunun nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi bir müddətdən sonra, 1991-ci ilin avqust ayına qədər fəaliyyətini dayandırmalı olmuşdur. Avqust ayının 26-da çağırılmış sessiya isə yarımçıq qalmışdı. Muxtar respublikada yeganə ali siyasi qurum kimi mövcud olan Vilayət Partiya Komitəsi isə xalq arasında nüfuzunu itirmiş bir təşkilata çevrilmişdi. Xüsusən 20 yanvar 1990-cı il faciəsindən sonra bütün ölkədə olduğu kimi, Naxçıvanda da kommunist partiyası da, onun təşkilati orqanları da siyasi nüfuz dairəsindən kənarda qalmışdı. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikasında rəhbərlik iflic vəziyyətinə düşmüşdü. Blokadanın yaratdığı xüsusi çətinliklər və Ermənistan tərəfinin muxtar respublikanın sərhədlərində yaratdığı gərginlik şəraiti Azərbaycanın ayrılmaz üzvü, tərkib hissəsi olan Naxçıvanda rəhbərlik məsələsinin mütləq həll edilməsi zərurətini meydana qoymuşdu. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının çağırılması qaçılmaz bir zərurətə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasının gündəliyinə geniş mənada həmin tarixi mərhələnin ən aktual məsələləri, xüsusən də ölkə miqyaslı və o cümlədən Naxçıvan Muxtar Respublikası ilə əlaqədar zəruri məsələlər daxil edilmişdi. Fövqəladə sessiya ölkədə Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsinə münasibət bildirməli idi. Çünki həmin dövrdəki şəraitdə antidemokratik şəkildə alternativsiz əsasda Prezident seçkilərinin keçirilməsi mərkəzin diktəsi ilə ölkədə gedən demokratik proseslərin ləngidilməsinə, müstəqillik uğrunda mübarizənin boğulmasına hesablanmış tədbir idi. Bu, doğrudan da siyasi münasibət tələb edən məsələ idi. Eyni zamanda gündəliyə daxil edilmiş Azərbaycan Kommunist Partiyası təşkilatının fəaliyyətini davam etdirib-etdirməməsi məsələsi də cəsarətli münasibət tələb edirdi. Hətta gündəlikdə öz əksini tapmış Naxçıvan vilayət partiya təşkilatının əmlakının inventarlaşdırılmasının aparılması üçün komissiyanın yaradılması məsələsinin həllini arzu etməyən qüvvələr də var idi. Gündəlikdə nəzərdə tutulan məsələlərin həllinə təsir göstərmək Azərbaycanda müstəqil dövlətçilik prosesinin dərinləşdirilməsinə və sürətləndirilməsinə xidmət edirdi. Ancaq həmin məsələlərin müsbət həlli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında bu ali hakimiyyət orqanının sədri seçiləcək şəxsin siyasi iradəsindən, cəsarət və uzaqgörənliyindən çox asılı idi. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının həll edəcəyi ən əsas vəzifə təşkilati məsələ idi.

Naxçıvan Muxtar Respublikasının bütün əhalisi Ali Məclisin Sədri vəzifəsinə görkəmli dövlət xadimi, xalqının sədaqətli rəhbəri Heydər Əliyevin seçilməsini qətiyyətlə tələb edirdi. Həmin gün Ali Məclisin binası qarşısına toplanmış minlərlə insan Heydər Əliyevin muxtar respublikanın ali qanunverici orqanının rəhbəri vəzifəsinə seçilməsini tələb edən bəyanatlarla çıxış edirdi. Lakin deputat kimi də ictimai-siyasi proseslərdə obyektiv sözünü demiş, cəmiyyət həyatının demokratikləşdirilməsinə ciddi təsir göstərən, xüsusən Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanılması üçün xalqın birliyinə nail olmuş, zəngin dövlətçilik fəaliyyətinə malik olan Heydər Əliyev heç bir rəsmi dövlət vəzifəsi daşımaq niyyətində olmadığını dəfələrlə bildirmişdi. Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli sessiyasının iclasında da o, dörd dəfə çıxış edərək, namizədliyini irəli sürənlərə minnətdarlıq duyğularını ifadə etməklə yanaşı, böyük təkidlə bu məsələnin səsə qoyulmamasını xahiş etmişdir. Heydər Əliyev haqqındakı kitablarda və məqalələrdə bu məsələ barədə dəfələrlə yazılmasına baxmayaraq, görkəmli dövlət xadiminin həmin iclasda namizədliyinin səsə qoyulmaması üçün etdiyi çıxışların mətni mətbuatda öz əksini tapmamışdır. "Şərq qapısı" qəzetinin 5 sentyabr 1991-ci il tarixli sayında getmiş Naxçıvan MR Ali Məclisinin sessiyası barədə rəsmi məlumatdakı Heydər Əliyevin dörd dəfə çıxış etməsinə dair aşağıdakı iki cümlədən ibarət informasiya sonrakı dövrün elmi-publisist materiallarında olduğu kimi təkrar edilmişdir: "H.Ə.Əliyev 4 dəfə çıxış edərək namizədliyini irəli sürənlərə dərin minnətdarlığını bildirdi və təkidlə xahiş etdi ki, onun namizədliyini səsə qoymasınlar. O, təklif etdi ki, deputat Q.Məmmədovun namizədliyini səsə qoysunlar".

Yalnız aradan on səkkiz il keçəndən sonra, 2009-cu ildə təcrübəli jurnalist Mirşahin Ağayevin ssenarisi və təşkilatçılığı ilə çəkilmiş "Görünməmiş Əliyev" adlı sənədli filmdə Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə aid bir sıra naməlum materiallar, o cümlədən Ulu Öndərin 3 sentyabr 1991-ci il tarixdə Naxçıvan MR Ali Məclisinin sessiyasındakı çıxışlarının videolenti ilk dəfə ictimaiyyətə təqdim edilmişdir. Ulu Öndər tərəfindən səsləndirilən və mühüm tarixi əhəmiyyətə malik olan həmin tarixi çıxışlar Heydər Əliyev dühasını daha dərindən anlamaq, bu görkəmli şəxsiyyətin böyüklüyünün miqyasını bütün aydınlığı ilə, əyani şəkildə dərk etmək üçün mühüm siyasi əhəmiyyətə malikdir. Vaxtilə Naxçıvanda fotoqraf kimi fəaliyyət göstərmiş və dövrün ictimai-siyasi proseslərində iştirak etmiş Oqtay Daşoğuzun şəxsi videokamerası ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında lentə alınmış bu məqamlar nadir tarixi materialdır.

Bu qiymətli videolent Heydər Əliyevin tərcümeyi-halının və siyasi baxışlarının bir çox məqamlarını yenidən öyrənib dəyərləndirməyə imkan verir.

Əvvəla, həmin nadir videolent bir daha təsdiq edir ki, Heydər Əliyev Kremlin təzyiqləri və təqiblərindən qurtararaq, Azərbaycana gələrkən həqiqətən də hakimiyyətə qayıtmaq məqsədində olmamışdır. Ümummilli Lider Heydər Əliyev çoxsaylı çıxışlarında bu barədə dönə-dönə rəsmi açıqlamalar versə də, mövcud iqtidarlar buna inamsız yanaşma mövqeyi nümayiş etdirmişlər. Buna görə də Heydər Əliyev Moskvada olduğu kimi, bir müddət öz ölkəsində də müəyyən dairələrin təzyiqləri və təqibləri ilə üzləşməli olmuşdu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli çıxışı göstərdi ki, o zaman Heydər Əliyevin hakimiyyətə gəlmək üçün Azərbaycana qayıtdığını düşünən rəsmi qüvvələr nə qədər böyük səhv edirmişlər. Vaxtilə Heydər Əliyev bu məsələyə aydınlıq gətirmək üçün çıxışlarından birində demişdi: "Mən hələ keçən il (yəni 1990-cı ildə - İ.H.) Moskvadan Azərbaycana gələrkən jurnalistlərə verdiyim müsahibələrdə və görüşlərdə, bu ilin əvvəlində Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərkən və nəhayət, son sessiyada bildirmişdim ki, Azərbaycana hakimiyyətə qayıtmaq üçün gəlməmişəm. Mən ancaq Azərbaycanın bu ağır dövründə, çətin vaxtında xalqıma kömək etmək, xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, bəs siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, mən xalqımın hər bir tapşırığını yerinə yetirməyə hazıram".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 2011-ci il tarixli sessiyasındakı qısa, lakin mühüm tarixi əhəmiyyətə malik çıxışları Heydər Əliyevin həyatının yenidən siyasi hakimiyyətə qayıtmaqla bağlı məqamları haqqındakı fərziyyələrə aydınlıq gətirir. İndiyədək heç bir mənbədə çap olunmayan Heydər Əliyevin çıxışlarının mətnləri tarixi faktlar kimi gerçəkliyi müəyyən etməyə imkan verən sənəddir. Bu çıxışların mətnləri Heydər Əliyevin Moskvadan Azərbaycana qayıdarkən heç də rəsmi dairələrin düşündükləri kimi hər hansı bir vəzifəyə sahib olmaq üçün yox, çətin vəziyyətdə yaşayan doğma xalqına kömək etmək, onunla bir yerdə olmaq niyyətini tam sübut edir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasında Ali Məclisin Sədri vəzifəsinə namizədliyi irəli sürüldükdə etdiyi çıxışların mətnləri aşağıdakı kimi olmuşdur:

Birinci çıxış: "Heç bir hakimiyyətə mən gəlmək istəmirəm. Blok təklif eliyib ki, Qafar Məmmədov seçilsin. Mən də təklif edirəm ki, o, seçilsin".

İkinci çıxış: "Mən öz prinsiplərimə sadiq qalıram. Mən heç bir vəzifə daşımaq istəmirəm. Ona görə xahiş edirəm, mənim namizədliyimi müzakirəyə qoymayasınız. Demokratik blokdan hazırlanmış namizəd vardır. Qafar müəllim... Mən o namizədi, Qafar müəllimin namizədliyini müdafiə edirəm".

Üçüncü çıxış: "Hörmətli millət vəkilləri! Mən üçüncü dəfə çıxış edirəm. Xahiş edirəm, məni düzgün başa düşəsiniz. Və bilin ki, bu, mənim tərəfimdən tamamilə qətiyyətlə deyilən sözdür. Mən necə bir azərbaycanlı kimi, necə bir Naxçıvan əhli kimi çiynimə avtomat salıb, bax, bu dağlarda gedib Naxçıvan torpağını qorumağa hazıram. Naxçıvan Ali Məclisinin hər bir tapşırığını yerinə yetirməyə hazıram. Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda, Naxçıvanın gələcək inkişafı yolunda canımı qurban verməyə hazıram. Ancaq mən vəzifə tutmaq istəmirəm. Xahiş edirəm, bunu düzgün başa düşəsiniz. Mənim üzərimə başqa nə vəzifə, tapşırıq verəcəksinizsə, mən hamısına hazıram.

Yenə də deyirəm, mən buradan çıxıb, avtomatı çiynimə salıb, gedib dağlarda Naxçıvanı qorumağa hazıram. Buna təcrübəm də var, hələ ki, gücüm də var. Ancaq xahiş edirəm ki, bu sözlərimi səmimi söz kimi qəbul edəsiniz, məni başa düşəsiniz və xahiş edirəm ki, bu məsələni müzakirə etməyəsiniz".

Nəhayət, Heydər Əliyev dördüncü dəfə rəsmi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin kürsüsündən bəyan edir: "Mən Sizin hamınıza minnətdaram. Və bir daha xahiş edirəm, fikirləşin, tarixi məsələdir, fikirləşin, fikirləşin, bir də tənəffüs edin, fikirləşin, bir də götür-qoy eləyin. Mən xahiş edirəm, mənim xahişimi siz ödəyəsiniz. Mən xahiş edirəm, mən xahiş edirəm, məni düzgün başa düşün. Mən sizin hamınıza minnətdaram, çox böyük ehtiram göstərirəm. Məni bağışlayın. Ancaq bir də xahiş edirəm..."

İCLAS ZALINDAN SƏS: "Yetmiş nəfər deputata qarşı çıxış edirsiniz".

Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisi üzvlərindən bəzi iştirakçıların həyatda yaşadığı, bəzilərinin isə hətta vəzifədə olduğu tanınmış şəxslərin iştirakı ilə baş vermiş bu tarixi hadisə bir daha göstərir ki, Heydər Əliyevin milli dövlətçilik idealları onun üçün hər hansı rəsmi dövlət vəzifəsi tutmaqdan qat-qat üstün olmuşdur. Beləliklə, xalqın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının təkidi ilə, Heydər Əliyev ölkə və region üçün fövqəladə şəraitdə və fövqəladə olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə razılıq verməli olmuşdu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilərkən verdiyi bəyanatdan aydın olur ki, onun namizədliyi səsə qoyulub yekdilliklə qəbul edildikdən sonra da Heydər Əliyev çıxış edərək məsələyə yenidən baxılmasını xahiş etmişdir. Buna baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının salındığı ağır ictimai-siyasi şəraiti, çətin hərbi vəziyyəti və nəhayət, xalqın təkidli tələblərini nəzərə alaraq, Ali Məclisin qəbul etdiyi qərarla razılaşmışdır.

Fövqəladə sessiya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş ən uzunmüddətli sessiya idi. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixdə öz işinə başlayan sessiyasının iclasları 4 sentyabrdan sonra 5 gün ərzində davam etdirilmiş, iclaslarda ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan mühüm məsələlər geniş müzakirə edilərək tarixi əhəmiyyətə malik olan müvafiq qərarlar qəbul olunmuşdur. Gündəlikdə duran məsələlərə uyğun olaraq Naxçıvan MR Ali Məclisinin sessiyası yaranmış tarixi şəraitdə alternativsiz namizəd irəli sürüldüyünü, hələlik ölkədə çoxpartiyalı sistemin formalaşmadığını, Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. Eyni zamanda Heydər Əliyevin sədrlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

3 sentyabr 1991-ci il sessiyası "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edərək, Azərbaycan Respublikasının Ali Sovetindən xahiş edilmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası, Siyasi Büro, Mərkəzi Komitə dağıldığı üçün respublikada da bu siyasi-təşkilati qurumun fəaliyyəti dayandırılsın. Bundan başqa, sessiyada Naxçıvan MR-də partiya təşkilatlarının əmlakının milliləşdirilməsini təmin etmək üçün deputat komissiyasının yaradılmasına da qərar verilmişdir. Bunlar Azərbaycanda tarixi gedişatın axarının, istiqamətinin dəyişdirilməsinə, müstəqil dövlətçilik uğrunda mübarizə hərəkatına böyük təkan verən tarixi qərarlardır. Bu qərarların mətninin sonunda görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin imzasının olması sadəcə həmin tarixi günün faktı olaraq qalmır. İlk növbədə 3 sentyabr 1991-ci il xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Bu, Azərbaycanda siyasi-tarixi gedişatın əsaslı dönüş məqamı idi. Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən 46 gün əvvəl, yəni 19 iyul 1991-ci ildə Kreml rəhbərliyinə rəsmi müraciəti əsasında Sovet İttifaqı Kommunist Partiyasının sıralarından öz iradəsi ilə çıxmış Heydər Əliyev SSRİ tarixində ilk dəfə olaraq bitərəf, partiyasız, müstəqil deputat kimi ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə seçilmişdir.

Dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin sədrlik etməsinə və dövlətçilik baxımından müzakirə edilən mühüm məsələlərin miqyasına və çıxarılan qərarların siyasi əhəmiyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyası nəinki Azərbaycan Respublikasının, Sovetlər İttifaqının Ali Soveti ilə müqayisə oluna bilər. Əgər SSRİ-nin dağılması ərəfəsində Azərbaycan Ali Sovetinin və Sovet İttifaqı Ali Sovetinin hələ də batmaqda olan gəmini xilas etmək kimi artıq vaxtı keçmiş məsələlərlə məşğul olduğunu nəzərə alsaq, onda Heydər Əliyevin sədrliyi kommunist partiyasının fəaliyyətinə xitam verilməsi, mülkiyyətinin milliləşdirilməsi məsələlərini müzakirəyə çıxaran və dövlət müstəqilliyinə doğru istiqamətləndirən qərarlar qəbul edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli Fövqəladə sessiyasını SSRİ miqyasında nadir siyasi-tarixi hadisə adlandırmaq lazımdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Sədri olduğu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin timsalında XX əsr ərzində Azərbaycanın ovaxtaqədərki tarixində birinci dəfə idi ki, üzərində Kommunist Partiyasının nəzarəti olmayan ali dövlət qurumu fəaliyyətə başlamışdı. Siyasi gedişatın dönüşünü şərtləndirən bu tarixi məqamlar ölkəmizi müstəqil dövlətçiliyə aparan çətin və keşməkeşli yollara işıq salan, ümummilli prosesin hərəkətverici qüvvəsinə çevrilən mühüm hadisələrdir.

Buna baxmayaraq, Azərbaycan Sovet Respublikasının siyasi rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə qəbul edilmiş qərarlarının həyata keçirilməsinə mane olmaq üçün bütün vasitələrdən istifadə etmişdir. Həmin dövrün əsas tədqiqatçısı akademik İsmayıl Hacıyev yazır ki, bu məqsədlə "30 mart 1991-ci ildə bir qrup naxçıvanlının "Kommunist" qəzetində "Naxçıvan Muxtar Respublikasının əhalisinə" müraciəti verilmişdi... Parlament deputatlarından və zabitlərdən ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını qərarı dəyişməyə məcbur etsin. Lakin Ali Məclisin Sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər. əks təqdirdə bütün əhali ayağa qalxacaqdır. İqtidar geri çəkilməyə məcbur oldu.

Bununla belə, Azərbaycanda siyasi rəhbərlik dəyişilsə də, Naxçıvan Muxtar Respublikasına münasibət uzun müddət dəyişməz olaraq qalmışdı. Hətta Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevə qarşı Azərbaycan Xalq Cəbhəsi tərəfindən mərkəzdən idarə olunan çevriliş cəhdi də göstərmişdilər. Lakin bütün təzyiqlərə baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyətini dönmədən həyata keçirirərək, bu regionda ölkənin ərazi bütövlüyünü qoruyub saxlamış, muxtar respublikanı işğaldan xilas etmiş, regionda sosial-iqtisadi vəziyyəti böhran həddindən çıxarmış, çətin və mürəkkəb şəraitdə inkişafa nail olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Ali Məclisin qəbul etdiyi qərarlar təkcə region üçün deyil, geniş mənada ölkə üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əhatə etmişdir. Məsələn, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü hərbi-siyasi tədbirlər və qəbul etdiyi qərarlar sayəsində sovet ordusunun hissələri dinc yolla muxtar

respublikanın ərazisindən çıxarılmışdır. Ölkənin bu regionunun xarici ölkələrlə olan sərhədlərini ilk dəfə olaraq Naxçıvanda yaradılmış milli ordunun əsgərləri qorumaq şərəfi qazandılar. Həmin dövrdə Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı müdafiə tədbirləri nəticəsində Naxçıvan Muxtar Respublikası xaricdən böyük dəstək alan Ermənistanın işğalından xilas edilmişdir. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət səviyyəsində qeyd edilməsi haqqındakı 16 dekabr 1991-ci il tarixli dərin məzmunlu qərara da Heydər Əliyev imza atmışdır. Ali Məclisin Sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına tarixi səfərləri, apardığı danışıqlar regionda blokada şəraitinin yaratdığı böhranın aradan qaldırılması, iqtisadi problemlərin və enerji məsələlərinin həllində əhəmiyyətli rol oynamışdır. Azərbaycanda ilk dəfə olaraq sosialist təsərrüfat sistemi ləğv edilmiş, torpaq islahatları və özəlləşdirmə tədbirləri həyata keçirilmişdir. Azərbaycanla Türkiyə Cümhuriyyətini əlaqələndirən Naxçıvan Muxtar Respublikası ərazisindəki Sədərək-Dilucu - "Ümid körpüsü"nün 28 may 1992-ci ildə istifadəyə verilməsi ilə ölkələr arasında çoxcəhətli əlaqələrin yeni mərhələsi başlanmış, blokada şəraiti yumşaldılmışdır. Naxçıvan Muxtar Respublikası üçün mühüm həyati əhəmiyyət kəsb edən Naxçıvan aeroportunun imkanlarının genişləndirilməsi və yenidən qurulması sahəsində tədbirlər həyata keçirilmiş, torpaq islahatlarına start verilmişdir.

Ulu Öndər Heydər Əliyev Naxçıvanda ikən 21 noyabr 1992-ci ildə yaradılmış Yeni Azərbaycan Partiyası ölkənin sonrakı inkişafında mühüm rol oynamışdır. Çətin blokada şəraiti olmasına baxmayaraq, 12 noyabr 1992-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyinin muxtar respublika səviyyəsində keçirilməsi, Ali Məclisin Sədri kimi Heydər Əliyevin yubiley mərasimində axıradək iştirak etməsi və dərin məzmunlu nitq söyləməsi Ulu Öndərin həyatının bütün məqamlarında ziyalı faktoruna xüsusi diqqət göstərməsinin bariz nümunəsidir.

Bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda dövlət müstəqilliyinin formalaşdırılmasının böyük məktəbinə çevrilmişdir. Məhz Ulu Öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsindəki yorulmaz və səmərəli fəaliyyəti ilə çətin və mürəkkəb şəraitdə muxtar respublikanın qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bərabər, həm də Azərbaycan miqyasında müstəqillik uğrunda mübarizənin qüvvətləndirilməsinə, demokratik proseslərin inkişaf etdirilməsinə böyük təkan verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Qayıdış" kitabına yazdığı ön sözdə haqlı olaraq deyildiyi kimi, "Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının xalq deputatı kimi fəaliyyət göstərən Heydər Əliyev Naxçıvan parlamentində təkcə muxtar respublika üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, siyasi həyatın demokratikləşdirilməsi prosesinə güclü təkan verən qərarların qəbul edilməsinə nail olmuşdur".

Heydər Əliyevin xalqın təkidli tələbləri ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi və ölkə rəhbəri kimi fəaliyyət göstərdiyi tarixi mərhələ (1993-2003) ölkəmizdə dövlət müstəqilliyinin yaradılması, möhkəmləndirilməsi və gələcək inkişafın böyük təməllərinin formalaşdırılması epoxasıdır. Heydər Əliyev epoxası - Azərbaycanın xilası və inkişafı dövrünün tarixi epoxasıdır! Heydər Əliyev yolu - Azərbaycanı böyük gələcəyə aparan möhtəşəm magistraldır. Bu, Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa doğru dönməz şəkildə istiqamət alan müqəddəs və əbədi yolun möhkəm bünövrəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə Heydər Əliyev milli dövlətçilik təlimini yaradıcı şəkildə inkişaf etdirməklə və Dağlıq Qarabağda erməni işğalına son qoyaraq Azərbaycana misilsiz tarixi Zəfər qazandırmaqla xalqımızın və dövlətimizin tarixində yeni bir epoxa yaratmağa nail olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Ali Məclisə rəhbərlik etdiyi dövrdən sonrakı tarixi mərhələdə Naxçıvan Muxtar Respublikasının keçdiyi çətin və şərəfli mübarizə yolu, əldə edilmiş böyük nailiyyətlər müstəqil ölkəmizdə Heydər Əliyev - İlham Əliyev siyasətinin parlaq və canlı reallıqlarını əks etdirən böyük bir hesabatdır. Prezident İlham Əliyevin qayğısı ilə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çoxcəhətli yorulmaz fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasında qazanılmış tarixi müvəffəqiyyətlər və gerçəkləşdirilən möhtəşəm müasir inkişaf ölkəmizdə Heydər Əliyev ideallarının təntənəsidir.

Dünya şöhrətli dövlət xadimi və böyük siyasətçi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü müstəqil dövlətçiliyimizin möhkəm bünövrəsinin yaradılması mərhələsi kimi mühüm tarixi əhəmiyyətə malikdir.

Azərbaycan. - 2021.- 3 sentyabr. - № 186. - S. 1,4.

Müstəqilliyə gedən yol: Heydər Əliyev şəxsiyyəti və siyasi reallıqlar

Siyasi varislikdən qüdrətli dövlətcilik fəlsəfəsinə

II məqalə

İlham Məmmədzadə,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor
Sənan Həsənov,
YAP Fəlsəfə və Sosiologiya İnstitutu Ərazi Partiya Təşkilatının sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

1991-ci ildə müstəqilliyimizə nail olmağın çətin tarixi sınaqları və bu sınaqlarda şəxsiyyət və zaman anlayışlarının ümummilli mahiyyətinin açılması göstərir ki, Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət kimi yeni siyasi sistemdə həm də yeni tarixi reallıqlar yaradan şəxsiyyətdir. Ona görə də elmi ədəbiyyatımızda 15 iyun Milli Qurtuluş Günü kimi tarixiləşmişdir. Həmin gün xalqımızın həyatında yeni bir başlanğıc, tərəqqi yolunda keyfiyyətcə yeni bir mərhələnin əsasını qoyulub. Onun mahiyyəti və sonrakı tarixi proseslərə başlanğıc verməsi praktiki baxımdan ümummilli nəticələrin miqyası ilə özünü sübuta yetirmişdir. Daha dəqiq ifadə etsək Heydər Əliyev şəxsiyyətinin malik olduğu xarizma millətin taleyinin bilavasitə xaosdan, böhrandan, anarxiyadan xilas edilməsini, inkişafa, sabitliyə, ən vacibi çoxminillik dövlətçilik tarixində ilk dəfə xalq- ümummilli lider harmoniyasından yaranan milli gücün unikallığının dərki prosesini şərtləndirib. Bu dərketməni isə Heydər Əliyev təfəkküründən müdrikliyindən kənarda təsəvvür etmək mümkün deyildir. Deməli, Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin hədəfində azad və müstəqil dövlət qurmaq uğrunda mübarizəsi ilə mümkün tarixi şəraitdə zamanı qabaqlamaqla reallaşdırmaq məharəti arasında çox böyük xarizmatik təfəkkür, iti düşüncə və milli ruha bağlılıq vardır.

Bu baxımdan, 1990-cı ilin yayında Moskvadan Vətənə qayıdan Ulu Öndər siyasi iradəsini ilk olaraq Naxçıvan MR üzləşdiyi çətinlikləri dəf etməkdə reallaşdırdı. 1993-cü ilin yayında isə Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda, xalqın təkidi ilə hakimiyyətə qayıtması xalqının xilaskarlığı yolunda mübarizəsinin məntiqi davamı idi. Odur ki, 1993-cü il iyunun 15-dən Azərbaycan tarixində Heydər Əliyev dövrünün yeni, daha əzəmətli mərhələsi başlamışdır.

Bu qayıdış ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında, beynəlxalq əlaqələrində xalqın dərin böhrandan xilası-qurtuluşu idi. Ulu Öndər özü dəfələrlə qeyd etmişdir ki, müstəqilliyi əldə etmək nə qədər çətindirsə onu qoruyub saxlamaq, əbədiliyini dönməzliyini təmin etmək daha da çətindir.Yuxarıda qeyd etdiyimiz kimi, hələ 1969-1982-ci illərdə Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyinin siyasi, iqtisadi əsaslarının yaradılması ilə 1993-cü ildən sonrakı mərhələ arasında xüsusi bir əlaqə, məntiqi davamlılıq vardır. Məhz həmin baza əsasında Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra nankor ermənilərin təcavüzünə baxmayaraq, öz suverenliyini qoruyub saxlaya bilmiş və böyük inkişaf yoluna qədəm qoymuşdur. **Çox qısa zamanda Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün ciddi sosial-iqtisadi, siyasi islahatlar dövrünün başlanması ilə Azərbaycanda hakimiyyətdə səriştəsiz dairələrin olduğu 1991-1993-cü illərdə mövcud olan xaos, anarxiya aradan qaldırıldı, silah gücünə, müxtəlif təxribatlar vasitəsilə hakimiyyəti ələ kecirmək praktikasına əslində son qoyuldu.** Dövlət və xalq arasında möhkəm birliyin əsasları yaradıldı. Onun ümummilli gücü ifadə edən hədəfləri müəyyənləşdirildi. Daha önəmlisi isə odur ki, Heydər Əliyev dövlətçilikdə irəli sürdüyü əsas prinsiplərdən biri kimi ölkəmizdə qanunun aliliyinin təmin edilməsinə çox qısa vaxtda nail oldu. Dövlətin mövcudluğunun bu prinsip əsasında mümkünlüyü idarəcilik sisteminin özəyini təşkil edən yeganə vasitəyə çevrildi. Qanunçuluq prinsipi bir tərəfdən qanunun aliliyidirsə, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsinin təminatçısıdır kimi konsepsiyanın tətbiqi uğurla həyata kecirildi. Heydər Əliyev dəfələrlə bildirmişdir ki, "dövlət xalqa xidmət etməlidir, dövlətin xalqa xidmət etməsi üçün dövlət məmurları, dövləti idarə edən şəxslər daim xalqla təmasda olmalıdır". Elmi yanaşma onu göstərir ki, Heydər Əliyevin dövlətçilik təlimində bu strateji xətt mühüm əhəmiyyətə malikdir. Digər önəmli məsələ odur ki, 1993-cü ilin iyun hadisələri zamanı yaranmış vətəndaş müharibəsi təhlükəsi dahi siyasi xadimin müdrik siyasi iradəsinin gücü ilə qısa zamanda aradan qaldırıldı. Bu

istiqamətdə ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atıldı ki, bu da möhkəm dövlətçiliyin bərqərar olması üçün ən mühüm amil idi. Heydər Əliyev yaranmış gərgin siyasi vəziyyəti tənzimləməklə eyni vaxtda dövlət quruculuğu siyasətinin tərkib hissəsi kimi həm də Milli Ordunun yaradılması yolunda bütün potensial imkanları səfərbər etdi. 1993-cü ilə qədər hakimiyyətdə olan iqtidar ordu quruculuğunda çox ciddi böhranın baş qaldırmasına yol açmış, vahid komandanlığın isə olmaması dövlətin hərbi strategiyasını iflasa uğratmışdı. Belə şəraitdə nizami ordu quruculuğunun nə qədər çətin olduğunu təsəvvür etmək çətin deyildir. Bu taleyüklü məsələdə uğurlu addımlara Heydər Əliyev iradəsi və gücü sayəsində qısa zamanda nail olundu.

Ulu Öndər Heydər Əliyevin siyasi xarizması qısa zamanda möhkəm dövlətçiliyin əsasını qoymaqla həm də ölkəmizi xarici qüvvələrin mübarizə poliqonundan xilas etdi. 1994-cü ilin oktyabrında xarici qüvvələrin dəstəyi ilə bəzi dairələrin Azərbaycanda dövlət çevrilişlərinə cəhdlərinin qarşısı alındı. Dövlətçiliyimizə qarşı yönələn bu məkrli niyyətlər puça uğradıldı. Həmin tarixi məqamda Azərbaycan xalqının Heydər Əliyevə olan inamı hesabına dövlət çevrilişinə edilən cəhdlərin qarşısının qətiyyətlə alınması Azərbaycan xalqının öz siyasi lideri ətrafında mütəşəkkil birliyini təsdiqləmiş oldu. Bu tarix ona görə mühüm əhəmiyyət kəsb edir ki, Azərbaycanı parçalamaq niyyətləri həmişə olduğu kimi, bu mərhələdə də təsadüfən baş verməmişdi. O zaman-zaman xalqımızı istəməyən qüvvələrin ənənəvi riyakarlığının qarşısına qoyduğu məqsədli və məkrli siyasətin davamı idi. Həmin dövrdə Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, Xəzər regionunun əməkdaşlığa açıq elan olunması, qlobal layihələrin Azərbaycanın iradəsi ilə reallaşdırılması yolunda həyata keçirilən konsepsiya Azərbaycanı istəməyən qüvvələrin rahatlığını pozmaqda mühüm rol oynadı. 1994-cü ilin oktyabrında dövlət çevrilişinə edilən cəhdin davamı olaraq 1995-ci ilin martında yenidən dövlət çevrilişinə cəhd olundu. Bu cəhdlərin qarşısı da Heydər Əliyev müdrikliyi ilə alınaraq Azərbaycanda silah yolu ilə hakimiyyətə gəlmək ənənəsinin mümkünsüzlüyü sübut olundu. Belə avantüradan doğan mübarizə üsulu Azərbaycan siyasi səhnəsindən praktiki olaraq çıxarıldı. Dövlətcilik tariximizdə bu addım həm də onu sübut etdi ki, hakimiyyətə gəlmək və güclü dövlət qurmaq yalnız demokratiyanın, hüquq aliliyinin, insan və vətəndaş azadlıqlarının təmini sayəsində mümkündür. Belə də oldu və ictimai-siyasi sabitliyin təmin edilməsi yolunda qanunun aliliyi prinsipi, uğurlu iqtisadi islahatlara açılan yol 1995-ci ildə ölkənin Ali Qanunu- Konstitusiya Aktının qəbul edilməsi, mütərəqqi qanunvericilik bazasının əsaslarının hazırlanması ilə özünü təsdiq etdi. Yuxarıda qeyd etdiyimiz kimi, unutmamalıyıq ki, Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması idi. Bununla da Azərbaycanın neft strategiyası dünyanın siyasi və iqtisadi mənzərəsinə mühüm təsiri ilə həm də siyasi balanslaşdırılmanı təmin etdi. Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" ilə bu strategiya reallığa çevrildi. Dünyanın ən böyük neft şirkətləri həmin zamanda bu narahat bölgəyə yalnız Heydər Əliyev şəxsiyyətinə olan inamınıın sayəsində investisiya qoymağa qərar verdilər. Bu böyük inam Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Böyük İpək yolu və Bakı–Tbilisi–Qars dəmiryolu kimi dünyada analoqu olmayan geosiyasi layihələrin reallaşmasına şərait yaratdı. Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələrin praktiki baxımdan maraqları iflasa uğradıldı. Bu istiqamətdə Heydər Əliyev müdrikliyi region və dünya dövlətlərinin qarşılıqlı əməkdaşlığı fonunda çox hadisələrin məcrasını dəyişdi. Bu böyük siyasətin davamı və məntiqi nəticəsi isə o idi ki, XXI əsrin astanasında Azərbaycanın razılığı və iştirakı olmadan Qafqazda hansısa bir layihəni həyata keçirmək, regionda gedən siyasi proseslərin mahiyyətini analiz etmək mümkün deyildir. Cünki dövlətciliyin möhkəm təməl prinsipləri təkcə həmin dövr ücün deyil, gələcəyə yönələn hədəfləri təyin etməklə həm də milli ideologiyanın uzunmuddətli və tarixi ənənələrdən qaynaqlanan bazasını yaratmışdır. Bu prinsiplərin milli və bəşəri mahiyyəti azərbaycançılıq ideologiyasına dövrün tələbləri səviyyəsində konkret nəzəri məzmun verməsindədir. Dahi şəxsiyyət azərbaycançılığın dövlətin siyasi ideologiyasi səviyyəsinə yüksəlməsi ücün onun konseptual əsaslarını da hələ sovet dövründən hazırlamışdır. Tarixi prizmadan baxanda Heydər Əliyev siyasi millətin formalaşması prosesində cəmiyyətin bütövlüyünü saxlamağın əsas şərtlərini zamanında müəyyən etmişdir. Həmin kontekstdə Heydər Əliyev zəkası siyasi mədəni ideoloji mənəvi və əxlaqi faktorların Azərbaycan toplumunun bütövlüyü naminə sintezini yarada bilmişdir. Bu zaman hər birimizin diqqətini cəkən əsas məqamlardan biri müstəqil dövlətçilik prizmasında bütövlüyün daxili və xarici şərtlərinin müəyyən edilməsi məsələsi olmalıdır. Belə ki, azərbaycançılq ideologiya kimi əslində, cəmiyyətin daxilindəki milli etnik münasibətləri dövlətçilik naminə nizamlamağın yollarini müəyyən edir. Tam əsaslıdır ki, SSRİ-nin süqutundan sonra Azərbaycanın dövlət, cəmiyyət və millət olaraq bütöv halında inkişaf etməsinin siyasi nəzəri əsaslarında bu məqamlar ayrıca yer tutut. Məhz yuxarıda sadalananların hesabına Heydər Əliyevin liderliyi ilə Azərbaycan bütün böhranları aşa bilmişdir. XX əsrin ortalarından başlayan bu müdrik siyasi xətt XXI əsrin əvvəllərində konkret olaraq güclü dövlətcilik strategiyasının formalaşması ilə özünü təsdiq etdi. Prezident İlham Əliyevin siyasi müdrikliyi isə bu strategiyanın davamlı tarixi uğurlar qazanmasına imkan yaratdı.

Siyasi varislikdən qüdrətli dövlətçilik fəlsəfəsinə..

Biz qüdrətli dövlətçilik fəlsəfəsini ona görə siyasi varisliklə müqayisə edirik ki, siyasi varislik müasir Azərbaycanın siyasi və ictimai mühitində İlham Əliyevin dövlət idarəetmə sistemindəki uğurlu fəaliyyəti ilə tarix və müasirliyi bağlayan vahid ümumxalq gücünün ifadəsində cəmləşib. Məlumdur ki, İlham Əliyev Prezident səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməklə Ulu Öndər Heydər Əliyevin siyasi xəttini Azərbaycanın inkişafı və tərəqqisi ücün prioritet kimi qarşıya qoymuşdur. Son 18 ildə qarşıya qoyulan hədəflərin mahiyyətini və nəticələrini şərh edərkən açıqca bəlli olur ki, bu tarixi dövr ölkənin sürətli inkişafını təmin edən çevik idarəetmə sisteminin formalaşmasını bilavasitə bərqərar etmişdir. Qarşıya qoyulmuş coxsaylı islahatlar, irəli sürülən yeni-yeni konsepsiyaların təkcə ölkəmiz ücün yox, region və dünya üçün səmərəli nəticələri Prezident İlham Əliyevi Cənubi Qafqaz regionunda, hətta dünya siyasi məkanında Heydər Əliyevdən sonra alternativsiz siyasi liderə çevrilməsinin elmi əsaslarını formalaşdırmışdır. Burada milli varlığımızın qüdrətini şüurlara hopduran güclü ideoloji təfəkkürlə ümummilli düşüncə sistemi arasında xüsusi bir əlaqə görmək mümkündür. Ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Xalqımız əsrlər boyu həsrətində olduğu müstəqilliyə nail olduqdan sonra həmin müstəqilliyi qoruyub saxlamaq, əbədiliyini dönməz etmək, möhkəmləndirmək, Azərbaycanı dünyanın müxtəlif ölkələrində məskunlaşmış 50 milyon azərbaycanlı üçün bir mayaka çevirmək bizim ən vacib vəzifəmizdir". Bu vəzifəni həyata keçirərkən millətin vahid ideya ətrafında birləşdirilməsi zərurəti yaranmışdır ki, dahi siyasi xadim bu tarixi vəzifəni zamanında həll etdi. Siyasi varis olaraq Prezident İlham Əliyev isə cəmiyyətin qarşısında duran bu önəmli vəzifə ilə bağlı demişdir: "Biz güclü, demokratik cəmiyyət qurmaq əzmindəyik. Cəmiyyətdə hər bir vətəndaş bütün haqlardan, verilmiş azadlıqlardan istifadə etməli, onların bütün hüquqları və azadlıqları qorunmalıdır". Bu tarixi kəlamlar millətin gücünün və potensialının mümkün tarixi şəraitdə səfərbər edilməsinə cağırış idi. Bütün çətinliklərə baxmayaraq Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik və çevik siyasət nəticə etibarı ilə Azərbaycan xalqını Heydər Əliyev ideyalarına əsaslanan güclü dövlətçilik uğrunda mübarizədə birləşdirdi. Siyasi varislikdə xalq-lider vəhdətinin unikallığının Azərbaycan modeli qələbələr və zəfər səlnamələrinin avanqardına cevrildi.

İnformasiya məkanında qərəzli sədləri sındıran dəmir iradə

Yaxın onilliklərin tarixi hadisələrinin şərhi bir daha sübut etdi ki, dövlətçilik strategiyasında istənilən addım Azərbaycanın inkişafı ücün dividentlər gətirib. Hətta zaman-zaman itirdiklərimizin bərpası ilə yanaşı, yeni dünya nizamında Azərbaycan həqiqətlərinin bərqərar olması kimi ümummilli məsələlərin müzakirəsi hər zaman qələbə ilə başa çatıb. Erməni silahlı qüvvələrinin və onların havadarlarının regiondakı sabitliyi pozmaqla xalqların həyatına böyük faciələr gətirməsini qəbul etmək istəməyən qüvvələrə onların uydurduqları yalançı erməni miflərinin mahiyyəti nəinki sübut olundu, hətta bu miflər darmadağın edildi və əsl tarixi həqiqətlər Azərbaycanın iradəsi ilə elmi siyasi müstəviyə gətirildi. Burada Prezident İlham Əliyevin siyasi iradəsindən doğan xalq diplomatiyasının kökündə Azərbaycan xalqına qarşı tarixi ədalətsizliyə səbəb olan sədlərin sındırılması kimi missiyanın uğurlu nəticələrini görməmək mümkün deyidir. Ən əvvəl II Vətən müharibəsinin başlanmasınadək Prezident İlham Əliyevin planetar təfəkkürünün gücü beynəlxalq aləmə bu istiqamətdə çox ciddi dərslər və mesajlar verdi. Daha sonra dünya informasiya məkanında Azərbaycanın gətirdiyi ədalətli və qərəzsiz arqumentlər riyakar qüvvələri fakt qarşısında qoymaqla, həm də Azərbaycan xalqının qəhrəmanlıq potensialının nəyə qadir olduğunu anlatdı. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin ideyalarının siyasi varisliklə müqayisəsi deməyə əsas verir ki, bu tarixi missiya xalqın özünüdərk prosesində siyasi liderin xarizması ilə sıx bağlıdır və demək olar ki, onun hərəkətverici qüvvəsidir. Ən mühüm nəticəni 2020-ci ildə Azərbaycan xalqının 44 günlük Vətən müharibəsinin timsalında gördük. Bu ümumxalq mübarizəsi göstərdi ki, xalqın qələbə əzmi onun milli lider ətrafında mütəşəkkil birliyindən keçir. Onun formalaşması, xalq üçün uğurlu nəticələri isə möhkəm siyasi iradənin, müdrik təfəkkürün təsiri ilə zaman-zaman çox çətin tarixi şəraitdə mümkün olmuşdur. Odur ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqil dövlətçilik strategiyasında qarşıya qoyduğu uzaqgörən hədəflərlə, İlham Əliyevin qüdrətli siyasi liderliyi arasında xüsusi bir bağlılıq vardır. Bu Azərbaycanı tənəzzüldən tərəqqiyə, məğlubiyyətdən qalibiyyətə, millilikdən bəşəriliyə aparan Heydər Əliyev ideyalarının İlham Əliyevin uğurlu dövlətçilik fəaliyyətindəki inikasıdır. Vətən müharibəsindəki tarixi qələbə bu strategiyanın Azərbaycanın inkişafındakı uzun tarixi zaman alternativsizliyini bir daha sübut etmiş oldu. Biz əslində bu prosesdən yaranan qüdrətli dövlətçilik fəlsəfəsinin uğurlu nəticələrini nəinki Azərbaycanda Cənubi Qafqazada baş verən sulh sabitlik və tərəqqi kontekstində təhlil etməli, nəticələrin bəşəriyyət üçün faydasını gündəmə gətirməliyik. Elmi və siyasi dairələrin diqqəti bir həqiqətin dərkinə yönəlməlidir ki, Azərbaycanın Vətən müharibəsi bölgə xalqlarının sabit, sülh şəraitində yaşamaq imkanları üçün yol acıb. Cənubi Qafqazın təhlükəsizliyinə olan təhdidlərin aradan qaldırılması kimi tarixi vəzifəni həll edib.

Postmüharibə dövründə ağıllı güc bizə nə vəd edir

Azərbaycanın işğaldan azad edilmiş tarixi ərazilərində suverenliyini mütləq formada təsdiq edən 2020-ci il 10 noyabr Bəyənnaməsi bölgədə sülhün bərqərar olması üçün bütün imkanları yaradan mühüm sənəddir. Bu imkanlar Azərbaycanın iradəsi ilə bölgədə yaradılan yeni reallıqların sayəsində mümkün olmuşdur. Təbii ki, işğalçılıq xülyası ilə yaşam tərzi bir sıra qüvvələrin bu reallıqları qəbul etməsi üçün çətin bir prosesdir. Lakin postmüharibə dövrünün reallıqları onu göstərir ki, Azərbaycanın ağıllı gücünün qarşısında irəli sürüləcək hər hansı tələb artıq effektivliyini itirmişdir. Əgər indiyədək bütün qüvvələrin və hüquq mexanizmlərinin bölgəyə dair mövcud olan mövqeləri işğalçılığa rəvac veribsə, tənəzzülə yol açıbsa Azərbaycanın sülh və əməkdaşlıq konsepsiyasından irəli gələn yeni reallıqlara hansı alternativlik ola bilər? İşğalçını müdafiə etmək? İkilistandartlar? Vandalizmi alqışlamaq? Etnik təmizləmə?Təbii ki, Vətən müharibəsində bütün bunlar Azərbaycanın siyasi iradəsi ilə öz qiymətini aldı və başqa hec bir neqativ addımın atılmasına yer qalmadı. Ermənistanın ənənəvi siyasi nihilizm xəstəliyi isə bu reallıqları dərk etmədikcə, onun acı sonluğa yaxınlaşmasını qaçılmaz edəcək.

Azərbaycanın geosiyasi balanslaşdırma siyasəti və bölgənin konfiqurasiyası

Azərbaycanın yaratdığı yeni reallıqlardan ən əsası budur ki, Ermənistanın təcavüzkar tərəf olduğu artıq bütün dünyada qəbul edilən inkarolunmaz faktdır, təcavüzkar müharibədə kapitulyasiya olduğu üçün bütün şərtləri qəbul edib və onları yerinə yetirməyə borcludur. Bu şərtlərin yerinə yetirilməməsi yaxud, yayınma cəhdləri Ermənistan üçün ağır nəticələrə səbəb olan yeni məsuliyyətin yaradılması deməkdir. Nəzərə alınmalıdır ki, kapitulyasiya aktının məzmunu və zəruri məqsədi ilk növbədə hərbi əməliyyatların dayandırılması ilə regionda əməkdaşlığın, sabitliyin təmin edilməsini, qarşılıqlı inteqrasiya proseslərinin sülh şəraitində təmin edilməsi məqsədi ilə imzalanan hüquqi baza sənədidir. Burada açıq ifadə olunmuş prinsipləri tərəflər qəbul edərək rəsmən imzalamışlar. Postmüharibə mərhələsində qarşı tərəflər zəruri həqiqəti dərk etməlidir ki, 2020-ci ilin 10 noyabr tarixinə Azərbaycan, Rusiya və Ermənistan tərəflərinin imzaladıqları Bəyanatın 9-cu bəndində əksini tapmış "Zəngəzur dəhlizi"nin açılması istiqamətində Ermənistanın üzərinə düşən öhdəliyin müxtəlif bəhanələrlə uzadılması cəhdləri regionda sabitliyin bərqərar olmasına maneələr yaratmaqla, hətta təhlükəsizliyə olan təhdidlərə yenidən yol açmış olur. Bu prosesdə mövqesizlik, hətta bəyanatın prinsipləri ilə ziddiyyət təşkil edir. Ona görə də 10 iyul 2021-ci il tarixdə Prezident İlham Əliyev Rusiyanın dövlət başçısı Vladimir Putinlə Moskva şəhərində görüşərkən bu məsələyə dair mövqeyini belə bildirmişdir: "Əlbəttə, regionda münaqişədən sonrakı vəziyyət mövzusu da var. Biz Sizinlə daim əlaqə saxlayırıq. Hərbi əməliyyatlar başa çatandan sonra ötən səkkiz ay ərzində, zənnimcə, yanvar ayında Moskvada şəxsən görüşümüz və telefon söhbətlərimiz vəziyyətin sabitləşdirilməsi işində çox mühüm rol oynayıb. Biz qətiyyətlə münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsi əzmindəyik. Düşünürəm ki, ümumi səylərimizlə buna nail olacağıq" Bəyanatın 9-cu maddəsində qarşıya qoyulan bu məqsədlərin mahiyyəti belə şərh olunmuşdur: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir". Lakin bu dəfə də növbəti riyakarlığa əl atan Ermənistanın Baş naziri Nikol Paşinyan sənədin bu maddəsini təhrif etməyə cəhd etmiş və bildirmişdir ki, guya rəsmi Bakı Ermənistan-Gürcüstan-Azərbaycan-Rusiya dəmir yolunun açılmasından imtina edib. Təəssüflər olsun ki, Ermənistanda boşboğazlıq edib müharibədən və ya Zəngəzurla bağlı reallığı əks etdirməyən məsələlərdən danışanlar erməni cəmiyyətinin də xeyirinə olacaq beynəlxalq layihələrin reallaşmasını bu sərsəm fikirlərlə əngəlləmiş olduqlarının hələ də fərqində deyillər. İstər Ermənistanın, istərsə də onun havadarlarının belə uğursuz cəhdlərlə Azərbaycanın iradəsinə qarşı addım atma cəhdləri əslində siyasi spekulyasiyadan başqa bir şey ola bilməz. Çünki əvvəla, Zəngəzur dəhlizi dövlətlərarası əməkdaşlığın iqtisadi dividentləri üçün çox ciddi prioritet kəsb edir. Onun reallaşmasına maneənin törədilməsi dövlətlər üçün böyük iqtisadi itki deməkdir. İkincisi, bu gün ən yaxşı halda dəhlizin tələb edilməsi Ermənistana edilən güzəştdir. Tarixi siyasi reallıqlar sübut edib ki, sonradan Ermənistan adında yaradılan qurama dövlətin tərkibinə verilən Azərbaycanın Zəngəzur mahalı vaxtilə böyük siyasi oyunların qurbanına çevrilib. Azərbaycan hazırda bu kimi tarixi hadisələrə olan münasibətini ortaya qoyub və baş vermiş ədalətsizliklərin cavabını soruşmaq haqqına malikdir. Üçüncüsü, Ermənistanı himayə edən dövlətlər anlamalıdırlar və anlayırlar ki, "məzlum ermənçiliyə" himayədarlıq etmək onlara ağır iqtisadi siyasi zərbə vurmaqdan başqa indiyədək hec nə verməyib və verməyəcək də. Bəs onda əməkdaşığa maneə törətmək hansı siyasi mətiqə sığır və buna kim razı ola bilər? Təbii ki, bu, qəbuledilməzdir. Ona görə də qarşılıqlı etimad mühitinin yaradılması ilə böyük perspektivlərə nail olmağın ən etibarlı vasitə olduğunu Azərbaycanın iradəsi və zamanın reallığı göstərməkdədir.

Şuşa Bəyənnaməsi tarixi reallıqların düzgün dərkini qarşıya qoyur

2021-ci il 15 iyun tarixdə Azərbaycan və Türkiyə Prezidentlərinin Şuşa şəhərində imzaladıqları Bəyənnamə xüsusi tarixi əhəmiyyətinə görə beynəlxalq arenada bir çox analitiklərin təhlil obyektinə çevrilmişdir. Azərbaycan xalqının qəhrəmanlıq simvolu olan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətlərinin çoxtərəfli istiqamətlərini əhatə edən Bəyannamə Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin isə xüsusi rəmzi mənası vardır. O biri tərəfdən hər iki müttəfiq ölkə tarixi hadisələrin hazırkı dönəmində bölgədə müşahidə olunan xarici qüvvələrin maraq və mənafelərinə tutarlı cavab olaraq zəruri tarixi missiyanın həllinə bu Bəyənnamədə qarşıya qoyulan vəzifələrlə nail oldular. Azərbaycan Türkiyə müttəfiqliyinin miqyası və potensial imkanları bir sıra qüvvələrin özləri üçün ölcü götürməsini gündəmə gətirdi. Biz regionun geosiyasi mənzərəsində həmişə müşahidə edirik ki, tarixin təkrarlanması, oxşar hadisələrin baş verməsi Azərbaycanın mənafeyinə zidd addımların cərəyan etməsi fonunda özünü göstərmişdir. Sirr deyil ki, indi də bölgə uğrunda bir sıra region və Qərb dövlətləri öz maraqları baxımında müxtəlif mübarizə üsulları seçməkdədirlər. Fərqli zamanlarda bu maraqların qurbanına cevrilmiş bir sıra milli problemlərimiz sonralar çətin tarixi vəzifələrin həllini qarşımıza çıxarmışdır. Ona görə də Şuşada Türkiyə lideri ilə Bəyannamənin imzalanması zamanı Azərbaycan Prezidenti İlham Əliyev Qars müqaviləsinə və onun sonrakı hadisələrə təsirinə diqqət yetirmiş və demişdir: ***"Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır". Fərqli zamanlarda və tarixi şəraitdə mövcud olan hər iki müqavilələrin mahiyyətində bizi düşündürən o hal olmalıdır ki, Azərbaycan 100 il bundan əvvəl böyük təzyiqlərin altında dərin siyasi böhran yaşadığı halda bu gün qardaş Türkiyə Respublikası ilə Şüşa şəhərində Zəfər bayramını qeyd etməklə həm də bölgənin taleyini həll edirlər.*** *Dövlət* başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa edərkən həm də Şuşa Bəyannaməsi ilə dünyanın tarixi gerçəklikləri qəbul etməsi ücün rəsmi mövqe sərgilədilər. Bu mövqenin son iki yüz ildən artıq bir dövrdə yeni geosiyasi reallıqlara Azərbaycan tərəfindən verilən başlanğıc olduğu tamamilə haqlı və əsaslıdır.

(davamı var)

Səs.-2021.-25 avqust.-№151.-S.8-10.

Dünya azərbaycanlılarını müstəqil Azərbaycana bağlayan ideologiyanın gücü 30 ildə özünü tam doğrultdu...

İradə Sarıyeva

Dövlət müstəqilliyinə sahib olmaq Azərbaycan xalqının ən böyük xoşbəxtliyidir. Uzun illər Sovet imperiyasının tərkibində olan Azərbaycanı hər zaman azadlıq, hürriyyət eşqilə yaşayan övladları, ziyalıları, ədibləri, fikir adamları, ictimai-siyasi xadimləri azad görmək istəyirdi.

Nəhayət ki, xalqımız 30 il bundan əvvəl Azərbaycanı yenidən müstəqil dövlətə çevirməyi bacardı. 30 ildir ki, Azərbaycan dövləti müstəqildir, dünyanın həy yerində yaşayan, azərbaycançılıq ideologiyasından rişələnən hər bir azərbaycanlının azad, bağımsız vətəni olaraq ümid yerinə çevirilib. Bu gün qalib, müzəffər Azərbaycan dünyanın ən güclü ölkələrindən biridir. Dünya azərbaycanlılarının qürur, fəxr duyduğu Azərbaycan dövləti azərbaycançılıq ideologiyası əsasında dünya azərbaycanlılarını sözün həqiqi mənasında birləşdirməyi bacarıb. Heç şübhəsiz ki, bu 30 ildə bu birliyə zərbə vurmaq istəyən, dünya azərbaycanlılarını vətənlərindən uzaq salmaq istəyən qara qüvvələr də olub, lakin buna nail ola bilməyiblər.

Ayrılarmı könül candan?

Bu gün dünyanın ən müxtəlif ölkələrində çoxlu sayda azərbaycanlı yaşayır, toplam olaraq dünyaya səpələnən azərbaycanlılarının sayının 50 milyondan çox olması faktdır. Azərbaycanlıların dünyaya yayılma prosesini və ardıcıllığını izləyən ekspertlərin qənaətinə görə, soydaşlarımız yer kürəsində baş verən müharibələr, inqilablar, hərbi münaqişələr, ictimai-siyasi proseslər nəticəsində dünyaya yaylıblar. Demək olar ki, dünyanın hər yerində azərbaycanlılar yaşayırlar, lakin onların bir Vətəni var – Azərbaycan! Onlar "ayrılarmı könül candan" misralarını özlərinə həmdəm edib canları və könülləri ilə bağlı olduqları Azərbaycanı sevirlər, müdafiə edirlər. Bu 30 ildə qazandığımız ən böyük qazanclardan biri müstəqil Azərbaycanın öz oğul və qızlarına, övladlarına atalıq – analıq etməsidir. Bu gün dünyanın istənilən nöqtəsində yaşayan azərbaycanlının özünə arxa-dayaq, günənc yeri saydığı müstəqil vətəni var. Sirr deyil ki, dünyanın hər yerində yaşayan azərbaycanlılar tarixi vətənləri Azərbaycanı unutmur, ən ağır günlərində ona ümid yeri kimi baxırlar. Kərkük türkləri də, Əfqanəstan türkləri də, cənubi Azərbaycan türkləri də, Borçalı, Dərbənd türkləri də və sair. Bizi xalq olaraq azərbaycançılıq ideologiyası birləşdirir. Əgər Azərbaycan müstəqil dövlət olmasaydı biz bu qədər qollu-qanadlı, qürurlu, əmin ola bilməzdik.

"Azərbaycan xalqı böyük və mübariz xalqdır ki, öz müstəqil dövlətini yaradıb"

AVCİYA-nın vitse-prezidenti, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, dünya azərbaycanlılarını müstəqil Azərbaycana bağlayan ideologiyanın gücü 30 ildə özünü tam olaraq doğrultdu: "Bu mövzu çox aktual mövzudur. Bildiyimiz kimi dünyada 2 mindən artıq xalq var, amma onların təxminən 200-dən bir qədər artığının dövləti var, qalanının dövləti yoxdur. Azərbaycan xalqı böyük və mübariz xalqdır ki, öz müstəqil dövlətini yaradıb, Birləşmiş Millətlər Təşkilatının qarşısında da Azərbaycan dövlətinin üçrəngli bayrağı dalğalanır. Bilirsiz ki, biz 30 il bundan əvvəl dövlət müstəqilliyimizi çətin, ağır və şərəfli mübarizəmizlə qazanmışıq. Bir məqamı da deyim ki, Azərbaycan xalqı qədim dövlətçilik ənənəsinə malik olan xalqdır. Bütövlükdə bizim dövlətçiliyimizin tarixi 5 min ildən çoxdur. Bunun cəmi 1000 ilində müstəqil olmuşuq, qalan minilliklər işğallar, azadlıq uğrunda mübarizələr dövrü olub. Yəni xalqımızın böyüklüyüdür ki, bu qədər işğallara, təzyiqlərə məruz qalmasına baxmayaraq, öz dövlət müstəqiliyini ayrı-ayrı dövrlərdə bərpa edib. Azərbaycanın müstəqil dövlətləri bizim şərəfli tariximizdir".

"Dünyanın istənilən nöqtəsində, istənilən dövlətin ərazisində yaşayan azərbaycanlılar Azərbaycan Respublikasını..."

M.Zülfüqarlının sözlərinə görə, 1991-ci ilin 18 oktyabr tarixində Azərbaycan xalqı Milli Azadlıq Hərəkatı nəticəsində dövlət müstəqilliyini bərpa etdi və biz dövlət müstəqilliyimizi mübarizə ilə yenidən qazandıq. "Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi 50 milyonluq dünya azərbaycanlılarının böyük sevincinə səbəb oldu. Bu insanların xeyli bir hissəsi Azərbaycanı müstəqil dövlət olaraq görmək arzusu ilə qürbət ellərdə gözlərini əbədi yumanların ailə üzvləri, yaxınları idi. Ona görə də Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi onları qürurlandırırdı. Müstəqil Azərbaycan dövləti 50 milyonluq dünya azərbaycanlılarının bir istinad nöqtəsidir. Şimali Azərbaycanda müstəqil Azərbaycan dövlətinin bərpası tariximizdə böyük hadisə idi. 31 dekabrın da Dünya Azərbaycanlılarının Həmrəylik günü elan olunması azərbaycançılıq ideologiyasının inkişafına, birləşdiricilik

gücünün möhkəmlənməsinə daha dərindən kömək göstərdi. Ona görə də bu gün dünyanın istənilən nöqtəsində, istənilən dövlətin ərazində yaşayan azərbaycanlılar Azərbaycan Respublikasını bir güvənc yeri, istinad nöqtəsi, bir mayak kimi görürlər. Həm özləri Azərbaycana dəstək vermək istəyirlər, həm də Azərbaycandan lazım gələndə dəstək umurlar. Bu da təbiidir. Çünki millət öz dövlətindən, öz evindən dəstək istəyir. Avropa ölkələrində yaşayan azərbaycanlıların elə də problemi yoxdur, amma İraqda, Əfqanıstanda, İranda yaşayan azərbaycanlıların problemləri var və zaman-zaman həm Azərbaycan dövləti, həm də dünya azərbaycanlıları öz dəstəyini onlardan əsirgəmirlər. Mənə belə gəlir ki, biz 44 günlük müharibədə də dünya azərbaycnlılarının həmrəyliyini gördük. Bu da onu göstərir ki, 1995-ci ildə yeni konstitutsiyanın qəbulu ilə irəli sürülmüş azərbaycançılıq ideologiyası bu gün də inkişaf edir və özünü bütün dünya azərbaycanlılarının birləşməsində, eyni zamanda Azərbaycan Respublikası vətəndaşları ilə bir bayraq altında birləşməsində mühüm ideologiya kimi özünü sübut edir. Gələcəkdə də bu ideologiyanın inkişafı ilə Azərbaycan xalqı gələcəkdə yeni-yeni nailiyyətlər əldə edəcək. Bu şübhəsizdir”-deyə M.Zülfüqarlı qeyd etdi.

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.

Bakı Xəbər.-2021.-24 avqust.-№150.-S.7.

Azərbaycan bundan sonra da inkişaf, müstəqillik yolu ilə gedəcək

Cənab İlham Əliyevin Baş nazir təyin olunmasından 18 il keçir

Yeganə Əliyeva

Cənab İlham Əliyev 2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edildi. Həmin il 15 oktyabrda isə keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçildi.

İki ay Baş nazir vəzifəsini icra edən cənab İlham Əliyevin elə həmin il keçirilən prezident seçkilərində qələbə qazanaraq Prezidentlik fəaliyyətinə başlaması xalqımızın Heydər Əliyev ideyalarına verdiyi dəyərin, bu siyasətə dəstəyinin aydın ifadəsi idi. Məhz bu məqamlara söykənərək cənab İlham Əliyev Prezident kimi mətbuata ilk müsahibəsində perspektivlərdən söz açarkən bildirmişdi: "Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam."

Müstəqilliyimizin qarantı, xalqımızın xilaskarı, ulu öndər Heydər Əliyevin siyasətinin davam etdiriləcəyini və ölkəmizin xoşbəxt gələcəyinə inandığını bildirən Prezident İlham Əliyev Ümummilli Liderin şah əsəri olan Azərbaycanı daha da gücləndirəcəyinə, hərtərəfli inkişaf etdirəcəyinə söz vermişdi. Ötən 17 ildən artıq dövrdə qazanılan uğurlar, Azərbaycanın dünya birliyində lider dövlət kimi tanınması o deməkdir ki, verilən vədlər yerinə yetirilir.

Tarixi Qələbəmizə yol açan 44 günlük İkinci Qarabağ müharibəsi dövründə 30-a yaxın xarici mətbuata müsahibə verən cənab İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalının «Yəqin ki, Qarabağı azad etmək rəhmətlik atanızın vəsiyyətidir. Vəsiyyətini də yeri gəlmişkən Sizdən öyrənmək istərdik. Vəsiyyətini hazırda həqiqətən yerinə yetirirsiniz. Sizi də, Azərbaycan xalqını da Türkiyə xalqı adından təbrik edirik. Atanızın vəsiyyəti barədə nə söyləmək istəyirsiniz» sualını cavablandırarkən bildirmişdir ki, hər zaman çalışmışam ki, atamın yoluna sadiq olum. 2003-cü ildə ilk dəfə Azərbaycan xalqı mənə etimad göstərəndə seçkilərdən əvvəl mən demişdim ki, əgər siz mənə bu inamı, etimadı göstərsəniz, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bütün istiqamətlər üzrə onun yolu ilə gedəcəyəm: «Şadam ki, sözümə sadiq oldum, sözümü tutdum. Bu gün Azərbaycanın sürətli və uğurlu inkişafı, beynəlxalq müstəvidə böyük hörmətə malik olması, ölkə daxilində sosial, iqtisadi, digər problemlərin həlli, böyük layihələrin həyata keçirilməsi, əlbəttə ki, Heydər Əliyev yolunun davamıdır.»

Dövlət başçısı İlham Əliyev, eyni zamanda, bildirmişdir ki, dünya dəyişir. Dünyadakı güclər nisbəti də dəyişir. Bugünkü dünya 2003-cü ildəki dünya ilə əlbəttə ki, müqayisə edilə bilməz: «Ancaq bizim strateji hədəflərimiz dəyişməz olaraq qalır. O da müstəqilliyi möhkəmləndirmək, müstəqil siyasətə sadiq olmaq, heç vaxt heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək, öz qürurumuzu saxlamaq, qorumaq və ərazi bütövlüyümüzü bərpa etməkdir. Yəni, qısa desəm, atamın vəsiyyəti bundan ibarətdir. Əlbəttə ki, ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli vəzifədir. Biz buna nail olmaq üçün böyük səy göstərdik - siyasi, iqtisadi, diplomatik, hərbi. Bizim ordumuz faktiki olaraq yenidən quruldu. Bu gün ordumuzun potensialı bütün dünyanın gözü önündədir. Mənə verilən məlumata görə, inkişaf etmiş bəzi ölkələrin hərbi mütəxəssisləri də artıq bizim təcrübəmizi öyrənirlər. Mən əminəm ki, bu təcrübə kitablarda da, tədqiqatlarda da əksini tapacaq. Ona görə atamın yoluna sadiq qalaraq bu şərəfli missiyanı icra edirik. İnşallah, sona qədər başa çatdıracağıq.»

Ölkə Prezidenti İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti, xalqımızın dəmir yumruq kimi birləşməsi sayəsində 30 ilin nisgilinə, işğalına son qoyuldu, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. 6 şəhər, 5 qəsəbə və 300-ə yaxın yaşayış məntəqəsini işğaldan azad edən, üçrəngli bayrağımızı bu ərazilərdə dalğalandıran Azərbaycan Ordusu noyabrın 8-də Qarabağın tacı Şuşamızı düşmən tapdağından azad etdi. Şuşanın işğaldan azad olunduğu gün dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə Zəfər Günü kimi təsis olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini böyük qürurla qeyd etdi.

Zəfərə gedən yolumuza qısa nəzər salaq. "Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır" tezisi ilə respublikaya rəhbərliyə başlayan, Azərbaycanın inkişafının bazar iqtisadiyyatı, özəl sektorun formalaşması, sosial islahatların həlli, ordu quruculuğu, məcburi qaçqın və köçkünlərin həyat səviyyəsinin yaxşılaşması ilə birbaşa bağlı olduğunu bildirən cənab İlham Əliyevin sərəncamı ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası, islahatların geniş sferada həyata keçirilməsi nəticəsində ölkəmizdəki dinamik inkişaf başqalarına nümunə göstərilir. Azərbaycanın inkişaf modelinin uğurları dünyada təbliğ olunur. Son illərdə texnoloji inkişafa böyük önəm verilmiş, qlobal enerji və nəqliyyat layihələri icra edilmiş, Azərbaycan qüdrətli ölkə kimi dünyanın enerji və nəqliyyat mərkəzinə çevrilmişdir. 2017-ci ildə «Yeni əsrin müqaviləsi» imzalandı. 2018-ci ilin mayında Cənub Qaz Dəhlizinin rəsmi

açılışı oldu, həmin ilin iyun ayında TANAP istifadəyə verildi, 2020-ci il dekabrın 31-də isə Cənub Qaz Dəhlizinin digər seqmenti olan TAP işə düşdü. Azərbaycan təşəbbüsləri gerçəkliyə çevirməklə regional inkişafın aparıcı qüvvəsinə və dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi.

Azərbaycanın iqtisadi müstəqilliyi siyasi müstəqilliyi üçün əsasdır. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilən Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və dünyada baş verən siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verən ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edir. Dünyada 200-ə qədər ölkə olsa da belə mühüm görüşlər üçün Azərbaycanın seçilməsi cənab İlham Əliyevə, dövlət başçısının yürütdüyü xarici siyasətə beynəlxalq səviyyədə göstərilən etimaddır. Qlobal enerji və nəqliyyat layihələrini reallaşdıran, qüdrətli ölkə kimi tərəfdaşlıq formatı yaradan, güc, dialoq, mərkəzi, humanitar platforma kimi də tanınan Azərbaycanın paytaxtı "Ekspo-2025" üçün namizədliyini irəli sürmüş üç şəhərdən biridir. "Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır" söyləyən Prezident İlham Əliyev qətiyyətli dövlət başçısı, verdiyi vədələrə sadiq siyasi iradəyə malik lider olduğunu təsdiqlədi.

Sosial, iqtisadi inkişafı ilə nümunə göstərilən Azərbaycan dəstəklənən xarici siyasəti ilə də beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Azərbaycanın müstəqillik illərində qazandığı nailiyyətlərdən, diplomatik uğurlardan söz açan cənab İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzvlüyü zamanı baş verən proseslərdən də söz açaraq bildirir ki, dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 10 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik.

Beynəlxalq adəmdə mövqeyi möhkəmlənən Azərbaycan 120 ölkənin qərarı ilə üç il müddətinə, BMT-dən sonra ən nüfuzlu təşkilat olan Qoşulmama Hərəkatına sədrlik etməkdədir. Həmin müddətdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik də Azərbaycana nəsib olub. Yəni, eyni müddətdə Avropa və Şərq dövlətlərinin təmsil olunduğu hər iki təşkilata rəhbərliyin ölkəmizə həvalə olunması sivilizasiyalararası dialoq mərkəzinə çevrilən, Qərb ilə Şərqi birləşdirən Azərbaycana göstərilən yüksək etimad, vədinə sadiq dövlət başçısı kimi etibar qazanan cənab İlham Əliyevin nüfuzuna hörmətdir.

Qoşulmama Hərəkatına sədrliyin böyük məsuliyyət tələb etdiyini bildirən dövlət başçımızın bu etimadı da doğruldacağına əminlik Hərəkatın XVIII Zirvə Görüşünün Bakıda keçirilməsi oldu. "Mən sizə deyim və Bakıda keçirilmiş Zirvə Görüşü onu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri - 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir» söyləyən cənab İlham Əliyev bildirir ki, o ölkələr bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə. Bu müddət ərzində belə təxribatlar az olmayıb." Dövlət başçılarına xalqın etimadı ilə bağlı beynəlxalq təşkilatların keçirdiyi rəy sorğularında daha çox reytinq qazanaraq ilk sıralarda yer alan, dəfələrlə "İlin siyasətçisi", "İlin adamı" adına layiq görülən Prezident İlham Əliyev Azərbaycana bu inamı qətiyyəti, sözünün qüdrəti, cəsarəti ilə qazandırıb. Praqmatik düşüncəli, böyük şəxsiyyət olduğunu cəmi üç dövlət başçısının dəvət olunduğu "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" sərsəmləməsinə verdiyi cəsarətli cavabı ilə də göstərdi: "Birincisi, yumşaq desək bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi." MDB Dövlət Başçılarının Aşqabad Sammitində də Ermənistanın baş nazirini nasizmi dəstəklədiyi üçün tənqid edən Prezident İlham Əliyev Yerevanın mərkəzi meydanında Hitlerin silahdaşı olan Njdeyə qoyulan abidəni İkinci Dünya müharibəsində həlak olanların ruhuna hörmətsizlik adlandırdı: "Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir."

44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın bütün sahələrdə qazandığı uğurların, Ermənistanın və ona havadarlıq edən dövlətlərin əsl simalarının təqdimatı oldu. 10 noyabr Bəyanatının imzalanması ilə Azərbaycanın tarixi Qələbəsi təsdiqləndi. Azərbaycan Ordusu işğalçı dövlətə diz çökdürdü. Son 17 ili Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hazırlıq dövrü kimi xarakterizə edən dövlət başçısı İlham Əliyev ordu quruculuğu sahəsində atılan addımların uğurlu nəticəsi kimi ordumuzun dünyanın ən güclü 50 ordusu sırasında yer almasını xüsusi qeyd etdi. Keçirilən hərbi paradlarda, Beynəlxalq Müdafiə sərgilərində Azərbaycan Ordusu hansı imkanlara malik olduğunu nümayiş etdirirdi. Bununla yanaşı, 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Naxçıvan qələbələri Azərbaycan Ordusunun malik olduğu imkanları, eyni zamanda, hər an torpaqlarımızı

işğaldan azad etmək əzmində, qüdrətində olduğunu nümayiş etdirdi. Xalqımız tam əmin idi ki, torpaqlarımızın bir qarışı belə işğal altında qalmayacaq. Bu əminliyə əsas verən xalqımızın torpaq, Vətən sevgisi, ən əsası Azərbaycanın bütün sahələrdə davamlı uğurlar qazanması, münaqişənin həlli üçün möhkəm hüquqi bazanın yaradılması idi.

Azərbaycanın bu illər ərzində demokratik istlahatlar sahəsində qazandığı uğurlar da təqdirəlayiqdir. Bütün demokratik təsisatların inkişafı istiqamətində mühüm addımlar atılıb. Söz, mətbuat azadlığı təmin edilib, insan hüquqlarının qorunması üçün yeni müdafiə mexanizmləri müəyyənləşdirilib, idarəçilik siçtemində təkmilləşmə həyata keçirilib, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi üçün Seçki Məcəlləsində təkmilləşmələr aparılır. 2003-cü ildə qəbul olunan Seçki Məcəlləsi bütün seçki proseslərinin, referendumun dünya standartlarına uyğun keçirilməsinə geniş imkanlar yaradır. Ölkəmizdə siyasi partiyaların, ictimai birliklərin fəaliyyəti üçün əlverişli mühiti mövcuddur. Yeni «Siyasi partiyalar haqqında» qanunun qəbulu onlara fəaliyyətlərini genişləndirmələrinə stimul verir.

Əvvəldə də qeyd etdiyimiz kimi, son 18 ilin uğurlarını bir yazıda əhatə etmək qeyri-mümkündür. Görülən işlərə, verilən vədin konkret əməli işdə öz təsdiqini tapmasına xalqın dəstəyi bu illər ərzində keçirilən 2008, 2013 və 2018-ci illərin prezident seçkilərində cənab İlham Əliyevin qələbəsini təkrarlamasıdır. Xalqın böyük etimadını qazanan Liderə milyonların sevgisi şəksizdir. Bu gün cənab İlham Əliyevə qalib ölkənin qalib Lideri kimi ünvanlanan təşəkkür məktublarının sayı-hesabı yoxdur. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində bu gün işğaldan azad edilmiş torpaqlarımız sevinc içərisindədir. Şuşamız tez-tez qonaqlarını qarşılamaqla ən mühüm sənədlərin imzalanmasına, Cıdır düzündən dünyaya mesajların ünvanlanmasına şahidlik edir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Şuşa 28 il əsarətdə olsa da, əyilmədi.

Bu il müstəqillik tariximizin 30-cu ildönümünü qeyd edəcəyik. Bu yubileyi xalqımız xoş ovqatla, ərazi bütövlüyü təmin olunan Azərbaycanın məğrur, yenilməz xalqı kimi qeyd edəcək. Dövlət başçısı İlham Əliyevin çıxışlarında söylədiyi "Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə» fikirləri Azərbaycanın müstəqillik tarixində keçdiyi yolun aydın mənzərəsini yaradır. Cənab İlham Əliyevin çağırışları sırasında bu məqam xüsusi yer alır ki, gənclərimiz milli ruhda tərbiyə almalıdırlar.

Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində torpağa, Vətənə bağlılıqlarını bir daha nümayiş etdirdilər. Bu gənclər cənab İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclər idi. Bu gün yeganə problemimiz olan dağlıq Qarabağ münaqişəsinin də tarixə qovuşmasına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna təşəkkürümüzü bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik.

Bu gün ölkəmizin qarşısında yeni imkanlar açılıb. Cənab İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində bütün hədəflərə nail olacaq, Qarabağımızı cənnət məkana çevirəcəyik. Bu gün Azərbaycan qalibdir! Müzəffər Ali Baş Komandan işğaldan azad edilmiş torpaqlarımıza qalib Lider kimi səfər edir. Xalqın rəğbəti, məhəbbəti və dəstəyini qazanmaq hər bir ölkə başçısı üçün ən böyük mükafatdır. Ulu Öndər 2003-cü il oktyabrın 1-də prezident seçkilərində xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlətçilik irsini inkişaf etdirərək yeni, modern Azərbaycan dövləti qurdu. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün çıxışlarının mahiyyətində dayanan «Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, biz dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik» tezisi dünənimizə və gələcəyə baxışdır.

İki sahil.-2021.-4 avqust.-№136.-S.12-13.

30 illik müstəqillik yolunda ən toparlayıcı ideologiya…

II yazı

İradə Sarıyeva

Xalqımızın tarixi keçmişi o qədər zəngin, o qədər şərəflidir ki, hər səhifəsinə yazılanlar bizi keçmişimizlə fəxr etməyə səsləyir. Tarixdə ən böyük qazancımız və əldə etdiyimiz qiymətli sərvət Azərbaycanın müstəqilliyidir ki, 30 ildir dövlətimiz suveren dövlət kimi dünya dövlətləri arasında öz yerini tutur.

Azərbaycan dövlətinin bu 30 ildə güclənməsi, qüdrətlənməsi və inkişafı üçün çox böyük işlər görülüb, bütün bu görülənlərin daha səmərəli olmasında xalqın birliyi önəmli rol oynayıb. Şübhə yoxdur ki, bu birliyin formalaşmasında əsas toparlayıcı gücə, generator roluna azərbaycançılıq ideologiyası malikdir. Məhz 30 ildir ki, azərbaycançılıq milli birliyə, xalqımızın vahid məcrada birləşməsinə önəmli vasitə olub.

Müstəqilliyimizin qorunmasında milli birliyimizin rolu

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərlinin fikrincə, dövlət müstəqilliyimiz və onun inkişafında, irəli getməsində əhəmiyyətli rolu olan azərbaycançılıq ideologiyası bizim ən böyük sərvətimizdir. F.Ələkbərli qeyd etdi ki, dünyada ən müxtəlif ideologiyalar olub, ideyalar yaranıb, amma onlar arasında çox az qismi milli birlik, həmrəylik, xalq və dövlət, dövlətçilik birliyini birləşdirməyə xidmət edib. Azərbaycançılıq ideologiyasının tarixinin çox uzaqlara söykəndiyini deyən F.Ələkbərli hesab edir ki, illər keçdikcə bu ideologiya daha da təkmilləşib və öz əbədi qayəsinə sadiq qalıb.

Azərbaycançılıq ideologiyasının dövlət müstəqilliyimizin qorunmasında əvəzsiz rola malik olduğunu deyən F.Ələkbərlinin qənaətinə görə, nəinki Azərbaycan vətəndaşları, bütövlükdə dünya azərbaycanlıları bu ideologiyanın qoruyucusu, təbliğatçısıdır. Güneyli-Qüzeyli Azərbaycanın simvoluna çevirilən və özündə milli birlik ideyasını daşıyan azərbaycançılığın bu gün ən üst səviyyəyə ucalması və dövlətin ana xəttini təşkil etməsi müsbət bir haldır. "Azərbaycançılıq rəsmən təsbit edilən, qəbul olunan bir dövlətçilik ideologiyasdır. Qüzeyli-Güneyli Azərbaycan üçün vacib olan dəyərlərin önündə türklük və azərbaycanlılıq gedir. Daha sonra islamçılıq, çağdaşçılıq və digər dəyərlər də gələ bilər. Ancaq bizim müstəqilliyimizin simvollarından, rəmzlərindən olan üçrəngli bayrağımızın birinci rəngi türkçülüyü ifadə edir, ikinci rəngi çağdaşlığı, müasirliyi, üçüncü rəngi isə islam dinini əks etdirir. Demək, azərbaycançılıq həm də həmin ideyaları özündə əks etdirir. Bu anlamda, yəni azərbaycançılıq ideyasının türkçülüyə bu qədər bağlanması, onunla bu qədər köklənməsi çox mühümdür. Hesab edirəm ki, bizim gələcəyimiz də bununla bağlıdır".

"50 milyonluq xalq üçün birləşdirici bir dəyər olması olduqca önəmlidir"

F.Ələkbərlinin sözlərinə görə, azərbaycançılıq ideologiyası yalnız Azərbaycan Respublikasının sərhədləri daxilində deyil, ondan kənarda da bütün hallarda bizim üçün bir birləşdirici ideologiyadır: "50 milyonluq xalq üçün birləşdirici bir dəyər olması olduqca önəmlidir. Biz azərbaycançılıq ideologiyasına ancaq Azərbaycan Respublikası çərçivəsində yanaşmamalıyıq, o, 10 milyonluq xalq üçün deyil, 50 milyonluq xalq üçündür. Bu idelogiyanın birləşdiricilik, toparlayıcılıq funksiyası 50 milyondan artıq Azərbaycan türkü üçün çox önəmlidir. Mənə elə gəlir ki, bu anlamda Azərbaycanın quzeyində dövlət müstəqilliyimizin 30 ilinin tamamlanması bizim üçün yeni bir mərhələyə qədəm qoymağımızın bir nişanəsidir".

Milli birlik tariximizdə daha mühüm mərhələ…

Ekspertin sözlərinə görə, dövlət müstəqilliyimizin 30 ilinin tamam olması dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcının əsasını qoyur. O hesab edir ki, bu amil milli birliyimizin daha da möhkəmlənməsinə, azərbaycançılıq ideologiyasının daha da şaxələnməsinə, möhkəmlənməsinə səbəb olacaq. F.Ələkbərlinin fikrincə, bu mənada 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanmış Şuşa bəyannaməsi mühüm rol oynayacaq: "Xüsusilə bu məsələdə Şuşa bəyannaməsinin rolunu vurğulamaq istəyirəm. Dövlət müstəqilliyimizin 30-cu ilində bu mühüm bəyannamə imzalanıb. Bütövlükdə, 2020-ci il Azərbaycanın dövlətçilik tarixində qürur duyduğumuz bir ildir. Yeni mərhələyə qədəm qoymuşuq. 2020-ci ilin payızında 44 günlük müharibədə Ermənistan üzərində qələbəmizin ardınca 2021-ci ilin iyun ayında imzalanan Şuşa bəyannaməsi əslində o deməkdir ki, azərbaycançılıq və türkçülük doğrudan da

məhz bizi irəli aparacaq. Azərbaycanla Türkiyənin birliyi yalnız Qafqaz və Anadolu bölgəsində deyil, Türküstana, oradan da başqa yerlərə uzanacaq, böyüyüb daha böyük gücə çeviriləcək. Bu anlamda biz azərbayançılığın da, türkçülüyün də hər ikisinin əhəmiyyətini anlamalıyıq. 30 yaşlı müstəqil Azərbaycan dövlətinin apardığı daxili və xarici siyasət də bunu ehtiva edir. Türkiyə ilə müttəfiqliyimizin Şuşa bəyannaməsində rəsmiləşdirilməsi, hətta bir addım da irəliyə aparılması təqdirəlayiqdir. Şübhəsiz, bu anlamda müstəqil Azərbaycanın dəyəri çox artır. Azərbaycanın artıq Türküstanla Türkiyə, Kərküklə Krım arasında oynadığı rol böyük və mühüm hadisədir. Biz bu Azərbaycan hadisəsini Türkiyə ilə birgə daha da genişləndirə bilərik. Yəni azərbaycançılığın böyüməsi də məhz türkçülüklə paraleldir. Biz bunu gördük. Gələcəyə doğru da azərbaycançılıqla türkçülüyün birgə addımlaması məhz Azərbaycanımızın böyüklüyünü, qüdrətini artıracaq və nəinki bölgədə, bütün dünyada bu birlik böyük gücə çevililəcək, çoxqütblü dünyada əsas qütblərdən biri də Türkiyə, Azərbaycan və digər türk dövlətlərinin birliyi olacaq. Biz ona doğru gedirik. Bu anlamda biz öz dövlətçilik, milli birlik ideologiyamızı daha da güclü şəkildə inkişaf etdirməliyik"-deyə qeyd edən F.Ələkbərli hesab edir ki, azərbaycançılıq ideologiyası 30 yaşlı müstəqil dövlətimizin tarixində çox mühüm rol oynayıb və onun rolu günü-gündən artır. Azərbaycançılıq qədər dövlətçiliyə, milli birliyə, milli məfkurəyə xidmət edən az ideologiyaların olduğunu deyən F.Ələkbərli hesab edir ki, dünya azərbaycanlıları bu ideologiya ətrafında birləşərək dövlətimizin inkişafı naminə fəaliyyət göstərir.

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur

Bakı Xəbər. - 2021.- 14 iyul. - № 123. - S. 6.

Müstəqilliyə gedən yol 1969-cu il iyulun 14-də HeydərƏliyevin siyasi hakimiyyətə gəlməsindən başlayir

İbrahim Zeynalov,
Bakı Dövlət Universitetinin professoru, tarixçi alim

Müasir tariximizin 52 illik bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin quruculuğu, dinamik inkişafı və inteqrasiya sisteminə qovuşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dünyanın ən tanınmış, ən güclü siyasi xadimləri, tələbkar ekspertləri bu qüdrətli Vətən oğlunu Azərbaycan tarixinin yetirdiyi ən mükəmməl, cəsarətli, möhkəm iradəli şəxsiyyət, beynəlxalq aləmdə tanınmış böyük siyasət və dövlət xadimi, fenomen düha və lider kimi qiymətləndirmişlər. Həmçinin Heydər Əliyevin böyük dövlət xadimi, təcrübəli və ustad siyasətçi, fenomenal hafizəyə və incə duyuma malik şəxsiyyət olması hətta opponentləri tərəfindən də etiraf edilən danılmaz həqiqətdir.

Heydər Əliyevin 52 illik ictimai-siyasi və dövlətçilik fəaliyyəti, bütünlüklə isə ömür yolu dərin bir dünya görüşündən çox illik həyati təcrübədən xəbər verməsi ilə yanaşı, müasir Azərbaycan gerçəkliyi, xalqımızın mədəni-mənəvi və intellektual həyatını adekvat surətdə əks etdirməklə çağdaş Azərbaycan ictimai fikrində bir ölçü vahidi kimi qəbul edilir.

Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, "Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşər və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Azərbaycan 30 ildir ki, müstəqil dövlət kimi daim inkişaf edir, güclənir, nəhayət qalib qüdrətli dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətidir.

Azərbaycanı tarixi müstəqilliyə, iqtisadi - sosial tərəqqiyə, tarixi hərbi qələbəyə aparan böyük siyasət 1969-cu ilin 14 iyulundan başlayır. Azərbaycan tarixinin 1969-cu ildən başlayan 52 illik bir dövrün özünə məxsus xüsusiyyətləri var. 20-ci əsrin 70- ci illər sovetlər ölkəsində durğunluq illəri kimi səciyyələnir.

1969-cu il 14 iyulda Heydər Əliyev siyasi rəhbərliyə gəldi. Həmin il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK –nın plenumu oldu və burada Ulu Öndər respublikanın sosial-iqtisadi böhran vəziyyətinin, uzun müddətli (60-cı illərin) geriliyinin təhlilini verdi, səbəblərini açıqladı və çıxış yollarını müəyyənləşdirdi. Həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dirçəliş, dinamik inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünə qayıdışa dönüş mərhələsinin başlanğıcı qoyuldu. 1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətdə olduğu dövrdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatından intibah dövrü başladı.

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikanın digər sahələri kimi, iqtisadiyyatının da dirçəlişi, ölkənin təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və digər potensialından xalqın maddi rifah halının yüksəldilməsi üçün şəraitin yaradılması ilə xarakterizə olunur.

Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi-inkişafının konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir.

Ulu öndər Heydər Əliyev Mərkəzdəki nüfuzundan istifadə edərək respublikanın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən Sov.İKPMK və SSR Nazirlər Sovetinin aşağıdakı müvafiq qərarlarının qəbul edilməsinə nail olmuşdur: 1970-ci il iyulun 23-də "Azərbaycan SSR-də xalq təsərrüfatının inkişaf etdirmək tədbirləri haqqında"; 1970-ci il iyulun 25-də "Azərbaycan SSR-də kənd təsərrüfatının daha da inkişaf etdirmək tədbirləri haqqında"; 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında"; 1976-cı il iyulun 27-də "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP mərkəzi komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində"; 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" və s. Onu da qeyd edim ki, Heydər Əliyev bu qərarların yerinə yetirilməsini təmin etmək üçün Ümumittifaq büdcəsindən Azərbaycan xeyli əlavə vəsaitin ayrılmasına da nail olmuşdur. Beləliklə, 1969-1982-ci illərdə Heydər Əliyevin çox ciddi, fədakar əməyi, prinsipial iş təcrübəsi sayəsində bu tarixi qərarların yerinə yetirilməsi ilə respublika iqtisadiyyatında mövcud olan uzun müddətli geriliyə son qoyuldu, nöqsanların aradan qaldırılmasında, 1970-1982-ci illərdə respublika iqtisadiyyatının intensiv, dinamik və surətli inkişafında başlıca rol oynadı.

1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi sayəsində respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630-min nəfərin yeni iş yerləri yaradılmışdır.

Bu illərdə neft sənayesinin, neft maşınqayırma, neft kimya, metallurgiya, neft emalı və qaz çıxarma sənayelərinin inkişafında yeni mərhələ başlanmışdı. Yeni neft yataqları aşkar edilmiş və istifadəyə verilmiş, neft və qaz mədənlərinin 80%-i avtomatlaşdırılmışdı. 1969-1982-ci illər neft və neftayırma, qaz sənayesinin əsaslı şəkildə yenidən qurulması ilə səciyyələnib.

1969-1982-ci illərdə Azərbaycanın iqtisadi strukturunda keyfiyyətli dəyişikliklərə səbəb olan böyük uğurlar əldə edilmişdi. Araşdırmalar, arxivdəki faktiki və statistik materiallardan məlum olur ki, bu dövrdə respublika sənayesinin təzə sahələri olan elektro texnika, cihazqayırma, elektron, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanmışdı.

Azərbaycan KP MK Bürosu iclasının 13 oktyabr 1972-ci il qərarı ilə Bakı Məişət Kondisionerləri Zavodunun tikintisinə başlanılmış, zavod qısa müddətdə tikilib 1975-ci ildə istifadəyə verilmişdir. Bu illərdə "Azon" və "Ulduz" cihazqayırma zavodları, Sumqayıt Kompressor Zavodu işə düşmüşdür.

1969-1982-ci illərdə Ulu Öndər fədakar əməyi və təşkilatçılığı ilə iqtisadi inkişafın dinamikası Azərbaycanda keçmiş İttifaq respublikalarından xeyli yüksək olmuşdur. Bu illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə İttifaq respublikaları arasında öndə gedərək, birincilərdən biri olmuşdur.

1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin gərgin əməyi, uzaqgörənliyi nəticəsində Azərbaycan keçmiş Sovetlər Birliyində elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir. 1982-ci ildə Heydər Əliyevin çox böyük fədakarlığı və prinsipiallığı sayəsində Dərin Dəniz Özülləri Zavodunun tikintisinə başlamışdı. (Azərbaycan KP MK-nın 1982-ci il 12 yanvar tarixli Büro iclasının qərarı əsasında)

Bu illərdə Bakıda metropoliten tikintisinə də böyük diqqət yetirilmişdi. 1978-ci ildə "Nizami" stansiyası, 1980-ci illərin əvvəlində isə bu qolun başqa stansiyaları "Elmlər Akademiyası", "İnşaatçılar", "11 qızıl ordu" (indiki 20 yanvar) və "Memar əcəmi" stansiyaları istifadəyə verilmişdi.

Azərbaycanın paytaxt əhalisinin su təchizatındakı problemləri daimi aktual olduğuna görə, 1970-ci illərin əvvəllərində Heydər Əliyev bu məsələnin həllinə xüsusi diqqət yetirdi. Bakı şəhəri və Abşeron yarımadası əhalini içməli su ilə təchizatının yaxşılaşdırılması barədə Azərbaycan KP MK-nın 19-71-ci il 2 fevral tarixli Büro iclasında tikintinin ən qısa müddətdə- 1971-ci ilin avqustun 1-nə tam başa çatdırılması və işə salınması haqqında qərar qəbul olunmuşdu.

Bu illərdə Azərbaycanın enerji müstəqilliyi də təmin olundu. Belə ki, Araz, Tərtər, Şəmkir su elektrik stansiyaları, "Azərbaycan" DRES–i işə salındı.

1969-1982-ci illərdə ümumi sahəsi 22.2 milyon kvadratmetr olan mənzillər inşa edildi ki, bu göstərici Azərbaycanda əvvəlki 40-45 ildə tikilmiş mənzillərin 70%-ni təşkil edirdi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə kənd təsərrüfatının dinamik inkişafı, Azərbaycanın iqtisadiyyatında onun rolunu, xüsusi çəkisinin artması ən mühüm iqtisadi nəticələrdən biridir. Üzümçülüyün, pambıqçılığın, taxılçılığın, bağçılığın və digər sahələrin inkişafına başlıca diqqət yetirilmişdi. 1970-1982-ci illərdə üzüm plantasiyaları müvafiq olaraq iki dəfə artaraq 268 min hektara çatmışdır. 1981-ci ildə respublika tarixində ilk dəfə olaraq 1 milyard 151 min ton pambıq, 1 milyon 616 min üzüm, 644 min ton tərəvəz, 41 min ton bostan məhsulları, 26 min ton yaşıl çay yarpağı, 125 min ton mal-qara və quş əti, 340 min ton süd, 294 milyon ədəd yumurta və 12 min ton yun tədarük edildi. Bütün bunların nəticəsidir ki, kənd təsərrüfatının ümumi məhsulunun həcmi 2.6 dəfə çoxalmışdı.

1969-1982-ci illərdə geniş sosial-mədəni quruculuq proqramı həyata keçirildi. Azərbaycanın şəhərləri böyüyür, yeni yaşayış massivləri salınırdı. 1972-ci ildə Şıxovda Xalqlar Dostluğu parkının bünövrəsi qoyulmuş, Bakıda böyük kino konsert mərkəzi və indiki Heydər Əliyev adına Respublika Sarayı, mətbuat prospektində yerləşən "Kommunist " nəşriyyatı tikilmişdir. 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə olaraq böyük informasiya tutumlu 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi.

Heydər Əliyev respublikada elmin inkişafına və təhsil səviyyəsinin qaldırılmasına, səviyyənin inkişafına böyük qayğı və diqqət göstərmişdir. Azərbaycanda onlarla yeni elmi tədqiqat müəssisələri yaradıldı. Azərbaycan KP MK-nın 18 iyun 1975-ci il tarixli Büro iclasında Bakı İnşaat-Mühəndislər İnstitutunun yaradılması haqqında qərar qəbul olundu. Azərbaycan KP MK-nın 25 sentyabr 1979-cu il tarixli Büro iclasının qərarı ilə Azərbaycan Kardiologiya Elmi - Tədqiqat İnstitutu yaradıldı. 1974-ci ildə Azərbaycan KP MK-nın 13 fevral tarixli qərarı ilə Bakı şəhərində Zaqafqaziya respublikaları üçün neyrocərrahiyyə mərkəzinin təşkil olunması haqqında qərar qəbul olundu.

Heydər Əliyev milli hərbi kadrlar yetişdirilməsi sahəsində böyük işlər görmüşdü. 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış hərbi təmayüllü internat məktəbi təşkil olundu. 1976-cı ildə hərbi məktəbin fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan KP MK-nın və Nazirlər Şurasının qərarı ilə tədbirlər görülmüşdü.

Sovet rejiminin ən güclü vaxtlarında bu məktəbin yaradılması Azərbaycan milli hərbi kadr hazırlığı və müstəqillik illərində ali hərbi məktəblərin yaradılması üçün baza rolunu oynadı. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətlərindən biri 1970-1980-ci illərdə şəxsi təşəbbüsü və qayğısı

sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaradılması olmuşdu.

Həmçinin bu illərdə Azərbaycan gənclərinin əqidəsinə və vətənpərvərlik ruhunda tərbiyə olunmasına da daha çox diqqət yetirildi.

Ulu öndər Heydər Əliyev Azərbaycan milli-mədəniyyətinin, incəsənətinin, onun beynəlxalq əlaqələrinin inkişafına da böyük önəm vermişdir. 1969-1982-ci illərdə Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə bütün sahələrdə əlaqələrin qurulmasına böyük diqqət göstərilmişdir.

Beləliklə, XX-ci əsrin 70-80-ci illəri Azərbaycan tarixində yüksəliş dövrü kimi səciyyələnir və bütün bunlar ulu öndər Heydər Əliyevin rəhbərliyi və prinsipiallığı nəticəsində olmuşdur.

Qeyd edək ki, müstəqil dövlət quruculuğunun sosial-iqtisadi əsasları məhz 1969-1982-ci illərdə qoyulmuşdur.

1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycan Respublikası, əslində, real suverenliyə 1993-cü ildə nail oldu. Həmin il xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanın milli intibah dövrünün II mərhələsi, müstəqil dövlət quruculuğu dövrü (1993-2003 - cü illər) başladı.

Son 17 ildə isə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev siyasi xətti uğurla davam etdirildi və ölkəmiz daha uca zirvələrə yüksəlməkdədir.

Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin böyük rəhbərlik və sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti, müzəffər və yenilməz ordumuzun qəhrəmanlığı, xalqın Prezidentə olan birmənalı dəstəyi və onun atdığı istənilən addımı müdafiə etməsi, 44 günlük Vətən müharibəsində şanlı Qələbə, torpaqlarımızın mənfur düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması məhz son 17 ildə bütün sahələrdə, o cümlədən hərbi sahədə aparılan ardıcıl və uğurlu siyasəti nəticəsində əldə olundu.

İki sahil. - 2021.- 10 iyul. - № 121. - S. 8.

Azərbaycanın iqtisadi uğurları dərin islahatların məntiqi nəticəsidir

Vaqif Bayramov

Ötən il ölkəmizin həyatı bir sıra mühüm hadisələrlə əlamətdar oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi qələbə ilə başa çatdı. Bununla da xalqımızın tarixinə yeni şərəfli bir səhifə yazıldı. Qələbəyə gedən yol heç də asan olmadı. Son 25 il ərzində qalibiyyətin beynəlxalq hüquqi normativ bazasının formalaşdırılması, informasiya blokadasının yarılması, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, milli iqtisadiyyatın gücləndirilməsi, ordu quruculuğunda həyata keçirilən islahatlar, qəhrəman zabit və əsgərlərimizin şücaəti, ən əsası isə Ali Baş Komandanın qətiyyəti bu parlaq və möhtəşəm uğuru şərtləndirdi.

Prezident İlham Əliyev ötən il əldə edilən möhtəşəm qələbə ilə bağlı çıxışlarının birində deyib: "Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yollarla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu".

Keçən il qlobal pandemiyanın yaratdığı çətinliklərə, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, sosial-iqtisadi islahatların, iqtisadiyyata dəstək üçün kompleks tədbirlərin həyata keçirilməsi də unudulmayıb. Bununla da iqtisadiyyatın kəskin enişinin qarşısı alınıb. Tədiyə balansı qorunub saxlanılıb, makroiqtisadi sabitlik təmin olunub. Ölkədə kifayət qədər maliyyə imkanları yaradılıb. Bu isə büdcə kəsiri ilə bağlı qarşıya çıxan problemlərin həllini reallaşdırıb.

Azərbaycanın strateji valyuta ehtiyatları da il ərzində sabit saxlanılıb. Mərkəzi Bankın valyuta ehtiyatları 3 faizdən çox artıb.

Bütün bu və digər göstəricilərlə əlaqədar Milli Məclisin martın 16-da keçirilən plenar iclasında Nazirlər Kabinetinin 2020-ci il üzrə hesabatında ətraflı bəhs olunub. Bildirilib ki, bu dövrdə strateji layihələrin icrası, sosial-iqtisadi və digər islahatların həyata keçirilməsi sahəsində aparılan məqsədyönlü işlər davam etdirilib. Ötən ilin son günlərində Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP-ın istismara verilməsi ilə tarixdə ilk dəfə Azərbaycan qazının Avropaya ixracına başlanılıb. Bir çox ölkəni birləşdirən Cənub Qaz Dəhlizi, dövlətimizin başçısının qeyd etdiyi kimi, Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyub.

Hesabatda ilin iqtisadi uğurlarını ifadə edən reytinq göstəriciləri də xatırladılıb: "2020-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdədir.

Dünya Bankı tərəfindən Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmiz bir sıra pozisiyalar üzrə ən qabaqcıl yerlərdədir. Bundan əlavə Heritic Fondunun 2020-ci ilin nəticələrinə əsasən, elan etdiyi İqtisadi Azadlıq İndeksinə görə Azərbaycan 38-ci pilləyə yüksəlmişdir".

Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyətinə dair hesabatında sözügedən dövrdə bütün dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizə və onun neqativ təsirlərinin aradan qaldırılması məqsədilə davamlı tədbirlər həyata keçirildiyi vurğulanıb. Bu xəstəliyə qarşı mübarizənin səmərəli və koordinasiyalı şəkildə aparılması üçün Azərbaycan Prezidentinin sərəncamı ilə Operativ Qərargahın yaradıldığı, ölkə rəhbərinin tapşırığına əsasən, dövlətin bütün imkan və resurslarının xəstəliklə mübarizəyə yönəldildiyi, vətəndaşların sağlamlığının qorunmasına səfərbər edildiyi diqqətə çatdırılıb.

Hesabat dövründə respublikada maska və dərman qıtlığının aradan qaldırılması, laboratoriyaların sayının artırılması, testlərin təchizatının təşkil olunması, qısa müddət ərzində modul tipli xəstəxanaların yaradılması, mövcud xəstəxanaların bir çoxunun koronavirusla mübarizəyə uyğunlaşdırılması da qetd edilib.

Bütün bunlarla bərabər, xəstəliklə mübarizənin gücləndirilməsi məqsədi ilə il ərzində xarici ölkələrdən tibbi personalın dəvət edilməsi, koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı səhiyyə xərclərinə 644 milyon manat vəsaitin ayrılması mühüm önəm daşıyan məsələlər kimi xatırladılıb.

Hesabatda pandemiyanın milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2020-ci ilin dövlət büdcəsi və digər mənbələr hesabına iqtisadiyyata ümumilikdə təxminən 2,5 milyard manat həcmində dəstək göstərildiyi, eyni zamanda, beynəlxalq aləmdə məsuliyyətli və etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın koronavirus ilə beynəlxalq mübarizəyə dəstək olaraq 30-dan artıq ölkəyə yardım etdiyi diqqətə çatdırılıb.

İclasda qeyd edilənlərlə bərabər, həm də pandemiya ilə əlaqədar olaraq dünyada ticarət dövriyyəsinin azalması, neft qiymətlərində kəskin volatillik, məcmu tələbin daralması və artan qeyri-müəyyənliklərin qlobal iqtisadi aktivliyə mənfi təsir göstərdiyi vurğulanıb: "Təbii olaraq bütün dünyada 2020-ci il iqtisadi tənəzzül ili olmuş, Azərbaycanın da iqtisadiyyatına təsirsiz ötüşməmişdir.

Ötən il ölkədə 72,4 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,3 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal edilib, sənaye istehsalı 5 faiz azalıb. Bu azalma "OPEC+" ölkələri tərəfindən neft hasilatı üzrə qəbul edilən məhdudiyyətlər səbəbindən baş verib. Lakin sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 12,5 faiz artıb. Neft-qaz hasilatında 8 faiz azalma olsa da, qaz hasilatı 4,3 faiz və qaz ixracı isə 16 faiz yüksəlib.

2020-ci ildə elektrik enerjisinin istehsalı 25,8 milyard kVt/st (istehlakı isə 22 milyard kVt/st) olub. Respublikanın enerji sistemində reabilitasiya proqramının həyata keçirilməsinə başlanılıb. Xarici tərəfdaşlar cəlb edilməklə bərpaolunan enerji növləri üzrə elektrik stansiyalarının tikintisinə dair müqavilələr həyata keçirilib".

Bildirilib ki, hesabat dövründə pandemiyaya və xarici mühitin pisləşməsinə qarşı hökumətin gördüyü tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitlik təmin edilib. Belə ki, istehlak qiymətləri indeksi mövcud iqtisadi problemlər fonunda yüksək olmayıb. Həyata keçirilən tədbirlər, o cümlədən monetar siyasət və manatın məzənnəsinin sabitliyi inflyasiyanı minimal 2,8 faiz səviyyədə saxlamağa imkan verib.

Beynəlxalq konyunkturun əlverişsiz olmasına baxmayaraq, ölkənin strateji valyuta ehtiyatları ötən il ərzində 51,2 milyard dollara çataraq ÜDM-nin həcmini üstələyib. Hesabat dövrü üzrə birbaşa xarici dövlət borcu ÜDM-in 19 faizini təşkil edib ki, bu da iqtisadi təhlükəsizlik meyarlarına tam cavab verib. Xarici ticarət dövriyyəsinin azalmasına baxmayaraq, ticarət saldosu müsbət 3 milyard dollar olub. Keçən il ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 11,4 faiz artaraq 707 manat təşkil edib.

Hesabat dövründə institusional sahədə həyata keçirilən islahatlar müsbət nəticələrlə müşahidə olunub. Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi ilə reallaşdırılan antikorrupsiya tədbirləri ardıcıl şəkildə aparılıb və bütün dövlət qurumları əhatə edilib.

Ölkəmizdə dövlət şirkətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların korporativ idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirilən investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, maliyyə sağlamlığının təmin edilməsi məqsədilə dövlətimizin başçısı tərəfindən "Azərbaycan İnvestisiya Holdinqi" publik hüquqi şəxs yaradılıb. Holdinqin Nizamnaməsi təsdiqlənib, Müşahidə Şurası və İdarə Heyəti formalaşdırılıb.

İclasda 22 iri dövlət müəssisəsinin mərhələli şəkildə holdinqin idarəetməsinə verilməsinin planlaşdırıldığı və bugünədək artıq 8 dövlət şirkətinin bu qurumun idarəetməsinə verildiyi diqqətə çatdırılıb.

Bundan başqa, milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara uyğun cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi reallaşdırmaq, postpandemiya dövründə ölkənin milli inkişaf prioritetlərini özündə əks etdirən müvafiq strategiyanın formalaşdırılması məqsədi ilə ölkə Prezidentinin müvafiq fərmanı ilə Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılıb və tərkibi təsdiqlənib.

Hesabat ilində aqrar sektor da prioritet sahə olaraq diqqət mərkəzində saxlanılıb. Bu dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən 402,7 milyon manat maliyyə dəstəyi yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 63,3 milyon manat və ya 18,7 faiz çox olub. Bundan başqa, 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilən yeni mexanizmə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiyanın verilməsinə başlanılıb.

Aqrar sığorta mexanizminin formalaşdırılması məqsədilə "Aqrar sığorta haqqında" Qanun və Qaydalar qəbul olunub və "Aqrar Sığorta Fondu" təsis edilib.

Dövlət başçısının tapşırığına uyğun olaraq azad edilmiş torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması həm ölkəmizin ərzaq təhlükəsizliyinə, həm də bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək. Cari ildə əsas vəzifələrdən biri kimi işğaldan azad edilən torpaqlar da daxil olmaqla ölkədə su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetiriləcək. Azad olunan torpaqlarda ən müasir suvarma sistemləri yaradılacaq. Bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi, həmin ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanları da nəzərdən keçiriləcək.

İclasda bildirilib ki, 2021-ci il və qarşıdakı dövr ərzində büdcə vəsaitlərindən səmərəli, qənaətli istifadə olunması, izafi xərclərin qarşısının alınması üçün maliyyə intizamı, habelə nəzarət daha da gücləndiriləcək. Dövlət satınalmalarının şəffaflığı və səmərəliliyinin təmin edilməsi istiqamətində işlər davam etdiriləcək. Şişirdilmiş qiymətlərlə satınalmaların qarşısı qətiyyətlə alınacaq. Özəl sektoru investisiya layihələrinin maliyyələşməsinə cəlbi və dövlət-özəl tərəfdaşlığının təşviqi davam etdiriləcək, dövlət investisiya layihələrinin səmərəliliyi yüksəldiləcək.

Hesabatda, həmçinin xatırladılıb ki, Azərbaycan 2021-2030-cu illəri əhatə edən keyfiyyətcə yeni bir strateji mərhələyə daxil olur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiya və dərin islahatlar Azərbaycanın iqtisadi qüdrətinin daha da artacağına, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin formalaşacağına zəmin yaradır. Hazırda postpandemiya dövrünə ciddi hazırlıq işləri görülməkdədir. Ölkə Prezidenti tərəfindən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə sərəncam imzalanması, hökumətə 2021-2025-ci illərdə "Sosial-iqtisadi inkişaf strategiyası"nın hazırlanması ilə bağlı müvafiq tapşırıqlar verilməsi və hazırda bu istiqamətdə Komissiya və alt işçi qruplarının yaradılması bunun bariz ifadəsidir.

Xalq qəzeti. - 2021.- 18 mart. - № 60. - S. 6.

Müstəqil Azərbaycanın gələcək inkişafında milli ideologiyamızın müstəsna rolu var

Anar İsgəndərov: 44 günlük Vətən müharibəsi dövründə müşahidə etdiyimiz sarsılmaz milli birlik dünya azərbaycanlılarının vahid məfkurə olan azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşməsinin ifadəsi idi

Nardar Bayramlı

Məlum olduğu kimi, azərbaycançılıq milli dövlət ideologiyası kimi Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, ölkəmizin müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir. Azərbaycançılığın əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır.

Təbii ki, zaman-zaman azərbaycançılıq ideologiyası haqqında fikirlər irəli sürülüb, məqalələr yazılıb, araşdırmalar aparılıb. Bütün bunların fonunda Azərbaycanın dövlət müstəqilliyini qazandığı, müasir dünya ilə çoxşaxəli əlaqələrini qurub inkişaf etdirdiyi dövrdə azərbaycançılıq ideologiyasının iqtisadi, sosioloji və politoloji aspektləri diqqəti daha çox cəlb edir. Azərbaycançılığın bir ideologiya olaraq daha bir məqsədi bir sıra imkanlardan istifadə etməklə Azərbaycan və azərbaycanlılar haqqında elmi təsəvvür yaratmaq və onun dünyadakı universal mövqeyini müəyyənləşdirməkdir. Bu istiqamətdə Ulu Öndərimiz Heydər Əliyevin apardığı məqsədyönlü, uzaqgörən siyasət tariximizin silinməz şanlı səhifələrinə və dövlətçilik ideologiyasının əsas bazasına çevrilib.

Vurğulandığı kimi, müxtəlif dövrlərdə görkəmli elm və mədəniyyət xadimlərimiz azərbaycançılıq ideyasını əsərlərində geniş şəkildə təhlil etmişlər. Ümumiyyətlə, ötən əsrin əvvəllərindən azərbaycançılıq ətrafında gedən ideya və fikir mübadilələrinə nəzər saldıqda aydın olur ki, azərbaycançılıq ideyasının təkamül prosesi çoxşaxəlidir. Milli dövlətçilik hərəkatının qabaqcıl nümayəndələrinin və Xalq Cümhuriyyətinin qurucularının konsepsiyasına görə müstəqillik ideyası ölkədə yaşayan bütün xalqların hüquq bərabərliyinin tanınmasına əsaslanırdı. Onun fəlsəfi əsası azərbaycançılıq, islamçılıq və müasirləşmə şüarından ibarət idi. Bu şüar Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi doktrinasını təşkil edirdi.

Müasir dünya yalnız iqtisadi, sosial-siyasi münasibətləri özündə ehtiva etmir, həm də milli-etnik məsələlər önə çəkilir. Odur ki, bu və ya digər xalqın ön sıralarda getməsi üçün tarixən qazandığı etnik potensialdan tələb olunan səviyyədə istifadə etməsi lazım gəlir. Azərbaycanlılar dünyanın müxtəlif ölkələrində yaşasalar da, onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr vardır: Bu, ana dilidir, Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir. Müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji siyasi köməyi böyük rol oynayır. Bir xalq olaraq əsas vəzifələrimizdən biri həm həmrəyliyi gücləndirmək, həm də həmin köməyin daha ardıcıl, daha intensiv xarakter almasını təmin etməkdən ibarətdir. Dünyanın müxtəlif ölkələrinə səfərlərində Azərbaycan icmalarının nümayəndələri ilə görüşən, onlara hərtərəfli dəstək verən Ulu Öndərimiz dünya azərbaycanlılarının milli birliyi uğrunda mübarizəni Azərbaycan dövlət siyasəti səviyyəsinə yüksəldib.

Ümumiyyətlə, müasir dövrdə xalqların inkişafında və milli dövlətlərin qloballaşma şəraitində öz müstəqilliklərini qorumasında milli ideologiyanın əhəmiyyəti böyükdür. Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı, tarix elmləri doktoru Anar İsgəndərov bu faktorun hər bir xalqın taleyində mühüm rol oynadığını bildirib: "Dünyada ilk nüfuzlu təşkilat 1919-cu ildə yaradılan Birləşmiş Millətlər Cəmiyyətidir (BMC). Bu təşkilat I Dünya müharibəsinin nəticələrini təsdiq edən Paris Sülh Konfransında yaradıldı. Qarşısına böyük ali məqsədlər qoymuşdu. Ən birinci vəzifəsi gələcəkdə yeni dünya müharibələrinin baş verməməsi üçün dünyanın böyük dövlətləri arasında mövcud ziddiyyətlərin və münaqişələrin aradan qaldırılması idi. Çox təəssüflər olsun ki, dövrün nüfuzlu təşkilatı hesab olunan BMC qarşısına qoyduğu missiyanı yerinə yetirə bilmədi. II Dünya müharibəsi dünya xalqlarına nasizm, faşizm və militarizmin simasında fəlakət gətirdi. İki sistem arasında mübarizə bir çox xalqları əsarətə məhkum etdi, bəzi xalqlar təkcə müstəqilliklərini deyil, dil, din və milli varlıqlarını itirmək təhlükəsi ilə üz-üzə qaldılar. Xoşbəxtlikdən bu təhlükələr xalqımızdan yan keçdi. Çünki birincisi, tarixboyu hazırda yaşadığımız torpağın sahibi olmuşuq. Dünyanın ən qədim insan məskənlərindən bir neçəsi bizim ərazimizdə mövcuddur. Oturaq əhali olaraq dünyanın ən qədim mədəniyyətinə sahib olan xalqlardan biriyik. Tarixboyu müxtəlif adlar altında müstəqil dövlətlərə malik olmuşuq. Hətta Səfəvilər adı altında imperiya yaratmışıq. Düşmən hücumlarına məruz qalsaq da, son nəticədə bir xalq olaraq torpaqlarımızı düşmənlərdən qorumağa nail olmuşuq. Ərazimizdə əsrlər boyu yaşayan xalqlar çətin imtahanla üz-üzə gələndə birləşməyi bacarıblar. Bu işdə İslam dininin və sonralar formalaşan azərbaycançılığın əvəzsiz rolu olmuşdur. Qloballaşma milli ideologiyaya sahib olmayan kiçik xalqlar üçün böyük problemlər yarada bilər. Bu məsələdə də xalqımızın heç bir problemi yoxdur".

XXI əsrin çağırışları fonunda azərbaycançılıq ideologiyası milli həmrəyliyin təmin olunmasında mühüm rol oynayıb. A.İsgəndərov buna nümunə kimi ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını göstərib: "Hamımıza məlumdur ki, 1918-1920-ci illərdə müsəlman Şərqində ilk Cümhuriyyət bizim xalqımızın adı ilə bağlıdır. 23 ay fəaliyyət göstərən dövlətimiz 350 dəfə ilk sözünə imza atıb. Yəni ilk Cümhuriyyət, ilk parlament, dil haqqında, ordu haqqında, seçkilərdə kişi və qadın bərabərliyi, Paris Sülh Konfransında Azərbaycanın müstəqil dövlət kimi tanınması və s. Qədim tarixə və mədəniyyətə malik bir xalq kimi XX əsrdə çox böyük uğurlarımız olub. 1920-ci ildə müstəqilliyimizə son qoyulsa da, xalqımız 70 illik sovet dönəmində milli birliyimizi zəiflətmədi, dini dəyərlərimizdən imtina etmədi, min illərdən bəri yaşayan adət-ənənələrimizi unutmadı, hakim ideologiyaya kor-koranə baş əymədi. 20 Yanvar hadisələrində imperiya ordusu ilə üz-üzə dayananda əli yalın olduğumuzu hiss etmədik. Çünki söhbət Vətəndən, doğma torpağımızdan gedirdi".

Qeyd edək ki, azərbaycançılıq ideologiyasında vətənpərvərlik amili də mühüm yer tutur. Vətənpərvərlik insanı öz dövləti ilə sıx bağlayır. Bu hiss hər bir fərdi öz torpağına, Vətəninə sahib çıxmağa səsləyir. Vətənpərvərlik dövlət quruluşundan asılı olmayan, vətəndaşlıq mövqeyindən əzəli məfhumdur. Vətəndaşlıq fərdin öz dövlətinə münasibətinin təcəssümüdürsə, vətənpərvərlik insanın öz ailəsinə, Vətəninə, torpağına hərtərəfli bağlılığının göstəricisidir.

Azərbaycançılıq kontekstində vətənpərvərlik vətəndaşın öz dövləti ilə daha sıx bağlılığı deməkdir. Vətənpərvərlik loyallığı və tolerantlığı inkar etməyərək hər bir şəxsin öz ölkəsini müdafiə etmək, onun müstəqilliyini qorumaq, inkişafına köməklik etmək istəyidir. Ona görə vətənpərvərlik Azərbaycan xalqının hər bir üzvünü ucaldan və ona şərəf verən vətəndaşlıq mövqeyidir. Azərbaycançılıq kontekstində vətəndaşlıq, vətənpərvərlik və loyallıq fərdin cəmiyyətə və dövlətə vahid yanaşma sistemidir. Bu üçlüyün vəhdətində birlik və sabit dövlət quruluşu mümkündür. A.İsgəndərov hesab edir ki, 44 günlük Vətən müharibəsi dövründə müşahidə etdiyimiz sarsılmaz milli birlik dünya azərbaycanlılarının vahid məfkurə olan azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşməsinin ifadəsi idi: "44 günlük Vətən müharibəsi həlledici bir imtahan idi. Bir xalq olaraq bu imtahandan şərəflə çıxdıq, şərəf tarixini yazdıq. 30 il idi ki, biz dünyanın böyük dövlətlərindən və nüfuzlu təşkilatlarından düşmən tərəfindən işğal edilmiş torpaqlarımızla bağlı ədalətli qərarların qəbul edilməsini tələb edirdik. BMT Təhlükəsizlik Şurası səviyyəsində qətnamələr qəbul olundu, amma bu qətnamələri reallaşdırmağa heç dövlət səy göstərmədi. Bu 30 il ərzində Azərbaycan təkcə ümidini nüfuzlu təşkilatlara bağlamadı. Nəticə etibarilə, Ali Baş Komandan siyasi qərarını qəbul etdi, şanlı əsgər və zabitlərimiz torpaqlarımızı yağı düşməndən azad etdi. Dövlət başçımız Vətən müharibəsi günlərində düşmənə havadarlıq edən bütün qüvvələri ram etdi, hər cür böhtanlara tutarlı cavablar verdi, "ittihamçı prokuror" rolunu oynayan xarici müxbirlərin ermənipərəst suallarına tutarlı və inandırıcı cavablar verdi. Ayrıca, Şuşanın azad olunması haqqında çoxlu əsərlər yazılacaq. Şuşanın düşmən qüvvələrindən azad edilməsi xalqımızın gücünü, iradəsini, qəhrəmanlığını bütün dünyaya bəyan etdi. 44 günlük müharibə bizi qalib dövlətə, qalib xalqa çevirdi. Həm də bu müharibə bizim ədalətimizi bir daha hamıya bəyan etdi. Düşmən mülki əhaliyə qarşı faşistlərin sərgiləmədiyi hərəkətlərə əl atdı. Gəncə, Bərdə, Tərtərdə xeyli sayda dinc əhali qadağan olunmuş silahlarla qətlə yetirildi. Amma Azərbaycan əsgəri düşmənin mülki əhalisinə güllə atmadı. Bu siyahını istənilən qədər uzatmaq olar. Vətən yolunda, torpaq uğrunda şəhid olan əsgər və zabitlərimiz oldu. Allahdan onlara rəhmət diləyirəm. Onlar Qarabağ uğrunda şəhid olan bütün əsgər və zabitlərimizin ruhunu şad etdilər. Yaralı əsgərlərimiz var. Dövlətimiz onların sağalması üçün əlindən gələni edir. "YAŞAT" Fondu yaralı əsgərlərimizin şəfa tapması üçün dünyanın ən məşhur həkimlərini Azərbaycana dəvət edir, ya da müalicə üçün yaralıları xaricə göndərir".

Tarixçi-alim milli ideologiyanın möhkəmləndirilməsi və dövlət müstəqilliyinin gücləndirilməsi istiqamətində perspektiv üçün qarşımızda vəzifələrin dayandığını diqqətə çatdırıb: "Azərbaycançılıq ideologiyası təcrübədə özünü doğrultdu. Vətən müharibəsində xalqımızın qazandığı qələbə dediklərimə əyani misaldır. Vətənin azadlığı üçün hamı bir yumruq kimi bu ideologiya ətrafında birləşdi və xalqımızın adını qaliblər sırasına yazdı".

Bütövlükdə, Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan azərbaycançılıq ideologiyası milli birliyimizi təmin edən və gücləndirən strateji amillərdəndir. Xüsusi olaraq vurğulamaq gərəkdir ki, Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən müasir mərhələdə dövlətimizin inkişaf konsepsiyasına çevrilən milli məfkurəmizin Azərbaycanın gələcək tərəqqisində müstəsna rolu var.

Yeni Azərbaycan.-2021.-26 fevral.-№37.-S.8.

Azərbaycanın onillik inkişaf konsepsiyası

Anar Turan

Bu günlərdə Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olundu. Əlbəttə, sentyabrın 27-də ağır müharibəyə cəlb olunmuş canlı qüvvə və maliyyə itkilərinə baxmayaraq qələbəni təmin etmiş bir ölkə üçün bu sənədin əhəmiyyəti olduqca böyükdür. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" növbəti 10 il ərzində ölkə qarşısında həlli vacib olan istiqamətləri müəyyənləşdirdi.

Ölkəmizdə bugünədək sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə bir sıra vacib dövlət proqramları həyata keçirilmişdir. Nəticədə, iqtisadiyyatımız sürətlə inkişaf etmiş, əhalinin sosial müdafiəsi xeyli gücləndirilmişdir. Bu, əməkhaqları, pensiyalar, təqaüd və müavinətlərin artırılmasında, yoxsulluğun səviyyəsinin azaldılmasında özünü biruzə vermişdir. Lakin görüləsi işlər hələ çoxdur.

Dünya iqtisadiyyatını ciddi itkilərə məruz qoyan koronavirus pandemiyası şəraitində ölkələrin öz dayanıqlı inkişafını qoruması həyati əhəmiyyətli məsələlərdən biridir. Bu işin ən çətin tərəflərindən biri də odur ki, bizim ölkəmiz həm də müharibəni yenicə bitirmişdir. Əlbəttə, qələbənin əldə olunması, iqtisadiyyatımızın inkişafı dediklərimizi təsdiqləsə də, bundan sonrakı illəri düşünmək və qəti qərar vermək mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, hazırda dövlətin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur və bu prioritetlərin müəyyən edilməsi günün tələbidir. Çünki dünyada gedən siyasi-iqtisadi proseslər qarşıya iqtisadiyyatın idarə olunmasının təkmilləşdirilməsi vəzifəsini qoyur. Bu səbəbdən, sənəddə qeyd edildiyi kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulan məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunu, əsas sosial-iqtisadi inkişaf istiqamətlərini, eləcə də buna uyğun milli prioritetlərin müəyyən olunmasını gündəmə gətirir.

Prezident İlham Əliyevin sözügedən sərəncamında qeyd edilir ki, artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatını dəyişməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı vermişdir. Ölkəmiz regional iqtisadiyyatın lokomotivi olaraq, dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilmişdir. Buna görə də, milli prioritetlərin əsas məqsədi və hədəfləri məhz dövlətin qüdrətli olması və yüksək rifah cəmiyyətinin formalaşmasıdır. Bunun üçün güclü iqtisadiyyatın olması şərtdir. İndiyədək həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar buna real bünövrə yaratmışdır. Dövlət əhalinin maddi rifahını daha da yaxşılaşdırmaq üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf modelini seçmişdir. Bu baxımdan, milli prioritetlər mühüm dövlət konsepsiyasıdır və onun reallaşması üçün dövlət orqanlarının qarşısında mühüm vəzifələr durur.

Təsdiqlənən sənədə əsasən, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş prioritet reallaşdırılmalıdır. Bunlar, dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi. Bu prinsiplər dövlətin qarşıdakı illərdə əsas hədəflərini müəyyənləşdirən 10 illik inkişafın yol xəritəsidir. Bu beş prinsip həm də 44 günlük Vətən müharibəsindəki tarixi qələbənin davamlılığının təminatçısı rolunda çıxış edəcək.

Sənəddə qeyd edilir ki, Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Bu isə olduqca mühüm məqamdır. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə dövlətin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir.

Sənədin ən mühüm məqamlarından birində qeyd edilir ki, qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından məcburi köçkün düşən insanların Vətənə qayıdışı təmin olunmalıdır. Bu qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və həmin ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaq. Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcək.

Ölkəmizin onillik inkişafına hesablanan düşünülmüş və müəyyən edilmiş milli prioritetlər Cənubi Qafqazın Azərbaycan mərkəzli yeni geopolitik və geoiqtisadi mənzərəsini yaradacaq. Azərbaycanın qüdrətli və davamlı inkişaf dinamikasına sahib ölkə imicini qoruması və ən azı, gələcək 10 illiyə uğurla daşıması düşmənin və havadarlarının da öz daxili auditoriyalarına ünvanlanmış yalanlarını alt-üst edəcəkdir. Bu isə bir daha Azərbaycan vətəndaşı olmağın üstünlük reallıqlarını üzə çıxaracaq və ölkəmizdə dövlət və cəmiyyət birliyinin parlaq nümunəsinə çevriləcək. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, iqtisadi müstəqilliyimiz bizə müstəqil xarici siyasət aparmağa imkan yaradır. Bu səbəbdən, milli prioritetlərdə iqtisadiyyatın inkişafına xüsusi önəm verilir. Çünki iqtisadiyyatı davamlı və yüksək templə artırmaqla Azərbaycanda insanın inkişafı, adambaşına

düşən milli gəlirin yüksək səviyyəyə qalxması gələcəyin qaçılmaz reallığıdır. Bu gün Azərbaycan sözdə deyil, reallıqda Cənubi Qafqazın ən güclü dövləti olduğunu sübut edir. Ölkədə mövcud olan müəyyən problemlərin aradan qaldırılması, cəmiyyət və dövlət arasında süni əngəllər yaradan baryerlərin götürülməsi, korrupsiya, monopoliya ilə mübarizənin sərtləşdirilməsi, məhkəmə və kadr islahatlarının aparılması, milli iqtisadiyyatın gücləndirilməsini də şərtləndirir. Dövlət başçısının son sərəncamı Azərbaycanın gələcək uğurlarını şərtləndirən əsas amillərdən biri olaraq, əhalimizin sosial-rifahının yüksəlişi ilə nəticələnəcək və bu proqramın nə qədər vacib və ardıcıl aparılması zəruriliyini ortaya qoyacaq.

Xalq qəzeti. - 2021.- 14 fevral. - № 34. - S. 4.

Müasir Azərbaycanın gücü

İradə Əliyeva

Yaşadığımız dövr, zəmanə reallıqlar dünyasıdır. Beynəlxalq ictimaiyyət hansısa məsələ barədə rəy formalaşdırarkən həmin reallıqlara istinad edir. Həyatımızda baş verənlər, gerçəkliklər isə göz önündədir. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirdi. Hazırda ölkəmiz regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr bizə sülh, davamlı inkişaf, vətəndaşlara rifah gətirir. Onlardan böyük bir coğrafiyada yaşayan insanlar da faydalanırlar. Azərbaycanın tutduğu yol, təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir. Hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına töhfə verir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 44 günlük Vətən müharibəsində ordumuzun gücü ilə tarix yazdı. Xalqını öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən qüdrətli mərhələsinə yetişdi. Qazanılan bu zəfər, bu nailiyyət möhtəşəm və qürurludur, ən başlıcası isə böyük şəxsiyyətlərin vaxtilə xalqı yetirmək arzusunda olduqları misilsiz milli hədəflərdir. Artıq qələbə ilə tamamlanan yeni bir dövr öz sözünü deməyə başlayıb.

Azərbaycan Prezidenti 1 fevral 2021-ci ildə Abşeron Rayon Xəstəxanasının yeni inşa edilmiş binasının açılışından sonra Azərbaycan televiziyasına müsahibə verdi. Həmin müsahibədə cavablandırılan sualların əhatəliliyi, toxunulan məsələlər, verilən bəyanatlar cəmiyyətdə böyük maraqla qarşılandı. Müəyyən problemlərə aydınlıq gətirildi, münasibət bildirildi, mövqe açıqlandı.

17 ildə 750-dən çox yeni xəstəxana tikilib və ya təmir edilib

Müsahibə yeni səhiyyə müəssisəsinin açılışı tədbirinə təsadüf etdiyindən Prezident İlham Əliyevin qeyd etdiyi məsələlərin bir hissəsi son illər səhiyyə sahəsində aparılan inkişaf dəyişiklikləri, yeni tikilən tibb ocaqları ilə bağlı oldu. Digər bölgələrimizdə olduğu kimi, Abşeronda da həm memarlıq, həm təchizat baxımından ən müasir tələblərə cavab verən yeni xəstəxanaların tikilməsi səhiyyə siyasətinin uğurla davam etdirildiyini göstərir. Azərbaycan Prezidenti müasir şəraiti olan bir xəstəxanada vətəndaşlarımıza yüksək səviyyədə tibbi xidmətin göstərilməsini burada çalışacaq 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi qarşısında vəzifə kimi müəyyənləşdirdi. Dövlət rəhbəri müsahibəsində onu da xatırlatdı ki, son 17 il ərzində Azərbaycanın ayrı-ayrı regionlarında 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da əsaslı şəkildə təmir edilib. Bu, hər il milyonlarla vətəndaşımızın dövlət hesabına ödənişsiz tibbi müayinədən keçməsinin mümkünlüyünü göstərir. Eyni zamanda xəstəxanaların müasirləşdirilməsi Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə də şərait yaradıb.

Azərbaycan Prezidenti müsahibəsində ölkəmizdə koronavirus pandemiyasına qarşı aparılan mübarizə tədbirləri haqqında suallara da cavab verdi. Bu tədbirləri ümumilikdə müsbət qiymətləndirən dövlət rəhbəri qeyd etdi ki, vəziyyətin bir il ərzində nəzarət altında saxlanmasında yeni laboratoriyaların ölkəyə gətirilməsinin xüsusi rolu olub. Çünki pandemiyaya qədər Azərbaycanda cəmi 8 laboratoriya olub və bu da gün ərzində cəmi min testin keçirilməsinə imkan verib. Hazırda isə laboratoriyaların sayı 42-dir. Bu laboratoriyalarda gündə 20 min test keçirilir. Qeyd edək ki, indiyədək 2 milyon 400 min test keçirilib və bu da böyük göstəricidir.

Pandemiyaya qarşı mübarizədə “Azərbaycan modeli”

Pandemiya dövrünün ilk günlərindən modul tipli xəstəxanaların ölkəyə gətirilməsinə nail olan Azərbaycan bu sahədə də liderlik nümayiş etdirib. Qısa müddətdə ölkə ərazisində 13 modul tipli xəstəxananın quraşdırılmasına nail olunub. Bəzi ölkələr məhz Azərbaycanın ardınca modul tipli xəstəxanaların gətirilməsinə başlayıb və sifarişlər kütləviləşdiyindən onların istehsalında vaxtla bağlı müəyyən problemlər özünü göstərib.

Xüsusi vürğulanmalıdır ki, Azərbaycan dövlətinin həyata keçirdiyi qabaqlayıcı tədbirlər sayəsində son həftələr pandemiya ilə bağlı müsbət dinamika müşahidə olunur. Sağalanların sayı xəstəliyə yoluxanların sayını xeyli üstələyir. Ölkə rəhbəri məhz bunu nəzərə alaraq karantin tədbirlərində yumşalma mərhələsinə qədəm qoyulduğunu diqqətə çatdırdı. Eyni zamanda bildirdi ki, dövlət bu müddət ərzində həm insanların sağlamlığını qorumaq, həm də vətəndaşlara lazım olmayan halda əlavə çətinliklər yaratmamaq üçün vəziyyətə uyğun şəkildə addımlar atıb.

Ölkə Prezidenti onu da qeyd etdi ki, xəstəliyin təhlükələrini, onunla bağlı qeyri-müəyyənlikləri, elmi tədqiqat nəticələrinin bəlli olmamasını nəzərə alaraq Azərbaycan ilk günlərdən lazımi addımlarını atıb. Eləcə də Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq bu sahədə maksimum səmərəli iş aparmaq üçün ciddi şəkildə çalışılıb.

Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiyaya qarşı mübarizədə "Azərbaycan modeli" haqqında danışır, görülən işlərə yüksək qiymət verir. Bir neçə dəfə isə Azərbaycan hətta nümunəvi ölkə kimi təqdim olunub. Dünyanın aparıcı rəy sorğusu şirkətlərindən olan "Gallup" təşkilatının Azərbaycan vətəndaşları arasında apardığı təhlil-rəy sorğusu zamanı da fikri soruşulan vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edək ki, bu göstəriciyə görə, Azərbaycan dünyada 4-cü yerdədir: "Bu, özlüyündə bir göstəricidir və onu göstərir ki, biz düzgün yoldayıq, hər zaman vətəndaşlara həqiqəti demişik".

Yardımlaşmaq məsuliyyətdir

Prezident müsahibəsində dövlətimizin pandemiya dövründə ehtiyacı olan digər ölkələrə kömək etmək haqqında da məlumat verdi. Azərbaycanın məsuliyyətli ölkə, həmçinin Qoşulmama Hərəkatına rəhbərlik edən dövlət kimi başqalarına yardımları özünə borc bildiyini qeyd etdi. Həqiqətən pandemiya dövründə xüsusilə ağır vəziyyətlə üzləşən elə ölkələr var ki, vətəndaşların gündəlik tələbatlarını ödəməkdə çətinlik çəkirlər. Bu vəziyyətdən çıxmaqda onlara yardım əlinin uzadılması, həmin ölkələrin vətəndaşları şəxsində insanlığın xəstəlikdən, aclıqdan, səfalətdən xilası hər bir məsuliyyətli ölkənin ali missiyasıdır. Azərbaycan da bunu nəzərə alaraq bu dövr ərzində mövcud imkanları daxilində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərib. Beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verib. Bu məbləğin 5 milyonu təşkilatın pandemiyaya qarşı ümumi tədbirlərinə, 5 milyonu isə Qoşulmama Hərəkatına üzv olan, xüsusilə kasıb ölkələrin yardımına istiqamətləndirilib.

Müsahibədə Azərbaycanın pandemiyaya qarşı mübarizə sahəsində beynəlxalq Zirvə görüşlərinin keçirilməsi təşəbbüslərindən də söhbət açıldı. Dövlət rəhbərimizin irəli sürdüyü bu təşəbbüslərə uyğun olaraq həm Türk Şurasının, həm də Qoşulmama Hərəkatının iki Zirvə görüşü məhz pandemiyaya həsr edilib. Prezident onu da nəzərə çatdırdı ki, bu, bütün dünyada ilk belə təşəbbüs olub və kifayət qədər müsbət nəticələr verib. Ondan sonra Azərbaycan artıq Qoşulmama Hərəkatı üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinə nail olub. Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının sədri kimi BMT Baş Assambleyasının xüsusi sessiyasındakı çıxışı zamanı bütün ölkələri bu məsələdə həmrəyliyə çağırdığını, qlobal bəlaya qarşı mübarizədə səylərin birləşdirilməsinin, hansısa birtərəfli addımların atılmamasının, zəngin ölkələrin məsuliyyət göstərməsinin, peyvəndin bütün ölkələrin xalqlarına çatmasının vacibliyini qeyd etdiyini xatırlatdı və açıq şəkildə iradlarını bildirdi: "Hətta demişdim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etmişdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük". Təəssüf ki, hazırda peyvəndlərin ədalətsiz bölgüsü halları müşahidə olunur. Prezident müsahibəsində mətbuatda açıqlanan maraqlı bir fakta toxundu. Məsələn, inkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Onlar bu günə qədər dünyada istehsal edilən vaksinlərin 53 faizini veriblər. Hətta inkişaf etmiş ölkələr vaksini öz aralarında da ədalətli şəkildə bölə bilmirlər. Prezident İlham Əliyev qlobal proseslər barədə ən informasiyalı liderlərdən biri kimi bununla bağlı məlumat və rəylərini müsahibəsi zamanı ölkə əhalisi ilə bölüşdü və haqlı suallar qoydu: "Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm".

Neomüstəmləkəçilik siyasətinin ifşası

Dövlət rəhbərimiz müsahibəsində Vətən müharibəsi zamanı ermənipərəst mövqe tutan, işğalçıları dəstəkləyən, insan haqlarından, demokratiyadan danışan Kanadanın əslində insanlığa münasibətinin necə olduğunu göstərən hamı üçün maraqlı bir fakta da toxundu. Məlum oldu ki, cəmi 38 milyon əhalisi olan Kanada 154 milyon vaksin sifariş verib: "Yəni dörd dəfə çox. Deməli, 120 milyona bu vaksin çatmayacaq. Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Bunların vecinə deyil. Bunlar ancaq eqoist hisslərə qapılaraq öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda hansı demokratiyadan söhbət gedə bilər? Hansı ədalətdən, mərhəmətdən, insan haqlarından söhbət gedə bilər?"

Azərbaycan Prezidenti insanlığa bu cür münasibətin dərin köklərinin olduğunu və bu köklərin müstəmləkəçilik dövrünə apardığını da qeyd etdi: "...Biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik, bunun başqa adı yoxdur. Belə olan halda bu ölkələrin mənəvi haqqı varmı kiməsə nəsə desin, kimisə nədəsə ittiham etsin? Bu, eqoizmdir, vicdansızlıqdır". Azərbaycan Prezidenti müstəmləkəçilikdən gələn bu cür siyasəti ifşa etdi.

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanda yanvarın 18-dən başlayaraq aparılan peyvəndləmə prosesi barədə də geniş məlumat verdi. Xatırladaq ki, Azərbaycan Cənubi Qafqazda bu prosesə start vermiş ilk ölkədir. Ölkəmizin bu sahədə də tədbirli davranması, bir çox addımları vaxtında atması, həmçinin COVAKS təşəbbüsünün üzvü olması müxtəlif vaksinlərin tez bir zamanda ölkəyə gətirilməsinə imkan yaradır. Azərbaycan

artıq 4 milyon doza vaksin sifariş edib. Onların ölkəyə gətirilməsi təmin olunub. Planauyğun şəkildə peyvəndləmə prosesi hazırda ölkəmizdə uğurla davam etdirilməkdədir.

Erməni faşizminin məhvi

Azərbaycan Prezidenti müsahibəsində 44 günlük Vətən müharibəsi zamanı azad edilmiş torpaqlarımıza səfərlərinin təəssüratlarını da bir daha vətəndaşlarımızla bölüşdü. Erməni vandallarının Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Şuşada illərlə törətdikləri vəhşi əməllərindən danışdı. Viran qoyulan şəhər və kəndlərimizdən, dağıdılan, təhqir edilən məscidlərimizdən, tar-mar edilmiş yurdlarımızdan söhbət açdı. Dağıdıb tökə-tökə, yer üzündə gözünə görünən bütün tikililərə, başqa mədəniyyətlərə aid nümunələrə dağıdıcılıq, saxtakarlıq, mənimsəmək, hər şeyi özününküləşdirmək niyyəti ilə baxaraq hara qədər getmək olar?!

Ermənilər işğal etdikləri torpaqlarımızdakı yüzlərlə mədəniyyət müəssisəsini yerləyeksan ediblər. Mədəniyyət Nazirliyinin açıqladığı faktlara görə, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

O cümlədən Cəbrayıl rayonunda VII-XII əsrlərə aid 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonundakı Gəncəsar və Xudavənd məbədləri (XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə (XIV əsr), Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu ermənilərin dağıdıcılıq xislətinə məruz qalıb. Məlumat üçün bildirək ki, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ və ətraf 7 rayonda 706-sı dövlət qeydiyyatında olmaqla, 2600-dən çox (2625 ədəd) tarix və mədəniyyət abidəsi var. Dövlət qeydiyyatına alınan abidələrdən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələridir. Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Dağlıq Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdüb. Bu torpaqlarda bütün milli izlərimizi silməyə çalışıblar.

Erməni vandalizminin, təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən ölkə rəhbəri dedi: “Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır. ...Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək”.

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi dövlətimizin qarşısında duran mühüm problemlərdəndir. Azərbaycan Prezidenti hər zaman, bütün məsələlərdə olduğu kimi bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Ölkə rəhbəri müəyyən qurumların rəhbərlərinə iradını bildirdi və bu prosesin xaotik şəkildə deyil, diqqətlə koordinasiya olunmuş tərzdə, vahid mərkəzdən idarə edildiyini vurğuladı. Prezident bu torpaqlarda bütün işlərin ardıcıllıqla həyata keçiriləcəyini, birincisi, keçmiş məcburi köçkünlərin doğma yurdlara qayıdışı üçün ərazilərin minalardan təmizlənəcəyini, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyanın qiymətləndiriləcəyini, lazımi inventarlaşdırma, pasportlaşdırma işlərinin aparılacağını, əhalinin infrastruktur layihələrinin icra ediləcəyini söylədi. Hazırda bu işlər paralel şəkildə icra olunmaqdadır.

Ölkə rəhbəri Şuşanı ölkəmizin mədəniyyət paytaxtı elan etdiyini xatırlatdı: “Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar”, - dedi.

Prezident İlham Əliyevin bu müsahibəsində təlqin olunan əsas amil məhz hər kəsə ədalətli münasibətin qorunmasıdır. Bunlar hələ ki, başlanğıcdır. İndi hamı yaxın zamanlarda azad yurdlarımızda yaradacağımız abadlıq mənzərəsi ilə, ümumbəşəri dəyərlərə xidmət amalımızla, regiona sülh, inkişaf, rifah gətirmək əzmimizlə bu torpaqlarda qurulacaq gözəl bir gələcəyin arzusundadır. Azərbaycan bu dəfə də gücünü bütün dünyaya nümayiş etdirəcək.

Azərbaycan. - 2021.- 6 fevral. - № 27. - S. 1,3.

Müstəqillik dövründə Azərbaycanda özbək əsərlərinin nəşrinə bir baxış

Gülnar Səma

Türk dünyasının önəmli dövlətlərindən biri olan Özbəkistan ədəbiyyatının Azərbaycanda tədqiq və təbliğ tarixinə nəzər salarkən bu iki ölkə arasında ədəbi-mədəni əlaqələrin qədimliyini unutmaq olmaz. İstər orta əsrlərdə və sovet dövründə, istərsə də müstəqillik illərində hər iki ölkənin ədəbi əlaqələrinin qarşılıqlı inkişaf dinamikasını Almaz Ülvinin "Azərbaycan-özbək (çağatay) ədəbi əlaqələri" kitabından izləmək olur.

Hər iki dövlətin müstəqillik qazanmasından sonra bir sıra qurumlarının, xüsusilə Elmlər Akademiyalarının, Yazıçılar Birliklərinin əməkdaşlığı davam edib. Bu istiqamətdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Dünya Gənc Türk Yazarlar Birliyinin, Daşkənddə "Azərbaycan evi"nin, Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin, Beynəlxalq Türk Akademiyasının fəaliyyətini ayrıca diqqətə çatdırmaq lazımdır. Azərbaycan Milli Elmlər Akademiyasının bu sahədə xidmətləri sovet dövründən gündəmdə olub. Belə ki, Xalid Səid Xocayevin çevirdiyi Mahmud Kaşğarlının "Divani lüğət-it-türk" əsərinin tərcüməsinin əlyazma nüsxəsi AMEA Dilçilik İnstitutunun elmi arxivində saxlanılır. 1985-ci ildə isə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbi əlaqələr" seriyasından nəşr etdirdiyi "Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr" elmi məqalələr toplusunda 16 elmi tədqiqat məqaləsi yer almışdı.

Müstəqillik dövründə Azərbaycanda özbək əsərlərinə aid tərcümə, tərtib, araşdırma, nəşr və digər bu kimi işlərin aparılmasında Ramiz Əskərin, Kamil Vəliyevin, Almaz Ülvinin, Akif Bağırovun, Yaşar Qasımbəylinin, Vaqif Arzumanlının, Ənvər Cabbarlının, Rəsmiyyə Sabirin, Əkbər Qoşalının, Səlim Babullaoğlunun, İlqar İlkinin, Şahlar Dağlaroğlunun, Əjdər Olun, Samir Abbasovun, Qulu Kəngərlinin, Ədalət Əsgəroğlunun rolu danılmazdır.

Ramiz Əskər 1994-cü ildə Yusif Balasağunlunun "Qutadğu Bilig"ini (Kamil Vəli Nərimanoğlu ilə), 2006-cı ildə Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk"ünü (dörd cilddə), 2009-cu ildə "XX əsr özbək şeiri antologiyası"nı, 2011-ci ildə Zəhirəddin Məhəmməd Baburun "Seçilmiş əsərləri"ni və "Baburnamə"ni, Sultan Hüseyn Bayqaranın "Divan"ını, 2018-2019-cu illərdə Əlişir Nəvainin "Xəmsə"sini Azərbaycan dilinə çevirib. Alim xidmətlərinə görə Özbəkistanın "Babur" mükafatına layiq görülüb. 2003-cü ildə "Qutadğu bilik", 2008-ci ildə "Mahmud Kaşğari və onun "Divanü-lüğat-it-türk", 2020-ci ildə "Əlişir Nəvai və onun "Xəmsə"si" adlı elmi-tədqiqat kitabları nəşr olunub.

Müstəqillik dönəmində işıq üzü görmüş kitablardan Xalq yazıçısı Anarın hazırladığı 1993-cü ildə "Yazıçı" nəşriyyatında çap olunmuş "Türkün 101 şairi" kitabını göstərə bilərik. Həmin kitabda özbək yazarlarından Rauf Pərfinin "Duyumlar" əsəri A.Bağırovun, Məhəmməd Salihin "Əgər bu sinəmə", "Gecə", "Ona ağı deyib" əsərləri V.Cəbrayılzadənin çevirməsində yer almışdı. 1992 və 2005-ci illərdə "Turan çələngi", 2000-ci ildə "Türkün dastanı" toplularının çap olunmasının özünəməxsus əhəmiyyəti vardır. Özbək folklorçusu Məmmədqul Curayevin toplayıb tərtib etdiyi "Əlişir Nəvai haqqında rəvayətlər" 1994-cü ildə Füzuli Bayat tərəfindən Azərbaycan dilində nəşr edilmişdi. 2000-ci ildə Azərbaycan-özbək ədəbi-publisistik əlaqələrinin körpüsünü yaradan yazıçı-publisist Ağəddin Mansurzadənin "Özbəkistanda nəyim qaldı" adlı sanballı kitabı çap olunmuşdu.

Müstəqillik illərində xüsusi çəkisi olan layihələrdən biri kimi 2005-ci ildə "UGART cəhdləri" (Özbəkistan, Gürcüstan, Azərbaycan: yaradıcılıq - tərcümə cəhdləri) adlı konfransı qeyd edə bilərik. Həmin konfransda "Çağdaş özbək ədəbiyyatından seçmələr" bölməsində Akif Azalp "Şərqlə Qərbin yol ayrıcında (Çağdaş özbək şeirinə bir baxış") adlı icmal məqaləsində Tutubikə, Möhtərəm Uluğova, Fərağət Kamalqızı, Aygün Suyundukova, Fəriqə Əfruz, Xasiyyət Rüstəmova kimi müəlliflərin əsərlərinə münasibət bildirmişdi. "Dünya ədəbiyyatı"nın xüsusi buraxılışında çağdaş özbək poeziyasından Abdulla Arifin (S. Babullaoğlu), Osman Əzimin (A. Azalp), Bəhram Ruzimöhəmmədin (G. Mövlud), Eşkabil Şükürün (G. Mövlud), İqbal Mirzənin (A. Azalp), Mirpolad Mirzənin (G. Mövlud), Əziz Səidin (S. Babullaoğlu), Osman Qoşqarın (A. Azalp), Qoşqar Narqabilin (A. Azalp), Siracəddin Səyyidin (G. Mövlud), Xasiyyət Rüstəmovanın (A. Azalp), Xurşud Dövranın (S. Babullaoğlu) şeirləri və Xeyrəddin Sultanovun "Ya cəmşid!" (M. Nur), Əbdülhəmid İsmayılın "İki qocanın tarixçəsi" (P. Yusif) adlı hekayələri toplanmışdı.

Əlaqələrin davamı olaraq 2006-cı ildə "Turan çələngi" kitabının təqdimat mərasimi, 2007-ci ildə Əlişir Nəvainin "Mizan ul-ovzan" əsərinin tərcüməsinə və "Şərq təranələri"nə həsr edilmiş gecə təşkil olunmuşdu. 2007-ci ildə Akif Azalp "Turan havası" kitabını, 2009-cu ildə Dünya Gənc Türk Yazarlar Birliyi və "Vektor" Uluslararası Elm Mərkəzi Rəsmiyyə Sabirin tərcüməsində Xasiyyət Rüstəmin "Qorxunc" seçmə şeirlər kitabını nəşr etdi. 2010-cu ildə Ağacəfər Həsənlinin tərtib və redaktorluğu ilə islam ölkələri şairlərinin şeirlərindən ibarət

"Sevgi fəsli" kitabı çap olundu, kitaba Azərbaycan şairlərinin tərcüməsində özbək ədəbiyyatından seçmələr də daxil edildi.

2019-cu ildə Şahista Kamranlının tərcümə etdiyi Qoşqar Narqabilin "Xoşbəxtliyin bazarı varmı, yaxud beş dul və bir rəis" pyesi Almaz Ülvinin ön sözü və Əkbər Qoşalının rəyi ilə çap olunub. Xasiyyət Rüstəmin 2020-ci ildə Bakıda çap olunan "Leyli ağaclar" kitabındakı şeirləri Afaq Şıxlı, "Gündəlik" bölümünü Eluca Atalı və Şermurad Sübhan özbəkcədən dilimizə uyğunlaşdırıblar. Onun redaktorluğu ilə yayımlanan "Kitab dünyası" qəzeti də mədəni əlaqələrin inkişafında xüsusi rola malikdir.

Bunlarla yanaşı, Azərbaycan ədəbiyyatının Özbəkistanda nəşri də gündəmdən düşməyib. İlk dəfə 2014-cü ildə Məhsəti Gəncəvi, Heyran Xanım, Xurşudbanu Natəvan şeirlərindən ibarət "Eşq içində pərvanələr" kitabı Aydın Hacıyevin tərcüməsində özbək oxucularına təqdim olunmuşdur. Kitabın məsul katibi professor Həmdulla Baltabayev, tərtibçiləri isə Almaz Ülvi və Yaşar Qasımbəylidir. Həmçinin 2014-cü ildə çap olunmuş "Ömürdən uzun gecə" ədəbi-bədii kitabında Azərbaycan yazarlarının əsərləri də yer alıb. 2016-cı ildə isə Daşkənddə "Özbək ədəbiyyatı və Azərbaycan (tədqiqatlar, ədəbi portretlər, söhbətlər)" kitabı çap edilmişdir.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən 2018-ci ildə "Cümhuriyyət ili" münasibəti ilə başladılmış nəşr layihəsində "Ozarbayjon Demokratik Respublikası va mustaqıllık davrı Ozarbayjon adabıyotı" adlı kitab özbək dilində çap olunmuşdur. Nəşr Alxan Bayramoğlunun "Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat" adlı əsəri və Ramiz Əskərin "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabları əsasında hazırlanmışdır. Bu kitab Azərbaycan Mədəniyyət Mərkəzinin sifarişi ilə Özbəkistanın Termez Dövlət Universitetinin Filologiya fakultəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, "Termez Universiteti" qəzetinin baş redaktoru, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantı, tərcüməçi Obidjon Şofiyev tərəfindən özbək dilinə uyğunlaşdırılıb.

2018-ci ildə Azərbaycan və özbək dillərində Daşkənddə çap olunan "Özbək şeir çələngi"nin tərtibçisi və uyğunlaşdıranı Şahməmməd Dağlaroğlu və Şəhla Qasımovadır. Həmin nəşrə məsul Əkbər Qoşalı, redaktor Fərid Hüseyndir. "Özbək şeir çələngi"nin məsləhətçiləri Qənirə Paşayeva və Samir Abbasov, rəyçiləri akademik Nizami Cəfərov və professor Almaz Ülvidir.

2019-cu ildə özbək şairlərinin Nəsimi haqqında yazdığı şeirlərdən ibarət "Məndə sığar iki cahan" kitabı da işıq üzü görüb. Həmçinin Cəlil Məmmədquluzadənin hekayələri Osman Quçkarın tərcüməsində akademik İsa Həbibbəylinin ön sözü ilə 2019-cu ildə "Poçt qutusu" adı ilə Daşkənddə "Mümtaz" nəşriyyatında çap olunub.

Vurğuladığımız kimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun bu istiqamətdə apardığı işlər də danılmazdır. 2019-cu ildə İnstitutda "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət" kitabının (iki dildə) təqdimat mərasimi keçirilib. Eyni zamanda Akademik İsa Həbibbəylinin 70 illiyi münasibətilə Özbəkistanda yayımlanan "Ustoz" dərgisinin xüsusi buraxılışını Almaz Ülvi və Yaşar Qasımbəyli nəşrə hazırlayıb çap etdirmişdir. Xüsusi buraxılışın məsul katibi professor Həmdulla Baltabayev, tərcüməçisi Obidjon Shofiyevdir.

2019-cu ildə Maqsud Şeyxzadənin 110 illiyi Azərbaycanda və Özbəkistanda qeyd edilib, həmin il "İki xalqın oğlu Maqsud Şeyxzadə" kitabı ədibin 110 illiyi münasibətilə AMEA Ədəbiyyat İnstitutunun Elmi şurasının qərarına əsasən akademik İsa Həbibbəylinin elmi redaktorluğu və ön sözü ilə çap olundu.

2020-ci ildə AMEA Ədəbiyyat İnstitutunun Elmi şurasının qərarına əsasən akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə Əlişir Nəvainin "Hikmətli sözlər" əsəri Azərbaycan və özbək dillərində çap olunub. Əsəri Almaz Ülvi, Yaşar Qasımbəyli, Akif Azalp tərcümə ediblər. 2020-ci ildə İnstitutda Özbəkistan Respublikasının Azərbaycandakı səfirliyi və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və ədəbiyyatı Universiteti ilə birlikdə Əlişir Nəvainin anadan olmasının 579 illiyinə həsr olunmuş "Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfrans keçirilib.

Bu iki ölkənin ədəbi əlaqələrini müstəqillik işığında gözdən keçirərkən belə bir təəssürat yaranır ki, sovet dövrünün beynəlmiləlçilik təbliğatının əksinə olaraq Azərbaycan-özbək ədəbi əlaqələri türk kökəninə əsaslanaraq inkişaf edib. Müstəqillik illərində həyata keçirilən sanballı işlər möhkəm özül daşlarına söykənir. Belə ki, hələ sovet dövründən əsərlərin tərcümə və nəşr işlərində kifayət qədər irəliləyiş vardı.

525-ci qəzet. - 2020. - 6 noyabr. - № 148. - S. 14.

Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir

Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətçilik salnaməmizin ən şərəfli səhifəsi yazılır

Sahibə Qafarova,
Milli Məclisin sədri

Müstəqillik, öz taleyinə sahib olmaq, öz dövlətini yaratmaq və inkişaf etdirmək hər bir xalq üçün ən böyük nailiyyətdir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə baxmayaraq, heç bir qüvvə Azərbaycan xalqının müstəqillik, dövlətçilik arzularını söndürə bilməmiş, şərait, imkan yetişən kimi xalqımız müstəqillik ideallarını gerçəyə çevirmişdir. Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün öz müstəqil dövlətinə sahibdir və dövlət müstəqilliyimiz xalqımızın milli sərvətidir.

Tarixdə şəxsiyyətlərin rolu danılmazdır. Öz əməlləri ilə mənsub olduğu xalqın taleyini, tarixini dəyişdirmiş, milli kimliyini qürur və fəxarət mənbəyinə çevirmiş şəxsiyyətlər xalqının milli yaddaşında əbədiyaşarlıq hüququ qazanmışdır. Bu gün müstəqil kimliyi və öz dövləti ilə dünya səhnəsində yer alan xalqların taleyini də məhz belə tarixi şəxsiyyətlər müəyyənləşdirmişdir. Azərbaycan xalqı üçün belə möhtəşəm əməllərə imza atmış şəxsiyyət və böyük lider isə şübhəsiz ki, Ulu Öndər Heydər Əliyev olmuşdur. Təsadüfi deyil ki, bu gün Heydər Əliyevin adı müstəqil və suveren Azərbaycanın simvolu kimi səslənir. Çünki Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil Azərbaycan dövlətini qurmaq olmuş və o, müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində xalqımızın azadlıq və müstəqillik ideallarını gerçəkləşdirməyə nail olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının yaradılması

Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqının xoşbəxt yaşamasına, Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etməyə həsr etmiş Ümummilli Lider Heydər Əliyev daim xalqına arxalanaraq və zəngin dövlətçilik təcrübəsinə, yüksək idarəetmə bacarığına söykənərək çox qətiyyətli, müdrik qərarlar qəbul etmiş, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmiş, ölkəmizin və xalqımızın milli inkişafını təmin etmişdir. O, hələ Sovet İttifaqı dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizin müstəqilliyinin sütunlarını yaratmağa başlamış, bütün fəaliyyətini bu istiqamətə yönəltmiş, müasir Azərbaycanın bugünkü reallıqlarını və etibarlı əsaslarını qura bilmişdir.

1969-82-ci illərdə Ulu Öndərin respublikamızın sosial-iqtisadi, mədəni yüksəlişi üçün gördüyü işlər, milli ruhun və milli özünüdərkin inkişafı, xalqımızın tarixi yaddaşının özünə qaytarılması və milli şüurun oyanışı, azərbaycançılıq məfkurəsinin ideoloji sütuna çevrilməsi kimi fundamental məsələlərin çox dəqiqliklə və cəsarətlə həllini tapması, milli ziyalı təbəqəsinin formalaşdırılması istiqamətində atdığı addımlar Azərbaycanın gələcəkdə müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan respublika kimi mövcudluğuna zəmin hazırlayan düşünülmüş tədbirlər olmuşdur. Həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına yönəldilərək gələcək müstəqilliyimizin təmin olunmasına əsas yaratmışdır. Bu dövrdə keçmiş ittifaq miqyasında tanınmış ali məktəblərə göndərilən azərbaycanlı gənclər sonradan müstəqillik illərində ölkəmizin yenidən qurulmasında fəal iştirak etmiş, həmçinin Ulu Öndərin şəxsi təşəbbüsü ilə respublikamızda formalaşdırılmış hərbi kadr potensialı müstəqil Azərbaycan Ordusunun yaranmasında da mühüm rol oynamışdır. Milli mədəniyyət, milli tarix, milli-mənəviyyat məsələlərində müstəqillik elementləri qabarıq şəkildə ortaya qoyulmuşdur.

1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilərək SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilən Ulu Öndər Heydər Əliyev bu vəzifədə də daim xalqımızın mənafelərini qorumuş, Azərbaycana qarşı erməni millətçiliyinin və onların dəstəkçilərinin təxribatlarının qarşısını qətiyyətlə almışdır. Bu isə həm də o deməkdir ki, Heydər Əliyev harada çalışmasından asılı olmayaraq, həmişə xalqına, Vətəninə sədaqətlə xidmət etmiş, doğma Azərbaycanı ilə əlaqələrini kəsməmiş, respublikanın inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Müstəqillik uğrunda atılan növbəti addımlar

Ötən əsrin 80-ci illərinin sonlarında dünyada tamamilə fərqli bir mənzərə formalaşmışdı. Yeni geosiyasi düzənə transformasiya sürətlənmiş, yeni qlobal dəyərlər sistemi meydana çıxmağa başlamışdır. Bu proseslər fonunda keçmiş ittifaq daxilində də xalqların müstəqillik arzuları baş qaldırmışdır. Doğrudur, ittifaqın süquta uğraması və müstəqil dövlətlərin həyata vəsiqə qazanması heç də asan yolla başa gəlməmişdir. Azərbaycan xalqı üçün də öz müstəqil dövlətini qurmaq, azadlıq ideallarına qovuşmaq çox gərgin, faciəli hadisələrin nəticəsində

mümkün olmuşdur. 1990-cı ilin 20 Yanvar hadisələrini proseslərin dönüm nöqtəsi hesab etmək olar. Həmin dövrdə də yenə məhz Ulu Öndər Heydər Əliyev xalqının yanında olmuş, 20 Yanvar faciəsinin ertəsi günü Kreml rejiminin təqiblərinə baxmayaraq, öz ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək bəyanat vermiş, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmiş, daha sonra SSRİ rəhbərliyinin apardığı siyasət nəticəsində Dağlıq Qarabağda yaranan kəskin münaqişə vəziyyətinə etiraz əlaməti olaraq, Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti də Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolu oynamışdır. Həmin dövrdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilərək, "Sovet Sosialist" sözləri oradan çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir. Həmçinin Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, Azərbaycanda da eyni qərar qəbul olunsun. Bundan başqa, 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə muxtar respublikada məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir.

Bunlar Azərbaycan xalqının lideri tərəfindən müstəqillik uğrunda atılan növbəti addımlar kimi qiymətləndirilir.

Çox təəssüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda mövcud olan hakimiyyət boşluğu, dövlət idarəçilik sükanını mənimsəyən və müəyyən dairələrin direktivləri ilə hərəkət edən qrupların, siyasi hakimiyyəti qeyri-qanuni, antidemokratik yolla ələ keçirən qüvvələrin yarıtmaz fəaliyyəti yenicə əldə olunmuş müstəqilliyi itirmək, Azərbaycan xalqının azadlıq ideallarından, müstəqillik kimi tarixi nailiyyətdən məhrum olmaq təhlükəsi yaratmışdı. 1991-ci ilin 18 oktyabr tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunsa da, bu müstəqilliyi qoruyub saxlamaq üçün dövlətçiliyin əsasları yaradılmamış, cəmiyyətdə milli həmrəylik, milli birlik təmin olunmamışdır. Azərbaycanda hökm sürən hərc-mərclik, cinayətkarlığın artması respublikamızın həyatının bütün sahələrinə böyük zərbələr vurmuş, ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsinə gətirib çıxarmışdır. İqtisadiyyat tamamilə məhv edilmiş, ciddi maliyyə böhranı meydana çıxmış, xarici siyasət sahəsində qeyri-sağlam vəziyyət yaranmışdır. Buna paralel olaraq, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti getdikcə genişlənmiş, 1993-cü ilin may-iyun aylarında ölkəmizdə siyasi böhran son həddə çatmış, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, sabitliyin bərqərar olması

Belə bir şəraitdə Azərbaycan xalqının diqqəti yenidən xalqımızın böyük oğlu Heydər Əliyevə yönəlmişdir. Bu dəfə də xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər xalqın tələb və təkidlərinə cavab verərək ölkəmizdə növbəti dəfə hakimiyyətə gələrək, Azərbaycanın dövlətçiliyini, ölkəmizin müstəqilliyini xilas etmiş, yüksəliş, inkişaf və sabitlik erasının əsasını qoymuşdur. Bu isə Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcı demək idi.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinə Sədr seçilməsi parlamentarizm tariximizdə müstəsna əhəmiyyətə malikdir. Bu dövr Azərbaycan parlamentarizm tarixinin ən parlaq səhifələrini təşkil edir. Xalqımızın böyük oğlunun rəhbərliyi ilə parlament ali qanunverici orqan kimi ölkəmizin problemlərinin həlli ilə bağlı demokratik müzakirələrin keçirildiyi və siyasi mədəniyyətin hökm sürdüyü bir tribunaya çevrilmişdir. Parlamentin ictimai nüfuzu yüksəlmiş və effektiv qanunvericilik fəaliyyəti həyata keçirilmiş, mühüm qanunlar qəbul olunmuşdur. Bu qısa dövrdə ölkə həyatının ən müxtəlif sahələrini əhatə edən, iqtisadiyyatın yenidən dirçəldilməsi və vətəndaşların sosial mənafelərinin qorunmasına yönəlmiş, həmçinin beynəlxalq fəaliyyət sahəsində prioritetlərin əks olunduğu 120-dən artıq qanun və qərar qəbul olunmuşdur. Azərbaycan parlamentinə rəhbərlik etdiyi dövrdə Ulu Öndər ictimai sabitliyin bərpası, siyasi sistemin inkişafı, Azərbaycanın beynəlxalq təcridinin aradan qaldırılması istiqamətində yorulmadan fəaliyyət göstərmiş, mədəniyyətin, elmin, təhsilin inkişafına, gənc nəslin fəallığının artırılmasına böyük diqqət göstərmişdir. Beləliklə, çox qısa müddətdə Azərbaycan parlamenti Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkənin taleyüklü məsələlərinin həllində vacib rola malik olmuş, ölkəmizin müstəqil inkişafına öz dəyərli töhfələrini vermişdir.

1993-cü il oktyabr ayının 3-də keçirilən seçkilərdə Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə qısa müddətdə ictimai nizam-intizam, siyasi sabitlik təmin edilmiş, milli təhlükəsizliyin sarsılmaz əsasları yaradılmış, qanunsuz silahlı birləşmələr tərk-silah edilmiş, nizami, güclü ordu quruculuğuna başlanmışdır. Hüquqi dünyəvi dövlət quruculuğu prosesinə start verilmiş, müstəqil Azərbaycanın Konstitusiyası qəbul olunmuş, ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlanmışdır. Ulu Öndər Heydər Əliyev ölkəmizin müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı və elmin, təhsilin, mədəniyyətin inkişafını təmin etmişdir. Yeni neft strategiyasının hazırlanması, bunun əsası olan "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın qlobal enerji bazarında və beynəlxalq münasibətlərdə aktiv iştirakının təmin olunması, yeni və praqmatik xarici siyasət

strategiyasının müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi həmin dövrdə ölkəmizin qarşısında tamamilə yeni inkişaf paradiqmalarının meydana gəlməsini şərtləndirmişdir. Azərbaycan Ulu Öndər Heydər Əliyevin müstəsna liderlik qabiliyyəti və yüksək idarəetmə məharəti sayəsində 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşamış, müstəqilliyini möhkəmləndirmişdir.

Dövlət müstəqilliyinin əbədiliyinin, sarsılmazlığının, dönməzliyinin təmin olunması

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onunla əlaqədardır ki, onun ideyaları konkret zaman və məkan məhdudiyyəti tanımır. Ulu Öndərin müəllifi olduğu dövlətçilik konsepsiyası, dəqiqliklə işləyib hazırladığı strateji kurs sonrakı dövrdə də ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə, inkişafına xidmət etmiş, Azərbaycanın gələcəyinə işıq tutmuşdur. Yeni əsrin və yeni minilliyin başlanğıcında Heydər Əliyev siyasətini davam etdirmək gücündə və iqtidarında olan, başlanılan qlobal işləri, transmilli layihələri uğurla həyata keçirə biləcək, Azərbaycanı Ulu Öndərin görmək istədiyi zirvələrə qaldıracaq yeganə lider möhtərəm Prezident

İlham Əliyev idi. Ümummilli Lider Heydər Əliyev də 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına tarixi müraciətində tam haqlı olaraq, cənab İlham Əliyevə böyük etimadını ifadə etmiş və bəyan etmişdir ki, "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".

Təbii ki, Azərbaycan xalqı heç bir tərəddüd etmədən və əminliklə Ümummilli Liderin bu müraciətinə dəstək verərək prezident seçkilərində cənab İlham Əliyevə yüksək etimad göstərmişdir. Beləliklə, xalqımız növbəti dəfə müdriklik göstərərək öz qərarını vermiş, Heydər Əliyev siyasətinin ardıcıllığının təmin olunmasını dəstəkləmişdir. Ali kürsüdə fəaliyyətə başlayan ilk gündən cənab Prezident İlham Əliyev bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıca şərt ölkədə Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Çünki təcrübəli siyasətçi, geniş dünyagörüşünə malik müasir lider və böyük strateq kimi cənab Prezident İlham Əliyev çox dəqiq müəyyən etmişdir ki, yalnız Heydər Əliyev strategiyasını həyata keçirməklə, onun qoyduğu siyasi yolu davam etdirməklə Azərbaycanı güclü dövlətə çevirmək mümkündür. Ona görə də dövlət başçısı xalqa müraciətində demişdir ki, "Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Cənab Prezident İlham Əliyevin dövlət başçısı kimi nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti ilk gündən ona böyük ictimai dəstək, xalqın sonsuz inam və etibarını qazandırmışdır. Prezident

İlham Əliyev isə bu gücə söykənərək, xalqın inam və etimadını istinad nöqtəsi olaraq dəyərləndirmiş, qəbul etdiyi bütün taleyüklü qərarlarda yalnız xalqımızın mənafeyini rəhbər tutmuşdur. Dövlət başçısı xalqa müraciətlərinin birində müstəqil siyasət həyata keçirməyin əhəmiyyətini bu fikirlərlə çox aydın ifadə etmişdir: "Heç bir kənar qüvvə bizi bu yoldan döndərə bilməz. Bu yol Azərbaycan xalqının şüurlu seçimidir. Biz müstəqil ölkəyik. Biz böyük xalqıq. Ancaq böyük xalq bu qədər nəticələr əldə edə bilər. Ancaq müstəqillik şəraitində Azərbaycan bu qədər uğurlar əldə edə bilər. Bizim taleyimiz öz əlimizdədir".

Bəli, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 17 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə özünün dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Bu illər ərzində ölkəmizdə ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi daha da möhkəmlənmişdir. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan yeni əsrin əvvəllərində keçid iqtisadiyyatı ilə vidalaşaraq yeni tərəqqi və milli inkişaf arxitekturası üzərində möhkəmlənən iqtisadi modelin tətbiqinə başlamış, postsovet ölkəsi fazasından çıxaraq yüksək inkişaf proqnozları ilə irəliləyən innovativ və modern iqtisadiyyata malik ölkə kimi inamla inkişaf etmişdir. Bu zaman keçidində iqtisadiyyatın dinamik inkişafı, uzunömürlü tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuş, həyata keçirilən dövlət proqramları bütün bölgələrin hərtərəfli və tarazlı sosial-iqtisadi tərəqqisinə və qeyri-neft sektorunun inkişafına yol açmışdır. Prezident İlham Əliyevin milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsinə əsaslanmışdır. İqtisadiyyatın aqrar sektorunda islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan vermişdir.

Məqsədyönlü sosial tədbirlər nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yüksəlməsinə xidmət edən uğurlu sosial dövlət modeli formalaşdırılmış, işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olunmuş, əməkhaqları, pensiya və təqaüdlər əsaslı şəkildə artırılmışdır. Son 17 ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş həcmi yerinə yetirilmiş, ölkədə bütün çadır düşərgələri ləğv edilmiş, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilmişdir. Ölkənin infrastruktur sistemi tamamilə yenilənmiş, müasir əsaslarda yenidən qurulmuşdur.

Azərbaycanda Prezident İlham Əliyevin müəllifliyi ilə nəhəng transmilli energetika layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, "Cənub qaz

dəhlizi" kimi enerji təhlükəsizliyində mühüm rol oynayan nəhəng layihələr Avropanın enerji xəritəsini dəyişdirmişdir. Həmçinin Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyət daşıyan trans-nəqliyyat, kommunikasiya layihələri reallaşdırılmış, Avropanı Asiya ilə birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması təmin edilmiş, Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur.

Siyasi sistemin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi, plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, söz və məlumat azadlığının təmin olunması istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir.

Azərbaycanın hərtərəfli inkişafını xarakterizə edən mühüm məsələlərdən biri də bütün sahələri əhatə edən geniş və innovativ proqramların icrası, konseptual yanaşmanın tətbiqidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni nəsil və modern islahatlar strategiyası Azərbaycanın dinamik inkişafını təmin edən mühüm şərtlərdən biridir. Qabaqcıl institusional islahatlar sırasında isə Birinci vitse-prezidentlik institutunun yaradılması müstəsna əhəmiyyətə malikdir. Ötən dövr göstərdi ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması və hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi sonrakı mərhələdə vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amil olmuşdur. Mehriban xanım Əliyeva uğurlu və çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın inkişafına müstəsna töhfələr verir. Başqa sözlə, bu gün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti ölkəmizin tərəqqisi, ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük önəmə malikdir. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycanın inkişafına, dünyada təbliğinə sanballı töhfələr verir. Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın istər pandemiya ilə mübarizə, istərsə də ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər, çağırışlar və bəyanatlar milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfədir.

Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olunur!

Ötən 17 ildə bütün digər istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu prinsiplər uğurla tətbiq olunmuş, milli maraqlara söykənən müstəqil xarici siyasət həyata keçirilmişdir. Dövlət başçısının qətiyyəti, yüksək diplomatik səriştəsi, həmçinin bütün məsələlərdə beynəlxalq hüquqa və ədalətə istinad edən prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq nüfuzu yüksəlmiş, 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir və hazırda təşkilata uğurla sədrlik etməkdədir. Digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycana inteqrasiyanın dərinləşməsinə, ölkə reallıqlarını dünya ictimaiyyətinə obyektiv və dolğun çatdırmağa imkan vermişdir. Azərbaycan Prezidentinin sülh və humanizm, birgə geniş əməkdaşlığı təmin edən xeyirxah missiyası qlobal məkanda birliyin, tolerantlığın, sivilizasiyalararası dialoqun, multikulturalizmin dərinləşməsinə töhfə verir, dövlətlərarası səmimi münasibətlərin təmas nöqtələrinin trayektoriyasını müəyyən edir.

Təbiidir ki, Azərbaycanın xarici siyasət institutunun qarşısında duran bir nömrəli məsələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Prezident İlham Əliyev bu istiqamətdə də vəzifəni konkret müəyyənləşdirmişdir: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". Ona görə də ötən dövrdə xarici siyasətin bütün arsenalı əsas etibarilə bu münaqişənin həllinə yönəldilmiş, Azərbaycanın cəhdləri problemin sülh yolu və danışıqlar vasitəsilə aradan qaldırılmasına xidmət etmişdir. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Azərbaycan bütün dövrlərdə konstruktiv mövqe göstərmiş, münaqişənin ədalətli həlli prosesinə sadiq qalmışdır.

Lakin Ermənistan rəhbərliyinin danışıqları pozmaq, sülh prosesindən imtina etmək, status-kvonu möhkəmləndirmək istiqamətində təxribatları, eyni zamanda beynəlxalq ictimaiyyətin Yerevanın siyasi rəhbərliyinin bu riyakar davranışlarına adekvat münasibət bildirməməsi 30 ilə yaxındır davam edən sülh danışıqlarının nəticəsiz qalmasına gətirib çıxarmışdır. Bununla yanaşı, işğalçı ölkənin son dövrlər hərbi təxribatlarının artması, Azərbaycana qarşı yeni işğalçılıq iddialarının ortaya atılması ölkəmizi alternativ tədbirlər görməyə, tarixi ədaləti öz gücü hesabına bərpa etməyə vadar etmişdir.

Beləliklə, öz müstəqilliyinin 29-cu ildönümünü qeyd edən Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixini yazır. Əlbəttə, Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Amma bu gün Ali Baş Komandanın başçılığı ilə Azərbaycan Ordusunun zəfər yürüşü, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Qurtuluş savaşı aparan Şanlı Ordumuz 30 ilə yaxındır işğal altında olan torpaqlarımızı - Füzuli, Xocavənd, Cəbrayıl, Tərtər rayonlarının bir sıra kəndlərini, Suqovuşan kəndini, Hadrut qəsəbəsini, Cəbrayıl və Füzuli şəhərlərini düşməndən təmizləyərək zəfər yürüşünü, xilaskarlıq missiyasını davam etdirir. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Torpaqlarımızın azad edilməsi həm də Azərbaycan xalqının özünə inamını qaytarır, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirir. Bu gün Azərbaycan xalqı, hər bir vətəndaşımız Ali Baş Komandanın və şanlı ordumuzun ətrafında yumruq kimi sıx birləşərək işğal altında olan bütün torpaqlarımızın azad ediləcəyi günü səbirsizliklə gözləyirlər. Və şübhə yoxdur ki, Ali Baş Komandan və onun rəhbərliyi ilə Azərbaycan Ordusu Azərbaycan xalqının ümidlərini yenə də doğruldacaq və Azərbaycan haqq işində zəfər çalacaqdır! Bu gün işğaldan azad olunmuş tarixi ərazilərimizdə üçrəngli Azərbaycan bayrağının qürurla dalğalanması isə müstəqillik günümüzə ən böyük hədiyyədir!

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Azərbaycan. - 2020.- 18 oktyabr. - № 215. - S. 4.

Əbədi və sarsılmaz müstəqillik

Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövləti İlham Əliyevin rəhbərliyi ilə tarixinin növbəti şərəfli mərhələsindən keçir

Rəşad Cəfərli

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 29 il ötür. Əvvəlki illərdən fərqli olaraq, xalqımız bu dəfə müstəqilliyimizin bərpasının ildönümünü tamamilə başqa əhvali-ruhiyyədə qarşılayır. Çünki budəfəki ildönümü Azərbaycanın müstəqillik tarixinin olduqca şərəfli səhifələrinin yazıldığı bir dövrə təsadüf edir. Növbəti ildönümünü ordumuzun işğal altında olan torpaqlarımızı erməni işğalından təmizlədiyi vaxtda qeyd edirik.

Ulu Öndərin xilaskarlıq missiyası müstəqilliyimizi əbədi etdi

1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunması respublikamızın tarixində yeni dövrün başlanğıcını qoydu. Həmin tarixdən xalqımız özünün 71 il əvvəl itirilmiş azadlığına yenidən qovuşdu, Azərbaycanın müstəqil dövlət olması bütün dünyaya bəyan edildi. Lakin digər respublikalardan fərqli olaraq, Azərbaycanı müstəqilliyə aparan yolllar hamar olmadı. Xalqımız bu yolda çox qurbanlar verdi, çox əziyyətlər çəkdi. Ona görə bu azadlıq ən uca milli qürur mənbəyi kimi bizim üçün əvəzsiz bir dəyərdir.

Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi cəmiyyətimiz tərəfindən nə qədər böyük coşqu və sevinclə qarşılansa da, sonrakı dövrdə baş verən neqativ siyasi proseslər xalqımızın azadlıq ideyalarını şübhə altına almışdı. 1991-1993-cü illərdə hakimiyyətdə olan iqtidarlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə, ölkəni dünyada gedən proseslərdən uzaq salaraq təklənməsinə, təcrid edilməsinə səbəb oldular. Hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçilyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi.

Belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu. Xalqımızın dahi oğlunun siyasi hakimiyyətə gəlişi ilə respublikamızın 1920-ci ildəki aqibətinin təkrarlanması təhlükəsi aradan qalxdı.

1991-ci ildən 1993-cü ilin iyun ayına qədər cərəyan edən proseslər göstərdi ki, müstəqilliyi qorumaq onu bərpa etməkdən daha çətin imiş. Əgər Xalq Cümhuriyyəti əsrin əvvəllərində cəmi 23 ay yaşamışdısa, əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan cəmi 18 aya nəinki müstəqilliyini, bütövlükdə, dövlətçiliyini itirmək, parçalanmaq, dövlət kimi siyasi səhnədən silinmək təhlükəsi ilə üzləşmişdi. Məhz Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində ölkəmiz Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı bacardı. Ulu Öndərin adı isə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi tarixə həkk olundu, xalqımızın Ümummilli Liderinə çevrildi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın müddəaları da Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində real həyata vəsiqə aldı. Ulu Öndər xalqımızı çoxdan arzusunda olduğu əsl müstəqilliyinə qovuşdurdu.

İnkişaf və yüksəliş

Ulu Öndərin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində müstəqilliyimizin siyasi və iqtisadi sütunları daha da möhkəmlənib. Azərbaycan bu gün dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. Bunun fonunda müstəqilliyimizin möhkəm olması daha aydın görünür. Azərbaycanın bölgənin lideri olması, tam müstəqil siyasət həyata keçirməsi, ərazisində heç bir dövlətin hərbi kontingentinin olmaması, böyük güclərin maraqlarını öz maraqları ilə uzlaşdırması, beynəlxalq tədbirlər mərkəzinə çevrilməsi, son illərdə kosmik klubun üzvləri sırasına daxil olması bu qüdrətin ayrı-ayrı möhtəşəm təzahürləridir. Bir neçə il əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi də müstəqilliyin və müstəqil siyasətin nəticəsi idi.

Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsi, yeni enerji layihələrinin işə düşməsi, o cümlədən iqtisadiyyatın digər sahələrində yeni layihələrə start verilməsi məhz müstəqil siyasətin və müstəqil dövlətçiliyin bəhrələridir. Xalqımız özünün iqtisadi resurslarının, təbii sərvətlərinin tam sahibidir və bunlardan rifahı naminə səmərəli istifadə edir.

Müstəqilliyin bizə bəxş etdiyi ən böyük imkanlardan biri də inkişaf və yüksəlişdir. Məsələn, bu gün Azərbaycanın ən ucqar dağ rayonlarına təbii qazın verilməsi, avtomobil yollarının olmadığı kəndlərə asfalt

yolların çəkilməsi yalnız müstəqilliyimizin bəhrələridir. 70 illik sovet hakimiyyəti illərində bunların heç biri edilməmişdi.

Bütün bunlar həm də Azərbaycanın inamla addımladığı yoldan xəbər verir. Bu yol müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə, xalqımızın daha güclü rifahına aparır. Müstəqil siyasət yeridən Azərbaycanın yalnız regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə kimi tanınması, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət, qazandığımız bütün uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi Ulu Öndər Heydər Əliyevin dediyi kimi, dönməzdir, əbədidir, daimidir.

Böyük qələbə müstəqilliyimizə tarixi töhfə olacaq

Bu günlərdə Azərbaycanda müstəqilliyin nümunəsi olan növbəti tarixi hadisənin təntənəsi yaşanmaqdadır. Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi ordumuzun uğurları ilə davam edir. Bu hərbi əməliyyatların, sivil davranışlardan uzaq olan Ermənistanı cəzalandırma tədbirlərinin həyata keçirilməsinin özü Azərbaycanın sözün bütün mənalarında müstəqil dövlət olduğunu, müstəqil siyasət yürütdüyünü dünyaya nümayiş etdirdi.

Bu günlərdə Azərbaycana qarşı beynəlxalq miqyasda çox təzyiq edilir. Lakin Prezident, Ali Baş Komandan İlham Əliyev bu təzyiqlərin qarşısını əzmlə alır, dövlətimizin milli maraqlarını, xalqımızın mənafeyini inamla, qətiyyətlə, müvəffəqiyyətlə müdafiə edir. Ermənistandan fərqli olaraq, Azərbaycan başqa dövlətlərə kömək üçün yalvarmır. Budur müstəqillik, budur müstəqil dövlətçilik. Yekdilliklə İlham Əliyevin ətrafında səfərbər olan xalqımız əmindir ki, hərbi əməliyyatlar ərazi bütövlüyümüzün bərpası ilə başa çatacaq. Qarşıda bizi gözləyən böyük qələbə Azərbaycanın dövlət müstəqilliyinə tarixi töhfə olacaq.

Azərbaycan. - 2020.- 18 oktyabr. - № 215. - S. 13.

Müstəqilliyimiz daha da möhkəmlənəcək, bütün torpaqlarımız işğaldan azad olunacaq

Ceyhun Məmmədov,
millət vəkili

Bu gün Azərbaycan güclü, qətiyyətli mövqe nümayiş etdirən müstəqil dövlətdir. Keçdiyimiz yol, bu yolda qarşımıza çıxan maneələr, müsəqillik arzusunu boğa bilmədi. Çünki Azərbaycan sadəcə sözdə azad olmadı, real işdə, dövlət quruculuğunda müstəqillik yolunda inamla addımlayan ölkə olduğunu dünyaya nümayiş etdirdi. Ulu öndər Heydər Əliyev dövlətin suverenliyini tam təmin edən mükəmməl siyasi kurs həyata keçirdi, Prezident İlham Əliyev onu inkişaf etdirərək, yeni uğurlara imza atdı. Milli maraqlar, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu uğurla davam etdirdi.

Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18- də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 29 il keçir. Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himni və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri - dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir. Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır. 1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atarkən Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə üz-üzə qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayandırılması və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratdı. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə Dağlıq Qarabağda başlayan erməni separatizmi, eləcə də hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi. Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslandıraraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində ilk növbədə bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı. Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20- də imzalanmış "Əsrin müqaviləsi"

ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi. Bununla da Azərbaycanda yeni mərhələnin əsası qoyuldu. Azərbaycan xalqının dahilik rəmzi olan Heydər Əliyevin dövlət, millət qarşısında tarixi xidmətləri zaman keçdikcə daha aydın görünür. Heydər Əliyev rəhbərliyinin bütün dövrlərində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Bu gün ulu öndərin bizlərə əmanət qoyduğu güclü Azərbaycan möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlara imza atır və dünyanın diqqətini özünə cəlb edir. İlham Əliyev Azərbaycanın inkişafı haqqında qeyd etmişdir: "Bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir". Bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Dünyada hər bir ölkənin əsas göstəricisi və gücü ilk növbədə onun iqtisadi vəziyyəti ilə ölçülür. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çevik, ölkəmizi davamlı tərəqqiyə aparan müstəqil siyasət nəticəsində iqtisadi sahədə də beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Dövlət başçısının innovasiyayönümlü, yüksək rəqabət qabiliyyətli istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb. Təsadüfi deyildir ki, Azərbaycan dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb, dünyada maraqla qarşılanan iqtisadi inkişafın Azərbaycan modeli formalaşıb. Yaradılmış makroiqtisadi sabitlik, Azərbaycanın qlobal çağırışlara hazır olması, iqtisadiyyatın davamlı inkişafı və diversifikasiyası, güclü iqtisadi potensial, sistemli islahatlar, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı sayəsində ölkə iqtisadiyyatı 2008-ci ildə başlayan qlobal iqtisadi böhranı, sonrakı dövrlərdə dünya enerji bazarındakı qeyri-sabitlik və digər neqativ iqtisadi prosesləri kifayət qədər hazırlıqla qarşılayıb, bütün neqativ təsirləri minimuma endirməyə, qlobal maliyyə-iqtisadi böhran şəraitində belə, bir sıra ölkələrdən fərqli olaraq, sosial-iqtisadi inkişafa nail ola bilib. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş, başlıca məqsədi uzunmüddətli perspektivdə ölkənin sosial-iqtisadi resursları nəzərə alınmaqla mütərəqqi dünya təcrübəsi əsasında davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi ilə yüksək sosial rifaha çatmaq olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, məqsədli dövlət proqramları, strategiyalar, konkret tədbirlər planları, kompleks və davamlı iqtisadi islahatlar ölkədə innovativ, bilik iqtisadiyyatının formalaşması, ixracın diversifikasiyası, idxaldan asılılığın maksimum dərəcədə azaldılması, biznes mühitinin əlverişliliyinin daha da artırılması, investisiyaların cəlb edilməsi və digər istiqamətlərdə mühüm işlərin həyata keçirilməsinə hüquqi və iqtisadi zəmin yaradır. Azərbaycanın nəinki regionda, ümumən dünya siyasətində əsas söz sahibi olan bütün ölkələrlə əlaqələrini son illərdə daha da inkişaf etdirməsi, sülh, sabitlik və iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal şəkildə dəstəkləməsi artıq bir reallıqdır. Qərb siyasi dairələri də etiraf edirlər ki, Azərbaycanın iştirakı və razılığı olmadan regionda irimiqyaslı layihələr həyata keçirmək mümkünsüzdür. Azərbaycanın son illər ərzində xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin dünya miqyasındakı nüfuzunu xeyli artırıb. Bu illər ərzində Azərbaycan daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla, eyni zamanda, regional liderə çevrilmişdir. Ermənistanda isə vəziyyət getdikcə pisləşir və işğalçı ölkənin diplomatik uğursuzluqları, rəhbərliyin səriştəsiz yanaşmaları ölkəni iflic vəziyyətinə salıb. Azərbaycan işğalçı siyasətinə görə Ermənistanı bütün transmilli layihələrdən kənarda saxlayır, onu ağır sosial- iqtisadi duruma salır. Bu faktın özü də Azərbaycan Prezidentinin həyata keçirdiyi balanslı xarici siyasətin ən uğurlu məqamlarından biridir. Dövlət başçısının apardığı siyasi mübarizəyə əsaslanan diplomatiya nəticəsində erməni saxtakarlığı dünya səviyyəsində ifşa edilir və nəticə etibarilə bir sıra dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanı təcavüzkar və terrora rəvac verən bir dövlət kimi tanıyırlar. Eyni zamanda, ölkə rəhbərliyinin xarici siyasətdə məhz xalqımızın milli mənafeyinə xidmət edən diplomatiyası, qətiyyətli mövqeyi dünya tərəfindən qəbul edilir və gələcək bugünkü uğurlarının təminatına çevrilir. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan davamlı şəkildə dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, regional liderə çevrilməyə müvəffəq olmuşdur. Hazırda hər hansı bir regional məsələlər Azərbaycanla konstruktiv əməkdaşlıq aparmadan mümkün deyil. Dövlətimiz öz milli maraqlarının gerçəkləşdirilməsi, habelə regional, qlobal mövqelərinin möhkəmləndirilməsi üçün özünün iqtisadi, siyasi imkanlarından məharətlə istifadə edir və regionda lider, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin milli maraqlara əsaslanan demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, məqsədyönlü fəaliyyəti dövlət müstəqilliyinin möhkəmləndirilməsini, eyni zamanda güclü liderin həyata keçirdiyi strategiya ölkəmizin bütün sahələrdə yüksək uğur qazanmasını təmin edir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra sürətli inkişaf yoluna qədəm qoymuş, hüquqi dünyəvi və demokratik dövlət quruculuğuna start verilmişdir. 1991-ci ildə müstəqillik yolunda ilk addımlarını atan ölkəmiz Ermənistanın hərbi təcavüzü ilə üz-üzə qalmışdır. Yalnız ulu öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlişi ilə bütün sahələrlə bərabər ordu quruculuğuna xüsusi diqqət yetirildi, nizami ordu yaradıldı. Ordunun maddi-texniki bazası gücləndirildi. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu istiqamətindəki həyata keçirdiyi işləri uğurla davam etdirərək Azərbaycan ordusunun dünyanın ən güclü orduları sırasında olması üçün mühüm tədbirlər həyata keçirdi, yüksək döyüş ruhu ilə seçilən öz ərazi bütövlüyünü təmin etməyə qadir, ən müasir silahlarla təchiz olunmuş ordu yaratdı. Cənab Prezident bu barədə danışarkən fəxrlə qeyd edir ki, Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında demişdir: "Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq. Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir".

Cəmi bir neçə gün ərzində də önəmli yüksəkliklər işğaldan azad edilmiş, nəzarətə götürülmüşdür. Düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilmişdir. Məhv edilən, sıradan çıxarılan hərbi texnikanın, silah-sursatın isə sayı- hesabı yoxdur. Artıq Azərbaycan Ordusu dayanmaq fikrində deyil, o, Qarabağı, işğal olunmuş torpaqlarımızı son qarışınacan azad etmək əzmində, qüdrətində və qərarındadır. Onu bu yoldan, Haqq savaşından heç kim və heç nə dayandıra bilməz və bilməyəcək. Qələbə, Zəfər Azərbaycanla, Azərbaycan Ordusu ilədir.

Son hadisələr Prezident-xalq-ordu birliyini bir daha nümayiş etdirir. Xalqımız tam əmindir ki, dövlətimizin qətiyyətli mövqeyi, Ordumuzun gücü, qüdrəti sayəsində uğurla həyata keçirilən əks-hücum əməliyyatları otuz ildən artıq davam edən işğala son qoyacaq! Ədalətsizliyə son qoyacaq! Bu əks-hücum əməliyyatı, eyni zamanda, insanlarda Vətənə bağlılığı, illərdən bəri işğal altında olan torpaqlarımızın azad olunması arzularının reallaşması, gerçəkləşməsi deməkdir. Möhtərəm Prezidentimiz daim bəyan edir ki, Azərbaycan gəncliyi vətənpərvərlik ruhunda yetişməli, dövlət maraqlarının qorunması, həqiqətlərimizin təbliği onların ideoloji fəaliyyətinin əsasını təşkil etməli, azərbaycançılıq məfkurəsinə söykənməlidir.

Xalqımız tam əmindir ki, dövlətimizin uğurlu siyasəti, Azərbaycan Ordusunun gücü, qüdrəti nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, ölkəmizin həyatında, inkişaf tarixində yeni bir mərhələ başlayacaq. Möhtərəm Prezidentimiz hər zaman bildirir ki, xalqa arxalanır, xalqdan güc alır. Təbii ki, hər zaman xalqının yanında olan, onun daha yaxşı, təhlükəsiz şəraitdə yaşamasını istəyən, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi üçün təkmil islahatlar həyata keçirən, ən əsası Azərbaycanın sözünü imzası qədər dəyərli edən ölkə Prezidentinə milyonların sevgisi, dəstəyi şəksizdir. Xalq-iqtidar birliyi fonunda hər bir çətinlik dəf edilir, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunur. Daim inkişafın, tərəqqinin, özünə diqqət və qayğının şahidi olan xalqın dövlətinə, Prezidentinə inamı şəksizdir. Xalqın öz rəhbərinə inamının böyük olduğu ölkədə dövlət başçısına milyonların sevgisi danılmazdır. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Dövlətimizin başçısı cənab İlham Əliyev daim çıxışlarında xalqa arxalandığını bəyan edərək, irəli sürülən təşəbbüslərin ölkə əhalisi tərəfindən dəstəklənməsinin davamlı uğurlara yol açdığını diqqətə çatdırır: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".

Ali Baş Komandanımız Azərbaycan Prezidentinə bütün Cəbrayıl əhalisi adından bu sevinci bizə bəxş etdiyinizə görə öz minnətdarlığımızı bildiririk və əminik ki, bütün işğal altında olan torpaqlarımız öz azadlığına qovuşacaq, Dağlıq Qarabağ və digər rayonlarımız da yağı düşmənin tapdağından azad ediləcək. Böyüyüb boya-başa çatdığım, dədə-baba torpağımız olan Cəbrayıla qayıtmaq arzusu ilə yaşamış o günün çin olacağına qəti inam hissi ilə yaşamışam. Vətən həsrətinə son qoyulub, bu gün yurd həsrətində olan ürəklərimiz nəhayət ki, yüngülləşir.

Artıq qələbə günlərinin sevinci ilə yaşayırıq. Var olsun Azərbaycan! Yaşasın Şanlı Ordumuz, qəhrəman, mərd və igid əsgərlərimiz.

Övladlarımız igid bir xalqın cəsarətli oğulları kimi cəbhədə vuruşduqca qürur duyuruq. "Hər şeydən keçilər Vətəndən keçilməz" deyirik. Azərbaycan, onun övladları Vətən müharibəsi aparır, Vətən uğrunda şəhid olur. İşğal altında olan torpaqlarımızın azad olunması, şəhidlərimizin ruhu qarşısında borcumuzun yerinə yetirilməsi deməkdir. Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad olunması yolunda canından keçən şəhidlərimizin qanının yerdə qalmayacağını bəyan edən möhtərəm Prezidentimiz İlham Əliyev böyük qətiyyətlə və inamla bildirir ki, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Bəlkə indiyədək Azərbaycan dilində özünəməxsus missiyası olan nida işarəsi heç bir zaman belə qətiyyətli görünməyib. Çünki Qarabağ Azərbaycandır! hökmü ölkə rəhbərinin dilində israrla, qətiyyətlə, inamla təsdiq edilir!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibəsində demişdir: "...Azərbaycan Ordusu demək olar ki, hər gün uğurlu əməliyyatlar keçirir. Bu əməliyyatlar haqqında ictimaiyyətə də məlumat verilir. Bizim əsas məqsədimiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Ona görə döyüş meydanında da əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır.

Dünən mənim tərəfimdən verilən açıqlama Azərbaycan xalqını növbəti dəfə sevindirdi. Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndi işğalçılardan azad edildi. Onu da deyim ki, həm şimal, həm cənub və həm də şərq istiqamətlərində strateji yüksəkliklər artıq bizim nəzarətimizdədir.

Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Azərbaycan xalqı Prezidentinə, Dövlətinə, Ordusuna güvənir. Hər bir Azərbaycan vətəndaşı silaha sarılıb işğal altında olan torpaqlarımızı azad etmək üçün səfərbər olmağa hazırdır. Torpaqlarımızın işğaldan azad olacağı, üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyil. Hər gün, hər an bizi qələbəyə yaxınlaşdırır! Uzun illər bu qələbənin intizarı, həsrəti ilə yaşayan və öz ülvi arzusuna çatmaq ərəfəsində olan xalqımız xoşbəxtdir!

Bir məqamı da xüsusilə vurğulamaq istərdim ki, xalqımızın, yenilməz və rəşadətli ordumuzun respublikamızın ərazi bütövlüyünün təmin olunması məqsədilə atılan addımlarda Prezident, Ali Baş Komandan cənab İlham Əliyevə və Silahlı Qüvvələrimizə böyük dəstək nümayiş etdirir.

Müstəqil Azərbaycan heç vaxt ərazi bütövlüyünü bərpa etmək, əzəli torpaqlarına sahib çıxmaq fikrindən dönməyəcək. Xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədən, məscidlərimizi, məzarlarımızı dağıdan, mədəni irsimizi öz adlarına çıxarmağa çalışan işğalçı Ermənistan hakimiyyətinin avantürist, məkrli planı baş tutmayacaq, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altındakı bütün kənd və qəsəbələrimizi, şəhərlərimizi düşmən tapdağından azad edəcək. Dövlət-xalq-ordu birliyi sayəsində Azərbaycan bayrağı Şuşada dalğalanacaq!

Respublika. - 2020.- 17 oktyabr. - № 214. - S. 9.

Müstəqillik asan olmayıb, yaxud bu günün reallıqları

Əsgər Zeynalov,
filologiya elmləri doktoru, professor

1920-ci ildə AXC-yə son qoyulsa da, xalqın canında, qanında bir azadlıq ruhu yaşadı. Saysız-hesabsız azadlıq mücahidləri güllələndi, qətlə yetirildi, sürgün həyatı keçirdi, Sibirlərdə çürüdü, repressiyaya məruz qaldı, zindanlarda ömrünü sona yetirdi, mühacirət ömrü yaşadı və o yerlərdə dünyasını dəyişdi... Ancaq bu xalqı müstəqillik arzusu heç zaman tərk etmədi. 1937-38-ci illərdə ziyalıların kütləvi məhvi də bu xalqı öz əqidəsindən döndərə bilmədi. 1948-ci ildə, bəzən də 1949-cu il göstərilir. Azərbaycanın müstəqilliyi ideyası ilə yaranmış "İldırım" təşkilatının səkkiz nəfər üzvü Sibirə göndərilmişdi. Tale elə qismət etdi ki, mən onlardan üçünü görməli oldum: İsmixan Rəhimov, Azər Ələsgərov və Gülhüseyn Hüseynoğlu. İ.Rəhimovla bir neçə il Azərbaycan Dövlət Xarici Dillər İnstitutunda birlikdə işləməli oldum.

Azərbaycanın müstəqilliyə gedən yoluna nəzər salanda, adama elə gəlir ki, vaxtıyla M.Ə.Rəsulzadənin Stalinə dediyi kəlam onlar üçün bir amal devizinə çevrilmişdi. Stalin Məmməd Əmindən soruşanda ki, 23 ay müddətində hakimiyyət dövründə nə etdiniz? M.Ə.Rəsulzadə çox yığcam, klassik bir cavab verir: "Azadlığın nə olduğunu xalqa dadızdırdıq". Bəli, xalq bu "azadlığın dadını" bilirdi.

Gənc Bəxtiyar Vahabzadənin "Gülüstan" (1960) poeması gözlənilməz bir partlayış oldu. Poemanın dərc olunduğu "Şəki fəhləsi" qəzetinin redaktoru bunun əks-sədasını gözlərinin altına almışdı. B.Vahabzadəyə təzyiqlər başlayır. Şairin sonralar özünün etiraf etdiyi kimi onu MTN-də bir nəfərin müdafiə etdiyini duyurdu. Ancaq kim olduğunu bilmirdi. Sonralar bu adamın Heydər Əliyev olduğundan xəbər tutur.

1970-ci ildən Azərbaycan Xarici Dillər İnstitutuna daxil oldum. Birinci kursda oxuyanda B.Vahabzadənin "Gülüstan" poeması tələbə yataqxanasında əl-əl gəzirdi. Tələbələr bu poemanın üzünü köçürə-köçürə bir-birlərinə ötürürdülər. Yaxşı yadımdadır, 1970-ci il dekabrın 16-da gecə həmin poemanın üzünü mən köçürdüm.

Qoy qalxsın ayağa ruhu Tomrisin
Qılınclar qəzəbdən coşub parlasın
Azadlıq yolunda qılınc qaldıran
İgid ataların goru çatlasın.

Taxta dirəkləri torpağa deyil
Qoydular Füzuli divanı üstdə
Yarıya bölündü tam 150 il
Gəraylı, bayatı, muğam, şikəstə.
Həmişə tufan, şimşək kimi, qasırğalı dəniz kimi tələtümlü olan Xəlil Rza isə yazırdı:
Azadlığı istəmirəm zərrə-zərrə, qıram-qıram
Qolumdakı zəncirləri qıram gərək, qıram-qıram
Azadlığı istəmirəm, bir həb kimi, dərman kimi
Azadlığı istəyirəm səma kimi, günəş kimi, cahan kimi.
Xəstə Məmməd Arazın canından bir vulkan püskürüb hayqırdı:
Ayağa dur qoca vulkan sənin ləyəm.
Ayağa dur Azərbaycan sənin ləyəm
Səndən ötrü biz hamımız ölə billik
Səndən ötrü biz hər şeyi bölə billik
Bu, Bəxtiyar harayıdır,
Bu, Şəhriyar harayıdır...
Ayağa dur, Azərbaycan, sənin ləyəm.
Nə yatmısan qoca vulkan sənin ləyəm.

Müstəqilliyə gedən yol müdhiş 20 Yanvar faciəsindən keçdi. Bu da Azərbaycan üçün ağır sınaq oldu. Azadlığa gedən yolun ən güclü sipərlərindən idi. Xalq nə qədər şəhid verdi. Hələ yaralanıb əlil olanlar... Yenə Bəxtiyar Vahabzadəyə üz tuturam - "Şəhidlər" poemasına.

Bir qəfil gülləyə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər
Üçrəngli bayrağı al qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər...

Millət millət olur xeyri-şərilə
İnsan-insan olur əməllərilə
Torpağın bağrına cəsədlərilə
Azadlıq toxumu səpdi şəhidlər.
Bəli, azadlıq toxumu səpilmişdi, o sürətlə göyərməyə başladı.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan özünün müstəqilliyini elan etdi. Yeni hücumlar başladı. Azərbaycanın müstəqil olması çox tərəfləri narahat edirdi. 1992-ci il fevralın 26-da əsrin faciəsi törədildi - Xocalı faciəsi. Nə qocaya baxıldı, nə qadına, nə uşağa. Nə qədər insan qırıldı, yaralandı, əsir götürüldü... Məqsəd bir idi... Azərbaycan müstəqil olmamalı...

Bununla da sakitləşmə olmadı. Gənc müstəqil respublikanı parçalamaq üçün ölkə daxilində vətəndaş müharibəsi törədildi - Azərbaycan parçalanma təhlükəsi qarşısında qaldı. Rəhmətlik Mir Cəlal demişkən: "Yolumuz hayanadır?" Cənub bir tərəfə çəkirdi, şimal bir tərəfə, Mərkəzdə isə çox dəhşətli qarşıdurma baş verdi. Ermənilər fürsətdən istifadə edərək, bir sıra ərazilərimizi işğal etdilər. Keçmiş İrəvan xanlığının ərazisindən yaşı bilinməyən tarixdən bu yerlərdə yaşamış azərbaycanlılar 1988-91-ci illərdə məcburi surətdə öz yerlərini tərk etmişdilər - 200 mindən artıq əhali. İndi isə Dağlıq Qarabağdan, işğal olunmuş Kəlbəcərdən, Şuşadan, Laçından azərbaycanlıların kütləvi şəkildə qovulması vəziyyəti daha da ağırlaşdırırdı. Cəbhədən də ard-ara vermədən şəhidlər gətirilirdi.

Yeri gəlmişkən onu da xüsusi vurğulamaq istərdim ki, Qarabağ hadisələri başlayanda həsrət dolu kövrəkliklə xatırladığınız İrəvan yaxınlığındakı Zəngibasar mahalının Yuxarı Necili kəndinin sakini, hacı Sabir Mehdiyev evini dəyişib Bakıya gələrkən yolda ermənilər tərəfindən qətlə yetirildi. Azərbaycan Dillər Universitetindəki tələbəmiz şair, yazıçı, tərcüməçi Ülvi Bünyadzadə 20 Yanvar hadisələrində şəhid oldu. Xocalı faciəsi zamanı Yuxarı Necilidə şagirdim olmuş Sara ermənilərin atdığı qumbara nəticəsində qızı Natavanla külə döndü. Toğana yaxınlığındakı döyüşlərdə Gəncə cəsuru kimi tanınan Yuxarı Necili kəndinin yetirməsi Bəxtiyar Əliyev şəhid oldu. 1991-94-cü il Qarabağ döyüşlərində Yuxarı Necili kəndindən olan dörd igid oğlan qəhrəmanlıqlar göstərərək şəhid oldular. Onların dördü də Şəhidlər Xiyabanında uyuyur-Hüseynov Əli, Kərimov Mirəziz, Quliyev Nemət, Qəmbərov Arif.

Bəli, respublika həddindən artıq ağır vəziyyətdə idi. Belə bir dövrdə sanki ulu Tanrı Heydər Əliyevi Azərbaycan üçün bir xilaskar kimi qoruyub saxlamışdı. Xalqın arzusu, ziyalıların dəvətilə Heydər Əliyev Bakıya gəldi, nə qədər çətinliklə də olsa, ölkənin daxilində sabitlik yaratmağa nail oldu, atəşkəslə bağlı razılaşma əldə etdi, əsrin müqaviləsini həyata keçirdi (1994), qiyamların qarşısını aldı, xarici siyasəti gücləndirdi, iqtisadiyyatı yüksək dərəcədə inkişaf etdirə bildi. Əlbəttə, müharibə şəraiti, torpaqlarının 20 faizinin işğal olunduğu, bir milyondan artıq qaçqınlı bir ölkədə normal şəraitin yaradılması həddindən artıq çətin idi. Bunun üçün Heydər Əliyev kimi yüksək səviyyəli təşkilatçı rəhbər və peşəkar, dahi siyasətçi lazım idi.

Erməni hərbi qoşunları silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağla yanaşı, Kəlbəcər, Laçın, Qubadlı, Füzuli, Cəbrayıl, Ağdam və Zəngilan rayonları işğal olundu. BMT-nin Təhlükəsizlik Şurası işğal olunmuş ərazilərin azad olunması üçün dörd qətnamə qəbul etdi. Ancaq Ermənistan tərəfi bu qətnamələrin heç birini yerinə yetirmədi. ATƏT-in Minsk qrupu, dünyanın üzdə olan dövlətlərinin - ABŞ, Rusiya və Fransanın həmsədrliyi ilə münaqişənin yoluna qoyulması üçün nə qədər görüşlər keçirildi, həmsədr dövlətlərin nə qədər nümayəndələri dəyişdi, təzələndi, heç bir nəticə hasil olmadı. Bu sədrlərin oynadığı ikili oyunların həqiqəti əks etdirməməsi, BMT-nin gücsüzlüyü, yəni heç bir qəti hərəkət edə bilməməsi, verdiyi qətnamələrin kağız üzərində qalması, bir çox Avropa dövlətlərinin Ermənistanı - işğalçı dövləti dəstəkləməsi onun rəhbərlərinin daha da sözün əsl mənasında azğınlaşmasına gətirib çıxardı. Heydər Əliyevdən sonra onun layiqli varisi, davamçısı Prezident İlham Əliyev də nə qədər görüşlər keçirsə də Ermənistan rəhbərliyi öz düşündüyü kimi hərəkət etdi. Hətta azğınlaşma o yerə çatdı ki, Ermənistan rəhbərliyi "Qarabağ Ermənistandır, nöqtə" qıcıqlandırıcı şüarına qədər gəlib çıxa bildi. Azərbaycan Respublikasının Prezidenti isə 2019-cu il oktyabr ayının 3-də Soçidə keçirilən Valday forumunda "Qarabağ Azərbaycandır, nida" deyərək daha sərt cavab verdi.

Haşiyə: 2019-cu il dekabr ayının 12-də ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə ADU-nun Qafqazşünaslıq kafedrası müdiri kimi mənim təşəbbüsümlə, erməni dili müəllimləri Hüseyn Əsgərov və Aydın Eyvazovun zəhmətilə tələbələr tədbir hazırlamışdılar. Mövzular belə idi: "Heydər Əliyevin həyatı", "Heydər Əliyev və Ermənistandan azərbaycanlıların deportasiyası", "İlham Əliyev Heydər Əliyevin layiqli davamçısıdır", "İlham Əliyevin Soçi görüşü, Valday çıxışı", "İlham Əliyevin Aşqabad görüşündəki çıxışı". Tələbələr çıxışın məzmununu əvvəlcə Azərbaycan dilində, sonra ermənicə heç bir qeydə baxmadan söyləyirdilər. Tədbirin sonu hamılıqla müəllim-tələbəli "Qarabağ bizimdir, bizim olacaq", "Qarabağ bizimdir, bizim olacaq" sözlərilə həm Azərbaycan, həm erməni dilində səsləndirilərək yekunlaşdı. Elə tələbələr yetişdirməyə çalışırıq ki, lazım gələndə düşməni öz dilində yerində oturtmağı bacarsın.

Bu gün Prezident İlham Əliyevin ən böyük üstünlüklərindən biri öz fikirlərini dünyanın ən yüksək tribunalarından rus və ingilis dillərində mükəmməl şəkildə təqdim edə bilməsidir.

On il İrəvandakı erməni qaynaqlarında elmi axtarışlar aparılması Ermənistan Qədim Əlyazmalar İnstitutunda - Matenadaranda, Ermənistan Xalq Yaradıcılığı Evində, Ədəbiyyat və İncəsənət Muzeyində sübut etməyə çalışmışam ki, ermənilərdə bayatı olmamış, onlar uzun əsrlər boyu Azərbaycan bayatılarından istifadə etmişlər. 1991-ci illər professorlar Mirəli Seyidov və Teymur Əhmədovun rəhbərliyi altında dissertasiyanı müdafiə etdim.

Tez-tez ermənilərin bu elmi mərkəzlərində "Böyük Ermənistan" xəritəsinin asıldığına rast gəlirdim, bir-birlərinə görürsən "böyük Ermənistan" xəritəsini quru lovğalıqla göstərir və bu xülya ilə öyünərək yaşayırdılar.

1827-ci ildə İrəvan xanlığı 30 ilə qədər apardığı inadlı mübarizədən sonra süquta uğradı. İrandan, Türkiyədən ermənilər gətirilib İrəvan xanlığı, Qarabağ xanlığı ərazisinə yerləşdirildi.

1918-ci ildə azərbaycanlıların əski mədəniyyət mərkəzlərindən olan İrəvan ermənilərə güzəşt edildi - 9 min kvadrat km. Sonra Zəngibasar, Vedibasar, Çərnibasar, Dərəçiçək mahallarını tutub özlərinə ərazi etdilər. 1929-cu ildə Azərbaycanın rəhbəri Levon Mirzoyan Meğrini ermənilərə verdi.

1948-53-cü illər deportasiya zamanı Qərbi Azərbaycanda nə qədər azərbaycanlıların məskunlaşdığı yerlərdə ermənilər yerləşdirildi.

1988-91-ci illərdə sonuncu azərbaycanlıya qədər Qərbi Azərbaycandan qovuldu.

1991-94-cü illərdə Azərbaycan torpaqlarının 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edildi. Son təxminən 200 il müddətində Azərbaycan torpaqlarını itirə-itirə gəldi. Ermənilər sözün əsl mənasında sanki şirəyə batdı. Həvəslənərək yeni torpaqlar iddiasına düşdülər.

30 il danışıqlar getdi. Heç nəticə vermədi. Ermənistanın baş naziri Paşinyanın "Qarabağ Ermənistandır" sözləri Prezident İlham Əliyevin dönə-dönə vurğuladığı kimi, bütün danışıqları alt-üst etdi. Prezident böyük tribunalardan bəyan etdi ki, Ermənistan böyük müharibəyə hazırlaşır. Bütün dünya susdu. Və nəhayət, sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozaraq, Azərbaycan ərazilərini atəşə tutduqda, ordumuz düşmənə layiqli cavab verdi. Bəsdir, artıq vaxt çatmışdır. Azərbaycan ordusu işğal olunmuş əraziləri təmizləməyə başladı. Torpaqlarımız işğaldan azad olunduqca, ordumuz hücuma keçdikcə, indiyə kimi susmuş, ikili mövqe tutan dövlətlər, onların başçılarının səsi çıxmağa başladı. O dövlətlər ki, BMT-də Lissabon Sammitində də Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyiblər.

Nə qədər gülünc, qəribə ifadələr səsləndirirlər: Azərbaycanla Ermənistan arasında gedən müharibədən narahatdırlar. Bəs nə etməli? Azərbaycan torpaqlarının 20 faizi erməni tapdağı, işğal altında qalsa onda bu dövlətlər narahat olmayacaqlar? Rüsvayçılığın da, haqsızlığın da dərəcəsi olar. Müharibə harada gedir? Azərbaycan ərazisində. Təcavüzkar kimdir? Ermənistan Azərbaycandan nə istəyir? Öz torpaqlarını işğaldan azad. Prezident İlham Əliyevin dediyi kimi: "Daha Azərbaycan 30 ildə dözə bilməz. Buna son qoyulmalıdır və son qoyulacaq!"

Vaxtıyla Azərbaycanın Ali Sovetinin iclasında Xalq şairi Qabilin dediyi kimi: "Sülhə qurban kəsərəm, mən də qan istəmirəm". Ancaq Azərbaycan uzun müddətdən sonra, boş "sülh" danışıqlarının heç bir məntiqli yekunu olmadığını görüb, ordusuna, baş komandanına arxalanaraq, inanaraq işğaldan azad hücumuna başladı. Qabilin yenə dediyi kimi: "Ümid sənədir ancaq, Azərbaycan əsgəri". 1996-cı ildə ADU-nun bir qrup müəllimi dosentlər Məhəmməd Teymurlu, Həsən Baxşıyev, Rəna Məmmədova, Xalq yazıçısı Sabir Əhmədli və tələbələrlə Murovda, Tərtərdə əsgərlərlə görüşə getmişdik. Təbii ki, imkanımız daxilində sovqatlarla - xeyli poliver, corab, şirniyyat, siqaret... Murovda, Tərtərdə 12 görüş keçirdik. Görüşlər bir-birindən maraqlı olsa da arıq, cəld, çevik bir oğlanın - əsgərin çıxışı həmişə qulağımda cingildəyir: "Biz bura emənini gəbərtməyə gəlmişik". Bəli, indi əsgərlərimiz torpaqlarımıza göz dikən düşmənləri, sözün əsl mənasında, o cəsur oğlanın dediyi kimi gəbərdirlər və gəbərdəcəklər.

Qeyd olunduğu kimi, Azərbaycan ordusu hücumu genişləndirib, Ermənistan ordusuna zərbələr endirib, torpaqlarını azad etdikcə, öz haqq işini davam etdirdikcə bir çox dövlətlər, ölkələrin prezidentləri sözün əsl mənasında yuxularını qarışdırdılar. Bizcə, ən çox narahat olan isə Fransa prezidenti Emmanuel Makrondur. Onun bu qədər canfəşanlığının səbəbi isə təbii ki, ermənilərdir. Qeyd edim ki, Fransanın Azərbaycanda şirkətləri fəaliyyət göstərir və onlar buradan külli miqdarda vəsait qazanırlar.

Dəfələrlə Fransada olmuşam. Dahi Viktor Hüqo haqqında yazdığım monoqrafiyalar Fransadakı bir sıra universitetlərə, elmi mərkəzlərə, Parisdə və Bözansonda Hüqonun ev muzeylərinə hədiyyə etmişəm. Sonralar bu kitabları Fransa, ABŞ, Almaniya, İngiltərə, Kanada, Hindistan və İsveçdə nəşr etdirdim. 2014-cü ildə məndən Hüqo ilə bağlı təxminən 40 dəqiqə müsahibə götürüldü, ancaq qəzetdə 3-4 cümlə mənim haqqımda yazı getdi. Ermənilər çox ciddi şəkildə mane oldular. Redaksiyaya gedib "Siz ermənilərin əlində oyuncaqsınız, əgər siz bizim Nizami, Füzuli haqqında kitab yazsaydınız, biz sizi gözümüzün üstündə saxlayardıq" - deyib, təxminən 500 səhifəlik Azərbaycan və fransız dillərində monoqrafiyalarımı təkidlə geri alıb qayıtdım. Hətta Frans-Konte regionunun konseyi Feyzo da "L EST republicain" qəzetinin redaksiyasına mesaj göndərdi və mənim haqqımda məqalə dərc edilməsini xahiş etdi. Onu xüsusi vurğulayırdı ki, iyulun 22-də o, bütün dünyanın fransız dilli müəllimlərini qəbul etdim. Onların arasında Azərbaycandan gəlmiş cənab Zeynalov Hüqo haqqında çoxlu kitablar

yazmış, onun əsərlərini öz dillərinə tərcümə etmişdir. Cənab Zeynalov haqqında qəzetinizdə məqalə verməyinizi xahiş edirəm. Ancaq heç nə alınmadı. Erməni lobbisi öz bildiyini etdi.

Möhtərəm Prezidentimiz çox haqlı olaraq dedi ki, əgər Makron istəyir qoy Marseli ermənilərə versin, adını da qoysun Dağlıq Qarabağ, yəni bizim torpağımızla özünə dost qazanmasın.

Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Cəbrayılov haqqında çox oxumuş və bu yayda onun ev-muzeyində də olmuşam. Fransanın işğaldan azad edilməsində bu adam nə qədər ölümün astanasından keçib. Təsadüfi deyildir ki, 1966-cı ildə Şarl de Qoll yeganə görüşmək istədiyi adam, keçmiş silahdaşı, sadiq dostu Armed Mişel olmuşdur. Həyatdakı təzada bax! Biz Fransanın azadlığı uğrunda vuruşuruq, Makron isə Azərbaycan torpaqlarının işğal altında qalmasının tərəfdarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif ölkələrin müxbirlərinə verdiyi müsahibələr və tutarlı, kəskin bəyanatlar, eləcə də ordumuzun qazandığı uğurlar bütün xalqda böyük ruh yüksəkliyi yaratmış, saysız-hesabsız könüllülər döyüşə getməyə hazır olduqlarını bildirmişdilər. Azərbaycan Prezidenti dönə-dönə bəyan etdi ki, artıq heç bir status-kvodan, təmas xəttindən söhbət gedə bilməz. Mən bunun üstündən xətt çəkdim. Döyüş meydanında.

Görünür yeni təxribatlara əl atmaqla, onlar öz qəbirlərinin qazılmasını sürətləndirirlər. Nə atəşkəs, nə yalvarışlar, dövlətlərin başçılarını dəng etmələr onlara kömək etməyəcək. Ulu Tanrının böyüklüyü, köməkliyi, Ali Baş Komandanın rəhbərliyi və qəhrəman Ordumuzun şücaəti ilə Azərbaycan torpaqları işğaldan tezliklə tamamilə azad olacaqdır.

Respublika. - 2020.- 17 oktyabr. - № 214. - S. 10.

Heydər Əliyev ideyaları Azərbaycanın inkişafına və qüdrətlənməsinə xidmət edir

Nəsib Məhəməliyev,
Milli Məclisin deputatı

Dövlətlərin və xalqların taleyində böyük şəxsiyyətlərin, müdrik rəhbərlərin müstəsna rolu onların tarixi missiyası kimi nəzərdən keçirilir. Heydər Əliyev kimi dahilər isə öz fəaliyyətləri ilə dövlətin və xalqın həm də inkişaf salnaməsini və qürur doğuran möhtəşəm tarixini yaradırlar. İyulun 14-də, Azərbaycana birinci rəhbərliyinin ildönümündə bizlər Heydər Əliyevin əziz xatirəsini bir daha yad edirik və illər ötdükcə onun şəxsiyyətinin əzəmətini, qoyub getdiyi tarixi irsin, ideyaların yüksək dəyərini daha dərindən anlayırıq.

Neft ölkəsi olmasına baxmayaraq, ötən əsrin 60-cı illərində Azərbaycan sovet ittifaqının geridə qalmış respublikalarından biri idi. Belə bir vaxtda rəhbərliyə başlayan Heydər Əliyev tükənməz enerjisi və idarəçilik məharəti ilə qısa zaman ərzində Azərbaycanın sosial-iqtisadi həyatında böyük dəyişikliklər etdi, durğunluqdan inkişafa doğru dönüşün təməlini qoydu.

Heydər Əliyev 1982-ci ildə Moskvaya ali rəhbər vəzifəyə getdiyi zaman Azərbaycan artıq ittifaqın inkişaf etmiş respublikalarından biri kimi tanınırdı. O illərdə çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu.

Sovet illərində Heydər Əliyevin təşəbbüsləri ilə milli-mədəni ənənələrimizin itməməsinə, qorunub saxlanılmasına, insanların milli dəyərlərə daha çox bağlanmasına xidmət edən tədbirlər həyata keçirildi. Bu mənada həmin dövrdə sosial-iqtisadi yüksəlişlə yanaşı, milli dəyər və ənənələrin cəmiyyətdə geniş intişar tapması Heydər Əliyevin sayəsində mümkün oldu. Sovet rejiminin ideoloji baxışlarının hakim olduğu bir zamanda Heydər Əliyev xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin aşınmaması, assimilyasiyaya məruz qalmaması üçün nə lazımsa etdi. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət xalqımıza xas dəyərləri şüurlarımızdan silə bilmədi.

Qeyd etdiyim ki, 70-80-ci illərdə Azərbaycanda böyük iqtisadi potensial yaradılmışdı. Bunun da nəticəsində Azərbaycan hələ sovet dövründə Rusiya və Ukrayna ilə yanaşı, məhz öz daxili imkanları hesabına iqtisadi baxımdan sərbəst yaşaya bilən 3 respublikadan birinə çevrilmişdi. Lakin müstəqilliyimzin ilk illərində hakimiyyətdə olan qüvvələr bu iqtisadi potensial üzərində ölkəni inkişaf etdirmək əvəzinə tamamilə səbatsız siyasət yürütdülər. Bunun da nəticəsində ölkədə vətəndaş qarşıdurması yarandı, mərkəzdənqaçma meyilləri gücləndi, separatizm baş qaldırdı. Ən faciəlisi odur ki, torpaqlarımızın azadlığı uğrunda döyüşən hərbi hissələrin siyasi qarşıdurmalara cəlb olunması Ermənistanın işğalçılıq planlarının daha da sürətlənməsinə rəvac verdi.

1993-cü ilin gərgin iyun günləri xatirimizdədir. Dönüb geriyə baxsaq, ötən 27 ildə Azərbaycanın necə dəyişdiyini, sürətlə inkişaf etdiyini, müstəqilliyinin daha da möhkəmləndiyini, dünya birliyində özünə layiqli yer tutduğunu, regional və qlobal miqyasda söz sahibinə, Cənubi Qafqazın liderinə çevrildiyini görərik. 1993-cü ilin iyununda ölkəmizin parçalanmaq, müstəqilliyimizin itirilmək təhlükəsi yaşandığı ərəfədə biz bugünkü möhtəşəm uğurlarımızın yaxın gələcəkdə olacağını təsəvvür belə edə bilməzdik. Amma bunlar baş verdi, çünki 1993-cü ilin ağrı-acılı iyun günlərində Azərbaycan xalqı ən doğru və ən müdrik seçimini edərək Ulu Öndər Heydər Əliyevə üz tutmuşdu. Məhz Heydər Əliyevin sayəsində Azərbaycanda siyasi böhrana son qoyuldu, vətəndaş qarşıdurmasının qarşısı alındı. Həmin ağır və mürəkkəb dövrdə xalqımızın Heydər Əliyevə müraciəti, təkidlə Ulu Öndərin hakimiyyətə dəvət olunması tarixin gərdişini dəyişdi. Həmin günləri xatırlayan hər birimiz yaxşı bilirik ki, o çətin günlərdə yalnız Heydər Əliyev dühası dövlətimizi, müstəqilliyimizi xilas edə bilərdi.

Bu baxımdan Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətlərindən biri odur ki, dahi şəxsiyyət kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Bu baxımdan Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı müasir Azərbaycan dövlətinin yaranması ilə nəticələndi.

Eyni zamanda Heydər Əliyev hər bir sahə üzrə inkişafın təməlini qoydu. Hüquqi dövlət quruculuğu həyata keçirildi. Bu gün xalqımızın bəhrəsini gördüyü uğurlu neft strategiyasının müəllifi Ulu Öndər oldu. Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı. O cümlədən iqtisadi sferada inkişafın əsası qoyuldu. Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində iflic vəziyyətinə salınan iqtisadiyyatımızın ötən əsrin 90-cı illərinin ortalarında dərin böhrandan çıxarılması və iqtisadi inkişafın təməlinin qoyulması Heydər Əliyevin adı ilə bağlıdır.

Xalqımız əldə etdiyi bütün möhtəşəm nailiyyətlərinə görə məhz Ümummilli Lider Heydər Əliyevə minnətdardır. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, Vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir.

Heydər Əliyev zaman etibarilə dövlətçilik tariximizin 34 ilinə sahiblik edir. Fəqət əsrin üçdəbirindən bir qədər artıq olan bir dövrü ehtiva edən bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş olaraq dərk etməsi və millət tək mövcudluğuna qədər inkişafı kimi misilsiz tarixi prosesi əhatələyir. Azərbaycan əsrlər boyu əxz etdiyi idarəetmə ənənələrini məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını, özünü idarə etmək bacarığını nümayiş etdirib.

Respublikamız müstəqil dövlət olaraq mətinlə addımlayır, inkişaf edir, güclənir. Ulu Öndərin siyasi kursu, yaratdığı dövlətçilik ənənələri onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla və layiqincə davam etdirilir. Bunun nəticəsidir ki, qazandığı uğurlarla Azərbaycan regionda aparıcı dövlətə çevrilib. Ötən 17 ilin real mənzərəsi də ondan ibarətdir ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycan çox mühüm keyfiyyət dəyişiklikləri yaşayıb: ölkə kompleks inkişaf edib, regionun liderinə və kosmik klubun üzvünə çevrilib, beynəlxalq birlikdə yeri möhkəmlənib, vətəndaşların rifahı yüksəlib.

Heydər Əliyevin qurduğu, İlham Əliyevin daha da möhkəmləndirdiyi Azərbaycan öz tarixinin artıq elə bir mərhələsinə çatıb ki, bu gün respublikamızın təşəbbüsü ilə BMT kimi dünyanın ən mötəbər ali təşkilatının xüsusi sessiyası çağırılır. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin COVID-19-la bağlı BMT-nin xüsusi iclasının keçirilməsi barədə təşəbbüsünün qısa müddətdə 130-dan artıq ölkə tərəfindən dəstəklənməsi Azərbaycanın beynəlxalq miqyasda söz sahibi kimi çıxış edən dövlətlərdən biri olmasının təsdiqidir. Eyni zamanda bu hadisə göstərir ki, Prezident İlham Əliyev qlobal siyasi arenada yüksək nüfuza malik liderlərdəndir. Onu da qeyd edim ki, indiyədək koronavirusla mübarizədə qlobal həmrəyliyə nail olmaq üçün ilk təşəbbüslər məhz Prezident İlham Əliyevdən gəlib. Beləliklə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşlərindən sonra yenə də İlham Əliyevin təşəbbüsü ilə bu dəfə BMT-nin xüsusi iclası keçirilir.

Hər kəsin birmənalı qəbul etdiyi reallıqlardan biri ondan ibarətdir ki, Prezident İlham Əliyevin müəllifliyi ilə bu gün Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin parlaq səhifələri yazılır. Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasətin uğurları çağdaş Azərbaycanın şanlı tarixinə çevrilir. Azərbaycanın istər daxili inkişafla bağlı, istər regional və beynəlxalq müstəvidə qazandığı hər bir uğur təsdiq edir ki, Heydər Əliyevin ideyaları yaşayır, dövlətimizin inkişafına və qüdrətlənməsinə xidmət edir. Azərbaycan bundan sonra inkişaf yolu ilə inamla irəliləyəcək, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da yüksələcək, qazandığı bütün nailiyyətlərinin miqyasını daha da artıracaq.

Azərbaycan. - 2020.- 14 iyul. - № 135. - S. 4.

Milli intibahın və müstəqil dövlətçiliyin əsasını qoymuş tarixi şəxsiyyət

Əli Həsənov
Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi,
tarix elmləri doktoru, professor

51 il əvvəl Azərbaycanın siyasi həyatında baş vermiş mühüm bir hadisə respublikada köklü dəyişikliklərin başlanmasına təkan verdi və gələcək inkişaf perspektivlərinin müəyyənləşməsi yolunda yeni tarixi dönüşün əsasını qoydu. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) plenumunda 46 yaşlı Heydər Əliyev AKP MK-nın birinci katibi, yəni faktiki olaraq respublikanın rəhbəri seçildi.

O vaxta qədər dövlət təhlükəsizlik orqanlarında işləmiş, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri olan general-mayor Heydər Əliyevin bu vəzifəyə yüksəlişi respublikanın geniş ictimaiyyəti, xüsusilə ziyalı elitası tərəfindən böyük rəğbətlə qarşılandı. Ona görə ki, təhlükəsizlik orqanlarında işlədiyi müddətdə o, vətəninə dərindən bağlı olan çox sayda insanı saxta ittihamlarla repressiya olunmaq təhlükəsindən qorumuş, sürgün və ölümdən xilas etmiş, xalqın milli intibahı yolunda çalışan ziyalıların təqib edilməsinə, onların cəmiyyətdən təcrid olunmasına imkan verməmişdi.

Onu da qeyd edək ki, həmin ərəfədə respublikada ciddi dəyişikliyə ehtiyac olduğunu Azərbaycan cəmiyyətinin böyük hissəsi yaxşı başa düşürdü. Ölkədə baş verən proseslər fonunda sosial-iqtisadi inkişafın sürətləndirilməsi və əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün yeni təşəbbüslərin irəli sürülməsi, qətiyyətli addımların atılması zəruri idi. O dövr respublika əsas sosial-iqtisadi inkişaf göstəricilərinə görə orta ittifaq səviyyəsindən xeyli geridə qalırdı. Məsələn, Azərbaycanda 1965-ci ildə 1940-cı illərə nisbətən ümumi daxili məhsul 3,6, o cümlədən sənaye məhsullarının həcmi 4 dəfə artmışdı. Lakin ittifaq üzrə bu göstəricilər müvafiq olaraq 6 və 8 dəfəyə çatırdı. Respublikanın neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesinin iş ritmi tez-tez pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü. Azərbaycan milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfədən çox, əsas fondlara görə 1,8, kapital qoyuluşu üzrə 1,7, əmək məhsuldarlığına görə isə 1,5 dəfə geridə idi.

Həmin dövrdə respublikanın regionlarının sosial-iqtisadi inkişafına da kifayət qədər diqqət göstərilmirdi. Kənd təsərrüfatında aqrotexniki qaydalara düzgün əməl olunmaması, meliorasiya və mexanikləşdirmə tədbirlərinin görülməməsi səbəbindən həm ərzaq, həm də texniki bitkilərin məhsuldarlığı aşağı düşmüşdü. İri sənaye və emal müəssisələrinin əksəriyyəti Bakı, Sumqayıt şəhərlərində tikilirdi ki, bu da orta və kiçik şəhərlərin inkişafının qarşısını alır, urbanizasiya prosesinin proporsional şəkildə getməsinə əngəl olurdu.

Digər tərəfdən respublikada korrupsiya və gizli iqtisadiyyat geniş yayılmış, qanunçuluğa əməl olunmasına və mədəni quruculuğa diqqət zəifləmiş, mənəvi-psixoloji iqlim qeyri-sağlam məcraya yönəlmişdi. *Təbii ki, bu çətin və mürəkkəb vəziyyətin aradan qaldırılması üçün analitik təfəkkürə malik, güclü və bacarıqlı təşkilatçı, cəsarətli bir liderə ehtiyac var idi. Belə bir lider məhz Heydər Əliyev oldu.*

Nəhəng quruculuq yollarında

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra keçirilən ilk MK plenumunda (1969-cu il avqust) həmin dövr üçün sensasiyalı sayıla biləcək məruzəsində sovet hakimiyyəti tarixində ilk dəfə olaraq sosialist cəmiyyətində vəzifədən sui-istifadə, korrupsiya kimi mənfi halların mövcudluğunu və onlara qarşı mübarizə aparılmasının gərəkliyini bəyan etdi. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil olundu və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar ictimaiyyətin diqqətinə çatdırıldı. Yeni birinci katib bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirdi. Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın bütün plenumları, fəallar yığıncaqları və başqa toplantılardakı məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. *Məhz həmin illər Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni-mənəvi həyatında dönüş mərhələsi oldu. Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, ciddi nizam-intizamın yaradılması, kadr dəyişikliklərinin həyata keçirilməsi, işgüzar mühitin sağlamlaşdırılması sahəsində məqsədyönlü tədbirlər qarşıya qoyulan yüksək vəzifələrin yerinə yetirilməsinə lazımi şəraiti təmin edirdi.*

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü respublika həyatının bütün sahələrində, sözün həqiqi mənasında, inqilabi sıçrayış mərhələsi kimi tarixə düşmüşdür. *Əgər sovet hakimiyyətinin bütün əvvəlki 50 ilində (1920-1970-ci illər) Azərbaycanın iqtisadiyyatına bütövlükdə 14 milyard rubl (ildə orta hesabla 280 milyon rubl) sərmayə qoyulmuşdusa, 15 ildə (1971-1985-ci illər) bütövlükdə 36 milyard rubl (hər il orta hesabla 2,4 milyard rubl), yəni ildə 10 dəfəyə yaxın çox vəsait sərf olunmuş, yüzlərlə yeni sənaye müəssisəsi tikilərək istifadəyə*

verilmişdir. 1969-cu ildə sənaye obyektlərinin sayı 735 olmuşsa, 1982-ci ildə bu rəqəm 1048-ə çatmışdı. O dövrdə həm Bakıda, həm də Azərbaycanın digər şəhərlərində və rayon mərkəzlərində çox sayda sənaye müəssisəsi işə salındı. Bakı Kondisionerləri Zavodu, "Ozon" Elm-İstehsalat Birliyi, Elektron Hesablayıcı Maşınlar Zavodu, Dərin Özüllər Zavodu, Sumqayıt Kompressor Zavodu, Üst Trikotaj Fabriki, Gəncə Əlvan Metallar Emalı Zavodu, Naxçıvan Şüşə Qablar Zavodu, Əli Bayramlı Məişət Cihazları Zavodu və 1970-80-ci illərdə Heydər Əliyevin əməyi sayəsində işə başlamış yüzlərlə digər sənaye obyekti hesabına Azərbaycanın ixrac potensialı kifayət qədər yüksəlmişdi. *Həmin illərdə respublikada buraxılan 350 adda sənaye və kənd təsərrüfatı məhsulu dünyanın 65 ölkəsinə göndərilirdi.*

Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublikada aqrar sahənin hərtərəfli və intensiv inkişafını nəzərdə tutan bir neçə xüsusi qərar qəbul etmişdir. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının artırılması və intensivləşdirilməsi, bu sahənin daha da ixtisaslaşdırılması, üzümçülük və şərabçılığın inkişaf etdirilməsi, irriqasiya və meliorasiya obyektlərinin tikilməsi barədə qərarları respublikaya ümumittifaq büdcəsindən böyük miqdarda əlavə vəsaitin ayrılmasına şərait yaradırdı. Sosial-iqtisadi inkişafa təkan verən və Azərbaycan xalqının mənafeləri baxımından böyük əhəmiyyətə malik olan həmin qərarların və digər tədbirlərin həyata keçirilməsi sayəsində aqrar sektorda məhsul istehsalı 2 dəfədən çox artmışdı.

Həmin illərdə Azərbaycan keçmiş SSRİ-nin ən böyük üzümçülük respublikasına çevrildi. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1 milyon 481 min tona çatdırıldı, respublika şərabçılıqdan yüksək mənfəət götürməyə başladı. Pambıqçılığın sürətlə inkişafı məhsul yığımını 1970-ci ildəki 335, 6 min tondan 1982-ci ildə bir milyon tona qədər artırmağa imkan verdi. Meyvə-tərəvəz istehsalı isə 1970-ci ildəki 410 min tondan 1982-ci ildə 850 min tona yüksəldi.

1970-ci illərdə Azərbaycanda meliorasiya infrastrukturunun inkişafı sahəsində ciddi tədbirlər görüldü. Nəticədə yeni əkin sahələri dövriyyəyə cəlb edildi, aqrar sahədə məhsuldarlıq yüksək səviyyəyə çatdı. Həmin illər Baş Mil, Ciqar-Cibar, Abşeron, Lənkəran kanalları, Araz su qurğusu, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Sirab, Şəmkir, Köndələnçay və digər dəryaçalar tikilib istifadəyə verildi.

1969-1982-ci illər Azərbaycanda milli gəlir 2,5, əmək məhsuldarlığı 2, istehlak mallarının istehsalı isə 3 dəfə artdı. Bu illər ərzində istehsal olunmuş sənaye məhsulunun həcmi əvvəlki 50 ilin istehsal həcminə bərabər idi.

Beləliklə, ölkənin sosial-iqtisadi həyatında sürətli tərəqqi baş verdi, Azərbaycan ümumilikdə SSRİ miqyasında birinci üçlüyə yüksələrək özünü dolandıran və mərkəzi büdcəyə donorluq edən qabaqcıl aqrar-sənaye respublikasına çevrildi. Bu potensial, xüsusilə də neft-qaz emalı, maşınqayırma və emal müəssisələri sonralar müstəqilliyin çətin illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı.

Milli-mənəvi özünüdərkin yüksəlişi və milli ideyanın gerçəkləşməsi uğrunda

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk dövrdə azərbaycançılıq məfkurəsinin möhkəmlənməsi, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində mühüm işlər görmüşdür. Keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara, marksizm-leninizm ideologiyasının tələblərinə rəğmən Heydər Əliyev standart stereotiplərdən kənara çıxmağı, mövcud sistemin qaydalarını formal şəkildə pozmadan yeniliklər etməyi bacarırdı. O illərdə Azərbaycan xalqı öz dilini, ədəbiyyatını, tarixini, zəngin milli mədəniyyətinin rəngarəngliyini və çoxcəhətliliyini sanki təzədən qavrayır və yenidən qiymətləndirirdi. Elə buna görə də Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasında yeni mərhələnin başlanğıcı kimi qəbul etmək lazımdır.

Heydər Əliyev sovet dövründə öz milli-mənəvi dirçəliş konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca təsirli vasitələrdən istifadə etmişdir. Məsələn, belə səmərəli üsullardan biri kimi, Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığının təbliğ olunmasını göstərmək olar. Ulu Öndər onların yubileylərinin müntəzəm qeyd edilməsi, əsərlərinin nəşri, ev-muzeylərinin yaradılması kimi məsələlərə xüsusi önəm verirdi. Bu, imkan verirdi ki, Azərbaycanın tanınmış simalarının xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri üzə çıxarılsın, sistemləşdirilsin və nəticədə milli düşüncənin güclənməsinə, böyüməkdə olan nəslin dünyagörüşünün formalaşmasına xidmət etsin. Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanda və keçmiş SSRİ-nin paytaxtı Moskvada tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, abidələri ucaldılmışdır. Bəziləri elə düşünə bilər ki, həmin dövrdə bu adi və asan məsələ idi və başqa müttəfiq respublikalarda da Moskvanın tapşırığı ilə həmin addımlar atılırdı. Əslində isə belə deyildi. Bunun üçün respublikaya rəhbərlik edən şəxsin öz xalqının milli-mənəvi dünyasına və tarixinə dərindən bələd olması və onu milli ideya ətrafında birləşdirmək kimi ali məqsədə xidmət etmək niyyəti, qətiyyətli fəaliyyəti mühüm şərtdir. Heydər Əliyevi respublikanın əvvəlki rəhbərlərindən fərqləndirən və onu Ümummilli Lider səviyyəsinə ucaldan əsas cəhət də məhz budur. Bu fikri Azərbaycanın görkəmli şəxsiyyətlərinə münasibətdə daha aydın izah edə bilərik. Məsələn, Cəfər Cabbarlı 1934-cü ildə vəfat etsə də, 1980-ci ilə qədər onun Bakıda nə abidəsi, nə də ev-muzeyi var idi. Üzeyir Hacıbəyli 1948-ci ildə, Bülbül 1962-ci ildə, Səməd Vurğun 1956-cı ildə

vəfat etmişlər. Lakin xalqımızın tanınmış hər üç mədəniyyət xadiminin ev-muzeyi yetmişinci illərdə açılmışdır. Molla Pənah Vaqifin Şuşa şəhərindəki əzəmətli məqbərəsi də 1981-ci ildə tikilib başa çatdırılmışdır. Bakıda Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Müslüm Maqomayevin ev-muzeylərinin açılması barədə qərarlar da 1981-82-ci illərdə qəbul edilmişdir.

Bəs nə üçün o vaxta qədər bu işlər görülməmişdi? Ulu Öndər sonralar müsahibələrinin birində bu məsələlərdən danışarkən özünəməxsus müdrikliklə demişdi: "Əlbəttə, Azərbaycan, Bakı üçün bu, adi bir şey idi. Sadəcə olaraq bunu düşünən yox idi". Bəli, məhz düşünən yox idi. Başqa sözlə desək, söhbət təkcə həmin görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirməkdən getmirdi. Həm də məqsəd onların yaradıcılığı vasitəsilə azərbaycanlıların milli şüuruna, tarixi yaddaşına və mənəvi dünyasına təsir göstərərək dövlətçilik duyğularının sönməsinə imkan verilməməsindən ibarət idi. Məsələ bundadır ki, bu yolda bəzən çətin qərarlar da vermək lazım gəlirdi. Ola bilər ki, yuxarıda qeyd edilən şəxsiyyətlərlə bağlı hər hansı müsbət işin görülməsi Ulu Öndərin də qeyd etdiyi kimi "adi bir şey", sadəcə barəsində düşünmək kifayət edəcək bir məsələ idisə, Hüseyn Cavidin qəbrini tapıb nəşinin qalıqlarını Azərbaycana gətirmək o qədər də asan iş deyildi. Çünki həmin dövrdə repressiya qurbanlarına münasibət kökündən dəyişməmişdi. H.Cavidin əsərləri çap olunmağa, teatrlarda göstərilməyə başlasa da, "millətçi", "pantürkist" damğaları hələ də üstündən tam götürülməmişdi. Ulu öndər Heydər Əliyev H.Cavidin nəşinin Vətənə gətirilməsi və dəfni ilə bağlı da olduqca müdrik addım atdı. O, sonralar xatırlayırdı: "Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin hansı təklif daha düz olub! Fəxri xiyabanda yan-yana yatan dahilər çoxdur, lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun ev-muzeyini açmışdıq. Zənnimcə, bu, tək xeyirxahlıq deyil, mənim öz xalqım qarşısında borcumdur. Əgər xalq o dövrdə mənə inanmışdısa, öz taleyini mənə tapşırmışdısa, mən onun haqqında düşünməli idim".

Ulu Öndər yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraitinin təmin olunmasına çalışırdı. O, yaxşı başa düşürdü ki, milli özünüdərk prosesi onların fəaliyyətindən çox asılıdır. Onun köməyi ilə 1969-cu ildə "Qobustan" almanaxı nəşr edilməyə başladı. Qədim Gəncə şəhərinin adının yaşaması üçün "Yeni Gəncə" adlı rayon yaradıldı. Heydər Əliyev ilk dəfə "İran Azərbaycanı" əvəzinə "Cənubi Azərbaycan" siyasi-coğrafi termininin dövriyyəyə buraxılmasına nail oldu. Cənubi Azərbaycanla birlik, həsrət hisslərinin ədəbi ifadəsinə geniş imkanlar yaratdı. Bunun bariz nümunəsi kimi 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi postu təsis edilməsini xatırlamaq kifayətdir.

Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərliyə başladığı ilk günlərdən xalqın tarixinə, ana dilinə hörmət ifadə edən cəsarətli addımlar atmaqdan çəkinmirdi. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq Bakı Dövlət Universitetinin açılmasını Azərbaycan Xalq Cümhuriyyətinin xidməti kimi deyil, respublikamızda sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Lakin Heydər Əliyev buna imkan vermədi və universitetin 50 illiyini 1969-cu ildə qeyd etmək barədə qərar qəbul etdi. O, 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetində keçirilən yubiley mərasimində Azərbaycan dilində nitq söylədi. Bu həmin dövr üçün görünməmiş hadisə idi. O vaxta qədər respublikanın bütün rəhbərləri rəsmi toplantılarda yalnız rus dilində çıxış edirdilər.

Heydər Əliyev hesab edirdi ki, milli ruhun yüksəlişinə təkan verən əsas şərtlərdən biri məhz ana dilidir. O, ana dilinin cəmiyyətin daxili institusional quruluşuna və konsolidasiyasına təsirini lazımınca qiymətləndirir, Azərbaycan dilinin dövlət dili səviyyəsində təsbit olunması ilə yanaşı, cəmiyyət həyatının bütün sahələrində geniş istifadə edilməsinə çalışırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan tarixinə və ana dilinə aid araşdırmalar yüksək dövlət mükafatlarına layiq görülür, tədqiqatçılar bu sahələrdə daha səylə işləməyə həvəsləndirilirdilər. Bu bir həqiqətdir ki, Ulu Öndərin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dilinin cəmiyyətdə dominant rolunun təmin edilməsi milli məfkurənin formalaşmasına, milli dövlətçilik ideyasının güclənməsinə və gələcəyin müstəqil Azərbaycanının yaradılmasına həlledici təsir göstərmişdir.

Xalqın gələcəyini düşünən lider

Ümummilli Liderin Azərbaycana rəhbərliyinin birinci dövründə diqqət ayırdığı ilk məsələlərdən biri də təhsil və yüksəkixtisaslı kadrların yetişdirilməsi olmuşdur. *70-ci illərədək respublikadan SSRİ-nin başqa şəhərlərinə ildə cəmisi 50 nəfər tələbə göndərilirdi, onların da əksər hissəsi qeyri-azərbaycanlılar idi.* Həmin mütəxəssislərin çox az qismi sonra Azərbaycana qayıdırdı. Heydər Əliyev bu məsələnin Mərkəzi Komitənin nəzarətinə götürülməsi barədə tapşırıq verdi, SSRİ-nin başqa şəhərlərinin, xüsusən Moskvanın, Leninqradın ali məktəblərinə göndərilən gənclərin sayının ilbəil artırılmasını və əksəriyyətinin azərbaycanlı olmasını tapşırdı. *Beləliklə, 1975-ci ildə SSRİ-nin müxtəlif şəhərlərinə 400 tələbə, 1978-ci ildən isə 50-dən çox şəhərin ali məktəbinə ildə 800 nəfər tələbə göndərildi. Əslində bu, Azərbaycanın bir ali məktəbinin qəbuluna bərabər idi.* Heydər Əliyev hər il başqa şəhərlərin ali məktəblərinə yollanan gənclərlə respublikanın partiya-sovet fəallarının görüşünü keçirir, onların qarşısında çıxış edirdi.

Həmin illər respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi də genişləndirilmiş, 5 yeni ali məktəb, onlarla texnikum açılmışdı.

Hərbi təhsilin inkişafına da xüsusi diqqət yetirilirdi. O illərdə hazırlanmış yüksəkixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin ordusunun qurulması və möhkəmləndirilməsinə öz töhfələrini verdilər. Xatırladaq ki, 1970-1971-ci illərdə respublikanın rayonlarına hərbi komissar göndərməyə azərbaycanlı zabit tapılmırdı. Orduda azərbaycanlı generalların, zabitlərin sayı həddindən artıq az idi. Ümummilli Lider sonralar onu həddindən artıq qayğılandıran bu məsələ barədə deyirdi: *"Çar dövründə müsəlmanlar orduya çağırılmırdılar, hətta elə bir vaxtda rus ordusunda bizim Əliağa Şıxlinski, Mehmandarov kimi generallarımız var idi. Niyə indi başqa millətlərin marşalı, generalları var, bizim isə yox?"* Heydər Əliyev bu problemi də ardıcıl və sistemli şəkildə həll etdi. SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin çoxlu sayda göndərilməsi üçün hərbi təmayüllü xüsusi internat məktəbi yaradıldı. Məktəbə qəbul olunanların əksəriyyəti azərbaycanlılar idi. Onlar 3 il oxuyub orta təhsil alır, hərbi hazırlıq keçir, rus dilini mənimsəyir, sonra isə müvəffəqiyyətlə ali hərbi məktəblərə qəbul olunurdular. Məktəbə 1937-ci ildə repressiya olunaraq güllələnmiş general Cəmşid Naxçıvanskinin adı verildi. Heydər Əliyev hər il Mərkəzi Komitənin Büro üzvləri ilə bərabər həmin məktəbə gedir, vəziyyətlə tanış olur və kollektiv qarşısında çıxış edirdi. Ulu Öndər sonralar o unudulmaz anları fəxrlə yada salaraq deyirdi: *"Çox sevinirdim ki, onun məzunları - azərbaycanlılar zabit olurlar, sovet ordusunda qulluq edirlər. Əgər Azərbaycan öz suverenliyi, tam azadlığı barədə fikirləşirsə, o, ilk növbədə öz milli ordusu, milli zabitləri barədə fikirləşməlidir. Mən bunların hamısını düşünürdüm".*

Heydər Əliyev Bakıdakı Azərbaycan SSR Ali Soveti adına Hərbi Məktəblə də bağlı vəziyyəti nəzarətə götürdü: *"Aydınlaşdırdıq ki, hər il qəbul olunan 350 nəfər kursantın ancaq 10-15 nəfərini azərbaycanlılar təşkil edir. Xətai rayonu ərazisində Kirov adına Ali Hərbi Dəniz Donanması məktəbi var, özü də ölkədə olan Ali Dəniz Donanması məktəbləri arasında fərqlənir. Burada xarici tələbələr də oxuyurlar. Məktəbə ildə bir, ya iki azərbaycanlı qəbul olunurdu. Biz bu sahədə də lazımi tədbirlər gördük. Azərbaycanın ərazisində olan bu iki ali hərbi məktəbə qəbul olunan azərbaycanlıların sayını bir neçə dəfə artırdıq. Ümumiyyətlə, 1980-81-ci illərdə hər il ölkənin ali hərbi məktəblərinə ildə 800 nəfərdən çox gənc azərbaycanlı göndərməyə nail olduq. Tarixdə ilk dəfə Bakı Ali Hərbi Məktəbinə rəis azərbaycanlı - general Bərşadlı təyin olundu. Xəzər Hərbi Dəniz Donanmasının Komandanı isə azərbaycanlı admiral Qasımbəyov oldu. 1967-70-ci illərdə azərbaycanlılardan Hüseyn Rəsulbəyov adlı bircə general-leytenant rütbəli adamımız vardı. O, Bakı hərbi hava müdafiəsi dairəsində raket qoşunlarına komandanlıq edirdi. Sonra isə ordu sıralarında azərbaycanlı generalların sayı artdı. Tofiq Ağahüseynov Bakı Hərbi Hava Müdafiəsi Dairəsi rəisinin birinci müavini təyin edildi. O, azərbaycanlıların içərisində ən yüksək hərbi rütbə - general-polkovnik rütbəsini almağa layiq görüldü".*

Heydər Əliyev hərbi-vətənpərvərlik hisslərinin gücləndirilməsi, eyni zamanda azərbaycanlıların qəhrəmanlığı və hərbi şücaətlərinin təbliği istiqamətində böyük işlər görürdü. O, İkinci Dünya müharibəsində Azərbaycanın və xalqımızın oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. *1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının şərəfinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapun Qora ərazisində 77-ci Azərbaycan diviziyasının şərəfinə isə böyük abidə ucaldılmışdı. Heydər Əliyev Bakı şəhərinin, Azərbaycan neftçilərinin nasizm üzərində qələbədə həlledici rol oynadığını və bu faktın dünya miqyaslı tarixi əhəmiyyət daşıdığını SSRİ rəhbərliyi tərəfindən qəbul edilməsinə çalışmış, 1978-ci ildə Bakının "Lenin" Ordeni ilə təltif edilməsinə nail olmuşdu.*

Qısa müddət ərzində qazanılan böyük uğurlar Sovet İttifaqı miqyasında da diqqəti cəlb etmiş və Azərbaycan rəhbərinin şəxsiyyətinə marağı artırmışdı. Təsadüfi deyil ki, Heydər Əliyev 1976-cı ildə daha yüksək siyasi statusa layiq görülərək Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdi. Bu isə onu bir sıra digər müttəfiq respublikaların başçılarından fərqləndirirdi. Ulu Öndər sonralar bildirirdi ki, o, bu üstünlükdən öz xalqının mənafeyi üçün səmərəli istifadə etmişdir: "SSRİ Nazirlər Sovetindəki əlliyə yaxın nazirdən hansına telefon etsəydim, Azərbaycan üçün hər hansı mühüm işin görülməsi onlar üçün əmr sayılırdı. Bu şəraitdən Azərbaycan üçün istifadə etdim".

Bütün varlığı ilə doğma diyara bağlı rəhbər

1982-ci ilin sonlarında Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Büro üzvü seçildikdən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra da iş yükünün ağırlığına, 60-dan çox sahəyə cavabdehlik daşımasına baxmayaraq, Azərbaycanla daim yaxından maraqlanmış, respublikanın sosial-iqtisadi, mədəni və digər sahələrdə tərəqqisi naminə əlindən gələn köməyi əsirgəməmişdir. *Heydər Əliyev Moskvada olduğu dövrdə neft-qaz sənayesinin və digər sahələrin inkişafına diqqət yetirir, mühüm obyektlərin maliyyələşdirilməsi üçün SSRİ Dövlət Plan Komitəsi qarşısında məsələ qaldırırdı. Nəticədə, 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri" yatağı kəşf edildi. Təməli hələ 1978-ci ildə qoyulan Dərin Özüllər Zavodu onun köməyi sayəsində 1984-cü ildə istismara verildi və 1986-cı ildə isə layihə gücünə çatdırıldı. Bundan əlavə, Azərbaycanın şimal-qərb bölgəsini mərkəzi nəqliyyat şəbəkəsi ilə bağlayan 160 kilometr uzunluğunda və ən çətin sahədən keçən Yevlax-Balakən dəmir yolu Ulu Öndərin birbaşa qayğısı ilə çəkilib, 1985-ci ildə istifadəyə verildi.* Həmin xəttin tikintisi zamanı burada yeni stansiyalar, yaşayış evləri, uşaq bağçaları, məktəblər inşa edildi.

Heydər Əliyev Bakı metrosunun inkişafı istiqamətində əvvəlki illərdə başlanılan işlərin davam etdirilməsini öz nəzarətində saxlayırdı. 1985-ci ilin dekabrında "Elmlər Akademiyası", "İnşaatçılar", "XI Qızıl Ordu" (indiki "20 Yanvar") və "Memar Əcəmi" stansiyaları istifadəyə verildi.

Su nəqliyyatı infrastrukturu da diqqətdən kənarda qalmadı. 1985-ci ildə Xəzərdə yeni bərə keçidi açıldı. Bu bərə Azərbaycanı Qazaxıstanla birləşdirdi. Dənizə "Sovet Dağıstanı" və "Sovet Tacikistanı" gəmiləri gətirildi. Ümumiyyətlə, həmin dövrdə Xəzər dəniz gəmiçiliyində donanmanın üçdəbiri təzələndi.

Heydər Əliyev bütün imkanlardan istifadə edərək Azərbaycan mədəniyyətinin xaricdə tanıdılmasına və beynəlxalq mədəni əlaqələrinin yaradılmasına dəstək verirdi. Həmin dövrdə bir sıra beynəlxalq konfrans, simpozium, dekada və yarmarkalar Bakıda keçirilirdi. Dünyanın məşhur aktyorları, rejissorlar və digər incəsənət mütəxəssisləri Bakıya ezamiyyətə gəlir, azərbaycanlı sənətkarlarla mədəni mübadilə edirdilər. Bakıda beynəlxalq kino həftələrinin keçirilməsi isə artıq ənənəvi xarakter almağa başlamışdı. 1983-cü ildə Azərbaycanın paytaxtında Danimarka, 1984-cü ildə Hindistan, 1986-cı ildə Misir, Rumıniya, Çexoslovakiya, Bolqarıstan, 1987-ci ildə isə Çin kino filmləri həftələri keçirilmişdi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi onun Azərbaycan səhiyyəsinə olan nəzarətini, diqqətini daha da artırmışdı. Ulu Öndər sonralar bu dövrü belə xatırlayırdı: *"Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm. Mənim o vaxt həm onkoloji, həm kardioloji, həm ürək cərrahiyyəsi, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində çox səylərim olmuşdur".*

Ulu Öndərin bu illər ərzində doğma Vətəni, yurdu naminə gördüyü işlərin hamısını bir məqalədə əhatə etmək, bütün məsələlərin dərin təhlilini vermək mümkün deyildir. Lakin elmi şəkildə sübut olunmuş həqiqət ondan ibarətdir ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə xalqın qədim ənənələrə malik dövlət idarəçiliyi mədəniyyəti yenidən dirçəldilmiş, milli-mədəni oyanışda böyük dönüş başlanmış və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı iqtisadi-mədəni zəmin hazırlanmışdır. *Ulu Öndərin sovet dövründəki fəaliyyətinin başlıca əhəmiyyəti ondan ibarətdir ki, ilk növbədə, milli özünüdərk prosesi sovet ideoloji sisteminin buxovlarına baxmayaraq ardıcıl davam etdirilmişdir. Digər tərəfdən, həmin illərdə baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatlar və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi müstəqil Azərbaycanın yaranmasına aparan tarixi yolun salnaməsində ən parlaq səhifələrdir. Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadi sistemində öz yerini getdikcə möhkəmləndirməsi həm də 1970-80-ci illərin əvvəllərində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.*

Azərbaycan xalqı və dövləti ulu öndər Heydər Əliyevin zəngin irsinə böyük hörmətlə yanaşır, onu qoruyur və ondan bəhrələnir. Bu gün Ümummilli Liderin siyasi xəttini yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycan Respublikasının müstəqil dövlətçilik tarixinə yeni şanlı səhifələr yazır.

Kaspi.-2020.-14 iyul.-№109.-S.6-7.

“Müstəqil Azərbaycan dövləti bizim ən böyük sərvətimizdir!”

Əliqismət Bədəlov

Əgər Azərbaycan xalqı 1993-cü ildə müdriklik göstərməsəydi, Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, bizim taleyimizin necə olacağını bilmək olmazdı. Ona görə bütün bunları görərək, biz bugünkü sürətli inkişafı daha da yüksək qiymətləndirməliyik və bu inkişafı dayanıqlı etməliyik.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Prezident İlham Əliyevin rəsmi “facebook” səhifəsində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib. Paylaşımda ulu öndər Heydər Əliyevin bu sözləri sitat gətirilib: “Müstəqil Azərbaycan dövləti bizim ən böyük sərvətimizdir!” . Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan çətindir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra baş verən proseslər, qarşılaşdığımız çətin, gərgin hadisələr, iki dəfə dövlət çevrilişinə cəhd və bunların qarşısının müdrikcəsinə alınması da bunu təsdiqləyir…

Azərbaycan bir əsrdə iki dəfə dövlət müstəqilliyini elan etmiş nadir ölkələrdəndir. 1918-ci ildə Şərqdə ilk demokratik respublika kimi adını tarixə yazan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi və tarixi zərurət kimi yaranmışdı. AXC cəmi 23 ay yaşasa da, minillik tariximizdə baş verən ən əlamətdar və önəmli hadisələrdən biri kimi xalqımızın siyasi şüur səviyyəsinin yetkinliyindən xəbər verirdi. Yenidən müstəqilliyini bərpa edən indiki Azərbaycan haqlı olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edilir.

Müstəqillik və azadlıq qurbanlar bahasına, çətinliklə əldə olunur. 1991-ci ildə mərd oğul və qızlarımızın qanı bahasına dövlət müstəqillimizin bərpa edilməsi xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şərəfli tarixin şüurlarda yaratdığı milli oyanışın, azadlıq eşqinin bəhrəsi idi. Azərbaycan müstəqil, demokratik və dünyəvi bir dövlət kimi yenidən mövcudluğunu bəyan etdi. Ancaq ilk illərdə dövlətə rəhbərlik edənlər yalnız özlərini və ətrafını düşünürdü. Müstəqilliyimizin ilk illərində xalqımız, sözün həqiqi mənasında, ağır, məşəqqətli günlər yaşadı. Həmin vaxt ölkədə yaranmış hakimiyyətsizlikdən istifadə edən Ermənistanın Azərbaycana torpaq iddiası ilə başlayan münaqişəsi vəziyyəti son dərəcə ağırlaşdırdı. Ermənistandakı dədə-baba torpaqlarından silah gücünə qovulan soydaşlarımız Azərbaycana pənah gətirirdi. Dağlıq Qarabağ, həmçinin ətrafındakı rayonlar erməni qəsbkarları tərəfindən işğal olunurdu. Təəssüf ki, müstəqilliyimizin ilk illərində hakimiyyəti ələ keçirən vəzifə hərislərinin dövlət idarəçiliyindəki naşılığı, bəzilərinin hələ də köhnə sovet rejimindən ayrıla bilməməsi, kimlərinsə sifarişini yerinə yetirməsi və ya xalqın taleyüklü məsələlərini öz maddi maraqlarına qurban verməsi yenicə qazanılmış müstəqilliyimizi addım-addım uçuruma yaxınlaşdırırdı. AXC-Müsavat cütlüyünün ölkəyə rəhbərlik etdiyi müddətdə isə vəziyyət daha da ağırlaşdı.

Prezident İlham Əliyev həmin illərdə respublikamızda baş verən hadisələrə münasibət bildirərkən demişdir: “Azərbaycanda vəziyyət getdikcə gərginləşirdi, torpaqlarımız erməni işğalı altına düşürdü. Ovaxtkı AXC-Müsavat hakimiyyəti xalqın ümidlərini doğrulda bilmədi, öz yarıtmaz, xəyanətkar siyasəti ilə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə böyük zərbələr vurdu və demək olar ki, ölkəni idarəolunmaz vəziyyətə gətirdi. Xaos, anarxiya, talançılıq, özbaşınalıq, siyasi, iqtisadi, hərbi böhran hökm sürürdü, torpaqlarımız işğal altına düşürdü”.

Dövlət başçımızın qeyd etdiyi kimi, Azərbaycanın o vaxtkı iqtidarı öz laxlayan hakimiyyətini qorumaq üçün cinayətlərə, vətəndaş müharibəsinə əl atmışdır. Həmin dövrdə baş verənləri soydaşlarımız heç vaxt unutmaz. Azərbaycanda siyasi sistem yox idi, siyasi münasibətlər, ümumiyyətlə, mövcud deyildi. Başları var-dövlət toplamağa qarışmış iqtidar nümayəndələri hakimiyyəti saxlamaq üçün minbir oyundan çıxırdılar. Dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda respublikamızın o zamankı rəhbərləri vacib, taleyüklü vəzifələrin öhdəsindən gələ bilmirdilər. Ölkədə yaranmış anarxiyadan istifadə edənlər birincilik davasına çıxmışdılar. Məhz buna görə də torpaqlarımızın xeyli hissəsi itirildi, xaos, anarxiya baş alıb gedirdi, vətəndaş müharibəsi təhlükəsi yarandı, qardaş qırğını başlandı, qanunçuluğun əsasları ciddi şəkildə zəiflədi, cinayətkarlıq halları görünməmiş həddə çatdı, dövlətçiliyimiz və müstəqilliyimiz təhlükə qarşısında qaldı.

AXC–Müsavat iqtidarının yarıtmaz kadr siyasəti özünü bütün sahələrdə büruzə verirdi. Vəzifəyə təyin olunanlar istedadına, qabiliyyətinə görə deyil, yalnız Xalq Cəbhəsinin üzvü olduğuna görə təyin edilirdi. Hətta bu iqtidar həmişə çətin vaxtlarda xalqına, Vətəninə arxa-dayaq olan, ömrünü Azərbaycanın tərəqqisinə həsr etmiş ulu öndər Heydər Əliyevin də ölkəyə – öz Vətəninə gəlməsinə mane olurdu. Prezident İlham Əliyev həmin hadisəni belə xarakterizə etmişdir: “Heydər Əliyev doğma Vətənə üz tutur və Bakıya gəlir. Əfsuslar olsun ki, Bakıda da ona yaşamağa imkan verməmişlər və Naxçıvana – doğulduğu yerə gedib orada yaşamağa məcbur olur və Azərbaycan xalqı onun ətrafında birləşməyə başlayır. Azərbaycan xalqı açıq-aydın görürdü ki, bu ağır

vəziyyətdən xalqı ancaq Heydər Əliyev çıxara bilər, xalqı ancaq o xilas edə bilər. Naxçıvanlılar onun ətrafında sıx birləşərək Heydər Əliyevi Ali Məclisin Sədri vəzifəsinə seçdilər və o, Naxçıvanı işğaldan qorudu. Çünki o vaxt Ermənistan Naxçıvanı da işğal etmək istəyirdi. Ancaq Heydər Əliyev buna imkan vermədi. Orada böyük səfərbərlik işləri görülmüşdür, özünümüdafiə dəstələri yaradılmışdır və Naxçıvanın işğalına imkan verilməmişdir. Naxçıvanlılar da Heydər Əliyevi qorudular. Çünki o vaxt – 1992-ci ildə hakimiyyəti qanunsuz, dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat hakimiyyəti Heydər Əliyevə qarşı işlərə başlamışdı və Naxçıvanda da çevriliş etmək fikirləri var idi. Hətta, o vaxt Daxili İşlər Nazirliyinin daxili qoşunlarının bir dəstəsini Naxçıvana desant göndərmək istəmiş, naxçıvanlıları, Heydər Əliyevi hədələmişdilər, ancaq sonra bu çirkin əməllərdən əl çəkməli oldular. Çünki gördülər ki, onları çox ciddi müqavimət gözləyir və bu, avantüra onlara çox baha başa gələ bilər və yenə də, – sonra da bunu dəfələrlə göstərəcəklər, – qorxaqlıq göstərərək öz çirkin niyyətlərindən əl çəkməli oldular".

Göründüyü kimi, müstəqilliyə gedən yol məhz Naxçıvandan başladı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi məhz Heydər Əliyev Naxçıvan parlamentində qaldırdı və təsis etdi. Azərbaycan Milli Məclisi, – o vaxt Ali Sovet adlandırılırdı, – qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin.

Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürür, müstəqilliyimizi sürətlə məhvə doğru aparırdı. İqtisadi böhran getdikcə dərinləşirdi, sənaye, demək olar ki, iflic vəziyyətə düşmüşdü. Ovaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. Korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzir, insanları xof, qorxu içərisində saxlayır, talançılıq edirdilər. AXC-Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı.

Ovaxtkı iqtidarın yarıtmaz kadr siyasəti artıq öz acı nəticəsini göstərirdi. Heç bir hərbi təhsili və təcrübəsi olmayan , AXC-Müsavat iqtidarının Milli Qəhrəman səviyyəsinə qaldırdığı Surət Hüseynovun korpus komandiri təyin olunması buna parlaq misaldır. Gəncədə 709 saylı hərbi hissəni öz tabeliyində saxlayan S.Hüseynovun hakimiyyətə itatətsizliyi vəziyyəti ağırlaşdırdı. Artıq o, iqtidar qarşısında qəti şərt qoymuşdu: "Prezident, Baş nazir və Ali Sovetin Sədri istefa verməlidir". Ölkəyə rəhbərlik edənlərin ən ciddi səhvlərindən biri S.Hüseynovu silah gücünə susdurmaq cəhdi oldu. Nəticə isə hamıya bəllidir: Gəncədə qardaş qanı axıdıldı və bunun nəticəsində daha da böyük itkilərlə üzləşdik. Hər iki tərəfdən insan tələfatı oldu.

Xalqın yeganə ümid yeri ulu öndər Heydər Əliyev idi. Ziyalılar, tanınmış elm, mədəniyyət, incəsənət xadimləri axın-axın Naxçıvana gedir, Heydər Əliyevdən Bakıya dönüb ölkəyə rəhbərlik etməsini təkidlə xahiş edirdilər. Vəziyyətin son dərəcə gərginləşdiyi bir vaxtda respublika rəhbərliyi böhrandan çıxış yolu axtarmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə müraciət etdi. Xalqın təkidli tələbi, iqtidarın, şəxsən Prezident Əbülfəz Elçibəyin dəvəti ilə ulu öndər Heydər Əliyev Bakıya gəldi.

Gəncədəki silahlı qarşıdurmanı yatırtmaq üçün həyata keçirilən uğursuz əməliyyata görə məsuliyyət daşıyan AXC-Müsavat iqtidarının ikinci şəxsi, parlamentin sədri İsa Qəmbər istefa verdi. Prezident Əbülfəz Elçibəy və digər hakimiyyət mənsubları parlamentin sədri postunu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə təklif etsələr də, ulu öndər mövcud vəziyyəti bilavasitə öyrənmək üçün Gəncəyə gedəcəyini və yalnız bundan sonra təklifə cavab verəcəyini bildirdi. Heydər Əliyev bir qrup jurnalistin müşayiəti ilə həmin gün Gəncəyə yola düşdü, baş verənlərlə yerindəcə tanış oldu, ölkəni böhranlı vəziyyətdən çıxarmaq, Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində əməli addımlar atdı.

Milli Məclisin 15 iyun 1993-cü tarixli iclasında təşkilati məsələyə baxıldı. İclasda iştirak edən Prezident Əbülfəz Elçibəyin təklifi ilə deputat, Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyev parlamentin sədri seçildi. Həmin əlamətdar gün Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Ulu öndər Heydər Əliyev 1993-cü ilin 15 iyununda Milli Məclisin tarixi iclasında ölkə parlamentinin başçısı seçilərkən demişdir: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm... Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa - olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir".

27 il əvvəl verilmiş qətiyyətli vədlər bu gün də özünü gündəlik həyatımızda büruzə verir. Ulu öndərin ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycan yeni mərhələyə qədəm qoydu. Ölkəmiz 1993-cü ilin ikinci yarısından başlayaraq, ancaq inkişaf və tərəqqi yolu ilə gedir. Baxmayaraq ki, 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərildi, ancaq ulu öndər Heydər Əliyevin müdrikliyi, nüfuzu, cəsarəti, qətiyyəti və uğurlu siyasəti cinayətkar ünsürlərin hakimiyyəti qanunsuz zəbt etməsinin qarşısını aldı.

Bu gün Azərbaycanın dünya birliyinin layiqli üzvü olmasının əsası 27 il əvvəl qoyulub. Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev ölkəmizin sürətli inkişafı, dünya birliyində mövqeyinin

daha da möhkəmləndirlməsi, həmçinin əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə edir. Biz bunu gündəlik həyatımızda hiss edir və görürük. Azərbaycanın bundan sonra da sürətli inkişaf yolunda davam edəcəyinə, bu yolda qarşıya çıxan maneələrin aradan qaldırılacağına heç bir şübhə ola bilməz. Prezident İlham Əliyevin dediyi kimi, biz Azərbaycanın dövlət maraqlarının keşiyində nəyin bahasına olursa-olsun durmuşuq. Bu yolda təzyiqlər də, yalanlar da, böhtanlar da, iftiralar da olub. Bunların heç biri bizi öz yolumuzdan döndərə bilməyib. Ona görə ki, biz düzgün yoldayıq. Çünki bilirik ki, bizim siyasətimiz xalqın maraqlarına cavab verir. Əldə etdiyimiz nəticələr, nailiyyətlər, gözəlləşən şəhərlər bütün bədxahlara, bizə zərbə vurmaq istəyənlərə, paxıllıq edənlərə ən gözəl cavabdır.

Xalq qəzeti. - 2020.- 19 iyun. - № 116. - S. 4.

Müstəqilliyi möhkəmləndirən mütərəqqi inkişaf strategiyası

Ağalar Vəliyev,
Milli Məclisin deputatı

Dünya xəritəsində yer alan irili-xırdalı dövlətlərin hər birinin mövcudluğu və inkişafı konkret situasiyada önə çıxaraq, məsuliyyəti üzərinə götürmüş lider amili ilə bağlıdır. Millətlərin vahid məqsədlər uğrunda toparlanması üçün zəruri olan milli ideya da məhz bu cür liderlərin, böyük şəxsiyyətlərin siyasi konsepsiyasında real əsaslarını tapır. Bu baxımdan tam əminliklə demək olar ki, xalqımızın əsrlər boyu formalaşan güclü, qətiyyətli, istiqamətverici ümummilli lider idealı məhz Ulu Öndər Heydər Əliyevin şəxsiyyətində həqiqətə çevrilir.

Heydər Əliyev dühasının böyüklüyü həm də onun daim xalq qarşısında yüksək mənəvi və siyasi məsuliyyət hissi daşıması, ictimai inamı doğrultmaq üçün böyük səylə, əzmlə, vicdanla çalışması olmuşdur. Siyasətə ideyaların realizə vasitəsi kimi yanaşan Ulu Öndər bütün məsələlərdə daim ümumxalq mənafeyindən çıxış etmiş, hakimiyyətdə olduğu hər iki mərhələdə eyni əzmlə, həvəslə çalışmış, qarşıya qoyduğu hədəflərə yetişmək üçün bütün gücünü səfərbər etmişdir. Məhz bu keyfiyyətləri sayəsində o, heç zaman kiçik bir qrupun, toplumun lideri olmamış, bütöv bir millətə rəhbərlik etmək haqqını təmin etmişdir. Şəxsiyyət və lider kimi miqyasının böyüklüyü ona hələ sağlığında ümummilli liderlik zirvəsini fəth etmək imkanı vermişdir.

Ulu Öndərin özünü təcrübəli dövlət xadimi və rəhbər kimi təsdiqləməsi, cəlbedici ideya və proqramlarla insanların inam və etimadını qazanması, habelə məğlubedilməz obrazı həm də qeyri-adi bir keyfiyyətlə - liderlik xüsusiyyətləri ilə ölçülür. Tarixdən yaxşı məlumdur ki, belə liderlik keyfiyyətlərinə malik şəxsiyyətlər sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni kataklizmlər dövründə xalqa düzgün yolu göstərən mayak və xilaskar missiyasında çıxış etmişlər. Heydər Əliyev də qeyri-adi şəxsiyyət kimi insanları ideya və baxışları ətrafında toplamaq, onların iradələrinə, qərarlarına pozitiv təsir göstərmək imkanında olmuş, məhz bu xüsusiyyətləri sayəsində idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici kəsimini arxasınca apara bilmişdir.

Ulu Öndərin ölkəyə bilavasitə rəhbərlik etdiyi 34 ilin bütün dövrlərində xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənmişdir. Bu zaman kəsiyi Azərbaycanda müstəqiliyyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib cıxması, milli-mənəvi yüksəlişə nail olması kimi tarixi prosesi əhatələyir.

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin düzgün qiymətlərilməsində ən obyektiv istinad yeridir. Bu mənada Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Həmin dövrün inkişaf salnaməsini kino lenti tək gözlərimiz önündə canlandırsaq, istər-istəməz bu qənaəti bölüşməli olacağıq: Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən etibarən, yəni Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişindən sonra başlanmışdır. Həmin dövrdən başlayan böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları Azərbaycanın həyatının başlıca gerçəkliyinə, inkişafın təməl daşına çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri həmin illərdə məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. 1970-1985-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarca zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Respublikamız bir sıra istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yer tuturdu, burada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi. Əgər ötən əsrin ortalarına qədər Azərbaycanda cəmi 735 böyük sənaye obyekti tikilmişdisə, 1969-1982-ci illərdə onların sayı 1048-ə çatmışdı. Bu illərdə sənaye məhsulunun orta illik artımı 7,9 faiz artmış, ümumi məcmu məhsulda sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsullarının həcmini üstələyərək 66 faizə yüksəlmişdi. 1982-ci ildə kənd təsərrüfatı məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə, şərabçılıq 6 dəfədən artıq çoxalmışdı.

1969-1982-ci illərdə milli gəlir 2,6 dəfə artmış, Azərbaycan iqtisadiyyatının inkişafına 7,2 milyard manatlıq, yaxud əvvəlki 50 ildəkindən 4,5 dəfə çox kapital qoyulmuşdu. 1982-ci ildə bu rəqəm 1952-ci ildəkini 30 dəfə üstələyirdi. Respublikanın paytaxtı Bakı şəhəri ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir kimi şəhərlərdə, eləcə də rayonlarda çoxlu sayda sosial təyinatlı müasir binalar inşa olunmuş, 20 milyon kvadrat metr mənzil sahəsi yaşayış ücün əhalinin istifadəsinə verilmişdi. Bu illərdə 483,4 min şagirdlik 700-dək orta məktəb binası tikilmiş, ali məktəblərin sayı 17-yə, tələbələrin sayı isə 70 mindən 100 min nəfərə çatdırılmışdı.

Böyük öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu dəyərli ənənələr sırasında gərəkli ixtisaslara yiyələnmək üçün azərbaycanlı gənclərin o vaxtki İttifaqın Moskva, Leninqrad, Kiyev kimi qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi təcrübəsi də xüsusi yer tutur. Əgər 1969-cıı ildə ölkənin digər şəhərlərində təhsil

alanların sayı cəmi 67 nəfər idisə, 80-ci illərin əvvəllərində hər il 1000-1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi. Bütövlükdə həmin dövrdə Azərbaycandan kənarda 15 mindən çox yüksəkixtisaslı gənc mütəxəssis yetişdirilmişdi. Milli hərbi kadrların hazırlanması üçün Bakıda C.Naxçıvanski adına hərbi məktəbin açılması ilə yanaşı, 1982-ci ildə 1000 nəfərdən çox gənc Sovetlər Birliyinin qabaqcıl ali hərbi məktəblərinə göndərilmişdi.

Ulu Öndər elmimizi və mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini də daim yüksək qiymətləndirirdi. Təsadufi deyil ki, Azərbaycanın onlarla böyük alimi, görkəmli yazarları, tanınmış incəsənət xadimləri və müqtədir sənətkarları sovet dövründə məhz onun qayğısı sayəsində Sovetlər Birliyinin Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adlara və dövlət mükafatlarına layiq görülmüşdülər.

Ulu Öndərin İttifaq dönəmində respublikaya rəhbərliyi illərində ən böyük xidmətlərindən biri də xalqımızın milli, mənəvi, mədəni dəyərlərinin qorunub saxlanılması ilə yanaşı, azərbaycançılıq ideologiyasının formalaşması üçün möhkəm zəmin yaratması idi. Bunun bariz nümunəsi 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR-nin Konstitusiyasmda İttifaqın digər müttəfiq resrublikalarından fərqli olaraq Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi idi.

Ümumilikdə miqyasına görə Azərbaycanın şanlı quruculuq salnaməsinin ən dolğun və şərəfli səhifələrini təşkil edən 1969-1982-ci illərdə Ümummilli Lider müdrik uzaqgörənliklə respublikanın gələcək müstəqilliyinə möhkəm iqtisadi bünövrə yaratmışdır.

Tale 1993-cü ildə Azərbaycanı növbəti dəfə çətin sınaqlarla üz-üzə qoyanda xalqın yeganə xilaskar kimi Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də danılmaz gerçəklikdən qaynaqlanırdı.

1993-cü ilin iyununda Bakıya qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyətlə və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. İctimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur.

Tezliklə iqtisadi tənəzzülün qarşısını alan Heydər Əliyev respublikamızın davamlı inkişafı istiqamətində ciddi islahatları da uğurla reallaşdırmışdır. O zamankı məhdud imkanlarını nəzərə alan Ümummilli Lider iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın Xəzər dənizi hövzəsində malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab etmişdir. Ölkənin əsas təbii sərvəti olan neftin yüksək texnologiyalar əsasında çıxarılmasını təmin etmək üçün 1994-cü il sentyabr ayının 20-də dünyanın 8 aparıcı ölkələsinin

13 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi" adını almış möhtəşəm layihənin imzalanması milli inkişafda dönüş anı olmuşdur. Hasil ediləcək neftin dünya bazarına çıxarılması üçün Bakı- Novorossiysk və Bakı-Supsa kəmərləri yenidən qurulmuş, Bakı-Tbilisi-Ceyhan adlı misilsiz ixrac kəməri çəkilmiş, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng bir qaz kəmərinin əsası qoyulmuşdur.

Qədim İpək Yolunun bərpası konsepsiyası və TRASEKA nəqliyyat dəhlizi layihəsi də Ulu Öndərin yalnız öz xalqı üçün deyil, həm də onun bəşəri miqyasda xidmətlərindəndir. Ölkə iqtisadiyyatının möhkəmləndirilməsi ilə yanaşı, ictimai-siyasi sistemin və hüquqi-dövlət quruculuğunun təkmilləşdirilməsi istiqamətlərində ardıcılıqla həyata keçirilən islahatlar çərçivəsində Ümummilli Lider, ilk növbədə, ölkənin müstəqilliyini təsbit edən Əsas Qanunun hazırlanmasmı məqsədəuyğun hesab etmişdir.

Ümummilli Liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüqııq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Bu dövrdə qəbul olunmuş iqtisadi qanunlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və iqtisadi islahatların vətəndaşların mənafeyinə uyğun şəkildə həyata keçirilməsinə etibarlı zəmin yaratmışdır. 1995-2003-cü illərdə qəbul edilmiş 1715 qanundan 975-i məhz Ümummilli Liderin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olunmuşdu.

Ulu Öndərin böyük missiyalarından biri də müəyyənləşdirdiyi strateji inkişaf kursunu və iqtisadi tərəqqi strategiyasını özündən sonra inamla, uğurla davam etdirə biləcək layiqli siyasi varis və davamçı yetişdirməsidir. Ulu Öndər hələ 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü ilin 31 oktyabrında səlahiyyətlərinin icrasına başlamış dövlətimizin başçısı cənab İlham Əliyev ötən 17 ildə Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə yanaşı, Ulu Öndərin xaos və anarxiyadan qurtardığı respublikamızın "Güclü dövlət - müstəqil siyasət" konsepsiyası əsasında inkişafını təmin etmişdir. Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması,

bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana axarını təşkil edir. Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymayaraq tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsinin vacibliyini önə çəkirdi. Bu siyasət neftdən asılılığı azaltmaqla ölkədəki dinamik iqtisadi inkişaf tempini sabit saxlamağa imkan verən fundamental əsasların yaradılmasını nəzərdə tuturdu.

Ötən 17 il ərzindəki fəaliyyəti dövlət başçısının verdiyi bütün vədlərin əməli fəaliyyətə və praqmatizmə söykəndiyini, respublikanın gerçək potensialı ilə uzlaşdığını tamamilə təsdiqləmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin əzmkarlıqla davam etdirdiyi çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaratmış, hər bir vətəndaşın həyatında nəzərəçarpacaq irəliləyişlərə səbəb olmuşdur. Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda 90-cı illərdə xoas və tərəqqidən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir. Əgər 1993-2003-cü illərdə dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılması, iqtisadiyyatın dirçəldilməsi, ölkəmizin beynəlxalq arenada tanıdılması praktiki məqsədlər idisə, son 17 ildə obyektiv həyat reallıqları yeni hədəflər müəyyənləşdirmişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycanın bugünkü reallıqları bir daha müstəqilliyimizin üstünlüklərini göstərir. Tarixdə Azərbaycan heç vaxt bu qədər güclü olmamışdır. Bunun başlıca səbəbi müstəqil olmağımızdır. Müstəqillik ən böyük sərvətdir. Hər bir vətəndaş müstəqilliyi qorumalıdır, öz işi ilə müstəqilliyimizə töhfə verməlidir. Elə etməliyik ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin".

Bu müddət həm də dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvidir. Ümummilli Liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, "Ümid", "Abşeron" kimi perspektivli yataqların kəşf olunması, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi, TANAP, TAP layihələrinin gerçəkləşməsi bu baxımdan xüsusi qeyd olunmalıdır.

Prezident İlham Əliyevin imzaladığı bir sıra dövlət proqramları, ilk növbədə, regionların tarazlı və davamlı inkişafını, qeyri-neft sektorunun möhkəmləndirilməsini, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılmasını, infrastrukturun yeniləşdirilməsini təmin edən kompleks proqram sənədləri olmaqla yanaşı, bölgələrdə özəl sektorun inkişafına təkan verilmişdir. 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri əhatə edən 4 regional inkişaf proqramı bu baxımdan xüsusi əhəmiyyət kəsb etməklə, regionlarda intibah mərhələsinin əsasını qoymuş, sahibkarlığın yüksəlişinə zəmin yaratmış, yoxsulluğun səviyyəsinin azaldılması və məşğulluq probleminin həlli sahəsində əsaslı dönüşə səbəb olmuşdur. Bu proqramların uğurla icra olunmasının mühüm göstəricilərindən biri də son 17 ildə ölkədə 1 milyon 900 mindən çox yeni iş yerinin açılması, habelə yoxsulluğun səviyyəsinin 44,7 faizdən 4,9 faizə, işsizliyin səviyyəsinin 28 faizdən 5 faizə enməsidir.

Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta sahibkarlığın (KOS) dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi, ixrac potensialının artırılmasında və cəmiyyətin sosial problemlərinin həllində KOS-un rolunun gücləndirilməsi; sahibkarlıq fəaliyyətinin sahə, regional və texnoloji baxımdan strukturunun optimallaşdırılması; kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın, o cümlədən istehsal-kooperasiya əlaqələrinin genişləndirilməsi; sahibkarlığın dəstəklənməsinin müasir təşkilati modellərinin yaradılması, o cümlədən sahibkarlar üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və sair strukturların yaradılmasının davam etdirilməsi; ticarət yarmarkalarının yaradılması; yerli iqtisadiyyatın yönümünü nəzərə almaqla rayonlarda işsizlər üçün kadrların peşə hazırlığının təkmilləşdirilməsi mərkəzlərinin yaradılması; sahibkarlıq fəaliyyətinə müdaxilələrin qarşısının alınması təmin edilmişdir.

Sahibkarlığa dövlət dəstəyi eyni zamanda ixracyönümlü məhsulların istehsalını sürətləndirən müvafiq iqtisadi mexanizmlərin tətbiqini nəzərdə tutur. Ölkənin ixrac potensialının inkişaf etdirilməsi, Azərbaycan malları və xidmətlərinin xarici bazarlara çıxarılması, bunun üçün əlverişli şəraitin yaradılması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının təmini də prioritet istiqamətlər kimi önə çəkilir. Özəl sektorda ixracın stimullaşdırılması və ixrac mallarının çeşidinin artırılması, milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, ticarət, iaşə və məişət sahələrində xidmət səviyyəsinin daha da yüksəldilməsi, Ümumdünya Ticarət Təşkilatı prinsipləri çərçivəsində daxili bazarın qorunması, haqsız rəqabət hallarına qarşı mübarizənin gücləndirilməsi, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edən tədbirlər kimi diqqəti çəkir.

Azərbaycan Prezidentinin ötən 17 ildə iqtisadi sferada həyata keçirdiyi siyasətin ən önəmli cəhətlərindən biri də hər zaman sosialyönümlülüyün ön plana çəkilməsidir. Cənab İlham Əliyev dəfələrlə bildirmişdir ki, dövlətin yürütdüyü siyasətin əsasında insan amili dayanır. Odur ki, sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində dövlətin başlıca vəzifəsi davamlı sosial islahatlar həyata keçirmək, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə

yararlanmasına şərait yaratmaqdır. Son illər əhalinin etibarlı sosial müdafiəsinin, habelə vətəndaşların yüksək rifah halının təmini istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını bir daha təsdiqləyir.

Ümumilikdə cənab İlham Əliyevin Azərbaycanın modernləşməsi ilə bağlı həyata keçirdiyi tədbirlərə ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması; qeyri-neft sektorunun inkişaf etdirilməsi; hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, onların inkişafının tarazlaşdırılması; çoxlu sayda yeni iş yerlərinin açılmasına şəraitin yaradılması; sahibkarlığın inkişaf etdirilməsi; sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması; yoxsulluğun azaldılması; yüksək elmi-mədəni tərəqqinin təmini və s. mühüm məsələləri şamil etmək olar.

Respublikanın malik olduğu mövcud potensial Azərbaycanın iqtisadi inkişaf statusunun dəyişməsinə və onun gələcəkdə inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş dövlətlər kateqoriyasına daxil edilməsinə lazımi imkanlar verir. Bu gün Azərbaycan iqtisadi cəhətdən özünü təmin edən ölkələrdən biridir və ərazi bütövlüyünün pozulmasına, təcavüzə məruz qalmasına, 1 milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, hər hansı xarici yardıma ehtiyac duymur. Azərbaycan dövlət büdcəsi kəsirinin ümumi daxili məhsula (ÜDM) nisbəti cəmi 8 faiz təşkil edir və respublika bu göstəriciyə görə dünyada üçüncü yeri tutur.

Ölkəmiz tədricən donor dövlətə, beynəlxalq miqyasda aparıcı investorlardan birinə çevrilməkdədir. Azərbaycan həm də azsaylı ölkələrdəndir ki, enerji, nəqliyyat, ərzaq təhlükəsizliyini uğurla təmin etməyi bacarmışdır. Bütün bunlar fonunda ölkədə insanların yaşayış səviyyəsinin daim yüksələn xətt üzrə inkişafı, sosial proqramların uğurla icra olunması, maaş və pensiyaların vaxtaşırı artırılması iqtisadi inkişafın həm də vətəndaşların həyatında öz təcəssümünü tapdığını göstərir.

Prezident İlham Əliyevin son 17 ildə ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu vardır. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik surətdə gerçəkləşdirilməsini təmin etmişdir.

2020-ci ilin əvvəllərindən etibarən bütün dünyanı ağır sınaqla üz-üzə qoymuş koronavirus pandemiyasının qarşısının alınması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar bunu bir daha sübut edir. Digər region ölkələri ilə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və ölüm sayının nəzərəçarpacaq dərəcədə aşağı olması, ilk növbədə, ölkə rəhbərliyinin yürütdüyü düşünülmüş, qabaqlayıcı tədbirlərin məntiqi nəticəsi kimi təqdirəlayiqdir. Bu reallıq əksər aparıcı ölkələr, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbərliyi tərəfindən birmənalı etiraf edilir.

Tətbiq edilmiş sosial təcrid tədbirlərinin iş yerləri müvəqqəti dayandırılmış vətəndaşların rifahına və ölkə iqtisadiyyatına ciddi töhfələri olan sahibkarların işgüzar fəallığına mənfi təsirləri nəzərə alınmaqla, mühüm dövlət proqramlarının işlənib hazırlanması və qəbulu da diqqətdə saxlanılmışdır. Ölkə üzrə müxtəlif kateqoriyalı təbəqələrə 3,5 milyard manata yaxın dövlət yardımının edilməsi bunun əyani təzahürüdür. Eyni zamanda Vergi Məcəlləsinə təklif olunan əlavələrə görə, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövrdə bir sıra vergi güzəştləri və vergi tətillərinin verilməsi; mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin tətbiqi - 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi nəzərdə tutulmuşdur. Koronavirus pandemiyasının bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə 2020-ci il 1 yanvar tarixindən etibarən bir il müddətinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə azadolma da qüvvəyə minmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, son aylarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva da koronavirusla mübarizəyə sanballı töhfələrini verir. Xalqa özünəməxsus səmimiyyətlə, isti sözlərlə müraciət edən Birinci vitse-prezident çətin günlərdə hamını həmrəylik nümayiş etdirməyə, qaydalara məsuliyyətlə riayət etməyə çağırmışdır. Onun "Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik" fikri cəmiyyətdə mənəvi birliyi daha da gücləndirmiş, təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsinə, şəxsi məsuliyyət və nizam-intizamın artırılmasına müsbət təsirini göstərmişdir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa təşəbbüsü ilə xarici ölkələrdən zəruri tibbi avadanlıqlar, tibbi maskalar, əlcəklər, qoruyucu eynəklər, tibbi geyimlər və dezinfeksiyaedici vasitələr respublikamıza gətirilərək tibb müəssisələrinə verilmişdir. Rəhbəri olduğu Heydər Əliyev Fondunun "Biz birlikdə güclüyük" devizi altında yüz minədək ailəyə ərzaq yardımı göstərməsi də mühüm sosial aksiya kimi vurğulanmalıdır.

Koronavirus pandemiyası ilə bağlı bu gün qlobal səviyyədə cərəyan edən mürəkkəb siyasi, iqtisadi proseslərin mənfi təsirlərinə, bir çox ölkələrin ciddi iqtisadi, maliyyə və sosial problemlərlə üzləşməsinə

baxmayaraq, Azərbaycan iqtisadiyyatı dayanıqlılığını qoruyub saxlayır. Bu müddətdə 150-dək ölkə maddi yardım üçün Beynəlxalq Valyuta Fondu və digər maliyyə qurumlarına müraciət etsə də, bu sırada Azərbaycanın olmaması qürurverici fakt kimi qeyd olunmalıdır. Prezident İlham Əliyev iyunun 9-da üç modul tipli xəstəxananın açılışı zamanı bununla bağlı demişdir: "Bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, biz kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə".

Əlbəttə, gələcəyə dair baxışlar, strategiyalar nə qədər mükəmməl olsa da, onların taleyi, həyata keçirilməsi gözlənilməz hadisələrdən, ssenarilərdən deyil, bütün hallarda lider missiyasından - qərarların düzgün qəbulundan asılı olur. Azərbaycan hazırda öz inkişafının dönüş mərhələsində yaşayır və bunu mümkün edən isə düzgün hədəflər və onların davamlı reallaşdırılmasından irəli gələn nəticələrdir. Bu siyasətin gedişində yalnız konkret ölkə miqyasında deyil, bütövlükdə regionda və dünyada proseslərin axarını yeni məcraya yönəldə biləcək tarixi qərarlar verilir. Son zamanlar cəmiyyətdə korrupsiya və rüşvətxorluğa qarşı ciddi addımların atılması da bunu bir daha sübut edir.

Azərbaycanın çağdaş tarixində Heydər Əliyev siyasi kursunun təntənəsi kimi xatırlanacaq 2018-ci ilin 11 aprel prezident seçkiləri, eləcə də 2020-ci ilin parlament seçkiləri dünya birliyinə sürətlə inteqrasiya olunan, demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla böyük nüfuz sahibinə çevrilən müstəqil dövlətimizin həyatında yeni tarixi mərhələnin əsasını qoymuşdur.

Ölkəmizi anarxiya və xaosdan tərəqqi yoluna çıxarmış Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü milli ideya ötən 27 ildə inkişaf prosesində lokomotiv rolunu oynamışdır. Müstəqil Azərbaycan qarşısında duran ümummilli məqsədləri dəqiq müəyyən edərək onların gerçəkləşdirilməsi istiqamətində ardıcıl, sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yeni iqtisadi fenomeninə çevrilmişdir.

Ümumi şəkildə ifadə etsək, bu gün ölkədə həyata keçirilən siyasətin başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik idealların cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir. Yeni dövrün milli ideallarına çevrilən bu məqsədlərin Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşacağı isə qətiyyən şübhə doğurmur.

Azərbaycan. - 2020.- 12 iyun. - № 111. - S. 5.

Müstəqilliyimizi əbədiyyətə qovuşdurmuş qayıdış

Rəşad Mustafayev,
Sumqayıt şəhər məhkəməsinin sədri

Zaman ötdükcə, ömür keçir və həyatda baş verən çox vacib hadisələr belə yavaş-yavaş unudulur. Ancaq xalqımızın yaddaşına əbədi həkk olunmuş bir tarix var ki, ona zaman da təsir edə bilmir. Azərbaycan üçün 1993-cü il iyunun 15-i məhz belə tarixlərdəndir. Bəli, həmin gün ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışı, dövlətimizin xilas anının başlanğıcı - Milli Qurtuluş Günüdür.

Düz 27 il bundan öncə, yəni 1993-cü ilin iyun ayının əvvəlində ölkəmizdə cərəyan edən hadisələr hər birimizin yadındadır. Həmin vaxt Azərbaycan dövlətçiliyi və müstəqilliyi görünməmiş təhlükə qarşısında idi. Baş vermiş qarışıqlıqdan xarici və daxili qüvvələr hər vasitə ilə istifadə etməyə fürsət gözləyirdilər. Hakimiyyət dairələri çaşqınlıq içərisindəydi, ölkə başlı-başına qalmışdı. Surət Hüseynov silahlı qüvvələri ilə Azərbaycanın paytaxtına yaxınlaşırdı. O, respublikanın bir neçə rayon və şəhərlərində yüksək vəzifələrə öz nümayəndələrini yerləşdirirdi. Günlər ötdükcə, təhlükə artırdı. Belə təhlükəli vaxtda xalqın təkidli tələbi ilə Heydər Əliyev bir daha Vətəninə, millətinə olan məhəbbətini nümayiş etdirib iyunun 9-da Bakıya gəldi. "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və inkişaf etməsinə sərf edəcəyəm. Buna heç kimin şübhəsi olmasın. İkincisi, mən heç bir vəchlə bir daha Azərbaycanın başqa bir dövlətin tərkibinə daxil olmasına öz imkanlarım qarşısında yol verməyəcəyəm..." Heydər Əliyevin iyunun 15-də Ali Sovetin sədri seçildikdən sonra Milli Məclisdə söylədiyi bu sözlərin hamısını reallaşdırdı, yerinə yetirdi. O əvvəlcə ölkəni quldur, separatçı qüvvələrdən təmizlədi, sonra isə müstəqil dövlət quruculuğuna başladı.

O illərdə Azərbaycan siyasi-iqtisadi böhran içində boğulan, yarıdağılmış bir məmləkət idi. Ulu öndər çıxışlarının birində belə demişdi: "Azərbaycan bərbad vəziyyətdədir, bəzi adamlar on gündür ki, barmaq-barmağa vurmayıblar. Kabinetlərdə boş-boş şayiələrlə məşğul olurlar. Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərəcəyəm". Bəli, məhz bu fəaliyyətin hesabına Azərbaycan yaşayır, tərəqqi edir və bu gün hər birimizə onun nəticələri bəllidir. Hazırda vətənimiz öz iqtisadi inkişafına və göstəricilərinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur və xalqımızın rifahı qabaqcıl dövlətlər ilə müqayisə olunur.

Azərbaycanda milli dövlətçilik ənənələrinin bərpası və qorunub saxlanması, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkədə demokratik prinsiplərə əsaslanan hüquqi islahatların aparılması, respublikamızın bazar iqtisadiyyatı ilə irəliləməsi, diplomatik uğurlar məhz Heydər Əliyev kimi böyük şəxsiyyətin, müdrik siyasətçinin misilsiz xidmətləri sayəsində mümkün olmuşdur.

Müstəqillikdən sonra xalqımızın əldə etdiyi böyük nailiyyətlərdən biri də 1995-ci ildə referendum yolu ilə qəbul olunan ilk milli Konstitusiyamızdır. Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin şəxsi rəhbərliyi altında hazırlanmış ölkəmizin əsas qanunu beynəlxalq standartlara cavab verən mütərəqqi bir Konstitusiyadır. Müasir Azərbaycan cəmiyyətinin ən yüksək demokratiya ideallarına uyğun inkişaf etmək istəyi bu Konstitusiyanın bütün müddəalarında qabarıq şəkildə özünü büruzə verir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın qəbul edilməsinin ilk təşəbbüskarı və müəllifi məhz ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Qeyd etmək lazımdır ki, 1993-cü ilədək Azərbaycanın yeni Konstitusiyasının hazırlanmasına müəyyən təşəbbüslər göstərilsə də, bir sıra səbəblərdən bu reallaşmamışdır. Belə ki, o dövrdə respublikada ictimai-siyasi sabitlik əldə edilməmiş, rəhbərlikdə olanların isə bu sabitliyi yaratmağa səriştə və bacarıqları çatmamışdır.

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ölkədə ictimai-siyasi sabitlik bərpa olunmuş, bundan sonra hadisələrin inkişafı yeni Konstitusiyanın hazırlanmasını sürətləndirmişdir. Ümummilli liderimiz yeni Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Nəticədə beynəlxalq prinsiplərə cavab verən, bazar iqtisadiyyatına hər vasitə ilə rəvac verən, demokratik, dünyəvi dəyərləri özündə əks etdirən Konstitusiya layihəsi hazırlandı. Əsas Qanun 27 noyabr 1995-ci il tarixdə qüvvəyə minmişdir.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutan mühüm tarixi hadisədir. Azərbaycan Respublikası Konstitusiyasının mütərəqqi cəhətlərindən biri də insan hüquq və azadlıqlarının ali dəyər kimi qəbul edilməsidir. Belə ki, Konstitusiyanın üçdə bir hissəsi insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu bütövlükdə xalqımızın müstəqillik tarixində əldə etdiyi ən

böyük nailiyyətlərdən biridir. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası özündə əks olunan mütərəqqi müddəalar, bəşəri dəyərlər baxımından əvəzolunmazdır. Konstitusiyamız dövlət həyatının ən müxtəlif sahələrini əhatə edən başlıca prinsipləri özündə ehtiva etdirir. Əsas Qanunumuz Azərbaycan Respublikasında həyata keçirilən bütün islahatların mənbəyidir. Məhz Konstitusiyamızda bəyan edilən prinsiplərə əsaslanaraq ölkəmizdə demokratik quruluşa nail olmaq mümkün olmuşdur.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi məqsədilə 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Hüquq İslahat Komissiyası, 1998-ci ildə isə dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış və 1997-ci ildə Milli Məclis tərəfindən qəbul olunmuş "Məhkəmə və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunu ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmə hakimiyyətinin müstəqil, yalnız qanun çərçivəsində fəaliyyət göstərməsinə imkan yaratdı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış vacib qanunlardan biri də Azərbaycan Konstitusiyasının aliliyini təmin edilməsinə yönəlmiş "Konstitusiya Məhkəməsi haqqında" qanunun qəbul edilməsi oldu. Konstitusiya Məhkəməsinin təşkil olunması isə hüquqi-demokratik dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan xalqının müasir tarixində mühüm bir hadisə sayılmalıdır. Komissiya tərəfindən hazırlanmış "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Notariat haqqında" və sairə qanunların qəbulu xüsusi əhəmiyyətə malikdir.

Ölkəmiz 1996-1997-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandumudur. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev tərəfindən qanunvericilikdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası dəqiq müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixində Azərbaycan Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi və "Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" 1 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə məhkəmələrin təşkil edilməsi, hakim vəzifələrinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyətləri dairəsində həyata keçirən məşvərətçi orqan kimi Məhkəmə-Hüquq Şurası yaradılmış və ölkə tarixində ilk dəfə olaraq hakim vəzifəsinə namizədin peşə hazırlığını, bilik səviyyəsini, hakim vəzifəsinə layiq olduğunu müəyyən etmək məqsədilə test üsulu ilə imtahan və müsahibə aparılması yolu ilə təyin edilməsi qərara alınmışdır. Təcrübədə sınanmış bu qaydaların nə dərəcədə effektiv olması özünü sübut etdi və 2000-ci ildə keçirilmiş test imtahanları zamanı hakim korpusunun 60 faizə qədəri təzələnmişdir. Təkcə bu fakt seçkinin ədalətli, şəffaf, demokratik prinsiplərə uyğun keçirildiyinə əmin olmaq üçün kifayətdir.

Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk dövlət olmuşdur. Yüksək humanizm və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu artırmış, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər bir təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın qanunvericiliyinin Avropa standartlarına uyğun təkmilləşdirilməsinə, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ümummilli liderimiz Heydər Əliyev hər zaman dövlət və milli maraqları əsas tutaraq düşünülmüş, çevik xarici siyasət aparmışdır. Azərbaycanda milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə rellaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.

Konstitusiyada ölkəmizdə hüquqi dövlət

quruculuğu sahəsində gələcək inkişaf yolları müəyyən edilmiş, hakimiyyət bölgüsü dəqiq ifadəsini tapmış, Azərbaycan dövləti insan hüquqları və azadlıqlarının müdafiəsini özünün ali məqsədi olduğunu bütün dünyaya bəyan etmişdir. Ölkənin əsas qanunu qəbul edildikdən sonra hüquqi islahatların həyata keçirilməsi zəruri məsələyə çevrilmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev də bütün bu məsələləri uğurla reallaşdırdı.

Ulu öndərimizin yenidən hakimiyyətə qayıdışı Azərbaycan iqtisadiyyatının dirçəlməsinə, sənaye müəssisələrinin bərpasına, yeni istehsalat sahələrinin formalaşmasına, özəl sektorun inkişafına güclü təkan vermişdir. Ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması və həyata keçirilən islahatlar xarici investorların respublikamızda fəaliyyət göstərmələrinə də əlverişli şərait yaratmışdır.

1993-cü ildən başlayaraq Azərbaycan özünün sağlam bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli iqtisadiyyatını qurmağa başladı. Azərbaycan özünün təbii ehtiyatlarına, insan potensialına və digər şərtlərə əsaslanan milli iqtisadiyyatını formalaşdırdı. Məhz Heydər Əliyev uzaqgörənliyinin nəticəsidir ki, bazar münasibətlərinin prinsipləri üzərində qurulmuş Azərbaycan milli iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası təmin edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunun uğurları müstəqil Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin əsasını qoymuşdur. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük əzm və qətiyyətlə davam etdirdiyi bu sosial-iqtisadi siyasət strategiyası gündəlik həyatımızda yeni-yeni nailiyyətlərə yol açır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə reallığa söykənən adekvat addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, yeni dövrün tələbi kimi qarşıda duran prioritet vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur. Bunun nəticəsi kimi müstəqil Azərbaycan iqtisadi cəhətdən günbəgün möhkəmlənir, qüdrətlənir, sosial-iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir.

Ədliyyə-məhkəmə sahəsində də nailiyyətlər yüksəkdir. Ölkəmizin ədliyyə sisteminin inkişafı və təkmilləşdirilməsi daim dövlət başçımız cənab İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Son illərdə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı yüzlərlə normativ-hüquqi akt qəbul olunub. Ədliyyə sahəsində baş verən keyfiyyətcə yeni dəyişikliklər Ədliyyə Nazirliyinin işinin və strukturunun daha da təkmilləşdirilərək bu dəyişikliklərə uyğun qurulması, fəaliyyətinin daha şəffaf və aşkar təmin olunması, əhalinin hüquqi yardıma tələbatının daha optimal şəkildə təmin olunması üçün tədbirlər görülməsi zərurəti yaratmışdır. Tətbiq olunan yeniliklərin hər biri xalqımızın mənafeyinə, vətəndaşlarımızın rifahının yüksəldilməsinə xidmət edir. Ölkə vətəndaşları bunu öz gündəlik həyatlarında açıq-aşkar hiss edir, qiymətləndirirlər.

Ötən müddətdə məhkəmə sistemində yeni dövrün tələblərinə cavab verən islahatların aparılması da Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. "Məhkəmə-Hüquq Şurası haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlara bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmiş, yeni dövrün reallıqları ilə şərtlənən bir sıra qanunvericilik aktları qəbul olunmuşdur.

Bəli, bu gün Azərbaycan sürətlə inkişaf edir, qüdrətli dövlətə çevrilir. Bunlarsa ulu öndər Heydər Əliyevin dövlət quruculuğunda seçdiyi düzgün strategiyanın və bu strategiyanın hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi hesabına mümkün olub.

Mən fürsətdən istifadə edib 1993-cü ilin iyununda, o müdhiş günlərdə Azərbaycanı məhv olmaqdan, bölünməkdən qurtardığı və bizlərə bugünkü sabit, gözəl həyat bəxş etdiyi üçün ulu öndərimizin ruhu qarşısında baş əyirəm. Xalqımızı isə Milli Qurtuluş Günü münasibətilə təbrik edir və Prezidentimiz cənab İlham Əliyev ətrafında daha da sıx birləşməyə çağırıram.

Respublika. - 2020.- 10 iyun. - № 109. - S. 4.

Гейдар Алиев: миссия спасения

Независимая Азербайджанская Республика является шедевром общенационального лидера

Лятиф Шамхал

В историю Азербайджана 15 июня вписан как День национального спасения азербайджанского народа, который ежегодно отмечается по всей стране. В этот день в 1993 году Гейдар Алиев был избран председателем парламента Азербайджанской Республики. Что этому предшествовало, через что пришлось пройти стране, как Гейдар Алиев вернул народу уверенность в себе - об этом и многом другом корреспондент газеты «Каспій» беседует с директором Института истории НАНА академиком Ягубом Махмудовым.

- 15 июня в нашей стране отмечается как праздник, имеющий статус государственного...

- Более 50 лет истории Азербайджана XX века тесно связано с личностью гениального Гейдара Алиева. Он - основатель нового Азербайджана, победитель освободительной борьбы нашего народа. Он создал самую массовую и современную политическую партию в Азербайджане - «Ени Азербайджан». Наше независимое государство - Азербайджанская Республика является шедевром великого лидера и священным аманатом родному народу.

Гейдар Алиев сумел сохранить древнюю культуру государственности нашего народа, управляя в чрезвычайно сложных исторических условиях зависимой союзной республикой, называемой Азербайджанская ССР, которая была частью огромной империи - СССР. Это беспрецедентный успех государственного управления, аналога которому нет в деятельности ни одной гениальной личности мира. Затем великий лидер, опираясь на богатый опыт государственного управления, накопленный во времена советской империи, и неиссякаемую любовь родного народа, стал основателем независимого Азербайджана.

В 1969 году, в ситуации глубокого упадка во всех сферах жизни АзССР, Гейдар Алиев был избран первым секретарем ЦК Компартии Азербайджана и встал у руля власти. Так начался большой поворот в истории советского Азербайджана. Последующий ход исторического развития доказал, что Гейдар Алиев начал строить новый, независимый Азербайджан еще с тех времен.

Глубоко осознавая все особенности советского режима, Гейдар Алиев начал предпринимать решительные шаги для выведения Азербайджана из очень сложной ситуации. С гениальной дальновидностью рассчитав все и смело критикуя негативные стороны советского режима - коррупцию, волокиту, взяточничество, Гейдар Алиев добился разработки комплексных программ, обеспечивающих долгосрочное, динамичное и всестороннее развитие Азербайджана, реализация которых началась незамедлительно.

В истории азербайджанского народа начался период Гейдара Алиева. С первых же шагов Гейдар Алиев был принят народом, он полюбил его и следовал за ним. Используя богатый экономический потенциал и огромные возможности такого великого государства, как Советский Союз, он начал политику, выводящую Азербайджан на путь прогресса. Гейдар Алиев посвятил всю свою жизнь родному народу.

За годы своего руководства Азербайджаном Гейдар Алиев преодолел тысячи препятствий, в том числе созданные армянской группировкой в Кремле, и добился принятия советским правительством очень важных решений, обеспечивающих всестороннее развитие Азербайджана. С такой же решимостью он обеспечил выполнение этих решений. Творческий потенциал народа был целиком и полностью мобилизован на возвышение Азербайджана. Бюджетные средства, выделяемые Центром для развития Азербайджана, были значительно увеличены. В результате 1970-1985 годы вошли в историю советского Азербайджана как самый яркий период строительства.

Подъем наблюдался во всех областях промышленности и сельского хозяйства. В экономике республики были осуществлены важные структурные изменения, созданы новые, прогрессивные отрасли промышленности. В результате дальновидной политики, мудрого и компетентного руководства Гейдара Алиева Азербайджан стал в то время самой передовой сельскохозяйственной республикой во всем Советском Союзе, превратился в край передового хлопководства и виноградарства. Социально-экономическое положение сельских тружеников существенно улучшилось.

За исторически короткий период по всей стране были созданы сотни заводов, фабрик, перерабатывающих предприятий и крупных производств, запущены огромные промышленные комплексы. Азербайджан во многих важных областях производства занимал лидирующие позиции в

СССР. Продукция 350 наименований, произведенных в Азербайджане, экспортировались в 65 стран мира. Объем промышленного производства в эти годы был равен общему результату предыдущих 50 лет. Азербайджан тех лет напоминал огромную строительную площадку. Облик Баку и районов республики полностью изменился. Гейдар Алиев превратил Азербайджан в самую известную республику на огромном советском пространстве, сделал его узнаваемым в мире.

- Вы упомянули о препятствиях, чинимых Гейдару Алиеву армянской группировкой в Кремле…

- Когда Гейдар Алиев находился в советском руководстве, он всегда держал свою родину в центре внимания и заботился о ее развитии. В то время великий сын нашего народа был мощным препятствием, непреодолимым барьером для армянских националистов, пытающихся оторвать от Азербайджана Нагорный Карабах. Наконец Горбачев, который был послушным орудием в руках армянской мафии, смог добиться своего грязного намерения: гениальный сын нашего народа был отстранен от руководства СССР.

Это был самый тяжелый удар по нашему народу за все годы советской власти. Всего через 15 дней после смещения Гейдара Алиева из Политбюро убежденный армянский националист Аганбегян, который был близким другом семьи Горбачевых, объявил, что Нагорный Карабах вскоре будет передан Армении. Так была сорвана маска с Горбачева и его «политики перестройки». Начались трагические дни для нашего народа. В Армении начались нападения и акты геноцида против наших безоружных соотечественников. Вскоре азербайджанцев, проживающих в Армении на своих исконных этнических землях, изгнали от родных очагов.

1990-1993 годы занимают особое место в борьбе Гейдара Алиева за свою родину. Этот период в истории Азербайджана характеризуется дилеммой «быть или не быть». Лидеры-предатели, управляемые Москвой, и их преемники - руководство Народного фронта Азербайджана, не имевшие управленческих навыков, поставили республику перед угрозой уничтожения. Азербайджан был на грани исчезновения с карты Южного Кавказа.

В это время единственным орудием нашего народа был интеллект Гейдара Алиева. Рискуя жизнью, 21 января 1990 года он приехал в Постоянное представительство Азербайджана в Москве, чтобы выразить соболезнование родному народу и потребовать наказания лиц, совершивших бойню в Баку, то есть де-факто стал во главе спасительной миссии своего народа. Так под руководством Гейдара Алиева началась борьба за спасение азербайджанского народа.

- В Баку чинили препятствия, чтобы он не вернулся на родину. 30 мая 1990 года был убит один из его сторонников - директор издательства «Азернешр» Аждар Ханбабаев, который собирался встречать его в аэропорту…

- Гениальный политик, избежав преследований со стороны Кремля, 20 июля 1990 года, в трудное для своего народа время, вернулся на родину. Однако в Баку произошел один из самых постыдных фактов нашей истории: спасителю народа не разрешили остаться в столице, которую он когда-то сам отстроил, не позволили быть вместе с родным народом в момент тяжелой катастрофы.

Через два дня после прибытия в Баку выдающемуся государственному деятелю пришлось уехать в Нахчыван, где он родился. Здесь Гейдар Алиев начал борьбу за спасение Азербайджана. В этот период Нахчыван, взятый в военно-политическую и экономическую блокаду армянами и частями Советской армии, являвшимися их заступниками, оказался в безвыходном положении. Оккупация Нахчывана армянскими вооруженными формированиями была накануне своей реализации, но никто из тогдашнего «руководства» Азербайджана не откликнулся на зов о помощи из Нахчывана.

Некомпетентные руководители, стремившиеся продержаться у власти, одну за другой сдавали территории нашей родины. Тяжелым было не только положение Нахчывана, но и всего Азербайджана. Накануне реализации были планы врагов по разделу наших земель, стиранию нашей родины, в том числе Нахчывана, с политической карты Южного Кавказа. Именно в такой ситуации Гейдар Алиев поднялся на борьбу за спасение всего Азербайджана с самого тяжелого фронта - Нахчывана.

В этой невероятно сложной ситуации Гейдар Алиев благодаря своему политическому гению, великому дипломатическому профессионализму и государственной мудрости, опираясь на бойцовский дух и волю населения Нахчывана, сумел вывести из тяжелейшего испытания регион. Армянам не удалось оккупировать Нахчыван.

Безуспешная Карабахская война, сдача наших священных земель врагу ради захвата власти, недопущение к власти великого государственного деятеля Гейдара Алиева, уцелевшего в лабиринтах Кремля и вернувшегося на родину, чтобы спасти родной народ, и даже попытка отстранения его от руководства в Нахчыване являются самыми черными страницами нашей истории. Разве азербайджанский народ подвергся бы стольким бедам, будь в то время мудрый политик у руля?!

Наиболее ясным ответом на этот вопрос являются нахчыванские страницы деятельности Гейдара Алиева: возрождение национальных традиций государственности, изъятие из названия автономной республики слов «советская» и «социалистическая», принятие трехцветного флага Азербайджанской Демократической Республики в качестве государственного флага Нахчыванской Автономной Республики, политическая оценка трагедии 20 января 1990 года, отказ населения Нахчывана от участия в референдуме о сохранении СССР, прекращение деятельности местных органов Коммунистической партии на территории автономной республики, объявление 31 декабря Днем солидарности азербайджанцев мира и, наконец, защита родной земли от врага в условиях военно-экономической блокады Нахчывана, изолированного от большой родины - Азербайджана.

Как бы там ни было, в начале 90-х годов в Загатале, во всем Шекинском регионе, в том числе в моем родном селе Баш Гейнюк, в Гахе, Балакене, Лянкяране, Физули, во всех районах страны, когда речь заходила об азербайджанской государственности, все, подходя к трибуне, говорили: «Пусть судьба убережет Гейдара Алиева, даст ему здоровья, нас спасет только он!». Я лично был свидетелем всего этого…

- В те годы я удивлялся: почему Народный фронт Азербайджана пренебрегает опытом Гейдара Алиева, не привлекает его к сотрудничеству?

- Суровая историческая правда того времени заключалась в следующем: в июне 1993 года, накануне возвращения Гейдара Алиева к власти, Азербайджан переживал один из самых трудных периодов своей истории. На фронте стали обыденными тяжелые поражения, предательства, выставление на торг наших священных земель во имя достижения должностных кресел. В стране царила анархия, бушевал политический беспредел. В регионах, районах, в кварталах столицы заправляли различные вооруженные отряды. Наш народ, действуя в то время решительно и мудро, сделал единственно верный выбор - привел к власти великого политического деятеля мира Гейдара Алиева.

Таким образом, стрелы внешних и внутренних врагов Азербайджана не попали в цель, мечты наших недоброжелателей не осуществились. Именно тогда, в июне 1993-го, с возвращением к власти Гейдара Алиева произошел решительный поворот в борьбе за спасение Азербайджана. Мудрый государственный деятель предотвратил опасность гражданской войны. Потерпели крах наших врагов расчленить и уничтожить Азербайджан.

Общенациональный лидер Гейдар Алиев сразу же после возвращения к власти правильно оценил силу армян и их покровителей по всему миру, планы великих держав, не желавших свободной жизни нашей страны, сложную ситуацию, в которую попал Азербайджан. Прежде всего он добился прекращения огня на фронте. Благодаря усилиям великого лидера в Азербайджане установились правопорядок и стабильность. Это побудило зарубежные страны, предпринимателей, компании инвестировать средства в нашу страну.

20 сентября 1994 года с крупными иностранными нефтяными компаниями был подписан «Контракт века», и это было историческим достижением. В ситуации, когда проблемы между прибрежными государствами по разделу Каспийского моря еще не были решены, великий лидер смог привлечь крупнейшие мировые нефтяные компании к разработке углеводородных ресурсов Каспия. Это было большим достижением дипломатии Гейдара Алиева.

После этого были подписаны и другие соглашения. Наша независимость укрепилась. Азербайджанская государственность и Президент Гейдар Алиев с честью вышли из тяжелых испытаний во время посягательств в октябре 1994 и марте 1995 годов. Великий азербайджанец Гейдар Алиев продемонстрировал, что он является Президентом, верным своей клятве, готовым в борьбе за независимость родины и свободу народа стать шехидом. В тяжелую годину он не оставил свой народ, свою родину. Решимость главы государства подняла дух народа, вернула нам уверенность в себе. Азербайджан вышел из смертельного водоворота, в стране воцарились мир и стабильность.

Стабильность обстановки - именно в ней заключается другая историческая победа Гейдара Алиева как великого государственного деятеля. «Государственная независимость Азербайджана будет вечной, непоколебимой, необратимой, и нынешнее молодое поколение Азербайджана еще больше возвысит Азербайджан будущего», - неоднократно повторял он.

В 1993 году наш мудрый народ единодушно сказал решительное «нет!» тем, кто втягивал страну в анархию, хаос, гражданскую войну и расчленение. Народ вверил свою судьбу Гейдару Алиеву, и это спасло наше независимое государство.

- Каково ваше мнение о курсе преемника Гейдара Алиева - Президента Ильхама Алиева?

- В 2003 году, через десять лет, народ Азербайджана второй раз столкнулся с трудным испытанием. Радикальная оппозиция, ее сторонники за рубежом, воспользовавшись болезнью великого лидера, снова активизировалась. Народ опять оказался перед выбором, и вновь, как и в 1993-м, единодушно сказал «нет!» тем, кто хотел ввергнуть страну в омут анархии и хаоса. На этот раз наша нация

доверила высшее руководство страны Ильхаму Алиеву. Наш народ избрал для себя нового Президента и раз и навсегда положил конец идее насильственного захвата власти, заложив основу нашим нынешним успехам.

Сегодня Азербайджан - динамично развивающаяся страна, государство-лидер Южного Кавказа. Наше отечество уже вошло в число стран мира, проводящих космические исследования. Все великие исторические достижения достигнуты в результате последовательной реализации политического курса Гейдара Алиева великим государственным деятелем нашего времени Президентом Ильхамом Алиевым. Глава государства неоднократно заявлял, что Азербайджан не свернет с пути Гейдара Алиева. Творческое обогащение руководителем государства идей общенационального лидера в соответствии с быстро меняющимися историческими условиями, его динамичная, решительная и мудрая политика ведет нашу родину к новым победам и свершениям.

Последовательную борьбу с коррупцией, волокитой и взяточничеством сегодня успешно продолжает Президент Ильхам Алиев. Народ приветствует реформы главы государства, надежда людей на светлое будущее крепнет. И это - торжество идей великого Гейдара Алиева и успешной политики Президента Ильхама Алиева.

Каспій. - 2020. - 13 июня. - № 90. - С. 4-5.

Bu gün müasir və müstəqil Azərbaycan dövləti ən yüksək zirvədədir

Vaqif Bayramov

Son illər iqtisadi inkişafımız qeyri-neft sektoru hesabına uğurla davam etdirilib. Bu sahədə böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunub. Aqroparklar yaradılıb və orada da yüksək məhsuldarlıq əldə edilib.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Prezidenti İlham Əliyev vaxtaşırı bölgələrimizə səfərlər edir, yerlərdəki vəziyyətlə dərindən maraqlanır, müxtəlif təyinatlı infrastruktur obyektlərinin, yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində, eləcə də keçirilən görüşlərdə qaldırılan məsələlərin həlli məqsədilə müəyyən vəsaitin ayrılması barədə müvafiq sərəncamlar imzalayır. Ölkə rəhbərinin iyunun 3-də Tərtər və Ağcabədi rayonlarına səfəri də, bu baxımdan, mühüm önəm daşıyır. Tərtərə səfər çərçivəsində Dövlət Rəmzləri Muzeyinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti rayon filialının açılışı, Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli- Bayandurlu-Qaradağlı avtomobil yolunun və 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi bir daha göstərir ki, dövlətimizin başçısı son 17 ildə respublikamızda milli-mənəvi dəyərlərin qorunması ilə bərabər, sosial-iqtisadi sahələrin inkişafını da daim diqqət mərkəzində saxlayır.

Xatırladaq ki, son vaxtlar bölgələrdə rəmzlər muzeylərinin yaradılması əhali tərəfindən ölkəmizin mədəni həyatı üçün çox mühüm yenilik kimi qiymətləndirilir. Çünki mədəni dəyərləri və milli rəmzləri əks etdirən dövlət atributlarının bir arada ictimaiyyətə təqdim olunması xalqımızın qədim tarixinin öyrənilməsində, gənclərdə vətənpərvərlik ruhunun formalaşmasında və inkişafında önəmli rol oynayır. Yeri gəlmişkən, belə bir təşəbbüsün irəli sürülməsi, bu cür muzeylərin yaradılması ideyası Prezident İlham Əliyevə məxsusdur. Qeyd edək ki, dövlətimizin başçısının bu təşəbbüsünün reallaşdırılması dövlət atributlarının tariximizdəki əhəmiyyəti, eləcə də Azərbaycanın qədim və zəngin tarixə malik olması barədə aydın təsəvvür yaradır.

Tərtərdə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin filialının istifadəyə verilməsi də milli-mənəvi dəyərlərimizin yaşadılmasına xüsusi diqqət yetirilməsindən xəbər verir. Qeyd edək ki, Azərbaycanda xalçaçılıq tətbiqi sənət növünün ən qədim sahələrindən biridir. Ölkəmizin ərazisində aparılan arxeoloji qazıntılara və yazılı mənbələrə görə, Azərbaycanda xalça toxuculuğu tunc dövründə, yəni 5 min il bundan əvvəl meydana gəlib. Azərbaycan xalçası boyalarının tükənməz zənginliyi, naxışlarının bənzərsizliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir. Xalçalarımız dünyanın ən məşhur muzeylərini bəzəyir. Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəbləri bütün dünyada məşhurdur. Bu zonalarda toxunan xalçalar ilmələrinin sıxlığına, rəng çalarlarına, üz ipliyinin xovuna, toxunuşuna və ornamentlərinə görə seçilir. Hazırda Azərbaycan xalça sənəti özünün əsl dirçəliş dövrünü yaşayır. Prezident İlham Əliyevin həmin sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar və imzaladığı sərəncamlar, bu baxımdan, xüsusi əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, dövlətimizin başçısının müvafiq sərəncamlarına əsasən, indiyədək 13 xalça müəssisəsi istifadəyə verilib. Yaxın vaxtlarda isə 8 bu cür müəssisənin işə salınması da nəzərdə tutulub.

Onu da qeyd edək ki, respublikamızda xalçaçılığın inkişafı məqsədilə yunəyirici-boyaq fabrikinin, hazır xalçaların emalı mərkəzinin, yun və boyaq tədarükü məntəqələrinin yaradılması istiqamətində mühüm işlər görülür.

Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması da mühüm önəm daşıyır, bununla bağlı avtomobil yollarının çəkilişinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə beynəlxalq səviyyəli layihələrlə yanaşı, şəhər və qəsəbələrarası yollar genişləndirilir, keyfiyyəti yaxşılaşdırılır.

Ümumiyyətlə, bu gün ölkəmizdə yol-nəqliyyat kompleksinin yenidən qurulması işi uğurla davam etdirilir. Belə ki, əgər əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi yerli əhəmiyyətli yolların inşasına da xüsusi önəm verilir. Dövlətimizin başçısının tapşırıqlarına müvafiq olaraq ölkəmizin demək olar ki, bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar, eləcə də qəsəbə və kəndlərin daxili yolları yenilənir. Cəbhəyanı yaşayış məntəqələrinin sosial problemlərinin həlli istiqamətində dövlətimizin başçısının tapşırıq və sərəncamları ilə həyata keçirilən müxtəlif infrastruktur layihələri içərisində yolların tikintisi və təmirinə xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki,

təmas xəttində yerləşən yaşayış məntəqələrinə gedən yolların əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Tərtər rayonunda da bu istiqamətdə genişmiqyaslı işlər görülür.

Prezidentin Tərtər rayonuna səfəri çərçivəsində Buruc-Gülabatlı-Xoruzlu- Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Dövlətimizin başçısına adıçəkilən yolun texniki göstəriciləri barədə məlumat verilərək bildirilib ki, 6 min 800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən magistralın uzunluğu 21,5 kilometrdir. Dördüncü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr, hərəkət zolaqlarının sayı 2-dir. Yolboyu avtobus dayanacaqları, suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilib.

Prezident İlham Əliyevə Tərtərdə icra olunan digər yol layihələri barədə də məlumat verilib. Dövlətimizin başçısının müvafiq tapşırıqlarına və sərəncamlarına uyğun olaraq bu gün rayonda avtomobil yollarının 81 faizinin tam asfalt-betonla örtüldüyü, qalan 17 kilometr kənd yollarının yenidən qurulmasının yaxın zamanlarda başa çatdırılacağı bildirilib.

Burada onu da qeyd edək ki, son illər ərzində ölkəmizin energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, itirilmiş generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin iştirakı ilə 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi də ölkəmizdə bu məsələyə xüsusi diqqət yetirilməsindən xəbər verir.

Prezident İlham Əliyevin Tərtərə səfəri çərçivəsində diqqətçəkən ən mühüm yeniliklərdən bir də rayonda Olimpiya İdman Kompleksinin açılışı olub. Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı rayonun bir qrup idmançısı ilə görüşüb və çıxış edib. Ölkə rəhbəri nitqində obyektdə işlərin çox yüksək səviyyədə görüldüyünü, idmanla məşğul olmaq üçün burada çox gözəl imkanlar yaradıldığını vurğulayıb. Prezident İlham Əliyev daha sonra deyib: "Azərbaycanın bölgələrində idman qurğularının tikintisi geniş vüsət alıb. Hesab edirəm ki, Azərbaycan bu parametr üzrə dünya miqyasında qabaqcıl yerlərdədir. Bölgələrdə tikilmiş Olimpiya komplekslərinin sayı artıq 46-ya çatıbdır. Onu da bildirməliyəm ki, 5 rayonda Olimpiya İdman komplekslərinin tikintisi davam edir. O layihələr də başa çatandan sonra, ümumiyyətlə, rayonlarda 51 idman kompleksimiz olacaqdır.

Əlbəttə, bu, imkan verəcək ki, rayon idmançıları öz peşəkarlığını artırsınlar. Burada bütün şərait yaradılıb – böyük oyun zalı, güləş, boks, trenajor zalları, üzgüçülük hovuzu. Hətta mehmanxana da var. Tərtərdə heç vaxt üzgüçülük hovuzu olmayıb. Böyük stadion inşa edilib. Stadion da heç vaxt olmayıb. Mini futbol, voleybol, yəni, idmanın əksər növləri ilə burada məşğul olmaq olar. Əminəm ki, Tərtər idmançıları bu imkanlardan istifadə edərək həm ölkə daxilində, həm beynəlxalq arenada yaxşı nəticələr göstərəcəklər. Tərtərdə idman həmişə inkişaf edib. İndiki şəraiti nəzərə alsaq, əlbəttə ki, daha da böyük ümidlərimiz vardır".

Dövlətimizin başçısı çıxışında ölkəmizin idman infrastrukturunun istənilən beynəlxalq yarışın keçirilməsi üçün əlverişli olduğunu xatırladaraq, indiyədək Bakı şəhərində iki böyük beynəlxalq idman yarışının–Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyini, bu yarışların həm idman potensialımızı gücləndirdiyini, həm də Azərbaycanı dünyada müasir ölkə kimi təqdim etdiyini xatırladıb. Ölkə rəhbəri bununla bərabər, idmanın əsas məqsədinin insanların sağlamlığını təmin etməkdən ibarət olduğunu bir daha diqqətə yönəldib: "Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır".

Prezident İlham Əliyev nitqində, həmçinin Azərbaycanda əhalinin sağlamlığının qorunması istiqamətində daim mühüm tədbirlər həyata keçirildiyi, təşəbbüsü ilə hər bir insanın ildə bir dəfə pulsuz müayinəsinin aparıldığı, bütün şəhərlərdə müasir xəstəxanaların yaradıldığı barədə ətraflı bəhs edib.

Dövlətimizin başçısı Tərtərin inkişafı yönündə reallaşdırılan tədbirlərdən də danışıb. Cəbhə bölgəsində yerləşən rayonun Azərbaycan xəritəsində xüsusi yeri olduğunu vurğulayıb: "Tərtər rayonunun sosial-iqtisadi inkişafı üçün son illər ərzində bir çox işlər görülüb. Bu, mənim rayona sayca 6-cı səfərimdir və hər dəfə burada olanda açılışlarda iştirak edirəm, vəziyyətlə tanış oluram, müvafiq tapşırıqlar verirəm ki, işlər daha da sürətlə getsin. Deyə bilərəm ki, son illər ərzində rayonun infrastrukturunun inkişafı çox sürətlə gedir. Bu gün açılacaq yeni yarımstansiya Tərtərin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq. Baxmayaraq ki, bu günə qədər görülmüş tədbirlər nəticəsində bu sahədə çox böyük irəliləyiş var. Tərtərdə yaşayan insanlar yaxşı bilirlər ki, vaxtilə burada elektrik enerjisi ilə böyük problemlər var idi, fasilələrlə verilirdi, tez-tez kəsilirdi. İndiki dövrdə artıq bu, tarixdə qalır. Düzdür, hərdənbir qəzalar baş verir, ancaq bütövlükdə enerji təminatının dayanıqlığı təmin edilir. Bu gün açılacaq yarımstansiya həm Tərtər rayonu, həm də qonşu rayonlar üçün əlavə imkanlar yaradacaq".

Prezident İlham Əliyev Tərtərdə qazlaşdırmanın 98 faizə çatdığını, burada yol təsərrüfatının tamamilə yeniləndiyini, şəhərin su-kanalizasiya layihəsinin artıq 4 il bundan əvvəl tamamlandığını, kənd təsərrüfatı sahələrində, xüsusilə pambıqçılıqda yüksək göstəricilər əldə edildiyini diqqətə çatdırıb. Amma bütün bunlarla bərabər, mənfur qonşumuzun uzun illər ərzində Tərtərin suyunu kəsməsi üzündən bir sıra problemlərin yaşandığını da xatırladıb: "O suyu ki, Azərbaycan Respublikası onun yığılması ilə bağlı vaxtilə, 1970-ci illərdə

böyük işlər görüb. Sərsəng su anbarının inşası Azərbaycan Respublikası tərəfindən, respublika büdcəsi tərəfindən həyata keçirilib. İndi isə mənfur qonşular bizim suyumuzu kəsiblər. Bu, ekoloji terrordur".

Prezident İlham Əliyev həmin gün Tərtər səfərini yekunlaşdıraraq, Ağcabədi rayonuna gəlib. Burada "ASAN Həyat" kompleksinin, "Ağcabədi-2" elektrik yarımstansiyasının, dənli bitki toxumlarının emalı müəssisəsinin istifadəyə verilməsi, şəhərin içməli su təchizatı və kanalizasiya sistemlərinin işə salınması, habelə Ağcabədidə taxıl biçininə başlanılması mərasimlərində iştirak edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə elektroenergetika sahəsində mühüm işlər görülüb, çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Ağcabədi rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub.

Son illərdə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndləri və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

Cəbhəyanı ərazidə yerləşən Ağcabədi şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2017-ci ildə "Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanıb. Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində icra olunan layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 45 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Son illərdə Ağcabədi rayonunda aqrar sektorda da mühüm uğurlar əldə edilib. Burada dənli bitki toxumlarının emalı müəssisəsinin istifadəyə verilməsi, şübhəsiz ki, həmin uğurların davamlılığına müsbət təsir göstərəcək.

Dənli bitki toxumlarının emalı müəssisəsinin timsalında vurğulaya bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunur. Bu baxımdan, həyata keçirilən işlər arasında aqrar sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması özündə mühüm amilləri və hədəfləri birləşdirir.

Bütün bu deyilənlər indiki pandemiya şəraitində ölkə həyatının bütün sahələrində gerçəkləşdirilən islahatların uğurlu nəticələri özünü büruzə verən, demokratikləşmə yolunda atdığı ardıcıl addımlarla Cənubi Qafqazın ən nüfuzlu ölkəsi kimi tanınan və işğalçı Ermənistanla bağlı haqq səsinin bütüb dünyada eşitdirilməsinə nail olan respublikamızın dinamik inkişaf yolu ilə irəlilədiyini bir daha təsdiqləyir.

Xalq qəzeti.-2020.-6 iyun.-№107.-S.1.

Müstəqil Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

Eldar İbrahimov,
Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri,
iqtisad üzrə elmlər doktoru, professor

Bu il may ayının 10-da dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü tamam olur.

50 ildən artıqdır ki, Heydər Əliyevin adı Azərbaycan vətəndaşlarının və dünya azərbaycanlılarının qəlbində qürur və fərəh hissi yaratmış, dünya ölkələrində onu tanıyanlar və haqqında eşidənlər tərəfindən həmişə böyük sevinc və məhəbbətlə yad edilir. Heydər Əliyevə olan bu sevgi isə hər şeydən əvvəl onun öz xalqına və dövlətinə sədaqətlə xidmət etməsi ilə bağlı olmuşdur. Bu münasibətlə Ulu Öndərimiz belə demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ulu Öndərimiz 1969-cu ildə respublikamızın rəhbəri seçildikdən sonra məhz ötən əsrin 70-80-ci illərində Sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanı müstəqilliyə hazırlamışdır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, Azərbaycan İttifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdən birini tuturdu. Azərbaycan bütün İttifaqı ən qiymətli təbii sərvət sayılan neftlə təmin etdiyi halda, əhalinin yaşayış səviyyəsinə görə heç bir iqtisadi resursu olmayan digər respublikalardan geridə qalırdı. Ümummilli Liderimizin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda İttifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi. Ümummilli Liderimiz Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirdiyi taleyüklü tədbirlərin mahiyyətini belə xarakterizə edirdi: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır?

Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".

Heydər Əliyevin ilk dəfə Azərbaycan Respublikasına rəhbərlik etdiyi 13 il ərzində apardığı hərtərəfli və əhatəli işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan tələbkarlığı, yüksək işgüzarlığı sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmləndi, neft-maşınqayırma və kimya sənayesi, üzüm istehsalı və bir sıra digər sahələrdə İttifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabətqabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək beynəlxalq aləmdə tanınmağa başladı və müstəqil inkişafın əsası qoyuldu. Bu dövrdə respublikamızda "Bakı Soyuducular", "Bakıelektroterm", "Yeni Bakı Neftayırma" və digər nəhəng zavodlar tikilib istifadəyə verildi. Emal sənayesinin inkişafı, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi geniş vüsət aldı. Regionlarda üzüm, meyvə və tərəvəz emalı zavodlarının, çay və tütün emalı fabriklərinin, habelə ət kombinatları və süd, yun emalı zavodlarının, quşçuluq fabriklərinin və heyvandarlıq komplekslərinin tikilib istifadəyə verilməsi kənd təsərrüfatının inkişafı ilə yanaşı, respublikamızda yüngül və yeyinti sənayesinin, habelə digər sahələrin inkişafına da güclü təkan verdi. Üzüm istehsalı 2 milyon tonu ötərək respublikamız İttifaq miqyasında birinci yeri tutdu, ilk dəfə olaraq 1 milyon tondan çox pambıq istehsalına nail olundu. Azərbaycan qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində geridə qalmış bir respublikadan İttifaq səviyyəsində öncül yerə yüksəldi, xüsusilə kənd təsərrüfatında məhsuldarlığın artırılması, kənd təsərrüfatı maşınqayırma sənayesinin, kimyalaşmanın inkişafında çox uğurlu nəticələr əldə olunaraq ölkəmizdə aqrar-sənaye kompleksi yaradıldı.

Təbii ki, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq lazım idi. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı. Məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, iqtisadiyyatın və milli-mədəni həyatımızın yüksək inkişafını gələcəkdə də davam etdirmək, müasir çağırışlara uyğun idarəetmə qabiliyyəti və savadı olan gənc kadrların hazırlanması ön plana çəkildi. Bu məqsədlə hər il yüzlərlə azərbaycanlı gənclər keçmiş SSRİ-nin ən nüfuzlu universitet və ali məktəblərində təhsil almaq imkanı qazandılar. Heydər Əliyevin Azərbaycan Respublikasına həmin dövrdə rəhbərliyi sayəsində əldə edilən nailiyyətlər hörmətli Prezidentimiz İlham Əliyevin "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" imzaladığı Sərəncamda özünün əhatəli və çox düzgün əksini tapmışdır. Sərəncamda deyilir: "1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya

iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır".

Heydər Əliyevin Azərbaycan Respublikasında həyata keçirdiyi möhtəşəm quruculuq işləri, yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt İttifaqa rəhbərlik edənlərin diqqətini cəlb etdi və Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O, bu vəzifədə işlədiyi müddətdə İttifaqda mövcud olan ən problemli sahələrlə dərindən məşğul olaraq həmin sahələrin inkişafını təmin edirdi. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi. O, tez-tez inkişaf etmiş ölkələrdə olur, onlarla əməkdaşlıq problemlərini müzakirə edir və dünyanın siyasi elitasında hörmətlə qarşılanırdı. Heydər Əliyev Azərbaycandan kənarda olsa da həmin illərdə respublikamızda baş verən proseslərlə daim maraqlanır, problemlərin həllində kömək göstərir və respublikamızın dinamik inkişafı üçün əlindən gələni edirdi. Onun liderlik məharəti, İttifaqda və beynəlxalq aləmdə böyük nüfuzu, məhsuldar işləmək qabiliyyəti xoşniyyətli insanları sevindirir, bir çox bədxahlarda isə ona qarşı paxıllıq hissi yaradırdı. Bu paxıllığın nəticəsi idi ki, 1987-ci ildə SSRİ rəhbərliyində, xüsusilə Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq Heydər Əliyev vəzifəsindən istefa verməyə məcbur oldu.

Bundan 15 gün sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi gündəliyə çıxarıldı. Bununla da Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi.

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan naminə fəaliyyətini hakimiyyətdə olmadığı dövrlərdə də belə davam etdirmiş və ən çətin anlarda xalqının yanında olmuşdur. Xalqımızın böyük oğlu həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə o zaman hakimiyyətdə olan sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham etmişdi. Bu kəskin bəyanatdan sonra milli liderimiz 1990-cı il iyulun 20-də Bakıya, iki gün sonra isə doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir.

Böyük və mənalı ömrünün Naxçıvanda keçən 3 ili ərzində görülən işlər müstəqil dövlətimizin qurulmasına yönəldilmiş strategiyanın tərkib hissəsi idi. Ulu Öndərimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi həm milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması sayəsində sosial-iqtisadi inkişafa nail olunması ilə nəticələnmiş, həm də muxtar respublikanı işğal təhlükəsindən qorumuşdur. 1990-cı ilin noyabr ayında dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında qəbul olunan tarixi qərarlar müstəqil Azərbaycan dövlətinin yaradılmasının əsasını qoymuşdur. Hələ Sovetlər Birliyinin mövcud olduğu bir dövrdə üçrəngli Azərbaycan bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Bütün bunlar 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə nəinki Azərbaycanın, eləcə də Sovetlər Birliyinin digər müttəfiq respublikalarının da müstəqillik qazanmasına yol açmışdır. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin rəhbərliyi ilə yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun iqtisadi model formalaşdırılırdı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılırdı. Heydər Əliyevin Naxçıvanda əldə etdiyi uğurları gözü götürməyən Xalq Cəbhəsi 1992-ci il oktyabrın 24-də Naxçıvanda silahlı çevriliş edib Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd etsə də, buna nail ola bilmədi. Çünki Heydər Əliyev naxçıvanlılara sözün əsl mənasında arxa olduğundan əhali də ona arxa durmaqla yanaşı, böyük hörmət və ehtiram bəsləyərək onu müdafiə etdi. Məhz bunun sayəsində çevrilişə cəhddən cəmi bir ay sonra - 1992-ci il noyabrın 21-də Naxçıvanda yüksək səviyyədə Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın sədri seçildi.

Naxçıvanda yeni dövlət quruculuğu istiqamətində böyük işlərin getdiyi bir vaxtda Azərbaycan Respublikasına sərişтəsiz rəhbərlik, getdikcə güclənən özbaşınalıq, cəbhədə yaranan gərgin vəziyyət hakimiyyətə qarşı narazılığı artırmaqla ölkədə müstəqilliyin əldən getməsinə real təhlükə yaratmışdı. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim Heydər Əliyevi təkidlə ikinci dəfə Azərbaycan Respublikasına rəhbərliyə dəvət etdi. Xalq özünün sevimli oğluna etimad edir və inanırdı ki, yalnız Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapa bilər və Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər.

Xalqın tələbini qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 15-də ölkənin Ali qanunverici orqanının sədri seçildi və onun rəhbərliyi ilə tezliklə Ermənistanla atəşkəs əldə olundu. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşməsi istiqamətində möhkəm addımlar atıldı, yeni Konstitusiya qəbul olundu. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən qüvvələr 1994 və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin bu hərəkətlərin qarşısı vaxtında və yüksək peşəkarlıqla

alındı və ölkədə daxili sabitlik yarandı. Xarici siyasət də formalaşmağa başladı və Azərbaycan həm Rusiya, həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar Ümummilli Liderin özünün dediyi kimi, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən mühüm addımlar idi.

Ulu Öndərimiz Heydər Əliyevin həyatının 30 ildən artıq bir dövrü Azərbaycan tarixinin parlaq səhifəsini, ölkənin dirçəliş, inkişaf mərhələsini təşkil edir. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində (1969-1982) Azərbaycanı geridə qalmış aqrar respublikadan iqtisadiyyatı dinamik inkişaf edən qabaqcıl respublikaya çevirdi, Azərbaycanın müstəqil ölkə kimi yaşamasına möhkəm zəmin yaratdı. Görkəmli şəxsiyyət respublikamıza ikinci rəhbərliyi dövründə ölkəmizdə baş qaldırmış qardaş qırğınının tezliklə qarşısını aldı, Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi. Heydər Əliyev ikinci dəfə müstəqillik əldə edən Azərbaycanı nəinki qoruyub saxladı, həm də ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmaqla onun dünyanın qabaqcıl ölkələri sırasına çıxmasını təmin etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev sözün əsl mənasında dahi şəxsiyyətdir və qədirbilən xalqımız onu özünün Ümummilli Lideri elan etmişdir.

Dahilərin böyüklüyü ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə dahilərdən idi.

Heydər Əliyevin 2003-cü il 1 oktyabr tarixində doğma xalqına ünvanladığı son müraciəti vətənə ləyaqətlə xidmətin bariz nümunəsi idi. "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu tarixi müraciətindən keçən on yeddi il onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.

Azərbaycan.-2020.-7 may.-№89.-S.3.

Müstəqil Azərbaycanın qurucusu

Ramin Məmmədov,
Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
YAP Siyasi Şurasının üzvü

Ötən əsrin sonlarında Azərbaycan müstəqillyini bərpa etdikdən sonra çətin sınaqlarla üz-üzə qalmışdı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişinin tarixi-siyasi əhəmiyyəti və ideoloji məzmunu məhz bu dövrün formalaşdırdığı mürəkkəb şərtlər fonunda təhlil olunmalıdır. Ulu Öndərin liderlik missiyası yalnız son dərəcə qeyri-müəyyən bir dövrdə, ağır tarixi şəraitdə məsuliyyəti üzərinə götürməsiylə ifadə olunmurdu. Bu missiya həm də hələ illər öncə, XX əsrin 70-ci illərində Ümummilli Liderin respublikaya rəhbərlik etdiyi mərhələdəki böyük xidmətləri ilə başlamışdı.

Məhz həmin illərdə Azərbaycanda müstəqilllik üçün son dərəcə mühüm əhəmiyyətə malik bir neçə sütun yaradılmışdı. Azərbaycanlı gənclər Sovet İttifaqının ən nüfuzlu məktəblərində təhsil almaq imkanı qazanmışdı, beləliklə də, republikada kifayət qədər güclü, peşəkar kadr bazası formalaşdırılmışdı.

Onlarla zavod, fabriklər inşa olunmuşdu, müstəqilliyin ilk illərində ölkə iqtisadiyyatının yenidən qurulması və inkişaf etdirilməsi üçün bunun nə qədər mühüm əhəmiyyətə malik olduğunu izah etməyə, yəqin ki, ehtiyac yoxdur. Azərbaycanda geniş yollar şəbəkəsi yaradılmışdı, körpülər salınmış, su elektrik stansiyaları tikilmişdi. 1970-ci illərdə az qala bütün Azərbaycan ərazisi tikinti meydanına çevrilmişdi. Yüzlərlə yaşayış məntəqəsinə elektrik enerjisi verildi, qaz kəməri, telefon xətti çəkilmişdi. Respublikada dövr üçün kifayət qədər müasir infrastruktur yaradılmışdı, yeni xidmət sahələri fəaliyyətə başlamışdı.

Azərbaycanda 1971-ci ildə məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, gərgin zəhməti və uzaqgörənliyi sayəsində yaradılmış Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb müstəqillik dövründə milli ordunun zabit korpusunun formalaşmasında müstəsna rol oynamışdı. Başqa cür desək, Ulu Öndər faktiki olaraq müstəqil ordu üçün kadr bazasını da yaratmağa nail olmuşdu. Həm də elə bir dövrdə ki, Azərbaycanda müstəqilliyi xəyal etmək belə mümkün deyildi.

Azərbaycan mədəniyyətinin inkişafı, kino sənayesi, incəsənətə göstərilən qayğı ölkənin tarixində yeni bir səhifə açdı. Heydər Əliyev böyük bir qətiyyətlə, cəsarətlə müstəqil düşünən ziyalıları müdafiə edirdi. Onların bir çoxu sonralar milli azadlıq hərəkatının fəal iştirakçıları kimi tarixə düşdülər. 1978-ci ildə Azərbaycan SSRİ Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Sovet quruluşunun inzibati-amirlik sisteminin mahiyyətindən doğan bütün məhdudiyyətləri və çatışmazlıqlarına rəğmən. Bu, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biri kimi tarixin yaddaşına yazıldı.

Beləliklə, Ulu Öndər hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə, müstəqil dövlətçilik üçün vacib olan bir sıra məsələlərin həllinə nail olmuşdu. Məhz bu mənada, Ümummilli Liderin tarixi missiyası hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə müstəqil dövlətin sütunlarını yaratması ilə başlamışdı.

1993-cü ildə Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi ilə üzləşəndə, Ulu Öndər Öz tarixi missiyasını davam etdirərək, ölkəni, xalqı böyük bir fəlakətdən qurtardı – sözün həqiqi mənasında azadlığını, müstəqilliyini itirmək təhlükəsindən. Heydər Əliyev geosiyasi ziddiyyətlərin, iqtisadi kataklizmlərin burulğanında müstəqil bir dövlət qurmaqla, əslində, Azərbaycan xalqının mövcudluğunu qorumağa nail oldu. Azərbaycanın dövlət müstəqilliyinin siyasi, iqtisadi, sosial-mədəni, hüquqi və ideoloji əsaslarını yaradan Heydər Əliyev qısa müddətdə ölkəni yeni bir inkişaf mərhələsinə çıxardı. 1993-cü ildən başlayaraq, ictimai-siyasi sabitliyin təmin olunması, beynəlxalq münasibətlər sistemində öz yerini tutması, iqtisadiyyatda sabitliyin, daha sonrakı illərdə isə həm də davamlı inkişafın əldə edilməsi, demokratik ənənələrə əsaslanan siyasi sistemin formalaşması, modern ordu quruculuğu və digər sahələrdə əldə olunmuş uğurlar Heydər Əliyevin irəli sürdüyü müasir milli dövlətçilik strategiyasının məntiqi nəticələri idi.

Heydər Əliyevin siyasi qurtuluş konsepsiyası dörd mühüm sütun üzərində qurulmuşdu: ictimai siyasi sabitlik, iqtisadiyyatın bərpası, atəşkəsin əldə olunması və praqmatik xarici siyasət. Əslində, bunlar həm də 1990-cı illərdə Azərbaycanın qarşısında duran ən mühüm tarixi vəzifələr idi. Lakin bu vəzifələrin həllini mürəkkəbləşdirən ən vacib məqamlardan biri onların hamısının eyni vaxtda yerinə yetirilməsi zərurəti idi. Heydər Əliyevin siyasət və dövlət adamı olaraq unikallığı həm də onda öz ifadəsini tapır ki, O, belə mürəkkəb bir tarixi situasiyada dövlətin qarşısında duran bir neçə çətin problemi eyni vaxtda həll etməyi bacardı. Azərbaycanda ictimai-siyasi sabitlik yaradıldı, iqtisadiyyatın bərpası üçün önəmli addımlar atıldı, cəbhədə atəşkəs əldə olundu, xarici siyasətdə daha əvvəlki hakimiyyətlərdən miras qalmış problemlər həll olundu. Məhz Heydər Əliyevin uzaqgörən strategiyası, yüksək idarəçilik keyfiyyətləri sayəsində Azərbaycan müasir, sözün həqiqi mənasında, müstəqil dövlət kimi beynəlxalq münasibətlər sistemində özünü təsdiq edə bildi.

Ümummilli Lider Heydər Əliyev, obrazlı ifadə etsək, sivilizasiyaların qovşağında, daha dəqiq desək, böyük güclərin qlobal iqtisadi və siyasi maraqlarının toqquşduğu bir məkanda müstəqil və güclü Azərbaycanın təməlini

qurmağa müvəffəq oldu. Bu, bir təcrübəli dövlət adamı, siyasi lider kimi Onun üzərinə tarixin, taleyin və xalqın yüklədiyi missiya idi. Lakin Ulu Öndərimiz daha böyük bir missiyanı yerinə yetirərək, yeni dövr Azərbaycanının ideoloji postulatını da formalaşdırdı. Azərbaycançılıq ideologiyasını irəli sürməklə siyasi və dövlətçilik fəlsəfəsini milli birlik məfkurəsi kimi təkmilləşdirdi. Böyük öndərimizin yalnız dövlətin iqtisadi, hərbi, diplomatik əsaslarını yaratmadı, həm də onun ideoloji inkişaf konsepsiyasının müəllifi oldu.

Heydər Əliyevin qurduğu dövlət çox qısa bir vaxt ərzində regionun ən aparıcı dövlətinə, real və təsirli söz sahibinə, bölgədə həyata keçirilən və müxtəlif nəhəng korporasiyaların, fövqəlgüclərin maraqlarının ifadə olunduğu qlobal layihələrin aparıcı qüvvəsinə çevrildi. Heydər Əliyev dühasının gücü həm də onda öz təzahürünü tapır ki, o, böyük güclərin əsasən ziddiyyətlər üzərində qurulmuş maraqlarını Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən layihələrdə birləşdirə bilirdi. Məhz Onun bu qeyri-adi diplomatik məharəti Azərbaycanı böyük maraqların müharibə meydanına çevrilmək təhlükəsindən sığortaladı.

İndi regionun ən güclü ordusuna, ən böyük iqtisadiyyatına, ən sürətli inkişaf tempinə malik olan müasir Azərbaycan dövlətini Heydər Əliyevin şah əsəri adlandıranlar, heç şübhəsiz ki, tarixi dəlillərə istinad edirlər. Bu dəlillərdən biri də Ulu Öndərin Özündən sonrakı dövrdə belə Azərbaycanı təlatümlərdən, təhlükələrdən qoruya biləcək güclü siyasi lideri müəyyənləşdirə bilməsində idi. Heydər Əliyevin zərgər dəqiqliyi ilə hesablanmış milli dövlətçilik strategiyasını davam etdirmək missiyasını uğurla yerinə yetirən Prezident İlham Əliyev Azərbaycan üçün yeni imkanlar pəncərəsi açdı. Heydər Əliyevin qurduğu təməl üzərində müstəqil Azərbaycanda modern dövlət idarəçiliyi fəlsəfəsinin formalaşdırılmasını müvəffəqiyyətlə həyata keçirdi. İnnovativ ideya və təşəbbüslərin iqtisadiyyatda, mədəniyyətdə, idmanda – bir sözlə, ölkənin həyatının bütün sahələrində uğurla tətbiqi, beynəlxalq münasibətlər sisteminə yeni baxış bucağından baxaraq, regional maraqların konfiqurasiyasını dəqiq müəyyən etməsi, cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadın dərinləşməsinə xidmət edən ardıcıl siyasət İlham Əliyevin qurucu və islahatçı lider imicinin heç bir mübahisəsiz qəbul olunmasına ciddi əsas yaradır.

İlham Əliyev yeni tip siyasi liderlər kateqoriyasına aid edilir. O, yeniliklərə, innovasiyalara meyillidir, daha çox texnokrat təşəbbüslərə maraq göstərir, dinamikanın, modernləşmənin qatı tərəfdarı kimi davranır, qlobal maraqların hansı nöqtələrdə qovuşduğunu və toqquşduğunu məharətlə görür. Lakin bununla yanaşı, Azərbaycan Prezidenti həm də ənənələrə sadiq, Öz xalqının milli adət-ənənlərini, mənəvi dəyərlərini, tarixi nailiyyətlərini son dərəcə yüksək qiymətləndirən milli lider obrazının parlaq təcəssümüdür. O, müasir Azərbaycanının lideridir, yenilikçi, modern düşüncə tərzi ilə daha çox diqqəti cəlb edir. Onu başqalarından fərqləndirən bir mühüm keyfiyyəti də var: Prezident İlham Əliyev hər dediyi sözün arxasında dayanmağı bacaran, Azərbaycanın maraqlarını kifayət qədər açıq və prinsipial bir mövqedən müdafiə edən, sözün həqiqi mənasında, müstəqil siyasət yürütməyi bacaran güclü siyasi liderdir. Bütün bu keyfiyyətləri ilə Prezident İlham Əliyev Heydər Əliyev siyasətinin layiqli davamçısı, Ümummilli Liderin ideyalarını reallaşdıran qətiyyətli liderdir.

Yeni Azərbaycan. - 2020.- 6 may. - № 76. - S. 5.

Azərbaycanı müstəqillik epoxasına hazırlayan və dövlət suverenliyinin əsaslarını yaradan böyük lider

Arif Şəkərəliyev,
iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi

Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram.

Heydər Əliyev
Ümummilli lider

Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət, bir sözlə, şəksiz liderdir.

Zbiqnev Bjezinski
ABŞ-ın keçmiş prezidentinin milli təhlükəsizlik üzrə müşaviri

Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük şəxsiyyət-- dünya şöhrətli siyasət və dövlət xadimi, fenomen insan, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etmək olan, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi ötən illərdə xalqımızın qəlbində əbədiləşmiş, ideya və əməlləri isə ölkəmizin gələcəyinə nur saçır.

Ulu öndər Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla ulu öndər xalqımızın mötəbər və təminatlı gələcəyinə böyük yol açmışdır. Azərbaycan yarım əsrdən artıqdır ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun 35 illik rəhbərliyi dövründə respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir. Ulu öndər öz ölkəsinə rəhbərlik etdiyi hər iki dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Heydər Əliyev bütün türk dünyasının sevimlisi, türkdilli xalqların fəxr etdiyi öndərdir.

Azərbaycan müstəqilliyin ilk addımında naşı siyasi qüvvələrin məsuliyyətsizliyi və xəyanətkarlığı səbəbindən məhv olmaq təhlükəsi ilə üzləşəndə isə ümummilli lider öz xaqınının harayına səs yetişərək onun xilaskarına çevrildi. 1993-cü ilin böhranlı yayında – vətənin dar günündə – ölkənin ictimai-siyasi həyatında baş verən çaxnaşma, hakimiyyət uğrunda gedən mübarizə, cəbhədəki acınacaqlı məğlubiyyətlər, vətəndaş qarşıdurması zamanı xalqımız öz böyük oğlunu hakimiyyətə dəvət etdi. 1993-cü il iyun ayının 15- də Heydər Əliyev Azərbaycan parlamentinin sədri seçildi. Qədirbilən xalqımız həmin günü haqlı olaraq hər il milli Qurtuluş günü kimi qeyd edir.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində siyasi böhran dayandırıldı. Milli Ordunun döyüş qüdrətinin artması nəticəsində torpaqlarımızın işğalına son qoyuldu, atəşkəs elan olundu. Qısa bir zamanda Heydər Əliyevin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik, iqtisadi dirçəliş əldə olundu, siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı.

Sonrakı dövrdə mahir dövlət qurucusu Heydər Əliyevin rəhbərliyi ilə müstəqil respublikamızın ilk Konstitusiyası qəbul edildi, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi uğurla davam etdirildi. İqtisadi islahatların həyata keçirilməsinə başlanıldı. "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi imzalandı, dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi. Bütün bunlar məhz ulu öndərin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün oldu.

Ümummilli liderimiz Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi. Bu gün biz fəxrlə deyirik ki, Azərbaycanı dünya dövlətləri arasında irəli çıxaran, xalqı məhv olmaqdan xilas edən, onun gələcək inkişafına möhkəm zəmin yaradan ulu öndər Heydər Əliyev oldu.

Ümummilli liderimiz Heydər Əliyev keçmiş SSRİ məkanında yaranmış Müstəqil Dövlətlər Birliyi çərçivəsində hamının öyrənmək istədiyi siyasətçi idi. MDB dövlət başçılarının sammitlərində çıxış edən

Azərbaycan liderinin hər bir təklifi böyük maraq və ehtiramla qarşılanırdı. O, bütün dünya siyasətçiləri arasında ən uzaqgörən şəxsiyyət kimi həmişə nüfuzlu və hörmətlidir. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi Böyük ipək yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirərək bütün dövlətlərin inkişafına mühüm təkan vermişdir.

Ümummilli lider Heydər Əliyev BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz Iqtisadi Əməkdaşlıq Təşkilatı, GÜAM, MBD və başqa beynəlxalq təşkilatların toplantılarında daim qlobal bəşəri problemlərə öz orijinal baxışı ilə fərqlənirdi. Çünki ulu öndərin, sözün həqiqi mənasında, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət idi. O bu gün bütün dünyada Azərbaycanın rəmzinə çevrilib. Məhz ona görə də böyük liderimizin doğum gününü xalqımız böyük təntənə ilə qeyd edir.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə – son dərəcə çətin və xalqın müqəddəratının həll olunduğu bir zamanda ölkəyə rəhbərliyi öz üzərinə götürəndə dağıdılmış təsərrüfatın bərpa edilməsi üçün qarşıda hansı çətinliklərin durduğunu dərindən bilərək, bu ağır mübarizəyə hazır idi. Bu dövrdə birinci növbədə bir neçə vacib vəzifələri həll etmək qarşıda dururdu. Belə ki, qanlı müharibəni, xarici təcavüzü dayandırmaq, inflyasiyanın qarşısını almaq, iqtisadiyyatı sabitləşdirmək, dövlətin beynəlxalq aləmdə tanınmasına nail olmaq, ölkə haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, Qarabağ probleminin dinc yollarla həlli prosesinə başlamaq və s. məsələləri həll etmək lazım gəlirdi.

Xalqın təkidi ilə ölkədə hərcmərclik və anarxiya dövründə hakimiyyətə gələn Heydər Əliyevin gördüyü ilk tədbirlər iqtisadiyyatın bərpası, əmin-amanlığın yaranması, ictimai-siyasi sabitlik ilə bağlı idi. Həmin dövr iqtisadiyyatın dağılması, istehsal prosesinin dayanması və durğunluq, istehsal əlaqələrinin pozulması, siyasətdə anarxiya, Ermənistan qoşunlarının respublikamıza qarşı açıq müharibəsi, Azərbaycanın bir sıra rayonlarının bir-birinin ardınca işğalı, ordunun dağılması, hakimiyyət təbəqəsinin tam çaşqınlıq içərisində olması ilə xarakterizə olunurdu. Yaranmış mənzərənin mürəkkəbliyini dərinliklərinə qədər dərk edən ulu öndər Heydər Əliyev, çətin də olsa, çıxış yollarını müəyyən etdi.

Həmin dövrdə qarşıda Azərbaycan Respublikasının nicat yolunun müəyyən edilməsi dururdu. Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə dəvət olunmuş Heydər Əliyev görünməmiş enerji ilə fəaliyyətə başladı, ölkədə qayda-qanun yaratmaq, daxili sabitliyi təmin etmək, silahlı qüvvələri möhkəmləndirmək, erməni təcavüzkarları və onların havadarlarının hücumlarını dayandırmaq, beynəlxalq aləmə Azərbaycan həqiqətlərini çatdırmaq üçün böyük işlər gördü.

Tarixi təcrübə sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar öz milli sərvətlərinə sahib olmaq və onları öz inkişafına yönəltmək imkanı qazanırlar. Qeyd etmək lazımdır ki, neftlə zəngin təbii sərvətlər dünyanın bir çox ölkəsində vardır. Lakin həmin sərvətdən heç də xalqın rifahı üçün lazımi səviyyədə istifadə edilmir. Yalnız ümummilli liderimiz Heydər Əliyev həmin sərvəti xalqın rifahına yönəltdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, sonradan isə beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş və haqlı olaraq, "Əsrin müqaviləsi" respublikamızın müstəqillik salnaməsinə qızıl hərflərlə həkk olundu və Heydər Əliyevin neft strategiyası adı aldı. Müstəqilliyini bərqərar edən Azərbaycan Respublikası öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha əyani şəkildə bəyan etdi. Postsovet məkanında yaranmış dövlət ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyük miqyasda saziş imzalamaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını yaratdı. Bununla da Prezident Heydər Əliyev o dövrün böhranlı sosial-iqtisadi şəraitində növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

"Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi. Xarici investorların ölkəmizə axını sürətləndi və Azərbaycanda yeni neft-qaz kontraktlarının bağlanmasına güclü təkan verdi. Ümummilli liderin rəhbərliyi ilə 24 fevral 1995-ci ildə – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) təsis edildi. Beynəlxalq şirkət Azərbaycan neftinin dünya bazarına çıxarılması layihəsini hazırladı. 9 oktyabr 1995-ci ildə rəhbər komitə ilkin neft layihəsi və ilkin neft ixracı marşrutunun iki variantını, Rusiyadan keçən şimal marşrutunu və Gürcüstandan keçən Qərb marşrutunu təsdiq etdi.

Prezident İlham Əliyev ulu öndərin neft strategiyasının uğurlarından söz açaraq demişdir: "Azərbaycan müstəqil dövlət kimi öz neft potensialını çox uğurla işə salıbdır. Əlbəttə ki, bütün bu görülən işlərin səbəbkarı və təşəbbüskarı xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur". İftixar hissi ilə qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi" layihəsi üzrə işlərin həyata keçirilməsində möhtərəm İlham Əliyevin də xidmətləri misilsizdir və bu gün də müstəqil dövlətin neft strategiyası onun rəhbərliyi ilə uğurla davam etdirilir. Ulu öndərin layiqli davamçısı kimi onun rəhbərliyi ilə 2003-cü ilin noyabr ayında Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq maliyyə korporasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikinti layihəsinə maliyyə xərcləri ayırmaq barədə qərar qəbul etdi. 3 fevral, 2004-cü ildə BTC tərəfdaşları dünyanın 25-dən yuxarı aparıcı bankı və kredit təşkilatının iştirakı ilə boru xəttinin tikintisinin maliyyələşdirilməsinə dair sənədlər paketini imzaladılar.

Azərbaycan xalqının tərəqqi etməsi və dünyada tanınmasına bütün həyatını sərf etmiş ulu öndər müstəqillikdən əvvəlki dövrdə də böyük quruculuq işləri görmüşdür. Belə ki, neft, kimya, maşınqayırma, energetika, sənaye sahələri, kənd təsərrüfatı, şəhərsalma, təhsil, elm, səhiyyə, incəsənət sahələrini inkişaf etdirən ulu öndər Azərbaycanı dünyada tanıtdırdı. Hazırda Azərbaycanın müasir inkişafı həmin dayaqlara söykənir.

Qeyd etmək lazımdır ki, respublikamızda imzalanmış 23 beynəlxalq neft müqaviləsi çərçivəsində görülən müştərək işlər ölkəmizə mütərəqqi texnologiyaların gətirilməsi, neft sənayesinin infratsrukrunun yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkar milli kadrların hazırlanması və minlərlə yeni iş yerlərinin açılması üçün geniş imkanlar açmışdır.

Azərbaycanda 1993-cü ilin ikinci yarısından etibarən ümummilli liderimiz Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü daxili və xarici siyasət nəticəsində 1995-ci ildə ölkədə yaranmış ictimai-siyasi sabitlik sosial-iqtisadi problemlərin həllini, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşması sahəsində görülən işləri ön plana çəkmişdir. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başlamış və iqtisadiyyatın ayrı-ayrı sahəsində ciddi irəliləyiş əldə edilmişdir. Görülən məqsədyönlü və uzaq perspektivlərə tuşlanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alınmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyimizin təmin edilməsi və bazar münasibətlərinin inkişaf etdirilməsi sahəsində aparılan iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Azərbaycan iqtisadi və siyasəti müstəqillik əldə etdikdən sonra dünya dövlətləri ilə sərbəst əməkdaşlıq etmək imkanı əldə etmişdir. Bu müstəqilliyin əldə edilməsində isə Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ümummilli lider Heydər Əliyev göstərirdi: "Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi, regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir. Heç bir ölkə, ən böyük bir ölkədə yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz". Böyük rəhbərin müəyyən etdiyi iqtisadi siyasət strategiyasının başlıca istiqamətlərini sabitləşdirmə, islahatlaşdırma, dünya iqtisadi inteqrasiyasına qoşulma, sosial-iqtisadi inkişaf və xalqın rifahının yüksəldilməsi və s. təşkil edir.

Bazar münasibətlərinə keçid dövründə respublikamızda baş verən iqtisadi dəyişikliklərin, getdikcə daha da sürətləndirilən islahatların aparılmasında və ictimai-siyasi münasibətlərin formalaşmasında Heydər Əliyevin xüsusi rolu vardır. Belə ki, ümummilli lider müxtəlif mülkiyyət növlərinə əsaslanan, bazar iqtisadiyyatına keçidi nəzərdə tutan, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi, azad sahibkarlığa hüquqi təminatın yaradılması, dünya təsərrüfat sisteminə inteqrasiyasının güclənməsi və s. iqtisadi inkişaf məsələlərinə daim diqqət yetirirdi. Bu baxımdan ulu öndər göstərirdi: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir".

Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə mülkiyyətin çoxnövlüyü əsasında müxtəlif təsərrüfat formalarının, daxili bazarın yaranması və fəaliyyəti üçün bazar infrastrukturunun yaradılması, biznes və sahibkarlıq fəaliyyətinin inkişafı, özəlləşdirmə proqramının həyata keçirilməsi, xarici iqtisadi əlaqələrin bərpa edilməsi, maliyyə, kredit, bank işi, pul tədavülünün yenidən qurulması, inflyasiya və işsizliyin qarşısının alınması, əhalinin sosial müdafiəsinin təşkili sahəsində məqsədyönlü iş aparır. Bu işlərin həyata keçirilməsində dövlət öz funksiyası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə aid tənzimləyici tədbirlər həyata keçirir.

Hazırkı dövrdə elmi-texniki və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, heç bir ölkə xarici iqtisadi əlaqələrsiz və digər ölkələrlə əməkdaşlıq etmədən öz milli iqtisadiyyatının optimal inkişafını təmin edə bilməz. Ona görə də bütün ölkələr öz aralarında beynəlxalq və regional səviyyədə maddi nemətlərin, xidmətlərin istehsalı və mübadiləsi sahəsində iqtisadi əlaqələrə girirlər. Belə ki, Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri ölkənin ixrac potensialının artırılmasıdır. Qeyd etmək lazımdır ki, hazırda respublikanın xarici ticarət əlaqələri ilbəil genişlənərək ÜDM-də xüsusi çəkisi artmaqdadır. Bu artım əvvəlki illərdə, əsasən, idxalın həcminin artması hesabına baş verirdisə, son illər ixracın yüksəlməsi xarici ticarət dövriyyəsini artıraraq, müsbət saldonun əldə olunmasına imkan yaratmışdır.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almağa başlamışdır. Ölkə başçının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır.

Bazar iqtisadiyyatın inkişafı dövründə özəl sektorun fəaliyyətinə normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, yeni iş yerlərinin açılmasına nail olmaq, eləcə də sosial xarakterli problemləri həll etmək mümkün deyildi. Bu reallığı son dərəcə düzgün qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin faydalı məşğulluğunun təmin olunmasına, yerli istehsalın həcminin genişləndirilməsinə, eləcə də regional iqtisadi tarazlığın təmin olunmasına ötən illərdə ciddi önəm vermişdir.

Ölkəmizdə makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və dinamik inkişafın təmin edilməsi siyasətinin əsas məqsədləri neft və qeyri-neft gəlirlərinin səmərəli idarə edilməsini təmin etmək məqsədilə yerli potensialın gücləndirilməsi, həyata keçirilən struktur islahatlarının davam etdirilməsi və qeyri-neft sektorunun inkişafının həvəsləndirilməsi, regionlarda sahibkarlığın inkişaf etdirilməsi, investisiya qoyuluşlarının artırılması, ölkənin dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsidir.

Möhtərəm Prezident İlham Əliyevin bölgələrə səfərləri, görülən işlərlə şəxsi tanışlığı, tapşırıq və tövsiyələri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində mühüm əhəmiyyətə malikdir. Son illərdə yeni iş yerlərinin açılması istiqamətində əldə edilən nailiyyətlər iqtisadiyyatın inkişafı, sosial vəziyyətin getdikcə yaxşılaşması, istehsal və xidmət sahələrinin yaradılması, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğı nəticəsində mümkün olub.

Dövlət başçısı İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatının yeni sürətli inkişaf erası başlanmışdır. Bu isə heç şübhəsiz, dövlət tərəfindən dövrün tələblərinə uyğun olaraq iqtisadi islahatların kompleks və əlaqəli şəkildə aparılması, proqnozlar əsasında formalaşdırılmış dövlət proqramlarının, yerli, regional və beynəlxalq investisiya layihələrinin həyata keçirilməsi və dünya iqtisadiyyatına inteqrasiya yolu ilə əldə edilmişdir. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi ilbəil artmaqdadır.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev göstərir ki, ulu öndərin Azərbaycan tarixində rolu və fəaliyyəti əvəzolunmazdır. Bu, bir həqiqətdir və bizim vəzifəmiz: "Bu siyasətə sadiq olmaq, onu davam etdirmək, yeni formalarla zənginləşdirmək və Azərbaycanı gələcəyə doğru aparmaq bizim nicat yolumuzdur. Mən çox şadam ki, son bir il ərzində qarşımızda duran bütün vəzifələr, qəbul edilmiş bütün proqramlar, verilmiş bütün vədlər uğurla yerinə yetirilir və son bir il ərzində Azərbaycan daha da güclənmiş, dünyada öz mövqelərini daha da möhkəmləndirmişdir. Əminəm ki, Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar ölkəmizi daha da, hərtərəfli inkişaf etdirəcəkdir".

Qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin nəzəri irsi ölkə alimləri tərəfindən tədqiq edilir və praktikada tətbiq olunur. Bu isə ölkəmizə, yeni uğurlar gətirir. Biz bu gün əmin ola bilərik ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyev ideyaları Azərbaycan xalqını işıqlı gələcəyə və yeni-yeni qələbələrə aparır. Onun əziz xatirəsini qədirbilən xalqımız daim uca tutacaqdır.

Biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Xarici strateji mərkəzlərin də etiraf etdikləri kimi hazırda Azərbaycan sabitlik adasıdır. Ölkəmizə yatırılan xarici investisiyaların həcmi ilbəil artır. İqtisadi potensialımızın möhkəmləndirilməsi sahəsində uğurlar göz qabağındadır. Eyni zamanda, bütün bu nailiyyətlərə baxmayaraq, Azərbaycanda islahatlar yeni şəraitə uyğun davam etdirilir – həm siyasi sahədə, həm də iqtisadi sahədə. Çox sevindirici haldır ki, ən böyük maliyyə qurumu olan Dünya Bankı Azərbaycanı dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanıyır. Bu onu göstərir ki, bizim islahatlarımız həqiqətən çox cəsarətlidir, uğurlu və əhəmiyyətlidir.

Əldə olunan iqtisadi artım isə ilk növbədə, Azərbaycan vətəndaşlarının maddi rifah halının yüksəldilməsinə, ölkədə yoxsulluğun azaldılmasına, sahibkarlığın və regionların hərtərəfli inkişafına yönəldilmişdir. Bu işlərin həyata keçirilməsində Birinci vitse president, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da əvəzsiz xidmətləri vardır. Onun rəhbərliyi altında respublikamızda müxtəlif layihələr uğurla həyata keçirilmiş, yeni səhiyyə ocaqları, məktəblər, uşaq bağçaları, qocalar evləri tikilib istifadəyə verilmişdir. Bütün bunlar isə xalqın maddi və mədəni səviyyəsinin yüksəldilməsinə təkan vermişdir.

Fond tərəfindən xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların oxuduğu müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Azərbaycan xalqı, tərəqqipərvər bəşəriyyət, xalqımızın və dövlətçiliyimizin dostları, bütün Türk dünyası iyirminci əsrin ən görkəmli siyasətçilərindən, ən dahi şəxsiyyətlərindən olan Heydər Əliyevin əziz xatirəsini daim böyük sevgi ilə ehtiramla xatırlayırlar. Çünki müasir dünyanın ən nüfuzlu şəxsiyyətlərindən biri kimi Heydər Əliyev təkcə azərbaycanlıların və türkdilli xalqların deyil, regionun və bütün dünyanın da ən ali dərəcədə qiymətləndirdiyi siyasi xadim, dövlət rəhbəri və böyük mütəfəkkir idi.

Ümummilli liderimiz Heydər Əliyev bir siyasi və dövlət xadimi kimi Azərbaycan xalqına öz tarixinin dönüş mərhələsində gərək olmuş və dünya birliyi bunu layiqincə qiymətləndirir. O, Azərbaycan xalqının ümidgahı idi. Bu xalqın böyük mübarizələrlə, tarixin verdiyi şansla əldə etdiyi dövlət müstəqilliyini qoruyub saxladığına görə, suverenliyimizin əbədiləşdirilməsi yolunda dönməz və qətiyyətli addımlar atdığına görə Heydər Əliyev hamı tərəfindən sevilir. Xalq öz işıqlı gələcəyini ona etibar edirdi, daha yaxşı yaşamaq üçün ona ümid bəsləyirdi.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşdirilən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm

regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcəkdir. Bütün bunlar isə bizə onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcəkdir.

Xalq qəzeti.-2020.-6 may.-№88.-S.5.

Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti

Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginlik, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələr, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti daha da kəskinləşdirib. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib.

AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədovun "Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti" sərlövhəli məqaləsini təqdim edir.

2003-cü ildən keçən müddət ərzində Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilib. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

Son 16 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsulu üç dəfədən çox artmışdır. Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir və ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir. Xüsusilə, Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib. Azərbaycanın valyuta ehtiyatları 50 milyard dolları keçib, bununla da hazırda valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Ölkə iqtisadiyyatına son 16 il ərzində 250 milyard dollardan çox sərmayə qoyulmuşdur. Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Bu, onu göstərir ki, "qara qızıl" və qaz insan kapitalına çevrilmişdir.

Bununla yanaşı, Davos Ümumdünya Forumu və Dünya Bankının hesabatlarında Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır. Azərbaycan çox yüksək yerlərə layiq görülür, o cümlədən islahatların aparılması istiqamətində və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqda yer tuturuq. Ölkədə həyata keçirilən struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar nəticəsində təkcə 2019-cu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplanmış və sosial sahəyə yönəldilmişdir. Nəticədə, bundan 4 milyon 200 mindən çox insan faydalanmışdır. Bununla yanaşı, son illərdə Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir və heç şübhəsiz ki, bu da bəzi xarici dairələri narahat edir.

Azərbaycan Prezidenti İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasındakı dolğun və hər bir azərbaycanlı üçün proqram xarakterli çıxışında informasiya təhlükəsizliyi ilə bağlı demişdir ki, biz informasiya dövründə yaşayırıq və saxta xəbərlər, yəni, "feyk nyus" adlandırılan xəbərlər əfsuslar olsun ki, geniş vüsət alır və istənilən yalan xəbər çox böyük fəsadlara gətirib çıxara bilər: "Biz Azərbaycan olaraq bu şər-böhtan kampaniyaları ilə çoxdan üz-üzəyik. Bunun əsas səbəbi bizim müstəqil siyasətimizdir, heç kimin qarşısında baş əyməməyimizdir. Amma bunun fəsadları odur ki, bizə qarşı informasiya kampaniyası aparılır - qara piar kampaniyası, yalan, böhtan, uydurma, iftira üzərində qurulmuş kampaniya. Ona görə informasiya mühafizəsi ilə, informasiya təhlükəsizliyi ilə əlaqədar mütləq qanunvericilikdə yeni yanaşmalar, yeni fikirlər olmalıdır".

Bununla yanaşı, dövlət başçısı bildirmişdir ki, bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır, eləcə də öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik və bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin: "Ona görə bu, tamamilə mənasızdır. Azərbaycanı hansısa təzyiq altına salmaq cəhdləri, yaxud da ki, sanksiyalarla hədələmək – bütün bunların heç bir əhəmiyyəti yoxdur. Bu, iqtidara qarşı deyil, bu, dövlətə qarşı edilən cinayətdir və bunu heç kim unutmasın".

Azərbaycan Prezidenti İlham Əliyev bir daha diqqətə çatdırdı ki, son illər ərzində biz müxtəlif təzyiqlərlə, müxtəlif kampaniyalarla üzləşmişik, ancaq öz yolumuzdan dönməmişik, çünki ölkəmizin, xalqımızın əmin-amanlığı, təhlükəsizlik, sabitlik, xalqımızın rifahı, müstəqil siyasətimiz bizim üçün hər şeydən üstündür: "Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik, bəzi təşkilatların üzvüyük, o təşkilatlara könüllü şəkildə daxil olmuşuq, könüllü şəkildə də çıxa bilərik - əgər nə vaxtsa bu təşkilatlarda bizi nəsə qane etməsə, yaxud da bizə qarşı olan

qərəzli münasibət o həddə çatsın ki, artıq bizim hövsələmiz tükənsin. Ona görə hesab edirəm ki, bütün siyasi qurumların nümayəndələri bu sahədə də çox diqqətli olmalıdırlar".

Qeyd etmək vacibdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir.

Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında, eləcə də oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri zamanı Ermənistan baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. Azərbaycan Prezidenti Ermənistanın baş nazirinin və dünya birliyinin diqqətinə çatdırdı ki, Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan hüquqazidd addımlarını pisləməli, onun qarşısını almalıdır.

Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri dünyaya çatdırmalı olduğumuzu, vurğulayaraq bildirdi ki, tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Azərbaycanın arqumentlərə qarşı Ermənistan tərəfinin heç bir ciddi arqument qoya bilmədiyini, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiyaya əsaslandığını bildirən dövlət başçısı qeyd etdi ki, bu, əslində, onların xislətidir və onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar, bu da heç kimə sirr deyil.

Azərbaycan Prezidenti İlham Əliyev Kürəkçay sülh müqaviləsi haqqında Münxendəki çıxışını yada salaraq, orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir – deyə bir daha diqqətə çatdırdı: "Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan "Karabaxski Şuşinski". Bax, budur real tarix"

Dövlət başçısı bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətlərin ortaya qoyulmalı olduğunu vurğulayaraq bildirdi ki, XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrdə indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir: "Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm".

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb, amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Dövlət başçısı qeyd etdi ki, ona görə bu, xüsusi bir istiqamət olmalıdır.

Bu baxımdan, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda fəal olmağımızı, hücum diplomatiyası aparmağımızı bildirərək qeyd etdi ki, haqq-ədalət bizim tərəfimizdədir, Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi, çünki onların bütün tarixi saxtakarlıqdır, eləcə də onlar tarixi Azərbaycan torpağında dövlət qurublar və indi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər.

Bundan əlavə, Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, demokratiyadan dərs vermək istəyənlər hansı cinayətlər törədirlər, Avropanın dırnaqarası demokratiya beşiyi sayılan ölkələrdə xalqın gözü qarşısında, dünyanın gözü qarşısında dinc nümayişçiləri vururlar, əzirlər, gözlərini çıxarırlar, öldürürlər, həbs edirlər: "Jurnalistləri əsassız ittihamlarla həbs edirlər, çürüdürlər onları. Göz qabağındadır, dinc nümayişçiləri itlərlə, atlarla dağıdırlar. Bir ölkədə yox, iki ölkədə yox, demək olar ki, bu, indi bizi tənqid etmək istəyən məkanda kütləvi hal alıbdır. Müsəlman miqrantlara qarşı baxın, necə münasibət göstərilir. Onları XXI əsrdə itlərlə əzirlər, qəfəsə salırlar. Sonra isə qəfəsə yemək parçaları atırlar, heyvan kimi. Budurmu münasibət?!"

Hər zaman olduğu kimi qardaş Türkiyə dövlətinə qarşı əsassız iddialara cavab verən Prezident İlham Əliyev bəyan etdi: "Bəs o miqrantlar haradan yarandı? Nə üçün onlar yarandı? Nəyə görə öz ölkələrini tərk etdilər? Kim onların ölkələrinə basqın etdi? Kim o ölkələri məhv etdi? Kim sabitliyi pozdu? Kim milyonlarla qaçqının yaranmasına səbəbkar oldu? Ona görə kim bunu edibsə, qoy, onun acısını da çəksin. Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar".

Müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Prezident İlham Əliyev qeyd etmişdir ki, xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Bu baxımdan Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları regionda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Bununla yanaşı, oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı. Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər.

Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğurudur.

Regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmiş Azərbaycan, həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş, güclü dövlət və etibarlı tərəfdaş imici qazanıb. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən humanitar məkan kimi tanınır. Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilib.

Bununla yanaşı, Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və ölkə rəhbərliyinin bütün səyləri regionun inkişafına və xalqın rifahına yönəlib. Artıq reallaşan üçtərəfli, həmçinin dördtərəfli əməkdaşlıq formatları buna əyani sübutdur. Eləcə də ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan xarici ölkələrin iqtisadiyyatına sərmayə yatıran, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə, sivilizasiyalararası dialoqun, qlobal siyasi, iqtisadi, mədəni problemlərin müzakirə olunduğu məkana çevrilib.

Ümumiyyətlə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun son 16 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin edib. Bununla yanaşı, son vaxtlar həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

Səs. - 2020.- 18 mart. - № 52. - S. 8-9.

Prezidentin yeni hədəfləri - Azərbaycanın növbəti inkişaf kursu

Müstəqillik və tərəqqi yolu ilə irəli

İsa Həbibbəyli,
AMEA-nın Birinci vitse-prezidenti, akademik, Milli Məclisin deputatı

Son aylarda Azərbaycan cəmiyyətində ən çox müzakirə olunan mövzu - Milli Məclisə VI çağırış növbədənkənar seçkilərin keçirilməsi söhbətləri artıq arxada qalmışdır. Buna birinci səbəb Azərbaycan Respublikasının müstəqillik tarixində ən çox namizədin iştirak etdiyi deputat seçkilərinin uğurla başa çatmasıdır. Azərbaycan beynəlxalq ictimaiyyətin gözü qarşısında ölkəmizdə çoxpartiyalı əsaslarla azad və demokratik seçkilərin keçirilməsinə nail olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış üzrə birinci iclasının keçirilməsi, bu mühüm tarixi əhəmiyyətə malik olan iclasda ölkəmizin Prezidenti İlham Əliyevin proqram xarakterli nitqi və qəbul edilən qərarlar növbədənkənar seçkilərin səbəbləri və nəticələri haqqında tam və əsaslı qənaətlərin formalaşmasını müəyyən etmişdir.

İlk növbədə onu qeyd etməyi lazım bilirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisin VI çağırış birinci iclasındakı dərin məzmunlu nitqi ölkəmizin parlamentarizm tarixində siyasi sistemin islahatlarının proqramını müəyyən edən bəyanat kimi daxil olmuşdur. Bu tarixi nitq Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş növbədənkənar seçkilərin fonunda ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində islahatların aparılmasının siyasi-ideoloji əsaslarından ibarət olan konseptual bir proqramdır.

Burada müstəqil Azərbaycan dövlətinin bütün sahələr üzrə daha da inkişaf etdirilməsinin, təkmilləşdirilib yeniləşdirilməsinin siyasi əsasları öz əksini tapmışdır.

Milli Məclisdəki tarixi nitqi bir daha sübut etmişdir ki, Prezident İlham Əliyev daim yeniləşən və inkişaf edən Azərbaycanın daha böyük hədəflərə çatması üçün ölkəmizdə islahatlardan-islahatlara ardıcıl olaraq həyata keçirilməsi zəruri olan vəzifələri, ictimai-siyasi proseslərdəki növbəti addımları qabaqcadan aydın şəkildə görür, ölkəni və xalqı inandırıcı şəkildə daha böyük inkişafa aparan yollara doğru bacarıqla səfərbər edir.

Fikrimcə, bu mənada dövlət müstəqilliyinin hazırkı mərhələsində siyasi sistemin təkmilləşdirilməsi üzrə həyata keçirilmiş islahatların daha da dərinləşdirilməsinin və əhatə dairəsinin genişləndirilməsi işinin başa çatdırılması zərurətinin əsaslandırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdəki nitqinin siyasi-nəzəri konsepsiyasını təşkil edir. Və həm də məsələnin bu cəhətinin, yəni ölkədə inkişafın yeni mərhələsində siyasi sistemin təkmilləşdirilməsi zərurətinin meydana qoyulması və başa çatdırılması növbədənkənar seçkilərin keçirilməsinin səbəblərinin aydınlaşdırılmasına xidmət edir.

Bu baxımdan ölkəmizdə ilk növbədə çoxpartiyalı demokratik cəmiyyət quruculuğunu daha da inkişaf etdirmək üçün partiyalararası münasibətləri tənzimləmək, iqtidar-müxalifət münasibətlərində siyasi dialoqa nail olmaq həlli vacib vəzifələrdən biri kimi meydana çıxmışdır. Parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının Milli Məclisə seçkilərdə azsaylı deputatlarla təmsil olunan siyasi partiyalarla əməkdaşlıq naminə atdığı addım nəticə etibarilə cəmiyyətdə siyasi dialoqdan, qarşılıqlı anlaşmanın və sabitliyin təmin edilməsində mühüm faktorlardan biri olmuşdur.

Möhtərəm Prezident İlham Əliyevin nitqində səsləndirilmiş aşağıdakı fikirlər Azərbaycan cəmiyyətinin müasir inkişafından doğan bu reallığı çox dolğun şəkildə ifadə edir: "Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bizim partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır. ...Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq".

Bundan başqa, 2018-ci ilin Prezident seçkilərindən sonra ölkədə bütün səviyyələrdə struktur və kadr islahatları sahəsində aparılan islahatların təbii olaraq Milli Məclisi də əhatə etməsinə nail olmaq vəzifəsi Azərbaycan cəmiyyətinin inkişaf dialektikasının harmoniyası baxımından həlli zəruri olan problemlərdən biridir. Çünki həqiqətən də hakimiyyətin bütün qollarında aparılan islahatların bir-birini tamamlamasına nail olmadan bütövlükdə cəmiyyətin tam şəkildə inkişafını təmin etmək mümkün deyildir.

Ölkənin siyasi sistemində və idarəetmə strukturlarındakı mənzərəni aydın şəkildə görən Prezident İlham Əliyevin Milli Məclisə növbədənkənar seçkilərə getmək haqqında qərar qəbul etməsinin ən mühüm səbəblərindən biri də siyasi sistemin real islahatları naminə struktur və kadr islahatlarını da tamamlamaqdan ibarət olmuşdur. Dövlət başçısının Milli Məclisdəki nitqində ifadə olunmuş aşağıdakı mətləblər ölkədəki islahatların məntiqi davamını dərindən başa düşməyə əsas verir: "Son müddət ərzində Prezident Administrasiyası demək olar ki, tam

yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə də kadr islahatları aparılmışdır, yerli icra orqanlarında da bu islahatlar aparılır və aparılacaq... Ona görə də islahatların dərinləşməsi əlbəttə ki, parlamentdən yan keçə bilməzdi. Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir".

Azərbaycan Respublikasının VI çağırış Milli Məclisinin rəhbər heyətinin seçilmiş yeni tərkibi Prezident İlham Əliyevin bütövlükdə ölkədə modern cəmiyyət quruculuğuna nail olmaq və siyasi sistemi təkmilləşdirib inkişaf etdirmək konsepsiyasının reallıqlarını əks etdirir.

Əvvəla, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq qadın deputatın parlamentin sədri vəzifəsinə seçilməsi ölkəmizdə demokratik dövlət quruculuğunun əməli göstəricilərindən biridir. Bundan əvvəl iki çağırış Milli Məclisin deputatı kimi səmərəli fəaliyyət göstərmiş, beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını ləyaqətlə təmsil etmiş filologiya elmləri doktoru, professor Sahibə Qafarovanın parlamentin sədri vəzifəsinə namizədliyinin yekdilliklə dəstəklənməsi siyasi etimada ehtiramın ifadəsi olmaqla bərabər, həm də demokratik dövlət quruculuğu prosesinin inkişaf etdirilib möhkəmləndirilməsinin bütün siyasi qüvvələr tərəfindən müdafiə olunması deməkdir.

İkincisi, Milli Məclisin sədarətində yenə də ilk dəfə olaraq hakim Yeni Azərbaycan Partiyasının və bitərəflərin nümayəndələri ilə yanaşı, müxalifət partiyasını təmsil edən deputatın seçilməsi respublikamızda siyasi dialoqun inkişaf etdirilməsi istiqamətində atılmış real addımdır.

Üçüncüsü, Milli Məclisin Komitəsinin rəhbər heyətinin, komitə sədrlərinin və onların müavinlərinin tərkibində ciddi yeniliklərin baş verməsi, bu mühüm sferada iqtidardan olan təcrübəli millət vəkilləri ilə bir sırada bitərəflərin və müxalifətin nümayəndələrinin təmsil olunması da siyasi sistemin inkişaf etdirilməsi, dialoq mühitinin genişləndirilməsi baxımından əhəmiyyətli hadisədir. İndiki halda Milli Məclisdə aparılan kadr islahatları ölkə miqyasında bu sahədə həyata keçirilən məqsədyönlü siyasəti tamamlayır.

Yeni tərkibdə formalaşdırılmış Prezident Administrasiyası, daha operativ və çevik fəaliyyət göstərən Nazirlər Kabineti, yeniləşməkdə olan digər icra strukturları ilə Milli Məclis-də baş vermiş dəyişikliklərin bir-birini tamamlaması ölkəmizdə siyasi sistemin bütövlüyünün, ahəngdarlığının təminatına uğurla xidmət edir.

İndi artıq Azərbaycan Respublikasının çoxpartiyalı əsaslarla seçilmiş rəhbər heyətə malik olan parlamenti var. Bu, müstəqillik dövrü Azərbaycan parlamentarizmində ciddi dönüşdür. Bu isə öz növbəsində Azərbaycan Respublikasında ölkə Prezidentinin genişmiqyaslı islahatlarının həyata keçirilməsinə, daha böyük hədəflərə doğru inamlı addımların atılmasına doğru yeniləşmiş vahid komanda ilə getməsinə tam təminat verir.

Bütün bunlar ölkəmizdə daha güclü Azərbaycan naminə növbədənkənar parlament seçkilərinin keçirilməsinin mahiyyətini, fəlsəfəsini aydın surətdə ifadə edir. Heç şübhə yoxdur ki, atılmış addımlar siyasi sistemin dayaqlarının daha da möhkəmləndirilməsinə, siyasi dialoqun genişləndirilməsinə, böyük hədəflərə hesablanmış köklü və məqsədyönlü islahatların həyata keçirilməsinə imkan yaradacaq, təkan verəcəkdir. Bu isə öz növbəsində müstəqil Azərbaycan Respublikasının dövlətçilik maraqlarına və xalqımızın milli mənafelərinə tamamilə cavab verən hadisədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin VI çağırış Milli Məclisin birinci iclasındakı proqram xarakterli nitqi dövlət başçımızın dünyada və ölkəmizdə baş verən hadisələrə dərin analitik təfəkkür əsasında və azərbaycançılıq mövqeyindən yanaşdığını, hər addımda ölkə maraqlarını əsas kimi qəbul etdiyini təsdiqləyir. Məsələnin bu cəhətini önə çəkməsi möhtərəm Prezidentin nitqində əhatə edilən məsələlərin demək olar ki, hamısının şərhində özünü qabarıq şəkildə büruzə verir.

Prezident İlham Əliyev bütün fəaliyyəti boyu olduğu kimi, Milli Məclisdəki tarixi nitqində də miqyasından və məqamından asılı olmayaraq, bütün məsələlərdə birmənalı şəkildə əsl azərbaycançı mövqeyinə malik olmağın nümunəsini göstərmişdir. Diqqət etmək lazımdır ki, 9 fevral Parlament seçkilərinin yekunlarını təhlil edib dəyərləndirərkən ölkə Prezidenti beynəlxalq təşkilatların seçki proseslərinə reaksiyasını ifadə etməklə bərabər, ilk növbədə, məsələyə Azərbaycan xalqının münasibətini, baxışını ön mövqeyə çəkmişdir.

Avropa İttifaqının Azərbaycanda keçirilmiş parlament seçkilərinə obyektiv qiymət verməsinin təqdir edilməsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun "hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışmasının" mahiyyətinin açıqlanması beynəlxalq təşkilatların fərqli mövqelərinə dair real münasibətin Azərbaycan ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətlidir.

Lakin həm Prezident İlham Əliyev üçün, həm də xalqımızdan ötrü dövlət başçısının 9 fevral seçkilərinə ölkə vətəndaşlarının rəyinin qiymətləndirilməsi daha böyük əhəmiyyətə malik olan məsələdir. Bu mənada ölkəmizin rəhbərinin Milli Məclisdəki nitqində səsləndirilmiş aşağıdakı sözlər Azərbaycan xalqının mənafelərinin qiymətləndirilməsi baxımından son dərəcə önəmlidir: "Bütövlükdə seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır... Bizim üçün əsas məsələ bundan ibarətdir".

Prezident İlham Əliyevin Milli Məclisdəki nitqində bəyan etdiyi "bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır" tezisi ölkəmizdəki möhkəm ictimai-siyasi sabitliyi pozmağa cəhd

göstərən xarici və daxili qüvvələrə əsl azərbaycançı mövqeyindən verilmiş cavabın ifadəsidir. Çox təəssüf ki, xaricdəki ölkəmizin inkişafını istəməyən bəzi qüvvələrlə yanaşı, necə deyərlər, bəzi "sapı özümüzdən olan baltalar" da nadanlıq ucbatından düşmən dəyirmanına su tökməkdən bezmirlər. Müstəqillik dövründə bütün seçkilərdə - prezident, parlament, bələdiyyə seçkilərində həmişə uduzmuş, xalqdan ayrı düşmüş, ölkədə hər hansı bir mövqeyə çatmağa heç bir ümid yeri qalmamış belə başabəla müxalif qruplaşmalar xarici ölkələrdə dayaq axtarmaq, qrant almaq naminə hər cür xəyanətə əl atmaqla milli və dövlətçilik maraqlarımızı aşağı salmağa cəhd göstərirlər. Dövlət rəhbərimizin qəti mövqeyi radikal müxalifətə və onların havadarlarına tutarlı cavab olmaqla bərabər, həm də mövcud siyasi qüvvələrin fəaliyyəti üçün siyasi cəhətdən əhəmiyyətli olan mühüm bir çağırışdır.

Beynəlxalq təşkilatlarda əməkdaşlıq edən qurumların, millət vəkillərinin Azərbaycan həqiqətlərini real şəkildə dünya ictimaiyyətinə çatdırmaları üçün fəallıq, vətəndaşlıq mövqeyi və səviyyə nümayiş etdirmələrinə dair səslənən fikirlərin də qayəsi, "əzəl mübtədası" Azərbaycandır.

Azərbaycan gerçəkliyini beynəlxalq miqyasda hər dəfə obyektiv şəkildə meydana qoyan Prezident İlham Əliyevin bu istiqamətdəki ibrətamiz fəaliyyəti xarici siyasəti təmsil edən dövlət məmurlarımız, diplomatlarımız, millət vəkillərimiz üçün nümunədir. Belə məqamlarda cənab Prezidentin nümayiş etdirdiyi qəti və obyektiv mövqe, hazırcavablıq və geniş dünyagörüşü Azərbaycan xalqına və müstəqil dövlətimizə əlavə xal qazandırır, müsbət imicimizi daha da möhkəmləndirir.

Münxen Beynəlxalq Təhlükəsizlik Konfransında Ermənistanın baş naziri Nikol Paşinyanla dialoqu zamanı Prezident İlham Əliyevin aydın siyasi mövqeyini daha da möhkəmləndirən tarixi məlumatları, tutarlı elmi faktları yerli-yerində beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması dünya ictimaiyyəti qarşısında Azərbaycan həqiqətlərinin real mənzərəsinin canlandırılmasına şərait yaratmışdır. Bu cür obyektiv mövqe nümayiş etdirməyin reallıqlarına dərindən inam bəsləyən Prezident İlham Əliyevin Milli Məclisdəki nitqində deputatlara gələcək fəaliyyət üçün verdiyi tapşırıqlar və tövsiyələr ölkəmizi strateji məqsədlərə çatdırmaq üçün qarşıda duran məsul vəzifələri diqqət mərkəzinə çəkməyi diqtə edir: "Biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, …işğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir… Deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb... Bu, xüsusi bir istiqamət olmalıdır".

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət istiqamətində fəaliyyətinin prioritet istiqamətlərini müəyyən edən bu çağırışlar nəinki Milli Məclisin deputatları və ya diplomatlar, eyni zamanda, ölkəmizin bütün ziyalı təbəqələri, xüsusən də elm cəbhəsini təmsil edən alimlər üçün də aktual bir tələbdir. Elmimiz Azərbaycanın tarixi coğrafiyasına, mədəniyyət tarixinə və toponimiyaya dair tədqiqatların miqyasını daha da genişləndirməli, Ermənistan tərəfinin saxta iddialarını və məlumatlarını elmi dəlil və sübutlar əsasında ifşa etməlidir. Xüsusən bu istiqamətdə aparılmış tədqiqatların mühüm elmi nəticələrinin xarici dillərdə, ən azı ingilis, rus, ərəb, fransız, alman dillərində çap edilib beynəlxalq aləmdə yayılmasına daha ciddi fikir verməyə borcluyuq.

Azərbaycan Milli Elmlər Akademiyasında, ali məktəblərimizdə aparılan tədqiqatlar, çap edilən kitablar Milli Məclisin deputatlarına, parlament kitabxanasına çatdırılmalıdır. Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun xalqımıza qarşı Ermənistan tərəfinin apardığı soyqırımı hadisələrinə, repressiya və deportasiya proseslərinə həsr edilmiş çoxsaylı kitabları Milli Məclisin kitabxanasına və millət vəkillərinə təqdim etməsi deputat korpusunun həmin istiqamətdə təbliğat işini daha arqumentli şəkildə aparmasına kömək etmişdir.

Fikrimizcə, bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasında yaradılmış "Azərbaycançılıq elmi-ideoloji Mərkəzi" ölkə elmi mühiti ilə parlamenti əlaqələndirmək üçün əhəmiyyətli bir platforma funksiyasını həyata keçirə bilər. Ümumiyyətlə, dövlət başçımızın ölkə parlamentinin vəzifələri kimi irəli sürdüyü mətləblər və ideyaların həyata keçirilməsi Azərbaycan elminin də borcu və vəzifəsidir.

Parlamentlə Elmlər Akademiyasının qarşılıqlı dialoqu elmin də, siyasətin də xeyrinə ola bilər.

Nəhayət, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Deputatlara tövsiyəm odur ki, onlar seçildikləri dairələrdə fəal olsunlar, seçicilərlə daim təmasda olsunlar" tələbi də millət vəkillərinin fəaliyyətindəki müəyyən boşluqların aradan qaldırılmasına diqqəti ifadə edən əhəmiyyətli bir işarədir. Bu, xalqla hakimiyyət arasındakı münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edən zəruri bir tələbdir. Etiraf edək ki, bu məqamda möhtərəm Prezident Milli Məclisin deputatlarına həm dövlətin tələbini, həm də xalqın sözünü çatdırmışdır. Xalqla, seçicilərlə ardıcıl təşkil olunan görüşlər yerlərdəki problemlərin öyrənilib aradan qaldırılmasına kömək olduğu kimi, müstəqil dövlətimizin nailiyyətlərinin, ölkəmizdə aparılan islahatların mahiyyətinin xalqa çatdırılması, siyasi maarifçilik işinin yenidən qurulması baxımından da faydalıdır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin VI çağırış Milli Məclisin birinci iclasındakı tarixi nitqi ölkə həyatının yeni mərhələsinin siyasi-ideoloji proqramıdır.

Bu, müasir şəraitdə Azərbaycanda parlamentarizmin yenidən qurulmasının yol xəritəsidir.

Prezident İlham Əliyevin mühüm tarixi əhəmiyyətə malik olan nitqindəki siyasi sistemin təkmilləşdirilməsinə, siyasi dialoqun genişləndirilməsinə, azərbaycançılıq mövqeyinin möhkəmləndirilməsinə dair müddəalar nəticə etibarilə ölkəmizdə dövlət müstəqilliyinin daha da inkişaf etdirilməsinə, cəmiyyətin irəliyə doğru hərəkatına yeni bir güc və qüvvət verir.

Azərbaycan Respublikası Milli Məclisinin Prezident İlham Əliyevin düşündüyü siyasi konfiqurasiya əsasında yenidən qurulub inkişaf etdirilməsi geniş mənada müstəqil dövlətimizin bütün istiqamətlər üzrə müasir inkişafının təmin edilməsi mənasını ifadə edir. Ona görə də dövlət rəhbərinin çağırışlarını ürəkdən qəbul etmək və təqdim olunan islahatların həyata keçirilməsində yaxından və fəal iştirak etmək müstəqil dövlətimizin və xalqımızın qarşısında siyasi-mənəvi borcumuzu məsuliyyətlə yerinə yetirmək deməkdir.

Azərbaycan.-2020.-18 mart.-№60.-S.1,4.

Siyasi müstəqillik, davamlı sabitlik, inamlı yüksəliş

Prezident İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır

Rəşad Baxşəliyev

İstənilən dövlətin beynəlxalq münasibətlər sistemində nüfuzunu yüksəldən səbəblər var. Bunların arasında ən mühümü təbii ki, dövlətin həyata keçirdiyi xarici və daxili siyasətin məzmunu və mahiyyətidir. Müasir dövrdə dövlətin nüfuzu ilə yanaşı, həm də ona göstərilən beynəlxalq etimadı da məhz bu səbəb meydana çıxarır.

Bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Azərbaycanın öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu var. Son 25 illik tarixə nəzər yetirsək, aydın şəkildə bunu görə bilərik. Son 16 ildə isə Azərbaycanın tamamilə fərqli siyasi və iqtisadi reallıqlar şəraitində inkişaf etdiyinin şahidiyik.

Heç vaxt indiki qədər güclü olmayan ölkə

"Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və müstəqillik, inkişaf yolu ilə bundan sonra da gedəcəyik. Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb".

2003-cü ildən bugünədək verdiyi bütün vədlərinə sadiq qalaraq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət söylədiyi fikirlərlə üst-üstə düşür. Tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yürüdən cənab İlham Əliyevin müəllifliyi ilə müasir Azərbaycan tarixinin şanlı səhifəsi yazılır.

Elə bir beynəlxalq müzakirə mövzusu yoxdur ki, Azərbaycan həmin vaxt atdığı addımı hansısa dövlətin siyasi və ya iqtisadi maraqlarına uyğunlaşdırsın.

Enerji məsələlərindən başlamış xarici siyasi əməkdaşlığa, beynəlxalq təşkilatlarda iştiraka, qlobal terrorizmlə mübarizəyə qədər Azərbaycan tamamilə müstəqil siyasət həyata keçirir.

Cənab İlham Əliyev Azərbaycanın dünyadakı artan nüfuzunu dəyərləndirərkən qeyd edir ki, bu gün ölkəmizdə xalqın iradəsi hökm sürür: "Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə".

20 il əvvəlki ölkə ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetlərindən biri də ölkədə güclü iqtisadiyyatın yaradılması idi. Son 16 ildə iqtisadi cəhətdən əldə edilən uğurlara nəzər yetirsək görərik ki, Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu isə dünyada rekord göstəricidir.

Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsi təxminən 50 faizdən 4,8 faizə düşüb. Bu fakt isə onu göstərir ki, iqtisadi inkişaf və neft-qaz layihələri insanlara daha yaxşı həyat sürməyə kömək edib. Bu müddət ərzində Azərbaycanın xarici ticarəti 6,4 dəfə artıb. Ölkənin birbaşa xarici borcu ümumi daxili məhsulun yalnız 17 faizini təşkil edir.

16 ildə valyuta ehtiyatlarımız 51 milyard dollara çatıb. Ölkə iqtisadiyyatına 270 milyard dollar investisiya yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. Bu da onu deməyə əsas verir ki, cənab İlham Əliyev həm də Azərbaycanı investisiyalar məkanına çevirib. Xarici və yerli investorlar üçün əlverişli şərait yaradılıb.

Fevralın 25-də Azərbaycana səfərə gələn Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəmizin son illərdəki inkişafını qiymətləndirərkən qeyd etmişdir ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil. Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. Bu gün infrastrukturu, quruculuğu ilə daim inkişaf edən, dəyişən bir Azərbaycan var.

Ən islahatçı dövlət, ən islahatçı Prezident

Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlara əsasən Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri, cənab İlham Əliyevi isə ən islahatçı dövlət başçısı hesab edir.

Xüsusən də son 3 ildə həyata keçirilən sosial-iqtisadi, siyasi islahatlar həm ölkə ictimaiyyəti, həm də beynəlxalq reytinq təşkilatları tərəfindən yüksək dəyərləndirilir.

Martın 10-da Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev son 16 ildə əldə edilən uğurları dəyərləndirərkən söyləmişdir ki, iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur: "Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib. Ondan sonra yoxsulluq, 50 faizə yaxın idi, indi 4,8 faizdir və daha da aşağı düşəcək. Çünki maaşlar, pensiyalar artır və artırılacaq, müavinətlər də həmçinin. Xarici borc ümumi daxili məhsulun 17 faizinə bərabərdir. Bu, çox aşağı göstəricidir. İnkişaf etmiş bəzi ölkələrdə bu, 100 faizdən çoxdur. Amma ondan daha önəmli məsələ odur ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Yəni istəsək, xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun".

Bu illər ərzində iqtisadi sahədə bu uğurlar əldə edilib, sosial sahədə maaşlar, pensiyalar on dəfədən çox artıb. Məcburi köçkünlərin, şəhid ailələrinin problemləri öz həllini tapır. Azərbaycan kosmik dövlətə çevrilib.

Nəqliyyat qovşağı, Xəzərdə ən böyük donanmaya məxsus dövlət

Azərbaycan bu müddət ərzində həm də etibarlı tərəfdaş və tranzit ölkəyə çevrilib. Nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdıran Azərbaycan Avrasiyada nəqliyyat qovşağı kimi mövqelərini getdikcə gücləndirir.

Bu gün Xəzərdə ən böyük donanma (200-dən çox gəmi) ölkəmizə məxsusdur. Son 16 ildə ölkədə 6 beynəlxalq hava limanı tikilib. Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan transmilli layihələr Azərbaycana iqtisadi və siyasi dividendlər gətirməkdədir. Bu ilin sonunda bütün seqmenti fəaliyyətə başlayacaq "Cənub qaz dəhlizi" isə Avropanın enerji xəritəsini dəyişəcək. Azərbaycan qazı İtaliyaya və Avropanın digər ölkələrinə çatacaq.

Hazırda Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Prezident İlham Əliyevin söylədiyi kimi, bu rəqəmlər təsdiq edir ki, Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq.

Ötən illərdə uğurla gerçəkləşdirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda irəliləyən, qlobal maliyyə-iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərindən biri kimi tanınır. Ölkəmizin iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub ki, bu mərhələdə də əsas məqsədlərdən biri ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını uzun müddətə təmin etməkdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici diplomatiya və tam müstəqil siyasət onu deməyə əsas verir ki, Azərbaycanı qarşıda böyük uğurlar gözləyir.

Milli Məclisdəki çıxışında da dövlət başçısı qətiyyətlə vurğuladı ki, Azərbaycan daim müstəqil, prinsipial və öz milli maraqlarına uyğun siyasət yürüdür. Heç bir qüvvə Azərbaycan dövlətinə təzyiq göstərə bilməz.

Azərbaycan.-2020.-13 mart.-№56.-S.1-2.

Vəzifəmiz müstəqilliyimizi möhkəmləndirmək, dövlətimizin qüdrətini artırmaqdır

Vaqif Bayramov

Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Qazlaşdırma səviyyəsi Ağstafa rayonunda 90 faizdir. Təmirli yolların səviyyəsi 90 faizə yaxındır. İçməli su layihəsi 2013-cü ildə başa çatmışdır, istismara verilmişdir. Yəni, investorlar üçün bütün şərait yaradılıb. Şadam ki, Ağstafa aqroparkının investorları bütün bu imkanlardan istifadə edib, böyük vəsait qoyublar. Mənə verilən məlumata görə 80 milyon manat ətrafında vəsait qoyulub və qoyulan vəsait göz qabağındadır…".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında sosial--iqtisadi uğurlarımızı ölkədə yaşanan sabitliklə əlaqələndirib. Dövlətimizin başçısı bildirib ki, sabitlik olmadan heç bir dövlət inkişaf edə bilməz. Bu, aksiomadır. Bunu yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da zəifləyir, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Respublikada isə sabitliyin mənbəyi xalqdır, onun iradəsidir və eyni zamanda, aparılan siyasətdir. Çünki Azərbaycanda reallaşdırılan siyasət milli maraqlara söykənir, milli maraqlar hakimiyyət üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq -arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Hər bir ölkə vətəndaşının və dövlətimizin maraqları ötən 16 il ərzində daim dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində olub. Bu müddətdə respublikada hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Prezident İlham Əliyevin yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilib. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan ölkə rəhbəri xalq ilə təması diqqətdə saxlayıb, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyib və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verib.

Azərbaycan Prezidentinin respublikamızın Qərb bölgəsinə səfəri çərçivəsində keçirdiyi görüşlərin bəzi məqamlarına nəzər salsaq, bunu aydın görə bilərik. Belə ki, dövlət başçısı sosial və infrastruktur obyektlərinin açılışı mərasimlərində insanlarla görüşərək, onların ürək sözlərini dinləyib, qayğı və problemlərilə dərindən maraqlanıb, çətinliklərin aradan qaldırılması üçün uyğun qurumların rəhbərlərinə konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda, səfərdən sonra Goranboy, Şəmkir, Qazax, Tovuz, Ağstafa rayonlarının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə müvafiq sərəncamlar imzalayıb.

Əlbəttə, dövlət başçısının paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verilən qərarlar ölkəmizdə xalq-iqtidar birliyini daha da möhkəmləndirir, xalqın Prezidentinə olan inamını daha da artırır. Bütün bu amillər isə Prezident və xalq birliyi konsepsiyasının əsas qayəsini təşkil edir.

Yeri gəlmişkən, burada mühüm bir məqamı da xatırladaq. Prezident İlham Əliyev Qərb bölgəsinə səfər etməklə əvvəllər olduğu kimi, indi də bütün fövqəladə hallarda əhali ilə təmasa can atdığını, ünsiyyətə əhəmiyyət verdiyini əməli şəkildə bir daha göstərdi.

Fikrimizi bir qədər də dəqiqləşdirib deyə bilərik ki, hazırda bütün dünyada koronavirusun yayıldığı bir vaxtda Prezident İlham Əliyevin regionlara səfər etməsi, xalqla yaxından ünsiyyətdə olması ondan xəbər verir ki, dövlət başçısının "Xalq-iqtidar birliyi" konsepsiyasının reallaşmasına heç bir çətinlik, fövqəladə hadisə əngəl törədə bilməz. Halbuki hamıya məlumdur ki, bu virus yayılandan sonra xarici ölkələrdə bütün tədbirlər təxirə salınıb, dövlət başçıları bölgələrə səfərlərini dayandırıb. Təkrar edirik, bu təhlükəli hadisə isə Prezident İlham Əliyevin fəaliyyətinə heç bir təsir etmir. Yenə də cənab Prezident bölgələrə səfər edir, insanlarla görüşür, onların, necə deyərlər, dərd-səri ilə maraqlanır. Hətta Azərbaycanda bu virusun qarşısının alınması üçün bütün zəruri tədbirlərin görüldüyünü, vəziyyətə ciddi nəzarət olunduğunu, insanların narahatçılığına əsas olmadığını diqqətə çatdırır. Təkcə elə bu məqam əminliklə deməyə əsas verir ki, cənab İlham Əliyev hər bir vətəndaşın Prezidentidir və hər bir Azərbaycan vətəndaşının problemi onun öz problemidir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Goranboyda xəstəxananın açılışında çıxış edərkən, ölkə büdcəsindən koronavirusla mübarizə aparmaq üçün müəyyən məbləğdə vəsaitin ayrıldığını, yeni tip virusun Azərbaycanda yarada biləcəyi təhlükənin minimuma endirilməsi ilə bağlı bütün önləyici tədbirlər həyata keçirildiyini, özünün göstərişi ilə Nazirlər Kabineti yanında operativ qərargah yaradıldığını xüsusi vurğulayıb.

Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində hazırda respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına yönələn bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində insan amili – Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar da Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Ölkə rəhbəri Ağstafa Aqrar Sənaye Kompleksinin açılışından sonra müəssisənin kollektivi ilə görüşündə də bu barədə ətraflı danışıb. Dövlət başçısı bildirib: "Əgər indiyədək dövlət tərəfindən bölgələrdə infrastruktur layihələri icra edilməsəydi, yəqin ki, investorlar da investisiyaları üçün başqa yerlər axtaracaqdılar. Ağstafa rayonunda bu sahədə çox böyük işlər görülüb. Bu gün yeni yarımstansiyanın açılışında mənə məlumat verildi ki, indi Ağstafa rayonunun enerji təchizatı 20 meqavat ətrafındadır, ancaq potensial iki dəfə bundan böyükdür. Yəni, iki dəfə bundan artıq sənaye müəssisələrinin, digər obyektlərin yaradılması artıq mövcud enerji gücləri ilə təmin ediləcək. Əlbəttə ki, enerji təminatının yaxşı səviyyədə olması biznes üçün vacib şərtlərdən biridir. Bildirməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Qazlaşdırma səviyyəsi Ağstafa rayonunda 90 faizdir. Təmirli yolların səviyyəsi 90 faizə yaxındır. İçməli su layihəsi 2013-cü ildə başa çatmışdır, istismara verilmişdir. Yəni, investorlar üçün bütün şərait yaradılıb. Şadam ki, Ağstafa aqroparkının investorları bütün bu imkanlardan istifadə edib, böyük vəsait qoyublar. Mənə verilən məlumata görə 80 milyon manat ətrafında vəsait qoyulub və qoyulan vəsait göz qabağındadır…".

Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur.

Azərbaycan Prezidenti çıxışında, həmçinin ölkədə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılmasının prioritet istiqamət olduğunu, bütün bunların dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini vurğulayıb. Bildirib ki, investorlar tərəfindən müəssisələrin yaradılması diqqətdə saxlanılmalı, bu məsələnin gerçəkləşməsi üçün sərmayə qoyuluşuna üstünlük verilməlidir. Bir sözlə, azərbaycanlı investorlar, ilk növbədə, Azərbaycana vəsait qoymalıdırlar ki, bu iş sürətlə öz həllini tapsın: "Çünki bizim əhalimiz artır. Biz hər il 100 min artan əhalini gələcəkdə iş yerləri ilə təmin etməliyik. Ona görə iqtisadi inkişaf, sərmayə qoyuluşu demoqrafik inkişafı üstələməlidir. Bu, əsas vəzifədir. Əlbəttə ki, işlə təmin edilən vətəndaşlar yaxşı maaşla təmin olunmalıdırlar, onların iş şəraiti yaxşı olmalıdır. Mən demişəm ki, 8 saatlıq iş günü vardır və heç bir işçini ondan artıq işlətmək olmaz. Eyni zamanda, bütün işçilər gərək rəsmi qaydada maaş alsınlar, kölgə iqtisadiyyatına yol vermək olmaz. Qeyri-rəsmi məşğulluğa yol vermək olmaz. Sizin kimi müəssisələrdə bu faktlar yoxdur və ümumiyyətlə ola da bilməz. Çünki sizin yanaşmanız beynəlxalq yanaşmadır və mən istəyirəm ki, bütün Azərbaycan müəssisələri bu prinsiplər əsasında işləsinlər".

Prezident İlham Əliyevin sözügedən səfərindən diqqətçəkən bir məqamı da vurğulamaq yerinə düşərdi. Belə ki, son illər Azərbaycanda dövlət idarəetmə sistemində modernləşmənin, şəffaflığın təmin edilməsi və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində böyük uğurlara imza atılıb. Prezidentin 2012-ci il 13 iyul tarixli fərmanı ilə yaradılan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi –"ASAN xidmət" şəffaflığın artırılması, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyaların tətbiqi ilə göstərilməsini təmin etməklə yanaşı, bütün dünyada yeni və nadir bir idarəetmə modeli kimi qəbul olunub.

Azərbaycan Prezidentinin iştirakı ilə martın 4-də Tovuzda "ASAN Həyat" kompleksinin açılışı mərasimində bu barədə ətraflı danışılıb. Bildirilib ki, bu kompleks Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 737 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək. "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət həyata keçiriləcək. Kompleksdə çalışacaq əməkdaşların sayı 205, könüllülərin sayı isə 50 nəfərdir.

Dövlətimizin başçısı kompleksin açılışı mərasimindəki çıxışında da respublikamızda az bir vaxt ərzində "ASAN xidmət"in dövlət xidmətləri sahəsində yeni mədəniyyəti təqdim edən milli brendə çevrildiyini diqqətə çatdırıb: "Bu mərkəzlə tanış olarkən çox sevinirəm. Çünki bu mərkəzdə bizim siyasətimizin bir çox əlaməti öz əksini tapır. "ASAN xidmət" bizim intellektual məhsulumuzdur. Artıq 18-ci mərkəz işə düşür və mən bütün mərkəzlərin açılışında şəxsən iştirak etmişəm. Hər dəfə yeni planlar, yeni proqramlar, yeni layihələr haqqında mənə məruzə edilir, o cümlədən bu gün. "ASAN xidmət" öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır. Biz birinci mərkəzi açarkən o vaxt xidmətlərin sayı demək olar ki, məhdud idi. Ancaq bu gün burada, Tovuz "ASAN Həyat" mərkəzində 320 xidmət göstərilir və müraciətlərin sayı getdikcə artır. Mən fevral ayında Kürdəmirdə "ASAN Həyat" mərkəzinin açılışında idim və o vaxt 36 milyon müraciət olmuşdu. Amma bu gün martın əvvəlidir və müraciətlərin sayı 37 milyona çatıb. Yəni, bir ay da keçməyib, amma

müraciətlər bir milyon artıb. Siz də yaxşı bilirsiniz ki, məmnunluq əmsalı 99,4 faizdir. Hesab edirəm ki, bu, maksimum nəticədir və heç bir başqa xidmət bu qədər məmnunluq doğurmur. Nəyə görə? Çünki yenə də deyirəm, "ASAN xidmət"də bizim siyasətimiz öz əksini tapır. Vaxtilə mənim tərəfimdən verilmiş göstərişlər dəqiqliklə icra edilir".

Bu gün qarşıya qoyulan bütün planların həyata keçirilməsi üçün iqtisadiyyatını uğurla inkişaf etdirən, iqtisadi cəhətdən tamamilə asılılıqdan qurtulan, regionda irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı olan, dünya kosmos ailəsinin üzvünə çevrilən Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Dövlət başçısının innovasiyayönümlü istehsala əsaslanan sosial-iqtisadi siyasəti, apardığı islahatlar Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb və respublikamız dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb.

Hazırda respublikamızda qeyri-neft sektorunun inkişafı iqtisadi artımın başlıca mənbəyi kimi diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyatın tərəqqisinə və ixracın şaxələndirilməsinə yönələn tədbirlər qeyri-neft sektorunda iqtisadi artıma müsbət təsir edir. Həmin tədbirlər sırasında son illər investisiya siyasətinin diqqət mərkəzində saxlanılması mühüm önəm daşıyır.

Bütün bunlar barədə Prezident İlham Əliyev martın 3-də Qazaxda əhəng zavodunun açılışından sonra rayon ictimaiyyətinin bir qrupu və zavodun kollektivi ilə görüşərkən çıxışında ətraflı bəhs edib. Dövlət başçısı bildirib ki, hazırda ölkəmizdə sərmayə iqlimi çox müsbətdir. Təsadüfi deyil ki, keçən il respublika iqtisadiyyatına 13,5 milyard dollar investisiya qoyulub. Cari ildə də bu proses davam etdirilir və sərmayənin böyük hissəsini yerli ivestisiya təşkil edir. Bu, onu göstərir ki, yerli şirkətlər artıq güclənib: "Dövlətin dəstəyi ilə bu işlər davam etdiriləcək. Təkcə Sahibkarlığın İnkişafı Fondunun xətti ilə sahibkarlara 2 milyard manat məbləğində güzəştli kreditlər verilib və bu kreditlərin hesabına on minlərlə yeni iş yeri yaradılmışdır.

Bizim investisiya iqlimimizin müsbət olmasını Dünya Bankı da qeyd edir və biz bu reytinqlərdə 20 ən islahatçı ölkə sırasındayıq. Əlbəttə ki, buna nail olmaq üçün çox düşünülmüş siyasət aparılmalıdır. Əminəm ki, təkcə Dünya Bankı yox, eyni zamanda, yerli sahibkarlar da aparılan islahatları görürlər və bəyənirlər. Çünki sahibkarlar üçün əsas məsələ düzgün qaydaların tətbiq edilməsidir. Bu istiqamətdə dövlət siyasəti birmənalıdır, bütün sahələrdə, o cümlədən maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq hesabına təkcə keçən il vergi və gömrük orqanları proqnozdan əlavə büdcəyə 1 milyard manat daxil ediblər".

Göründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Bütün bu uğurlar, əlbəttə ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə qazandığı yüksək etimad sayəsində reallaşıb. Dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirən Azərbaycanın adı artıq inkişaf etməkdə olan ölkələr sırasında çəkilir.

Xalq qəzeti.-2020.-7 mart.-№52.-S.1,3.

Azərbaycanın bugününü heç bir dövrlə müqayisə etmək olmaz

Prezident İlham Əliyevin müstəqil siyasətinin təməlində konkret iş, real inkişaf, əməl dayanır

Rəşad Baxşəliyev

"İndiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz, heç bir dövrlə. Bu gün bu qədər müstəqil, bu qədər azad dövlət Azərbaycan tarixində olmamışdır. Tarixçilər bunu yaxşı bilirlər. Biz də bunu qiymətləndirməliyik". Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevriən Prezident İlham Əliyev ölkənin son 16 illik fəaliyyətini dəyərləndirərkən bu fikirləri səsləndirib.

Ən islahatçı Prezident bəyan edib ki, IV Dövlət Proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən əzəmətli layihələr Azərbaycan dövlətinin və xalqın çox qısa dövr ərzində nail olduğu misilsiz, möhtəşəm və tarixi nailiyyətlər, milli yüksəliş salnaməsinin nümunələridir. Ancaq dövlət başçısı hesab edir ki, daha qüdrətli dövlətə çevrilmək üçün əldə edilən uğurlarla kifayətlənmək olmaz.

Ötən il regionların sosial-iqtisadi inkişafına 8,2 milyard manat vəsait yönəldilib

Hazırda paytaxt Bakı ilə yanaşı, regionların da inkişafı xüsusi diqqət mərkəzindədir. Son illərdə regional inkişafla bağlı icra olunan üç dövlət proqramı və hazırda icrası davam edən 4-cü proqram bölgələrin simasını büsbütün dəyişdirib. Məhz bu dövlət proqramlarının icrası ilə son 16 ildə regionlarda yaradılan sosial-iqtisadi infrastrukturlar minlərlə iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artmasına, sosial rifahının yüksəlməsinə səbəb olub.

Bu müddətdə iqtisadi yüksəlişə və icra olunan layihələrə nəzər yetirək:

- Ölkə iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə artıb;
- Kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə çoxalıb;
- İxrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artıb;
- Valyuta ehtiyatları 27 dəfə artaraq 52 milyard dollara çatıb;
- Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşüb;
- Əməkhaqqı 11, orta pensiya 8 dəfə artıb;
- 3300-dən çox məktəb, məktəbəqədər uşaq və tibb müəssisələri istifadəyə verilib;
- 34 elektrik stansiyası tikilib;
- 33 aqropark fəaliyyətə başlayıb;
- 17 "ASAN xidmət" mərkəzi açılıb;
- 11 xalça fabriki açılıb;
- Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb;
- 17 min kilometr avtomobil yolu salınıb;
- 2 böyük su anbarı - Taxtakörpü və Şəmkirçay tikilib;
- 470 körpü və tunel istifadəyə verilib;
- 1500-dən çox artezian quyusu qazılıb və bu proses davam etdirilir;
- yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılıb;
- 7 aeroport tikilib.

Prezident İlham Əliyev Kürdəmir rayonuna səfəri zamanı son illərdə regionların inkişafı ilə bağlı həyata keçirilən infrastruktur layihələri barədə geniş məlumat verdi və qeyd etdi ki, dördüncü dövlət proqramının icrası zamanı daha möhtəşəm uğurlara imza atılacaq. Qeyd edək ki, 2019-cu ildə regionların sosial-iqtisadi inkişafının dördüncü dövlət proqramı çərçivəsində 7,2 milyard manat vəsait, eyni zamanda Prezidentin imzaladığı sərəncamlarla əlavə olaraq 1 milyard manata yaxın vəsait ayrılıb.

Biznes mühitinin yaxşılaşması, dotasiyadan asılılığın azalması...

Prezidentin müvafiq fərmanı ilə şəhər və rayonlar üzrə dövlət büdcəsinin müvafiq vergilərində büdcə ilinin sonuna daxil olan əlavə vəsaitin 50 faizinin icra hakimiyyətlərinin sərəncamına verilməsi regionların dotasiyalardan asılılığının azalmasına və bölgələrdə biznes mühitinin yaxşılaşdırılmasına güclü stimul yaradır. Belə ki, 2019-cu ilin nəticələrinə əsasən, şəhər və rayonların sərəncamına verilən belə vəsaitlərin həcmi 28 milyon manat təşkil edib.

Bu vəsaitləri alan şəhər icra hakimiyyətləri arasında Sumqayıt şəhəri birinci yerdə (5,4 milyon manat), Gəncə şəhəri isə ikinci yerdədir (4,1 milyon manat). Bundan başqa, sərəncamlarına 1 milyon manatdan çox vəsait verilən icra hakimiyyətləri arasında Şəki və Mingəçevir şəhərlərini, habelə Şəmkir, Xaçmaz, Qazax və Quba

rayonlarını qeyd etmək olar. Bölgələrdə sahibkarlıq fəaliyyəti üçün nə qədər əlverişli şərait yaradılırsa, vergitutma bazası bir o qədər genişlənir və sosial-iqtisadi məsələləri həll etmək üçün əlavə maliyyə mənbələri yaranır.

Təkcə 2019-cu ildə ölkə iqtisadiyyatına 13,5 milyard dollar sərmayə qoyulub. Bu da onu göstərir ki, Azərbaycan xarici və daxili investorlar üçün də çox əlverişli məkandır. Ölkəmizdə mövcud olan sabitlik isə xalqın iradəsi ilə təmin edilir.

Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdir. Bu gün ölkədə sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alırlar. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan səmərəli istifadə mexanizmlərini də üzə çıxarır.

Ölkənin 10 bölgəsində sənaye zonalarının yaradılması sənayeləşmə prosesinə təkan verib. Ümumilikdə, indiyədək sənaye zonalarında rezidentlər tərəfindən 6 milyard manata yaxın investisiya yatırılıb və 9 mindən çox yeni iş yeri açılıb. Ötən ildə bu zonalarda istehsalın ümumi həcmində 2,6 dəfə artım qeydə alınıb. 2019-cu ildə bunun hesabına 1573 sahibkarlıq subyektinə 175 milyon manat məbləğində güzəştli kredit verilib.

33 aqropark və iri fermer təsərrüfatı

Hazırda respublikanın 33 rayonu üzrə 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. 153 min hektar ərazidə ümumi dəyəri 1,1 milyard manat dövlət dəstəyi göstərilən 33 aqropark və iri fermer təsərrüfatı birinci mərhələ üzrə fəaliyyətə başlayıb və 109 min hektar ərazidə ümumi dəyəri 1,3 milyard manat dövlət dəstəyi göstərilmiş 18 aqropark və iri fermer təsərrüfatında layihələndirmə və ya tikinti-quraşdırma işləri aparılır.

Ümumiyyətlə, aqropark və iri fermer təsərrüfatlarına dövlət dəstəyi tədbirləri çərçivəsində 535 milyon manat, o cümlədən zəruri infrastruktur işlərinə 339 milyon manat dövlət əsaslı vəsaiti qoyulub və ümumi dəyəri 780 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatının yaradılmasına 196 milyon manat dövlətin güzəştli kreditləri ayrılıb. Bununla yanaşı, 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib, 25 milyon manatdan çox vəsaitə qənaət olunub.

Dördüncü dövlət proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən əzəmətli layihələr Azərbaycan dövlətinin və xalqının çox qısa dövr ərzində nail olduğu möhtəşəm və tarixi nailiyyətlər, milli yüksəliş salnaməsinin nümunələridir.

Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı bugünkü Azərbaycanın sosial-iqtisadi durumunu, həyata keçirilən mütərəqqi islahatları dəyərləndirərkən vurğulamışdır ki, bu gün ölkəmiz iqtisadi inkişaf, ciddi islahatlar yolundadır və bu islahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, mövcud xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır: "Adətən, çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir. Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm də siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir".

20 ən islahatçı ölkə sırasında

Bu gün iqtisadi inkişaf, ciddi islahatlar yolunda olan Azərbaycan yeni-yeni uğurlar əldə edir. İqtisadi, sosial infrastruktur layihələri, müasir obyektlər, beynəlxalq layihələrin reallaşması Azərbaycana iqtisadi və siyasi dividendlər qazandırır.

Uğurlara nəzər yetirdikdə isə deyə bilərik ki, 2019-cu ildə əldə edilən nəticələr və 2020-ci il üçün olan iqtisadi proqnozlar dayanıqlı inkişaf üçün zəruri zəmin yaradır. Prezident də əminliklə vurğuladı ki, bu il Azərbaycan uğurla inkişaf edəcək, daha güclü dövlətə çevriləcək.

Onu da əlavə edək ki, bu nailiyyətləri təkcə biz deyil, beynəlxalq təşkilatlar da hesabatlarında xüsusi vurğulayırlar. Ölkəmizdə son illərdə biznes mühitinin daha da yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilib.

Göründüyü kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təməlində konkret iş, real inkişaf, əməli fəaliyyət dayanır və verilən hər bir söz yerinə yetirilir. Ona görə də əminliklə deyə bilərik ki, bu il də həm paytaxtın, həm də regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçiriləcək infrastruktur layihələri vaxtında və uğurla reallaşacaq.

Azərbaycan.-2020.-28 fevral.-№45.-S.1,3.

Müasir Azərbaycan, davamlı inkişaf, yüksələn rifah, güclü dövlət

Bu, aparılan islahatların prioritet hədəfləridir

Yusif Ələkbərov

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu siyasətin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında etibarlı təminat yaradır. Bu baxımdan yola saldığımız 2019-cu il dövlətimiz və xalqımız üçün ümumilikdə keçən dövrün uğurlu davamı kimi ölkədə gedən zəncirvari inkişaf proseslərinin mühüm bir halqası olaraq xüsusi əlamətdarlığı ilə yadda qaldı. Ölkə tarixinə isə islahatlar ili kimi düşdü, inkişaf, sabitlik yolu ilə inamla irəliləyən respublikamız üçün uğur salnaməsinin daha bir parlaq səhifəsinə çevrildi.

Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, "İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik" - deyən ölkə başçısı çıxışlarında Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu vurğulayır, qeyd edir ki, "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır. Ümumiyyətlə, əvvəlki illərdə də respublikamızda bir çox islahatlar həyata keçirilib. Lakin indiyədək heç vaxt 2019-cu ildə olduğu kimi eyni vaxtda kompleks və genişmiqyaslı addımlar atılmayıb. Ötən ildə əldə olunan iqtisadi uğur və dəyişiklikləri bir neçə istiqamətdə qruplaşdıra bilərik. Birinci qrupa sosial istiqamətdə atılan inqilabi addımlar, ikinciyə kölgə iqtisadiyyatına qarşı tədbirlər, üçüncüyə iqtisadiyyatı idarəetmə mexanizmində struktur və kadr dəyişiklikləri, dördüncü qrupa isə qeyri-neft sektorunun inkişafı sahəsində görülən işlər daxildir.

Hələ 2018-ci il prezident seçkiləri və seçildikdən sonra Azərbaycan Prezidentinin konseptual çıxışı artıq islahatların yeni dönəminin başlanğıcı, növbəti illərin proqram və planlarının anonsu idi. Diqqətlə çox vacib məqamı qeyd etmək lazımdır ki, cənab Prezidentin gələcək inkişafın konsepsiyasını anons edən çıxışı heç də seçkiöncəsi təbliğat və yaxud kampaniya xarakterli deyil, seçkidən dərhal sonraya təsadüf edən qarşıya qoyulan vəzifələrin konkret icrası ilə bağlı idi və planlı şəkildə proqramın icrası da çox düşünülmüş nəzəri və praktiki cəhətdən son dərəcə real əsaslandırma üzrə mərhələlərlə həyata keçirilməyə başlandı. Əvvəlcə sözsüz ki, sosial-iqtisadi sahədə vaxt baxımından daha vacib islahatlara başlanıldı, eyni zamanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsini və yaşam səviyyəsinin daha yaxşılaşdırılmasını nəzərdə tutan ardıcıl tədbirlər həyata keçirildi. Bu, əhalinin imtiyazlı hissəsinin və sosial müdafiəyə ehtiyacı olanların sosial-maddi vəziyyətinin yaxşılaşdırılması, qeyri-neft sektoru və iqtisadiyyatın bütün ənənəvi və yeni spektrləri üzrə inkişafı, eyni zamanda kiçik, orta və iri biznes sahəsinin inkişafı, investisiya mühitinin saflaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi, vergi, gömrük və digər əlaqəli sistemdə aparılan ciddi islahatlarla müşayiət olundu. Mart və sentyabr aylarında əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin və təqaüdlərin artımını nəzərdə tutan 2 sosial paketin icrasına başlandı. Minimum əməkhaqqı 1 ildə 2 dəfə artırılaraq 130 manatdan 250 manata, minimum pensiya isə 116 manatdan 200 manata çatdırıldı. Birinci göstərici ilk dəfə olaraq ölkə üzrə müəyyən edilmiş yaşayış minimumu göstəricisinə nəinki çatdı, sentyabrın 1-də hətta onu keçdi də. Paralel olaraq, bütün müavinətlər də yüksəldildi və yeni müavinət növlərinin tətbiqinə başlanıldı ki, dövlət büdcəsindən maliyyələşən elm, müdafiə, təhlükəsizlik, hüquq-mühafizə, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, sənaye, tikinti və faydalı qazıntılar, nəqliyyat və rabitə, iqtisadi fəaliyyət sahələrində, habelə dövlət orqanlarında çalışan işçilərin də aylıq əməkhaqları dövlət başçısının müvafiq sərəncamları ilə artırıldı.

Möhtərəm Prezidentimiz qeyd edir ki, dünyada gedən proseslər bizi də narahat edir. Dünyada yeni münaqişə ocaqları, yeni gərginlik yerləri yaranır. Mövcud problemlər öz həllini tapmır, əksinə, yeni problemlər

əlavə olunur. Demək olar ki, dünyanın bütün yerlərində - Avropada, Afrikada, Asiyada, Latın Amerikasında, bizim bölgəmizdə, postsovet məkanında müəyyən gərginlik müşahidə olunur. Bəzi hallarda bu gərginlik daha şiddətli formalar alır. Ancaq Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. "Adətən çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni, bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir. Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda, çox ciddi struktur və kadr islahatları aparılmışdır. Bütün bunlar bir daha onu göstərir ki, bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Biz bütün bu məqsədlərə çatırıq. Keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir."

İqtisadiyyatımız 2,2 faiz, ümumi daxili məhsul 2,2 faiz, sənaye istehsalı 1,5 faiz artıb. Qeyri-neft sektorunda artım 3,5 faizdir. Neftin qiyməti sabitdir. Əsas prioritet sahə olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb. "Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesində də özünü büruzə verir. Beləliklə, 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sektor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir. Beləliklə, əsas iqtisadi göstəricilər bunlardır. Əgər buraya ölkəmizə qoyulan sərmayəni əlavə etsək, mənzərə daha gözəl olacaqdır. Keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulubdur. Azərbaycan həm xarici, həm daxili investorlar üçün çox cəlbedici məkandır."

Bu gün həm siyasi müstəvidə, həm iqtisadi sahədə, həm də biznesin inkişafı baxımından Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu yaxınlarda 14-cü dəfə Davos Ümumdünya İqtisadi Forumunda iştirakı, Forum çərçivəsində apardığı danışıqlar, iştirak etdiyi tədbirlər bir daha göstərir ki, ölkəmizə həm böyük maraq, həm də böyük rəğbət var. İyirmidən çox görüş keçirildi. Biz mətbuat vasitəsilə onun bu səfərini diqqətlə izləmişik. Azərbaycanda iş görmək istəyən şirkətlərin sayı artır. Dövlət başçısı bildirir ki, "Davos Forumunda iştirak edən şirkətlər dünya miqyasında ən böyük şirkətlərdir. Yəni, oraya - Foruma daxil olmaq üçün bir çox meyarlar olmalıdır. Onlardan biri də əlbəttə ki, şirkətlərin kapitallaşdırılmasıdır. Beləliklə, bu böyük sərmayə qoyuluşu və valyuta ehtiyatlarımızın artımı bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolla gedəcəyik."

Prezident cənab İlham Əliyevin uğurlu sosialyönümlü siyasəti sayəsində ölkədə dinamik iqtisadi inkişafla paralel olaraq sosial sahənin bütün istiqamətlərində mühüm addımların atılmasına, o cümlədən pensiya təminatının ildən-ilə gücləndirilməsinə nail olunub. Son 16 ildə orta aylıq əməkhaqqı 11 dəfə, orta aylıq pensiya 8 dəfə, həmçinin müavinət və təqaüdlər dəfələrlə artırılıb. Xüsusilə qeyd etmək lazımdır ki, 2019-cu ildə dövlət başçısının təşəbbüsü və tapşırığı ilə reallaşdırılan inqilabi sosial islahat paketlərinin 4,2 milyon vətəndaşın gəlirlərinin əhəmiyyətli dərəcədə artırılması təmin edilib. O bildirib ki, nəticədə minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 72,4 faiz, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, yeni təqaüd növləri təsis edilib, ümumən Prezidentin aylıq təqaüdləri ilə təminat proqramı 5 dəfəyə yaxın genişlənib. Ötən il minimum pensiyanın ciddi artımı nəticəsində Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri və Gürcüstan üzrə 1-ci yerə yüksəlib. Pensiyalarda ciddi artım nəticəsində 2019-cu ildə Azərbaycanda pensiyaların orta aylıq məbləği 15 faiz, median pensiya məbləği 54 faiz artıb. Diqqətçəkən məqamlardan biri də budur ki, minimum əməkhaqqının və dövlət sektoru üzrə çalışanların əməkhaqqının artımı 1 milyon 350 min insanı əhatə edib, eyni zamanda bu ciddi artım ötən il ölkədə orta əməkhaqqının da əhəmiyyətli dərəcədə - 16,6 faiz artması ilə nəticələnib. Bu da nəticə etibarilə ölkəmizdə 2020-ci ildə pensiyaların əvvəlki illərin müvafiq indeksləşdirmə artımları ilə müqayisədə xeyli yüksək həddə indeksləşdirilərək artırılmasına imkan verib. Son bir ildə sosial sahənin yalnız bir istiqaməti üzrə, yəni pensiya artımları hesabına pensiyaçılarımıza 1 milyard manatdan artıq əlavə vəsait ödənilir. Bu da bir tərəfdən dövlətimizin daim artan gücünün, digər tərəfdən sosial

sahəyə qayğının və diqqətin bariz nümunəsidir. Dövlət başçısı ötənilki sosial islahatlardan bəhs edərkən "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik. Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır" deyə bəyan edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 6 fevral 2020-ci il tarixli Sərəncamının sosial sahədə islahatların 2020-ci ildə də uğurla davam etməsinin əyani təsdiqi olduğunu vurğulamaq lazımdır.

Keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldı - 84 məktəb, 60 tibb müəssisəsi tikildi və təmir edildi. Bu proses də daim gedir. Məktəblərin böyük hissəsinin təmiri başa çatdırılıb, amma hələ də qəzalı vəziyyətdə olan məktəblər var və onların da təmiri ilə bağlı gələcək illərdə konkret addımlar atılacaqdır. İnfrastruktur layihələrinin icrası ilə əlaqədar mühüm işlər görülüb. Xüsusilə elektrik enerjisi sahəsində. Bu sahədə də ciddi irəliləyiş olubdur. Qazlaşdırma prosesi də davam etdirilib. Bu gün ölkəmizin demək olar ki, bütün yerlərində qazlaşdırma təmin edilibdir. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir. 1300 kilometr avtomobil yolu salınıb. Prezident deyib ki, "Min kilometr nəzərdə tutulmuşdu. Ancaq il ərzində rayonlara səfərlərim zamanı mənə edilən müraciətlər, sonra vətəndaşlar tərəfindən ünvanlanan məktublar əsasında biz əlavə 300 kilometr yolun çəkilişinə nail olduq. Avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan dünyada 27-ci yerdədir, bir çox inkişaf etmiş ölkələri qabaqlayır". Bu infrastruktur layihələrin dövlət investisiya proqramı hesabına icra edildiyini diqqətə çatdıran ölkə başçısı bunun ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaratdığını vurğulayır. "Təbii ki, bütün bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan verdi. Kənd təsərrüfatı istehsalı son illərlə müqayisədə rekord həddə çatdı. Yəni, artım tempi 7 faizdən çox olmuşdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir. Çünki bütün bu işlər bir-biri ilə sıx bağlı olan məsələlərdir. Keçən il, eyni zamanda, nəqliyyat sahəsində bizim böyük layihələrimiz icra edilibdir. Onların arasında Bakıətrafı dəmir yolu xəttinin çəkilişini xüsusilə qeyd etmək istərdim. Biz vaxtilə "elektriçka" adlandırılan dəmir yolu nəqliyyatını ən müasir səviyyədə bərpa etmişik, ən aparıcı şirkətin istehsal etdiyi qatarları gətizdirmişik. Qəsəbələrdə dəmir yolu stansiyaları tikilibdir və bu proses davam etdiriləcək. Bu il artıq Bakıətrafı dəmir yolunun çəkilişinin əsas mərhələsi başa çatacaq, yəni, dairə birləşəcəkdir. Ondan sonra hələ ki, dəmir yolu olmayan qəsəbələrə dəmir yolunun çəkilişi nəzərdə tutulur. Eyni zamanda, qonşularla bizi birləşdirən dəmir yollarında bərpa işləri aparılır ki, sürət daha da artsın. Buna böyük dərəcədə nail olmuşuq, xüsusilə qərb istiqamətində. Şimal və cənub istiqamətində görüləcək işlər üçün hazırlıq aparılır və bu il bu proses daha sürətlə gedəcəkdir." 14 faizdən çox artan qeyri-neft sənayesi yeni iş yerlərinin yaradılması deməkdir. Bir məsələni də xüsusi qeyd edək ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Möhtərəm Prezidentimizin də dediyi kimi, bu, daimi proses olmalıdır. Azərbaycan regionlarının dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunları barədə danışarkən vurğulamaq lazımdır ki, bir il bundan əvvəl qəbul edilmiş dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. Üç proqram çərçivəsində böyük işlər görülmüşdür. "Ancaq hələ də görüləsi işlər çoxdur. Hesab edirəm ki, dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq və beləliklə, ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaqdır. Keçən il ərzində proqramın icrası ilə bağlı bütün lazımi tədbirlər görülüb. Deyə bilərəm ki, proqram artıqlaması ilə icra edilib. Proqramda nəzərdə tutulmuş məsələlər həll olunub. Ancaq bəzi məsələlərdə müəyyən ləngimələr var. Ona görə bu məsələlərin həllinə xüsusi diqqət göstərilməlidir. Hesab edirəm ki, proqramın bu il icra ediləcək bütün tədbirləri həyatda öz əksini tapacaq."

Davamlı islahatların reallaşdırılması ilə yanaşı, bütün sahələrdə ardıcıl inkişaf strategiyası uğurla həyata keçirilməkdədir.

Respublika.-2020.-14 fevral.-№33.-S.4.

XXI əsrin milli lideri: İlham Əliyev və Azərbaycan dövlətçiliyinin inkişafı

Kamal Adıgözəlov

Prezident İlham Əliyev artıq on altı ildir ki, müstəqil Azərbaycan Respublikasına rəhbərlik edir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla inkişaf etdirən dövlət başçısının fəaliyyəti çoxşaxəlidir

Aparılan təhlillər göstərir ki, Azərbaycan Cənubi Qafqazda müstəqil dövlət kimi özünü uğurla təsdiq edən ölkədir. Bunun kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu konsepsiyası dayanır. İlham Əliyev XXI əsrin keşməkeşləri şəraitində həmin inkişaf kursunu yeni şərtlər daxilində səmərəli şəkildə davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda Cənubi Qafqazın lider dövlətidir. Ekspertlərin qiymətləndirmələrinə görə, bu proses daha da inkişaf edəcək. Azərbaycan rəhbəri malik olduğu liderlik xüsusiyyətlərinə görə daim uğur gətirən addımlar atacaq. Daxili və xarici siyasətdə həyata keçirdiyi proqramlar sayəsində müstəqil dövlətçiliyi yeni zirvələrə qovuşduracaq. Bunların fonunda isə İlham Əliyevin simasında yeni siyasi lider modelinin formalaşdığı aydın görünür. İlham Əliyev hazırda XXI əsrin milli liderliyinin uğurlu nümunəsidir. Həmin kontekstdə Azərbaycan Prezidentinin fəaliyyətinin bir sıra mühüm saydığımız məqamları üzərində geniş dayanmağa ehtiyac duyduq.

Siyasət və vətənpərvərlik: Azərbaycanda sintezi

İndiki tarixi mərhələdə hər bir siyasi liderin fəaliyyətini bütün dünya izləyə bilir. İnformasiya-kommunikasiya vasitələri elə inkişaf edib ki, dövlətə başçılıq edən şəxsin gördüyü işlər sürətlə hər yerə yayılır. Bu, bir tərəfdən, liderlərin göz önündə olmasını təmin edir. Digər tərəfdən, hər bir siyasətçinin fəaliyyətinə dünya miqyasında qiymət vermək işini asanlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti haqqında dünyanın aparıcı dövlətlərinin rəhbərləri dəfələrlə fikir bildiriblər. Onların hamısı Azərbaycan Prezidentindən müdrik, uzaqgörən, əməkdaşlığa açıq və etibarlı, dövlət işlərini dərindən bilən və yüksək diplomatik bacarığa sahib lider kimi bəhs ediblər.

Əlbəttə, hər bir azərbaycanlı üçün ölkənin başçısına digər ölkələrin rəhbərlərinin yüksək qiymət verməsi qürur mənbəyidir. Həm də bu hörmətin arxasında İlham Əliyevin gərgin zəhmətinin, yüksək ailə, siyasətçi tərbiyəsinin, Vətənə böyük sevgisinin dayandığını anlamaq gərəkdir. Belə qiymətlər heç zaman asan verilmir – onu qazanmaq lazımdır, konkret əməldə layiq olduğunu göstərmək gərəkdir. Müqayisə üçün deyək ki, Cənubi Qafqazda digər heç bir siyasi lider barəsində bu cür fikirləri bildirmirlər. Bunlar İlham Əliyevin siyasətçi, lider və şəxsiyyət kimi dərindən öyrənilməsi ehtiyacının yüksək olduğunu göstərir.

Burada bir vacib məqamı vurğulamaq gərəkdir. Ulu öndər Heydər Əliyevin İlham Əliyev kimi liderin yetişməsində zəhməti və xidməti olduqca böyükdür. Ümummilli liderin fəaliyyətinə yaxından bələd olması ilə bərabər, onun təcrübəsini də tam əxz edib, praktiki fəaliyyətdə tətbiq etmək, əlbəttə, insanın özündən yüksək bacarıq tələb edir. Bununla yanaşı, Heydər Əliyevin yeni siyasi lider yetişdirmək qabiliyyətinin çox yüksək səviyyədə olduğunu qəbul etmək gərəkdir. Bütün bunlara görədir ki, Heydər Əliyev məktəbini keçmiş bir Prezidentin, siyasi liderin və şəxsiyyətin müstəqil dövlət quruculuğunda əldə etdiyi nailiyyətlər təsadüf sayıla bilməz. İlham Əliyev uğurlu siyasi varisliyin ən gözəl nümunəsidir!

Alimlər bir məqama diqqət çəkirlər: İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi on altı il müstəqillik dövrünün yarıdan çoxunu təşkil edir. Bu müddətdə Azərbaycan müstəqillik və suverenlik yolunda böyük məsafə qət edib. Konkret deyilsə, on altı il mürəkkəb bir geosiyasi məkanda yerləşən dövlət üçün daim uğurlar ili olub. Buna nail olmağın nə qədər çətin olduğunu sübut etməyə ehtiyac yoxdur. Adi müqayisələrdə həmin reallığı açıqca görmək mümkündür. Burada başqa bir məqam önəm kəsb edir.

Hazırkı tarixi şəraitdə davamlı uğur qazanmağa imkan verən liderlik hansı keyfiyyətlərə malik olmalıdır? Yəni, İlham Əliyevi lider-şəxsiyyət kimi necə xarakterizə etmək olar? Bu suala indi filosoflar, tarixçilər, sosioloqlar, siyasətşünaslar və başqa humanitar ixtisas sahibləri cavab axtarırlar. Əlbəttə, bu istiqamətdə araşdırmaları davam etmək zəruridir.

Son on altı ili dövlət quruculuğu prosesi kontekstində üç aspektdə əhəmiyyətli hesab etmək olar. Birincisi, bu illər keçid proseslərinin yekunu baxımından əhəmiyyət daşıyır. İkincisi, keyfiyyətcə yeni inkişaf mərhələsinə start verilib. Üçüncüsü, cəmiyyətin bütün sferaları bir-biri ilə həmahəng şəkildə hərəkətə gətirilib və sürətli, davamlı inkişaf xətti müəyyənləşdirilib. Vurğulanan faktorların hər birinin dövlət quruculuğunda konkret yeri və rolu vardır. Onlar bir-birini mərhələ kimi ideal şəkildə tamamlayır. Bu şərt bütövlükdə dövlət quruculuğunu sistemli və müntəzəm olaraq həyata keçirməyə imkanlar yaradır. Onun müəllifi isə Prezident İlham Əliyevdir.

Keçid mərhələsinin yekunu: yeni inkişaf dövrünün təməli

Müstəqillik mərhələsinin keçid proseslərinin yekunu son dərəcə ciddi əhəmiyyəti olan məsələdir. Çünki bu, faktiki olaraq, 1993-cü ildən etibarən aparılan dövlət quruculuğu prosesinin səmərəsini və tarixi əhəmiyyətini ifadə edir. Həmin mərhələdə Ulu öndər öncə daxili sabitliyə nail oldu. Buna paralel olaraq Azərbaycanın beynəlxalq əlaqələrini dövrün tələbləri səviyyəsində qurdu. Neft siyasəti bu bağlılıqda prinsipial rol oynadı. Paralel şəkildə həyata keçirilən sosial-iqtisadi islahatlar cəmiyyətin bir sistem olaraq dayanıqlı sabitlik mərhələsinə keçməsinə imkan yaratdı.

Bununla Ulu öndər sonrakı mərhələdə keçid prosesini uğurla başa vurmağın təməllərini sağlam əsasda formalaşdıra bildi. 2003-cü ildən başlayaraq bu proses daha böyük sürətlə aparıldı. Və 2009-cu il noyabrın 2-də Bakı Dövlət Universitetinin 90 illik yubileyində Prezident İlham Əliyev bəyan etdi: "Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq". Ekspertlər hesab edirlər ki, bu, bütövlükdə müasir dövlətçilik tarixində çox əhəmiyyətli bir mərhələnin başa çatması deməkdir. Keçid dövrünün yekunu kimi üç prinsipial məqamı vurğulamaq zəruridir.

Birincisi, Azərbaycan iqtisadiyyatında keçid dövrünün sön mərhələsi bənzərsiz özünəməxsusluğu ilə fərqlənən qeyri-sabit mərhələyə təsadüf edirdi. Həmin dövrdə bütün dünyanı iqtisadi-maliyyə böhranı bürümüşdü. Konkret desək, uzun illərin gərgin əməyi və düzgün strateji seçim əsasında Azərbaycan iqtisadiyyatını davamlı inkişaf relsinə salmaq mümkün olmuşdu və o, kənar təsirlərə deyil, daxili potensial imkanlarına görə inkişaf edən sistem halına gəlmişdi.

İkincisi, Prezidentin bəyanatı bütövlükdə cəmiyyətdə sosial, iqtisadi, siyasi, mənəvi-mədəni və digər münasibətlər sferasında prinsipial olaraq keçid mərhələsinin sona yetdiyini də ifadə edirdi. Bu, Azərbaycanda dövlət quruculuğunun bütün sahələrinin bir-biri ilə sıx əlaqədə aparıldığının göstəricisi idi. Sosial-iqtisadi sferada isə çox ciddi nailiyyətlər əldə edilmişdi. Belə ki, 1995-2003-cü illərdə Ümumi Daxili Məhsul (ÜDM) 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə artmışdı. Ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi isə 25,2 faiz artmışdı. Kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi, o cümlədən ixrac 4 dəfə çoxalmışdı. İqtisadiyyatda çalışanların orta aylıq real əmək haqqı təxminən 5,6 dəfə artmışdı. Bu müddətdə inflyasiya səviyyəsi 2-3 faizə endirilmişdi. Bütün bunlar uğurlu seçilən inkişaf kursu nəticəsində keçid mərhələsində sıçrayışlı sosial-iqtisadi inkişafa qədəm qoyulmasını təmin etdi. 2003-cü ildən sonra da uğurla aparılan siyasət nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanıldı, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sahələrinin, regionların inkişafı sürətləndi. Bunun fonunda strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin edildi, milli valyutanın sabitliyi və sahibkarlığa dövlət dəstəyi gücləndirildi. 2004-2008-ci illərdə isə Ümumi Daxili Məhsulun həcmi 2,6 dəfə artırıldı. Bu, 1990-cı ilin səviyyəsindən 2 dəfə çox deməkdir. Bu dövrdə yoxsulluq səviyyəsi 13 faizə endi, ölkədə 760 mindən çox yeni iş yeri açıldı.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan "Doing Business 2009" hesabatında Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə elan edildi. 2010-cu ildə də ölkəmiz öz mövqelərini qoruyub saxladı. "Qlobal Rəqabətlilik Hesabatı"nda isə göstərilirdi ki, 2009-2010-cu illərdə Azərbaycan 18 pillə irəliləyərək, 133 ölkə arasında 51-ci yerə çıxdı. Bu, MDB ölkələri arasında 1-ci göstərici idi. Yuxarıda ifadə edilənlər açıq təsdiq edir ki, Azərbaycanda keçid dövrünün yekunu ciddi sosial-iqtisadi inkişafla xarakterizə olunur. Həmin mərhələdə ölkəmiz bütün istiqamətlərdə keyfiyyətcə yeni təkamül mərhələsinə uğurlu tranzit imkanı qazanmış oldu.

Üçüncüsü, yuxarıda vurğulananlardan məntiqi olaraq belə bir qənaətə gəlmək olur ki, keçid dövrünün başa çatması özlüyündə yeni bir mərhələnin əsasının hazırlanması demək idi. Yəni, Azərbaycan rəhbərliyi düşünülmüş, elmi əsaslandırılmış və məqsədləri dəqiq müəyyən edilmiş inkişaf kursu işləyib hazırlamaqla növbəti inkişaf mərhələsinin təməlini qoyub. Bu, dövlət quruculuğunda çox mühüm bir məqamdır. Çünki o, davamlı və dayanıqlı inkişafın əsas şərtlərindən biridir. Bununla aydın olur ki, Azərbaycan sadəcə bir mərhələni arxada qoymayıb, eyni zamanda, yeni mərhələnin sağlam tərzdə getməsi üçün lazım olan bütün təməl şərtləri də hazırlayıb.

Beləliklə, Azərbaycanda keçid dövrünün ən böyük yekunu ölkənin yeni sürətli inkişaf mərhələsinə qədəm qoyması ilə xarakterizə olunur. 2010-cu ildən başlayaraq Azərbaycan modernləşmə sahəsində daha sistemli və keyfiyyətli dəyişmələr mərhələsinə keçib. Prezident İlham Əliyevin siyasi liderliyi, qətiyyəti, uzaqgörənliyi və mükəmməl idarəetmə bacarığı yeni mərhələnin də Azərbaycan üçün son dərəcə uğurlu olmasını təmin edir. Bu bağlılıqda ABŞ-ın nüfuzlu Con Hopkins Universiteti nəzdindəki Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunun rəhbəri, professor Frederik Starrın Azərbaycan Prezidenti barədə ifadə etdiyi fikirlər çox maraqlıdır. Amerikalı professor vurğulayıb: "Prezident İlham Əliyevin ən güclü cəhətlərindən biri odur ki, onun üçün daim diqqət mərkəzində olmaq əhəmiyyətli deyildir. O, bacarıqlı, tarazlı, düşünülməmiş qərarlara yol verməyən, rəyi ilə razılaşmadığı insanlara ehtiramla yanaşan bir şəxsiyyətdir. Mən onun Azərbaycandakı müxalifət nümayəndələri barədə hörmətlə danışdığını dəfələrlə eşitmişəm. O, şəxsi hissləri siyasətdən ayıra bilən adamdır. Bunların hamısı çox məsuliyyətli insana xas olan xüsusiyyətlərdir. Məncə, o, indiyə qədər ölkəsinə çox gözəl xidmət edib".

Amerikalı alimin bu fikirləri İlham Əliyevin konkret fəaliyyətinin nəticələri əsasında formalaşıb. Prezidentin bir şəxsiyyət kimi tutduğu mövqe də göz qabağındadır. Baxın, 2003-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. O cümlədən qeyri-neft sektoru 2,8 dəfə çoxalıb. Sənaye istehsalı isə 2,6 dəfə artıb. Kənd təsərrüfatı 1,7 dəfə böyüyüb. Qeyri-neft məhsulları sahəsində ixracat 4,1 dəfə çoxalıb. Azərbaycanın valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ildə 46 milyard dollara çatdırılıb, hazırda isə 50 milyard dolları keçir. Təkcə bu ilin ilk 6 ayı ərzində 6,4 milyard dollar sərmayə qoymaq planlaşdırılmışdı ki, artıq bu, yerinə yetirilib. Bütövlükdə isə son on altı il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə qoyulub. Təsadüfi deyil ki, Davos İqtisadi Forumunun hesablamalarına görə, "hökumətin dəyişikliklərə çevik reaksiyası" göstəricisinə görə Azərbaycan dünyanın 140 ölkəsinin arasında 5-ci yerdə qərarlaşıb.

Liderlik keyfiyyəti: İlham Əliyev nümunəsi

Bütün dünya liderləri etiraf edirlər ki, İlham Əliyev mükəmməl və səmərəli enerji siyasəti yeridən Prezidentdir. Bu baxımdan 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin (uzunluğu 980 kilometrdir) istifadəyə verilməsi mühüm tarixi hadisə kimi qəbul edilir. Bundan əlavə, 2014-cü il sentyabrın 20-də Cənub Qaz Dəhlizinin təməlinin qoyulması növbəti strateji xarakterli uğur sayılır. Bu, layihənin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın böyük rol oynadığının faktiki təsdiqidir.

Bölgədə ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin uzunluğu 3500 kilometr, ümumi dəyəri isə 40 milyard dollardır. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Nəhayət, bu ilin payızında Türkiyədə TANAP-ın Avropa ilə birləşəcək hissəsinin açılış mərasimi keçirilib.

Onu da xatırladaq ki, 2017-ci il sentyabrın 14-də "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddətinin 2050-ci ilə qədər uzadılması ilə bağlı sənədlər imzalanıb. Yeni şərtlərə görə, SOCAR-ın payı 11 faizdən 25 faizə qaldırılmalı və mənfəət neftinin 75 faizi Azərbaycana verilməlidir. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir.

Bunların fonunda Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizlərinin Cənubi Qafqazda geosiyasi qovşağı olması ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Bütövlükdə isə Azərbaycan "Bir kəmər, bir yol" layihəsi çərçivəsində aktiv bir iştirakçıdır. Bütün bunlar birbaşa İlham Əliyevin xidmətləri ilə bağlıdır.

Əlbəttə, İlham Əliyevin xarici siyasət kursunun uğurları müstəqil dövlətçiliyimizin inkişafı aspektində böyük əhəmiyyət kəsb edir. Hələ 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdi. Ölkəmiz 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına da üzvdür. İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq üçün var gücü ilə fəaliyyət göstərir. Bu istiqamətdə dövlət başçısının əldə etdiyi uğurlar hamıya məlumdur. Həmin kontekstdə ölkə rəhbərinin sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqa verdiyi töhfələr çox qiymətlidir. İlham Əliyev bu sferada bir çox təşəbbüslər irəli sürüb və onlar uğurla həyata keçirilir. Məsələn, "Bakı Prosesi" və Bakı Beynəlxalq Humanitar Forumu buna nümunədir. Regional əməkdaşlığın yeni formatları da həmin bağlılıqda olduqca yüksək qiymətə layiq nəticələr verməkdədir. Bununla bağlı Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ifadə etdiyi fikirlər olduqca maraqlıdır. Dövlət başçısı həmin iclasdakı nitqində ifadə edib: "Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, bizim xarici siyasətimizin prioritet məsələlərindən biridir. Azərbaycan müstəqil dövlət kimi dünya miqyasında nüfuzunu daim artırmaqdadır".

Vurğulanan məqamlar onu deməyə əsas verir ki, İlham Əliyev müstəqil Azərbaycan tarixində yeni bir eradır. Bu eranın başlıca xüsusiyyəti məxsusi inkişaf mərhələsi olmasındadır. Eyni zamanda, bu mərhələ müstəqil dövlətçiliyin özünütəsdiq dövrüdür. Dövlətçiliyin özünütəsdiqi tarixi əhəmiyyətli hadisədir. Təcrübə göstərir ki, heç də bütün ölkələr bu mərhələni uğurla keçə bilmirlər. Onlar bir sıra hallarda, ümumiyyətlə, müstəqil dövlətçiliyin özünütəsdiqinə nail ola bilmirlər.

Azərbaycanda isə bu mərhələ uğurla keçilib. Bütün dünya Azərbaycanı müstəqil, suveren, özünün inkişaf kursu olan ölkə olaraq qəbul edir. Cənubi Qafqazda ancaq Azərbaycan həmin istiqamətdə sistemli fəaliyyət göstərir. Burada siyasi liderlərin və ekspertlərin vurğuladığı bir özəlliyi də xatırlamağa dəyər. Onlar qeyd edirlər ki, Azərbaycan nəinki regional təhlükəsizliyin təmintaçılarından biri, həm də yeni təhlükəsizlik modelləri təşəbbüsünü göstərən aktiv regional geosiyasi oyunçudur. Bu, İlham Əliyevin həyata keçirdiyi siyasi kursdan məntiqi olaraq alınan nəticədir.

İlham Əliyevin xarici siyasi kursunda təhlükəsizlik modelinin əsasında regional əməkdaşlıq fəlsəfəsi dayanır. Regional əməkdaşlıq qarşılıqlı fayda gətirən, bərabərhüquqlu və bir-birinin daxili işlərinə qarışmadan həyata keçirilən proqramların sintezidir. Bu üsulla regionda yerləşən dövlətlər ancaq qarşılıqlı fayda verən və kimsənin haqqını pozmayan münasibətlər çərçivəsində fəaliyyət göstərir. Bununla da regional təhlükəsizlik səmərəli əməkdaşlıq prinsipləri üzərində bərqərar olan proses kimi özünü təsdiq edir.

İlham Əliyevin bu siyasi xətti özünü tam doğruldur. Regionun ən böyük dövlətləri səmərəli əməkdaşlıq edə bilir. Onların maraqlarının balanslaşmasında isə Azərbaycan ciddi rol oynayır. Bunlara görədir ki, Azərbaycan Prezidentinə regionun bütün böyük dövlətlərinin başçıları xüsusi hörmət və rəğbətlə yanaşırlar.

Bunlar, eyni zamanda, İlham Əliyevin XXI əsrin xarizmatik milli lideri olduğunu göstərən özəlliklərdir. Əlbəttə, bunun daha dərindən və konkret yanaşma əsasında araşdırılması gərəkdir. Çünki XXI əsrdə milli lider obrazı özlüyündə zəngin çalarlara malikdir. İlham Əliyev Cənubi Qafqazın mürəkkəb geosiyasi özəlliklərinə və Azərbaycanın keçdiyi xüsusi dövlətçilik tarixi yoluna görə son dərəcə maraqlı keyfiyyətlərə sahib liderdir. Şübhə yoxdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin liderlik və şəxsi keyfiyyətlərini geniş və dərindən təhlil edən araşdırmalar aparılacaqdır. Azərbaycan xalqının öz rəhbərinə inamı sonsuzdur!

Xalq qəzeti. - 2019.- 26 dekabr. - № 288. - S. 6.

Müstəqil dövlətin müstəqil xarici siyasəti

Prezident İlham Əliyev: "Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik"

Allahverdi Mehdiyev

Tarixin hansı mərhələsində olursa-olsun, dünyanın siyasi xəritəsində meydana çıxan yeni müstəqil dövlət ayaq üstə qalmaq üçün bir-birindən çətin sınaqlarla üz-üzə gəlir. Bəzən bu proses obyektiv və subyektiv səbəblərdən uzun illər davam edir, ictimai-siyasi kataklizmlərlə müşayiət olunur. Bu baxımdan Azərbaycanın milli müstəqilliyini bərpa etməsi dövründə yaşadığı sarsıntılar ibrətamizdir.

Məmləkətimiz müstəqil inkişaf yoluna qədəm qoyar-qoymaz güclü havadarlara arxalanan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdı. Torpaqlarımız işğal edilir, yüz minlərlə həmvətənimiz yurd-yuvasından didərgin düşürdü. Yeni müstəqil dövlətə rəhbərlik edənlərin səriştəsizliyi üzündən cəmiyyətdə yaranmış çoxsaylı problemlərə əlac tapılmır, ölkə ümummili böhrana sürüklənirdi. Üstəlik, xaricdən dəstək alan ayrı-ayrı qruplaşmalar dövlətin və xalqın taleyini kənara qoyub hakimiyyət uğrunda mübarizəyə girişmişdi. Çoxlarına elə gəlirdi ki, Azərbaycan dövlətçiliyi baş tutmayacaq, ölkə daim böhran burulğanında çapalayacaq.

Belə bir ağır şəraitdə təcrübəli dövlət xadimi Heydər Əliyevin siyasətə qayıdışı qaranlıq tuneldə işıq kimi göründü. Mahir siyasətçi cəmi bir neçə il ərzində cəmiyyətdə hərc-mərcliyə son qoyub daxili sabitliyi bərpa etməyə və ölkəni davamlı inkişaf yoluna çıxarmağa nail oldu. Çox keçmədi ki, karbohidrogenlərlə zəngin Azərbaycan beynəlxalq inkişaf layihələrinin təşəbbüskarı və icraçısı kimi çıxış etməyə başladı. 1994-cü ildə aparıcı xarici neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasının yolunu açdı. Ardınca Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz yataqlarının istismarı haqqında xarici tərəfdaşlarla çoxsaylı müqavilələr bağlandı, dövlətimizin beynəlxalq iqtisadi münasibətlər sistemində çəkisi artdı.

Öz növbəsində Prezident İlham Əliyev dövlət siyasətində varisliyə sadiq qalaraq düşünülmüş daxili və xarici siyasət xəttini uğurla davam etdirdi. Ötən 16 il ərzində dövlət başçısı bu xətdən bir addım belə kənara çıxmadı, qarşıya qoyulmuş sabit inkişaf strategiyasını reallaşdırmaq naminə səylərini əsirgəmədi.

Bir vaxtlar dünyada tanınmayan Azərbaycan indi beynəlxalq aləmdə layiqli yer tutur. İlk növbədə milli neft strategiyasının ardıcıl olaraq reallaşdırılması sayəsində Azərbaycan dünya iqtisadiyyatına sıx inteqrasiya olmuşdur.

Ölkəmizin yerləşdiyi Cənubi Qafqaz-Xəzər regionu planetdə strateji mövqeyi ilə diqqəti cəlb edir. Lakin bu yalnız dünyanın siyasi xəritəsində belədir. Real həyatda isə vəziyyət tamamilə fərqlidir: supergüclər və regional aktorlar bu regionda mövqelərini möhkəmlətməyə çalışır, məqsədlərinə nail olmaq üçün hər cür vasitələrə əl atır, burada qovşaq rolu oynayan Azərbaycan isə həmişə risklərlə qarşı-qarşıya qalır. Odur ki, belə bir mürəkkəb regionda müstəqil siyasət yürütmək elə də asan deyil və dövlət rəhbərliyindən xüsusi məharət tələb edir. Azərbaycan Respublikasının Prezidenti siyasi məharəti ilə milli müstəqilliyə qənim kəsilmiş xarici qüvvələrin istəklərini puç edir. Müasir Azərbaycan böyük tarixlə müqayisədə qısa zaman kəsiyində beynəlxalq aləmdə etibarlı tərəfdaş imicinin sahibi olmuş və nəticə etibarilə dünya adlı ailədə layiqli yer tutmuşdur. Bu gün ölkəmizin beynəlxalq aləmdə çəkisi mütəmadi olaraq artır.

Hər bir dövlət kimi, Azərbaycan da təcavüzkar Ermənistan istisna olmaqla bütün qonşu ölkələrlə mehriban münasibətlər yaratmağa xüsusi əhəmiyyət verir. Özü də dövlətimiz bu işdə təşəbbüskar kimi irəli çıxır. Regional iqtisadi inkişaf naminə həm ikitərəfli formatda, həm də üçtərəfli və hətta dördtərəfli formatda qonşuluq əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Azərbaycanın Türkiyə, İran, Rusiya, Gürcüstan və Türkmənistanla çoxtərəfli formatda əməkdaşlığı bəhrəsini verir, mehriban qonşuluq münasibətində olan ölkələrin inkişafına əhəmiyyətli töhfə verir. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında qovşaq kimi fəal iştirak edir. Bu gün sözügedən nəqliyyat dəhlizlərində 10-dan çox ölkə əməkdaşlıq edir. Yalnız bir ölkə - Azərbaycan hər iki layihədə iştirak edir. Coğrafi mövqedən səmərəli istifadənin nəticəsidir ki, Azərbaycan artıq Avrasiyanın nəqliyyat mərkəzinə çevrilmişdir.

Lakin Azərbaycan təkcə qonşularla əməkdaşlığı genişlətməklə kifayətlənmir. Dövlətimiz uzaq ölkələrlə də müxtəlif sahələrdə əlaqələri inkişaf etdirməyi hədəfləyir. Bu baxımdan Avropa ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Köhnə dünya ilə işbirliyində aparıcı istiqamət energetikadır. Azərbaycan zəngin təbii qaz yataqlarını istismar edib dünya bazarına mavi yanacaq nəql etməkdə maraqlı idi, potensial alıcı isə Avropa İttifaqı (Aİ) idi, çünki Aİ enerji təhlükəsizliyini təmin etmək üçün alternativ yollar axtarırdı. Bu məqsədlə tammiqyaslı "Cənub qaz dəhlizi" layihəsini reallaşdırmaq məsələsi gündəliyə gəlmişdi. Əvvəllər Azərbaycan bu dəhliz vasitəsilə yalnız Gürcüstan və Türkiyəni qazla təchiz edirdi. 2014-cü il sentyabrın 20-də isə tammiqyaslı dəhlizin təməli qoyuldu.

Özü də "Cənub qaz dəhlizi" adi layihə deyil. "Əsrin müqaviləsi" XX əsrin layihəsi olduğu kimi, "Cənub qaz dəhlizi" də XXI yüzilliyin layihəsidir. Yeni layihəyə 45 milyard dollar investisiya qoymaq nəzərdə tutulmuşdur. Boru kəməri sistemi 3600 kilometrlik məsafə qət edərək Xəzər dənizini Avropanın mərkəzi ilə birləşdirəcək. İndiyədək Azərbaycanın neft-qaz layihələrində cəmi üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə iştirak edirdi. Bundan sonra isə iştirakçı ölkələr çox olacaq, cənub-şərqi Avropanın bir çox ölkələri - Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, perspektivdə isə Monteneqro, Bosniya, Xorvatiya və başqaları Xəzərdə başlamış əməkdaşlıq prosesinə qoşulacaq. Yeni qaz kəmərinin inşası Xəzər, Qara dəniz və Aralıq dənizi hövzələrinin ölkələri üçün yeni imkanlar yaradacaq, geniş bir coğrafiyada regional iqtisadi inkişafa böyük töhfə verəcək. Bununla bərabər, "Cənub qaz dəhlizi" gələcəkdə Yaxın Şərqin təbii qaz hasil edən ölkələrinin Avropa bazarına çıxmasına şərait yaradacaq. Artıq tammiqyaslı "Cənub qaz dəhlizi" layihəsinin reallaşdırılması başa çatmaq üzrədir. Layihənin əsas hissəsi - Türkiyə ərazisindən keçən Trans-Anadolu Təbii Qaz Boru Kəməri artıq hazırdır. Layihənin son komponentinin - Trans-Adriatik Boru Kəmərinin inşasının gələn il başa çatacağı gözlənilir.

Belə bir məqamı da vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin xarici siyasəti prinsipiallığı ilə seçilir. Təkcə bir faktı xatırlatmaq kifayətdir. Azərbaycan regional əməkdaşlığı dərinləşdirmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini reallaşdırmaq təklifini irəli sürəndə rəsmi Bakıya təzyiq artmağa başladı. Dəmiryolu xəttinin inşası 2005-ci ildə başlamalı idi. O vaxt ABŞ və Aİ yeni dəmir yolunun Ermənistandan kənar keçdiyinə görə layihəyə qarşı çıxıb layihəni maliyyələşdirməkdən imtina etdilər. Onlar Bakı-Tbilisi-Qars dəmir yolunun inşası əvəzinə, Qars-Gümrü-Tbilisi dəmir yolu xəttini açmağı tələb edirdilər. Lakin bu tələb Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsi üzündən rədd edildi və Azərbaycan tərəfi layihənin maliyyələşdirilməsini öz üzərinə götürdü. Bu məqsədlə Azərbaycan Gürcüstana güzəştli şərtlərlə 220 milyon dollar kredit verdi. 2007-ci ildə təməli qoyulmuş layihənin icrası 10 il çəkdi. Ləngiməyə səbəb 2008-ci il Rusiya-Gürcüstan müharibəsi və qlobal maliyyə böhranı idi. İki il əvvəl işə düşmüş Bakı-Tbilisi-Qars marşrutu ilə yük daşımalarının həcmi ildən-ilə artır. Gələn il bu marşrutla sərnişin daşınması başlayacaq.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə münasibətdə də Prezident İlham Əliyevin mövqeyi prinsipialdır. Dövlət başçısı dəfələrlə bəyan etmişdir ki. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, münaqişənin həlli yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Problemin nizama salınması üçün yetərli hüquqi baza yaranmışdır. Bu, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının və digər təşkilatların qəbul etdiyi qərar və qətnamələrdir. Aİ ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi müstəqil Azərbaycan heç kimdən asılı olmayan xarici siyasət yürüdür, başqa ölkələrlə əlaqələrində ədalətə və beynəlxalq hüquqa əsaslanır. Bunun nəticəsidir ki, dövlətimiz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə layiqli töhfə vermiş və beynəlxalq siyasi həyatın fəal iştirakçısı kimi prinsipial mövqe nümayiş etdirmişdir. İndi ölkəmiz iki beynəlxalq təşkilata - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına sədrlik edir.

Bu gün Azərbaycan Respublikası tarixin son dərəcə mürəkkəb mərhələsində müstəqil xarici siyasətini uğurla həyata keçirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik".

Azərbaycan. - 2019.- 25 dekabr. - № 287. - S. 8.

Müstəqil, qürurlu dövlətin qətiyyətli lideri

Ceyhun Məmmədov,
Azərbaycan İlahiyyat İnstitutunun rektoru

2019-cu il Azərbaycan tarixində bir çox mühüm və əlamətdar hadisələrlə yadda qaldı. İslahatlar dalğası bir çox sahələri əhatə etdi, Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu, dövlət müstəqilliyini möhkəmləndirdi, beynəlxalq aləmdə nüfuzunu daha da artırdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həm ölkə daxilində, həm də xaricində keçirilən tədbirlərdəki çıxışlarında ölkəmizin bugünü və gələcəyi ilə bağlı bir çox vacib məqamlara toxundu, cəmiyyətə mesajlar verdi.

Bu çıxışlar sırasında Prezident İlham Əliyevin 26 noyabr 2019-cu il tarixində Bakı Konqres Mərkəzində Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubiley mərasiminin keçirildiyi tədbirdəki tarixi nitqi xüsusi yer tutur. Prezident İlham Əliyev bu mərasimdəki çıxışında Azərbaycanın müasir dövrü, gələcəyi, milli-mənəvi dəyərlərimiz, elm və təhsil, xarici təhdidlərlə bağlı bir çox vacib məsələyə geniş toxundu, açıq fikirlərini bildirdi.

Sözügedən çıxış cəmiyyətdə böyük əks-səda doğurduğundan bugünədək onun ətrafında geniş müzakirələr aparılır və gələcəkdə də aparılacaq. Prezident İlham Əliyevin nitqində ölkəmizin tarixin müxtəlif mərhələlərində qarşılaşdığı çətinliklərdən və gənclərimizin müasir dövrdə üzləşdiyi təhdidlərdən geniş bəhs olundu, bunlardan çıxış yolları göstərildi, eləcə də dəyərli tövsiyələr verildi.

Prezident öz çıxışına Bakı Dövlət Universitetinin yaranma tarixindən, bu addımı atmaqla Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısında böyük xidmət göstərdiyindən bəhs etməklə başladı. Bu, ümumilikdə cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, qısa müddətdə gördüyü böyük işlərə verdiyi yüksək dəyərin bariz göstəricisi idi.

Daha sonra savadsız cəmiyyətdə güclü dövlət qurmağın mümkün olmadığını bildirən cənab İlham Əliyev Bakı Dövlət Universitetinin yaranma tarixinə, üzləşdiyi çətinliklərə, eləcə də cəmiyyətə verdiyi faydalara faktlarla toxunaraq, 100 il ərzində universitetin 200 minə yaxın məzunu olduğunu, onların arasından görkəmli şəxslər, alimlər, ictimai-siyasi xadimlər, siyasətçilər, mütəxəssislər çıxdığını, bir çoxunun Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini verdiyini qeyd etdi.

Prezident həmçinin bildirdi ki, Azərbaycan xalqının fəxri olan Ümummilli Lider, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də məhz Bakı Dövlət Universitetinin məzunu olub. Heydər Əliyev həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik illərində xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərib. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridəqalmış sıralardan qabaqcıl yerlərədək yüksəldi. Sovet dönəmində Ulu Öndər 13 il ərzində Azərbaycana hər il "Keçici Qırmızı bayraq" qazandırdı; onun rəhbərliyi ilə vətənimiz böyük uğurlu yol qət etdi, 15 müttəfiq respublika arasında iki donor respublikadan biri oldu.

Universitetin fəxri olan Ümummilli Liderin tarixi xidmətlərinin yalnız təhsillə bağlı fəaliyyətindən bəhs edərkən Prezident qürurla bildirdi ki, Heydər Əliyev bu sahəyə daim böyük diqqət göstərirdi. Azərbaycan gənclərinin keçmiş Sovet İttifaqının aparıcı ali təhsil məktəblərində oxumaları üçün böyük zəhmət çəkib. Sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın gənc Bakıda imtahan verib keçmiş Sovetlər İttifaqının Moskva, Leninqrad (indiki Sankt-Peterburq - müəl.) və digər böyük şəhərlərindəki qabaqcıl ali məktəblərində təhsil almağa göndərilirdi.

Prezident həmçinin öz çıxışında qeyd etdi ki, Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. O vaxt azərbaycanlılar Sovet Ordusunda az təmsil olunduqlarından Heydər Əliyev çox istəyirdi ki, yerli hərbçilər yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqillik qazanacaq və bu kadrlar bizə lazım olacaq.

Dövlət başçısı daha sonra vurğuladı ki, gənclərin və tələbələrin məlumatlı olmaları, mənfi, yad təsirlərə uymamaları üçün ölkəmizin müstəqilliyəqədərki dövründə də, müstəqillik illərində də Heydər Əliyev daim xalqın yanında olmuşdur.

20 Yanvar faciəsi baş verdikdən dərhal sonra Ulu Öndərin atdığı addımlardan və bir sıra tarixi xidmətlərindən bəhs edən cənab İlham Əliyev bildirdi ki, lider daim xalqın yanında olmalıdır - necə ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Prezident Ümummilli Lideri gənclərə və gələcək nəsillərə nümunə olaraq göstərdi.

Prezident İlham Əliyev "Burada əyləşən gənclər tariximizi düzgün bilməlidirlər" deyərək Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə insanların saatlarla çörək növbəsində dayandıqlarını, əlisilahlı quldurların meydan suladıqlarını, şəhərlərimizdə insanların incidildiklərini, oğurlandıqlarını, işgəncələrə məruz qaldıqlarını, jurnalistlərin döyüldüklərini qeyd etdi. Özlərini "demokrat" adlandıran bu ünsürlərin qeyri-

insani hərəkətlərindən, onların dövlətə və dövlətçiliyə vurduğu ziyanlardan bəhs edərək, ləl-cəvahirat fondunun talanmasından, ölkənin böhran vəziyyətinə salınmasından danışdı.

Xalqımızın faciələrlə dolu tarixindən söhbət açan Prezident İlham Əliyev əsrlər boyu müstəmləkə vəziyyətində yaşadığımızı xatırlatdı. Həmçinin müstəqilliyimizi istəməyən xarici hərbi missionerlərin o vaxt qəbul edilmiş birinci Dövlət bayrağımızı dəyişdirməsindən, indiki üçrəngli bayrağın təsis edilməsindən, bugünümüzdən və ölkənin inkişaf dinamikliyindən bəhs etdi.

"Gənclər əsas qüvvədir və Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar" söyləyən cənab Prezident müəllimləri məsuliyyətli olmağa, tələbələrə biliklər öyrətməklə yanaşı onları tərbiyə etməyi də tövsiyə etdi. Bu sözlər Azərbaycan Prezidentinin gənclərə inam və etimadının növbəti göstəricisi idi. Bəli, Azərbaycan gəncləri vətənlərini sevirlər, ona bağlıdırlar. Eyni zamanda, onlar öz Prezidentlərinə sadiqdirlər, onun ətrafında sıx birləşiblər.

İlham Əliyev Azərbaycanda tərbiyə işinin yeni müstəviyə qalxmasının zəruriliyini xüsusi vurğuladı. İdeoloji işə yenidən baxılmasının vacibliyini diqqətə çəkən dövlət başçısı bu sahədə zəifliklər və boşluqlar olduğunu bildirdi. "Bizi istəməyən qüvvələr bu boşluqlardan istifadə edirlər" söyləyən cənab Prezident vurğuladı ki, hazırda azad internet şəbəkəsi mövcuddur. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-ni keçib. Prezident "Ölkəmizdə azad, demokratik cəmiyyət formalaşıb, azad media var. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik" ismarıcını verdi. Bu, cənab

İlham Əliyevin müəllimlərə öz işlərinə, gənclərə gələcəkləri ilə bağlı növbəti dəyərli tövsiyəsi idi. Bəli, Cənab Prezidentin də qeyd etdiyi kimi, azad internet şəbəkəsinin olması, müsbət tərəfləri ilə yanaşı, bu gün gənclərin beyinlərini zəhərləmək üçün düşmənlərin əlində ən güclü silahlardan birinə çevrilib. Gəncləri bu təhdidlərdən qorumaq üçün tərbiyə işini gücləndirməli, onlarla daha sıx işləməliyik.

Prezident İlham Əliyev daha sonra bildirdi: "Azərbaycan inkişaf edir. Dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər". Ali Baş Komandan mərasim iştirakçılarının nəzərinə qürurla çatdırdı ki, 155 ölkənin səsi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilib: "Özü də necə, 8 il bundan əvvəlki kimi səs topladıq. İndi diplomatlar yaxşı bilirlər ki, adətən səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi".

Prezident bugünün prioritet mövzusu olan Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən, Bakıda keçirilən Zirvə görüşündə 120 ölkənin ölkəmizə səs verməsindən, Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə "Valday" Diskussiya Klubunda iştirakından da danışdı. Mərasim iştirakçılarına bütün dünyaya verdiyi "Qarabağ Azərbaycandır, nida işarəsi" mesajını xatırlatdı.

Daha sonra MDB Zirvə görüşündə iştirakından söhbət açan ölkə rəhbəri dedi ki, MDB məkanında faşistlərə abidə ucaldılmasına yol verə bilmərik. Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir.

Njdenin cinayətkar əməllərindən, casusluğundan, necə həbs olunduğundan və həbsxanada çürüməsindən tarixi faktlarla danışan dövlət başçısı belə bir caniyə heykəl qoyulmasının yolverilməzliyini vurğuladı.

Prezident daha sonra qeyd etdi ki, Ermənistanda hakimiyyət dəyişsə də, ölkənin faşist mahiyyəti dəyişməyib. Bu faşist mahiyyəti bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrətə gedib çıxır. Onlar uşaqlarını da bu ruhda tərbiyə edirlər.

Müsəlman ölkələrinin Ermənistan rəhbərləri ilə münasibətlərindən təəccübünü bildirən Prezident İlham Əliyev nitqini bu notlarla davam etdirdi:

- Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə islam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Bu, Cənab Prezidentin müsəlman ölkələrinin xalqlarına və rəhbərlərinə ermənilərin faşist mahiyyətini açan növbəti mesajı və çağırışı idi.

Prezident İlham Əliyev 2019-cu ildə ölkəmiz üçün əlamətdar olan digər bir tədbirdən də söhbət açdı. Azərbaycan artıq bir çox sahədə olduğu kimi, dinlər və mədəniyyətlərarası dialoqa da mühüm töhfələr verir. Bunu bir çox böyük dünya ölkələri də etiraf və qəbul edirlər. İlham Əliyev qeyd etdi ki, noyabr ayında paytaxtımızda Dünya dini liderlərinin II Bakı Sammiti keçirilmişdir, 70 ölkənin dini lideri Bakıya gəlmişdir. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur:

- Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölübdür, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, "Stop İslam" deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik, - mən Avropa ölkələrini nəzərdə tuturam, - ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasət yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük. Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik.

Bəli, bu gün hətta inkişaf etmiş bir sıra Avropa ölkələrində digər mədəniyyətlərə dözümsüzlük, ksenofobiya və islamofobiya hallarının artdığı bir dövrdə dünyanın ayrı-ayrı ölkələrindən müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələrinin ölkəmizdə bir araya gəlməsi multikulturalizmin ölmədiyini, birgə əməkdaşlığın və qarşılıqlı anlaşmanın mümkün olduğunu, bu işdə Azərbaycanın böyük rol oynadığını və ölkəmizin öz töhfəsini verdiyini göstərir.

Azərbaycanda iqtisadiyyatın inkişafından, kadr islahatlarından, gender bərabərliyindən mərasim iştirakçılarına konkret faktlarla söhbət açan Prezident sanki xalqının ziyalı zümrəsinə ölkə haqqında hesabat verir, dünyada cərəyan edən mürəkkəb prosesləri təhlil etməklə yanaşı, bu problemlərdən xilas və çıxış yollarını da göstərirdi.

On minlərlə mütəxəssis yetişdirən müəllim peşəsindən qürurla danışan dövlət başçısı özünün də əmək fəaliyyətinə müəllim kimi başladığını, bu işin şərəfli və məsuliyyətli olduğunu vurğuladı. Xoş bir təbəssümlə "Mən də müəllim olmuşam, müəllim kimi sizi salamlayıram" söylədi. Bu, Prezident İlham Əliyevin müəllimlik peşəsinə, təhsilə və elmə verdiyi önəmin və dəyərin növbəti göstəricisi idi.

Respublika Prezidentinin çıxışında diqqətçəkən məqamlardan biri də tələbələrə səslənərək onlara bilikli olmağı, diplom üçün yox, savad, elm kəsb etmək üçün oxumağı tövsiyə etməsi oldu. Həmçinin biliyin, savadın tələbələrin təminatlı gələcəyini müəyyənləşdirən amil olduğunu xatırladaraq, gəncləri vətənpərvər olmağa, Vətəni sevməyə səslədi.

Ölkə rəhbəri tarixi nitqini məhz bu sözlərlə yekunlaşdırdı:

- Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin. Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir. Bir daha sizi təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram.

Prezident İlham Əliyevin tarixi çıxışı, irəli sürdüyü tezislər bu gün ali təhsil müəssisələri, o cümlədən Azərbaycan İlahiyyat İnstitutu qarşısında konkret vəzifə və tapşırıqlar müəyyənləşdirir. Hazırda Azərbaycan İlahiyyat İnstitutu bu vəzifələri uğurla yerinə yetirmək, vətənə və dövlətə bağlı, milli ruhda kadrlar yetişdirmək üçün bütün gücü ilə fəaliyyət göstərir.

İnanırıq ki, Prezident İlham Əliyevin möhkəm iradəsi, uzaqgörənliyi və həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan daha da inkişaf edəcək və daha böyük uğurlara imza atacaqdır.

Azərbaycan. - 2019.- 25 dekabr. - № 287. - S. 7.

Əbədi müstəqillik üçün mədəniyyət

Əbülfəs Qarayev,
Azərbaycan Respublikasının Mədəniyyət naziri

"Mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Gənc nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikirləri 2019-cu il mart ayının 1-də ölkəmizin mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə səsləndirdi. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirak etdiyi bu tarixi görüş Azərbaycan dövlətinin mədəniyyətimizə gerçək münasibətini ortaya qoymaqla yanaşı, bu sahənin inkişafında yeni üfüqlərin açılmasına vəsilə oldu.

Həmin görüşdə qaldırılan məsələlərin, demək olar ki, hamısı müsbət həllini tapdı. Dövlət başçısı görüş zamanı bir sıra tapşırıqlar verdi, sonrakı günlərdə isə müvafiq sərəncamlar imzaladı. Dövlət Musiqili və Dövlət Rus Dram teatrlarına "akademik" statusun verilməsi, Azərbaycan teatrlarının və Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında, eləcə də teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, altı yaradıcılıq ittifaqına vəsaitin ayrılması, Tovuz rayonunda Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasında tikinti işlərinin başa çatdırılması ilə bağlı sərəncamlar ölkə Prezidentinin mədəniyyətimizin inkişafına, mədəni irsimizə diqqət və qayğısının daha bir nümunəsi idi.

Mədəniyyətimizə göstərilən bu cür diqqət və qayğı zəngin tarixi olan ənənənin davamıdır. Azərbaycan mədəniyyətinin son yarım əsrdəki inkişafına nəzər salsaq, bunu bariz şəkildə görə bilərik.

Bu bir gerçəkdir ki, mədəniyyətimizin sistemli inkişafı, beynəlxalq aləmdə tanınması onun böyük himayədarı, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin respublikaya rəhbərlik etdiyi ötən əsrin 70-ci illərindən başlayaraq, ölkə həyatının bütün sahələri kimi, mədəniyyətimiz də özünün intibah dövrünü yaşamışdır. Paytaxtdan ucqarlaradək kinoteatr, klub, mədəniyyət evi, kitabxana və muzeylərin inşa edilməsi, kino, musiqi, teatr, rəssamlıq, memarlıq, heykəltəraşlıq və digər sahələrdə əldə edilən nailiyyətlər həmin dövrdə mədəniyyətimizin inkişafının parlaq örnəkləridir.

Dahi siyasətçi müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də bu sahəyə qayğısını əsirgəmədi. Ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində ölkəmizdə yaşanan qorxunc hadisələr, ictimai-siyasi böhran mədəniyyət sahəsinə də mənfi təsir göstərmişdi. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycan mədəniyyətinə də yeni nəfəs gəldi. Sonrakı 10 il müddətində sənətə və sənətkara diqqət artdı, görkəmli mədəniyyət xadimlərinin fəxri adlara, Prezident təqaüdünə, müxtəlif mükafatlara layiq görülməsi, dünyasını dəyişən şəxsiyyətlərin yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, ev-muzeylərinin yaradılması, bir sözlə, Azərbaycan mədəniyyətinin inkişafı naminə çox mühüm qərarlar qəbul edildi.

Ulu Öndərin zəngin dühası ilə əsasını qoyduğu uğurlu inkişaf strategiyası 2003-cü ildən yeni parlaq üfüqlərə doğru yol aldı. Ümummilli Liderin dövlətçilik kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə arxada qoyduğumuz 16 ildə ölkəmiz dinamik inkişaf dövrünü yaşayıb. Bu tərəqqi mədəniyyət sahəsində də yeni layihələrin, dövlət proqramlarının həyata keçirilməsi, müasir maddi-texniki bazanın, infrastrukturun yaradılması, yaradıcı fəaliyyətə stimul verilməsində özünü göstərir. Ötən dövrün mədəniyyət salnaməsini vərəqləyəndə qürur hissi keçirməyə bilmirik. Mədəniyyət obyektlərinin, ilk növbədə, kütləvi nümayiş məkanları olan teatr və muzeylərin yüksək səviyyədə təmir-bərpası, ölkənin müasir inkişafını təcəssüm etdirən yeni mədəniyyət ocaqlarının yaradılması bu sahəyə göstərilən yüksək diqqət və qayğıdan xəbər verir.

Bu illər ərzində Prezident İlham Əliyev tərəfindən mədəniyyət sahəsi ilə bağlı 650-dən çox fərman və sərəncam imzalanıb. Dövlət başçısının sərəncamları ilə təsdiq olunan proqram sənədlərdən bir qismi ("Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı", "Azərbaycan kinosu 2008-2018-ci illərdə", "Azərbaycan teatrı 2009-2019-cu illərdə") icra olunub, "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı: 2014-2020" və s. proqram və layihələrin reallaşdırılması davam etdirilir.

Müasir dövrdə mədəni irs, incəsənət xalqları, ölkələri tanıdan, insanları birləşdirən əhəmiyyətli vasitələrdən hesab olunur. Xalqımızın qədim və zəngin mədəniyyəti ölkəmizdən çox-çox uzaqlarda uğurla təqdim və təbliğ olunur. Bu xüsusda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, mədəni irsimizin himayədarı Mehriban Əliyevanın müstəsna xidmətlərini qeyd etmək lazımdır. Mehriban xanımın 2004-cü ildə UNESKO-nun xoşməramlı səfiri adına layiq görülməsi Azərbaycanın zəngin maddi və qeyri-maddi mədəni irs nümunələrinin dünyada tanıdılmasında mühüm rol oynadı. Azərbaycan muğam sənəti ilk olaraq UNESKO tərəfindən bəşəriyyətin mədəni irs xəzinəsinə daxil edildi. 2009-cu ildə Azərbaycanın aşıq sənəti və ölkəmizin yaxından iştirakı ilə beynəlxalq nominasiya kimi təqdim olunan Novruz bayramı, 2010-cu ildə xalça

sənətimiz, 2012-ci ildə tar ifaçılığı, 2013-cü ildə Qarabağ atları üzərində çövkən milli oyunu, 2014-cü ildə kəlağayı sənəti, 2015-ci ildə Lahıc misgərlik sənəti, 2016-cı ildə ölkəmizin Türkiyə, İran, Qazaxıstan və Qırğızıstanla birgə təqdim etdiyi lavaş - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti UNESKO-nun siyahılarında yer alıb. Həmçinin 2017-ci ildə milli mətbəximizin nümunəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi, kamança musiqi alətinin hazırlanması və ifaçılıq sənəti, 2018-ci ildə "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" və Azərbaycanın Türkiyə və Qazaxıstanla birgə təqdim etdiyi "Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" nominasiya faylları da təşkilatın müvafiq siyahılarına salınaraq bəşəri status qazanıb. Bundan əlavə, ötən illərdə Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhər, Qobustan qayaüstü rəsmləri UNESKO-nun dünya İrs Siyahısına daxil edilib. 2019-cu ilin iyulunda - UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında isə Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) bu mötəbər siyahıya salındı. Bütün bunlar mədəni irsimiz və ölkəmiz adına mühüm önəm kəsb edən, əlamətdar hadisələrdir. Mədəni irsimizi dünyaya tanıdan bu böyük işlər Azərbaycanın birinci xanımının dəstəyi, rəhbərliyi, Mədəniyyət Nazirliyi və digər qurumların birgə əməkdaşlığı ilə gerçəkləşib. Bu həm də Azərbaycanın beynəlxalq arenada artan nüfuzunun, ölkəmizə göstərilən yüksək etimadın örnəkləridir.

Azərbaycanın müasir inkişafından pay alan mədəniyyət sahələrindən biri də teatrdır. Köklü ənənələrə malik olan, bu il 147-ci mövsümünü yaşayan peşəkar milli teatrımız zəngin inkişaf yolu keçib. Teatrlarımızın maddi-texniki baxımdan inkişafı ilə yanaşı, bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində də mühüm addımlar atılıb. MDB məkanında ilk dəfə ölkəmizdə "Teatr və teatr fəaliyyəti haqqında" qanun (2007), habelə "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı qəbul edilib. Prezidentin müvafiq sərəncamları ilə paytaxtdakı beş teatrın (Kukla, Rus Dram, Gənc Tamaşaçılar, Milli Dram, Musiqili teatrlar), eləcə də Mingəçevir, Füzuli, Ağdam, Şəki, Sumqayıt dram, Gəncə kukla teatrlarının binaları əsaslı şəkildə təmir-bərpa olunub, İrəvan və Pantomima teatrlarına binalar verilib. Şuşa Dövlət Musiqili Dram Teatrı bu mövsümdən paytaxtımızda yeni binada qapılarını tamaşaçılarının üzünə açıb.

Teatrların maddi-texniki bazasının yaxşılaşdırılması yaradıcı fəaliyyətə də öz müsbət təsirini göstərir. Bu illər ərzində teatr kollektivləri 30-dan çox ölkədə qastrol səfərlərində olub, onlarca beynəlxalq festivala qatılıb. Ölkəmiz teatrla bağlı beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir, dünya teatr sənətinin problemləri Azərbaycan paytaxtında müzakirə olunur. 2010-cu ildə əsası qoyulan Bakı Beynəlxalq Teatr Konfransı ötən müddətdə həm ölkəmizdə keçirilən beynəlxalq mədəniyyət tədbirləri sırasında, həmçinin beynəlxalq teatr təşkilatlarının fəaliyyət təqvimində özünə mühüm yer qazanıb.

Bu illərdə ölkəmizdə teatr sahəsində digər beynəlxalq tədbirlər də gerçəkləşib. Bakı Beynəlxalq Kukla Teatrları Festivalı (2011, 2013), Şəki Beynəlxalq Teatr Festivalı (2014, 2016, 2018) ölkəmizin dünya teatr aləminə inteqrasiyasının nümunələridir. 2019-cu ilin iyununda Lənkəranda Beynəlxalq Teatr Festivalının əsası qoyulub. Bundan əlavə, teatrlarımızın peşəkarlığını artırmaq məqsədilə respublika miqyaslı festivallar da təşkil olunur.

Son on altı ilin mədəniyyət salnaməsinə nəzər yetirəndə ölkəmizdə musiqi sahəsinin yüksəliş dövrünü yaşadığını əminliklə söyləyə bilərik. Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycan musiqisinin inkişafına və təbliğinə misilsiz töhfələr verir. 2009-cu ildə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə əsası qoyulan "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı və Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təkcə musiqimizin deyil, ümumilikdə ölkəmizin dünya miqyasında təbliğinə xidmət edən mühüm mədəniyyət layihələridir. Eyni zamanda ənənəvi olaraq keçirilən Bakı Caz Festivalı, Rostropoviç Musiqi Festivalı, "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı, Qara Qarayev Müasir Musiqi Festivalı, Vokalçıların Bülbül adına Beynəlxalq Müsabiqəsi, Qəmər Almaszadə adına Beynəlxalq Rəqs Müsabiqəsi müxtəlif ölkələrdən tanınmış ifaçıları bir araya gətirərək dünya musiqi xəritəsində Azərbaycanın yerini daha da möhkəmləndirir. Musiqi sənətimiz dünya səhnələrini fəth edir, ifaçılarımız yüzlərlə sənət yarışmasında uğur qazanırlar.

Azərbaycan musiqisinin inkişafına töhfə verən iri mədəniyyət ocaqlarının yaradılması paytaxtla yanaşı, bölgələrimizi də əhatə edir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzuli rayonunda muğam mərkəzləri tikilib istifadəyə verilib. 2017-ci ildə musiqi sahəsində əlamətdar hadisələrdən biri respublikanın ikinci böyük şəhərində - Gəncədə möhtəşəm filarmoniya binasının açılışı olub. 2018-ci ildə Ağdamda (Quzanlı qəsəbəsi), bu il isə Sumqayıt şəhərində muğam mərkəzləri bu sənəti yaşadanların ixtiyarına verilib. Musiqi sahəsinə dövlət qayğısı yaradılan infrastrukturla bitmir. İstedadlı gənc musiqiçilərimiz Prezident təqaüdünə layiq görülür, xaricdə dövlət hesabına təhsil alırlar. Fitri istedadı ilə seçilən heç bir gəncimiz ölkə rəhbərliyinin diqqətindən kənarda qalmır. Onlarca gənc musiqiçi adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ına yazılmaqla, Prezidentin xüsusi təqaüdünə layiq görülür.

Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk dövrlərdə milli-mənəvi dəyərlərə söykənən və müasir çağırışlara cavab verən mütərəqqi ideyaları yaşadıb inkişaf etdirəcəyini vurğulamışdı. Dövlət başçısı bütün fəaliyyətində qeyd olunan bu sahələrin inkişafını daim diqqət mərkəzində saxlayıb, öz qayğısını əsirgəməyib.

Ölkənin bütün regionlarını, cəmiyyət həyatının hər bir sahəsini əhatə edən islahat real nəticələr verə bilər. Məmnunluq doğuran haldır ki, son on altı ildə ölkəmizdə aparılan islahatlar paytaxt və digər böyük şəhərlərlə məhdudlaşmayaraq ən ucqar bölgələrimizi də əhatə edib. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası yerlərdə mədəni həyata da mühüm və müsbət təsir göstərib. Dövlət başçısının bölgələrimizə hər səfəri müasir mədəniyyət ocaqlarının açılışı ilə də yadda qalır. Regionların mədəniyyət infrastrukturunun yenilənməsi ilə bərabər, tarixi-mədəni abidələrimiz də təmir-bərpa olunur.

Dövlət başçısının mədəni irsə, eləcə də bölgələrimizin mədəni inkişafına diqqət və qayğısı bu sahədə mühüm layihələrə zəmin yaradır. Mədəniyyət Nazirliyi tərəfindən bu istiqamətdə qabaqcıl dünya təcrübəsi də nəzərə alınaraq müxtəlif proqramlar, layihələr icra olunur, festivallar keçirilir. "Xalq yaradıcılığı paytaxtları" proqramı (2010-2014), "Ədəbiyyat paytaxtı" və "Milli mətbəx paytaxtı" (2015), "Bölgələrdən paytaxta" (2016-2017) layihələri bu qəbildəndir. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə daha bir layihənin - "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının əsası qoyuldu. Cari ildə ikinci dəfə keçirilən bu festival şəhər və rayonlarımızın mədəni irsinin təbliğinə daha bir töhfədir.

Bu illərdə bir sıra regional layihələr geniş miqyas qazanaraq beynəlxalq tədbirlərə çevrilib. Masallıda folklor, Qəbələdə mürəbbə, Şəkidə şirniyyat festivalları buna nümunədir. Milli mətbəxlə bağlı digər festivallarda (dolma, plov) da müxtəlif ölkələr təmsil olunur. Belə festivalların sırasına Gədəbəydə təşkil olunan Milli Yaylaq Festivalı da qoşulub. Sevindirici haldır ki, bəzi bölgələrimiz beynəlxalq təşkilatlar formatında "Mədəniyyət paytaxtı" adını qazanır. 2013-cü ildə Qəbələnin "MDB-nin mədəniyyət paytaxtı", 2016-cı ildə Şəkinin "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi regionlarımızın mədəni irsinin tanıdılmasına əlavə imkanlar açdı. 2017-ci ildə Şəki şəhəri, bu il isə Bakı UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilib.

Mədəniyyət Nazirliyi tərəfindən "Azərbaycan - doğma diyar" devizi altında keçirilən (2006, 2008, 2011, 2014, 2016) milli azlıqların incəsənət festivalları ölkəmizdəki mədəni müxtəlifliyi nümayiş etdirir. Ölkə Prezidenti tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması yurdumuzun mədəni zənginliyini, tolerantlıq mühitini dünyaya bəyan etməklə yanaşı, bu xüsusda yeni mədəni təşəbbüslərə də mühüm zəmin yaradır.

Ölkəmizdə tarixi-mədəni irsin qorunub saxlanılmasına xüsusi qayğı göstərilir. Prezidentin sərəncamları ilə 2007-ci ildə Qobustan Dövlət Tarix-Bədii Qoruğuna "Milli Qoruq" statusu verilib, Abşeron rayonunda "Yanardağ", Ağstafada "Keşikçidağ", Suraxanı rayonunda "Atəşgah məbədi", Qubada "Xınalıq" tarix-mədəniyyət, tarix-memarlıq və etnoqrafiya qoruqları təşkil edilib. Dövlət başçısının fərmanı ilə yaradılan Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti bu istiqamətdə kompleks işlər həyata keçirir.

Paytaxtda və bölgələrdə muzeylərin inkişafı da dövlət başçısının diqqət mərkəzindədir. Tarix-diyarşünaslıq muzeyləri ilə yanaşı, yerlərdə yaradılan Heydər Əliyev mərkəzlərinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasına böyük önəm verilir. Qobustan Dövlət Tarix-Bədii Qoruğunun yeni muzey kompleksi, Qız qalasında yaradılan ekspozisiya müasir texnologiyaların uğurlu tətbiqinin nəticəsidir. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində işlər davam etdirilir. Mədəniyyət Nazirliyinin Avropa İttifaqının dəstəyi və İtaliyanın müvafiq sahə üzrə nazirliyinin iştirakı ilə həyata keçirdiyi Tvinninq layihəsi çərçivəsində ötən il İtaliyaya təlim səfərləri, Bakıda muzey işçiləri üçün treninqlər təşkil edilib.

Ötən dövrdə ölkəmizdə kitab və nəşriyyat işi sahəsində mühüm nailiyyətlər əldə olunub. Azərbaycan kitablarının sorağı dünyanın nüfuzlu beynəlxalq sərgilərindən gəlir, nəşrlərimiz beynəlxalq müsabiqələrdə müxtəlif mükafatlara layiq görülür. 2009-cu ildən etibarən Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakıda ənənəvi (iki ildən bir) beynəlxalq kitab sərgi-yarmarkası keçirilir. Bu ilin sentyabrında 6-cı dəfə gerçəkləşən bu tədbir ölkə ictimaiyyətini dünyanın müasir kitab mədəniyyəti ilə tanış etməklə bərabər, Azərbaycanda nəşriyyat-poliqrafiya işinin inkişaf mənzərəsinin beynəlxalq səviyyədə təbliğinə xidmət edir.

Respublikamızda kitabxana-informasiya sahəsi dünyanın qabaqcıl ölkələri ilə müqayisə ediləcək səviyyədə yenidən qurulur. Azərbaycan Milli Kitabxana-İnformasiya Mərkəzinin (AZLİBNET), ölkə kitabxanalarını vahid məkanda birləşdirən Mərkəzləşdirilmiş Elektron Kitabxana Sisteminin (ALİSA) yaradılması bu sahədə inkişafın göstəricisidir. Nazirliyin dəstəyi ilə keçirilən Buktreyler festivalı kitab və mütaliənin təbliği baxımından diqqətəlayiq hadisədir. Hazırda ölkəmizdə bütün sahələrdə tətbiq olunan innovativ yeniliklər kitabxana-informasiya istiqamətini də əhatə edir. "Açıq kitabxana", "Book-kafe", "Səyyar kitabxana" xidmətləri insanların kitaba olan marağını artırmağa xidmət edən əhəmiyyətli layihələrdir.

Son on altı ildə zəngin mədəniyyət salnaməmizə parlaq səhifələr yazan Azərbaycan kinosu yeni inkişaf mərhələsini yaşayır. Ölkə rəhbəri tərəfindən "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsindən keçən müddət ərzində 50-dək tammetrajlı bədii, 50-dən çox qısametrajlı bədii, 200-dən çox sənədli, 20-dən artıq cizgi filmi çəkilib. Kinoda gənclərə geniş meydan verilib, 60-dan çox rejissor özünün ilk ekran əsərini çəkib. Son dövrdə çəkilən filmlərimiz 50-dək ölkədə beynəlxalq festivallarda iştirak edib, mükafatlara layiq görülüb.

"Azərbaycanfilm" kinostudiyasında, Bakı Media Mərkəzində milli tarixi yaddaşın bərpasına, Azərbaycanın ictimai-siyasi həyatına, görkəmli şəxsiyyətlərə həsr olunan qiymətli bədii və sənədli ekran əsərləri ərsəyə gətirilib. Bu qəbildən filmlərin ölkəmizlə yanaşı, xaricdə də təqdimatları keçirilir.

Kino irsinin qorunması, filmlərin nümayişi sahəsində də mühüm işlər görülür. 2009-cu ildə istifadəyə verilən Dövlət Film Fondunun binası texniki imkanlarına görə dünyada ən müasir kino-arxiv müəssisələrindən hesab olunur. Əsaslı yenidənqurmadan sonra 2011-ci ildə Bakıda Nizami Kino Mərkəzinin istifadəyə verilməsi ilə müasir səviyyəli kino prokatının əsası qoyulub. Dövlətin bu sahədə nümunə olan addımından sonra müasir tələblərə uyğun özəl kinoteatrlar şəbəkəsi inkişaf etməyə başlayıb.

Mədəniyyətimizin davamlı inkişafında ənənə və varisliyin qorunması əhəmiyyətli məsələdir. Bu sahədə kadr hazırlığı və müasir tədris sisteminin qurulması böyük önəm kəsb edir. Ötən illərdə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə bədii təhsil sahəsində də mühüm işlər görülüb. Paytaxtda və regionlarda onlarca musiqi və incəsənət məktəbinin yeni binaları inşa edilib, mövcud binalar əsaslı təmir olunub, maddi-texniki bazası yaxşılaşdırılıb. 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı Xoreoqrafiya Məktəbinin bazasında ümumtəhsil, orta ixtisas və ali təhsil pilləsində tədris verən Bakı Xoreoqrafiya Akademiyasının yaradılması milli xoreoqrafiya sənətinin inkişafına dövlət qayğısının bariz nümunəsidir.

Hazırda Mədəniyyət Nazirliyi sistemində 200-dən çox uşaq musiqi, incəsənət və rəssamlıq məktəbində müxtəlif ixtisaslar üzrə tədris aparılır. Təhsil ocaqlarında tədrisin keyfiyyətinin yüksəldilməsinə, istedadlı uşaq və gənclərin üzə çıxarılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə müxtəlif müsabiqələr təşkil olunur, şagird və tələbələrin yaradıcılığının stimullaşdırılması prioritet təşkil edir. Görkəmli incəsənət xadimlərimizin, eləcə də xaricdən dəvət olunmuş mütəxəssislərin ustad dərsləri təşkil olunur, müxtəlif sahələr üzrə təcrübə mübadiləsi aparılır.

Hər bir xalqın mədəni irsi onun ən gözəl təqdimatıdır. Prezident İlham Əliyevin respublikamıza rəhbərliyi dövründə bu sahəyə xüsusi diqqət yetirilib. Ötən illər ərzində mədəni irsimizin dünyada təbliği istiqamətində çox mühüm addımlar atılıb. Xalça ustası Lətif Kərimovun, Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının, "Arşın mal alan" operettasının, görkəmli yazıçı Mir Cəlal Paşayevin, Xalq rəssamı Səttar Bəhlulzadənin, Xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyləri, böyük mütəfəkkir Seyid Yəhya Bakuvinin vəfatının 550, şairə Məhsəti Gəncəvinin yaradıcılığının 900, "Kitabi-Dədə Qorqud" dastanının alman dilinə tərcüməsi və nəşrinin 200 illiyi UNESKO səviyyəsində qeyd edilib. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü, görkəmli şair Molla Pənah Vaqifin 300 illiyi UNESKO-nun 2017-ci il üzrə yubileylər proqramında yer alıb. 2018-ci ildə UNESKO-nun yubileylər proqramına dahi bəstəkar Qara Qarayevin 100 illiyi daxil edilib.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olunub və Azərbaycanın böyük şair və mütəfəkkirinin 650 illiyi silsilə tədbirlərlə qeyd edilir. Yubiley ili çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda layihələr həyata keçirilir, İmadəddin Nəsiminin əsərləri müxtəlif dillərə tərcümə edilərək nəşr olunur, yaradıcılığına dair tədqiqatlar aparılır, ömrünü vətəndən uzaqda başa vuran şairin həyatı ilə bağlı yeni məlumatlar üzə çıxarılır.

Bu il Nəsiminin yubileyi Parisdə - UNESKO-nun mənzil-qərargahında da qeyd olunub. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2018-ci ildə ölkəmizdə ilk dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı keçirilib. 2019-cu ildə ikinci dəfə Nəsimi festivalı təşkil edilib, müxtəlif ölkələrdən nümayəndələrin iştirakı ilə rəngarəng layihələr həyata keçirilib.

Ölkəmizdə qeyd edilən "Nəsimi ili" daha bir əlamətdar hadisə ilə yaddaşlara yazıldı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə mütəfəkkir şairin 650 illiyi münasibətilə 650 min ağac əkildi. Bu nəcib təşəbbüs böyük söz ustadının xatirəsinə ehtiram olmaqla yanaşı, həm də təbiətə sevgi və qayğı deməkdir.

Bu il də dövlət başçısının sərəncamları ilə Azərbaycan mədəniyyətinin, ədəbiyyatının inkişafında mühüm xidmətləri olan görkəmli şəxsiyyətlərin yubileyləri qeyd olundu. Cəlil Məmmədquluzadə və Əhməd bəy Ağaoğlunun 150, Məhəmməd Hadinin 140, Cəfər Cabbarlının 120, İsmayıl Şıxlı, Hüseyn İbrahimov, Soltan Hacıbəyov, Əminə Dilbazi, Tofiq Tağızadə və Hacıbaba Hüseynovun, eləcə də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileylərinin qeyd olunması ölkə rəhbərliyinin milli mədəni yaddaşa ehtiramın bariz nümunəsidir. 2020-ci ildə görkəmli yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi tamam olacaq. Ölkə Prezidenti bununla bağlı müvafiq sərəncam imzalayıb. Sevindirici haldır ki, böyük ədibimizin 150 illiyi, eyni zamanda UNESKO-nun 2020-ci il üçün yubileylər siyahısına da daxil edilib. Bu da təşkilat səviyyəsində Azərbaycan mədəniyyətinə böyük diqqət deməkdir.

Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmiz BMT, İslam Əməkdaşlıq Təşkilatı, UNESKO, Avropa Şurası, Avropa İttifaqı, ISESCO və başqa təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələri qurub. Bu əlaqələrin mühüm bir müstəvisini mədəniyyət təşkil edir. Bu gün Azərbaycan dünyada mədəniyyətlərarası, sivilizasiyalararası dialoq mərkəzidir. 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" regional təşəbbüsdən beynəlxalq platformaya çevrilib. Azərbaycan paytaxtı 2010-cu ildən Beynəlxalq Humanitar Foruma, 2011-ci ildən Dünya Mədəniyyətlərarası

Dialoq Forumuna evsahibliyi edir. 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçirilməsi Azərbaycanın dünyaya sülh mesajı oldu.

Təkcə bu il paytaxtımız dörd mühüm beynəlxalq tədbirə ev sahibliyi edib. V Dünya Mədəniyyətlərarası Dialoq Forumu, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü və Dünya dini liderlərinin II Sammitinin Bakıda keçirilməsi ölkəmizdəki tolerantlıq mühitindən xəbər verir. Xüsusilə Dünya Mədəniyyətlərarası Dialoq Forumu son 10 ildə beynəlxalq müstəvidə böyük nüfuz qazanıb. İki il əvvəl BMT-nin baş katibi və bu il BMT-nin Baş Assambleyası Mədəniyyətlərarası Dialoq Forumunu dünyanın ən əsas qlobal platformalarından biri elan edib. Sözsüz ki, bu istiqamətdə Azərbaycanda keçirilən beynəlxalq tədbirlər ölkəmizin mövqeyini daha da gücləndirir.

Mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, bu sahənin inkişafı onun effektiv, dövrün tələblərinə uyğun idarə edilməsindən bilavasitə asılıdır. Bu mühüm məqam ötən dövrdə cənab Prezidentin mədəniyyət sahəsində idarəçiliklə bağlı qəbul etdiyi qərarlarda, aparılan struktur islahatlarında öz əksini tapıb. 2006-cı ildə dövlət başçısının fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyi yaradılarkən qarşıya qoyulan vəzifələrdən biri mədəniyyətin inkişafı ilə bərabər mədəni irs, zəngin incəsənətimiz və qonaqpərvərlik ənənələrimizlə yeni təşəkkül tapan turizm sənayesinə də dəstək verilməsi idi. Sonrakı 12 ildə nazirlik həmin vəzifənin öhdəsindən gəldi, mədəniyyət sektoru milli turizm sənayesinin inkişaf etdirilməsində mühüm rol oynadı, bu istiqamətdə dünya təcrübəsinə əsaslanan layihələr həyata keçirildi.

Prezident İlham Əliyevin 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı ilə Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradıldı. Dövlət başçısının müvafiq fərmanı ilə Mədəniyyət Nazirliyinin Əsasnaməsi və strukturu, həmçinin nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Əsasnaməsi təsdiq edildi. Prezidentin 29 mart 2016-cı il sərəncamı ilə aparılan struktur islahatları nəticəsində nazirliyin Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və 15 regional idarəsi yaradılıb. Həyata keçirilmiş islahatlar mədəniyyət sahəsində daha çevik idarəçiliyin təmin olunması, mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılması məqsədi daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 16 ildir ölkəmiz dinamik və sürətli inkişaf dövrünü yaşayır. Göründüyü kimi, bu tərəqqi həm mədəniyyət sahəsində uzun illərdən bəri kök salmış uğurlu ənənələr əsasında, həm də müasir dövrün tələbləri kontekstində formalaşır.

Bu gün dövlət başçısının həyata keçirdiyi siyasət müasir modern dünyanın çağırışlarına adekvat siyasətdir. Azərbaycan dövlətinin çevik, uzaqgörən daxili və xarici siyasəti milli mədəni yaddaşa qayıdışa əsaslanmaqla mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı əlaqələrinə, düşünülmüş inteqrasiyaya hesablanıb. Bu inteqrasiyada Azərbaycanı dünyada tanıdan, onun nüfuzunu daha da yüksəldən mühüm amillərdən biri də ölkə rəhbərliyinin böyük diqqət və qayğısı ilə əhatə olunan mədəni-mənəvi sərvətimizdir.

Azərbaycan. - 2019.- 24 dekabr. - № 286. - S. 1,8.

Müstəqil dövlətimizi yeni zirvələrə aparan Lider

Tahir Qədəşov,
"Atlant" Ailəvi İstirahət və Əyləncə Mərkəzinin direktoru

Ümummilli lider Heydər Əliyev dərin zəkasını, şüurlu həyatını və böyük enerjisini xalqımızın xoşbəxtliyinə həsr etmişdir. Azərbaycan ikinci dəfə müstəqilliyini elan etdiyi ilk illərdə həm siyasi vəziyyət gərginləşmişdi, həm də əhalinin sosial durumu ağırlaşmışdı. Elə bu zaman ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq, xalqımızın səsinə səs vermək, ölkədə baş vermiş sosial-iqtisadi və siyasi tənəzzülü aradan qaldırmaq üçün Heydər Əliyev şəxsiyyətinə, onun bilik və bacarığına ehtiyac duyuldu. Birmənalı olaraq, Azərbaycanın 1990-cı illərdən sonrakı inkişafı ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi 15 iyun 1993-cü ildə Milli Qurtuluş Günündən başladı. Görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin böhranlı aylarında gerçəkləşdirdiyi xilaskarlıq missiyası müstəqillik aktı ilə, sadəcə, elan olunmuş yeni suveren respublikanı qoruyub saxlamaq və möhkəmləndirmək, sonrakı böyük gələcəyin zəruri təməllərini yaratmaq baxımından ölkənin taleyində çox önəmli rol oynamışdır.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi böyük strateji hədəfləri uğurla reallaşdıraraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizi daha da uca mərhələlərə çatdırmışdır. Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üzrə qazanılmış böyük nailiyyətlər ölkəmizin müstəqillik dövrü inkişafının İlham Əliyev zirvələri olaraq xalqımızı daim yeni qələbələrə doğru istiqamətləndirir.

Siyasi hakimiyyətə gəldiyi 2003-cü il müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin həyatında məsuliyyətli bir dövr idi. Bir tərəfdən, hakimiyyətdə dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin qazandığı böyük nüfuz qorunub saxlanmalı, digər tərəfdən isə Azərbaycanı bütün sahələrdə inkişafı davam etdirmək vəzifəsi həyata keçirilməli və beynəlxalq aləmdə mövqelər daha da möhkəmləndirilməli idi. Xüsusən, ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının cavan Prezidenti haqqındakı "Mən ona özüm qədər inanıram" bəyanı İlham Əliyevin əzmini daha da artırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərliyi dövründə böyük sınaqlardan çıxmış, xalqın ürəkdən inandığı və dəstəklədiyi əbədi lideri Heydər Əliyev yolunu öz fəaliyyətinin əsas strategiyası kimi qəbul etmək, siyasi hakimiyyətdə varisliyi diqqət mərkəzinə çəkmək və bu kursu yaradıcı şəkildə davam etdirməklə cəmiyyətin, demək olar ki, bütün təbəqələrinin yüksək etimadını qazanmışdır. Atılmış ilk addımlar Prezident İlham Əliyevin özünəqədərki müddətdə ölkə üzrə aparılmış islahatların yaradıcı şəkildə davam etdirilməsi, başlanmış bütün işlərin, icrada olan mühüm layihələrin uğurla həyata keçirilməsi və tamamlanması istiqamətindəki düşünülərək qətiyyətlə dəstəklənməsi demək idi. Prezident İlham Əliyevin tutduğu siyasi varislik yolunun nə qədər uzaqgörən bir mövqe olduğunu aydın surətdə dərk etmək mümkündür. Məhz həmin, ulu öndərin müəyyənləşdirdiyi strategiyanın nəticəsində, ilk növbədə, Azərbaycan Respublikasında əvvəlcədən başlanılmış böyük layihələr məqsədyönlü şəkildə davam etdirilir.

Dahi strateq Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" kimi dünyaya səs salmış beynəlxalq saziş nəticəsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin uğurla başa çatdırılması, istifadəyə verilməsi müstəqil Azərbaycan dövlətinin gələcək taleyində müstəsna dərəcədə mühüm rol oynamışdır. Bundan başqa, ölkə miqyasında başlanmış torpaq islahatlarının məqsədyönlü şəkildə tamamlanması və respublikada bazar iqtisadiyyatına əsaslanan yeni idarəetmə və təsərrüfat münasibətlərinin formalaşması da xalqımızı və ölkəmizi inkişafın böyük magistrallarına çıxarmağa uğurla xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mühüm və məsul vəzifələri siyasi hakimiyyətinin birinci 5 ili ərzində həyata keçirərək tamamlamış, müstəqil dövlətimizin dayaqlarını möhkəmləndirməyə nail olmuşdur. Bu mənada siyasi hakimiyyətin birinci beşilliyi İlham Əliyev üçün yeni təməllər yaratmaq və strategiyanı daha da inkişaf etdirmək dövrü olmuşdur.

Prezident dövlət idarəetmə siyasətində yeni təfəkkürü təmsil edən novator bir lider kimi idarəetməyə başladığı andan həm də paralel olaraq ən müasir istiqamətlərdə islahatlara start vermişdir. Dövlət rəhbərinin müəyyən etdiyi yeni istiqamətlər həyatın daxili təbii məntiqinin, ölkə reallıqlarının və mövcud dünya təcrübəsinin nəzərə alınması əsasında formalaşdırıldığı üçün bütün sahələrdə gerçək davamlı inkişafa geniş yol açmışdır.

Dövlət başçısı kimi İlham Əliyevin siyasi hakimiyyətə gəldiyi ilk illərdən başladığı və uğurla davam etməkdə olan regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının həyati zərurətdən doğan və ölkə üçün xüsusi əhəmiyyətə malik bir strategiya kimi həyata keçirilməsi innovativ inkişafda hərəkətverici qüvvə rolunu yerinə yetirmişdir. Azərbaycan rayonlarında icra edilən genişmiqyaslı infrastruktur layihələri, təsərrüfat proqramları, möhtəşəm sosial-mədəni quruculuq işləri ölkəmizin simasını tamamilə dəyişdirmişdir. Regionlarda aqrar sektorla yerli sənayeləşmənin birinin digərini tamamlaması, əhalinin ərzaq tələbatının ödənilməsi ilə yanaşı, həm də xammal və emal proseslərinin daha səmərəli şəkildə tənzimlənməsi ölkədə hərtərəfli və ahəngdar inkişafın təmin edilməsini gerçəkləşdirmişdir.

Bu gün nəinki Müstəqil Dövlətlər Birliyi ölkələri miqyasında, hətta əksər Avropa dövlətlərində Azərbaycandakı səviyyədə regionların inkişafını müşahidə etmək çətindir. İndi ilk növbədə, rayonların təsərrüfat imkanları genişlənmiş və bazara çıxarılan məhsulların həcmi və keyfiyyəti artmışdır. Hazırda aparılan məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycanın regionları da böyük ixrac imkanlarına malik münbit bir bazar funksiyasını daşımaqdadır. Respublikamızın paytaxtı Bakı şəhərini bölgələrlə əlaqələndirən və dünyaya açılan avtomobil yolları dünya standartı səviyyəsindədir.

Son illərdə Prezident İlham Əliyevin irəli sürdüyü irimiqyaslı kənd təsərrüfatı proqramlarının — çayçılıq, pambıqçılıq, çəltikçilik, ipəkçilik, tütünçülük və s. layihələrinin həyata keçirilməsi sahəsində əldə olunan mühüm iqtisadi nəticələr Azərbaycanın regionlarına yeni həyat gətirmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı və təşəkkül tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz özəl sektorun inkişafına daim diqqət göstərib və ölkənin gələcək iqtisadi tərəqqisini məhz özəl sektorla bağlı olduğunu vurğulayıb: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".

Ölkəmizin sürətli inkişafının prioritet sahələrindən biri də turizmdir. Turizm sahəsində sahibkarlıq dövlət tərəfindən daim dəstəklənir. Turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən xidmətlərin formalaşdırılması, qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini, mövcud potensialdan istifadə imkanlarının genişləndirilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması "Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır. Şübhəsiz ki, son illər turizm sahəsində qazanılan nailiyyətlərdə bu sahədə fəaliyyət göstərən şirkətlərin, istirahət və əyləncə müəssisələrinin müstəsna rolu var. Müntəzəm olaraq regionlara səfər edən ölkə başçısı rayonlarda gedən inkişaf proseslərini, yeni layihələrin həyata keçirilməsini xüsusi vurğulayır. Cənab Prezident şimal bölgəsinə səfəri çərçivəsində Xaçmaz rayonunda da olmuşdur. "Atlant" istirahət mərkəzi ilə tanışlıq zamanı dövlət başçısı burada yaradılan şəraiti yüksək qiymətləndirərək, turizmin inkişafı üçün ölkəmizdə kifayət qədər potensialın olduğunu bildirib.

Dövlət başçısının sərəncamı ilə 2017-ci ildə ölkədə turizmin inkişafındakı xidmətlərimə görə "Tərəqqi" medalı ilə təltif olunmuşam. Bu diqqət və qayğı təsdiq edir ki, Azərbaycan sahibkarları hazırda Prezident cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşdur. İş adamları bundan ruhlanaraq qeyri-neft sektorunun inkişafında və sosial layihələrin icrasında fəallıq göstərir, bütün səylərini Azərbaycan iqtisadiyyatının möhkəmlənməsinə, ölkəmizin daha da qüdrətlənməsinə səfərbər edirlər.

Müstəqillik dövründə nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi sahəsində də ölkəmiz çox böyük uğurlara imza atmışdır. Dövlət başçısı İlham Əliyevin adı və yorulmaz fəaliyyəti ilə birbaşa bağlı olan Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanı birləşdirən çox mühüm nəqliyyat qovşağıdır. Bakı-Tbilisi-Qars marşrutu beynəlxalq miqyasda Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində meydana çıxmış "Dəmir İpək yolu" kimi qəbul olunur. Bu, tarixi İpək yolu marşrutuna müstəqil Azərbaycan Respublikasının möhtəşəm töhfəsidir. BTQ-nin Türkiyə Cümhuriyyətinin Qars şəhərindən Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qədər uzadılması ilə bu böyük magistral İran İslam Respublikasının dəmir yollarına qoşularaq ətrafdakı Cənub Şərqi Asiya ölkələrini də əhatə edə biləcəkdir. Bakı-Tbilisi-Qars dəmir İpək yolunu Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri böyük müvəffəqiyyətlə davam və inkişaf etdirir, şaxələndirir. Bu gün Azərbaycan beynəlxalq tranzit yollarının qovşağı olan mühüm ölkə missiyasını həyata keçirir. Böyük magistral yollar ölkəmizdə güclü iqtisadiyyata geniş imkan açmaqla bərabər, turizmin, elmin və mədəniyyətlərarası əlaqələrin inkişafı üçün də müstəsna şərait yaradır. Hava nəqliyyatında tikilən aeroportlar və gəmiçilik sahəsində salınan limanlar, istifadəyə verilən gəmiqayırma zavodları, bu zəmində Ələt İqtisadi Zonasının yaradılması respublikamızın daha sürətli inkişafına təkan verir.

Son illərdə NATO və Avropa Şurası kimi iki beynəlxalq təşkilatın, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qətnamələr qəbul etmələri Prezident İlham Əliyevin apardığı məqsədyönlü və ardıcıl xarici siyasətin qəlib çatdığı mühüm nöqtədir.

Bu gün ölkəmiz idman dövləti kimi də nüfuz qazanıb. Azərbaycan Respublikasının yüksək səviyyədə və çox mütəşəkkil şəkildə ilk Avropa Oyunlarını keçirməsi, idmançılarımızın böyük uğurlar qazanması bu sahədə qazanılan uğurlu zirvələrdir. IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək və idmanın əsas növləri üzrə dünya çempionu adı qazanmaq, bütün ölkələrdən çox qızıl medal sahibi olmaq da bu nailiyyətlərdən biridir.

Azərbaycan müdafiə qüdrətini daim artırır. Ordumuzun 2016-cı ilin Aprel döyüşlərindəki böyük qələbəsi, əlahiddə Azərbaycan Ordusunun 2018-ci ilin uğurlu əməliyyatları nəticəsində Naxçıvan Muxtar Respublikasındakı 11 min hektarlıq ərazini işğaldan azad etməsi və Ermənistan üçün strateji əhəmiyyətə malik olan İrəvan-Laçın magistral yoluna nəzarəti ələ keçirməsi yeni tarixi epoxanın çox mühüm hərbi-siyasi uğurudur. Əsgərimizin düşmən sərhədində yerləşən, dəniz səviyyəsindən 1800 metrlik yüksəkliyə malik olan Şərur rayonu ərazisindəki Qızılqayanın ən uca nöqtəsinə Azərbaycan bayrağını taxması hərb tariximizin böyük hadisəsidir.

Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yenidən insanların məskən salması, Naxçıvan Muxtar Respublikasındakı Günnüt kəndinin düşmən tapdağından xilas edilməsi Dağlıq Qarabağın sabahına nikbin baxmağa əsas verir. Bu real hadisələr bir daha göstərir ki, hansı yolla olur-olsun Azərbaycan

dövlətinin işğal edilmiş ərazilərini geri qaytaracağı, məcburi köçkünlərin doğma torpaqlarına qayıdacağı gün çox da uzaqda deyildir.

Prezident İlham Əliyevin böyük məsuliyyət və məharətlə apardığı hərb və sülh siyasətinin real nəticələri Azərbaycanın haqq işinin, ədalətli mübarizəsinin qalib gələcəyinə böyük ümid yaradır. Xalqımız inanır ki, Dağlıq Qarabağ münaqişəsi məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə qələbə ilə başa çatdırılacaqdır.

Müstəqil Azərbaycan Respublikası müasir inkişafın İlham Əliyev zirvələri dövrünü yaşayır. Dünya liderləri sırasında özünəməxsus yeri və mövqeyi olan görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızı və ölkəmizi böyük bacarıqla, qətiyyətlə, uzaqgörənliklə qələbəyə doğru aparmaqda davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprelin 11-də yenidən ölkəmizin rəhbəri seçilməsi görülən işlərin, həyata keçirilən tədbirlərin, nailiyyətlərin qazanılması nəticəsində irəliyə atılan tarixi addımdır. Müstəqil Azərbaycan dövlətini və xalqımızı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha neçə-neçə uğurlu illər, möhtəşəm zirvələr, işıqlı sabahlar gözləyir.

Respublika. - 2019.- 22 dekabr. - № 284. - S. 2.

Müstəqil Azərbaycan tarixində dinamik inkişaf epoxası

Elsevən Quliyev,
"UDT-Texnika" MMC-nin direktoru

Dövlət müstəqilliyinin açdığı böyük demokratik imkanlar əsasında Azərbaycan Respublikasının seçdiyi prezident idarəçiliyi sistemi xalqımızı və ölkəmizi böyük və hərtərəfli inkişaf mərhələsinə çatdırmış, çoxəsrlik tariximizdə yeni tarixi epoxanın formalaşması ilə nəticələnmişdir.

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin möhkəm əsaslarını, etibarlı bünövrəsini yaratdığı prezident üsuli-idarəsi müstəqillik dövrünün ən məqsədyönlü dövlət idarəçiliyi forması kimi artıq ölkəmizin timsalında özünü təsdiq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə ölkəmizi yeni epoxanın işığında hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini göstərməkdə davam edir. Artıq hər kəsə yaxşı bəllidir ki, Prezident İlham Əliyev dünyada XXI əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisidir.

Sözün həqiqi mənasında görkəmli dövlət xadimi kimi ölkəyə rəhbərlik etməyin şərəfini də, məsuliyyətini də özünün gündəlik əməli fəaliyyətində uğurla birləşdirən İlham Əliyev həm də müstəqil Azərbaycan dövlətini istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək səviyyədə gerçəkləşdirir.

Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə inkişaf etdirilərək dünya standartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin siyasətinin əsasında dayanır.

Artıq dördüncü mərhələsi uğurla həyata keçirilən Azərbaycan regionlarının inkişafı üzrə Dövlət Proqramı ölkəmizin inkişafında mühüm hadisəyə çevrilmişdir. Hazırda Azərbaycanın bölgələrində aşkar görünən hərtərəfli intibahın, sürətli canlanmanın, müasir həyatın bərqərar olması ideyasının memarı və müəllifi respublikamızın Prezidenti İlham Əliyevdir. Qısa müddətdə, sözün əsl mənasında, möhtəşəm addımlarla irəliləyən müstəqil Azərbaycan dövlətinin davamlı tərəqqisində İlham Əliyevin prezidentlik fəaliyyətinin xüsusi payı vardır.

Prezident İlham Əliyev bacarıqlı, qurucu dövlət xadimi olmaqla bir sırada, həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan müdrik siyasi xadimdir. Dünya ictimaiyyəti də, Azərbaycan xalqı da çoxdandır ki, Prezident İlham Əliyevi böyük siyasətçi, yaxud siyasi idarəetməni həyati proseslərlə bütün incəliklərinə qədər uzlaşdırmaq vəzifələrini məharətlə gerçəkləşdirən siyasi xadim kimi qəbul edir. Dövlət rəhbərinin siyasi fəaliyyətinin əsas xətlərini azərbaycançılıq məfkurəsi, millətlərarası münaqişələrin həlli, yeni neft strategiyası, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, multikulturalizm və tolerantlıq fəlsəfəsi, iqtisadiyyatın şaxələndirilmiş inkişafı, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil edir. Prezident İlham Əliyevin müstəqil Azərbaycanın yeni siyasətini, irəliyə doğru inkişafın üfüqlərini aydın görən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən görkəmli dövlət xadimidir. Bacarıqlı dövlət başçısında uzaqgörən yüksək siyasətçi düşüncəsinin və mühüm idarəetmə məharətinin olması dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi və əsl vətənpərvərliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

Prezident İlham Əliyevin siyasəti həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilərək mütəmadi olaraq yeniləşir və zənginləşir. Ölkə rəhbərinin qəti siyasi mövqeyi onun cəmiyyəti irəli aparmaq, inkişaf etdirmək yollarındakı güclü iradəsinin real təzahürüdür. İllər ərzində inkişafda olan müstəqil Azərbaycanda əldə olunan möhtəşəm nailiyyətlər və beynəlxalq miqyasda ölkə ilə əlaqədar aparılan düşünülmüş, məqsədyönlü və ardıcıl iş, əldə olunan zəngin təcrübə tükənməz ideya mənbəyi kimi İlham Əliyev siyasətinin aktuallığını və müasirliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin milli dövlətçilik təliminin, sınaqlardan çıxmış siyasi kursunun layiqli davamçısıdır. Ən müxtəlif məqamlarda Heydər Əliyevin çoxcəhətli fəaliyyətini yaxından izləmək, yaşantılarını dərindən duymaq, siyasi gedişlərinin, necə deyərlər, alt yapısının mahiyyətini incəliklərinə qədər öyrənmək baxımından bu böyük şöhrətə malik olan mötəbər ailənin üzvü kimi İlham Əliyevin imkanları hamıdan, hətta ulu öndərin ən yaxın məsləkdaşlarından da çox olmuşdur. Həm keçmiş sovet rejimi mərhələsində, həm də müstəqillik dövründə İlham Əliyev həmişə görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətinin yaxın əhatəsində olan bir şəxsiyyət kimi mühüm dövlətçilik məktəbi keçmişdir.

Böyük siyasi xadim ulu öndərin zamanında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl təhsil alması, Kreml mühitində cərəyan edən daxili proseslərdən xəbərdar olması, sonralar Azərbaycan Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti, Respublika Olimpiya Komitəsinin prezidenti, millət vəkili, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, nəhayət, Baş nazir kimi məsul vəzifələrdə şərəfli və məsuliyyətli yol keçməsi, mükəmməl həyat təcrübəsi və zəngin siyasi təcrübə qazanması, Avropa dillərində sərbəst və sərrast danışmaq imkanlarına malik olması əvəzedilməz üstünlüklər və nailiyyətlərdir.

Həyat təsdiqlədi ki, İlham Əliyev ümummilli lider Heydər Əliyevdən sonrakı dövrdə mükəmməl dövlətçilik təlimini bacarıqla və yaradıcılıqla inkişaf etdirməkdə də hamıdan fərqlənir. Əvvəla, o, Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, yaradıcılıqla, ardıcıllıqla müasirlik işığında həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və yaxşı mənada qibtə olunacaq əsl istedada malikdir.

Qazanılmış ümumxalq rəğbəti, seçilmiş və isbat olunmuş siyasi kursun ardıcıllıqla, qətiyyətlə davam etdirilməsi özündən əvvəlki ümummilli lider dövründə qazanılan nailiyyətlərin daha da artırılması və yeni layihələrin meydana çıxması müəyyən olunmuş istiqamətlərin, başlanmış mühüm işlərin, hazırlanmış böyük layihələrin uğurla icra edilməsi deməkdir. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə dəyişən və inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP hər gün gözəlləşən və müasirləşən Azərbaycan cəmiyyəti Heydər Əliyev siyasi kursunun uğurla, yaradıcılıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir. Zəfərlərlə dolu olan 16 ildə ardıcıl neft-qaz və nəqliyyat-logistika siyasətinin uğurla həyata keçirilməsi ölkəmizin inkişafında mühüm rol oynamışdır. "Əsrin müqaviləsi"nin uğurlu davamı və yeni inkişaf mərhələsi olan "Cənub qaz dəhlizi"nin və Türkiyədə TANAP layihəsinin rəsmi açılışlarının keçirilməsi, bu layihələri Avropa ölkələrinə qədər uzadan TAP layihəsinin uğurla irəliləməsi 16 il ərzində Azərbaycanı dünyanın ən zəngin və əlverişli enerji mərkəzlərindən biri səviyyəsinə çatdırmışdır. İlham Əliyevin neft-qaz imkanlarımızla əlaqədar aşağıdakı fikirləri bu mühüm sektorun müasir inkişafının ölkəmizin həyatındakı yerini və rolunu aydın surətdə təsəvvür etməyə imkan verir: "Cənub qaz dəhlizi"nin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu, səmərəliliyi, gəlirimizi daha da artıracaqdır".

Dünyanın nadir Dəmir İpək Yolu kimi qəbul edilən Bakı-Tbilisi-Qars dəmir yolu nəhəng layihələrindən biri kimi tarixə düşmüşdür. Bu, Azərbaycanı Avropa və Asiya bazarları ilə bağlayan və ölkəmizin inkişafı üçün yeni üfüqlər açan nadir iqtisadi layihədir. Bakı ətrafında analoqu olmayan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması Dəmir İpək Yolu ilə yanaşı, digər beynəlxalq nəqliyyat qovşaqlarının da müasir imkanlarına və perspektiv inkişafına inamla baxmağa əsas verir. Xəzər dənizində ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ölkəmizin müəllifi olduğu "Şərq-Qərb Nəqliyyat Dəhlizi" və "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin uğurlu və səmərəli fəaliyyətini təmin edə biləcək əlverişli infrastruktur layihəsi kimi, Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcəkdir. Artıq bugünkü səviyyədə nəqliyyat dəhlizlərində aparılan işlər hələ tam başa çatmamış Azərbaycandan keçən yükdaşımaların həcminin yüz dəfədən çox artması aparılan böyük işlərin sabahına daha nikbin baxmağa əsas verir.

Siyasi dünyagörüşü etibarilə "Azərbaycan naminə" əqidəsi əsasında formalaşmış İlham Əliyev siyasəti ölkəmizə beynəlxalq aləmdə də böyük şöhrət qazandırmışdır. Azərbaycan Respublikasının 2011-ci ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və dünyanın ən böyük və mötəbər təşkilatının ciddi bir qurumuna müəyyən olunmuş müddətdə rəhbərlik etməsi Prezident İlham Əliyevin apardığı xarici siyasətin əhəmiyyətini, təsir imkanlarını, beynəlxalq aləmdə tutduğu yüksək mövqeyini əyani şəkildə nümayiş etdirir. Azərbaycan Respublikasının Avropa Şurası, Avropa Birliyi məkanında, o cümlədən UNESCO səviyyəsində nümayiş etdirdiyi mövqe ölkəmizin qısa müddətdə böyük Avropa evində normal yer tuta bildiyini göstərdi. Müstəqil Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Kabinetinə böyük bacarıqla sədrlik etməsi, Qoşulmama Hərəkatı kimi mötəbər bir beynəlxalq quruma rəhbərlik etmək səlahiyyəti qazanması Prezident İlham Əliyevin müstəsna dərəcədə yüksək dövlətçilik istedadına malik olmasının real göstəriciləridir.

Müasir Azərbaycanda Çin, Cənubi Koreya, Yaponiya, Sinqapur, Malayziya və digər inkişaf etmiş Asiya ölkələri ilə də əməkdaşlığın sürətləndirilməsi ölkəmizdə Şərq tərəfdaşlığına dair böyük və etibarlı addımların atıldığını göstərir. Nəticə etibarilə Azərbaycan Şərq üçün də, Qərb üçün də cəlbedici və əhəmiyyətli ölkə olmaq statusu qazanmışdır. Azərbaycan Avrasiya məkanının ən əlverişli imkanlara malik dinamik inkişaf edən ölkəsidir.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə yeniləşdirən və daha da zənginləşdirən siyasi xadimdir. Ümummilli liderimiz Heydər Əliyevdən sonrakı tarixi mərhələnin meydana çıxardığı siyasi-ictimai reallıqlar, iqtisadi-hərbi proseslər, ideoloji-etnik problemlər mövcud siyasi kursun işığında hadisələrin və gedişatların yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir.

Həqiqətən, İlham Əliyev yeni dünya düzənində müdrik siyasəti və böyük bacarığı ilə Azərbaycana başucalığı gətirən ən müasir tipli qüdrətli liderdir. Müasir Azərbaycanın yeni tarixi mərhələdəki yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir.

Prezident İlham Əliyevin məqsədyönlü ordu quruculuğu sayəsində Azərbaycan Ordusu dünyanın ilk əlli ordusu sırasında qərar tutur. Həm ən yüksək hərbi texnika, həm də böyük vətənpərvərlik Azərbaycan Ordusunun müasir simasını müəyyən edir. Azərbaycan Ordusunun 2016-cı ilin aprel ayında Tərtər-Murov istiqamətində, 2018-ci ilin may ayında isə Naxçıvan ərazisində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar xalqımızın Dağlıq Qarabağ müharibəsində qələbə çalacağına inamını daha da artırmışdır. Tərtər-Murovdağda 2 min 200 hektar, Naxçıvan ərazisində 11 min hektar ərazinin işğaldan azad olunması Azərbaycanın dövlət müstəqilliyinin bütün dövrü ərzində qazandığı ən böyük zəfərdir. İşğaldan azad olunaraq Cəbrayıl rayonunda salınmış Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının Dağlıq Qarabağa qayıdışının start nöqtəsidir. Şərur rayonundakı Günnüt kəndinin düşmən mühasirəsindən çıxarılması və Qızılqaya zirvəsinin fəth edilməsi isə torpaqlarımızın azad edilməsi hərəkatının davamlı bir proses olduğunu göstərir. Prezident İlham Əliyev - qətiyyətli və möhkəm siyasi əqidəyə malik olan qüdrətli Ali Baş Komandandır.

Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə də İlham Əliyev kimi geniş formatda, beynəlxalq aləmdə qəbul edilən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksəksəviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı var.

Prezidentin müdrik siyasəti Azərbaycanın dünyada və Qafqazdakı hadisələrin həlli baxımından söz sahibi olan dövlətə çevrilməsi ilə nəticələnmişdir. İndi Azərbaycanın yaxından iştirakı, mövqeyi nəzərə alınmadan Qafqaz regionunda heç bir problemin həllindən danışmaq, yaxud yeni layihələrə başlamaq olmaz.

Müstəqillik dövründə Azərbaycanın kosmos ölkəsinə çevrilməsində elmin böyük rolu var. 2018-ci ildə Azərbaycan Respublikasının üçüncü kosmik peykinin orbitə buraxılması misilsiz elmi-texniki nailiyyətdir. Azərbaycanda müstəqillik dövrünün elmi məktəblərinin yaranması dövrümüzün elmi mühitinin nailiyyətidir. Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişləndirilməsi də yeni eranın reallığıdır. Milli mədəniyyət və ədəbiyyat sahələrindəki yeni inkişaf dalğası müstəqil Azərbaycanın yüksək mədəni səviyyəsini nümayiş etdirir.

Son illərdə Azərbaycanda baş vermiş böyük dəyişikliklər müstəqil Azərbaycan Respublikasının cəmiyyət həyatının bütün sahələri üzrə sürətlə və hərtərəfli şəkildə inkişaf etdiyini parlaq surətdə nümayiş etdirir. Beynəlxalq miqyasda iqtisadi inkişafın əsas göstəriciləri üzrə rentgen funksiyasını yerinə yetirən Davos Forumunun reytinq cədvəllərində Azərbaycan Respublikasının hər il yeni bir rekordla irəliyə doğru hərəkətinin qeydə alınması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha uca zirvələrə doğru irəlilədiyini nümayiş etdirir.

Ulu öndərin idarəçilik təcrübəsindən bəhrələnən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər davamlı və hərtərəfli inkişaf illəridir və dövlət müstəqilliyimizi möhkəmləndirməklə xalqımızı daim yeni zirvələrə doğru aparır.

Respublika. - 2019.- 21 dekabr. - № 283. - S. 6.

Xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqilliyimizin əsas təminatıdır

Elnur Kəlbizadə,
AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri,
tarix üzrə fəlsəfə doktoru

Müasir dünyada dövlətlərin gücü, onların müstəqillik dərəcəsi daxili sabitliyin, xalq-iqtidar birliyinin səviyyəsi ilə müəyyənləşir. Geosiyasi proseslərin təhlili göstərir ki, hər hansı ölkədə xalq-iqtidar birliyi təmin edilməyibsə, nə zəngin təbii sərvətlər, nə də hansısa xarici maraqlara xidmət edən "dəyərlər" o ölkəni sabit və davamlı inkişaf yoluna çıxara bilməz. Azərbaycanın yeni və ən yeni dövr tarixində baş verən proseslər xalq-iqtidar birliyinin mövcud olmamasının hansı təlatümlərə və faciələrə gətirib çıxardığını göstərmişdir. 1991-1992-ci illərdə ölkədə yaranmış idarəolunmaz vəziyyət, Azərbaycanın dərin böhrana düçar olması, ölkəni xaos, anarxiya, özbaşınalığın bürüməsi məhz xalq-iqtidar birliyinin təmin olunmamasının nəticəsi idi.

Yalnız görkəmli dövlət xadimi Heydər Əliyev ölkədə xalq-iqtidar birliyini təmin edə bilmişdir. Məhz xalq-iqtidar birliyinin təmin olunması Azərbaycanın həqiqi müstəqillik yoluna qədəm qoymasına şərait yaratmışdır. 2003-cü ildə ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev isə nəinki xalq-iqtidar birliyini möhkəmləndirmiş, həm də bu birliyin təminatçısı və qarantına - hər bir Azərbaycan vətəndaşının Prezidentinə çevrilmişdir. Azərbaycan tarixində İlham Əliyevin liderliyini ən orijinal şəkildə yalnız bu cür ifadə etmək mümkündür.

Dövlət başçısı İlham Əliyevin bütün fəaliyyəti milliyyətindən, dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən, cinsindən asılı olmayaraq hər bir vətəndaşa bərabər, tolerant, səmimi yanaşmadan və ən əsası azərbaycançılıq ideologiyasına sadiqlikdən xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk dəfə ali vəzifəyə seçilməsindən keçən dövr ərzində xatırlamalı olduğumuz daha bir məqam var. Ölkənin hər bir vətəndaşını, hətta vətən daşını sevən birinci VƏTƏNDAŞın siyasi olimpin zirvəsinə qalxarkən xalqı qarşısında səsləndirdiyi nitqdə mühüm bir məqam: "Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm".

Bəli, bu, gənc, xarizmatik, praqmatik düşüncəli, işgüzar, xalqına, Vətəninə, millətinə bağlı yeni liderin sadəcə seçim sonrası vədi deyildi. Bu, Azərbaycan dövlətini, dövlətçiliyini möhkəmləndirmək, dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxarmaq üçün müəyyən edilmiş müdrik siyasi yolun müdrik xalqa açıqlaması idi. Vətəndaşın Prezidenti vətəndaşına hansı yolla gediləcəyini bəyan edirdi.

Ötən illər ərzində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yürüdülən sosial-iqtisadi siyasət nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların inkişafı sürətləndirilmiş, əhalinin rifah halı xeyli yaxşılaşdırılmışdır. Nəticədə Azərbaycan "Doing Business 2019" hesabatında dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilmiş, həmçinin dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Hesabatda Azərbaycan Respublikası 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider olmuşdur.

Məhz ölkə daxilində Prezident İlham Əliyevin liderliyində iqtidar-xalq birliyinin təmin olunması respublikamızın beynəlxalq aləmdə inamla addımlamasına qarant vermişdir. Azərbaycanda mövcud olan xalq-iqtidar birliyi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının hesabatlarında da dəfələrlə əksini tapmışdır. Məsələn, Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyası üzrə Azərbaycan dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi 20 ölkədən biri olaraq qiymətləndirilmişdir. Bu göstərici ilə "Böyük İyirmilik" ölkələrinin hər 4-dən 3-nü geridə qoyan Azərbaycan nəinki yerləşdiyi Qafqaz regionunun ölkələrini, ümumilikdə SSRİ-nin dağılmasından sonra müstəqilliyini bərpa etmiş bütün dövlətləri qabaqlamışdır.

Prezident İlham Əliyev 2019-cu il oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi münasibətilə təşkil edilmiş tədbirdə bu məqama xüsusi toxunaraq demişdir: "Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu, nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqeyimizi müdafiə edək".

Bir dövlətin varlığını beynəlxalq sistemdə təsdiq etməsinin əsas şərtlərindən biri onun daxili və xarici siyasətinin digər bir dövlətin diktəsi ilə deyil, milli maraqların mənafeyi baxımından həyata keçirməsidir. Ötən

illər ərzində Azərbaycan təkcə yerləşdiyi Qafqaz geosiyasi məkanında deyil, ümumilikdə bütün dünyada öz siyasi nüfuzunu, müstəqil siyasət yürütdüyünü dəfələrlə təsdiq etmişdir.

Azərbaycan İlham Əliyevin Prezidentliyi dönəmində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 120 ölkəni öz sıralarında birləşdirən Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışdır. Bütün bu qələbələr sübut edir ki, Azərbaycan dünya xəritəsində nəinki özünə layiq yerini tuta bilmişdir, həm də dünya birliyinin mütləq əksəriyyətinin rəğbətini, hörmətini, inamını qazanmışdır. Bu günlərdə ölkəmizdə keçirilən Dünya dini liderlərinin II Sammiti Azərbaycan dövlətinin və dünyada sülhün və sabitliyin bərqərar olması uğrunda yorulmadan fəaliyyət göstərən Azərbaycan Prezidentinin nüfuzunun göstəricisidir.

Dövlət başçısının xarici siyasətdə nümayiş etdirdiyi qətiyyətin təməlində isə daxili sosial-iqtisadi sabitliyin mövcudluğu, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi dayanır. Ölkədə bütün sahələrin dinamik inkişafının davamlı xarakter daşıması üçün ilk növbədə təhsilli, savadlı, dünyagörüşlü kadrların yetişdirilməsi əsas şərtlərdəndir. "Biz neft kapitalını insan kapitalına çevirəcəyik" deyən dövlət başçısı İlham Əliyevin bu strateji yanaşmasının bəhrələrini artıq hər birimiz görməkdəyik. Azərbaycanda istedadlı, savadlı, müasir dünyagörüşlü, əxlaqi keyfiyyətləri ilə seçilən gənclər ordusu formalaşıb. Yürüdülən siyasət, yaradılan şərait Azərbaycan vətəndaşına öz bilik və bacarıqlarını ümummilli inkişaf yolunda sərf etməsi üçün geniş imkanlar formalaşdırıb.

Bütün bunlar isə vətəndaşının maddi, mənəvi və fiziki təhlükəsizliyini təmin etməyə qadir olan oturuşmuş dövlətçilik sistemindən xəbər verir. Vətəndaş dövlətini, dövlətçiliyini qorumağı özünə mənəvi borc hesab edir. Bu isə ölkənin birinci

Vətəndaşının hər bir vətəndaşın Prezidenti olmaq kimi ali idealının reallaşdığını göstərir.

Azərbaycan. - 2019.- 19 dekabr. - № 282. - S. 6.

Müasir Azərbaycan dövlətçiliyinin banisi

Sədaqət Vəliyeva,
Beşinci çağırış Milli Məclisin deputatı,
Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri

Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq -respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycanın dahi oğlu Heydər Əliyevin xatirəsini anım günü paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, ruhuna Allahdan rəhmət diləyirdilər. Təkcə paytaxtda deyil, respublikamızın bütün bölgələrində, eləcə də dünyanın bir sıra ölkələrində ulu öndərin xatirəsi böyük ehtiramla yad edildi.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin məzarı xalqımızın ziyarətgahına, gənclərin and yerinə çevrilib. İlboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtdıran, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsini ehtiramla yad edirlər.

Hər bir xalqın müstəqilliyi zəngin sərvəti, öz milli mənliyinin təsdiqi, dövlətin varlığının mövcudluğu və dünya sivilizasiyasına qoşulması kimi fundamental prinsipləri özündə ehtiva edir. Müstəqillik asan yolla və istənilən tarixi dövrdə qazanılmır. Dövlətin öz müstəqilliyini əldə etməsi tarixi zərurətin meyarları əsasında və xalqın milli dövlətçilik ənənələrini formalaşdıra bildiyi ictimai-siyasi zəminin mövcudluğu şəraitində mümkün olur. Həmçinin müstəqilliyin əldə olunması üçün tarixi zəmin və şəraitin yetişməsi ilə bərabər, onun mövcudluğunu təmin edən və möhkəmləndirən bazislər də əsas rol oynayır. Yetişmiş səmərəli və əlverişli tarixi şəraitdən istifadə edərək müstəqillik əldə edən dövlətlərin qarşısında daha yeni tarixi zərurətlər durur ki, onu da realizə etmək hər ölkə üçün asan deyil.

Uzun illər dövlət müstəqilliyini bərpa etmək istəyən respublikamızın bu müqəddəs ideallara qovuşması üçün səylər göstərilsə də, tarixi şəraitin, milli liderin yetişməməsi bunu mümkünsüz edib. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq, onu həyata keçirmək güclü dövlət siyasətinin, eyni zamanda, milli liderin olmasını tələb edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindən başlayaraq, respublikamızda həyata keçirilən genişmiqyaslı proqramları müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdı.

Hər hansı ölkənin milli maraqlarına cavab verən iqtisadi siyasət yürütməsi, sosial-iqtisadi inkişaf doktrinasını həyata keçirməsi üçün mütləq şəkildə suverenliyi, müstəqilliyi olmalıdır. Müstəqil ola bilməyən, dövlətçilik ənənələrini formalaşdırmayan ölkənin daxili-xarici iqtisadi strategiyasının reallaşmasından söhbət gedə bilməz. Əks halda, müstəqilliyi formal xarakter daşıyan dövlətin milli maraqlara cavab verən inkişaf xətti, iqtisadi modeli olmayacaq.

Tarixi gerçəklik tam təsdiq edir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyanı iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs yerinə yetirə bilər. Məhz bu tarixi zərurətin məntiqi nəticəsi olaraq, müstəqil və milli iqtisadiyyatın yaradılmasının alt bazası, möhkəm sütunları birbaşa dövlət müstəqilliyinin təmin edilməsi ilə bilavasitə bağlıdır. Eyni zamanda, milli dövlətçiliyin sütunlarını möhkəmləndirmək, siyasi sabitliyin yeni ictimai münasibətlər şəraitində dönməzliyini təmin etmək, ölkədə kompleks islahatlara başlamaq, xarici dövlətlərlə əlaqələr yaradaraq siyasi-hərbi gərginliyi azaltmaq, iqtisadi vəziyyəti normal inkişaf məcrasına yönəltmək üçün qətiyyətli idarəetmə qabiliyyəti olan liderin olması başlıca şərtdir. Belə lider ulu öndər Heydər Əliyev idi. Xalqı düçar olduğu bəladan, müstəqilliyimizi məhv olmaqdan, Azərbaycanı parçalanmaqdan dövlət idarəçiliyində zəngin təcrübəsi, dünyada böyük nüfuz sahibi olan yalnız ulu öndər Heydər Əliyev xilas edə bilərdi.

Həmin dövrün ictimai-siyasi və sosial-iqtisadi mühiti barədə ulu öndərin müdrik və dahiyanə bir fikrinə diqqət yetirməklə real təsəvvür əldə edə bilərik: "Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Ancaq müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan, möhkəmləndirməkdən daha asandır. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq... Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqının maraqlarının

qorunması, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir".

Əslində, Azərbaycanda milli dövlətçiliyin əsaslarının yaradılması, müstəqil respublikanın suverenliyi ilə bağlı strukturların formalaşdırılması ulu öndər Heydər Əliyevin başçılığı ilə 90-cı illərin sonlarından başlayaraq Naxçıvan Muxtar Respublikasının timsalında reallaşdırıldı. Ulu öndər Heydər Əliyevin malik olduğu güclü iradə, uzaqgörən siyasət və digər mühüm keyfiyyətlər Azərbaycan dövlətçiliyini məhv olmaq təhlükəsindən xilas etdi və beləliklə, tarixi dialektik qanunauyğunluq gerçəkləşdi– dövlətçiliyin əsaslarını hazırlayan milli liderin dövlətçilik institutunun sükanı arxasına keçməsi öz məntiqi nəticəsi ilə yekunlaşdı.

Ulu öndər Azərbaycanın demokratik islahatlar platformasını, inkişafın mükəmməl və özünütəsdiq vektorlarını yaratdı. Onun dövlətçilik təliminde güclü dövlət anlayışı bütün atributları ilə birgə dövlətin iqtisadi, siyasi, sosial və mənəvi əsasları öz əksini tapıb. Ulu öndərin müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirməsi, Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim -- azərbaycançılıq ideologiyası elmi-siyasi-nəzəri konseptual məzmununa görə əvəzolunmaz məxəzdir. Bu fundamental meyarlar və prinsipial fəaliyyət planı respublikamızın milli dövlətçilik strukturlarının formalaşmasına zəngin baza yaratmış oldu.

Dövlət müstəqilliyinə qovuşmuş gənc respublikanın inkişaf ssenarilərini tərtib etmək, qlobal siyasi gərginliklərin davam etdiyi bir şəraitdə müstəqil inkişaf strategiyasının hərtərəfli, əhatəli konturlarını müəyyənləşdirmək, sosial-siyasi sabitliyin dönməzliyinə dərin təməllər yaratmaq möhkəm iradə sahibinə, uzaqgörən, təmkinli, qətiyyətli və xarizmatik şəxsiyyətə, böyük siyasi təcrübəyə malik dühaya xas ola bilərdi. Təbii ki, bu xarakterik keyfiyyətlər ümummilli lider Heydər Əliyevə məxsus idi və dünya siyasət nəhənginin xalqın bütöv və dönməz təkidi sayəsində hakimiyyətə qayıdışından sonra qeyd etdiyimiz siyasi-hüquqi-iqtisadi zərurətlərin reallaşması mümkün oldu. Ulu öndərin zəngin siyasi idarəetmə məharəti, milli dövlətçilik ənənələrinə dərindən bələd olması, islahatların mahiyyətini bütün təfərrüatları ilə dərk etməsi və həyata keçirmək qüdrətində olması, praqmatik keyfiyyətləri və digər nadir xüsusiyyətləri müstəqil Azərbaycanın əhatəli inkişaf strategiyasının hazırlanmasına əsaslı baza yaratdı. Ümummilli lider ölkənin yeni makroiqtisadi siyasətinin şaxələrini dərinliklərinə qədər məharətlə tədqiq edərək, fundamental iqtisadi model hazırladı. Bu model çoxistiqamətli və uzunmüddətli dinamik inkişafın alt sütunlarını təşkil etməklə perspektiv siyasi-iqtisadi proseslərin nəticələri də nəzərə alınmaqla tərtib olunan zəngin konsepsiya idi.

Ulu öndər Heydər Əliyev respublikamızın milli inkişaf strategiyasını müəyyən edərkən, daxili ictimai prosesləri və milli reallıqlarla yanaşı, regional geosiyasi vəziyyəti, xarici meyilləri hərtərəfli şəkildə nəzərdən keçirərək müvafiq qərarlar qəbul edirdi. Burada ölkəmizin potensial imkanları, milli mənafeləri, xarici dövlətlərlə qarşılıqlı münasibətləri, iqtisadi əməkdaşlığın yolları, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmışdı.

Həmin dövrün ilk illərində həyata keçirilən islahatlar və əldə olunan nəticələr Azərbaycanın inkişaf konsepsiyasının nə qədər zəngin olduğunu, bu strategiyanın böyük uzaqgörənliklə düşünüldüyünü və ölkəmizin hərtərəfli tərəqqisini təmin etdiyini təsdiqləmiş oldu. Respublikamız qısa müddət ərzində idarəetmə sisteminin yeniləşməsi, struktur islahatlarının aparılması, iqtisadiyyatda funksional mexanizmlərin tətbiq olunması, bazar iqtisadiyyatı ilə bağlı hüquqi-normativ bazanın yaradılması sahəsində ciddi uğurlara imza atdı. İqtisadiyyatda liberallaşmanın təmin olunması üçün ilk addımların atılması, xüsusi mülkiyyətə əsaslanan bazar iqtisadiyyatı tələblərinin bərqərar olması Azərbaycanda maliyyə sabitliyini möhkəmləndirdi. Sistemli xarakter alan islahatların siyasi və iqtisadi inkişafın templərinə uyğun modernləşdirilməsi Azərbaycanın dinamik inkişafı üçün münbit zəmin formalaşdırdı.

Ulu öndər Heydər Əliyev milli inkişafın əsas prinsipləri kimi demokratik dəyərlərə əsaslanan cəmiyyət quruculuğu və buna paralel olaraq liberal və azad iqtisadiyyatın yaradılmasını başlıca məqsədlərdən biri hesab edirdi. Azərbaycan bazar iqtisadiyyatı və demokratiya yolunu prioritet olaraq seçdi. Bu paradiqmanın reallaşdırılması iqtisadiyyatda liberalizmin dərin kök atmasına, sosial bərabərliyin öz yerini tutmasına, demokratik islahatların coğrafi hüdudlarının genişlənməsinə səbəb oldu.

Ümummilli liderin ölkənin siyasi, iqtisadi, sosial, ictimai, mədəni həyatında gördüyü işlərin miqyası müqayisəolunmaz dərəcədədir. Onun Azərbaycanın inkişafı üçün əvəzsiz xidmətləri həm də məzmun etibarı ilə nəzərəçarpacaq dərəcədə təkrarolunmazdır.

Tarixi dialektika və siyasi-ictimai qanunauyğunluq göstərir ki, ulu öndər Heydər Əliyevin mahir dövlətçilik idarəçiliyini, strategiyasını bütün komponentləri ilə əxz etmiş varisi Prezident İlham Əliyevdən başqa biri davam etdirə bilməzdi. Yüksək intellektə, praqmatik və rasional düşüncəyə malik, enerjili və təşəbbüskar bir şəxsiyyət olan Prezident İlham Əliyev Azərbaycanda demokratik islahatların inkişaf etdirilməsi üçün qətiyyətli addımlar ataraq respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoymasına nail oldu. Azərbaycanın müstəqil siyasi kursunu, iqtisadi doktrinasını yeni dövrdə ən mükəmməl şəkildə inkişaf etdirən ictimai xadim, siyasi lider kimi dünya siyasi xəritəsində möhtəşəm yer tutan xarizmatik, rasional düşüncə tərzinə malik şəxsiyyət olan Prezident

İlham Əliyevin prinsipial qərarları sayəsində Azərbaycan davamlı iqtisadi inkişafın, uzunmüddətli sabitliyin, dünya dövlətləri içərisində etibarlı tərəfdaşlığın təminatçısına çevrilib.

Xalq qəzeti. - 2019.- 18 dekabr. - № 281. - S. 9.

Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır

Urxan ƏLƏKBƏROV,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik

Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan Respublikasının qurucusudur və bu gün ölkə beynəlxalq təşkilatların qiymətləndirilmələrinə əsasən innovativ idarəçilik texnologiyalarının işlənilməsi və tətbiqinə görə dünya liderləri sırasındadır.

Belə yüksək dəyərləndirmə ölkənin tarixi baxımdan qısa müddət ərzində iqtisadi, sosial, humanitar sahələrdə yüksək nəticələr qazanması ilə əlaqədardır. Bu gün BMT, Dünya Bankı, Davos Dünya İqtisadi Forumu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, dünyanın beynəlxalq inkişafı təhlil edən digər təşkilatlarının rəsmi hesabatlarında daim Azərbaycanın innovativ inkişaf sahəsində qazandığı yüksək nailiyyətlər barədə məlumatlar tirajlanır. Ölkənin iqtisadi, sosial və humanitar sahələrdə qazandığı nailiyyətlərinə işıq salan beynəlxalq təhlillərin sayı gündən-günə artmaqdadır.

Bu uğurların daha çox və əsasən son illərdə qazanılmasına baxmayaraq, onların əsasında Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində fenomenal istedadı və yorulmaz fəaliyyəti durur.

Dərin və hərtərəfli bilik, yüksək iradə, qətiyyətlilik, ölkə və ətrafında baş verən mürəkkəb prosesləri hər zaman təhlil etmə və düzgün qiymətləndirmə bacarığı, gələcəyi aydın görə bilmək qabiliyyəti Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin uğurlarını şərtləndirən başlıca amillərdir. O həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik illərində xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Sovet dövründə Heydər Əliyev ölkə rəhbərliyini qəbul etdiyi zaman Azərbaycan Respublikası keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında ən geridə qalanlar sırasında idi. Qısa müddət ərzində Ümummilli Lider Heydər Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycan Respublikası öz iqtisadiyyatının, sosial göstəricilərinin ən yüksək səviyyəyə qalxmasına nail oldu. Məhz onun müdrik siyasəti sayəsində Azərbaycan keçmiş SSRİ-nin öncül respublikasına çevrildi. Həmin illərdə Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə qalxmışdır ki, ölkə nəinki öz tələbatlarını təmin edirdi, eyni zamanda donor kimi çıxış edirdi. Keçmiş SSRİ-nin tərkibinə daxil olan 15 ölkə arasında ancaq 2 respublikada iqtisadiyyat belə yüksək səviyyədə idi. Qısa müddətdə bu irəliləyiş Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində fenomenal bilik və bacarığının nəticəsi idi.



Heydər Əliyevin rəhbərliyi ilə ölkədə qazanılmış yüksək nailiyyətlərin əsasında Ümummilli Liderin fərdi liderlik istedadı ilə yanaşı, onun kadr potensialının formalaşdırılması və bu əvəzsiz sərvətin səfərbər edilməsi sahəsində xüsusi bilik və bacarığı, uzaqgörənliyi durur. Hələ Sovet dövründə Ümummilli Liderin təşəbbüsü ilə ölkənin minlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müasir biliklərin alınması və bacarıqların formalaşdırılması üçün göndərilirdi. Gənclərin təhsili həm mülki, həm də hərbi ali məktəblərdə həyata keçirilirdi. Prosesin iştirakçısı kimi, Ulu Öndər Heydər Əliyev bu prosesi daim diqqət mərkəzində saxlayırdı və səfərləri zamanı ölkədən kənarda təhsil alan tələbə və aspirantlarla şəxsən görüşürdü. O, bu görüşlər zamanı tələbələrin qayğıları ilə maraqlanır, onların problemlərinin həlli üçün müvafiq göstərişlər verirdi. Bu gün artıq müstəqil Azərbaycan Respublikasının inkişafında o zaman bu proqram çərçivəsində təhsil almış mütəxəssislərin rolu olduqca əhəmiyyətlidir. Eyni zamanda, bu proses xarici ölkələrdə Azərbaycan diasporunun formalaşması və güclənməsi baxımından böyük önəm daşımışdır.

Qeyd etmək lazımdır ki, ölkə gənclərinin hərbi məktəblərdə təhsil alması da vacib məqamlardandır. Ümummilli Lider Heydər Əliyevin hələ SSRİ dönəmində bu vacib istiqaməti diqqət mərkəzində saxlaması onun uzaqgörənliyinin təzahürüdür. Müstəqil Azərbaycanın hazırkı hərbi qüdrəti o zaman bu sahə üçün kadr

hazırlığından qaynaqlanır. Bu kontekstdə eyni zamanda ölkədə C. Naxçıvanski adına hərbi liseyin açılmasını və fəaliyyətini də qeyd etmək yerinə düşər.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş kadr potensialının formalaşdırılması siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyev tərəfindən 2003-cü ildə irəli sürülmüş "qara qızılın insan qızılına çevrilməsi" konsepsiyası ölkə gəncləri üçün aparıcı xarici dövlətlərdə təhsil almaq imkanı yaratmışdır. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkənin kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi sahəsində fəaliyyəti də olduqca əhəmiyyətli və məhsuldardır. Onun təşəbbüsü ilə həyata keçirilən yeni məktəblərin inşası, tədris proqramlarının muasirləşdirilməsi, təhsilin inklüzivliyinə yönəldilmiş fəaliyyət, rəhbərlik etdiyi qurumlarda müasir kadrların hazırlanması və imkanlarının genişləndirilməsi yeni nəsil peşəkarlar ordusunun formalaşmasına xidmət edir. Müstəqil Azərbaycanda müasir tələblərə cavab verən kadr potensialının formalaşması sahəsində qazanılan nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin vaxtilə bu prosesi düzgün təməllər əsasında qurmasının nəticəsidir.

Ümummilli Lider Heydər Əliyev fenomeninin bir təqdirəlayiq cəhəti də gələcək perspektivləri düzgün müəyyənləşdirməsi və hərtərəfli inkişaf, o cümlədən insan potensialının inkişafına yönəlik yeni istiqamətlərdə qabaqlayıcı tədbirlərin reallaşdırılması ilə bağlı idi. Məsələn, hazırkı nəsillərin rifahını təmin edən və gələcək nəsillərin inkişaf imkanlarını məhdudlaşdırmayan davamlı inkişaf XXI əsrdə dünya üçün qlobal prioritetdir. 2015-ci ilin sentyabr ayında ABŞ-ın Nyu York şəhərində keçirilmiş dünya sammiti və BMT-nin 70-ci yubiley sessiyası davamlı inkişafın təmininin Yer kürəsində həyatın qorunması baxımından həlledici önəmini elan etmiş və bu sahədə 2030-cu ilə qədər bəşəriyyət qarşısında duran məqsədləri müəyyənləşdirmişdir. Həmin məqsədlərə nail olmaq üçün dünya əhalisi davamlı və insan potensialına əsaslanan inkişaf sahəsində müvafiq bilik və bacarıqlara malik olmalı idi. Göstərilən sahədə bilik və bacarıqların formalaşması üçün BMT və UNESCO 2005-2014-cü illəri dünya üzrə davamlı inkişaf sahəsində tədris onilliyi elan etmişdir. Sözügedən beynəlxalq təşkilatlar tərəfindən belə bir qərarın verilməsi məntiqi çox anlaşılan idi: 2005-2014-ci illərdə dünya əhalisi davamlı insan potensialına əsaslanan inkişaf, onun mahiyyəti və metodları barədə biliklərdirilir və 2015-ci ildən başlayaraq, göstərilən sahədə praktiki fəaliyyətə start verilir. Bu barədə sənəd 2005-ci il martın 1-də Nyu Yorkda, BMT-nin ozamankı baş katibi Koffi Annan və UNESCO-nun baş direktoru Koichiro Matsuura tərəfindən imzalanmışdır.

Davamlı inkişafın bəşəriyyət üçün prioritet əhəmiyyətini Ümummilli Lider Heydər Əliyev daha tez müəyyən edə bilmişdir. Onun təsdiq etdiyi Milli Təhsil Strategiyası artıq 2000-ci ildə orta ümumtəhsil məktəbləri və ali məktəblərdə davamlı insan inkişafının tədrisini nəzərdə tuturdu (şəkil 1).

Təqdim olunmuş məlumatlardan aydın olur ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycan Respublikasında davamlı inkişaf sahəsində biliklərin tədris prosesinə daxil edilməsi və bu sahədə kadr potensialının formalaşdırılmasına BMT və UNESKO tərəfindən qəbul olunmuş qərardan 4 il qabaq başlanılmışdı. Azərbaycanın bu qabaqlayıcı fəaliyyəti barədə məlumatı BMT Baş Qərargahı (Nyu York) 19 dekabr 2005-ci ildə "İdeyalar, innovasiyalar və təsirlər" başlığı altında dünyaya yayılmışdır. Azərbaycanın bugünkü uğurları məhz kadr potensialının hazırlanması və daimi təkmilləşdirilməsi ilə əlaqədardır. Bu prosesin əsası isə Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və bu unikal xüsusiyyətin inkişaf prosesinə təsirinə dair çox misallar gətirilə bilər. Bu misallardan biri Azərbaycan üçün önəmli sayılan neft sahəsi ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının bünövrəsinin əsasən 1994-ci ildə imzalanmış "Əsrin müqaviləsi" kimi tanınan, dünyanın aparıcı neft şirkətləri ilə bağlanmış müştərək fəaliyyətə dair müqavilələrlə qoyulduğunu vurğulayırlar. Lakin bu strategiyanın formalaşma tarixini Bakıda dərin özüllər zavodunun inşası dövrü ilə əlaqələndirmək daha doğru olar. Hazırda Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu müəssisənin təməli 1978-ci ildə qoyulmuş və zavod istismara 1984-ci ildə verilmişdir. Bakıda qurulmuş dərin özüllər zavodu o zaman keçmiş SSRİ-də bu tipli avadanlığı istehsal edən yeganə müəssisə idi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində bu müəssisənin Sovet dönəmində Bakıda qurulması müstəqillik dövründə ölkədə

həyata keçirilən neft və qaz layihələrini sürətləndirdi və onların iqtisadi səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəltdi. Şübhəsiz ki, bu, Ulu Öndər Heydər Əliyevin eyni zamanda bu sahədə də dərin biliklərə malik olmasından xəbər verir.

Ulu Öndər Heydər Əliyev ömrü boyu ölkənin inkişafı üçün çalışmışdır. Onun bilik və bacarığı, cəsarəti, qətiyyətli və prinsipial fəaliyyəti ölkənin müstəqillik qazanmasının vacib şərtidir. Bakıda baş vermiş 20 Yanvar faciəsi zamanı Moskvada böyük təzyiqlər altında olan Ulu Öndər Azərbaycan Respublikasının daimi nümayəndəliyinə gəlmiş və bu cinayətlə bağlı prinsipial mövqeyini ortaya qoymuşdur. Belə qətiyyətli hərəkət eyni zamanda özü, onunla birgə həmin tədbirdə iştirak edən ailə üzvü, hazırda ölkə Prezidenti İlham Əliyev üçün olduqca böyük risk idi. Ümumiyyətlə, qeyd edilməlidir ki, ölkənin ən çətin anlarında Ümummilli Lider misilsiz cəsarət örnəyi nümayiş etdirmişdir. Bu, özünü həm Xalq Cəbhəsinin ölkədə yarıtmaz fəaliyyəti dövründə, həmçinin bu yarıtmaz fəaliyyətin ağır fəsadlarının aradan qaldırılması zamanı da biruzə vermişdir. Dövlət idarəçiliyindən xəbəri olmayan, tutduqları vəzifələrin məsuliyyətlərini dərk etməyən həmin dövrdəki hakimiyyət təmsilçiləri ara-sıra işlərini qoyub paytaxtdan köç edir, vəzifələrini dondurur və digər yolverilməz məsuliyyətsizlik nümunələri ortaya qoyurdular. Bu ona bənzəyirdi ki, gəmini idarə edə bilməyən kapitan öz bacarıqsızlığı nəticəsində gəmini çox mürəkkəb, praktiki olaraq çıxılmaz vəziyyətə salır, sonra isə çarəsiz sərnişinləri idarə olunmayan gəmidə qoyub sahilə çıxır və elan edir ki, mən bu gəmini sahildən idarə edəcəyəm. Belə bir şəraitdə xalq yalnız Heydər Əliyevi xilaskar simasında görürdü. Xalq anlayırdı ki, Ümummilli Liderin Naxçıvan Respublikasında həyata keçirdiyi dərin düşünülmüş strateji dövlət idarəçilik təcrübəsi Azərbaycanın müstəqilliyini qorumaq baxımından həlledici əhəmiyyətə malikdir. O dönəmdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, respublikamızın SSRİ-nin tərkibində qalmasına dair referendumda iştiraka qarşı çıxması, dövlət simvollarının qəbulu və digər xidmətlər tarixi önəm daşıyırdı. Xalqın təkidli tələbləri ilə rəhbərliyə gəlmiş Ümummilli Lider ölkəni parçalanma, suverenliyin itirilməsi riskindən xilas etdi. Onun cəsarəti və müdrikliyi ölkədə vətəndaş müharibəsinin qarşısını aldı. Silahlı separatçılarla silahsız Ümummilli Liderin görüşləri respublikada vətəndaş qarşıdurmasının aradan qalxmasını təmin etdi.

Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin miqyası onun qurucusu olduğu Azərbaycan Respublikasının bugünkü nailiyyətlərində özünü biruzə verir. Beynəlxalq təşkilatların rəsmi hesabatlarına görə, bu gün Azərbaycan Respublikası iqtisadi imkanlarını ölkənin hərtərəfli inkişafı və insanların rifahının artırılması məqsədi ilə daha səmərəli istifadə edən dünya dövlətləri sırasındadır. Azərbaycan Respublikasının bu göstəricilərinin "böyük yeddilik" (G7) ölkələri ilə müqayisəsi şəkil 2-də nümayiş etdirilir.

Şəkil 2-dən aydın görünür ki, ölkənin hərtərəfli inkişafı və bu prosesin bütün əhalinin rifahının yüksəlməsinə xidmət edən inklüziv inkişafın məqsədlərinə nail olmaq üçün Azərbaycan G7 ölkələri ilə müqayisədə daha az vəsait sərf edir. Buna baxmayaraq, Davos Dünya Forumunun hesabatına əsasən, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 təşkil etdiyi halda, "böyük yeddiliyə" daxil olan ABŞ-da eyni göstərici 4,60, Yaponiyada 4,53, İtaliyada isə 4,31-dir. Az vəsait hesabına daha yüksək nəticələrin əldə edilməsi ilk növbədə dövlətin yüksək səviyyədə idarə edilməsi, yeni, daha optimal idarəetmə texnologiyalarının istifadəsindən xəbər verir. Bu idarəetmə texnologiyalarının işlənməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu texnologiyaların ölkə Prezidenti İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun inkişaf etdirilməsi və təkmilləşdirilməsi Azərbaycanı davamlı inklüziv inkişafın idarə edilməsində dünya liderləri səviyyəsinə yüksəltmişdir. Göründüyü kimi, Ulu Öndərin irsi bu gün də Azərbaycanın innovativ inkişafına xidmət edir.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dünyada tanıdılması üçün hər zaman böyük əzmlə çalışmışdır. Hazırda bu sahədə olduqca əhəmiyyətli fəaliyyəti onun adını daşıyan fond həyata keçirir. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin bu istiqamətdə fəaliyyətini inkişaf etdirərək, UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına 2003-2017-ci illərdə Azərbaycanın 13 milli nominasiyasının daxil edilməsinə nail olmuşdur. Bu nominasiyalar sırasında muğam, Novruz, aşıq sənəti, tar və tar ifaçılığı, kələğayı, çovqan - atüstü ənənəvi Qarabağ oyunu və digərləri yer alıb. Təbliğ edilən mədəni irslə bağlı bilgilər yüz və minillərlə məlumdur. Lakin onların UNESKO-nun siyahısında populyarlaşdırılmasına 2003-cü ildən sonra ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səyi nəticəsində nail olunmuşdur. Bu fakt bir daha göstərir ki, Ümummilli Liderin kadr siyasəti bu gün də işləyir və Azərbaycanın inkişafına töhfələrini verməkdədir. Heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin özünün təbirincə desək, zamanında düzgün müəyyənləşdirilən strategiyanın nəticəsi olaraq, "Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

Azərbaycan.- 2019.- 11 dekabr.-№ 275.- S. 1,3.

Müstəqilliyə gedən yol Heydər Əliyevin adı ilə bağlıdır

Məhəmməd Nərimanoğlu

Təhsillə gəncliyin üzvi surətdə vəhdət təşkil etməsi təbiidir. Müstəqil Azərbaycanın inkişafında, onun lider dövlətə çevrilməsində elm və təhsilin payı xüsusi çəkiyə malikdir.

Məhz buna görə də hələ keçmiş sovetlər birliyi dövründə Ümummilli Lider Heydər Əliyev bu sahənin inkişafına daha çox diqqət yetirmiş, gənclərin savadlı, bilikli, hərtərəfli inkişafı üçün müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmiş Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində Prezident İlham Əliyev zəngin faktlara söykənən çıxışında bu məsələyə xüsusi diqqət yetirdi. Ölkə rəhbəri qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti xalqımız qarşısında böyük xidmətlər göstərib.

AXC-nin yadigarı olan Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirib. Ötən yüz il ərzində bu ali təhsil müəssisəsinin 200 minə yaxın məzunu müxtəlif sahələrdə bilik və bacarıqlarını göstərib. Onların arasından görkəmli elm adamları - alimlər, ictimai xadimlər, siyasətçilər, müxtəlif sahələrin mütəxəssisləri çıxıb.

Müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. O, həm sovet, həm müstəqillik illərində, eləcə də sonrakı dövrdə xalq və dövlət qarşısında misilsiz xidmətlər göstərib.

Həmin illəri unutmayan insanlar yaxşı xatırlayırlar ki, Ulu Öndər Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət yetirirdi. Gənclərin SSRİ-nin yüksək kateqoriyalı aparıcı ali təhsil müəssisələrində oxumaları üçün bütün imkanlardan istifadə edirdi. Məhz bu qayğının nəticəsi idi ki, o zamanlar hər il təxminən 800 nəfərə qədər gəncimiz Bakıda imtahanlar verib, Moskva, Sankt-Peterburq (Leninqrad) kimi nəhəng şəhərlərdəki aparıcı ali məktəblərdə oxuyub, mütəxəssis kimi yetişərək Azərbaycanın xalq təsərrüfatının inkişafında xidmət göstərirdilər. Bu, ilk növbədə Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının yaradılması demək idi. Həmin illərdə yüksək təhsil almış kadrlar Azərbaycanı bu gün layiqincə təmsil edirlər.

Ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasət xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmışdı. Odur ki, Azərbaycan 1990-cı illərin əvvəllərində böyük fəlakətlə üz-üzə qalanda doğma xalqı Ümummilli Lideri haraya çağırdı. Çünki o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində Heydər Əliyevə böyük inam hissini saxlayırdı. Məhz buna görə xalq birmənalı şəkildə müstəqilliyə gedən yolu Heydər Əliyevin adı ilə bağlayır. Yaxın tariximizdən bilirik ki, Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsis olundu və bununla bağlı qərar qəbul edildi. Daha bir inkarolunmaz fakt isə ondan ibarətdir ki, Ulu Öndər müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, bir qarış torpağımız da işğal olunmaz, xalqımız və dövlətimiz təcavüzə məruz qalmazdı.

Azərbaycan Prezidenti tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, gənclər də bu tarixi bilməlidirlər: "Mən dəfələrlə bunu demişəm. Biz - bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əlisilahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti - özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin".

Dövlət başçısının yubiley tədbirində vurğuladığı kimi, bizi bizdən çox sevən, istəyən ola bilməz. Bunun dəfələrlə şahidi olmuşuq. Bəzi xarici dairələr, guya, Azərbaycana kömək etmək istədiklərini bildirirlər. Bu saxta canıyananlıq məkrliliyini gizlədə bilmir. Azərbaycan Prezidenti də məhz bu məsələyə toxunaraq deyir: "...Siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik.

Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz".

Daha bir məsələ: xaricdəki anti-Azərbaycan dairələr artıq açıq şəkildə bilirlər və etiraf da edirlər ki, burada sağlam müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr mövcuddur. Onlara pul təminatı da azaldığı üçün daha iyrənc bir yola əl atır, gəncləri əsas hədəf seçir, onları yoldan çıxarmaq, beyinlərini zəhərləmək istəyirlər. Lakin bu xalq ötən əsrin 90-cı illərindəki deyil. Ona görə də onların bu bəd niyyətləri həyata keçə bilmir. Çünki Azərbaycan gəncliyi vətənpərvərliyi, Vətənsevərliyi ilə tanınır. Buna görə də dövlət başçısı bu bəd niyyətə qarşı tələbə və müəllimləri ayıq-sayıq olmağa səslədi: müəllimlər gənclərə nəinki biliklər verməli, onları həm də vətənpərvərlik ruhunda tərbiyə etməlidirlər. Respublikamızın hərtərəfli inkişafının göstəricilərindən biri də internet istifadəçilərinin faizində öz əksini tapır. Belə ki, bu gün sosial şəbəkələrdən istifadə ölkə əhalisinin 80 faizini üstələyir. Bu həm də Azərbaycanda azad, demokratik cəmiyyət formalaşması, azad medianın mövcudluğu deməkdir. Bu, eyni zamanda Azərbaycandan qaçıb, xarici ölkələrdə öz doğma Vətəninə qarayaxma kampaniyası aparanlara sərt cavabdır.

Azərbaycan Prezidentinin istədiyi və tələbi odur ki, gənclər tarixi yaxşı bilməlidirlər: "...Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy ləkələsinlər, qoy yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək".

Dövlət başçısı müəllim peşəsinin çox şərəfli, məsuliyyətli, çox ağır olduğunu xüsusi vurğulayaraq qeyd etdi ki, onlar hər zaman tələbə qarşısında öz biliklərini nümayiş etdirməlidirlər: "...Tələbələr də indi hər şeyi görürlər, seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil".

Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Onlar ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla apara bilərlər. Azərbaycan Prezidenti hesab edir ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq.

Azərbaycan.-2019.-5 dekabr.-№270.-S.1,7.

Əbədi və sarsılmaz müstəqillik

Rəşad Cəfərli

Hər bir dövlətin qurulmasında tarixi hadisələrin xüsusi rolu və əhəmiyyəti olub. Bu baxımdan müstəqillik uğrunda xalqımızın mücadilə tarixinə nəzər salsaq milli dirçəliş hərəkatının öz yerinin olduğunu görərik. 31 il əvvəl, 1988-ci ilin noyabrında Bakıda insanlar meydanlara çıxmaqla Azərbaycanı müstəmləkə əsarətində saxlayan sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdılar. Həmin günlər göstərdi ki, xalqımız müstəqil olmağa, azad yaşamağa layiqdir.

Azadlıq ideyası milli düşüncəyə hakim kəsildi

Xalqımızın istiqlal mübarizəsinin əsas mərhələlərindən olan 1988-ci ilin noyabr hadisələri respublikamızın müstəqilliyinin bərpa edilməsində mühüm rol oynadı. Həmin dövrdə ermənilərin Topxana meşələrində törətdikləri vəhşiliklər, Ağdamda iki azərbaycanlının qətlə yetirilməsi ölkənin hər yerində milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində bir dəfə azadlığını əldə edən xalqımız müstəqillik arzularını reallaşdırmaq üçün yeni tarixi fürsətin yetişdiyini hiss edirdi. Beləliklə, 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

O dövrdə mərkəzdənqaçma meyillərinin gücləndiyi proseslərin gedişatı göstərirdi ki, yalnız yüksək amallara xidmət edən cahanşümul bir ideya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə danışdığımız müstəqil, dinamik inkişaf edən Azərbaycan reallığını ərsəyə gətirə bilərdi. O dövrdə ölkəyə rəhbərlik edənlər isə bundan uzaq idi. Özlərini milli azadlıq mücadiləsinin lideri hesab edənlərin də gələcəyə hesablanmış təkmil ideyaları yox idi. Azadlıq istəyi xalq hərəkatından başlasa da, meydanda rəhbərlik iddiasında olanların səbatsızlığı və sərişтəsizliyi nəticəsində və respublikanın dərin böhrana sürüklәndiyi bir vaxtda insanlar getdikcə daha da dərindən əmin olurdular ki, həqiqi liderə böyük ehtiyac var. Tarix də sübut edir ki, xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin müstəsna rolu danılmazdır. Tarix isə təkrarlanır və belə tarixi şəxsiyyətin, dahi siyasətçinin Heydər Əliyev olduğu hər kəs tərəfindən qəbul olunurdu. Bunu ovaxtkı ittifaq və respublika rəhbərliyi də aydın dərk edirdi. Ona görə də dahi siyasətçini siyasi təqiblərə, əsassız böhtanlara məruz qoyur, xalqın onun ətrafında birləşəcəyindən qorxur, Azərbaycana qayıdaraq siyasi fəaliyyətlə məşğul olmasına əngəllər törədirdilər.

Həlledici proseslər Heydər Əliyevin qayıdışından sonra başladı

Mənəvi və siyasi təqiblərə mətinliklə sinə gərən Heydər Əliyev hətta həyatı üçün cəhd edilən sui-qəsdlərdən çəkinməyərək sovet rəhbərliyi ilə cəsarətlə mübarizə apardı və doğma vətəninə - Azərbaycana gəldi. Beləliklə, 1969-1982-ci illərdə Azərbaycanın gələcək dövlət müstəqilliyinin bünövrəsini qoyan Heydər Əliyev xalqımızın ciddi və taleyüklü problemlər qarşısında dayandığı bir dövrdə öz həyatını təhlükə qarşısında qoyaraq milli mübarizə meydanına atıldı, misilsiz tarixi xidmətlər göstərdi, Azərbaycanın müstəqilliyinin əldə olunmasında, milli dövlətçiliyinin yaşadılmasında, milli birliyinin qorunub saxlanılmasında tarixi missiya həyata keçirdi.

Azərbaycanda dövlət müstəqilliyi yolunda mücadilə 1988-ci ildə xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər Heydər Əliyevin Azərbaycana qayıdışından sonra cərəyan etdi. Heydər Əliyevin gəlişindən sonra milli dirçəliş prosesi bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilərək, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olundu. Ulu Öndərin Naxçıvanda parlament seçkilərinə qatılması və qalib gəlməsi, respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana üz tutması, Heydər Əliyevlə təmasa can atması, insanlarla gündən-günə genişlənən çoxsaylı və kütləvi görüşlər Azərbaycanda milli azadlıq hərəkatının vüsət almasına və getdikcə daha mütəşəkkilləşməsinə müsbət təsir göstərməyə başladı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Naxçıvan Ali Məclisinin sonrakı iclaslarının birində Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi. Ali Məclisin qəbul

etdiyi qərarda SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliyinin 20 Yanvar faciəsinə görə birbaşa məsuliyyət daşıdıqları göstərildi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası Heydər Əliyevin başlatdığı bu prosesin yekun nəticəsi olmalı idi. Görülən hər bir iş, atılan hər bir addım isə Azərbaycan xalqını bu nəticəyə - dövlət müstəqilliyinin bərpa olunmasına yaxınlaşdırırdı. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Tarix Ulu Öndərin haqlı olduğunu sübut etdi

Müstəqillik mövzusu və bu istiqamətdə gərəkən addımlar Ulu Öndərin bütün çıxışlarının başlıca leytmotivi idi. Xüsusən Azərbaycan Ali Sovetinin iclaslarında Heydər Əliyev bütün çıxışlarında Azərbaycanın dövlət müstəqilliyinin qaçılmaz proses olduğunu bəyan edirdi. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin birinci sessiyasında təkidlə söz alan Ulu Öndər kommunist partiyası hakimiyyətinin sonunun çatdığını, SSRİ-nin tezliklə dağılacağını və respublikalarda başlanan müstəqillik mübarizələrinin qalib gələcəyinin dönməz bir proses olduğunu bəyan etdi. Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev Azərbaycanın milli müstəqilliyi və suverenliyi məsələsinə toxunaraq, müstəqilliyə çatmağın yollarını, əsas vasitələrini, demokratik dövlət quruculuğunun prinsiplərini göstərdi.

Ali Sovetdəki tarixi çıxışlarında Heydər Əliyev respublika rəhbərliyinin imzalamağa hazırlaşdığı ittifaq müqaviləsinin Azərbaycan üçün tam yararsızlığını yeni ittifaqa girməyin və bunun üçün hər hansı referendum keçirməyin əleyhinə olduğunu bildirirdi. 1991-ci il iyulun 19-da kommunist partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərini qulaqardına vurmamağa, kommunist partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

Tarix Heydər Əliyevin siyasi proseslərin gedişatını böyük uzaqgörənliklə gördüyünü və haqlı olduğunu sübut etdi. Hadisələr göstərdi ki, 1990-cı ildən başlayaraq SSRİ-nin və kommunist idarəçiliyinin perspektivsizliyi, Azərbaycanın müstəqil, demokratik dövlət qurmasının mümkünlüyü və müstəqilliyi haqqında Heydər Əliyevin uzaqgörən bəyanatları, bunu əsaslandıran siyasi baxışları öz işini görmüş, gələcək proseslərin gedişinə həlledici təsir göstərmişdi. Moskvadakı avqust hadisələrindən dərhal sonra Naxçıvan ərazisində kommunist partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Bu proses bütün Azərbaycana sirayət etdi və beləliklə, sovet hakimiyyət orqanları xalqın əzmi qarşısında geri çəkilməli oldu. Proseslərin gedişatı göstərirdi ki, respublika rəhbərliyi xalqın milli azadlıq mübarizəsinin, müstəqil və demokratik dövlətçilik hərəkatının qarşısında tab gətirmək iqtidarında deyil. Respublika Ali Sovetinin 1991-ci il avqustun 30-da növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etmək məcburiyyətində qalması faktı bu həqiqəti bir daha sübut etdi. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Siyasi hakimiyyət Heydər Əliyev və Azərbaycan xalqının müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək 1991-ci il oktyabrın 18-də nəhayət ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının" qəbul edilməsinə razılıq verdi. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: "Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı".

Dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edən siyasət

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Fəqət, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. 1991-1993-cü illərdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş gördülər, əksinə, ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər. Bütün bunlar isə nəticə etibarilə müstəqilliyin məhvinə aparırdı. Belə bir vəziyyətdə Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin tələb və istəyi ilə hakimiyyətə gələn xalqımızın böyük oğlu Heydər Əliyev müstəqil dövlətçiliyimizi, suverenliyimizi bütün təhlükələrdən, təhdidlərdən xilas etdi. 1993-cü ilin iyunundan dövlətimizin idarəçilik sükanının arxasına keçən Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu, ən əsası Azərbaycanın dövlət müstəqilliyini təmin etdi.

Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyevin ideyalarının başlıca qayəsini təşkil edir. Son 16 ildə ölkəmizdə həyata keçirilən siyasi kursun mahiyyətində məhz bu amil dayanır. Heydər Əliyev siyasətini layiqincə yaşatmaqla yanaşı, həm də dövlət idarəçiliyində və siyasət meydanında yeni məktəbin banisi olan Prezident İlham Əliyevin həyata keçirdiyi dərin məzmunlu və çoxşaxəli siyasi kurs isə Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Ulu Öndərin neft strategiyasının uğurla reallaşması, iri enerji layihələrinin işə düşməsi və yeni iqtisadi layihələrə start verilməsi, eləcə də regionda cərəyan edən proseslərlə bağlı ölkə rəhbərinin uzaqgörən siyasi yanaşmaları Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir.

Azərbaycan.-2019.-17 noyabr.-№255.-S.1,5.

Azərbaycanın müstəqil dövlət siyasəti ölkəmizin uğurlarını və nüfuzunu artırır

Əminə Yusifqızı,
"Kür" qəzetinin baş redaktoru, Əməkdar jurnalist

Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir.

Heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Çağdaş dünyada tarixlərdən gələn bir uca həqiqət hökmrandır: böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, o ölkələr irəli gedir, əmin-amanlıq içərisində yaşayır ki, orada xalqla rəhbərliyin bir-birinə inamı möhkəm vəhdət yaradıb. Biz bu həqiqətdən yaxın tariximizdə qədərincə dərs almışıq. Sovet imperiyasının süqutu zamanı yerli müti rəhbərlər xalqla bir yerdə olmadığına görə ölkəmiz ağır faciə və fəlakətlərə düçar oldu.

Xalqın inamını heçə endirən meydan natiqlərinin idarəetmə səriştəsizliyi məsuliyyətsizlik və xəyanətkarlıqla tamamlananda isə yenicə qazanılmış dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdik. Yalnız öz Vətəninə tarixi xidmətləri ilə ümummilli lider səviyyəsinə yüksəlmiş ulu öndər Heydər Əliyev o ağır məqamda xalqın tələbi ilə hakimiyyətə qayıdıb milli birliyi təmin edəndən sonra gənc Azərbaycan dövləti xilas və uğurlar yoluna çıxdı.

Xalq bir daha inandı ki, onun həqiqi maraqlarını qoruyan lider olmadan çağdaş dünyada bir addım da irəli getmək, dövlətlər cərgəsində layiqli yer tutmaq -mümkün deyil. Azərbaycan xalqının növbəti müstəqillik şansını lazımi səviyyədə dəyərləndirən, onun milli birlikdən güc alan enerjisini zəngin təbii sərvətləri və üstün geosiyasi mövqeyi ilə üzvi surətdə qovuşduran dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyev suverenliyimizi xilas edərək möhkəmləndirdi və əbədi mövcudluq yoluna çıxardı.

Ulu öndərin bu tarixi yola rəhbərliyi ən layiqli varisi, ideya və əməllərinin ən sadiq davamçısı İlham Əliyevə etibar etməsi son 16 ildə Azərbaycan dövlətinin müstəqil siyasətinin, davamlı inkişafının və dünyada qazandığı yüksək nüfuzun ən başlıca təminatı olmuşdur. Xalqımız bu günlərdə Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başlayarkən, öz xalqına və sələfinin qoyduğu yola sədaqətlə xidmət andı içməsinin növbəti ildönümünü yada salmaqla "xalq–lider" tandeminin nəyə qadir olduğunu bir daha yəqin etdi. Təkcə son aylarda ölkəmizin də iştirakçısı olduğu bir sıra dramatik beynəlxalq hadisələrdə Azərbaycan rəhbərinin dərin zəkası, möhkəm iradəsi və çevik addımları müstəqil dövlətimizin ali idarəetmə sükanının necə müdrik və qüdrətli liderin əlində olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Azərbaycan Prezidentinin bu uğurlarının əsasında xalqın öz liderinə olan dərin inam və etimadı, dövlət başçısının isə öz xalqına, Vətəninə sonsuz sevgi və sədaqəti dayanır. Ölkə rəhbərini xalqa sevdirən ən önəmli amil onun əsl dövlət başçısına xas qətiyyəti, atdığı hər addımda milli maraqları öndə tutmasıdır. Prezident İlham Əliyevin siyasət meydanında atdığı son uğurlu addımlardan ikisinə–dünyada geniş əks-səda doğuran nüfuzlu beynəlxalq "Valday" diskussiyasında və Aşqabadda keçirilən mötəbər iclasda səsləndirdiyi qalibiyyət akkordlarına nəzər salaq.

Ötən ay Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik plenar sessiyasında Prezident İlham Əliyev çıxışı zamanı Rusiya ilə Azərbaycanın ən vacib və aktual məsələlərdə bir-birini dəstəklədiyini vurğuladı. Azərbaycan Prezidenti, eyni zamanda, Rusiyanın Avropa Şurası Parlament Assambleyasına qayıtması məsələsinin müzakirə edildiyi təşkilatın iyun sessiyasını misal çəkdi. Sonda isə Azərbaycan rəhbəri Ermənistanın siyasət meydanında baş-ayaq vuran baş naziri Nikol Paşinyanın beynəlxalq hüququ saya salmayan bədnam bəyanatını sabun köpüyü kimi yox etdi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev işğalçı dövlətin ölkəmizə hərbi təcavüzünün nəticələrinə diqqət yetirdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur, yerinə yetirilmədiyini vurğuladı. Azərbaycan Prezidenti Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" saxtakarlığının heç bir gerçəyi əks etdirmədiyini dedi: "Qarabağ tarixi Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Bu hökm Ermənistanın baş naziri Nikol Paşinyanın apardığı siyasətin darmadağın edilməsi və Qarabağ həqiqətlərinin, ölkəmizin haqlı mövqeyinin bir daha dünyaya çatdırılması baxımından çox əhəmiyyətli oldu. Bu nida Paşinyanın Ermənistanda və ondan kənarda dövlət başçısına yaraşmayan çıxışlarına verilən qəti və aydın bir

cavab idi. “Qarabağ Azərbaycandır və nida işarəsi” məntiqi dövlət başçımızın timsalında xalqımızın dünyada əks-səda verən haqq səsi idi. Bu bəyanat ötən əsrin əvvəllərində “Yox millətimin xətti bu imzalar içində”– deyən şair Məhəmməd Hadinin məxsus olduğu xalqın bizim günlərdə öz taleyini etibar etdiyi dövlət başçısı İlham Əliyevin “Var millətimin dövləti dövlətlər içində”– deməsi idi.

“Valday nidası”nın əks-sədası səngiməmiş Ermənistan və onun sərsəm rəhbəri Paşinyan növbəti ağır “Aşqabad dərsi”ni aldı. Azərbaycanın dövlət başçısının ard-arda vurduğu bu sarsıdıcı zərbələr Paşinyanın hədyanlarını silib bir kənara atdı. Prezident İlham Əliyev birlik dövlətlərinin Aşqabad zirvə görüşündə qeyd etdi ki, faşizm üzərində qələbə çalınmasında Azərbaycan xalqının danılmaz xidmətləri var və bunu faktlarla açıqladı. Ölkəmizin rəhbəri vuğuladı ki, Emənistan faşist cəlladlarının xatirəsini əbədiləşdirir və bu dövlət səviyyəsində həyata keçirilir. İrəvanda Qaregin Njdeyə abidə qoyulub, adına küçə verilib. Bu isə Ermənistanın faşizm ideyasına necə bağlı olduğunun, terrorçu və işğalçı bir dövlət olduğunun göstəricisidir. Bu sübutlar qarşısında Paşinyanın isterik halda baş-ayaq vurması onu bir daha gülünc vəziyyətdə qoydu.

Bu yerdə alman səyyahı Alferd Kertenin sözləri yada düşür: “Türklərlə iş görəndə, sadəcə, danışmaq kifayətdir, hansısa müqavilə bağlamağa ehtiyac yoxdur. Əgər yunanla iş görmək istəyirsinizsə, mütləq müqavilə bağlayın. Erməni ilə belə bir fikriniz olarsa, onda heç bir sənədləşmə aparmağın əhəmiyyəti yoxdur, mütləq şərə rast gələcəksiniz. Erməni ilə rastlaşmaq təhlükəlidir, onu yuxuda görmək də xeyir gətirmir”. Başabəla başçılarının millətçilik xülyaları ilə bəşəri dəyərlərdən uzaqlaşmış topluma verilən qiymətə nəsə əlavə etməyə ehtiyac qalmır.

Əslində, Paşinyan və onun ölkəsi həm diplomatik, həm də hərbi müstəvidə Azərbaycanın nə qədər güclü bir dövlət olduğunu çox gözəl bilir. Bunun ən bariz nümunəsi Aprel döyüşlərində qazanılan zəfər uğurlarımızdır. Hələlik havadarlarının yeritdiyi ikili standart siyasəti nəticəsində torpaqlarımızı işğal altında saxlayan erməni qəsbkarları gec-tez qovulacaqlar. Ötən həftələrdə bütün dünya belə bir mənzərəni maraqla izlədi: Prezident və baş nazir beynəlxalq görüşdən qayıdır–Azərbaycan Prezidenti nə qədər məğrur, inamlı, Ermənistan baş naziri nə qədər məyus, bədbin...

“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və hiss eləsin”– deyən cənab İlham Əliyevin arxasında Azərbaycan xalqı elə möhkəm dayanıb ki, qarşısında nə düşmənlərimiz, nə də “sapı özümüzdən olan baltalar” tab gətirə bilir. Bu gün biz yevlaxlılar da -İlham Əliyevin daim qələbə müjdəli siyasətini tam dəstəkləyirik, bu sarsılmaz birliyin xalqımızı zəfərlərdən-zəfərlərə aparacağına tam əminik.

Bu gün YAP Yevlax rayon təşkilatının sıralarında 9 mindən çox insan var və onların hər biri bu partiyanın üzvü olmasından şərəf və qürur duyur. Onlar özlərini ölkənin ən böyük siyasi qurumunun üzvü saymaqdan əlavə, həm də zamanın sınaqlarından çıxmış bir partiyanın üzvü, şərəfli tarixin daşıyıcısı və qurucusu olmaq məsuliyyətini bir an da unutmurlar.

Ötən həftələrdə Bakının mərkəzi hissələrində piket adı ilə qarışıqlıq törədən və icazəsiz mitinq keçirməyə cəhd edən dağıdıcı müxalifət nümayəndələri, görəsən, nəyə nail olmaq istəyirlər? Prezidentin Valday və Aşqabad çıxışları, ermənilər qədər onları da çaş-baş saldı. Baxın, kin, nifrət , qəzəb onları nə qədər kor edibsə, ən böyük nailiyyətlərimizdən olan milli birliyi pozmaq üçün ağıllarına nə gəlir edir, ağızlarına nə gəlir deyir, hansı yolla olursa-olsun, qarışıqlıq salmaq istəyirlər. Xalqın isə Valday və Aşqabad çıxışlarından, Bakıda keçirilən Türk Şurası və Qoşulmama Hərəkatı zirvə görüşlərindən sonra öz Prezidentinə olan sevgisi və güvəni bir daha artdı. Bu birliyi, inamı qəbul etməyənlər, düşmən dairələrdəki havadarlarına Azərbaycanla bağlı çirkin donoslar göndərənlər, küçələrdə qarışıqlığa cəhd edənlər isə nə qədər zavallı olduqlarını bir daha göstərdilər.

Nəhayət, ölkəmizdə siyasi qətiyyət və müdriklik örnəyi olan, dövlətimizin müstəqil siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin dünya siyasətində sərgilədiyi qalibiyyət akkordları ölkəmizdə ümummilli vəhdəti və xalqın öz liderinə inamını daha da gücləndirir.

Xalq qəzeti.-2019.-9 noyabr.-№250.-S.6.

Müstəqil Azərbaycanın mədəniyyət siyasətinin inkişaf dinamikası

İftixar
Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

2019-cu il sentyabrın 27-dən 29-dək Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə paytaxtımızda, Bakı idman Sarayında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyi münasibətilə festival xarakterli, möhtəşəm VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçirildi.

Bəli, bu tədbirin beynəlxalq festival adlandırılması doğrudur, ona görə ki, burada təkcə Azərbaycan nəşriyyatları deyil, dünyanın 22 ölkəsindən 40 xarici nəşriyyat, kitab evləri və sair qurumlar öz nəşrlərini sərgiləyir, müəlliflərin imza günləri və müxtəlif görüşlər keçirməklə performans edirdi. Xarici qonaqların, dövlət və hökumət rəsmilərinin, şairlərin, yazıçıların, tənqidçilərin, ümumən mədəniyyət xadimlərinin, kitabsevərlərin qatıldığı bu bayram tədbiri, həqiqətən, ürəkaçan və ruha qida verən, gərəkli, mötəbər bir mədəniyyət törəni idi.

Mədəniyyət naziri Əbülfəs Qarayev sərgi-yarmarkanın açılışında ölkəmizdə gedən ümumi inkişaf prosesində mədəniyyətimizin mühüm qolu olan və cəmiyyətin formalaşmasını öz çiyinlərində daşıyan kitab fəlsəfəsinin mahiyyətindən danışarkən düşüncəm məni müstəqillik dövrümüzün mədəniyyət siyasətinin son on ilinə və bir az da arxaya ekskurs etməyə, bu illər ərzində mədəniyyətimizin inkişaf mərhələsinə bir sənətkar nəzərləri yetirməyə istiqamətləndirdi. Sual doğa bilər ki, niyə son on il və bir qədər də arxaya? Deməliyəm ki, öncə gözlərim önündə dərhal, qeyri-ixtiyari, rəhbərlik etdiyim, deportasiya həyatı yaşayan C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının, bütün tarixi boyu heç vaxt nail olmadığı, lakin son on-on üç ildə qazandığı nailiyyətlər canlanmağa başladı və məhz o istiqamətdən də, ümumən mədəniyyətimizin son on ildəki, bir qədər də əvvəldən başlayan inkişaf dinamikası diqqətimi özünə cəlb etdi.

Ölkəmizdə son illərdə gedən mədəniyyət siyasətinin inkişaf mərhələsinə diqqət yetirdikcə, çox əhatəli, dinamik bir mənzərə öz rəvan ahəngi ilə, bir kəhkəşan kimi bərq vurmağa başlayır. Dediyim kimi, İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycan mədəniyyət ailəsinin bir nümayəndəsi kimi on il müddətində mühüm inkişaf prosesi keçmişdir. Əlbəttə ki, bu proses ümumən ölkəmizdə mədəniyyət strategiyasının axın selində bir zərrəcikdir, lakin mədəniyyət siyasətimizin ümumi mənzərəsi elə bir yüksəklikdə bərqərardır ki, bu yüksəklik məhz ölkənin ümumi inkişaf dinamikasından bəhrələnməklə və bu dinamikada ləngimədən çalışmaqla əldə olunan bir həqiqət olduğunu göstərməkdədir. Təkcə 2019-cu ilin mədəniyyət hadisələri bu uğurların bünövrəsinin monumental başlanğıca bağlı olduğunu diktə edir.

2019-cu ilin ən mühüm mədəniyyət hadisəsi 7 iyulda UNESCO-nun Bakıda keçirilən Dünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın Şəki şəhərinin tarixi mərkəzinin Şəki Xan sarayı ilə birgə Dünya irs siyahısına daxil edilməsi faktıdır ki, bu hadisə ölkəmiz və mədəniyyətimiz üçün böyük mahiyyət kəsb edir və mədəniyyət dinamikamızın iti hərəkətini sərgiləyir. Belə bir təəssürat yaranır və bu təəssürat belə bir kursu istiqamətləndirir ki, bu hadisə gələcəkdə Şuşa, İrəvan şəhərlərimizin, Azıx mağaramızın və bütövlükdə Azərbaycanımızın bir dünya incisi məkanı olaraq, dünya mədəni irsi kimi qəbul olunacağına və tanınacağına gətirib çıxaracaqdır.

Mədəniyyətimizin belə böyük uğurları, heç şübhəsiz ki, böyük zəhmətin və gərgin əməyin hesabına əldə olunur və bu nailiyyətlərin hamısı ölkə rəhbərinin verdiyi tövsiyə və tapşırıqların uğurla həyata keçirilməsinin nəticəsidir.

Nəzərlərimin tuta bildiyi təkcə son on ildə qazanılan nailiyyətlərin gözəçarpan cəhətlərini incələdikcə, aşağıdakı mənzərə canlanmaqla, məni köksümə sığmayan fərəh hissləri ilə öz ağuşuna alır. Bu anda mütləq olaraq onu qeyd etmək vacibdir ki, birmənalı şəkildə bütün sahələrdə olduğu kimi, məhz mədəniyyət sahəsində də inkişaf mərhələsinin bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən yaradılmışdır. Mədəniyyət siyasətimizin inkişafı da məhz həmin təməllərə istinadın, bu sahəyə rəhbərlik edən və çalışan insanların peşəsinə, millətimizə, dövlətimizə sədaqətinin səciyyəsidir. Baxın, ulu öndərimizin 1995-ci il 18 sentyabr tarixində imzaladığı fərmana əsasən, hər il sentyabr ayının 18-də ənənəvi olaraq ölkəmizdə Üzeyir Musiqi Günü keçirilir. Bu elə bir mühüm məsələdir ki, təkcə böyük bəstəkarın yaradıcılığına qiymət vermək niyyəti ilə məhdudlaşmır, həm də bütün Şərqdə ilk peşəkar bəstəkarı məhz Azərbaycan xalqının yetişdirdiyini dünyaya bəyan edən böyük azərbaycançılıq məfkurəsi ilə geniş miqyas alır.

Müstəqillik dövrümüzdə bu kimi çoxlu sayda fərman və sərəncamlar imzalanmışdır ki, həmin fərman və sərəncamlar bütövlükdə Azərbaycan mədəniyyətinin strategiyasını günün tələbləri ilə inkişafa doğru hərəkət etdirməkdədir. Mədəniyyətimizin yüksək amallarla qorunması, zənginləşməsi və inkişaf etməsi üçün ölkə rəhbəri tərəfindən imzalanan "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" kimi mühüm məsələlər əsas verir ki, ölkəmizin ümumi inkişaf strategiyasında Azərbaycan mədəniyyəti öz kursunu doğru və düzgün siyasətlə apara bilsin, nailiyyətlər qazansın.

Mədəniyyətə bünövrədən bu cür yanaşma ilə sabaha açılan pəncərədən bu strategiya Heydər Əliyev Fondunun öncüllüyü ilə daha geniş miqyas aldı. Təməli düzgün qoyulmuş, fövqəladə həssaslıqla müasir «dünyanın tələblərinə uyğun şəkildə, dünya mədəniyyət xəritəsinə ilmə-ilmə toxunan bugünkü mədəniyyət siyasətimizin strategiya müəllifi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, beynəlxalq miqyasla əhatələnən böyük nailiyyətlərin əldə olunmasının təminatçısı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevadır. Artıq neçə illərdir ki, bu işıqlı addımlar müstəqillik dövrü mədəniyyətimizin inkişaf kursunu müəyyənləşdirir, bu kursa uyğun olaraq mədəniyyət siyasətimizin formalaşmasını təmin edir və mədəniyyət sistemimizin özünəməxsus istiqamətdə inkişaf etməsi üçün səmərəli yollar açır və bizim dünya miqyasında layiqli mövqeyimizi müəyyənləşdirməmizə təkan verir. Məhz mədəniyyətimizin hamilərinin ardıcıl zəhməti və böyük xidmətləri hesabına Azərbaycan muğamının, aşıq sənətinin, tar ifaçılığı, kamança ifaçılığı, xalçaçılıq, Lahıc misgərlik sənətlərinin, Novruz bayramı, çövkən atüstü oyunu, kəlağayı sənəti, milli mətbəximizin nümunələri olan lavaş və dolma, rəqs sənətimizin nümunələri - Yallı (Köçəri, Tənzərə), "Kitabi-Dədə Qorqud" eposu, eləcə də Qobustan qoruğu, "İçərişəhər" qoruğu (Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə) və Şəkinin tarixi hissəsinin UNESCO-nun müvafiq siyahılarına daxil edilməsi, Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması və muğam sənətimizin dirçəlişində və inkişafında xüsusi yer tutan beynəlxalq muğam festivallarının keçirilməsi və sair bu kimi zəngin mədəni hadisələr mədəniyyət siyasətimizin düzgün strategiyasının və bu istiqamətdə aparılan mühüm işlərin parlaq təzahürüdür.

Mədəniyyətimizin çoxxətli inkişafını formalaşdırmaq, mədəniyyət sahəsinə aid olan sektorların, o cümlədən durğunluq dövrünü yaşayan turizm sektorunun yenidən qurulması və möhkəmləndirilməsi üçün Prezident İlham Əliyevin 2006-cı il 30 yanvar tarixli fərmanı ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yaradıldı. Fikrimcə, burada məqsəd inkişafa doğru irəliləyən mədəniyyət siyasətinin içində turizm sektorunun sürətlə inkişafa qoşula bilməsinə bir rəvac vermək idi. Atılmış addım özünü doğrultdu. Ona görə də bu gün turizm sektoru artıq ayrıca bir qurum olaraq fəaliyyətini davam etdirir və müasir dünya ilə ayaqlaşmaq üçün günbəgün irəliləyir.

Mədəniyyət Nazirliyinin bilavasitə iştirakı ilə həyata keçirilən beynəlxalq miqyaslı layihələr təkcə mədəniyyət sahəsinin inkişafı, tərəqqisi və təbliğini təmin etmir, əslində, mədəniyyət fenomeni ilə, bütövlükdə ölkəmizin, millətimizin və ölkəmizdə yaşayan bütün insanların varlığına verilən dəyərin, Azərbaycan tolerantlığının və sair bu kimi mühüm məsələlərin mötəbər qonaqlara, öz simasında, olduğu kimi, bütün həqiqətləri ilə təqdim edilməsi və tanıdılması işlərini ön plana çıxarır. Bakıda beynəlxalq layihələrin keçirilməsi zamanı xaricdən ölkəmizə dəvət olunmuş mədəniyyət xadimlərinin ən çox təbliğetmə imkanına malik olduğunu nəzərə alsaq, həmin qonaqlara xalqımıza xas xüsusiyyətlərlə göstərilən diqqət, isti və həssas münasibət, eyni zamanda həqiqətləri faktlarla onların diqqətinə çatdırma və sair bu kimi mühüm gerçəkliklərlə zəngin olan hadisələri sərgiləmək, düşmən qüvvələrin onların təsəvvüründə yaratdığı qara piarlar nəticəsində ortaya süni şəkildə çıxarılmış təəssüratları heçə endirməyə başladı və bu layihələrin nəticəsi olaraq, Azərbaycan haqqında dünyada real fikir formalaşdı. Ölkəmiz haqqında kompleks şəkildə tanışlıqdan sonra, xarici mötəbər qonaqların hər biri öz vətənlərinə dönərkən, Azərbaycanda gördükləri bütün gerçəkliklərin istər-istəməz təbliğatçılarına çevrilirlər. Təəssüratlarını öz ətrafları ilə bölüşmələri və reallıqları qəzet və jurnallarda məqalələr dərc etdirməklə ortaya qoymaları, şübhəsiz ki, ölkəmiz və ölkəmizdə gedən quruculuq işlərinin həqiqətlərini fövqəladə şəkildə ifadə edir.

Azərbaycan Respublikası təkcə Azərbaycan mədəniyyətinin deyil, ümumtürk mədəniyyət şəbəkəsinin də inkişaf etdirilməsini və bu istiqamətdə real addımlar atmaq məqsədilə TÜRKSOY-un fəaliyyətinə misilsiz dəstək göstərməyi və türk dünyasının mədəniyyət dəyərlərini birləşdirən, qoruyan və inkişaf etdirən bu qurumun işlərində bilavasitə yaxından iştirak etməyə, daha doğru olar deyək ki, öncül olmağa çalışır. Bu məqsədlə mühüm layihələrin təşəbbüskarı olan Mədəniyyət Nazirliyi ən maraqlı layihələrdən birinin, 2009-cu ildə Azərbaycan milli opera sənətinin şah əsəri olan Ü. Hacıbəylinin "Koroğlu" əsərinin TÜRKSOY-un xətti ilə tamaşaya qoyulmasına nail oldu. Beynəlxalq layihə əsasında hazırlanan tamaşada Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan, Tatarıstan, Başqırdıstan musiqiçiləri

Üzeyir Hacıbəylinin işığına toplaşdılar. Tamaşa Ankara, İstanbul, Bakı, Bişkek və Astanada böyük uğurla tamaşaçıların ixtiyarına verildi və yüksək maraqla qarşılandı.

Respublikamızda bir-birini əvəzləyən beynəlxalq teatr və musiqi festivallarının geniş miqyas alması məhz mədəniyyət aləminin dinamik inkişafının göstəricisidir. Bu fikrin təsdiqi gözlərimiz önündə bir anlıq tezislər şəklində canlanan aşağıdakı dolğun mənzərədə daha parlaq şəkildə özünü ifadə edir.

2007-2019-cu illərdə ənənəvi Beynəlxalq Mstislav Rostropoviç festivalları; Vokalçıların Bülbül adına beynəlxalq müsabiqələri; hər il keçirilən Bakı Caz Festivalı; Ü. Hacıbəyliyə həsr olunmuş beynəlxalq musiqi festivalları; Qəbələ beynəlxalq musiqi festivalları; "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramına əsasən teatrların binalarının əsaslı təmiri və yenidən qurulması, 2010-2018-ci illərdə beş dəfə reallaşan Bakı Beynəlxalq Teatr Konfransı; bəşəriyyət üçün ciddi maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli

dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə 2011-ci ildən etibarən təşkil edilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu kimi mötəbər tədbirlər. 2011-ci ildə "Eurovision" mahnı müsabiqəsinin qalibi olmaq və müsabiqənin şərtlərinə uyğun olaraq, növbəti ildə həmin yarışmaya ev sahibliyi etmək, bu böyük mədəniyyət hadisəsinə hazırlıq müddətində aparılan geniş mədəniyyət işləri, o cümlədən Bakının ən gözəl səmtində, bulvarda, dünya arxitekturasına daxil ola bilən konsert salonunun ərsəyə gətirilməsi, yarışmanın Azərbaycanın paytaxtında keçirilməsi ilə dünyanın diqqətinin ölkəmizə yönəldilməsi; 2009-cu ildə Bakının, 2018-ci ildə Naxçıvanın "İslam Mədəniyyəti Paytaxtı" elan olunması; 2014-2018-ci illərdə Şəki Beynəlxalq Teatr Festivalının keçirilməsi, dövlət teatrlarımızın, korifey sənətkarlarımızın yubileylərinin keçirilməsi və digər mədəniyyət tədbirlərinin təşkili, bu fəaliyyətin nəticəsi olaraq bir çox xarici televiziya kanallarının diqqətini çəkmək, Azərbaycan mədəniyyətinin müxtəlif üstün cəhətlərinin həmin kanallar vasitəsilə dünyaya tanıdılması - bir məqalədə hamısını sadalaya bilmədiyimiz bütün bu layihə və tədbirlər mədəniyyət sahəsinin canlanmasına xidmət edən amillərdir.

(ardı var)

Mədəniyyət.-2019.-8 noyabr.-№81.-S.6.

Müstəqil Azərbaycan inkişaf və demokratiya yolu ilə inamla irəliləyir

Əliqismət Bədəlov

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlər boyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan bir əsrdə iki dəfə dövlət müstəqilliyini elan etmiş nadir ölkələrdəndir. Müsəlman dünyasında ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də xalqımızın qədim dövlətçilik ənənələrini bərpa etdi və Şərqdə ilk müstəqil respublika kimi adını tarixə yazdı. Bu gün də böyük iftixar və qürur hissi ilə deyirik ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi və tarixi zərurət kimi yarandı. Bu, Azərbaycan tarixində baş verən ən əlamətdar və önəmli hadisədir. Ulu öndər Heydər Əliyev də bu tarixi hadisəni yüksək qiymətləndirmişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, İstiqlal bəyannaməsinin elan olunması böyük zəka, uzaqqörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz həmin gün bu tarixi addımı atdılar".

Tarixi faktlar da təsdiqləyir ki, Azərbaycanı müstəqilliyə aparan yol heç də asan olmayıb. Ancaq xalqını, millətini sevən vətənpərvər insanların demokratiya, müstəqillik, istiqlaliyyət arzusu çətinliklə də olsa, reallaşdı və bu yolda qarşıya çıxan bütün maneələr dəf edildi.

Cəmi 23 ay yaşasa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin əsasını qoydu. "İstiqlal bəyannaməsi" insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə, irqi, milli və digər bərabərsizliklərin ləğvinə, sivilizasiyalı dövlətlərin inkişaf etmiş demokratiyasından istifadə edilməsinə əsaslı şərait yaratdı. Bəyannamədə göstərilirdi ki, Azərbaycan demokratik respublika formasında müstəqil və suveren dövlətdir, ali hakimiyyət xalqa məxsusdur, beynəlxalq birliyin bütün üzvləri ilə dostluq əlaqələri yaradır və öz ərazilərində yaşayan xalqların bərabər inkişafına şərait yaradır.

Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də tarixi uğur qazanaraq dövlət müstəqilliyini yenidən bərpa etdi. Həmin gün dövlət müstəqilliyinin bərpa olunması haqqında parlamentdə Konstitusiya Aktının qəbul edilməsi ilə respublikamız müstəqilliyinə qovuşdu.

Azərbaycanın müstəqillik tarixi o vaxtdan başlansa da, əslində, bu istiqamətdə əsaslı dönüşün başlanğıcı ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından hesablanır. Çünki müstəqilliyimizin ilk illərində xalqımız, sözün həqiqi mənasında, ağır, məşəqqətli günlər yaşadı. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə başlanan münaqişə, digər tərəfdən də daxildə birincilik uğrunda mübarizə vəziyyəti son dərəcə ağırlaşdırdı. Yenicə qazanılmış müstəqilliyimizin başı üstünü almış real təhlükə xalqı addım-addım uçuruma yaxınlaşdırırdı. Dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda respublikamızın o zamankı rəhbərləri taleyüklü vəzifələrin öhdəsindən gələ bilmirdi. Məhz buna görə də torpaqlarımızın xeyli hissəsi itirilmişdi və vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Xalq belə məqamda yeganə çıxış yolu kimi ulu öndər Heydər Əliyevə müraciət etdi. Ulu öndər xalqın müraciətini qəbul etdi və müstəqil Azərbaycana rəhbərliyə razılıq verdi.

Dövlət müstəqilliyimizi milli sərvət hesab edən ümummilli lideri Heydər Əliyev demişdir: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsaslı dönüş yarandı. Ulu öndər Heydər Əliyev ölkəni siyasi və iqtisadi tənəzüldən, hərc-mərclikdən, müstəqilliyin itirilməsi təhlükəsindən çıxardı, sabit və tarazlı milli inkişaf strategiyasının konseptual istiqamətlərini müəyyənləşdirdi. Həmin gündən elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Həyata keçirilən təxirəsalınmaz tədbirlərin nəticəsi kimi respublikamızda ciddi nizam-intizam yaradıldı, əhalidə qorxu və vahimə yaradan qeyri-qanuni silahlı dəstələr ləğv edildi. Ordu quruculuğundakı pərakəndəliyə son qoyuldu və Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması istiqamətində mühüm addımlar atıldı. Ulu öndərin qarşıya qoyduğu əsas vəzifələrədn biri də Ermənistanın başladığı müharibəni

dayandırmaq, atəşkəs barədə saziş imzalamaq və bundan istifadə edərək ölkəmizin inkişafına nail olmaq, beynəlxalq aləmə inteqrasiaya istiqamətində qəti addımlar atmaq idi. Ulu öndərin dövlət idarəçiliyindəki zəngin təcrübəsi və beynəlxalq aləmdəki nüfuzu sayəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Bundan sonra davamlı olaraq həyata keçirilən tədbirlər də təsdiqləyir ki, Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu, dövlətçiliyin qorunub saxlanılması, möhkəmləndirilməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndərin dövlət quruculuğu və müstəqilliyimizin möhkəmləndirilməsi yolunda həyata keçirdiyi genişmiqyaslı tədbirlər, bütün sahələri əhatə edən islahatlar, böhran içərisində qalan Azərbaycanın iqtisadiyyatını getdikcə gücləndirilməsində böyük rol oynadı. Artıq xalqın gələcəyə olan inamı artırdı. Qarşıya qoyulan əsas vəzifələrdən biri də beynəlxalq aləmə inteqrasiya olunmaq, nüfuzlu təşkilatların üzvü olmaq, tədbirlərində fəal iştirak etmək və müstəqil Azərbaycanı dünyada tanıtmaq idi. Bu baxımdan ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin qurulması vacib amil kimi önə çəkilirdi. Demokratik dəyərlərə önəm verilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, söz və mətbuat azadlığına geniş imkanlar yaradılması müstəqi ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayını getdikcə artırırdı.

Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirmək, malik olduğu təbii resurslardan səmərəli istifadə etmək və iri şirkətləri Azərbaycan cəlb etməklə qarşıya qoyulan məqsədlərə nail olmaq ulu öndərin həyata keçirdiyi siyasi kursunun prioritetini təşkil edirdi. 1994-cü il sentyabrın 20-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında "Əsrin müqaviləsi" nin imzalanması ilə . Azərbaycan öz iqtisadi imkanlarını dünyaya təqdim etdi və növbəti sazişlərin imzalanmasına zəmin yaratdı.

Bütün sahələrdə qazanılan uğurlar xalqın istək və arzularını reallaşdırırdı. Heydər Əliyevin 1993-cü ilin oktyabrında keçirilən andiçmə mərasimində verdiyi vədlər həyata keçirdi. Ulu öndər andiçmə mərasimində demişdir: "Belə yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

İllər keçdikcə, Azərbaycanın əlaqələri daha da genişləndi. Müstəqil ölkəmizin səsası -nüfuzlu beynəlxalq təşkilatların tribunalarından eşidildi. Heydər Əliyevin dünya siyasətində cəsarəti və qətiyyəti, əsl liderlərə məxsus dönməzliyi və məğrurluğu Azərbaycanı demokratik prinsiplərə önəm verən ölkə kimi tanıtdı. Ulu öndərin irəli sürdüyü bütün prioritetlərin əsasında qüdrətli Azərbaycanın inkişaf perspektivləri -- dünya siyasətinə uyğunlaşdırılan məntiqli xarici siyasət, ölkə daxilində sabitliyin təminatı, dövlətçiliyin möhkəmləndirilməsi, müstəqilliyimizin əbədi olması dayanırdı.

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, malik olduğumuz təbii ehtiyatlardan xalqın mənafeyi və rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə olunması insan hüquq və azadlıqlarının qorunması, Azərbaycanın tolerant dövlət kimi dünyada tanıdılması istiqamətində atılan addımlar ös bəhrəsini verdi. Ulu öndərin əsas xidmətlərindən biri də dünyanın müxtəlif yerlərində yaşayan və fəaliyyət göstərən bütün azərbaycanlıları bir bayraq altında birləşdirmək idi. Dünya azərbaycanlılarına müraciətində də bildirirdi ki, hamımızın bir Vətəni var --- Azərbaycan!

Respublikamızda demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi də müstəqilliyimizin bəxş etdiyi əvəzsiz nemətdir. Məhz Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olunmuş ilk Konstitusiyamız hüquqi, demokratik dövlət təsisatlarını, hakimiyyətin və dövlətin əsaslarını müəyyən edərək hüquq sisteminin fundamental əsaslarını təşkil edən və məhkəmə-hüquq islahatlarının keçirilməsinə zəmin yaratmışdır.

Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası yolunda atılan addımlar öz bəhrəsini verdi. Respublikamız dünyanın ən reytinqli beynəxalq təşkilatlarına üzv seçildi və həmin təşkilatların tədbirlərinin fəal iştirakçısına çevrildi. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünyada sabit ölkə kimi tanınır və nüfuzlu beynəxalq təşkilatların öz tədbirlərini keçirdiyi məkana çevrilib.

Ulu öndərin siyasi kursunu və onun strateji inkişaf konsepsiyasının hərtərəfli reallaşdırılması istiqamətində bütün səylərini əsirgəmnəyən Prezident İlham Əliyevin düzgün müəyyənləşdirdiyi strategiya Azərbaycanı dünyanın sayılıb-seçilən dövlətləri sırasına qoşdu. Son 16 ildə həyata keçirilən yeni məzmunlu dövlətçilik siyasəti, aparılan uğurlu islahatlar nəticəsində bu gün Azərbaycanda dünyəvi, hüquqi və demokratik dövlət qurulmuş , azad vətəndaş cəmiyyəti formalaşdırılmışdır.

Xalq qəzeti.-2019.-2 noyabr.-№244.-S.3.

İlham Əliyev: Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam

Tahir Aydınoğlu

Ümummilli lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini zəmanəmizdə xalqımızın ən böyük, ən qiymətli tarixi nailiyyəti kimi dəyərləndirirdi. Ulu öndər neçə-neçə nəsilin azadlıq və istiqlal arzusuna talenin nadir bəxşişi olan dövlət suverenliyimiz ilk addımlarında yenidən itirilmək təhlükəsi ilə üzləşəndə xalqımızın istək və tələbi ilə hakimiyyətə qayıdıb xilaskarlıq missiyasını yerinə yetirərkən demişdi: "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev milli istiqlal tariximizin yeni dövrünə dəyər verərkən bildirirdi ki, müstəqilliyi qorumaq onu qazanmaqdan çətindir: "Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik". Ulu öndər ölkədə möhkəm sabitlik yaratmaq, xalqı öz taleyinə sahib çıxmağa səfərbər etmək və əsaslı islahatlar yolu ilə gənc müstəqil dövləti ümumi böhrandan çıxarıb dirçəliş və növbəti yüksəliş yoluna çıxartdı. Böyük rəhbər hər yerdə, dönə-dönə xatırladırdı: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!"

Bu sözlərin deyildiyi vaxtdan 26 il keçəndən sonra-- bugünlərdə Azərbaycanın iqtisadi müstəqilliyinin daha da möhkəmləndirilməsinin önəmini yenidən vurğulayan Prezident İlham Əliyev iqtisadiyyat naziri təyin etdiyi Mikayıl Cabbarovu qəbul edərkən amal və əməllərini sədaqətlə davam etdirdiyi ümummilli liderin məhz həmin qənaətini xatırlatdı. "Hələ ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm".

İqtisadiyyat naziri ilə söhbətdə ölkənin çağdaş həyatında uğurla davam edən hərtərəfli yeniləşmə və yüksəliş mərhələsinin növbəti hədəflərindən söz açan dövlət başçısı siyasi müstəqilliyimizin iqtisadi müstəqilliklə möhkəmləndirilməsi sahəsində gerçəkləşdirilmiş tarixi uğurlara toxunaraq qeyd etdi ki, əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir: "Mən Prezident kimi ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı -deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir".

Bu yerdə möhtərəm dövlət rəhbərinin 15 il əvvəl – Prezident kimi fəaliyyətə başlamasından bir il sonra hökumətin iclasında dediyi tam eyni məzmunlu sözləri yada düşür: "Bu gün Azərbaycan tam mənada müstəqil siyasət aparır, heç kimdən asılı deyil, heç bir başqa ölkədən asılı deyil və öz siyasətini yalnız və yalnız Azərbaycan xalqı naminə aparır". Ölkəyə rəhbərliyinin ikinci müddətinin andiçmə mərasimində isə Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və daimiləşdirmək xəttinə sədaqətini belə ifadə etmişdi: "Müstəqil siyasət, milli maraqlarımızın qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq-- budur bizim uğurlarımızın əsas şərtləri. Bizim siyasətimiz açıqdır, aydındır. Bir daha demək istəyirəm ki, bu siyasətin əsas təməl prinsipləri Azərbaycan dövlətinin milli maraqlarının qorunmasıdır və bu işdə biz böyük uğurlara nail ola bilmişik".

Yeni iqtisadiyyat nazirinə tapşırıq və tövsiyyələrini verən Prezident İlham Əliyev ulu öndərin vəsiyyətlərini xatırladaraq söylədi ki, Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, hər seydən əvvəl, bizim iqtisadi imkanımız olmalıdır. Ölkə rəhbəri sözünün davamında bildirdi ki, biz indi dünyada gedən proseslərə diqqətlə baxanda görürük ki, başqa dövlətlərdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılı ölkələr müstəqil siyasət apara bilmir, böyük ölkələrin girovuna, alətinə çevrilir. Belə ölkələrin rəhbərliyinə bəzi hallarda öz xalqının, milli maraqlarının ziddinə təzyiq edilir və onlar buna davam gətirə bilmirlər.

Bu məqamda Azərbaycan rəhbəri böyük güclərin hökmünə əsaslanan dünya siyasətinin ədalətsizliyinə etirazını bir daha cəsarətlə açıqladı: "Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq".

Prezident İlham Əliyev suveren Azərbaycan naminə əsl müstəqil siyasət yeridən ölkə rəhbərliyinə xalqın bəslədiyi böyük inam və etimadın dövlət müstəqiyinin qorunub möhkəmləndirilməsində iqtisadi müstəqillik amili ilə yanaşı, önəmli rol oynadığına toxunaraq qeyd etdi ki, son rəy sorğuları bizim hökumətimizə ictimai dəstəyin

nə qədər yüksək olduğunu göstərir. Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında da Azərbaycan hakimiyyətə olan inam baxımından dünya miqyasında ön sıralardadır: "Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səylər göstərməliyik".

İqtisadi müstəqilliyin beynəlxalq aləmdə Azərbaycanın maraqları uğrunda mübarizədə müstəqil siyasət üçün mütləq güc amili olduğunu söyləyən dövlət başçısı xalqın rifahının yüksəldilməsinin də başlıca təminatı kimi iqtisadi qüdrəti, maliyyə imkanlarını artırmaq zərurətini vurğuladı: "Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. Dörd milyon iki yüz min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı, təxminən, iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında birinci yerdəyik, Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik".

Bütün bunlara görə dövlət başçısı yeni iqtisadiyyat nazirinin nəzərinə çatdırdı ki, bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. Bu ilin doqquz ayında ümumi daxili məhsul 2,5 faiz, qeyri-neft sektoru 3,5 faiz artıb. Bu, pis göstərici deyil. Kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu, çox müsbət hal olsa da elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Bu məqsədə çatmaq üçünsə bundan sonra da çox ciddi islahatlar aparılmalıdır.

Azərbaycanın dövlət başçısı Rusiyanın "Rossiya" telekanalının "Sabahın xeyir, Rusiya!" proqramına illər öncə verdiyi müsahibəsində demişdi: "Prezident elə bir vəzifədir ki, o, arzulamağa, təəssüflər olsun, çox az vaxt verir. Öz fəaliyyətinlə ölkənin rifahı, xalqın firavanlığı üçün yaxşı iş görmək, müstəqil dövlət kimi Azərbaycanı inkişaf etdirmək, möhkəmləndirmək, insanların daha yaxşı yaşaması, ölkənin iqtisadi və siyasi cəhətdən daha müasir dövlətə çevrilməsi, dünyada daha möhkəm mövqelər tutması üçün arzular, niyyətlər, məqsədlər vardır. Bu, mənim Prezident kimi, məqsədim və Azərbaycan xalqı qarşısında məsuliyyətimdir".

Göründüyü kimi, şüurlu həyatını Vətəninin tərəqqisi, xalqının xoşbəxtliyi yolunda şam kimi əritmiş ümummilli lider Heydər Əliyevin ömrünün sona yaxınlaşdığı bir vaxtda aylarda "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək"-- deyə Azərbaycanın ali idarəçiliyini etibar etdiyi siyasi varisi İlham Əliyev ötən 16 ildəki prezidentlik fəaliyyəti ulu öndərin tarixi etimad və gözləntilərini yüksək səviyyədə doğruldur, onun siyasətini sədqətlə və dönmədən davam etdirir.

Xalq qəzeti.-2019.-25 oktyabr.-№237.-S.4.

Azərbaycan təhsili müstəqillik yollarında

Rafiq Novruzov,
Bakı Slavyan Universitetinin prorektoru, professor

Ölkəmiz öz dövlətçilik tarixinin çox şərəfli bir dövrünü yaşayır. 1991-ci ildə ikinci dəfə öz müstəqilliyinə qovuşan Azərbaycanı Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra üzləşdiyi bəlalardan xilas etdi, ölkəmizi davamlı islahatlar yoluna çıxardı.

Artıq 28 ildir ki, Azərbaycan müstəqillik yollarında inamla addımlayır. Söz yox ki, qazanılmış uğurlar ulu öndərin ölməz ideyalarından güc alır. Heydər Əliyev deyirdi: "Müstəqilliyi əldə etmək böyük nailiyyət olduğu kimi, onu yaşatmaq və əbədi etmək ondan da böyük nailiyyətdir, ondan da çətin bir işdir". Bu çətin və məsuliyyətli işi öz çiyinlərində irəliyə doğru aparan ulu öndər dəfələrlə bildirmişdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir.

Müstəqilliyin ilk illərində Azərbaycan ciddi sınaqlarla qarşılaşdı. Ölkədə təhsil müəssisələrinin maddi-texniki bazasının dağılması tendensiyası hökm sürürdü, dərsliklərin şagirdlərə pulsuz verilməsi dayandırılmışdı, uşaqların icbari təhsilə cəlb olunması səviyyəsi aşağı düşmüşdü. Dağlıq Qarabağ və ətraf rayonların işğalı nəticəsində 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar təhsil müəssisəsi, 11 peşə məktəbi, 9 orta ixtisas məktəbi, 1 ali məktəb, 3 ali məktəb filialı dağıdılmışdı.

Ulu öndərin böyük səyi nəticəsində 1994-cü il mayın -12-də- atəşkəs elan edildi və ölkədə siyasi sabitliyin bərpası və iqtisadiyyatın dirçəlişi istiqamətində müəyyən addımlar atıldı.

1992-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yaradıldı, 1992–1993-cü tədris ilində TQDK tərəfindən ali məktəblərə ilk tələbə qəbulu keçirildi. Müstəqilliyin ilk illərində bu istiqamətdə ciddi çətinliklər olsa da, ümummilli lider Heydər Əliyevin diqqəti və qayğısı nəticəsində bu proses daha da təkmilləşdirildi, qaydalarda əsaslı dəyişikliklər edildi.

1993–1994-cü tədris ilindən ali təhsildə 4 illik bakalavriatura və 2 illik magistratura sisteminə keçildi. 1997-ci ildə bakalavriaturanın ilk buraxılışı oldu, eyni zamanda, həmin il ilk dəfə olaraq magistr hazırlığına başlandı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkədə ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi istiqamətində əsaslı addımlar atıldı, bir sıra ali təhsil müəssisələri yenidən quruldu və universitet statusu aldı.

Müstəqilliyimizin ilk illərində təhsil sistemində yeniliklərdən biri də özəl təhsil müəssisələrinin yaranması oldu.

Heydər Əliyev 1998-ci ildə ölkəmizdə təhsil sistemində islahatlar aparılmasına dair xüsusi sərəncam imzaladı. Çox qısa müddət ərzində "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlandı və 1999-cu il iyunun 15-də ölkə başçısı tərəfindən təsdiq edildi. Proqramda mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. İslahatların başlaması mıllı təhsilin inkişafına güclü stimul verdi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər çağdaş təhsilimizin tarixində yüksək inkişaf, bütün sahələrdə islahatların daha da dərinləşməsi, təhsilin elmi əsaslara söykənən dövlət proqramları vasitəsilə idarə olunması dövrü kimi xarakterizə olunur.

Təhsil sahəsinə maliyyə qoyuluşunun ilbəil artması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. Təsadüfi deyildir ki, möhtərəm Prezidentin vurğuladığı "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik", "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" kimi konseptual müddəaların əsasında da məhz həmin yanaşma dayanır. Bu mənada "təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə ötən dövr ərzində 25-dən artıq dövlət proqramı qəbul olunmuşdur.

Son illər Azərbaycanda 3 min 200-dən çox yeni məktəb binasının tikilməsi, əsaslı təmiri və müasir avadanlıqlarla, o cümlədən kimya və fizika laboratoriyaları ilə təmin edilməsi, bütün məktəblərdə kompüter siniflərinin yaradılması təhsil tariximizdə ən əlamətdar hadisələrdəndir. Sovet İttifaqının mövcud olduğu 70 il ərzində ümumilkdə bu qədər məktəb tikilməmişdir.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində -2004-cü- ildə təsis edilmiş Heydər Əliyev Fondunun müstəsna xidmətləri xüsusilə qeyd edilməlidir. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsil aldığı 30-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilərək yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar inşa edilmiş və kommunal şərait

yaxşılaşdırılmışdır. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində yeni məktəblərin tikintisi uğurla davam etdirilmişdir.

Təhsilin yeni məzmunu yeni nəsil dərsliklərin hazırlanmasını zəruri etmişdi. Müstəqillik illərində milli-mənəvi dəyərlər əsasında müasir tələblərə uyğun məzmunda ümumilikdə 80 milyon çox dərslik çap edilib.

2008-ci ildən başlayaraq, ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu sahəsində beynəlxalq təcrübəyə uyğun yeni mexanizmlərin tətbiqinə başlanılmış, 2011-ci ildə ölkə səviyyəsini əhatə etmişdir. Son 3 ildə ümumtəhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə qaydalar obyektivlik və şəffaflıq baxımından daha da təkmilləşdirilmişdir.

Müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəldilməsi, yüksək bilikli və hazırlıqlı insanların bu peşəni seçməsinə stimul yaradılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür. Müəllimlərin əməkhaqqı mütəmadi olaraq artırılır.

Ali təhsilin inkişafı sahəsində əhəmiyyətli addımlar atılmışdır. 2005-ci ildə Azərbaycan Bolonya prosesinə qoşulmuş, Avropa təhsil məkanına inteqrasiya istiqamətində tədbirlər həyata keçirilmişdir. Ali təhsil müəssisələrinin infrastrukturunun inkişafı sahəsində əhəmiyyətli işlər görülmüş, bütün universitetlərin maddi-texniki bazası əsaslı şəkildə yeniləşdirilmişdir. "2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın icrası istiqamətində ölkə Prezidenti tərəfindən 10 fevral 2010-cu il tarixli "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" fərman imzalanmışdır. Həmin fərmana əsasən, 2010–2011-ci tədris ilindən başlayaraq, ali təhsil müəssisələrində adambaşına maliyyələşdirmə prinsipinin tətbiqinə başlanmışdır.

Son illərdə ölkəmizdə "ADA" Universiteti, Ali Neft Məktəbi kimi yeni ali təhsil müəssisələri yaradılmış, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları açılmış, ali təhsil müəssisələrinin şəbəkəsi genişləndirilməklə əhalinin ali təhsil almaq imkanları artırılmışdır.

Müəllim hazırlığı sistemində yeni yanaşmaların tətbiqi, bu sahədə pərakəndəliyin aradan qaldırılması və səmərəli idarəetmənin təmin edilməsi istiqamətində institusional dəyişikliklər davam etdirilmiş, beynəlxalq tələblərə uyğun məzmunca yeni təhsil proqramlarının hazırlanması işinə başlanılmışdır. Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulmuş, Müəllimlər İnstitutunun Sumqayıt, Salyan, Mingəçevir filialları ləğv edilmişdir. Regionların sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq, yeni istehsalat və xidmət sahələrinin ixtisaslı kadrlara ehtiyacını təmin etmək məqsədilə Qazaxda Bakı Dövlət Universitetinin, Zaqatalada isə Azərbaycan Dövlət İqtisad Universitetinin filialları təsis olunmuşdur. Cari tədris ilində Azərbaycan–Fransız Universiteti (UFAZ) ilk tələbələrini qəbul etmişdir.

Son illər ölkəmizdə xarici dildə tədris aparan ali təhsil müəssisələrinin və burada təhsil alan gənclərimizin sayı artmışdır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş istedadlı gənclərin ən aparıcı ali məktəblərə təhsil almağa göndərilməsi ənənələri indi də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təsdiq edilib həyata keçirilmişdir.

Müstəqilliyin ilk illərində dünyanın bəzi ölkələri ilə təhsil sahəsində yaradılmış əməkdaşlıq sonrakı dövrdə xeyli genişlənmişdir. Hazırda 30-dan çox dövlətlə təhsil əlaqələri yaradılmışdır. Bu əlaqələrin yaradılmasında Bakı Slavyan Universitetinin xüsusi rolu vardır.

Ölkəmizdə informasiya cəmiyyətinin qurulmasının və biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli 13 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir.

Müstəqil Azərbaycanın təhsil sistemində irimiqyaslı islahatlar prosesi artıq dönməz xarakter almışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin təhsilə diqqət və qayğısı sayəsində milli təhsil sisteminin aydın sabahını təmin edəcək layihələr reallaşdırılmaqda, Azərbaycan təhsilinin davamlı inkişafına yönəlmiş əsaslı tədbirlər görülməkdədir.

Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.10.

18 oktyabr - Müstəqillik haqqında Azərbaycan Respublikasının Konstitusiya Aktının qəbuluna dair 5 tezis

Əli Həsənov.
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi,
tarix elmləri doktoru, professor

Oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyini elan etməsinin 28-ci ili tamam olur. 1991-ci il avqustun 30-da Ali Sovetin növbədənkənar sessiyasında gərgin müzakirələrdən sonra "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edildi. Bununla yanaşı, parlamentdə qəbul olunmuş qərarda Azərbaycanın dövlət müstəqilliyinin konstitusion əsaslarını yaratmaq üçün Konstitusiya Aktının hazırlanması nəzərdə tutulurdu. 1991-ci il oktyabrın 8-də Azərbaycan Ali Sovetinin işə başlayan növbədənkənar sessiyası bir neçə günlük müzakirələrdən sonra, oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. İstiqlaliyyətə gedən yola nəzər salaraq, bu dövrdə yaşanmış proseslər haqqında aşağıdakı beş tezisi hörmətli oxucularımın diqqətinə çatdırmaq istəyirəm.

Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "18 oktyabr – Müstəqillik haqqında Azərbaycan Respublikasının Konstitusiya Aktının qəbuluna dair 5 tezis" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Birinci tezis: 1988-ci ildən Azərbaycan cəmiyyətində SSRİ rəhbərliyinin, xüsusən də M.Qorbaçovun Dağlıq Qarabağda başlanan erməni separatizmini dəstəkləməsinə və yürütdüyü ermənipərəst siyasətə qarşı ciddi narazılıq yetişməkdə idi. Bu narazılıq fonunda, elə meydanlarda mitinqlərin gedişi zamanı Azərbaycan Xalq Cəbhəsi (AXC) adlı hərəkat yaranmış, sonrakı illərdə tədricən formalaşdırılaraq vahid bir quruma çevrilmişdi. AXC sonrakı mərhələdə getdikcə genişlənən xalq hərəkatına rəhbərliyi öz əlinə almış və onu idarə etməyə çalışmışdır. Xalq hərəkatı ilk dövrdə daha çox narazı əhalinin mərkəzi və yerli hakimiyyət strukturlarının qərarlarına qarşı pərakəndə etiraz çıxışları formasında ifadə olunurdu. Hərəkat iştirakçıları SSRİ rəhbərliyindən Dağlıq Qarabağla bağlı ədalətli və obyektiv mövqe tutmasını, Azərbaycanın suveren hüquqlarının qorunmasını və s. tələb edirdilər. AXC həmin dövrdə kütlələr arasında müəyyən populyarlıq qazansa da, əhalinin bir çox təbəqələri, xüsusilə də ziyalılar, texnokratlar və təsərrüfat fəalları ona o qədər də etibar etmirdilər. Ona görə ki, bu qurumun əsasən radikal dünyagörüşlü insanlardan ibarət rəhbərliyi ölkə ziyalılarını, xalqın intellektual kəsimini öz sıralarına o qədər də həvəslə buraxmırdı. Nəticədə, AXC o dövrdə getdikcə güclənən xalq hərəkatını səmərəli şəkildə idarə edərək, onun gələcək fəaliyyət istiqamətləri ilə bağlı aydın strategiya və çevik taktika ortaya qoya bilmədi. Elə bu səbəbdən də Sovet İttifaqı rəhbərliyi Azərbaycanda artmaqda olan narazılığın qarşısını almaq, mərkəzdənqaçma meyillərini söndürmək və kütləvi cəza vasitəsilə xalqı qorxutmaq üçün 1990-cı il yanvarın 20-də Bakıda qanlı faciə törətdi, özü də bu zaman AXC-dən, onun bəzi rəhbərlərinin radikal addımlarından "vasitə" kimi istifadə etdi.

İyirmi Yanvarda sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciədən sonra Azərbaycan xalqının həm SSRİ, həm də respublika rəhbərliyinə qarşı narazılığı və nifrəti daha da gücləndi. O vaxta qədər ölkə və respublika rəhbərliyindən əsasən haqqın və ədalətin, qanunvericiliyin qorunmasını tələb edən narazı kütlə yavaş-yavaş genişlənən yeni mübarizə dalğasının – milli azadlıq hərəkatının hərəkətverici qüvvəsinə çevrildi.

20 Yanvarda qanla boğulmuş və qismən əzilmiş xalq hərəkatının yenidən dirçəlişi və milli azadlıq mübarizəsi mərhələsinə keçməsi Heydər Əliyevin bu prosesə fəal qoşulmasından sonra vüsət aldı. Onun 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək, kəskin bəyanat səsləndirməsi, kütləvi qırğının səbəbkarı kimi SSRİ və Azərbaycanın yerli rəhbərlərini ittiham etməsi xalq hərəkatına yeni nəfəs və istiqamət verdi. Bu aksiyanın ardınca, Heydər Əliyevin heç bir hədə-qorxu və təxribatdan qorxmayaraq, 1990-cı il iyulun 20-də Vətənə qayıtması Azərbaycanda müstəqillik uğrunda xalq hərəkatının, başqa sözlə, sistemli milli azadlıq hərəkatının başlanmasına ciddi təkan verdi.

İkinci tezis: Heydər Əliyev 1990-cı ildə öz doğma Vətəninə - Azərbaycana qayıtdı. Ayaz Mütəllibov hökuməti ona Bakıda yaşamaq imkanı vermədiyi üçün 1990-cı il iyulun 22-də, yəni, Moskvadan qayıtdıqdan iki gün sonra paytaxtı tərk edərək Naxçıvana üz tutmağa məcbur oldu. Az sonra - 1990-cı ilin avqust ayında qədirbilən Naxçıvan əhalisinin kütləvi dəstəyi ilə Heydər Əliyev həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinə deputat seçildi. Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına deputatlar tərəfindən iclasa sədrlik Heydər Əliyevə həvalə edildi. İclasda onun təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin birinci sessiyasında, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu və

Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ -qaldırıldı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında o da analoji qərarlar qəbul etsin. Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən bu tarixi qərarlar və müstəqillik istiqamətində həyata keçirilən sonrakı proseslər, o cümlədən 1991-ci il sentyabrın 3-də onun Naxçıvan Ali Məclisinin sədri seçilməsi belə deməyə əsas verir ki, həmin dövrdə Heydər Əliyevin Naxçıvana gəlişi ilə milli azadlıq hərəkatının mərkəzi də Bakıdan Naxçıvana keçdi və bu hərəkatın lideri də məhz Heydər Əliyev oldu. Heydər Əliyevin deputat kimi ardıcıl nümayiş etdirdiyi əsl və mübariz vətəndaşlıq mövqeyi, Azərbaycanın müstəqilliyi uğrunda ölkə parlamentinin tribunasından etdiyi qətiyyətli çıxışlar, ümummilli problemlərin həllinə xidmət edən səmərəli təklifləri onu tezliklə milli azadlıq hərəkatının gerçək liderinə çevirdi.

Üçüncü tezis: Milli azadlıq hərəkatının mərkəzinin Bakıdan Naxçıvana keçməsi və hərəkatın başında Heydər Əliyev kimi təcrübəli liderin - görkəmli siyasi və dövlət xadiminin dayanması qısa zaman kəsiyində Azərbaycan cəmiyyətində milli qurtuluş ideyası ətrafında böyük təmərküzləşməyə səbəb oldu. Belə ki, əhalinin bütün təbəqələri, xüsusilə də mütərəqqi dünyagörüşlü ziyalılar, hətta ciddi təqibə məruz qalmış AXC fəallarının özü belə Heydər Əliyevin ətrafında cəm oldular. Bu reallıq xalq hərəkatına ciddi mütəşəkkillik və ardıcıllıq gətirdi, Azərbaycan xalqı milli müstəqilliyin əleyhinə məqsədyönlü fəaliyyət göstərən Mütəllibov rejiminə qarşı vahid cəbhədən çıxış etməyə başladı. Heydər Əliyev Azərbaycan Ali Sovetindəki "demblok" nümayəndələrini də öz ətrafında, milli azadlıq hərəkatı ideyası altında birləşdirərək, yerli kommunist hökumətinin iradəsinin ziddinə olaraq, oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsinə və müstəqillik məsələsinə dair yeni referendumun təyin edilməsinə nail oldu.

Dördüncü tezis: 1991-ci il 18 oktyabra gedən yol gərgin ictimai-siyasi proseslər və o zamankı hakimiyyətin yaratdığı süni maneələrlə müşayiət olunmuşdur. O dövrdə Azərbaycana rəhbərlik edən Ayaz Mütəllibov hökumətinin üzvləri və Ali Sovetin kommunist korpusu Azərbaycanın müstəqil dövlət statusunu təsəvvür belə etmir, milli-demokratik qüvvələrin müstəqillik uğrunda gündən-günə güclənən mübarizəsinə kommunist hakimiyyətinin sonu kimi baxır və ciddi müqavimət göstərirdilər. Azərbaycanın kommunist rəhbərliyi xalqın yüksələn müstəqillik əzmini hər vəchlə qırmağa çalışır, respublika həyatında bu istiqamətdə müşahidə olunan bütün ictimai fəaliyyət və hərəkətlərə mane olur, xüsusən parlament tribunasından milli müstəqillik uğrunda əsl mübarizə aparan Heydər Əliyevin, digər müstəqil düşüncəli deputatların Ali Sovetdəki çıxışlarını pozur, hətta Heydər Əliyevə qarşı qeyri-etik hücumlar təşkil edərək, ölkədə onun siyasi fəaliyyətinə qadağa qoymağa cəhd göstərirdilər. Elə bunun nəticəsi kimi, Azərbaycan Kommunist Partiyasının o vaxtkı bütün rəhbərliyi 1991-ci il martın 17-də SSRİ-nin saxlanması ilə bağlı respublikada saxta referendum təşkil edərək, guya əhalinin 75 faizinin müstəqilliyin əleyhinə səs verdiyini elan etmişdi. O zaman yalnız Heydər Əliyev başda olmaqla Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu saxta və antimilli referendumun Naxçıvan Muxtar Respublikasında keçirilməsindən imtina etmiş və qarşısını almışdı. Heydər Əliyev SSRİ-nin saxlanması ilə bağlı yeni ittifaq müqaviləsinə də hamıdan qabaq - 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasındakı çıxışında ciddi etiraz etmiş və Mütəllibov hakimiyyətinin Azərbaycanı yeni ittifaqın tərkibinə daxil etməsinin, bunun üçün respublikada xüsusi referendum keçirilməsinin qəti əleyhinə olduğunu birmənalı şəkildə bəyan etmişdi.

Beşinci tezis: AXC-Müsavat dairələri 1992-ci ilin mayında xarici qüvvələrin təhriki ilə və silahlı yolla o zaman üçün tam nüfuzdan düşmüş Mütəllibov hökumətini devirərək siyasi hakimiyyəti ələ keçirdilər. Əslində bu, həm milli azadlıq hərəkatına, həm respublikada yeni-yeni yaranmaqda olan demokratiya prinsiplərinə, həm də şəxsən Heydər Əliyev kimi təcrübəli bir liderin demokratiya və milli azadlıq mübarizəsi istiqamətindəki xidmətlərinə qarşı ədalətsiz bir gediş idi. 1992-ci il mayın 18-də Ali Sovetə sədr seçkisində AXC rəhbərliyi deputatların böyük hissəsinin və ölkə ictimaiyyətinin tələbinə baxmayaraq, Heydər Əliyevin namizədliyinin irəli sürülməsinə, hətta parlamentdən onunla əlaqə yaradılmasına belə mane oldular. Onlar öz namizədlərinin sədr "seçilməsinin" hansısa doqquz xarici dövlətlə razılaşdırılması barədə cəfəng antidemokratik fikirlər səsləndirməkdən belə çəkinmədilər. Hakimiyyətə tam yiyələndikdən sonra bu dairələr gələcəkdə Heydər Əliyevi özlərinə ciddi rəqib sayaraq, bütün vacib işlərini bir kənara qoyub onunla qeyri-qanuni və antikonstitusion mübarizəyə başladılar, dəfələrlə Naxçıvanda dövlət çevrilişinə, Ali Məclis sədrinin fiziki varlığına son qoymağa cəhd göstərdilər. Belə qeyri-demokratik və antimilli vasitələrlə fəaliyyət göstərən AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə böyük zərbə vuruldu, ölkə vətəndaş müharibəsi astanasına gətirildi.

1992-ci il oktyabrın 16-da cəbhə-müsavat dairələrinin yarıtmaz hakimiyyətinin nəticəsi olaraq gündən-günə kəskinləşən vətəndaş qarşıdurmasını açıq şəkildə müşahidə edərək, yaxınlaşan milli fəlakəti hiss edən bir qrup vətənpərvər Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət etdi. Müraciətdə ziyalılar Azərbaycanı düçar olduğu fəlakətli böhrandan çıxarmaq məqsədilə ölkədə bütün vətəndaşları, sağlam düşüncəli qüvvələri öz ətrafında birləşdirə bilən yeni bir siyasi partiyanın yaradılması və ona rəhbərlik etmək məsələsinə münasibət bildirməsini Heydər Əliyevdən xahiş edirdilər. Respublikada gündən-günə kəskinləşən və getdikcə daha da fəlakətli vəziyyət alan daxili ictimai-siyasi və milli vətəndaş qarşıdurması fonunda Azərbaycanı canı qədər sevən bir lider kimi Heydər Əliyev əlbəttə ki, çoxsaylı ölkə ziyalılarının, geniş xalq kütlələrinin tələblərini cavabsız

qoya bilməzdi. Belə də oldu, cəmi bir həftə sonra - oktyabrın 24-də o, "Səs" qəzetində ölkə ziyalılarına cavab verdi. Bu, əslində adi bir cavab deyildi, Azərbaycanın mövcud fəlakətli vəziyyətinin hərtərəfli təhlili və ondan çıxış yollarını göstərən dəqiq milli fəaliyyət proqramı idi. Sonrakı prosesləri, hörmətli oxucular yaxşı bilir, Bakıda qurultay keçirməsinə imkan verilməyən ziyalılar və partiya qurucuları soyuq və şaxtalı Naxçıvana axışdı və noyabrın 21-də Yeni Azərbaycan Partiyası (YAP) adlanan siyasi təşkilatı yaratdılar. Cəmi 7 ay sonra, 1993-cü ilin iyununda xalqın tələbi ilə YAP-ın sədri, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. Onun qayıdışı ilə ölkənin bütün sağlam qüvvələri, ictimai-siyasi və mənəvi potensialı hakimiyyətin ətrafında səfərbər olaraq Azərbaycanı sonrakı labüd iflasdan xilas etdilər. Beləliklə, müstəqillik dövrünün tarixi, yaşadığımız hər bir gün ulu öndərin söylədiyi "Müstəqilliyi qorumaq onu qazanmaqdan daha çətindir" fikrini bir daha təsdiq edir.

Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.1,3.

Azərbaycanın davamlı iqtisadi inkişaf modeli qələbələrimizin rəhnidir

Əvəz Ələkbərov,
Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və maliyyə institutları kafedrasının müdiri,
iqtisad elmləri doktoru, professor, BMT-nin sülh səfiri

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Heydər Əliyev
Ümummilli lider

Azərbaycan öz dövlət müstəqilliyinin bərpa olunmasının 28-ci ildönümünü qeyd edir. Bu illər ərzində ölkəmiz daxili və xarici siyasət sahəsində böyük uğurlara imza atmışdır. Dövlət müstəqilliyi – bu fundamental milli dəyər hər bir Azərbaycan vətəndaşı üçün müqəddəsdir. Xalqımız keçmişin bütün buxovlarından azad olduqdan sonra milli-mənəvi dəyərlərin bərpasına yeni zəmin yarandı. Milli-azadlıq mübarizəsi dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dövlətçilik dəyərlərinə sadiqliyinin nümunəsidir.

Müasir Azərbaycanın siyasi müstəqilliyinin bünövrəsi olan iqtisadi müstəqilliyimizin dayaqları hələ keçən əsrdə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu böyük şəxsiyyət 1969-1982-ci illərdə respublikaya rəhbərlik edərkən sovet rejiminin sərt qadağalarına baxmayaraq, müstəqil iqtisadiyyatın formalaşması üçün səylə çalışmışdır. Təkcə belə bir faktı xatırlatmaq yerinə düşərdi ki, Heydər Əliyev hakimiyyətə gəlməmişdən öncə, ötən əsrin 60-cı illərində Azərbaycan üzrə iqtisadi göstəricilər orta İttifaq səviyyəsi ilə müqayisədə adambaşına düşən məcmu ictimai məhsul istehsalı həcminin 75,8%-i, milli gəlir istehsalının 74,0%-i, sənaye məhsulu istehsalının 75,8%-i, kənd təsərrüfatı məhsulu istehsalının 68,7%-i, fəhlə və qulluqçuların orta aylıq əməkhaqqının 95,5%-i, pərakəndə ticarət dövriyyəsinin 69,2%-i səviyyəsində idi.

Müstəqil Azərbaycan iqtisadiyyatının müasir dayaqları, məhz 1969–1982-ci illərdə qoyulmağa başlamış və böyük uğurlar əldə edilmişdir. Belə ki, həmin dövrdə milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 2,3 dəfə artmışdır. Bu dövrün müstəqil iqtisadiyyat yaradılmasına köklənmiş ən xarakterik cəhətlərindən biri kimi respublikada 243 yeni iri sənaye müəssisəsinin tikilib istifadəyə verilməsini, iqtisadiyyata 813 min nəfər əlavə işçi qüvvəsi cəlb olunmasını, təkcə sənayedə əsas istehsal fondlarının 2,3 dəfə artırılmasını göstərmək olar. Qeyd edilən illər ərzində sənaye istehsalının həcmi 1920–1970-ci illərlə müqayisədə 2 dəfə, elmi-texniki tərəqqini müəyyənləşdirən əsas sahələrdə isə 2,4 dəfə artmışdı.

Ötən əsrin sonunda yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, onu inkişaf etdirməyi özünün əsas vəzifəsi hesab edən, dövlətçilik ənənələrini əldə rəhbər tutan ulu öndər Heydər Əliyev respublikamızda dövlət quruculuğunun və dövlətçiliyin inkişafının təməl prinsiplərinin əsasını yaratmışdır. Bu istiqamətdə həyata keçirilən iqtisadi islahatlar və strategiya nəticəsində ölkədə iqtisadi tənəzzülün qarşısı alınmış və ictimai-siyasi sabitliyi təmin etmək mümkün olmuşdur.

Heydər Əliyevin dövlətçilik strategiyası ölkənin tarixi-iqtisadi xüsusiyyətlərini, geosiyasi şəraiti, milli mənafeyi, müasir dövrün tələblərini əsas tutaraq fəaliyyətin prioritet istiqamətlərini özündə əks etdirir. Makroiqtisadi sabitləşmə, bütün sahələrdə islahatların həyata keçirilməsi, beynəlxalq inteqrasiya proseslərinə fəal surətdə qoşulma, ölkənin geosiyasi və geoiqtisadi mövqelərinin möhkəmləndirilməsi, xalqın sosial rifahının yaxşılaşdırılması, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, beynəlxalq maliyyə kredit təşkilatları ilə əlaqələrin təkmilləşdirilməsi kimi vacib və zəruri məsələlər ölkənin dövlətçilik strategiyasında xüsusi yer tuturdu.

Azərbaycan iqtidarının formalaşdırdığı və reallaşdırdığı makroiqtisadi sabitləşmə siyasətinin xarakterik cəhətləri çoxsaylı və çoxşaxəlidir. Bunlardan birincisi ondan ibarətdir ki, ulu öndər bu sabitliyin təmin edilməsinin əsasını neft siyasətində, onun bazasında reallaşdırılan xarici investisiya siyasətində görürdü. Bu istiqamətdə aparılan məqsədyönlü fəaliyyət və Heydər Əliyevin titanik səyləri sayəsində 1994-cü il sentyabrın 20-də bağlanmış "Əsrin müqaviləsi" ölkəmizin taleyində həlledici rol oynadı. Bu müqavilənin reallaşdırılması nəticəsində dünyanın ən tanınmış şirkətləri Azərbaycana cəlb edildilər. Onların respublikamızla birgə fəaliyyətdə olduqları son 25 il ərzində iqtisadiyyata 125 milyard dollar həcmində xarici investisiya qoyuldu. Həmin dövr ərzində iqtisadiyyata qoyulan daxili investisiyaların da həcmi təqribən xarici investisiyaların həcmi qədər olmuşdur.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, ulu öndər tərəfindən aparılan köklü islahatlar nəticəsində iqtisadiyyat yenidən qurulmuş yeni iqtisadi sistemə transformasiya sürətlə getmiş, ölkənin geosiyasi və geoiqtisadi mövqeyi möhkəmlənmiş, ümumbəşəri dəyərlərdən bəhrələnərək idarəetmə modellərinin müsbət

meyilləri əsasında iqtisadiyyatın sahələri inkişaf etdirilmiş və nəticədə Heydər Əliyev tərəfindən milli dayanıqlı və davamlı iqtisadi inkişaf modeli formalaşdırılmışdır.

2003-cü ildən başlayaraq ümummilli liderin davamlı iqtisadi inkişaf modeli Heydər Əliyev məktəbinin istedadlı yetirməsi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla inkişaf etdirilir.

Daxili və xarici siyasət sahəsində qazanılan uğurlara, həmçinin neft strategiyasının reallaşdırılması, ölkədə makroiqtisadi sabitliyin davamlılığının təmin edilməsi sayəsində möhtəşəm nəticələrə görə cənab İlham Əliyev xalqın şəksiz liderinə çevrilmişdir. Onun birbaşa rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində 2003-cü ildən bu günədək ölkə iqtisadiyyatı real ifadədə 3,2 dəfə artmışdır. Bu dünya miqyasında rekord göstəricidir. Həmin dövr ərzində ölkədə sənaye istehsalı 2,6 dəfə, ixrac 4,7 dəfə, valyuta ehtiyatları 24 dəfə artmışdır. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatına təxminən 250 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur.

Prezident İlham Əliyevin siyasətinin ən uğurlu məqamlarından biri -ondan ibarətdir ki, Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini durmadan möhkəmləndirir. Ölkəmiz Dünya Bankının "Doing Business" hesabatında 2006-cı ildə qeydə alınmış və o zaman 98-ci yerdə qərarlaşmışdı. Aparılan düzgün, məqsədyönlü, səmərəli islahatlar nəticəsində Azərbaycan 2018-ci ildə 25-ci yerə yüksəlmişdir. Azərbaycan "Doing Business – 2020" hesabatında islahatları inkişaf etdirən 20 ölkə sırasındadır. Bu hesabatın bloq yazısında qeyd edilir ki, Azərbaycan 4 əsas sahədə islahat aparıb: "Azərbaycan "Doing Business"də asanlıqla ölçülə bilən 4 biznes yumşaltması həyata keçirib. Onlar "əmlakın qeydiyyatı", "azlıqda olan investorların hüquqlarının müdafiəsi", "kreditlərin alınması" və "müqavilələrin icrasının təmin edilməsi" sahələridir".

2003–2018-ci illər ərzində əhalinin məşğulluq problemləri uğurla həll olunmuş, 2 milyon yeni iş yeri yaradılmışdır.

Ölkədə dayanıqlı, sabit inkişafı təmin etmək məqsədilə həyata keçirilən mühüm proqramlardan biri regionların sosial-iqtisadi inkişafının təmin edilməsi olmuşdur. Bu məqsədlə üç dövrü – 2004-2008, 2009-2013, 2014-2018- ci illəri əhatə edən "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları" qəbul edilmiş və uğurla həyata keçirilmişdir. Hazırda yeni 2019–2023-cü illəri əhatə edən dördüncü proqramın icrasına start verilmişdir.

Ölkəmizdə iqtisadi inkişaf dinamikasının təmin edilməsi məqsədilə həyata keçirilən ən mühüm tədbirlərdən biri də ailə biznesinə dəstəyin verilməsidir. Bu məqsədlə ölkədə Ailə Biznesinə Asan Dəstək – "ABAD" Mərkəzi yaradılmış və onun miqyası getdikcə böyüməkdədir. Bu fəaliyyət istiqaməti "ASAN" xidmətin bir qolu olmaqla əhali arasında çox yüksək məmnunluqla qarşılanır və geniş təşəkkül tapmışdır. İctimai həyatımızın bir şox sahələrinə aid olan xidmətlərin "ASAN"a verilməsi məhz bu layihənin Azərbaycan brendi olması və yüksək səviyyədə xidmətlərin göstərilməsi ilə bağlıdır. Hazırda ölkədə 15 "ASAN" mərkəzi fəaliyyət göstərir. Təkcə 2019-cu ildə yeni 5 "ASAN" mərkəzin fəaliyyətə başlaması planlaşdırılır.

Son illərdə sosial-mədəni tədbirlərin genişləndirilməsində Azərbaycanın birinci xanımı, -Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti -Mehriban xanım Əliyevanın da misilsiz xidmətləri xüsusi vurğulanmalıdır. İnsanlara sosial-mənəvi dəstək verilməsində, təhsil, mədəniyyət sahəsində uğurlar daha böyükdür.

Hakimiyyətin düşünülmüş siyasəti nəticəsində Azərbaycan həm iqtisadi, həm siyasi cəhətdən sabit və təhlükəsiz bir məkana çevrilmişdir. Azərbaycanda formalaşan və artıq beynəlxalq güclər tərəfindən də qəbul edilən davamlı, dayanıqlı iqtisadi inkişaf modelinin əsas gücü ondadır ki, xalq onu bəyənir və dəstəkləyir. Bu modelin reallaşdırılması nəticəsində ölkəmiz güclü dövlətə çevrilmişdir. Məhz bunun nəticəsində Azərbaycan beynəlxalq kürsülərdə öz sözünü deyir, müstəqil siyasət aparır və maraqlarını qoruya bilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan düzgün iqtisadi və siyasi islahatlar nəticəsində ölkəmiz dünyada gedən riskli proseslərdən özünü qoruya bilmiş, dünya böhranından sonra dinamik inkişafını davam etdirmişdir. Onun rəhbərliyi dövründə ölkənin enerji təhlükəsizliyi tam təmin edilmiş və etibarlı energetika sistemi yaradılmışdır.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin iqtisadiyyatında başlanan canlanma nəticəsində yeni neft və neft-qaz müqavilələri imzalanmış, enerji ixracı marşrutları reallaşdırılmışdır. Bu sahədə "Bakı –-Tbilisi – Ceyhan" neft kəməri xüsusi əhəmiyyətə malikdir. Əgər "Əsrin müqaviləsi" kimi nəhəng kontraktın imzalanması müstəqillik illərinin enerji tarixinin ilk əsas səhifəsini təşkil edirsə "Bakı – Tbilisi – Ceyhan"ın inşası bu tarixin yeni və şərəfli bir səhifəsidir. Bunun ardınca qaz ixracının əsas marşrutu olan Bakı – Tbilisi – Ərzurum (Cənubi Qafqaz) boru kəməri işə salınmışdır. Hazırda ölkəmizdən neft və qazın ixracını təmin edən 7 kəmər mövcuddur.

Avropada ən iri infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin tikintisi sona çatır. Dörd layihədən ibarət olan bu meqalayihə artıq yekunlaşmaq mərhələsindədir. Dörd layihədən üçü istifadəyə verilib. Ötən il -TANAP və Cənubi Qafqaz dəhlizinin açılışı olmuşdur.

Ölkədə aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan nəinki bölgədə, eləcə də Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilib. Bakı – Tbilisi – Qars dəmir yolunun işə salınması tarixi hadisədir. Bununla yanaşı Şimal – Cənub nəqliyyat dəhlizinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bu gün Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı artmaqda davam edir. Bu səbəbdən də

Azərbaycan Avrasiyada çox böyük strateji nəqliyyat mərkəzinə çevrilmişdir. Heç şübhəsiz, ölkə iqtisadiyyatının davamlı inkişaf modelinə transformasiya olunması, dayanıqlı və tarazlı inkişaf, makroiqtisadi sabitləşmə mexanizminin qurulması bu dövrün ən möhtəşəm uğurlarından biri kimi qeyd olunmalıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi "Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır" ifadəsi çox möhtəşəm səslənir və opponentlərə qarşı ortaya qoyulan fundamental, təkzibedilməz bir reallıqdır.

Beynəlxalq maliyyə institutları Azərbaycan iqtisadiyyatının 2019-cu və sonrakı illərdə iqtisadi vəziyyətinə dair yeni proqnozlarını açıqlayıb. Üç beynəlxalq maliyyə təşkilatı – Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Asiya İnkişaf Bankının ekspertlərinin açıqladığı hesabatlarında Azərbaycan iqtisadiyyatının gələn il və yaxın ortamüddətli dövrdə dayanıqlılığının qorunub saxlanacağı, qeyri-neft iqtisadiyyatında inkişafın sürətlənəcəyinə dair nikbin proqnozlar öz əksini tapıb. Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə iqtisadi mərkəzinin təmsilçisi Hons Timmer bildirib ki, Azərbaycanda 2019–2020-ci illərdə ÜDM-in orta illik tempi 3% səviyyəsində proqnozlaşdırılır. Hesabata əsasən 2019-cu ildə ÜDM-in artımı 2,8%, 2020-ci ildə – 3,8%, 2021-ci ildə 3,7% təşkil edəcəkdir.

Proqnozlara əsasən növbəti illərdə ölkədə iqtisadi artımın əsas mənbəyi qeyri-neft sektorudur. Həmin sektorun payı ÜDM-də 60 faizdən yüksək olacaq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev haqlı olaraq qeyd edir ki, qeyri-neft sektorunun inkişafı bizim üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır. Bu tendensiya investisiyaların həcminin artmasına müsbət təsir edəcəkdir. Növbəti illərdə inflyasiya 4–6% civarında proqnozlaşdırılır.

2019-cu ildə tədiyyə balansının yaxşılaşacağı, 2020-ci ildə isə ixracın daha da artması hesabına müsbət saldonun yüksələcəyi gözlənilir.

Beynəlxalq Valyuta Fondunun "Qafqaz və Mərkəzi Asiya" üzrə regional iqtisadi proqnoz hesabatlarında bildirilir ki, 2019-cu ildə qeyri-neft sektoru üzrə artım 2,8%, 2020-ci ildə isə daha da çox olacaqdır.

Həmin fondun məlumatlarına görə 2019-cu ildə Azərbaycanda həm yerli, həm də xarici investisiyaların qoyuluşu artacaq, maliyyə bazarındakı vəziyyət tədiyyə balansını yaxşılaşdıracaq, Mərkəzi Bankın strateji valyuta ehtiyatları artaraq 6-7 milyard dollara çatacaqdır.

Real iqtisadi artıma və davamlı inkişafa köklənmiş bu proqnozlar, sözsüz ki, maliyyə sektorunun da davamlı inkişaf proqnozlarını şərtləndirir. Belə ki, 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24484,0 mln.manat məbləğində proqnozlaşdırılır ki, bu da 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 1316,0 mln. manat və ya 5,7 faiz çoxdur. Büdcə gəlirlərinin tərkibinə qeyri-neft gəlirləri (10536,5 mln. manat) 43 faiz, neft gəlirləri (13847,5 mln. manat, o cümlədən, Dövlət Neft Fondundan transfert 11767,5 mln. manat) isə 57 faiz təşkil edəcəkdir. Qeyd edək ki, 2020-ci il üzrə dövlət büdcəsinin tərkibində gözlənilən qeyri-neft gəlirləri cari ilə nisbətən 1068,8 mln. manat və ya 11,3 faiz çoxdur. 2020-ci il dövlət büdcəsinin kəsirinin 1133,7 mln.manat olması planlaşdırılır ki, bu da carı ilin göstəricisindən 888,3 mln. manat və ya 43,9 faiz azdır.

2020-ci ildə Azərbaycanın dövlət büdcəsinin xərcləri 25 mlrd. 617 mln.manat təşkil edəcək, 2019-cu illə müqayisədə bu göstərici 427,7 mln. manat çoxdur. Sosialyönümlü xərclər dövlət büdcəsinin 40,7%-ni təşkil edəcəkdir, bu da 2019-cu ilin analoji göstəricisindən 2662,2 mln. manat, yaxud 9 faiz çoxdur. Göstərək ki, əməkhaqlarının ödənilməsi 6723,4 mln. manat, pensiya və sosial müavinətlərin ödənilməsinə 3213,4 mln. manat, icbari tibbi sığortanın tətbiqinə 902,9 mln. manat xərclənəcəkdir.

2020-ci ildə dövlət büdcəsinin kəsirinin 1133,7 mln. manat olması planlaşdırılır ki, bu da cari ilin göstəricisindən 888,3 mln. manat və ya 43,9 faiz azdır. Ənənəvi olaraq, kəsirin maliyyələşdirilməsi xaricdən cəlb edilən kreditlər, daxili borclanma, o cümlədən, qiymətli kağızların buraxılışı, özəlləşdirmədən daxilolmalar və vahid xəzinə hesabının qalığı hesabına aparılacaqdır. Təqdirəlayiq haldır ki, ölkəmiz xarici dövlət borclarının ÜDM-in tərkibində tutduğu xüsusi çəkisinin az olması baxımından dünya ölkələri içərisində ilk onluqda qərarlaşmışdır. Bu da gələcək nəsillərin üzərinə artıq yük qoyulmaması üçün müsbət bir göstəricidir.

Beləliklə, deyilənləri yekunlaşdıraraq, belə bir qənaətə gəlmək mümkündür ki, Azərbaycan hökumətinin yürütdüyü müasir iqtisadi siyasət düzgün və səmərəli həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daxili və xarici siyasətində daha böyük uğurlar qazanılması günümüzün reallığıdır.

Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.4.

Dövlət üçün müstəqillikdən böyük sərvət yoxdur

Yusif Ağayev,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında kafedra müdiri,
fəlsəfə doktoru, dosent

Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.

Heydər Əliyev
Ümummilli lider

18 oktyabr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri – dövlət müstəqilliyimizin bərpası günüdür. Azərbaycanın dövlət müstəqilliyi tarixi nailiyyətimiz və ən qiymətli sərvətimizdir. XX ərin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd – Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Müstəqilliyimizin bərpası respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını ümumxalq ifadəsi ilə təsdiqlədi. XX əsrin sonlarında ikinci dəfə əldə etdiyimiz müstəqillik əsrlər boyu xalqımızın şüurlarda yaratdığı "İnsan üçün azadlıqdan, dövlət üçün isə müstəqillikdən böyük sərvət yoxdur" – fikrinin milli oyanışda təzahürünün nəticəsi kimi öz təsdiqini tapdı.

Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsinə və zəngin təbii sərvətlərinin olmasına, tarixinin müxtəlif dövrlərində ayrı-ayrı böyük dövlətlərin müstəmləkəçilik zülmü altında yaşamağa məcbur olmasına, öz sərvətlərinə tam şəkildə sahib olmaq imkanından məcburən məhrum edilməsinə baxmayaraq, xalqımız həmişə azadlığa, müstəqilliyə qovuşmaq üçün mübarizə aparmışdır.

Ötən əsrin əvvələrində – 1918-ci il mayın 27-də Zaqafqaziya Seyminin Tiflisdə keçirilən fövqəladə iclasında müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan edərək, ölkənin Milli Şura və müvəqqəti hökumət tərəfindən idarə olunacağını bəyan etdi. Müstəqil Azərbaycan Respublikasının yaradılması ilə əlaqədar qəbul olunmuş 28 May 1918-ci il tarixli İstiqlal Bəyannaməsində tam müstəqil, bütün millətlər, xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışan, xalqı suveren hüquqlara malik, öz sərhədləri daxilində millətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, vətəndaşların vətəndaşlıq və siyasi hüquqlarını təmin edən, onların azad inkişafı üçün geniş imkanlar yaradan dövlətin qurulması bütün dünyaya bəyan edilmiş və qeyd olunan prinsiplər yeni dövlətin siyasi quruculuğunun və gələcək inkişafının əsas istiqamətləri kimi təsbit olunmuşdur.

Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Buna baxmayaraq, fəaliyyət göstərdiyi 23 ay ərzində Xalq Cümhuriyyəti müstəqil dövlətin atributlarından olan milli pul vahidini dövriyyəyə buraxmış, Dövlət Bankı yaradılmış, maliyyə-kredit, vergi, gömrük sistemi formalaşdırılmış, nəqliyyat, rabitə, poçt-teleqraf, telefon əlaqələrini nizama salmış, Milli Ordunu formalaşdırmış və xarici siyasət sahəsində dövlətin müstəqilliyinin tanınması istiqamətində mühüm əhəmiyyətli addımlar atmışdır. Qürurverici haldır ki, AXC dünyanın 23 dövləti tərəfindən tanınmışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, fəaliyyət göstərməsini yüksək dəyərləndirmişdir: "Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddətdə həyata keçirdiyi tədbirlərlə milli dövlətçilik ənənələrimizin bərpasında böyük rol oynamaqla, çox dərin izlər buraxmış və tariximizin ən parlaq səhifələrindən biridir. Müsəlman Şərqində ilk parlamentli respublikanın Azərbaycanda qurulması həmişə azadlığa və süverenliyə can atmış, həmin bəşəri dəyərləri yüksək qiymətləndirərək, bunların uğrunda ağır qurbanlar vermiş xalqımızın arzu və istəklərinin, milli özünüdərk prosesinin ifadəsi və təntənəsi, keçdiyi mürəkkəb və şərəfli tarixi inkişafın, onun böyük mütəfəkkir və ziyalılarının müstəqil dövlət quruculuğu ideyalarının reallaşması yolunda sərf etdikləri ağır və gərgin əməyin məntiqi nəticəsi idi. Bu tarixi hadisə ilə İslam dünyasında əvvəllər mövcud olmuş bütün dövlətlərdən köklü surətdə fərqlənməklə, monarxiya və təkhakimiyyətliliyi inkar edən, dünyəvi prinsiplərə əsaslanan ilk demokratik dövlət yarandı və dünya birliyində öz tarixi yerini tutdu".

XX yüzilliyin sonlarında SSRİ-nin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi. Müstəqillik hər bir dövlət üçün ən böyük sərvətdir.

1991-ci il dekabrın 29-da respublikamızda keçirilən ümumxalq səsverməsində (referendumda) bülletenə yalnız bir sual yazılmışdı: "Siz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?"

Səsvermə hüququ olanların 95 faizindən çoxu referendumda iştirak etdi. Xalqımız yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı və bu suala "hə" dedi.

1992-ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət himni (musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət gerbi təsdiq edildi.

"Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" ilkin mərhələdə yalnız quru kağız olaraq qalır, respublikamız yenə də Moskvadan idarə edilir, rejim Kremlin dediyi ilə oturub dururdu.

Tarix sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Müstəqilliyi əldə etdikdən sonra xalq hər şeyə – bütün çətinliklərə, sınaqlara hazır olmalı, hər bir əziyyətə və çətinliyə dözməyi bacarmalıdır. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. İkinci tarixi imkan isə bir də 70 il sonra – SSRİ-nin süqutu ilə yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda baş verən hadisələr – anarxiya, xaos, özbaşınalıq, hakimiyyətdə birincilik davası və bunun acı fəsadları hər birimizin yaxşı yadındadır. Bir-birini əvəz edən hakimiyyət rəhbərlərini müstəqilliyimizin qorunması, əbədiyyətə çevrilməsi yox, özlərinin maddi maraqları daha çox maraqlandırırdı. Ona görə də ölkəmiz beynəlxalq aləmdən təcrid olunmuş, qarşıdurma silahlı münaqişəyə qədər yetişmişdi. Artıq Azərbaycan parçalanmaq, müstəqilliyimiz isə məhv olmaq həddinə çatmışdı. Belə bir ağır və dözülməz məqamda xalq ulu öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli lider xalqın müraciətini cavabsız qoymadı və respublikaya rəhbərlik etməyə razılıq verdi. Yalnız bundan sonra Azərbaycan müstəqillik yolunda özünün qəti və inamlı addımını atdı.

Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi tanındı.

Ümummilli liderin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış etdi, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliyərək, tədricən "dövlət-vətəndaş" birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrildi.

Ulu öndərin düzgün müəyyənləşdirdiyi siyasi kurs müstəqilliyimizin siyasi və iqtisadi sütunlarını getdikcə möhkəmləndirdi, Azərbaycanı beynəlxalq aləmdə demokratik, hüquqi, sivil dövlət kimi tanıtdı. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanıldı və daha da inkişaf etdirildi. Ulu öndər ömrünün qalan hisssəsini dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına və müstəqilliyimizin əbədi olmasına həsr etdi.

Ümummilli liderin miras qoyduğu müstəqil Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş siyasi kursu nəticəsində bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada liderdir. Azərbaycanın iştirakı və razılığı olmadan regionda hər hansı bir irimiqyaslı layihə həyata keçirilmir.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimiz və qiymətli sərvətimizdir. Onun qorunub saxlanılması hər birimizin müqəddəs borcudur.

Xalq qəzeti.-2019.-18 oktyabr.-№231.-S.6.

5 тезисов о 18 октября - принятии Конституционного акта Азербайджанской Республики о независимости

Али Гасанов
помощник Президента Азербайджанской Республики по
общественно-политическим вопросам, доктор исторических наук, профессор

18 октября исполняется 28 лет со дня провозглашения государственной независимости Азербайджана. 30 августа 1991 года после напряженных обсуждений на внеочередной сессии Верховного Совета была принята Декларация «О восстановлении государственной независимости Азербайджанской Республики». Наряду с этим, в принятом в парламенте постановлении предусматривалась разработка Конституционного акта для создания конституционных основ государственной независимости Азербайджана. Начавшаяся 8 октября 1991 года внеочередная сессия Верховного Совета Азербайджана после нескольких дней обсуждений 18 октября приняла Конституционный акт о государственной независимости. Окидывая взором путь к свободе, хочу довести до внимания уважаемых читателей нижеприведенные пять тезисов о пережитых в тот период процессах.

Об этом говорится в статье помощника Президента Азербайджанской Республики по общественно-политическим вопросам, доктора исторических наук, профессора Али Гасанова под названием «5 тезисов о 18 октября - принятии Конституционного акта Азербайджанской Республики о независимости». АЗЕРТАДЖ предлагает вниманию читателей эту статью.

Первый тезис: С 1988 года в азербайджанском обществе назревало серьезное недовольство против поддержки руководством СССР, в частности, М. Горбачевым, армянского сепаратизма, начатого в Нагорном Карабахе, и проводимой им проармянской политики. На фоне этого недовольства, прямо во время митингов на площадях было создано движение под названием Народный фронт Азербайджана (НФА), которое, сформировавшись в последующие годы, постепенно превратилось в единую структуру. На последующем этапе НФА взял под контроль расширяющееся народное движение и пытался управлять им. Первоначально народное движение выражалось больше в форме отдельных протестов недовольного населения против решений центральных и местных органов власти. Участники движения требовали от руководства СССР справедливой и объективной позиции в вопросе Нагорного Карабаха, защиты суверенных прав Азербайджана и т.д. Хотя в тот период НФА завоевал определенную популярность среди масс, большинство слоев населения, в частности, интеллигенция, технократы и хозяйственный актив не особо доверяли ему. Потому что руководство этой организации, состоящее в основном из людей радикального мировоззрения, неохотно допускало в свои ряды представителей интеллигенции страны, интеллектуальной прослойки народа. В результате НФА не смог эффективно использовать постепенно усиливающееся в тот период народное движение, продемонстрировать четкую стратегию и гибкую тактику, связанные с направлениями его дальнейшей деятельности. Именно по этой причине руководство Советского Союза для предотвращения нарастающего недовольства в Азербайджане, погашения центробежных тенденций и устрашения народа посредством массового наказания 20 января 1990 года совершило в Баку кровавую трагедию, воспользовавшись при этом как «средством» НФА, радикальными шагами некоторых его руководителей.

После кровавой трагедии, учиненной советскими войсками в Баку20 Января, недовольство и ненависть азербайджанского народа к руководству и СССР, и республики усилились. Недовольная масса, требовавшая до тех пор от руководства страны и республики в основном защиты правды и справедливости, законности, превратилась в движущую силу постепенно расширяющейся новой волны борьбы – национально-освободительного движения. Возрождение народного движения, которое 20 Января было потоплено в крови и частично подавлено, и его переход к этапу национально-освободительной борьбы получили размах после активного вовлечения в этот процесс Гейдара Алиева. Его приход 21 января 1990 года в Постоянное представительство Азербайджана в Москве, резкое заявление, в котором он обвинил руководителей СССР и местное руководство Азербайджана как зачинщиков массовой резни, придали новое дыхание и направление народному движению. Вслед за этой акцией 20 июля 1990 года Гейдар Алиев, не испугавшись никаких угроз и провокаций, вернулся на Родину, что придало серьезный импульс началу народного движения в борьбе за независимость Азербайджана, иными словами, системного национально-освободительного движения.

Второй тезис: В 1990 году Гейдар Алиев вернулся на Родину – в Азербайджан. Из-за того, что правительство Аяза Муталибова не позволило ему жить в Баку, 22 июля 1990 года, то есть, спустя два дня после возвращения из Москвы, он вынужден был покинуть столицу и уехать в Нахчыван. Вскоре – в августе 1990 года при массовой поддержке благодарного населения Нахчывана Гейдар Алиев был избран

депутатом и Верховного Совета Азербайджанской ССР, и Верховного Совета Нахчыванской Автономной Советской Социалистической Республики. Председательство на состоявшемся 17 ноября 1990 года заседании первой сессии Верховного Совета Нахчыванской АССР депутаты доверили Гейдару Алиеву. На заседании по его инициативе из названия Нахчыванской Автономной Советской Социалистической Республики были исключены слова «советская» и «социалистическая». Верховный Совет Нахчыванской АССР был переименован в Верховный Меджлис Нахчыванской Автономной Республики. На первой сессии Верховного Меджлиса также было принято решение о принятии триколора со звездой и полумесяцем Азербайджанской Демократической Республики флагом Нахчыванской Автономной Республики и перед высшим органом власти Азербайджана был поднят вопрос о том, чтобы он также принял аналогичные решения о государственных символах Азербайджанской Республики. Эти исторические решения, принятые по инициативе Гейдара Алиева, и последующие процессы, нацеленные на независимость, в том числе избрание его 3 сентября 1991 года председателем Верховного Меджлиса Нахчывана дают основание говорить, что с приездом Гейдара Алиева в автономную республику центр национально-освободительного движения переместился из Баку в Нахчыван и лидером этого движения стал именно Гейдар Алиев. Истинная гражданская позиция борца, последовательно демонстрируемая Гейдаром Алиевым как депутатом, его решительные выступления с трибуны парламента страны во имя независимости Азербайджана, эффективные предложения, служащие решению общенациональных проблем, вскоре превратили его в настоящего лидера национально-освободительного движения.

Третий тезис: Перемещение центра национально-освободительного движения из Баку в Нахчыван и нахождение во главе движения такого опытного лидера, видного политического и государственного деятеля, как Гейдар Алиев, за короткое время послужили объединению азербайджанского общества вокруг идеи национального спасения. Так, все слои населения, в частности, представители интеллигенции с прогрессивным мировоззрением, даже сами активисты НФА, подвергшиеся серьезным преследованиям, сплотились вокруг Гейдара Алиева. Эта реальность сделала народное движение более организованным и последовательным, азербайджанский народ начал выступать единым фронтом против режима Муталибова, осуществлявшего целенаправленную деятельность против национальной независимости.

Объединив вокруг себя под идеей национально-освободительного движения и представителей «демблока» в Верховном Совете Азербайджана, Гейдар Алиев 18 октября вопреки воле местного коммунистического правительства добился принятия Конституционного акта о независимости и назначения нового референдума по вопросу независимости.

Четвертый тезис: путь к 18 октября 1991 года сопровождался напряженными общественно-политическими процессами и создаваемыми тогдашним правительством искусственными препятствиями. Члены правительства Аяза Муталибова, который руководил Азербайджаном в тот период, и коммунистический корпус Верховного Совета даже не помышляли о статусе Азербайджана как независимого государства, рассматривали усиливающуюся с каждым днем борьбу национально-демократических сил за независимость как конец коммунистического правления и оказывали серьезное сопротивление. Коммунистическое руководство Азербайджана всячески стремилось сломать растущее стремление народа к независимости, препятствовало любой общественной деятельности и движениям в жизни республики в этом направлении, в частности, срывало выступления Гейдара Алиева, других независимых депутатов в Верховном Совете, ведущих с парламентской трибуны настоящую борьбу за национальную независимость, и организуя неэтичные выпады против Гейдара Алиева, пыталось даже запретить его политическую деятельность в стране. Именно в результате этого все тогдашнее руководство Коммунистической партии Азербайджана, организовав в республике 17 марта 1991 года незаконный референдум о сохранении СССР, объявило, что якобы 75 процентов населения проголосовали против независимости. В то время лишь Верховный Совет Нахчыванской Автономной Республики во главе с Гейдаром Алиевым отказался от проведения в Нахчыванской Автономной Республике этого незаконного и антинационального референдума и предотвратил его. Гейдар Алиев раньше всех - 7 марта 1991 года в своем выступлении на сессии Верховного Совета Азербайджана выразил серьезный протест против нового союзного договора о сохранении СССР и однозначно заявил, что выступает против включения Азербайджана правительством Муталибова в состав нового союза и проведения для этого в республике специального референдума.

Пятый тезис: круги НФА-Мусават в мае 1992 года при подстрекательстве внешних сил свергли вооруженным путем правительство Муталибова, которое тогда было полностью дискредитировано, и захватили политическую власть. На самом деле это был несправедливый ход против национально-освободительного движения, только зарождавшихся в республике демократических принципов, а также личных заслуг такого опытного лидера как Гейдар Алиев в борьбе за демократию и национальное освобождение. 18 мая 1992 года на выборах председателя Верховного Совета руководство НФА, несмотря

на требования большей части депутатов и общественности страны, воспрепятствовало выдвижению кандидатуры Гейдара Алиева и даже не позволило связаться с ним из парламента.

Они даже не постеснялись озвучить абсурдные антидемократические мысли о том, что согласовали с какими-то девятью зарубежными странами «избрание» своего кандидата на пост председателя. После полного захвата власти эти круги, посчитав, что в будущем Гейдар Алиев станет им серьезным конкурентом, отложили в сторону все свои важные дела и начали вести с ним незаконную и антиконституционную борьбу, неоднократно предпринимали попытки совершить государственный переворот в Нахчыване, положить конец физическому существованию председателя Верховного Меджлиса. За год пребывания у власти тандем НФА-Мусават, действуя подобными недемократичными и антинациональными средствами, нанес большой ущерб независимости и государственности Азербайджана, страна оказалась на пороге гражданской войны.

16 октября 1992 года группа азербайджанских интеллигентов-патриотов, отчетливо видя обостряющееся с каждым днем в результате некомпетентного правления фронтистов-мусаватистов гражданское противостояние, чувствуя надвигающуюся национальную катастрофу, обратилась к Гейдару Алиеву. В обращении интеллигенция просила Гейдара Алиева выразить отношение к созданию новой политической партии, которая сумеет объединить вокруг себя всех граждан страны, здравомыслящие силы, чтобы вывести Азербайджан из катастрофического кризиса, и вопросу руководства этой партией. На фоне обостряющегося с каждым днем и приобретающего постепенно еще более катастрофические масштабы внутреннего общественно-политического и национально-гражданского противостояния в республике, Гейдар Алиев как лидер, который больше жизни любил Азербайджан, разумеется, не мог оставить без ответа требования многочисленной интеллигенции страны, широких народных масс. Так и случилось. Всего через неделю – 24 октября в газете «Сяс» он ответил интеллигенции страны. На самом деле это был не просто ответ, это был всесторонний анализ катастрофического положения в Азербайджане и четкая национальная программа действий, указывающая пути выхода из него. Последующие процессы уважаемые читатели хорошо знают. Интеллигенция и основатели партии, которым не позволили провести съезд в Баку, съехались в холодный и морозный Нахчыван, и 21 ноября сформировали политическую организацию, именуемую партией «Ени Азербайджан» (ПЕА). Спустя всего 7 месяцев, в июне 1993 года по настоянию народа председатель ПЕА, выдающийся лидер азербайджанского народа Гейдар Алиев возвратился к политической власти. С его возвращением все здравомыслящие силы, общественно-политический и духовный потенциал страны, мобилизовавшись вокруг власти, спасли Азербайджан от надвигающегося неизбежного краха. Таким образом, история периода независимости, каждый прожитый нами день еще раз подтверждают слова великого лидера «Сохранить независимость намного труднее, чем завоевать ее».

Бакинский рабочий. - 2019. - 18 октября. - № 192. - С. 2-3.

Müstəqil dövlətdə yaşamaq səadəti

Bəxtiyar Sadıqov

"Bugün müstəqilliyimiz bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir".
İlham Əliyev

MÜSTƏQİLLİYİN VACİB ŞƏRTLƏRİ

Müstəqil dövləti olmaq, müstəqil dövlətdə yaşamaq səadətdir!
Amma hər xalqa nəsib olmayan səadətdir!
Bunu statistika da təsdiq edir: dünyada beş minədək tayfa, qəbilə, xalq, millət olsa da, yalnız 200-ü özünə dövlət qura bilib!
Müstəqil yaşamaq üçün ən əvvəl Vətən adlı ərazin, torpağın olmalıdır!
Müstəqil yaşamaq üçün yeraltı və yerüstü sərvətlərin, xalqı dolandırmaq üçün lazımi imkan və şəraitin olmalıdır!
Bütün bunlarla bahəm vətənpərvər, ağıllı, savadlı, bacarıqlı, dövləti idarə etməyə qadir övladların olmalıdır!
Ən nəhayət, müstəqil dövləti qurmağı, idarə etməyi, yüksəltməyi, tələtüm və bəlalardan qorumağı bacaran liderin, rəhbərin olmalı, onun ətrafında yumruq kimi birləşməyin zəruriliyini dərk etməlisən!

ƏSL RƏHBƏRSİZ VƏ LİDERSİZ MÜSTƏQİL YAŞAMAQ ÇƏTİNDİR

Tanrı XX əsrin sonlarında bizə ikinci dəfə müstəqil dövlət yaratmaq imkanı qismət edəndə ölkə daxilində nə həqiqi rəhbərimiz var idi, nə hamının qəbul etdiyi liderimiz!
Ona görə də başımıza oyunlar açdılar, müsibətlər gətirdilər!
Gah 20 Yanvar faciəsini törətdilər, gah da ermənіyə arxa duraraq torpaqlarımızın işğalına kömək göstərdilər.
Sonra da ölkədə xaos və anarxiya bataqlığı, iqtisadi və siyasi böhran yaradaraq Azərbaycanı yenidən paralamaq, xanlıqlar dövrünə qaytarmaq planını cızdılar.
Xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə dönən Ulu Öndər Heydər Əliyev düşmənlərimizin bütün planlarını alt-üst etdi, Azərbaycanı xaos və fəlakət burulğanından qurtardı!
Üstəlik, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirərək müasir Azərbaycan dövlətinin memarı və qurucusu oldu!

***

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanı sabitlik və əmin-amanlıq adası kimi qoruyub saxlayır, Cənubi Qafqazın lider dövlətinə çevirərək iqtisadi qüdrətini və siyasi nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir!
Xain niyyətlərin, alçaq qəsdlərin hələ də davam etdiyi indiki mürəkkəb beynəlxalq şəraitdə bütün bəlalardan və alçaq qəsdlərdən məharətlə qoruyaraq irəli aparır!
İlham Əliyevə ümumxalq sevgisinin əsl səbəbi budur!
İlham Əliyevi qüdrətli liderə və müdrik dövlət başçısına çevirən amillər məhz xalqın arzu və əməllərini daim həyata keçirməsi, müstəqil dövlətimizi qoruyub inkişaf etdirməsi, Heydər Əliyev siyasi kursu ilə məharətlə zirvədən-zirvəyə çatdırmasıdır!
Əgər Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdaraq dövlətimizi və dövlətçiliyimizi dağılmadan və məhvolmadan xilas etməsəydi, İlham Əliyev iqtisadi yüksəlişi, dünyaya inteqrasiyanı, müxtəlif təhlükə və təhdidləri dəf etməyi, qonşu və digər dövlətlərlə bərabərhüquqlu və milli maraqlara əsaslanan siyasət qurmasaydı, ən nəhayət, xalqın istək və arzularını vədəsində gerçəkləşdirməsəydi, yəqin ki, cəmi 23 ay ömür sürən Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yenidən yaşayacaqdıq!

HƏQİQİ MÜSTƏQİLLİK NƏDİR?

Həqiqi müstəqillik ilk növbədə müstəqil daxili və xarici siyasət hazırlayıb həyata keçirməkdir.
Bu siyasətin mühüm konturlarını Ulu Öndər Heydər Əliyev cızmışdır.

Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk günlərdən çox uğurlu xarici və daxili siyasət yeridir.

Bu siyasətin mərkəzində müstəqil Azərbaycanın mənafeyi, Azərbaycan xalqının milli maraqları durur!

Bu siyasət beynəlxalq qurum və təşkilatlar, eləcə də dövlətlərlə milli maraqlarımıza əsaslanan əlaqə və münasibətlər yaradılmasına, sülh və əməkdaşlığa xidmət edir!

Bu siyasət kimsənin Azərbaycanın daxili işlərinə qarışmasına yol vermir!

Çünki Azərbaycan da heç bir dövlətin d

axili işlərinə müdaxilə etmir!

Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasət qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirmişdir.

İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkmiş, bir çox ölkədə öyrənilməyə başlanmış, örnəyə çevrilmişdir.

***

Daxili siyasət də məhz müstəqillik prinsipinə söykənir!

Əvvəla, daxili siyasət ölkə daxilində ölkə rəhbəri tərəfindən hazırlanır və reallaşdırılır.

İkincisi, bir daha vurğulayırıq, dövlətin və xalqın maraqlarına xidmət edir.

Bu siyasəti cənab İlham Əliyev yığcam şəkildə belə ifadə etmişdir: *"Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır".*

AYDINLIQ ÜÇÜN MÜQAYİSƏ EDİRİK:

Yaxın keçmişimizdə, SSRİ-nin tərkibində olduğumuz zaman xarici və daxili siyasətlə bağlı yuxarıda söylədiklərimizin heç biri mümkün deyildi!

Çünki dövlət siyasəti ölkəmizdən kənarda, başqa dövlətin paytaxtında müəyyənləşdirilirdi.

Həm də SSRİ-nin - "qırmızı imperiya"nın və "sovet xalqı" adlandırılan abstrakt bir toplumun "maraqları"na uyğun şəkildə!

***

AZƏRBAYCAN HEÇ ÖZÜNÜN NEFT VƏ TƏBİİ QAZ SƏRVƏTLƏRİNİN SAHİBİ DƏ DEYİLDİ:

* Həmin məhsullar və onlardan gələn gəlirlər "ümumittifaq fondu"na toplanırdı, sonrası necə olurdu, bunu bizdən nə soruşan, nə də deyən olurdu!

* Respublika ərazisində hər hansı bir fabrik-zavod, obyekt, kənd təsərrüfatı qurğusu tikmək, yeni qəsəbə, yaşayış massivi salmaqdan ötrü hökmən bu, dövlət planına salınmalı, Moskvada təsdiq edilməli, bundan sonra vəsait ayrılmalı idi.

* Bəzən ayrılan vəsait başqa məqsədlərə yönəldildiyindən illərlə gəlib çıxmır, tikinti ya başlanmır, ya da yarımçıq qalırdı...

* Şəmkirçay və Tovuzçay su anbarları bu qəbildən idi!

Azərbaycan Prezidenti İlham Əliyev nəinki qısa müddətdə onların tikintisini başa çatdırdı, üstəlik, Taxtakörpü və Göytəpə su anbarlarını da istifadəyə verdi.

***

Müstəqillik illərində, xüsusən son on altı ildə Azərbaycanda görülən işlərin, tikilib-qurulanların sayı-hesabı yoxdur!

ƏN YADDAQALANLARINI XATIRLADIRIQ:

* Ölkəyə 250 milyard dollar sərmayə qoyulub;
* Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib;
* "Cənub qaz dəhlizi" inşa olunub;
* Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkilib;
* Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin Azərbaycandan keçən hissəsində mühüm layihələr icra olunub;

* Azərbaycanın sərmayəsi ilə Türkiyədə "Star" zavodu inşa olunub;
* 15 min kilometr avtomobil yolu tikilib;
* 31 yeni elektrik stansiyası inşa olunub, 2500 meqavatlıq yeni güc yaradılıb;
* dörd böyük su anbarı tikilib;
* ölkə üzrə təbii qazla təminat 96 faizə çatdırılıb;
* sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb;
* 100 mindən çox müəssisə yaradılıb;
* 17 aqropark fəaliyyətə başlayıb;
* 15 "Asan xidmət" mərkəzi yaradılıb (bu ilin sonuna qədər onların sayı 20-yə çatacaq);
* orbitə 3 peykimiz çıxarılıb.

***

Təbii ki, iqtisadi inkişaf sosial sahəyə birbaşa təsirini göstərir.
BELƏ Kİ, SON 16 İLDƏ:
* 2 milyon yeni iş yeri açılıb;
* maaşlar 7, pensiyalar 9 dəfə artıb;
* işsizlik 5 faizə, yoxsulluq səviyyəsi 5,1 faizə enib;
* 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib;
* 640 tibb müəssisəsi tikilib və ya yenidən qurulub;
* 44 olimpiya idman kompleksi yaradılıb.
Bütün bunlar son 16 ildə görülən işlərin bir qismidir!
Həm də ən çox maliyyə tutumlu, icrasına xeyli zaman tələb olunan işlərdir!
Ən başlıcası, dövlətimiz, xalqımız üçün vacib və gərəkli işlərdir.

***

Cənab İlham Əliyev bütün bu işlərin təşəbbüsçüsü olmaqla layihələndirib, maliyyələşdirib, icrasına nəzarət edib, açılışında isə qırmızı lenti kəsib!
Heç kimdən, heç haradan icazə alınmayıb!
Bax budur müstəqillik!
Budur müstəqil dövlət quruculuğu!
Budur xalqın arzu və istəklərinin gerçəkləşdirilməsi!

***

Azərbaycan "müttəfiq respublika" kimi SSRİ-nin tərkibində olarkən heç bir beynəlxalq layihəni reallaşdıra bilməzdi!
Haradan keçəcəyini özü müəyyənləşdirə bilməzdi!
Maliyyə məsələlərini həll edə bilməzdi!
Əslində, heç belə xəyala düşə də bilməzdi!
Müstəqil dövlət olanda isə baxın: özünə, Avropaya və dünyaya gərək olan neçə transmilli layihəyə həyat vəsiqəsi verib:
* "Əsrin müqaviləsi" neft kontraktı imzalandı: Azərbaycanın milli maraqları əsasında!
Daha sonra müddəti 30 il - 2050-ci ilədək uzadıldı.
* Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin marşrutunu özümüz seçdik, çətinliklər olsa da, seçimimizi uğurla reallaşdırdıq!
* Bakı-Tbilisi-Ərzurum təbii qaz ixracı boru kəməri də öz istəyimizə tam uyğun çəkildi.
* Bakı-Tbilisi-Qars dəmir yoluna mane olmaq istəyənlər də vardı, hətta beynəlxalq banklar onu maliyyələşdirmək istəmədilər!
Amma cənab İlham Əliyev öz istəyini istədiyi kimi də həyata keçirdi, üstəlik, Bakını beynəlxalq logistika mərkəzinə çevirdi!
* "Cənub qaz dəhlizi"nə mane olmaq cəhdləri də puça çıxarıldı!
Artıq dövlət başçısı İlham Əliyev hər hansı nəhəng layihəni reallaşdırmaq istəyəndə yalnız özünə, öz dövlətinə və xalqına güvənməklə bunu uğurla gerçəkləşdirir!
Müstəqil dövlətin müstəqil Prezidenti İlham Əliyev!
Bu yolla Azərbaycan kosmik dövlətlər ailəsinə daxil olub, müasir, modern dövlətə çevrilib, iqtisadi cəhətdən qüdrətlənərək güclü siyasi nüfuz da qazanıb!

ƏSRLƏR BOYU XALQA XİDMƏT EDƏCƏK QURĞU VƏ OBYEKTLƏR

Azərbaycan indiyədək görünməmiş sürətlə inkişaf edərək tarixinin ən qüdrətli dövləti məqamına yüksəlib!
Bunun əsas səbəbi müstəqilliyin verdiyi imkanlardan yetərincə istifadə edilməsidir!
Bu gün iqtisadi inkişafın davamlılığı üçün nə gərəkdirsə, vədəsində həyata keçirilir!
Xalqın ehtiyacının daha tez və dolğun ödənilməsi üçün nə vacibdirsə, dərhal yerinə yetirilir!
MƏSƏLƏN:
* Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına qısa zamanda və təhlükəsiz çıxarılması üçün ixrac boru kəmərləri çəkilir;
* Neftdən gələn gəlirlər iqtisadiyyatın digər sahələrinin də inkişafına yönəldilir;
* Sənayenin çörəyi sayılan elektrik enerjisinin kifayət qədər istehsalı üçün su, istilik, alternativ elektrik stansiyaları tikilir;
* Kənd təsərrüfatını dirçəltmək və yüksəltmək üçün su anbarları inşa olunaraq kanallar şəbəkəsi qurulur!
* İqtisadiyyatın şah damarı sayılan yol infrastrukturu yaradılır, kəndarası yollar yenilənir;
* Regionları sürətli inkişaf yoluna çıxarmaq, ölkə vətəndaşlarının sosial rifahını və güzəranını yaxşılaşdırmaq üçün dövlət proqramları tutulub təsdiq edilərək vaxtında həyata keçirilir!
*** Çəkilən kəmərlər, inşa olunan su anbarları, salınan yollar, körpülər, tikilən elektrik stansiyaları, əkin vəziyyətinə gətirilən tarlalar əsrlər boyu insanlara xidmət göstərəcək qurğu və obyektlər sayılır!**
Onlara sərmayə qoyub işə saldıqdan sonra özləri gəlir verməyə başlayır, büdcəyə vəsait toplanılmasında iştirak edirlər!
Müstəqil dövlətin isə müxtəlif mənbələrdən formalaşan varlı büdcəsinin olması mühüm şərtdir!

HARADAN BAŞLANIR VƏTƏN

Sovet dövründə bizə təlqin edirdilər ki, Vətən doğulduğun komadan və obadan yox, sərhəddən başlanır!
Amma həmin sərhədləri yad əsgərlər qoruyurdu!
Üstəlik, həmin sərhədlərdən keçmək üçün özgələrdən icazə almalı idik!
Məsələn, qardaş Türkiyəyə getmək üçün SSRİ Xarici İşlər Nazirliyindən icazə alınmalı (əgər rüsxət verməsəydilər), sonra Moskvaya gedərək oradan təyyarə ilə uçmalı idik!
Həm də Aeroflotun təyyarəsi ilə!
İndi isə nəinki Türkiyəyə, dünyanın istənilən nöqtəsinə belə öz ölkəmizin icazəsi, öz təyyarələrimizlə uçuruq, bir sıra dövlətlərə isə artıq vizasız da gedə bilirik!
Regionlarımızda dörd beynəlxalq təyyarə limanı tikilib və istifadəyə verilib!
Sərhədləri özümüz, öz əsgərlərimiz qoruyur!
Doğulduğumuz yerdən başlanan Vətənimiz isə müstəqil, qüdrətli Azərbaycana çevrilib!

MƏİŞƏTDƏ MÜSTƏQİLLİYİN BƏHRƏLƏRİ

Müstəqillik elə bir nemətdir ki, hətta özünü məişətdə də hiss etdirir!
Ömrümüzün xeyli hissəsini keçirdiyimiz məişətdə!
İnsan rahat evdə yaşamadan, ailə qayğılarını vədəsində həll etmədən, məişətini düzgün qurmadan nə yaxşı dincələ, sağlam və gümrah ola, nə də gərgin, səmərəli çalışa bilər!
Sosializmdə varlı və kasıb "yox" idi!
İnsanlar süni surətdə, zorla bərabərləşdirilirdi: eyni dəbdə geyinir, eyni mənzillərdə yaşayır, ailənin hər üzvünə eyni kvadratmetr mənzil sahəsi ayrılır, eyni minik avtomobili alırdılar və s.

MÜSTƏQİLLİK DÖVRÜNDƏ DOĞULARAQ BÖYÜMÜŞ CAVANLARA QƏRİBƏ GƏLƏCƏK KEÇMİŞ MƏQAMLAR:

* geyinib bəzənmək üçün yaraşıqlı paltar tapılmırdı;
* xarici mallar mağazalara gələndə onu gizlincə, əlavə pul ödəməklə alırdılar;
* "Jiquli" markalı (sovet dövrünün matahı) avtomobil almaqdan ötrü növbəyə dururaq illərlə gözləməli idin;
* "Volqa" maşınını ancaq yaradıcı insanlar, əmək qəhrəmanları ala bilərdi, başqaları alanda "pul haradandır" çək-çeviri başlayardı;
* bir ailə yalnız bir minik avtomobili ala bilərdi, yoxsa...
* ikimərtəbəli fərdi ev tikmək üçün xüsusi icazə alınmalı, tikinti materiallarının sənədləri göstərilməli idi;

* dövlətdən mənzil almaq üçün bəzən 10-20 il növbə gözləyirdilər;
* sahibkarlıq fəaliyyəti qadağan idi, gizlicə nəsə satanları tutub "alverçi" adı ilə məhkum edirdilər;
* insanların fərdi ev tikmələri üçün (hətta "halal yol"la qazandıqlarını sübut edəndə belə) torpaq sahəsi əldə etmələri müşkül məsələydi;
* bütün mağazalarda alış-veriş etmək üçün daim böyük növbələr olardı!

Çoxsaylı qadağalar, həmin qadağaları pozmağa görə cinayət məsuliyyətinə cəlbetmələr hamını çərçivə daxilində yaşamağa məcbur edirdi.

İNDİ İSƏ...

Azadlığımızın həddi-hüdudu yoxdur:
* "Addımbaşı "market"lər, "ticarət mərkəzləri", üstəlik, nə vaxt gəlirsən, hamısı ağzınacan malla dolu və müştəri gözləyir;
* geyim-kecimin növü, çeşidi, həcmi o qədərdir ki, hətta seçməkdə çətinlik törədir. Həm də hamısı "xarici mal" (artıq bu gün "xarici mal" ifadəsi gülməli səslənir);
* nəinki bir ailə, hətta bir adam özünə istədiyi markada və istədiyi qədər minik avtomobili alır. Nə kimsədən qorxur, nə də kiməsə hesab verir;
* bir adam özünə bəs qədər, hətta ölkənin müxtəlif guşələrində və xaricdə belə mənzil ala bilir. Öz işidir;
* indi ikimərtəbəli fərdi evi tək-tük adam tikdirir.

Üç-beşmərtəbəli yaraşıqlı "villalar"ın sayı-hesabı yoxdur!
* kim harada, nə qədər istəsə, torpaq alır. Təki pulu və arzusu olsun;
* sahibkarlığa dövlət dəstək verir, əlverişli kredit ayırır, müxtəlif formada yardım göstərir.

Təkcə ictimai-siyasi həyatda yox, məişətdə də müstəqilliyin yaratdığı imkan və şəraitdən bol-bol bəhrələnirik!

Odur ki, həyatımız daha gözəl, daha rahat, daha mənalı olub!

ORDUN VARSA, YURDUN VAR!

Napoleonun məşhur bir sözü var: "Öz ordusunu yedirtməyən dövlət özgə əsgərlərini saxlar!"

Müstəqilliyi qorumaq, olanları mühafizə etmək üçün möhkəm və etibarlı orduya daim ehtiyac var!

Xüsusən də ərazisinin bir hissəsi işğalda qalan dövlətlər üçün!

Milli Ordu həm də müstəqilliyin mühüm atributlarından biri sayılır!

Ərazisində özgə dövlətlərin hərbi bazası yerləşən, sərhədlərini başqa dövlətlərin əsgərləri qoruyan dövlətin özünü müstəqil sayması gülünc görünür!

Əgər evindən bayıra çıxmaqdan ötrü qonşudan icazə almalısansa, onda necə müstəqilsən?!

Vassal Ermənistan kimi!

İlham Əliyevin Ali Baş Komandanlığı altında ən müasir silahlarla silahlanmış, təcrübəli və bilikli zabit korpusuna malik, təlim görmüş əsgərləri olan, dünyanın əlli ən güclü ordusu ilə bir sırada dayanan Milli Ordumuz var!

Yeni yaradılan Müdafiə Sənayesi Kompleksi də Azərbaycan Ordusuna xidmət edir!

Gözəl bir atalar sözü var: Ordun varsa, yurdun var!

Azərbaycan Ordusu nəinki müstəqilliyimizi, qazanılanları qorumaq, hətta Ali Baş Komandanın əmri ilə qısa müddətdə torpaqları işğaldan azad etmək qüdrətindədir!

Bunu Aprel müharibəsi də göstərdi!

Bunu Naxçıvanın Günnüt əməliyyatı da sübut etdi!

Bunu zaman da bir daha təsdiq edəcək - sülh danışıqlarının fayda verməyəcəyi təqdirdə!

İDMAN DÖVLƏT SİYASƏTİNƏ KÖMƏK EDİR

İdmançılar ölkə xaricində dövlət bayrağını qaldırmaq, himnini səsləndirmək imkanına malikdirlər!

Bu şərtlə ki, yarışlara milli komanda ilə, öz dövlətlərinin bayrağı altında çıxsınlar!

SSRİ-nin mövcudluğu dövründə Azərbaycan idmançıları müxtəlif yarışlarda ən yüksək nəticəyə nail olsalar da, heç zaman nə öz dövlətlərinin bayrağını ucaltdılar, nə də himnini səsləndirə bildilər!

Çünki yarışlara başqa komandanın tərkibində, özgə bayrağı ilə çıxırdılar!

Həqiqi müstəqillik Azərbaycan idmançılarına öz bayraqlarını ucaltmaq xoşbəxtliyini də nəsib etdi!

Bu gün ölkəmizdə idman həyatımızın ayrılmaz hissəsini təşkil edir.

Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin səmərəli fəaliyyəti nəticəsində idman gənclər siyasətinin tərkib hissəsinə, müstəqil Azərbaycanın dünyaya yeni imicdə təqdiminin maraqlı formasına çevrilib!

Tarixən qısa zamanda ölkəmiz I Avropa Oyunlarını və IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmiş, dünya, Avropa, bir sıra beynəlxalq yarışlara evsahibliyi etmiş, idman yarışlarının mahir təşkilatçısı olduğunu sübuta yetirmişdir!

Bir vaxtlar xaricə idmançı göndərməyə vəsait tapmayan Azərbaycan indi ən yeni və möhtəşəm idman qurğularına sahibdir, yüz milyonlarla insanın izlədiyi "Formula-1" yarışlarının bacarıqlı təşkilatçısı kimi ad çıxarıb!

Bütün bunlar da dövlət müstəqilliyi sayəsində mümkün olub!

QÜRUR ÜNVANIMIZ

Müstəqil dövlətlə qürur duymaq, fəxr etmək azdır!

Onu qorumağı, gücləndirməyi, xain və məkrli niyyətlilərdən müdafiə etməyi də bacarmalıyıq!

Həm də vətənpərvər insan kimi buna borcluyuq!

Hələ də Azərbaycanın müstəqilliyini istəməyən qüvvələr var!

Hələ də Azərbaycanın müstəqil siyasət yeritməsini həzm edə bilməyən dövlətlər mövcuddur!

Hələ də Azərbaycanın güclənməsini, dünyanın sayılıb-seçilən, sözü eşidilən dövlətə çevrilməsini gözü götürməyənlər məkrli planlar qurmaqdadırlar!

Bizim ən böyük uğurumuz iqtidarla xalqın birliyi, vəhdətidir!

Bizim ən böyük nailiyyətimiz ölkədə formalaşan möhkəm və dönməz sabitlikdir!

Bizim uğurumuz ildən-ilə iqtisadi gücümüzün, siyasi nüfuzumuzun artmasıdır!

Bütün bunların təşkilatçısı Prezident İlham Əliyev, icraçısı Azərbaycan xalqının vətənsevər, millətsevər insanları, gəncləridir!

Bir an da dayanmaq, arxayınlaşmaq olmaz!

Ulu Öndər Heydər Əliyevin sözüdür: "Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir!"

Düşmənə və xəbis niyyətlilərə yalnız birliyimiz, səmimi və səmərəli fəaliyyətimiz, Vətənə və dövlət müstəqilliyinə məhəbbətimiz və fədakar əməyimizlə qalib gələ bilərik!

Bu yolda hamı və hər kəs bacarığını əsirgəməməlidir!

Azərbaycan.-2019.-18 oktyabr.-№231.-S.1,4-5.

Azərbaycanın dövlət müstəqilliyi əbədi və dönməzdir

Aydın Hüseynov,
Milli Məclisin deputatı

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

Heydər Əliyev
Ümummilli lider

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması – bütün bunlar müstəqilliyimizin ilk illərinin hadisələri idi.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıdışından -sonra ümummilli liderin zəngin -siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı Azərbaycanın dövlət müstəqilliyini təhlükələrdən -qurtarmış və ölkə möhkəm əsaslar üzərində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycanın inkişaf istiqamətləri 1993-cü ildə və dövlətçiliyimizin formalaşmasının ilk illərində müəyyən edilmişdir. O dövr üçün bu təşəbbüslər həlledici məna daşıyırdı. Çünki bu gün Azərbaycanın reallıqları məhz o dövrdə müəyyən edilmiş və seçilmiş istiqamətlər üzərində qurulmuşdur. Düzgün istiqamət seçilmişdir: Azərbaycan dünya birliyinə inteqrasiya etməli, açıq qapılar siyasəti aparmalı, xarici investisiyaları cəlb etməli idi. Biz bütün bunlara nail ola bilmişik. Azərbaycanda demokratik, dünyəvi dövlətin qurulması da məhz Heydər Əliyev siyasətinin nəticəsidir. Bu gün Azərbaycan sürətlə və uğurla inkişaf edən ölkədir. Ölkəmizdə siyasi proseslər çox müsbət istiqamətdə gedir. Siyasi sistem təkmilləşir. Ölkəmiz demokratik əsaslarla idarə olunur. Söz, vicdan, mətbuat azadlığı, insan hüquqlarının qorunması məsələləri bizim üçün prioritetdir. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla aparılır. Biz bütün beynəlxalq qurumlarla, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq edirik.

Bu gün dövlət müstəqilliyimiz ümummilli liderin layiqli varisi, regionun güclü lideri Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət nəticəsində daha da güclənib və Azərbaycan beynəlxalq arenada müstəqil siyasət yürüdən ölkə kimi tanınır.

Azərbaycan xalqının tarixində 18 oktyabr milli qürur günüdür. Çünki məhz həmin gün Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etmişdir. Bu mühüm tarixi sənədlə xalqımız uzun əsrlər boyu həsrətində olduğu azadlığına qovuşmuşdur. Lakin dövlət müstəqlliyinə aparan yol çox mürəkkəb olmuşdur. Milli-azadlıq hərəkatından 20 Yanvar faciəsinə qədər kədərli prosesi yaşayan Azərbaycan xalqı qurbanlar bahasına olsa da, müstəqilliyini elan etmişdir.

Tarixən bütün zamanlarda müstəqillik qanla qazanılır, eyni zamanda, ulu öndərin dediyi kimi, müstəqilliyi qorumaq, onu qazanmaqdan qat-qat çətindir. Lakin istiqlal mübarizəsinin məntiqi sonluğundan sonra, yəni müstəqillik elan edildikdən sonra ölkəmizdə baş verən ictimai-siyasi proseslər Azərbaycan xalqını yeni təhlükələrlə üzləşdirmişdi. Müxtəlif siyasi qruplaşmaların hakimiyyət uğrunda mübarizəsi, xüsusilə də ölkədə güclü liderin olmaması Azərbaycanı növbəti fəlakətlə – tarixin verdiyi müstəqillik şansını itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Ölkə vətəndaş müharibəsinin astanasında dayanmışdı. Bununla bağlı Prezident İlham Əliyev belə demişdir: "Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik".

Müstəqilliyimizin ilk illərində vətəndaş dəstəyinə malik olmayan hakimiyyət orqanlarının yarıtmaz fəaliyyəti, cinayətkar qruplaşmaların geniş əl-qol açması nəticəsində Azərbaycan ikinci dəfə müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi.

Ulu öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, Milli Ordu formalaşdırıldı, Azərbaycanın milli mənafelərini

qorumağa qadir nizami silahlı qüvvələr yaradıldı, 1994-cü ilin mayında atəşkəsə nail olundu. Qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən eşidilməyə başladı. Suverenliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ən əsası, böyük siyasi xadimin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.

Güclü ictimai-siyasi xadim Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səylərini bu gün Prezident İlham Əliyev yüksək səviyyədə davam etdirir. Ötən müddət ərzində dövlət başçısının rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi əldə etmişdir. Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkədir. Dövlət neft strategiyasının uğurla həyata keçirilməsi, ümumilikdə, iqtisadi-sosial sahələrdə aparılan köklü islahatlar Azərbaycanı gücləndirir, hər bir vətəndaşın sosial həyatına müsbət təsir göstərir. Hazırda Azərbaycanda güclü infrastruktur yaradılmış və ölkəmiz xarici investisiyaların cəlbedici məkanına çevrilmişdir. Ötən 28 il ərzində böyük inkişaf yolu keçməklə beynəlxalq arenada da mövqelərini gücləndirməyə nail olmuşdur. "Eurovision", Avropa Oyunlarına, İslam Həmrəylik Oyunlarına və "Formula-1" kimi nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi, bir çox geosiyasi əhəmiyyətli enerji-nəqliyyat dəhlizlərinin formalaşdırılmasında iştirakı Azərbaycanın güclü dövlət olduğunu bir daha təsdiqləmişdir. Bu mühüm tədbirlərin Azərbaycanda keçirilməsi rəmzi məna daşıyan nadir tarixi hadisə olmaqla yanaşı, həm də Asiya ilə Avropa arasında körpü rolunu oynayan ölkəmizin sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına verdiyi böyük töhfədir.

Bir sözlə, ulu öndər Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin məqsədyönlü, düşünülmüş siyasəti nəticəsində müstəqil Azərbaycan son 28 il ərzində kifayət qədər böyük uğurlar qazanmışdır. Güclü siyasi iradəyə, böyük maliyyə resurslarına malik olan Azərbaycan müstəqil siyasət yürüdən dövlətdir. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə evsahibliyi edən humanitar məkan kimi tanınır. Sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilmiş Azərbaycan bəşəriyyətin cavab axtardığı bir sıra vacib məsələlərin müzakirəsinin qlobal səviyyəyə yüksəlməsində müstəsna rol oynayır və bu strateji kurs artıq dönməz xarakter almışdır. Bütün bu faktorlar Azərbaycanın güclü dövlət olduğunu bir daha nümayiş etdirməklə yanaşı, ölkəmizin beynəlxalq arenada nüfuzunun güclənməsinə öz töhfəsini verir. Ən əsası, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və humanitar-mədəniyyət həyatında cərəyan edən güclü inkişaf dinamikası hər bir azərbaycanlının Azərbaycanın dövlət müstəqiliyinin daha da güclənəcəyinə və üçrəngli bayrağımızın əbədi dalğalanacağına olan inamını artırır.

Xalq qəzeti.-2019.-17 oktyabr.-№230.-S.8.

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir

Etibar Əliyev,
iqtisad elmləri üzrə fəlsəfə doktoru.

Həyatda elə əlamətdar günlər, hadisələr var ki, bütün ölkənin taleyində, müqəddəratında həlledici rol oynadığından ayrı-ayrı fərdlərin deyil, bütöv bir xalqın yaddaşına əbədi həkk olunaraq qızıl hərflərlə yazılır. Ölkəmiz üçün 1991-ci ilin 18 oktyabrı məhz belə günlərdəndir. Azərbaycan tarixinin şanlı səhifələrini vərəqləyən hər kəsə məlumdur ki, XX əsrin əvvəllərində xalqımız öz azadlığı uğrunda apardığı mübarizəni uğurla tamamlayaraq Şərqdə ilk demokratik əsaslarla idarə olunan Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. Lakin daxili çəkişmələr və xarici müdaxilə nəticəsində cümhuriyyətimiz cəmi 23 ay yaşadı. Əsrin əvvəllərində müstəqilliyə yol açmış şərait əsrin sonunda bir daha təkrarlandı. SSRİ-nin dağılması nəticəsində 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbulu ilə respublikamızda müstəqillik rəsmən elan olundu.

Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı 1991-ci ilin oktyabrın 18-də qəbul edilsə də, dövlət müstəqilliyimizin etibarlı əsasları 1993-cü ilin ortalarından sonrakı dövrdə Heydər Əliyevin bilavasitə rəhbərliyi altında, onun qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində yaradılıb. Daxili sabitliyin bərqərar olması, dövlətçilik ənənələrinin yaradılması, demokratik-hüquqi islahatların həyata keçirilməsi, ölkəmizin zəngin təbii ehtiyatlarından Azərbaycanın maraqlarına uyğun istifadə edilməsi, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində görülən tədbirlər respublikamızın müstəqilliyinin dönməzliyinin, əbədiliyinin etibarlı əsaslara malik olmasının nəticəsidir.

Bu gün hər bir azərbaycanlı azad ölkənin vətəndaşı olmağı ilə fəxr edir. Müstəqil dövlətimizin yaranmasında ən böyük zəhməti isə məhz ulu öndər Heydər Əliyev çəkib. Bugünkü azad və suveren respublikamız ulu öndərimizin şah əsəridir. Müstəqilliyimizin memarının siyasi müdrikliyi və qətiyyəti sayəsində ölkədə vətəndaş həmrəyliyi bərqərar oldu, əmin-amanlıq və sabitlik bərpa edildi.

Dövlət müstəqilliyimizin bərpasının iyirmi səkkizinci ildönümünü böyük qürur hissi ilə qeyd edirik. Bu müddət ölkənin, dövlətin tarixində o qədər də böyük zaman deyil. Lakin Azərbaycan bu illər ərzində çox böyük tarixi yol keçmişdir. Xalqımız Azərbaycanın dövlət müstəqilliyinin bərpasının növbəti ildönümünü möhtəşəm nailiyyətlərlə, dünyada analoqu olmayan uğurlu nəticələrlə qarşıladı. Azərbaycan çoxəsrlik tarixi və zəngin mədəni ənənələri olan dünya dövlətlərindən biridir. Mürəkkəb beynəlxalq vəziyyətə, Ermənistan tərəfindən işğala məruz qalmasına və ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədaxili vəziyyətin ağır olmasına baxmayaraq, respublikamız 28 illik dövlət müstəqilliyi dövrü ərzində siyasi və sosial-iqtisadi inkişafında böyük uğurlar əldə etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasi kursunu inamla həyata keçirməsi ölkəmizə dünya iqtisadiyyatına inteqrasiya yolunda uğurla addımlamağa, müxtəlif beynəlxalq maliyyə və iqtisadi qurumlarla əməkdaşlığı daim genişləndirməyə, dünya və regional əhəmiyyətli qlobal məsələlərdə milli maraqların tarazlığının saxlanılmasına imkan vermişdir. Müstəqil və qüdrətli dövlət qurmaq xoşbəxtliyi yalnız güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Bu, tarixin sınağından çıxmış gerçəklikdir. Xalqı vahid milli ideya ətrafında birləşdirməyi bacaran lider onu öz müqəddəs arzularına qovuşdurmağa qadirdir. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət kimi XX əsrin sonlarında Azərbaycanı bütün bəlalardan qorudu, onun suverenliyini möhkəmləndirə bildi. Həmin dövrdə Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Ölkədə xaos, özbaşınalıq, anarxiya hökm sürürdü.

Müstəqil Azərbaycanda yaşanan siyasi qeyri-sabitlik, hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzülün dərinləşməsi, torpaqların işğal edilməsi, ölkənin təcridə məruz qalması Heydər Əliyev fenomeninə qayıdışı qaçılmaz edirdi. Getdikcə daha artıq insan dərk edirdi ki, zamanında müstəqillik məfkurəsinə müstəsna töhfələr verən Heydər Əliyev indi qazanılmış müstəqilliyin qorunub saxlanmasının yeganə qarantı ola bilər. Məhz onun sayəsində istiqlaliyyət ideyaları həqiqi gerçəkliyə çevrilə, qazanılmış dövlət müstəqilliyi qorunub saxlana bilər. İndinin özündə də həmin dövrü həyəcansız xatırlamaya bilmirsən. Çünki açıq-aydın görünürdü ki, hadisələrin bu məcrada inkişafı dövlətçiliyimizin süqutu, müstəqilliyimizin ikinci dəfə itirilməsi ilə nəticələnə bilər. Xalq yaxınlaşmaqda olan fəlakəti duyduğu üçün öz dövlətçiliyinin müdafiəsinə qalxdı, o vaxt Naxçıvanda yaşayan Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etdi. Sonralar "Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibəsində qayıdışının səbəbini izah edən Heydər Əliyev demişdi: "Mən hakimiyyətə özüm gəlməmişəm, məni dəvət etmişlər. Məni təkidlə dilə tutmuşlar. Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların nümayəndələri, nüfuzlu ağsaqqallar mənə müraciət etmişlər". Yalnız

Heydər Əliyev kimi güclü və polad iradəli şəxsiyyət öz çiynini belə ağır, son dərəcə məsuliyyətli yükün altına verə bilərdi. Bu addımı yalnız Vətəni və xalqı naminə hər cür fədakarlığa hazır olan insan ata bilərdi. 1993-cü ilin iyun ayına qədər müstəqilliyimizin əbədiliyinə təminat yox idi. Başımıza gətirilən müsibətlər, hakimiyyət uğrunda mübarizə, hərc-mərclik, anarxiya, xaos, ermənilərin işğalçılıq siyasəti nəticəsində 1 milyondan artıq insanın öz dədə-baba yurdlarından didərgin düşməsi tariximizin acı ibrət dərsləridir.

1988-ci ildən başlayaraq dövlət idarəçiliyində buraxılan kobud səhvlərin məntiqi nəticəsi olaraq 1993-cü ildə ağır sosial-iqtisadi gərginliyin yüksək həddinə çatdığı, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı vaxtda xalqımızın ümummilli lideri Heydər Əliyevə üz tutması təsadüf deyildi. Xalqın təkidli tələbi və çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyevin yürütdüyü müdrik, uzaqgörən siyasət nəticəsində üzləşdiyimiz təhlükələrin qarşısı alındı, bütün çətinliklər dəf edildi. Həmin günü də öz tarixinə qızıl hərflərlə yazmış xalqımız, sözün həqiqi mənasında parçalanmaq və məhv olmaq təhlükəsindən, anarxiya və xaosdan qurtuldu. Azərbaycanın hərtərəfli tərəqqisinə, xalqımızın milli-mədəni, tarixi ənənələrinə, ümumbəşəri dəyərlərə söykənən, sivil, demokratik cəmiyyətin yaradılmasına xidmət edən islahatların həyata keçirilməsinə start verildi. Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanılması və inkişafı üçün taleyüklü problemləri həll etdi. Atəşkəsə nail olundu, ordu quruculuğu işlərinə başlanıldı. Dünya dövlətlərinin ölkəmizdə gedən müsbət proseslərə marağı artdı. Uğurlu islahatların bünövrəsi qoyuldu. Ölkəmiz məhz ulu öndərin möhtəşəm səyləri nəticəsində sürətli inkişaf yoluna çıxdı. Respublikamız beynəlxalq təşkilatlara üzv qəbul edildi. Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biri də uğurlu neft strategiyasının hazırlanaraq həyata keçirilməsidir. 1994-cü ilin 20 sentyabrında dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Həmin saziş nəticəsində bütün dünyanın diqqət mərkəzinə çevrilən ölkəmiz eyni zamanda qlobal məkanda özünün statusunu müəyyənləşdirməyə nail oldu. Ümummilli liderimizin rəhbərliyi dövründə müstəqil dövlətimiz əsrə bərabər inkişaf yolu qət etdi. Bu inkişafın bariz təcrübəsi - Heydər Əliyevin şah əsəri olan müasir, müstəqil Azərbaycandır. Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev dühasının bəhrələri görünməsin. Azərbaycan xalqı, onun dövləti bu gün ümummilli liderimizin ideyalarından bəhrələnir, onun müəyyənləşdirdiyi prinsipləri rəhbər tutur, tövsiyə etdiyi istiqamətdə inamla irəliləyir. 1994-cü ildən başlayaraq iqtisadiyyatda aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sistemlərinin sürətlə dəyişən iqtisadi şəraitə uyğunlaşdırılması, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi bütün sahələrdə inkişaf mərhələsinin başlanmasına təkan verdi. Məhz görülmüş tədbirlər nəticəsində iqtisadi inkişafın ümumiləşdirici göstəricisi olan ümumi daxili məhsul istehsalında yüksəlişə nail olundu. Bütün bunlar sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin açılmasına, kiçik sahibkarlığın inkişafına güclü təkan vermişdir. Odur ki, ölkəmizdə uğurla aparılan islahatlar özəl sektorun formalaşmasına, sahibkarlıq fəaliyyətinin genişlənməsinə səbəb olmuşdur. Sahibkarlıq getdikcə sosial-iqtisadi strukturda daha geniş yer tutur, eyni zamanda, ölkənin inkişafında, möhkəmləndirilməsində öz sözünü deyir. Özəl sektoru iqtisadiyyatımızın lokomotivi hesab edən ölkə başçısı müstəqil Azərbaycanı dinamik inkişafda olan ölkələr sırasına çıxarıb. Bazar iqtisadiyyatının aparıcı qüvvəsi iş adamları olduğundan özəl sektorun inkişafına dair proqramlar qəbul edilmiş, sahibkarların normal və sərbəst fəaliyyəti üçün çoxsaylı mühüm fərmanlar imzalanmışdır. Azərbaycanın malik olduğu neft sərvətləri hesabına ölkədə formalaşan güclü neft sektoru ilə bərabər tarazlı iqtisadiyyatın qurulması və qeyri-neft sektorunun dinamik inkişaf etdirilməsi kimi məsələlər yeni prioritet vəzifəyə çevrilmişdir. Neft sektorundan əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sahələrinin inkişafına yönəldilməsi və bu sahələrdə mövcud müəssisələrin maddi və texnoloji bazasının yeniləşməsi, investisiya qoyuluşlarının səmərəliliyini artırmaq məqsədilə dövlət başçısı tərəfindən önəmli qərarlar qəbul edilmişdir.

Müstəqilliyimizin əbədi olması, demokratik, hüquqi dövlət quruculuğu məsələləri bilavasitə ümummilli liderimizin fəaliyyəti ilə bağlıdır. Bu dahi şəxsiyyətin gördüyü işlər, yeritdiyi düzgün, məqsədyönlü daxili və xarici siyasət, həyata keçirilən uğurlu islahatlar Vətənə və xalqa sədaqətlə xidmətin ən bariz nümunəsidir. Bu dahi şəxsiyyət elə bir zəngin irs qoyub gedib ki, bu gün xalqımızın öyünməyə haqqı var. O, azərbaycanlı olması ilə fəxr etdiyi kimi, biz də onun əlləri ilə yaradılan bir ölkənin - müstəqil Azərbaycanın vətəndaşı olmağımızla sonsuz qürur duyuruq. Dahi rəhbərimiz deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti - dövlət müstəqilliyimizi daim qoruyub saxlayacağıq. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi və əbədi olması bundan da çətindir".

Tam qətiyyət və cəsarətlə demək olar ki, Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illər Azərbaycan tarixinin ən intensiv inkişaf mərhələsini təşkil edir. XX yüzilliyin sonunda Azərbaycanın güclü dövlətçilik ənənələrinə malik olması, heç şübhəsiz, ulu öndərimizin misilsiz xidmətidir. Zəngin dövlətçilik təcrübəsinə malik ulu öndər Azərbaycanın sürətli inkişafını təmin edən iqtisadi və siyasi kursu müəyyənləşdirərək həyata keçirməyə başladı. Cəmiyyətin bütün sahələrində sürətli islahatlar aparıldı, nizami ordu yaradıldı, vətəndaş cəmiyyəti bərqərar edildi.

Müstəqilliyimizin bərpasının 28-ci ildönümünü qeyd edərkən biz qürur və iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan iqtisadi sahədə dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Bu, özünü təkcə makroiqtisadi göstəricilərdə deyil, eyni zamanda əhalinin gündəlik həyatında da büruzə verir. Ötən 28 il ərzində respublikamızda

demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində çox böyük işlər görülmüşdür. Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan bu gün Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində bütün sahələrdə böyük uğurlar qazanılmış, istər paytaxtımızda, istərsə də regionlarda geniş abadlıq-quruculuq işləri aparılmış, yeni iş yerləri açılmış, sahibkarlıq inkişaf etmişdir. Bəli, müstəqillik tariximiz ilbəil əlamətdar hadislərlə zənginləşir, Azərbaycan bəşəriyyətin geopolitik güc mərkəzinə çevrilir. Dövlət başçısının rəhbərliyi ilə yeni-yeni uğurlara imza atan müstəqil Azərbaycan möhtəşəm nailiyyətlərə doğru irəliləyir. Bu da ölkəmizin iqtisadi qüdrətinin daha da möhkəmlənəcəyinə qəti əminlik yaradır.

Əminik ki, qərinələr ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, ancaq dövlət müstəqilliyimizlə ümummilli liderimiz Heydər Əliyevin adı qoşa çəkiləcəkdir. Heydər Əliyev ideyaları, siyasi xətti bu gün də yaşayır, qalib gəlir. Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimiz böyük şəxsiyyətin Azərbaycan xalqına ən böyük töhfəsidir. Ulu öndərin şah əsəri olan müstəqil Azərbaycanı qoruyub yaşatmaq hər bir ölkə vətəndaşının borcudur. Müstəqil və azad xalq kimi yaşamağımız isə ən böyük qürurverici amildir. Heydər Əliyevin dövlətçilik ideyaları, yolu xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır. Bu isə bir daha təsdiqləyir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir.

Bu gün çox sevindirici haldır ki, ümummilli liderimizin ideyaları yaşayır, onun siyasi kursu Prezident İlham Əliyev tərəfindən yeni məzmun və keyfiyyətcə davam etdirilir. Müstəqil Azərbaycan günbəgün tərəqqi edir, dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilir. Müstəqillik, həqiqətən də, xalqımızın böyük tarixi nailiyyətidir. Bizim isə əsas vəzifəmiz bu müstəqilliyi qoruyub saxlamaq və onu daha da möhkəmləndirməkdir.

Respublika.-2019.-13 oktyabr.-№226.-S.5.

Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur

Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi əsasında Azərbaycanın siyasi rəhbərliyinə qayıdışı ilə respublikamızda sabitlik bərqərar oldu, ölkə dinamik tərəqqi yoluna qədəm qoydu

Mübariz Abdullayev

Qısa müstəqillik tarixində Azərbaycan uğurla inkişaf edərək hər cəhətdən güclü, milli maraqlarını qətiyyətlə qoruyan dövlətə çevrilib. Respublikamızda həyatın bütün sahələrində bərqərar olan müsbət reallıqlar ölkənin hər bir vətəndaşında qürur hissi və sabaha böyük inam yaradır. Müstəqil Azərbaycanın bugünkü dinamik inkişafının bünövrəsini, real əsaslarını isə xalqımızın Ümummilli Lideri Heydər Əliyev qoyub.

26 il bundan öncə - 1993-cü ilin 3 oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 10 oktyabrda and içib. Qeyd edək ki, 1993-cü il oktyabrın 3-də seçkilərdə iştirak edənlərin 98,8 faizi Heydər Əliyevin namizədliyini dəstəkləyib. Ulu Öndər andiçmə mərasimində söylədiyi nitqində xalqın Ona olan etimadını yüksək dəyərləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, milli maraqların yüksək səviyyədə təmin olunması naminə çalışacağını bildirib. "XX əsrin sonu dünyada köklü dəyişikliklərə səbəb olmuş siyasi proseslərlə əlamətdardır. Azərbaycan xalqı da bu proseslərdən kənarda qalmamış, nəhayət, əsrlərdən bəri bəslədiyi ümidlərinə, arzularına çatmış, öz müstəqilliyinə nail olmuşdur. Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi dünyada, keçmiş Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Eyni zamanda, Azərbaycanın müstəqilliyi respublika qarşısında, onun vətəndaşları qarşısında çox böyük və mürəkkəb vəzifələr qoyubdur. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq - bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam", - deyə Ulu Öndər andiçmə mərasimində söylədiyi nitqində vurğulayıb.

Xilaskarlıq missiyasını yerinə yetirən Ulu Öndər xalqın Ona bəslədiyi ümidləri yüksək səviyyədə doğruldub

Məlumdur ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana bir-birindən fərqli qütblərdə dayanan iki ideoloji mühitdə rəhbərlik edib. Lakin şərait, ideoloji tələblər müxtəlif olsa da, Heydər Əliyevin milli ruhu və uzaqgörənliyi Onun Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə - istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində respublikamızın böyük uğurlar əldə etməsinə yol açıb. Keçmiş sovet dövrü milli respublikalar, o cümlədən də Azərbaycan üçün bir sıra qadağalarla səciyyələnirdi. 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gələn Heydər Əliyev isə rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxardaraq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi.

Ümummilli Liderin zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi və mədəni əsaslarına çevrildi. Minnətdarlıq hissi ilə vurğulamaq yerinə düşər ki, bu zəngin irsdən kənarda müstəqil Azərbaycanın nə iqtisadiyyatını, nə də mədəniyyətini təsəvvür etmək mümkün deyil.

Nəhayət, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan XX yüzillikdə ikinci dəfə müstəqilliyə qovuşdu. Tale isə elə gətirdi ki, Azərbaycanın müstəqilliyini qorumaq missiyası da elə Ulu Öndərin çiyinlərinə düşdü. Bəli, Ulu Öndərin bütün varlığı ilə bağlı olduğu xalqı və Vətəni qarşısında ən böyük xidmətlərindən biri də Onun xilaskarlıq missiyası yerinə yetirməsidir. Ulu Öndər andiçmə mərasimindəki nitqində müstəqilliyinin ilk illərində respublikamızın qarşılaşdığı çətin vəziyyətə diqqət çəkərək qətiyyətlə bildirib: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm.

Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Xaos, iqtisadi və siyasi böhran, vətəndaş qarşıdurması, torpaqlarımızın işğal altına düşməsi, cəmiyyətdəki sabahkı günə ümidsizlik müstəqilliyin ilk illərində ölkəmizi səciyyələndirən əsas cəhətlər idi. AXC-"Müsavat" iqtidarının səriştəsizliyi və korporativ maraqlardan çıxış etməsi ölkədə daha təhlükəli ikinci - daxili cəbhənin açılmasına rəvac vermişdi. 1993-cü il iyunun əvvəlində Gəncədə sabiq korpus komandiri Surət Hüseynov qiyam qaldırdı. Gəncədə, həmçinin bəzi yaxın rayonlarda silahlı qarşıdurmalar yaşandı, hətta qardaş qanı axıdıldı. Ölkə vətəndaş müharibəsinin astanasında dayanmışdı.

Həmin böhranlı günlərdə bütün Azərbaycanın ümid dolu nəzərləri Naxçıvana dikilmişdi. AXC-"Müsavat" qaragüruhunun əməllərindən bezən, ölkənin gələcəyi sarıdan böyük narahatlıq yaşayan insanların yeganə inam yeri Naxçıvana rəhbərlik edən və hətta blokada şəraitində belə muxtar respublikanı ayaqda saxlamağı bacaran Ulu Öndər Heydər Əliyev idi. Xalq sınanmış oğlunu təkidlə Bakıya gəlib Azərbaycana rəhbərlik etməyə çağırırdı.

Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Ulu Öndər bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Azərbaycanın davamlı inkişaf yolunun təməli məhz bu tarixlə - 15 İyun - Qurtuluş Günü ilə qoyulub. Bir qədər sonra isə Milli Məclisin qərarı ilə Ulu Öndər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ulu Öndərin müstəqil Azərbaycanın siyasi rəhbərliyinə gəlməsi çox doğru olaraq böyük qayıdış kimi qiymətləndirilir. Ulu Öndər bu qayıdışla, ilk növbədə, ölkəni bürüyən ümidsizliyə son qoydu, insanların qəlbində gələcəyə inam yaratdı. Heydər Əliyev səbri, müdrikliyi, xalqla həmrəyliyi sayəsində qısa müddətdə vətəndaş müharibəsi təhlükəsini sovuşdurmağa və hadisələrin istiqamətini dəyişməyə nail oldu. Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək Azərbaycan dövlətinin süqut etməsinin qarşısını aldı. Onun verdiyi müdrik qərarlar, atdığı qəti addımlar sayəsində cəmiyyət inkişafa, ölkənin müstəqilliyini möhkəmlətməyə səfərbər oldu.

Ümummilli Lider Heydər Əliyev respublikamızda müasir, demokratik, hüquqi dövlət quruculuğuna nail olmaq üçün çox mühüm qərarlar qəbul etdi

Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızda siyasi hakimiyyətdə olan qüvvələrin, ələlxüsus da AXC-"Müsavat" iqtidarının dövlətçilik barədə təsəvvürləri çox aşağı səviyyədə idi. Onlar dövlət idarəçiliyində korporativ maraqları önə çəkirdilər. Belə yanaşmanın nəticəsi idi ki, mühüm dövlət vəzifələri naşı adamlara həvalə olunmuşdu və onlar da vəzifələrinin öhdəsindən gəlməkdə aciz idilər. Digər tərəfdən, AXC-"Müsavat" iqtidarının yüksəkvəzifəli rəsmiləri, nazirləri dövlət idarəçiliyini qoluzorluluqla qarışıq salırdılar. Ümumiyyətlə, respublikamızda hüquqi baza yox səviyyəsində idi və müvafiq qurumların funksionallığı təmin edilmirdi. Adam oğurluğu, jurnalistin efirdə döyülməsi Azərbaycanda demokratiyanın yerli-dibli olmaması, hüquq sisteminin işləməməsi anlamına gəlirdi ki, bu da gənc dövlətimizin beynəlxalq imicinə ağır zərbə idi.

Təbii ki, idarəetmə sahəsində zəngin təcrübəyə malik müdrik dövlət xadimi Heydər Əliyev belə vəziyyətlə barışa bilməzdi. Ulu Öndər Öz təcrübəsinə əsasən yaxşı bilirdi ki, qanunlarla işləyən funksional dövlət qurmadan respublikanın qarşısında duran vəzifələri həll etmək mümkün olmayacaq. Bu xüsusda fikirlərini ifadə edən Ulu Öndər deyib: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".

Bu məqamda qeyd edək ki, Ulu Öndər müstəqil Azərbaycanın dövlət quruculuğunun əsaslarını hələ Naxçıvana rəhbərlik etdiyi dövrdə yaratmağa başlamışdı. Tam cəsarətlə demək mümkündür ki, bəhs olunan dövrdə Azərbaycanın müstəqilliyə gedən yolunun, qurtuluş tarixinin əsası Ümummilli Lider Heydər Əliyevin səyləri və cəsarəti sayəsində məhz qədim diyarda - Naxçıvanda qoyulub. Məlumdur ki, keçmiş ittifaq rəhbərliyinin getdikcə artan təzyiqləri ilə üzləşən Ulu Öndər Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri - bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Ulu Öndər doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. Ulu Öndər, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra - 17 noyabr 1990-cı il tarixində çağırılan sessiyasına Sədrlik Heydər Əliyevə həvalə olundu. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Ulu Öndərin təşəbbüsü

ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək onun Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Bu gün Heydər Əliyevin o dövrdə atdığı bu kimi cəsarətli addımları kimlərə isə adi görünə bilər. Lakin bu, belə deyil. Bəhs olunan dövr çox ziddiyyətli idi, hadisələrin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çətin idi, hələ Sovet İttifaqı, Kommunist Partiyası fəaliyyət göstərirdi. Heydər Əliyev isə təhdidlərdən, Özü və ailəsi üçün yarana biləcək təhlükələrdən çəkinməyərək respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra - 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

Ulu Öndər 1993-cü ilin oktyabrında xalqın etimadını qazanaraq Prezident seçildikdən sonra müstəqilliyin möhkəmləndirilməsi, dövlət quruculuğunun təmin edilməsi, bunun üçün hüquqi əsaslar yaradılması, ölkənin demokratiya yolu ilə inkişaf etdirilməsi istiqamətində səylərini, yorulmaz fəaliyyətini davam etdirdi. Onun siyasi iradəsi ilə respublikada ilk parlament seçkiləri keçirildi. Ulu Öndərin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan Konstitusiyamız Azərbaycanda hüquqi dövlət quruculuğu üçün bu gün də fundamental baza rolunu oynayır. Ulu Öndərin imzaladığı sənədlər əsasında kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, ölüm hökmü ləğv edildi. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Bütövlükdə, Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdəki fəaliyyəti dövlət quruculuğunun bütün istiqamətlərini əhatə edirdi. Ulu Öndər inamla vurğulayırdı ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır.

Müharibə vəziyyətində olan respublikamızda nizami ordunun yaradılması Ulu Öndərin müstəsna xidmətidir

Ulu Öndərin andiçmə mərasimində söylədiyi nitqində diqqət mərkəzinə gətirdiyi mühüm məsələlərdən biri də vahid komandanlığa tabe olan nizami ordunun yaradılması ilə bağlı idi. Müharibə şəraitində ölkədə ayrı-ayrı siyasi qüvvələrin təsiri altında fəaliyyət göstərən silahlı dəstələrin mövcudluğunun yolverilməz olduğunu vurğulayan Ulu Öndər bildirib: "Güman edirəm ki, bütün partiyalar, hərəkatlar, ictimai-siyasi təşkilatlar öz silahlı dəstələrindən imtina edəcəklər. Cəmiyyətimizdə bir silahlı dəstə ola bilər, o da dövlətin silahlı qüvvələridir. Biz hamımız birlikdə qeyri-qanuni silahlı dəstələrin ləğv olmasına çalışmalıyıq və bu da respublikamızda daxili ictimai-siyasi sabitlik yaranması üçün əsas şərtdir".

Ulu Öndərin respublikamızda vahid komandanlıq altında nizami ordunun yaradılmasının zəruriliyini gündəmə gətirməsi isə təsadüfi deyildi. Ermənistanın işğalı nəticəsində ölkəmizin ərazi bütövlüyü pozulmuş, torpaqlarımızın 20 faizi işğal altına düşmüşdü. Bu işğal nəticəsində bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarını tərk edərək qaçqınlıq, məcburi köçkünlük taleyi ilə üzləşmişdi. Belə vəziyyətdə bütün qüvvələri düşmənə qarşı mübarizəyə səfərbər etmək, ümumiyyətlə, ölkəni müharibə vəziyyətindən çıxartmaq lazım idi. Respublikada müxtəlif siyasi partiyaların təsiri altında silahlı dəstələrin mövcudluğu isə buna imkan vermirdi. Siyasi partiyalar, ayrı-ayrı "liderlər" tabeliklərindəki silahlı dəstələr vasitəsilə özlərinin ambisiyalarını, cılız maraqlarını təmin etmək istəyirdilər.

Xalqın təkidli tələbi ilə müstəqil Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Ulu Öndər ölkədə yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək vahid komandanlığa tabe olan nizami ordu quruculuğuna başladı. Onun 2 noyabr 1993-cü il tarixində xalqa müraciəti bu yöndə atılan çox mühüm addım oldu. Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti yeni ordu quruculuğunun nəzəri əsaslarını müəyyənləşdirən konseptual bir sənəd olmaqla bərabər, həm də xalqa edilən bir çağırış idi. Ulu Öndər bu müraciətlə bütün xalqı, siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün cəmiyyəti Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifə ətrafında birləşməyə çağırdı və Onun bu çağırışı cəmiyyətdə və xalq arasında böyük əks-səda doğurdu. Ali Baş Komandanın ön xəttə səfər edərək döyüşçülərimizlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması öz real bəhrəsini verdi. Çox keçmədi ki, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. 1994-cü il mayın 12-də elan olunan atəşkəsdən sonra Azərbaycanda nizami, müasir səviyyəli ordunun qurulması prosesinə böyük inamla start verildi.

İslahatlar və bazar iqtisadiyyatına keçidin təmin olunması müstəqil respublikamızın qarşısında geniş inkişaf perspektivləri açdı

Ölkədəki xaos, siyasi çəkişmələr milli iqtisadiyyata çox böyük ziyan vurmuşdu. İqtisadiyyatda təchizat-satış mexanizmi pozulmuşdu, idarəetmə yeni dövrün tələblərinə cavab vermirdi. Yaranmış vəziyyətlə barışmayan Ulu Öndər andiçmə mərasimindəki nitqində qətiyyətlə vurğulayıb ki, yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik. "Azərbaycan Respublikasının ağır böhran vəziyyətindən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməlidir. Təsəvvür edin ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin bir haldır. Təəssüf ki, son illərdə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. İqtisadiyyat, demək olar, tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır. Eyni zamanda, qeyd etmək istəyirəm ki, respublikanın böyük iqtisadi-sosial, elmi-texniki potensialı vardır. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Bu baxımdan biz gələcək işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik", - deyə Ulu Öndər qeyd edib.

Ulu Öndərin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi milli iqtisadiyyatın inkişaf strategiyasından söhbət açarkən Onun çox böyük səyləri hesabına 1994-cü il sentyabrın 20-də Azərbaycanla transmilli neft şirkətləri arasında imzalanan "Əsrin müqaviləsi"nin önəmini ayrıca vurğulamaq lazımdır. Uzaqgörən siyasətçi olan Heydər Əliyev bəhs olunan müqavilə və ondan sonra imzalanan yeni sazişlərlə ölkəmizə böyük həcmlərdə investisiyalar yönəltməyə nail oldu. "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycana gələn böyük həcmlərdə maliyyə vəsaiti sonrakı mərhələdə məqsədyönlü şəkildə sosial-iqtisadi layihələrin reallaşdırılmasına yönəldildi və iqtisadiyyatın şaxələndirilməsi təmin edildi.

Heydər Əliyev iqtisadiyyatın dirçəlməsinə yönələn müdrik qərarlar qəbul etdi, o cümlədən 100-dən çox Fərman və Sərəncam imzaladı. Ulu Öndərin təşəbbüsü əsasında parlamentdə yeni qanunlar qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixində imzaladığı "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" müvafiq Fərmanla respublikamızda geniş torpaq islahatı həyata keçirildi.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun uğurla reallaşdırılması sayəsində ölkədə iqtisadi fəallıq artdı, iqtisadiyyatın müxtəlif sahələrinin investisiya təminatı gücləndi, tələbata işləyən geniş müəssisələr şəbəkəsi yarandı, fəal insanların məşğulluğu təmin olundu və bu əsasda əhalinin sosial vəziyyəti yaxşılaşdı. 1995-ci ildən milli iqtisadiyyatımızda bərpa, 1996-cı ildən isə artım dövrü başladı. Bütövlükdə, 1995-2003-cü illər ərzində respublikamızda ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə artdı. Bəhs olunan dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində sərmayə yönəldildi. Bütün bunlar müstəqil Azərbaycanın gələcək güclü inkişafını təmin edən möhkəm əsaslar demək idi.

Yeni Azərbaycan. - 2019.- 10 oktyabr. - № 186. - S. 3.

Azərbaycanın müstəqillik dövrlərində BDU-nun beynəlxalq əlaqələri

İsmayıl Eyyubov,
BDU, beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin politologiya və sosiologiya kafedrasının dosenti

1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Bu müstəqil demokratik respublika bir sıra sahələrin inkişafı ilə yanaşı, elm və təhsilə də ciddi fikir vermişdir.

1919-cu il sentyabrın 1-də Azərbaycan Demokratik Cümhuriyyətin parlamenti elmin, maarifin inkişaf etməsində ali təhsilin böyük xidmətləri olacağını nəzərə alaraq Bakıda universitet açılması haqqında qanun qəbul etmişdir. Qanunda deyilirdi ki, Bakı şəhərində açılacaq universitetin Şərq şöbəsi ilə birlikdə tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri fəaliyyətə başlamalıdır.

Beləliklə, müxtəlif iqtisadi və siyasi çətinliklərə sinə gərərək 1919-1920-ci tədris ili üçün Şərq şöbəsi də olmaqla tarix-filologiya və tibb fakültələri üzrə 1919-cu il noyabr ayının 15-də universitetdə ilk dərs günü keçirilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı bu universitetin ilk rektoru professor Vasili İvanoviç Razumovski olmuşdur. O, bu təhsil ocağı haqqında yazmışdır ki, "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hesab edə bilərik".

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, bolşeviklərin hakimiyyətə gəlməsi respublikanın bütün sahələrində dəyişikliyə səbəb olduğu kimi, Bakı Dövlət Universitetinin tədrisində də dəyişikliklərə səbəb oldu. Universitetdə 1920-ci ildə fizika-riyaziyyat, 1922-ci ildə isə Şərq fakültələri yaradılmışdır. Universitet yarandığı gündən müasir dövrə kimi bir sıra çətinliklərlə də üzləşmişdir. 1926-cı ildə Azərbaycan Dövlət Universitetinə ilk azərbaycanlı Tağı Şahbazi (Simurq) rektor təyin edilmişdir. 1928-ci ildə hüquq fakültəsi yaradılmışdır. Məlum olduğu kimi, 1930-1934-cü illərdə Azərbaycan Dövlət Universitetinin fəaliyyəti dayandırılmışdır. Onun ayrı-ayrı fakültələrinin bazası əsasında yeni müstəqil Azərbaycan Dövlət Tibb İnstitutu, Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutu yaradılmışdır. 1934-1935-ci tədris ilində universitetin fəaliyyəti yenidən bərpa olunmuşdur. 1934-cü ildə Universitetdə biologiya, 1935-ci ildə kimya, 1943-cü ildə isə geoloji-coğrafiya fakültələri yaradılmışdır.

1937-ci il repressiyalar dövründə Azərbaycan Dövlət Universitetinin rektorları olmuş T.Şahbazi, M.Məmmədov, M.Ələkbərli, B.Həsənbəyova, onlarca dekan və professorlarına, müəllimlərinə "xalq düşməni", "türkçü", "turançı", "xain" və s. "adları" verilmiş 100 nəfərədək əməkdaşın bəziləri güllələnmiş, bir çoxu isə Sibirə sürgün olunmuşdur.

II Dünya müharibəsi dövründə 1385 nəfər, o cümlədən 159 akademik işçi, 23 nəfər aspirant, 1203 nəfər tələbə səfərbər olunmuşdur. Cəbhəyə gedənlər arasında 200-dən çox qadın olmuşdur. Müharibədən qayıdanlar tədricən universitetə bərpa olunmuşlar.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1969-cu ildə Azərbaycan Dövlət Universitetini yaranmasının 50 illiyi münasibətilə "Qırmızı Əmək Bayrağı Ordeni" ilə təltif etmişdir. Yubiley təntənə isə indiki Şəhriyar adına klubda keçirilmişdir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev mərasimdə Azərbaycan dilində çıxış etmişdir. Sonrakı ildə o, bu Təhsil Ocağının bayrağına "Qırmızı Əmək Bayrağı Ordeni"ni sancmışdır. Ümummilli lider çıxışında demişdi: "Azərbaycan torpağında birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycan Dövlətinin hüdudlarından çox-çox kənara çıxır. Azərbaycan xalqının və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Azərbaycan Dövlət Universitetinin tarixi xidməti bir də ondadır ki, o, Azərbaycan xalq təsərrüfatı, elm və mədəniyyəti üçün yüksəkixtisaslı mütəxəssislərin böyük bir dəstəsini hazırlamışdır".

90-cı illərdə SSRİ-nin dağılması, Azərbaycan Respublikasının öz müstəqilliyini elan etməsi nəticəsində ADU yeni bir mərhələyə qədəm qoydu. 1991-ci ildə onun tarixi adı - BDU özünə qaytarıldı.

1993-cü ildə ölkə rəhbərliyinə qayıtdıqdan sonra Heydər Əliyev Azərbaycan elminin inkişafına xüsusi qiymət verdi: "Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir".

Hazırda Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələri günü-gündən genişlənir. Universitetdə Beynəlxalq Əlaqələr üzrə prorektorluq yaradılmışdır. Onun nəzdində konsul-protokol və xarici əlaqələr şöbələri geniş fəaliyyət göstərir. Universitetin 16 fakültəsində 14 ölkədən - Türkiyə, Çin, İran, Almaniya, Yaponiya,

Koreya, Misir Ərəb Respublikası, İsrail, keçmiş SSRİ-nin respublikalarından gəlmiş tələbələr bakalavr, magistr, aspirant, dissertant, doktorant formasında elmin, təhsilin müxtəlif formalarına yiyələnirlər.

Ölkə müstəqilliyini bərpa etdikdən sonra universitet keçmiş sovet respublikalarının ali məktəbləri ilə geniş müqavilələr bağlamışdır. Eyni zamanda, dünyanın tanınmış bir sıra universitetləri Sarbon III Universitetin Montpellier Universiteti (Fransa); Varşava Universiteti (Polşa); Florensiya Universiteti (İtaliya); Çuma Universiteti (Yaponiya); Pay Çay Universiteti, Sunlin Kolec Universiteti (Cənubi Koreya); Qahirə Universiteti (Misir Ərəb Respublikası); İslam Aləmi Liqası (Səudiyyə Ərəbistanı); Türkiyənin 15 və digər ölkələrin universitetləri ilə beynəlxalq müqavilələr bağlanmışdır. Dünya ölkələrinin universitetlərinin rəhbərləri tez-tez Bakı Dövlət Universitetinin qonaqları olur və bu əməkdaşlığa yüksək qiymət verirlər.

Bakı Dövlət Universitetində NATO məktəbi yaradılmışdır. NATO-ya üzv müxtəlif ölkələrdən gələn nümayəndələri ilə tələbələrin görüşləri keçirilir.

Müasir dövrdə BDU Avropa Universitetlərinin yaratdıqları Assosiasiyanın da üzvüdür. Universitetin digər ölkələrlə elmi əlaqələri getdikcə genişlənir.

Dünyanın görkəmli tarixi şəxsiyyətlərinin bir çoxu Bakı Dövlət Universitetinin fəxri doktorları adına layiq görülmüşdülər. Ulu öndərimiz Heydər Əliyev (1994), Azərbaycan Prezidenti İlham Əliyev (2009), Qeyri-səlis məntiq nəzəriyyəsinin müəllifi Lütfi Zadə (Lütfəli Rəhim oğlu Əsgərzadə) (1993), Türkiyə Cümhuriyyətinin IX Prezidenti Süleyman Dəmirəl (1994), Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze (1997), YUNESKO-nun baş katibi Koiçiro Matsuura (1999), Moldova Respublikasının Prezidenti Petru Kiril Luçinski (2001), NATO-nun baş katibi Corc Robertson (2001), ABŞ-ın dövlət katibi Zbiqnev Brejinski (2001), Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül (2006), M.V.Lomonosov adına MDU-nun rektoru Viktor Antoniviç Sadovniçi (2007), Rusiya Federasiyasının Prezidenti Dmitri Anatolyeviç Medvedev (2010), Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif (2016) və digər təxminən dünyanın 60 nəfərdən çox siyasət elm və təhsil nümayəndəsi, dövlət rəhbərləri BDU-nun fəxri doktoru adına layiq görülmüşdür.

Tələbələrin təlim-tərbiyəsi ilə 4 min 500 nəfərdən çox müəllim məşğul olur. Onların təxminən 200 nəfərdən çoxu dövlətin ali orden və medalları ilə təltif olunmuşdur. Universitetin 20 nəfərə kimi müəllimi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvüdür, 12 nəfər Azərbaycan Milli Məclisinin deputatıdır, 5 nəfər Dövlət mükafatı almış, 18 nəfər Prezident təqaüdçüsüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BDU-nun 100 illik yubileyini keçirmək üçün fərman vermişdir. Həmin istiqamətdə bir sıra tədbirlər həyata keçirilmiş, müvafiq tədbirlər planı hazırlanmışdır. Bu planlar içərisində dünya ölkələrinin universitetlərindən 100 illik yubileyə dəvət olunacaq qonaqların təxmini siyahıları hazırlanmışdır.

Hazırda dünyanın 24 ölkəsinin 60-dan çox universiteti ilə əməkdaşlıq edən BDU-nun 100 illik yubileyini UNESCO 12 iyun 2019-cu ildə Fransanın Paris şəhərində təntənə ilə qeyd etmişdir.

Yığıncaqda Azərbaycanın Fransadakı səfiri Anar Kərimov, Təhsil naziri Ceyhun Bayramov, BDU-nun rektoru Elçin Babayev və başqaları çıxış etmişlər. Onlar bu il 100 yaşı tamam olacaq BDU-nun tarixi, bu günü və gələcəyi haqqında yığıncaq iştirakçılarına geniş məlumat vermişlər. Sonda Universitet haqqında kiçik videofilm göstərilmiş, sonra tamaşaçılara Azərbaycan Mədəniyyət Nazirliyinin təşkil etdiyi proqram üzrə geniş səpkidə konsert verilmişdir.

Respublika.-2019.-6 oktyabr.-№220.-S.6.

Ümummilli Lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin banisidir

Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi milli dövlətçilik tariximizin ən mühüm səhifələrindən birini təşkil edir

Nurlan Qələndərli

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ulu Öndər Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün tarixi işlər görmüşdür. Ümumiyyətlə, Ulu Öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır.

Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır

Məlumdur ki, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə keçmiş İttifaq miqyasında baş alan hərc-mərclik respublikaların daxili həyatına da sirayət etmişdi və idarəetmə potensialı aşağı olan respublikalarda çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyan etməkdə idi. Eyni zamanda, həmin dövrdə Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, mərkəzi hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. Yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Ümummilli Lider Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi və Naxçıvanda sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin fasilələrlə verildiyi, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin Sədri seçilən Ulu Öndər Heydər Əliyev qısa zaman ərzində həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində Naxçıvanda sabitliyin, tərəqqinin təmin olunmasına nail oldu.

Bu dövrün səciyyəvi xüsusiyyətlərinə nəzər yetirərkən bir sıra məqamları xüsusilə diqqətə çatdırmaq məqsədəmüvafiqdir. İlk növbədə, Muxtar Respublikanın dövlət rəmzlərinin bərpa edilməsini, milliləşdirmə siyasətinin uğurla həyata keçirilməsini vurğulamaq gərəkdir. Belə ki, 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. Əlbəttə, SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu nümayiş etdirdi. Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı. Ulu Öndər Heydər Əliyevin qətiyyəti sayəsində 1990-cı il 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi Qərar da müstəsna əhəmiyyətə malikdir. Həmin Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Bununla yanaşı, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə də tarixi qərar qəbul olundu.

Digər tərəfdən, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan MR-də sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü, eyni zamanda, aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı yönündə xüsusi işlər həyata keçirildi. Bunlarla yanaşı, blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı. Xüsusilə də Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. 24 mart 1992-ci il tarixində Ankarada Naxçıvan MR-lə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması bu baxımdan müstəsna əhəmiyyətə malikdir.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu.

Həmin dövrdə ölkədəki ictimai-siyasi vəziyyətdən bəhs edərkən mühüm bir məqama da nəzər salmaq məqsədəmüvafiqdir. Belə ki, ölkəmizdə hökm sürən mürəkkəb situasiyanın fonunda 1992-ci il oktyabr ayının 16-da 91 nəfər ziyalı Ulu Öndər Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab

məktubunda Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması tarixi zərurət idi. Xalqın Ümummilli Lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 6 ay sonra siyasi hakimiyyətə gəldi. Yeni Azərbaycan Partiyasının yaranması ilə Azərbaycanın siyasi tarixində mühüm bir səhifə açıldı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilaskarıdır

Bəlli olduğu kimi, müstəqilliyin ilk illərində Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında idi. Belə bir şəraitdə xalqımız dövlətimizi xilas etmək üçün Ümummilli Lider Heydər Əliyevə üz tutdu. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Ümummilli Liderin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizdə sabitlik və inkişaf dövrü kimi tarixə düşüb

Böyük dövlət xadimi Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı və Azərbaycanı parçalamaq, forposta çevirmək, korporativ maraqlar əsasında idarə etmək istəyənlər öz niyyətlərinə çata bilmədilər. Bütün bunların qanunauyğun nəticəsi kimi, 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyev milli maraqlara əsaslanan əvəzsiz fəaliyyəti ilə ölkədə milli həmrəyliyi və inkişafı təmin etdi. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunmasına son qoyuldu. Ən əsası, nizami ordu yaradıldı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsində atəşkəs əldə edildi, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son verilməsi, ilk parlament seçkilərinin keçirilməsi, referendum yolu ilə Konstitusiyanın qəbul edilməsi, idarəetmə sisteminin formalaşdırılması, neft müqavilələrinin imzalanması, Azərbaycanın iqtisadi dirçəlişinin əsasının qoyulması, respublikamızın beynəlxalq əlaqələrinin formalaşdırılması, ölkənin dünya birliyinə inteqrasiyası prosesinə başlanması dövlətimizin tərəqqi yolunda inamla irəliləməsini təmin etdi.

Bütövlükdə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində Azərbaycan güclü - qüdrətli və nüfuzlu dövlətə çevrildi. Vurğuladığımız kimi, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində siyasi sosiallaşmaya və siyasi mədəniyyətin inkişafına, ümumilikdə, sosial-siyasi institutların səmərəli fəaliyyətinə yol açdı. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Bu illər ərzində Ulu Öndər Heydər Əliyev məhv olmaq təhlükəsi ilə üz-üzə olan Azərbaycanı, sözün əsl mənasında, azad və müstəqil, inkişaf edən ölkəyə çevirdi.

O da vurğulanmalıdır ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi rasional, praqmatik xarici siyasət kursu sayəsində beynəlxalq münasibətlərin aktoru kimi çıxış edən milli dövlətlərlə milli maraqlara müvafiq surətdə müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri formalaşdırıldı və Azərbaycan etibarlı tərəfdaş kimi tanınmağa başladı. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. Daha sonra Azərbaycan neftinin dünya

bazarlarına nəqli istiqamətində müstəsna əhəmiyyət kəsb edən tədbirlər görüldü və mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi. Digər tərəfdən, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Məhz Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atıldı, məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ulu Öndər Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail oldu. Bütövlükdə, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı, ölkəmizin beynəlxalq mövqeyi möhkəmləndi.

Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır

Xüsusi vurğulamaq gərəkdir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Prezident İlham Əliyevin ölkəni idarə etdiyi dövrdə bir zamanlar yalnız xəyal kimi görünən nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi və milli maraqlara xidmət edən çoxsaylı digər məqsədlər artıq gerçəkliyə çevrilib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu gün Azərbaycan inkişafdadır. “Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Şübhəsiz ki, milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Ümumiyyətlə, müstəqil Azərbaycanın müasir mənzərəsini səciyyələndirərkən bir sıra məqamları xüsusi olaraq diqqətə çatdırmaq məqsədəmüvafiqdir. Bu kontekstdə əvvəla qeyd edək ki, Cənubi Qafqaz regionunun lider dövləti olan, spesifik inkişaf modeli ilə fərqlənən Azərbaycanda bütün sahələri əhatə edən çoxşaxəli və paralel islahatlar həyata keçirilir. Ölkəmizdə uğurla və inamla davam etdirilən islahatlar dinamik tərəqqini sürətləndirməklə yanaşı, yeni inkişaf perspektivləri formalaşdırıb. Şübhəsiz ki, çoxşaxəli islahatların reallaşdırılması davamlı xarakter daşıyır. Dərin iqtisadi və institusional islahatların davamı kimi hüquqi islahatların aparılması da bu kontekstdə mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatlar beynəlxalq səviyyədə, nüfuzlu reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Bununla yanaşı, bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi xarakterizə olunur. Başqa sözlə, ölkəmizin milli gücünü artıran əhəmiyyətli amillərdən biri də möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlikdir. Bu məsələdə yerli və xarici ekspertlərin ümumi rəyi odur ki, Azərbaycanda mövcud olan sabitliyin əsasında duran başlıca faktor hakimiyyətin həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsidir. Bütövlükdə, Azərbaycan vətəndaşlarının layiqli həyat şəraitinin təmin edilməsində, sosial rifahın yaxşılaşdırılmasında, inkişafın davamlı olmasında mühüm rol oynayan amillərdən biri etibarlı təhlükəsizlik və sabitlik mühitidir. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentliklərinin hesabatlarında da ölkəmizdə hökm sürən etibarlı sabitlik, təhlükəsizlik mühiti öz əksini tapır və yüksək qiymətləndirilir.

Bunlarla yanaşı, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb, strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Sadalananların fonunda ayrı-ayrı milli dövlətlər, o cümlədən dünya siyasətinin güc mərkəzləri kimi çıxış edən ölkələr Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirirlər. Eyni zamanda, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına xüsusi əhəmiyyət verilir. Regional güc mərkəzi olan ölkəmizin təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən geostrateji layihələr regional, beynəlxalq əməkdaşlığa və təhlükəsizliyə fundamental töhfələr verir. Ümumiyyətlə, Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, açıq dənizə çıxışı olmayan Azərbaycan Avrasiyada nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

Bütövlükdə, bu gün Azərbaycan dünyada qüdrətli ölkə, yüksək nüfuza malik olan dövlət kimi tanınır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam

etdirilməsi nəticəsində ölkəmiz dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir. Başqa sözlə, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir.

Yeni Azərbaycan. - 2019.- 3 sentyabr. - № 159. - S. 3.

Azərbaycanın dövlət müstəqilliyinin qarantı

Ulu öndər Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri kimi gördüyü işlərin xronologiyası bu fikri böyük əminliklə söyləməyə əsas verir ki, bugünkü uğurlarımıza yol açan islahatların, yeniliklərin təməli məhz o illərdə qoyulub

Yeganə Cəlilqızı

"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır" tezisi ulu öndər Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində fəaliyyətinin əsasını təşkil etmiş, irəliyə doğru atılan addımlarında stimulverici amil rolunu oynamışdır.

Ümummilli Lider istər keçmiş sovetlər dönəmində, istər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu vaxtlarda, istərsə də 1993-cü ildən sonra ölkənin siyasi, iqtisadi, sosial inkişafı naminə atdığı addımlarında bu məqamı xüsusi olaraq diqqətə çatdırmışdır ki, həyatı, fəaliyyəti bütünlüklə Azərbaycanın uğurlu gələcəyinə, beynəlxalq münasibətlər sistemində nüfuz qazanmasına həsr olunub. Arzusu, amalı Azərbaycanı daim müstəqil, iqtisadi cəhətdən dayanıqlı inkişaf etmiş, demokrtiya təcrübəsi digər ölkələrə örnək olan ölkə kimi görmək olub. Naxçıvan MR Ali Məclisinin Sədri işləyərkən Azərbaycanda hakimiyyətdə olan, ölkəni müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoyan AXC-Müsavat cütlüyünü təmsil edən siyasətbazların "Naxçıvanın muxtariyyəti ləğv olunmalıdır" kimi xəyanətkar təkliflərini ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı təxribat kimi dəyərləndirmiş, atdığı addımları ilə həmin şəxslərin siyasətdə naşı olduqlarını, idarəçilikdən xəbərsizliklərini bir daha onlara çatdırmışdır. Ümummilli Lider bildirmişdir: "Naxçıvanın muxtariyyatı tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox mühüm amildir. Biz bu amili qorumalıyıq."

Dahi şəxsiyyətin Naxçıvan MR Ali Məclisinin Sədri kimi gördüyü işlərin, atdığı addımların xronologiyasına diqqət yetirdikdə bu fikri böyük əminliklə deyə bilərik ki, bugünkü islahatların, yeniliklərin, dünyaya çağırışların təməli məhz o illərdə qoyulub.

Azərbaycanın dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsası olub. Xatırlasaq, onun Naxçıvandakı xidmətlərindən biri olan Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı "91-lər"in müraciətində də bu mühüm məqam öz əksini tapıb: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübəhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını həddsiz dərəcədə sevindirir. Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan idarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər layiqli töhfəsini verməlidir."

Daim ölkəsinin, xalqının müstəqilliyi və azadlığı uğrunda çalışan ulu öndər Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinə Sədr seçilərkən fəaliyyətinə də elə bu mərhələdən başladı. Onun sədrliyi ilə keçirilən sessiyalar biri-birindən əhəmiyyətli məsələlərin müzakirə, qərarların qəbulu ilə yadda qalıb. Naxçıvan MSSR-in adının dəyişdirilməsi, dövlət atributları sayılan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpası, himn və gerbi üçün müsabiqə keçirilməsi barədə qərarların qəbulu da deyilənlərin təsdiqidir. 1990-cı ildə Bakıda törədilmiş 20 Yanvar hadisələrinə həsr olunmuş Azərbaycan SSR Ali Sovetinin yarımçıq dayandırılmış sessiyasını qətiyyətlə pisləyərək Naxçıvanda bu məsələnin müzakirəsini vacib hesab edən ümummilli lider Heydər Əliyev həqiqəti belə xarakterizə etmişdir: "Mən Azərbaycanın rəhbəri kimi Ermənistanın Dağlıq Qarabağın işlərinə qarışmasına yol vermirdim və bunu vətəndaş, azərbaycanlı kimi borcum bilirdim." Yanvar hadisələri törədiləndə Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək qırğını müstəqil bir dövlətin süverenliyinə qarşı törədilmiş siyasi aksiya hesab edən ulu öndər Heydər Əliyev Naxçıvanda işləyərkən faciəyə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qəti tələb etdi. Muxtar respublikada kommunist partiyasına məxsus bütün strukturları ləğv etdi. Bildirdi ki, çoxpartiyalılıq olmayan cəmiyyətdə demokratiyadan, inkişafdan söhbət gedə bilməz. Ulu öndər Heydər Əliyevin yenə də "91-lər"in müraciətinə cavabına diqqət yetirsək orada da bu fikirlər öz əksini tapıb: "Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, seçib-seçilmək azadlığından gedir."

Ümummilli Liderin Naxçıvandakı ən böyük xidmətlərindən biri də 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərarın qəbul edilməsidir. Ulu Öndər daim bu çağırışı edirdi ki, Azərbaycan bütün dünya azərbaycanlılarının Vətənidir. Harada yaşamasından asılı olmayaraq bütün

soydaşlarımız bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidir. Diaspor quruculuğu prosesi ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. Onun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlarının I qurultayının keçirilməsi diaspor quruculuğu prosesinin əsasını qoydu. Belə ki, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın vahid mərkəzdən idarə olunmaları onların həm Azərbaycan həqiqətlərinin təbliğində, həm də yaşadıqları ölkələrin həyatında baş verən ictimai-siyasi proseslərdə fəal iştiraklarında əhəmiyyətli rol oynadı. Bir daha bu çağırış olundu ki, Vətən birdir və hamı bu Vətən uğrunda çalışmalıdır.

Ulu Öndərin Naxçıvanda olarkən bütün Azərbaycan üçün ən böyük xidmətlərindən biri də respublikanın sərhədlərinin, Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin yenilənməsi oldu. Blokadada qalan naxçıvanlıların çətin vəziyyətdən çıxması üçün qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndi. Naxçıvana hər iki qonşu dövlətdən ərzaq, sənaye malları, ən başlıcası isə yanacaq, enerji verildi. Türkiyə ilə qonşu dövlətlər arasında əlaqələrin möhkəmləndirilməsi üçün "Ümid körpüsü" salındı. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik hava limanı, Bakıda Naxçıvan nümayəndəliyi açıldı.

Görülən işlərin miqyasının genişliyi ulu öndər Heydər Əliyevin torpaq, Vətən, xalq sevgisini bir daha nümayiş etdirir. Bu xidmətlər sırasında bu gün Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan, ölkənin parlaq gələcəyinə böyük ümidlər yaradan Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsini xüsusi qeyd etməliyik. 21 noyabr 1992-ci ildə müxtəlif bölgələrdən 550 nümayəndənin iştirakı ilə təsis konfransını keçirən Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 740 mindən artıq üzvün birləşməsi Heydər Əliyev ideyalarına sədaqətin, onun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamın göstəricisidir.

Ulu öndər Heydər Əliyevin qısa vaxt ərzində Naxçıvanda Azərbaycan üçün gördüyü işlərin, həll etdiyi taleyüklü məsələlərin yalnız az bir hissəsini qeyd etdik. Azərbaycanın gələcəyi üçün müəyyənləşdirdiyi hədəflərin gerçəkləşməsi isə 1993-cü ildən, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başladı.

Müstəqilliyimizin ilk illəri hakimiyyətsizlik illəri kimi xarakterizə olunur. Əbəs yerə 15 iyun 1993-cü il Milli Qurtuluş Günü dövlətçilik tariximizin şanlı səhifəsi kimi dəyərləndirilmir. Qurtuluşdan başlanan yol Azərbaycana bugünkü uğurları qazandırdı. Ulu öndər Heydər Əliyevin uğurlu daxili siyasəti nəticəsində ölkə xaosdan, anarxiyadan, özbaşınalıqdan xilas oldu, inkişaf, tərəqqi dövrünə qədəm qoydu. Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi, ölkəyə investisiya axını sürətləndi. Ümummilli Lider bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də atəşkəs sazişinin imzalanması ölkəmizdə sabitliyin daha da möhkəmlənməsini təmin etdi. Məhz həmin ilin sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Bu saziş ölkəmizin iqtisadi imkanlarını artırmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində yeri və rolunu möhkəmləndirdi. Neft gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipinin yüksək səviyyədə qorunmasını təmin etmək məqsədilə Dövlət Neft Fondunun yaradılması da Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsidir. Məhz bu gün Dövlət Neft Fondunda toplanan vəsaitlərin düzgün istiqamətləndirilməsi nəticəsində mühüm sosial-iqtisadi layihələr həyata keçirilir ki, bunlar da öz növbəsində ölkənin hərtərəfli inkişafını təmin edir. Malik olduğu enerji resurslarından səmərəli istifadə etməklə iqtisadi qüdrətini artıran müstəqil dövlətimiz, eyni zamanda, əhalinin yüksək rifahının təmin olunması üçün ciddi addımlar atdı. Ulu Öndər bildirirdi ki, neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Dahi şəxsiyyətin ölkə iqtisadiyyatının inkişafında neft amilinə böyük dəyər verməsi də bugünümüzə hesablanmış inkişaf konsepsiyasının əsas tərkib hissələrindəndir. Məhz bu mühüm amilə söykənərək dövlətimizin başçısı İlham Əliyev neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atır. Son 15 ildən artıq dövrdə ümumi daxili məhsulun 3 dəfədən çox artması özəl sektorun inkişafına diqqət və qayğının bariz nümunəsidir.

Azərbaycanın iqtisadi inkişafına geniş yol açan demokratik islahatlar sahəsində də ölkəmizin uğurları göz önündədir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan Konstitusiyamızda əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Ulu öndər Heydər Əliyev demokratik cəmiyyəti şərtləndirən atributlarının - insan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın yaradılması, çoxpartiyalı sistemin formalaşdırılması, seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsinin təmin edilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımlar atdı. Bu uğurlarımız öz növbəsində Azərbaycanın beynəlxalq münasibətlər sitemində mövqeyinin möhkəmlənməsini şərtləndirdi. Belə ki, ölkəmiz iki və çoxtərəfli çərçivədə əlaqələrini genişləndirməklə həqiqətlərinin, ən əsası ermənilərin əsassız torpaq iddiasının baş qaldırması nəticəsində yaranan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırmaq imkanı qazandı. Ulu

öndər Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaq" tezisi illər keçdikcə əldə olunan uğurların fonunda öz təsdiqini tapdı.

2003-cü ildən başlanan yol Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu öndər Heydər Əliyevin siyasətinə sadiqliyini atdığı hər bir addımı ilə təsdiqləyən dövlətimizin başçısı İlham Əliyev hər bir ölkənin inkişafında iqtisadiyyatın rolunu önə çəkərək, neft siyasətinin məntiqi davamı kimi qeyri-neft sektorunun prioritetliyini bəyan etdi. "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürən cənab İlham Əliyev bildirir ki, inkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirsək görərik ki, ölkəni inkişafa aparan bilikdir, elmdir, yeni texnologiyalardır. Təhsilin, elmin və iqtisadiyyatın vəhdətliyinin qorunması yönümündə atılan addımlar özünü Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından uğurla çıxmasında göstərdi.

İqtisadiyyatın şaxələndirilməsinə geniş yol açan neft-qaz sənayesində əldə olunan uğurlar da davamlılığı ilə diqqətdədir. "Yeni əsrin müqaviləsi"nin imzalanması, Cənub Qaz Dəhlizinin rəsmi açılışı, TANAP-ın, qardaş Türkiyədə "Star" neft emalı zavodunun istifadəyə verilməsi Azərbaycanın təşəbbüsləri gerçəkliyə çevirən, regional inkişafın aparıcı qüvvəsi, dünyanın enerji təhlükəsizliyinin təminatçısı kimi artan mövqeyinə bir daha işıq saldı. Enerji amilindən asılılığı minimuma endirmək üçün qeyri-neft sektorunun inkişafının vacibliyini qeyd edən cənab İlham Əliyev regionların malik olduğu potensialdan səmərəli istifadə etmək məqsədilə Dövlət proqramlarını təsdiqlədi və icrası istiqamətində ciddi səylər göstərir. İqtisadi imkanlar genişləndikcə əhalinin sosial müdafiəsi də yüksək səviyyədə təmin edilir. Azərbaycan beynəlxalq aləmdə ən islahatçı ölkə kimi tanınır. Müasirləşmə, yeniləşmə dövlət siyasətinin əsasında dayanır. Xarici siyasətində ikitərəfli, çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulmasına xüsusi önəm verən Azərbaycanın bu sahədə uğurları da təqdirəlayiqdir. Azərbaycanın 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolunun təqdimatıdır. Təbii ki, bu uğurlarımız yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini yaxınlaşdırır.

Ölkəmizdə demokratik təsisatların inkişafı istiqamətində davamlı addımlar atılır. Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi, "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulu, azad mətbuatın inkişafına yönələn KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasının qəbulu və bu sənədə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondunun yaradalması, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün sərəncamların imzalanması, seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsini təmin etmək üçün Seçki Məcəlləsinə mütəmadi əlavə və dəyişikliklərin edilməsi və sair deyilənlərə bariz nümunədir. Son 15 ildən artıq dövrdə əldə olunan uğurlar cənab İlham Əliyevin 2008, 2013 və 2018-ci il prezident seçkilərində qələbəsini təmin edib. Bu seçkilər, həmçinin ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasına milyonların sevgisini, inamını ortaya qoyur. YAP hər bir seçkini tarixinə uğur, qələbə səhifəsi kimi yazır.

Göründüyü kimi, Heydər Əliyev siyasətinin uğurlarının miqyası olduqca genişdir. Uğurlarımız gələcəyə nikbin baxmağa böyük əsas yaradır. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə keçirilən rəsmi qəbulda söylədiyi "Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir" fikirləri Heydər Əliyev yolunun aydın mənzərəsini yaradır.

İki sahil. - 2019.- 3 sentyabr. - № 159. - S. 6.

İqtisadi müstəqillik - innovativ inkişaf, ən islahatçı ölkə

İlham Əliyevin dərin sosial-iqtisadi islahatları ilə Azərbaycan hər il beynəlxalq reytinq təşkilatlarının hesabatlarında yeni rekordlar göstərir

Rəşad Baxşəliyev

İstənilən ölkədə iqtisadi azadlıq mövcuddursa, dövlət xarici güc və amillərdən asılı olmayaraq xalqın layiqli yaşayışını təmin edə bilir, maddi və mənəvi ehtiyatlarını qorumağa qadir olur. Məhz ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat mümkündür. Bu gün Azərbaycanın da adı həmin ölkələr sırasında çəkilir.

ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik mərkəzi tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi-2019"da Azərbaycanın ən böyük irəliləyiş edən ölkə kimi təqdim olunması bunun əyani təsdiqidir.

Bu gün Azərbaycanda mövcud olan iqtisadi müstəqillik siyasi müstəqilliyin və genişmiqyaslı inkişafın təminatçısıdır desək, yanılmarıq. Prezident İlham Əliyevin 2003-cü ildən bugünədək nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq ölkəmizdə güclü iqtisadi inkişaf, iqtisadi müstəqillik dərin məzmunlu sosial siyasətlə tamamlanır. Son illərdə isə aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib.

İqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım yaranıb, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznesin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

İqtisadi və sosial islahatlar paralel şəkildə aparılır, infrastruktur quruculuğu davam etdirilir, regional əhəmiyyətli neft-qaz, rəqəmsal və nəqliyyat-logistika layihələri həyata keçirilir. Artıq nəticələr də göz qabağındadır. Ölkə iqtisadiyyatı 3 faizdən illik böyümə fazasına keçib, xüsusilə qeyri-neft sənayesi, bitkiçilik və qeyri-neft ixracı ikirəqəmli həddə böyüyür. Dövlət büdcəsi və tədiyyə balansında trendlər müsbətdir. Strateji valyuta ehtiyatları ÜDM-in 80 faizindən artığını təşkil etdiyi halda, xarici borc ÜDM-in 20 faizindən də azdır. Manatın məzənnə sabitliyi və inflyasiyanın aşağı həddi təmin edilib. Təkcə builki sosial paket çərçivəsində 4 milyondan çox vətəndaşın sosial rifah halını yaxşılaşdırmaq üçün 4 milyard manatdan artıq vəsait ayrılıb.

Bütün bu islahatlar təbii ki, beynəlxalq reytinq təşkilatlarının hər il açıqladıqları hesabatlarda da öz əksini tapır. Azərbaycan ildən-ilə hesabatlarda mövqeyini yaxşılaşdıraraq bir çox böyük dövlətləri arxada qoyur.

Son bir neçə ildə hazırlanan beynəlxalq hesabatlara nəzər yetirsək bunu aydın şəkildə görərik. Məsələn, əgər Azərbaycan Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşmışdısa, bir il sonra "Doing Business 2018" hesabatında 8 pillə yüksələrək 57-ci yeri tutdu. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən, Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılırdı.

"Doing Business 2019" hesabatında isə Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı. Bununla da dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəldi.

Hesabatda deyilirdi ki, Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib.

Onu da vurğulayaq ki, "Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların dəqiqləşdirilməsi məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

Əgər, 5 il öncə ABŞ-n "The Heritage Foundation" analitik mərkəzinin hazırladığı "İqtisadi Azadlıq İndeksi - 2014" adlı hesabatda Azərbaycan 100 mümkün xaldan 61,3 xal toplamaqla dünyanın 186 ölkəsi arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən orta azad ölkələr sırasına daxil olmuşdusa, "İqtisadi Azadlıq İndeksi-2018"də 67-ci, bu il isə 180 ölkə arasında 60-cı yerə yüksəlib.

Bütün bunlar cənab İlham Əliyevin məqsədyönlü, dərin və köklü iqtisadi islahatlarına verilən beynəlxalq qiymətdir. Əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda ölkə iqtisadiyyatının real vəziyyəti haqqında

müsbət mövqe nümayiş etdirməsi təbii ki, təsadüfi deyil. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik. Azərbaycanın iqtisadi sahədə qazandığı bu nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətə davamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Bu və digər hesabatlar bir daha təsdiqləyir ki, iqtisadi cəhətdən azad olan Azərbaycanda əlverişli biznes, investisiya mühiti mövcuddur. Bütün bu uğurlar böyük iqtisadi islahatların, düşünülmüş, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi və siyasi iradə nəticəsində mümkün olub. Bu, həm də Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən xəbər verir. Bu ilin 6 ayının digər makroiqtisadi göstəriciləri də deməyə əsas verir ki, 2019-cu il Azərbaycanın iqtisadi inkişafında mühüm dövr olacaq.

Əminliklə deyə bilərik ki, həyata keçirilən uğurlu iqtisadi islahatlar, reallaşan sosial-iqtisadi layihələr nəticəsində növbəti illərdə açıqlanacaq beynəlxalq hesabatlarda ölkəmizin mövqeyi daha da yaxşılaşacaq. Son bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar həyata keçirilib. Biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, yaşıl dəhliz, elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə" sistemi, biznesə başlama, elektrik təchizatı şəbəkələrinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı və digər sahələrdə mühüm işlər görülüb və davam etdirilir. Bu səbəbdən deyə bilərik ki, Azərbaycan növbəti ildə də "ən islahatçı ölkə" statusunu qoruyub saxlaya biləcək.

Azərbaycan.-2019.-20 iyul.-№156.-S.1-2.

İlham Əliyevin modern dövlət modeli

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın dövlət quruculuğu təcrübəsi artıq dünyada mükəmməl örnəklərdən biri kimi qəbul edilir

Mübariz Qurbanlı,
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini

"2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır".

Dövlət başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirdiyi bu fikirlər 2018-ci ilin real mənzərəsini göz önündə canlandırır. Dövlət başçısı İlham Əliyevin siyasi, iqtisadi, hərbi, sosial, humanitar və bir çox sahələrdə həyata keçirdiyi uzaqgörən, uğurlu siyasət nəticəsində dinamik inkişafa nail olunur, ölkəmiz bu gün məhz bu inkişafın sayəsində beynəlxalq arenada öz mövqeyini gücləndirir və əsl söz sahibinə çevrilir.

2018-ci ilin sosial-iqtisadi uğurları

Bu ilin ən böyük uğurları sırasında regionun inkişafı, iqtisadi imkanların genişləndirilməsi baxımından önəmli olan Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini xüsusi vurğulamaq lazımdır. Azərbaycanda dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin Qara dəniz konfransının, Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq əlaqələrinin gələcək inkişafına yeni imkanlar yaradacaq görüşlərin keçirilməsi, eləcə də enerji siyasətimizin inkişafının növbəti uğurlu layihəsi olan "Cənub qaz dəhlizi"nin açılışı, qardaş Türkiyə Respublikasında XXI əsrin enerji tarixinə qızıl hərflərlə yazılan TANAP layihəsinin açılış mərasimi, eyniadlı qaz kəmərinin istifadəyə verilməsi başa çatan ilin ən uğurlu iqtisadi göstəriciləri hesab edilməlidir.

Cari ilin oktyabr ayında İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyənin İzmirdə ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək "Star" Neft Emalı Zavodunun açılışı, Xəzər dənizinin ən böyük limanı olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi ölkəmizin dinamik iqtisadi yüksəlişinin bariz sübutudur. Həmçinin beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli hadisəyə çevrilən 90-dan artıq ölkədən 400-dən çox xarici qonağın iştirak etdiyi Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsini və bir çox önəmli hadisələri sadalamaq olar. Bütün bu göstəricilər ölkəmizin beynəlxalq maliyyə institutları və aparıcı təşkilatlar tərəfindən dünya ölkələri arasında ən etibarlı və sağlam tərəfdaş kimi tanınmasına şərait yaradıb ki, bu uğurlu inkişafın təməlində də Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti dayanır.

2018-ci ildə Prezident İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Prezidentin apardığı bu siyasət bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması bu sahəyə Azərbaycan Prezidentinin qayğısını bir daha təsdiq edir. Bütün bunlar göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib, yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir.

Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoqa töhfəsi

2018-ci il beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsi, qonşu dövlətlərlə, həmçinin İslam ölkələri ilə münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə də yadda qalıb. Təsadüfi deyil ki, İslam aləmində birliyin, sabitliyin, həmrəyliyin möhkəmləndirilməsi, islami dəyərlərin bütün dünyaya düzgün çatdırılması, multikulturalizm ənənələrinin təbliği işindəki fəaliyyətimiz İslam Əməkdaşlıq Təşkilatı tərəfindən də yüksək

dəyərləndirilir. 2018-ci ildə Bakıdan sonra bu dəfə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı adına layiq görülməsi özlüyündə müsəlman dünyasının ölkəmizə verdiyi dəyərin bariz nümunəsidir.

Bu il də Prezident İlham Əliyevin siyasətində tolerant və multikultural dəyərlərin əhəmiyyətli yer tutduğuna bir daha şahid olduq. Ölkə rəhbərliyinin dəstəyi ilə 2018-ci ildə də müxtəlif xarici ölkələrdə Azərbaycanın multikultural dəyərlərinin təbliği və təşviqi ilə əlaqədar beynəlxalq konfranslar keçirilib ki, bu tədbirlər coğrafi olaraq çox geniş ərazini əhatə edib. İspaniya, Avropanın müxtəlif ölkələri, Almaniya və başqa ölkələrdə təşkil edilən tədbirlərdə Azərbaycanın multikultural dəyərləri ətraflı şəkildə insanlara çatdırılıb. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə reallaşan beynəlxalq tədbirlər insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verib. Ölkə rəhbərinin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verir və verməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Dövlət başçımız İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Ölkəmizdə mövcud olan digər dinlərin nümayəndələri də dövlət başçımızın diqqət və qayğısından kənarda qalmırlar. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Siyasətində insan amilinə böyük dəyər verən İlham Əliyevin İslam ölkələrinin həmrəyliyi, eləcə də mədəniyyətlər və dinlər arasında harmoniyaya nail olunması istiqamətində atdığı addımları xüsusilə qeyd etmək lazımdır. Sivilizasiyalararası, dinlərarası dialoqu dərinləşdirən, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilməsini şərtləndirən tədbirlərin keçirilməsi, bütün dinlərin nümayəndələrinə bərabər şəraitin yaradılması ölkə rəhbərinin bu sahədəki siyasətinin ana xəttini təşkil edir.

2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilməsi, mürəkkəb geosiyasi şəraitdə müsəlman ölkələrinin əməkdaşlığına əhəmiyyətli töhfələri ilə yadda qalan və İslam aləmində böyük nüfuz qazanan IV İslam Həmrəyliyi Oyunlarının, "2017 - İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın, "Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi" mövzusunda I Beynəlxalq Bakı Forumunun keçirilməsi və bu mötəbər tədbirin bağlanış mərasimində "Bakı platforması"nın qəbul olunması, eləcə də qəbul olunan bu platforma əsasında Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin təsis edilməsi, həmçinin, qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilən Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi ölkəmizin İslam, eləcə də dünya ölkələri arasında nüfuzunun güclənməsinə zəmin yaradıb. Bütün bu tədbirlər sırasında artıq 10 ildir mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə yüksək səviyyəli qonaqların iştirakı ilə Azərbaycanda keçirilən "Bakı Prosesi" konfransı xüsusi əhəmiyyətə malikdir. Ötən on il ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilib. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanıb. 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır.

Azərbaycan dünya miqyasında həm İslam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir. Bu gün ölkədə həyata keçirilən dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas və fərqləndirici xüsusiyyəti odur ki, dindarlara və onların dini hisslərinə hörmət, tolerant və multikultural dəyərlərin qorunması, inkişafı sözdə deyil, əməldədir. Məsələn, ölkə rəhbəri İlham Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin məscidlərin, ziyarətgahların, kilsələrin, sinaqoqların inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır, eyni zamanda, hər il müsəlman və qeyri-müsəlman dini icmalarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır, ölkədəki ibadətgahlara illik limitlə pulsuz təbii qaz verilir və s. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə ölkəmizdə 17 məscid vardısa, bu gün onların sayı 2250-dən çoxdur, eyni zamanda, ölkə ərazisində 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Ölkəmizdə 877-si İslam, 32-i isə qeyri-islam (xristian - 21; yəhudi - 8; bəhai - 2; krişna - 1) olmaqla 909 dini qurum qeydiyyatdan keçib.

Azərbaycan dünyada öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq olan az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət strategiyası olaraq əsasını ümummilli lider Heydər Əliyev qoymuş, bu zəngin ənənə hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir. Azərbaycanda dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rol oynadığını vurğulayan Prezident İlham Əliyev bu fikri aşağıdakı kimi şərh edib: "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüzillərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır".

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Bu gün öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim edən Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilib. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması tamamilə məntiqəuyğundur.

Bu il altıncısı keçirilən Bakı Beynəlxalq Humanitar Forumu bu qəbildən olan, aktual, ümumbəşəri, humanitar məsələlərin müzakirə edildiyi nüfuzlu tədbirlərdəndir. Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab tapmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair genişspektrli dialoqlar, fikir mübadiləsi və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal ölkədir. Belə vacib tədbirə məhz Bakının evsahibliyi etməsi forumun əhəmiyyətini daha da artırır. Çünki paytaxtımız müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu bir məkandır, Azərbaycan torpağı bütün dövrlərdə tolerantlığı və qonaqpərvərliyi, Azərbaycan xalqı isə yaratmaq və birləşdirmək bacarığı ilə tanınıb. Çünki bu torpaqlarda insan amili hər zaman yüksək yerdə dayanıb, insana yüksək dəyər verilib.

Xalqımızın milli-mənəvi irsinin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü misilsiz işlər xüsusi vurğulanmalıdır. Belə ki, məhz fondun maliyyə dəstəyi ilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə bu il İmam Hüseyn məscidində təmir-bərpa işləri aparılıb və dindarların istifadəsinə verilib.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər respublikanın hüdudlarını aşaraq Avropanın sərhədlərinə çatıb ki, bu da ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir. Qeyd edək ki, 2018-ci ildə Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışı olub. Bundan əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombaları da bərpa olunub. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi Azərbaycanın Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə, ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Ölkəmizdəki yüksək dini-mənəvi mühit və onun inkişafı

Ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri təkmilləşməkdə və möhkəmlənməkdədir. Azərbaycan hökumətinin vətəndaşların etiqad azadlığının təminatı sahəsində həyata keçirdiyi tədbir və qərarlar öz müsbət bəhrələrini verməkdədir. Hazırda Azərbaycan Respublikasında dini durum sabitdir, bu sahədə cərəyan edən proseslər və tendensiyalar nəzarətdədir.

Təcrübə göstərir ki, bu gün dini sahədə ortaya çıxan əksər problemlərin kökündə dini savadsızlıq, İslamın olduğu kimi təqdim edilməməsi dayanır. Məhz bu səbəbdən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi önəm verir. Çünki dini maarifləndirmə düzgün aparıldığı zaman dini təhlükəsizlik və ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilir, dini zəmindəki ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır.

Maarifləndirmə işi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət Komitəsi ölkədə dövlət-din münasibətlərinin, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işi aparır. Bu məqsədlə komitənin "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti nəşr olunur; dini

radikalizm, ekstremizm, fanatizm və xurafat meyillərinin qarşısını almaq, eyni zamanda milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlanır; İctimai TV-də hər həftə "Din və Cəmiyyət" verilişi, Space TV-də "İnam" verilişi efirə gedir; ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktual olan mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil edilir. Eyni zamanda, keçirilən əksər tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gəlmiş, dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə", Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət", İslam dininin sülhsevərliyindən, tolerantlığından bəhs edən "Üfüqdəki gələcək" və bu günlərdə ictimaiyyətə təqdim olunmuş Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olmuş birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri işıqlandırılmış "Vəhdət qanımızdadır" sənədli filmləri nümayiş olunur. Ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirilən filmlər ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Bunlarla yanaşı, vətəndaşlarımızın, xüsusilə gənclərimizin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə Dövlət Komitəsi ayrıca və digər qurumlarla birgə 550-dən artıq tədbir həyata keçirib. 45 minə yaxın insanın iştirak etdiyi bu tədbirlərdə mərkəzi və yerli icra hakimiyyəti orqanları, Silahlı Qüvvələr, eləcə də hüquq-mühafizə orqanları, təhsil müəssisələri, gənclər təşkilatları, dini qurumlar və digər QHT-lər ilə yaxından əməkdaşlıq edilib. Qeyd olunan qurumlarla yanaşı, Dövlət Komitəsi ötən illərin təcrübəsinin davamı olaraq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bilik Fondu, AMEA, Qafqaz Müsəlmanları İdarəsi, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığı davam etdirmişdir. Bu tədbirlərin əksəriyyəti Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirilib.

Məlum olduğu kimi, Prezident cənab İlham Əliyev tərəfindən 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında sərəncam imzalanıb. Dövlət Komitəsi tərəfindən bu istiqamətdə müxtəlif formatlarda 24 tədbir təşkil edilib. "Azərbaycanın multikultural mühitinə təhdidlər: erməni vandalizmi və soyqırımı siyasəti - son 100 il" adlı konfrans, dini icmaların üzvləri arasında "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda məqalə müsabiqəsi bu qəbildən keçirilmiş tədbirlərdəndir.

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Dövlət Komitəsinin Tədbirlər Planına uyğun olaraq "Vətən sevgisi imandandır" mövzusunda 17, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar 22, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə əməkdaşlıq çərçivəsində "İnsan hüquqları aylığı" ilə bağlı 15, "Sülh aylığı" ilə əlaqədar 22, "Uşaq hüquqları aylığı" ilə bağlı isə 32 tədbir olmaqla ümumilikdə 69 maarifləndirmə xarakterli tədbir həyata keçirilib.

Bu il ərzində ölkənin şəhər və rayonlarında "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda 13 ikigünlük regional konfrans, "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda 17 seminar-müşavirə, "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda 20 ikigünlük seminar-treninq təşkil olunmuşdur. Bununla yanaşı, "Dövlət-din münasibətlərinin hüquqi bazası" mövzusunda respublika müşavirəsi, "Dini radikalizmlə mübarizədə qadınların yeri və rolu" mövzusunda isə regional konfranslar baş tutmuşdur.

Eyni zamanda, 2018-ci ildə Bakı şəhərində müxtəlif mövzularda 18 konfrans, eləcə də Məhərrəm ayı ərəfəsində "Dini mərasimlər: ənənəvilik və müasirlik" və digər müvafiq mövzularda silsilə tədbirlər həyata keçirilib.

Dövlət Komitəsi və regional şöbələrimiz tərəfindən cari il ərzində 20 Yanvar və Xocalı faciələri, 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbirlər təşkil olunub. Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "Dini ekstremizmə qarşı mübarizəyə məsul dövlət qurumlarının əməkdaşları ilə 2018-ci ildə keçirilən seminar-müşavirələrin Tədbirlər Planı" çərçivəsində "Dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" və "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzularında 10 seminar-müşavirə keçirilib.

Dövlət Komitəsi cari ildə dini maarifləndirmə işi sahəsində Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə əməkdaşlığı daha da dərinləşdirib. Belə ki, ilin əvvəlindən Müdafiə Nazirliyi ilə 9, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə 11, Dövlət Sərhəd Xidməti ilə 6 tədbir həyata keçirib. Dövlət Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında imzalanmış Tədbirlər Planı çərçivəsində cəzaçəkmə müəssisələrində məhkumların vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirmə işinin aparılması məqsədilə 33 tədbir baş tutub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini radikalizm və ekstremizmə, eləcə də xurafat meyillərə qarşı mübarizə, həmçinin milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində Yeni Azərbaycan Partiyası və Gənclər birliyi ilə də yaxından əməkdaşlıq edib.

Dövlət Komitəsi 2018-ci ildə bir sıra dövlət və özəl müəssisələri ilə də yaxından əməkdaşlıq edib. Belə ki, dini radikalizmin törətdiyi təhdidlərlə bağlı preventiv xarakterli, eləcə də ölkəmizdə mövcud tolerantlıq mühitinin daha da gücləndirilməsi, multikulturalizm siyasətinin təbliği və təşviqi məqsədilə müxtəlif qurumların kollektivləri arasında dini maarifçilik işinin təşkili məqsədilə 23 maarifləndirici tədbir həyata keçirib.

Dövlət Komitəsi ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə hər il ənənəvi olaraq tədbirlər təşkil edir. Bu il də Dövlət Komitəsi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə keçirilən silsilə tədbirlərin yekunu olaraq may ayında dövlət, media və dini qurumlar, eləcə də qeyri-hökumət təşkilatları və elmi ictimaiyyətin iştirakı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans təşkil olunub. Konfransın materialları kitab formatında çap olunaraq oxucuların ixtiyarına verilib.

Dövlət Komitəsi maarifləndirmə işini təkcə ölkə daxili ilə məhdudlaşdırmayıb, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də fəaliyyətini davam etdirib. Ölkə hüdudlarından kənarda keçirilmiş beynəlxalq tədbir və konfranslarda Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, zəngin mənəvi-əxlaqi irsinin təbliği, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Ermənistan silahlı qüvvələri tərəfindən tarixi-dini abidələrimizə qarşı törədilmiş terror faktlarının dünya ictimaiyyətinə çatdırılması prioritet istiqamət kimi müəyyənləşdirilib. Bu ilin may ayının 13-19 tarixlərində Azərbaycanın Los-Ancelesdəki baş konsulluğun təşkilatçılığı ilə ölkəmizdəki dini konfessiya təmsilçilərindən ibarət nümayəndə heyəti ABŞ-a səfər edib. Heyət ABŞ Katolik Kilsəsinin rəhbərlərindən biri, ABŞ Yepiskoplar Konfransının vitse-prezidenti, Los-Anceles arxiyepiskopu Xose Horasiyo Qomezlə, San-Fransisko Şəhər Şurasının üzvü Norman Yi və Kaliforniya ştat senatoru Ceri Hill ilə görüşlər keçirib. Səfər çərçivəsində ABŞ yəhudilərinin ən nüfuzlu dini mərkəzlərindən olan, Los-Ancelesdə fəaliyyət göstərən Sinay sinaqoqunda, həmçinin ABŞ-ın ən qədim qurumlarından olan "Commonwealth Club" təşkilatında Azərbaycanın multikulturalizm və dini tolerantlıq ənənələrinə həsr olunmuş tədbir keçirilib.

Noyabrın 19-da Berlin şəhərində Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycanın Almaniyadakı səfirliyinin, Almaniya-Azərbaycan Forumunun və Mədəni Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda keçirilmiş beynəlxalq konfransda da tolerantlığın ölkəmizdə möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğu bir daha vurğulanıb.

Dini müstəvidə dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il oktyabrın 10-da Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında müvafiq fərman imzalayıb. Milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən dövlət başçımızın bu addımı, eyni zamanda Dövlət Komitəsinə olan yüksək etimadın göstəricisidir.

Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunması və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanması və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığı sahəsində fəaliyyətinə dövlət dəstəyini təmin etməkdir.

Fond keçən il yaradıldıqdan sonra onun strukturunun tam formalaşması bir neçə ay davam etdi və 2018-ci ilin əvvəllərindən başlayaraq fəaliyyət göstərməyə başladı. Fondun bu günədək öz Nizamnaməsinə uyğun olaraq gördüyü işlər əsasən üç istiqamət üzrə olub. Birinci istiqamət Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi təyin olunan bütün imam, imam müavini və mütəvəllilərə aylıq maddi dəstək göstərməkdir. Belə ki, artıq Azərbaycanın hər bir bölgəsində fəaliyyət göstərən və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi təyin olunan 1060-dan yuxarı din xadiminə Fond tərəfindən hər ay maddi dəstək göstərilir.

İkinci istiqamət mənəvi dəyərlərimiz, eyni zamanda onun tərkib hissəsi olan dini dəyərlərimiz sahəsində geniş maarifləndirmə işinin aparılmasıdır. Maarifləndirmə işi müxtəlif formalarda təşkil olunub. Bakıda, ölkəmizin digər bir çox şəhər və rayonlarında ictimaiyyətin, xüsusilə gənclərin iştirakı ilə müxtəlif səpkili konfranslar, seminar müşavirə və seminar treninqlər keçirilib, Yay məktəbi təşkil olunub, bu tədbirlərə xüsusi ekspertlər cəlb olunaraq mənəvi dəyərlərimiz, Azərbaycançılıq ideologiyası, tariximiz, müasir dünyada ənənəvi dəyərlərimiz və s. kimi aktual mövzular ətrafında diskusiyalar aparılıb.

Üçüncü istiqamət şəhid və əlil ailələlərinə yardımlar göstərmək, ümumiyyətlə xeyriyyəçiliklə məşğul olmaqdır. Bu il Ramazan ayında respublikamızın müxtəlif bölgələrində şəhid ailələri və Qarabağ əlilləri üçün iftar süfrələri təşkil olunub, Ramazan və Qurban bayramlarında bəzi şəhid ailələrinə ərzaq yardımları göstərilib. Sentyabr ayında Fond tərəfindən Bilik Fondu ilə birgə cəbhəyanı bölgədə (Cocuq Mərcanlı, Füzuli, Ağdam, Tərtər, Laçın, Ağcabədi rayonlarında) məktəbə gedəcək 100 nəfər birinci sinif şagirdinə məktəbli forması və çantalar hədiyyə olunub.

Bundan əlavə, ölkəmizdəki yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında 2018-ci il 09 fevral tarixli, 3654 nömrəli Sərəncam imzalayıb. Sərəncamda göstərildiyi kimi, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədini daşıyır.

Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan xalqının din sahəsində yüksək ixtisaslı kadrlara olan tələbatını beynəlxalq standartlara əsaslanaraq təmin etmək, ilahiyyat sahəsindəki problemlərə işıq tutan və beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və çap etmək, həm İslam, həm də digər dünya dinləri haqqında dərin biliyə yiyələnən, tərəfsiz və bütün konfessiyalara qarşı dözümlülüklə yanaşan din xadimlərini məzun etmək, milli, dini və əxlaqi dəyərləri qorumaqla Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəsini vermək missiyasını həyata keçirməyi nəzərdə tutub.

Azərbaycan İlahiyyat İnstitutu dini xarici dairələrin nəzarətində olmayan, dinə məhdud çərçivədə deyil, geniş prizmadan yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan, xalqımızın tarixi ənənələrinə söykənən, yüksək dini-mənəvi mühitin qorunub saxlanmasına və inkişaf etdirilməsinə xidmət edən, dini fəaliyyətin təşkili sahəsində yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanmasını təmin edən mötəbər bir elm ocağı olmağı qarşısına məqsəd qoyub.

İlham Əliyev Azərbaycanı gələcəyə inamla aparır

Sadalanan faktlar birmənalı şəkildə deməyə əsas verir ki, ölkəmizdə bütün sahələr, o cümlədən dövlət-din münasibətləri sağlam təməllər üzərində qurulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşıb. Bu, modern Azərbaycan dövləti modelidir.

Ölkə iqtisadiyyatında davamlı və dinamik inkişaf, bütün sahələrdə aparılan islahatlar Azərbaycanın gələcək inkişafının təminatçısıdır. 2018-ci il cənab Prezident tərəfindən aparılan uğurlu sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycana bəxş etdiyi mühüm nailiyyətlərlə zəngin bir il kimi tarixə yazıldı. Biz növbəti illərdə də Azərbaycanın daha böyük nailiyyətlər əldə edəcəyinə əminik. Bu günümüzün reallığı məhz ölkəmizin sürətli inkişaf yolunda inamla irəlilədiyini göstərir.

Azərbaycan. - 2018.- 23 dekabr. - № 290. - S. 1,7.

Müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail olub

Prezident İlham Əliyev: Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir

Mübariz Abdullayev

Müasir dünyanın reallıqları fonunda humanitar məsələlərlə bağlı müzakirələr aparılması, bu sahədə qazanılan uğurların dəyərləndirilməsi və problemlərin həlli yollarının araşdırılması mühüm çağırışlardan birinə çevrilib. Bu baxımdan Azərbaycanın öz imkanlarını təqdim edərək ölkələr və xalqlar arasında humanitar əməkdaşlığın möhkəmlənməsinə töhfə vermək səyləri təqdirəlayiqdir. Respublikamız o mövqedən çıxış edir ki, qlobal miqyasda humanitar-mədəni əməkdaşlığın əhatə dairəsinin genişlənməsi öz növbəsində dövlətlər arasında qarşılıqlı inamın yaranmasına, sabitliyə, müxtəlif sivilizasiyalara qarşı yönələn təhdidlərin aradan qaldırılmasına, ölkələrin öz potensialını qarşıdurmalara deyil, sosial-iqtisadi inkişafa yönəltmələrinə, həmçinin cəmiyyətlərin mühafizəkar meyillərdən uzaqlaşmasına, demokratik dəyərlərin həyat norması kimi qəbul edilməsinə öz müsbət təsirini göstərir. İndiyədək ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilib ki, bu da Azərbaycanın niyyətini, həyata keçirdiyi siyasətin mahiyyətini bütün dünyaya nümayiş etdirir.

Ötən həftə isə respublikamızın paytaxtı humanitar əməkdaşlıq sahəsində qlobal platformaya çevrilən daha bir mühüm tədbirə - VI Bakı Beynəlxalq Humanitar Forumuna böyük uğurla ev sahibliyi edib. VI Bakı Beynəlxalq Humanitar Forumu bir sıra önəmli cəhətləri ilə yanaşı, ölkəmizin müstəqillik illərində dövlət quruculuğu, cəmiyyətin demokratikləşməsi, sosial-iqtisadi inkişaf sahəsində qazandığı nailiyyətlətin təbliği baxımından da böyük əhəmiyyət daşıyır. Forumda dərinməzmunlu nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diqqəti ölkəmizin müsbət reallıqlarına yönəldərək vurğulayıb ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Respublikamızın davamlı və hərtərəfli inkişafının təməlində ölkədəki sabitliyin, vətəndaş həmrəyliyinin dayandığını bildirən dövlət başçısı "Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir", - deyə vurğulayıb.

VI Bakı Beynəlxalq Humanitar Forumu Azərbaycanın beynəlxalq humanitar əməkdaşlığın möhkəmlənməsinə güclü dəstək verdiyini bir daha nümayiş etdirdi

Ölkəmizin paytaxtı Bakının ev sahibliyi etdiyi VI Bakı Beynəlxalq Humanitar Forumu dünyanın nəzərini yenidən Azərbaycana yönəltdi. Tədbirə dünyanın təxminən 90-dan çox ölkəsindən 400-dən artıq qonaq qatılmışdı. Bütövlükdə, VI Bakı Beynəlxalq Humanitar Forumu Azərbaycanın dünyada etibarlı tərəfdaş və dost ölkə kimi tanındığını bir daha təsdiqlədi.

Məlumdur ki, son 15 ildə Azərbaycan ardıcıllıqla həyata keçirdiyi çoxvektorlu xarici siyasət sayəsində daim regional və qlobal əməkdaşlığın dərinləşməsinə, sivilizasiyalar arasında etimad və dialoq mühitinin möhkəmlənməsinə öz töhfəsini verməyə çalışıb. Forumda da bildirildiyi kimi, respublikamızın xarici siyasət kursunda region ölkələri ilə əməkdaşlığın dərinləşdirilməsi xüsusi yer tutur. Qonşu dövlətlər olan Azərbaycanla Gürcüstanın siyasi və iqtisadi maraqları üst-üstə düşür. Gürcüstan regionda respublikamızın moderatorluğu ilə reallaşdırılan enerji və nəqliyyat layihələrində yer alır. Azərbaycan Gürcüstana sərmayə qoyan xarici ölkələrin arasında birinci yeri tutur.

Türkiyə və Azərbaycan dünyada bir-birinə ən yaxın olan ölkələrdir. İki qardaş ölkəni eyni zamanda müxtəlif layihələrdə fəal təmsilçilik, ortaq maraqlar birləşdirir. Cari ildə TANAP-ın istifadəyə verilməsi, "Star" neft emalı zavodu kimi nəhəng müəssisənin işə salınması iki qardaş ölkənin gücünü və bir-birinə olan böyük inamını bir daha təsdiqləyir.

Azərbaycanla İran arasında münasibətlərin möhkəmlənməsi də regional əməkdaşlığın dərinləşməsinə yaxşı nümunədir. Son illərdə Azərbaycanla İran arasında ticarət dövriyyəsinin 70 faizədək artması məmnunluq doğurur.

Azərbaycan-Rusiya əlaqələri çoxşaxəli səciyyə daşıyır. Bura həm siyasi, həm də iqtisadi və humanitar sferalar daxildir.

Hazırda Azərbaycan bazarında təxminən 700 birgə müəssisə var ki, onlardan da üçdəbiri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək verib. Öz növbəsində Azərbaycan da qonşu ölkədə investisiya qoyuluşunu getdikcə artırır. Hazırda Azərbaycan Rusiyada müxtəlif investisiya layihələri reallaşdırır. İndiyədək Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayələr yönəldilib. Prezident İlham Əliyev Azərbaycanın qonşu dövlətlərlə səmimi, mehriban dostluq münasibətləri qurmasından məmnunluğunu bildirərək deyib: "Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu

dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində".

Son 15 ildə ardıcıllıqla həyata keçirilən siyasət sayəsində Cənubi Qafqaz coğrafiyasında lider dövlətə çevrilən Azərbaycanın Avropa ölkələri üçün də önəmi getdikcə artır. İndiyədək respublikamız Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurub və müvafiq sənədlər imzalayıb.

İslam aləmi ilə sıx münasibətlər qurulması Azərbaycanın çoxvektorlu xarici siyasətində mühüm istiqamətlərdən birini təşkil edir. Ölkəmizdə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2017-ci ildə elan olunan "İslam Həmrəyliyi İli" çərçivəsində çoxsaylı tədbirlər həyata keçirilib.

Azərbaycanın milli maraqlara əsaslanaraq apardığı xarici siyasət öz növbəsində respublikamıza beynəlxalq miqyasda böyük nüfuz qazandırıb. Bunu qürur hissi ilə nəzərə çatdıran Prezident İlham Əliyev bildirib ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, qısa müstəqillik tarixində respublikamız 2011-ci ildə 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Ölkəmiz həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilib. 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür.

Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib

Forum çərçivəsində aparılan müzakirələrdə Azərbaycanın demokratik cəmiyyət quruculuğu sahəsində qazandığı uğurlar xüsusi vurğulanıb. Məlum olduğu kimi, Azərbaycanda ötən 15 il ərzində demokratik inkişaf çox sürətlə gedib. O cümlədən ölkədə demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində qətiyyətli addımlar atılıb. Respublikamızın demokratik inkişaf sahəsində qazandığı uğurları nəzərə çatdıran Prezident İlham Əliyev "Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir", - deyə vurğulayıb.

Son 15 ildə Prezident İlham Əliyevin siyasi iradəsi ilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, respublikamızda vətəndaş cəmiyyətinin fəallığı və siyasi palitranın rəngarəngliyi yüksək səviyyədə təmin edilib. Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, hazırda ölkəmizdə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları mövcuddur.

Bu gün qürur hissi ilə vurğulaya bilərik ki, Azərbaycan söz və məlumat azadlığının ən yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında yer alır. Hazırda ölkədə KİV-lərin ümumi sayı 5 mini, Az. domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 20 mini ötüb. Ölkədə 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet (İP) televiziyası, 16 radio fəaliyyət göstərir.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan demokratik inkişaf yolunu heç də kimə isə xoş gəlmək üçün seçməyib. Ölkəmiz demokratiyaya ona görə sadiqlik nümayiş etdirir ki, respublikada siyasi islahatlar daha da dərinləşsin. Yeri gəlmişkən qeyd edək ki, son 15 ildə respublikamızda zamanın dəyişən tələbləri fonunda yaranan çağırışlara uyğun olaraq davamlı siyasi islahatlar reallaşdırılıb. Konstitusiya islahatları, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, daha çevik idarəçilik institutunun yaradılması və onun funksionallığının təmin edilməsi respublikamızın keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlməsini təmin edib. Respublikanın qarşısında geniş perspektivlər yaranıb. Prezident İlham Əliyevin bildirdiyi kimi, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir.

Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templəri nümayiş etdirib

Eyni zamanda, son 15 ildə respublikamızda milli inkişafın real əsaslarının yaradılması - güclü iqtisadiyyat qurulması üçün bütün şərtlər təmin edilib. Belə ki, qlobal miqyasda meydana çıxan çağırışlara və ölkənin reallıqlarına uyğun şəkildə genişmiqyaslı islahatlar aparılıb, iqtisadiyyatın ayrı-ayrı sektorlarının maliyyə təminatı möhkəmləndirilib. Hazırda respublikamızda dövlət başçısının imzaladığı müvafiq Fərmanla təsdiqlənən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin uğurla icra edilməsi ölkədə reallaşdırılan islahatların səmərəliliyini daha da artırır.

Forumda son 15 ildə Azərbaycanın iqtisadi sahədə qazandığı uğurlar diqqətə çatdırılıb. Səsləndirilən statistik göstəricilər ölkəmizin Prezident İlham Əliyev tərəfindən innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. Məqsədyönlü yanaşmanın nəticəsidir ki, respublikamızda bazar iqtisadiyyatına transformasiya prosesi uğurla başa çatıb. 2004-cü ildən bəri bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri məhz Azərbaycanda qeydə alınıb.

Zəngin karbohidrogen ehtiyatlarına malik olan Azərbaycan ölkədə qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin edilməsini hədəfləyib. İqtisadi sektorda aparılan islahatlar da ilk növbədə sahibkarlığın inkişafı, qeyri-neft sektorunda istehsal və ixrac imkanlarının artırılması, innovativ əsaslı sənaye quruculuğu, aqrar sektorda yeni yanaşmaların tətbiqi kimi mühüm məsələləri əhatə edir. Qeyri-neft sektorunun inkişafı ilə bağlı reallaşdırılan

siyasi və maddi dəstək tədbirləri öz müsbət nəticəsini verir. Ötən 15 ildə respublikamızda qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb. Prezident İlham Əliyev Azərbaycanın iqtisadi inkişaf sahəsində qazandığı uğurları yüksək qiymətləndirib. Dövlət başçısı belə bir mühüm məqamı nəzərə çatdırıb ki, iqtisadi müstəqilliyini təmin etməsi ölkənin siyasi müstəqilliyini möhkəmləndirir: "Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq".

Hazırda Azərbaycanda makroiqtisadi sabitlik çox yüksək səviyyədədir. Ölkənin xarici borcu ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Eyni zamanda, respublikanın təxminən 45 milyard dollar həcmində olan strateji valyuta ehtiyatları xarici borcdan 4-5 dəfə çoxdur. Bu, o deməkdir ki, respublikamız xarici borcunu bir neçə ay ərzində sıfır səviyyəsinə endirə bilər.

Azərbaycanın müsbət reallıqlarından biri də ondan ibarətdir ki, ölkəmizdə münbit sərmayə mühiti var. Bunun nəticəsidir ki, respublika iqtisadiyyatına bütün mənbələrdən investisiya qoyuluşu getdikcə artır. Milli iqtisadiyyatımıza sərmayə qoyuluşunun artmasından məmnunluğunu bildirən Prezident İlham Əliyev "Sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Qeyd etməliyəm ki, ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir", - deyə vurğulayıb.

Bu məqamda belə bir cəhəti də vurğulamaq yerinə düşər ki, ölkəmizdə güclü iqtisadi inkişaf dərinməzmunlu sosial siyasətlə tamamlanır. Azərbaycanda sosial sahəyə böyük diqqət göstərilir. Ölkəmizi fərqləndirən bu amilə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, iqtisadi sahədə aparılan köklü islahatlar, əlbəttə ki, sosial sahəyə də müsbət təsir göstərib. "Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq", - deyə dövlət başçısı vurğulayıb.

"ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli addımdır

Müasir dövlət quruculuğu yolu ilə inamla irəliləyən Azərbaycanda innovativ tətbiqlərə daim "yaşıl işıq" yandırılır. Respublikamızda altı il bundan əvvəl - 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. İndiyədək respublikamızda 5-i Bakıda, 10-u bölgələrdə olmaqla 15 "ASAN xidmət" mərkəzi yaradılıb. Bu mərkəzlərdə bir binada vətəndaşlara 300-dən çox xidmət göstərilir. Daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir. Prezident İlham Əliyev vurğulayıb ki, "ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli təşəbbüsdür.

Respublikamızda "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti böyük vətəndaş məmnunluğu yaradır. Forumda vurğulandığı kimi, ölkəmizdə vətəndaşların "ASAN xidmət"i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilaba çevrilib. "İctimai xidmətlər sahəsinə xas olan bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində "ASAN xidmət" mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Əlamətdar haldır ki, bu gün "ASAN" dünyada məhz Azərbaycan brendi kimi tanınır. Özünəməxsus hüquqi strukturu olan bu model Avropa İttifaqı, Avropa Parlamenti, Böyük Britaniya parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyni adlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə "ASAN xidmət" ISO 9001:2008 və OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikatlara və bir sıra beynəlxalq mükafatlara layiq görülüb.

Azərbaycan dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrilib

Son illərdə əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan özünü dünyaya geniş imkanlara malik tranzit ölkə kimi təqdim edir. Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin respublikamızın ərazisindən keçməsi, möhkəm daxili sabitlik, coğrafi üstünlüklər, həmçinin dövlətin güclü siyasi iradəsi və bu kimi digər amillər ölkəmizin regionda özünü nəqliyyat daşımaları üçün son dərəcə əlverişli məkan kimi təqdim etməsini şərtləndirir. Respublikamızın mühüm nəqliyyat mərkəzinə çevrilməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev deyib: "Biz bir neçə il bundan əvvəl nəqliyyat sahəsində qarşıya vəzifə qoymuşduq ki, Azərbaycan nəinki bu

bölgədə, dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrilsin. Bu məqsədə doğru ardıcıl olaraq getməyə başlanmışdır və bu gün tam əminliklə deyə bilərəm ki, biz buna nail ola bilmişik".

Azərbaycanın regionda çox önəmli tranzit məkanına çevrilməsində ötən 15 ildə yaradılan müasir nəqliyyat infrastrukturu mühüm rol oynayıb. Bəhs olunan dövrdə ölkə miqyasında 6 beynəlxalq hava limanı tikilib. Azərbaycanı bütün qonşu dövlətlərlə bağlayan və ölkəmizin əsas hissəsini əhatə edən dəmir yolları yüksək səviyyədə yenidən qurulub. Son 15 ildə respublika miqyasında 15 min kilometrdən çox avtomobil yolları çəkilib, yüzlərlə körpü, yol ötürücüləri tikilib. Bu gün Azərbaycan Xəzər dənizində 200-dən çox gəmisi olan ən böyük ticarət donanmasına malikdir. Nəhayət, cari ildə Xəzərin Azərbaycan sahilində böyük ticarət limanı istifadəyə verilib. Azərbaycanın moderatorluğu ilə inşa olunan və 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında daşımaları əhəmiyyətli dərəcədə asanlaşdırıb. Prezident İlham Əliyev diqqəti regionda yaradılan nəqliyyat, enerji və digər təyinatlı infrastruktur layihələrinin önəminə çəkərək bildirib: "Bizim enerji, nəqliyyat, infrastruktur layihələrimiz ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır".

Regionda mühüm nəqliyyat, enerji və digər təyinatlı infrastrukturun yaradılmasından söhbət açarkən burada Azərbaycanın aparıcı rolunu xüsusi qeyd etmək lazımdır. Əlamətdar haldır ki, regionda reallaşdırılan bütün qlobal əhəmiyyətli layihələrin hamısında iştirak edən yeganə ölkə məhz Azərbaycandır. Respublikamız regionda bütün irimiqyaslı nəqliyyat və enerji layihələrinin həyata keçirilməsində moderatorluğu öz üzərinə götürüb, layihələrə siyasi və maddi dəstək göstərib.

Yeni Azərbaycan. - 2018.- 31 oktyabr. - № 206. - S. 3.

Müstəqillik dövründə diaspor və lobbiçilik siyasəti

Rəşid Rəşad

1920-ci Xalq Cümhuriyyətinin süqutu və onun qurucuları və tərəfdarlarının ciddi təzyiqlərə məruz qalması azərbaycanlıların kütləvi miqrasiyası dövrü kimi tarixə düşüb. Əslində bu proses xarakter etibarı ilə daha çox siyasi mahiyyət kəsb edir.

Tarixçi-alim Xaləddin İbrahimli qeyd edir ki, bütövlükdə 1920-ci ildən sonra ayrı-ayrı dövrlərdə Azərbaycandan mühacirətə gedənləri dörd qismə bölmək olar: "Birinci qismə hələ 27 apreldən əvvəl H.Ağayevin rəhbərliyi ilə Tiflisə, Ə.M.Topçubaşovun rəhbərliyi ilə Parisə göndərilən nümayəndə heyətləri, eyni zamanda, ADR dövründə təhsil almaq üçün Avropaya göndərilən 80-ə yaxın tələbə, ikinci qismə 27 aprel işğalı ərəfəsində və ondan az sonra ölkəni tərk edənlər, üçüncü qismə II Dünya müharibəsi başlayana qədər təqiblərdən, repressiyalardan yayınanlar, sürgündən, həbsxanadan qaçanlar, dördüncü qismə isə II Dünya müharibəsində əsir düşən və könüllü olaraq almanların tərəfinə keçənlərdən, vətənə qayıtmaqdan imtina edib xaricdə qalanlar daxil idi".

Onu da qeyd edək ki, diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi kimi məfhumlar ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra dövlət siyasətində xüsusi yer tutmağa başladı. O, çox gözəl başa düşürdü ki, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında yalnız rəsmi diplomatik üsullarla kifayətlənmək mümkün deyil.

Ulu öndər eyni zamanda görürdü ki, Dağlıq Qarabağ kimi ciddi bir problemi olan dövlətin işğalçı Ermənistana qarşı mübarizənin tribunalara aparılması yollarından biri də lobbiçilik və diaspor fəaliyyətidir.

1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlıları arasında birliyin daha da möhkəmləndirilməsinin əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Naxçıvan Ali Məclisində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Təklif yekdilliklə qəbul olundu və Azərbaycan Ali Sovetinə də eyni addımın atılması tövsiyə edildi. Bundan başqa, Heydər Əliyev ilk dəfə olaraq 1997-ci ilin martında Prezidentin İcra Aparatı ictimai-siyasi şöbəsində xaricdə yaşayan soydaşlarımızla əlaqələr üzrə sektoru da yaratdı. Daha sonra isə dünya azərbaycanlılarının birlik və həmrəyliyini təmin etmək məqsədilə 2001-ci il mayın 21-də Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında sərəncam imzalandı.

2003-cü ildə prezident seçilən İlham Əliyev də diaspor və lobbiçilik məsələsinə xüsusi önəm verdi. Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların vahid ideya ətrafında birləşdirilməsi siyasətini müvəffəqiyyətlə davam etdirdi.

Ekspertlərin fikrincə, Azərbaycan diasporunun ötən dövrdə qazandığı ən mühüm nailiyyətlərdən biri də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən türk diaspor təşkilatları ilə səmərəli əməkdaşlıq əlaqələri qurmasıdır. Bu əlaqələr hər iki ölkənin problemlərinin, xüsusilə Azərbaycan həqiqətlərinin daha effektiv təbliğinə imkan yaradır ("diaspora.az").

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirir ki, Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımıza hər zaman dayaq olub və bundan sonra da dəstəyini əsirgəməyəcək: "Müasir dövrdə qələbələr tək hərb yolu ilə deyil, həm də siyasi-intellektual vasitələrlə təmin edilir. Bu sahədə malik olduğumuz vacib resurslardan biri də xarici ölkələrdə yaşayan həmvətənlərimiz və onların yaratdıqları təşkilatlardır. Ona görə də Azərbaycan diasporu, o cümlədən Avropadakı icmalar öz fəaliyyətini daha da genişləndirməli, işlərin koordinasiyasını və dost ölkələrin analoji təşkilatları ilə əlaqələrini gücləndirməlidirlər. Diaspor nümayəndələri ölkəmizlə bağlı məlumatların, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin Avropa ictimaiyyətinə daha çevik və dolğun çatdırılması, mədəniyyətimizin təbliği və başqa istiqamətlərdə yeni metod və vasitələrdən səmərəli istifadə etməlidirlər. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xalqımız öz qəddini düzəltdi, daxili potensialına güvənərək güclü və müasir dövlət qurdu. Ötən illərin təcrübəsi bir daha göstərdi ki, Prezident İlham Əliyevin daxili və xarici siyasəti tam özünü doğrultdu. Bura beynəlxalq səviyyəli mötəbər məclislərdə dövlət başçısının cəsarətli çıxışlarını da əlavə etsək, onda ölkəmizin yüksək reytinq qazanmasının təsadüfi olmadığı bir daha üzə çıxacaq. Təbii ki, bura diaspor təşkilatlarının son illər kifayət qədər aktivləşməsi faktorunu da əlavə etmək olar".

Ekspertlərə görə, Azərbaycanda keçirilən beynəlxalq mədəniyyətlərarası dialoq forumları, humanitar forumlar dünya ilə mədəni əlaqələrimizin gələcək inkişafı üçün geniş perspektivlər açır. Bu baxımdan da ölkəmizə müxtəlif ölkələrin keçmiş və fəaliyyətdə olan dövlət və hökumət başçıları, alimləri, ictimai, siyasi və mədəniyyət xadimlərinin gəlişi lobbiçiliyin ən üst səviyyəli tərkib hissələrindən biridir. Bundan başqa, Azərbaycan diasporunun ölkəmizin mədəniyyətinin təbliği istiqamətində gördüyü işlər nəticəsində dünyanın əksər ölkələrində görkəmli elm və mədəniyyət xadimlərimiz barədə dolğun fikir formalaşıb, onların əsərləri geniş təbliğ edilib.

Bu cəhətdən Fransa ilə əlaqələrin inkişafı daha təqdirəlayiqdir. "Araz" Fransa-Azərbaycan Mədəni Əlaqələr Assosiasiyası 2006-cı ildə Parisdə təsis edilib. Assosiasiyanın əsas məqsədi mədəni tədbirlər və xeyriyyə

aksiyaları təşkil etmək, Fransada fəaliyyət göstərən başqa mədəni və dini icmalarla sıx əlaqələr qurmaqdır. Təşkil olunmuş tədbirlər zamanı Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, musiqisi, Dağlıq Qarabağ munaqişəsi və Fransada məskunlaşmış azərbaycanlılarla bağlı ətraflı məlumat verilir və əvvəlcədən hazırlanmış filmlər nümayiş etdirilir.

Yeri gəlmişkən, Niderlandın Amsterdam şəhərində Azərbaycan dilinin tədris ediləcəyi məktəb mövcuddur. Hər bazar günü 4 saat Azərbaycan dilinin tədris olunduğu məktəbdə bu ölkədə yaşayan azərbaycanlı uşaqlarla yanaşı, İraq türkmanlarının balaları da ana dilimizi öyrənirlər. Digər 2 saat ərzində isə yaşlılara bu dil tədris edilir. Benilüks Azərbaycanlıları Konqresinin xüsusi səyi sayəsində açılmış məktəb ilk vaxtlar qurumda təmsil olunan Türkman Federasiyasının Amsterdamdakı qərargahında fəaliyyət göstərib. Bunlar diaspor təşkilatlarının fəaliyyətinin nəticəsidir.

Ekspertlər qeyd edirlər ki, dünya ölkələrində yaşayan azsaylı xalqların keçirdiyi beynəlxalq festivallarda azərbaycançılıq ideyaları layiqli şəkildə təbliğ olunur (preslib.az).

Xatırladaq ki, Çinin Təhsil Nazirliyinin müvafiq qərarına əsasən, Pekin Xarici Dillər Universitetində (PXDU) Azərbaycan dili üzrə kadrların hazırlanmasına başlanılıb. 2018-2019-cu tədris ilinin başlanması münasibəti ilə keçirilən açılış mərasimində universitetin rektoru Pen Lon bildirib ki, 90-dan çox xarici dilin tədris olunduğu PXDU-da bu ildən 10-a yaxın yeni dil, o cümlədən Azərbaycan dili ixtisas kimi tədris olunacaq.

Ölkəmizin Çindəki səfiri Əkrəm Zeynallı Azərbaycan dili ixtisası üzrə universitetə qəbul olunan gənclərlə görüşərək, onların gələcəkdə iki dövlət arasında müxtəlif sahələrdə əməkdaşlığa töhfə verəcəklərinə əminliyini bildirib. Diplomat dövlətimizin Azərbaycan dilinin tədrisi ilə bağlı universitetə hər cür dəstək göstərməyə hazır olduğunu deyib: "PXDU-da Azərbaycan dilinin ikinci dil kimi tədrisinə ötən ilin ikinci semestrdən başlanılıb. Ötən müddətdə 42 tələbə Azərbaycan dili dərslərində iştirak edib. Əsasən Çin Xarici İşlər Nazirliyi və ölkənin digər dövlət qurumları üçün kadrların hazırlanması ilə məşğul olan Pekin Xarici Dillər Universitetinin 87 ölkədən 451 təhsil ocağı ilə müxtəlif səviyyələrdə əlaqələri mövcuddur. Bu ilin aprelində universitetin rektoru Pen Lonun rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycana səfər edərək, müxtəlif istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası, müəllim və tələbə mübadiləsinin təşkili, birgə kadr hazırlığı məsələlərini müzakirə edib" (diaspornews.az).

Polşada Azərbaycan Gənclər Şurasının sədri Nail Əhməd bildirir ki, digər Avropa ölkələri ilə müqayisədə Polşada yaşayan azərbaycanlıların sayı azdır: "İllər öncə deyə bilərdik ki, tələbələr çoxluq təşkil edir. Elə indi də çoxluq təşkil edir. Amma bununla paralel, işçilər tələbələrdən qat-qat çoxdur. Bunun da səbəbi Polşada əmək miqrantlarına olan ehtiyacdır. Hər bir halda bizim çoxalmağımız güclənməyimizə gətirib çıxarır. Onu da qeyd edim ki, Polşada digər Avropa ölkələrinə nisbətən təhsil haqqı azdır, yaşam xərcləri çox ucuzdur. Bundan başqa, kifayət qədər güclü təhsil verən bir ölkədir. Bilirik ki, Avropanın ən qədim universitetlərindən biri olan Yaqulen Universiteti Polşanın Krakov şəhərində yerləşir. Bu baxımdan Polşada, xaricdə təhsil almaq istəyən gənclərə Polşa daha çox qapı açmaqda, həm də daha uyğun olmaqdadır. Həm maddi məsələdə, həm də Polşanın dövlət olaraq Azərbaycana, polyakların azərbaycanlılara münasibətində xeyli müsbət cəhətlər var. Hər bir halda Polşa xaricdə təhsil almaq istəyən gənclərin bir unikal variantı kimi seçilib" ("Trend").

Bir müddət öncə Polşadakı məşhur turizm şirkətlərindən birinin Qarabağa tur təşkil etdiyini xatırladan N.Əhmədin sözlərinə görə, 245 nəfərli turda yazılır ki, haralar gəziləcək, hansı yerlərə gediləcək. "Biz bu şirkətin Facebook, Tvitter səhifələrinə şikayət etdik, Polşanın Bakıdakı səfirliyinə, Polşadakı Azərbaycan səfirliyinə bu barədə məlumat verdim. 48 saat ərzində biz o turu ləğv etməyə nail olduq. Onlar bizim o təzyiqlərdən o qədər narahat oldular ki, bizim səfirliyə email vasitəsilə müraciət etdilər. Müraciətdə də yazdılar ki, biz azərbaycanlıların etiraz və təzyiqi nəticəsində o turu ləğv etdik. Çünki biz qətnamələri çıxarmışdıq, etirazımızı hüquqi yollarla da əsaslandırmışdıq. Çox rahat şəkildə də o turu ləğv etdirdik. Bundan sonra kimlərsə yenə eyni addımı atmağa çalışanda biz buna etirazımızı bildiririk. Çalışırıq ki, Qarabağa belə səfərlərin qarşısını alaq. Çünki Qarabağ bizim tarixi torpaqlarımızdır. Bu baxımdan bu cür səfərlərin təşklinə etiraz etmək bizim vətəndaşlıq borcumuzdur".

Ekspress. - 2018.- 14 noyabr. - № 200. - S. 10.

Müstəqil Azərbaycanın ordu quruculuğunda əsaslı dönüşün başlanğıcı

Ümummilli lider Heydər Əliyevin xalqa müraciətindən 25 il ötür

Mehman Süleymanov,
tarix üzrə elmlər doktoru, ehtiyatda olan polkovnik

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra onun müstəqil dövlət quruculuğu istiqamətində tarixi xidmətlərindən biri də Azərbaycan silahlı qüvvələrini ağır böhranlı vəziyyətdən çıxarması, ordunu siyasi oyunlardan kənarlaşdırması oldu. Ulu öndər zəngin dövlətçilik təcrübəsi, qətiyyətli və ardıcıl siyasəti ilə çox mürəkkəb şəraitdə ordu quruculuğuna yeni məzmun verdi və ölkədə müasir ordu formalaşdırılmasının əsasını qoydu.

Müstəqil dövlətimizin memarı və qurucusunun rəhbərliyi altında o zaman respublikanın hərbi təhlükəsizliyinin və suverenliyinin qarantı olacaq ordu yaradılmasının dövlət səviyyəsində, mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi üçün qısa müddətdə qəti və təxirəsalınmaz tədbirlər müəyyənləşdirildi. Prezident və Ali Baş Komandan Heydər Əliyevin müstəsna səyləri ilə xalqın və ölkənin bütün imkanları bu mühüm prosesə səfərbər edildi. Həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində ordu quruculuğu zərərli sapınmalardan xilas edildi. Bu proses dövlətçilik təcrübəsi və milli maraqlar əsasında aparıldı və bununla da ordu quruculuğunun keyfiyyətcə yeni bir mərhələsi başlandı. Həmin mərhələnin başlanğıcı isə dövlət başçısı Heydər Əliyevin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciəti ilə qoyuldu.

25 il əvvəl bu taleyüklü müraciət ərəfəsində Azərbaycanda hərbi siyasi şərait son dərəcə kəskinləşmiş, Ermənistan silahlı qüvvələrinin ölkəmizin ərazilərində apardığı işğalçılıq hücumları xeyli genişlənmişdi. Belə bir şəraitdə xalqın böyük əksəriyyətinin etimadı və iradəsi ilə müstəqil dövlətimizin yeni və həqiqi Prezidenti seçilmiş ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına tarixi müraciət etdi və xalqı bu təcavüzə qarşı səfərbər olmağa çağırdı.

Ulu öndər Heydər Əliyev həmin müraciətində təcavüzkarın cilovlanması üçün uyğun xarici siyasət xəttinin seçildiyini və bu xəttin səmərəliliyinin artırılması üçün müvafiq tədbirlərin həyata keçiriləcəyini bəyan etdi. Bununla belə, Ali Baş Komandan öz çağırışında konkret tarixi şəraitdə ölkənin müdafiə qüvvələrinin təşkilatlanmalı olduğunu xüsusi qabartdı və bu sahədə bütün cəmiyyət qarşısında dayanan vəzifələrdən söz açdı.

Doğrudan da, yalnız güclü müdafiə qüvvələri təcavüzkar niyyətlərdən əl çəkməyən düşmənə layiqli müqavimət göstərməklə onu geri çəkilməyə məcbur edər və baş verə biləcək yeni təcavüzlərin qarşısını ala bilərdi. Ölkə Prezidenti xalqa müraciətində Azərbaycanın müstəqilliyinin etibarlı şəkildə qorunmasını da təcili olaraq belə qüvvələrin formalaşdırılması ilə bağlayırdı. O bildirirdi ki, ölkənin xarici siyasətinin hansı səviyyədə qurulmasından asılı olmayaraq Azərbaycan xalqı güclü silahlı qüvvələrin təşkilinə nail olmalı və respublikanın ərazi bütövlüyünə etibarlı təminat yaratmalıdır.

Tarixi müraciətində Prezident Heydər Əliyev təəssüflə qeyd edirdi ki, aparılan naşı və məsuliyyətsiz siyasət nəticəsində Azərbaycanın müdafiə qüvvələri hələ də formalaşmamışdır və ölkənin keçirdiyi ağır hərbi böhranın əsas səbəblərindən biri də güclü ordunun olmamasıdır. Böyük siyasətçi və təcrübəli dövlət xadimi Heydər Əliyev öz müraciətində müxtəsər şəkildə Azərbaycanda ordunun təşkil edilməməsinin səbəblərini açıqladı, ölkənin müdafiə qüvvələrinin böhranlı vəziyyətdən çıxarılmasının yollarını göstərirdi.

Tarixi xilaskarlıq missiyasına böyük məsuliyyətlə yanaşan ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qazanılmasından sonra bu sahəyə lazımi diqqət ayrılmamasını dözülməz hal kimi dəyərləndirdi. Ulu öndər bildirirdi ki, əgər SSRİ tərkibində olarkən Azərbaycanın milli hüquqlarının qorunmasında təbii maneələr mövcud idisə, respublikanın müstəqilliyinin bərpasından sonra dövlət rəhbərliyi müvafiq tədbirlər görə bilərdilər.

Ali Baş Komandan Heydər Əliyev Azərbaycan ordusunun böhranlı vəziyyətə düşməsini konkret faktlarla açıb göstərir, belə bir vəziyyətin milli və dövlət maraqlarına cavab vermədiyini vurğulayırdı.

Respublika rəhbərinin xalq qarşısında çıxışında əksini tapmış geniş təhlil göstərirdi ki, mlli müdafiə qüvvələrinin kifayət qədər zəifləməsinin səbəblərindən biri də o zamankı Müdafiə Nazirliyinin fəaliyyətində, ordu hissələrinin təşkilində, hərbi əməliyyatların aparılmasında sistemliliyin olmaması idi.

Azərbaycanda mürəkkəb hərbi-siyasi şəraitin yaranmasının səbəblərindən danışan Heydər Əliyev cəmiyyətdəki qeyri-sabitliyə də toxunur, bu vəziyyəti geniş təhlil edir və naşı, xəyanətkar qüvvələrin ölkənin müdafiə qüvvələrinin parçalanmasına göstərdiyi mənfi təsiri ictimaiyyətin diqqətinə çatdırırdı. Ulu öndər müraciətində bütün xalqı, dünyabaxışından asılı olmayaraq bütün siyasi qüvvələri yaranmış olan vəziyyəti reallıqla qiymətləndirməyə, əl-ələ verərək Azərbaycanı ağır vəziyyətdən çıxarmağa çağırırdı.

Dövlət rəhbərinin qənaəti belə idi ki, qarşılarına qoyduqları məqsəddən asılı olmayaraq respublikanın işğal olunmuş ərazilərinin azad edilməsi, ərazi bütövlüyünün təmin edilməsi bütün siyasi qüvvələri birləşdirən ümumi vəzifə olmalıdır: "Mən Prezident kimi Azərbaycan Respublikasında dünyabaxışından asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm. İndi Azərbaycan üçün bir amal, bir məqsəd var. Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünü, müdafiəsini təşkil etmək".

Dövlət rəhbəri hələ heç də hər şeyin itirilməsi fikri ilə razılaşmırdı və yaranmış vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları olduğunu inamla vurğulayırdı: "Bu vəziyyətdən çıxmaq üçün Azərbaycan xalqının qüdrəti və imkanları var. Lakin bundan ötrü gərək xalq bir məqsədə xidmət etsin. Torpağımızı, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, onun suverenliyini, müstəqilliyini qorumaq hər bir vətəndaş üçün, hər bir azərbaycanlı üçün ən ümdə, ən ülvi, ən başlıca vəzifə olmalıdır. Qalan hisslər, duyğular, qalan cəhdlər hamısı bir kənara qoyulmalıdır".

Ulu öndər Heydər Əliyev yaranmış vəziyyətin tezliklə aradan qaldırılması üçün ilk növbədə xalqa müraciət edirdi, xalqı səfərbər olmağa çağırırdı. Respublika rəhbəri qeyd edirdi ki, Azərbaycanın gələcək taleyi, onun mövcud olub-olmayacağı xalqın öz əlindədir və düşmən tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarını da azərbaycanlılardan başqa, kimsə azad etməyəcəkdir: "Hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur".

Prezident xalqa müraciətində bütün ictimaiyyəti, ilk növbədə isə işğal olunmuş rayonların əhalisini bu ruhda kökləməyə, praktiki fəaliyyət göstərməyə çağırırdı. Onun fikrincə, Laçının, Şuşanın, Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın hörmətli və nüfuzlu şəxsləri öz qüvvələrini toplayaraq yerli gənclərin orduya səfərbər olunmasında dövlət orqanları ilə daha yaxından əməkdaşlıq etməli, səfərbərlik işində buraxılmış nöqsanları aradan qaldırmaqda, müdafiə qüvvələrini möhkəmləndirməkdə kömək etməli idilər.

Ölkənin bu gününün və sabahının ümidi kimi qiymətləndirdiyi gənclərin ayrı-ayrı hissələrinin Vətənin çətin günündə müftəxor həyat tərzi seçmələrini Heydər Əliyev xalqın milli tarixi köklərindən, adət və ənənələrindən uzaq düşməsi kimi xarakterizə edir və haqlı olaraq onlara bildirirdi ki, bu torpaq, Vətən hamınındır, hamı da eyni əzmkarlıqla onu qorumalı, yolunda canından keçməyə hazır olmalıdır.

Respublikanın ağır vəziyyətdən çıxarılmasında, xalqın mübariz əhval-ruhiyyəyə köklənməsində Heydər Əliyev ziyalıların da üzərinə məsuliyyətli vəzifələr düşdüyünü qeyd edirdi. Dövlət rəhbəri əminliyini bildirirdi ki, xalqın potensialının reallaşdırılmasında, onun döyüşgənlik və qəhrəmanlıq ənənələrinin özünə qaytarılmasında respublika ziyalıları məqsədyönlü iş görə bilərlər: "Doğrudan da Azərbaycan xalqının potensialı, həm qəhrəmanlıq, həm döyüşkənlik, həm də intellektual potensialı böyükdür. Biz bu potensialdan səmərəli istifadə etməliyik. Bu sahədə ziyalılarımız daha fəal çalışmalıdırlar". Prezident ordunun şəxsi heyətinin mənəvi əhval-ruhiyyəsinin formalaşdırılmasında din xadimlərinin də faydalı işlər görə biləcəyini yüksək qiymətləndirirdi.

Böyük xilaskarımız Heydər Əliyevin tarixi müraciəti Ermənistanın Azərbaycana təcavüzü başlayan gündən dövlət rəhbəri səviyyəsində Azərbaycan xalqını mübarizəyə səsləyən, Vətən müharibəsinə səfərbər olmağa çağıran ilk müraciət idi. O zaman bu qətiyyətli çağırış Azərbaycan xalqında böyük əks-səda doğurdu, cəmiyyətdə bir canlanma yaratdı və ölkə Prezidentinin səyləri cəmiyyətin əksər təbəqələri tərəfindən müdafiə olundu.

Bu müraciət həm də hərb quruculuğu sahəsində yaxın və uzaq gələcək üçün Azərbaycan xalqının qarşısında dayanan proqram sənədinə çevrildi və bu cəhətinə görə Prezident Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti Azərbaycanın hərb quruculuğunda böyük praktiki və tarixi əhəmiyyətə malikdir.

Bu taleyüklü müraciətin dolğun və bütöv şəkildə ifadəsini, onun mühüm dövlət sənədinə çevrilməsini şərtləndirən amillərdən birini Heydər Əliyevin hərb quruculuğunun bütün sahələrinə kifayət qədər elmi şəkildə yanaşması və onları dövlətçilik təcrübəsi baxımından dəqiq şərh etməsi idi. Həmin çıxışında xalqımızın müdrik rəhbəri Heydər Əliyev hərb quruculuğunun qanunauyğunluqlarının, bu prosesin əhatə etdiyi məsələlərin konkret Azərbaycan şəraitində təzahürünün incəliklərini əsaslı şəkildə açıqlayaraq, bu istiqamətdə mövcud nöqsanların nədən doğduğunu və onların necə aradan qaldırılmasının yollarını tutarlı, əsaslı və eyni zamanda anlaşıqlı və inandırıcı şəkildə xalqa, ictimaiyyətə çatdırmışdı.

Ali Baş Komandan uzun müddət üçün Azərbaycanın etibarlı müdafiəsi baxımından zəruri olan çoxsaylı mühüm problemlərə toxunmuşdu. Yalnız bu təxirəsalınmaz vəzifələrin vaxtında və keyfiyyətli icrası Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsini təmin edə bilərdi. Bu baxımdan Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti təkcə hərb quruculuğu deyil, həm də Azərbaycanın dövlət quruculuğu sahəsində tarixi önəm daşıyan proqram səciyyəli çıxışıdır.

Xalq qəzeti. - 2018.- 2 noyabr. - № 247. - S. 3.

Azərbaycan - Şərqin parlayan ulduzu

Prezident İlham Əliyevin uğurlu Şərq siyasəti ölkəmizin diplomatik nailiyyətlərinin artmasına mühüm töhfə verir

Gövhər Baxşəliyeva,
Milli Məclisin deputatı, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik

Ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz möhtəşəm, çoxəsrlik tariximizdə görünməmiş inkişaf yolu keçib. Yüksək vətənpərvərlik, mahir idarəetmə qabiliyyəti, polad iradə, sarsılmaz qətiyyət və uzaqgörənlik, yalnız milli maraqlara söykənən daxili və xarici siyasət bir həqiqəti ortaya qoydu: 15 il öncə müdrik xalqımız yeganə düzgün seçim edib.

İdarəetmə sisteminin bütün sahələri kimi müstəqil dövlətimizin beynəlxalq münasibətləri də daim Prezidentin diqqət mərkəzindədir. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə diqqəti çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edir. Dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müyyənləşdirən Prezident İlham Əliyev ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Onun tərəfindən formalaşdırılan xarici siyasət strategiyası ilk növbədə, respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını, uğurlu enerji və nəqliyyat infrastrukturları diplomatiyası vasitəsilə uzun müddətli perspektivdə davamlı inkişafın əldə edilməsini, xarici siyasətimizin manevr imkanlarının və strateji dərinliyinin artırılmasını, ən əsası, Ermənistana qarşı beynəlxalq siyasi təzyiqin gücləndirilməsini və son hədəf olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin olunmasını özündə ehtiva edir.

Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımlar atan Prezident Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər edir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən Prezident İlham Əliyevin xarici siyasət konsepsiyası dövlətimizin xarici siyasətdə nəzərdə tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Mənafeyi Azərbaycanın dövlətçilik və milli maraqları ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaradılır, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə edilir. Dövlətimiz bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirak edir, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeridir, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə edir. Aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli iş görülür. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin prioritetləri müəyyənləşdirildi və həyata keçirildi.

Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan ölkə Prezidenti öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışır. Prezidentin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə uzaqgörənlik, müdriklik və mahir davranış həmişə duyulur.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanuna uyğunluqlarını çox gözəl dəyərləndirən Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacibdir. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda, region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilir. Belə ölkələrə birinci növbədə, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və digərləri aiddir. Bu və İslam Əməkdaşlıq Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı dövlətimiz üçün çox vacibdir. Bütün bu amilləri nəzərə alan İlham Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Bu gün müstəqil Azərbaycan əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir. Prezident İlham Əliyev diplomatik xidmət orqanları rəhbərləri ilə müşavirədə inkişafımızın hazırkı mərhələsinə uyğun olaraq aşağıdakı istiqamətlər üzrə yeni tapşırıq və vəzifələr müəyyən etmişdir:

- Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunması;
- Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində fəaliyyətin daha aktiv şəkildə davam etdirilməsi;
- Ermənistanın siyasi, iqtisadi, enerji və nəqliyyat layihələrindən təcridinin davam etdirilməsi;
- Azərbaycan haqqında həqiqətlərin dünya miqyasında yayılmasının daha da gücləndirilməsi, erməni yalanlarının ifşa edilməsi və Azərbaycana qarşı olan məqsədyönlü əks-təbliğat əməllərinin qarşısının alınması;
- ikitərəfli əsasda dünya ölkələri ilə əlaqələrin inkişafına xüsusi önəm verilməsi və ikitərəfli siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin daha da inkişaf etdirilməsi;
- Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda ədalət və beynəlxalq hüququn prinsiplərinə uyğun, ikitərəfli və çoxtərəfli çərçivələrdə çevik diplomatik fəaliyyətin davam etdirilməsi;
- xarici iqtisadi əlaqələrin genişləndirilməsinin dəstəklənməsi və Azərbaycan məhsullarının ixracı üçün yeni bazarların müəyyən edilməsi;
- Azərbaycan xalqının əsrlərdən bəri formalaşmış zəngin irsi əsasında dünya miqyasında multikulturalizm və tolerantlıq meyillərinin inkişafına töhfə verilməsi;
- mədəni diplomatiya siyasətinin davam etdirilməsi və dünya miqyasında Azərbaycan xalqının sahib olduğu zəngin mədəni irsin tanıdılması;
- dünya azərbaycanlıları və diaspor təşkilatları ilə əlaqələrin daha da gücləndirilməsi və onların fəaliyyətinin dəstəklənməsi.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması xarici siyasətimiz qarşısında duran vəzifə və tapşırıqlar sırasında prioritet yer tutmaqla yanaşı, bu sahədə daim konstruktiv və praqmatik yanaşma nümayiş etdirilir. Ümumiyyətlə, qeyd olunmalıdır ki, Azərbaycanın ümumi inkişaf və xarici siyasət strategiyası yüz ildən artıq bir dövr ərzində erməni ideoloqları tərəfindən formalaşdırılan böyük bir xülyanı tamamilə boşa çıxarmışdır. Məhz Azərbaycan dövlətinin güclənməsi fonunda erməni lobbisinin ölkəmizə qarşı təxribatlarının qarşısı alınmış və yalanları ifşa olunmuşdur. Erməni lobbisinin sıx cəmləşdiyi ölkələrdə belə, Azərbaycan haqqında həqiqətlər bu ölkələrin geniş ictimai dairələrinə sirayət etmişdir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir.

Azərbaycan Respublikasının xarici Şərq siyasətində birinci yer Türkiyə Cümhuriyyətinə məxsusdur. Din, dil, soy bağlılığına söykənərək yüksələn xətlə inkişaf edən əlaqələrimiz bütün sahələrdə əməkdaşlıq və qardaşlıq bağlarının möhkəmlənməsinə şərait yaratmışdır. Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət, gerçəkləşən görüşlər, işgüzar səfərlər, bağlanan müqavilələr nəticəsində Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, hərbi, elm və təhsil sahələrində əlaqələr durmadan inkişaf edir. Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək, Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.

Dövlətimizin məqsəd və maraqlarına uyğun olaraq elm və təhsil sahəsində əlaqələrin inkişaf etdirilməsi, Türkiyədə Heydər Əliyevin adını daşıyan mərkəzlərin, məktəblərin, parkların yaradılması, birgə mədəni tədbirlərin gerçəkləşməsi müasir əlaqələrə xüsusi məzmun verməkdədir. Son üç ildə Azərbaycan Prezidenti dəfələrlə Türkiyəyə rəsmi və işgüzar səfərlər etmiş, Çanaqqala zəfərinin 100 illiyi mərasimində, burada keçirilən Dünya Humanitar Sammitində, Dünya Neft Konqresində, Dünya Enerji Şurasının Konqresində, Əskişəhərdə TANAP layihəsinin açılış mərasimində, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında, "Star" neftayırma zavodunun açılışında iştirak etmişdir. Ölkələrimiz arasında əməkdaşlıq haqqında bir çox yeni sənədlər imzalanmışdır. Eyni zamanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Azərbaycana rəsmi və işgüzar səfərlər etmiş, "Asiyanın Qəlbi-İstanbul Prosesi" çərçivəsində 7-ci Nazirlər konfransında, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 6-cı iclasında, Bakının azad edilməsinin 100 illiyinə həsr edilmiş paradda iştirak etmiş, Prezident seçiləndən sonra ilk rəsmi səfərini daim Azərbaycana gerçəkləşdirmişdir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasətdə türkdilli xalqların inteqrasiyası, o sıradan Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan respublikaları ilə qurulan hərtərəfli əlaqələr xüsusi önəm daşıyır. Türkdilli ölkələrin dövlət başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Respublika Prezidenti

qazax, qırğız və digər türk xalqlarının görkəmli şəxsiyyətlərini qəbul edərək onların fəaliyyətini yüksək qiymətləndirir. 2008-ci ildə Özbəkistan Prezidenti İslam Kərimovun Bakıya səfəri çərçivəsində özbək mütəfəkkir-şairi Əlişir Nəvainin Bakıda heykəlinin, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün və böyük şairimiz Nizami Gəncəvinin heykəlinin Daşkənd şəhərində ucaldılması, görkəmli qazax ziyalısı Oljas Suleymenovu qəbul edərək 75-illik yubileyi münasibəti ilə "Dostluq" ordeni ilə təltif etməsi və digər hadisələr mədəni əlaqələrdə böyük önəm daşıyır.

Azərbaycan Respublikasının dövlət siyasətində türkdilli ölkələr ilə qurulan əlaqələrdə beynəlxalq təşkilatlarda Azərbaycanın təmsilçiliyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qurum və təşkilatların, konfrans və digər tədbirlər çərçivəsində respublikamız türkdilli xalqlar ilə hərtərəfli və çoxşaxəli əlaqələrin inkişaf etdirilməsində ciddi addımlar atmışdır. Türkdilli Ölkələrin Dövlət Başçılarının zirvə görüşləri, xüsusilə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında gerçəkləşən IX zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası haqqında sazişin imzalanması, Naxçıvan bəyannaməsinin qəbulu, 8 sentyabr 2008-ci ildə "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası", Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Təşkilatının fəaliyyətində Azərbaycan dövlətinin və onun Prezidentinin uğurlu siyasi fəaliyyəti türkdilli xalqların inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Türkdilli xalqların inteqrasiyası istiqamətində baş tutan digər bir çox önəmli hadisə - Türkdilli Dövlətlərin Parlament Assambleyasının (Türk PA) təsisi və baş katibliyinin Bakıda yerləşdirilməsidir.

İran İslam Respublikası ilə qarşılıqlı faydalı qonşuluq münasibətlərinin saxlanması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Azərbaycan-İran qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədədir.

Müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamağı və inkişaf etdirməyi rəhbər tutan İslam Əməkdaşlıq Təşkilatı ilə yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsipləri xarici siyasətimizin vacib istiqamətidir. İƏT ilə əlaqələr Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilərək, yeni mərhələyə qədəm qoydu. 2005-ci ildə İƏT-nin Məkkədə keçirilən fövqəladə sammitində Azərbaycan Prezidenti şəxsən iştirak etdi. Onun təşəbbüsü ilə 2006-cı ildə (19-21 iyun) Təşkilata üzv Ölkələrin Xarici İşlər Nazirlərinin XXXIII konfransı Bakıda keçirildi. Bakıda keçirilən İƏT Turizm Nazirlərinin V konfransının (10-11 iyun 2009) nəticəsi olaraq qəbul edilmiş yekun bəyannamədə Ermənistanın Azərbaycana təcavüzü pislənməklə yanaşı, işğal edilmiş ərazilərdə və habelə Ermənistan daxilindəki mədəniyyət və islam abidələrinə qarşı həyata keçirilən vandalizm siyasəti, eləcə də işğal olunmuş ərazilərin təbii resurslarından istifadə edilməsini pisləyən maddələr əksini tapıb.

Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti İƏT Parlament İttifaqında müntəzəm iştirak edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, təcavüzkarı pisləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən bir sıra qətnamələrin qəbuluna nail olmuşdur.

Keçən illər ərzində beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qərar və qətnamələr, o cümlədən Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının son Qahirə sammitinin sənədləri artıq münaqişənin həlli çərçivəsini, hüquqi bazasını və onun əsas elementlərini müəyyənləşdirmişdir. Beynəlxalq ictimaiyyətin əsaslandığı bu sənədlər ATƏT-in Minsk qrupunun daha nəticə yönümlü fəaliyyəti üçün əsasdır. Azərbaycan öz növbəsində təşkilatın qərarlarının qəbul edilməsində fəal iştirak edir. İslam dövlətlərində baş verən proseslərə münasibətdə konstruktiv mövqe tutur. Təşkilatın bütün tədbirlərində Azərbaycan nümayəndələri birmənalı şəkildə Fələstin xalqının suverenlik hüququnu müdafiə edib, Qüdsdəki islam abidələrinin toxunulmazlığına tərəfdar çıxıb.

Azərbaycan İƏT-nın aidiyyəti strukturları ilə də sıx əməkdaşlıq edərək, həmin qurumların işində, eyni zamanda, üzv ölkələrdə keçirilən tədbirlərdə çox yaxından iştirak edir. Bu nöqteyi-nəzərdən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti və onun ISESCO-nun xoşməramlı səfiri təyin edilməsi və təşkilatın humanitar məsələlər üzrə xüsusi elçisi diplomu ilə təltif edilməsi təqdirəlayiqdir.

2016-cı ilin aprel ayında Prezident İlham Əliyev İstanbulda İƏT XIII sammitində, 2017-ci ilin sentyabr ayında Astanada İƏT-nin Elm və Texnologiya üzrə I sammitində, həmin il İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə zirvə toplantısında iştirak və çıxış etmişdir.

Regionda strateji əhəmiyyət daşıyan ərəb ölkələri ilə də ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir. Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident İlham Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi ab-havanı müəyyənləşdirən əsas məsələ artıq 70 il davam edən İsrail - ərəb qarşıdurmasıdır. İslam dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin

probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımamalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan müsəlman aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İƏT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya, Qətər, İordaniya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, İordaniya, Liviya və s. ərəb ölkələrində səfirlikləri var.

2004-cü ildən başlayaraq Prezident İlham Əliyevin ərəb ölkələrinə bir sıra rəsmi dövlət səfərləri baş tutdu: 2004-cü ildə Qətərə, 2005-ci ildə Səudiyyə Ərəbistanı Krallığına, 2006-cı ildə Birləşmiş Ərəb Əmirliklərinə, 2007-ci ildə Misir Ərəb Respublikasına və İordaniya Haşimilər Krallığına, 2009-cu ildə Küveytə. 2016-cı ilin fevralında BƏƏ-yə rəsmi səfər etdi. Növbəti ilin fevral ayında Qətər Əmiri Şeyx Təmim əl-Tani Azərbaycana səfər etdi. Aparılmış böyük işlərin, yaradılmış mühüm əlaqələrin və qarşılıqlı faydalı əməkdaşlığın nəticəsidir ki, 2008-ci il martın 14-də BMT-nin Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamənin qəbul olunmasına dair keçirilən səsvermədə müsəlman ölkələri Azərbaycanın mövqeyini dəstəkləmişdir.

2017-ci il ölkəmizdə "İslam həmrəyliyi ili" elan olunmuş, Bakıda IV İslam Həmrəyliyi İdman Oyunları keçirilmişdir. Həmin ilin may ayında dövlətimizin başçısı Ərəb-İslam-Amerika sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanına işgüzar səfər etmişdir. ISESCO ilə də əməkdaşlıq yüksələn xətlə inkişaf edir, təşkilatın Baş Katibi Əbduləziz Tuveycri Bakıya müntəzəm səfər edir, burada ən müxtəlif mədəni layihələrin açılışında iştirak edir, ölkə rəhbəri və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə müntəzəm görüşlər keçirir, qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə edir. Son illərdə Bakının, daha sonra Naxçıvanın "İslam mədəniyyəti paytaxtı" elan edilməsi bu əməkdaşlığın bariz nümunəsidir.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də böyük işlər görülüb. 2017-ci ilin mart ayında Azərbaycan Prezidenti təşkilatın XIII sammitində iştirak etmək üçün Pakistana işgüzar səfər etmişdir.

Çin, Yaponiya, Koreya, Monqolustan, Pakistan, Hindistan, İndoneziya, Malayziya və digər ölkələrlə əlaqələr möhkəmləndirilir, dövlət başçılarının qarşılıqlı səfərləri təşkil olunur, müqavilələr və digər sənədlər imzalanır, müxtəlif sahələrə aid əməkdaşlıq edilir.

Bu gün Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var. Bu ölkələrdəki səfirliklərimiz ölkəmizin milli maraqlarının təmin olunmasında, xarici siyasətin həyata keçirilməsində, iqtisadi əlaqələrimizin coğrafiyasının genişləndirilməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində, eləcə də respublikamızın xarici ölkələrdə təbliği, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiə edilməsi işində onların qarşısında qoyulan vəzifələri icra edirlər.

Etibarlı tərəfdaş olan və beynəlxalq münasibətlərə beynəlxalq hüququn prinsipləri çərçivəsində yanaşan Azərbaycan ikitərəfli münasibətlərin fəlsəfəsinə, siyasi, hüquqi çərçivəsinə uyğun olaraq hər bir dövlət ilə olan əlaqələrini üçüncü tərəfə qarşı istifadə etməkdən tamamilə uzaq, xoşməramlı, tarazlı siyasətinə görə dünya dövlətlərinin etimad və rəğbətini qazanmışdır.

Çoxtərəfli diplomatiyamızın tərkib hissəsi kimi Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional beynəlxalq təşkilatların üzvü olaraq bu təşkilatlar çərçivəsində də fəal iş aparır. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.

İkitərəfli və çoxtərəfli qaydalar əsasında xarici siyasətimizin coğrafiyasının genişləndirilməsini şərtləndirən vacib amillərdən biri də Azərbaycanın iqtisadi imkanlarının artmasıdır. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan artıq investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmişdir. Yürütdüyü çoxistiqamətli siyasət nəticəsində Azərbaycan bu gün kəsişmə nöqtəsində yerləşdiyi Xəzər, Qara və Aralıq dənizləri hövzələri, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa regionlarının siyasi-iqtisadi proseslərində, onları birləşdirən enerji, nəqliyyat layihələrində yaxından iştirak edir və bir çox hallarda belə layihələrin təşəbbüskarı kimi çıxış edir.

Sülh və təhlükəsizlik sosial-iqtisadi inkişafla bir-birinə sıx bağlıdır. Bu regional məsələlərin həllində sülh və tərəqqi təşviqi baxımdan strateji əhəmiyyət kəsb edir. Azərbaycan regionda sülh və təhlükəsizliyin möhkəm

və dayanıqlı olması üçün ciddi addımlar atmışdır və görülən işlər regionun inkişafına və dünya birliyinə inteqrasiyasına öz töhfəsini vermişdir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gətirilmiş Bakı-Tbilisi-Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri, eləcə də yaxın vaxtlarda inşası başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, şübhəsiz ki, regionda iqtisadi, sosial inkişafa, ən əsası isə qarşılıqlı inam və faydanın üzərində qurulan uzunmüddətli əməkdaşlığa səbəb olmuşdur. Bu sırada Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq TANAP və TAP layihələri üzrə əldə edilmiş razılıqlar da qeyd olunmalıdır.

Çoxminillik tarixində multikulturalizm və tolerantlığın nəinki mümkünlüyünü, hətta inkişafını sübut etmiş Azərbaycan bu xüsusda dünya üçün bir örnəkdir. Ona görə də Bakı bu gün sivilizasiyalararası dialoq və multikulturalizm mövzusunda aparılan qlobal müzakirələrin mərkəzinə çevrilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü və himayəsi sayəsində ərsəyə gələn Bakı Humanitar Forumunda hazırlanan tövsiyə və təkliflər multikulturalizmin konseptual inkişafında mühüm rol oynayır, bu tövsiyələr beynəlxalq təşkilatlar, dövlətlər və tədqiqat mərkəzləri tərəfindən ciddi şəkildə öyrənilir, tətbiq edilir. Azərbaycan bu kimi fəaliyyəti ilə milli, dini, mədəni və irqi müxtəliflik şəraitində dünyada sülhün bərqərar olmasına və sivilizasiyalararası dialoqun möhkəmlənməsinə əsaslı töhfəsini verir.

Multikulturalizm siyasətimizin tərkib hissəsi kimi Azərbaycan diplomatiyasının yeni istiqamətləri meydana çıxmışdır ki, bu sırada da mədəni və humanitar diplomatiyamız diqqət çəkir. Bu xüsusda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rolu xüsusilə qeyd edilməlidir. Dünyanın bir sıra ölkələrində Azərbaycan tərəfindən həyata keçirilən humanitar layihələr beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən böyük minnətdarlıqla qarşılanır. Buna nümunə kimi Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistan Qızlar məktəbinin təmiri, Misirdə məktəbin tikintisini qeyd etmək olar. Humanitar diplomatiya siyasətimizin sistemli şəkildə həyata keçirilməsi, qlobal səviyyədə aclıq və yoxsulluğa qarşı mübarizə aparılması, təbii və texnogen fəlakətlərdən əziyyət çəkən dövlətlərə yardım göstərilməsi məqsədilə Xarici İşlər Nazirliyi daxilində Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi təsis edilmişdir. BMT-nin müvafiq strukturları, Afrika İttifaqı və İslam Əməkdaşlıq Bankı ilə yaxından əməkdaşlıq edən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi Afrika qitəsində, Əfqanıstanda, Fələstində uğurlu humanitar layihələr həyata keçirmişdir və bundan sonra da bu nəcib missiya davam etdiriləcəkdir.

Xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident İlham Əliyevin Şərq siyasətini, o cümlədən, İƏT ilə münasibətdə yeritdiyi siyasəti qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, ölkə diplomatiyası üçün müəyyənləşdirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, Prezidentin apardığı xarici siyasət də daxili siyasət kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edir - müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemləri həll etmək, xalqımızın dünya xalqları birliyində özünə layiq yer tutmasına nail olmaq.

Coğrafi baxımdan Qərb ilə Şərqin kəsişməsində, zəngin neft-qaz ehtiyatlarına malik olan, dünyanın aparıcı dövlətlərinin maraqlarının kəsişdiyi bölgədə yerləşən Azərbaycan üçün xarici siyasətin düzgün seçilməsi ölkənin müstəqilliyinin qorunub saxlanmasında və möhkəmləndirilməsində başlıca amillərdən biri olaraq qalır. Azərbaycan kifayət qədər mürəkkəb, eyni zamanda, strateji əhəmiyyətli bölgədə yerləşdiyinə görə xarici siyasət kursunu müəyyənləşdirərkən bir tərəfdən öz milli maraqlarını qorumaq və bölgənin aparıcı dövlət statusunu saxlamaq, digər tərəfdən bölgədə maraqları olan bütün dövlətlərlə, habelə qonşularla bərabərhüquqlu tərəfdaşlıq münasibətlərini saxlamaq prinsipindən çıxış edir. Bu gün müstəqil Azərbaycan dünyanın əksər ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inkişaf etdirir. Bu istiqamətdə Şərq ölkələri ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlətçilik siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşməkdədir. Bu siyasət milli mənafeni təmin edir, xalqın cari və strateji maraqlarına xidmət edir, ölkəmizin təhlükəsizliyinə qarşı yönələn istənilən təhdidə çevik müqaviməti təmin edir.

Ötən müddət ərzində Azərbaycan ətrafında əlverişli xarici mühit formalaşdırmışdır. Xaricdən olan təzyiqlər, hədə və təhdidlər zərərsizləşdirilmişdir. Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı çoxtərəfli və ikitərəfli əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün unikal əməkdaşlıq məkanına çevrilmişdir.

Əsası ümummilli lider tərəfindən qurulan müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti daim yüksələn xətlə inkişaf edir, xalqımızın haqq səsinin ucaldılmasında və mənafelərinin qorunmasında daha da böyük rol oynayır.

Azərbaycan. - 2018.- 28 oktyabr. - № 243. - S. 1,3.

Azərbaycanın dövlət müstəqilliyinin daimi olacağına inam tükənməzdir

18 oktyabr Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası Günüdür

Səbuhi Məmmədov

Müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir.

Heydər Əliyev
Ümummilli lider

18 oktyabr Azərbaycanın dövlət müstəqilliyinin bərpası günüdür. 27 il öncə Azərbaycan Respublikasının Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunsa da, Azərbaycan özünün həqiqi müstəqilliyini ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qazanmışdır. Məhz ümummilli liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtarmış və ölkə möhkəm əsaslar üzərində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu gün dövlət müstəqilliyimiz güclü liderin – Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət nəticəsində daha da güclənir və Azərbaycan beynəlxalq arenada müstəqil siyasət yürüdən ölkə kimi tanınır.

Azərbaycan xalqının tarixində 18 oktyabr milli qürur günüdür. 27 il öncə məhz həmin gün Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etmişdir. Bu mühüm tarixi sənədlə xalqımız uzun əsrlər boyu həsrətində olduğu azadlığına qovuşmuşdur. Lakin dövlət müstəqlliyinə aparan yol çox mürəkkəb olmuşdur. Milli-azadlıq hərəkatından 20 Yanvar faciəsinə qədər qürurverici, eyni zamanda, kədərli prosesi yaşayan Azərbaycan xalqı qurbanlar bahasına olsa da, müstəqilliyini elan etməyi bacarmışdır.

Əlbəttə, müstəqillik qanla qazanılır. Lakin istiqlal mübarizəsinin məntiqi sonluğundan sonra, yəni müstəqillik elan edildikdən sonra ölkədə baş verən ictimai-siyasi proseslər Azərbaycan xalqını yeni təhlükələrlə üzləşdirmişdi. Müxtəlif siyasi qruplaşmaların hakimiyyət uğrunda mübarizəsi, xüsusilə də ölkədə güclü liderin olmaması Azərbaycanı növbəti geosiyasi fəlakətlə – tarixin verdiyi müstəqillik şansını itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Ölkə vətəndaş müharibəsinin astanasında dayanmışdı. Bununla bağlı Prezident İlham Əliyev belə demişdir: "Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi".

Dövlət başçısı müstəqilliyin ilk illərində Azərbaycanın çox böyük problemlərlə qarşılaşdığını və həmin illəri ölkəmiz üçün itirilmiş imkanlar dövrü kimi xarakterizə etmişdir. Strateji əhəmiyyətli Laçın və Şuşa da məhz həmin dövrdə, yəni 1992-ci ilin may ayında işğal olunmuşdu.

Müstəqilliyimizin ilk illərində Azərbaycan həm də Ermənistanın hərbi təcavüzü, cinayətkar rejimin azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti ilə üzləşmişdi. Bir tərəfdən dərin siyasi və iqtisadi böhran, digər tərəfdən də Dağlıq Qarabağ regionunda tüğyan edən hərbi münaqişə dövlət müstəqilliyinə böyük təhlükə yaratmışdı. Zəif siyasi və iqtisadi bazaya, eləcə də vətəndaş dəstəyinə malik olmayan hakimiyyət orqanlarının yarıtmaz fəaliyyəti, eləcə də cinayətkar qruplaşmaların geniş əl-qol açması nəticəsində Azərbaycan ikinci dəfə müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Milli birliyin olmaması və digər mənfi amillər Azərbaycanda ictimai-siyasi böhranı dərinləşdirməklə yanaşı, Dağlıq Qarabağ münaqişəsində ciddi itkilərin baş verməsinə səbəb olmuşdu. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 1992-ci ilin yayından 1993-cü ilin iyun ayına qədərki dövrü biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü adlandırmışdır.

Ulu öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Böyük dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordu formalaşdırıldı, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələr yaradıldı. Digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı. Bunun da nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu. Qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən eşidilməyə başladı. Suverenliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Ən əsası, böyük siyasi xadimin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokra-tiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.

Görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səylərini bu gün Prezident İlham Əliyev yüksək səviyyədə davam etdirir. Ötən müddət ərzində dövlət başçısının rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi əldə etmişdir. Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilmişdir. Bundan başqa, dövlət neft strategiyasının uğurla həyata keçirilməsi, ümumilikdə, iqtisad-sosial sahələrdə aparılan köklü islahatlar Azərbaycanı gücləndirir, hər bir vətəndaşın sosial həyatına müsbət təsir göstərir. Hazırda Azərbaycanda güclü infrastruktur yaradılmış və ölkəmiz xarici investisiyaların cəlbedici məkanına çevrilmişdir. Güclü orduya, idman ölkəsinə çevrilmiş Azərbaycan ötən 27 il ərzində böyük inkişaf yolu keçməklə beynəlxalq arenada da mövqelərini gücləndirməyə nail olmuşdur. 2012-ci ildə "Eurovision", 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə İslam Həmrəylik Oyunlarına və "Formula-1" kimi nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi, bir çox geosiyasi əhəmiyyətli enerji-nəqliyyat dəhlizlərinin formalaşdırılmasında iştirakı Azərbaycanın güclü dövlət olduğunu bir daha təsdiqləmişdir. Bu mühüm tədbirlərin Azərbaycanda keçirilməsi rəmzi məna daşıyan nadir tarixi hadisə olmaqla yanaşı, həm də Asiya ilə Avropa arasında körpü rolunu oynayan ölkəmizin sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına verdiyi böyük töhfədir. Bundan başqa, qeyri-neft sektorunu uğurla inkişaf etdirən Azərbaycan bu gün kosmik dövlət kimi də tanınır və bu uğurların arxasında xalqın böyük etimadını qazanmış Prezident İlham Əliyevin gərgin əməyi və Vətənə olan tükənməz sevgisi dayanır.

Bir sözlə, Prezident İlham Əliyevin məqsədyönlü, düşünülmüş siyasəti nəticəsində müstəqil Azərbaycan son 27 il ərzində kifayət qədər böyük uğurlar qazanmışdır. Güclü siyasi iradəyə, böyük maliyyə resurslarına malik olan Azərbaycan müstəqil siyasət yürüdən dövlətdir. Cənubi Qafqaz regionunun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmiş Azərbaycan, həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş etibarlı tərəfdaşdır. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə evsahibliyi edən humanitar məkan kimi tanınır. Sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilmiş Azərbaycan bəşəriyyətin cavab axtardığı bir sıra vacib məsələlərin müzakirəsinin qlobal səviyyəyə yüksəlməsində müstəsma rol oynayır və bu strateji kurs artıq dönməz xarakter almışdır. Bütün bu faktorlar Azərbaycanın güclü dövlət olduğunu bir daha nümayiş etdirməklə yanaşı, ölkəmizin beynəlxalq arenada nüfuzunun güclənməsinə öz töhfəsini verir. Ən əsası, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və humanitar-mədəniyyət həyatında cərəyan edən güclü inkişaf dinamikası hər bir azərbaycanlının Azərbaycanın dövlət müstəqiliyinin daha da güclənəcəyinə və üçrəngli bayrağımızın əbədi dalğalanacağına olan inamını artırır.

Xalq qəzeti. - 2018.- 18 oktyabr. - № 234. - S. 3.

18 Oktyabr Azərbaycan Dövlət Müstəqilliyi Günüdür

İlham Əliyev: "Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq"

Zümrüd Bayramova

Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. 27 illik müstəqillik tariximizdə Azərbaycanın etibarlı tərəfdaş, təhlükəsizliyə, sabitliyə, multikulturalizmə və s. verdiyi töhfələrin məntiqi nəticəsidir ki, ölkəmiz qısa bir zamanda, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf, məhz bu müstəqillik tarixində əldə olunan nailiyyətlərdir.

Bu gün - 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyinin bərpa olunduğu tarixi gündür. 27 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik Sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilmədi. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış Azərbaycan xalqı ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub-saxlaya bilmişdi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə sahib olmaq arzusu özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyinin əbədi və dönməz etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. 1995-ci il 12 noyabrda baş müəllifi Ulu Öndər Heydər Əliyev olan Yeni Azərbaycan Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.

Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə nəzərəçarpan tərəqqi əldə edib

"Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna hörmətdən, tezliklə Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan, ən əsası isə, Azərbaycanın artıq öz sərvətlərinə tam sahiblik etdiyinə etibar və əminlikdən yaranmışdı.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

"Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq"

Beləliklə, vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir. Bu, müasir Azərbaycan insanının xoşbəxtliyidir. Dövlət başçısı Cənab İlham Əliyev dediyi kimi: "Bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşamışlar. Ancaq bu arzulara çata bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq. Biz bunu qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq".

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Ulu Öndər Heydər Əliyevin strateji xəttini siyasi-iqtisadi, sosial və s. kimi bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirib.

"Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var"

Həqiqətən də, ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır: "Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə hər hansı bir başqa maneə və ya problem yoxdur. Azərbaycan bundan sonra ancaq uğurla inkişaf edəcək, ölkəmizin böyük potensialı var".

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahədə ciddi nailiyyətlərin əldə olunması, artıq 15 ildən çoxdur ki, əsas prioritet olaraq qarşıya qoyulub. Hazırda Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulub. Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", Yer səthini müşahidə edən "Azersky" peyki, bu yaxınlarda orbitə çıxarılan "Azerspace-2" peyki ölkəmizin iqtisadi gücünü nümayiş etdirməklə yanaşı, hər il Azərbaycanın milyonlarla dollar gəlir əldə etməsinə imkan yaradır.

Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləş- dirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. "ASAN Xidmət" şəbəkəsi, ünvanlı sosial yardım, aztəminatlı ailələrin əlverişli şərtlərlə mənzillə təmin olunması və digər layihələr dövlətin sosial yönümlü siyasətinin göstəricisidir.

Müstəqil Azərbaycanın tarixi gerçəklikləri

Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Elə Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi bu nüfuzun və inamın göstəricisidir. Ölkəmizdə biri-birinin ardınca təşkil olunan beynəlxalq tədbirlər "Euravision" Mahnı Yarışması, ilk Avropa Oyunları, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Bakı Humanitar Forumu, islam Həmrəyliyi Oyunları və onlarla belə möhtəşəm beynəlxalq tədbirlər Azərbaycanda müxtəlif millətlərin sülh və qardaşlıq şəraitində yaşadığı məkanda keçirilir.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycanın ötən illərdəki uğurlarının fonunda işlənib-hazırlanan və təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf Konsepsiyası da Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmağa istiqamətlənib. 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş rəqabətqabiliyyətli ölkə olacaq.

Qeyd edilənlər göstərir ki, Azərbaycan iqtisadi gücə malik dinamik inkişaf edən ölkədir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın uğurlu inkişafı, bir daha göstərir ki, yalnız azad və müstəqil olduqda, ölkənin taleyi öz xalqının əlində olduğu halda uğur əldə etmək olar: "Azərbaycan xalqının ən

böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət aparan müstəqil ölkədə yaşayırıq".

Bütün bu və ya digər amillər 27 illik müstəqil Azərbaycanın tarixi gerçəkliklərindir.

Səs.-2018.-18 oktyabr.-№197.-S.2.

Müstəqillik xalqımızın böyük - tarixi nailiyyəti və milli sərvətidir

Vəli Albəndov,
"Qarabağ-E.R" MMC-nin baş direktoru, Əməkdar mühəndis,
Yeni Azərbaycan Partiyasının üzvü

İstiqlaliyyət günümüzün ölkəmizdə hər il təntənəli şəkildə bayram edilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəm təməllər üzərində qurulduğunu və əbədi olduğunu bir daha sübut edir. 1991-ci il oktyabrın 18-də Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Həmin gün respublika parlamenti - Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Azərbaycan xalqı illər uzunu istiqlal ideyasını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki Xalq Cümhuriyyəti bu ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi idi.

Sovet rejimi də Azərbaycan xalqının müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Qanlı Yanvar hadisələrindən sonra xalqı ilə bir olmaq, onun azadlıq və suverenlik arzularının gerçəkləşməsində iştirak etmək istəyən Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmışdı. O, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və sovet dövlətinə etirazını bildirdi. 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərinə biganə qalmayaraq Kommunist Partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya Qanun qəbul etdilər. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsvermədə Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermədə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

Azərbaycanın dövlət müstəqilliyini birinci olaraq qardaş Türkiyə Cümhuriyyəti tanıdı. Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Dekabrın 8-də Belovejskdə SSRİ-nin fəaliyyətinə xitam verilməndən sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri digər müttəfiq respublikalar kimi Azərbaycanın da müstəqilliyini tanımağa başladılar. Dekabrın 11-də müstəqilliyimizi tanıyan 2-ci ölkə isə Rumıniya oldu. Dekabrın 13-də Pakistan analoji bəyanat verdi. Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik aktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu. Azərbaycan Xarici İşlər Nazirliyinin 1992-ci ilin yanvarında yaydığı məlumata görə dünyanın 50 dövləti Azərbaycan Respublikasını rəsmən tanımışdı. İrəlidə müstəqilliyin mürəkkəb, keşməkeşli illəri dururdu...

Azərbaycan özünün müstəqilliyinin ilk illərindən yeni geosiyasi vəziyyətin diktə etdiyi ciddi siyasi, iqtisadi, sosial və idarəçilik problemləri ilə qarşılaşmalı oldu. Ermənistanın hərbi təcavüzünün nəticəsi kimi ortaya çıxan Dağlıq Qarabağ problemi və iqtisadi tənəzzül, hüquqi qeyri-müəyyənlik, siyasi təlatümlər, zorakılıqlarla müşayiət olunan hakimiyyət ambisiyaları dövlət həyatını, cəmiyyəti idarəolunmaz vəziyyətə gətirmişdi.

1993-cü ilə qədər Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Özbaşınalıq şəraiti yaranmışdı, problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik yalnız bu nadir insanda var idi, ümidlər yalnız ona idi. Çünki hələ 1969-cu ildə hakimiyyətə gələndən sonra Heydər Əliyevin necə böyük işlər gördüyünün şahidi idi.

Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əlirza oğlu Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi, iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Heydər Əliyev Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasında ölkə parlamentinə sədr seçilərkən xalq qarşısında bəyan etdi: **"Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etdirilməsinə həsr edəcəyəm...".** Belə bir çətin məqamda yalnız Heydər Əliyev yeganə düzgün qərar verməyə qadir idi.

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi bir tərəfdən milli ordunun formalaşması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, cəbhə xəttində vəziyyəti sabitləşdirmək üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, nəhayət 1994-cü ilin mayında atəşkəs əldə edildi. Cəmiyyət dərin böhrandan çıxmaq, cəmiyyət həyatının bütün sahələrində köklü islahatlara başlamaq, davamlı inkişaf yoluna çıxmaq üçün müqəddəm şərtlər yarandı.

Şübhəsiz yeni müstəqil dövlətin həyatında ən əlamətdar hadisələrdən biri 1994-cü ilin sentyabrında xarici neft şirkətlərinin iştirakı ilə ilk neft müqaviləsinin - "Əsrin müqaviləsi"nin imzalanması idi. Azərbaycan iri regional qüvvələrin ciddi təzyiqləri ilə üzləşdi. Həmin qüvvələr müqavilənin reallaşması, eləcə də sonralar Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısını almaq üçün hər vasitədən istifadə etdilər. Amma Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti bu maneələri məharətlə aradan qaldırdı və nəticə etibarilə Xəzər hövzəsində gərginliyə son qoyuldu, əməkdaşlıq mühiti yarandı. Milli iqtisadiyyatın lokomotivi olan neft sənayesi müstəqil ölkə üçün böyük perspektivlər vəd edirdi. Heydər Əliyevin müəllifi olduğu milli neft strategiyası sonrakı illərdə böyük uğurla həyata keçirildi və bütövlükdə iqtisadiyyatın dirçəlməsinə, ölkənin müstəqilliyinin möhkəmlənməsinə, dünya iqtisadiyyatına inteqrasiyasına, dövlətin beynəlxalq aləmdə, ilk növbədə Avropada nüfuzunu artırmasına şərait yaratdı.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirib, ölkəmizin iqtisadi qüdrətini, gücünü artırıb. Ölkə rəhbərinin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır.

Ötən on beş il ərzində infrastrukturun yenidən qurulması və inkişafı, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu, Azərbaycanın öz iqtisadiyyatını sadəcə neft amili üzərində qurmadığını, əldə olunmuş uğurlu nəticələrdə qeyri-neft sektorunun da mühüm paya malik olduğunu təsdiqləmişdir. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində ölkəmizdə qeyri-neft sektorunun dinamik inkişafı davam etmişdir.

Yeni keyfiyyət mərhələsinə qədəm qoymuş və özündə modernləşdirmə və rifah amillərini birləşdirən Azərbaycanın inkişafı nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. İyirmi yeddi il müstəqillik yolunda inamla, qətiyyətlə irəliləyən ölkəmiz artıq dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulub. SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş müttəfiq respublikalarla müqayisədə Azərbaycan sürətli inkişaf edib, bəzi sahələr üzrə təkcə regionda deyil, dünyada öncül yerlərdədir. Bu uğurlar ildən-ilə daha da artıb, əhəmiyyətli islahatlar aparılıb və ölkəmiz iqtisadiyyatın inkişaf tempinə görə dünyada lider dövlətə çevrilib.

Son 15 ildə ulu öndər Heydər Əliyevin parlaq ideyaları Azərbaycanın mayakı olub və xalqımızın, dövlətimizin yolunu işıqlandırıb. Bəhs olunan dövrdə ümummilli lider Heydər Əliyevin yolu ilə gedən respublikamız böyük uğurlara imza atıb, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayıb. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, o cümlədən də bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verib: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşayıb. Ölkəmizdə dövlət başçısının qətiyyəti sayəsində daxili risklərin hamısı aradan qaldırılıb, eyni zamanda, Azərbaycan xarici risklərdən də özünü qoruya bilib, bu gün də qoruyur və heç bir şübhə yoxdur ki, bundan sonra da qoruyacağıq. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Demokratik dövlət quruculuğunu hədəfləyən və buna ölkə Prezidenti səviyyəsində böyük siyasi iradə göstərən Azərbaycanda ötən 15 il ərzində demokratik inkişaf çox sürətlə gedib, respublikamızda bütün azadlıqlar təmin edilib. Ölkəmizin demokratik inkişaf yoluna diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir: "Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir".

Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan demokratik inkişaf yolunu heç də kimə isə xoş gəlmək üçün seçməyib. Ölkəmiz demokratiyaya ona görə sadiqlik nümayiş etdirir ki, respublikada siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir. Azərbaycan daha qüdrətli ölkəyə çevriləcək.

Bəhs olunan dövrdə bütün dünyada iqtisadi cəhətdən Azərbaycan kimi dinamik inkişaf edən ölkələrin sayı çox az olub. Son 15 il ərzində iqtisadiyyatımız 3,2 dəfə artıb ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur. Həyata keçirilən davamlı dəstək tədbirləri, aparılan məqsədyönlü islahatlar sayəsində qeyri-neft iqtisadiyyatımız 2,8 dəfə artıb. O cümlədən qeyri-neft ixracı 4,1 dəfə artıb. Bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının təxminən 70 faizi Azərbaycanın payına düşür.

Bu gün mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Heydər Əliyevin şah əsəri olan Müstəqil Azərbaycanı qoruyub yaşatmaq isə hər bir Azərbaycan vətəndaşının borcudur. Göründüyü kimi, Heydər Əliyev ideyaları daim yaşayır və müstəqil Azərbaycan dövləti, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə daha xoşbəxt gələcəyə doğru inamla gedir.

Respublika.-2018.-11 oktyabr.-№227.-S.6.

Müstəqilliyimizin Naxçıvandan başlayan inkişaf yolu

Tarixi şəxsiyyətlər mənsub olduğu xalqın yaddaşında hər zaman yaşayır. Ancaq elə şəxsiyyətlər də var ki, onların xidmətləri daha fenomenal xarakter daşıyır. Bu mənada, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti, sadəcə, bir ölkə üçün yox, həm də bəşəri dəyərləri ilə seçilir. Görkəmli dövlət xadiminin 1990-cı il iyulun 22-də Moskvadan Bakıya, oradan isə doğma yurdu Naxçıvana gəlişi sonralar özünün də söylədiyi kimi, tarixin və zamanın hökmü idi. Azərbaycanın ən yeni tarixində mürəkkəb proseslərin getdiyi həmin vaxtda qədim Naxçıvan diyarında Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi gün bu hökmün yəqinliyini ötən dövrdə hər kəsə sübut etdi. Müstəqilliyini yenicə qazanmış bir ölkənin tarixin tələtümlü burulğanından qurtarmaq missiyasının başlanğıcı olan 1991-ci ilin 3 sentyabrı, eyni zamanda, milli dövlətçiliyimizin əsaslarının qoyulduğu, xalqımızın var olma, özünü dünyada təsdiq etmək kimi arzu və amallarının başlanğıc tarixi idi. Ümummilli liderimiz Heydər Əliyev məhz həmin tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada on minlərlə naxçıvanlının təkidi ilə Ali Məclisin Sədri seçilmişdi.

Ulu Öndər sentyabrın 3-də xilaskarlıq missiyasını öz üzərinə götürdü

Bu elə bir dövr idi ki, ölkəmizin əsas torpaqlarından ayrı düşmüş Naxçıvan tamamilə taleyin ümidinə buraxılmış, muxtar respublikanın ətraf aləmlə bütün kommunikasiya-nəqliyyat əlaqələri kəsilmiş, sabahkı günə inam qalmamışdı. Xalqın yeganə təsəllisi böyük öndərin Naxçıvanda xalqı ilə bir yerdə olması idi. Buna görədir ki, Ulu Öndər Naxçıvanın, ümumilikdə isə Azərbaycanın gələcəyi baxımından əlamətdar olan gün haqqında danışarkən deyirdi: "Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq, eyni zamanda, indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısına, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

Müstəqilliyimiz Naxçıvanda yenidən doğuldu

Qeyd etmək lazımdır ki, hələ görkəmli dövlət xadimi Naxçıvana qayıtdıqdan qısa bir müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçildi. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası da deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayıb. Həmin sessiyada Azərbaycanın müstəqilliyi və suverenliyi üçün böyük tarixi qərarlar qəbul edildi. Belə ki, təcrübəli dövlət xadiminin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvan parlamentində qaldırıldı, Azərbaycanın Ali Soveti qarşısında bu bayrağın rəsmi dövlət bayrağı kimi təsdiq edilməsi üçün vəsatət irəli sürüldü. Naxçıvanda milli dövlətçiliyimizin bərpası yönündə atılan addımlar bununla məhdudlaşmayıb, 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendum boykot edilib. Bütün bu proseslər onun göstəricisi idi ki, Ulu Öndərin qətiyyəti, hər şeydən üstün tutduğu milli dövlət maraqları, bu maraqların bərpası və qorunması istiqamətində atdığı tarixi addımlar müstəqilliyimizin bəhrələrini bizə hər gün daha da yaxınlaşdırırdı. Daha doğrusu, müstəqilliyimiz Naxçıvanda yenidən doğulurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin varislik ənənələri ilk dəfə Naxçıvanda bərpa olunub

Ümumiyyətlə, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir. Çünki Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin varislik ənənələri ilk dəfə Naxçıvanda bərpa olunub. Bunun da təməlində həm bəşəri, həm də milli dəyərləri özündə birləşdirən müasir müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesinə başlanılıb. Hamımıza məlumdur ki, ötən əsrin 90-cı illərində Naxçıvan təkcə iqtisadi, sosial bağları çökdürülmüş bölgə deyildi. Həmçinin sərhədlərinin böyük bir hissəsi boyunca düşmən hücumlarının hədəfinə çevrilmiş bir vətən parçası idi. Buna görə də dünya şöhrətli siyasətçi Heydər Əliyev Ali Məclisin Sədri kimi vəzifəsinə başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş

tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların hamısının muxtar respublikada saxlanılması təmin olundu. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu Öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradıldı, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırıldı, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası ilk dəfə məhz Naxçıvanda qoyuldu.

Respublikamızın digər dövlətlərlə dinc, səmimi dostluq şəraitində əməkdaşlıq etməsinin əsası qədim diyarda qoyulub

Naxçıvan Muxtar Respublikası mühüm geostrateji ərazidə yerləşir. Türkiyə və İranla çoxəsrlik qonşuluq əlaqələrinin bərpası da uzun illərdən sonra ilk dəfə dahi şəxsiyyətin Naxçıvanda fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Ulu Öndər 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanıb, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub. Həmin dövrdə Azərbaycanda həyata keçirilən yarıtmaz xarici siyasət nəticəsində bir çox ölkələrlə əlaqələr düzgün qurulmamışdı, yaxud zəif qurulmuşdu. Görkəmli dövlət xadiminin Naxçıvanda bu istiqamətdə atdığı addımlar isə ölkəmizin digər ölkələrlə dinc, səmimi dostluq şəraitində əməkdaşlıq etməsinin əsasını qoymuşdur.

Dövlətçilikdə əsas amillərdən biri də xalqın bir ideya ətrafında, bir hədəf uğrunda birləşməsi və hərəkətidir. Ümummilli lider Heydər Əliyevin Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi və 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

İlk torpaq islahatları

Ümummilli Liderin muxtar respublikada yaşayıb fəaliyyət göstərdiyi dövrdə xalqımız qarşısında xidmətlərini sadalamaqla bitməz. İqtisadi sahədə həyata keçirilən tədbirlər də bu sırada istisna deyil. Atılan addımlar muxtar respublikanı düçar olduğu ağır iqtisadi böhran vəziyyətindən çıxarmaqla yanaşı, yeni bazar iqtisadiyyatına keçidin şərtlərini də diktə edirdi. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amil olub, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılıb.

Xalqın arzu və istəklərini reallaşdıran Yeni Azərbaycan Partiyası Naxçıvanda yaradılıb

1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, ümumilikdə isə müstəqil Azərbaycanın gələcəyi üçün mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının əsası qoyulub. Dövrün, zamanın çağırışlarına cavab vermək məqsədilə yaradılan Yeni Azərbaycan Partiyası xalqın arzu və istəklərinin reallaşdırılması üçün qısa zaman ərzində böyük nüfuz qazanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə deyib: "Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı".

Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirilib

Qeyd etmək lazımdır ki, o zaman Naxçıvanda Ulu Öndərin rəhbərliyi ilə məqsədyönlü işlər aparılsa da, ümumilikdə, ölkədə hakimiyyətdə olanların səriştəsizliyi, siyasi səbatsızlığı Azərbaycanı məhvə doğru sürükləyirdi. Torpaqlarımızın ard-arda işğal olunması, yaranmış gərgin ictimai-siyasi hadisələr 1993-cü il iyun ayının əvvəllərində özünün kulminasiya nöqtəsinə çatdı. Hakimiyyət böhranı bütün ölkəni cənginə aldı. Artıq Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ulu öndər Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi, onun nicatı uğrunda siyasi mücadiləyə başladı və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, məhv olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. Həmin gündən etibarən Ulu Öndərin müdrik daxili və xarici siyasəti

nəticəsində 1991-ci il sentyabrın 3-dən Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirildi. Beləliklə, tarix üçün qısa zaman ərzində Azərbaycan mühüm nailiyyətlər qazandı.

Heydər Əliyevin siyasi xəttinə sarsılmaz sədaqət Naxçıvan Muxtar Respublikasını çiçəklənən diyara çevirib

Naxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət yeni inkişaf erasının başlanmasına təkan verib. Ötən dövrdə Naxçıvan blokada şəraitində inkişafın əsl nümunəsini ortaya qoyaraq, Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilib. İndi Naxçıvanın çox böyük müdafiə potensialı, dayanıqlı iqtisadiyyatı var. Bu gün mühüm enerji potensialına malik Naxçıvan, həm də dünyaya əsrarəngiz turizm potensialı olan bir diyar kimi qapılarını açır. Hər il bu qədim diyara dünyanın müxtəlif ölkələrindən çoxsaylı turistlər gəlir, burada müxtəlif beynəlxalq tədbirlər keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfərə gəlməsi və 135-dən çox müxtəlif təyinatlı obyektin açılışında iştirak etməsi də Naxçıvanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsidir. Prezident İlham Əliyev muxtar respublikaya son səfərində görülən genişmiqyaslı işlərin dövlətimizin vətəndaşına göstərdiyi böyük qayğının ifadəsi olduğunu vurğulayaraq deyib: "...Burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin".

Kaspi. - 2018.- 4 sentyabr. - № 142. - S. 4.

Azerbaijani sees 27th year of independence

By **Sara Israfilbayova**

History proves that to preserve independence is much more difficult than to gain it. Life has turned out that for the century Azerbaijan had to regain its sovereignty twice. Unfortunately, the first opportunity was lost shortly and the Azerbaijan Democratic Republic, which emerged in 1918 and existed only 23 months.

Azerbaijan could ensure its state independence after the collapse of the Soviet empire in 1990s. The Constitutional Act on the State Independence of Azerbaijan was adopted on October 18, 1991, at a session of the Supreme Council of the Republic of Azerbaijan. With this significant historical document, the Azerbaijani people gained long-awaited freedom after years of oppression.

A nationwide vote was held in Azerbaijan on December 29, and the people voted unanimously for the state independence.

The first years of independence was not easy for the young sovereign country and it faced tremendous difficulties. On the one hand, the Armenian military aggression continued, on the other hand, the economy was in a paralyzed state due to the collapse of the existing system, and internal stability was disturbed in the country. There were concrete threats and risks to Azerbaijani statehood. Namely in that hard period the great leader Heydar Aliyev returned to Azerbaijan and came to power in 1993. Heydar Aliyev eliminated the chaos and anarchy, economic, political, spiritual and psychological tensions. Independent Azerbaijan marked a new course of development. Thus, he made the country's independence eternal and irreversible.

Turkey was the first state that recognized Azerbaijan's independence in November 9, 1991 and a total of 50 countries recognized the independence of Azerbaijan by January 1992.

On March 2, 1992 Azerbaijan became a member of the UN and its de facto recognition in the global community begins from this date.

Today, Azerbaijan is one of the rapidly developing countries of the world from a economic points of view.

Azerbaijan has become a leading country in the region, which has achieved a stable domestic political situation and sustainable economic development.

No large-scale project in the region is considered without the participation of Azerbaijan. The Baku-Tbilisi-Ceyhan oil pipeline, implemented as part of the Contract of the Century, brought Caspian oil to the world market. This has contributed to peacekeeping and security in the South Caucasus and the future prosperity of the nation.

The authority and fame of Azerbaijan in the international world is growing continuously. Azerbaijan is known all over the world as democratic, legal and secular state. The stability in our country and carrying out internal reforms positively affect the extension of the international relations.

Azerbaijan is the only country in the world which has managed to become a transcontinental hub without having access to an ocean. The North-South project, which is currently being built and which will connect the Persian Gulf, Iran, Azerbaijan and Russia with a route to the highly developed Baltic region, will strengthen the transit role of Azerbaijan even more.

As a result of economic and energy projects Azerbaijan had achieved many social and economic transformations. The national economy had grown, industrial production had increased, the level of poverty had decreased and budgetary expenses had increased.

One of the greatest evidences of the economic development is the country's GDP that is increasing year by year. So, in January to July 2018, GDP amounted to 43.48 billion manats ($25.58 billion), which is 0.2 percent more than the same period of last year.

As for the country's foreign policy, priorities are based on maximum consideration of state interests and specifics of modern geopolitical situation. Foreign policy priorities take into account the most sensitive aspects.

Presently, Azerbaijan's domestic and foreign policy course serves as an example for regional states. The country develops dynamically in all areas, and its international prominence is ever growing. Successes achieved in the fields that conform to foreign policy priorities generally enable more dynamic diplomatic activity.

In this context, a need arises to constantly review the priorities of the foreign policy. Thus, diplomacy that briskly adapts to rapidly changing geopolitical environment plays a pivotal role. Azerbaijan's foreign policy priorities are generally known. Here, considerable significance is attached to bilateral relations. In the meantime, bolstering diplomatic activity within the international organizations is equally valuable. Nevertheless, at the present stage, resolution of Armenia-Azerbaijan, Nagorno Karabakh conflict constitutes a fundamental task for the foreign policy.

Cooperation with international economic organizations, provisioning and execution of energy projects, performing as the transportation corridor between two continents are among other foreign policy priorities. Azerbaijan is the only country of the Caucasus to implement systematic programs throughout those areas.

Azerbaijan, as an independent state, expanding and deepening its activities at the regional and global levels, including cooperation in the international arena, has become a member of the United Nations (UN), the Organization for Security and Co-operation in Europe (OSCE), the European Council, the Organization of Islamic Cooperation, the Commonwealth of Independent States (CIS) and other organizations. The Republic of Azerbaijan is also one of the founders of the GUAM regional organization.

Moreover, Azerbaijan has shown that it is the perfect destination for major international sports and strategic summits that contribute to world peace and effective dialogue.

Azerbaijan skillfully uses its economic and political opportunities to realize its own national interests, as well as strengthen regional and global positions. Azerbaijan is recognized as a leader in the region and a reliable partner in the international arena.

Azernews . – 2018. – October 17.- №. 79.- p. 1-2.

Müstəqillik xalqımızın böyük - tarixi nailiyyəti və milli sərvətidir

Vəli Albəndov,
"Qarabağ-E.R" MMC-nin baş direktoru, Əməkdar mühəndis,
Yeni Azərbaycan Partiyasının üzvü

İstiqlaliyyət günümüzün ölkəmizdə hər il təntənəli şəkildə bayram edilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəm təməllər üzərində qurulduğunu və əbədi olduğunu bir daha sübut edir. 1991-ci il oktyabrın 18-də Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Həmin gün respublika parlamenti - Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi. Azərbaycan xalqı illər uzunu istiqlal ideyasını özündə yaşatmışdı. 1918-1920-ci illərdəki Xalq Cümhuriyyəti bu ideyanın gerçəkləşdiyi qısa, amma tarixi əhəmiyyətli zaman kəsiyi idi.

Sovet rejimi də Azərbaycan xalqının müstəqillik arzularını tamamilə tükəndirə bilməmişdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi faktiki olaraq 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Qanlı Yanvar hadisələrindən sonra xalqı ilə bir olmaq, onun azadlıq və suverenlik arzularının gerçəkləşməsində iştirak etmək istəyən Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmışdı. O, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilmişdi.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və sovet dövlətinə etirazını bildirdi. 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərinə biganə qalmayaraq Kommunist Partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Bu müddət ərzində SSRİ-nin əksər müttəfiq respublikaları, o cümlədən Gürcüstan, Moldova, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlət müstəqilliyi haqqında Konstitusiya aktı və ya Qanun qəbul etdilər. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Səsvermədə Ali Sovetin 360 deputatından 258-si iştirak etmişdi. Adbaad səsvermədə "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul olundu.

Azərbaycanın dövlət müstəqilliyini birinci olaraq qardaş Türkiyə Cümhuriyyəti tanıdı. Dekabrın 3-də Ali Sovet Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması xahişi ilə BMT-yə və dünya dövlətlərinə müraciət etdi. Dekabrın 8-də Belovejskdə SSRİ-nin fəaliyyətinə xitam veriləndən sonra beynəlxalq təşkilatlar və dünya dövlətləri digər müttəfiq respublikalar kimi Azərbaycanın da müstəqilliyini tanımağa başladılar. Dekabrın 11-də müstəqilliyimizi tanıyan 2-ci ölkə isə Rumıniya oldu. Dekabrın 13-də Pakistan analoji bəyanat verdi. Nəhayət, dekabrın 29-da Konstitusiya Aktı ümumxalq səsverməsinə çıxarıldı və 95 faiz seçicinin iştirak etdiyi referendum müstəqillik aktını rəsmiləşdirdi. Beləliklə, Azərbaycan Respublikası 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoydu. Azərbaycan Xarici İşlər Nazirliyinin 1992-ci ilin yanvarında yaydığı məlumata görə dünyanın 50 dövləti Azərbaycan Respublikasını rəsmən tanımışdı. İrəlidə müstəqilliyin mürəkkəb, keşməkeşli illəri dururdu...

Azərbaycan özünün müstəqilliyinin ilk illərindən yeni geosiyasi vəziyyətin diktə etdiyi ciddi siyasi, iqtisadi, sosial və idarəçilik problemləri ilə qarşılaşmalı oldu. Ermənistanın hərbi təcavüzünün nəticəsi kimi ortaya çıxan Dağlıq Qarabağ problemi və iqtisadi tənəzzül, hüquqi qeyri-müəyyənlik, siyasi təlatümlər, zorakılıqlarla müşayiət olunan hakimiyyət ambisiyaları dövlət həyatını, cəmiyyəti idarəolunmaz vəziyyətə gətirmişdi.

1993-cü ilə qədər Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Özbaşınalıq şəraiti yaranmışdı, problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik yalnız bu nadir insanda var idi, ümidlər yalnız ona idi. Çünki hələ 1969-cu ildə hakimiyyətə gələndən sonra Heydər Əliyevin necə böyük işlər gördüyünün şahidi idi.

Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əlirza oğlu Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi, iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Heydər Əliyev Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasında ölkə parlamentinə sədr seçilərkən xalq qarşısında bəyan etdi: **"Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etdirilməsinə həsr edəcəyəm...".** Belə bir çətin məqamda yalnız Heydər Əliyev yeganə düzgün qərar verməyə qadir idi.

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi bir tərəfdən milli ordunun formalaşması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, cəbhə xəttində vəziyyəti sabitləşdirmək üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, nəhayət 1994-cü ilin mayında atəşkəs əldə edildi. Cəmiyyət dərin böhrandan çıxmaq, cəmiyyət həyatının bütün sahələrində köklü islahatlara başlamaq, davamlı inkişaf yoluna çıxmaq üçün müqəddəm şərtlər yarandı.

Şübhəsiz yeni müstəqil dövlətin həyatında ən əlamətdar hadisələrdən biri 1994-cü ilin sentyabrında xarici neft şirkətlərinin iştirakı ilə ilk neft müqaviləsinin - "Əsrin müqaviləsi"nin imzalanması idi. Azərbaycan iri regional qüvvələrin ciddi təzyiqləri ilə üzləşdi. Həmin qüvvələr müqavilənin reallaşması, eləcə də sonralar Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısını almaq üçün hər vasitədən istifadə etdilər. Amma Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti bu maneələri məharətlə aradan qaldırdı və nəticə etibarilə Xəzər hövzəsində gərginliyə son qoyuldu, əməkdaşlıq mühiti yarandı. Milli iqtisadiyyatın lokomotivi olan neft sənayesi müstəqil ölkə üçün böyük perspektivlər vəd edirdi. Heydər Əliyevin müəllifi olduğu milli neft strategiyası sonrakı illərdə böyük uğurla həyata keçirildi və bütövlükdə iqtisadiyyatın dirçəlməsinə, ölkənin müstəqilliyinin möhkəmlənməsinə, dünya iqtisadiyyatına inteqrasiyasına, dövlətin beynəlxalq aləmdə, ilk növbədə Avropada nüfuzunu artırmasına şərait yaratdı.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirib, ölkəmizin iqtisadi qüdrətini, gücünü artırıb. Ölkə rəhbərinin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır.

Ötən on beş il ərzində infrastrukturun yenidən qurulması və inkişafı, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu, Azərbaycanın öz iqtisadiyyatını sadəcə neft amili üzərində qurmadığını, əldə olunmuş uğurlu nəticələrdə qeyri-neft sektorunun da mühüm paya malik olduğunu təsdiqləmişdir. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində ölkəmizdə qeyri-neft sektorunun dinamik inkişafı davam etmişdir.

Yeni keyfiyyət mərhələsinə qədəm qoymuş və özündə modernləşdirmə və rifah amillərini birləşdirən Azərbaycanın inkişafı nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. İyirmi yeddi il müstəqillik yolunda inamla, qətiyyətlə irəliləyən ölkəmiz artıq dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulub. SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş müttəfiq respublikalarla müqayisədə Azərbaycan sürətli inkişaf edib, bəzi sahələr üzrə təkcə regionda deyil, dünyada öncül yerlərdədir. Bu uğurlar ildən-ilə daha da artıb, əhəmiyyətli islahatlar aparılıb və ölkəmiz iqtisadiyyatın inkişaf tempinə görə dünyada lider dövlətə çevrilib.

Son 15 ildə ulu öndər Heydər Əliyevin parlaq ideyaları Azərbaycanın mayakı olub və xalqımızın, dövlətimizin yolunu işıqlandırıb. Bəhs olunan dövrdə ümummilli lider Heydər Əliyevin yolu ilə gedən respublikamız böyük uğurlara imza atıb, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayıb. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, o cümlədən də bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verib: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşayıb. Ölkəmizdə dövlət başçısının qətiyyəti sayəsində daxili risklərin hamısı aradan qaldırılıb, eyni zamanda, Azərbaycan xarici risklərdən də özünü qoruya bilib, bu gün də qoruyur və heç bir şübhə yoxdur ki, bundan sonra da qoruyacağıq. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. "Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Demokratik dövlət quruculuğunu hədəfləyən və buna ölkə Prezidenti səviyyəsində böyük siyasi iradə göstərən Azərbaycanda ötən 15 il ərzində demokratik inkişaf çox sürətlə gedib, respublikamızda bütün azadlıqlar təmin edilib. Ölkəmizin demokratik inkişaf yoluna diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir: "Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir".

Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan demokratik inkişaf yolunu heç də kimə isə xoş gəlmək üçün seçməyib. Ölkəmiz demokratiyaya ona görə sadiqlik nümayiş etdirir ki, respublikada siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir. Azərbaycan daha qüdrətli ölkəyə çevriləcək.

Bəhs olunan dövrdə bütün dünyada iqtisadi cəhətdən Azərbaycan kimi dinamik inkişaf edən ölkələrin sayı çox az olub. Son 15 il ərzində iqtisadiyyatımız 3,2 dəfə artıb ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur. Həyata keçirilən davamlı dəstək tədbirləri, aparılan məqsədyönlü islahatlar sayəsində qeyri-neft iqtisadiyyatımız 2,8 dəfə artıb. O cümlədən qeyri-neft ixracı 4,1 dəfə artıb. Bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının təxminən 70 faizi Azərbaycanın payına düşür.

Bu gün mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Heydər Əliyevin şah əsəri olan Müstəqil Azərbaycanı qoruyub yaşatmaq isə hər bir Azərbaycan vətəndaşının borcudur. Göründüyü kimi, Heydər Əliyev ideyaları daim yaşayır və müstəqil Azərbaycan dövləti, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə daha xoşbəxt gələcəyə doğru inamla gedir.

Respublika.-2018.-11 oktyabr.-№227.-S.6.

Müstəqilliyimizin, monolit birliyimizin, iqtisadi inkişafımızın təməl günü

Xuraman İsmayılqızı

Dövlətçilik salnaməmizə Azərbaycan xalqının xilas günü kimi yazılan 3 oktyabr 1993-cü il haqqın, ədalətin, liderə xalq məhəbbətinin ifadəsi idi. Həmin gün Azərbaycan xalqı öz öndərinin simasında əbədi liderini seçdi. Hakimiyyətinin birinci dövründə Azərbaycanı aqrar ölkədən inkişaf etmiş sənaye respublikasına, Qırmızı bayraqlar diyarına çevirən ulu öndər Heydər Əliyev həmin gün xalq qarşısındakı məsuliyyətinin, öhdəliyinin taleyüklü vəzifə olduğunu uzaqgörən siyasəti ilə hiss etdi. Vəzifə isə düşünüldüyündən də çətin, amma şərəfli idi: Ölkəmizin gələcəyi üçün mühüm dönüş olan Azərbaycanın müstəqilliyini, suverenliyini, bir sözlə, varlığını qorumaqla ümidsizliyə qapılan insanların ürəyində sabaha inam hissini gücləndirmək. Prezident seçkisində ümumxalq etimadını milyonların yekdil səsi ilə qazanan Ulu Öndər xilaskarlıq missiyasına xalqın xeyir-duası ilə başladı.

Ağır günlərdə xalqa arxa, dayaq olan, cəsarətli addımları ilə liderlik zirvəsinə yüksələn, erməni lobbisinin planına uyğun Kremldən uzaqlaşdırılsa da Moskvada fərdi təqaüdçü olduğu dövrdə belə Azərbaycanın taleyini düşünürdü. Təzyiq və təhdidlərə məruz qaldığı zaman Azərbaycana qarşı törədilən və siyasi təcavüz olan 20 Yanvar faciəsindən sonra sovet hökumətinin törətdiyi cinayəti rəsmən pisləndi, Kommunist Partiyası sıralarından çıxdı.

Qəlbi Azərbaycan xalqı ilə bir döyünən Ulu Öndərin Bakıya, sonra Naxçıvana dönüşü milli müstəqilliyimizin kövrək addımları kimi yadda qaldı. Siyasi fəaliyyətinin Naxçıvan dövrünü müstəqilliyə aparan yolun başlanğıcı adlandıranlar Ulu Öndərin o illərdə qəbul etdiyi qərarları Azərbaycanın varlığını təsdiqləyən addımlar kimi dəyərləndirirlər. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları- bayrağı, gerbi, himni uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə bərpa olundu. Ölkənin inkişafını şərtləndirən bazar iqtisadiyyatına keçidin ilk mərhələsi olan özəl bölmənin, sahibkarlığın təməli qoyuldu. Ermənistan tərəfindən blokadaya alınan Naxçıvanı çətin vəziyyətdən qurtarmaq üçün qonşu İran və Türkiyə ilə əlaqələr yaratdı. «Ümid» körpüsünün inşası ilə qardaş Türkiyə ilə münasibətlər möhkəmləndi. İrandan, Türkiyədən alınan enerji ilə insanların ehtiyacları ödənildi. Dünya dövlətlərini təmsil edən KİV-lərin əməkdaşları Azərbaycanla bağlı həqiqətləri Ulu Öndərdən öyrənmək üçün Naxçıvana üz tuturdular. Naxçıvanda olarkən daxili düşmənlərin bəd niyyətli , qərəzli əməllərinin qarşısını almaqla da suverenliyimizin əbədiliyini təmin etdi. Dövlət çevrilişlərinə cəhdlərin qarşısını elə xalqa arxalanaraq alan ulu öndər Heydər Əliyev dəfələrlə Azərbaycanı dağılmaq təhlükəsindən xilas etdi.

Xalqın liderinə olan el məhəbbəti, inamı o dövrdə hakimiyyətdə olan AXC-Müsavat iqtidarını narahat edirdi. Bu cütlüyün hakimiyyətinin Azərbaycanı məhvə apardığını hiss edən insanlar Ulu Öndərə müraciət edərək ondan imdad diləyirdilər. Həmin dövrdə Gəncədə baş verən qarşıdurmadan qorxan səbatsızlar da Ulu Öndərdən yardım istədilər. Canından artıq sevdiyi Azərbaycanı gözləyən fəlakətlərin qarşısını almaq üçün Bakıya gələn Ulu Öndər heç bir dövlət başçısının, siyasətçinin öhdəsindən gələ bilməyəcəyi məsuliyyəti boynuna götürərək ölkəni vətəndaş müharibəsindən xilas etdi. Həmin hadisələrin şokunu yaşayan milyonlar ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasının əbədiliyini birlik və həmrəylikləri ilə təsdiqlədilər. Ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gəlməsi tələbi ilə ayağa qalxdı. «Azərbaycan xalqı xoşbəxt həyata layiq idi. Azərbaycan xalqı 1991-1992-ci illəri, 1993-cü ilin əvvəllərini yaxşı xatırlayırdı. Azərbaycanı kimlər idarə edirdi? Hansı səviyyəsiz qüvvələr hakimiyyət başına gəlmişdilər? Əslində hakimiyyəti zorla zəbt etmişdilər. O, tariximizin qara səhifələridir. Səriştəsizlik, bacarıqsızlıq, mədəniyyətsizlik, cəsarətsizlik, qorxaqlıq, riyakarlıq - bu idi o vaxt Azərbaycan rəhbərliyini əks etdirən epitetlər. Azərbaycan xalqı istəmirdi ki, yenə o qara günlər qayıtsın. İstəyirdi ki, insanlar rahat yaşasınlar, ölkəmiz inkişaf etsin, sabitlik pozulmasın. Düzgün seçim edərək bir daha Heydər Əliyev siyasətinə səs verdi və əminəm, bu gün bütün Azərbaycan xalqı bir daha görür ki, nə qədər düzgün bir seçim edib» söyləyən Prezident İlham Əliyev o illəri belə xarakterizə edir.

Azərbaycanın o zamankı səbatsız rəhbərləri Heydər Əliyev fenomeni qarşısında acizliklərini hiss edərək xalqın tələbi ilə ONU rəsmən Bakıya dəvət etdilər. Ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıtdı, 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi.

«1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərksilah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi» söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanın müasir tarixi Heydər Əliyevin doğma torpağa möhtəşəm qayıdışından sonra başlayıb. Ulu Öndərin qayıdışı ilə monolit birliyimizin, iqtisadi inkişafımızın əsası qoyuldu. Bütün sahələrdə əmin- amanlığın, sabitliyin təmin olunması, tənəzzülün qarşısının

alınması, islahatların həyata keçirilməsi, iqtisadiyyatın dirçəlməsi ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin, fədakarlığının bilavasitə nəticəsi olmaqla digər sahələrin tərəqqisinə, vətəndaş cəmiyyətinin qurulmasına da təkan vermişdir. Ulu öndər Heydər Əliyevin tarixi qayıdışının nəticəsi dünyanın ən dinamik inkişaf edən olkəsi kimi tanınan bugünkü müasirləşən, yeniləşən, dünyada mövqeləri möhkəmlənən, müstəqilliyini qoruyan Azərbaycandır. O Azərbaycan ki, beynəlxalq aləmdə mövqeləri möhkəmlənməklə ən mötəbər təşkilatlarda söz sahibidir. Regionun ən qüdrətli , güclü dövlətinə çevrilib.

Tariximizə Qayıdış, Milli Qurtuluş Günü kimi yazılan 15 iyunun zəfəri bununla bitmədi. Ulu Öndər iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini yerinə yetirməyə başladı. Xalq isə respublikaya rəhbərliyin rəsmi olaraq Ulu Öndərə tapşırılmasını Azərbaycanın müstəqilliyinin qarantı hesab edərək bu tələbində haqlı olduğunu prezident seçkisində Ümummilli Liderə göstərdiyi etimadı ilə təsdiqlədi.

1993-cü il oktyabrın 3-də milyonların etimadı nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. 10 oktyabr 1993-cü ildə, Azərbaycan xalqının həyatının ən mürəkkəb dövründə, XX əsrin sonunda dünyada köklü dəyişikliklərin baş verdiyi siyasi proseslərdən yaranan qlobal problemlərin artdığı bir zamanda üzərinə götürdüyü məsuliyyətin ağırlığından çəkinməyərək bütün həyatını xalqının etimadını doğrultmaq üçün sərf edəcəyini bildirən Heydər Əliyev Azərbaycan bayrağını öpüb and içərkən ilk növbədə Azərbaycan xalqının ağlına, zəkasına, qüdrətinə inandığını bildirdi: «Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.»

1993-cü ildə hakimiyyətə qayıdan ümummilli liderHeydər Əliyev siyasi bacarığı, müdrikliyi ilə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas etdi və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib hər kəsin qəlbində sabaha inam hissi yaratmağı bacardı. 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Ulu Öndərin qətiyyəti sayəsində alındı, dövlət müstəqilliyi qorunub saxlanıldı.

Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir imkanları böyük olan Heydər Əliyev həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Azərbaycançılıq fəlsəfəsinə, milli ideologiyaya bağlılığı və dərin zəkası, təfəkkürü ilə ölkəmizin dünyada rolunu və geosiyasi əhəmiyyətini müəyyən etmiş Ulu Öndər milli dövlətçiliyimizin bünövrəsini möhkəmləndirmiş, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Bu ideyalar Azərbaycan xalqının dövlətçilik ənənələri ilə sıx bağlı olub milli ruhun, özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qayıtması, müstəqil ideyalarının gerçəkləşdirilməsi üçün zəmin yaratmış, hərəkətverici qüvvəyə çevrilmişdir.

Bazar iqtisadiyyatı yolu ilə dünya birliyinə inteqrasiyanı Azərbaycanın inkişaf strategiyası kimi təkmilləşdirən, iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsində olan respublikanı yaranmış ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu tapan, iqtisadi inkişafın prinsipial, konseptual yanaşma yollarını müəyyənləşdirən Heydər Əliyev bildirirdi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir. 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» adlandırılan ilk neft müqaviləsinin imzalanması, onun gerçəkləşdirilməsi BTC, BTƏ neft-qaz kəmərlərindən sonra «Cənub Qaz Dəhlizi», TANAP, TAP haqqında deyilən hər xoş söz, Azərbaycanın liderlik rolunun etirafı o illərdə Ulu Öndərin çəkdiyi zəhmətin bəhrəsidir. Dünyanın ən iri şirkətlərinin müharibə şəraitində yaşayan Azərbaycana, belə möhtəşəm layihələrə marağının artması düşünülmüş siyasətin, ulu öndər Heydər Əliyev qətiyyətinin, düşüncəsinin, uzaqgörənliyinin məntiqi nəticəsi idi. Azərbaycana investisiya axınının əsasını qoyan ulu öndər Heydər Əliyev geosiyasi baxımdan əlverişli ərazidə yerləşən respublikamızın iqtisadi-sosial, elmi, texniki mədəni inkişafı üçün zəmin yaratdı. Sərmayələr nəzərdə tutulan proqramların, iqtisadi islahatların həllinə yönəldildi.

Bu gün Azərbaycan enerji resursları ilə Avropa ölkələrinin yanacağa tələbatının 30-40 faizini təmin edirsə, bu nailiyyət Ulu Öndərin hazırladığı neft strategiyasının uğurudur. Enerji layihələrinin alternativ, şaxələndirmə prinsipinə uyğun həyata keçirilməsində maraqlı olan Azərbaycan bu strategiyanın tətbiqi nəticəsində dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkəsi kimi maraq doğurur.

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın müstəqilliyini istəməyən dairələrin planlaşdırdıqları oyunlara, anarxiya və ekstremist hallara son qoyulmuş, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuş, mütəşəkkil ordu yaradılmış, bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması təmin edilmişdir.

Dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi, Milli Konstitusiyanın qəbulu, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər Heydər Əliyev fenomeninin adı ilə bağlıdır. Prezident İlham Əliyevin davam etdirdiyi siyasət nəticəsində ümummilli lider Heydər Əliyevin ideyaları reallaşdı. Azərbaycan hazırda dünyanın ən nüfuzlu təşkilatların etibarlı üzvü kimi qarşılıqlı əməkdaşlıq prinsiplərinə sadiqliyini əməli fəaliyyəti ilə doğruldur. Tolerant ölkə kimi diqqət çəkir,

sivilizasiyalararası dialoq məkanı kimi də tanınır. Ulu Öndərin adını daşıyan Fondun layihələri beynəlxalq səviyyədə dəstəklənir.

İki sahil. - 2018.- 3 oktyabr. - № 186. - S. 3.

Müstəqil siyasətin qətiyyətli ifadəsi

İlham Əliyevin son iki həftədə keçirdiyi mühüm görüşlər Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanması ilə bağlı aparılan danışıqlara töhfə verdi

R.Baxşəliyev

Müstəqil Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri, təbii ki, Avropa İttifaqı ilə tərəfdaşlıqdır. Son 15 ildə həyata keçirilən müstəqil siyasət, milli maraqlara əsaslanan uğurlu diplomatiya sayəsində Azərbaycan qlobal məkanda strateji əhəmiyyətli dövlətə çevrilib. Bunun nəticəsidir ki, Azərbaycan Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda böyük təcrübəyə malikdir. Ölkəmiz demək olar ki, qurumun üzvü olan dövlətlərin üçdə biri ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. Bununla yanaşı, Azərbaycan Avropanın enerji təhlükəsizliyi və təchizatının şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Bütün bunların isə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin imzalanmasına müsbət təsir göstərdiyini əminliklə söyləyə bilərik.

Avropa İttifaqı iqtisadiyyatımıza 20 milyard dollardan çox investisiya yatırıb

Ötən ilin fevral ayından Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq yeni sazişlə bağlı fəal danışıqlara başlanılıb. Noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində çıxış edən Prezident İlham Əliyev Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu və idxal-ixracatın 50 faizinin üzv ölkələrlə olan ticarətin təşkil etdiyini vurğuladı: "Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox investisiya yatırılıb. Bu, bizim yaxşı investisiya mühitinə malik olduğumuzu nümayiş etdirir. Avropa şirkətləri bizim iqtisadiyyatımızı dəstəkləmək üçün çox maliyyə vəsaiti yatırmağa hazırdır. Eyni zamanda, biz üzv dövlətlərlə ikitərəfli formatda əlaqələrimizi fəal şəkildə inkişaf etdiririk. Azərbaycan Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq bəyannamələri qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv ölkələrin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, gənc müstəqil ölkə üçün çox vacibdir və əlbəttə ki, biz Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək razılaşmanı strateji əlaqələrin gücləndirilməsində daha bir mühüm mərhələ hesab edirik".

"Tərəfdaşlıq prioritetləri" əlverişli imkanlar yaradacaq

Son iki həftə ərzində Azərbaycanın siyasi həyatında baş verən proseslər yeni sazişin imzalanması istiqamətində aparılan danışıqlara böyük töhfə verdi.

Öncə Prezident İlham Əliyev iyulun 11-də Brüsselə səfər edərək Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla görüşdü. Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı.

Görüşdən sonra "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi oldu. Bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını müəyyənləşdirdi.

"Tərəfdaşlıq prioritetləri" 2018-2020-ci illəri əhatə edir və tərəfdaşlığın bərabərhüquqlu, qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Bu sənəd Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan vermiş oldu.

İtaliya imzalanacaq yeni sazişlə bağlı danışıqlarda fəal rol oynayır

Ötən həftə Prezident İlham Əliyevin Avropa İttifaqının üzvü olan iki böyük dövlət - İtaliya və Fransa prezidentləri ilə keçirdiyi görüşlər, imzalanan sənədlər də Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar yaratdı.

İyulun 18-də İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana səfər etdi və bu ölkənin respublikamıza rəsmi səfərə gələn ilk dövlət başçısı kimi tarixə düşdü. Bakıda Azərbaycan-İtaliya biznes forumu baş tutdu, yeni sənədlər imzalandı və bəyan edildi ki, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır.

Onu da vurğulayaq ki, İtaliya hazırda ATƏT-in sədridir. İki ölkə arasında olan strateji tərəfdaşlıq münasibətlərini əsas gətirən Sercio Matterella da bəyan etdi ki, İtaliya ATƏT-də sədrliyi çərçivəsində Azərbaycana öz töhfəsini verəcək.

Nəzərə alaq ki, İtaliya Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq sazişlə bağlı danışıqlarda çox fəal rol oynayır. İki ölkə arasındakı strateji tərəfdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoymasına, yeni sazişin imzalanmasına öz töhfəsini verəcək.

Fransa ölkəmizin Aİ ilə münasibətlərinin inkişafında maraqlıdır

İyulun 19-da isə İlham Əliyev Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkədə ikigünlük işgüzar səfərdə oldu. İki ölkə arasında bir neçə mühüm sənəd imzalandı.

Dövlət başçısı bu ölkənin dünyaca məşhur 11 şirkətinin nümayəndələri ilə görüşlər keçirdi və bu görüşlərdə ölkəmizin neft-qaz sənayesi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik və digər müxtəlif sahələrinin inkişaf istiqamətlərindən söz açıldı, həmçinin bəzi sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə edildi.

Əlbəttə ki, Azərbaycan Prezidentinin Fransaya səfəri ikitərəfli iqtisadi, siyasi və humanitar əməkdaşlıq əlaqələrinin yeni səviyyəyə yüksəlişi üçün mühüm əhəmiyyətə malikdir. Onu da nəzərə alaq ki, Fransada böyük erməni lobbisi fəaliyyət göstərir. Prezident İlham Əliyevlə fransalı həmkarı arasında şəxsi münasibətlərin pozitiv məcrada dərinləşməsi əlbəttə ki, erməni lobbisini təşvişə salmaya bilməzdi. Çünki bu görüşün həm Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanmasına, həm də ATƏT-in Minsk qrupu həmsədri olan Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair münasibətinə müsbət mənada təsirsiz ötüşməyəcəyi hər kəsə bəllidir. Təbii ki, bu da təkcə Fransadakı erməni lobbisini deyil, Ermənistanda da ciddi narahatçılıq yaratmış oldu. Hətta erməni KİV-i Fransanı Azərbaycanla yaxınlaşmaqda günahlandıraraq öz qorxularını gizlədə bilmədilər.

Yeni saziş siyasi, iqtisadi və humanitar sahələri əhatə edəcək

Azərbaycan və Avropa İttifaqı arasında 1996-cı ildə imzalanmış "Tərəfdaşlıq və əməkdaşlıq haqqında" saziş ikitərəfli münasibətlərin hüquqi bazasının formalaşdırılması baxımından da vacib əhəmiyyət daşıyıb. Qurum Azərbaycana regionun lider dövləti kimi yanaşır və respublikamızda həyata keçirilən iqtisadi-siyasi və hüquqi islahatları yüksək qiymətləndirir.

Hazırda isə Azərbaycan Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzərində işləyir. Bu saziş bir sıra sahələri əhatə edəcək. Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində tərəfdaşlıq sazişini də artıq imzalayıb. Yeni saziş isə siyasi, iqtisadi və humanitar sahələri də əhatə edəcək.

Azərbaycanla qurum arasında əməkdaşlığın əsas istiqamətlərindən biri enerji sahəsində dialoqun təşkilidir. 7 noyabr 2006-cı il tarixində Azərbaycan Prezidentinin Brüsselə səfəri zamanı imzalanmış "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" tərəflər arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni imkanlar yaradıb.

Azərbaycan bir çox Avropa ölkələrini neftlə təchiz edir və 2020-ci ildən isə "Cənub qaz dəhlizi" vasitəsi ilə həmin ölkələri təbii qazla təchiz edəcək.

Bununla yanaşı Azərbaycan Avropa üçün əhəmiyyətli nəqliyyat dəhlizi rolunu oynayır. Asiyanı Avropa ilə birləşdirən yeni marşrutun, Şərqlə Qərb arasında körpü rolunu oynayacaq nəqliyyat dəhlizinin istifadəyə verilməsi Avropadan Asiyaya və geriyə malların daşınması vaxtını iki dəfə qısaldacaq. Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi də Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafına müsbət təsir göstərib. Bu layihə bilavasitə Avropa İttifaqının da maraqlarına uyğundur.

Ümumiyyətlə, ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün də Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafı önəmlidir. Bu əlaqələr qarşılıqlı maraqlara söykənir. Avropa İttifaqı Azərbaycanı bir tərəfdaş kimi qəbul etməklə, eyni zamanda ölkəmizin dəyərlərinə böyük qiymət verir.

Uğurlu xarici diplomatiyanın real mənzərəsi

Xatırladaq ki, iyulun 8-də Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da bu məsələyə toxunmuşdu. Dövlət başçısı bildirmişdi ki, Avropa İttifaqı ilə Azərbaycan yeni saziş üzərində işləyir. Avropa İttifaqına üzv ölkələrin üçdə bir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlərin mövcudluğu onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir.

Beləliklə, Prezident İlham Əliyevin Brüsseldə Donald Tuskla görüşü, "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması, İtaliya və Fransa prezidentləri ilə keçirilən mühüm görüşlər ən başlıcası Azərbaycanın uğurlu xarici diplomatiyasına böyük töhfə vermiş oldu.

Həm İtaliya, həm də Fransa Avropa İttifaqının aparıcı ölkələridirlər. Azərbaycan dövlətinin xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı

əməkdaşlıq kimi meyarlar öndə dayanır. Bu amillər isə regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə böyük töhfədir.

Bu bir həqiqətdir ki, son 15 ildə Prezident İlham Əliyev düşünülmüş, dinamik xarici siyasət həyata keçirir və Azərbaycan qarşılıqlı faydalı əməkdaşlığa söykənən, bir-birinin daxili işlərinə qarışmama prinsipinə əsaslanan siyasətin tərəfdarıdır.

Son iki həftə ərzində beynəlxalq münasibətlərdə və xarici siyasətimizdə əldə edilən uğurlu nəticələri detalları ilə bir yerə toplayaraq bütövlükdə vahid geostrateji tablonu yaratmağa çalışsaq, aydın şəkildə görərik ki, bütün danışıqlar Azərbaycan-Avropa İttifaqı arasında münasibətlərin daha da şaxələnməsinə müsbət təsirini göstərəcək.

Azərbaycan.-2018.-26 iyul.-№164.-S.1-2.

İqtisadi və siyasi müstəqillik güclü Azərbaycanın zəminidir

Rəşad Baxşəliyev

"Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmayıb. İqtisadiyyatımız üç dəfədən çox artıb. Aparıcı beynəlxalq təşkilatlar, Davos İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb, inkişaf edən ölkələr arasında isə biz 3-cü yerdəyik".

Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Prezident İlham Əliyevin söylədiyi bu fikirlər dahi liderin yolu ilə irəliləyən Azərbaycanın son 15 ildə qazandığı tarixi nailiyyətləri bir daha aydınlaşdırdı.

Azərbaycandakı sabitliyin təminatçısı xalqdır

15 il öncə, 2003-cü ildə keçirilən prezident seçkiləri ərəfəsində xalqa verdiyi sözü bir daha xatırlayan cənab İlham Əliyev bu müddət ərzində yerinə yetirilməyən bir vədin də qalmadığını söylədi: "Söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcək. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır".

Prezident həmçinin son zamanlar dünyada baş verən qlobal proseslərin, yeni münaqişələrin, vətəndaş müharibələrinin başvermə səbəblərinə də toxunaraq qeyd etdi ki, bunun səbəbi hakimiyyətin düzgün siyasət aparmaması, insanları narahat edən problemləri həll etməməsidir. İqtisadi inkişafı təmin edə bilməyən istənilən dövlət böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit, uğurla inkişaf edən ölkələrdən biridir.

Valyuta ehtiyatlarımız xarici borcdan 5 dəfə böyükdür

Bu gün həqiqətən Azərbaycan tam müstəqil siyasət yürüdən ölkə kimi inkişaf edir. Ölkədə təmin olunan sabitlik 15 il ərzində iqtisadiyyata 231 milyard dollar investisiyanın yatırılmasını şərtləndirib. Son 15 ildə ölkəmizdə 642 tibb müəssisəsi, 43 olimpiya idman kompleksi, 443 körpü-tunel, 3100-dən çox məktəb inşa edilib. Bununla yanaşı, 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin olunub, 30 elektrik stansiyası, 4 su anbarı və 7 hava limanı tikilib.

Qazlaşdırmanın 93 faizə, fasiləsiz içməli su ilə təminatın 26 faizdən 67 faizə çatması, ucqar kəndlərdə belə elektrik enerjisinin olması deyilənləri bir daha təsdiqləyir ki, ölkədə heç bir sosial layihə təxirə salınmayıb.

Azərbaycanın çox böyük iqtisadi resurslarının olduğunu söyləyən dövlət başçısı vurğuladı ki, ölkənin valyuta ehtiyatları xarici borcdan 5 dəfə böyükdür. Azərbaycanda yoxsulluqla, işsizliklə mübarizə gözəl nəticələr verir. Bu böyük sosial problemlərin həlli işində böyük uğurlar əldə edilib.

Son 3 ayda iqtisadiyyata 3,5 milyard dollar sərmayə qoyulub

İlk 3 ayda əldə edilən uğurlar isə onu deməyə imkan verir ki, Azərbaycan sürətli inkişaf ilində artıq bir çox uğurlara imza atıb.

Belə ki, 3 ayda ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulub, iqtisadiyyat 2,3 faiz, qeyri-neft sektoru 3 faiz, sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10 faiz, kənd təsərrüfatı 4,2 faiz artıb.

Ölkənin valyuta ehtiyatları 2,2 milyard dollar artaraq 44,2 milyarda yüksəlib və xarici ticarət dövriyyəmiz 31 faiz artıb, ümumi ixrac 24 faiz, qeyri-neft ixracı isə 37 faiz yüksəlib.

3 ayda 34 min yeni iş yeri yaradılıb ki, onlardan 31 mini daimi iş yeridir, əhalinin gəlirləri təxminən 10 faiz artıb. İnflyasiya cəmi 4 faiz olub və sahibkarlara 28 investisiya təşviqi sənədi verilib.

Bu müddətdə Mingəçevir Sənaye Parkında 2 böyük iplik fabriki, Neftçala Sənaye Məhəlləsində avtomobil zavodu fəaliyyətə başlayıb. Mingəçevir şəhərində "ASAN Həyat" kompleksi istifadəyə verilib və Qəbələ şəhərinə dəmir yolunun çəkilişlərinə başlanılıb.

Əlbəttə ki, bütün bunlar dövlət başçısının şəxsi nəzarəti ilə həyata keçirilən layihələrin tərkib hissəsidir və ilin sonunadək daha böyük uğurlar qazanılacaq.

Son 15 ildə Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasət həm də Azərbaycanı dünya birliyində etibarlı tərəfdaşa, böyük nüfuza malik olan ölkəyə çevirib. Azərbaycanın həm də bir çox ölkələrlə bərabərhüquqlu, konstruktiv münasibətləri mövcuddur.

Dövlət başçısı istənilən məsələ ilə bağlı hər zaman qətiyyətli mövqeyini ortaya qoyaraq həm də Azərbaycan həqiqətlərini dünyaya çatdırır: "Biz prinsipial mövqeyimizdən heç vaxt bir addım geri atmırıq. Tərəfdaşlarımızla

qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər, düzgün xarici siyasət bizə imkan verir ki, həm beynəlxalq arenada öz gücümüzü, təsir imkanlarımızı artıraq, eyni zamanda, daxili problemləri, xüsusilə iqtisadi inkişafla bağlı olan problemləri həll edək".

Müstəqillik ən böyük sərvətimizdir

Azərbaycan dövlətinin möhkəm əsaslar üzərində qurulduğunu, 15 il ərzində milli dəyərlərimizlə bağlı çox ciddi siyasət aparıldığını vurğulayan cənab İlham Əliyev onu da diqqətə çatdırdı ki, milli dəyərlərimiz hər zaman dövlət üçün əsasdır. Bu gün gənc nəslin milli ruhda tərbiyə olunması və milli ləyaqət hislərinin güclənməsi isə böyük uğur hesab oluna bilər. Çünki belə olan halda müstəqillik ən böyük sərvət kimi cəmiyyət tərəfindən qəbul edilir və dəstəklənir.

Bütün bunlarla yanaşı, Azərbaycan həm də dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilib. Ölkəmizdə bütün xalqların, dinlərin nümayəndələri Azərbaycan səması altında bir ailə kimi, sülh, mehribanlıq, dostluq şəraitində yaşayırlar. Bu da qazanılan böyük sərvət və aparılan siyasətin uğurudur.

Enerji idxal edən ölkə bu gün əsas neft-qaz ixracatçısına çevrilib

Cənubi Qafqazın lider ölkəsi statusuna sahiblənən Azərbaycan regionda bir çox transmilli layihələrin təşəbbüskarı və birbaşa iştirakçısıdır. Azərbaycan reallaşdırdığı layihələrlə Avropanın enerji təhlükəsizliyini təmin edir.

Bir vaxtlar elektrik enerjisi idxal edən ölkə bu gün dünyanın əsas enerji ixracatçısıdır. Azərbaycanın Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrildiyini söyləyən dövlət başçısı vurğuladı ki, bu gün "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri ölkəmizin böyük sərmayələri ilə həyata keçirilir: "Biz energetika, nəqliyyat sahələrində tarixi layihələr icra etmişik və onların icrası davam edir. Biz ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı məsələləri tam şəkildə həll etdik. Gələcəkdə Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılması ilə bağlı böyük layihələrin başa çatması gözlənilir".

2018-ci il ən uğurlu inkişaf ili kimi tarixə yazılacaq

Son 15 il ərzində Prezident İlham Əliyevin məqsədyönlü, düşünülmüş siyasəti ilə kifayət qədər böyük uğurlar, nailiyyətlər qazanan və bu gün də bütün istiqamətlər üzrə inkişaf edən Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Dərin və universal böhrandan çıxaraq cəmi 26 il ərzində kosmik dövlətlər sırasına daxil olan, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin qalasına çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası ilə daha da qüdrətli dövlətə çevrilmək istiqamətində inamla addımlayır.

2018-ci ilin sürətli inkişaf ili olacağını söyləyən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi-iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Son 4 ayın yekunları onu deməyə əsas verir ki, 100 yaşını qeyd edən müstəqil Azərbaycan üçün 2018-ci il ən uğurlu inkişaf ili kimi tarixə yazılacaq.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan bundan sonra da daim irəli gedəcək: "Biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik. Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik".

Azərbaycan. - 2018.- 5 iyun. - № 125. - S. 1,4.

Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir

Kərimova Tamilla Hüseynbala qızı,
Bakı şəhəri 46 saylı notariat kontorunun xüsusi notariusu

Azərbaycanın siyasi və dövlətçilik tarixinin mühüm səhifələrindən birini Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması və fəaliyyəti təşkil edir. Bu tarixi reallıq Azərbaycanın zəngin dövlətçilik ənənələrinə malik olduğunu göstərməklə yanaşı, xalqımızın Şərqdə ilk demokratik respublika və Türk dünyasında ilk dünyəvi dövlət qurması gerçəkliyini ifadə edir. Bu həm də o deməkdir ki, Şərqdə demokratiyanın əsası Azərbaycan xalqı tərəfindən qoyulmuşdur. AXC-nin yaradılması xalqımızın milli kimliyinin, hansı ideyalarla yaşamasının son dərəcə parlaq təcəssümü idi. Bu ideyalar, demokratik prinsiplərə sadiqlik, insan hüquq və azadlıqlarının ən yüksək səviyyədə qorunması məqsədləri 1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən Azərbaycan Milli Şurasının tarixi iclasında qəbul edilən İstiqlal Bəyannaməsində də aydın şəkildə əksini tapmışdır. Sənəddə göstərilirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, təbəqəsindən və cinsindən asılı olmayaraq, öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

AXC qısa müddətdə genişmiqyaslı islahatlar həyata keçirdi və demokratik idarəetmə sistemi formalaşdırdı

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olsa da, dövlətçilik baxımından bu qısa müddət ərzində genişmiqyaslı demokratik islahatlar həyata keçirdi, müxtəlif sahələri əhatə edən çoxsaylı qanunlar qəbul etdi. Xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verdi, irqi, milli, dini, sinfi bərabərsizliyi aradan qaldıraraq demokratik idarəetmə sistemi formalaşdırdı. Şübhəsiz, Cümhuriyyətin demokratik ənənələrindən bəhs edərkən 1918-ci ilin dekabr ayında təntənəli açılışı olan Azərbaycan parlamentinin fəaliyyətini mütləq qeyd etməliyik. Bu, bütün müsəlman Şərqində o dövrün demokratik prinsipləri əsasında formalaşdırılan ilk parlament olmuşdur. Parlament qəbul etdiyi qərarlarla milli dövlətçiliyin əsaslarının formalaşdırılması, siyasi və iqtisadi inkişafın təmin olunmasına xidmət etdi.

Milli ordumuzun yaradılması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, teatr və kitabxanaların fəaliyyətə başlaması, ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan dövlət bayrağının qəbul edilməsi, mətbuat sahəsində senzuranın ləğv olunması və bu kimi digər tarixi əhəmiyyətə malik olan islahatların aparılması milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsinə müstəsna töhfələr verdi. Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçib-seçilmək hüququ verərək bu məsələdə də bir çox dövlətlərə öncüllük etmişdir. AXC bu inqilabi qərarı verərkən Qərbdə bir çox dövlətlər qadınların ən adi hüquqlarını belə məhdudlaşdırmaq yolunu tutmuşdular.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ayda həm də xalqımızı dünyaya tanıtmaqla mühüm bir tarixi missiyanı həyata keçirmişdir. O dövrdə yürüdülən xarici siyasətin ən önəmli uğurlarından biri kimi, Versal Ali Şurası tərəfindən 1920-ci ilin yanvarında Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınmasına nail olunması Cümhuriyyətin dünya ictimaiyyəti tərəfindən de-fakto tanınması anlamına gəlirdi. Artıq 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti 20-dən çox ölkə ilə diplomatik əlaqələr yaratmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti bütün digər sahələrdə olduğu kimi, iqtisadi sferanı da əhatə edən çoxsaylı qərarlar qəbul etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyət göstərdiyi müddət ərzində maliyyə, vergi, bank sahələrini əhatə edən 82-dən çox qanun layihəsi hazırladı və onların böyük əksəriyyətini qəbul etdi. Bu dövrdə qəbul olunan ən mühüm qərarlardan biri də milli pul vahidinin buraxılması idi. Şübhəsiz, müstəqil dövlətin atributu olaraq, milli pul vahidinin buraxılması çox mühüm bir məsələ kimi qiymətləndirilməlidir. Bunun ardınca, Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açıldı və bu da pul maliyyə sisteminin daha da inkişaf etdirilməsinə mühüm töhfə verdi. Bundan başqa, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində qısa müddətdə ölkənin neft sənayesi ağır vəziyyətdən çıxarıldı, dağıdılmış Bakı-Batum neft kəməri bərpa olundu, Bakı-Culfa dəmir yolu inşa edildi, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirildi. Enerji və nəqliyyat sisteminin rentabelli fəaliyyətinin təmin olunması isə son nəticədə ölkənin büdcə gəlirlərinin artmasına və iqtisadi imkanların əsaslı dərəcədə genişlənməsinə rəvac verdi.

Əlbəttə, biz bu gün AXC-nin xalqımızın tarixi taleyində rolundan bəhs edərkən milli-mənəvi dəyərlərimizin, tarixi kimliyimizin qorunması istiqamətində görülən işlərin də müstəsna əhəmiyyətini qeyd etməliyik. Belə ki, ali qanunverici orqan tərəfindən qəbul edilən 1918-ci il 27 iyun tarixli qərara əsasən, Azərbaycan dili dövlət dili elan olunmuşdur. O dövrdə təhsil sahəsində həyata keçirilən ilk mühüm tədbirlərdən biri də məktəblərin millileşdirilməsi olmuşdur. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı və dövlət dili olan Azərbaycan dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. AXC parlamentinin 1919-cu il sentyabrın 1-də

Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun ölkəmizdə milli təhsil sisteminin inkişafı və vətənpərvər milli kadrların hazırlanması baxımından müstəsna rola malik olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "Dövlət dili haqqında" 1918-ci il 27 iyun tarixli qərarında dövlət dilinin Azərbaycan türkcəsi kimi təsbit edildiyi, bundan sonra bütün məhkəmə orqanlarında və digər qurumlarda vəzifə daşıyanların ancaq bu dili bilənlər olacağı bəyan edilmişdir.

Sadalanan bu faktlar bir daha o qənaəti ifadə edir ki, Azərbaycan Xalq Cümhuriyyəti, sadəcə, siyasi, iqtisadi sahədə mühüm islahatlar həyata keçirməmiş, milli-mənəvi dəyərlərin, xalqımızın tarixi ənənələrinin qorunması yönündə də mühüm addımlar atmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlətçilik ənənələri yaratdı

Təəssüflər olsun ki, müstəqil dövlətimizin süqutu AXC-nin başlatdığı bu geniş proseslərin yarımçıq qalmasına səbəb oldu. Azərbaycan Xalq Cümhuriyyəti sovet Rusiyasının hərbi təcavüzü - işğal faktı nəticəsində 1920-ci il aprel ayının 28-də süquta uğrasa da, tarixi əhəmiyyətə malik olan mühüm dövlətçilik ənənələri yaradaraq idarəetmə mədəniyyəti formalaşdırdı. Xalq Cümhuriyyətinin yaratdığı ənənələr xalqımızın zəngin dövlətçilik təcrübəsinin mühüm tərkib hissəsini təşkil edir. Heç də təsadüfi deyil ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinə xüsusi ehtiram göstərib və Cümhuriyyət tarixinin, irsinin öyrənilməsini vacib sayıb. Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını dəfələrlə bəyan edib. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasında qaldırılması Ümummilli liderin adı ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi münasibətilə xalqa müraciət edən Ulu öndər Heydər Əliyev Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi kimi xarakterizə edirdi: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Gördüyü bir sıra məqsədyönlü işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir".

Bunlarla yanaşı, Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında, Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında sərəncamları da dövlətçilik tariximizə verilən önəmin göstəricisidir.

Hazırda isə Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətinə, fəaliyyətinə çox yüksək qiymət verir və Cümhuriyyətə, onun qurucularına böyük hörmət və ehtiram ifadə edən mühüm qərarlar qəbul edib. 2007-ci ildə Bakıda "İstiqlaliyyət Bəyannaməsi" abidəsinin açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını dünya miqyasında tarixi hadisə adlandırdı. Həmin gün 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin adından təşkil olunan rəsmi qəbulda nitq söyləyən dövlət başçısı AXC-nin Azərbaycan tarixindəki rolunu qeyd edərək, Şərqin ilk demokratik Cümhuriyyətinə olan hörməti ifadə edərək diqqətə çatdırıb ki, Azərbaycan xalqı və Azərbaycan dövləti respublikanın fəaliyyətinə və onu yaradanların xatirəsinə çox böyük hörmətlə yanaşır.

Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi, həmçinin Cümhuriyyətin 100 illik yubileyi, Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncamları bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı dövlətimizin başçısının imzaladığı Sərəncam da Cümhuriyyət tarixinə diqqət və ehtiramın bariz göstəricisidir. Sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyətinin tarixi əhəmiyyətə malik əsasları diqqətə çatdırılıb.

Əlbəttə, Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi olduqca mühüm bir tarixi hadisədir. Bu Sərəncamın imzalanması və Xalq Cümhuriyyətinin 100 illiyinin təntənəli şəkildə keçirilməsi Azərbaycan dövlətinin tarixinə bağlılığını və bu tarixə yüksək dəyər verdiyini göstərir. "Azərbaycan Xalq Cümhuriyyəti İli"ndə mühüm tədbirlərin keçirilməsi, dövlətçilik tariximizin, xalqımızın ənənələrinin öyrənilməsi və təbliğ olunmasına, o cümlədən gənc nəslin dövlətçilik şüurunun möhkəmlənməsinə, vətənpərvərlik ruhunda tərbiyə olunmasına mühüm töhfələr verir.

Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan demokratik dəyərlərə sadiqdir

Bəli, bu gün böyük qürurla deyirik ki, müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrini uğurla yaşadır və yeni çalarlarla daha da zənginləşdirir. Baxmayaraq ki, xalqımız ötən əsrin 90-cı illərinin əvvəllərində keçmiş SSRİ-nin süqutu ilə tarixi şərait yaranan kimi, XX əsrdə ikinci dəfə öz müstəqil dövlətini qurmuş, lakin çox qısa zaman sonra yenidən öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Əgər 1993-cü ildə Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, müstəqil dövlətimiz əsrin əvvəllərində yaşadığı aqibətlə yenidən üz-üzə qala bilərdi. Bu gün demokratik dəyərlərə sadiq olan müstəqil Azərbaycan dövləti Xalq Cümhuriyyətinin varisi kimi onun demokratik ənənələrini davam etdirir. Artıq 27 ildir ki, Azərbaycan müstəqillik yolu ilə inamla irəliləyir. Müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq xalqımıza böyük uğurlar qazandırıb. Müstəqil Azərbaycan heç kimdən asılı olmadan, heç kimdən kömək gözləmədən inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən

siyasi-hüquqi islahatlar, idarəetmənin təkmilləşdirilməsi dövlətimizin qüdrətini artırır. Azərbaycan demokratiya yolunda öz milli maraqları əsasında irəliləyir, ölkəmizin demokratik inkişafına xidmət edən islahatlar beynəlxalq miqyasda da yüksək qiymətləndirilir. Ən əsası, siyasi-hüquqi sistemin təkmilləşdirilməsi, hüquqi dövlət quruculuğu istiqamətində mühüm uğurların əldə edilməsi dövlətçiliyimizin əsaslarını daha da gücləndirir. Bir sözlə, Azərbaycan həm iqtisadi, həm də demokratik inkişaf baxımından dünyaya özünəməxsus model təqdim edib. Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində də bu məqama toxunan dövlət başçısı bildirib ki, biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır: “Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq”.

Yeni Azərbaycan. - 2018.- 25 may. - № 100. - S. 11.

İlham Əliyev: Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik

Azərbaycan Xalq Cümhuriyyəti – 100

Yeganə Əliyeva

11 aprel prezident seçkilərində xalqın 86 faiz səsini toplayaraq yenidən Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində hər sahədə əldə olunan uğurlara bir daha diqqət yönəldərək bildirmişdir: "Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu Hə gedəcəyik."

26 ildən artıq müstəqillik tarixinə malik olan Azərbaycanın bu gününü dünəni ilə müqayisə etdikdə bir daha bu həqiqət öz təsdiqini tapır ki, uğurların əsasında möhkəm təməl dayanır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycanı qurmaqla bu gün adının inkişaf etmiş ölkələr sırasında çəkilməsi istəyimizi ortaya qoymağımıza əsas yaratdı. Uğurlarımızda bir əsas məqamı da qeyd edək ki, keçmişini sevən, bu günü ilə qürur duyan, gələcəyinə ümid bəsləyən xalqlar tarixin sərt və çətin sınaqlarından üzüağ çıxaraq, milli varlıqlarını, mövcudluqlarını qoruyurlar. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi də dövlətçilik, müstəqillik ənənələrimizi yaşatmağımızdan, tariximizə verilən dəyərdən qaynaqlanır. Ulu öndər Heydər Əliyev daim bildirirdi ki, tariximizin hər bir səhifəsi bizim üçün əziz olmalıdır. Məhz bu nöqteyi-nəzərdən yanaşaraq 1918-ci ildə yaranmış ilk Azərbaycan Xalq Cümhuriyyətini milli sərvətimiz kimi dəyərləndirərək bildirmişdir ki, bu, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradıb. Müstəqilliyimizin əbədiliyinin, sarsılmazlığının təminatı istiqamətində ciddi səylər göstərən Ümummilli Liderin "Biz ilk Azərbaycan Demokratik Respublikasının yaranması gününü əziz tutaraq onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika günü elan etmişik və bu bizim milli bayramımızdır. Bayram günü biz Azərbaycanda ilk demokratik respublikanın qurulmasında, yaranmasında göstərdiyi xidmətlərə görə Məmmədəmin Rəsulzadəyə, Əlimərdanbəy Topçubaşova, Fətəli xan Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır" sözləri keçmişimizə, tarixi şəxsiyyətlərin siyasi fəaliyyətinə, fədakarlığına, Vətən sevgisinə verilən dəyər, gələcək nəslə tariximizə, keçmişimizə sahib çıxmaq tövsiyəsidir. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı imzalamaqla xalqımızın keçmişinə hər zaman sahib çıxdığını, dəyərlərimizi qoruduğunu, hörmətlə yad etdiyini bildirən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki siyasətinə də sadiqliyini göstərdi.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Bu müddətdə hökumət daxili ziddiyyətlər, çəkişmələr və təbii ki, Azərbaycanın neftinə sahib çıxmaq istəyən xarici qüvvələrin təsiri ilə istefa vermiş, yenidən qurulmuşdur. Təkrar olunan mürəkkəb siyasi hadisələr dövründə yaranan demokratik respublikanın dövlət, hökumət orqanları istənilən səviyyədə fəaliyyət göstərə bilməsələr də üzərilərinə düşən tarixi missiyanı yerinə yetirməyə səy göstərmiş, Azərbaycan xalqının dövlətçilik tarixinə parlaq səhifələr yazmışlar. 1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti öz səlahiyyətlərini bolşeviklərə təhvil verməyə məcbur olduğu üçün fəaliyyətlərinə xitam verilmişdir.

AXC-nin yaranması və az müddətdə də olsa yaşaması Azərbaycan xalqının dövlətçilik tarixinin unudulmaz səhifələrindəndir. AXC xalqın yaddaşında qalmaqla dövlət müstəqilliyi əldə etmək yolunda, demokratik quruluş yaratmaq istiqamətində tarixi rol oynamışdır. Az müddət yaşasa da dövlətçilik tariximizdə özünəməxsus yeri, müsəlman Şərqində ilk demokratik respublika olan Cümhuriyyətin ictimai-siyasi, ədəbi- mədəni və milli mənəvi həyatımızın bütün sahələrində izi qalmışdır. O dövrün mürəkkəb siyasi şəraitində əlçatmaz görünən, hüquqi dövlət qurmaq üçün atılan addımlar sözün həqiqi mənasında cəsarət, Vətənə bağlılıq, siyasi hazırlıq tələb edirdi. Keçmişini öyrənməklə bu gününü yaşayan, gələcəyi üçün təməl formalaşdıran Azərbaycan xalqı o dövrdə cəfakeş fədailərin əməllərini, xidmətlərini unutmur. Təsadüfi deyil ki, Azərbaycan xalqı ötən əsrin sonlarında dirçələn mili-azadlıq mübarizəsinə də Cümhuriyyətin simvolları ilə başladı. Müstəqillik uğrunda milli-azadlıq hərəkatında iştirak edən Azərbaycan xalqı AXC-dən miras qalan istəklərin reallaşması naminə birləşdi. Sovetlərin beynəlmiləlçilik buxovundan xilas olaraq varlığını qorudu. Dövlətçiliyimizin atributu olan, AXC-nin qəbul etdiyi himn, üçrəngli bayraq və gerbimizin bərpasını vətəndaşlıq borcu adlandıran, böyük qətiyyət göstərərək Azərbaycan naminə canından belə keçməyə hər an hazır olduğunu bildirən ulu öndər Heydər Əliyev sonrakı islahatlarında da varislik missiyasına sadiq qaldı.

Prezident İlham Əliyevin imzaladığı Cümhuriyyətin 100 illiyi ilə bağlı Sərəncamda qeyd olunduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarını qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və həqiqətə çevrilməsinə zəmin yaratdı. Müstəqillik əldə etdikdən sonra AXC-nin arzusunda olduğu, amma zamanın mürəkkəb, qarışıq situasiyasına görə yerinə yetirə bilmədiyi vəzifələrin həlli üçün aparılan islahatlar məntiqi nəticəsini verir. İndi ölkəmiz elə sürətlə tərəqqi edir ki, Azərbaycanın inkişaf metodu ən qüdrətli ölkələrdə belə təbliğ olunur.

Müstəqilliyin ilk illərində çətinliklərlə üz-üzə qalan Azərbaycan 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra inkişaf, tərəqqi yoluna çıxdı və bugünkü uğurlara geniş yol açıldı. Azərbaycana əbədi suverenlik, müstəqillik qazandıran ulu öndər Heydər Əliyevin qətiyyəti, siyasi iradəsi ilə Azərbaycan demokratiya və iqtisadi inkişaf yolu ilə dünya birliyinə inteqrasiya etdi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən qlobal enerji və nəqliyyat layihələrinin reallaşması ilə respublikamız dünyanın enerji xəritəsini dəyişdi, nəqliyyat mərkəzinə çevrildi. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsini dünyaya açılan pəncərə kimi dəyərləndirən cənab İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyi və "Cənub Qaz Dəhlizi"nin təməlinin qoyulması mərasimində bildirmişdir ki, bu mühüm hadisə görülən işlərin zirvəsidir. BTC və BTƏ neft-qaz kəmərləri olmasaydı, təbii ki, bu gün "Cənub Qaz Dəhlizi"ndən danışmaq qeyri-mümkün idi. Reallaşdırdığı layihələrlə dövlətlər, xalqlar arasında körpü rolunu daha da möhkəmləndirən Azərbaycan bu gün beynəlxalq aləmdə təşəbbüsləri reallığa çevirən ölkə kimi tanınır və nüfuz qazanır. Müstəqilliyin ilk illərində iqtisadiyyatın inkişafı üçün investisiyalara ehtiyacı olan respublikamız indi başqa ölkələrə sərmayə yatıran dövlətdir. Bu gün ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 231 milyard dollardan artıqdır. Təbii ki, bu rəqəm Azərbaycanın bu gününə və gələcəyinə olan inamı bir daha ortaya qoyur.

Şərqlə Qərb arasında körpü rolunu oynayan respublikamızın sivilizasiyalararası dialoq mərkəzi kimi maraq doğurması, həmçinin düşünülmüş xarici siyasətimizin beynəlxalq aləmdə dəstəklənməsinin göstəricisidir. Bərabərlilik prinsipləri əsasında birgə yaşayış qaydalarının tətbiqinə çalışan AXC-nin bu istəyinə ən layiqli cavab ölkəmizdə mövcud olan tolerantlıq, mültikulturalizm ənənələrinin bütün dünyada təbliğidir. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi də Azərbaycanın multikultaral cəmiyyətlərin formalaşmasına töhfələrinin davamlılığından irəli gəlir. Həmçinin Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməklə bir daha bu həqiqəti də ortaya qoymuş oldu ki, idman eyni zamanda bir siyasətdir. Bu kimi tədbirlər ölkə reallıqlarının təbliğinə xidmət etməklə yanaşı, eyni zamanda dövlətləri, xalqları bir araya gətirməklə qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa geniş yol açır.

Bugünkü uğurlarımızın sırasında təbii ki, neft siyasətinin məntiqi davamı kimi qiymətləndirilən qeyri-neft sektorunun inkişafını xüsusi qeyd etməliyik. Müstəqilliyin ilk illərində bazar iqtisadiyyatı yolu ilə Azərbaycanın inkişafı, özəl sektorun formalaşdırılması üçün ölkədə biznes mühitini formalaşdıran Ulu Öndərin islahatlarını davam etdirən Prezident İlham Əliyevin səyi nəticəsində ölkə iqtisadiyyatının 85 faizi qeyri-neft sektorunun payına düşür. Bölgələrin inkişafı üçün başlıca şərt olan sahibkarlığın təkmilləşdirilməsi ilə işsizlik probleminin həllinə nail olunur. Son 15 ildə bir milyon 900 mindən artıq yeni iş yeri yaradılıb. Bu öz növbəsində məşğulluq probleminin həllidir. Özünü məşğulluğun təminatı prioritet məsələ kimi öndədir. Bu da əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlar sırasındandır.

Müstəqiliyimizin qarantı olan, dünyanın ən güclü orduları arasında adı çəkilən Azərbaycan Silahlı Qüvvələri ən müasir hərbi avadanlıqlarla, müasir silahlarla təmin olunur. Nizami ordumuzun əsgər və zabitləri NATO qoşunları ilə birgə təlimlərdə, münaqişə zonalarında sabitliyin yaranmasında iştirak edirlər. Ordumuzun artan gücünə və qüdrətinə inamdan irəli gəlir ki, ən nüfuzlu təşkilatların tribunasından Azərbaycanın bir qarış belə torpağının düşmənə verilməyəcəyi bəyan edilir. Tariximizə qələbə kimi yazılan 2016-cı ilin aprel döyüşləri ordumuzun qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Xalqımız tam əmindir ki, işğal altında olan bütün torpaqlarmız dövlətimizin uğurlu daxili və xarici siyasəti, Azərbaycan Ordusunun gücü sayəsində azad olunacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Azərbaycan Xalq Cümhuriyyətindən miras qalan istəklərin daha geniş və müasir tələblərə uyğun tətbiqinin nəticəsidir ki, Azərbaycan dünyanın aparıcı dövlətləri ilə eyni sırada yer alır. "Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb" söyləyən Prezident ilham Əliyev bildirir ki, biz gələcəkdə də bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir.

Bu dönməzliyi təmin edən Heydər Əliyev yoludur. Müstəqilliyimizin üçüncü mərhələsi kimi dəyərləndirilən 2003-cü ildən bu günə qədərki dövr Azərbaycan tarixinə biri-birindən əhəmiyyətli uğurları yazıb.

Bu uğurlarımıza verilən yüksək dəyər xalqımızın 11 aprel prezident seçkilərində fəal iştirakı və cənab İlham Əliyevin yenidən Prezident seçilməsinə dəstəyidir. Xalqımız tam əmindir ki, növbəti 7 ildə Azərbaycanın müstəqillik tarixinə daha möhtəşəm uğurlar yazılacaq.

İki sahil.-2018.-1 may.-№83.-S.8.

Heydər Əliyev ideyalarının təntənəsi: müstəqil Azərbaycan yeni intibah mərhələsində

Bahar Muradova,
Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri,
YAP İdarə Heyətinin üzvü

Böyük Azərbaycan şairi və filosofu İmadəddin Nəsiminin fövqəlbəşər insanların daxili aləmini və gücünü ifadə edən məşhur bir kəlamı var: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam!" Doğrudan da bu dünyaya ülvi bir missiya - öz xalqına və bəşəriyyətə xidmət üçün gələnlərin əməlləri və fəaliyyəti qarşısında zaman və məkan çərçivələri əriyib yoxa çıxır.

Tarix sübut edib ki, belə taleyüklü, çətin və ağır, lakin şərəfli missiyanı sonadək daşıya bilmək heç də hər rəhbərin nəsibi deyil. Tanrının xalqımıza böyük lütfkarlıqla bəxş etdiyi ən dəyərli və fenomenal şəxsiyyətlərdən biri olan Heydər Əliyev isə bu vəzifənin öhdəsindən layiqincə gələ bilmiş və bənzəri olmayan bir lider, zamanın fövqündə dayana bilən xilaskar rəhbər kimi dövlətçilik tariximizin ən şanlı səhifələrini yazmışdır.

Heydər Əliyevin həyat və fəaliyyəti ilə azacıq da tanış olan hər kəs onun Azərbaycana rəhbərliyinin bütün mərhələlərində səy və bacarığının, təcrübəsinin, istedadının Azərbaycanın inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi sahədə çiçəklənməsinə həsr etdiyini yaxşı bilir. Bütün şüurlu həyatı, canı və qanı ilə bağlı olduğu doğma vətəninin azad və firavan bir ölkəyə çevrilməsi yolunda mübarizədə keçmiş ulu öndərin ölkə vətəndaşlarının rifahı və xoşbəxt gələcəyi, ləyaqətli həyat tərzinin bərqərar olması naminə göstərdiyi misilsiz xidmətlərin ölçüsü insan təxəyyülünə sığmayacaq qədər böyükdür.

Hakimiyyət sükanının arxasında durduğu ilk gündən geniş xalq kütləsinin inam və etimadına güvənən, böyük idarəçilik səriştəsinə malik, siyasi iradə, əzm və cəsarət sahibi olan Heydər Əliyev sələflərindən fərqli olaraq yenilməz nüfuzu və fövqəladə keyfiyyətləri sayəsində mövcud resursları ustalıqla səfərbər edərək Azərbaycanın suverenliyinin qarantına çevrildi, dövlətimizi və dövlətçiliyimizi qorudu, uçurumdan xilas etdi.

Görünən odur ki, sağlığında canlı əfsanəyə çevrilmiş, tarixi yaradan və onun fövqündə duran, sözünün çəkisi və sanbalı ilə kütləni arxasınca aparmağı, inandırmağı bacaran və Azərbaycanın yeni intibah mərhələsinin banisi sayılan ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji və iqtisadi əsaslarını yaradaraq xalqı müstəqil və güclü dövlətə sahib olmaq arzusuna qovuşdurmuşdur. Onun gərgin əməyi və qətiyyəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur. Azərbaycanda demokratiyanin inkişafı və insan hüquqlarının qorunması, milli qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi və sosial-iqtisadi islahatların reallaşdırılması, nəhəng transmilli layihələrin gerçəkləşdirilməsi, bir sözlə, ilk növbədə xalqın rifahının yüksəldilməsini hədəfləyən fəaliyyət sahəsindəki bütün uğurların kökü məhz Heydər Əliyevin ideyalarından qidalanır.

Ona görə də nəticə etibarı ilə ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illəri çoxəsrlik dövlətçilik tariximizin ən əhəmiyyətli dövrü kimi səciyyələndirmək olar. Bu mərhələdə Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, sabitlik və tərəqqi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi naminə əldə edilmiş bütün uğurlarımızın altında məhz Heydər Əliyevin imzası durur.

Bu mənada ümummilli liderin min bir əziyyətlə çalışıb ərsəyə gətirdiyi azad Azərbaycan, obrazlı desək, sevə-sevə əkib-becərdiyi bağın meyvəsindən sonadək dadmağa ömrü çatmayan, lakin bu işindən həzz alan kamil, qayğıkeş və müdrik bir bağbanın özündən sonra gələnlər üçün çəkdiyi zəhmətin bəhrəsinə bənzəyir. O, bizə kökü milli ideologiya bulağından su içən, möhkəm təməl üzərində dayanmış elə bir möhtəşəm miras qoyub ki, barından təkcə müasirlərimizə deyil, gələcək nəsillərə də əsrlər boyu pay düşəcək.

Əgər biz müstəqillik tariximizin dinamikasını qısaca nəzərdən keçirsək, aydın görərik ki, ulu Heydər Əliyev ideologiyasından doğan bu tərəqqi yolunda respublikamızın və xalqımızın özünə layiq bir gələcək qurmaqdan ötrü yeni fazaya uğurlu keçidi təmin olunmuşdur. Onun yönləndirdiyi strateji istiqamətlər bu gün yeni dövrün tələblərinə uyğun olaraq yüksələn xətlə inkişaf edir. Bu, bir reallıqdır ki, ulu öndər tərəfindən tam zamanında işlənib-hazirlanmış inkişaf konsepsiyası, xüsusilə ölkəmizin təbii sərvətlərinin əhalinin rifahı naminə səmərəli istifadəsi ilə bağlı prinsiplər əsasında tətbiq olunmuş neft strategiyası həm Azərbaycanın firavan ölkəyə çevirməsində, həm də beynəlxalq miqyasda sanballı mövqeyə çıxmasında xüsusi çəkiyə malikdir.

Çünki məhz bu nailiyyətlər üzərində formalaşmış potensial sonrakı dövrlərdə dünyada baş verən iqtisadi və maliyyə böhranlarının burulğanlarını uğurla dəf edərək onların təsirini minimuma endirməyə imkan vermiş və postneft erasını yaşayan Azərbaycan bu gün artıq yeni intibah mərhələsinə qədəm qoymuşdur. Kökü məhz ulu öndər Heydər Əliyev dönəmindəki iqtisadi və sosial dirçəlişə bağlı olan pozitiv dəyişikliklərin nəticəsidir ki, bütün maneələrə mətanətlə sinə gərərək qısa bir müddətdə inkişaf sürətinə görə dünyanın lider dövlətinə çevrilən Azərbaycan həmin göstəriciyə görə öncül mövqeyini bu günə qədər qoruyub saxlayır.

Bu cür ardıcıllıqla yürüdülən dövlət siyasəti bu mərhələdə yeni dövrün çağırışlarına cavab olaraq sosial-iqtisadi məsələlərdən tutmuş insan hüquq və azadlıqlarının təmin edilməsinə qədər həyatımızın bütün sahələrini əhatə edən və çox mühüm yüksəlişlərə təkan verən, ildən-ilə mütərəqqi ideyalarla daha da zənginləşməkdə davam edən yeni, mütərəqqi islahatlar konsepsiyasını gündəmə gətirmişdir. İlk növbədə insan amilinə söykənən bu dəyişikliklər və bu istiqamətdə qəbul olunmuş qərarlar Heydər Əliyevin vaxtilə hədəf seçdiyi və onun ideyalarına, düşüncələrinə uyğun yüksək standartlara malik cəmiyyətin qurulmasına, firavanlığın təmin olunmasına doğru mühüm addımların atılmasını şərtləndirir.

Bütün bunlar əhalinin ləyaqətli həyatının təmin olunmasını, insanların yeni düşüncə tərzinin formalaşmasını, qürurlu vətəndaş kimi yetişərək cəmiyyətin tamhüquqlu üzvü kimi yaradılmış imkanlardan sərbəst şəkildə istifadə etməsini hədəfləyir. Bu səviyyənin əldə olunması üçün insanların müasir, yüksək elmi və intellektual potensiala malik vətəndaş kimi yetişməsi bir zərurətdir. Qürurvericidir ki, bu istiqamətdə aparılan məqsədyönlü fəaliyyətin getdikcə daha böyük vüsət alması nəticəsində əldə olunmuş nailiyyətlər BMT-nin bu göstəriciləri özündə ehtiva edən inkişaf proqramının hesabatında insan potensialının inkişaf indeksinə görə Azərbaycanı bu siyahıda artıq yüksək dərəcəyə malik ölkələr sırasına yüksəldib.

Azərbaycanın uğurlarını şərtləndirən amillərdən biri də odur ki, öz fəaliyyətində hər zaman universal humanist dəyərlərə, demokratiya və fundamental insan hüquqları prinsiplərinə sadiqlik nümayiş etdirmiş Heydər Əliyevin tövsiyələrinə dönmədən riayət edən ölkə rəhbərliyi insanların hüquq və söz azadlığının etibarlı şəkildə təmin olunmasına xüsusi diqqət yetirir. Müasir inkişaf mərhələsində ortaya qoyulmuş belə konstruktiv mövqe sərbəst fikir mühitinin ən yüksək tələblərinə uyğundur və ədalətli vətəndaş cəmiyyətinin təşəkkül tapmasına hərtərəfli təminat verir. Bu baxımdan hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur ki, bu da son nəticədə hər bir vətəndaşın özünü cəmiyyətin azad və tamhüquqlu üzvü kimi tanıya bilməsi üçün əsaslı zəmin yaradır.

Bir-birini üzvi şəkildə tamamlayan çevik və ağıllı daxili və xarici siyasətin formalaşmasına zəmin yaratmış Heydər Əliyev siyasi kursunun etibarlı şəkildə inkişaf etdirilməsinin nəticəsidir ki, vaxtilə başqalarının təcrübəsindən öyrənən Azərbaycan bu gün artıq dünya ölkələrinə tolerantlıq nümunəsini, yeni nəsil dünya dövlətinin müasir modelini, sabitliyin və əmin-amanlığın düsturunu təqdim edir, dünyanın heç bir ölkəsində rast gəlinməyən Şərqlə Qərb dəyərlərinin unikal vəhdətini ortaya qoyur. Ən müxtəlif istiqamətlər üzrə və ən müxtəlif aktual mövzular ətrafında saysız-hesabsız mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilmiş ölkəmizdə həm Avropa, həm də İslam Həmrəyliyi Oyunları, "Formula-1" kimi möhtəşəm idman yarışlarının təşkil edilməsi bir daha müstəqil Azərbaycanın real imkanlarını və bacarığını ortaya qoymaqla yanaşı, onun müasir Avropa standartları ilə islam dəyərlərinə eyni dərəcədə sadiq dövlət olduğunu nümayiş etdirir.

Yeni intibah dövrünə qədəm qoymuş ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artmasına ciddi təsir göstərən amillərdən biri də Azərbaycandan start götürən qlobal layihələrin dünyada gedən siyasi-iqtisadi proseslərin sürətlənməsinə, beynəlxalq təhlükəsizlik siyasətinin inkişafında dünya dövlətləri arasında yüksək etimadın yaradılmasına verdiyi sanballı töhfə ilə bağlıdır. İşıqlı gələcəyə doğru inkişafın təməli sayıla biləcək bu irəliləyişlər ölkəmizin dünya birliyinə daha zəngin, daha modern və daha güclü Azərbaycanın təqdim olunmasını təmin edir.

Bütün bunların məntiqi nəticəsi olaraq regionun lider dövləti olan Azərbaycan bu gün dünya miqyasında böyük hörmət sahibi kimi öz mövqeyini cəsarətlə müdafiə edə bilir, regionun bəzi dövlətlərindən fərqli olaraq müstəqil siyasət yürüdür. BMT, Avropa Şurası, ATƏT, NATO kimi nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından onun sözü getdikcə daha ötkəm səslənir. Artıq dünyanın qüdrətli dövlətləri də bəzi qlobal məsələlərin həllində Azərbaycanla hesablaşmağın vaxtı çatdığını özləri üçün yəqinləşdiriblər. Çünki iqtisadi cəhətdən güclü, siyasi cəhətdən isə tam müstəqil dövlətə çevrilmiş Azərbaycan bu gün digər ölkələrdən heç bir formada asılı deyil. Əksinə, bölgə və hətta bəşəri əhəmiyyətli elə məsələlər var ki, burada Azərbaycanın mövqeyi vacib məqam kimi qəbul edilir. Ölməz Heydər Əliyev də bütün ali yüksəkliklərdə qürurla dalğalanan doğma Azərbaycan bayrağını öz xəyallarında belə zirvələrdə görürdü.

Bu həm də bizim hər birimizə bu ölkəyə mənsub olduğumuza, bu torpağın övladı olduğumuza görə qürur hissi bəxş edir. Sevindiricidir ki, çəkilən zəhmət heç də hədər getməyib. Bu illər ərzində Azərbaycanın siması ilə bərabər, Azərbaycan vətəndaşının da həyatı hər kəsdə heyrət doğuracaq qədər dəyişib. Bu gün biz bu siyasətin bəhrəsini hər yerdə, hər sahədə görürük. Dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmiş Bakımızı seyr edəndə, abadlıq-quruculuq işlərinin nəticəsində əsrarəngiz gözəlliyə bürünmüş bölgələrə baxanda, Heydər Əliyev ideyalarından doğan xoşbəxt gələcəyə böyük ümid və inam bəsləyən Azərbaycan insanının çöhrəsindəki qayğı ifadəsinin xoş bir təbəssümlə əvəz olunduğunu görəndə ürəyimiz fəxarət hissi ilə döyünür. Ona görə də ilk dəfə ulu öndərin dilindən böyük duyğu ilə səslənmiş və azərbaycançılıq məfkurəsinin mahiyyətindən doğan "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı bu gün hər bir Azərbaycan vətəndaşı üçün milli iftixarın təcəssümünə, vətənpərvərlik marşına, həmrəylik şüarına çevrilmişdir.

Bir məsələni də xüsusi olaraq qeyd etmək istərdim ki, Azərbaycanın bu günə qədərki nailiyyətləri Heydər Əliyev ideologiyasının daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə sıx bağlıdır. Çünki ümummilli lider Yeni Azərbaycan Partiyasının cəmiyyətin inkişafına, dövlətin və dövlətçiliyin ideoloji əsaslarının formalaşmasına verə biləcək töhfələri çox yüksək qiymətləndirir, onun böyük gələcəyinə, perspektivinə inanırdı. Tarix ulu öndərin bu təşəbbüsünün dahi və uzaqgörən siyasi düşüncənin məhsulu olduğunu artıq sübut etmişdir. Zaman ötdükcə dünənin, bu günün və gələcəyin partiyası statusunu getdikcə möhkəmlədən YAP təşkilatımızın sədri cənab İlham Əliyevin rəhbərliyi altında ümumxalq partiyası kimi ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artırılması ilə bağlı prosesləri siyasi və ideoloji cəhətdən yüksək peşəkarlıqla təmin etmiş və bu funksiyanı bu gün də şərəflə daşımaqdadır.

Heydər Əliyevin arzularında yaşatdığı Azərbaycan bütöv, azad, firavan və qüdrətli ölkə, sülh və əmin-amanlıq məkanıdır. Lakin onun bu düşüncələrini qayğı kölgəsi ilə bürüyən bir nisgili var idi - işğal altında qalmış əzəli və əbədi torpaqlarımız. Bu, bizim yeganə ağır dərdimizdir. Bu yükü Azərbaycan xalqının çiyinlərindən götürmək üçün ulu öndər bütün səy və bacarığını sərf etdi, heç kimin cürət edib ata bilmədiyi addımları atdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq miqyasda formalaşmış yanlış stereotiplərin dağıdılmasında onun misilsiz xidmətləri vardır. Bişkek protokolunun imzalanması, ATƏT-in Lissabon sammitində və digər zirvə toplantılarındakı cəsarətli taktiki addımları, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlarda və görüşlərdə nümayış etdirdiyi effektiv diplomatik gedişləri dahi strateq Heydər Əliyevi dünya siyasətinin korifeyləri ilə bir sıraya qoyub. Təəssüf ki, Azərbaycanın bədxahları tərəfindən qazılmış "Qarabağ quyusu"nun dərinliyi səbəbindən o dövr üçün səciyyəvi olan ağır siyasi şəraitdə bu prosesi sona çatdırmaq mümkün olmadı. Lakin dövlətimizin getdikcə artan gücü və beynəlxalq nüfuzu, habelə Azərbaycan rəhbərliyinin hücum taktikası fonunda, xüsusilə də münaqişənin həllində ciddi dönüş nöqtəsi və Azərbaycanın hərb tarixinin ən şanlı səhifələrindən olan 2016-cı ilin aprel döyüşlərindən sonra bölgədə yaranmış geosiyasi vəziyyət baxımından bu gün məsələnin həllində əhəmiyyətli pozitiv dəyişikliklərin yaranması üçün münbit şərait formalaşmaqdadır. Uzunmüddətli fasilədən sonra Lələtəpə yüksəkliyinin ələ keçirilməsi və 23 il düşmən silahının nişangahında duran Cocuq Mərcanlı kəndinin yerləşdiyi ərazinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi bir tərəfdən xalqımızın Qarabağla bağlı ümidlərinin artması və zəfər gününə inamının möhkəmlənməsi, digər tərəfdən isə təmas xəttində baş verən hadisələrə dünya ictimaiyyətinin diqqətinin yönəldilməsi baxımından çox önəmli hadisədir. Kəndin bərpası və azad olunmuş ərazinin abadlaşdirilması ilə bağlı tədbirlərin həyata keçirilməsi "Biz heç vaxt Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcəyik" - söyləyən Ali Baş Komandanın dədə-baba yurdlarından didərgin düşmüş həmvətənlərimizin doğma tarixi torpaqlarına qovuşması, onların halal haqlarının tanıdılması istiqamətində yürütdüyü qətiyyətli siyasətin bariz nümunəsidir.

Düşünürəm ki, bu hadisələrin əks-sədası olaraq bir tərəfdən beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin getdikcə daha çox qəbul olunması, onun öz ərazilərini istənilən üsulla azad etmək hüququna bəraət qazandırılması, Ermənistanın isə təcavüzkar kimi tanınması naxələf qonşularımızın ədalət anlayışının nə olduğunu anlamağa, sağlam məntiqə söykənən bu reallıqla razılaşmağa vadar edəcəkdir. Proqnozlaşdırmaq mümkündür ki, Ermənistanda cərəyan edən son hadisələr nəticəsində işğal faktoru üzərində siyasi plasdarm qurmuş, sonda isə xalqın etimadını tam itirmiş, dövləti səfalətə sürükləmiş, dünyada gözdən salmış cinayətkar klanın ölkə rəhbərliyindən uzaqlaşdırılması Qarabağ məsələsinin daha tez və ədalətli həllinə öz müsbət təsirini göstərəcək. Bugünkü gerçək reallıqlar gec-tez ölkəmizin pozulmuş hüququnun bərpa edilməsi istiqamətində dünya birliyi üzvlərinin və beynəlxalq ictimaiyyətin konstruktiv mövqe birliyinə nail olunacağına və problemin tezliklə ölkəmizin maraqlarını əks etdirən ədalətli həllini tapacağına böyük inam yaradır. Lakin ümidlər yaxın gələcəkdə doğrulmazsa, biz ordu-xalq birliyinin gücündən ilham alaraq milli zəfər marşı ilə torpaqlarımızı azad etməklə ulu öndərin Qarabağ nisgilinə birdəfəlik son qoymağa hazırıq.

Ona görə də münaqişənin hazırkı vəziyyəti hərbi doktrinamızın müddəalarına uyğun olaraq ordu quruculuğunun prioritet istiqamət kimi saxlanmasını şərtləndirir. Hərbçilərimizin ruh yüksəkliyi və yüksək vətənpərvərlik ideyaları üzərində köklənmiş ordu-vətəndaş münasibətləri deməyə əsas verir ki, Silahlı Qüvvələrimiz ordu ilə xalqın möhkəm birliyinə arxalanan Ali Baş Komandanın bütün əmrlərini həyata keçirməyə, o cümlədən dövlət atributlarımıza qarşı yönələn hər hansı bir təhlükənin qarşısını ala biləcək qüdrətə malikdir.

Beləliklə, Azərbaycan rəhbərliyinin Heydər Əliyevin ideyalarının saçdığı nura bürünmüş tərəqqi yoluna sədaqəti, xalq naminə, yüksək ideallar uğrunda həyata keçirdiyi məqsədyönlü siyasət bu gün ölkəmizi keçid dövründən sonrakı növbəti və daha uğurlu bir mərhələyə daşımaqdadır. Bu siyasət ulu öndərin təbirincə desək, "dünyaya günəş kimi doğacaq" Azərbaycanın zəngin və qüdrətli obrazını əks etdirən portretinə bundan sonra da yeni-yeni cizgilər vuracaq və xalqımızın azad, xoşbəxt, firavan gələcəyini təmin edəcəkdir.

Düşünürəm ki, ulu öndərin arzularının çin olduğu zamanın gerçəkliklərindən bəhrələnən Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi mənəvi atası, dühası var. Həm də ona görə xoşbəxtdir ki, bu gün müstəqil dövlətimizin sükanı ulu öndərin özü qədər inandığı Prezident İlham Əliyevin əlindədir. Bu yaxınlarda misli

görünməmiş böyük bir coşqu ilə müşayiət olunan və Yeni Azərbaycan Partiyasının şəriksiz namizədi cənab İlham Əliyevin möhtəşəm qələbəsi ilə yekunlaşmış prezident seçkiləri də Heydər Əliyev ideologiyasının təntənəsini və siyasi varisliyin yüksək səviyyədə təmin olunduğunu ifadə etməklə bir daha sübuta yetirdi ki, qədirbilən və yaxşını pisdən seçməyə qadir olan müdrik Azərbaycan xalqı tərəddüdsüz olaraq hər zaman Heydər Əliyev yoluna sadiqdir və bundan sonra da onun ülvi arzularına, ölməz ideyalarına öz səsini verəcəkdir. Bu həm də onun təsdiqidir ki, Azərbaycanda siyasi sistemin dayanıqlığı etibarlı şəkildə təmin edilir, dövlətçilik ənənələri qorunub saxlanmaqdadır, ölkə vətəndaşlarının siyasi hakimiyyətə etimadı yüksələn xətlə böyüyür, ictimai şüurda qərarlaşmış təkamül məntiqi insanları mövcud sosial-siyasi quruluşun daha da təkmilləşdirilməsinə, mahiyyətcə yeniləşdirilməsinə sövq edir. Seçkilərdən dərhal sonra ölkə rəhbərinin ilk olaraq şəhid ailələrinə sığorta vəsaitinin ödənilməsi ilə bağlı fərmanı, struktur və kadr dəyişikliklərini əhatə edən sərəncamları onu göstərir ki, nəzərdə tutulmuş mütərəqqi islahatlar davamlı xarakterlidir və inkişafın Azərbaycan modelinin keyfiyyətcə yeni konsepsiyasının mahiyyəti ilə tam uzlaşmaqla Azərbaycan vətəndaşının xoş və firavan həyatının təminatına yönəlmişdir.

Yeni seçilmiş Prezidentin Milli Məclisin iclas zalında təşkil olunmuş andiçmə mərasimindəki dövlət-vətəndaş münasibətləri üzərində köklənmiş proqram xarakterli çıxışını isə qarşıdakı 7 il və ondan sonrakı dövr üçün əsas iqtisadi islahat strategiyası, fəaliyyət məramnaməsi adlandırmaq olar.

Bütün bunlara görə doğma Vətəninin xoşbəxt gələcəyi ilə bağlı arzularının gerçəkləşdiyini duyan, müstəqil Azərbaycanın etibarlı əllərdə olduğunu görən, xalqın sabaha inamının qat-qat yüksəldiynə bir daha əmin olan müqəddəs Heydər Əliyevin ruhu bu gün çox şad görünür. İnanıram ki, cəmiyyətimizin gələcək taleyini müəyyən edən taleyüklü işlər bundan sonrakı həyatımız boyu da Azərbaycan xalqının qəlb və düşüncə yaddaşında həmişəlik olaraq ümummilli liderin obrazını canlandıracaqdır. Ona görə də hər kəs əmin olmalıdır ki, xoş amalları ilə qədirbilən xalqımızın tükənməz sevgisini qazanmış ulu öndərin adı Azərbaycan tarixində təkrarolunmaz siyasətçi, qüdrətli dövlət başçısı, əfsanəvi şəxsiyyət kimi qalacaq, Azərbaycan xalqı və dövləti durduqca Heydər Əliyevin parlaq xatirəsi də əməllərlə yüksəlmiş əbədiyyət abidəsi kimi daim yaşayacaqdır.

Azərbaycan insanını mənəvi və ruhi baxımdan təmin edəcək növbəti möhtəşəm uğurlarımızın altında isə Heydər Əliyev ideyalarının ən güclü daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının əvəzsiz lideri, ulu öndərin ən yaxın silahdaşı və ən sadiq məsləkdaşı, onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi, xəyalları gerçəkliyə çevirən, hər zaman öz siyasi kredosunu xalqın xidmətçisi olmaqda görən, müasir Azərbaycan dövlətinin islahatçı Prezidenti cənab İlham Əliyevin imzası duracaqdır.

Azərbaycan. - 2018.- 1 may. - № 97. - S. 1,5.

Müstəqillik və qələbə yolunun bayraqdarı

Müstəqillik Azərbaycan xalqının ən böyük sərvəti, neməti və xoşbəxtliyidir

Rəşad Baxşəliyev

Yüz yaşlı Azərbaycanın şanlı tarixində yeni bir səhifə açılır. Müstəqillik dövrünün 8-ci prezident seçkilərində hər zaman güc aldığı xalqdan növbəti dəfə etimad mandatı alan cənab İlham Əliyevin Azərbaycana layiqli xidmət missiyasının yeni mərhələsi başlayır.

Andiçmə mərasimində tarixinin ən qüdrətli dövlətinə çevirdiyi Azərbaycanın daha böyük zəfərlərə doğru inamla irəliləyəcəyini söyləyən cənab İlham Əliyev növbəti 7 illik fəaliyyətində də ölkə vətəndaşının maraqlarının, onun rifahının daim diqqət mərkəzində olacağını, yaşayış səviyyəsinin daha da yaxşılaşacağını bəyan etdi.

Xalqdan güc alan, onun dəstəyinə arxalanan lider

"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".

Andiçmə mərasiminə məhz bu kəlmələrlə başlayan Prezidentin bu fikirləri 15 il öncə, 2003-cü ildə söylədiyi kəlamları bir daha yada saldı. Həmin zaman keçirilən prezident seçkilərində xalqa müraciət edən cənab İlham Əliyev demişdi ki, əgər xalq ona etimad göstərərsə, ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalaraq bu siyasəti davam etdirəcək. Həqiqətən xalq İlham Əliyevə inandı, güvəndi və yekdilliklə onu özünə lider seçdi. Cənab İlham Əliyev isə verdiyi bütün vədlərə əməl etməklə 15 ildə xalqın fəxarət ünvanına, alternativsiz liderinə çevrildi.

Azərbaycanı qüdrətli, güvənli, istiqrarlı dövlətə çevirən Prezident

Prezident İlham Əliyevin 15 illik siyasi fəaliyyətinə, qazanılan uğurlara nəzər salsaq aydın şəkildə görərik ki, Azərbaycan bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilib.

Dövlət başçısının söylədiyi kimi, Azərbaycan tarix boyu heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Azərbaycanda dünya ölkələrinin heç birinə bənzəməyən, özünəməxsus iqtisadi və siyasi inkişaf modelinin formalaşması faktı təsdiqini tapıb. İnkişaf fenomeninə çevrilən Azərbaycanın idarəçilik və tərəqqi modeli bir çox ölkələr üçün praktik nümunədir. Hansı ki, bu model qlobal iqtisadi və maliyyə böhranları şəraitində özünü tam doğruldub. Bütün bunlar Prezident İlham Əliyevin yüksək şəxsi və siyasi keyfiyyətləri, hər bir məsələdə qətiyyətli mövqedən çıxış etməsi, xarizması sayəsində əldə edilib.

Uğurların əsas şərti xalq-iqtidar birliyidir

Dərin və universal böhrandan çıxaraq cəmi 26 il ərzində kosmik dövlətlər sırasına daxil olan, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin örnəyinə çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan, cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası ilə daha da qüdrətli dövlətə çevrilmək istiqamətində inamla addımlayır.

Bunun ən başlıca səbəbi isə daxili sabitlikdir. Çünki Azərbaycanda sabitliyin təminatçısı xalqdır və dövlət siyasətidir. Ölkəmizdə xalq-iqtidar birliyinin uğurları göz önündədir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, ölkəmizin böyük nailiyyətidir.

Bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir

Andiçmə mərasimində son 15 il ərzində Azərbaycanda gedən demokratik inkişaf proseslərinə bir daha nəzər yetirən cənab İlham Əliyev öncə vurğuladı ki, qısa zaman ərzində müstəqil Azərbaycanda bütün azadlıqlar təmin edilib.

Dövlət siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin edib: "Demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə

edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir".

Namizədlərin dəyərli təklifləri nəzərə alınacaq

Dövlət başçısı seçki prosesində ona rəqib olan namizədlərin fəaliyyətinə də toxundu. Qeyd etdi ki, təbliğat-təşviqat prosesi zamanı namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənib. Bütün bunlar müsbət hal kimi qiymətləndirilməlidir. Çünki bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir.

Prezident həmçinin namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacağını və dəyərli təkliflərin nəzərə alınacağını vurğuladı: "Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcəkfəaliyyətlərində uğurlar diləyirəm".

Marginallaşmış antimilli qüvvələrin yeri tarixin zibilxanasıdır

Bu bir həqiqətdir ki, Azərbaycanda istənilən mühüm ictimai-siyasi proseslər həyata keçirilən zaman antiazərbaycançı şəbəkə öz köhnə peşəsinə sadiq qalaraq çirkin kampaniyalara başlayır. Onların daxildəki buyruq qulları da "canla-başla" tapşırıqları yerinə yetirirlər.

Bu qüvvələr prezident seçkiləri ərəfəsində "aktivləşsələr" də, niyyətləri, həmişə olduğu kimi, ürəklərində qaldı.

Prezident İlham Əliyev isə antimilli qüvvələrə əsl yerlərini göstərdi: "O ki qaldı, antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır".

İşğalçı Ermənistan bütün regional layihələrdən təcrid ediləcək

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqaməti ilə bağlı aparılan danışıqlara gəlincə Prezident qeyd etdi ki, Azərbaycan hökumətinin münaqişə ilə bağlı prinsipial mövqeyi xalq tərəfindən dəstəklənir.

Ona görə də bu siyasətdən heç zaman geri çəkilməyəcək, bundan sonrakı illərdə də işğalçının bütün regional işlərdən təcrid edilməsi, ifşa olunması üçün səylər göstəriləcək: "Yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq.

Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq".

Ölkə vətəndaşının rifahı daim diqqət mərkəzində olacaq

Son 15 il ərzində sosial məsələlərin həllinə çox böyük diqqət göstərildiyini deyən Prezident bütün bunları rəqəmlərin də təsdiqlədiyini dedi. Rəqəmlərə nəzər yetirdikdə görərik ki, son 15 ildə ölkədə maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb, 3100-dən çox məktəb tikilib və təmir edilib, 280-290 min məcburi köçkün yeni mənzillərlə təmin olunub, 640-dan çox xəstəxana, 30 elektrik stansiyası, 4 su anbarı, 7 beynəlxalq aereport tikilib və təmir edilib, bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb, 13 "ASAN xidmət" mərkəzi açılıb, 443 körpü-tunel tikilib, 15 min kiliometrlik yol çəkilib, qazlaşdırma 93 faizə çatıb.

Bütün bunlar göstərir ki, sosial siyasət daim diqqət mərkəzindədir: "Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır".

Dövlət başçısı onu da vurğuladı ki, yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, ölkəmizdə yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşüb. İşsizliklə bağlı böyük işlər görülüb və bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir.

Əlavə gəlirlər ölkənin inkişafına yönəldiləcək

Bu müddət ərzində ciddi iqtisadi islahatların aparıldığını vurğulayan cənab İlham Əliyev bildirdi ki, daim iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilirlər. Azərbaycan iqtisadiyyatı isə son 15 il ərzində 3,2 dəfə artıb. Bu isə çox böyük göstəricidir.

Son 15 ildə ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub, valyuta ehtiyatları 24 dəfə artaraq 44,2 milyard dollara yüksəlib, Xəzər dənizində 270 gəmidən ibarət hərbi donanma yaradılıb, açıq okeana çıxışı olmayan ölkə qısa zamanda regional nəqliyyat dəhlizinə, logistik mərkəzə, təbii qaz ixracatçısına, kosmik dövlətə çevrilib.

"Əsrin müqaviləsi" 2050-ci ilədək uzadılıb, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verilib, 2 milyard ton neft hasil edilib. Azərbaycan həmçinin "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan dörd layihədən ibarət ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP) "Cənub qaz dəhlizi" kimi 40 milyarddan çox investisiya yatırılan layihələrin əsas təşəbbüskarlarından biridir. Bu il "Cənub qaz dəhlizi"nin 3 seqmenti - "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP istifadəyə veriləcək.

Bütün bu uğurları Prezident belə dəyərləndirib: "Biz artıq Avrasiyanın enerji xəritəsini dəyişdirmişik. Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik".

Daha da qüdrətli ölkəyə çevriləcəyik

Bir sözlə, müstəqil Azərbaycan son 15 il ərzində Prezident İlham Əliyevin məqsədyönlü, düşünülmüş siyasəti ilə kifayət qədər böyük uğurlar qazanıb.

Lakin dövlət başçısı bu nailiyyətlərin məqsədə çatmaq üçün kifayət etmədiyini vurğulayaraq gələcəyə inamla baxmağı vacib hesab edir. Növbəti illərdə görüləcək işlər haqqında dövlətin çox aydın planlarının, proqramlarının olduğunu deyən Prezident Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyini əminliklə vurğulayıb: "Azərbaycanın güclü siyasi iradəsi, böyük maliyyə resursları var və ölkəmiz indi öz hesabına yaşayan dövlətdir. Ölkədə xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Bütün bu uğurların ancaq müstəqillik dövründə qazanıldığını diqqətə çatdıran dövlət başçısı müstəqilliyi xalqımızın ən böyük sərvəti adlandırdı: "Azərbaycan xalqı müstəqilliyimizin üstünlüklərinin nədən ibarət olduğunu yaxşı bilir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik".

Azərbaycan. - 2018.- 20 aprel. - № 88. - S. 1,5.

Müstəqillik - əsas dəyərimiz, ən böyük nemətimiz

Dövlətimizin başçısı İlham Əliyevin bu dəyərləndirməsinin təsdiqi olan 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması tarixi paralellər fonunda təhlillər aparmağı bir zərurətə çevirir

Yeganə Əliyeva

"1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır." Dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı Sərəncamında əksini tapan bu fikirlər Azərbaycanın müstəqillik tarixinin məhz 1918-ci ildən başlandığına diqqəti yönəldir və eyni zamanda ulu öndər Heydər Əliyevin aforizmə çevrilən "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisini xatırladır. Cənab İlham Əliyev bu sənəddən öncə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı imzalamışdır. Sənəddə də qeyd olunduğu kimi, 1918-ci il mayın 28-də yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. 1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycan 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra uğurlu daxili və xarici siyasətin nəticəsində özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir. Ölkə Prezidenti İlham Əliyevin milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə imzaladığı sərəncamlar müstəqillik tariximizi tarixi paralellər fonunda təhlil etməyi bir zərurətə çevirir. Ən əsası bu gün beynəlxalq aləmdə əsl söz sahibinə çevrilən, ən islahatçı ölkə, dünyanın xoşbəxt ölkələrindən biri kimi tanınan Azərbaycanın bu uğurlarını şərtləndirən amillərə işıq salır.

Dövlətimizin başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayında "Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir" söyləyərək bildirmişdir: "Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. 1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Əlbəttə ki, bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik."

Azərbaycanın bu gün hər sahədə qazandığı uğurlar, əldə etdiyi təcrübə göz önündədir. Azərbaycan sabitləşdirici amildir. Ölkəmizin iştirakı olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Azərbaycanın yerləşdiyi coğrafi məkan, iştirakçısı və təşəbbüsçüsü olduğu layihələr dövlətlər, xalqlar arasında körpü rolunu oynayır. Məhz bu rolundan qaynaqlanaraq, 2016-cı il ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilmişdir. Dövlətimizin başçısı bildirir: "Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkə daxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır."

Hərtərəfli inkişaf üçün ölkədə sabitliyin rolu inkaredilməzdir. Azərbaycanda sabitlik təmin edilir, xalqımız təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün

xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək. "Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır" söyləyən cənab İlham Əliyev bildirir ki, çünki bu gün dünyada qütbləşmə göz qabağındadır. Böyük dövlətlər öz təsir dairələrini genişləndirmək yönümündə səylər göstərirlər. Bu məqamla rastlaşanda ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, bu, təbii ki, onları qıcıqlandırır. Amma bu etiraf da diqqətə çatdırılır: "Ancaq bu bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə, Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək."

Yazılarımızda hər zaman təkrarlanan bu faktı yenə də qeyd etmək istərdik ki, Azərbaycan yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə daim dünyanın diqqətində olub. Amma bu diqqət və maraq müxtəlif dövrlərdə müxtəlif şəkildə diqqət çəkib. Məlum olduğu kimi, müstəqilliyimizin ilk illərində Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər ölkədə ictimai-siyasi durumun gərginliyindən qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı, ölkədə daxili sabitliyin yaradılması bu tərəddüdləri aradan qaldırdı. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 231 milyard dollara çatması ölkəmizin bu gününə və gələcəyinə, ən əsası həyata keçirilən siyasətə inamı nümayiş etdirir.

İqtisadi tərəqqi demokratik islahatların sürətini artırır. Demokratik cəmiyyətin varlığını şərtləndirən bütün amillər ölkəmizdə bərqərar olunub. Konstitusiyada əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Ölkədə vətəndaşlara bütün azadlıqlar verilib. Sərbəst toplaşmaq azadlığı yüksək səviyyədə təmin edilir. Çoxpartiyalı sistem yaradılıb. Bu gün ölkəmizdə 40-dan artıq siyasi partiyanın, 3 minə yaxın qeyri-hökumət təşkilatının qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün təkmil qanunvericilik bazasının yaradılması da demokratik inkişafın, sabitliyin əsas göstəricilərindəndir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə- Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir. Ölkədə seçkilərin demokratik, azad, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi üçün təkmil seçki sistemi formalaşdırılıb. 2003-cü ilin mayında Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, həmçinin Avropa Şurası Venesiya Komissiyası ilə birgə əməkdaşlığı nəticəsində Seçki Məcəlləsi qəbul olunub. Daim təkmilləşən, bütün yenilikləri özündə əks etdirən bu sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin, ümumxalq səsverməsinin beynəlxalq standartlara uyğun keçirilməsini şərtləndirir. Cari il ölkəmizdə prezident seçkiləri ilidir. Aprelin 11-də keçiriləcək prezident seçkilərinin demokratikliyini, şəffaflığını təmin etmək üçün dövlətimiz bütün zəruri addımları atır. Bütün bunlar ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir, Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarından həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırır. 2001-ci ilin yanvarında Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması dövlətimizin demokratik prinsiplərə sadiqliyinin bariz nümunəsidir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz.

Son 14 ildə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın ən yüksək zirvələri fəth etməsini şərtləndirir. Hazırda Azərbaycanın adı dünyanın xoşbəxt, islahatçı ölkələrinin sırasında çəkilir. İqtisadi imkanlarını günbəgün genişləndirən ölkəmizin beynəlxalq nüfuzu artır, əsl söz sahibinə çevrilir. Azərbaycanda sabitliyin, iqtisadi inkişafın davamlılığı yeni-yeni hədəflərə yol açmaqla yanaşı, yeni-yeni tərəfdaşlar qazanmasına da stimul verir. "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyində "Cənub Qaz Dəhlizi"nin təməlinin qoyulması, ötən il "Yeni əsrin müqaviləsi"nin imzalanması çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə yönələn addımların əsas tərkib hissələridir. Təbii ki, bu uğurları şərtləndirən amillər sırasında iqtisadi və siyasi islahatların paralel şəkildə aparılması hər zaman xüsusi qeyd edilir. Ölkəmizin demokratiya təcrübəsi digər dövlətlərə nümunə göstərilir. Bu gün Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün əsas məkan seçilməsində də demokratik inkişafı əhəmiyyətli rol oynayır. Ölkəmizdə olan qonaqlar inkişafdan heyrətlərini gizlətməyərək, dövlətimizin həyata keçirdiyi siyasətə xalqın dəstəyini böyük məmnunluq hissi ilə qeyd edirlər.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan Azərbaycan atdığı hər addımında bu prinsiplərə sadiqliyini təsdiqləyir. Dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, atılan addımlar hansısa təşkilata, dövlətə xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür. Məlum olduğu kimi, qarşıdakı illər üçün əsas hədəf Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görməkdir.

Uğurlarımıza qısa baxış bu gerçəkliyi bir daha təsdiqləyir ki, möhkəm təməl üzərində qurulan Azərbaycan iqtisadiyyatı inkişaf yolunda inamla irəliləyir. Qarşıdakı illərdə ölkəmizi daha böyük uğurlar gözləyir. Bu inama əsas verən əsas amil isə Heydər Əliyev siyasəti və xalqın bu siyasətə böyük dəstəyidir. Dövlətimizin başçısı İlham Əliyevin bu fikirlərini yada salmaq istərdik: "Qürur hissi ilə deyə bilərəm ki, bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi inkişaf edir, onun qoyduğu yolla gedir, güclənir, möhkəmlənir və çox güclü regional amilə çevrilibdir."

Təbii ki, uğurlarımıza sevinən qüvvələrlə yanaşı sevinməyənlər də var. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında bu məqama da xüsusi diqqət yönəldir. "Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır və beynəlxalq aləmdə Azərbaycanın çox gözəl nüfuzu vardır. Əgər belə olmasaydı bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsiz Şurasına qeyri-daimi üzv seçməzdi" söyləyən cənab İlham Əliyev bildirir ki, Azərbaycana qarşı beynəlxalq mediada ədalətsiz kampaniya aparılır. Bu kampaniya ona görə ədalətsizdir ki, ikili standartlar əsasında qurulubdur: "Hər bir ölkədə qüsurlar, çatışmayan cəhətlər və sair var. Biz özümüz onları yaxşı bilirik və həll etməyə çalışırıq. Ancaq ümumi regional kontekstdən Azərbaycanı seçib hədəfə çevirmək, əlbəttə ki, ikili standartlar və anti-Azərbaycan siyasətinin əlamətidir... Ümumiyyətlə, hər bir ölkənin yerinin müəyyən edilməsi siyasəti var. Elə bil ki, kimsə burada bu ölkələrin reytinqini, yaxud da, tutduğu yerləri müəyyən etməyə çalışır." Amma dünyanın bu reallıqları fonunda bu fikri də böyük inam və qətiyyətlə bildiririk ki, bu kampaniya Azərbaycanın daxili və xarici siyasətinə heç bir təsir etməmişdir və heç vaxt etməyəcək. Çünki dövlətimizin siyasətinin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır. İqtisadi tərəqqi, daxili sabitlik, xalq-iqtidar birliyinin sarsılmazlığı qarşıya qoyulan hər bir məqsədə yüksək səviyyədə nail olmağa əsas verir. Azərbaycan qarşıdakı illərdə inkişaf etmiş ölkələr sırasında addımlamaqla bir daha düzgün qurulan siyasətin uğurlarını dünyaya təqdim etmiş olacaq. Cənab İlham Əliyev uğurlarımıza söykənərək bildirir:" "Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq."

Azərbaycanın müstəqillik tarixində keçdiyi yolu, əldə etdiyi uğurları və təcrübəni bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. "Azərbaycan Xalq Cümhuriyyəti İli" bu yolun ayrı-ayrı mərhələlərinə geniş işıq salmağa yardımçı olacaq.

İki sahil.-2018.-27 fevral.-№38.-S.16.

Без Гейдара Алиева не было бы независимого Азербайджана

Беседа с депутатом Милли Меджлиса Фаттахом Гейдаровым

Эльмира Ахундова,
писатель, публицист, депутат Милли Меджлиса

От автора:

22 февраля 2018 года Президент Азербайджана Ильхам Алиев наградил и лично вручил орден «Истиглал» депутату Милли Меджлиса, председателю Совета аксакалов Азербайджана Фаттаху Гейдарову.

Фаттах муаллим является одной из тех уникальных личностей, которые еще с советских времен входили в команду великого Гейдара Алиева. В 70-80-е годы Фаттах Гейдаров был руководителем ряда районов республики, возглавлял Министерство бытового обслуживания Нахчыванской АССР. После обретения независимости работал в Нахчыване министром культуры, а с 1995 года является депутатом Милли Меджлиса Азербайджана.

Фаттах Гейдаров был не только соратником, но и верным другом выдающегося политического деятеля Гейдара Алиева. Они особенно сблизились в начале 90-х годов XX столетия, когда Гейдар Алиев переехал из Москвы в Нахчыван. Впоследствии сам Фаттах муаллим весьма колоритно и очень искренне рассказал автору этих строк о своих взаимоотношениях с великим политиком, о тех беседах и разговорах, которые они не раз вели в Нахчыване за чашкой чая. Эти и другие беседы с Фаттахом муаллимом стали украшением моего шеститомника «Гейдар Алиев. Личность и Эпоха».

Я от души поздравляю своего старшего друга и коллегу с высокой государственной наградой, желаю ему доброго здоровья и такой же неутомимой энергии во славу родной страны и предоставляю вниманию читателей одну из наших бесед.

Эльмира Ахундова: - В 1990 году Гейдар Алиев приехал в Баку, а оттуда улетел в Нахчыван. Вы в то время занимали должность министра культуры автономной республики. Как и при каких обстоятельствах произошла ваша первая встреча, чем она вам запомнилась и каким вы увидели Гейдара Алиева?

Фаттах Гейдаров: - 20 июля 1990 года Гейдар Алиев приехал в Нахчыван. Узнал я об этом только на следующий день, так как находился в Баку. Мне рассказали, что он побывал на центральной площади города, там, где находится могила Гусейна Джавида, и его встретила огромная восторженная толпа соотечественников. По прилете из Баку я тут же пошел в обком. В это самое время Гейдар Алиев вместе с первым секретарем вышли из здания областного комитета, прошли мимо памятника Джалилу Мамедгулузаде в сторону здания Совета Министров, где стояли машины. Я подошел к ним, поздоровался с Гейдаром Алиевичем, который сразу же меня узнал. Афияддин Джалилов представил меня: «Это Фаттах муаллим, наш министр культуры». Гейдар Алиевич меня обнял, чуть наклонившись вперед из-за разницы в росте. Мы расцеловались.

- Гейдар Алиевич, - сказал я, - меня вчера здесь не было, но я знаю, что вас встречало много людей. Народ любит вас.

Честно говоря, первые мои впечатления от нашей встречи были очень тяжелыми. Я привык видеть его жизнерадостным, сильным, бодрым. А в тот день встретил усталого человека, бледного, исхудавшего. Только приветливое выражение его лица, искренность и теплота во взгляде немного успокаивали.

- Гейдар Алиевич, - сказал я, - если позволите, я завтра зайду к вам домой.

- Приходи в любое время. Я приехал сюда навсегда. Приехал, чтобы быть вместе с вами.

Мы прошли вместе до машин, он сел в автомобиль и уехал домой.

На следующий день я решил посетить его. Он жил по улице Пушкина, недалеко от телестудии, в доме своей сестры. Хозяев я хорошо знал. Гулу киши, муж сестры Гейдара Алиева, уважаемый в Нахчыване аксакал, был моим другом. Гулу киши дружил и с моим отцом. Так что этот двор был мне давно знаком.

…Гейдар Алиевич встретил меня приветливой улыбкой. Незадолго до этого, с 30 марта по 14 апреля 1990 года, я находился в Турции с официальным визитом. Принимали меня на самом высоком уровне, организовали встречу почти со всеми министрами страны, а также главами девяти областей Турции.

Когда возвращался, мне подарили много разных сувениров, и среди них два Корана, переведенных на турецкий язык. Внутри шел текст на турецком, а по краям страниц - на арабском языке. Один экземпляр Корана я взял с собой и еще небольшой сувенир из Турции.

Сели, разговорились, дочери Санифы ханым подали нам чай. Гейдар Алиев стал расспрашивать о ситуации в Нахчыванской Автономной Республике. Сам в свою очередь рассказал мне о событиях в Баку, о том, как его встретили, пытались устроить провокации.

- Мы за всем этим следили, Гейдар Алиевич, - сказал я, - и очень за вас переживали.

Когда я преподнес ему турецкий сувенир, он сказал:

- Положи на стол.

А когда я поднес ему Коран, он неожиданно для меня поцеловал его, прижал к глазам и спросил:

- Ты читал его?

- Это перевод на турецкий язык, - ответил я.

Он с почтением положил книгу на стол и сказал:

- Я читал Коран. В переводе Крачковского. А здесь какой перевод?

- Я тоже читал перевод Крачковского. Но здесь очень точный и глубокий перевод.

Он посмотрел на меня и улыбнулся:

- Ты был секретарем райкома и у тебя было время читать эту книгу?

- Честно говоря, у нас в семье всегда был Коран, только его прятали.

Он засмеялся:

- У нас тоже так было. И какое же отличие в переводах ты нашел?

Я вспомнил одну вещь. У Крачковского в суре «Поэты» написано: «Не верьте поэтам. Они лжецы». А в турецком переводе совсем другой смысл: «Не верьте вслепую словам поэтов. Они любят приукрасить». То есть надо понимать, что именно они хотят сказать.

Гейдар Алиев засмеялся.

- Я тоже тогда обратил внимание на это выражение. Ты верно подметил.

Долго мы в тот день с ним беседовали…

После этого я постоянно, если находился в городе, раз в два-три дня посещал его. Он не спрашивал, почему я так часто прихожу к нему, напротив, ему нравились наши беседы. Мы с ним обсуждали самые разные вопросы.

Должен честно признаться: я был потрясен. Думал: господи, человек, поднявшийся на такие вершины, такая выдающаяся личность - и в столь незавидном положении!.. Я был знаком с командованием 4-й армии, расквартированной в республике, а так как работал в приграничных районах, то часто общался и с командованием погранвойск. Слышал их мнение о Гейдаре Алиеве, о том, какие надежды они с ним связывали после кончины Андропова, затем Черненко. Помню, к нам как-то приехал командующий Сибирским военным округом. Мы собрались вместе в Баку, и я слышал, как он и его коллеги отзывались о Гейдаре Алиевиче. Они прямо говорили о том, что он станет первым человеком в стране. Для меня Гейдар Алиев был великим человеком, который скорее других мог найти пути решения возникающих проблем, причем найти самый простой способ. Я в свое время прочитал много книг, всю мировую классику. Часто думал о героях мировой литературы, анализировал их образы, поступки и, знаете, порой воспринимал Гейдара Алиева как одного из героев этой литературы. Вообще для меня он всегда был политиком мирового масштаба. Поэтому, когда я в первую встречу увидел его в таком состоянии, содрогнулся. Во мне возникла внутренняя потребность быть рядом с ним, поддержать его, делиться с ним наболевшим, поднимать его дух.

К тому же меня мучила ситуация, в которой оказался Нахчыван. Из приграничных районов каждый день привозили тела погибших. Шла необъявленная война. У нас было село Кярки. Это словно Нагорный Карабах в Нахчыване. Само село было нашей территорией, однако земля между Кярки и Садараком в 60-е годы была отдана нашим прежним руководством армянам. Селение походило на остров посреди вражеского окружения, со своим клубом, библиотекой, медпунктом, посевными площадями. Связь постоянно прерывалась, началось противостояние. И руководители Нахчывана вывезли оттуда сперва детей, потом женщин, позже стариков. В Кярки осталось 17-18 молодых парней, и русские военные предупреждали нас, что их могут убить. Поэтому вывезли оттуда и их, и весь общественный скот. Село полностью оказалось в руках армян. Я рассказал об этом Гейдару Алиеву. Он был потрясен и очень недоволен тем, что деревню фактически отдали армянам.

Помню еще один случай. Как-то пришел к Гейдару Алиеву. Выпили чай, поговорили. Я предложил ему прогуляться. В то время у меня была единственная на весь Нахчыван японская видеокамера. Даже на телевидении подобной не имелось. И вот я подумал: каждая минута жизни Гейдара Алиева - это история. Ее надо запечатлеть. Сначала заснял Гейдара Алиева на фото- и видеокамеру около его отцовского дома,

вроде бы брал у него интервью. Я в то время много фотографировал его, снимал на видеокамеру, а потом все фотографии и кассеты отдавал ему самому.

Однажды решил отвести Гейдара Алиевича к его бюсту. Он, честно говоря, не хотел идти, была в нем какая-то внутренняя обида на своих недоброжелателей. Он имен не называл, но обида на власть в нем сидела. Я знал подоплеку событий и потому придумал ненавязчивый сценарий встречи. Мы вышли погулять, я предложил ему пойти к мавзолею Момине хатун, где под открытым небом организовал музей, привез туда старинные камни с древними арабскими надписями из Нахчывана, Западного Азербайджана, других районов. Он заинтересовался:

- Очень интересно, я с удовольствием посмотрю этот музей.

Приехали мы туда, ходим, прогуливаемся, а ребята нас снимают.

Он подошел к камням.

- Кажется, этот из Джульфы, - сказал он, - а этот из Сисиана.

Это были надгробные камни с арабской вязью и интересными изображениями. Он рассматривал камни очень внимательно, задавал вопросы. А потом подошли к мавзолею Момине хатун. Гейдар Алиевич спрашивает:

- Ты знаешь, что наверху написано?

- Сам я прочитать не могу, - отвечаю, - но мне сказали, что здесь выбиты примерно следующие слова: «Мы уйдем, а мир останется, мы уходим, но остаются наши дела».

- Да, верно, а недавно это изречение, кажется, переложили на стихи. Я где-то на них наткнулся.

Мы подошли прямо к Момине хатун.

- Вот здесь, почти во всех 10 гранях мавзолея, говорят, 6666 раз повторяется слово «Аллах».

Он положил руку на резной орнамент. Мы его сфотографировали, эта фотография потом везде тиражировалась.

- Гейдар Алиевич, - сказал я, - вы уехали в Москву, теперь вернулись в Нахчыван. Самый лучший ваш подарок Нахчывану - этот Дворец культуры. Если помните, когда я работал первым секретарем в Ордубаде, вы обсуждали этот проект. Собрали нас всех и спрашивали, где мы планируем его построить. В то время вы сделали очень большое дело, ведь на строительство объектов культуры тогда средств почти не выделяли. А вам удалось выбить необходимые финансы в Москве. И вот когда вы уехали в Москву, а я стал здесь министром культуры, мне довелось курировать строительство этого здания.

Сейчас этот Дворец культуры носит имя Гейдара Алиева. Там могут разместиться 1100 человек зрителей в большом зале и 400 человек - в малом. Во дворце была сооружена уникальная для того времени вращающаяся сцена. Все необходимые детали, оборудование получали из Саратова, Тюмени, Киева, Умани, Ленинграда, Москвы. За многим ездил лично. И постоянно, когда Гейдар Алиев уже работал в Москве, я звонил его помощнику, информировал, куда и зачем еду. Он давал поручения местным властям, и меня везде встречали на уровне, помогали, организовывали погрузку оборудования. Строительство началось еще в то время, когда Гейдар Алиев работал в Баку. Потом, когда он уехал в Москву, все затормозилось. И только когда я стал министром культуры, работы возобновились. Завершилось строительство где-то в 1985-86 годах.

И вот показываю ему на эти надписи на мавзолее и говорю:

- Здесь все написано правильно. Мы уйдем, а наши дела останутся. Вы создали этот Дворец, Гейдар Алиевич, и вообще весь нынешний облик Нахчывана - ваша заслуга.

Ведь в Нахчыване до него не было здания выше двух этажей. Трехэтажные дома и то были большой редкостью.

- Ну и как, работает Дворец? - спросил он.

- Все замечательно. К нам приезжают артисты из Баку, гастролировал Театр музыкальной комедии. Приезжают различные коллективы. Здесь даже выступал Государственный симфонический оркестр.

- Да что ты говоришь!

- И оркестр Рафика Бабаева приезжал.

- Если кто-то приедет, предупреди меня.

Неподалеку был еще один небольшой музей, также построенный при Гейдаре Алиеве. Я предложил взглянуть на него. Рядом мы соорудили открытый зрительный зал, типа античных амфитеатров. Гейдар Алиев с интересом осмотрел постройку.

- И сюда зрители приходят? - спросил он.

- Да, и здесь бывают спектакли.

Оттуда я провел его к месту, которое называется «Девичий родник». Знал, что в молодости он очень любил это место. У источника он умылся, выпил воды.

- А вода та же, - сказал Гейдар Алиевич. - Во времена моей молодости здесь собирались влюбленные. Девушки приходили сюда за водой, а парни смотрели на них, выбирали себе невест.

Мы все это снимали на видеокамеру. А потом прошли мимо бюста, и Гейдар Алиев наконец увидел памятник. До этого он ведь его только по фотографиям знал. На открытии бюста его не было. Приехал первый секретарь ЦК Кямран Багиров, рядом с ним стоял первый секретарь обкома. Открытие получилось сухим, формальным. И все были какие-то зажатые. Я тогда даже упрекнул Кямрана Багирова, мы с ним вместе учились в партшколе, нас связывали нормальные дружеские отношения.

- Что вы так все торопливо делаете? Как будто через силу…

Он протянул руку вперед и сказал:

- Разве не видишь, что творится?

Это был уже 1986 год. Гейдар Алиев - еще член Политбюро, но процесс его выживания из руководства СССР уже начался.

…Вот такими были первые дни и месяцы нашего общения. Забота, внимание, любовь, которыми окружили его простые нахчыванцы, сказывались на его самочувствии, он поздоровел, окреп, воспрял духом.

К нему приходили аксакалы. Говорили: «Я в свое время построил сыну дом. Но он живет в Баку. Вот ключи, пожалуйста, живите там. Пейте воду из горных родников. А мы каждый день будем приносить вам молоко, сливки». Однажды какой-то мужчина даже привел ему свою корову. «Пусть она находится у вас, ваши родные будут ее доить и давать вам свежее молоко».

Гейдар Алиевич благодарил за эти знаки внимания, но не принимал их.

Подобных случаев было много.

Э.А.: - А как он стал депутатом? Он готовился к этому?

Ф.Г.: - Мне кажется, что у него не было такого намерения. Расскажу один эпизод. Еще до работы на посту министра культуры НАР у меня сложились хорошие отношения с представителями различных сфер. Долгие годы я работал в сельской глубинке, любил общаться с простыми людьми. И они меня все хорошо знали. И вот одна группа аксакалов говорит мне, что хотела бы видеть Гейдара Алиева в мечети. Я передал ему эту просьбу.

Честно говоря, он удивился.

- Странно это как-то, зачем я им?

- Ничего странного. Вы аксакал нашей республики, признанный в стране человек. А они - простые нахчыванцы, которые хотят увидеться со своим знаменитым земляком. Хотите, даже в мечеть не заходите, просто войдите во двор.

- Нет, я в молодости заходил в эту мечеть, хочу увидеть, какой она стала сейчас.

Сели в машину и поехали в мечеть. Машину оставили чуть в стороне. Пока он дошел до мечети, пока входил, там уже набралось много народа. Мы вошли внутрь. Кто-то начал хлопать, кто-то здравицы произносить в его честь.

- Это что, все организовано? - удивился Гейдар Алиев.

- Вы же видели, когда мы вышли из машины, никого не было. Но я обещал людям, что вы их навестите. Они ждали.

Вошли в мечеть, все приветствуют его: «Добро пожаловать… Да будет благословен твой приход... С твоим возвращением Нахчыван осветился… Мы уверены, что это Аллах послал тебя к нам».

Он стал разговаривать с людьми, вспоминать многих, кого уже не было в живых. Потом принялся подбадривать народ: «Наберитесь терпения, - говорил он, - скоро станет полегче. Эти несчастья надо пережить. Они не продлятся долго».

Ахунд мечети, молодой парень, тоже сказал ему много теплых слов. Вдруг один из присутствующих, учитель, сказал, что в республике начинается предвыборная кампания в парламент и что Гейдар Алиев должен выдвинуть свою кандидатуру.

Гейдар Алиевич обернулся и удивленно посмотрел на меня.

- Ты меня для этого привез сюда?

- Гейдар Алиевич, это просто пожелания людей.

Оратора поддержали все верующие, находившиеся в тот день в мечети. Так что впервые мысль о депутатстве Гейдара Алиева прозвучала на этой встрече.

Несколько дней спустя мы с Гейдаром Алиевым побывали в музее Джамшида Нахчыванского, затем он встретился с коллективом городской поликлиники, и там тоже рефреном звучала мысль о том, что Гейдар Алиев должен выдвинуть свою кандидатуру в депутаты.

А однажды Гейдара Алиева пригласили в Ордубад, в селение Айлис. Я отправился в поездку вместе с ним. Когда проезжали Джульфу, увидели, что там проходит митинг. Тогда ведь по всей республике шли митинги против несправедливой политики Москвы в вопросе армяно-азербайджанского

конфликта, нерешительности руководства республики, звучали лозунги: «Даешь свободу! Даешь независимость!».

Митинг проходил в небольшом парке в центре города, недалеко от железнодорожного вокзала. Я предложил Гейдару Алиевичу выйти, поприветствовать участников митинга.

- Стоит ли? - засомневался Гейдар Алиев.

- Вы просто поприветствуйте их. Они ждут слова аксакала.

Он вышел и очень хорошо там выступил. Люди устроили ему настоящую овацию.

Оттуда мы поехали в Айлис. А в Айлисе люди сидят в чайхане, общаются - это место там называется «мейдан». Увидели Гейдара Алиева, и все тут же собрались на мейдан. Начались выступления. В числе прочих прозвучало предложение о выдвижении Гейдара Алиева депутатом от Нахчывана. Один айлисец встал и прямо сказал:

- Мы хотим, чтобы вы стали депутатом в Верховном Меджлисе Нахчывана. Мы выдвигаем вашу кандидатуру.

Он обернулся и ТАК посмотрел на меня.

- Что это за разговоры? Я приехал по вашей просьбе увидеться с людьми, взглянуть на эти исторические места...

Другой человек выступил и сказал:

- Мы хотим, чтобы вы были нашим депутатом и в Нахчыване, и в Азербайджане.

Когда мы возвращались, он упрекнул меня:

- Ты это все подстроил заранее.

- Я тут ни при чем. Этого хотят во всем Нахчыване. Вот и Неграм поднялся, хочет вас видеть. И так везде.

Словом, эта идея крепко завладела умами и сердцами простых нахчыванцев.

***

Была у нас фабрика трикотажного белья. Глава их профсоюза как-то пришел ко мне.

- Фаттах муаллим, наш коллектив хочет провести встречу с Гейдаром Алиевым.

- Хорошо, я поговорю с ним.

А я обо всех наших встречах заранее предупреждал секретаря по идеологии обкома партии. Секретарь, кстати, испугался, стал сомневаться. Тогда я сообщил о приглашении Афияддину Джалилову. Он сказал:

- Конечно, езжайте, я тоже подъеду.

Приехали мы на фабрику. Там маленькая сцена, небольшой зал. Но в тот день он превратился в территорию большого митинга. Мало того, что люди толпились во дворе, все дороги вокруг были полны народа. Васиф Талыбов, кстати, работал в то время заместителем месткома фабрики и сыграл большую роль в организации этой встречи. Гейдар Алиев с Афияддином Джалиловым сели рядом на сцене. Начались выступления.

Снова стали говорить о том, что Гейдара Алиева следует выдвинуть в депутаты от Нахчывана. Я, честно говоря, даже немного заволновался. Неожиданно для самого себя вышел вперед и попросил слова.

- Я не записывался в выступающие, но хочу кое-что сказать. Некоторое время назад в известной московской газете вышла статья «Бурные аплодисменты». Там написали, будто Гейдар Алиев вынуждал народ аплодировать ему, восхвалять его. Сочинившие эту клевету люди глухи и слепы. Пусть они приедут сюда и увидят, что аплодируют не должности Гейдара Алиева, а его личности.

Тут снова зазвучали бурные аплодисменты.

- У Гейдара Алиева сейчас нет никакой должности, он простой пенсионер. И тогда, и сейчас люди аплодировали масштабу его личности. Это все, что я хотел вам сказать.

Мое короткое выступление ему понравилось.

Когда мы сели в машину, он спросил:

- Как ты нашел эти слова?

- Гейдар Алиевич, то, что было написано в этой статье, больно ранило всех нас. Ведь за автором этой статьи стоял азербайджанец. Эту и подобные статьи в московской и республиканской прессе организовывали люди, которых вы в свое время выдвигали наверх. Это самое обидное.

- Что поделаешь? Так уж получилось.

А в ЦК партии уже выдвигали кандидатов. В то время Народный фронт усиливал свои позиции и тоже выдвинул своих кандидатов. Все районы Нахчывана предложили кандидатуру Гейдара Алиева, однако наиболее активным оказалось селение Неграм. По Неграмскому избирательному округу он в конце концов и согласился выдвинуть свою кандидатуру, потому что это было желанием всего народа.

Окончание следует

Каспій. - 2018. – 24 февраля. - № 37. - С. 10-11.

Müstəqil Azərbaycanda intellektual tərəqqi hərəkatının son on beş ili: hakimiyyətlə intellektin vəhdəti

Akif Əlizadə,
AMEA-nın Prezidenti, Akademik.

Bu il bütün müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü tamam olur. Ölkəmizin qədim dövlətçilik ənənələrinə malik olmasının nəticəsidir ki, yüz il bundan əvvəl, 1918-ci ildə bütün müsəlman dünyasında ilk demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır. Qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti demokratik dövlət idarəetmə mədəniyyətinin, müasir tipli elm və təhsil infrastrukturunun, milli-ideoloji düşüncə standartlarının bərqərar olmasında müstəsna rol oynamışdır. Ona görə də bu yubiley yalnız Azərbaycan xalqı üçün deyil, bütün türk və İslam dünyası üçün olduqca əlamətdar bir hadisədir. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi, eləcə də ölkəmizdə və xaricdə silsilə tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ilin "Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı tarixi Sərəncam imzalamışdır.

Xalqımızın dövlətçilik ənənələrini, azadlıq, müstəqillik eşqini öz qəlbində daim yaşatmasının nəticəsidir ki, 70 illik sovet hakimiyyətindən sonra Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etmiş, bütün çətinliklərə baxmayaraq, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində onu qoruyub saxlamağa nail olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq qurulan müstəqil Azərbaycan artıq otuz ilə yaxın bir müddətdə öz strateji hədəflərinə doğru inamla addımlamaqda, dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq aləmə inteqrasiya olunmaqda, sosial-iqtisadi və mədəni-mənəvi baxımdan sürətlə inkişaf etməkdədir.

Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi və mədəni-mənəvi inkişafının son on beş illik tarixi bilavasitə Azərbaycan Respublikasının Prezidenti, hazırda dünya siyasi liderləri sırasında intellektual potensialına görə xüsusilə fərqlənən, müasir imicli siyasi xadim kimi böyük nüfuza malik olan cənab İlham Əliyevin adı ilə bağlıdır. Dövlətçilik ənənələri baxımından olduqca əlamətdardır ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin yüz illik yubileyi həm də cənab İlham Əliyevin müstəqil Azərbaycana rəhbərliyinin on beşinci ilinin tamam olduğu bir vaxta təsadüf edir.

Təbii ki, hər bir tarixi mərhələnin tamam olması bir tərəfdən həmin dövrün dəyərləndirilməsini, obyektiv qiymətləndirilməsini, digər tərəfdən isə növbəti inkişaf mərhələsi üçün perspektivlərin müəyyənləşdirilməsini tələb edir. Bizim bu məqalədə əsas məqsədimiz İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi son on beş il ərzində Azərbaycan elminin inkişaf tendensiyalarını, müxtəlif istiqamətlər üzrə bu sahədə görülən işləri, həyata keçirilən tədbirləri, əldə olunan nailiyyətləri nəzərdən keçirməkdir. Cənab İlham Əliyev on beş il bundan öncə Prezidentlik fəaliyyətinə başlayarkən "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etdi. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, son on beş ildə ölkənin sosial-iqtisadi, mədəni-mənəvi tərəqqisinə adekvat olaraq ardıcıl və sürətlə inkişaf edən istiqamətlərdən biri elmi fəaliyyət sahəsi olmuşdur. Bu illər ərzində istər elmin maddi-texniki bazasının gücləndirilməsi, istər onun infrastrukturunun müasir tələblər səviyyəsində təşkili, istərsə də elmin prioritetlərinin dünya elminin inkişaf tendensiyaları və ölkənin tələblərinə uyğunlaşdırılması istiqamətində bir sıra əhəmiyyətli nailiyyətər əldə edilmişdir.

Hesab edirik ki, son on beş ildə elmi fəaliyyət sahəsinin hərtərəfli təhlili, bu illər ərzində həyata keçirilən çoxsaylı tədbirlərin sistemli şəkildə təqdimi, bu istiqamətdə əldə edilmiş nailiyyətlərin müəyyənləşdirilməsi üçün həmin mərhələyə ayrılıqda götürülən üç beşillik üzrə nəzər salmaq daha məqsədəuyğundur.

2003-2008-ci illər: "neft kapitalının insan kapitalına çevrilməsi" sosial-iqtisadi inkişafın əsas formulu kimi

2003-2008-ci illər müasir Azərbaycanın tarixində müstəqil dövlət quruculuğu baxımından mühüm əhəmiyyətə malik ayrıca bir mərhələdir. Məhz 2003-cü ildən başlayaraq cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi siyasətə uğurla rəhbərlik etməyə başladı. Davamlı sosial-iqtisadi inkişafa nail olunması, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun sürətlə artması, strateji məsələlərin həllində müstəqil və prinsipial mövqeyin ardıcıl olaraq güclənməsi, dünya enerji təhlükəsizliyində ölkəmizin rolunun genişlənməsi, sosial-iqtisadi, ictimai-siyasi və humanitar sahələri əhatə edən çoxsaylı Dövlət proqramları və konsepsiyaların uğurla həyata keçirilməsi ilə Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlətin daha da möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli uğurlar əldə edildi. Nəticədə, 2003-2008-ci illərdə Azərbaycan sosial-iqtisadi inkişaf tempinə görə dünya dövlətləri arasında ön sıralara yüksəldi, ən müxtəlif

parametrlər üzrə real rəqəmlərdə əks olunan göstəricilərinə görə isə regionun lider dövlətinə çevrildi. Belə bir şəraitdə elmi fəaliyyət sahəsində müşahidə olunan inkişaf tempi getdikcə sürətlənməyə və özünün keyfiyyətcə yeni mərhələsinə qədəm qoymağa başladı.

2003-2008-ci illərdə Azərbaycan elminin inkişafını şərtləndirən mühüm amilləri aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq mümkündür:

1. Elmin inkişafının dövlət siyasətinin strateji əhəmiyyətli prioritetlərindən birinə çevrilməsi;

2. Ölkənin sosial-iqtisadi inkişaf strategiyasının müəyyənləşdirilməsində insan kapitalının prioritet istiqamətlərdən biri olaraq dövlət siyasəti səviyyəsində təsbiti;

3. Dövlət və vətəndaş cəmiyyəti quruculuğunda elmin yerinin və rolunun müəyyənləşdirilməsi;

4. Bütün bunların nəticəsi olaraq dövlətin elmi fəaliyyət sahəsində aşağıda qeyd olunan istiqamətlərdə mühüm tədbirləri həyata keçirməsi:

lalimlərin sosial vəziyyətinin yaxşılaşdırılması, elmi fəaliyyətin stimullaşdırılması və elmin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi;

lelmi kadr potensialının gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin gerçəkləşdirilməsi;

lhumanitar siyasət sahəsində uzunmüddətli layihələrə start verilməsi;

lelmi potensialın dövlət siyasətinin, xüsusən milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində yaxından iştirakı.

Məlumdur ki, elmi fəaliyyət sahəsində ən mühüm amillərdən biri onun lazımi səviyyədə və effektiv mexanizmlər əsasında maliyyələşməsinin, maddi-texniki bazasının gücləndirilməsinin təmin edilməsidir. Ötən əsrin doxsanıncı illərinin ortalarından ümummilli lider Heydər Əliyev tərəfindən start verilən bu istiqamətdəki tədbirlər 2003-cü ildən ardıcıl olaraq davam etdirilməyə başlandı, alimlərin şərəfli və ağır fəaliyyətinin stimullaşdırılması sahəsində ölkə başçısı tərəfindən bir sıra mühüm sərəncamlar verildi. Konkret olaraq, 2005 və 2006-cı illərdə alimlərin əməkhaqları və doktorantların təqaüdləri, 2007-ci ildə isə AMEA-nın həqiqi və müxbir üzvlərinin rütbə maaşları əhəmiyyətli dərəcədə artırıldı. Bundan əlavə, çoxsaylı alimlər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü və müxtəlif dövlət mükafatları ilə təltif edildilər. Bir faktı xüsusilə qeyd etmək istərdik. 2008-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat müəssisələrindən biri olan Geologiya İnstitutunun yubileyi münasibətilə İnstitutun dörd əməkdaşı Prezidentin fərdi təqaüdünə, üç əməkdaşı "Azərbaycan Respublikasının əməkdar elm xadimi" fəxri adına, iki əməkdaşı "Şöhrət" ordeninə, otuz beş əməkdaşı isə digər təltiflərə layiq görülmüşdür. Bu kimi faktları digər institutlar haqqında da demək mümkündür.

2005-ci ildə zəngin elmi ənənələri olan Azərbaycan xalqının intellektual potensialının formalaşmasında, ümumən onun sosial-ictimai tərəqqisində mühüm rol oynayan Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 60 ili tamam olmuşdur. Bu əlamətdar hadisənin - Akademiyanın 60 illik yubileyinin respublika miqyasında təntənəli şəkildə qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tarixi Sərəncam imzaladı. Sərəncamdan irəli gələn vəzifələri rəhbər tutaraq, 2005-ci ildə elmin populyarlaşdırılması və təbliği, beynəlxalq və respublika miqyaslı çoxsaylı tədbirlərin - konfrans və simpoziumların keçirilməsi, gənclərin elmi fəaliyyətə cəlb edilməsi, Akademiyanın tarixi haqqında kitabların nəşri və s. istiqamətdə çoxsaylı yubiley tədbirləri həyata keçirildi. Cənab İlham Əliyev özü şəxsən AMEA-nın 60 illik yubileyinə həsr olunmuş tədbirdə iştirak etdi. Yubiley münasibətilə AMEA-nın çoxsaylı əməkdaşları bir sıra dövlət mükafatlarına layiq görüldülər. Bütün bunlar Azərbaycanın müqəddəs elm məbədi olan Elmlər Akademiyası əməkdaşlarında dərin ruh yüksəkliyi yaratdı, burada aparılan elmi araşdırmaların, elmi-təşkilati fəaliyyətin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına təkan verdi.

2003-2008-ci illərdə elmi fəaliyyət sahəsində həyata keçirilən işlərin mühüm istiqamətlərindən biri də elmin maddi-texniki bazasının yaxşılaşdırılması olmuşdur. Məlum olduğu kimi, Akademiyanın, əsasən, Bakı şəhərində yerləşən elmi-tədqiqat müəssisələrinin binaları ötən əsrin 60-70-ci illərində istifadəyə verilmişdir. 2000-ci ilin əvvəllərində isə paytaxtın sürətlə yeniləşən siması fonunda bu binalar nisbətən arxaik təsir bağışlamağa başlamışdır. Məhz 2003-2008-ci illərdə Milli Azərbaycan Tarixi Muzeyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Azərbaycan Etnoqrafiya Muzeyinin yaradılması, Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının yenidən qurulması haqqında ölkə başçısı tərəfindən ardıcıl sərəncamlar imzalandı. Həmin sərəncamların icrası nəticəsində Akademiyanın çoxsaylı binaları ən müasir səviyyədə təmir edildi, lazımi avadanlıqlarla təchiz olundu.

2003-2008-ci illərdə yüksəkixtisaslı kadr potensialının formalaşdırılması sahəsində də əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Məlumdur ki, yüksəkixtisaslı kadr potensialı, onların davamlı olaraq yenilənməsi, gəncləşdirilməsi elmi fəaliyyətin əsasını təşkil edir. Məlumdur ki, ötən əsrin səksəninci illərinin ortalarından əsrin sonlarına doğru Azərbaycanda akademik kadr potensialı ciddi şəkildə zəifləmiş, ölkədən xaricə beyin axını güclənmiş, mövcud kadr sistemində kəskin qocalma tendensiyası müşahidə olunmağa başlanmışdır. Təkcə bircə faktı qeyd etmək istərdik. Akademik kadr potensialının formalaşması baxımından olduqca mühüm əhəmiyyətə malik AMEA üzvlüyünə seçkilər 1989-cu ildən 2001-ci ilədək ümumiyyətlə keçirilməmişdir. 2001-ci ildən sonra

isə növbəti seçki məhz 2007-ci ildə keçirilmiş, elmin bu və ya digər sahəsində xüsusi xidmətləri olan alimlər Akademiyanın həqiqi və müxbir üzvləri, eyni zamanda Rəyasət Heyətinin üzvləri seçilmişlər.

2003-2008-ci illərdə elmin inkişafından danışarkən milli-mənəvi dəyərlərin qorunması, elmin informasiya təminatının gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyətə malik uzunmüddətli humanitar layihələr üzərində xüsusilə dayanmaq lazımdır. Bu layihələrin də ilkin təşəbbüskarı kimi bilavasitə cənab Prezidentimiz İlham Əliyev özü çıxış etmişdir. Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixində imzaladığı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Sərəncam buna parlaq nümunədir. Bu Sərəncamla Milli Ensiklopediya Mərkəzinin yaradılması, onun təşkilati strukturunun qurulması, kadr potensialının gücləndirilməsi, respublikanın bütün elmi potensialının bu işə səfərbər edilməsi sahəsində dövlət tərəfindən olduqca böyük bir humanitar layihə gerçəkləşdirilməyə başlandı.

Az bir müddət ərzində olduqca gərgin zəhmətin, ən əsası, peşəkarlığın nəticəsi olaraq Ensiklopediyanın "Azərbaycan" xüsusi cildi ərsəyə gəldi. Azərbaycan haqqında bilik və məlumatların bütün sahələrini əhatə edən ilk fundamental və universal mənbə olan bu "Kitab", təbii olaraq, müasir mədəniyyətimizin hadisəsi adlandırılmağa layiqdir.

Bu illər ərzində həyata keçirilən humanitar tədbirlərdən biri kimi, 2004-cü ildə Prezidentin dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında Sərəncamını da xüsusilə qeyd etmək istərdik. Bu Sərəncamla nəhəng bir humanitar layihənin əsası qoyuldu. Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri latın qrafikası ilə nəfis şəkildə nəşr edilməyə başlandı. Hazırda istər Ensiklopediyanın cildlərinin hazırlanması, istərsə də dünya ədəbiyyatının nəşri sahəsində işlər uğurla davam etdirilməkdədir.

Məlum olduğu kimi, milli təhlükəsizliyin təmin edilməsi hər bir ölkənin mühüm prioritetlərindən biridir. İntellektual yanaşma və elmi potensial olmadan isə bu məqsədə nail olmaq mümkün deyildir. Bu baxımdan 2007-ci ildə Prezidentin sərəncamı ilə intellektual məzmunlu və elmi təhlükəsizliyi də əsas götürən Azərbaycan Respublikasının Milli təhlükəsizlik konsepsiyasının (elm, ərzaq, iqtisadi, ekoloji, enerji, hərbi, informasiya, təhsil, mədəniyyət və s. təhlükəsizlik istiqamətləri) qəbul edilməsini xüsusi qeyd etmək istərdik. Konsepsiya dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi məqsədi ilə hazırlanmışdır. Konsepsiyada qeyd edilir ki, elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir. Ölkənin davamlı inkişafı üçün adekvat sayda, müasir tələblər səviyyəsində təhsil almış və təcrübə keçmiş peşəkar insan potensialını, həmçinin elmi-texniki tərəqqini təmin etmək zəruridir.

Konsepsiyanın tələblərinə müvafiq olaraq, ölkədə yüksək texnologiyaların, xüsusən də İKT sektorunun inkişafı, kosmik sənayenin formalaşdırılması kimi prioritet elm tutumlu istiqamətlərə böyük dəstək verilməyə başlanılmışdır. Beləliklə, 2003-2008-ci illər dövlətin neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan elmi öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Bu yeni mərhələ elmin maddi-texniki bazasının gücləndirilməsi, alimlərin sosial vəziyyətinin əsaslı olaraq yaxşılaşdırılması, elmin prioritet fəaliyyət sahəsi kimi cəmiyyətdə nüfuzunun artırılması, dövlət siyasətinin həyata keçirilməsində elmi potensialdan səmərəli istifadə edilməsi, elmin informasiya təminatının gücləndirilməsinə xidmət edən uzunmüddətli layihələrə start verilməsi və s. kimi istiqamətlərlə xarakterizə olunur.

2008-2013-cü illər: dövlətin modernləşmə siyasəti kontekstində elmin inkişaf strategiyası

2008-2013-cü illər Azərbaycan elminin inkişafında növbəti mühüm bir mərhələni təşkil edir. Bunun başlıca səbəbi bu illər ərzində Azərbaycanda elmin inkişafı üzrə Strategiyanın və həmin Strategiya ilə bağlı Dövlət Proqramının həyata keçirilməsidir. 2008-ci ilin aprel ayında elmin inkişafı üzrə Milli Strategiyanın hazırlanması və həyata keçirilməsi məqsədilə ölkə başçısı tərəfindən Azərbaycan elmində islahatların aparılması üçün Dövlət Komissiyası yaradıldı və Elmin İnkişafı üzrə Milli Strategiyanın hazırlanması qərara alındı. Komissiya tərəfindən hazırlanan Strategiya 2009-cu ilin may ayında cənab Prezident İlham Əliyev tərəfindən təsdiq edildi. Strategiyanın icrası istiqamətində dövlətin elmi-texniki və innovasiya siyasətinin əsas istiqamətləri müəyyənləşdirildi, elm və texnika sahəsində idarəetmə sisteminin və elmi qurumların strukturunun təkmilləşdirilməsi, beynəlxalq elmi əməkdaşlıq, yüksəkixtisaslı kadrların hazırlanması, xüsusən gənclərin Avropanın xarici elmi mərkəzlərinə göndərilməsi, Akademiyanın dövlət proqramlarının icrasında yaxından iştirakı və s. kimi istiqamətlər üzrə olduqca əhəmiyyətli addımlar atıldı. Həmçinin elm və təhsilin inteqrasiyası, elmi işçilərin sosial müdafiəsinin gücləndirilməsi, elektron elmin formalaşması sahəsində də bir sıra uğurlar əldə edildi.

S trategiyada elmin inkişafı üzrə qarşıya qoyulan mühüm vəzifələrdən biri respublikada elmi-tədqiqat müəssisələrinin sistemli təsnifatı, elmi və elmi-təşkilati fəaliyyətin dəyərləndirilməsi idi. Bu sahədəki işin səmərəli təşkili nəticəsində elmi fəaliyyətin dəyərləndirilməsinin müasir dövrün standartlarına uyğun vahid meyar və prinsipləri işlənib hazırlanmışdır. Həmçinin elmi-tədqiqat müəssisələri ilə bağlı toplanmış məlumatların müvafiq şəkildə qiymətləndirilməsi əsasında elmi fəaliyyətin göstəricilər sistemi yaradılmışdır. Müəyyənləşdirilmiş meyarlar əsasında 2008-2013-cü illər ərzindəki elmi fəaliyyətin ilkin qiymətləndirilməsi həyata keçirilmişdir. Bundan əlavə, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu tərəfindən ölkə üzrə elmi fəaliyyətdə informasiya texnologiyalarının tətbiqinin monitorinqi də uğurla başa çatdırılmış, monitorinqin nəticələri nəşr olunaraq müvafiq qurumlara təqdim edilmişdir. Onu da qeyd etmək istərdik ki, hazırda elmmetrik tədqiqatlar müvafiq elmi qurumlarda prioritet sahələrdən birinə çevrilmişdir. Strategiyada qarşıya qoyulan mühüm vəzifələrdən biri elmi tədqiqatların prioritetlərinin ölkənin strateji, sosial-iqtisadi və ictimai-mədəni məsələlərinin həllinə uyğun müəyyənləşdirilməsi idi. Strategiyada Azərbaycan elminin müasir dövrün tələblərinə müvafiq olaraq bir sıra prioritetləri müəyyənləşdirilmişdir:

lyanacaq-energetika kompleksinin inkişafı;

linformasiya-kommunikasiya sahəsində elmi tədqiqatlar;

lətraf mühitin mühafizəsi və bərpa olunan təbii ehtiyatların davamlı inkişafı sahəsində tədqiqatlar;

liqtisadiyyatın qeyri-neft sektorunun inkişafına yönəldilmiş tədqiqatlar;

lcanlı sistemlər haqqında fundamental tədqiqatlar (biologiya, tibb və s.);

lölkənin ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi ilə kənd təsərrüfatının inkişafı üzrə tədqiqatlar;

lmilli təhlükəsizlik və ölkənin müdafiəsinin təmin olunmasına yönəldilmiş tədqiqatlar;

lmilli-mənəvi dəyərlərin qorunmasına, milli tariximizin, mədəniyyətimizin və dilimizin obyektiv və konseptual tədqiqinə yönəldilmiş humanitar və ictimai elmlər sahəsində araşdırmalar və s.

Bu strategiyanın prioritetlərlə bağlı irəli sürdüyü vəzifələrin icrası üçün AMEA Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Respublikasında aparılacaq elmi-tədqiqat işlərinin prioritet istiqamətləri müəyyən edilmişdir. Bundan əlavə, qeyd olunan prioritetlər üzrə peşəkar tədqiqatların aparılması məqsədilə çoxsaylı digər elmi-təşkilati tədbirlər həyata keçirilmişdir. Strategiyanın icrası üzrə əsas koordinator Azərbaycan Milli Elmlər Akademiyası olmaqla, onun həyata keçirilməsində ayrı-ayrı istiqamətlər üzrə məsul qurumlar da yaxından iştirak etmişlər.

2009-2013-cü illərdə Strategiyanın icrası çərçivəsində Azərbaycan elminin maddi-texniki bazası əhəmiyyətli dərəcədə güclənmiş, neçə-neçə yeni binalar inşa edilmiş, əsaslı təmir işləri aparılmış, elmi müəssisələr müasir cihaz və avadanlıqlarla təchiz olunmuşdur. Elmi fəaliyyət sahəsində xüsusi narahatedici məqam olan maliyyələşmə sahəsində də müəyyən qədər səmərəli tədbirlər həyata keçirilmişdir. Strategiyanın qarşıya qoyduğu əsas məqsədlərdən biri də elmin yeni mexanizmlər əsasında maliyyələşməsi məsələsi idi. Bu baxımdan ölkəmizdə prioritet elmi istiqamətlərin maliyyələşdirilməsi sahəsində uğurla fəaliyyət göstərən Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun, Dövlət Neft Şirkəti tərəfindən yaradılmış Elm Fondunun fəaliyyətini xüsusilə qeyd edərdik. Bundan əlavə, Elmlər Akademiyasında aktual elmi proqramların maliyyələşdirilməsinə keçid istiqamətində də əhəmiyyətli tədbirlər həyata keçirilməkdədir.

E lmin inkişafı üzrə bu Strategiyanın həyata keçirilməsi prosesində bəzi obyektiv çətinliklər olsa da, bütövlükdə Strategiyanın müasir Azərbaycan elminin inkişafında rolu olduqca mühüm olmuşdur. Əvvəlki illərdə olduğu kimi, 2008-2013-cü illərdə də elmi fəaliyyət sahəsi birbaşa ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bu baxımdan 2011-ci il aprel ayının 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakı şəhərinin unikal memarlıq incisi sayılan Azərbaycan Milli Elmlər Akademiyası binasının əsaslı təmir və yenidən qurulmasından sonra onun açılış mərasimində, həmçinin respublika elmi ictimaiyyətinin həyatında əlamətdar hadisə olan Akademiyanın illik Ümumi yığıncağında iştirakını xüsusilə qeyd etmək istərdik. Prezidentin xüsusi tapşırığına əsasən AMEA-nın əsas binasında 2007-ci ilin sonundan əsaslı təmir və yenidənqurma işlərinə başlanılmış, 2011-ci ildə isə bina klassik memarlıq xüsusiyyətləri ilə modern memarlıq üslubunu özündə birləşdirən möhtəşəm sənət abidəsi kimi alimlərin ixtiyarına verilmişdir. İlham Əliyev Ümumi yığıncaqda dərin məzmunlu nitq söyləmiş, həmin iclasda alimlərimiz tərəfindən qaldırılan bir sıra problemlərin həlli istiqamətində əməli addımlar atmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elmin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən digər bir addımı 2012-ci ilin dekabr ayında xüsusi fərmanla təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasıdır. Bu Konsepsiya Azərbaycan dövlətinin dünyada baş verən qlobal sosial-iqtisadi dəyişikliklərə adekvat reaksiyası olmaqla yanaşı, həmçinin güclü və müasir dövlət naminə son dərəcə uğurlu bir elmi inkişaf proqramıdır. Konsepsiya bütün digər sahələrlə yanaşı, Azərbaycan elmi qarşısında da bir çox vəzifələr qoyur. Konsepsiyada Azərbaycanın gələcək inkişafı ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatı"na keçid, insan kapitalının adekvat inkişafı, mövcud imkan və resursları nəzərə almaqla davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi kimi prinsiplərin reallaşdırılmasında götürülür ki, bu prinsiplərin də həyata keçirilməsi ilk növbədə elmi-innovativ yanaşmanın

gücləndirilməsini, elm və istehsalat arasında əlaqələrin artırılmasını, innovasiya fəallığının yüksəldilməsini tələb edir. Xüsusən, bilik və mədəniyyət sahəsinin vəzifələri ilə informasiya texnologiyalarının inkişafı arasında əlaqələrin müəyyənləşdirilməsi elmi yanaşmalar olmadan mümkün deyildir.

2008-2013-cü illər mərhələsində Azərbaycan elminin mühüm nailiyyətlərindən biri də 2010-cu ildə müstəqil dövlətimizin tarixində ilk dəfə verilən Azərbaycan Respublikasının dövlət mükafatlarının "Cənubi Xəzər hövzəsinin palçıq vulkanizmi və neft-qazlılığı" elmi nəşrlər silsiləsinə görə Geologiya İnstitutunun əməkdaşlarına, həmçinin "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabına görə Ədəbiyyat İnstitutunun əməkdaşlarına təqdim edilməsi olmuşdur. Fərəhli haldır ki, laureatlara Dövlət Mükafatını Azərbaycan Respublikasının Prezidenti şəxsən özü təqdim etmişdir.

2008-2013-cü illərdə Azərbaycan elminin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirildi. Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən ayrılmış vəsaitlər hesabına AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya, Dilçilik institutlarında, muzeylərində yüksək səviyyədə təmir-bərpa, yenidənqurma işləri aparılmış, elmi müəssisələr müasir avadanlıqlarla təchiz edilmişlər. AMEA-nın Geologiya, Fizika, Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi, Polimer Materialları, Aşqarlar Kimyası institutları əsaslı olaraq təmir edilmişdir. Bundan əlavə, müasir tələblərə cavab verən elmi-tədqiqat işlərinin aparılması, təcrübə və tətbiq imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 2010-cu il tarixli qərarı ilə elmi cihaz və avadanlıqların idxalı gömrük rüsumundan azad olunmuşdur. Bu gün əminliklə demək olar ki, Akademiyanın institutlarında müasir tələblər səviyyəsində tədqiqatların aparılmasına imkan verən cihaz və avadanlıqlar mövcuddur.

D övlət başçısı cənab İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında" müvafiq sərəncamının icrası ilə əlaqədar son illər AMEA-nın xeyli sayda gənc alimi Avropanın elmi mərkəzlərinə göndərilmişdir.

2013-2018-ci illər: elmi fəaliyyətdə çoxprofilli islahatlar zəminində yüksək texnologiyaların və innovasiya potensialının inkişafı

2013-2018-ci illər Azərbaycan elminin inkişafı baxımından olduqca mühüm bir tarixi mərhələdir. 2013-cü ilin aprel ayında AMEA Rəyasət Heyətinin yeni tərkibi seçilmiş, onun gələcək fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, elmi fəaliyyət sahəsində köklü islahatlara start verilmişdir. Nəzərdə tutulan islahatyönlü işlərin həyata keçirilməsi üçün ilk növbədə Rəyasət Heyətinin Mərkəzi aparatının strukturunda əsaslı dəyişiklik edilmişdir. Rəyasət Heyəti, sözün əsl mənasında, ən aktual elmi, elmi-innovativ və elmi-təşkilati məsələlərin professional və multidistiplinar səviyyədə müzakirə olunduğu intellektual beyin mərkəzinə çevrilmişdir. Rəyasət Heyətinin iclaslarında müasir dünya elminin ən aktual problemləri ilə səsləşən, eyni zamanda, respublikanın sosial-iqtisadi inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən bir sıra elmi məruzələr geniş müzakirə olunmuşdur. Həmçinin fundamental elmlər üzrə araşdırmaların müasir tələblər səviyyəsinə çatdırılması, multidistiplinar tədqiqatların elmi fəaliyyətin perspektivli sahəsi kimi dəyərləndirilməsi, nano-, bio-, informasiya və digər qabaqcıl texnologiyaların araşdırılması, innovasiya fəaliyyətinin gücləndirilməsi, elmi potensialın inkişafında dövlət, biznes və qeyri-dövlət sektorlarının qarşılıqlı əlaqələrinin təşkili və s. məsələlər barəsində müvafiq qərarlar qəbul edilmişdir.

2013-2018-ci illərdə əldə olunan nailiyyətlərin mühüm bir hissəsi bilavasitə elmi araşdırmalarla bağlıdır. Bu illər ərzində Azərbaycan alimləri dünyanın ən böyük proton sürətləndiricisi olan Böyük Adron Kollayderin ATLAS qurğusunun həm fiziki proqramının hazırlanmasında, həm quraşdırılmasında, həm də bu qurğunun müxtəlif hissələrinin sınağında yaxından iştirak edirlər. Fizika İnstitutunda Milli GRİD - seqmenti yaradılıb. Böyük Adron Kollayder təcrübələrində bir sıra mühüm nəticələr əldə olunub. Azərbaycan alimlərinin Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda, Avropa Nüvə Tədqiqatları Mərkəzində aparılan qlobal elmi layihələrdə də iştirakı diqqətəlayiqdir.

Akademiya alimlərinin yaxından iştirakı ilə yeni sinif unikal funksional materiallar - topoloji izolyatorlar sintez olunmuş, Avropa Birliyi ölkələrinin və Yaponiyanın elmi müəssisələri ilə birlikdə tədqiq edilmişdir. Alınan nəticələr yüksək impakt faktorlu jurnallarda çap olunan seriya məqalələrdə öz əksini tapmışdır. Yaxın gələcəkdə topoloji izolyatorlar əsasında keyfiyyətcə yeni elektronikanın - spintronikanın yaradılması nəzərdə tutulur.

İnformasiya texnologiyaları sahəsində tədqiqatçılar tərəfindən əldə olunmuş bir sıra elmi-nəzəri nəticələr ölkəmizin qloballaşan dünyada dayanıqlı inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, virtual məkanda ölkəmizə qarşı informasiya müharibəsi aparan gizli sosial şəbəkələrin aşkarlanması, həmçinin Bigdata şəraitində elektron-dövlətin informasiya təhlükəsizliyinin təmin olunması üçün bir sıra effektiv texnologiyalar işlənilmişdir. Alimlərimiz riyaziyyatın müasir sahələri olan riyazi modelləşdirmə, freymlər nəzəriyyəsi, aktuar riyaziyyat, kompüter modelləşdirilməsi, riyazi informatika sahələrində, habelə proqramlaşdırmanın riyaziyyatın müxtəlif sahələrinə tətbiqi ilə bağlı istiqamətlərdə uğurlu tədqiqatlar aparırlar. Neft kimyası istiqamətində kimyaçı alimlərin iştirakı ilə yaradılmış çoxfunksiyalı kimyəvi reagentlərin təcrübi-sənaye istehsalı təşkil olunmuşdur.

Geofiziklər kosmik geodeziya məlumatı əsasında Qafqazın müasir geodinamik proseslərinin qanunauyğunluqlarını müəyyən etmişlər. Molekulyar Biologiya və Biotexnologiyalar sahəsində alimlərin apardığı sekvens analiz nəticəsində Azərbaycanda ilk dəfə olaraq xüsusi bitkilərdə fitoplazma patogeni aşkar olunmuş, genetik müxtəlifliyi tədqiq edilmiş və dünya elmi üçün dörd yeni genotip müəyyən edilmişdir. Dünyada ilk dəfə olaraq müxtəlif fitoplazma növləri arasında rekombinasiya aşkar edilmişdir. Müstəqilliyimizin 25 illiyinə həsr olunmuş "Azərbaycan ədəbiyyatı müstəqillik dövründə" çoxcildli ədəbiyyat tarixinin hazırlanması ədəbiyyatçı alimlərin müstəsna xidmətlərindəndir. Tarixçi alimlər ölkə tarixinin yazılmasında, xalqımıza qarşı əsrlər boyu törədilmiş soyqırımları haqqında faktların açılmasında və onların beynəlxalq elmi ictimaiyyətin diqqətinə çatdırılmasında xüsusi fəallıq göstərirlər.

2013-2018-ci illərdə elmi fəaliyyət sahəsində həyata keçirilən tədbirlərin mühüm bir istiqamətini elmi-təşkilati tədbirlər təşkil edir. Belə ki, qeyd olunan mərhələdə respublika Prezidentinin müvafiq Sərəncamına əsasən Gəncə Regional Elmi Mərkəzinin bazasında Gəncə Bölməsi yaradılmışdır. Bu addım respublikamızın Qərb bölgəsində elmi fəaliyyətin gücləndirilməsi, eləcə də regionlarda elmi-mədəni mərkəzlərin təşkil edilməsi baxımından olduqca mühüm əhəmiyyətə malik bir hadisə olmuşdur.

H aqqında bəhs etdiyimiz mərhələnin ən mühüm hadisələrindən biri müasir dünya elminin inkişaf tendensiyalarına müvafiq olaraq Akademiyada bir sıra yeni institutların yaradılması olmuşdur. Bilavasitə müasir dövrün tələblərindən irəli gələrək Biofizika İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Elm Tarixi İnstitutu, Qafqazşünaslıq İnstitutu və Neft və Qaz İnstitutu bu dövrdə fəaliyyətə başlamışdır. Bundan əlavə, Geologiya İnstitutunun Geologiya və Geofizika İnstitutu, Mərdəkan Dendrarisinin Dendrologiya İnstitutu, Kimya Problemləri İnstitutunun Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, Kibernetika İnstitutunun İdarəetmə Sistemləri İnstitutu, İnsan Hüquqları İnstitutunun Hüquq və İnsan Haqları İnstitutu adlandırılması haqqında müvafiq qərarlar qəbul edilmiş, bu qərarların icrası ilə əlaqədar institutların elmi profilləri tamamilə yeniləşdirilmişdir.

Son illər akademik həyat üçün əlamətdar olan hadisələrdən biri də AMEA-nın üzvlüyünə seçkilərin keçirilməsi olmuşdur. Əvvəlki mərhələlərdə ən yaxşı halda beş ildən bir keçirilən seçkilər son beş ildə Nizamnamədə nəzərdə tutulduğu kimi, üç ildən bir - 30 iyun 2014-cü il və 2 may 2017-ci il tarixlərində keçirilmişdir. Dövlətin elmi fəaliyyət sahəsinə göstərdiyi böyük diqqət və qayğı sayəsində demokratik və şəffaf şəraitdə keçirilmiş hər iki seçkidə elmin müvafiq istiqamətləri üzrə geniş tədqiqatlar aparan, elmimizi yeni biliklərlə zənginləşdirən, ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edən Azərbaycan alimləri Akademiyanın həqiqi və müxbir üzvü seçilmişlər.

Müasir dünyanın çağırışlarına müvafiq olaraq Azərbaycan elmini beynəlxalq elmi tələblərə uyğunlaşdırmaq, ölkədə və xaricdə yaşayan azərbaycanlı alimlər arasında əlaqələri gücləndirmək məqsədi ilə 19 dekabr 2014-cü il tarixində Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə Azərbaycan alimlərinin I Qurultayı keçirilmişdir. Qurultayda ölkəmizin akademik, təhsil, biznes və vətəndaş cəmiyyəti sektorlarında çalışan alim və tədqiqatçılar, o cümlədən xarici ölkələrdə yaşayan azərbaycanlı alimlər iştirak etmişlər.

2013-2018-ci illərdə Akademiyada həyata keçirilən islahatların mühüm bir istiqaməti elmi fəaliyyətin əsas resursları olan yüksəkixtisaslı kadrların hazırlanması ilə bağlıdır. Hazırda Akademiyada yüksəkixtisaslı kadrların hazırlanması sahəsində ciddi, gələcək perspektivlərə hesablanmış islahatlar həyata keçirilməkdədir.

Bildiyiniz kimi, 2015-ci ildə AMEA-da ilk dəfə olaraq ali təhsilin ikinci pilləsi olan magistratura yaradılmış və həmin ildən başlayaraq magistratura təhsili uğurla həyata keçirilməkdədir. 2017-ci ilin iyul ayında Akademiyanın ilk magistrlərinin buraxılışı böyük təntənə ilə qeyd edildi. Sevindirici hal odur ki, onların hamısı Akademiyada qalıb öz elmi karyeralarını davam etdirirlər. Akademiyada magistratura təhsilinin müasir səviyyədə qurulması və magistrantların peşəkar mütəxəssis kimi yetişmələri üçün mühüm addımlar atılmaqdadır. Belə ki, bu gün Akademiyanın elmi müəssisələrində müasir tələblərə cavab verən tədris mühiti yaradılmışdır. Hazırda Akademiyada 123 magistrant təhsil alır. Akademiyanın 30-a yaxın üzvü, 100-ə yaxın elmlər doktoru və 150-yə yaxın fəlsəfə doktoru magistraturada tədris prosesinə cəlb olunmuşdur. Tədris prosesinə zəruri hallarda xaricdən alimlər də dəvət olunur. Magistrantlara xarici dil və informatika fənləri yüksək səviyyədə tədris olunur. Eyni zamanda İnformasiya Texnologiyaları İnstitutunda yaradılmış AzScienceNet şəbəkəsinin geniş imkanları hesabına magistraturada təlim, tədris və imtahan prosesi ən müasir tələb və qaydalar əsasında uğurla həyata keçirilir. 2013-2018-ci illərdə innovativ fəaliyyət sahəsində də bir sıra uğurlar əldə edilmişdir. İlk növbədə onu qeyd etmək istərdik ki, AMEA-nın elmi müəssisələri respublika Prezidenti tərəfindən təsdiq olunmuş 19 Dövlət Proqramının həyata keçirilməsində yaxından iştirak edir. Ən müxtəlif sosial-iqtisadi və mədəni-mənəvi sahələri əhatə edən bu Dövlət proqramlarında respublika elmi potensialının yaxından iştirakı olduqca təqdirəlayiqdir. Məlum olduğu kimi, respublika Prezidenti Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə bağlı sərəncam imzalamışdır. Sərəncamda digər dövlət qurumları ilə yanaşı, AMEA-nın da qarşısına bir sıra mühüm vəzifələr qoyulmuşdur ki, bunların həyata keçirilməsi istiqamətində müvafiq qərarlar qəbul edilmiş və konkret əməli addımlar atılmışdır.

İ nnovativ fəaliyyətlə bağlı digər bir məsələni də qeyd etmək istərdik. Azərbaycan Respublikası Prezidentinin 8 noyabr 2016-cı il tarixli Sərəncamı ilə AMEA-da Yüksək Texnologiyalar Parkı yaradılmışdır. Elm və biznesin qovuşduğu AMEA-nın Yüksək Texnologiyalar Parkı yarandığı gündən Akademiyada innovasiya ekosisteminin inkişafı istiqamətində bir çox layihələrin uğurla həyata keçirilməsinə nail olmuşdur. AMEA Yüksək Texnologiyalar Parkında çalışan gənc alimlər startap müsabiqələrində fəal iştirak edirlər. Həmin Texnoparkda bu gün fəaliyyət göstərən 6 rezident sırasında təsisçisi gənclər olan rezidentlər də vardır. 2013-2018-ci illərdə innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi innovasiya sisteminin formalaşdırılmasının mühüm istiqamətlərindən birini təşkil etmişdir. Bu istiqamətdə də bir sıra uğurlar əldə edilmişdir. Bu baxımdan AMEA-da elmlə istehsalat arasında birbaşa əlaqənin yaradılması, təcrübə və təcrübə-sənaye miqyasında yeni texnoloji proseslərin mənimsənilməsi, eyni zamanda neft-kimya, kimya və texniki təyinatlı məhsulların istehsalı və satışı üzrə bir sıra texnoparklar, təsərrüfathesablı müəssisə və zavodlar yaradılmışdır. 2013-2018-ci illərdə Akademiyada həyata keçirilən islahatların mühüm bir istiqamətini hüquqi islahatlar təşkil edir. Bu istiqamətdə Akademiyada çoxprofilli tədbirlər həyata keçirilməkdədir. Son beş ildə hüquqi islahatlar baxımından olduqca mühüm əhəmiyyətə malik olan iki mühüm hadisəni xüsusilə qeyd etmək istərdik. Onlardan birincisi Akademiyanın yeni Nizamnaməsinin təsdiq olunması ilə bağlıdır. 11 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Akademiyanın yeni Nizamnaməsi təsdiq olunmuşdur. Bu Akademik elmin daha effektiv təşkili baxımından olduqca mühüm əhəmiyyətə malik bir hadisədir.

Elmi fəaliyyət sahəsində hüquqi islahatların ən böyük uğuru, heç şübhəsiz, "Elm haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsidir. Azərbaycan Respublikasının Milli Məclisi 2016-cı ilin 14 iyun tarixində "Elm haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli Qanununun tətbiqi barədə" 9 avqust 2016-cı il tarixli Fərman imzalamışdır. Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Elm haqqında" qanun müstəqil dövlətimizin elm siyasətinin əsaslarını təşkil edir. Qanun ölkədə müasir elmi məktəblərin yaradılması, yeni elmi nəsillərin formalaşdırılması və inkişafı, ən başlıcası isə cəmiyyət quruculuğunun bütün sahələrində elm faktorunun hərəkətverici amillərdən birinə çevrilməsi, həmçinin müstəqil dövlətimizin elm siyasətinin həyata keçirilməsini təmin edəcək mühüm dövlət sənədidir. 2013-2018-ci illərdə Akademiyada gənclərin intellektual potensialının inkişafı, onların daha geniş miqyasda elmi fəaliyyətə cəlb edilməsi, biliklər cəmiyyətinin qurulmasında onların rolunun artırılması istiqamətində bir sıra işlər görülmüşdür.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi haqqında" 2 iyul 2013-cü il tarixli fərman imzalamışdır. Hər il Rəyasət Heyətinin qərarı ilə "Gənclər üçün Prezident Mükafatı"na layiqli gənclər təqdim olunur. 2017-ci ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin təşkilatçılığı ilə Azərbaycan Gənc Alimlərinin I Qurultayı keçirildi. Ölkə başçısı cənab İlham Əliyevin təbrik məktubu göndərdiyi Qurultayda gənc alimlərlə bağlı ən müxtəlif məsələlər dərindən müzakirə olundu, geniş fikir mübadiləsi aparıldı. 2013-2018-ci illərdə Akademiyada həyata keçirilən islahatlar içərisində elm və təhsilin inteqrasiyası olduqca mühüm yer tutur. Bunun nəticəsidir ki, AMEA-nın elmi müəssisələrinin əməkdaşlarının təhsil prosesində yaxından iştirak etmələrinə böyük dəstək verilir, elmi yeniliklərin tədrisdə tətbiqi istiqamətində müvafiq işlər görülür.

Təhlillər göstərir ki, AMEA-nın yüksəkixtisaslı kadrlarının təhsil prosesinə qoşulması elmi nailiyyətlərin tədrisdə tətbiqi ilə yanaşı, gələcək elmi kadrların da Akademiya mühitinə cəlb olunmasına münbit şərait yaradır. Bütün bunlarla yanaşı, AMEA-nın bir sıra elmi müəssisələri ilə bəzi ali təhsil müəssisələri arasında baza kafedralarının yaradılması, birgə kadr hazırlığına dair əməkdaşlıq memorandumları imzalanmışdır. Bu əməkdaşlıq münasibətləri yalnız ali təhsil müəssisələrini deyil, orta məktəbləri də əhatə etmişdir. Doktorluq təhsilinin və elmi tədqiqatların modernləşdirilməsi üzrə "Nizami" layihəsi də elm və təhsilin inteqrasiyası sahəsində mühüm nailiyyətlərdən biri kimi qeyd oluna bilər. 2016-cı ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyası Ümumi Yığıncağı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyası arasında birgə elmi sessiya keçirildi. Tədbirdə elm və təhsilin inteqrasiyası ilə bağlı geniş fikir mübadiləsi aparıldı, müvafiq fəaliyyət proqramı qəbul edildi. Hazırda həmin fəaliyyət proqramı çərçivəsində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. 2013-2018-ci illərdə AMEA-da aparılan islahatlar, həmçinin ölkə səviyyəsində İKT-yə böyük diqqət "Elektron Azərbaycan"ın tərkib hissəsi kimi elektron elmin formalaşması və inkişafına da zəmin yaratmışdır. Bu gün AMEA-da e-elmin elmi-nəzəri əsasları tədqiq olunur, onun şəbəkə platforması olan AzScienceNet elm kompüter şəbəkəsinin infrastrukturu inkişaf etdirilir, elmi qurumların beynəlxalq elmi şəbəkələrlə inteqrasiyası davam etdirilir.

Bildiyiniz kimi, dövlət başçısı İlham Əliyev tərəfindən 2013-cü il ölkədə İKT ili elan olunmuşdur. Bununla əlaqədar Elmlər Akademiyasında kompleks tədbirlər həyata keçirilmişdir. AMEA-nın elmi müəssisələrinin İKT ilə təminatı vəziyyətinin monitorinqi nəticəsində müəyyən edilmişdir ki, Akademiyada internetdən istifadə üçün heç bir problem yoxdur.

Son beş ildə əldə edilən uğurlardan biri kimi Azərbaycanın kosmik klubun üzvünə çevrilməsini də xüsusi qeyd etmək lazımdır. Bu istiqamətdə dövlət tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin və elmi araşdırmalar sahəsində əldə olunan uğurların nəticəsidir ki, Azərbaycanın telekommunikasiya peykləri 2013-cü ilin 8 fevralında orbitə buraxılmışdır. Bu nailiyyət Azərbaycan Prezidenti İlham Əliyevin İKT sahəsində məqsədyönlü, müdrik və uzaqgörən siyasətinin həyata keçirilməsi, eləcə də ölkəmizdə ən yeni texnologiyaların tətbiqinin reallaşdırılması sayəsində əldə olunmuşdur. Heç də təsadüfi deyildir ki, dövlət başçısı ilk peykin orbitə buraxılmasını müstəqillik dövründə imza atdığımız ən böyük uğurlardan biri, dövlətimizin qələbəsi kimi dəyərləndirmişdir. Mürəkkəb hesablama və böyük yaddaş resursları tələb edən elmi problemlərin həlli üçün AzScienceNet-in bazasında böyük imkanlara malik verilənlərin emal mərkəzi yaradılmışdır. Bununla yanaşı, ölkə üzrə regionlarda distant tədris mərkəzləri şəbəkəsi yaradılmışdır.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində apardığı siyasətin nəticəsində Azərbaycanın elm və təhsil cəmiyyətinin Avropanın elm və təhsil cəmiyyətinə inteqrasiyası istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bu məqsədlə AzScienceNet kompüter şəbəkəsi Avropanın yüksək sürətli elm və təhsil üçün internet şəbəkəsinə (GEANT) inteqrasiya olunmuşdur. Son zamanlar AMEA-da aparılan islahatlar, yeni texnologiyaların meydana gəlməsi science.az portalının təkmilləşdirilməsini də zəruri etmişdir. Bu məqsədlə portalın yeni versiyası hazırlanmış, onun tərkibində "Elm TV" internet televiziyası yaradılmışdır. 2013-2018-ci illərdə bütün sahələrdə olduğu kimi, AMEA-nın beynəlxalq elmi əməkdaşlığı sahəsində də siyasəti yenidən qurulmuşdur. Bu illər ərzində AMEA-nın beynəlxalq əməkdaşlığının səviyyəsində artım dinamikası müşahidə olunmuş, elmi müəssisə və alimlərimizin beynəlxalq elm məkanına inteqrasiya prosesi sürətlənmişdir.

Bu müddət ərzində Polşa Elmlər Akademiyası, Türkiyə Elmi və Texnoloji Araşdırmalar Qurumunun (TÜBİTAK) və Başqırdıstan Elmlər Akademiyası arasında anlaşma memorandumları imzalanmış, Avropa Birliyinin Şərq Tərəfdaşlığı proqramı olan "Horizon - 2020" layihəsi üzrə fəal iş aparılmış, həmçinin NATO ilə əməkdaşlıq istiqamətində çox əhəmiyyətli addımlar atılmışdır. Eyni zamanda, bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla qlobal problemlərin tədqiqi və elmi nailiyyətlərin tətbiqi istiqamətində müzakirələr aparılmış, səmərəli münasibətlər qurulmuşdur. Bununla yanaşı, ABŞ-ın Massaçuset Texnologiya İnstitutu, Almaniyanın Humbolt və Rostok universitetləri, İtaliyanın Neapol, Genuya universitetləri, Fransanın Sofiya-Antipolis Universiteti və digər elmi mərkəzlərlə müqavilələr imzalanmışdır. 2013-2018-ci illərdə AMEA-da gedən islahatların tələblərinə uyğun olaraq, ictimaiyyətlə əlaqələr istiqamətində siyasət tamamilə yenidən qurulmuş, elmi nailiyyətlərin və biliklərin cəmiyyətdə populyarlaşdırılması sahəsində bir sıra konseptual addımlar atılmışdır.

AMEA-nın elmi həyatında baş verən bütün əlamətdar hadisə və faktlar barədə Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən science.az rəsmi internet portalında informasiyalar yerləşdirilmişdir. Elmi mühitdə baş verən proseslərlə mütəmadi olaraq cəmiyyətin məlumatlandırılması üçün "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri məcmuəsi" və "Elm dünyası" jurnalları təsis olunmuş, "Elm və həyat" jurnalının işi təkmilləşdirilmişdir.

A zərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan regionun elm mərkəzinə çevrilməlidir!" - çağırışına cavab olaraq, elmimizin nailiyyətlərini, yeni elmi innovasiyaları nümayiş etdirmək, informasiya-kommunikasiya texnologiyaları və digər müasir innovativ üsullar əsasında elmin təbliğinə nail olmaq, elmin populyarlaşdırılması vasitəsilə cəmiyyətdə elmə olan marağı artırmaq, həmçinin elm-təhsil-istehsalat arasında əlaqələri gücləndirmək məqsədilə 10-11 noyabr 2014-cü il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə ölkəmizdə, eləcə də regionda ilk dəfə olaraq Bakı Elm Festivalı keçirilmişdir. Festival geniş ictimaiyyət tərəfindən yüksək səviyyədə qarşılanmış, gənclərin, tələbə və şagirdlərin elmə həvəs və maraqlarının artmasında mühüm rol oynamışdır. 2016-cı ilin noyabr ayında isə ölkənin bütün regionlarını əhatə edən Respublika Elm Festivalı uğurla keçirilmişdir. Bir sıra sərgiləri, mühazirələri, elmi səyahətləri, maraqlı şou və digər əyləncəli proqramları əhatə edən tədbirdə xarici qonaqlar, respublikamızın dövlət və özəl qurumlarının nümayəndələri, orta və ali təhsil müəssisələrinin çoxsaylı şagird və tələbələri, həmçinin adi vətəndaşlar iştirak etmişlər. Növbəti beynəlxalq elm festivalının 2018-ci ilin noyabr ayında keçirilməsi planlaşdırılır. Daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri respublikada elmin maddi-texniki bazasının modernləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyətinin gücləndirilməsidir. Bu istiqamətdə 2013-2018-ci illərdə də intensiv olaraq bir sıra tədbirlər həyata keçirilmişdir.

AMEA-nın elmi müəssisə və təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsi və elmi-tədqiqat işlərinin günün tələbləri səviyyəsində aparılması məqsədi ilə müasir avadanlıqlar alınmışdır.

2013-cü ilin may ayında cənab Prezident İlham Əliyevin N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının əsaslı təmirdən sonrakı vəziyyəti ilə tanış olmaq üçün rəsədxanaya gəlməsi, Azərbaycan elminin inkişaf strategiyası ilə bağlı orada söylədiyi fikirlər Akademiya üçün, sözün əsl mənasında, əlamətdar bir hadisəyə çevrilmişdir. Belə ki, cənab Prezidentin həmin açılış mərasimində söylədiyi "Azərbaycan regionun elm mərkəzinə də çevrilməlidir" çağırışı Azərbaycan elmi və alimləri qarşısında mühüm vəzifələr qoymuşdur. "Akademiya şəhərciyi"də inşa olunan Mərkəzi Elmi Kitabxananın, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin binalarının istifadəyə verilməsi də əlamətdar hadisələrdən olmuşdur. AMEA-nın "Aspirantlar yataqxanası"nda

yaşayan alimlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yataqxanın yerləşdiyi ərazidə mənzil tikintisi başa çatdırılmış və bir sıra AMEA əməkdaşlarına mənzillər təqdim edilmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2013-2018-ci illərdə də alimlərin əməyinin stimullaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Elmin inkişafına böyük töhfələr verən və mühüm nailiyyətlər qazanan alimləri daha yüksək səviyyəli tədqiqatlar aparmağa həvəsləndirmək məqsədilə "Nizami Gəncəvi adına Qızıl medal", həmçinin Azərbaycanın görkəmli alim və mütəfəkkirləri Nəsirəddin Tusi, Həsən bəy Zərdabi, Üzeyir Hacıbəyli, akademik Mirəsədulla Mirqasımov, akademik Yusif Məmmədəliyev, akademik Musa Əliyev adına AMEA-nın mükafatları təsis edilmişdir. Son illər Rəyasət Heyətinin iclaslarında mütəmadi olaraq xüsusi fərqlənən əməkdaşlar AMEA-nın Fəxri Fərmanı ilə təltif edilmişlər. Beləliklə, 2013-2018-ci illər ərzində görülən işləri, həyata keçirilən tədbirləri nəzərdən keçirərkən aydın olur ki, bu mərhələdəki fəaliyyət əsasən islahatyönlü olması ilə fərqlənir.

Bu gün Azərbaycan elmi bəzi obyektiv və subyektiv problemlərlə xarakterizə olunan, tənəzzülə aparan mərhələni arxada qoyaraq islahatlarla müşayiət olunan yeni inkişaf yoluna qədəm qoymuşdur. Təqdirəlayiq haldır ki, Azərbaycan elmində baş verən bu müsbət tendensiyalar nüfuzlu beynəlxalq reytinqlərdə əks olunan konkret rəqəmlərdə təsdiq olunur. Belə ki, nüfuzlu beynəlxalq informasiya bazalarından olan SCOPUS-un rəsmi hesabatına görə, 2012-ci illə müqayisədə 2013-cü ildə Azərbaycan alimlərinin beynəlxalq əməkdaşlıq fəaliyyətində nəzərəçarpacaq irəliləyiş müşahidə olunmuşdur. Başqa sözlə, Azərbaycan alimlərinin çap olunmuş elmi əsərlərin ümumi sayında xarici alimlərlə birgə dərc etdirdiyi elmi əsərlərin payı 39.82%-dən 45.34%-ə yüksəlmişdir. Bu isə bir il ərzində 5,52 % artım deməkdir. Tədqiqat göstəricilərinə görə də AMEA-nın mövqeyi 2012-ci illə müqayisədə 2013-cü ildə 66 pillə, 2014-cü ildə isə 169 pillə yüksəlmişdir. Bu göstəricilər 2015, 2016 və 2017-ci illərdə də yüksələn xətt üzrə inkişaf etmişdir.

Azərbaycan elminin son beş illik tarixinin ən mühüm hadisələrindən biri 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin təntənə ilə qeyd edilməsi olmuşdur. Olduqca əlamətdar bir hadisədir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Akademiyanın 70 illik yubileyinə həsr olunmuş Ümumi yığıncaqda iştirak etmiş, dərin məzmunlu nitq söyləmişdir. Cənab İlham Əliyev Ümumi yığıncaqdakı parlaq çıxışı ilə müasir şəraitdə Azərbaycan elminin prioritetlərini müəyyənləşdirdi, onların həyata keçirilməsi üçün Akademiyamız qarşısında mühüm vəzifələr qoydu.

Son illər ölkəmizdə kosmik sənayenin inkişafı istiqamətində böyük addımlar atılıb, Azərbaycan üçün strateji əhəmiyyətə malik peyklər kosmosa buraxılmışdır. Bütün bunlar ölkəmizdə kosmik elmin inkişafı zərurətini yaratmışdır. Öz çıxışında bu istiqamət üzərində xüsusi dayanan cənab İlham Əliyev yüksək texnologiyalara dair araşdırmaların Akademiyada, bütövlükdə ölkəmizdə xeyli gücləndiyini qeyd etmişdir.

D övlət başçısının proqram xarakterli çıxışında vurğuladığı mühüm sahələrdən biri də ölkənin müdafiə qüdrətinin gücləndirilməsidir. Ermənilərin Qarabağa təcavüz etməsi, torpaqlarımızın bir hissəsinin işğal altında olması hərbi sənayenin gücləndirilməsi zərurətini ortaya qoymuşdur. Prezident İlham Əliyev bunu xüsusi vurğuladı ki, müdafiə qüdrətinin gücləndirilməsi hərbi sənayenin inkişafı ilə bilavəsitə bağlıdır. Bu baxımdan AMEA alimlərinin qarşısında hərbi sənayenin daha da gücləndirilməsi istiqamətində tədqiqatlarını genişləndirmək kimi mühüm bir vəzifə durur.

Dövlət başçısının çıxışında Azərbaycanın neft-qaz sənayesinin inkişafı ilə əlaqədar araşdırmaların bundan sonra da davam etdirilməsinin zərurəti vurğulanmışdır. Bu, geoloqlarımız, neft-kimya sənayesi sahəsində çalışan alimlərimiz qarşısında olduqca mühüm vəzifələr qoyur. Öz çıxışında humanitar və ictimai elmlər qarşısında da çox ciddi tapşırıq və vəzifələr də qoyan cənab Prezident qeyd etdi ki, müasir dünyada çox mürəkkəb bir vəziyyətin yarandığı, terrorizmin olduqca geniş yayıldığı, regionda mürəkkəb geosiyasi bir şəraitin hökm sürdüyü halda Azərbaycanda multikulturalizm konsepsiyasının təbliği və onun elmi-nəzəri əsaslarının tədqiqi ön sıralara keçir. Azərbaycan dilinin saflığının qorunması dövlət başçısının nitqində xüsusi vurğulanmışdır. Milli varlığımızın ayrılmaz tərkib hissəsi olan dilimizin saflığının qorunması və gələcək nəsillərə çatdırılması zərurəti cənab Prezidentin ana dilimizlə bağlı sərəncamlarının icrası istiqamətində görüləcək işlərin daha da gücləndirilməsini tələb edir.

Cənab İlham Əliyevin çıxışında tarix elmimiz qarşısında da mühüm vəzifələr qoyulmuşdur. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan tarixinin saxtalaşdırılmasına qarşı tarix elmimiz sahəsində həyata keçirilən addımlar cənab Prezident tərəfindən yüksək qiymətləndilməklə yanaşı, onun daha da inkişaf etdirilməsi zərurəti ortaya qoyulmuşdur. Beləliklə, son beş ildə müxtəlif elmi, elmi-təşkilati istiqamətlər üzrə reallaşdırılan tədbirlərin mahiyyəti və miqyası onu göstərir ki, bu mərhələni Azərbaycan elmi üçün köklü islahatlar mərhələsi kimi xarakterizə etmək mümkündür.

Müstəqil Azərbaycan elminin son on beş illik tarixi alim və mütəxəssislərin gərgin, şərəfli fəaliyyəti haqqında cəmiyyət qarşısında bir hesabat olmaqla yanaşı, gələcək vəzifələrimizin müəyyənləşdirilməsini də zəruri edir. Azərbaycan elmi əvvəlki dövrlərdən fərqli olaraq, yeni missiyası çərçivəsində artıq dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində yaxından iştirak etməklə biliklər iqtisadiyyatının formalaşmasına elmi dəstək verməlidir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası Azərbaycan alimləri qarşısındabiliklər

cəmiyyətinin qurulmasında yaxından iştirak, mövcud elmi potensialın müasir tələblərə uyğun səfərbər edilməsi, bununla bağlı effektiv təşkilati tədbirlərin və yeni innovativ idarəetmə üsullarının tətbiqi və bütövlükdə müstəqil Azərbaycan dövlətinin elmi prioritetlərinin hazırlanması kimi zəruri vəzifələr qoymuşdur. İlk növbədə Azərbaycanda dövlət, biznes və vətəndaş cəmiyyəti sektorlarında aparılan elmi araşdırmaların, fundamental və tətbiqi tədqiqatların prioritetlərinin ölkənin mühüm ideoloji, sosial-iqtisadi və mədəni-mənəvi məsələlərinin həllinə uyğun müəyyənləşdirilməsi və həyata keçirilməsi istiqamətində tədbirlər gücləndirilməlidir. Belə ki, Azərbaycan alimlərinin ölkənin enerji, informasiya, ərzaq, iqtisadi təhlükəsizliyinin qorunmasında və hərbi potensialının gücləndirilməsində yaxından iştirakına nail olmalıyıq. Həmçinin Azərbaycan iqtisadiyyatının, xüsusən qeyri-neft sektorunun inkişafına yönəlmiş tədqiqatların genişləndirilməsi də qarşımızda duran mühüm vəzifələrdəndir.

Hazırda qloballaşan və virtuallaşan müasir dünyada ölkəmizə, xalqımıza qarşı bir sıra təhdidlər və təhlükələr vardır ki, onların qarşısının alınması üçün elmi potensial səfərbər olunmalıdır. Yad ideologiyalara qarşı ulu öndər Heydər Əliyevin əsasını qoyduğu Azərbaycançılıq ideologiyasını daha da inkişaf etdirməliyik.

Müasir dövrün tələbləri səviyyəsində intellektual insan resurslarının formalaşdırılmasına nail olmaq üçün qarşımızda duran əsas məsələlərdən biri də “elm, təhsil, innovasiya” qızıl üçbucağının formalaşdırılmasıdır. Həmçinin elm, təhsil və innovasiya arasındakı əlaqələr multidissiplinar yanaşmanın prioritetliyi şərtilə həyata keçirilməlidir. Biz əminik ki, elmimiz bir tərəfdən müasir zamanın çağırışlarından, digər tərəfdən ölkəmizin sosial-iqtisadi və mədəni-mənəvi inkişafından irəli gələn vəzifələrin həyata keçirilməsinə, bütövlükdə müstəqil Azərbaycanımızın çiçəklənməsinə bundan sonra da öz töhfələrini verəcəkdir.

Respublika.-2018.-1 fevral.-№23.-S.2-3.

Müstəqil Azərbaycan: Ümummilli lider Heydər Əliyevdən Prezident İlham Əliyevə

Nizami Cəfərov,
Milli Məclisin deputatı, Atatürk Mərkəzinin müdiri, akademik

Mən öz fəaliyyətimdə xalqa güvənirəm, xalqdan güc alıram və sizin dəstəyiniz məni daha da əzmkar edir, məni daha da güclü edir... Mənim üçün ən başlıcası Azərbaycan xalqının xoşbəxtliyidir, Azərbaycan dövlətinin maraqlarıdır.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Mən bu gün yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə üzümü tutub deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Prezident İlham Əliyevin
birinci andiçmə mərasimindəki çıxışından

Çağdaş Azərbaycan dövlətini qurmaq missiyasına ümummilli lider Heydər Əliyev "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlamışdı. Azərbaycanın müstəqilliyi Tanrının xalqımızın gələcəyinə verdiyi bir şans, istək və arzularına açdığı yol idi. Nə yaxşı ki, ümummilli lider Heydər Əliyev kimi böyük mütəfəkkir tarixdə nadir hallarda yaranan belə imkandan istifadə edərək xalqını yenidən müstəqil dövlətçiliyinə qovuşdurdu, siyasi suverenliyə dönməz, əbədi xarakter verdi.

İlk mərhələdə Azərbaycan xalqı dövlətçiliyin xilaskarının missiyasından lazımınca bəhrələnərək öz varlığını, Vətənin müstəqilliyini qorudu və milli dövlətini qurdu. **İkinci mərhələdə** isə Azərbaycan cəmiyyəti böyük zəhmətlər, ağrıacılar bahasına yaradılmış ideoloji ənənə və dövlətçilik təcrübəsini dağılmağa, müstəqilliyi naməlum talenin oyunları ilə üz-üzə qalmağa qoymadı. Bu, müasir Azərbaycanda siyasi varislik ənənəsinin nə qədər ehtiyac duyulan həyati məsələ olduğuna mükəmməl sübut idi.

Xalq 1993-cü ildə Heydər Əliyevi yenidən özünün həqiqi rəhbəri olaraq ali hakimiyyətə tələb edəndə nə qədər ağılla, təkidli hərəkət etmişdisə, üçüncü minilliyin üçüncü ilində İlham Əliyevin şəxsində öz yeni Prezidentini – yeni liderini seçəndə də o səviyyədə mübarizlik göstərdi. Ümummilli lider Heydər Əliyevin həyatının son illərində və aylarında Azərbaycan cəmiyyətini, eləcə də ölkəmizi diqqət mərkəzində saxlayan beynəlxalq dairələri dövlətə gələcəkdə kimin rəhbərlik edəcəyi, ulu öndərin hakimiyyət irsini və siyasi kursunu kimin davam etdirəcəyi ciddi düşündürürdü. İki əsrin və minilliyin qovşağında bu barədə düşünəndə hamının ağlına, birinci növbədə, ümummilli liderin ən yaxın silahdaşı və ən sadiq məsləkdaşı, onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi İlham Əliyev gəlirdi.

Bu, yalnız İlham Əliyevin dünya miqyaslı ictimai-siyasi xadim, böyük dövlət adamı və nəhayət, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin oğlu olması ilə bağlı deyildi. Həm də ona görə idi ki, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq, yeni tipli siyasi lider olaraq İlham Əliyev kifayət qədər böyük siyasi nüfuz qazanmışdı. Yeni tipli siyasi xadim İlham Əliyev hər gün bir uğura imza atırdı, onda "tarix" ilə "müasirlik" arasındakı fərq, şübhəsiz, daha aydın görünürdü.

Ümummilli lider Heydər Əliyevin timsalında rəhbərin öz soydaşlarının arzu-ideallarına sadiqliyinə inanan xalq romantik ideallarını belə gerçəkləşdirmiş əfsanəvi liderin ətrafında görünməmiş bir vüsət və coşqu ilə səfərbər olunmuş, mərkəzəqaçma impulsu ilə toparlanmışdı. Bu, xalqın tarixi arzu-istəklərindən yoğrulmuş liderin–xalqa xidmət arealının hüdudsuzluğu ilə ucalmış Heydər Əliyevin şəriksiz və misilsiz qələbəsi idi. Həmin qələbə isə ulu öndərin gerçək siyasi varisi kimi qəbul edilən İlham Əliyevin qarşısında yüksək fəaliyyət perspektivləri, yeni siyasi-iqtisadi, mənəvi-ideoloji üfüqlər açırdı. Azərbaycan dövlətçiliyi uğrunda mübarizənin gənc qəhrəmanına belə geniş meydan, təbii ki, hava-su kimi lazım idi.

Ulu öndərin mükəmməl idarəetmə məktəbinin ən kamil yetirməsi olan İlham Əliyev siyasi meydanda çoxdan olsa da, tam aydınlığı ilə Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində vətənpərvər fəaliyyəti ilə nəzərə çarpdı. Sonradan isə cəmiyyət onu baş nazir kimi qəbul etdi. Əslində, bu qədəmisayalı başlanğıc ümummilli lider Heydər Əliyevin siyasi, ictimai, əxlaqi məfkurəsi üzərində formalaşan, Avropa və Şərq dəyərlərinin sintezindən yaranan, monolit kökü olan özünəməxsus siyasi mədəniyyətin gəlişi idi.

Siyasi düşərgəyə, cəmiyyətimizin idarəçiliyinə yeni ictimai ruhun gəlişi təzə ideyaların axını demək idi. Bütün bunların bəhrəsi isə təkcə əldə olunmuş inkişaf tempini qoruyub saxlamaq deyil, həm də qazanılacaq yeni uğurlar, növbəti təcrübə olacaqdı. Varis-lider İlham Əliyevin keçdiyi mənəvi, mədəni, intellektual, siyasi məktəb bütöv bir tarix idi.

Belə bir tarixi şəraitdə ümummilli lider 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirdi: **"Üzümü sizə– həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**

Müstəqil dövlətin yenicə qurulmuş, nizamlanmış hakimiyyətinin yeni siyasi varisə ötürülməsi kimi taleyüklü bir keçid mərhələsində İlham Əliyevin böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilməsi göstərdi ki, əvvəla, Azərbaycan xalqı ümummilli liderin milli dövlət quruculuğu siyasətinin perspektivliyinə dərindən inanır; ikincisi, İlham Əliyevi məhz həmin siyasətin daşıyıcısı və davamçısı kimi qəbul edir; nəhayət, gələcəkdə milli dövlət quruculuğu qarşısına çıxa biləcək qaçılmaz problemlərin həllində onun siyasi intellektinə, uzaqgörənliyinə və iradəsinə şübhə etmir.

Qloballaşan dünyada ancaq konkret düşüncəli, yüksək mədəniyyətli, zəkalı, sərbəst mükalimələr yürüdən siyasətçilər nüfuz və hörmət qazana bilərlər. Bu mənada, İlham Əliyev vətəninin milli mənafeyini istənilən səviyyələrdə, aparıcı beynəlxalq dillərdə çatdırmağa və müdafiə etməyə kifayət qədər qadir siyasətçidir.

Ulu öndər Heydər Əliyev ölkəsinin müstəqilliyinin on ili ərzində milli, dünyəvi quruluş formasiyasını seçən Azərbaycanın bugününün və sabahının üç ana prinsipini, ideya istiqamətini müəyyənləşdirmişdir: **azərbaycançılıq, millilik, demokratizm!** Bu gün artıq özünü təsdiqləmiş, nəticələri ilə xalqın böyük hissəsinin etibarını əldə etmiş bu dəyərlər Prezident İlham Əliyevin milli birlik, vətənçilik barədə məxsusi düşüncələri ilə daha çevik, yeni məcrada davam və inkişaf etdirilir.

Müstəqillik dövrünün tarixi proseslərinin ictimai xarakteri onu göstərir ki, əgər Azərbaycanda Heydər Əliyevin dövlətçiliyə xilaskar baxışları, müdaxilələri olmasaydı, bu gün dünya azərbaycanlılarının taleyi barədə şübhələr hökm sürərdi. **Azərbaycançılıq** kimi böyük ideya dil, mədəniyyət, adət-ənənələrin, xalqın şərəfli tarixinin elmi cəhətdən araşdırılması, öyrənilməsi vətəndaşların həmrəylik istəyi, mütəşəkkilləşmək barədə duyğuları ilə yoğrulmuşdur.

Millilik Prezident İlham Əliyevin siyasi düşüncəsinin, təfəkküründün əsas mənbəyidir. Onun öz xalqının ruhuna uyğun, eləcə də Avropa və Qərb təmayyüllü siyasəti Azərbaycanın əzəli milli maraqlarından mayalanır. Bu keyfiyyət, bütövlükdə, ümumtürk ruhunun tərbiyəsindən gələn bir xarakterdir. Türk ruhumuzun siyasi, milli, əxlaqi, mədəni dəyərləri çoxəsrlik tarixi sınaqlardan alnıaçıq çıxıb. Millətin yaşam proseslərinə qiymət verərkən, təbii ki, türk dünyasının, türk xalqlarının zaman-zaman özəlliklərini saxlayaraq hərtərəfli inkişaf meyllərinə tapınmasından dövlətin də, Prezidentin də, vətəndaşların da bugünkü qürur hissi böyük olmalıdır.

Müasir Azərbaycan dövləti Heydər Əliyevin rəhbərliyi ilə müstəqil həyatının çətin, ziddiyyətli yaşantılarını çoxdan geridə qoymuşdur. Demokratik quruluşun mahiyyətini göstərən amillərin gerçəkləşməsi sayəsində dövlətimiz bu gün dünya birliyində layiqli yer tutur. Bayrağımız, demək olar ki, bütün beynəlxalq təşktilatlarda ucaldılmışdır. Millətimizin daxili potensialı, ictimai düşüncəsi ona imkan verir ki, Azərbaycan demokratizmi heç də digər ölkələrin demokratizmindən geri qalmasın.

Dünya siyasətinin ən peşəkar simalarından biri, iyirminci yüzilin böyük mütəfəkkir qurucusu Heydər Əliyev bütün vətəndaşlara, o cümlədən müxalifətə açıq siyasi fəaliyyət və özünütəbliğat üçün təhlükəsiz şərait yaratmışdır. İqtidar siyasi əqidəsindən asılı olmayaraq, hər bir vətəndaşa, o cümlədən də müxalifətə söz demək, mübarizə aparmaq azadlığını vermişdir.

Prezident İlham Əliyev bu gün eyni **demokratizmi** davam etdirərkən, bəlkə də, bir qədər də artırarkən sağlam, eyni zamanda, gənc intellektual düşüncənin, qabiliyyətin, milli təəssübkeşliyin, yolunu fəal surətdə açıq elan etmişdir. O, müxalifətlə münasibətdə nümayiş etdirdiyi demokratik, milli, mədəni, əxlaqi səviyyə ilə Azərbaycanın maraqlarını hər şeydən üstün tutduğunu dəfələrlə açıqlamış, avantürist meyillərə əsaslanan müxalif qüvvələri millətin sabahı naminə fəaliyyət göstərməyə, iqtidarla dialoqa dəvət etmişdir.

Önəmlisi odur ki, Azərbaycandakı siyasi, sosial, mədəni xətt doğma dəyərlərə münasibətdə millətin keçmiş dövlətçilik və yaşam təcrübəsindən istifadəyə söykənir. Bu yol müasir dövlətçilikdə vacib impulsiv milli strategiya sayıla bilər.

Üçüncü minilliyin astanasında Heydər Əliyev xalqımıza müraciətində milli düşüncəmizin, ideologiyamızın iç – özül maraqlarını, milli özünüdərkdə təəssübkeşliyin ən tipoloji tarixi nümunəsini ortaya qoymuşdur: **"Biz nadir bir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".** İctimai, idraki və iqtisadi dünyaduyumunda bərabər tərəf kimi özünə yer almış millilik mənəvi keyfiyyət olaraq İlham Əliyev siyasətinin prioritetlərindəndir.

Prezident İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin müsbət ənənələri, türk mənəvi-əxlaqi dəyərləri, Qərb və Avropa modellərinə münasib intellekt möhkəm birləşmiş özüldür. O, milli-mənəvi, ideoloji dəyərlərimizin hamısında, mədəni, elmi, etnokulturoloji, eləcə də yaradıcılıq

sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini yalnız iqtisadi-sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlayır. Bu, dünyanın ümumi həyatının rəhnidir və hər bir millətin gələcəyində, dövlətin qabaqcıl ölkələrlə eyni hüquqi səviyyədə yaşayıb inkişaf etməyində həlledici amildir.

Biz qəlbən rahatlıq hissi keçirməli və ümidvar olmalıyıq ki, xalqın intellektual, mədəni, mənəvi perspektivi Azərbaycanın potensial iqtisadi-sosial rifahına hesablanmışdır. Azərbaycançılıq ideologiyası üçün müstəqilliyin tarixi-mənəvi tələblərindən biri də dünyanın müxtəlif yerlərində yaşayan və fəaliyyət göstərən azərbaycanlıların, əsasən, bu ideya ətrafında birləşməsidir. Bu istiqamət bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi, tarixi maraqlarını ifadə edən məsələ kimi, müasir dövlətçilikdə önəmli halal yerini almışdır.

Vaxtilə Prezident Heydər Əliyev birmənalı şəkildə Azərbaycan insanına tövsiyə edirdi: **"Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı– Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq."** Ulu öndər bununla bütöv xalqı – azərbaycanlı superetnosun harada və hansı vəziyyətdə olmasını, şəraiti fərqləndirmədən, ümumilikdə, onlarda milli duyğuların canlanması işinə bir iradəlilik, sürət impulsu verirdi.

Millətin ümumi daxili-ruhi yüksəlişi, mənəviyyat, mədəniyyət sahəsindəki məsələlərin konseptual bir proqram çərçivəsinə, sistemə salınması da Azərbaycan cəmiyyətində İlham Əliyevin lider kimi tanınmağına əsaslı təsir göstərir. Eyni zamanda, beynəlxalq aləmin ölkəmizə münasibətində heç vaxt unudulmamışdır ki, dünyəvi istiqamətləri öz həyat prinsipləri seçmiş Azərbaycanın etnik baxımdan möhkəm birliyi təmin olunub və mütəşəkkildir. Bu məmləkətdə yaşayan insanların hamısı, bəzi etnik azlıqlar fərqli mədəniyyətlərə mənsub olsalar da, vətəndaş olaraq Konstitutisiya ilə bütün azadlıqlara, hüquqlara malikdirlər.

İlham Əliyev Azərbaycan dövlətinin başına təkcə ümummilli liderin varisi, davamçısı, onun məktəbinin ardıcılı kimi yox, həm də yenilikçi – yeni zamanın yeni lideri olaraq gəlmişdir. O, idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdir ki, hər bir zəkalı ölkə vətəndaşının dövlətçiliyin inkişafında yeri var. Və dövlət quruculuğunda bu yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam düşüncəsinə, qabiliyyətinə görə müəyyənləşmişdir.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının və müstəqilliyinin siyasi proqramını ümummilli liderimiz Heydər Əliyev böyük inamla formalaşdırmış və reallaşdırmış, iqtisadi müstəqillik uğrunda mübarizənin möhkəm təməlini qoymuşdur. Siyasi müstəqilliyin və onun iqtisadi cəbhəsinin daha da möhkəmləndirilməsinin sükanı artıq 14 ildir ki, Prezident İlham Əliyevin əlindədir. Əminliklə demək olar ki, Azərbaycanın iqtisadi müstəqilliyinin reallaşdırılması İlham Əliyev siyasətinin tarixi nailiyyətidir.

17 noyabr 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında Prezident İlham Əliyev proqram xarakterli bəyanatla çıxış etdi: **"Azərbaycanda son illər ərzində aparılan iqtisadi siyasət çox uğurlu olubdur və Azərbaycanın gələcək inkişafı üçün də gözəl təməl yaradıbdır. Bizim hamımızın vəzifəsidir ki, bu siyasəti davam etdirək, əldə olunan bu uğurları artıraq və Azərbaycanın hərtərəfli inkişafı üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməlin üzərində müasir Azərbaycanı yaradaq".**

Prezident İlham Əliyevin geniş düşüncəsində Azərbaycanın indiki inkişaf mərhələsini dönməz prosesə çevirmək və islahatları uğurlu sonluqla tamamlamaq durur. Cəmiyyətin sağlam qüvvələrinin qəbul etdiyi siyasi kursun davamı da elə bunda – ənənələrin etibarlı səviyyədə qorunmasının özünün bir ənənəyə çevrilməsi ideyasındadır.

Dövlət başçısı İlham Əliyevin siyasi portretini onun söhbət açacağımız fərdi obrazının əlamətdar ştirixləri tamamlayır:

Ləyaqətlilik – xalqına da, beynəlxalq aləmə də, dosta da, düşmənə də münasibətdə, onun siyasətini sevənlə də, qarşı olaraq mübarizə aparanla da davranışda bu xüsusiyyət, həm də əlavə bir təmkinlə müşahidə olunur.

Humanistlik – bu insanlığa məhəbbətdən irəli gələn bir keyfiyyətdir. Prezident İlham Əliyev bilir ki, insanları sevmək, onlara xeyirxahlıq, mənəvi-ruhi, hüquqi, sosial baxımdan problemlərinin həllində doğmalıq göstərmək, dayaq durmaq – layiqli rəhbər olmaqdır.

Vətənpərvərlik – hələ millət vəkili olaraq Avropa Şurasında nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti onun haqqında bu imici yaratmışdı. İlham Əliyev dünyanı bir həqiqətə inandırmağa çalışır ki, Ermənistan terrorçu dövlətdir, zəbt etdiyi Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ ərazisindən narkotik maddələrin tranziti və biznesi məqsədilə istifadə edir.

Qayğıkeşlik – on il deputat seçildiyi ərazi onun himayədarlığını kifayət qədər hiss etmişdir. İlham Əliyev, bəlkə də, onları nəinki mənəvi-sosial sıxıntılarla üz-üzə qoymamış, daim seçiciləri ilə müntəzəm görüşlər keçirərək, ümumi əhval-ruhiyyəinin yüksəkliyinə nail olmağa çalışmışdır. Çadır düşərgələrində yaşayan qaçqınların və məcburi köçkünlərin məişət, sığınacaq, güzəran qayğıları da İlham Əliyevin nigarançılığına səbəb olan məsələlər idi.

Səmimilik – İlham Əliyev rəsmi və ictmaiyyətlə görüşlərində siyasətçiləri, müxtəlif zümrədən olan insanları nəzakətlə, hörmətlə dinləməyi, məsələyə aydın münasibət bildirməyi ilə tərəf-müqabillərini özü haqqında sayğılı düşünməyə vadar edir. O, dialoq zamanı həmsöhbətini özünün təbii səmimiyyətinə və obyektivliyinə inandırır.

Müasir dövrdə İlham Əliyev liderlik yolunda cəmiyyəti də özü ilə birlikdə ucaltmağa qadir olan yeganə dövlət adamıdır. İnsanların yaxşı məlumatı var ki, o, atasının quruculuq illərində hansı vəzifə daşımasına baxmayaraq, dövlət müstəqilliyimizin qorunmasında, möhkəmlənməsində və ölkəmizin dünya birliyinə daxil olmasında, Avropanın bir üzvü kimi tanınmasında gəncliyin lideri qismində kifayət qədər bilik, bacarıq, qüvvə sərf etmiş, mübarizlik göstərmişdir. Ölkənin böyük neft strategiyasının milli maraqlar daxilində həyata keçirilməsində İlham Əliyevin əməyini, mühüm xidmətlərini heç bir siyasət adamı dana bilməz.

Artıq Azərbaycanda milli birlik, sabitlik, demokratiya bərqərar ediləndən sonra sivil dəyərlərə geniş miqyasda inteqrasiya olunmaq dövrü vüsət almışdır. Ölkəmizin inkişafının, dünya dövlətləri ilə əməkdaşlığının strateji tərəflərindən biri də hazırda beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məsələsidir ki, Prezident İlham Əliyev bu sahədə də qətiyyətli mövqedədir.

Prezident İlham Əliyev öz açıq və dərin təfəkkürü, çevik, analitik dünyaduyumu ilə milli maraqları bəşəri formulada sintez və təqdim edə bilir. O, sülh haqqında, yaxud sülhü müdafiə barədə konkretdir. Terrorizmə qarşı mübarizədə səmərəli fikirlərini beyəlxalq tribunalardan səsləndirərkən tələfat və dağıntıların əziyyətini çəkənlərin ilk sıralarında Azərbaycanı nümunə kimi tanıdır.

Müstəqil Azərbaycan dövlətinin yeni lideri İlham Əliyevin əsaslı və zəruri islahatları ölkənin real iqtisadi, sosial, siyasi vəziyyətini dəqiqliklə nəzərə almaqla yanaşı, cəsarətliliyi ilə də seçilir. Onun məhz yenilikçi idarəetmə texnologiyalarına ardıcıl, inamlı müraciətinin nəticəsidir ki, respublikanın iqtisadi inkişafı indiyə qədər görünməmiş bir sürət və miqyas almış, ölkədə sağlam sosial-siyasi, mənəvi-mədəni əhval- ruhiyyə güclənmişdir. Bu gün ən qərəzkar, ən aqressiv, hətta ən dağıdıcı bir müxalif qüvvə belə dövlət başçısı İlham Əliyevin qazandığı çoxspektrli uğurları görməmək, yaxud inkar etmək gücündə deyil.

Prezident İlham Əliyev ulu öndərin yaratdığı əsaslara söykənərək Azərbaycanda iqtisadi- sosial tərəqqini fenomenal bir gerçəyə çevirib. Bu illərdə milli iqtisadiyyatımız onun qətiyyəti və novator idarəçiliyi sayəsində 3 dəfədən çox artıb. Bu, dünyada ən sürətli inkişaf göstəricisidir. Yoxsulluq onun müstəsna səyləri ilə 10 dəfəyə qədər azalaraq 5 faiz səviyyəsinə enib. İlham Əliyevin rəhbərliyi dövründə ölkəmizdə 1,9 milyondan çox yeni iş yeri açılıb.

Azadlıq, inkişaf və məsuliyyət İlham Əliyev siyasətinin əsas xarakteridir. Bu xarakterdə qeyri-səmimiliyə, təşəbbüssüzlüyə, tənbəlliyə qarşı barışmaz münasibət var. Heydər Əliyevin milli dövlət quruculuğu xətti ümummilli liderin ən layiqli varisi olaraq onun ideoloji söykənəçəyi, daim siyasi enerji götürəçəyi böyük mənbədir. İlham Əliyevin siyasətinin əsas özəlliyi də Azərbaycanı sivil məkana çevirmək, xalqı mənəvi cəhətdən ruhlandırmaq, təşkil etmək, dünyada bir millət kimi qürurla yaşamağımıza ideoloji-mədəni təminat yaratmaqdır.

Prezident İlham Əliyev vətənpərvər, dünyəvi təfəkkürü ilə, Azərbaycanı yüksək mədəniyyətli, mənəviyyatlı diyara çevirmək yolundadır. Dünya tarixində millətlər zəngin nemətləri ilə yox, məhz böyük mədəniyyətləri ilə tanmır. Bu gün Azərbaycanda yürüdülən siyasətin professionallığı, çevikliyi bütün inkişafı milli-mənəvi potensial üzərində qurmağında təzahür edir. Ulu öndər Heydər Əliyevin bizə qoyub getdiyi zəngin irs, formalaşdırdığı böyük dövlətçilik ideologiyası elə bir bütöv kompleksdir ki, imkanlar reallaşdıqca onun tərkib hissələri, məziyyətləri də tədriçən artır. Bu mənada, çənab İlham Əliyevin təqdim etdiyi həyatın bütün sahələrinə yönəlik inkişaf konsepsiyasının tipologiyası keçmiş sovet respublikalarının heç biri ilə müqayisə oluna bilməz.

Prezidentin andiçmə mərasimindəki nitqindən bu tezisi Azərbaycanın sonrası üçün əsas amal hesab etmək olar: **"Mən bu gün yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə üzümü tutub deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".** Bu amal, sədaqət, bu vəd təkçə İlham Əliyevin deyil, onu prezident seçən və axıradək müdafiə edəçək, işində yardımçı olaçaq insanların fikrini ifadə edir.

Müstəqilliyimizin indiki mərhələsində Prezident İlham Əliyev bizim əvəzolunmaz liderimizdir. Müstəqilliyimizin ilk illərinin xaotik çağlarında, islahatlar dövründə yetişmiş, öz milli-mənəvi, elmi səviyyəsini, qabiliyyətini göstərməyə o vaxtlar imkan tapmayan, intellektual-ziyalı elektoratın, sadə insanların, erməni təcavüzündən əziyyət çəkmiş yüz minlərlə vətəndaşın –ümumiyyətlə, dünya azərbaycanlılarının düşüncəsində onun liderliyi şəksiz qəbul olunur.

Xalq qəzeti.-2017.-24 dekabr.-№285.-S.4.

Müstəqil Azərbaycan Heydər Əliyevin xalqımıza ən böyük töhfəsi və əmanətidir

Asif Əsgərov,
Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, YAP Siyasi Şurasının üzvü

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

Toni Bleyer
Böyük Britaniyanın keçmiş baş naziri

Zaman bizi ümummilli lider Heydər Əliyevin cismani yoxluğundan uzaqlaşdırdıqca xalqımız bu möhtəşəm şəxsiyyətin ulu, gündən-günə əzəmətini artıran obrazına daha çox müraciət edir. Əslində, bu nadir insanın və siyasət korifeyinin heç vaxt heç bir qiymətə, tərifə ehtiyacı olmasa da, onun qədir-qiyməti qəlbimizdə getdikcə daha da artır, zaman-zaman böyüyür. Bu, hər şeydən əvvəl, bizim özümüzün ulu öndərin zəka və ideyalarına olan ehtiyacımızın misilsizsizliyi ilə bağlıdır.

Tarixdə elə insanlar var ki, onların əzəmətini heç bir sözlə ifadə etmək mümkün deyil. Heydər Əliyev də belə insanlardandır. Bu adın ucalığı bütün metaforaları kölgədə qoyur. Biz Heydər Əliyevi ulu öndər, müdrik insan, dahi şəxsiyyət adlandırırıq. Amma etiraf edək ki, bunlar onun milli təfəkkürümüzdə əbədilik qazanan statusunun yalnız müəyyən bir hissəsini ifadə edir. Heydər Əliyev Azərbaycan milli varlığının ümumi çevrəsinin ən yüksək nöqtəsini təşkil edən zirvədir.

Xalqımızın ümummilli lideri, zəmanəmizin və bütün dövrlərin dahisi Heydər Əliyevin ideya və əməlləri daim bizimlə olduğundan millət atasının cismani yoxluğu ötən illərdə zərrə qədər də hiss olunmamışdır. Hər il ümumxalq xatirə günlərində isə ulu öndərin nadir kimliyi çəmiyyət miqyasında ən iri planda gözlərimiz önündə canlanır.

...12 dekabr 2003-cü il. Azərbaycan xalqının böyük oğlu, dahi siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün. Xalqımızı sonsuz kədərə, göz yaşlarına qərq edən o qış günündən bu gün bizi 14 illik zaman ayırsa da, xalqımız yenə o itkinin hüznünü ilk gündə olduğu kimi yaşamaqdadır. Bunu Fəxri xiyabana axışan insan seli bir daha təsdiqləmiş olur. Bu axın bir daha sübut edir ki, zaman keçdikcə xalqın dahi oğluna, ulu öndərinə, ümummilli liderinə olan ehtiramı daha da böyüməkdə, ürəklərdəki yeri daha da dərinləşməkdədir.

İldən-ilə möhtəşəmləşən anım mərasimləri dahi öndərimiz Heydər Əliyevin dövlətçiliyimizin bərpası və əbədiləşdirilməsi, ölkəmizin sivil tərəqqi yoluna çıxarılması, hərtərəfli inkişafa qovuşması kimi tarixi missiyasının önəmini xalqımızın qədərincə anlamasının və lazımınca dəyərləndirməsinin aydın göstəricisidir.

Ümummilli liderin dünyaya göz yumduğu günlərdə xalqımıza böyük təsəlli gətirmiş, sabaha inamımızı artırmış "Nə qədər ki, xalqımız var, nə qədər ki, Azərbaycan var – Heydər Əliyev də var olacaqdır" deyimində ifadə olunmuş uzaqgörənlik və həqiqət zaman keçdikcə daha dərindən və aydın dərk olunur. Ölkəmizə bir qərinədən artıq müddətdə rəhbərlik etmiş bir insanla eyni dövrdə yaşamaq, müəyyən şəraitdə onunla təmasda olmaq isə illər keçdikcə əfsanəviləşən bir epoxanın dəyərli epizodları, unudulmaz hadisə və faktları kimi mənalıdır.

Müdrikliyi, uzaqgörənliyi və təkrarsız fəaliyyəti ilə milli gerçəkliyimizdə əbədi yer almış ən böyük azərbaycanlı Heydər Əliyevin nurlu obrazı həmişə qəlbimizə işıq və hərarət saçır. Adı Azərbaycanın, türk dünyasının, bütövlükdə, dünya siyasətinin tarixinə qızıl hərflərlə yazılmış bu şəxsiyyət, haqlı olaraq, əbədi öndərimiz kimi sabaha gedən yolumuzun mayakına çevrilmişdir.

Bənzərsiz tarixi şəxsiyyət kimi Heydər Əliyev siyasətdə həm ənənəvi, həm də müasir lider obrazında təzahür edən, təmsil etdiyi xalqın və dövlətin yolgöstərəninə çevrilməyi bacaran və onun milli idealını təmsil edən dahi və müdrik bir insandır. Heydər Əliyev Azərbaycan tarixində ən ardıcıl və ən böyük istiqlalçı, ən böyük demokrat, ən böyük vətənpərvər, ən böyük dövlətçi və ən böyük əməl sahibidir. Onun fəaliyyətinin hər bir hissəsi xalqımızın mədəni inkişafına, iqtisadi və siyasi yüksəlişinə xidmət edən müvəffəqiyyətlərlə zəngindir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin ömür yolu, həmişə uğur və qələbələrlə müşayiət olunan mübarizəsi iki minilliyi qovuşduran onilliklərdə tariximizin şərəf kitabının ən parlaq və zəngin səhifələrini təşkil edir. Milli tariximizin Heydər Əliyev zirvəsi gələcəyə gedən

yolumuzu aydın görməyə geniş imkan yaratdığı kimi, keçmişimizi, xüsusən, yaxın dünənimizi də doğru-düzgün dəyərləndirməyimiz üçün dolğun mənzərə açır.

Böyük şəxsiyyətlərin adı zəmanəsinin və xalqının rəmzinə çevrilir. Ulu öndər, dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının öz tarixi ərzində ərsəyə gətirdiyi ən böyük siyasət və dövlət xadimidir. Xalqımızın bütün müsbət keyfiyyətlərini, yaradıcılıq enerjisini öz simasında üzvi şəkildə birləşdirən Heydər Əliyev millətimizin şərəf və ləyaqət ünvanına çevrilmişdir. Tariximizin son yarım əsrdən artıq bir dövrü Heydər Əliyevin zəkası ilə nurlanmışdır.

Tariximizin ən böyük simalarının ön cərgəsində dayanmaq haqqı qazanmış Heydər Əliyev XX əsrin sonlarında və XXI əsrin əvvəllərində ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin təşəbbüsçüsü və müəllifi olmuşdur. Yalnız onun sayəsində xalqımız əvvəlcə siyasi və dövlət müstəqilliyinin möhkəm təməlini yaratmış, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövlətini qoruyub saxlaya bilmişdir. Onun dünya siyasət xəzinəsini zənginləşdirən fəaliyyəti Azərbaycan xalqının əsrlər boyu ürəyində yaşatdığı müstəqil dövlətçilik arzusunun gerçəkliyə çevrilməsində müstəsna rol oynamışdır.

Ümummilli lider Heydər Əliyevin bir qərinədən artıq dövrdə Azərbaycana iki dəfə rəhbərlik etməsi ən mühüm nəticələri ilə şəxsiyyətin tarixdə müəyyənedici rolunu bir daha təsdiqləyən, çağdaş dünyada etiraf olunan fenomenal bir hadisədir. Ulu soydaşımızın Azərbaycana rəhbərlik etdiyi hər iki dövrü indiki nəsillər minilliklər boyu davam edən dövlətçilik tariximizin ən şanlı səhifələri, misilsiz idarəetmə məktəbi kimi öyrənir və daim sonsuz qürur mənbəyi kimi yad edirlər. Bu misilsiz siyasi irs-liderlik məramı 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanan şərəfli missiya ilə müəyyən olunmuşdur. Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969--1982-ci illərdə təsdiqləmişdir.

Böyük strateq bugünkü müstəqil Azərbaycanı hələ o zamandan-- Azərbaycanda həyatın bütün sahələrində ağır tənəzzülün hökm sürdüyü bir dövrdə xalqın problemlərini öz çiyninə götürdüyü 1969-cu ildən qurmağa başlamışdır. Bu qənaətin gerçəkliyini tarixi proseslərin sonrakı gedişi də tam sübuta yetirmişdir. Zəngin idarəçilik təcrübəsini sovet rejiminin əsl mahiyyəti barədə bilgiləri ilə uzlaşdıran ümummilli lider o zaman Azərbaycanı düşmüş olduğu böhrandan çıxarmaq üçün qəti addımlar ataraq böyük uzaqgörənliklə ölkənin uzunmüddətli, ardıcıl inkişafının təminatına yönələn proqramlar tərtib etmiş və qısa zaman ərzində bu proqramların icrasına nail olmuşdur.

Böyük qurucu lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi tariximizə daxil olaraq xalqımızın milli mənlik şüurunun oyanışına güclü təkan vermişdir. Məhz həmin dövrdə imperiya tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradılmışdır.

Azərbaycan rəhbəri Heydər Əliyevin dünyanın ən fövqəl dövlətlərindən olan SSRİ-nin rəhbərliyinə irəli çəkilməsi də onun lider kimi güclü təşkilatçı olması ilə bağlı idi. Heydər Əliyev məhz zəka və enerjisinin nəhəngliyi sayəsində 1982-ci il noyabrın 23-də Sovet dövlətinin ali qərargahı olan Sov. İKP MK-nın Siyasi bürosuna üzv seçildi. O, Moskvaya aparıldı, ən ağır və məsul vəzifələrdən olan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. O dövdə bu qüdrətli siyasət və dövlət xadimi SSRİ-nin ən mühüm sahələrinə rəhbərlik etdi və öz güclü təsir qabiliyyəti ilə o zamankı inkişafa təkan verdi.

Moskvada çalışdığı dövrdə də xalqımızın sədaqətli oğlu Heydər Əliyev Azərbaycanın ardıcıl inkişafı üçün əlindən gələni edirdi. Heydər Əliyev Siyasi büro tarixində ilk şəxsiyyət oldu ki, sovet siyasi maşını onu sındıra, əyə, məhv edə bilmədi. O, Siyasi bürodan uzaqlaşdırılan yeganə şəxs idi ki, yenidən siyasi olimpə qalxmağı bacardı! Çünki o, artıq çoxdan öz vətənində və dünyada yüz milyonlarla insanın nüfuz və etibarını qazanmışdı.

Siyasət nəhəngi Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişi də eynilə birinci dəfə olduğu kimi, respublikanın üzlədiyi ağır sosial-iqtisadi, mənəvi mühitlə şərtlənmişdi. Ulu öndər 1993-cü ilin iyununda kifayət qədər böhranlı bir dövrdə xalqın çağırışına cavab verərək, Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başlamışdır.

Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin iyun günlərində xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən xilas etdi. Heydər Əliyevin sayəsində Azərbaycan uçurumun bir addımlığından geri döndü, itirmək üzrə olduğu siyasi və dövlət müstəqilliyini qoruyub saxlaya bildi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1991-ci il oktyabrın 18-də elan olunsa da, onun əsl tarixi məhz qurtuluş günündən başlanır. Çünki ulu öndərimizin dediyi kimi, "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

Bu, zəruri və tarixi Qayıdış idi. Bu, xalqın ümidlərinin bərpası idi, onun öz Xilaskarına qovuşması idi! Bu, Azərbaycanın tarix səhnəsindən həmişəlik silinmək təhlükəsindən Qurtuluşu idi! Bu, "ölüm-qalım" dilemmasının xalqın, millətin, dövlətin xeyrinə həll olunması idi! Bu, azadlıq və dövlətçilik rəmzinə çevrilən real və əfsanəvi liderin: "Müstəqilliyimiz dönməzdir, qətidir və əbədidir" fikrinin təsdiqi idi!

Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratdı.

Zəngin təcrübəli və yeni təfəkkürlü siyasətçi Heydər Əliyevin demokratiya epoxasında müstəqil dövlətimizə rəhbərliyi dövründə Azərbaycanda dövlət quruculuğu, iqtisadi inkişaf, beynəlxalq əlaqələrin gücləndirilməsi istiqamətində davamlı proses başlandı, ölkədə bütün sahələr üzrə köklü islahatlar aparıldı. Müstəqillik yolunda inamla addımlayan Azərbaycan dünyada baş verən demokratikləşmə prosesinin iştirakçısına çevrildi.

Dünyanın siyasi axarını, nəhəng dövlətlərin maraqlarının çarpazlaşan nöqtələrini çox gözəl bilən Heydər Əliyev dərin zəkası, siyasi uzaqgörənliyi və polad məntiqi ilə hər şeyi yerinə qoya bildi. Təcrübəli dövlət xadiminin böyük səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Azərbaycanın yaxın gələcəkdə dünya siyasətində geosiyasi mövqeyini müəyyən edən siyasi-iqtisadi konsepsiya işlənib hazırlandı. Böyük strateq və mahir diplomat Heydər Əliyev müstəqil Azərbaycanı siyasi çaxnaşmalardan məharətlə çıxarıb, strateji mövqelərini bərpa etdi, ona sabit ölkə imici qazandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev çox böyük məharətlə özünün neft strategiyasını işləyib hazırladı. Ümummilli lider böyük uzaqgörənliklə dünyanın enerji tələbatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu diplomatiyada ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendləri yaxşı duyurdu. Dünyanın söz sahibi olan ölkələrinin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi.

Qədim İpək yolunun bərpası ideyasını qaldırmaq və onun həyata keçirilməsi işini təşkil etmək isə Heydər Əliyev şəxsiyyətinin regional yox, dünyəvi xarakter daşıdığını sübut etdi. Böyük İpək yolu ilə bağlı 30-dan çox dövlətin müasir inkişafında bu yolun müstəsna rolu ulu öndərin adı ilə bağlıdır.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. Ölkədə əsaslı siyasi, hüquqi və sosial islahatlara başlanıldı. Milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafı üçün lazımi tədbirlər görüldü. Milli dövlətçilik ideologiyası və idarəçilik fəlsəfəsi formalaşdırıldı.

Azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları naminə milli həmrəyliyin yaradılması istiqamətində əməli addımlar atıldı. Dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi, diaspor təşkilatlarının yaranmasına kömək göstərilməsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilməsi haqqında müqavilələri bağlamaqla Heydər Əliyev təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı, üstəlik, hərbi təhlükəsizliyi təmin etdi. Ümummilli liderin təxəyyülünün qlobal siyasətə bu uzaqgörən təsiri bütün Qafqaza aid dünya siyasətinin dəyişməsinə səbəb oldu.

Nəticə etibarilə qeyd edə bilərik ki, böyük dövlətçilik təcrübəsinə malik olan ümummilli lider Heydər Əliyev Şərq və Qərbin qovşağında yerləşən ölkəmizdə hər iki sivilizasiyanın konseptual parametrlərini özündə birləşdirən universal, modern bir dövlət yaratdı. Məhz onun sayəsində Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərinin strateji tərəfdaşına və Cənubi Qafqazın ən aparıcı dövlətinə çevrildi.

Heydər Əliyev xoşbəxt siyasətçi və dövlət xadimi idi, çünki zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövlətinin gələcəyindən arxayın idi. Heydər Əliyevin ruhu da şaddır, çünki başladığı işlər bu gün eyni əzm və iradə ilə davam etdirilir, onun yaratdığı möhkəm təməl üzərində inkişaf edən Azərbaycan Respublikası yeni-yeni zirvələr fəth edir.

Ulu öndərin yaratdığı sabitlik və həyat verdiyi islahatlar Azərbaycanın müstəqilliyini dönməz və əbədi prosesə çevirdi, indiki yeniləşmə və tərəqqi üçün mötəbər baza yaratdı. Bu strateji xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 14 ildir ki, uğurla davam etdirir.

Azərbaycanın siyasi, iqtisadi və hərbi qüdrəti artmış, ölkəmiz Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilmişdir. Getdikcə daha da artan imkanlarımız qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni uğurla yerinə yetirməyə imkan yaradır. Azərbaycan Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan nəhəng iqtisadi layihələrin həyata keçirilməsində həlledici rol oynayır.

Azərbaycanda elmin, mədəniyyətin, incəsənətin inkişafı, mənəvi dəyərlərin qorunması və zənginləşməsi, ölkəmizin dünya miqyasında qədim və zəngin mədəniyyətə malik bir ölkə kimi tanınması üçün ulu öndərin gördüyü işləri, elm, mədəniyyət xadimlərinə böyük qayğı ilə yanaşma ənənəsini də bu gün onun davamçıları Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondununrəhbəri Mehriban xanım Əliyeva böyük uğurla yaşadırlar.

Ölməzlik, həmişəyaşarlıq dahilərə, böyük şəxsiyyətlərə nəsib olan xoşbəxtlikdir. Xalqımızın böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev də məhz belə xoşbəxt tarixi simalardandır. Heydər Əliyev xalqımızın dünya

tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, insanlar, yeniləşən nəsillər zaman-zaman onun ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar.

Müstəqil, demokratik-hüquqi dövlət Heydər Əliyevin gələcək nəsillərə qoyub getdiyi ən böyük əmanətdir və bu əmanətin qorunub saxlanması bir vətəndaş olaraq hər birimizin üzərinə böyük məsuliyyət qoyur.

Dünyada hər şey dəyişir, qalan isə saf əməllərdir. Ulu öndər nəsillərin qəlbində öz əməlləri, ölməz ideyaları ilə yaşayacaqdır. Əsrlər, qərinələr keçəcək, Azərbaycan xalqı var olduqca, onun ümummilli lideri də daim yaşayacaq, heç vaxt unudulmayacaqdır.

Xalq qəzeti.-2017.-12 dekabr.-№274.-S.4.

Müstəqil dövlətlərdə hüquq islahatları

Rəşid Rəşad

Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsində (ümumilik, ayrılmazlıq, pozulmazlıq və toxunulmazlıq prinsipləri), 25-ci maddəsində (bərabərlik prinsipi), 71-ci maddəsinin 1-ci hissəsində (dövlət müdafiəsi prinsipi), 71-ci maddəsinin 6-CI hissəsində (birbaşa qüvvədə olma prinsipi) insan və vətəndaşın hüquqi statusunun əsas prinsipləri təsbit olunub. Bu da o deməkdir ki, insan və vətəndaşın hüquqi statusunun bütün bu konstitusion prinsipləri Azərbaycan dövlətinin insan və vətəndaşın hüquq və azadlıqları sferasında siyasətinin əsas istiqamətlərini müəyyən edir və onların hüquqi statusunun əsasını təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasında bəyan edilir ki, əsas hüquq və azadlıqlar toxunulmazdır və hər kəsə doğulduğu andan mənsubdur. Yəni, əsas hüquqları dövlət bağışlamır, şəxsin doğulma faktı onun hüquqlara malik olmasına əsas verir.

Ekspert Əli Hüseynli qeyd edib ki, demokratik hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunub: "İnsan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilib. Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilib. Demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığı, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Əsas Qanunun rolu qat-qat artır. Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Mühüm tarixi əhəmiyyətə malik olan bu sənəd ölkəmizdə insan və vətəndaş azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Əminliklə demək olar ki, Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları lazımi şəkildə öz əksini tapıb".

Yeri gəlmişkən, ölkə başçısının rəhbərliyilə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan və vətəndaş hüquqlarının müdafiəsi sahəsində aparılan məqsədyönlü siyasətin bir nümunəsidir.

Ekspert onu da qeyd edir ki, hüquqi dövlətdə, bazar münasibətləri və iqtisadi cəhətdən müstəqil insan kütləsi məkanında vətəndaş cəmiyyətinin olması mümkündür.

Hüquqi konstitusiya dedikdə isə insanların hüquq və azadlıqlarına təminat verilməsi, dövlətin ali hakimiyyət orqanlarının fəaliyyətini tənzimləyən əsas prinsiplərin müəyyənləşdirilməsi, hüquqi sistemin əsaslarının yaradılması, dövlət, cəmiyyət və insan arasında münasibətlərin tənzimlənməsi başa düşülür. Tənzimləməyə məruz qalan ictimai münasibətlər, daha dəqiqi, real mövcud olan münasibətlər isə faktiki konstitusiya ifadəsi ilə xarakterizə edilir. Hüquqi və faktiki konstitusiya arasında fərqin aşkar duyulması isə hüquqi islahatların cəmiyyətin inkişaf tempindən geridə qalması, müasir tələblərə tam cavab verməməsi anlamına gəlir (anl.az).

Hüquqşünas Natiq Abdullayev bildiri ki, Azərbaycan Respublikasının son illərdə qazandığı nailiyyətlər, ilk növbədə, hüquqi islahatların düzgün istiqamətləndirilməsi və səmərəli həyata keçirilməsi ilə sıx bağlıdır: "Azərbaycan dövləti tərəfindən islahatlar, o cümlədən, hüquqi islahatlar hazırda da davam etdirilir. Ölkə başçısının rəhbərliyi altında son 7 ildə aparılan məhkəmə-hüquq islahatları, yeni təsisatların yaradılması, ədliyyə və məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi vətəndaş cəmiyyətinin inkişafını təmin edən tədbirlərdir. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin daimi və mütərəqqi inkişafını təmin etmək üçün hüquqi islahatların mütəmadi davam etdirilməsi zəruridir. Bu prosesdə dövlət siyasətinin cəmiyyətə çatdırılması, təbliği üçün ictimai təşkilatların məqsədyönlü iş aparması da müsbət rol oynayır".

Hüquqşünas onu da qeyd edir ki, "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu 1999-cu ildə qəbul olunub. Son illərdə beynəlxalq arbitraj institutlarının fəaliyyətinin təkmilləşdirilməsi, iqtisadi münasibətlərin hüquqi tənzimlənməsində yeniliklərin baş verməsi nəticəsində bu qanunun da məzmunca yeniləşməsinə zərurət yaranıb: "Təmsil etdiyim birliyin ekspertləri və cəlb edilmiş mütəxəssislərin iştirakı ilə adı çəkilən qanuna əlavə və dəyişikliklər edilməsinə dair təkliflər hazırlanmış və aidiyyatı üzrə təqdim olundu. Sevindirici haldır ki, bu təkliflərin bir qismi qanunverici orqan tərəfindən qəbul olunub. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirilən layihə çərçivəsində "Mediasiya haqqında", "Münsiflər Məhkəməsi haqqında" Qanun layihələri, "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr, Mülki Prosessual Məcəlləyə əlavə və dəyişikliklər Mərkəzimizin ekspertləri tərəfindən hazırlanmış və aidiyyatı üzrə təqdim edilib.

Ümumiyyətlə, qanunvericilik aktlarının təkmilləşdirilməsi sahəsində təşkilatımızın səmərəli fəaliyyət göstərməsi və müəyyən töhfəsinin olduğunu qeyd etmək lazımdır. Belə ki, fəaliyyətinin ilk dövrlərindən milli qanunvericilik aktlarının beynəlxalq standartlara və dəyişən ictimai münasibətlərə uyğunlaşdırılması, təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Bu mənada Azərbaycan Respublikasının Mülki Məcəlləsinin, Mülki Prosessual Məcəlləsinin, Cinayət Prosessual Məcəlləsinin və s. normativ aktların bəzi müddəalarına əlavə və dəyişikliklər edilməsinə dair indiyədək 40-a yaxın təkliflə Azərbaycan Respublikasının Milli Məclisinə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, Ali Məhkəməyə, Ombudsmana və digər qurumlara müraciətlər göndərilib. Aparılan araşdırmalar göstərir ki, bu təkliflərdən bir qismi aidiyyatı üzrə öyrənilmiş və davam edən hüquqi islahatlarda nəzərə alınıb. Biz bundan sonra da hüquqi islahatların dəstəklənməsi və sürətləndirilməsi prosesində fəal iştirak edəcəyik".

Bundan başqa, Azərbaycan dövlətinin insan və vətəndaş hüquq və əsas azadlıqlarının qorunması sahəsində də bir sıra tədbirlər həyata keçirilib. Ümumiyyətlə isə insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasında beynəlxalq təcrübənin öyrənilməsi, hüququ pozulmuş şəxslərin ixtisaslı və səmərəli hüquqi yardımla təmin olunması sahəsində tədbirlər, bütövlükdə hüquqi yardımın təkmilləşdirilməsinə çalışmaq mərkəzin mütəmadi fəaliyyət sahələrindən biridir ("hafta.az").

Fəlsəfə üzrə fəlsəfə doktoru Vahid Ömərov qeyd edir ki, insan hüquqları haqqında" Ümumi Bəyannamənin 4-cü maddəsi "heç kəs köləlikdə, yaxud asılılıqda saxlanmamalıdır; quldarlıq və qul alverinin bütün növləri qadağandır" müddəasını nəzərdə tutur: "Konvensiyada kölə və ya qeyri-iradi vəziyyət anlayışı verilmir. Eyni zamanda, ora "məcburi və icbari əməyə cəlb etmə"nin qadağan olunması da əlavə edilir. Kölə anlayışı 1926-cı il köləlik haqqında konvensiyada verilmişdir. Qeyri-iradi vəziyyət başqasının əməyinin istismarının daha az ekstrimal formasıdır. Bura təhkimçilik, borc asılılığı, arvadların əmlak kimi köləliyə satılması və s. daxildir. Bu cür adətlər artıq mövcud deyildir. Lakin uşaqların iş üçün icarəyə verilməsi bu cür qadağanın təsiri altına düşə bilər. Qeyri-iradi vəziyyət insanın yayına bilmədiyi və ya ləğv edə bilmədiyi iş şəraitini ehtiva edir. Komissiya öz qərarlarında izah etmişdir ki, "köləlik" və ya "qeyri-iradi vəziyyət" terminləri məhkumların olduğu şəraitə tətbiq olunmur. Konvensiyanın nəzarət mexanizmi tərəfindən məcburi və ya icbari əmək anlayışları heç vaxt verilməmişdir. Komissiya bu barədə müraciətlə əlaqədar BƏT-in 105 H-li Konvensiyasında məcburi əməyin müəyyən edilmiş beş kateqoriyası ilə razılaşmış və onlara istinad etmişdir: məcburi və ya icbari əmək anlayışları arasında fərq bu öhdəlikləri dövlət və ya fərdi şəxs tərəfindən qoyulmasındadır (sesqazeti.az).

Konvensiyanın 5-ci maddəsi hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququnu nəzərdə tutur. Lakin bu hüquq mütləq xarakter daşıya bilməz. "Ona görə də 1-ci bənd azadlıqdan məhrum edilməyə yol verilən halların və qaydaların siyahısını da nəzərdə tutur. Bununla belə, 5-ci maddənin 2-5-ci bəndləri azadlıqdan məhrum edilmiş şəxsin əsassız həbsdən mühafizəsinin prosedur qaydalarını da nəzərdə tutur".

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun maliyyə dəstəyi ilə çap olunur

Ekspress. - 2017.- 21 noyabr. - № 210. - S. 10.

İqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır

Son 14 il ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu keçən ikinci ölkə yoxdur

Rəşad Baxşəliyev

225 milyard dollar həcmində investisiya, 42 milyard dollarlıq strateji valyuta ehtiyatları, dəyəri milyardlarla dollara bərabər transmilli layihələr, 6 beynəlxalq hava limanı, 438 ədəd körpü və tunel, 270 gəmidən ibarət iri ticarət donanması, 7 sənaye parkı, 2 sənaye məhəlləsi, yüzlərlə fabrik-zavod, logistik mərkəzlər, 44 min hektar sahədə 32 iri fermer təsərrüfatı, 38 aqropark, 24 iri taxılçılıq təsərrüfatı, 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları, 2 milyard manatdan çox güzəştli kredit və s.

Bütün bunlar müstəqilliyinin cəmi 26 yaşı olan Azərbaycan dövlətinin son 14 ildəki uğurlu nailiyyətləridir.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan

Bu möhtəşəm uğurlar ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasi kursunun 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsinin təsdiqidir. Son 14 il ərzində keyfiyyətcə yeni və sürətli inkişaf mərhələsinə daxil olan Azərbaycanın ötən dövrdə əldə etdiyi nailiyyətlər, yaradılan güclü iqtisadi potensial və böyük perspektivlərə doğru inamlı addımlarla müşahidə olunan sürətli tərəqqi prosesləri İlham Əliyevin "Biz özümüz üçün güclü dövlət qururuq ki, hər bir kəs Azərbaycan vətəndaşı olmağı ilə fəxr etsin" sözlərinin əməli təsdiqini tapdığını göstərir.

Azərbaycan sözün həqiqi mənasında müstəqil, özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda, dünya birliyinin etibarlı və layiqli üzvü olan dövlətdir. 2003-cü ildən başlayaraq dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçən Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Noyabrın 14-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində Prezident İlham Əliyev 14 il ərzində respublikamızın keçdiyi inkişaf yolunu belə dəyərləndirib: "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. 14 il ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb".

Konseptual yanaşma və yeni proqramlar əsasında qazanılan uğurlar

Real göstəricilər, tarixi faktlar sübut edir ki, son 14 ildə Azərbaycan bütün istiqamətlər üzrə konseptual yanaşma və proqramlar əsasında çox böyük tarixi uğurlara imza atıb.

Ümumiyyətlə, Prezident İlham Əliyevin yeni iqtisadi islahatlarının uğurlu gedişini şərtləndirən əsas səbəb onların təməl prinsiplərinin düzgün müəyyənləşdirilərək hazırlanması və qlobal çağırışlardan lokal gerçəkliyədək bütün tələb-şərtlərə uyğunlaşdırılmasıdır. Həmçinin sosial-iqtisadi islahatların hüquqi-siyasi təkmilləşmə ilə bir-birini tamamlaması bu prosesin böyük risklərdən, arzuolunmaz nəticələrdən sığortalanmasını effektiv təmin edib. Milli iqtisadiyyatının əsas inkişaf istiqamətlərini və iqtisadi təhlükəsizliyini təmin edən Azərbaycan dövləti dünya iqtisadi düzənində özünəməxsus mövqeyini müəyyənləşdirib.

Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən çevik və praqmatik iqtisadi siyasət yeni inkişaf mərhələsinin başlanğıcında olan Azərbaycana hər keçən gün uğur gətirir. Bu inkişaf kursuna uyğun olaraq makroiqtisadi sabitliyin qorunması, innovativ əsaslı iqtisadiyyatın inkişafının təmin edilməsi, qeyri-neft sektorunun stimullaşdırılması, ən başlıcası isə qazanılan nailiyyətlərin ölkə vətəndaşının rifahının daha da yaxşılaşdırılmasına yönəldilməsi Azərbaycan iqtisadiyyatının prioritetlərini təşkil edir.

Çevik iqtisadi siyasət tədbirləri, insan kapitalının inkişafı

Dövlət başçısının mövcud çağırışların tələblərinə cavab verən çevik tədbirləri regional və qlobal səviyyədə mürəkkəb siyasi və iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə belə, ölkə iqtisadiyyatının dayanıqlılığını qoruyub saxlayıb. Azərbaycan Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" isə iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını təmin edəcək. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə əks etdirir. Bu mühüm sənəd kənd təsərrüfatından tutmuş sənayeyə qədər bütün sahələri, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması kimi əsas istiqamətləri əhatə edir.

Ötən həftə Milli Məclisin komitələrinin birgə iclaslarında müzakirəyə çıxarılan 2018-ci ilin dövlət büdcəsi layihəsi təsdiq etdi ki, gələn il də ölkədə iqtisadi inkişafın davamlılığı təmin ediləcək. 2018-ci il üçün dövlət büdcəsinin gəlirləri 20 milyard 127 milyon, xərcləri isə 20 milyard 905,7 milyon manat proqnozlaşdırılır. Büdcənin gəlir və xərclərinin təhlili göstərir ki, növbəti il üçün əsas maliyyə planı xalqın rifahının daha da yaxşılaşmasına və ölkəmizin qüdrətinin yüksəlməsinə, iqtisadi inkişafın davamlılığına xidmət edəcək. Əsas istiqamətlər üzrə müşahidə olunan artımlar həm də Azərbaycanda həyata keçirilən islahatların real nəticəsidir.

107,2 milyard dollarlıq xarici investisiya

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, transmilli layihələr, xarici ticarət tərəfdaşlığı və strateji yol xəritələrində nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması nəticəsində əldə olunan uğurlara nəzər yetirək.

İndiyədək regionların inkişafına dair 3 dövlət proqramı qəbul olunub və onlardan ikisi artıq uğurla icra edilib. Hazırda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası davam etdirilir. Dövlət proqramları çərçivəsində regionlarda infrastrukturun inkişafı, əhalinin kommunal xidmətlərinin, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi istiqamətində mühüm tədbirlər həyata keçirilib, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilib.

Ölkədə 3 mindən çox məktəb, 600-dən çox xəstəxana və 50-dən artıq idman kompleksi inşa edilib.

11 min kilometr müasir şose və yollar çəkilib, 438 ədəd körpü və tunel tikilib və təmir olunub.

Son 14 ildə ölkə iqtisadiyyatına 107,2 milyard dollar xarici investisiya qoyulub. İndiyədək Azərbaycanda xarici ölkələrin müxtəlif sahələri əhatə edən 8000-dən çox şirkəti qeydiyyatdan keçib. Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparıb.

Aqrar sektorun inkişafında da mühüm nailiyyətlər əldə edilib. Belə ki, 20 rayonun ərazisində 44 min hektar sahədə 32 iri fermer təsərrüfatı yaradılıb. Dəyəri 193 milyon manat olan bu iri fermer təsərrüfatlarının yaradılmasına 70,5 milyon manat güzəştli kredit verilib. Hazırda 26 rayon üzrə 38 aqroparkın, o cümlədən 14 müasir cins heyvandarlıq kompleksinin və 24 iri taxılçılıq təsərrüfatlarının yaradılması təşviq olunur. Artıq Xaçmaz, Şəmkir və Cəlilabad rayonlarında aqroparklarda 1-ci mərhələ üzrə işlər başa çatdırılıb. 12 aqroparkın isə təşkili işlərinə başlanıb.

Regional güc və əvəzolunmaz nəqliyyat mərkəzi

Bu bir həqiqətdir ki, investisiya cəlb edən ölkədən investisiya yatıran və xüsusilə strateji əhəmiyyətli layihələrdə nümunə göstərən regional gücə çevrilən Azərbaycan son 14 ildə öz təbii ehtiyatlarından, coğrafi mövqeyindən uğurla faydalanaraq dünya iqtisadiyyatının fəal iştirakçısına çevrilib. Azərbaycan özünün keyfiyyətcə yeni iqtisadi modelini formalaşdıraraq Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrini genişləndirib, Qafqaz nəqliyyat dəhlizinin inkişafı ilə yanaşı, nəhəng layihələrin gerçəkləşməsində mühüm rol oynayıb, dünyanın əsas neft-qaz ixracatçısına çevrilib.

Sentyabrın 14-də imzalanan "Yeni əsrin müqaviləsi", oktyabrın 30-da açılışı qeyd edilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışı ilə bir daha dünyaya öz qüdrətini nümayiş etdirən Azərbaycan həmçinin "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan dörd layihədən ibarət ("Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP) "Cənub qaz dəhlizi" kimi milyardlarla investisiya yatırılan layihələrin əsas təşəbbüskarlarından biridir. Elə buna görə də Azərbaycan dünyanın nüfuzlu iqtisadi tədqiqat mərkəzlərinin hesabatlarında bölgədə investisiyaların coğrafi mərkəzinə çevrilən dövlət kimi səciyyələndirilir.

Prezident İlham Əliyev YAP-ın 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində qeyd edib ki, bu gün Avrasiya qitəsində nəqliyyat mərkəzlərinin birinə çevrilmək əzmində olan ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan iki istiqamət üzrə - energetika və nəqliyyat sahələrinin gələcək inkişafı ilə bağlı çox aydın hədəflər var: "Neft-qaz sahəsində bütün vəzifələr icra edildi. "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti uzadıldı. "Cənub qaz dəhlizi"nin icrası da uğurla gedir. Əminəm ki, gələn il biz TANAP layihəsinin açılışını qeyd edəcəyik. Bütövlükdə "Cənub qaz dəhlizi"nin tamamlanması 2020-ci ildə nəzərdə tutulur. Mən burada da heç bir problem görmürəm. Sadəcə olaraq biz qrafik üzrə getməliyik. Avropa İttifaqı da Azərbaycanı bu layihənin həyata keçirilməsində aparıcı ölkə kimi tanıyır. Doğrudan da bizim bu layihənin icrasında rolumuz danılmazdır və aparıcıdır".

Dövlət başçısı vurğulayıb ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra əsas səylər yüklərin həcminin artırılmasına yönəlib. Bununla yanaşı, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində əlavə addımlar atılmalıdır. Azərbaycan öz ərazisində demək olar ki, bütün işləri görüb. İndi bu layihənin tamamlanması üçün əlavə texniki və maliyyə resurslarını ortaya qoymağa hazırdır.

Beləliklə, bu iki layihə Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çevirəcək. Bu, müstəqil Azərbaycanın həm siyasi, həm iqtisadi maraqlarının təmin edilməsində çox mühüm rol oynayacaq.

Azərbaycanın maliyyə vəziyyəti bir çox ölkələr üçün əlçatmazdır

Azərbaycan Prezidentinin yeni inkişaf konsepsiyasına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində bundan sonra da ardıcıl siyasət aparılacaq. Neft-qaz sektoru uzun illər ərzində iqtisadiyyatımızın aparıcı qüvvəsi olacaq. Artıq qeyri-neft sektorunda aparılan islahatlar öz bəhrəsini verməkdədir. Valyuta ehtiyatlarımız bu ilin doqquz ayında 4,5 milyard dollar artıb. Neftin qiymətinin aşağı səviyyədə olmasını nəzərə alsaq, bu, çox böyük nailiyyətdir. Dövlət başçısı bu nailiyyəti belə dəyərləndirib: "Bu nailiyyət onu göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir. Bir çox ölkələr üçün bizim maliyyə vəziyyətimiz əlçatmazdır. Təkcə onu demək kifayətdir ki, xarici dövlət borcumuz 20 faizin altındadır və valyuta ehtiyatlarımız ümumi daxili məhsula bərabərdir".

Göründüyü kimi, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir. Düşünülmüş, qarşılıqlı etimada əsaslanan müstəqil siyasət həyata keçirən, regionun siyasi, iqtisadi və mədəni mərkəzi olan Azərbaycan bu gün beynəlxalq birliyin ən etibarlı tərəfdaşıdır.

Azərbaycanın bu uğurları beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Davos İqtisadi Forumunun son hesablamalarında iqtisadiyyatların rəqabətqabiliyyətliliyinə görə ölkəmiz dünya miqyasında 35-ci yerdədir. Bu rəqəm deməyə əsas verir ki, Azərbaycanın mükəmməl iqtisadi siyasəti var və bu, ölkəmizin ümumi inkişafında, insanların rifah halının yaxşılaşmasında öz əksini tapır.

Noyabrın 16-da Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan 2017-ci ili bütövlükdə iqtisadi, sosial, beynəlxalq siyasət sahələrində yaxşı nəticələrlə, uğurlarla başa vurur: "Bir daha göstəririk ki, Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək. Qarşıda duran vəzifələr hələ çoxdur. Biz bütün problemləri, insanları narahat edən məsələləri həll etməliyik. Həm Bakının, həm böyük şəhərlərin, ən xırda kəndin də problemi diqqət mərkəzində olmalıdır".

Azərbaycan.-2017.-19 noyabr.-№255.-S.1,3.

Müstəqillik kursunun siyasi istinadgahı

Həsən Bayramov,
pedaqogika üzrə elmlər doktoru

Hər bir demokratik ölkədə əhalinin geniş təbəqələrinin ictimai-siyasi proseslərdə iştirakı məhz ictimai rəyə təsir imkanları olan siyasi təşkilatlar vasitəsilə reallaşır. 2017-ci il noyabrın 21-də yaradılmasının 25-ci ildönümü tamam olacaq Yeni Azərbaycan Partiyasını, bu mənada, ümummilli siyasi təşkilata, ölkə vətəndaşlarının mütləq əksəriyyətinin inam ünvanına çevrildiyini əminliklə söyləmək olar. Ötən illərdə siyasi təşkilatın keçdiyi mürəkkəb və şərəfli inkişaf yolu Azərbaycanın xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən sabitlik, tərəqqi və yüksəlişə, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğuna doğru inamlı addımlarını özündə ehtiva edir.

Azərbaycanda vətəndaş mənafeyinin və dövlətçilik maraqlarının təminatçısı olmaq kimi çətin və məsuliyyətli missiyanın öhdəsindən ötən 25 ildə inamla gəlmiş YAP-ın yaranması ötən əsrin 90-cı illərinin əvvəlində respublikamızdakı ağır, böhranlı durumun doğurduğu obyektiv tələbatdan irəli gələrək cəmiyyətin arzu və istəyinin təcəssümü olmuşdur. Partiyanın xalqla sarsılmaz mənəvi birliyi ötən dövrdə müstəqil Azərbaycanın inanılmaz intibah yolu keçməsinə, yaxın illərdə hətta inkişaf etmiş ölkələr sırasında dayanmaq kimi ciddi iddiadan çıxış etməsinə imkan yaratmışdır. Müstəqil, inkişaf edən, müasirləşən Azərbaycan YAP-ın 25 illik fəaliyyətinin obyektiv dəyərləndirilməsi baxımından ən obyektiv istinad yeridir. Əminliklə demək olar ki, YAP ən mürəkkəb, çətin sınaqlardan şərəflə çıxan, ölkədəki vəziyyəti obyektiv qiymətləndirərək xalqının, dövlətinin inkişafı üçün əzmlə çalışan insanları yüksək siyasi ideallar ətrafında birləşdirən alternativsiz siyasi təşkilatdır.

Xatırlatmaq yerinə düşər ki, XX əsrin sonlarına doğru milli dövlətçiliyini bərpa etmiş xalqımız müstəqilliyinin ilk illərində ciddi sosial-mənəvi sarsıntılara məruz qalır, üzləşdiyi böhran və faciələr fonunda gələcək barədə nikbin düşünə bilmirdi. Dövlətçiliyin itirilmə təhlükəsində olduğu bir dönəmdə əksəriyyət yaxşı başa düşürdü ki, məhz Heydər Əliyev kimi müdrik siyasət ustadının rəhbərliyi altında formalaşan siyasi təşkilat xalqın inamını doğrultmaq və respublikanı üzləşdiyi böyük faciələrdən hifz etmək iqtidarında ola bilər. Bu da təsadüfi deyildir ki, 1992-ci il oktyabrın 16-da Yeni Azərbaycan Partiyasının yaradılması təşəbbüsü ilə Heydər Əliyevə rəsmi müraciət edən 91 nəfər nüfuzlu ziyalı ölkədəki ağır siyasi, iqtisadi, hüquqi, mənəvi problemləri ürək yanğısı ilə göstərir, ulu öndərdən xalqın gələcək taleyi naminə məsuliyyəti öz üzərinə götürməsini xahiş edirdilər.

1992-ci il oktyabrın 24-də həmin müraciətə müsbət cavab verən ümummilli lider Heydər Əliyev ölkədəki acınacaqlı vəziyyəti geniş təhlil edərək ziyalıların narahatlığını bölüşdüyünü bildirdi və yeni partiyanın banisi olmaq missiyasını üzərinə götürdü.

1992-ci il noyabrın 21-də Naxçıvanda - çətin siyasi şəraitdə təsis qurultayı keçirilmiş Yeni Azərbaycan Partiyasının qısa müddətdə təşkilatlanaraq monolit qüvvəyə çevrilməsi təşkilatın qarşıya qoyduğu məqsədlərin bütövlükdə cəmiyyətin maraqlarına cavab verməsi ilə şərtlənmişdir. Azərbaycanın ağır günlərində - 1993-cü ilin iyun ayında ulu öndərin xalqın çağırışına cavab verərək Naxçıvandan Bakıya gəlməsi, iyunun 15-də Ali Sovetin Sədri, oktyabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə YAP hakimiyyət partiyasına çevrilmiş, qarşıya qoyduğu hədəfləri uğurla gerçəkləşdirməyə başlamışdı. İndi siyasi baxışlarından asılı olmayaraq, hər bir vətəndaş etiraf edir ki, ümummilli lider Heydər Əliyevin müdrikliyi ilə belə bir partiyanın yaranması Azərbaycanda siyasi böhrana, vətəndaş müharibəsi təhlükəsinə, separatçılıq meyillərinə, dövlət çevrilişi cəhdlərinə, terror aktlarına son qoymuş, möhkəm ictimai-siyasi sabitlik təmin edilmişdir.

Partiyanın 1999, 2001, 2005, 2008 və 2013-cü illərdə keçirilmiş beş qurultayında siyasi təşkilatlanma və uğurlu fəaliyyət baxımından son dərəcədə mühüm qərarlar qəbul edilmişdir. 2003-cü ildən sonrakı dövrdə də partiyanın fəaliyyəti ulu öndər Heydər Əliyevin həyata keçməyən dövlət quruculuğu ideyalarının reallaşdırılması baxımından səmərəli olmuşdur. 2003-cü ilin oktyabrında YAP sədrinin birinci müavini kimi seçkilərdə layiqli qələbə qazanmış cənab İlham Əliyev ilk gündən partiyanın hədəflədiyi dövlət quruculuğu ideyalarının praktik surətdə gerçəkləşdirilməsini təmin etmişdir.

YAP İdarə Heyətinin üzvləri ilə 11 mart 2004-cü il tarixli görüşündə Azərbaycan Prezidenti cənab İlham Əliyev partiyanın gələcək fəaliyyətində Heydər Əliyev siyasi kursuna əsaslanacağını bəyan etmiş və fəaliyyəti ilə bu vədinə sadiqliyini tam təsdiqləmişdir. Yeni Azərbaycan Partiyasının 2005-ci ilin martın 26-da keçirilmiş III qurultayında Azərbaycan Prezidenti, YAP sədrinin birinci müavini cənab İlham Əliyevin yekdilliklə təşkilatın sədri seçilməsi isə partiyanın cəmiyyətdəki nüfuz və mövqelərini daha da möhkəmləndirmişdir. Ümumilikdə siyasi prinsiplərə sadiqlik, Heydər Əliyev siyasi kursuna bağlılıq, intellektual imkanlar və yüksək idarəetmə səriştəsi, cəmiyyət üçün açıq siyasətçi olması və fəaliyyətindəki şəffaflıq, tolerantlıq, cəmiyyətin ümumi maraqlarının təmsilçisi olmaq üçün zəruri liderlik keyfiyyətləri cənab İlham Əliyevin Azərbaycan cəmiyyətinin alternativsiz liderinə çevrilməsini təmin etmişdir.

YAP-ın fəaliyyəti Azərbaycanın hərtərəfli inkişafı üçün də zəmin yaratmış, partiya öz proqram və qətnamələrində ictimai həyatın bütün sahələri üzrə islahatların əsas konturlarını müəyyən etmişdir. Partiyanın istinad etdiyi ideoloji prinsiplər - müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsipləri dövlət quruculuğuna əlverişli imkan yaratmışdır.

YAP 25 yaşına güclü, mütəşəkkil, cəmiyyətdə böyük nüfuza malik partiya kimi qədəm qoymuşdur. Ötən illərdə YAP-ın ideoloji prinsipləri əsasında Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan siyasi sabitlik qorunub saxlanılmış, vətəndaş həmrəyliyinə, iqtisadi inkişafın sürətləndirilməsinə, sosial tərəqqiyə xidmət edən mükəmməl konsepsiyanın həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur. 2003, 2008 və 2013-cü illərdə keçirilmiş prezident seçkiləri YAP üçün xüsusilə əlamətdar olmuş, cənab İlham Əliyevin alternativsiz lider kimi xalq tərəfindən dəstəklənməsi Azərbaycanın hərtərəfli inkişafına zəmin yaratmışdır.

Hər bir partiyanın cəmiyyətdə yüksək etimad qazanması ilk növbədə onun ideyalarının ictimai dəyəri və reallığa adekvatlığı ilə şərtlənir. Digər siyasi təşkilatlardan fərqli olaraq, YAP praktik surətdə reallaşdırılması mümkün olmayan populist vədlərdən, yalançı şüarlardan uzaq olmuş, yalnız reallıqdan çıxış etmişdir. Ciddi problemlərin həllinə hər bir vətəndaşın mənafeyi baxımından yanaşan YAP milli iqtisadi inkişaf prioritetlərini müəyyən edərkən Azərbaycanın mövcud imkanlarını nəzərə almış, tarixi ənənələri müasir dünya təcrübəsi ilə birləşdirməyə çalışmışdır.

Partiyanın hakimiyyət dövrünün parlaq uğurlarından biri də ötən illərdə Azərbaycanın davamlı və sabit tərəqqi yoluna çıxarılması, onun milli inkişaf modelinin formalaşdırılmasıdır. YAP-ın proqramında əksini tapmış sosial ədalət prinsipi bu gün milli inkişaf modelimizin əsas qayəsini təşkil edir. Konstitusion təminatı olan, insan amilinin yüksəlişinə - vətəndaşların maddi, intellektual və mənəvi tələbatlarının dolğun şəkildə ödənilməsinə, cəmiyyətdə sosial ədalət meyarının bərqərar olmasına xidmət edən bu inkişaf strategiyasının uğurları ilk növbədə şəffaflığa və hesabatlılığa əsaslanır.

Hər bir fəaliyyət sahəsində yalnız milli maraqları, Azərbaycanın çağdaş və perspektiv mənafelərini əsas götürən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 14 ildə qazanılan sosial-iqtisadi nailiyyətlər həm də statistik rəqəmlərdə əksini tapır. Ölkəmizin strateji valyuta ehtiyatları 2003-cü ilə nisbətən 26,2 dəfə artaraq bu ilin sentyabr ayının sonuna 42 milyard ABŞ dolları səviyyəsinə çatmışdır. 2004-2016-cı illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 3,8 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,6 dəfə, tikinti 3,4 dəfə, ticarət 3,9 dəfə, turizm 14,2 dəfə, nəqliyyat 2,6 dəfə, rabitə 10,6 dəfə artmışdır. 2004-2017-ci illərdə ölkə iqtisadiyyatına 225 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuşdur.

Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri son 14 ildə dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur. Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da əksini tapır. Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarından olan Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda daha iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşmışdır.

Ümumilikdə cənab İlham Əliyevin YAP-ın iqtisadi proqramını əsas tutmaqla həyata keçirdiyi tədbirlərə ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə reallaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, onların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının artırılması, yoxsulluğun azaldılması, yüksək elmi-mədəni tərəqqinin təmini və s. mühüm məsələləri şamil etmək olar. Ölkə rəhbərinin müvafiq sərəncamları ilə təsdiq edilmiş strateji yol xəritələri də YAP-ın qurultaylarında irəli sürülmüş ideyaların keyfiyyətcə yeni mərhələdə reallaşdırılmasına yaxşı imkanlar açmışdır.

Qlobal layihələrin gerçəkləşdirilməsində söz sahibi olan Azərbaycanın təşəbbüsü ilə son 20 ildə Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Ceyhan, TANAP, TAP kimi neft-qaz layihələri həyata vəsiqə almışdır. 2017-ci ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması, bir neçə gün əvvəl Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi Azərbaycanın regionda aparıcı dövlət statusunu daha da möhkəmləndirmiş, Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanlarını genişləndirmişdir.

YAP-ın proqram hədəflərinə uyğun olaraq Azərbaycanda güclü insan kapitalının, innovasiyalara əsaslanan cəmiyyət modelinin formalaşdırılması, "nou-hau" texnologiyalarının inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Bununla paralel olaraq Azərbaycandakı mövcud tolerant və multikultural cəmiyyətin təbliği və təşviqi istiqamətində səmərəli layihələr reallaşdırılır, beynəlxalq forumlar, konfranslar keçirilir. Qlobal miqyasda gender bərabərliyinin təşviqi, qadınların ictimai həyatda iştirakının genişləndirilməsi, savadsızlığın aradan qaldırılması və digər bəşəri ideyaların reallaşdırılmasında Heydər Əliyev Fondunun prezidenti, YAP sədrinin

müavini, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xidmətləri müstəsnadır. Xüsusi vurğulamaq istərdik ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın YAP-ın V qurultayında partiya sədrinin müavini seçilməsi bütövlükdə partiyanın sıralarının qadınların hesabına da genişlənməsinə yeni təkan vermişdir.

Yaranmasının 25-ci ildönümünü qeyd edən Yeni Azərbaycan Partiyasının milyonlarla insanın inam və etimad ünvanına çevrilməsi onun xalq və dövlət qarşısındakı məsuliyyətini daha da artırır. Sabitlik, inkişaf və tərəqqi kursuna töhfələrini verməyə çalışan təşkilat ictimai-siyasi proseslərdə, o cümlədən geniş vüsət almış abadlıq, quruculuq işlərində yaxından iştirakı, təşkilatçılığı və təşəbbüskarlığı ilə ümumxalq partiyası olduğunu nümayiş etdirir.

Partiya qarşısında iqtisadi sahədə əldə olunmuş nailiyyətləri daha da genişləndirmək, vətəndaşların sosial rifah halını davamlı şəkildə yüksəltmək, demokratikləşmə prosesini dərinləşdirmək kimi mühüm vəzifələr dayanır. Əminik ki, YAP ölkə rəhbəri cənab İlham Əliyevin rəhbərliyi altında bu və digər məqsədlərə də nail olacaq, ən başlıcası, Azərbaycan qarşıdakı illərdə inkişaf etmiş dövlətlərlə bir sırada dayanacaqdır.

Azərbaycan.-2017.-14 noyabr.-№250.-S.3.

Müstəqilliyimiz əbədi və dönməzdir

Rüstəm Xəlilov,
Milli Məclisin deputatı, Regional Məsələlər Komitəsinin üzvü.

Dövlətimiz müstəqilliyin verdiyi imkanlardan qısa zaman kəsiyində bacarıqla bəhrələnərək bu gün dünyanın ən dinamik inkişaf tempinə yiyələnən ölkələr sırasına çıxıb. Müstəqillik hər bir xalqın tarixində onun özünüifadəsinin və özünütəsdiqinin ən ümdə əlaməti kimi səciyyələndirilir. Fəxrlə demək olar ki, qazanılan nailiyyətlər baxımından bu gün ölkəmiz əslində dünya üçün bir nümunəyə çevrilib.

28 may 1918-ci ildə Şərqdə ilk Demokratik Respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının elan edilməsi Azərbaycan xalqının müstəqilliyə və milli azadlığa qovuşması uğrunda apardığı gərgin mübarizənin məntiqi nəticəsi olmuşdur. Lakin o zaman müxtəlif xarici müdaxilələr, daxili çəkişmələr, müvafiq lazımi beynəlxalq təminatların olmaması səbəbindən Azərbaycan Demokratik Respublikası cəmi 23 ay fəaliyyət göstərmişdir. Fəaliyyətdə olduğu müddətdə Azərbaycan Demokratik Respublikasının Milli Hökuməti iqtisadi, siyasi, sosial, mədəni, təhsil və bir çox digər sahələrdə ciddi irəliləyişlər əldə etmişdir. Azərbaycanın dövlət atributları qəbul edilmiş, ilk parlament fəaliyyətə başlamış, milli valyuta olan manat dövriyyəyə buraxılmışdır.

XX əsrin sonlarında beynəlxalq aləmdə və sovetlər ittifaqında yaranan əlverişli vəziyyət xalqımıza qəlbində yaşatdığı müstəqillik arzularını yenidən reallaşdırmaq imkanı verdi. Bu, xalqımızın siyasi tarixində həmin əsrdəki ikinci parlaq qələbəsi idi. 1991-ci ildə sovet imperiyasının süquta uğraması nəticəsində digər müttəfiq respublikalar kimi, Azərbaycan da özünün dövlət müstəqilliyinə nail oldu. Amma digər ölkələrdən fərqli olaraq respublikamızı bu müstəqilliyə, azadlığa aparan yollarda qanlar töküldü, şəhidlər verildi. Lakin hələ buna qədər - 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıdışı muxtar respublikadan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına səbəb olmuşdur. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda, həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin-bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi.

Azərbaycan Ali Soveti Heydər Əliyevin cəsarətlə başladığı müstəqillik mübarizəsinə təxminən 10 ay sonra hüquqi müstəvidə münasibət bildirdi. Belə ki, 1991-ci il avqustun 30-da ali qanunverici orqanın xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul edildi. Azərbaycan Respublikasının Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi.

Fəqət, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. 1991-1993-cü illərdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə, ölkəni dünyada gedən proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər. Bütün bunlar isə nəticə etibarilə dövlət müstəqilliyinin məhvinə aparırdı. Hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçiliyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi.

Belə bir ağır vəziyyətdə Azərbaycan xalqının tələb və istəyi ilə hakimiyyətə gələn xalqımızın böyük oğlu Heydər Əliyev müstəqil dövlətçiliyimizi, suverenliyimizi bütün təhlükələrdən, təhdidlərdən xilas etdi.

1993 - cü ilin may - iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı, bu əsl mənada milli hərəkata çevrildi. Azərbaycanın ozamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməli oldular. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də xalqımızın böyük əksəriyyətinin iradəsi ilə Heydər Əliyev Azərbaycan Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyev xalqa müraciət etdi: "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə

güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər mənə bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən etibarən iqtisadi inkişaf konsepsiyası hazırlandı, ölkədə ənənəvi təsərrüfat sahələrinin səmərəliliyi bərpa edilməklə yanaşı, yeni-yeni istehsal sahələrinin yaradılması yönümündə çoxşaxəli fəaliyyətin əsası qoyuldu, sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsi nəticəsində Azərbaycanın iqtisadi potensialı gücləndi. Bu dövrdə idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsinə, norma və qaydalara ciddi əməl edilməsində, kənd təsərrüfatının inkişafında yüksək göstəricilərin qazanılmasına nail olmaqla yanaşı, azərbaycançılıq məfkurəsinin, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görüldü.

Ümummilli lider ölkəni gözləyən bütün təhlükələri dəf etməklə Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu. Ulu öndərin genişmiqyaslı fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, Azərbaycanda iqtisadiyyatın artım meyillərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi dünya iqtisadiyyatına inteqrasiya prioritet istiqamətlər idi.

Onun ölkə rəhbərliyinə qayıdışından sonra səmərəli dövlətçilik konsepsiyasına, iqtisadiyyatın dirçəlişi strategiyasına və azərbaycançılıq fəlsəfəsinin əsaslarına uyğun olaraq demokratik keçid yoluna qədəm qoyuldu. Məhz Heydər Əliyev öz dühası ilə Azərbaycan tarixinin bu yeni mərhələsində cəmiyyəti səfərbər edərək, müstəqil siyasi, iqtisadi və sosial-mədəni kursun gerçəkləşməsinə nail oldu. İlk növbədə, hakimiyyət boşluğu aradan qaldırıldı, separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qəsdlər hazırlayan cinayətkar dəstələr cəmiyyətdən təcrid edildi.

Ölkənin nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı tədbirlər həyata keçirildi. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu... Əsası Ulu öndər tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti düzgün və məharətlə həyata keçirildi. Bütün komponentlərdə düşməni üstələyən Silahlı Qüvvələrimiz düşmən təxribatının qarşısını qətiyyətlə alır və dünyaya Azərbaycan ordusunun qüdrətini nümayiş etdirir. Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı.

Heydər Əliyevin uzaqgörənliyi ilə mütərəqqi dövlət quruculuğuna start verildi, dövlətçiliyimizin başlıca prinsipləri formalaşdırıldı, vətəndaşla dövlətin qarşılıqlı mənəvi məsuliyyətinə əsaslanan sosial sabitliyin təməli qoyuldu və dövlət cəmiyyətin bütövlüyünün tam təminatçısına çevrildi. Ulu öndərin rəhbərliyi ilə başlanan islahatlar nəticəsində dövlət idarəçiliyinin bütün sahələri dünya standartlarına uyğunlaşdırıldı.

Xalqın istək və arzusu ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həyata keçirilən siyasət Azərbaycanın müstəqil dövlət kimi dünya birliyi sıralarına öz adını yazmasını təmin etdi. Əsl müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət quruldu. Bütün bunlar isə böyük tarixi nailiyyətlərdir.

Hər bir liderin dövlət idarəçiliyində qazandığı uğur və nailiyyətləri şərtləndirən başlıca amillərdən biri də ciddi təmələ söykənən siyasi varislik ənənələrinin qorunmasıdır. Söhbət ölkənin və dövlətin sabit, dinamik inkişafının təkamül yolu ilə davam etdirilməsi xəttinin etibarlı şəkildə qorunmasından gedir. Bu baxımdan ulu öndərin böyüklüyü həm də ondadır ki, güclü dövlət yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edəcək, çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lideri, layiqli davamçısını yetişdirmişdir. Xalqın sosial sifarişi əsasında Azərbaycanda Heydər Əliyev siyasi kursunu davam etdirmək kimi çətin və məsuliyyətli bir missiyanı üzərinə götürmüş cənab İlham Əliyev öz siyasətini bu ənənəyə uyğun qurur.

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Məhz Heydər Əliyev neft strategiyasının nəticəsi kimi təzahür edən 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan verdi və Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirdi. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi, iqtisadi sahədə keçid dövrünün faktıdır. Bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması, müvafiq təkmil qanunvericilik bazasının yaradılması və hüquqi vəsilələrin işə salınması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını reallaşdırdı.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan insanının güzəranı gündən-günə

yaxşılaşır, şəhər, kənd və qəsəbələr abadlaşır, respublikamızda işsizlik, yoxsulluq kimi ağır sosial bəlalar artıq həllini tapır.

Prezident İlham Əliyev dövlətçilik konsepsiyasını məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu strateji kurs üzərində formalaşdırır və onu yeni dövrün tələblərinə uyğun zənginləşdirməyə çalışır. Dövlət başçısı xalqı Heydər Əliyev ideyaları ətrafında toplayır, özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərin başa çatdırmamış arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bu gün hər bir azərbaycanlı dərk edir ki, həmin ideyalar yaşayır və bizi xəyallarımızda yaşatdığımız tam demokratik, qüdrətli Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında mühüm vəzifələr gözləyir.

Müstəqil Azərbaycan Heydər Əliyevin dövlətçilik və siyasi idarəçilik konsepsiyasına istinad edərək yeni uğurlara doğru inamla irəliləyir. Ulu öndər tərəfindən qorunub saxlanılan müstəqilliyimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir. Bütün bunlar bir daha deməyə əsas verir ki, Azərbaycanın XX əsrin əvvəllərində itirilmiş müstəqilliyi bu gün Heydər Əliyev siyasi kursu sayəsində əbədi və dönməzdir.

Respublika.-2017.-20 oktyabr.-№229.-S.4.

Tarixin ən qüdrətli Azərbaycanı

Azərbaycanın dövlət müstəqilliyi tarixindən yazmaq istəyirəm, əslində...

Hüseynbala MİRƏLƏMOV,
Milli Məclisin deputatı, yazıçı-publisist

Düşüncələrim yüz illərin o üzündən bugünkü Azərbaycana tərəf gələn uzun, incə bir yola çıxır...

XX əsrin əvvəllərində milli ruhun doyunca yaşamağa macal tapmadığı istiqlal vüsalı vaxtın üzərindən əsrin sonlarına, Vətənin müstəqilliyinin ikinci dəfə bütün dünyaya bəyan edildiyi xoş bir payız gününə - 1991-ci ilin 18 oktyabrına körpü salır.

Tarixin ixtiyarına verilən hər əsr xalqların keçmiş kitabındakı bir səhifədir.

Hər toplumun yaşadıqları, bu səhifədə bir cür görünür, hər xalq bu səhifədə özünü bir tərzdə ifadə edir.

Azərbaycan xalqı bir əsrdə iki dəfə dövlət müstəqilliyinə nail olmuş toplumdur və bu, tariximizin XX əsrə aid səhifəsindən gələn ən parlaq işıqdır. Yeni minillik isə bizim üçün müstəqil Azərbaycanın miqyasca əsrin də deyil, minilliyin özünün hüdudlarını əhatə edə biləcək qədər möhtəşəm nailiyyətləri ilə başlanır.

Azərbaycan Xalq Cümhuriyyətinin iki illik mövcudluğunu da nəzərə alsaq, istiqlalımızın artıq 28 yaşa çatması və dövlətimiz yaşa dolduqca onun uğurlarının, dünya düzənindəki yerinin də böyüməsi bu nailiyyətlərin ən mühümüdür.

Və bu 28 ilin düz tən yarısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır. 2003-cü ilin oktyabrından keçən müddət ölkəmizin dövlət müstəqilliyinin bərpasından ötən illərinsə yarıdan da çoxu edir...

Publisistik təəssüratlarımı rəqəmlərin müqayisəsi üzərində qurmaq niyyətində deyiləm, əsla. Sadəcə, bəzi maraqlı təsadüflər zamanı rəqəmlərin işığında görmək, tarixi təkcə fakt və hadisələrlə deyil, eyni zamanda vaxtın necə tarixə çevrildiyini ifadə edən rəqəmlərlə də duymaq imkanı yaradır.
Bu sıradan daha bir maraqlı təsadüf: cənab İlham Əliyevin ölkəmizə 14 illik rəhbərliyi xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik dövrü ilə təqribən üst-üstə düşür.

Bu, təkcə zamanın bərabərləşməsi deyil, eyni zamanda mahiyyətin, yerinə yetirilən tarixi missiyanın da vaxtın axarında bir-birinə tən gəlməsidir...

***

Heydər Əliyev sovet ölkəsinə rəhbərlik edirdi. Sovet cəmiyyəti elə bir həyat tərzi idi ki, onun xarakterini bütün müsbət və mənfi cəhətləri ilə birgə indiki nəslin təsəvvüründə canlandırmaq bəzən çətinlik törədir. Yeni zəmanənin övladları belə bir cəmiyyəti anlaya bilmirlər. Açığını deyim ki, vaxt keçdikcə özüm də o quruluşun mahiyyətini anlamaqda, bəzi suallarıma cavab tapmaqda çətinliklə üzləşirəm.

Bu cəmiyyətin ifşasına yönəlmiş tutarlı çıxışlardan biri dissident yazıçı Aleksandr Soljenitsinin "Yalansız yaşamaq" essesi idi. Amma, indi fikirləşirəm, doğrudanmı sovet ideologiyası büsbütün yalan üzərində qurulmuşdu?! Bəs axı biz bu ideologiyaya səmimi-qəlbdən inanırdıq. Həqiqətən bizə elə gəlirdi ki, cəmi bir neçə ildən sonra kommunizmə çatacağıq.

Sovet cəmiyyəti kommunizm təbliğatı isteriyası içində yaşayan, belə bir xoşbəxt gələcəyin tezliklə qurulub bütün dünyanı ağuşuna alacağına sidq-ürəkdən inanan insanların toplumu idi. Əslində isə sovet sistemi insanları, az qala, feodal bir mühitdə yaşadırdı. Zaman keçdikcə, ömrümüzün əsas hissəsini keçirdiyimiz o illərin mənzərəsini bax belə bir qeyri-müəyyənlik içində, amma o dövrdə olduğundan daha aydın şəkildə dəyərləndirə bilirsən.

Heydər Əliyev də sovet cəmiyyətinin yetirdiyi siyasi lider idi. O, peşəkar dövlət xadimi kimi belə bir mühitin içində yetişib püxtələşmişdi. Xidmət etdiyi kommunist ideologiyasına çoxumuz kimi səmimi-qəlbdən inanırdı və siyasi karyerasının sonrakı heç bir məqamında da onun öz keçmişinə asi çıxmasına, keçmişə qarşı inkarçı mövqe tutmasına dəlalət edən hər hansı fikrinə şahid olmadıq.

Bir tərəfdən ona görə ki, bu keçmişdə Heydər Əliyev öz şəxsiyyətinə, milli lider obrazına xələl gətirəcək hər hansı yanlışa yol verməmişdi ki, buna görə sıxıntı keçirsin. Digər tərəfdən, Heydər Əliyevin böyüklüyü onda idi ki, o ümumi sovet cəmiyyəti içində də milli dövlətin rolunu görüb dərk edir və Azərbaycanın güclənməsindən, öz inkişaf səviyyəsi ilə önə çıxmasından ötrü bütün imkanlarını ortaya qoyaraq bu məqsədinə tədricən nail olurdu.

***

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər sovet sisteminin çox güclü vaxtları idi. İkinci Dünya müharibəsindən qalib çıxmış keçmiş SSRİ müharibənin dağıntılarını aradan qaldırıb, müəyyən sosial-iqtisadi inkişafa da nail olandan sonra dünyaya daha gur səslə meydan oxuyurdu. Heç kim ağlına gətirməzdi ki, belə bir dövlət cəmi iyirmi ildən sonra darmadağın olacaq. Bunu keçmiş SSRİ-nin adlı-sanlı liderlərindən olan Heydər Əliyev də təsəvvür etməzdi. Ona görə də ulu öndərin sovet Azərbaycanına rəhbərlik illərində cəmiyyətin hərtərəfli tərəqqisi üçün gördüyü işlərin ölkənin siyasi müstəqillik qazanması məqsədinə əsaslandığını, belə bir perspektivin o illərdən göründüyünü də düşünmürəm. Bununla belə Heydər Əliyevin ölkənin maliyyə, sosial-iqtisadi müstəqilliyi üçün ötən əsrin 70-80-ci illərində gördüyü tarixi işlər, Azərbaycan insanının həyatının yaxşılaşmasından ötrü həyata keçirdiyi inqilabi tədbirlər dolayısı ilə ölkəmizin siyasi müstəqilliyinin də əsasını qoymuş oldu.

Və birinci rəhbərliyi dövründə formalaşdırdığı bu möhkəm təməl, intellektual baza, peşəkar insan resursları siyasi hakimiyyətə qayıdışından sonra ulu öndərə müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu proseslərini daha rəvan şəkildə həyata keçirməyə, azad bazar iqtisadiyyatı mühitində ölkənin inkişafını təmin etməyə, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın bütün sahələr üzrə ilk tarixi nailiyyətlərini yaratmağa imkan verdi.

***

Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövrünə təxminən bərabər müddət ərzində, İlham Əliyev ulu öndərin qurduğu bu dövləti daha da gücləndirdi, onu addım-addım inkişaf etdirdi. Azərbaycanı öncə Qafqazın liderinə, sonra MDB-nin öncül ölkəsinə, ardınca dünyada böyük siyasi nüfuz qazanmış mühüm dövlətə, qlobal məkanın vacib aktoruna çevirdi. Ölkədəki inkişaf prosesini qlobal çağırışlara, ən müasir tendensiyalara uyğunlaşdırdı və beləliklə, onu milli dövlətçilik tarixinin indiyə qədərki ən qüdrətli məqamına yetirdi.

Azərbaycan dövlətinin tarixdəki ən qüdrətli illəri...

Bu dövrü hər kəs öz yanaşma tərzinə uyğun təsvir edə bilər. Tarixçi üçün bu illərin təsviri bir başqadır, ədəbiyyat adamı üçün bir başqa, siyasətçi üçün tamam fərqli. Amma bütün bu yanaşmalar insan məqamında birləşir. Azərbaycan insanının həyat və məişətində bu illərin yaratdığı rifah, inkişaf fərqi zamanın təsvirini eyniləşdirir.

Bu, elə bir inkişaf dövrüdür ki, şəxsi həyatında, gündəlik güzəranında onun təsirlərini duyub hiss etməyən elə bir vətəndaşımız yoxdur. İlham Əliyevin rəhbərliyi dövründə ölkəmizdə yaşanan inkişaf və tərəqqi ilə bağlı ən böyük həqiqət Azərbaycan insanı üçün bu inkişafın sıravi vətəndaşların həyatındakı əksidir.

...Ata yurdum, doğulduğum Lerikin Nuravud kəndində yaşayan ağsaqqal qohumumdan ötrü də təxminən bir əsrlik keçmişin mənzərəsi bu quşqonmaz dağlarda məkan tapmış kəndimizin siması ilə müəyyənləşir. Tarix də, milli dövlətçilik tariximizin ayrı-ayrı mərhələləri də, bu mərhələlərə müəlliflik edən liderlərin Azərbaycan sevgisi də ondan ötrü Nuravudun simasında baş verən hansısa dəyişikliklərdədir...

İnsanlar ötən əsrin 70-ci illərinədək bu kənddən Lerikin mərkəzinə, oradan isə Lənkərana palçıqlı yollarla, çiy kərpiclərdən tikilmiş yöndəmsiz daxmaların əhatəsində, bir qarın ac, bir qarın tox gedirdilərsə, Heydər Əliyevin Azərbaycanında artıq bu yollar nizama salındı. Kəndin küçələrində ağ daşdan ikimərtəbəli evlər sıralandı. Ulu öndərin torpaq islahatı, dövlət əmlakının özəlləşdirilməsi kimi geniş islahatlar apardığı müstəqillik dövründə kənd əhlinin daha kolxozda baş girələyib, əməkgünü ümidinə qalmasına, özündən çox başqalarını dolandırmasına ehtiyacı qalmadı. Özü zəhmətə qatlaşdı, ola bilər ki, əvvəlkindən də çox çalışdı, amma əməyinin bəhrəsini də özü gördü, özü-özünü dolandırdı.

İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə isə Nuravudun simasında tamam bambaşqa bir tarix əks olundu. İlham Əliyev ölkənin getdikcə artan imkanlarını ölkəmizin bütün şəhər, qəsəbə və kəndləri kimi bu kəndin sakinlərinin də rifahına yönəldərək Nuravuda qaz çəkdi. Kəndin işığını daimi etdi, ucqar dağlara sığınmış məskənin səciyyəvi simasını dəyişdirdi, ona müasirlik, yenilik gətirdi, əhaliyə, dövrümüzün zəhmətkeşləri olan fermerlərə yeni imkanlar yaratdı, elimizin məhsulunu böyük bazarlara çatdıran abad yollarla, həyatın normal axarını təmin edən daimi enerji təminatı ilə, sahibkarlara göstərilən kredit dəstəyi ilə, inkişafın kəndlərimizə gətirdiyi intensiv texnologiyalarla insanların qazancını, əlinin bərəkətini birə-min elədi...

Nuravudun bu tale yolundan əslində, elə bütün Azərbaycan kəndləri, obaları keçmədimi?!.

***

Yazıçı fəaliyyətimlə əlaqədər tariximizin son minillik dövrünü diqqətlə araşdırıram. Nadir şah haqqında tarixi romanımdan sonra, Şah İsmayıl Xətai barədə əsərimi də artıq yekunlaşdırmaq üzrəyəm. Tarixi həqiqətlər həssas yerimdir, amma bu həqiqətləri yalnız bədii əsərə çevirməkdən ötrü öyrənmirəm. Keçmişə işıq salan faktlar həm də bir vətəndaş olaraq fikirlərimi konkretləşdirir. Müəyyən nəticələrə gəlməyimə kömək göstərir.

İmkanım çatan qədər dərinə getməyə çalışıram. Tarixi keçmişimizdə qəlbimi qürur hissi ilə dolduran çox maraqlı faktlar çıxır qarşıma. Amma etiraf edim, keçmişimizin ürəkağrıdan, təəssüf doğuran, qəzəb yaradan məqamları daha çoxdur. Bu məqamlar üzərində düşündükcə narahat suallar adamın yaxasını buraxmır.

Məsələn, niyə Azərbaycan tarixində irs-varislik ənənələri yoxdur? Nədən böyük qanlar, insan itkiləri, fədakarlıqlar bahasına yaradılan güclü dövlət onu formalaşdıran şəxsiyyətin yoxluğundan sonra süquta doğru gedib? Niyə Azərbaycan coğrafiyasında təşəkkül tapmış dövlətlərin, hətta xanlıqların qüdrətli dövrləri davamlı olmayıb? Hansısa məqamda tənəzzülə uğrayıb və ömürlərini yarıda buraxıblar?! Bütün bunlar bir qələm adamının, yazıçının publisistik qeydlərinə gətirdiyi emosional suallar deyil. Bu gün dünyada mövcud olan ən qüdrətli ölkələrin belə bir səviyyəyə gəlib çatmasının sirri bu sualların cavablarında əks olunub. Onlar bir neçə əsr ərzində vuruşublar da, döyüşüblər də, qan da tökülblər, inqilablar da ediblər, bir-birini taxtdan da salıblar, amma dövlətçilik mənasında irs-varislik xətti davam edib. Yeni gələn əvvəlkinin tikib qurduqlarını, yaratdığı ənənələri vurub-dağıtmayıb, onların təməlində onlardan daha yaxşısını, bir qədər də mükəmməlini yaradıb.

Beləliklə, fəlsəfədəki inkarı-inkar qanunu aramsız işləyib. Yenilik ənənəviliyi inkişaf etdirərək cəmiyyətin yüksəlişinə də təkan verib. Daha dövlət quruculuğu proseslərini hər dəfə yenidən başlamağa, cəmiyyəti hər dəfə yenidən toparlamağa gərək qalmayıb. Və belə bir təkamül yolu ilə, zamanın zərgər səliqəsi bu ölkələrdə zəngin bir dövlətçilik irsi formalaşdırıb. Bu gün dünyanın bir çox toplumlarının inkişaf səviyyəsinə görə həsəd apardığı güclü dövlətlər, sivil cəmiyyətlər, müasir düşüncə tərzi meydana gəlib. Bizdə isə hətta ötən əsrin 90-cı illərinin əvvəllərinə qədər bu məsələ tariximizin acı gerçəyi olaraq qalırdı. Bu təəssüf anını hətta ən yaxın tariximizə qədər yaşamaqda idik. XX əsrdə Azərbaycan xalqının yetirdiyi və öz xalqına ona qədər heç bir siyasi liderin edə bilmədiyi misilsiz nailiyyətlər gətirən ən uğurlu dövlət adamı Heydər Əliyev olmuşdu, di gəl ki, sovet Azərbaycanının son dövrlərində, müstəqilliyin isə ilk illərində ölkənin rəhbərliyində olan təsadüfi insanlar belə bir şəxsiyyətin dövlətçilik irsini davam etdirmək əvəzinə Onu tarixdən silmək istəyirdilər.

Heydər Əliyev Azərbaycanın ucqar bir əyalətindən SSRİ boyda nəhəng imperiyanın rəhbərliyinə qədər ucalıb, xalqının da başını uca etmişdi, amma içimizdəki bəzi nankorlar müəyyən cılız maraqlarla bu ucalığa da daş atırdılar. Belə düşüncə tərzi ilə, təbii ki milli dövlətçiliyə irs-varis baxışı formalaşa bilməzdi.

Ulu öndərin və bu mənəvi irsin layiqli davamçısı olaraq Prezident İlham Əliyevin milli dövlətçilik tariximizə qazandırdıqları çox dəyərlər var. Bu dəyərlərin ən mühümü onların fəaliyyətində milli dövlətçilik tariximizdəki irs və varislik probleminin həllidir. Belə bir dəyər, xalqımızın tarix boyu əldə etdiyi ən böyük nailiyyət olan müstəqil Azərbaycan dövlətinin ayaqda durmasını təmin edir. Şah İsmayıl Xətainin, Nadir şahın və digər cahangirlərimizin qurub yaratdıqları böyük dövlətlərimizi məhz onların xələfləri zəiflətmişdilər.

Heydər Əliyevin xələfi isə onun min bir əziyyətlə qurduğu dövləti eyni əziyyətlər və fədakarlıqlar bahasına daha da möhkəmləndirdi, güclü etdi!

İlham Əliyev bu dövləti əvvəlkindən də qüdrətli etdi!

Və indi dünyanın ən inkişaf etmiş ölkələri ilə bir sırada, beynəlxalq aləmdən qüdrətli Azərbaycanın da xoş sədaları eşidilir...

***

Bu yaxınlarda mediada Dünya İqtisadi Forumunun “2017-2018 Qlobal Rəqabətlilik Hesabatı” yayıldı. Ötən illə müqayisədə ölkəmizin mövqeyinin daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşması bu hesabatın xüsusilə əlamətdar məqamıdır. Hər cəhətdən fərəh doğuran bu yenilik ictimai həyatımızda geniş müzakirə olunur. Biz də hesabatın Azərbaycana aid məqamlarına müxtəsər bir nəzər salaq. Dövrümüzün bu ən mötəbər beynəlxalq reytinq cədvəlində Azərbaycan öz göstəricilərinə görə dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq MDB məkanında liderliyini qoruyub. Hətta G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası kimi ölkələr də iqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə Azərbaycandan geridə qalır. Qlobal rəqabət qabiliyyəti reytinqində Rusiya 38-ci, Qazaxıstan 57-ci, Gürcüstan 67-ci, Ermənistan isə 73-cü sırada yer alıb. Hesabatda Azərbaycanın mövqeyi 12 indikatordan aşağıdakı doqquz indikator üzrə yaxşılaşıb: təsisatlar (15 pillə irəliləyərək 33-cü yer), infrastruktur (4 pillə irəliləyərək 51-ci yer), səhiyyə və ibtidai təhsil (1 pillə irəliləyərək 74-cü yer), ali təhsil və təlim (10 pillə irəliləyərək 68-ci yer), əmtəə bazarının səmərəliliyi (19 pillə irəliləyərək 31-ci yer), əmək bazarının səmərəliliyi (9 pillə irəliləyərək 17-ci yer), maliyyə bazarının inkişafı (18 pillə irəliləyərək 79-cu yer), biznesin mürəkkəbliyi (20 pillə irəliləyərək 40-cı yer) və innovasiya (11 pillə irəliləyərək 33-cü yer).

Ən böyük irəliləyişi isə ölkəmiz biznesin mürəkkəbliyi, başa düşdüyüm qədərilə, yəni biznes prosesinin sadələşdirilməsi üçün aparılmış çoxşaxəli islahatlar üzrə əldə edib - 20 pillə.

Çox təfərrüatlara varmayacağam. Bəlkə də bu quru rəqəmlər belə məsələlərlə dərindən maraqlanmayan insanlarda bir o qədər geniş təəssürat yaratmır. Amma bu sətirlərin müəllifi üçün belə bir hesabatın çox böyük mənası var.

Bir anlıq təsəvvür edək, dünyanın 174 ölkəsi iqtisadi rəqabətqabiliyyətinə görə yan-yana sıralanır və İlham Əliyevin Azərbaycanı inkişaf səviyyəsinə görə nə az, nə çox düz 139 ölkədən öndə olur!.. Özü də elə bir vaxtda ki, dünyada uzun müddətdir izlənən maliyyə-iqtisadi böhranın mənfi təsirləri hələ bitməyib. Azərbaycan iqtisadiyyatında mühüm rol oynayan neftin qiyməti hələ də ədalətli səviyyədə deyil. Belə bir əyyamda, ilin-günün bu vaxtında ölkənin inkişafını qoruyub saxlamaq və davam etdirmək o qədər də asan görünməsin...

Amma İlham Əliyev bunu bacarır və Azərbaycanı daha iki pillə də yüksəldir.

Bu, onun təsdiqidir ki, tutduğumuz yol doğru yoldur...

Bu, onun sübutudur ki, Azərbaycanın milli dövlətçiliyinin inkişafında təkamül xətti ardıcıl şəkildə davam edir və bu prosesi daha kimsə dayandıra bilməz...

Bu, onun göstəricisidir ki, Azərbaycan öz milli hədəflərini düzgün müəyyənləşdirib. Son onilliklərdə ölkə həyatının ən müxtəlif sahələrində həyata keçirilən kompleks tədbirlər bizi cəmiyyət olaraq öz böyük hədəflərimizə doğru yaxınlaşdırır.

Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanla bağlı hər rəqəmi real həyat mənzərələrində təsəvvür etməyə çalışsaq, bu quru rəqəmlərin hər birində minlərlə sahibkarımızın rahatlaşan işini, məmnun əhval-ruhiyyəsini, milyonlarla insanımızın getdikcə bərəkəti çoxalan halal ruzisini, işləmək istəyən, iş qurmaq həvəsində olan, canını əziyyətə verib pul-para qazanmağa can atan hər bir vətəndaşımıza dövlətin dəstəyini, yenilənən yollarımızı, bəhrəsi artan tarlalarımızı, bağlarımızı, ucalan binalarımızı, işıqlanan, isinən evlərimizi, fərdi inkişafa can atıb elm-təhsil işığında zəkası aydınlanan Azərbaycan övladlarını və bütün bunların fonunda abadlaşan, qüdrətlənən Vətənimizi görəcəyik.

Budur, dövlət müstəqilliyimizin bəhrəsi, budur İlham Əliyevin prezidentlik missiyasının təzahürlərindən biri...

***

Elə kitablar olur ki, oxuyursan, həyatının dəyişdiyini duyursan.

Tarixi nitqlər, böyük şəxsiyyətlərin hansısa xüsusi çıxışları, bəyanatları da eləcə...

Həyatımda böyük dönüş yaradan, ömrün hər anında təsirini hiss etdiyim kitablar, bədii mətnlər, tarixi nitqlər az olmayıb.

1993-cü ilin 15 iyununda - hərbi-siyasi ziddiyyətlərdən lərzəyə gəlib parçalanma təhlükəsi qarşısında qalan, hamının bir-birinə az qala düşmən kimi baxdığı bir dönəmdə bu məmləkətin başqa sadə vətəndaşları kimi gözlərimlə televiziya ekranına kilidlənmişdim... Oradan ölkənin gələcəyi ilə bağlı zəif də olsa nəsə bir işıq tapmaq istəyirdim. Bu işığı, bu ümidi həmin dəqiqələrdə Azərbaycan Ali Sovetinin sədri seçilən Heydər Əliyevin parlament tribunasından səsləndirdiyi iki cümlədə tapdım. Ulu öndər deyirdi: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Belə bir bəyanat o zaman intriqa yuvasına çevrilmiş qırmızı kreslolu zaldan nicat gözləyən məmləkətin dörd bir yanına yayıldı, yox yayılmadı, ildırım kimi çaxdı bu fikirlər cəmiyyətdə... Uçurumun dibində olan məmələkətin milyonlarla vətəndaşı kimi artıq ölkə tarixində dönüş anının başlandığını fərq etdim.

Yaxud, 1993-cü ilin 2 noyabrında Heydər Əliyevin bütün xalqa səslənərək "Bu gün Azərbaycanın böyük gücü, potensialı, xalqımızın zəngin qəhrəmanlıq ənənələri - bunların hamısı birləşdirilməlidir. Bütün imkanlardan istifadə edərək Azərbaycanın işğal olunmuş torpaqlarını geri qaytarmağa bizim imkanımız var. Hamımızı bu yolda fədakar mübarizəyə, Azərbaycanın müdafiəsinə qalxmağa dəvət edirəm və hamınızdan təşəbbüs, əməli fəaliyyət gözləyirəm" fikirləri müstəqil dövlətimizdə vahid komandanlığa tabe nizami ordu quruculuğunun başlanğıcı oldu.

Və ya 1994-cü ilin 4 oktyabr gecəsi Heydər Əliyevin çağırışı ilə on minlərlə paytaxt sakini kimi həyat yoldaşımın əlindən tutaraq Prezident Aparatının qarşısına az qala qaça-qaça gedərkən burada bütün Azərbaycanın coşğusunun, müstəqilliyin və dövlətçiliyin bütün vətəndaşlar tərəfindən qorunduğunun, bu məmləkətdə istiqlal yolunun artıq dönməz bir prosesə, xalqın əbədi taleyinə çevrildiyinin şahidi oldum. O gecənin müqəddəs təəssüratları indi də hər xatırladığımda qəlbimi ehtizaza gətirir.

2003-cü ilin 2 oktyabr gecəsi ulu öndərin dövlət televiziyasından səslənən tarixi müraciətindəki "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" çağırışı da, xalqın mütləq

dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin 2003-cü ilin 31 oktyabrında andiçmə mərasimindəki nitqində "Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm" kəlmələri də Azərbaycanda yeni bir tarixin başlanğıcı idi...

***

Aradan 14 il ötüb.

26 illik müstəqillik salnaməmizdə yeni səhifələr açan belə mühüm məqamların, dönüş anlarının əhatəsi bu 14 ildə yeni nümunələrlə, tarixi nitqlərlə, bəyanatlarla, çağırışlarla daha da genişlənib.

Prezident İlham Əliyevin bu il sentyabrın 20-də BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışıda belə məqamlardan biri kimi hər zaman riqqət doğuracaq, milli dövlətçilik düşüncəsinə işıq salacaq.

Bu, İlham Əliyevin BMT kimi ali bir tribunada növbəti çıxışı idi. İlk nitqini o, 2003-cü ilin sentyabrında Azərbaycan Respublikasının Baş naziri statusunda etmişdi. Xaricdə müalicə alan Prezident Heydər Əliyevin səlahiyyətlərini həyata keçirən şəxs kimi bütün dünyaya bəyan edirdi ki, Azərbaycanın sükanı etibarlı əllərdədir, istiqlalının dönməzliyi təminat altındadır, bu xalqın maraqları, mənafeləri heç bir qüvvə tərəfindən pozula bilməz, Qarabağ problemində bizdən güzəşt gözləməyə dəyməz... Dünya aydın gördü ki, Heydər Əliyev yalnız müstəqil dövlət qurmayıb, həm də bu dövləti daha da gücləndirəcək bir lider yetişdirib...

Dövlət rəhbərimizin BMT-dəki çıxışları sırasında mən Onun 2012-ci ilin mayında - Azərbaycanın bu qurumun Təhlükəsizlik Şurasına sədrliyi mərasimindəki nitqini də xüsusi fərqləndirirəm. Dünyanın baş məclisinə rəhbərlik etmək hürriyyət salnaməmizin ən şanlı səhifəsi idi ki, bu nailiyyətə də məhz İlham Əliyev imza atdı...

İlham Əliyevin BMT-nin 72-ci ssesiyasındakı çıxışı da onun bu qurumdakı əvvəlki nitqləri kimi Azərbaycanın istiqlal tarixinin daha bir möhtəşəm təntənəsi oldu.

Dövlət rəhbərimizin səlis ingilis dilində etdiyi bu tarixi nitqi dinlədikcə ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyinin üçüncü ayında Bakı Dövlət Universitetinin 50 illik yubileyi zamanı, ölkənin ziyalı elitası qarşısında o vaxtın sovet rəhbərləri üçün gözlənilməz bir davranış göstərərək məhz ana dilimizdə çıxış etməsi faktını xatırladım.

Dili, milli dəyərləri zorla unutdurulan bir məmləkətdə, ittifaq əhəmiyyətli tədbirdə Heydər Əliyev ana dilimizin gücü ilə necə bir cəsarət nümayiş etdirmişdisə, hansı mətləblərə işıq salmışdısa, İlham Əliyev də dünyanın baş siyasi tribunasından, yer üzünün əsas siyasi dili ilə Azərbaycan həqiqətlərini dünyanın üzünə çırpmaqla eyni qətiyyəti, eyni cəsarəti sərgiləyirdi.

Bu çıxışında Azərbaycan Prezidenti Ermənistanın ölkəmizə qarşı işğal və etnik təmizləmə siyasətini, Xocalıda azərbaycanlılara qarşı soyqırımı aktını konkret faktların dili ilə bir daha diqqətə çatdırdı. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan birinin Ermənistanın hazırkı prezidenti olduğunu vurğuladı. Aparıcı beynəlxalq təşkilatların, o cümlədən 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr qəbul etməsini yada saldı. Bu qətnamələrə məhəl qoymayan Ermənistanın indiyə qədər cəzasız qalmasına görə dünya birliyini qınadı. "Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

...Sual verilir: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktatorluğuna heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır. Təcavüzkara münasibətdə bu cür siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktatorluğunda elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər".

***

Azərbaycan Prezidenti mükəmməl bir məktəb keçmiş peşəkar diplomatdır. Siyasətçi ritorikasının bütün incəliklərini əxz etmiş təcrübəli dövlət adamıdır. Fikrini diplomatik ifadə tərzləri ilə qəlibə salıb, demək istədiklərini dolayısı ilə çatdırmaq onun üçün elə də çətin deyil. Amma Azərbaycanın milli maraqları məsələsində, xüsusilə Ermənistanın ölkəmizə qarşı işğal siyasəti ilə bağlı fikirlərində cənab İlham Əliyevin sözü, zərbəsi həmişə birbaşadır.

Çünki bu məsələ Azərbaycan Prezidenti üçün diplomatiyadan da çox siyasət meydanında kişiyana, mərdi-mərdanə cəngdir. Dünyanın bütün ali tribunaları İlham Əliyev üçün Azərbaycanın maraqlarının qorunduğu, düşmənin başına od ələndiyi bir səngərdir. Azərbaycan əsgərinin aprel döyüşləri zamanı əldə silah göstərdiyi şücaəti Ali Baş Komandan BMT tribunasında da davam etdirirdi.

Və siyasət meydanında Ermənistanın namərd rəhbərliyinə, uşaq qatili Sarkisyana növbəti zərbələrini vururdu.

***

İlham Əliyev orada ordumuzun aprel zəfərindən də danışdı...

Azərbaycanın daha böyük qələbəyə, yekun zəfərə nail olmaq gücündə olduğunu bütün dünyaya, erməni xalqına, Ermənistan rəhbərliyinə çatdırdı.

Bütün davranışları, bütün sözləri göstərdi ki, İlham Əliyev güclü bir sərkərdədir. Müzəffər bir ordunun Ali Baş Komandanıdır.

Və Lələtəpəyə bayraq sancan əsgər ulu öndər Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərində Azərbaycana bəxş etdiyi milli hərbi məktəbdən - Cəmşid Naxçıvanski adına hərbi məktəbdən başlayan milli ordu quruculuğunun zəfər rəmzidir.

Budur, müstəqilliyin bəhrəsi...

Budur müstəqilliyin neməti...

Budur müstəqilliyin ərsəyə gətirdiyi milli dövlətçilik irsi...

Nə yaxşı ki, bu irsin, bu fəaliyyətin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva kimi şəxsiyyətlərimizin timsalında qəlbi Azərbaycan sevgisi ilə dolu, bəşəriyyətin rifahına xidmət edən xoşməramlı missiyası ilə bütün dünyada böyük nüfuz qazanmış davamçısı da var... Azərbaycanın dövlət müstəqilliyinin 26-cı ildönümünü qeyd edirik. Vaxt gələcək istiqlalımızın 126-cı ildönümü də qeyd olunacaq. O zaman biz, müasirlərimiz həyatda olmayacağıq.

Amma müstəqilliyimiz yaşayacaq!

Bu müstəqilliyi bizə bəxş edən KİŞİnin - Heydər Əliyevin şanlı irsi əbədi olacaq...

Tarixin ən qüdrətli Azərbaycanını yaradan LİDERin - İlham Əliyevin siyasi kursu daimi olacaq...

Azərbaycan.- 2017.- 18 oktyabr.- № 228.- S.4.

Heydər Əliyev kursu dövlət müstəqilliyinin təminatçısıdır

Azərbaycan dünyada tam müstəqil siyasət yürüdən ölkə kimi tanınır

Elnur HACALIYEV

XX əsrin sonlarında sosializm sisteminin süquta uğraması postsovet ölkələrində insan hüquq və azadlıqlarının təmini sahəsində ciddi dönüş yaratmaqla bərabər, Azərbaycanın öz müstəqilliyini elan etməsinə, habelə beynəlxalq birliyin bərabərhüquqlu subyekti kimi dünya dövlətləri sırasına qoşulmasına imkan verdi. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu.

Konstitusiya Aktı respublikamızı rəsmi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisi və müstəqil respublika elan etmişdir. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdı. Konstitusiya Aktında hakimiyyətin və bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri də rəsmən elan edilmişdi.

1991-ci il oktyabrın 18-də Azərbaycanın öz müstəqilliyini elan etməsinə baxmayaraq, bu, deklorativ xarakter daşıyırdı. Dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər də məhz müstəqilliyin bu səciyyəvi cəhəti üzündən meydana çıxmışdı. De-yure müstəqilliyini bəyan etmiş Azərbaycanın de-fakto müstəqil dövlət kimi yaşamasında və müstəqil siyasət yeritməsində ciddi problemlər mövcud idi. AXC-Müsavat rəhbərliyinin yarıtmaz fəaliyyəti ölkədə ictimai həyatın müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, silahlı qruplaşmaların cövlan etməsinə münbit şərait formalaşdırmış, daxildə qeyri-sabit və təhlükəli vəziyyətin yaranmasına səbəb olmuşdu. Respublikada qanunçuluğun, hüquq qaydalarının son dərəcə zəif olması, dövlət idarəçiliyinin iflic vəziyyətə düşməsi, ayrı-ayrı siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə eti-barilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Bir tərəfdən ayrı-ayrı məmurların özbaşınalıqları və dövlətin o zamankı rəhbərinə tabe olmamaları nəticəsində hakimiyyət böhranının dərinləşməsi, digər tərəfdən isə ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərlə baş qaldırması ölkədə gərgin vəziyyət yaratmışdı.

Azərbaycan xalqı belə ağır dönəmdə çıxış yolunu təcrübəli dövlət xadimi ulu öndər Heydər Əliyevin siyasi hakimiyyət sükanı arxasına keçməsində gördü. Yaranmış ekstremal şəraitdə ölkədə ictimai-siyasi gərginliyi aradan qaldırmaq, qiyamı yatırmaq, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmək, dövlət təsisatlarının normal fəaliyyətini təmin etmək bacarığına malik yeganə, alternativsiz lider məhz Heydər Əliyev idi. Həmin dövrdə xalqın ulu öndərə olan böyük sevgi və inamını dolayısı ilə etiraf etmək məcburiyyətində qalan AXC-Müsavat cütlüyünün Heydər Əliyevi acizanə şəkildə Bakıya dəvət etməsi də məhz bu reallıqla şərtlənirdi.

Ümummilli liderin 1993-cü il iyunun 9-da xalqın istəyinə səs verərək Bakıya qayıtması isə onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, xalqının taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqlədi. 1993-cü il oktyabrın 10-da xalqın böyük dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev ölkəni siyasi və iqtisadi tənəzzüldən, hərc-mərclikdən, müstəqilliyin itirilməsi təhlükəsindən çıxardı, sabit və tarazlı milli inkişaf strategiyasının konseptual istiqamətlərini müəyyənləşdirdi.

Ümummilli liderin milli dövlətçilik kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev ötən 14 ildə özü də yeni bir idarəçilik məktəbinin banisinə çevrilmişdir. Dövlət başçısının fəaliyyəti onun Heydər Əliyev ideyalarının sadəcə davamçısı deyil, eyni zamanda bu ideyaları yeni dövrün nəbzinə, zamanın ruhuna uyğun davam etdirən, təkmilləşdirən qətiyyətli siyasi lider olduğunu təsdiqləyir. Ölkə rəhbərinin məqsədyönlü fəaliyyəti sayəsində ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan ictimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılmışdır. Ümummilli lider Heydər Əliyevin müəllifliyi ilə müəyyənləşdirilən müstəqil xarici siyasət kursunun davamlılığının təmin olunması nəticəsində ölkəmizin sivil dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətləri yeni müstəvidə inkişaf etdirilmişdir.

Prezident İlham Əliyev cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirib: "Bu gün biz özümüzü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilmişik, müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır".

Ölkə rəhbərinin ötən 14 ildə yürütdüyü siyasət deməyə əsas verir ki, respublikamız öz inkişafının Qərb modelini müəyyənləşdirərək davamlı iqtisadi inkişafa və demokratiyaya doğru kor-koranə deyil, təkamül yolu ilə irəliləməyə üstünlük vermişdir. Dövlət başçısının bəyan etdiyi kimi ölkəmizin sabit və tarazlı iqtisadi inkişafı

yalnız demokratik yeniliklərin geniş tətbiqindən keçir. Dövlət başçısı bu iki təmayülü bir-birindən ayırmadan Azərbaycanın milli strateji inkişaf yolu kimi müəyyənləşdirmiş, iqtisadi tərəqqi və demokratikləşmə prosesinin üzvi vəhdətinə nail olmağın vacibliyini dəfələrlə önə çəkmişdir.

Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən bütün optimal nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət kəsb edir. Azərbaycan Qərbdə yalnız zəngin neft və qaz ehtiyatları ilə deyil, həm də demokratiyaya, liberal dəyərlərə, insan və vətəndaş hüquq və azadlıqlarına sadiqliyi ilə tanınmaq əzmini bir sıra konkret addımları ilə tam sübuta yetirmişdir. Avropa Şurasının tamhüquqlu üzvü olan respublikamızın avrostrukturlara inteqrasiya prosesində ATƏT, Avropa Birliyi, NATO kimi təşkilatlarla sıx əməkdaşlığı hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin dönməzliyinə etibarlı təminat kimi qiymətləndirilir.

Respublikamız regional və beynəlxalq əhəmiyyətli layihələri də daxili imkanları hesabına maliyyələşdirmək gücündə olduğunu sübut etmişdir. 2011-ci ildə respublikamızın sivil dünyanın hüquqi-siyasi atmosferinin müəyyənləşməsində mühüm rolu olan Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi bütövlükdə müasir tariximizin ən əlamətdar, qürur doğuran hadisələrindən biri kimi yadda qalmışdır. Qoşulmama hərəkatının XVII zirvə toplantısında quruma üzv dövlətlərin yekdil razılığı ilə 2019-2022-ci illərdə sədrliyin Azərbaycana verilməsi və 2019-cu ildə bu hərəkatın XVIII zirvə toplantısının ölkəmizdə keçirilməsi barədə qərar qəbul edilmişdir. Qısa müddət ərzində təsisata üzv olmağımıza baxmayaraq, yekdilliklə ölkəmizin sədrliyinin dəstəklənməsi respublikamızın artan nüfuzunun göstəricisidir. Bu möhtəşəm hadisə ilk növbədə rəsmi Bakının son dərəcə sabit və uğurlu, eyni zamanda sivil birgəyaşayış normalarına əsaslanan xarici siyasət yürütdüyünü bir daha təsdiqləməklə yanaşı, müstəqil Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunun parlaq təcəssümü kimi dəyərləndirilə bilər.

Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Ötən 14 il ilk növbədə dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvidir. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, "Ümid", "Abşeron" kimi perspektivli yataqlar kəşf olunması bu baxımdan xüsusi qeyd olunmalıdır. Cari ilin sentyabrında isə neft-qaz sektorunda çox əlamətdar hadisə baş verdi. "Azəri-Çıraq-Günəşli" yatağının gələcəkdə işlənilməsi ilə bağlı yeni müqavilə imzalandı. "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzadıldı. Bu müqavilə ölkəmiz üçün daha da yaxşı şərtlərlə təmin edildi. Belə ki, Azərbaycanın iştirak payı 11 faizdən 25 faizə qaldırıldı, mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə veriləcək. Dövlət Neft Şirkəti yeni müqavilənin podratçısı kimi iştirak edəcək və ölkəmizə xarici neft şirkətləri tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək.

Digər mühüm layihə isə "Cənub qaz dəhlizi"dir. Bu istiqamətdə də işlər uğurla həyata keçirilir. "Şahdəniz-2" layihəsinin icrası 96 faiz, TANAP layihəsi 82 faiz, TAP layihəsi isə 53 faiz səviyyəsində icra edilib. Bakı-Tbilisi-Qars dəmir yol xəttinin tikintisi isə artıq başa çatıb. Yaxın günlərdə bu tarixi yolun rəsmi açılış mərasiminin keçirilməsi nəzərdə tutulub.

Mühüm beynəlxalq tədbirlərin keçirilməsi üçün Bakı şəhərinin seçilməsi də respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. Aşkar görünür ki, Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınır və belə bir müsbət imicin formalaşmasında son illər respublikada keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Respublikada müşahidə olunan davamlı inkişaf ilə paralel şəkildə demokratik-hüquqi islahatların da aparılması, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirmişdir.

Ötən illərdə əsası ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş bütün konsepsiyalar uğurla davam etdirilmişdir: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin..." - deyən cənab İlham Əliyev ulu öndərin dövlətçilik irsinə sədaqətini bir daha nümayiş etdirir.

Azərbaycan.- 2017.- 18 oktyabr.- № 228.- S.1,3.

Azərbaycanın dövlət müstəqilliyi və qazanılan tarixi nailiyyətlər

Elçin Əhmədov,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, s iyasi elmlər doktoru

Bu gün biz Heydər Əliyev siyasətinə sadiq qalaraq, bu siyasəti davam etdiririk. Bu illərdə biz Heydər Əliyev siyasətinin təntənəsini görürük, onun fiziki yoxluğu şəraitində bu siyasət yaşayır və yaşayacaqdır.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq, yeni siyasi kursun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və sosial-iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkirdi. Ermənistanın hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, respublikamızın ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın siyasi kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən siyasət məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni siyasi kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin siyasətində ilk növbədə bir sıra mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu.

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursun həyata keçirilməsi uçün hər şeydən əvvəl, müharibəni dayandırmaq və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli şərait yarandı.

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişləndirilməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikamız üçün həlledici illər olmuşdur. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməsi səmərəli əməkdaşlığımız ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir. Həmin illərdə çox ciddi islahatlar aparılmış, bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmiş, Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət almışdır. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər hazırda ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir. Həmin dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

Azərbaycanın dinamik inkişafının mühüm mərhələsi

2003-cü ildən keçən on dörd il ərzində isə, Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanın qazandığı nailiyyətləri şərtləndirən mühüm faktorlardan biri də enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin edilməsi, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə davamlı inkişaf strategiyasının uğurla həyata keçirilməsidir. Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın diversifikasiyası ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bununla yanaşı, ixracımız idxaldan 4,4 milyard dollardan çoxdur.

Xüsusilə Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilmişdir. Hazırda valyuta ehtiyatlarımız 42 milyard dollardır. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir, bütün hesabatlarda biz öncül mövqelərdə dururuq. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmiz artıq dünyada 35-ci, MDB məkanında isə 1-ci yerdədir. Gənc müstəqil dövlət üçün bu, çox böyük nailiyyətdir və Azərbaycan iqtisadiyyatının çoxşaxəli şəkildə inkişaf etdiyini göstərir.

2008-ci ildə Azərbaycanın ilk rabitə peykinin orbitə çıxarılması haqqında qərar verilmişdir. 2013-cü il fevralın 8-də ilk süni telekommunikasiya peykimizin orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün, böyük nailiyyət olmaqla yanaşı, Azərbaycan kosmik ölkələr sırasına daxil olmuşdur. 2014-cü ildə Azərbaycan ikinci peykinə sahib olmuşdur. Artıq Azərbaycanın iki peyki mövcuddur: "Azərspace" və "Azərsky". "Azərsky" peykinin xüsusiyyəti ondan ibarətdir ki, bu peyk Yer səthini yüksək dəqiqliklə müşahidə edir və dünyada cəmi 20 ölkə belə peyklərə malikdir ki, bu da çox böyük uğur olmaqla yanaşı, ölkəmizin sürətli inkişafının göstəricisidir. Beləliklə, Azərbaycanın milli mənafeyi, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir. Bu illər ərzində ölkəmizin təhlükəsizlik strategiyası uğurla həyata keçirilmiş, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunmuş, xarici enerji mənbələrindən asılılıq aradan qaldırılmışdır. Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. "Əsrin müqaviləsi"nin imzalanması və Bakı-Tbilisi-Ceyhan layihəsi ilə ölkəmiz qlobal enerji bazarında mühüm iştirakçıya çevrilmişdir. Hazırda Azərbaycandan dünyanın 30-dək ölkəsinə neft və neft məhsulları ixrac edilir.

Eyni zamanda, ölkəmiz son illərdə təbii qaz ehtiyatlarına görə də diqqəti cəlb edir. Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır. 2012-ci ildə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində Trans-Anadolu kəmərinin tikintisi ilə bağlı razılıq əldə edildi. Azərbaycanın müəllifi olduğu və Türkiyə ilə birlikdə reallaşdırılan TANAP layihəsi həyata keçirildikdən, yəni 2017-ci ildən sonra Avropanın təbii qaz bazarında ölkəmizin rolu daha da yüksələcəkdir. Bu layihə bizim uzunmüddətli inkişafımızı, onilliklər ərzində Azərbaycanın iqtisadi və digər maraqlarını təmin etmək üçün ciddi vasitə olacaqdır. Azərbaycanın mövcud qaz ehtiyatları bundan sonrakı 100 il ərzində respublikanın və tərəfdaş dövlətlərin mavi yanacağa olan tələbatının ödənməsinə imkan verəcək. Bununla yanaşı, 2013-cü ildə TAP layihəsi – Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə olmuşdur.

Hazırda beynəlxalq əməkdaşlıq məkanına çevrilmiş Xəzər hövzəsi malik olduğu zəngin karbohidrogen ehtiyatları hesabına bir sıra qlobal enerji layihələrinin reallaşdırıldığı mərkəz kimi diqqət çəkir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı xüsusi əhəmiyyət kəsb edir. 2013-cü il dekabr ayının 17-də Bakıda layihə üzrə yekun investisiya qərarının imzalanması ilə "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi həlledici mərhələyə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi "Şahdəniz-2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 20 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdırsa, "Şahdəniz- 2" XXI əsrin ən iri enerji layihəsidir.

2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümü qeyd edildi. Simvolik haldır ki, məhz həmin gün "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur . "Cənub" qaz dəhlizi Avropanın ən böyük infrastruktur layihəsidir və bu nəhəng transmilli layihənin icrasında ölkəmiz öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Məhz Azərbaycanın uzun illər ərzində apardığı qətiyyətli siyasəti nəticəsində bu böyük layihə artıq reallaşır. "Şahdəniz-2", TANAP və TAP Azərbaycan üçün nadir və əvəzolunmaz layihələrdir və uzun illər, onilliklər bundan sonra bizim milli, iqtisadi və siyasi maraqlarımızı təmin edəcək. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihələrdə də liderliyi öz üzərinə götürmüşdür.

Dövlət başçısı İlham Əliyev Azərbaycanı Avropa bazarları ilə birləşdirən üç boru kəmərinin tikintisindən danışarkən demişdir: "Birinci boru kəməri Azərbaycan və Gürcüstan arasında olan Cənubi Qafqaz boru kəməridir. İkinci boru kəməri Trans-Anadolu kəməri – TANAP-dır. Bu boru kəməri Gürcüstan-Türkiyə sərhədindən Türkiyə-Yunanıstan sərhədinə qədər uzanaraq, bütün Türkiyə ərazisindən keçir. Üçüncü boru kəməri isə Trans-Adriatik boru kəməri – TAP-dır. O da Yunanıstan-Türkiyə sərhədindən Albaniyaya, sonra isə Adriatik dənizinin dibi ilə İtaliyaya gedir. Beləliklə, bu, ayrı-ayrı hissələrə bölünmüş vahid boru kəməri layihəsidir".

Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin nəhəng enerji layihələrinin təşəbbüskarı olduğunu bildirərək demişdir: "Onlardan biri hazırda icra olunan və Avropanın ən böyük infrastruktur layihəsi olan "Cənub" qaz dəhlizi layihəsidir. Layihəyə yatırılan sərmayə 40 milyard dollara bərabərdir və o, ilk mərhələdə 7 ölkəni birləşdirərək, regionumuzun, Mərkəzi və Cənubi Avropanın bir çox ölkəsinin enerji şaxələndirilməsini və enerji təhlükəsizliyini təmin edəcək". Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir.

Xarici siyasət, mədəni-humanitar və idman sahələrində qazanılan uğurlar

Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan "Avropa qonşuluq siyasətinə" qoşulmuşdur. 2006-cı ildə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanmış, 2008-ci ildə isə Aİ-nin "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Bununla yanaşı, 2011-ci il oktyabrın 24-də Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilməlidir. Belə ki, Azərbaycan, son illər ərzində sabit inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyəti ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq, bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

Bu gün ölkəmiz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verməyə çalışır. Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində, eləcə də, coğrafi baxımdan Avropa və Asiya arasında yerləşir. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və təhlükəsizlik şəraitində bir ailə kimi yaşamışlar. Son vaxtlar beynəlxalq aləmdə təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillər baş qaldırmışdır ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olmuşdur. Dövlət başçımızın dediyi kimi, təəssüflər olsun ki, müasir dövrdə biz daha çox bu barədə danışmalı olur və bu gün dünyanın müxtəlif yerlərində etnik, dini, məzhəb zəminində ayrı-seçkiliyin şahidi olur və bunu xalqların dinc şəraitdə bu cür təhlükələrlə qarşılaşdığını görürük.

Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzimlənməsi bu gün dünya üçün artıq bəllidir. Bu baxımdan ölkəmizin nümunələrinin öyrənilməsi üçün bir sıra addımlar atılır. Məhz, 2008-ci ildə də "Bakı prosesi" ölkəmizin təşəbbüsü ilə başlamış və bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər "Bakı prosesi"nə daxildir. Azərbaycan bu istiqamətdə səylərini davam etdirir və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaratmış və ölkəmiz dostluq, sülh, tərəfdaşlıq, eləcə də mədəni müxtəliflik məsələlərinə töhfələrini verməkdə davam edir.

Regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmiş Azərbaycan həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş, güclü dövlət və etibarlı tərəfdaş imici qazanmışdır. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən humanitar məkan kimi tanınır. Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilmişdir. 2011-ci, 2013-cü, 2015, eləcə də 2017-ci ildə 4 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları yüksək səviyyədə təşkil olunmuş və bu sahədə Azərbaycan tərəfindən reallaşdırılan təşəbbüslər regional müstəvidən çıxarılaraq qlobal səviyyəyə qaldırılmışdır.

Ölkəmizdə keçirilən III Qlobal Açıq Cəmiyyətlər Forumunda, Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısında, ümumilikdə, 200-ə yaxın ölkədən yüzlərlə fəaliyyətdə olan və keçmiş dövlət və hökumət başçısı, nüfuzlu ictimai-siyasi xadimlər, məşhur iqtisadçılar, elm adamları, dünya mədəniyyətinin tanınmış simaları və digər şəxslər iştirak etmişlər. Bu, Azərbaycanın qlobal məsələlərin müzakirəsi və həllində artan rolunun, dünyada gündəmin formalaşmasında yaxından iştirakının əyani təsdiqidir.

Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almışdır. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasına, Dini Liderlərin Ümumdünya Sammitinə və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Bakı artıq dünyanın qlobal səviyyəli tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur.

Bununla yanaşı, son illərdə "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumuna, Madrid Klubunun toplantısına, Birinci Cənubi Qafqaz Forumuna, Avronest Parlament Assambleyasının Avropadan kənarda keçirilən ilk iclasına, BMT-nin VII İnternet İdarəçilik Forumuna və digər möhtəşəm beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan bir daha göstərdi ki, ölkəmiz Cənubi Qafqazda bütün sahələr üzrə müasir dövrün aktual məsələlərinin müzakirə olunduğu geosiyasi əhəmiyyətli məkandır.

Eləcə də, Azərbaycan artıq istənilən səviyyədə idman yarışlarını qəbul etmək və layiqli şəkildə keçirmək imkanı əldə emişdir. 2015-ci ildə ilk Avropa Oyunlarının paytaxtımızda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi də təsadüfi olmamışdır. Belə ki, "Bakı-2015" ilk Avropa Oyunları qitənin idman tarixində yeni maraqlı səhifə açmışdır. Bu, həmçinin özündən dörd il sonra keçiriləcək növbəti Oyunlara bələdçi olmuş və Avropa Oyunlarının standartları məhz Bakıda müəyyənləşdirilmişdir. Bundan əlavə, 2017-ci ilin may ayında Bakı şəhəri İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi etmişdir. İki il ərzində hər iki mühüm idman tədbirinin Azərbaycanda keçirilməsi rəmzi məna daşıyan nadir tarixi hadisə olmaqla yanaşı, həm də Asiya ilə Avropa arasında körpü rolunu oynayan ölkəmizin sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına verdiyi böyük töhfədir.

Ümumiyyətlə, Birinci Avropa Oyunları zamanı Azərbaycan 56 medal qazanaraq, ikinci olmuşdur. Bundan sonra, 2016-cı il Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanılmışdır ki, Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, postsovet məkanında Rusiyadan sonra ikinci, müsəlman aləmində isə birinci yerdə olmuşdur. Nəhayət, IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları yarışları birinci pillədə başa vuraraq, hamıdan çox – 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazanmışlar.

Beləliklə, 2015-ci ildə Bakı ilk Avropa Oyunlarına, bundan iki il sonra isə IV İslam Həmrəyliyi Oyunlarına uğurla və inamla ev sahibliyi etdi. İstər Avropa, istərsə də İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil olunması Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyətinin nəticəsidir. Hər iki mötəbər idman tədbirinin təşkilat komitələrinə sədrlik edən Mehriban xanımın qüvvələri çox qısa müddətdə səfərbər etmək məharətinin nəticəsində Azərbaycan tarixinə uğurlu səhifələr yazıldı.

Bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, həyata keçirilən qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Nəticədə, Azərbaycan yalnız regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi, çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Hazırda Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz.

Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin xarici siyasətinin əsas prioritetlərindən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Dövlət başçısı Ermənistanın sülh istəmədiyini, status-kvonu nə qədər çox mümkündürsə, saxlamağa çalışdığını, işğal olunmuş torpaqlardan çəkilmək istəmədiyini vurgulayaraq, təcavüzkar dövlətin yalnız vaxt uzatmaqla məşğul olduğunu və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istədiyini bildirmişdir. Prezident Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamasının əsas səbəbkarının təkcə təcavüzkar Ermənistan deyil, eləcə də onun himayədarlarının da olduğunu bildirmişdir: "... Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, bu məsələnin həll olunmaması təkcə Ermənistana görə deyil. Ermənistanın böyük himayədarları var, biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Bax, budur məsələnin həll olunmamasının səbəbi... Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır". Lakin Azərbaycan Prezidentinin dəfələrlə və birmənalı olaraq "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz" –fikrini irəli sürməsi, ölkəmizin ərazi bütövlüyünün təmin olunacağına, münaqişənin ədalətli şəkildə həllinə ümidləri artırmışdır: "Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik".

Bununla yanaşı, 2016-cı ilin aprel döyüşlərini tariximizin şanlı səhifəsi adlandıran Prezident demişdir: "... Azərbaycan böyük hərbi qələbə əldə etmişdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir

hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik...

Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Xalq qəzeti.-2017.-18 oktyabr.-№228.-S.3.

Dövlət müstəqilliyimizin təminatçısı

Əlizadə Əlixan

Azərbaycan xalqı daim müstəqilliyini bərpa etmək arzusu ilə yaşasa da, 70 il sovet imperiyasının tərkibində yaşamaq məcburiyyətində qalmış, obyektiv səbəblərdən bu niyyətini yalnız ötən əsrin sonlarına doğru gerçəkləşdirmək imkanı qazanmışdır. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Konstitusiya Aktı respublikamızı rəsmi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisi və müstəqil elan etmişdir. Həmin aktda, həmçinin Azərbaycan xalqının idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun yaşamaq hüququ təsbit olunmuşdur.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdı. Konstitusiya Aktında hakimiyyətin və bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri də rəsmən elan edilmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyini elan etməsinə baxmayaraq, respublika müstəqilliyi deklarativ xarakter daşıyırdı. Dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər meydana çıxmışdı.

Respublikada qanunçuluğun, hüquq qaydalarının son dərəcə zəif olması, dövlət idarəçiliyinin iflic vəziyyətə düşməsi, siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə etibarilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Bir tərəfdən məmur özbaşınalığı və dövlətin o zamankı rəhbərinə tabe olmamaları nəticəsində hakimiyyət böhranının dərinləşməsi, digər tərəfdən isə ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərlə baş qaldırması ölkədə gərgin vəziyyət yaratmışdı.

Belə bir böhranlı və ağır vəziyyətdə xalqın çıxış yolunu yenə də müdrik rəhbərin — ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görməsi obyektiv reallıqlarla şərtlənirdi. Xalq başa düşürdü ki, yaranmış ekstremal şəraitdə ölkədə ictimai-siyasi gərginliyi aradan qaldırmaq, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmək, dövlət təsisatlarının normal fəaliyyətini təmin etmək bacarığına malik yeganə, alternativsiz lider məhz Heydər Əliyevdir! Həmin dövrdə xalqın ulu öndərə olan böyük sevgi və inamını dolayısı ilə etiraf etmək məcburiyyətində qalan AXC-Müsavat cütlüyünün Heydər Əliyevi acizanə şəkildə Bakıya dəvət etməsi də məhz bu reallıqla şərtlənirdi.

Ümummilli liderin 1993-cü il iyunun 9-da xalqın təkidli tələbinə səs verərək Bakıya qayıtması isə onun nə qədər qətiyyətli, prinsipial, heç bir riskdən çəkinməyən, xalqının taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Respublikada hərc-mərcliyin, xaos və anarxiyanın hökm sürdüyü, qanunsuz silahlı dəstələrin geniş fəaliyyəti, düşmənlə mübarizə apara biləcək nizami ordunun olmadığı, ərazilərimizin işğalının gündən-günə genişləndiyi, bir çox xarici dövlətlərin Azərbaycanın süqutunu arzuladığı, beynəlxalq aləmdə ölkəmizin təkləndiyi, Azərbaycanın dövlət müstəqilliyinin real təhlükə qarşısında olduğu bir vaxtda hakimiyyətə gəlib hadisələrin gedişini qısa zamanda dəyişərək normal məcraya salmaq böyük siyasi bacarıq və müdriklik tələb edirdi. Ulu öndər müstəqilliyi kövrək, mövcudluğu isə real təhlükə qarşısında olan Azərbaycan dövlətini bir çox daxili və xarici qəsdlərdən qorudu. Bir sıra xarici dövlətlərin maliyyə dəstəyi, diktəsi, habelə planlaşdırması ilə hazırlanıb həyata keçirilən qəsdlərin qarşısı qətiyyətlə alındı.

Heydər Əliyev Azərbaycan separatçıların baş qaldırdıqları əraziləri hakimiyyətin yurisdiksiyasına qaytardı və bu ərazilərdə qondarma dövlətlər və "nüfuz dairə"ləri yaratmış qüvvələri tam zərərsizləşdirdi. Bununla da Azərbaycan xalqı vətəndaş müharibəsindən və dövlətimiz isə siyasi xəritədən silinmək təhlükəsindən xilas oldu. Bugünkü prizmadan bir daha aydın görünür ki, Heydər Əliyevin qan içində çalxalanan paytaxta gəlməsinin özü bir qəhrəmanlıq nümunəsi, liderlik örnəyi idi. Başıpozuq bir ölkədə, qardaş qardaşın qanını axıtdığı bir dövlətdə ulu öndərin təhlükəsizliyinə heç kim zəmanət verə bilməzdi. Ölkəyə rəhbərlik edən bir qrup Gəncədə böyük fəlakətlər törətdiklərinə, qanlar axıtdıqlarına baxmayaraq, günahsız olduqlarını, bu qarşıdurmaya sərəncam vermədiklərində israr edir, canlarını qurtarmağa, "sığortalanmağa" çalışırdılar. Belə bir vəziyyətdə Bakıya gəlmək və heç bir təhlükədən çəkinmədən Gəncəyə, hadisələrin cərəyan etdiyi bir bölgəyə səfər etməyi, hadisələrə düzgün siyasi qiymət verməyi yalnız Heydər Əliyev kimi bir şəxsiyyət bacara bilərdi!

Böyük siyasi liderlər üçün səciyyəvi cəhətlərdən biri də onların tarixi milli irs və ənənə əsasında dövlətin və xalqın bugünkü və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmələri, sabit və tarazlı iqtisadi tərəqqi üçün zəmin hazırlamalarıdır. Bu mənada 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyevin qarşısında ölkəni siyasi və iqtisadi tənəzzüldən, hərc-mərclikdən, müstəqilliyin itirilməsi təhlükəsindən çıxarmaq, sabit və tarazlı inkişaf strategiyasının konseptual istiqamətlərini müəyyənləşdirmək, bütün sahələrdə modernləşməni həyata keçirmək kimi taleyüklü vəzifələr dayanırdı. Şübhəsiz, kommunizm ideologiyasının zehinlərdəki və sosial gerçəklikdəki yaşantılarını aradan qaldırmaq, sürətlə yeni ictimai-iqtisadi

münasibətlər sisteminə keçmək, cəmiyyət həyatının müxtəlif sahələrində demokratikləşməyə nail olmaq, yeni mərhələnin tələblərinə uyğun mükəmməl hüquqi baza formalaşdırmaq, qanunun aliliyini bütün səviyyələrdə təmin etmək ardıcıl və davamlı səylər göstərilməsini tələb edirdi. Ulu öndər müdrik siyasi addımları ilə ilk gündən sübuta yetirdi ki, demokratiya heç də hüdudsuz azadlıq deyil, qanunların aliliyinə söykənən siyasi mədəniyyətdir. Onun müəyyən qanunauyğunluqlarından kənara çıxdıqda demokratiya insanların, dövlətin inkişafına deyil, demokratik idealların, prinsiplərin buxovlanmasına, məhvinə gətirib çıxarır.

Dövlət müstəqilliyini yenicə bərpa etmiş, Azərbaycan Ermənistanla müharibə şəraitində olduğu bir vaxtda risk doğuran faktorlar böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Ulu öndərin beynəlxalq arenadakı şəxsi nüfuzu tərəddüdlərə son qoydu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft kontraktları imzalandı. Sonradan "Əsrin müqaviləsi" adlandırılan bu saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, ölkənin dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Bununla da Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı.

Azərbaycanın inkişafının sonrakı mərhələləri göstərir ki, ölkəmizi dünyanın vacib faktorları sırasına Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qazanılan uğurlar çıxarıb.

Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Ulu öndərin müstəqil gənc respublikamıza rəhbərlik etdiyi dövrdə gördüyü əvəzsiz işlər Azərbaycanı çox qısa müddətdə beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi. Ulu öndər Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafeyinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı, beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. Azərbaycan neftinin dünya bazarına nəqli sahəsində də uğurlu addımlar atıldı. "Bakı - Supsa" boru kəməri tikilib istifadəyə verildi. Heydər Əliyevin uzaqgörənliyi və siyasi iradəsi sayəsində Bakı - Tibilisi - Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsinə başlanıldı.

Eyni zamanda, Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanı (GUÖAM) əhatə edən birliyin yaranmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində Heydər Əliyevin önəmli xidməti oldu. Təsadüfi deyil ki, 1999-cu ilin aprelində GUÖAM ölkələri başçılarının Vaşinqtondakı görüşündə Heydər Əliyev təşkilatın sədri seçildi.

Heydər Əliyevin genişmiqyaslı fəaliyyətində çoxşaxəli islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, artım meyillərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi, dünya iqtisadiyyatına inteqrasiya prioritet istiqamətlər idi.

Ulu öndər ilk gündən milli qanunvericiliyin yeni dövrün tələblərinə uyğunlaşdırılması, cəmiyyət həyatı üçün faydalı olan bir sıra yeni qanunların qəbulunu da diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Azərbaycan Respublikası Ali Sovetinə rəhbərlik etdiyi dövr Azərbaycan parlamentarizmi tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi, hərbi əməliyyatların şiddətləndiyi bir zamanda Heydər Əliyev parlamentdə ilk növbədə müdafiə sisteminin hüquqi bazasının təkmilləşdirilməsinə, nizami ordu quruculuğuna xidmət edən qanunların hazırlanmasını və qəbulunu vacib saymışdır. Cəmi 4 ay müddətində 120-dək qanun və qərarın qəbulu ulu öndərin parlamentin spikeri kimi səmərəli fəaliyyətini bir daha təsdiqləyir. 1993-cü il oktyabrın 10-da xalqın böyük dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndər Heydər Əliyev qanunvericilik təşəbbüsü hüququndan istifadə etməklə bu istiqamətdə əlavə tədbirlərin həyata keçirilməsini də təmin etmişdir.

Azərbaycanda demokratikləşmə və modernləşmənin ilkin mərhələsi üçün xarakterik xüsusiyyətlərdən biri də dünya təsərrüfat sisteminə və ümumilikdə Avratlantik məkana sürətli inteqrasiyanın təmin edilməsi olmuşdur. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan vermişdir. Avropa Şurası, ATƏT, Avropa Birliyi kimi mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq təkcə siyasi-hüquqi deyil, ictimai həyatın digər sahələrində də kardinal dəyişikliklərə yol açmış, respublikamıza xarici sərmayə qoyuluşlarının həcmi artmış, iqtisadi modernləşmə və siyasi liberallaşma üçün əlverişli zəmin formalaşdırmışdır. Azərbaycan inanılmaz inkişaf yolu keçərək bir sıra Qərb dövlətlərinin onilliklər ərzində zərrə-zərrə əldə etdiyi iqtisadi tərəqqiyə nail olmuş, demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, insan hüquq və azadlıqlarının təminatı sahəsində böyük uğurlar əldə etmişdir. Demokratiyanın davamlı milli inkişaf baxımından qaçılmazlığı və müstəsna əhəmiyyət daşıması fikri ictimaiyyət tərəfindən də birmənalı qəbul olunmuşdur.

Son illərdə ölkədə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən ulu öndərin ən layiqli siyasi varisi, dövlət başçısı cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan

Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

Respublika.-2017.-18 oktyabr.-№227.-S.9.

Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır

İttifaq Mirzəbəyli

1991-ci ildə Sovet İttifaqı dağıdıldı, bütün respublikalara sanki tarixi bir şans verildi ki, öz dövlətini qursunlar. Əgər bu gün biz keçmiş müttəfiq respublikaların indiki vəziyyətinə nəzər salsaq görərik ki, bəzi ölkələr bu günə qədər də xarici təsirdən yaxasını qurtara bilməmişlər. Azərbaycan isə müstəqil dövlətdir, güclü dövlətdir, uğurlu inkişaf yolunu keçən dövlətdir.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Müdriklər deyiblər ki, dövlət üçün müstəqillikdən, vətəndaş üçünsə azadlıqdan üstün heç nə yoxdur. Zəngin tarixi keçmişə malik Azərbaycan xalqı azadlıq və müstəqillik uğrunda mübarizələrlə dolu bir yol keçmiş, qəhrəmanlıq salnaməsi yazmışdır.

Min illər dövlətçilik tarixinə malik olan Azərbaycan əsrlər boyu torpağına göz dikən, azadlığını təhdid edən, ona düşmən kəsilən yadellilərə qarşı mübarizələr aparmışdır. Azərbaycan 1918-1920-ci illərdə müsəlman Şərqində ilk parlamentli, demokratik, dünyəvi dövlət qurmuş, lakin xalqımızın böyük mübarizələr sayəsində nail olduğu bu müstəqillik uzun sürməmiş, cəmi 23 ay yaşamışdır. Tarix üçün bu çox qısa bir zaman olsa da, əhəmiyyəti baxımından xalqımızın qan yaddaşına əbədi həkk olunmuşdur. Mövcud olduğu bu qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti bütün vətəndaşlarını konstitusion hüquqlarla təmin etmiş, daxili quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətləri faydalılıq əsasında yaratmağa çalışmışdır.

Milli dövlətçilik tariximizin ən layiqli liderlərindən olan ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay yaşamasına baxmayaraq, nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi qalacağını vurğulayırdı. O deyirdi ki, biz nadir bir irsin varisləriyik: "Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Azərbaycan Xalq Cümhuriyyətinin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və sair sahələrdə atdığı addımlar yarımçıq qalmamış, müstəqilliyini XX əsrin sonlarında yenidən bərpa edən dövlətimiz varislik ənənələrini yaşatmış, inkişaf etdirmişdir.

1991-ci ildə yenidən əldə etdiyimiz müstəqillik xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şərəfli tarixin şüurlarda yaratdığı milli oyanışın, azadlıq eşqinin bəhrəsi idi. Həmin il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında bəyannamə, oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Bununla da, Azərbaycan müstəqil, demokratik və dünyəvi bir dövlət kimi yenidən mövcudluğunu dünyaya bəyan etdi. Dövlət müstəqilliyimizi dünya ictimaiyyəti tanıdı və qəbul etdi.

Həmin tarixi və möhtəşəm gündən artıq 26 illik bir müddət keçmişdir. Bu müddət ərzində Azərbaycan bütün sahələrdə misli görünməmiş inkişafa, tərəqqiyə nail olsa da, əldə edilən nailiyyətlər, uğurlar asanlıqla başa gəlməmişdir. Hər bir insan yaxşı bilir ki, firavan həyat, rahat yaşayış, rifah halının yüksəlməsi çətinliklərdən keçir. Müstəqillik və azadlıq kimi firavan həyat yaşamaq da qurbanlar bahasına, çətinliklə əldə olunur. Müstəqilliyimizin ilk illərində xalqımız, sözün həqiqi mənasında, ağır, məşəqqətli günlər yaşadı. Onsuz da, 1988-ci ildən Ermənistanın Azərbaycana torpaq iddiası ilə başlamış olduğu münaqişə ölkəmizdə vəziyyəti son dərəcə ağırlaşdırmışdı. Ermənistandakı dədə-baba torpaqlarından deportasiya olunmuş soydaşlarımız Azərbaycana pənah gətirmişdilər. Torpaqlarımızda müharibə gedirdi, çadır düşərgələrinin sayı gündən-günə artırdı. Dağlıq Qarabağ, həmçinin ətrafındakı ərazilər erməni qəsbkarları tərəfindən işğal olunmuşdu. Qarabağın dağlıq hissəsində Azərbaycan dövlətinin hakimiyyəti yox dərəcəsində idi. Bir tərəfdən müstəqilliyimizin başı üstünü almış real təhlükəni sovuşdurmaq, digər tərəfdən erməni təcavüzündən xilas olmaq, torpaqlarımızı müdafiə etmək, ölkəmizin ərazi bütövlüyünü qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızı azad etmək kimi Vətən qarşısındakı borcumuzu yerinə yetirməli idik. Xalqımız öz gücünü və qüdrətini göstərməli idi. Dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda respublikamızın o zamankı sərişəsiz və qətiyyətsiz rəhbərləri belə vacib taleyüklü vəzifələrin öhdəsindən gələ bilmirdilər.

Məhz buna görə də, torpaqlarımızın xeyli hissəsi itirildi, ölkədə xaos, anarxiya baş alıb getdi, vətəndaş müharibəsi təhlükəsi yarandı, qardaş qırğını başlandı, qanunçuluğun əsasları ciddi şəkildə zəiflədi, cinayətkarlıq halları görünməmiş səviyyəyə çatdı, dövlətçiliyimiz və müstəqilliyimiz təhlükə qarşısında qaldı. Ölkəni idarə etmək qabiliyyətində olmayan o vaxtkı iqtidar nümayəndələri başlarını itirdikləri üçün nə edəcəklərini belə bilmirdilər.

Aradan on illər keçsə də, heç kəs unutmayıb ki, Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin qayıdışından sonra əldə edə bilib. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, tükənməz Vətən sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu.

Heydər Əliyevin ən ədalətli qərarlarından biri də respublikamızı Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etməsi idi. Ümummilli lider bəyan etmişdi ki, müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir. Məhz həmin məntiqi əsas götürən ulu öndər nəhəng dövlət quruculuğu işlərinə başladı. O, qarşıya çıxan bütün sərhədləri yardı və qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etməyi bacardı.

Heydər Əliyevin fikrincə, əsl müstəqillik öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin müəllifi olduğu nəhəng neft kontraktı – "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın aparıcı dövlətlərinin qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda və dünyadakı nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrlə Avropanın və bütövlükdə, dünyanın enerji təhlükəsizliyi sisteminə qoşuldu.

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, müstəqilliyin əbədi və dönməz edilməsi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Məhz Heydər Əliyev müdrikliyi dünyada ölkələrin yerini müəyyənləşdirmişdi. Azərbaycanın dünyaya, dünyanın Azərbaycana gərəkli olduğunu da bilavasitə ulu öndərimiz sübut etmişdi.

Sonrakı mərhələdə – 2003-cü ilin payızından etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətimizin və xalqımızın müstəqillik illərində keçdiyi yolun hər bir addımını dönə-dönə yada salaraq, sabahımızın dünənki şanlı səhifələr üzərində qurulması zərurətini demiş və ona əməl etmişdir.

Sonda qeyd edək ki, ötən ilin aprelində BMT-nin Sivilizasiyalar Alyansının Bakıda keçirilən VII Qlobal Forumunun rəsmi açılışında geniş nitq ilə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev keçdiyimiz müstəqillik dövrünün nəticələrini 140 ölkənin təmsilçilərinin qarşısında bu şəkildə qiymətləndirmişdir: "Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilmişdir. Azərbaycan BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və bir sıra digər beynəlxalq qurumların üzvüdür. Biz güclü beynəlxalq dəstəyə malikik. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi məhz bunun təzahürü oldu. Bu, ölkəmizin böyük qələbəsi və Azərbaycana böyük ehtiramın əlaməti oldu.

Olduqca qısa zamanda, 25 il içərisində biz özümüzü etibarlı beynəlxalq tərəfdaş, müstəqil xarici siyasətə malik, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən ölkə kimi təqdim etməyə müvəffəq olmuşuq. Müstəqillik illəri bizim siyasi sistemimizin transformasiyası, demokratik təsisatların yaradılması illəri olmuşdur. Biz buna nail olmuşuq, Azərbaycanda bütün azadlıqlar təmin edilir, o cümlədən media və internet azadlığı. Ölkə əhalisinin 70 faizdən çoxu internet istifadəçisidir. Toplaşma və din azadlığı, yəni, bütün azadlıqlar təmin edilir. Bu isə öz növbəsində sürətli iqtisadi inkişaf üçün yaxşı zəmin yaradır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılmışdır".

Xalq qəzeti.-2017.-17 oktyabr.-№227.-S.1.

В испанской газете «La Razon» опубликована статья, посвященная 26-летней годовщине государственной независимости Азербайджана

В популярной испанской газете «La Razon» опубликована статья, посвященная 26-летней годовщине государственной независимости Азербайджанской Республики.

В статье отмечено, что, несмотря на то, что наша страна обрела независимость в 1991 году, благодаря приходу к власти общенационального лидера Гейдара Алиева и его дальновидной политике за короткое время Азербайджан завоевал большие успехи во всех областях. Эта политика в настоящее время успешно продолжается достойным преемником великого лидера Президентом Ильхамом Алиевым.

В статье также рассказывается о том, что страна за последние годы провела ряд мероприятий мирового масштаба, а также о ее успехах, достигнутых в экономической, общественно-политической и культурно-гуманитарной сферах, с этой точки зрения особо отмечается внимание и поддержка Президента Азербайджана обо всех сферах. Кроме того, отмечено, что заслуживает одобрения и тот факт, что футбольный клуб «Карабах» получил путевку в групповой этап Лиги чемпионов этого сезона, особо отмечено, что город Агдам в Карабахе, который представляет клуб, оккупирован вооруженными силами Армении.

В статье отмечено, что Азербайджан отличается в регионе динамичным развитием своей экономики, сообщается, что «Контракт века» продлен до 2050 года, в результате осуществления ряда крупномасштабных проектов наша страна превратилась в одну из передовых экономик мира.

АЗЕРТАДЖ представляет статью.

Азербайджан отмечает свою независимость в атмосфере трансформации и изменений Стремительно развивающаяся экономика

18 октября Азербайджанская Республика отмечает день своей независимости. Несмотря на то, что страна обрела независимость в 1991 году, этап нового развития начался в 1993 году, после возвращения к власти общенационального лидера Азербайджанской Республики Гейдара Алиева. С 1991 года принадлежащие Азербайджану Нагорный Карабах и 7 прилегающих к нему районов были оккупированы вооруженными силами Армении, а в 1994 году под руководством Гейдара Алиева был подписан с Арменией договор о режиме прекращения огня. В тот же год с целью разработки и эксплуатации нефтяных месторождений «Азери-Чыраг-Гюнешли» был подписан «Контракт века». Страна, играющая роль «международного моста» между Европой и Азией, подписав в 1998 году договор по Транспортному коридору Европа-Кавказ-Азия (TRASEKA), внес свой вклад в восстановление Великого Шелкового пути. Осуществление международных проектов, политическая стабильность, экономические реформы, а также поощрение таких ценностей, как мультикультурализм, толерантность и межкультурный диалог, все это являются результатами политики общенационального лидера Гейдара Алиева.

В последующий период эта политика была успешно продолжена преемником великого лидера – нынешним Президентом Ильхамом Алиевым. Под руководством Президента Алиева страна превратилась в международную арену для проведения культурных и спортивных мероприятий. В мае 2017 года при партнерстве ЮНЕСКО был проведен IV Всемирный форум по межкультурному диалогу на тему «Развитие межкультурного диалога: безопасность человека, новые возможности для мира и устойчивого развития» и был дан импульс для Международного десятилетия (2013-2022) по сближению культур.

В тот же месяц в 2015 году состоялись грандиозные церемонии открытия и закрытия первых Европейских игр, на Бакинском олимпийском стадионе прошли IV Игры исламской солидарности. Еще один нюанс – футбольный клуб «Карабах» города Агдам (оккупирован вооруженными силами Армении) в сезоне 2017-2018 прошел в групповой этап Лиги чемпионов. Здесь его ожидают такие соперники, как «Атлетико Мадрид», «Челси» и «Рома». Процветание клуба является результатом поддержки и внимания Президента Азербайджанской Республики Ильхама Алиева, который уделяет большое внимание развитию всех сфер, включая спорт. Среди экономических достижений можно отметить продление «Контракта века» до 2050 года и тем самым разработку и эксплуатацию нефтяных месторождений «Азери-Чыраг-Гюнешли» в Каспийском море. 14 сентября, подчеркнув значимость продления срока договора с точки зрения глобальной энергетической безопасности, Президент Ильхам Алиев отметил, что впервые промышленным способом нефть была добыта в Азербайджане, а также были эксплуатированы морские месторождения.

Следует отметить, что в рамках проекта «Южный газовый коридор» в 2020 году предусмотрен экспорт газа в Европу: в 2019 году TANAP (Трансанатолийский газопровод) соединится с газопроводом TAP и, таким образом, будет образован четвертый стратегический газовый источник для Европы.

Несомненно, что вышеназванные проекты являются наглядным свидетельством сотрудничества на международном и региональном уровнях. Азербайджан, объединяя высокие технологии и мировые традиции, с каждым годом меняет свой облик. Осуществление проектов, энергетическая безопасность, развитие ненефтяного сектора, применение реформ и создание благоприятных условий для инвестирования – все это послужило достижению высоких результатов. Азербайджан, экономика которого отличается от экономики региона своим динамичным развитием, превращается в развивающуюся страну.

Бакинский рабочий. - 2017.- 17 октября. - № 188. - С. 5.

Əbədi müstəqilliyə təminat formulu: güclü dövlət - müstəqil siyasət

İsaxan Vəliyev,
Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri,
hüquq elmləri doktoru, professor

Bəşəriyyətin min illiklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini sözün qüdrəti ilə canlandırmaq nə qədər çətin olsa da, ibtidai dövrlərdən sivilizasiyanın müasir mərhələsinədək adəm övladı üçün səciyyəvi olan bir tale ümumiliyi var: fərdi və ümumi toplum maraqları, anadangəlmə təbii və sonradan qazanılmış hüquqlar uğrunda mücadilə yaradılışın ali zinəti olan insanın ruhuna hakim kəsilib. İnsan həyatı daim mübarizədə keçir - bu gün də belədir, sabah da belə olacaq!

Yunan mütəfəkkiri Sokrat yazırdı ki, insanın məqsədləri onun həqiqi mahiyyətini əks etdirir. Qərinələr boyu ayrı-ayrı fərdlərin ümumi maraq və mənafelər naminə can atdığı hədəflər, arzu və istəklər fərqli mahiyyət dayışıb. Vahid məkan və ərazi hüdudlarında azad yaşamaq, öz taleyi ilə bağlı müstəqil qərar qəbul etmək istəyi bütün dövrlər üçün aktual olaraq qalır. Bu həqiqəti də etiraf etməliyik ki, tarixin şahidlik etdiyi saysız-hesabsız qanlı müharibə və toqquşmalar mahiyyətcə yeni münbit ərazilərin istilası yolu ilə maddi nemətlər əldə etmək, coğrafi, iqtisadi və siyasi üstünlüklər qazanmaq kimi merkantil niyyətləri hədəfləyib. Qanlı mübarizənin bir tərəfində zor gücünə başqalarının taleyinə hakim olmaq istəyənlər, digər tərəfində milli mövcudluğunu, istiqrarını, müstəqilliyini qoruyub saxlamaq, üzərində yaşadığı müqəddəs torpağı yadellilərdən qorumaq istəyənlər dayanıb.

Münaqişə və ziddiyyətlərin, qanlı müharibələrin mahiyyəti XXI əsrdə də dəyişməyib. Adına beynəlxalq hüquq dediyimiz ümumbəşəri normaların deyil, güclünün haqlı sayıldığı, qalibin mühakimə edilmədiyi zamanda yaşayırıq. Həm də elə zamanda ki, bəzən dünyanı idarə edən fövqəlgüclərin hegemon qərarları "cəngəllik qanunları"nı xatırladır. Beynəlxalq hüquqa məhəl qoymadan bir dövlətin digərinin ərazisinə soxulması, ərazisini işğal etməsi, bəzi beynəlxalq təşkilatların, hətta BMT-nin belə müvafiq qərarlarının qəbul edilməsini gözləmədən "cəzalandırma əməliyyatı"na başlaması buna əyani sübut deyilmi?!

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Dünyada gedən proseslər göstərir ki, kim güclüdürsə, o da haqlıdır. Əfsuslar olsun ki, belədir. Amma bu, həqiqətdir və biz bu real dünyada yaşayırıq, biz virtual dünyada yaşamırıq. Hamı istəyər ki, qanunlar, beynəlxalq hüquq normaları işləsin, ədalət olsun. Ancaq biz bunu görmürük... Ona görə güclü olmaq üçün biz bütün imkanlarımızı səfərbər etməliyik".

Bəli, dövlətimizin müdrik və praqmatik rəhbəri bu narahat, ədalətsiz dünyada, əslində, ayaqda durmağın, dövlət müstəqilliyini möhkəmləndirməyin, dünyada söz sahibi kimi qəbul olunmağın sadə formulunu irəli sürüb: güclü olmaq üçün əzmlə çalışmaq, bütün imkanları səfərbər etmək!

Həqiqi müstəqilliyin formulu

Biz bu gün adı müstəqil olub, başqa dövlətlərin "for-postu"na çevrilən, müstəqil qərarlar qəbul edə bilməyən, diktə altında olan dövlətləri uzaqda axtarmırıq. Havadarlarının dəstəyi ilə tarixi topaqlarımızı hələ də işğal altında saxlayan, təcavüzkar siyasətindən əl çəkməyən Ermənistanın timsalında formal müstəqilliyin nə demək olduğu cəmiyyətimizə yaxşı məlumdur. Bədxah qonşularımızdan fərqli olaraq Azərbaycan bu gün Cənubi Qafqaz regionunda tamamilə müstəqil siyasət yürüdən, öz sözü, mövqeyi, prinsipial xarici siyasəti olan dövlətdir.

Qürurla qeyd etməliyik ki, ötən 26 ildə xalqımızın ümummilli lideri, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin irəli sürdüyü "Güclü dövlət-müstəqil siyasət" ideyası tam mahiyyəti ilə reallaşıb. Məhz Heydər Əliyev dühasının əsasını qoyduğu milli inkişaf strategiyasının uğurları dövlət müstəqilliyinin ictimai təfəkkürdə başlıca milli ideya olaraq qəbulunu şərtləndirib.

Bəli, Azərbaycan xalqı əsrlər boyu həsrətində olduğu müstəqilliyi bu 26 ildə əzmlə qoruyub saxlaya bildi. Bu baxımdan 15 iyun - Milli Qurtuluş Günü Vətənini, xalqını sevən hər bir azərbaycanlı üçün möhtəşəm tarixdir. Məhz bu əlamətdar tarix Azərbaycan xalqının qanı, canı bahasına ötən əsrin sonlarında yenidən bərpasına nail olduğu dövlət müstəqilliyini öz böyük liderinin rəhbərliyi ilə qoruyub saxlamaq əzmini simvolizə edir.

Milli dövlətə mənsubluq ayrı-ayrı xalqların keçdikləri şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutmaq əzmini nümayiş etdirir. Azərbaycan Respublikası 1991-ci ilin oktyabrında müstəqillik qazandıqdan sonra 1993-cü ilin iyun ayınadək hakimiyyət boşluğunun doğurduğu bir sıra ağır fəlakətlərlə üzləşmiş, həqiqi müstəqilliyinə qovuşa bilməmişdi. Vəziyyət elə dözülməz hala çatmışdı ki, bir çox insan artıq müstəqilliyin həqiqi mahiyyətinə şübhə və tərəddüdlə yanaşır, keçmişlə bağlı "nostalji hisslərə" qapılırdı.

Məhz 1991-1993-cü illərdə yaşanan sarsıntı və fəlakətlər göstərdi ki, yalnız fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik lider milli müstəqilliyi qorumaq və yaşatmaq kimi çətin missiyanın öhdəsindən gələ bilər. Dövlət idarəçiliyində lider fenomeninin müstəsna rolu respublika tarixində ikinci dəfə qabarıq üzə çıxdı. Belə bir şəraitdə xalqın aparıcı ziyalıları, eləcə də vətəndaşların mütləq əksəriyyəti çıxış yolunu ulu öndər

Heydər Əliyevin fəal siyasi səhnəyə qayıtmasında gördülər. Ümummilli liderin yadigarı olan Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir mərhələdə Azərbaycanın mütərəqqi fikirli ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yarandı.

1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyalarının praktik şəkildə bərqərar olmasına fundamental əsaslar yaratdı. İyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin 3 oktyabrında Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi. 1993-cü ilin oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycanın zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm" - deyən ümummilli lider müstəqil Azərbaycanın milli inkişaf strategiyasını özünəməxsus müdrikliklə irəli sürdü və onun həyata keçirilməsinə başladı.

Ümummilli liderin dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini birləşdirən yeni inkişaf modeli kimi özünü tam doğrultdu. Heydər Əliyev cəmiyyətdə möhkəm milli birliyə nail olmaq üçün ilk növbədə insan hüquq və azadlıqlarının maksimum təminatına xüsusi diqqət yetirirdi. Ulu öndər özüməxsus müdrikliklə bəyan edirdi ki, siyasi sabitliyə nail olmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir.

Ulu öndərin diplomatik səyləri nəticəsində 1994-cü ilin mayında cəbhə bölgəsində atəşkəs əldə edildi. İctimai-siyasi sabitliyin təmin olunması hökumətə Qərbin nüfuzlu neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması istiqamətində diplomatik danışıqları uğurla sona çatdırmağa imkan verdi. Yeni neft strategiyasının həyata keçirilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən birinə çevrildi. Bu strategiyanın milli inkişafdakı misilsiz əhəmiyyəti hazırkı intensiv sosial-iqtisadi inkişaf fonunda özünü daha qabarıq göstərir. Azərbaycana son 23 ildə böyük uğurlar gətirən neft strategiyasının əsas mahiyyəti ölkənin təbii sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha uğurlu şəkildə istifadə etməyə əsaslanır.

Milli Qurtuluşdan - milli intibaha

Ümummilli lider Heydər Əliyev cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün bütün zəruri tədbirləri həyata keçirdi. Məhz ulu öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyuldu, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirildi. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı.

Heydər Əliyevin milli dövlətçilik qarşısındakı böyük xidmətlərindən biri də milli iqtisadi inkişaf strategiyasının düzgün müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsidir. Bu inkişaf modelinin konseptual əsasları 1995-ci ilin noyabrında qəbul edilmiş ilk Konstitusiyada əksini tapmışdı. Məhz bu mərhələdən respublikada özəlləşdirmə siyasəti və torpaq islahatlarının həyata keçirilməsinə başlanıldı. Keçmiş imperiyadan miras qalan kolxoz və sovxozlar ləğv olundu, əvəzində nümunəvi fermer təsərrüfatları yaradıldı. Postsovet məkanı respublikalarından fərqli olaraq, torpaq islahatları ilk dəfə Azərbaycanda qüsursuz şəkildə həyata keçirildi.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk gündən ziyalılara qayğını vacib məsələ kimi gündəmə gətirdi. Heydər Əliyev zəkasının ölkə elmi və təhsil sistemində yaratdığı möhkəm bünövrənin, dəyərli kadr potensialının adekvat əks-sədası müasir tarixdə bu sahənin ən müqəddəs izlərinə çevrilib.

1993-cü ildə Naxçıvandan Bakıya qayıdan Heydər Əliyev ilk görüş yeri kimi də məhz Elmlər Akademiyasını seçdi. Bununla o, yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu, bir tərəfdən Heydər Əliyevin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən Azərbaycan ziyalılarının ümummilli liderə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi.

1997-ci il yanvarın 31-i ulu öndərin bir qrup aparıcı alimlə görüşdə söylədiyi fikirlər Azərbaycan Elmlər Akademiyasına ikinci həyat bəxş etdi. Uzun müddət təsirlərə məruz qalan Azərbaycan intellekti yenidən dirçəliş yoluna qədəm qoydu. Heydər Əliyev alimlərə dünya səviyyəli elmi işlərlə bərabər, həm də dövlətimizə, xalqımıza lazım olan elmi tutumlu strateji problemlərlə məşğul olmağı məsləhət gördü.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə ictimai həyatın bütün sahələrində intibah və tərəqqinin əsası qoyuldu. Gənclər və idman siyasəti sahəsində iş keyfiyyətcə yeni mərhələyə keçdi. Heydər Əliyevin 1993-cü il 22 sentyabrda - ölkədə çox ziddiyyətli ictimai-siyasi proseslərin cərəyan etdiyi bir zamanda gənclərlə görüşə vaxt tapması, onların problemlərini dinləməsi ümummilli liderin Azərbaycan gəncliyinin cəmiyyət həyatındakı roluna verdiyi böyük önəmin əyani göstəricisi idi.

Milli dəyərlərə qayıdış fəlsəfəsi

26 illik zaman kəsiyində dövlət müstəqilliyinin Azərbaycan üçün ən böyük töhfələrindən biri də sovet dövründə təzyiqlərə məruz qalan milli-mənəvi irsin bərpa edilməsi, yeni dövrün tələblərinə uyğun gənc nəslə təqdimatı oldu. Sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində də inamla davam etdirən ulu öndər bu məqsədlə Azərbaycanın görkəmli şairlərinin, yazıçılarının, elm və incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşırdı. Heydər Əliyevin mədəni quruculuq siyasəti nəticəsində qloballaşma şəraitində mənəvi dəyərlərimiz qorundu. Klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə itkisiz çata bilməsi üçün bütün zəruri addımlar atıldı.

Ulu öndər müstəqillik illərində xalqın milli-mənəvi dəyərlərini və düşüncə sistemini yaşadan, günümüzə gətirib çıxaran folklor nümunələrinə diqqətlə yanaşırdı. Heydər Əliyevin 1997-ci il aprelin 20-də imzaladığı "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında fərmanı, yubiley komissiyasını yaratması və ona sədrlik etməsi, bunu dövlət işinin tərkib hissəsinə çevirməsi milli-mənəvi irsin qorunması, yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması sahəsində olduqca əhəmiyyətli hadisə idi.

Ulu öndər mənəviyyatın, milli əxlaq və düşüncə modellərinin qorunub saxlanılması üçün də səylərini əsirgəmirdi. Bu baxımdan Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatı da milli-mənəvi dəyərlərin qorunması məqsədinə xidmət etməklə, gənc nəslin tərbiyəsinə mənfi təsir göstərən neqativ amillərin aradan qaldırılmasına xidmət edirdi.

Əminliklə deyə bilirik ki, dövlət müstəqilliyinin ilk illərində yaşadığımız böyük problemlər indi yaddaşımızın acı xatirəsinə çevrilib. İqtisadi sahədə keçid dövrünün ağır sosial-iqtisadi, mənəvi-psixoloji çətinliklərini geridə qoyan respublikamız bütün sahələrdə sürətlə inkişaf edir. Azərbaycan siyasi müstəvidə də bir çox problemləri geridə qoyur. Neftlə, qazla zəngin bir çox ölkələrdən fərqli olaraq, respublikamız daha çox demokratikləşmə yolunda qazandığı uğurlar, tolerantlıq və mültikulturalizm sahəsindəki mütərəqqi milli modellə Avratlantik məkana inteqrasiya edir. Azərbyacan demokratik ideallara, liberal dəyərlərə, insan və vətəndaş hüquq və azadlıqlarına sadiqliyi ilə tanınmaq əzmini sübuta yetirir.

Maraqlarını təmin edən ölkə

Prezident İlham Əliyevin qətiyyəti ilə son illər xarici siyasətdə inanılmaz hədəflərə yetişmişik. Milli maraqların gerçəkləşdirilməsi amalı bu siyasətin əsasında hər şeydən öndə dayanır. Bu məqamda bəzi həssas tarixi məqamları yenidən xatırlatmaq vacibdir. Azərbaycan bayrağını təhqir edən erməni zabitini affekt vəziyyətində qətlə yetirdiyinə görə ədalətsiz şəkildə ömürlük həbs cəzası almış Ramil Səfərovun ölkəmizə ekstradisiyası və dərhal əfv olunması cənab İlham Əliyevin yüksək vətənpərvərliyinin təzahürü idi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizin obyektiv səbəblərdən həllinə nail olmadığı bir problem var - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Dövlət başçısı bu problemin siyasi yolla həllinə çalışsa da, torpaqlarımızın azad edilməsi üçün lazımi məqamda qətiyyətli addımların atılacağını da istina etməyib. 2006-cı ilin aprel ayının ilk günlərində xalqımız ölkə başçısının bununla bağlı əzmkar və prinsipial siyasi mövqeyinin şahidi oldu.

İşğalçılıq siyasətindən əl çəkməyən təcavüzkar Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozaraq qoşunların təmas xəttində törətdiyi son təxribatlara - dinc əhali üçün təhlükə yaratmasına adekvat cavab olaraq Azərbaycan Ordusu son günlərdə düşmənə Bişkek protokolunun imzalanmasından sonrakı 22 ildə ən ağır və sarsıdıcı zərbəni vurdu. Bir daha təsdiqləndi ki, Azərbaycan xalqının milli maraqlarını daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düzgün qərarlar qəbul etmək cəsarəti ilə seçilən lideri, rəhbəri var!

Milli Qurtuluşla başlayan əzəmətli inkişaf yolunun ən parlaq nəticəsi ondan ibarətdir ki, Azərbaycan tam müstəqil siyasət yürüdən ölkədir. Respublikanın milli inkişaf modeli, hüquqi, mədəni-mənəvi təkamül konsepsiyası, vahid milli ideologiyası formalaşıb. Qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə milli-mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin inkişaf etdirilməsi, böyük dövlətlər və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırır.

Ölkənin davamlı uğurlarını təmin edən, rəsmi Bakının bütün sahələrdə müstəqil siyasət yürütməsinə, milli maraq və mənafeləri qətiyyətlə müdafiə etməsinə imkan yaradan ən mühüm amil son illərdə əldə olunmuş böyük

iqtisadi nailiyyətlərdir. Neftin qiymətlərinin 3 dəfəyədək aşağı düşdüyü hazırkı şəraitdə respublikamız iqtisadi müvazinətini əzmlə qoruyur, böhranın mənfi təsirlərini azaltmaq üçün səmərəli iqtisadi və inzibati-qanunverici islahatlar aparır, manatın məzənnəsində sabitlik təmin edilir.

Ölkə başçısı milli-mənəvi dəyərlərə sadiqliklə yanaşı, sivil Qərb dəyərlərinin mənimsənilməsini də vacib sayır. Avropa dəyərləri, müasirlik dedikdə, demokratikləşmə, plüralizm və s. ilə yanaşı, həm də işçilərin siyasi fəallıq görüntüsünə görə yox, məhz peşəkarlıq xüsusiyyətlərinə görə seçilməsi nəzərdə tutulur. Bu baxımdan Prezident İlham Əliyevin elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarla fərman və sərəncamları, dövlət proqramları yetişməkdə olan gənc nəslin mənəvi bütövlüyü, kamilliyi və saflığı, habelə qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi siyasətin mühüm məqamlarıdır.

Son illər ərzində Azərbaycan Respublikasında elm və təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilib. Dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yenilənib, təhsilin müasir tələblərə cavab verən normativ hüquqi bazası yaradılıb. Ali təhsildə Bolonya Bəyannaməsindən irəli gələn başlıca prinsiplərin tətbiqi, təhsil müəssisələrinin müasir informasiya və elmi-metodiki təminatı, təhsil infrastrukturunun yenilənməsi, dərsliklə təminatın yaxşılaşdırılması, ucqar kənd məktəblərinin pedaqoji kadr təminatı, məktəbəqədər və peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması məqsədi ilə dövlət proqramları qəbul edilib, layihələr həyata keçirilib. Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan "orta insan inkişafı" qrupundan "yüksək insan inkişafı" qrupuna daxil olub.

Vətəndaşa sərmayə qoyulması, onun fərdi keyfiyyətlərinin və qabiliyyətlərinin inkişafı, bilik və intellektin milli inkişafda prioritet amil kimi müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən ən mühüm addımlardan biri də dövlət başçısı İlham Əliyevin 7 may 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsidir. Fondun yaradılmasında da məqsəd təkcə cəmiyyətin maarifləndirilməsi deyil, eyni zamanda ictimai əhəmiyyəti elmi, sosial-fəlsəfi, kulturoloji tədqiqatların dəstəklənməsidir.

Unikal multikulturalizm modeli

Xarici və daxili siyasətdə ardıcıl uğurlarımız sayəsində qlobal tədbirlərə evsahibliyi etmək Azərbaycanın gündəlik həyat tərzinə, qürur və fəxarət dolu tarixi hadisələri müşahidə etmək isə insanlarımızın yaşam normasına çevrilib. Şübhəsiz, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinin başlıca səbəbi respublikamızın dünya miqyasındakı nüfuzu, hörmətidir. Bunun nəticəsi olaraq Azərbaycanın son illər təşkilatçılıq etdiyi beynəlxalq tədbirlərin sırası ildən-ilə genişlənir: Beynəlxalq Humanitar Forum, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşü, Krans Montana Forumu, Ümumdünya Davos Forumu, Qlobal Bakı Forumu, I Avropa Oyunları, "Formula-1" yarışları, IV İslam Həmrəyliyi Oyunları...

Bu və digər tədbirlər zamanı Bakıda qədimliklə müasirliyin vəhdətinə əsaslanan milli arxitekturanın, müasir şəhər infrastrukturunun, ən başlıcası, isti və səmimi münasibətin şahidi olan çoxsaylı əcnəbi qonaqların etiraf etdiyi bir gerçəklik də var: ölkəmiz regionun ən sabit, müasir, müstəqil, təhlükəsiz, tolerant və multikultural ölkəsidir! Bir neçə gündən sonra keçiriləcək növbəti "Formula-1" yarışları Azərbaycan mültikulturalizminin Avropa üçün model rolunu oynadığının daha bir əyani göstəricisi olacaq.

Bu uğurlarda Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev müstəqil dövlətçilik konsepsiyasını məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu strateji kurs üzərində formalaşdırır və bu kursu yeni dövrün tələblərinə uyğun zənginləşdirir. Milləti Heydər Əliyev ideyaları ətrafında toplayır, özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərin yarımçıq qalmış arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bu gün hər bir azərbaycanlı dərk edir ki, bizi xəyallarda yaşatdığımız demokratik, qüdrətli, modern Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında mühüm vəzifələr gözləyir. Əminik ki, bir çox dövlətlərin onilliklərlə keçdiyi yolu qısa müddətdə adlayan Azərbaycan öz rəhbərinin əzmkar fəaliyyəti sayəsində qarşıya qoyduğu bu hədəflərə çox qısa zamanda qovuşacaqdır.

Azərbaycan.-2017.-13 iyun.-№126.-S.4.

Гейдар Алиев еще в советские годы подготовил Азербайджан для существования в качестве независимого государства

Ягуб Махмудов,
заслуженный деятель науки, член-корреспондент НАНА, директор Института истории

Недавно ЦРУ выложило в Интернет почти миллион рассекреченных документов, и один из них представляет собой доклад о Гейдаре Алиеве. В нем говорится, что в годы его правления экономика республики начала расти, и наблюдалось развитие во многих отраслях. В докладе подробно приводятся реформы, проведенные в экономике Азербайджанской ССР при руководстве Гейдара Алиева и подробный анализ развития большинства секторов экономики республики.

Следует отметить, что вследствие ряда объективных и субъективных причин в 1960-е гг. во многих отраслях экономики Азербайджана — и в промышленности, и в сельском хозяйстве, стали проявляться отрицательные тенденции. Постепенно замедлилось развитие республики, и это стало оказывать отрицательное влияние на социальное положение населения. Азербайджан отставал от союзного уровня по производству, в том числе по производству промышленных товаров, объему национального дохода и по темпу повышения производительности труда. И это отставание постепенно нарастало. Достижения научно-технического прогресса фактически не внедрялись в производство. В 1969 г. — в условиях глубокого упадка во всех сферах жизни в Азербайджанской ССР, Гейдар Алиев пришел к управлению республикой. Тем самым в истории Азербайджана начался великий переломный период. Последующий ход исторического развития доказал, что Гейдар Алиев еще в то время начал строить сегодняшний независимый Азербайджан. Гейдар Алиев, хорошо знавший все особенности советского режима и приобретший богатый опыт управления, начал предпринимать решительные шаги для того, чтобы вывести Азербайджан из очень тяжелого положения. С гениальной дальновидностью он поручил подготовить глубоко обдуманные программы комплексного развития, обеспечивавшие длительное, динамичное и всестороннее развитие республики, и началось безотлагательное выполнение указанных программ. С первых же шагов народ встретил Гейдара Алиева с симпатией, полюбил его и последовал за ним. Используя богатый экономический потенциал и широкие возможности такого огромного государства, как Советский Союз, гениальный сын народа начал проводить политику выведения Азербайджана на путь прогресса. Великий политик сначала добивался принятия на уровне Политбюро ЦК Компартии Советского Союза, на пленумах ЦК, съездов Коммунистической партии выгодных решений по важным вопросам для своей родины и народа в различных отраслях экономики и культуры, а затем мобилизовывал весь наш народ на выполнение этих решений. Во главе планов Гейдара Алиева стояло превращение Азербайджана в самодостаточную и высокоразвитую в научно-техническом отношении республику. Одним словом, Гейдар Алиев еще тогда начал путь, ведший к независимости нашей родины. В указанные годы руководства Азербайджаном, Гейдар Алиев, преодолевая тысячи препятствий, добился принятия пяти специальных решений Советского правительства, обеспечивавших всестороннее развитие Азербайджана. В результате этого 1970—1985 гг. вошли в историю Советского Азербайджана как самый блестящий период строительства за все время его существования. Произошел подъем во всех отраслях промышленности и сельского хозяйства. Проводились важные структурные изменения в экономике республики. Были созданы новые прогрессивные отрасли промышленности. Предпринимались важные меры для пропорционального развития всей республики в соответствии с уровнем промышленного развития. Увеличилось внимание к научно-исследовательским отраслям, непосредственно связанным с производством, в области достижений научно-технического прогресса, внедрения в производство прогрессивных технологий Азербайджан вышел на передовые позиции во всем СССР. Качественный показатель производившейся продукции повысился до уровня, несопоставимого с предыдущими периодами. В результате дальновидной политики, мудрого и компетентного руководства Гейдара Алиева, Азербайджан превратился в самую передовую сельскохозяйственную республику Советского Союза, в том числе в передовой край хлопководства и виноградарства. Коренным образом улучшилось социально-экономическое положение сельских жителей. В азербайджанской деревне были проведены невиданные ранее работы по строительству, благоустройству и культурному созиданию. В 1970—1985 гг., за короткий исторический период по всей территории республики были созданы сотни заводов, фабрик, отраслей производства. Было запущено 213 промышленных учреждений. Азербайджан занимал одно из передовых мест в Советском Союзе по многим отраслям производства. 350 наименований производимой в Азербайджане продукции экспортировалось в 65 стран мира. Промышленная продукция, производившаяся в эти годы, по своему объему была равна продукции, производившейся на всем протяжении предыдущих 50 лет. Азербайджан тех лет напоминал гигантскую

строительную площадку. Полностью изменился облик Баку и районов республики. Украшающие Баку и районы Азербайджана сотни жилых зданий, гостиниц, общественных сооружений, школ, дворцов культуры, составляющие ядро нашей экономики фабрики, заводы, промышленные объекты, крупные промышленные комплексы, водохранилища, Куринский водопровод, зоны озеленения, центры отдыха, многие дороги, в том числе железная дорога Баку — Балакен, важные мероприятия, проводившиеся для усиления связи Нагорного Карабаха с Баку и оживления там азербайджанской среды, в том числе проведение железной дороги в Ханкенди, являются результатами дальновидности Гейдара Алиева, его неустанной деятельности, патриотизма, который впитался во всю сущность этого великого человека. Одним из важнейших исторических достижений Азербайджана, достигнутых на протяжении 1970—1985 гг., было создание мощного кадрового потенциала, рассчитанный на будущее народа, в том числе создание армии специалистов по редким профессиям. Так, в эти годы расширилась сеть высшего и среднего специального образования республики. В 170 передовых вузов СССР было отправлено 3500 молодых азербайджанцев. Каждый год за пределы Азербайджана с целью получения образования по редким специальностям отправлялись в среднем 800 студентов. Особое внимание уделялось развитию военного образования. Руководитель Азербайджана, обеспокоенный отсутствием азербайджанцев в центре подготовки к космическим полетам СССР, взял под свой личный контроль отправку молодежи в высшие авиационные школы. Одним словом, ВЕЛИКИЙ АЗЕРБАЙДЖАНЕЦ, еще в тот период, опережая время, создавал мощный кадровый потенциал для Азербайджана XXI века.

В результате программ комплексного развития, проведенных Гейдаром А. Алиевым в 1970-х— начале 1980-х гг. Азербайджан превратился в республику передовой промышленности, сельского хозяйства и культуры во всем пространстве великого СССР. Гейдар Алиев еще в то время предвидел сегодняшний день нашей независимой жизни, готовил свою Родину для этих дней самостоятельного развития. Гениальный политик еще с того времени начал строить новый Азербайджан — сегодняшний Азербайджан…

Гейдар Алиев в период господства коммунистического режима вел борьбу (которую не смог бы повести кроме него никто!) против несправедливостей по отношению к своему родному народу. Во всех уголках Азербайджана были воздвигнуты статуи великих личностей, права которых были попраны в разные времена. По прошествии многих лет после смерти Джавида, ставшего жертвой репрессий, его останки были возвращены на Родину, был воздвигнут памятник близ Сапун-горы в честь тысяч азербайджанцев, погибших в Крыму на фронтах Великой Отечественной войны…

Именно в этот период большой группе выдающихся деятелей Азербайджана впервые было присвоено почетное звание Героя Социалистического труда. Установление величественной статуи Наримана Нариманова, посвятившего всю свою жизнь родному народу и своей родине, и за это «выдвинутого» в Москву и убитого при загадочных обстоятельствах, а впоследствии оклеймленного в качестве «националиста» и имя которого было запрещено произносить, явилось великой заслугой личности Гейдара Алиева перед Родиной. Он, впоследствии добившийся установления памятника Нариманову и в Ульяновске, еще раз доказал, что никто не в силах заставить его отвернуться от покровительства своему народу и Родине. В период руководства Гейдара Алиева на фоне общего подъема Азербайджана повысился и интерес к историческому прошлому нашего народа, наблюдался подъем самосознания в передовых кругах интеллигенции.

Началось возрождение и в национально-духовной жизни всего народа. В то время одним из основных центров возрождения являлась Азербайджанская Энциклопедия, возглавляемая Расулом Рзой. В то время именно энциклопедисты поднимали такие важные проблемы, как вопрос о решающей роли тюркских этносов в формировании азербайджанского народа, о завоевании Северного Азербайджана Российской империей, о прогрессивной роли деятелей АДР, об апрельской оккупации 1920 г. и многих других. Именно в те годы, благодаря решающей помощи Расула Рзы автор этих строк впервые добился подготовки и печати исторических карт Азербайджана на картографической фабрике Киева. Главная редакция Энциклопедии в 1972 г. издала атлас под названием «Карты Азербайджанской ССР» (на азербайджанском и русском языках) и те исторические карты были включены в него. Однако доносчики настучали в Москву и позвали на помощь «друзей-историков» из Армении. С целью клеймления нас в качестве «националистов», «врагов советской власти и России» в Баку был приглашен Л. Шаумян — сын С. Шаумяна, главаря мартовского геноцида 1918 года, учиненного против нашего народа. Сын С. Шаумяна, являвшийся в то время первым заместителем главного редактора «Большой Советской Энциклопедии» и в то же время бывший одним из главных советских идеологов, лез из кожи вон, чтобы использовать полученную возможность для нанесения удара по азербайджанской интеллигенции. Однако он не смог достигнуть своей цели. Потому что в то время во главе Азербайджана стояла сильная личность,

заботившаяся о своей родине. Благодаря именно мудрости и смелости Гейдара Алиева энциклопедисты и большая группа интеллигенции не подверглись преследованиям…

Бакинский рабочий.-2017.-9 февраля.-№ 24.-С. 4.

Азербайджан - свободный и независимый…

Татьяна Чаладзе,
заслуженный журналист Азербайджанской Республики

Государственная независимость… Казалось бы, всего два слова, но которые вмещают в себя так много смыслов, жизней и судеб граждан независимого государства. Пожалуй, трудно определить, какая составляющая самая главная в этих словах, независимость — национальная, политическая, экономическая. Однако, думается, что самое важное здесь это не просто провозгласить независимость, а суметь ее защитить, отстоять и не потерять!

18 октября 1991 года Верховный Совет АР, основываясь на Декларации о независимости, принятой Национальным Советом Азербайджана 28 мая 1918 года, и руководствуясь Декларацией Верховного Совета Азербайджана от 30 августа 1991 года «О восстановлении независимости Азербайджанской Республики», принял Конституционный акт о государственной независимости Азербайджанской Республики и заложил основы государственного, политического и экономического устройства независимой Азербайджанской Республики.

С этого момента каждый день, в буквальном смысле, на протяжении прошедших лет азербайджанский народ, стремясь к миру и созиданию, в часы кровопролитной войны и чудовищных испытаний проявляет служение, труд, талант, любовь к своей Родине, свободной и независимой.

«Азербайджан будет жить вечно!» — заявил на одном из торжественных мероприятий великий лидер азербайджанского народа Гейдар Алиев. Мудрый и справедливый, Гейдар Алиев остался в сердце своего народа как пример патриотического служения своей Родине, своему государству, его чести и независимости. Гейдар Алиев стал составной частью национальной идеи азербайджанского народа, его национального самосознания, образом гордости и достоинства азербайджанской духовности.

Именно благодаря смелой и самоотверженной политике Гейдара Алиева в период его руководства страной в тяжелейшие годы распада СССР, начала вооруженного конфликта в Нагорном Карабахе Азербайджан смог не только сохранить провозглашенную государственную независимость, но и повысить экономический потенциал республики, обеспечить социальное развитие гражданского общества.

Уже более двадцати лет Нагорный Карабах и семь прилегающих к нему районов - 20 процентов территории Азербайджана - находятся под оккупацией вооруженных сил Армении. В мае 1994 года было достигнуто соглашение о введении режима прекращения огня, и до сих пор под эгидой Минской группы ОБСЕ, и при сопредседательстве России, Франции и США ведутся пока еще безуспешные мирные переговоры. Принятые Советом Безопасности ООН четыре резолюции по освобождению оккупированного Нагорного Карабаха и прилегающих к нему территорий до сих пор не выполняются Арменией.

Армения, считающая себя независимым государством, как выяснилось, вкладывает в это понятие свой, как всегда, исключительно армянский смысл — быть независимой от международных законов, правовых актов, гуманизма и просто порядочности. Идеология армянства — хватай что сможешь - привела к утрате национального достоинства и самосознания, создала армянскому народу репутацию генетических клептоманов, присваивающих себе не только чужие территории и материальные ценности, но и претендующих на исторические и культурные бренды других народов.

Как известно, титульные народы и нации обладают исключительным правом на создание государства. В отличие от коренных народов, национальные меньшинства имеют право на самоопределение на различных уровнях автономного образования. Армяне Нагорного Карабаха до 1988 года имели автономное самоуправление - НКАО - со школами, библиотеками, культурными обществами и даже театром на армянском языке. Но, увы, как в сказке о «Золотой рыбке», им этого показалось мало. Как злая и жадная старуха из названной сказки они захотели все больше и больше. Пролив кровь азербайджанского народа, они оккупировали территории, а жить нормально не могут, нет никакого общественно-политического, экономического развития, в прямом смысле слова, нет будущего.

И не будет, пока Нагорный Карабах будет находиться под оккупацией армянских вооруженных сил. Так как международное право, признанное мировым сообществом, не позволяет разного рода террористам и радикалам создавать сепаратистские территориальные образования. Наоборот, все представители других стран придерживаются принципов закона и порядка, выступают против хаоса и агрессии.

29 апреля 2004 г. Президент Азербайджанской Республики Ильхам Алиев в Страсбурге, на заседании весенней сессии Парламентской Ассамблеи Совета Европы в своем выступлении коснулся

требований армян создать второе армянское государство на азербайджанской земле: «… претензия заключается в том, что армяне, живущие в Нагорном Карабахе, имеют право на самоопределение. Все мы с уважением относимся к этому, однако хочу обратить ваше внимание, что армяне уже самоопределились, у них есть государство - Армения. Это значит, что армяне, как нация, уже воспользовались этим правом. Представьте себе, что может произойти, если они будут самоопределяться всюду, где живут? Что это значит? Значит ли это, что всюду, где живут национальные меньшинства, должен процветать сепаратизм? Неужели это означает, что национальные меньшинства могут создавать свои независимые государства на всех территориях, где живут? Конечно, нет! В этом контексте как неотделимой части Азербайджана Нагорному Карабаху может быть предоставлен самый высокий статус самоуправления в рамках территориальной целостности Азербайджана».

К слову сказать, в мировой политике такие действия государства-агрессора как Армения рассматриваются как аннексия или оккупация, и должны предприниматься меры, направленные на ликвидацию как самой оккупации и изгнание агрессора с территорий, так и на устранение всех последствий такой оккупационной политики, в том числе и незаконного заселения чужеродными народами захваченных территорий, что и имело место быть в Нагорном Карабахе, когда армяне стали расселять там сирийских беженцев. Непроживание азербайджанцев в настоящее время на этих землях не лишает их права называться коренными жителями Нагорного Карабаха.

Насильственное выселение человека из его дома не отнимает у него права собственности на этот дом. Так же как насильственное изгнание азербайджанцев с их родных земель не может отнять у них все права, присущие им согласно международному праву.

Как подчеркнул Президент Азербайджана Ильхам Алиев: «Второй Армении на нашей земле не будет! Справедливость, все международные юридические нормы и сама история на стороне Азербайджана».

К сожалению, отсутствие твердой политической воли у «переговорной» Минской группы ОБСЕ превратило ее в бесполезную структуру, ее деятельность не способствует решению каких-либо проблем, а ее единственным занятием является принятие решений на бумаге, поскольку ни один из принятых документов не претворяется в жизнь.

Азербайджан не намерен продолжать пустые переговоры по урегулированию нагорно-карабахского конфликта. Азербайджан должен опираться на собственные силы и, обладая достаточным военным потенциалом, может его использовать. Правительство Азербайджана не позволит больше демонстрацию армянской наглости, проявлений агрессивной политики, армянского терроризма и сепаратизма. Легитимность государства определяется активным участием его граждан в процессе принятия политических решений, то есть степенью, в которой государство представляет «волю нации».

И азербайджанские вынужденные переселенцы, уже как почти четверть века под давлением покинувшие свой кров, с надеждой ждут возвращения к разрушенным родным очагам, могилам своих предков.

Именно поэтому в едином порыве воспринял азербайджанский народ победное наступление Вооруженных сил Азербайджана на армянские позиции и освобождение азербайджанскими войсками населенных пунктов и стратегических высот в Нагорном Карабахе в апреле 2016 года.

В декабре 2016 года на заседании Кабинета министров, посвященном итогам социально-экономического развития в 2016 году и предстоящим задачам, Президент Ильхам Алиев заявил: «2016 год останется в истории как год нашей славной военной победы. Впервые с 1994 года Азербайджан освободил от захватчиков часть оккупированных земель. В апреле наша армия пресекла армянскую вооруженную провокацию, нанесла сокрушительные удары по врагу и освободила тысячи гектаров земель в Агдеринском, Физулинском, Джебраильском районах. В настоящее время азербайджанская армия полностью контролирует десятки тысяч гектаров земель. У нас были и шехиды. Да упокоит Аллах души шехидов. Азербайджанский народ, азербайджанские солдаты и офицеры проявили подлинный героизм. Находясь на освобожденных землях, я еще раз сказал под флагом Азербайджана, что азербайджанский народ и Азербайджанское государство никогда не позволят создать на своей земле никакое армянское государство. Апрельские бои – наша славная история. Апрельские бои – наша историческая победа. Эта победа приближает урегулирование конфликта».

В те тревожные апрельские дни Азербайджан оказался единым и решительным, и это, пожалуй, также следует считать фактором, подтверждающим успех внутренней политики, проводимой Президентом Ильхамом Алиевым.

Совершенно очевидно, что Вооруженные силы Азербайджана в течение короткого времени могли освободить азербайджанские территории военным путем, если бы во время апрельских боев Армения в панике не обратилась к своим покровителям и другим государствам.

«…ситуация в Нагорном Карабахе требует нестандартных решений, направленных на обеспечение безопасности!» — истерично кричал в те дни Овик Абрамян, тогда еще премьер-министр Армении. Естественно, армянская диаспора подняла все свои явные и тайные связи, старалась курировать международную реакцию на события. Начались бесконечные телефонные звонки в Баку из Москвы, Вашингтона, Берлина, Парижа и других мировых столиц. Надо сказать, что клятвенные обещания лидеров других стран о неограниченных возможностях помощи в мирном урегулировании нагорно-карабахского конфликта согласно принципам международного права способствовали тому, что азербайджанская армия остановила свое контрнаступление. Необходимо отметить, что не все азербайджанские граждане согласились с этим, звучали требования о продолжении действий по освобождению оккупированных земель, но, выслушав все доводы «за» и «против», доверяя мнению своего Президента, приняли его решение о продолжении мирных переговоров.

В то же время для армянского общества «апрельская война» стала своеобразным моментом истины. Стало совершенно ясно, что армянская армия не способна противостоять азербайджанским Вооруженным силам, она просто оказалась не готова к военным действиям. Даже за несколько дней, если судить с точки зрения правил военного времени, армяне не смогли сформировать ударную группировку, реально способную достичь стратегического или хотя бы крупного тактического успеха. Сайт globalpower.org оценивает военную мощь Азербайджана в два с половиной раза выше, чем Армении.

Армения десятилетиями собирает огромные деньги с диаспоры по всему миру, а вооружение их армии, как они сами говорят, остается на уровне 80-х годов прошлого столетия. То есть, коррупция в Армении запредельная, и с учетом других экономических, социальных показателей в этой стране напрашивается вывод, что армяне сами себе враги. Миф, годами создаваемый Арменией о ее превосходстве над другими народами, полностью развеян.

Азербайджанская армия оснащена самым современным вооружением, численный состав Вооруженных сил, включая Национальную армию и отдельные военизированные формирования, составляет приблизительно 200 тысяч человек. А в Армении этот показатель составляет примерно 80-100 тысяч человек, включая армянских военных на оккупированных землях. Благодаря превосходству в численности Вооруженных сил, экономических возможностей и другим аспектам Азербайджан явно опережает противника по боеспособности.

Азербайджан и в дальнейшем будет прилагать все усилия для усиления военного потенциала своей армии. Но, пожалуй, самое главное - это то, что моральный дух азербайджанского воина сегодня, как никогда, высок.

И в 2017 году урегулирование нагорно-карабахского конфликта будет приоритетным направлением государственной политики Азербайджана.

Бакинский рабочий.-2017.-31 января.-№ 17.-С. 5.

Гейдар Алиев – основатель и архитектор независимой Азербайджанской Республики

Агалар Аббасбейли
Заведующий кафедрой Международных отношений Бакинского государственного университета, доктор исторических наук, профессор политических и исторических наук

Açar sözlər: siyasət, irs, ümummilli lider, güc, demokratiya, suverenlik, separatçılıq, müstəqillik
Key words: policy, heritage, national leader, power, democracy, sovereignty, separatism, independence
Ключевые слова: политика, наследие, общенациональный лидер, власть, демократия, суверенитет, сепаратизм, независимость

[стр.23-24]

Введение

Гейдар Алиев: "Азербайджан - сердце мое!"

Гейдар Алиев был и навсегда останется в сердце азербайджанского народа. Гейдар Алиев был рожден от Бога для политических дерзаний. Он своим талантом, принципиальностью, мужеством и величайшим патриотизмом вдохновлял азербайджанский народ во имя укрепления суверенитета и независимости Азербайджанской Республики. Идеи Гейдар Алиева нашли свое продолжение и воплощение в деятельности Ильхам Алиева на посту Президента Азербайджанской Республики. И наш народ на всенародном Референдуме по Конституции в сентябре 2016 года выразил свою полную поддержку и величайшее доверие Ильхам Алиеву как главе суверенного, независимого и демократического Азербайджана, а в этом залог наших грядущих побед!

Мировой опыт подтверждает, что политическая власть стабильна и долговечна там, где существуют реальные силы и возможности, способные соответствовать требованиям времени и чаяниям народа. С тех пор, как на земле появились первые государственные образования [2, с.10-12], власть менялась с года в год, из века в век. Во все времена, в любом государстве шла борьба за политическое первенство, лидерство той или иной партии, движения или же отдельных политических деятелей. В конечном счете, борьба шла за политическое руководство в обществе. Политическое руководство в основном сводится к трем основным моментам. Во-первых, она заключает в себя постановку принципиальных задач, стоящих перед страной, определение цели на перспективу и на ближайший период. Во-вторых, политическое руководство предполагает выработку методов, средств, форм деятельности и организации, с помощью которых поставленные цели могут быть достигнуты оптимальным образом, отвечающим воли и чаяниям народа. В-третьих, это понятие включает в себя и такую проблему, как подбор и расстановка кадров, способные наилучшим образом решать задачи, стоящие перед ними. Опыт Советской власти с виду самой демократичной, а по сути диктатуры одной единственной партии-коммунистов, находила свое выражение в повсеместном, единоличном правлении снизу доверху и по горизонтали одной партии. Прошел семидесятилетний период господства однопартийной, тоталитарной системы. И он не прошел бесследно для молодых, суверенных государств, образовавшихся на развалинах Советского Союза. В 15 суверенных государствах, с учетом традиций и местных особенностей сформировалась политическая власть, которая носит большую контрастность в их сравнении. На первый взгляд они схожи и повторяют друг друга, но при глубоком ознакомлении, они резко отличаются друг от друга, как, по сути, так и по принципам. Есть схожесть – это власть, которая держит бразды правления в своих руках и стремиться [стр.24-25] сохранить свои преимущества. При этом следует отметить и то, что в разных суверенных государствах, везде и всюду на первом месте стояла и стоит проблема укрепления власти во имя сохранения национального суверенитета. С другой стороны, в некоторых из них пришлось параллельно решать судьбу государства от наскоков сепаратизма, расчленения страны и.т. К последним относятся – Азербайджан, Грузия, Молдова, Украина. Сепаратизм, который граничит с государственным терроризмом, вначале получил одобрение и поддержку в лице определенных лиц и группировок в России. Именно помощь и поддержка Советского и позже Российского руководства сыграли определяющую роль в Карабахском авантюризме, в Грузии – на примере Абхазии и Южной Осетин, в Молдове – на примере так называемой «Приднестровской республики», в «Крымском» синдроме в Украине. Россия, которая объективно стояла у истоков вышеназванных сепаратистских движений и которая подпитывала их оружием и деньгами, не редко и живой силой, как это уже было подтверждено в Нагорно Карабахском регионе Азербайджанской Республики, сама оказалась вовлеченной в подобные явления на Северном Кавказе. Если бы Россия в самом начале указанных конфликтов заняла бы реалистическую и честную позицию, то не было бы подобных явлений в самой России. Стремясь к гегемонизму в геостратегическом направлении, к великодержавности, определенные круги в высших эшелонах власти России в 90-е гг.,

порождая сепаратизм в Азербайджане, Грузии, Молдове, Украине, опираясь на эти силы, она стремилась сохранить геополитический зонт над суверенными государствами. Однако, Россия просчиталась в этом вопросе. Подталкивая других в соседних странах, она получила сепаратизм малых народов на собственной территории с тяжелыми последствиями для страны. Сепаратизм в России сомкнулся с терроризмом и привел страну на грань хаоса и возрождения черносотенного шовинизма. И здесь огромная доля вины центральных органов России, которые вместо политических переговоров стали уничтожать граждан своей страны, но другой национальности и другой веры. Россия обрушила на них всю мощь своих вооруженные сил, включая современные истребители – бомбардировщики, вертолеты, ракеты с лазерным наведением, реактивные установки, танки и гаубицы. И все это подтвердил в свое время Президент РФ В.В. Путин, заявив, что "Мы восстанавливает конституционный порядок на своей земле." Постыдно и то, что все это Россия демонстративно показывала на экранах государственного телевидения. Одним словом, власть не способна удовлетворить чаяния своего народа, вынуждена заниматься отвлекающими маневрами, чтобы увести от себя удары. Разумеется, некоторые подобные моменты были и в истории суверенного Азербайджана, после приобретения независимости. Эйфория независимости и свободы, после стольких лет господства царской и затем Советской [стр.25-26] империи породили у многих из нас чувство вечной наивности. На гребне всенародного ликования к высшим эшелонам власти пробрались люди, не имеющие соответствующей подготовки, понимания сути патриотизма, чувства национального достоинства. Для некоторых из них, основная цель была во что бы то ни стало сохранить приоритеты Советской империи, верой и правдой служить центру и как холуи раболепствовать перед ним. Эти люди во имя личной амбиции, готовы были потопить и потопили в январе 1991 года в крови свой народ, лишь потому, чтобы угодить Москве. В один миг, молниеносно в мае 1988г. центр привез в Баку А. Везирова и посадил его в кресло спасителя нации. Став у руля руководства, А. Везиров из кожи вон лез во имя того, чтобы получить благосклонность своих хозяев. После того, как он сделал свое кровавое дело, его же хозяева ночью, тайком, по-воровски из военного аэродрома, в окрестностях г. Баку, вывезли его в Москву. Он выполнил свою роль и должен был, как на театральных сценах, уступить место другому, так было угодно и выгодно центру. Однако, новую власть раскачивали сверху – из Москвы и снизу – народное движение, плодами которых воспользовались т.н. «фронтовики» – движение «Народного Фронта». И менее года пребывания у руля власти «фронтовики» довели страну до катастрофы и потери национального суверенитета и были вынуждены подать в отставку. На наш взгляд одна из главных причин фиаско правительства то, что лица, стоявшие у руля руководства государством не учли мировой опыт, что государством следует руководить людям, имеющим определенную мудрость, опыт управления и т. п. Раздираемый сложными противоречиями внутри страны, развал в экономике, анархия в политике подталкиваемая «друзьями» из за рубежа, Азербайджанская Республика была на грани распада и ликвидации с лица земли, как суверенная и независимая страна.

1. Возвращение Гейдар Алиева к руководству страной в судьбоносное время

Чутье народа о сохранении независимости страны позволили ему обратить свои взоры к своему великому сыну Гейдару Алиеву. В сложившейся ситуации другого не было. Вопрос стоял или-или. Или согласиться на ситуацию-хаос и гражданскую войну, и расширение армянской оккупации части национальной территории, или же обратиться к Гейдару Алиеву возглавить народ, стать у руля руководства, чтобы спасти Отечество от хаоса, анархии и развала. Гейдар Алиев первый раз в своей жизни не сумел устоять, под давлением громадного большинства народа, он был вынужден вернутся к руководству страною в это судьбоносное время. Воля и решимость народа заставили Гейдара Алиева взять на себя всю ответственность за судьбу страны в это трагическое [стр.26-27] и архидраматическое время. И Гейдар Алиев подчинился воле и желанию своего народа, ибо не мог взирать, как обливается кровью и слезами его Родина. Он в некотором смысле повторил подвиг, совершенный великим французом, генералом Шарлем де Голлем в 1958 году, когда Франция стояла на грани гражданской войны. Раздираемый внутренними и внешними противоречиями, наскоками новоявленных Бонапартов, вроде генералов Салана и Мазью, Французская Республика переживала одну из самых трагических дней в своей истории. Решалась судьба и величие Франции, и Ш. де Голль, по требованию нации вернулся из провинции в Париж и стал во главе французских патриотов, желающих видеть Францию единой, демократической и свободной. Ш. де Голль блестяще справился со своей задачей и вторично вошел в историю, как спаситель Отечества. Он остался в памяти французов как великий француз XX века.

Нечто подобное сумел сделать в 1993г. генерал Гейдар Алиев, спустя 35 лет после великого подвига генерала Шарля де Голля во Франции. Прошлое о многом напоминает о том, кому мы обязаны сегодняшним днем. И впервые за последние несколько лет, народ вздохнул спокойно и осознал, что его судьба в надежных руках и надежды его будут оправданы. Следует отметить, что не будь Гейдара Алиева во главе государства в середине 1993 года, в октябре 1994 года и в апреле 1995 г. не было бы сегодня

единого и суверенного Азербайджанского государства. Почему именно Гейдар Алиев? Потому что Гейдар Алиев прошел долгий и трудный путь становления политического деятеля. Он вышел из гущи народа, с ранних детских лет познал цену труду и горстки хлеба, видел горе и слезы, потерю близких и родных. Гейдар Алиев никогда не терялся, даже в самых сложных ситуациях. Он всегда и при всех случаях имел собственное суждение, собственное мнение, личный подход к проблемам. В жаркие июльские дни 1969 года возглавив республику, и спустя месяц, в своем знаменитом докладе на августовском Пленуме ЦК Компартии Азербайджана, он до основания потряс существующие стереотипы и принципы устоявшиеся годами в партии. Его аргументы были точны, обоснованы, хлестки и беспощадны ко всем просчетам и недостаткам, с которыми давно свыклись и привыкли, Гейдар Алиев одним этим актом, как вихрь ворвался [стр.27-28] в партийные дебри тоталитаризма и ураганной силой разбивал все наносные, устаревшее, мешающее движению вперед. Большинство народа было за, но были и противники – маловеры, скептики. Некоторые считали дни, когда эксперимент провалиться. Но не таков был этот человек. Он до секунды и до сантиметра неоднократно сверял свои действия, прежде чем войти в водоворот событий. Он самим богом был рожден для бескомпромиссности, беспощадной борьбы со злом, рутиной.

Гейдар Алиев был политиком от Бога!

Многие его знают по тем творениям, которые происходили в Азербайджане в 70-80-е годы. Человек славен и бессмертен своими деяниями и творениями тем, что оставляет на земле, находясь на ней. Гейдар Алиев восславил свое имя уже тем, что в 70-80-е годы он разбудил Азербайджан от долгой спячки, рутины и сонливости, тем, что воздвигнул город и села, гиганты индустрии в гг. Баку, Гяндже, Шеки, Мингечауре, Сумгаите, Али-Байрамлах, Ленкоране, Закаталах и др. [4, с.13-14]. Гейдар Алиев, способствовал распространению славы по всему миру Кара Караева, Фикрета Амирова, Ниязи, Рашида Бейбутова, Муслима Магомаева и многих других [1, с.242, 301-312]. Именно при нем Азербайджан открывался миру. Благодаря усилиям Г. Алиева, его подвигу и творениям, его инициативе и настоянию, руководитель супердержавы бывшего СССР трижды совершил визит в Азербайджан. Азербайджан во все дни визитов сверкал на телеэкранах мира. Благодаря всему этому мир узнавал этот край, Азербайджан. Именно в те годы Азербайджан стал местом паломничества многих руководителей и государственных деятелей зарубежных стран как Запада так и Востока. В те годы руководитель Азербайджана более 20 раз возглавлял союзные партийные, государственные, правительственные и парламентские делегации за рубежом. Мировое сообщество, общественность Америки и Европы, Азии и Африки уже тогда присматривались к Гейдару Алиеву, видя в нем незаурядную личность, нестандартного по своим суждениям и взглядам человека из Советского Союза. По Гейдар Алиеву, по его выступлениям и смелым поступкам мир судил о нашем народе, о его величии. Именно в 80-е годы в бывшем СССР и в мире появились слова: «Только уникальный народ с уникальной историей мог породить такого гиганта, как Гейдар Алиев». Азербайджанский народ отвечал ему тем же, своим неустанным трудом, подвигом и творениями. Азербайджанский народ поддерживал Гейдара Алиева в его устремлениях. Титанический труд Гейдар Алиева способствовал его выдвижению в высшие эшелоны власти Советского Союза. Впервые за все время существования Политбюро ЦК КПСС, в этот высший мозговой центр, – святая святых – был выдвинут впервые сын Востока и им стал Гейдар Алиев. А это уже подвиг [6, с.9]. Он стал одним из первых руководителей правительства супердержавы. [стр.28-29] И спустя некоторое время, Гейдар Алиев, благодаря своему интеллекту, уму, суждениям, действиям, политическому чутью стал выделяться во всем Советском руководстве. О нем заговорили во весь голос, и в стране и за рубежом. В Политбюро и в правительстве стали появляться завистники и клеветники. Они боялись, что Гейдар Алиев может в будущем занять первую роль в стране. Одним из подобных пигмеев был М. Горбачев. С первых дней он видел в лице Гейдара Алиева конкурента на высшие посты в партии и государства. Гейдар Алиев превосходил его не только внешне – по росту и статности, а прежде всего сильной логикой, мышлением, волей, решимостью, бескомпромиссностью, талантом руководителя. В 1980-е годы Гейдар Алиева хорошо в мировых политических кругах. М. Горбачев, можно сказать один единственный раз в своей до "Генсековской" карьере возглавлял парламентскую делегацию СССР в Великобританию. Можно сказать, что его встречи и беседы с тогдашним Премьер-министром Маргарет-Тэтчер перевернули его будущую карьеру. Запад с этой поры стал приглядываться к М. Горбачеву, он уже был в составе Политбюро ЦК КПСС, после А. Яковлева, вторым человеком для них. И позже М. Горбачев с честью оправдает их надежды. То что не удалось Западу за 70 лет извне разрушить СССР, М. Горбачев сделал это быстро и четко изнутри. За этот "подвиг" он удостоился Нобелевской премии. Не будем говорить хорошо это или плохо. Но М. Горбачев поступил предательски и подло, предав свои принципы и свою идеологию. И кто знает, будь Гейдар Алиев не азербайджанцем, а русским или армянином, его, безусловно, выбрали бы Генсеком. Но великоросский шовинизм не смог переступить через себя. Пусть слабый и беспринципный М. Горбачев, но зато свой, русский.

М. Горбачев, первый с кем он попрощался в Политбюро, был Гейдар Алиев. Это он, Гейдар Алиев, на последнем Пленуме ЦК КПСС, бросил в лицо Генсеку, Президенту СССР М. Горбачеву: «Не спешите ставить точку на Гейдар Алиеве. Я еще не сказал последнее слово. Вы еще услышите обо мне!» после этих слов зал в течение некоторого времени был в оцепенении, а М. Горбачев – в растерянности. В истории КПСС не было подобного дерзкого вызова вождям партии за все время ее существования. М. Горбачев дрожащими губами, придя в себя, продолжил свою речь, а Гейдар Алиев тем временем с гордо поднятой головой, захлопнув дверью, покинул зал заседания Пленума ЦК КПСС. Прошли годы. История по-своему рассудила. Кем стал М. Горбачев? А кем стал Гейдар Алиев? Первый давно забыт своим народом, что с особой силой подтвердили итоги давно прошедших парламентских выборов в России, когда за М. Горбачева проголосовало менее одного процента населения страны, участвовавших в голосовании. В то же время, на вторичных президентских выборах в Азербайджане 11 октября 1998 года за Гайдара Алиева проголосовало более 90 процентов [стр.29-30] участвовавших в голосовании. Выше мы уже отмечали, какова была обстановка в Азербайджане в смутное время в середине 1993 года. Анархия и развал в вооруженных группировках трудно было назвать их армией, таковой не было, разброд и шатания в рядах политических партий. В панической ситуации, в пик волнений и армянского наступления народ на руках, можно сказать, внес Гейдара Алиева в Президентский дворец.

Итак, Гейдар Алиев вторично возглавил страну в это трудное и судьбоносное время в истории азербайджанского народа. Бог знает, что с лучилось бы с Азербайджанской Республикой, не возьмись Гейдар Алиев в это трудное время за рычаги руководства. Но не таков этот человек, чтобы оставить народ и страну на произвол судьбы. И он решил согласиться с волей народа, который его породил и вырастил, возглавить страну.

Шаг за шагом, день за днем Гейдар Алиев стал вникать в суть проблем, которые стали перед страною в это сложной время. Об этом периоде, о ситуации в республике и вокруг нее написано и сказано многое. Но многое еще предстоит проанализировать с тем, чтобы в нашей национальной истории подобное не повторить. Вопрос даже не в тех личностях, которые повинны в случившемся, а в том, чтобы осознать настоящее и осмыслить будущее, следует вопрошать прошлое, чтобы трагедию в прошлом не повторять в будущем.

Гейдар Алиев, став у руля руководства, взвалил на свои плечи тяжелую ношу. И он понимал, как любая великая личность, на что он идет. Он знал и осознавал, какой трудный процесс предстоит на путях восстановления страны. Следовало, в первую очередь, решить несколько первоочередных задач, и ничего невозможно было отложить на второй план. Среди них первоочередными были: избежать и остановить начавшийся процесс гражданской войны, остановить кровопролитную армяно-азербайджанскую войну, которая к этому периоду унесла тысячу жизней; начать процесс торможения гиперинфляции и стабилизации экономики; довести до мировой общественности правду об Азербайджане; стремиться к реальному международному признанию Азербайджанской Республики; начать процесс конструктивного, мирного решения Нагорно-Карабахской проблемы и т.п. Эти и многие другие проблемы, стоявшие перед страною и Гейдаром Алиевым, требовали своего решения. Гейдар Алиев, как показали истекающие годы, в реализации указанных проблем, сделал невозможное. И подобное только под силу гениальным личностям, лидерам, познавшим трагедию своего народа, верящим в свой народ, посвятившим жизнь своему народу. В свою очередь, народ, поверивший ему, вручил свою судьбу Гейдар Алиеву не будь взаимности, взаимопонимания на этом сложном этапе истории, Гейдар Алиев не сумел бы осуществить свои грандиозные замыслы. Он постоянно в гуще народа, он знал о жизни народа, [стр.30-31] о его трудностях и социальных невзгодах не по отчетам с мест, не по данным средств массовой информации, а из личного общения с народом.

Величие Гейдара Алиева - это дар от бога, уметь прислушиваться к голосу народа, слушать его, а потом проанализировав все данные, предпринять необходимые шаги.

Политическая власть, на то называется политической, что должна в первую очередь, решать стоящие перед ним проблемы – мирными, политическими средствами. Подготовить почву для передачи рычагов правления государством без потрясений и митинговщины в молодые, политический зрелые руки. Все это подтверждено мировым опытом – таких стран как: США, Англия, Испания, Индия, Германия, Греция, Турция, Польша, Франция и т. п. Президентство Гейдара Алиева вместе с тем школа политической стажировки для молодых, перспективных политиков, стремящихся войти в политическую элиту, стать в будущем у руля страны. В этом отношении опыт, знание и мудрость Гейдара Алиева – величайшая школа, и не воспользоваться им – преступление.

Мы уже отмечали выше, что не ставили целью проанализировать весь период руководства страною Г. Алиевым, мы стремимся в этой статье дать анализ политического наследия Г. Алиева, аспекты ее развития и перспективы на будущее. Если мы патриоты своего отечества, мы должны думать и о будущей

своей Родины, в чьих руках будет ее судьба, как пойдет ее развитие в XXI веке и в веках. Все следует сегодня проанализировать сопоставить, обобщить.

Хотелось бы отметить что настоящая статья не претендует на абсолютность всех выводов и суждений. Мы высказываем свою точку зрения, свое видение. С другой стороны, говоря об отдельных личностях, мы ни в коем мере не стремимся к унижению или снижению их роли. Мы стремимся дать реальный портрет политической анатомии республики, реалии и перспективы. Мы стремимся прогнозировать и моделировать ситуацию и сегодня и на будущее. А истина в том, что из нескольких моделей и проектов на основе сопоставлений, контрастов и глубокого анализа создать одну или несколько моделей для нашей страны. Нам жить в этом государстве, мы ее дети, мы уроженцы этой земли, ее судьба это наша судьба, и поэтому необходимо думать о ней сегодня, завтра будет поздно. Пример мировой цивилизации, передовых стран мира должен стать для нас образцом действий. В таких развитых, высоко интеллектуальных странах мира, как Япония, США, Германия, Франция, Англия, Швеция и Швейцария прогнозирование моделей политической и экономической структуры государств охватывают [стр.31-32] первые 50 лет XXI века. Нечто подобное делается в таких странах, как КНР, Индонезии, Сингапур, Объединенных Арабских Эмиратах, Израиле, Бразилии, Таиланде и т.д. Близко к ним по прогнозированию на ближайшие – годы проводится работа в Турции, Аргентине, Индии, ЮАР и т.д. Разумеется, на этом фоне Азербайджан должен определиться и определить свои ориентиры. Истекший период – до середины 1993 года – подтверждает, что во имя судьбы страны, мы не должны оставить все на произвол судьбы. Эксперимент на начальной стадии получения национальной независимости, когда люди без целей и принципов захватили бразды правления, способствовавший развалу экономики и потери 20 процентов территории не должен повториться. Да, тогда мы просто не были готовы к этому. Эйфория свободы и независимости в один миг охватила всех нас. И в этом водовороте хаосы, псевдодемократы взяли вверх. Народ в течении некоторого времени жил в оцепенении, ожидании чуда. А его не было и не могло быть. Пришедшие к власти не смогли в силу их общего кругозора и непрофессионализма осуществить что-то разумное, реальное. А за их промахи пострадал народ, пострадала страна. Опомнившись от бездеятельности и разочаровав народ, новоявленные вожди стали покидать «добровольно», под напором народного гнева рычаги управления.

Опыт мировой практики показывает, что на волне национально-освободительного движения, появляются разного рода движения и проблемы, стоящие перед страной. На рубеже 80-90 х годов, в момент агонии СССР, как и в других частях супердержавы, так и у нас, старый режим под напором народного движения начал давать трещины, что в конечном итоге привели к тому, что рухнули стены тоталитарного режима, а вместе с тем и потолок. В этих условиях режим не сумел спасти и январскую кровавую ночь, учиненную центральным руководством страны, возглавляемый Михаилом Горбачевым по сценарию, разработанную в центре. О цели откровенно пишет в своих мемуарах бывший председатель КГБ СССР Н. Крючков.

И ради истины необходимо сказать, что все члены тогдашнего бюро ЦК КП Азербайджана были в той или иной степени повинны в январской трагедии. Их вина не только в случившемся, а более того в том, что после кровавой январской ночи никто из высших или низших эшелонов власти в Азербайджане не подали в отставку. Здесь их вина вдвойне. В начале был шок, а потом? Потом, во что бы то ни стало остаться у власти или при власти, сохранить свое кресло. В этом и трагедия этих людей, горе народа прошла мимо них. В это роковое время только Гейдар Алиеве наутро, после кровавой войны в городе Баку, несмотря на тяжелую болезнь, находясь фактически под домашним арестом и надзором всесильного КГБ, рискуя собственной жизнью и жизнью своих детей и близких, явился в Постоянное Представительство Азербайджанской Республики в Москве и на весь мир сообщил о [стр.32-33] трагедии в Баку, учиненной центром. Именно благодаря мужеству и подвигу Гейдара Алиева человечество узнало правду о подлой и безжалостной расправе над детьми, женщинами и мирными гражданами Азербайджана. М. Горбачев превратил Азербайджан в кровавую мессу и полигоном во имя сохранения тоталитарного режима и Советской Империи. И после расстрела в г. Баку М. Горбачев по настоянию Министра внутренних дел СССР Бакатина, Министра обороны СССР Язова и Председателя КГБ СССР Крючкова подписал Указ о введении Чрезвычайного Положения в г. Баку. Это было прямое нарушение Конституции СССР, где понятие о "Чрезвычайном Положении" не имело место. И это был первый раз в истории СССР. Мировое сообщество поднял свой голос во имя спасения Азербайджана.

Москва вынуждена была отступить. Через пару дней карательные войска, учинившие кровавую бойню, были выведены из Баку. Хотелось бы попутно заметить, что в кровавую январскую ночь азербайджанский народ своим подвигом против устоев тоталитаризма и всемогущего “Центра”, отстоял свободу и честь всех народов бывшего СССР. Стоило нашему народу отступиться, вздрогнуть, “Центр” потопил бы в крови многие народы государства и, в особенности, не русские нации и народности, введя войска в Баку, Москва надеялась расстрелом и кровавой бойней запугать все народы страны и доказать,

что СССР вечный. Но азербайджанский народ – доказал миру на что он способен. Центр дрогнул и отступил. Да! Здесь великая роль нашего народа, его не сумели поставить на колени. Он восстал как один во имя спасения Отечества и здесь великую роль сыграл Гейдар Алиев. И это – истина! И никто и никогда не вправе ее отрицать.

И тут на ум невольно приходят слова древнего мудреца Сократа, который писал, что "Гениев не критикуют, а их изучают". Да, именно изучают, чтобы понять и осмыслить будущее.

2. Ильхам Алиев - продолжатель великого дела Гейдар Алиева

Ныне, в Азербайджане есть реальная политическая власть, живет и действует принятая на всенародном референдуме Конституция Азербайджанской Республики, успешно работает избранный Президент республики – Ильхам Алиев, функционирует парламент – Милли Меджлис, Конституционный Суд и другие государственные органы. Закаляясь оформилась в боеспособную армию, вооруженные силы республики, которые доказали силу и бесстрашие в апрельские дни 2016 года в боях против армянских захватчиков. Выдающихся успехов достигла экономика республики, с каждым днем укрепляется позиция Азербайджана на мировой арене. Разумеется, на фоне успехов есть и недоработки, о которых говорил Президент Ильхам Алиев на недавнем [стр.33-34] совещании по 9 месячным итогам 2016 года. И это вполне естественно. Было бы неправильно, если бы их не было. Мы – молодое, суверенное государство и на путях формирования и становления были, есть и будут недоработки. На ошибках учатся, стремясь избежать их и не повторить их в будущем. Такова диалектика политического развития. Это все реалии сегодняшнего дня. А что завтра? Кто способен идти впереди во главе народа? Одной из главных целей политического руководства – преемственность власти в рамках действующей Конституции законным путем, без потрясений и катаклизмов. Мы должны навсегда исключить из нашей национальной истории события после кровавой январской ночи, когда руководитель страны А. Везиров ночью, тайком бежал в Москву, оставив страну во мраке. Мы должны понять, и левые и правые, стоящие у власти и в оппозиции, что мы пишем свою национальную историю, а ее творят люди, вышедшие из народа и идущие во главе своего народа. Сколько раз пытались стереть из нашей истории XX века имена Н. Нариманова, Ф.Х. Хойского, А. Топчибашева, М.Э. Расулзаде и др. Без них наша история была бы блеклой и неполной. Но XX век божьей волей дал нам феномена – Гейдара Алиева. Гейдар Алиев является нашим национальным достоянием, богатством, гордостью и славой. Изучая его, мы должны сохранить для будущих поколений его политическое и идейное наследие. Есть амбиции новоявленных политиков, их желание и стремление стать во главе государства и быть вождем народа, но здесь необходимо прежде всего воля и желание народа. А это аксиома!

Сегодня у нас есть Ильхам Алиев. Это имя вызывает уважение и любовь друзей и содрогание у врагов. У каждого народа, каждой нации есть свои выдающиеся личности. В начале XXI века судьба народа, его стремление и политическое чутье Гейдар Алиева за будущее страны и народа формировали выдающегося политического деятеля – Ильхам Алиева [5, с.19-20]. Он плоть от плоти азербайджанского народа, который впитал лучшие черты нашего народа: мудрость, аналитический ум, глубокое мышление, интеллигентность, терпимость, решительность, работоспособность и мужество.

И если Гейдар Алиев был отцом нации и общенациональным лидером азербайджанского народа, то Ильхам Алиев – наше настоящее и будущее. Вместе с ним, мы сотворим великое множество и освободим от армянских оккупантов наши земли. И главное здесь – это единство руководства страны и народа! Здесь залог всех наших побед. Время и история формирует личности. Те же личности пишут историю. Время сформировало Ильхам Алиева как выдающуюся личность современности.

Ильхам Алиев на этапе политического восхождения, который за истекающие годы прошел стадию становления и формирования. Имея фундаментальное образование: с отличием завершив учебу в [стр.34-35] Московском Государственном институте международных отношений и аспирантуру, защитив кандидатскую диссертацию, за свои выдающиеся способности он был оставлен преподавателем этого элитарного высшего учебного заведения СССР [3, с.27-28]. Не многие удостаивались этой чести и Ильхам Алиев в МГИМО был первым, пожалуй, и последним азербайджанцем, удостоившим этой чести. Многие выдающиеся политические деятели, ставшие первыми лицами государства в политическом руководстве, начинали карьеру и работали преподавателями высших учебных заведений. Эту школу прошли многие руководители зарубежных стран.

Глубокое знание законов международной политики, солидный запас побочных знаний, великолепное знание иностранных языков, спокойный и рассудительный характер, за короткое время снискали Ильхаму Алиеву уважение коллег и любовь студентов к молодому преподавателю. Кто знает, как бы обернулась судьба Ильхам Алиева, если бы не начавшееся гонение на его отца Гейдар Алиева со стороны М. Горбачева, его принудительная отставка. Судьба отца постигла и сына. Не успел Гейдар Алиев покинуть высокий пост а партии и правительстве, как «попросили» Ильхам Алиева покинуть

институт. Сын политически неблагонадежного человека, опального члена Политбюро ЦК КПСС и устраненного от должности Первого зам. председателя Совета Министров СССР-Гейдара Алиева – Ильхам Алиев не имел «права» преподавать в святая святых советской дипломатии – Московском государственном Институте Международных отношений. Его просто попросили добровольно, «по собственному желанию» оставить институт. Руководство института, еще вчера восхищавшись способным студентом, талантливым аспирантом, отличником учебы, эрудитом, ученым и подающим надежды, краснея от неловкости, выполняя волю высшего руководства страны, в спешном порядке уволили Ильхам Алиева. Ныне, Ильхам Алиев доктор политических наук. Является почетным доктором Московского Государственного института международных отношений и почетным профессором Московского Государственного Университета имени М.В. Ломоносова двух элитарных и самых престижных высших учебных заведений на всем постсоветском пространстве. Ильхам Алиев первый из выпускников МГИМО – за всю его историю, который стал Президентом независимой страны. [стр.35-36]

Ильхам Алиев, как и его отец Гейдар Алиев, сумел выстоять все трудности и сложности судьбы, потерю самых дорогих ему людей, родную мать З. Алиеву и родного отца Ильхам Алиев. Это не по годам молодой человек, как утес перенес невзгоды и ныне воодушевляет других. Ильхам Алиев, став одним из руководителей Азербайджанской Государственной Нефтяной Компании, развил титаническую энергию по возрождению, развитию отечественной нефтяной индустрии и ее выходу на международную арену. И. Алиев сыграл огромную роль в подготовке и подписании судьбоносного «Контракта века» по разведке, эксплуатации и освоению нефтяных богатств в национальном секторе Каспийского моря [4, с.18]. Его многочисленные встречи и беседы со специалистами, политическими деятелями снискали ему большое уважение и симпатию [7, с.10-11].

И все это позволило ему одержать выдающуюся победу на президентских выборах в 2003. Истекшие годы подтвердили, что народ не ошибся в своем выборе. И Ильхам Алиев с честью и достоинством выполняет тяжелую ношу – Президента Азербайджанской республики, что было еще раз подтверждено на всенародном референдуме по Конституции Азербайджанской Республики в 2016 году. Народ оказал И. Алиеву величайшее доверие. И нет сомнения, что на очередных Президентских выборах Ильхам Алиев будет достойным кандидатом в Президенты Республики. Он делом доказал, кто есть кто и с честью оправдывает надежды народа, а народ связывает с И. Алиевым свое настоящее и будущее.

Его речи и выступления в Вашингтоне, Нью-Йорке, Лондоне, Анкаре, Париже, Москве, Варшаве, Берлине, Страсбурге и т.д. всегда отличались глубоким знанием дела, высокой эрудицией, взвешенным и спокойным характером. Ильхам Алиев везде и всюду умеет держаться с достоинством как руководитель Азербайджанской Республики. Опыт дипломата и чутье политика подсказывает ему в нужный момент принять правильное решение.

Президент Азербайджанской Республике Ильхам Алиев постоянно вникает в сущность проблем, стоящих перед страной. За последние годы президентства он неоднократно побывал почти во всех районах республики. Часто встречается с народом, стремясь понять и помочь ему в их проблемах. Его часто можно видеть в окружении коллег и простых тружеников. Он среди них свой, они с ними общаются просто, тепло и с надеждой. В свою очередь, он доступен, искренен в обращении с ними. Он ни разу не подвел своих собеседников. Он всегда хозяин данного им слова. К слову говоря, он не многословен, он стремиться больше слушать и прислушиваться к людям. В нем нет и намека на высокомерие или чванливость.

Ильхам Алиев как президент постоянного общается со своими избирателями. Он везде желанный гость. И он приходит к ним запросто, без помпезности и антуража. Он встречается с народом с тем, чтобы [стр.36-37] своими глазами вникнуть в их проблемы, посмотреть на состояние дел изнутри, поделиться с ними своими сомнениями и планами. И люди ему отвечают тем же, теплотой и искренностью.

Спросите любого труженика все они в один голос скажут: «Мы не представляем себе другого Президента!». Это лучшая оценка его деятельности на этом поприще. За короткий промежуток времени Ильхам Алиев сделал колоссальную работу по укреплению государства. И наши успехи в этом направлении за последние годы являются ярким подтверждением сделанного. Как видно из изложенного, широк диапазон деятельности И. Алиева. Впереди большая работа. И если в дальнейшем, а в этом нет сомнений, политическое, общественное и государственное развитие страны пойдет в этом направлении в начавшемся XXI веке, то Азербайджан и наш народ будет иметь выдающегося политика, устремленного в будущее. В нем залог будущего нации, народа и страны.

Заключение

Таков путь почти всех крупнейших государственных и политических деятелей современности. Это возраст-рубикон для политиков. С этого возраста, немного меньше или больше, начинали свой путь в

большую политику ныне известные миру деятели - Б. Клинтон, Ж. Ширак, В. Путин, Т. Блейер, С. Демирель, Г. Коль, М. Тетчер, Дж. Буш, Дж. Андреотти, А. Гюль, Р.Т. Эрдоган и многие другие.

Все вышеназванные деятели до этапа президентства и главы правительства прошли трудную и сложную лестницу и шаг за шагом, преодолевая каменистые и колючие тропы управления, шли к олимпу власти. Иначе и быть не может.

Разумеется, этот список видных политических и государственных деятелей современности можно продолжить. Нами указаны некоторые из них. Общенациональный лидер Азербайджанского народа Гейдар Алиев оставил после себя множество великих творений. Самым главным итогом жизни и деятельности Гейдара Алиева - это то, что он оставил после себя свое детище независимый, суверенный и демократический Азербайджан.

А самым ценным политическим наследием Гейдара Алиева является Ильхам Алиев, наша гордость и надежда! [стр.37-38]

И если, мы доверили свою судьбу Ильхам Алиеву, то необходимо всегда быть ему опорой, находится всегда, везде и всюду рядом.

Нашему независимому, суверенному государству всего 25 лет. Опираясь на национальные традиции и историю нашего народа, политическое и идеологическое наследие общенационального лидера азербайджанского народа Гейдара Алиева, избегая имеющиеся недоработки прошлого, во главе с Ильхам Алиевым должны всемерно двигаться вперед к новым достижениям во имя нашей Родины!

Список использованной литературы:

1. Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 712 с.
2. Аббасбейли А., Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку, 1997.
3. Abbasbəyli A. Azərbaycanın gələcəyi naminə. Bakı, 2001,131 s.
4. Abbasbəyli A. Azərbaycan mənim ürəyimdir. Bakı, 2002.
5. Abdullayev V. O, böyük siyasətə hazırdır. Bakı, 1999.
6. Niyazov X. Fateh. Bakı:Oskar, 2013, 311 s.
7. Niyazov X. Fəthin yolu. Bakı: Oskar, 2013, 379 s.

Ağalar Abbasbəyli
Heydər Əliyev - Azərbaycan Respublikasının qurucusu və memarı

Məqalədə bütün əzəməti ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti təsvir edilir, müstəqil, suveren və demokratik Azərbaycanın qurulmasında onun dəyərli rolu açıqlanır.

Müəllif konkret faktlara əsaslanmaqla Prezident İlham Əliyevin Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında, Heydər Əliyevin siyasi irsinin yaradıcılıqla davam etdirilməsində və bütövlükdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin möhkəmləndirilməsində mühüm xidmətlər göstərməsini qeyd edir.

Agalar Abbasbeyli
Heydar Aliyev - the founder and architect of the independent Azerbaijan Republic

The article in all the grandeur reveals the image of the national leader of the Azerbaijani peoplehis invaluable role in the creation and development of an independent, sovereign and democratic Azerbaijan.

The author on the basis of concrete data shows a huge role of I. Aliyev in the development of Heydar Aliyev's political heritage, in strengthening the achievements of the Republic of Azerbaijan, its international authority.

SAM. Strateji təhlil. - 2016. - № 3-4(17-18). - S. 23-38.

Müstəqillik və müasirlik: dialoq fəlsəfəsindən baxış

Füzuli Qurbanov
AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri,
fəlsəfə üzrə elmlər doktoru

Açar sözlər: müstəqillik, suverenlik, mədəniyyətlərarası qarşılıqlı əlaqə, müasirlik, emercent interfeys, şüur, spontan şüur, təcrübə, dil, dialoq
Key words: independence, sovereignty, intercultural interaction, modernity, emergent interface, consciousness, the spontaneity of consciousness, experience, language, dialogue
Ключевые слова: независимость, суверенность, межкультурные взаимодействия, современность, эмерджентный интерфейс, сознание, спонтаннсоть сознания, опыт, язык, диалог

Giriş

Dövlət müstəqilliyi lüğətlərdə ümumi olaraq siyasi qeyri-asılılıq, sərbəstlik kimi xarakterizə olunur. Siyasi müstəqillik (political independence) dövlətin daxili və xarici siyasətdə sərbəstliyini, suverenliyini ifadə edir. Siyasi müstəqillik konstitusiya və başqa hüquqi əsaslara, təminatlara dayanmalı, beynəlxalq təcrübəni nəzərə almalıdır. Göründüyü kimi, müstəqillik suverenliklə sıx bağlı anlayışdır. Onlar faktiki olaraq bir-birini tamamlayırlar. Suverenlik (sovereignty, fransızca: souverainete – "ali hakimiyyət") dövlətin daxili işlərdə və xarici münasibətlərdə tam sərbəstliyini və müstəqilliyini ifadə edir. Suveren dövlət xarici müdaxiləyə imkan vermir. Prinsipcə ərazisindən, əhalinin sayından və ictimai quruluşundan asılı olmayaraq bütün dövlətlər buna malik olmalıdır. Suverenlik doktrinası Avropanın Orta əsr dövlətlərinin müasir dövlətlər sisteminə transformasiyası dövründə meydana gəlib. Bu proses öz kulminasiya nöqtəsinə 1648-ci il Vestfal müqaviləsində çatıb [8]. Beynəlxalq hüquq aspektində müstəqillik onun başqa dövlətlər tərəfindən tanınması aktına bərabərdir.

Nəhayət, suverenliyin "millət" və "xalq" anlayışları ilə əlaqəli dərki də vardır. Milli aspektdə suverenlik millətin tam hakimiyyətliliyini, onun siyasi azadlığını, öz milli həyatının xarakterini müəyyənləşdirməyin real imkanlarını əks etdirir. Burada, hər şeydən əvvəl, millətin siyasi özünütəyin etməsi qabiliyyəti əhəmiyyət daşıyır. "Xalq" anlayışı kontekstində suverenlik xalqın tam hakimiyyətini, yəni cəmiyyətin və dövlətin idarə edilməsi işlərində real iştirak etmək üçün sosial-iqtisadi və siyasi vasitələrə malik olmasını ifadə edir [3, s. 596-599].

İndi "müasirlik" anlayışının mədəniyyət fəlsəfəsi və siyasi nəzəriyyədəki məzmununa nəzər salaq. Müəlliflər qeyd edirlər ki, bu anlayış problem situasiyanı ifadə edir. Bu situasiya cəmiyyətdə mövcud olan ali dəyərlərin elə bir düzəninin pozulması və dağılmasıdır ki, onların (ali dəyərlərin – müəllif) legitimliyini təmin edir, cəmiyyət üzvlərinin "ümumi dünya mənzərəsi"nin dərk edilməsini saxlayır və onlar (cəmiyyətin üzvləri – F.Q.) tərəfindən yüksək və obyektiv "ontoloji" reallıq kimi qavranılır [7, s. 587]. Burada "ontoloji reallıq" ifadəsi "təbiətin universal əxlaq qanunları" kimi təqdim edilən mifoloji və dini təsəvvürləri də əhatə edir. İndi işlənən "müasirlik" anlayışı Yeni Dövr Avropa cəmiyyətlərində yaranmış situasiyadan qaynaqlanır.

Buradan aydındır ki, müasirliyin iki qütbü var. Onlardan biri subyektiv azadlıqla, digəri isə sosial nizamla bağlıdır. Əgər cəmiyyətdə ümumi nizamlılığı "obyektiv reallıq" kimi təqdim edə bilən ümumi konsepsiya yoxdursa, onda fərd-kollektiv münasibətlərində ziddiyyətli situasiya yaranır: onlardan biri, yaxud hər ikisi yeniləşmə zərurəti qarşısında qalır. G.V. Hegel "Ruhun fenomenologiyası" əsərində yazır: "Fərd mütləq formadır, başqa sözlə, özünün özünə birbaşa təsdiqidir və... bununla mütləq varlıqdır" [4, s.2]. Ancaq bu "mütləq azadlıq" sərhədsiz eqoizmə aparıb çıxarır. Bu təhlükə [səh.222-223] sosial-mədəni kontekstdə daima müxtəlif vasitələrlə neytrallaşdırılır. Onların sərhədi isə konkret tarixi-mədəni mərhələdə müasirliklə müəyyənləşir. Həmin vasitələr kimi institusional təsisatlar, mənəvi dəyərlər və s. çıxış edə bilir. Bununla ictimai düzən təmin edilir. **Deməli, müasirlik tarixin bütün dönəmlərində sosial-siyasi və mədəni nizamı təmin etməkdə birbaşa rol oynayıb.** Bu mənada B.Q. Kapustin yazır: "Prinsipcə müasirliyin bütün tarixini fərdin "mütləq azadlığı" ilə qarşılaşan müxtəlif cəmiyyətlərin tarixi qismində ictimai qaydanı təmin etmənin uğurlu və uğursuz cəhdləri seriyası kimi təsəvvür etmək olar" [5, s. 587].

1. Subyektin azadlığı və sosial nizam müasirlik kontekstində

Buradan maraqlı sual meydana çıxır: müasirlik baxımından ictimai qaydanı təmin etmənin bir standart modeli varmı? Müasir olmaq həmin "standarta uyğun gəlmək", "onlara oxşamaq", "onlar kimi birgəyaşayış nizamı müəyyənləşdirmək" anlamına gəlirmi? Burada "onlar" deyəndə biz yalnız Qərbi nəzərdə tutmuruq, ümumiyyətlə, konkret cəmiyyətə yad olan, ancaq nümunə kimi götürülən istənilən başqa cəmiyyətin nizam qaydasını nəzərdə tuturuq. Məsələn, bu keyfiyyətdə Rusiya, yaxud Çin də nəzərdə tutula bilər. Bunların hər birindən fərqlənən və alternativ ola biləcək öz milli-tarixi reallıqlarından çıxış edərək müasirləşmək kursunu seçmək də konkret qərardır. Burada "öz milli-tarixi reallıqlar" ifadəsi qətiyyən fərqli dəyərləri inkar etmək

anlamına gəlmir. Əksinə, müasirlik kontekstində fərqli dəyərləri mütləq surətdə nəzərə almaqla yerli şərtlərə uyğun nizamlılıq modeli formalaşdırmaq önəm kəsb edir. Yalnız bu prosesdə aparıcı rolu cəmiyyətin tarixi-milli təcrübəsi oynamalıdır.

Müasirləşmək kontekstində bu suala cavab tapmağın çox əhəmiyyətli olduğunu düşünürük. Çünki həmin cavab faktiki olaraq strateji üfüqdə cəmiyyətin yeniləşmə kursunu müəyyən edir – toplu hansı ideal obraza doğru təkamül etmək xəttini seçir! Bəli, bu mənada müasirləşmə seçim hadisəsidir. Fikrimizcə, seçimin uğurlu olması üçün ona dialoq fəlsəfəsi aspektində yanaşmaq daha doğru olardı. Nəzəri və metodoloji olaraq dialoq aspektində əhəmiyyət daşıyan faktorlardan biri, obrazlı desək, yerli və yad nizamlama elementlərinin hansı sahədə qarşılıqlı əlaqədə olmasının və orada dəyişikliklər prosesinin dinamikasının müəyyənləşməsidir.

Bizim yanaşma sinergetik xarakterlidir. Həmin prizmada kollektiv reallıq üçün prinsipial əhəmiyyət kəsb edən dəyərlər "sərhəd zonası"nda meydana gəlir. Sinergetiklərin araşdırmalarına görə, açıq və qeyri-xətti mürəkkəb sistemlərdə (biz cəmiyyəti məhz bu keyfiyyətdə qəbul edirik) yeni mənalar, adətən, sərhəd zonasında olan qarşılıqlı əlaqələrdən spontan olaraq (emercent xarakterdə) yaranır [1]. "Sərhəd zonası" anlayışı metaforadır, ümumi obrazdır. O, açıq və qeyri-xətti sistemin ətraf aləmlə qarşılıqlı əlaqələrinin mövcud olduğu prosessual və linqvistik məkanı ifadə edir. [səh.223-224] Müasirlik kontekstində sərhəd zonası milli dəyərlərlə ətraf mühitdən gələn müxtəlif dəyərlərin qarşılıqlı əlaqədə olduğu məkan kimi təsəvvür edilə bilər. Burada yeni dəyərlər, yaxud mövcud dəyərlərə yeni məna çalarları verə bilən mənalar emercent olaraq meydana gələ bilir. Bu proses hər bir konkret situasiyada xüsusi kommunikasiya kanalları vasitəsi ilə həyata keçir. M. Maklüyen və N. Lumanın araşdırmaları göstərir ki, həmin gedişatda media-kommunikasiya böyük rol oynayır.

Beləliklə, sinergetik yanaşma çərçivə-sində demək mümkündür ki, sosial-mədəni sistemin ətraf aləmlə əlaqədə olduğu "sərhəd zonası"nda media-kommunikasiyanın böyük rol oynadığı, eyni zamanda digər kommunikasiya vasitələri ilə müxtəlif dəyərlərin qarşılıqlı əlaqədə olduğu mürəkkəb struktur-funksional (onun ontoloji prosessual və linqvistik-informasiya aspektləri var və onlar vəhdət halındadırlar) sahə meydana gəlir. Həmin sahədə mürəkkəb, qeyri-xətti, risklərlə müşayiət olunan xaotik xarakterli parametrlərin aktiv fəaliyyətdə olduğu məkan – yeni mənaların spontan olaraq formalaşdığı struktur yaranır (riyazi olaraq onu "topos" da adlandırmaq olar).

Məsələnin müstəqilliklə müasirlik kontekstində aktual olan cəhəti həmin mənaların vahid sistem halına düşə bilməsi şansının mövcudluğundadır. Buna sinergetikada "qəribə attraktorlar"ın (yeni mənanı ifadə edən lokal incə nizamlı strukturlar) formalaşması da deyirlər. Köhnə dəyərlər prizmasında bu strukturlar xaos kimi görünə bilər, yeni dəyərlər kontekstində isə onlar incə nizamlılığa malikdirlər. Bu müddəa təbii sistemlər üçün sinergetikada sübut olunub. Onların sosial sistemlərə tətbiqi isə hələlik metaforik xarakter daşıyır. Biz bu hipotezanı qəbul edirik və sosial sistemlərdə yeni dəyərlərin (sinergetik dildə deyilsə, emercent mənaların) yaranmasını mövcud dəyərlərlə müasirliyin vəhdəti kimi qiymətləndiririk. Bu effektin səmərəli yaranmasının əsas üsulu isə kommunikasiya sahəsində dialoqun təmin edilməsi ilə bağlıdır. Bu tezisin fəlsəfi sübutu bir qədər geniş yanaşma tələb edir. Burada daha əhəmiyyətli saydığımız bir məqam üzərində dayanaq.

Biz müstəqillik anlayışı ilə müasirliyin məhz yuxarıda təsvir etdiyimiz mexanizm əsasında qarşılıqlı münasibətdə olmasını nəzərdə tuturuq. Yuxarıdakı təqdimatdan da göründüyü kimi, müstəqillik cəmiyyət və dövlətdən, hər şeydən əvvəl, özünü təşkil edə bilən, özyetərli, suveren bir sistem olmağı tələb edir. [səh.224-225] Bu mənada müstəqillik avtonomluğa, təcrid olmağa meyillidir. Lakin onun bu meyilliliyi nisbi xarakter daşıyır, çünki daim ətraf mühitlə qarşılıqlı əlaqədədir və bu mübadilənin hesabına daxili dinamik balansını saxlaya bilir. Eyni zamanda, müstəqilliyin suverenlik aspektində çox mühüm tərəfi beynəlxalq mühitdə mövcudluğunu təsdiq etməkdən ibarətdir.

Deməli, müstəqillik faktiki olaraq daxili və xarici dinamik balansların ortaq olaraq yaratdığı "metabalans" şəraitində real məzmun kəsb edə bilər ("metabalans" terminini dövriyyəyə biz daxil etmişik və onun xüsusi məzmunu vardır – **F.Q.**). Metabalans faktiki olaraq müstəqilliklə müasirliyin harmoniyasını, uzlaşmış formasını, bir-birini tamamlayan struktur-funksional özəlliklərini ifadə edir. Hər iki səviyyə üçün (cəmiyyətin daxili balansını saxlaması və xarici mühitlə balansını təmin etməsi) kommunikasiya kanalları ciddi rol oynayır. Kommunikasiya vasitələri informasiya aspektində sosial-mədəni mühitin mövcud dəyərləri ilə "kənardan gələnlər" arasında "görüş təşkil edir". Bu sahədə onların ya toqquşması, ya da vəhdəti spontan olaraq meydana gəlir. Ona sinergetiklər "emercent interfeys" də deyirlər. Biz bu anlayışı müəyyən hallarda intuisiya ilə tutula bilən konkret məzmunda təsəvvür edirik. Başqa sözlə, "emercent interfeys" də təbiət elmlərində sinergetik yanaşma nəticəsində meydana gələn anlayışdır və onun sosial sahəyə tətbiqi metaforik xarakter daşıyır. Ancaq bu variantda belə həmin anlayış bizə kifayət qədər kreativ imkanlar yaradır. Bununla daxil etdiyimiz "emercent interfeys" anlayışını izah etməyə ehtiyac vardır.

2. "Sərhəd zonası"nda dialoq: şüurun spontanlığı, təcrübə və dilin harmoniyası

Ümumiyyətlə, "emercent interfeys" anlayışını Helqa Novotnı elmə gətirmişdir [2, s. 55]. O, bununla bir-biri ilə uyğunlaşmayan, ortaq xarakterə malik olmayan, fərqli dil-kateqorial özəlliklərə sahib bilik sahələrinin

kəsişməsində və hətta konfrontasiyasında yaranan müvəqqəti linqvistik-koqnitiv strukturu ifadə etmək istəmişdir. Təbii ki, burada da bir metaforik reduksiya vardır. "İnterfeys" fizikada müxtəlif fazalarda olan maddələri ayıran sərhəd kimi tərif edilir. Məsələn, maddənin bərk, qaz və maye hallarını ayıran "sərhəd zolağı" interfeysdir. Məişət sferasında interfeys maşın-insan təmasını saxlayan vasitələrdir (deyək ki, avtomobilin sükanı və s.). H. Novotnı bu anlayışın fizikada olan məzmununu metaforik olaraq, ümumiyyətlə, bilik sahəsinə tətbiq etməyə çalışır. O, müxtəlif bilik sahələrinin kəsişdiyi və yuxarıda qeyd etdiyimiz kimi, hətta ixtilafda, ziddiyyətdə olduğu koqnitiv sahəni spontan, gözlənilmədən meydana gələn interfeys adlandırır. Bu zonada biliyin sərhədləri, məzmunu, təsnifatı qeyri-müəyyəndir. Alim vurğulayır ki, həmin sahədə nəinki bilik sahələri arasında uyğunlaşma özünü göstərir, hətta onların vahid sistem halına gəlməsi imkansız görünür, situasiya mürəkkəbləşir, qeyri-müəyyənlik artır. Ancaq ən maraqlısı da bundan [səh.225-226] sonra baş verir – məhz həmin sahədə yeni kommunikasiya imkanları spontan olaraq əmələ gəlir, situasiya müəyyən həddə qədər sadələşdirilir. Bu hədd sistemin əvvəlki vəziyyətinə qayıtmaması ilə məhdudlaşır, yəni emercent interfeys heç zaman sistemi keçmişinə qaytarmır, onu yeni məna çoxluqları kontekstində sadələşdirir. Həmin əsasda da kəsişən sahələrdə yeni struktur-funksional proses yarana bilir. Ümumi halda, emercent interfeys sistemin "sərhəd zolağı"nda yeni reallıq yaratması, bütövlükdə özünü dəyişdirməsi prosesinin vacib vasitəsi rolunu oynayır [bax: 10].

Bu müddəalar müstəvisində "emercent interfeys" anlayışının sosial sistemlərə metaforik tətbiqi çox düşündürücü təsir bağışlayır. Əgər bu keçidi qəbul etsək, onda emercent interfeys zonasını milli dəyərlərlə yad dəyərlərin kəsişmə sahəsi olaraq təsəvvür edə bilərik. Onların bu sahədə kəsişməsi özlüyündə dinamik, qarşılıqlı kommunikativ prosesdir. Həmin zonada, doğrudan da, bir qarışıqlıq, qeyri-müəyyənlik, bir-birini qəbul etməmə mənzərəsi meydana gəlir. Yad elementlərin bir müddət bu cür qarşılıqlı təsirlərindən sonra situasiya müəyyən qədər "sadələşir". Sonrakı mərhələdə isə meydana ortaq dəyərlər zolağı çıxa bilir. Onun əmələ gəlməsi mahiyyətcə emercentdir, yəni gözlənilmədən, spontan olaraq, sərhəd zolağının daxili xarakterinə uyğun baş verə bilər. Bu isə o deməkdir ki, prosesin sonucu həmin zolaqda hadisələrin hansı məzmunda və istiqamətdə cərəyan edəcəyindən çox asılıdır.

İnsan faktorunun olduğu yerdə, təbii ki, bu kontekstdə daha çox motivasiya edən şüur ola bilər. Şüur konkret halda hər zaman təcrübə ilə sıx bağlılıqda olur. Daha doğrusu, şüurun məzmunu şəxsi təcrübə ilə müəyyənləşir. Emercent interfeys kimi mürəkkəb bir zonada bu özəlliyin rolu yekun effekt aspektində əhəmiyyətlidir. Çünki əgər "sərhəd zolağı"nda qarşılıqlı əlaqədə olan elementlərin sayı çoxdursa və onların hər biri konkret təcrübənin daşıyıcılarıdırsa, ortaq ritmə gəlmək çətin prosesdir. Digər tərəfdən, cəmiyyətin daxili tarixi-milli, mədəni-mənəvi təkamül dinamikası ilə kənardan olan təsirlərin analoji xüsusiyyətləri bir-birindən fərqlənir.

Deməli, şəxsi təcrübə fərqliliyinə sistemin və ətraf mühitin tarixi məzmun fərqlilikləri də əlavə olunur. Məhz bu özəllik yuxarıda vurğuladığımız metabalans anlayışını daxil etməyi şərtləndirən faktorlardan biridir. Onun reallaşması yalnız müəyyən kommunikativ sahədə mümkündür. Onda [səh.226-227] deyə bilərik ki, emercent interfeys zolağında mürəkkəb qarşılıqlı təsirləri müəyyən nizama gətirə bilən "kommunikativ mediator-kanallara" ehtiyac meydana gəlir.

"Mediator-kanal" terminini dövriyyəyə biz daxil edirik. Məlumdur ki, "mediator"un mənalarından biri neytral, müstəqil vasitəçidir ki, tərəflərə mövcud münaqişəni, ixtilafı aradan qaldırmağa yardım edir. Onu qeyd edək ki, biz burada mediasiyanın mübahisələrin alternativ həlli sahəsindəki peşəkar fəaliyyət çalarını nəzərə almırıq. Çünki onun siyasi aspekti bizi maraqlandırmır - əsas olanı, ümumiyyətlə, fəlsəfi-elmi kontekstdə çoxlu sayda xaotik qarşılıqlı təsirlərin müəyyən nizama salınması mexanizmlərinin müəyyənləşməsidir.

"Kanal" anlayışı mediatorun iki aspektini vəhdətdə ifadə etmək üçün daxil edilmişdir. Onlardan biri mediatorun müxtəlif olmasını (ən azı vahiddən çox olmasını), digəri isə hər birinin müəyyən sərhədə, məhdudlaşdırıcı mayakların cızdığı hüdudlarda aktiv olmasına işarədir. Bu şərtlər emercent zonada "vasitəçilərin" əsas funksiyasının qarşılıqlı təsirləri sistemləşdirməkdən, onları müəyyən barış məcrasına yönəltməkdən ibarət olduğunu təsbit etmək üçündür.

Deməli, bu anda bizim üçün sistem səviyyəsində nizam yaradan "vasitəçi-mediator" əhəmiyyət kəsb edir. Bununla biz M. Maklüyen və N. Lumanın izi ilə gedərək kommunikasiya vasitələrinin (burada "kommunikasiya vasitələri" ifadəsi "KİV" anlayışından daha geniş mənada işlənir və ümumiyyətlə, bütün ünsiyyət imkanlarını, o cümlədən İKT-ni nəzərdə tutur – **F.Q.**) emercent zonada həlledici rol oynadığı tezisini irəli sürürük. Bu təmas kanallarında meydana gələn hər yeni məna çaları uyğun şərtlər daxilində bütöv sistem miqyasında konkret düzən yarada bilər. Bu imkanı reallaşdırma mexanizmi isə dialoqdur.

Yuxarıda ifadə edilən fikirlərin işığında emercent interfeysdə nizamlı vəziyyətin meydana gəlməsinin spontan xarakterli olması aydın görünür. Bununla yanaşı, nizamlı vəziyyət kommunikasiya-mediator kanalların müəyyən şərtlər daxilində fərqli ritmləri, dil fərqlərini ortaq sahəyə yönləndirməsi halında formalaşa bilir. Bu proses qarşılıqlı təsir zolağında dialoqun alınması halında reallaşmaq imkanı əldə edir. Həmin prizmada dialoq cəmiyyətin bütövlüyünü təmin etmənin, fərqliliklərin vəhdətini yaratmanın yeganə səmərəli mexanizmi təsiri bağışlayır.

Dialoq bu prosesi zaman-zaman, pilləvari olaraq yekuna doğru aparır. Yəni onun təsiri birdəfəlik deyil, kompleks halda, mərhələlidir. Burada bir səviyyədə əsası tam hazırlamadan digərinə keçid mənfi nəticə verə bilər. Həmin bağlılıqda biz dialoqun reallaşma mexanizmini "şüurun açılması" prosesi kimi qəbul edə bilərik. O mənada ki, dialoq şüurun vəhdətə, barışa və tamlığa aparan qatlarını mərhələli açmağın effektiv üsulu olaraq təsəvvür edilə bilər. Əslində məsələ daha dərin və mürəkkəb elmi-fəlsəfi məqamlara bağlıdır. Çünki şüur özü mahiyyətcə spontandır. V.V. Nalimova görə, [səh.227-228] "spontanlıq şüurun dərinliklərindən qaynaqlanır" [6, s.149]. Spontanlıq yalnız daxili səbəblərdən, kənardan birbaşa təsir olmadan yaranan proses-hadisə-faktordur. Əgər şüurun spontanlığını qəbul etsək, onda V.V. Nalimovun aşağıdakı fikirləri üzərində dayanmaq faydalı olardı. Rusiyalı alim yazırdı ki, hər yeni situasiyanın iştirakçısı "dərketmə süzgəci" (Nalimovun ifadəsində - "filtr" – **F.Q.**) yaradır. Dərketmə süzgəcinin mənbəyi yeni təcrübə deyil, şüurun dərin qatlarında olan qaynaqdır, şəxsiyyətin özüdür. İdrak süzgəci yeni dəyərlər məkanı əmələ gətirir. Məhz həmin məqamda da fərdin "bir an öncəni görmək" şansı yaranır. Bununla dərketmə süzgəci şüurun dərin qatlarından qaynaqlanan proses əsasında yeni idraki situasiya yaradır ki, burada yeni dəyərlər sistemi ilə yeni təcrübə qarşı-qarşıya gəlir. Onların qarşılaşdığı həmin sahəni "emercent interfeys zonası" adlandırmaq olar. Terri Marks-Terlou bunu daxili ilə xarici, "Mən" (Self) ilə özgəsi arasında "fraktal (özünəoxşar deməkdir – **F.Q.**) separatrisalar məkanı" (separatrisa ikiölçülü dinamik sistemin hərəkət trayektoriyasını ifadə edir və müəyyən şərtlər daxilində həmin sistemin fəaliyyət məkanını müxtəlif hissələrə bölə bilər, ilgək, dövrilik, yəhər forması və s. yaradar – **F.Q.**) adlandırır ki, orada "dünya ilə mənəviyyatın vəhdətdə yaradılması" baş verir (bax: 9, s.49-62).

Nəticə

Beləliklə, şüurun spontanlığı fərdin hər bir yeni situasiyada davranışının ehtimali olduğunu göstərir. Başqa alimlərin araşdırmaları da bu nəticəni təsdiq edir. Bu o deməkdir ki, heç bir halda subyektlərarası münasibətlərdə hamının eyni fikirdə olduğu situasiyası yaranmır. Bütün variantlarda şüurun spontanlığı fərdlərin düşüncələri və davranışlarında fərqli çalarların, müxtəlif baxışların mövcudluğunu şərtləndirir. Lakin elə bu faktor da emercent interfeys zonasında (yaxud fraktal separatrisaların yaratdığı ortaq məkanda) yeni mənaların formalaşmasına imkan yaradır. Məhz bu səbəblərdən fərqli kültür elementlərinin qarşılaşdığı məkanda dialoq zərurətə çevrilir. Dialoq iştirakçılar arasında ortaq məna çalarları yarada biləcək yeganə mexanizm kimi qəbul edilə bilər.

Başqa aspektdən baxanda yuxarıda vurğulanan fikirlər göstərir ki, emercent interfeys zolağında fəlsəfədə klassik olaraq aktual olan şüur, təcrübə və dil faktorlarının qarşılıqlı nisbəti məsələsi əhəmiyyət kəsb edir. Bu, özlüyündə emercent interfeys zolağında elementlər arasında münasibətlər sisteminin xarakteri məsələsini gündəmə gətirir. Bizim fikrimizə görə, həmin münasibətlər dialoq fəlsəfəsi çərçivəsində qurulsa, ümumi qeyri-müəyyən situasiyanın daha səmərəli sadələşməsi və deməli, yeni kommunikasiya imkanlarının yaranması şansı meydana gələr.

Müstəqillik, yəni cəmiyyətin bütövlüyü, tamlığı, suverenliyi və özünü təminetmə qabiliyyəti baxımından bunun prinsipial əhəmiyyəti vardır. Məhz bu kontekstdə müstəqilliklə müasirliyi vəhdətə gətirən dialoqdur. [səh.228-229] Deməli, dialoq əslində obyektiv əsaslara malik, insan varlığının məntiqinə uyğun bir fenomen-hadisədir. Dialoq fəlsəfəsi həmin özəlliyə görə müasirliyin çox vacib komponentidir. Hətta müstəqilliklə müasirliyin qovuşmasının başlıca sahəsi, onların təkanverici və birləşdirici kreativ qüvvəsidir. Bu isə o deməkdir ki, fəlsəfi dərk olmadan müstəqilliyi tam mənasında reallaşdırmaq, onu həqiqi zaman-məkan kontinuumunda yaşatmaq mümkün deyil. Fəlsəfə bu cür xeyli qəribə üsulla müasir dövlətçilik, müstəqillik və müasirliyin qovşağında mövcud olan reallıq olaraq özünü göstərir. O, vazkeçilməz fəaliyyət növü, kollektiv var olmanın əvəz edilməyən təkanverici və yaradıcı şansıdır.

İstifadə edilmiş ədəbiyyat:

Rus dilində

1. Аршинов В.И., Свирский Я.И. От смыслопрочтения к смыслопорождению. // Вопросы философии, 1992, № 2, с. 145-152.
2. Аршинов В.И. Рефлексивно-активные среды инновационного развития в контексте синергетики сложности. // Междисциплинарные проблемы средового подхода к инновационному развитию. М.: Когито-Центр, 2011, с. 52-73.
3. Большой юридический словарь/Под ред. А. Я. Сухарева. 3-е изд., доп. и перераб/. М.: ИНФРА-М, 2007, 858 с
4. Гегель Г. В. Ф. Феноменология духа. Философия истории. М.: Наука, 2007, 890 с.
5. Капустин Б.Г. Современность. /Новая философская энциклопедия: Т. 3. /Под редакцией В.С.Стёпина/. М.: Мысль, 2010, с. 587-588.
6. Налимов В.В. Спонтанность сознания. М.: Прометей, 1989, 288 с.
7. Новая философская энциклопедия: Т. 3. /Под редакцией В. С. Стёпина/. М.: Мысль, 2010, 696 с.

8. Политика. Толковый словарь. /Д. Андерхилл, С. Барретт, П. Бернелл, П. Бернем, и др. Общая редакция: д.э.н. Осадчая И.М./ М.: "ИНФРА-М", Издательство “Весь Мир”, 2001.

İngilis dilində

9. Marks-Tarlow T. Semiotic Seams: Fractal dynamics of Reentry // Cybernetics And Human Knowing, Vol. 11, № 1, pp. 49–62.
10. Nowotny H. The increase of complexity and its reduction: emergent interfaces between the natural sciences, humanities and social sciences // Theory, culture and society, 2005, № 5, pp. 15-31.

Fuzuli Gurbanov

The independence and modernity: a view from the perspective of the philosophy of the dialogue

This article from the perspective of the philosophy of the dialogue, analyzes the relationship of the independence and modernity. It is shown that these concepts are deeply intertwined in the context of ensuring the integrity of society and interaction between different socio-cultural systems. [səh.229-230] Based on the analyze of the ideas of the classics of synergetics, and B.G. Kapustin, H. Nowotny, T. Marks-Tarlow, V.I. Arshinov, V.V. Nalimov, the thesis is put forward that the independence and modernity become a specific form of the interaction in the boundary zone where new meanings appear. New emergent meanings appear in the interaction of consciousness, a new experience, and the language. But the spontaneity of the consciousness leads to the need for the dialogue as the only way of formation of the unity and today‘s independence.

Физули Гурбанов

Независимость и современность: взгляд с позиции философии диалога

В статье анализируется взаимосвязи независимости и современности с точки зрения философии. Показывается, что эти понятия глубоко взаимосвязаны в контексте обеспечения целостности общества и взаимодействия различных социокультурных систем. На основе анализа идей классиков синергетики Б.Г. Капустина, Х. Новотны, Т. Маркс-Терлоу, В.И. Аршинова, В.В. Налимова выдвигается тезис о том, что независимость и современность приобретают конкретную форму взаимодействия в граничной зоне, где возникают новые смыслы. Новые смыслы эмерджентно появляются в поле взаимодействия сознания, нового опыта и языка. А спонтанность сознания обусловливает необходимость диалога как способа формирования единства независимости и современности.

SAM. Strateji təhlil. - 2016. - № 3-4. - S. 221-230.

Müstəqil Azərbaycan dövlətinin qurucusu

Elnur Hacalıyev

Azərbaycanın yeni tarixində xüsusi yeri və xidmətləri olmuş dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyev həm də müstəqil dövlətimizin xilaskarı kimi şanlı səhifə yazmışdır. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi olan dahi şəxsiyyət dövlətçiliyimizin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını elmi prinsiplər əsasında müəyyənləşdirmişdir.

Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar ümummilli lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində böyük müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır.

1969-cu il iyulun 14-də Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilən Heydər Əliyev keçmiş İttifaqın iqtisadiyyatı üçün xammal bazasına çevrilmiş respublikanın yeni inkişaf strategiyasını işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafının yeni mərhələsinə qədəm qoyaraq keçmiş İttifaqın qabaqcıl respublikalarından birinə çevrilmiş, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilmişdir. Həmin illərdə Bakıda, Sumqayıtda, Gəncədə və digər şəhərlərdə inşa olunan iri müəssisələr indinin özündə də milli iqtisadiyyatımızın güclü sənaye kompleksinin formalaşmasına zəmin yaradan möhkəm təməldir.

Ulu öndər Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövründə ən böyük xidmətlərindən biri ondan ibarət idi ki, sovet hakimiyyəti illərində mövcud neqativ halların, xüsusilə rüşvətxorluğun aşkar edilməsində və ona qarşı mübarizə aparılmasında cəsarətli hərəkət etmişdi. O dövrün insanları Heydər Əliyevin 1981-ci ildə "Literaturnaya qazeta"da dərc olunmuş "Qoy ədalət zəfər çalsın" sərlövhəli geniş müsahibəsini yaxşı xatırlayırlar. Nəinki keçmiş İttifaqda, SSRİ-dəki prosesləri diqqətlə izləyən əksər xarici ölkələrdə də böyük sensasiya doğurmuş bu müsahibədə Azərbaycan nümunəsinə istinadən ümumilikdə sovet cəmiyyətində mövcud problemlər və onların həlli yolları göstərilirdi. Moskvada "Literaturnaya qazeta"nın həmin nömrəsi əldən-ələ gəzir, insanlar bu müsahibədə irəli sürülən tezislər ətrafında müzakirələri də tərəddüdlə, qorxa-qorxa aparırdılar. Çünki o dövrə qədər dissident taleyinə hazır olan insanların səsləndirə biləcəyi bu cür cəsarətli fikirlərin indi İttifaq respublikalarından birinin rəhbərinin dilindən, həm də konkret dəlillərlə dünyaya bəyan edilməsi hər kəs üçün gözlənilməz idi.

Heydər Əliyev ölkə rəhbərliyinə gəlişindən bir ay sonra Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda məruzə ilə çıxış etdi. Həmin məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyətin hərtərəfli təhlili aparılır, buraxılmış nöqsan və çatışmazlıqlar diqqətə çatdırılırdı. 1969-1970-ci illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi oldu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı 1970-1980-ci illərdə müvəffəqiyyətlərin rəhni oldu.

Həmin vaxtlar kənd təsərrüfatının inkişaf etdirilməsində heç də mövcud imkanlardan lazımınca istifadə edilmirdi. Əsas sahə sayılan pambıq, dənli bitkilər, əkin sahələri əsaslı surətdə azaldılmışdı. Kənd təsərrüfatında geriliyin səbəbləri avqust plenumunda prinsipiallıqla aşkarlanır, geridə qalan təsərrüfat sahələrinin inkişaf etdirilməsinin düzgün elmi yolları müəyyənləşdirilirdi.

Kənd təsərrüfatının daha səmərəli inkişafı üçün ilk növbədə istifadə edilən və suvarılan torpaqların yenidən istismara verilməsi, eyni zamanda xam torpaqlar və meliorasiya edilməsi lazım olan az məhsuldar torpaqlar hesabına əkin sahələrinin genişləndirilməsi nəzərdə tutulurdu. Bir sıra kənd təsərrüfatı məhsulları istehsalının daha da təmərküzləşdirilməsi və istehsalın ixtisaslaşdırılması vəzifəsi irəli sürülürdü.

Ümummilli lider Heydər Əliyev tərəfindən kənd təsərrüfatı istehsalında ixtisaslaşma, təmərküzləşmə, zonalaşdırma və rayonlaşdırma, intensivləşdirmə metodlarının tətbiqi müvəfəqiyyətlərin əsas bünövrəsi oldu. Kənd təsərrüfatı məhsullarının inkişafında böyük imkanları olan pambıqçılığın geridə qalmasından ciddi narahatlığını diqqətə çatdırır, bu sahənin inkişafı üçün əməli tədbirlər görürdü. Vəziyyəti elmi əsaslarla aydınlaşdırdıqda məlum olmuşdu ki, bəzi rayonlarda pambıqçılıq səmərəli olmadığı üçün onlarda pambıq əkilməsi məqsədəuyğun deyil. Bəzi rayonlarda isə pambıqçılığın səmərəli olmasına baxmayaraq, torpaqlardan lazımınca istifadə edilmir, hamısı əkilmirdi.

Ulu öndər Heydər Əliyev kənd təsərrüfatını inkişaf etdirməklə Azərbaycanın ayrı-ayrı bölgələrində kənd təsərrüfatı məhsullarının becərilməsinə xüsusi əhəmiyyət verirdi. Məsələn, Lənkəran zonasında faraş tərəvəz məhsulları yetişdirilməsi nəticəsində bu bölgə "Ümumittifaq bostanı" adını almışdı. Bu zonanın inkişafı əhalinin maddi məişət şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynayırdı. Azərbaycanda heyvandarlıq da geri qalırdı. Bunu onunla əsaslandırmağa çalışırdılar ki, guya respublikanın spesifik şəraiti ilə əlaqədar heyvandarlıq sahəsində son illərdə geriliyi aradan qaldırmaq qeyri-mümkündür. Heydər Əliyev bu fikrin əsassızlığını təcrübədə sübuta yetirdi. Onun təşəbbüsü və rəhbərliyi ilə respublikada heyvandarlığı inkişaf etdirmək üçün konkret tədbirlər

müəyyənləşdirildi. 1970-ci ilin dekabr ayında keçirilən plenumda heyvandarlığın vəziyyəti ətraflı müzakirə edildi. Heydər Əliyevin məruzəsində respublikada heyvandarlığın inkişafı üçün bütün imkanların olduğu əsaslandırılırdı. 1970-ci ildə Azərbaycan heyvandarları da sözlərinə əməl etdilər. Onlar 1970-ci il noyabrın 1-dək ət, süd və yun, dekabrın 16-dək isə yumurta tədarükünə dair illik planı yerinə yetirdilər.

Heydər Əliyev respublikaya rəhbər seçildikdən sonra Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin inkişaf etdirilməsinə də xüsusi fikir verirdi. O vaxta qədər Xəzər dənizinin 40 metr dərinliyinə qədər sahələrdə, demək olar ki, bütün neft-qaz yataqları kəşf olunaraq istismar edilirdi. Heydər Əliyev təşəbbüs irəli sürdü və 12 il ərzində Azərbaycana əvvəlcə dənizin 70 metr, sonra isə 200 metrədək dərinliyində işləyən 12 qurğu gətirildi. 1970-1980-ci illərdə Azərbaycana "Şelf-2", "Şelf-3", "Şelf-4", "Şelf-5" qazma qurğuları gətirildi. "Dədə Qorqud" və "İstiqlal" qurğuları düzəldildi. Qurğuların işini təşkil etmək üçün "Süleyman Vəzirov", "İsrafil Hüseynov" boruçəkən gəmiləri, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran, gəmisi, geofiziki kəşfiyyat işləri aparan və başqa texniki gəmilər gətirildi. Ümumiyyətlə, o illərdə Xəzərdə 400-dən çox gəmi fəaliyyət göstərirdi. Açılan neft yataqlarında platformalar yaratmaq üçün Bakı Dərin Dəniz Özülləri Zavodu tikildi.

Respublika rəhbərinin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də əhalinin mənzil şəraitinin yaxşılaşdırılması idi. 14 ildə respublika əhalisinə 376,1 min yeni tikilmiş mənzil verilmişdi. Bu, Azərbaycanın hər üç sakinindən birinin məhz həmin dövrdə təzə mənzillə təmin edilməsinə imkan yaratmışdı. Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdı. Müasir Azərbaycan dövlətinin inkişafı məhz həmin illərdə yaradılan bünövrə üzərində qurulmuşdu.

Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etsə də, de-fakto bu istəyini reallaşdıra bilməmiş, hakimiyyətdə olan naşı və səriştəsiz qüvvələr ictimai-iqtisadi formasiya dəyişkənliyinin doğurduğu ağır problemlərin öhdəsindən gələ bilməmişdilər. Nəticədə ölkədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Xüsusilə də 1992-ci ilin mayında hakimiyyəti ələ keçirən AXC-Müsavat rəhbərliyinin siyasi səriştəsizliyi, qətiyyətsizliyi Azərbaycan dövlətçiliyinə ciddi təhlükəyə çevrilən neqativ meyillərin baş qaldırmasına - siyasi mübarizədə qanunsuz silahlı birləşmələrdən istifadəyə, etnik separatizmə, vətəndaş itaətsizliyinə gətirib çıxarmışdı.

Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın təkidi ilə Bakıya qayıtması onun nə qədər qətiyyətli, prinsipial, heç bir təhlükədən çəkinməyən, xalqının taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqlədi. Xalq başa düşürdü ki, yaranmış ekstremal şəraitdə ölkədə ictimai-siyasi gərginliyi aradan qaldırmaq, qiyamı yatırmaq, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmək, dövlət təsisatlarının normal fəaliyyətini təmin etmək bacarığına malik yeganə, alternativsiz lider məhz Heydər Əliyevdir! Həmin dövrdə xalqın ulu öndərə olan böyük sevgi və inamını dolayısı ilə etiraf etmək məcburiyyətində qalan AXC-Müsavat cütlüyünün Heydər Əliyevi Bakıya dəvət etməsi də məhz bu reallıqla şərtlənirdi.

Ulu öndər müstəqilliyi kövrək, mövcudluğu isə real təhlükə qarşısında olan Azərbaycan dövlətini çoxlu sayda daxili və xarici qəsdlərdən qorudu. Bir sıra xarici dövlətlərin maliyyə dəstəyi, diktəsi, habelə planlaşdırması ilə hazırlanıb həyata keçirilən qəsdlərin qarşısı qətiyyətlə alındı. Bu qəsdlərdə "hakimiyyət xəstəliyi"nə tutulmuş, şəxsi ambisiyaları xalqa məhəbbət hissindən müqayisəedilməz dərəcədə böyük olan, xalqın maraqlarını düşünmədən şəxsi mənafeyinə qurban verməyə hazır olan Azərbaycanın bəzi vətəndaşları ilə yanaşı, xarici ölkələrin vətəndaşları, habelə diplomatik toxunulmazlıq hüququ ilə respublikamızda çalışan bəzi xarici ölkələrin vətəndaşları da həlledici rol oynayırdılar. Heydər Əliyevi fiziki cəhətdən məhv etmək məqsədilə hazırlanmış qəsdlər də nəticəsiz qaldı. Azərbaycan əleyhinə çirkin məqsəd birliyinə malik olan belə qüvvələr yüksək dövlət vəzifələri tutan insanları öldürməkdən, kütləvi qırğına səbəb olan müxtəlif partlayış və terror hadisələri törətməkdən də çəkinmədilər. Azərbaycan dövləti əleyhinə hazırlanmış bütün qəsdlərin qarşısı Heydər Əliyevin və xalqın birgə səyi ilə alındı. Qəsdləri hazırlayan və bu istiqamətdə böyük maliyyə vəsaiti xərcləyənlər Heydər Əliyev və xalq birliyinin hansı gücə malik olduğunu nəzərdən qaçırmışdılar. Hadisələrin sonrakı gedişatında bu gücün nəyə qadir olduğunu tarix dönə-dönə təsdiqlədi.

Böyük siyasi liderlər üçün səciyyəvi cəhətlərdən biri də onların tarixi milli irs və ənənə əsasında dövlətin və xalqın bugünkü və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmələri, sabit və tarazlı iqtisadi tərəqqi üçün zəmin hazırlamalarıdır. Bu mənada 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyevin qarşısında ölkəni siyasi və iqtisadi tənəzzüldən, hərc-mərclikdən, müstəqilliyin itirilməsi təhlükəsindən çıxarmaq, sabit və tarazlı milli inkişaf strategiyasının konseptual istiqamətlərini müəyyənləşdirmək, bütün sahələrdə modernləşməni həyata keçirmək kimi taleyüklü vəzifələr dayanırdı. Şübhəsiz ki, sovet ideologiyasının zehinlərdəki və sosial gerçəklikdəki yaşantılarını aradan qaldırmaq, sürətlə yeni ictimai-iqtisadi münasibətlər sisteminə keçmək, cəmiyyət həyatının müxtəlif sahələrində demokratikləşməyə nail olmaq, yeni mərhələnin tələblərinə uyğun mükəmməl hüquqi baza formalaşdırmaq, qanunun aliliyini bütün səviyyələrdə təmin etmək ardıcıl və davamlı səylər göstərilməsini tələb edirdi. Ulu öndər müdrik siyasi addımları ilə ilk gündən sübuta yetirdi ki, demokratiya heç də hüdudsuz azadlıq deyil, qanunların aliliyinə söykənən siyasi mədəniyyətdir.

Onun müəyyən qanunauyğunluqlarından kənara çıxdıqda demokratiya insanların, dövlətin inkişafına deyil, demokratik idealların, prinsiplərin buxovlanmasına, məhvinə gətirib çıxarır.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan verdi. Avropa Şurası, ATƏT, Avropa Birliyi kimi mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq təkcə hüquqi, siyasi deyil, ictimai həyatın digər sahələrində də kardinal dəyişikliklərə yol açmış, respublikamıza xarici sərmayə qoyuluşlarının həcmi artmış, iqtisadi modernləşmə və siyasi liberallaşma üçün əlverişli zəmin formalaşmışdır.

Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Konstitusiyada əksini tapmış müddəaların təxminən üçdə ikisinin birbaşa insan hüquq və azadlıqları ilə bağlı olması da ulu öndərin insan hüquqlarına necə böyük həssaslıqla yanaşmasının bariz təcəssümüdür.

Heydər Əliyevin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ümummilli lider Heydər Əliyevi böyük şəxsiyyət və insan kimi xarakterizə edən mühüm keyfiyyətlərdən biri də onun yürütdüyü siyasətin yüksək humanizm və insanpərvərlik prinsiplərinə əsaslanması olmuşdur. 1995-2003-cü illər ərzində Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3091 məhkuma şamil edilmişdir. Ulu öndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003-cü illərdə amnistiya haqqında 8 qanun qəbul etmiş, 31 mindən artıq məhkum azadlığa buraxılmış, yaxud cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılmışdır. Bu addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımaqla cəmiyyətə pak mənəvi dəyərlər, humanizm hissi aşılamış, ölkədə cinayətkarlığın dinamikasının azalmasını təmin etmişdir.

Son 13 ildə ölkədə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun zənginləşdirən dövlət başçısı cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gerçəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin əsasında xalqın milli-mənəvi, mədəni və elmi-intellektual potensialının gücləndirilməsi məqsədi ön planda dayanır. Dövlət başçısının müasir azərbaycanlı təfəkküründə vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mənəvi-əxlaqi dəyərləri, habelə Qərb və Avropa liberal ideyaları üzvi vəhdət təşkil edir. Prezident İlham Əliyev mədəni, elmi, habelə yaradıcılıq sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini iqtisadi-sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlayır. Bu, dünyanın ümumi həyatının rəhnidir və hər bir millətin gələcəyində, dövlətin qabaqcıl ölkələrlə eyni hüquqi səviyyədə yaşayıb inkişaf etməsində mühüm amildir.

Son illər bütün sahələrdə əldə edilən nailiyyətlər Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir. Bir zamanlar əlçatmaz olan, xəyal kimi görünən iri layihələrin real həyata vəsiqə alması, şəhərlərimizin, rayonlarımızın, kəndlərimizin sürətlə abadlaşaraq göz oxşaması, insanların yaşayış səviyyəsinin ildən-ilə yaxşılaşdırılması çoxlarımız üçün adiləşib. Geridə qalan illər tarix baxımından böyük olmasa da, xaosdan sabitliyə, tərəqqidən sürətli inkişafa keçid mərhələlərini özündə ehtiva edir.

Azərbaycan.-2016.-11 dekabr-№ 275.-S.1, 6.

25 illik müstəqillik dövrünə baxış və xarici siyasətimizin çağdaş prioritetləri

Elmar MƏMMƏDYAROV,
Azərbaycan Respublikasının xarici işlər naziri

Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edən Azərbaycan Respublikası ötən illərdə bütün sahələrdə olduğu kimi, xarici siyasət sahəsində də böyük uğurlar əldə edib. Regionun lider dövlətinə çevrilmiş Azərbaycan bu gün dünyada söz sahiblərindən biridir. Bu uğurlar əsasını ulu öndər Heydər Əliyevin qoyduğu, hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən uzaqgörən xarici siyasət strategiyası sayəsində qazanılıb.

AZƏRTAC müstəqilliyimizin möhkəmləndirilməsində və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasında xarici siyasət strategiyasının həlledici roluna dair Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun qeydlərini təqdim edir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 oktyabr tarixli Sərəncamı müstəqillik dövründə keçdiyimiz yolun aydın və əhatəli icmalını təqdim edərək, xüsusilə uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimizin möhkəmlənməsi, iqtisadiyyatımızın inkişaf etməsi, mədəniyyətimizin zənginləşməsi və müstəqil Azərbaycan Respublikasının bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyi olmasını vurğulayır.

Müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi daxili və xarici təhdidlər, xalqımızın illər boyu həsrətində olduğu müstəqilliyi itirmək təhlükəsi bir daha sübut etdi ki, müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək onu əldə etmək qədər çətindir.

1990-cı illərin əvvəllərinə aid dünya siyasi ədəbiyyatını və mediasını vərəqləyən zaman Azərbaycan haqqında çox bədbin proqnozların şahidi oluruq. Azərbaycan tənəzzülə uğrayan və ya dövlətçiliyini itirmək astanasında olan ölkə kimi xarakterizə olunurdu. Təəssüf ki, bu bədbinlik üçün real əsas da var idi. Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazimizin 20 faizinin işğalı, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köşkün vəziyyətinə düşməsi və ölkəmizin üzləşdiyi humanitar fəlakət, siyasi hakimiyyətin yarıtmazlığı ucbatından daxili və xarici siyasətin iflası və ölkəmizin vətəndaş müharibəsi astanasında olması müstəqilliyimizin ilk iki ilinin acı reallıqları idi. Hazırda bəzi Yaxın Şərq ölkələrini bürüyən fəlakət o dövrdə Azərbaycandan heç də uzaq deyildi.

Dünya dövlətlərinin tarixi, o cümlədən diplomatiya və hərb tarixi göstərir ki, sınaq dövrü olan xüsusi keşməkeşli məqamlarda xalqların və dövlətlərin həyatında şəxsiyyətlərin rolu danılmazdır. Azərbaycan xalqı öz müdrikliyini bir daha ortaya qoydu və qəti siyasi iradə nümayiş etdirərək belə bir həyati əhəmiyyətli vaxtda israrla Heydər Əliyevin hakimiyyətə qayıdışını tələb etdi. Qısa zaman kəsiyində Heydər Əliyev şəxsiyyəti tarixin axarını dəyişdi və bədbin proqnozların əksini sübut etdi. Heydər Əliyev ölkənin daxili və xarici siyasət kursu ətrafında milli həmrəyliyi təmin etdi, daxili siyasi və təhlükəsizlik vəziyyətini sabitləşdirdi, nizami ordu yaratdı, cəbhədə vəziyyəti dəyişdirdi, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirdi və Ermənistan atəşkəsə vadar edildi, demokratik islahatlar proqramına təkan verildi.

Ulu öndər Heydər Əliyev dövrün çağırışlarına cavab verən, ölkəmizi əhatə edən geosiyasi reallığı nəzərə alan və xalqımızın zəngin dövlətçilik tarixindən nəticə çıxaran xarici siyasət strategiyasını müəyyən etdi. Bu strategiya aşağıdakı amilləri nəzərə alaraq müəyyən olundu:

- Ölkəmizin təbii-coğrafi şəraiti, geosiyasi amillər və yerləşdiyimiz ərazinin geostrateji əhəmiyyəti;
- Tarixi reallıq və ondan çıxarılan nəticələr;
- Tarazlaşdırılmış və çoxqütblü xarici siyasət zərurəti;
- Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazimizin 20 faizinin işğalı;
- Erməni lobbi dairələrinin ölkəmizə qarşı apardığı düşmənçilik və qarayaxma siyasəti;
- Ölkəmizin zəngin enerji resurslarına və nəqliyyat imkanlarına malik olması;
- Azərbaycanın insan resursları və iqtisadi potensialı;
- Xalqımızın zəngin tarixi, mədəniyyəti və multikultural ənənələri.

Tarixən milli dövlətçiliyimizin itirilməsinə və Azərbaycanın böyük güclərin döyüş və siyasi rəqabət meydanına çevrilməsinə səbəb olan geosiyasət və neft amili Heydər Əliyevin müəyyən etdiyi çoxqütblü və tarazlaşdırılmış xarici siyasət strategiyası əsasında müstəqilliyimizi və dövlətçiliyimizi möhkəmləndirən ciddi amilə çevrildi. İlk növbədə, Azərbaycan xalqının mənafeyi əsasında müəyyən olunan və milli maraqlardan qaynaqlanan yeni xarici siyasət strategiyası diplomatiyanın təməl prinsiplərinə xas şəkildə ölkəmiz ətrafında xoş mühitin formalaşmasına, ölkədaxili siyasi-iqtisadi və sosial məsələlərin həlli üçün xarici təsirlərin neqativ yükünü neytrallaşdırmağa, qonşu dövlətlərlə münasibətlərin normallaşmasına, xarici siyasətin coğrafiyasının genişlənməsinə və "Əsrin müqaviləsi"nin timsalında uğurlu enerji siyasətinin həyata keçirilməsinə şərait yaratdı.

Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda dərin məzmunlu və əhatəli çıxışı zamanı həmin dövrü xarakterizə edərək dedi: "Xarici siyasət prioritetləri məhz o illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi öz inkişafına başladı. Yəni, məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atılmışdır. Bu gün tarix göstərir ki, bu, yeganə düzgün yol idi".

Yeni xarici siyasət strategiyasının həyata keçirilməsi məqsədilə Heydər Əliyev tərəfindən Xarici İşlər Nazirliyinin yenidən təsisatlanması, onun strukturunun və peşəkar diplomatik korpusun yaradılması üçün qarşıya vəzifə və tapşırıqlar qoyuldu. Ümummilli lider Heydər Əliyevin bütün sahələrdə milli kadrların yetişdirilməsi üzrə həyata keçirdiyi siyasət və hələ keçən əsrin 70-ci illərindən gənc kadrlara SSRİ-nin ən aparıcı ali təhsil müəssisələrində təhsil almaları üçün yaratdığı şərait bir neçə onillikdən sonra diplomatiya sahəsində də öz nəticələrini verdi. Bilikli, savadlı, xarici dilləri mükəmməl bilən, xalqına və dövlətinə sadiq olan gənclərin ali təhsil müəssisələrindən seçilməsi və Xarici İşlər Nazirliyinə işə cəlb edilməsi milli diplomatik korpusun formalaşdırılması prosesinə təkan verdi.

Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün Xarici İşlər Nazirliyi sistemində dövlətimizin başçısının xarici siyasət sahəsində əmr və tapşırıqlarını layiqincə yerinə yetirməyə qadir olan, müasir diplomatiyanın incəliklərini dərk edən, regionlar və ölkələr üzrə ixtisaslaşan, çoxtərəfli diplomatiyanın mürəkkəbliyinə və beynəlxalq hüquqi məsələlərə yaxından bələd olan, hətta nadir dilləri bilən, dövlətinə və millətinə sadiq əməkdaşlar çalışır.

2003-cü ildə Azərbaycan xalqı yenə də öz müdrikliyini nümayiş etdirərək Heydər Əliyev irsinin davam etdirilməsi üçün qəti siyasi iradəsini ortaya qoydu. Ulu Öndərin irsinin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurlu daxili və xarici siyasəti bu gün də davam etdirilir. Dövlətimizin başçısının yürütdüyü mahir xarici siyasət nəticəsində beynəlxalq münasibətlərin tamhüquqlu subyekti kimi ölkəmizin beynəlxalq səviyyədə mövqeyi möhkəmlənir və nüfuzu artır, qlobal və regional proseslərə müsbət təsir imkanları güclənir, milli maraqlarımız qorunur və həyata keçirilir. Diplomatik kuluarlarda deyildiyi kimi, bütün dövlətlər Xarici İşlər Nazirliyi kimi formal struktura malik olsalar da, heç də hər bir dövlət xarici siyasət aparmağa qadir deyil. Bütün beynəlxalq ictimaiyyətin etiraf etdiyi kimi, Azərbaycan bu gün, sözün əsl mənasında, öz milli maraqları əsasında müstəqil xarici siyasət yürüdən ölkədir. Təbii ki, xarici siyasət sahəsində əminliyimiz və müstəqilliyimiz uğurlu daxili siyasətimizdən qaynaqlanır.

Ərazisinin bir hissəsinin işğal olunmasına baxmayaraq, ölkəmiz inkişaf edir. Azərbaycan 2004-2014-cü illərdə dünyada ən yüksək iqtisadi artım göstəricilərinə malik oldu, yoxsulluğu kəskin şəkildə - 50 faizdən təqribən 5 faizə endirə bildi. İşsizliyin səviyyəsi də 5 faiz civarındadır. Təhsilə əsaslı sərmayələr qoyulur. Azərbaycanda savadlılığın səviyyəsi 100 faizə yaxındır. Son illər ərzində 3 mindən artıq yeni məktəb tikildi və ya bərpa edildi. Ölkə ərazisində 500-dən çox xəstəxana inşa olundu. Bu isə uşaq ölümlərinin kəskin şəkildə azaldılmasına yardım etdi.

Azərbaycanda gender bərabərliyi tam olaraq təmin edilir. Hökumət ətraf mühitin qorunmasına əsaslı sərmayə yatırır.

Azərbaycan insan inkişafı indeksində öz yerini ciddi şəkildə yaxşılaşdıraraq, 2004-cü ildə 187 ölkə arasında 91-ci yerdən 2015-ci ildə 78-ci yerə və orta insan inkişafı qrupundan yüksək insan inkişafı qrupuna yüksəlməyə nail olub.

Hətta neftin qiymətinin kəskin ucuzlaşması və neft istehsalçısı olan ölkələrin üzləşdikləri iqtisadi böhran Azərbaycan iqtisadiyyatına ciddi təsir göstərmədi.

Azərbaycan enerji resursları ilə zəngin ölkə kimi tanınır. Ancaq bizim əsas məqsədimiz "qara qızıl"ın, yəni, neftin insan kapitalına çevrilməsidir. Bu səbəbdən, təhsil sahəsinə sərmayələrin qoyuluşu, sosial müdafiənin gücləndirilməsi və islahatlar elə bir vəziyyət yaradıb ki, iqtisadiyyatımız şaxələndirilib və neftdən asılılıq azalmaqdadır.

Ölkədaxili inkişaf və əminlik zəminində xarici siyasətimiz tarazlaşdırılmış və çoxqütblü fundamental əsaslarla həyata keçirilir. Dövlətimizin başçısı tərəfindən dəfələrlə qeyd olunduğu kimi, Azərbaycanın müstəqil və şəffaf xarici siyasət kursu var. Eyni zamanda, Azərbaycan öz xarici siyasətində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini əsas götürərək bərabərhüquqluluq, daxili işlərə qarışmamaq, qarşılıqlı faydalı əməkdaşlıq, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət prinsiplərini rəhbər tutur.

Ölkəmizin inkişaf dinamikasına və müstəqilliyinin yeni mərhələsinə, dövrün və beynəlxalq münasibətlərin dəyişən tələblərinə uyğun olaraq Heydər Əliyev strategiyasının təməl prinsipləri əsasında xarici siyasətimizin gündəliyində duran prioritetlər də yeniləşir.

Dövlətimizin başçısı tərəfindən yürüdülən uğurlu xarici siyasət gündəliyində bu gün aşağıdakı prioritetlər durur:

Azərbaycanın müstəqilliyinin, suverenliyinin qorunması və möhkəmləndirilməsi

Təəssüflər olsun ki, əsası Vestfaliya sistemindən irəli gələn dövlətlərin suverenlik prinsipi anarxiya xarakteri daşıyan müasir beynəlxalq münasibətlərdə davamlı pozulma və kənar müdaxilələr obyekti olmaqdadır. Bəzi dövlətlər qanunsuz şəkildə özlərini bərabərhüquqlu dövlətlər içərisində "daha üstün" hesab etməyə çalışaraq digər dövlətlərin daxili işlərinə qarışmağı özlərinin "vəzifəsi" hesab edirlər. Nəticə etibarilə, bəzi ənənəvi dövlətlərin gələcək taleyini, suverenliyi və vahidliyini ciddi şəkildə təhdid edən proseslər cərəyan edir, onlar beynəlxalq hüququn subyektindən onun obyektinə çevrilir və yeni münaqişə ocaqları yaranır. Azərbaycan xalqı bugünkü müstəqilliyi bərpa etmək üçün çoxsaylı qurbanlar verib və xalqımız illər boyu bu müstəqilliyin intizarında olub. Ona görə də Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi və onun gələcək nəsillərə ərməğan edilməsi qarşımızda duran əsas vəzifələrdən biridir. Biz suveren bərabərlik prinsipindən çıxış edərək digər dövlətlərin suverenliyinə hörmətlə yanaşırıq, daxili işlərə qarışmırıq və özümüzə münasibətdə də bu cür yanaşmanı tələb edirik.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin və regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması

1993-cü ildə BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı qətnamələri qəbul edərək Azərbaycana qarşı gücdən istifadə edilməsini və onun torpaqlarının işğal olunmasını pisləyib. Bu qətnamələrdə Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətini bir daha ifadə edib və Dağlıq Qarabağ regionunun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq edərək, işğal olunmuş ərazilərdən bütün işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib.

Təhlükəsizlik Şurasının sədri tərəfindən 1992-1995-ci illər arasında qəbul edilmiş çoxsaylı bəyanatlarda da bu kimi ciddi məqamlar öz əksini tapıb. Çox təəssüf ki, Təhlükəsizlik Şurasının ilk növbədə işğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması kimi qəti tələbləri hələ də icra olunmayıb və ATƏT çərçivəsində 20 ildən artıq davam edən vasitəçilik səyləri hələ də nəticə verməyib.

Xoş niyyətlə danışıqlar aparmaq əvəzinə, Ermənistan münaqişənin sülh yolu ilə həllinə yönəlik bütün cəhdləri açıq şəkildə pozur. BMT Təhlükəsizlik Şurasının tələblərinə tamamilə məhəl qoymayan və beynəlxalq hüququ kobud şəkildə pozan Ermənistan öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmaqdan imtina edir, zor gücünə məcburi köçkünə çevrilmiş yüz minlərlə azərbaycanlının öz doğma yurd-yuvalarına geri qayıtmasının qarşısını alır və işğal olunmuş ərazilərin fiziki, demoqrafik və mədəni xarakterini dəyişdirməklə mövcud status-kvonu daha da gücləndirməyə çalışır. Bu narahatlıq doğuran faktlar ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən bir daha təsdiq edilib.

Bundan başqa, Ermənistan diqqəti sülh prosesinin əsas və substantiv məsələlərindən atəşkəsin texniki aspektlərinə yönəltməklə diqqəti yayındırmağa çalışaraq vaxtaşırı hərbi təxribatlar törədir. Ən son olaraq bu il aprel ayının əvvəlində Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı genişmiqyaslı hücumlar həyata keçirdi. Əhalinin sıx məskunlaşdığı Azərbaycan əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerləri ağır artilleriya və iriçaplı silahlardan intensiv atəşə tutuldu. Ermənistanın məsuliyyətsiz hücumları nəticəsində uşaqlar, qadınlar və qocalar da daxil olmaqla, çoxsaylı azərbaycanlı mülki şəxslər həlak oldu və ciddi yaralandı. Vaxtında səmərəli mülki müdafiə tədbirləri görülməsəydi, əhali arasında itkilərin sayı daha çox ola bilərdi. Ermənistan həlak olmuş Azərbaycan əsgərlərinin cənazələrini eybəcər hala salıb.

Bu hücumlar zamanı Azərbaycanın 34 şəhər və kəndi ağır dağıntılara məruz qalıb. Mülki əhəmiyyətli infrastruktur da daxil olmaqla özəl və ictimai mülkiyyət xeyli dərəcədə ziyan çəkib. Yüzlərlə mülki təyinatlı bina, xüsusilə, yaşayış evləri, məktəblər, uşaq bağçaları, mədəni mərkəzlər və digər mülki obyektlər dağıdılıb.

Azərbaycan aprel döyüşlərindən sonra danışıqların substantiv əsaslarla davam etdirilməsinin tərəfdarı olduğunu açıq şəkildə bildirib. Substantiv danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin dövlət başçıları səviyyəsində qəbuledilməz və qeyri-davamlı hesab etdikləri status-kvonun dəyişdirilməsi və Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəticələnməlidir. Lakin Ermənistan yenə də təxribatçı əməlləri ilə danışıqlar prosesini pozmağa çalışır. Aprel hadisələri bir daha göstərdi ki, Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərində mövcudluğu gərginliyin yaranmasının əsas səbəbidir.

Ermənistanın işğalçı siyasəti heç zaman uğurla nəticələnə bilməz. Dağlıq Qarabağ regionu Azərbaycanın ayrılmaz hissəsi olub, hissəsidir və həmişə də belə olacaq. Möhkəm və davamlı həllə nail olmağın və iki qonşu dövlət arasında sivil münasibətlər qurmağın yeganə yolu Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi və qaçqın və məcburi köçkünlərin ayrılmaz hüquqlarına riayət edərək onların öz doğma yurdlarına qayıtmasının təmin olunmasıdır. Beynəlxalq hüquq və Təhlükəsizlik Şurasının müvafiq qətnamələri də elə bunları tələb edir.

Ermənistan bu reallığı nə qədər tez dərk etsə və silahlı qüvvələrini işğal olunmuş Azərbaycan ərazilərindən çıxarsa, münaqişə bir o qədər tez həll ediləcək, habelə Ermənistan və onun əhalisi əməkdaşlığın perspektivləri, eləcə də iqtisadi inkişafdan faydalanacaq.

Heç şübhə etmirik ki, bir gün Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları əmin-amanlıq şəraitində və ləyaqətli şəkildə Azərbaycanın bu regionunda yenə birgə yaşayacaqlar. Ona görə də Dağlıq Qarabağın hər iki icması arasında sülh, razılaşma və birgə yaşama istiqamətində səylərin davam etdirilməsi həyati əhəmiyyət kəsb edir. Biz xüsusi diqqət ayrılmalı olan bu məsələləri bütöv barışıq prosesinin vacib aspektləri kimi nəzərdən keçiririk.

Münaqişənin ədalətli və beynəlxalq hüquqa uyğun həlli məqsədilə Azərbaycan bütün imkanlardan və beynəlxalq platformalardan davamlı şəkildə istifadə edəcək. Azərbaycanın beynəlxalq səviyyədə apardığı siyasətin nəticəsidir ki, NATO-nun bu il iyulun 8-9-da Varşavada keçirilmiş Zirvə toplantısında üzv dövlətlər tərəfindən dövlət və hökumət başçıları səviyyəsində qəbul edilmiş Yekun Kommunikenin 24-cü paraqrafında NATO-ya üzv dövlətlər Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyini dəstəkləməyə sadiq olduqlarını bir daha vurğuladılar, Cənubi Qafqazda mövcud olan münaqişələrin məhz beynəlxalq hüququn bu prinsipləri və normaları, BMT Nizamnaməsi və Helsinki Yekun Aktı əsasında həllini dəstəklədiklərini ifadə etdilər. Əvvəlki Zirvə toplantılarında da üzv dövlətlər tərəfindən eyni mövqe ifadə olunmuşdu.

Dövlətimizin başçısının iştirakı ilə 2016-cı il aprelin 10-15-də İstanbul şəhərində keçirilmiş İslam Sammiti Konfransının 13-cü sessiyası ölkəmizin maraqlarına cavab verən bir sıra qərarların qəbul edilməsi ilə yadda qaldı.

Tədbirin Yekun Kommunikesində Ermənistanın ölkəmizə qarşı təcavüzü, cari il aprel ayının əvvəlində işğalçı ölkə tərəfindən gərginliyin qəsdən artırılması, habelə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair İƏT Kontakt Qrupunun yaradılması haqqında təfərrüatlı bəndlər yer aldı. Bu ilin sentyabrında BMT Baş Assambleyasının 71-ci sessiyası çərçivəsində Kontakt Qrupunun İƏT baş katibinin sədrliyi ilə ilk iclası keçirildi.

Qoşulmama Hərəkatına üzv ölkələrin bu il sentyabrın 13-18-də Venesuela Bolivar Respublikasının Marqarita adasında keçirilmiş XVII Sammitinin Yekun sənədində isə dövlət və hökumət başçıları BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə (822, 853, 874, 884) baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin hələ də həll olunmaması, beynəlxalq və regional sülh və təhlükəsizliyi təhdid altında qoymaqda davam etməsi ilə bağlı təəssüfünü ifadə etdilər və münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınmış sərhədləri əsasında həll etməyə çağırdılar.

Ermənistanın təcavüzkar siyasəti və onun nəticələri haqqında aparılan beynəlxalq maarifləndirmə tədbirləri çərçivəsində Xocalı soyqırımının beynəlxalq müstəvidə tanınması istiqamətində fəal işlər davam etdirilir. 2015-ci ildə Xocalı soyqırımı ilə bağlı İƏT Nazirlər Şurası xüsusi qətnamə qəbul etdi və Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması üçün üzv ölkələri lazımi səylər göstərməyə çağırdı. Bununla yanaşı, Qvatemala Konqresində, həmçinin ABŞ-ın Pensilvaniya ştatının Nümayəndələr Palatasında və Arizona ştatının Senatında Xocalı soyqırımına dair qətnamələr qəbul edilib. ABŞ-ın Konnektikut ştatının Nümayəndələr Palatası Xocalı soyqırımı ilə bağlı bəyanat qəbul edib, Corciya və Yuta ştatlarının qubernatorları isə Xocalı soyqırımının ildönümü ilə əlaqədar bəyanatla çıxış ediblər. Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar Prezident İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyası bundan sonra da qəti və prinsipial şəkildə davam etdiriləcək.

Beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, xaricdən Azərbaycanın təhlükəsizliyinə olan hədə və təhdidlərin müəyyən edilməsi və onların qarşısının alınması

2015-ci ildən sonrakı dövr üçün İnkişaf Gündəliyinin qəbul olunmasına dair BMT Sammitinin yekun sənədində dövlətlərin beynəlxalq hüquqla təsbit olunmuş hüquq və vəzifələri xatırladılaraq və ölkəmizin ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət edilməsinin vacibliyi bir daha təsdiq edilərək bildirildi ki, sülh olmadan davamlı inkişaf yoxdur və davamlı inkişaf olmadan sülh yoxdur.

Dünya hələ də beynəlxalq hüququn fundamental norma və prinsiplərinin pozulması ilə üzləşir. Terror təhlükəsi yeni forma və təzahür alır. Özünü dövlətə bənzər qurum kimi təqdim edən terrorçu qruplar qarşısında beynəlxalq təhlükəsizlik sistemi acizlik göstərir. Multikulturalizmin alternativi olan ksenofobiya, ifrat millətçilik, irqi ayrı-seçkilik, islamofobiya meyilləri güclənir. Beynəlxalq sülh və təhlükəsizliyə məsul olan təsisatlar üzərlərinə düşən öhdəliklərini effektiv şəkildə yerinə yetirmir. Transmilli hədə və təhdidlərlə bərabər, güc tətbiq edərək dövlətlərin ərazi bütövlüyü və suverenliyinin pozulması ilə müşayiət olunan və beynəlxalq münasibətləri sarsıdan ənənəvi təhlükələr də tüğyan etməkdədir. “Soyuq müharibə” dövrünə xas olan hərbi bloklaşma siyasəti davam edir, yeni ayırıcı xətlər çəkilir və “dəmir pərdə”lər asılır. Qlobal maliyyə-iqtisadi böhran dərinləşir və onun qarşısını almaq üçün yeni tənzimləyici mexanizmlər formalaşdırılmır. Dünya neft bazarı və qlobal ticarət siyasi konyunkturanın və manipulyasiyanın qurbanına çevrilir.

Belə bir şəraitdə Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi üçün çoxqütblü, beynəlxalq hüququn norma və prinsiplərinə və qanunun aliliyinə əsaslanan beynəlxalq münasibətlər sisteminin qurulması naminə səy göstərir.

Azərbaycan, həmçinin nizamnamə əsaslı beynəlxalq siyasi-iqtisadi təsisatların rolunun gücləndirilməsi və effektivliyinin artırılması, xüsusilə BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının islahı, Şuranın mandatı

əsasında sülhməramlı əməliyyatlarda iştirak, qlobal səviyyədə sivilizasiyalar və mədəniyyətlərarası dialoqun təşviq edilməsi, davamlı inkişaf məqsədlərinin icrasına töhfə verilməsi, qabaqcıl təcrübə mübadiləsi və humanitar yardımlar vasitəsilə beynəlxalq sistemin möhkəmlənməsinə öz dəstəyini verir.

İkitərəfli əlaqələrin inkişaf etdirilməsi

Dövlətlərarası münasibətlərin əsasını suveren dövlətlər arasındakı münasibətlər təşkil edir. Heç də təsadüfi deyil ki, dövlətimizin başçısı tərəfindən Azərbaycanın dünya ölkələri ilə ikitərəfli əlaqələrinin inkişaf etdirilməsi xarici siyasətimiz qarşısında prioritet vəzifə kimi qoyulub. Azərbaycanın 2012-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi ölkəmizin dünya ölkələri ilə uğurlu ikitərəfli əlaqələrə malik olmasının göstəricisidir. İkitərəfli əlaqələrin inkişaf etdirilməsində qonşu dövlətlərlə hərtərəfli əməkdaşlıq prioritet istiqamətlərdən biridir. Ermənistan istisna olmaqla, bu gün bütün qonşu dövlətlərlə Azərbaycanın ikitərəfli siyasi, iqtisadi, humanitar və digər əlaqələri ardıcıl surətdə inkişaf edir. Qonşu dövlətlərlə ikitərəfli əməkdaşlığımız regional əməkdaşlıq mexanizmi olaraq üçtərəfli formatlarda da davam etdirilir.

Mərkəzi Asiya, MDB ölkələri, ərəb-İslam dünyası, Cənub-Şərqi Avropa və Avropa İttifaqına üzv dövlətlər, Asiya ölkələri, Şimali və Cənubi Amerika və Afrika qitəsi ölkələri ilə əlaqələrimiz qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında inkişaf edir. Bu xüsusda, MDB və İƏT-ə üzvlüyümüz, Avropa İttifaqı ilə institusional əlaqələr, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı, Amerika Dövlətləri Təşkilatı yanında müşahidəçi statusumuz, "Asiyanın ürəyi - İstanbul prosesi"ndə fəal iştirakımız, Şanxay Əməkdaşlıq Təşkilatının Dialoq Tərəfdaşı statusumuz üzv dövlətlərlə ikitərəfli əməkdaşlığımızın inkişafı üçün əlverişli zəmin yaradır. Ümid edirik ki, Avropa İttifaqına təklif edilmiş strateji tərəfdaşlığa dair Saziş əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına imkan yaradacaq.

İkitərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə diplomatik təmsilçiliyimizin coğrafiyası genişlənir. Son olaraq Azərbaycan Respublikasının Livan Respublikasında, Əlcəzair Xalq Demokratik Respublikasında səfirliyi və İraq Respublikasında diplomatik nümayəndəliyi fəaliyyətə başlayıb. Hazırda dünya boyunca Azərbaycanın 80-dən artıq diplomatik nümayəndəliyi mövcuddur.

Çoxtərəfli diplomatiyanın inkişaf etdirilməsi

Çoxtərəfli diplomatiyanın inkişaf etdirilməsi prosesində Azərbaycan universal beynəlxalq təşkilat kimi BMT və onun ixtisaslaşmış təsisatları ilə əməkdaşlığa, BMT-nin ali orqanları olan Təhlükəsizlik Şurası və Baş Assambleyanın dövrün islah edilməsi və effektivliyinin artırılmasına xüsusi önəm verir. Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması, dövlətlər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi və beynəlxalq əməkdaşlığa nail olunması kimi nəcib məqsədlər naminə universal təşkilat kimi mühüm rol oynamaqdadır.

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə öz mühüm töhfəsini verdi. Azərbaycanın təşəbbüsü ilə ilk dəfə BMT Təhlükəsizlik Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında birgə iclas keçirildi.

Bu ilin iyun ayında Azərbaycan BMT Baş Assambleyasında keçirilmiş səsvermədə iştirak edən 184 üzv dövlətdən 176-nın səsini qazanmaqla 2017-2019-cu illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçildi. ECOSOC davamlı inkişafa dair peşəkar müzakirələr aparmaq üçün mərkəzi platforma olmaqla, bizə beynəlxalq inkişafa töhfə vermək üçün əlavə imkan yaradacaq.

BMT Baş Assambleyasından sonra 120 dövlətin iştirak etdiyi Qoşulmama Hərəkatı ən böyük beynəlxalq platformadır. 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu.

Qoşulmama Hərəkatı yarandığı tarixdən bəri beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsində əsaslı rol oynayır. Mövcud olduğu 50 ilə yaxın müddət ərzində Hərəkata üzv dövlətlər ortaq prinsip və dəyərləri qoruyub saxlayıb və qarşılıqlı əməkdaşlığa gətirib çıxaran fəaliyyət üçün ortaq zəmin yaratmaq bacarığı nümayiş etdirib.

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının bu il sentyabrın 13-18-də Venesuela Bolivar Respublikasının Marqarita adasında keçirilmiş XVII Sammitinin yekun sənədində 2019-cu ildə XVIII Zirvə toplantısının Azərbaycanda keçirilməsi barədə qərar qəbul olunub. 2019-cu ildə Bakıda keçiriləcək XIX Sammit həm də rəmzi xarakter daşıyacaq. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Sammitindən 30 il sonra Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi imkanı qazanacaq. 2019-2022-ci illər ərzində Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəcək.

Azərbaycan tamhüquqlu üzv olduğu regional beynəlxalq təşkilatlar çərçivəsində də fəallıq nümayiş etdirir və yeni əməkdaşlıq formalarının müəyyən edilməsi üçün təkliflərlə çıxış edir. Bu xüsusda, ATƏT, Avropa Şurası, İƏT, MDB, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, QDİƏT və başqaları qeyd oluna bilər.

İkitərəfli iqtisadi əlaqələrin inkişaf etdirilməsi, ölkəmizin enerji və nəqliyyat strategiyasının həyata keçirilməsi

Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi, ölkənin iqtisadi potensialının xaricdə təşviq olunması, qeyri-neft sektorunun şaxələndirilməsi, ixracın təşviqi və genişləndirilməsi, xarici sərmayələrin ölkəmizə cəlb edilməsi, tərəfdaş ölkələrə Azərbaycan sərmayələrinin yatırılmasının təşviqi, Azərbaycanın və xarici ölkələrin dövlət və işgüzar dairələrinin nümayəndələrinin səfərlərinin təşkili, iqtisadi əməkdaşlıq üzrə Azərbaycanın xarici dövlətlərlə birgə hökumətlərarası komissiya və işçi qruplarının iclaslarının keçirilməsi, ölkəmizdə istehsal olunan məhsul və xidmətlərin yeni bazarlara çıxarılması, eyni zamanda, xarici ölkələrdə tətbiq olunan müasir texnologiyaların ölkəmizə cəlb edilməsi ikitərəfli əməkdaşlıqda əsas istiqamətlərdir. Bu istiqamətdə Xarici İşlər Nazirliyi İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət qurumları ilə birlikdə Hökumətlərarası Birgə Komissiyaların iclaslarının keçirilməsi, biznes forumların təşkil edilməsi üçün iş aparır. İkitərəfli iqtisadi əlaqələrin inkişaf etdirilməsində turizm sahəsində əməkdaşlıq da mühüm yer tutur. Mədəniyyət və Turizm Nazirliyi və ölkəmizin diplomatik nümayəndəlikləri Azərbaycanın turizm imkanlarının tanıdılması üçün turizm baxımından cəlbedici ölkələrdə birgə iş aparırlar.

Regional və beynəlxalq tərəfdaşlar ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın təşəbbüskarı olduğu və həyata keçirdiyi enerji və nəqliyyat layihələri regional əməkdaşlığa töhfə verib. Biz fəal şəkildə Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin həyata keçirilməsində iştirak edirik. Transxəzər beynəlxalq marşrutunun yaradılması və tezliklə istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin tikintisi əhəmiyyətli layihələr sırasındadır. Çinin İpək Yolu İqtisadi Kəməri konsepsiyasının tam reallığa çevrilməsi sözügedən dəmir yolunu regionun ən vacib infrastrukturları sırasına qoşacaq.

Əminik ki, Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu layihəsinin erkən tamamlanması iqtisadi artıma yeni stimul verəcək, layihəyə cəlb olunan ölkələr, eləcə də bütün region üçün nəqliyyat imkanlarını genişləndirəcək.

Azərbaycan irimiqyaslı enerji layihəsinin – "Cənub Qaz Dəhlizi" layihəsinin təşəbbüskarıdır. Bu, enerji əməkdaşlığı və enerji təhlükəsizliyi layihəsidir. Bu enerji və nəqliyyat dəhlizləri yalnız enerji və yüklərin daşınması demək deyil. Bu, hərtərəfli əməkdaşlıq dəhlizləridir. "Cənub Qaz Dəhlizi" layihəsinin üzvləri Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Əminik ki, sonrakı mərhələdə Balkan ölkələri də layihəyə qoşulacaq.

"Cənub Qaz Dəhlizi"nin vacib komponentləri olan "Şahdəniz-2", TANAP və TAP layihələrinin icrası istiqamətində Azərbaycan tərəfdaşlarla birlikdə davamlı siyasətini davam etdirir.

Xəzər dənizinin sülh və əməkdaşlıq məkanı kimi inkişaf etdirilməsi

Danışıqlar prosesi çərçivəsində Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya layihəsinin müddəalarının razılaşdırılması ilə bağlı əhəmiyyətli işlər görülüb. Qəbul olunmuş siyasi qərarlar və Xəzəryanı dövlətlərin rəhbərlərinin sammitləri çərçivəsində əldə olunmuş razılaşmalar bütövlükdə Konvensiya layihəsinə dair gələcək danışıqların effektivliyinə kömək edir.

Xəzər dənizi Xəzər regionu ölkələrinin xalqlarının iqtisadi inkişafı və rifahına, həmçinin dünya enerji təhlükəsizliyinin təmin olunmasına yönələn bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir.

Beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi, enerji resurslarının əldə olunması və beynəlxalq bazarlara nəqli ilə bağlı investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz əlaqələrin yaradılması, yüksək gəlirli və ekoloji cəhətdən təmiz texnologiyanın cəlb olunması ilə bağlı məsələlər Xəzəryanı dövlətlərin vacib prioritetləri olaraq qalır.

Azərbaycan tərəfi əmindir ki, Xəzər dənizinin hüquqi statusu ilə bağlı bütün məsələlər Xəzəryanı dövlətlərin suveren hüquqlarına hörmət və qarşılıqlı faydalı tərəfdaşlıq ruhunda, həmçinin tərəflər arasında, xüsusən regional sabitlik, təhlükəsizlik və Xəzər hövzəsində iqtisadi və elmi-tədqiqat fəaliyyəti ilə bağlı məsələlərdə inam və etibarın möhkəmləndirilməsi yolu ilə həll olunmalıdır. Etimad tədbirlərinə, həmçinin bütün Xəzəryanı dövlətlər üçün bərabər təhlükəsizlik şəraitinin təmin olunması da daxil olmalıdır. Biz, həmçinin əminik ki, Xəzər dənizində sabitliyin möhkəmləndirilməsi bütün tərəflərin maraqlarının nəzərə alınmasına, eləcə də bir-birilərinin təhlükəsizliyinə zərər vurmaması, Xəzəryanı dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyinə hörmət göstərilməsi və bir-birilərinin daxili işlərinə qarışmamasına əsaslanmalıdır.

Biz Xəzərin ətraf mühitinin bugünkü vəziyyəti ilə bağlı Xəzəryanı dövlətlərin ümumi narahatlıqlarını bölüşürük və Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıyıq.

Sivilizasiyalararası dialoq və multikulturalizmin inkişafı

Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olub. Ölkəmiz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olub. "Multikulturalizm" sözü mövcud olmadığı bir zamanda belə həmin ideyalar daim yaşayıb.

Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq bu sərvəti qoruyub saxlayıb.

Bizim üçün multikulturalizm dövlət siyasətidir. Ölkəmizdə hər iki ildən bir Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilir. Mütəmadi olaraq Azərbaycan Bakı Beynəlxalq Humanitar Forumuna ev sahibliyi edir. Burada da əsas məqsəd müxtəlif dinlərin nümayəndələrinin bir araya gətirilməsindən, aramızda daha mühüm qarşılıqlı anlaşmanın yaradılmasından ibarətdir.

Azərbaycan dinlərarası dialoq kimi vacib məsələyə həsr edilmiş Dünya Dini Liderlərinin Zirvə toplantısına ev sahibliyi edib. Bu mövzu bu gün dünyanın gündəliyində duran ən mühüm məsələlərdəndir və Sivilizasiyalar Alyansının rolu artmaqdadır.

2008-ci ildə biz "Bakı Prosesi"nin təşəbbüskarı olduq ki, bu da mədəniyyətlərarası dialoq üçün geniş bir platformaya çevrildi. Azərbaycan, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv olan yalnız bir neçə dövlətdən biridir. Beləliklə, 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakıda təşkil edilmiş toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərini dəvət etdik. Bu iki təşkilatı təmsil edən 100-dən çox nazir ilk dəfə Bakıda bir araya gəldi.

2009-cu ildə Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət nazirlərini bir arada topladı və Avropa dövlətlərinin mədəniyyət nazirlərini Bakıya dəvət etdik. Bu proses "Bakı Prosesi" adlandırıldı. Bu proses inkişaf edir və getdikcə daha çox dəstəklənir. O, qlobal təşəbbüsə çevrilir, həmrəylik, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqa öz töhfəsini verir.

2016-cı il Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkəmizdə "Multikulturalizm ili" elan edilib. Nəticədə milli və beynəlxalq səviyyədə multikulturalizmin bəşəri ideallarını qoruyub saxlamaq və yaymaq tədbirlərini nəzərdə tutan xüsusi Fəaliyyət Planı hazırlanıb.

2016-cı il aprelin 25-27-də Azərbaycan BMT Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış" mövzusuna həsr olunmuş 7-ci Qlobal Forumuna ev sahibliyi edib. Bu mühüm tədbirə dövlət və hökumət başçıları, nazirlər, dövlət rəsmiləri, media və beynəlxalq təşkilatların nümayəndələri də daxil olmaqla, 147 ölkədən 4 mindən çox iştirakçı qatılıb. Forumun mövzuları davamlı inkişaf üçün inklüziv cəmiyyətlərin əsas komponenti kimi təşviq edilməsinin də daxil olduğu Davamlı İnkişaf üzrə 2030 Gündəliyini özündə əks etdirib. Forumun əsas nəticəsi Bakı Bəyannaməsi oldu. Bu Bəyannamə ayrı-seçkilik, düşmənçilik və zorakılığa rəvac verən dini nifrətə istənilən dəstəyi kəskin şəkildə qınadı və üzv dövlətləri zorakı ekstremizmin bütün forma və təzahürlərinə qarşı birləşməyə çağırdı.

Bakı Bəyannaməsi dövlətlər və beynəlxalq təşkilatlar üçün beynəlxalq dialoq və multikulturalizmin zorakılıq, ekstremizm və ksenofobiyaya qarşı mübarizə vasitəsi kimi təşviqində əsas rəhbər prinsipə çevrilməkdədir.

Gələn ilin aprel ayında Azərbaycan "Bakı Prosesi" çərçivəsində 2011-ci ildən etibarən hər iki ildən bir keçirilən Beynəlxalq Mədəniyyətlərarası Dialoq üzrə 4-cü Dünya Forumuna ev sahibliyi edəcək. Roma Papası Fransiskin bu il oktyabrın 2-də Azərbaycana pastoral səfəri ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi töhfənin mühüm nümunəsi idi.

Mədəni, humanitar və idman diplomatiyasının davam etdirilməsi

Bakı şəhəri artıq dünya miqyasında siyasi, mədəni, idman və biznes təyinatlı mötəbər tədbirlərin keçirildiyi məkandır. Bir tərəfdən ölkəmizin və Bakı şəhərinin infrastrukturu, digər tərəfdən isə dövlətimizin xoşməramlı siyasəti bu kimi tədbirlərin keçirilməsi üçün mühüm zəmin yaradır. Birinci Avropa Oyunlarının ardınca "Formula-1" Avropa Qran-prisinin Bakıda keçirilməsi prosesini 2017-ci ildə ölkəmizin ev sahibliyi edəcəyi İslam Həmrəyliyi Oyunları tamamlayacaq.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və mədəni-humanitar əsaslarda Azərbaycanın tərəfdaşlığının genişləndirilməsi üçün mühüm işlər görülür.

Ölkə daxilində inkişaf hüququnun reallaşdırılması məqsədilə müvafiq tədbirlər görməklə yanaşı, respublikamız xüsusilə Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) vasitəsilə beynəlxalq inkişaf səylərində fəal rol oynayır. Yeni donor ölkə kimi Azərbaycan

inkişaf etməkdə olan ölkələrin üzləşdiyi humanitar və sosial-iqtisadi çağırışlara AIDA və digər kanallar vasitəsilə cavab verir.

Azərbaycan artıq dünyanın müxtəlif bölgələrində baş verən münaqişələr, silahlı qarşıdurmalar və təbii fəlakətlər nəticəsində kütləvi şəkildə yaşayış yerlərini dəyişməyə məcbur qalmış insanlara da yardım göstərir. Buna misal olaraq, İordaniyada məskunlaşmış suriyalı qaçqınlara, eləcə də Pakistanda daşqınlar nəticəsində ziyan dəymiş 25 min insana və Afrika ölkələrində "Ebola" epidemiyasından əziyyət çəkmiş əhaliyə ayrılan yardımı göstərmək olar.

BMT-nin İqtisadi və Sosial Şurasının yeni seçilmiş üzvü kimi Azərbaycan Şuraya üzvlüyü ərzində İnkişaf Hüququ Bəyannaməsinin reallaşdırılmasına kömək edəcək.

Xarici ölkələrdə yaşayan vətəndaşlarımızın və soydaşlarımızın, habelə hüquqi şəxslərin hüquqlarının müdafiəsi və bərpası və Azərbaycan diasporu ilə iş

Dövlətimizin uğurlu xarici siyasət kursunun həyata keçirilməsinin vacib istiqamətlərindən biri xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının müdafiəsi və onlara göstərilən konsul xidmətinin səmərəliliyinin və intensivliyinin artırılması, ümumilikdə isə bu istiqamətdə xarici dövlətlərlə diplomatik və konsulluq əlaqələrinin inkişafına təkan verilməsinə yönələn fəaliyyətdir. Məhz bu səbəbdən 2015-ci il ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, qarşılaşdıqları çətinliklərin həlli və bu məqsədlə xarici dövlətlərlə konsulluq sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində əsaslı tədbirlər görülüb.

Xaricdə yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsi, onların Azərbaycan Respublikasında olduqları müddət ərzində hüquqi vəziyyətlərini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi və soydaşlarımıza müvafiq imtiyazların tətbiq edilməsi imkanlarının araşdırılması istiqamətində fəaliyyət həyata keçirilir.

Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli Fərmanından irəli gələn tapşırıqların icrası məqsədilə Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və digər müvafiq dövlət qurumlarının mütəxəssisləri tərəfindən birgə iş aparılır. Yaxın vaxtlarda "ASAN Viza"nın tətbiqinə başlanılacaq.

Fərmanda qeyd olunduğu kimi, "ASAN Viza" Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza rəsmiləşdirilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılmasını ehtiva edir. Ölkə rəhbərliyinin həyata keçirdiyi mütərəqqi idarəetmə islahatlarının tərkib hissəsi olan "ASAN Viza" ölkəmizə turist axınının təşviq edilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayında çıxış edən Prezident İlham Əliyev Heydər Əliyev siyasətinin Azərbaycanda hər bir sahədə davam etdirildiyini, xarici siyasətimizin çox uğurlu, çox fəal olduğunu, Azərbaycanın beynəlxalq təşkilatlarda çox önəmli yer tutduğunu, mövqelərimizin möhkəmləndiyini və Azərbaycanın addımlarının bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələr verdiyini qeyd edərək, diaspor fəaliyyətinin gücləndirilməsi, diplomatik nümayəndəliklərlə əlaqələndirmənin artırılması və diasporumuzun təşkilatlanması ilə əlaqədar qarşıya konkret vəzifə və tapşırıqlar qoyub.

Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir və dönməzdir" uzaqgörən və müdrik kəlamının fəlsəfəsinə və mahiyyətinə sadiq olaraq, uğurlu daxili siyasətimizin məntiqi davamı olan xarici siyasətimiz 25 illik müstəqillik dövründə milli maraqlarımızın beynəlxalq səviyyədə qorunması və həyata keçirilməsinə, dövlətimizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə xidmət edib. Əminliklə deyə bilərik ki, qarşıdan gələn illərdə də dövlətimizin başçısının rəhbərliyi altında gündəlikdə olan prioritetlərimizin həyata keçirilməsi üçün fəal və davamlı xarici siyasətimiz davam edəcək.

Xalq qəzeti.-2016.-20 oktyabr.-№231.-S.9-10.

Müstəqilliyin şərəfli yolu

İsa HƏBİBBƏYLİ,
Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik

XX əsrin 90-cı illərinin başlanğıcından etibarən Sovetlər İttifaqının dağılması ilə keçmiş müttəfiq respublikaların və Avropadakı sosialist ölkələrinin əsasında yeni müstəqillik qazanmış dövlətlərin hesabına dünya xəritəsinin bölgüləri və rəngləri dəyişmişdir. Şərqi Avropa, Baltikyanı, Qafqaz və Orta Asiyada yaranmış yeni müstəqil dövlətlərin demək olar ki, hamısı siyasi sistem olaraq respublika tipli demokratik hüquqi dövlət quruluşu yolunu seçmişlər.

Lakin həmin dövlətlərdən hər biri əhatə olunduğu coğrafiyanın problemlərinə, yaxud ölkəsinin etnik tərkibindəki müxtəliflikdən doğan gərginliklərə və ya bloklara qoşulmaq baxımından fərqli münasibətlərin daşıyıcısı olmaqlarına, habelə iqtisadi imkanlarına görə müəyyən dərəcədə qeyri-bərabər səviyyədə inkişaf edirlər. Ona görə də tanınmış siyasətçilər yeni müstəqil dövlətlərin inkişafını şərtləndirən faktorlardan bəhs edərkən siyasi lider amilini önə çəkirlər.

Ümumi ictimai rəy və obyektiv gerçəklik bundan ibarətdir ki, siyasi lider baxımından bəxti gətirən ölkələrdə dövlət müstəqilliyinin başlandığı illərin çətinlikləri və gərginlikləri daha qısa müddətdə başa çatmış və yeni siyasi sistem sürətlə formalaşdırılmışdır. Bu cəhətdən müstəqil Azərbaycan Respublikası həqiqətən bəxti gətirmiş şanslı ölkələrdən biri hesab olunur. Çünki dövlət müstəqilliyinin ən gərgin və mürəkkəb illərində taleyin hökmü ilə görkəmli dövlət xadimi Heydər Əliyevin Moskvadan Azərbaycana qayıdışı, əvvəlcə Naxçıvan Muxtar Respublikasına, az sonra isə bütövlükdə ölkəyə rəhbərlik etməsi dövlət quruculuğunun və ictimai-siyasi proseslərin məqsədyönlü şəkildə idarə olunmasına, irəli aparılmasına, inkişaf etdirilməsinə şərait yaratmışdır. Dünyanın böyük siyasətçilərinin şəksiz lider kimi qəbul etdikləri görkəmli dövlət xadimi Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində və mərhələlərində liderlik istedadı və bacarıqları ilə fərqlənmiş, ölkəmizdə və beynəlxalq aləmdə böyük şöhrət qazanmışdır. Sovetlər İttifaqı kimi dövrünün super dövlətlərindən olan nəhəng bir ölkədəki fəaliyyəti ilə Heydər Əliyev görkəmli siyasi xadim olaraq dünyanın diqqətini cəlb etmişdir: Azərbaycan xalqı ölkəyə siyasi rəhbərliyinin hər iki mərhələsində Heydər Əliyevi özünün böyük oğlu və qüdrətli rəhbəri olaraq qəbul etmişdir. Heydər Əliyevin adı və xidmətləri Azərbaycan xalqının ümummilli lideri səviyyəsində daim uca tutulur. Belə yüksək ad-sanı, yüksək ümumxalq etimadını o, Azərbaycan xalqına sədaqətlə xidmət etmək və ölkəsini, dövlətini, xalqını bütün çətinliklərdən keçirərək inkişaf etdirmək sayəsində qazanmışdır. Bu böyük dühanın yüksək dövlətçilik məharəti, uzaqgörənliyi, müdrikliyi, cəsarəti Azərbaycan xalqının tarixi-mənəvi təkamülündə, müstəqil dövlətçiliyin formalaşdırılmasında və inkişaf etdirilməsində misilsiz rol oynamışdır.

Azərbaycan Respublikasında müstəqil dövlətçiliyin müasir inkişaf modelinin formalaşdırılması da görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə üzvi surətdə əlaqədardır. Türkiyə Cümhuriyyətinin doqquzuncu Prezidenti olmuş Süleyman Dəmirəlin dediyi kimi: "Heydər Əliyev sovet idarəçilik sistemində böyük vəzifələrə gətirilmiş Azərbaycan xalqının inanıb güvəndiyi bir dövlət adamı idi. Azərbaycana rəhbərliyinin ikinci dövründə Heydər Əliyevin qarşısında mahiyyət və xarakteri etibarilə çox dəyişik və böyük vəzifələr durmuşdu. Qığılcımları alışmış vətəndaş müharibəsini ram etmək, ölkəsinin məngənəsində boğulduğu müharibədə atəşkəsə nail olmaq. Bu vəzifələr qan tökülmədən siyasətçi müdrikliyi və diplomat səriştəsi ilə həllini tapdı.

Siyasi plüralizmin, söz və fikir azadlığının bərqərar olduğu, bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirildiyi vətəndaş cəmiyyəti qurmalı idi. ...Müsbət nəticələri göz qabağındadır. Bu gün də düşünürəm ki, Heydər Əliyevin Azərbaycan xalqına buraxdığı ən önəmli miras müstəqil Azərbaycan və onun milli dövlətidir".

Sözün həqiqi mənasında Heydər Əliyevin Azərbaycana 35 il rəhbərliyi dövründə göstərdiyi tarixi xidmətlər, əldə etdiyi mühüm nəticələr müasir inkişafın Azərbaycan modelinin əsasını təşkil edir.

Sovetlər İttifaqı dövründə Heydər Əliyev sosializm prinsiplərinin əleyhinə getmədən Azərbaycan Sovet Sosialist Respublikasında iqtisadiyyatla yanaşı, həm də milli mədəniyyəti, ana dilini, ədəbiyyat və incəsənəti inkişaf etdirmiş, tarixi gerçəkliklərin xalqa çatdırılması üsullarını taparaq millətinin gözünü açmış, onu gələcək müstəqilliyə hazırlamışdır. Bu zaman onun uzaqgörən, müdrik bir dövlət xadimi kimi hadisələri və prosesləri tarazlı şəkildə inkişaf etdirib irəli aparması ölkədə sosializm ideyaları içərisində vətənpərvərlik, azərbaycançılıq düşüncəsini dərinləşdirməyə imkan yaratmışdır. Buna görə də Azərbaycan Respublikası müstəqil dövlət kimi fəaliyyət göstərdiyi ilk illərdə ölkəmizdə milli dövlətçilik ideologiyası formalaşdırmaq baxımından heç bir tərəddüd etmədən azərbaycançılıq yolu müəyyən edilmişdi. Sovetlər İttifaqı dövründə milli ideologiya sahəsində həyata keçirilmiş tədbirlər müstəqillik mərhələsində Azərbaycanı digər keçmiş müttəfiq respublikalardan bir addım qabağa salmışdı. Müstəqil dövlətçilik ərəfəsində, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin 17 noyabr 1990-cı il tarixli iclasında üçrəngli Azərbaycan bayrağını dövlət rəmzi kimi qəbul etdirməyə nail olması milli dövlətçilik ideologiyası baxımından Azərbaycanı ön mövqeyə çıxarmışdı. Çünki vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik rəmzi kimi qəbul edilmiş üçrəngli Azərbaycan bayrağının yenidən dövlət bayrağı səviyyəsində qəbul edilməsi hələ Sovetlər İttifaqının dağılmasından 11 ay əvvəl baş vermişdi. Bu, Azərbaycan tarixinin bütün zamanlar üçün çox şərəfli hadisəsidir. Bundan başqa, Heydər Əliyevin digər əksər müttəfiq respublikalardan fərqli olaraq Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri kimi hələ 1978-ci ildə Azərbaycan dilini dövlət dili səviyyəsində respublikanın Konstitusiyasında ayrıca maddə kimi təsdiq etdirməsi də zamanı qabaqlayan hadisə idi. Bütün bunlar görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik siyasətində mühüm yer tutan azərbaycançılıq ideologiyasının formalaşdırılmasında xüsusi əhəmiyyətə malik olan mühüm addımlar idi.

Azərbaycançılıq anlayışı Azərbaycanda XIX əsrin axırlarından etibarən yaranmağa başlamışdı. Əvvəlcə "Kəşkül" və "Kaspi" qəzetlərində çap olunmuş publisist məqalələrdə azərbaycanlı, Azərbaycan milləti, Azərbaycan xalqı ifadələri işlədilmiş, müəyyən qısa açıqlamalarla xalqa çatdırılmışdır. XX əsrin əvvəllərində böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə ədəbiyyatda azərbaycançılıq anlayışını bədii obrazların və hadisələrin dili ilə səsləndirmişdir. Sovet hakimiyyəti illərində azərbaycançılıq - vətənpərvərlik mənasında ədəbiyyatda və incəsənətdə yaşadılmışdır. Beləliklə, azərbaycançılığın dövlət ideologiyası səviyyəsində bəyan olunması Azərbaycanın çoxəsrlik tarixində görkəmli dövlət xadimi Heydər Əliyevin xidmətidir. Əslində, ölkəmizdə azərbaycançılıq ideyaları müstəqillik uğrunda siyasi mübarizə meydanlarına Heydər Əliyevin tarixi addımlarının işığında daxil olmuşdur. Dövlət müstəqilliyi şəraitində Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi bir neçə mühüm tədbir ölkəmizin həyatında hadisəyə çevrilmişdir. Bu hadisələrdən biri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışarkən, hər ilin 31 dekabrının Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi haqqındakı 16 dekabr 1991-ci il tarixli sərəncamı idi. Azərbaycanın dövlətçilik tarixində ilk dəfə bu fərmanla "Dünya azərbaycanlıları" anlayışı böyük siyasətə gətirilmişdi. Hazırda Dünya Azərbaycanlılarının Həmrəylik Günü hər il 31 dekabrda həm ölkə miqyasında, həm də xarici ölkələrdə dövlət səviyyəsində qeyd olunur və dünya azərbaycanlılarının birliyinin, əlaqələrinin daha da möhkəmləndirilməsinə xidmət edir.

Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi də Heydər Əliyevin azərbaycançılıq təliminin əhəmiyyətli hadisələrindəndir. Bu, taleyin hökmü ilə dünyanın müxtəlif ölkələrində yaşayıb-işləyən, həmin ölkələrin vətəndaşları olan azərbaycanlıların möhtəşəm birlik və həmrəylik qurultaylarıdır. Dünya azərbaycanlılarının Bakı qurultayları azərbaycançılıq anlayışının sərhədlərini genişləndirən və 50 milyonluq Azərbaycan xalqını bir amal - Vətən amalı ətrafında birləşdirən dövlət əhəmiyyətli böyük hadisələrdir. Ulu öndər Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında bəyan etdiyi kəlamlar bütövlükdə azərbaycançılıq konsepsiyasının ana xətlərini ifadə edən mühüm çağırışa çevrilmişdir: "Hamımızın bir Vətəni var. Bu, müstəqil Azərbaycandır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə müstəqil dövlətçiliyin təməl prinsiplərindən biri olmuş azərbaycançılıq təliminin daha da inkişaf etdirilməsinə böyük töhfələr verir. Ölkəmizdə Dünya Azərbaycanlılarının Həmrəylik Gününün keçirilməsinin ənənə halını alması, Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi ənənəsinin uğurla davam etdirilməsi müasir cəmiyyətdə azərbaycançılıq şüurunu daha da dərinləşdirir. Prezident İlham Əliyevin aşağıdakı fikirləri artıq bu istiqamətdə ölkəmizdə mühüm nəticələrin əldə edilməsindən xəbər verir: "Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli-mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəldilmiş təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Düşünürəm ki, diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidirlər".

Azərbaycançılıq hərəkatı üstündə köklənmiş diaspor quruculuğu da dövlət müstəqilliyimizin bəhrəsidir. Dünya azərbaycanlıları ilə əlaqə üzrə Dövlət Komitəsinin yaradılması və fəaliyyəti, habelə xarici ölkələrdə Azərbaycan və Türkiyə diaspor təşkilatlarının iş birliyinə nail olunması bu sahədə qazanılmış əsas uğurlardandır.

Ölkəmizdə dövlət səviyyəsində keçirilən Novruz bayramları, Muğam festivalları, Musiqi günü, Bakı şəhərində və respublikamızın regionlarındakı Aşıqlar Birliyinin fəaliyyətinin genişləndirilməsi, Xalça muzeyinin yenidən qurulması, Kitabi-Dədə Qorqud və Koroğlu abidələrinin Bakı şəhərində ucaldılması və sair kimi tədbirlər azərbaycançılıq ideologiyasını zənginləşdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində fəaliyyət imkanlarının genişləndirilməsi haqqında" sərəncamı dövlət dili olan ana dilimizin müasir mərhələdə daha da inkişaf etdirilməsinə geniş meydan açır. Dövlət siyasəti səviyyəsində həyata keçirilən multikulturalizm və tolerantlıq təlimi ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların vahid ailədə birgə yaşayışını təmin edir. Çoxmədəniyyətliliyin sintezi və vəhdəti Azərbaycanda normal həyat tərzinin təzahürüdür. Prezident İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etməsi ilə

əlaqədar olaraq respublikamızda ardıcıl surətdə keçirilən tədbirlər geniş mənada azərbaycançılıq düşüncəsini daha da möhkəmləndirir.

Azərbaycan Respublikasında müstəqil dövlətçiliyin ən mühüm təməl şərtlərindən biri də demokratik hüquqi dövlət quruculuğunun uğurla davam etdirilərək daha da möhkəmləndirilməsindən ibarətdir. Azərbaycanın demokratik ziyalıları ölkəmizin gələcək inkişafını həmişə respublika-cümhuriyyət tipli dövlət quruluşuna nail olmaqda görmüşlər. Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin 1917-ci ildə bəyan etdiyi aşağıdakı fikirlərində də geniş mənada xalqımızın müstəqil dövlətçilik arzuları ifadə olunmuşdur: "Padşahlıq taxtından yıxılan Nikolayın idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri və o cümlədən biz müsəlmanları məşğul edən tək bircə məsələdir: həmin məsələ cümhuriyyət məsələsidir. ...Cümhuriyyət, yəni latınca "Respublika" elə bir hökümətə deyirlər ki, orada məmləkətin iradəsi camaatın öz əlində və ixtiyarındadır. ...Camaat dedikdə Vətənin sahibidir. ...Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir. Məmləkətin rəisinə "Prezident" deyilir. Prezidenti ya millət özü seçir, ya parlaman, yəni millət vəkilləri seçir. Prezident məmləkəti idarə etməyə özünə köməkçi hesabına vəkillər təyin edir. ...Prezident millətin yanında cavabdehdir".

XX əsrin əvvəllərində, 1918-1920-ci illərdə Şərqdə ilk dəfə olaraq Azərbaycanda Demokratik Respublikanın - Xalq Cümhuriyyətinin qurulması və cəmi 23 ay olsa da, fəaliyyətini davam etdirməsi ilə ölkəmizdə demokratik-hüquqi dövlət quruculuğunun əsası qoyulmuşdur. Sovetlər İttifaqının çökməsi və milli azadlıq hərəkatının genişlənməsi əsasında 18 oktyabr 1991-ci il tarixdə İstiqlal Bəyannaməsinin qəbul edilməsi ilə ikinci dəfə Azərbaycanda müstəqil demokratik dövlətin qurulması bərqərar olmuşdur. Yeni qurulmuş Azərbaycan Respublikası müstəqil dövlət kimi demokratik hüquqi dövlət quruluşunu seçdiyini bəyan etsə də, XX əsrin sonlarının mürəkkəb ictimai-siyasi vəziyyətində müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlməsi ilə ölkəmiz müstəqil dövlət kimi varlığını qoruyub saxladı və daha da inkişaf etdirdi. Ulu öndər Heydər Əliyev yeni Azərbaycanın dövlət quruculuğunu belə görürdü: "Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır".

Ümumxalq referendumu əsasında 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə hüquqi-demokratik dövlət quruculuğunun daim inkişaf etdirilməsinə tam təminat verir. Tarixə "Heydər Əliyev Konstitusiyası" kimi daxil olmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi-demokratik dövlət quruluşuna və ölkə vətəndaşlarının geniş hüquqları və azadlıqlarına dair müddəalar öz əksini tapmışdır. Azərbaycan Respublikasında hüquqi-demokratik dövlət quruculuğu artıq formalaşmış bir sistemə çevrilmişdir. Ölkəmizdə vətəndaşların söz, məlumat, dini etiqad azadlığı tam təmin olunur. Demokratik dəyərləri şərtləndirən ən mühüm vasitələrdən biri olan müstəqil mətbuatın, azad sözün, fikir azadlığının təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycanda demokratik dövlət quruculuğu inkişaf edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev azad, demokratik cəmiyyətin inkişaf etdirilməsini müstəqil dövlət kimi varlığının əsas məsələsi hesab edərək deyir: "Əgər Azərbaycanda azad cəmiyyət formalaşmasa, bizim iqtisadi uğurlarımızın gələcəyi olmayaraq, ancaq müvəqqəti xarakter daşıyacaqdır. Ona görə də son illər ərzində Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin... Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur".

Müstəqillik illərində Azərbaycanda böyük uğurla həyata keçirilmiş Konstitusiya islahatları ölkəmizdə müstəqil dövlət quruculuğunun daha da inkişaf etdirilərək möhkəmləndirilməsinə xidmət etmişdir. Bu mənada 26 sentyabr 2016-cı ildə yüksək mütəşəkkil səviyyədə keçirilən referendum Azərbaycan xalqının ölkəmizin Prezidenti İlham Əliyevin dövlətçilik kursuna tam dəstəyini ifadə edir.

Çoxpartiyalı sistem də müstəqil Azərbaycan Respublikasının həyatında mühüm yer tutur. Müstəqilliyin başlanğıc illərində ölkəni xaosdan, ictimai-siyasi burulğanlardan xilas edib, müstəqilliyi qoruyub saxlamaq və daha da inkişaf etdirmək ideyaları işığında meydana gəlmiş Yeni Azərbaycan Partiyası dövlətimizin ictimai-siyasi həyatında böyük əhəmiyyətə malik yer tutur. Öz ideyaları ətrafında Azərbaycan xalqının mütləq əksəriyyətini birləşdirən Yeni Azərbaycan Partiyası demokratik yolla keçirilən seçkilər əsasında Milli Məclisdə böyük çoxluğa sahibdir. Bununla yanaşı, Azərbaycanda iqtidar partiyası ilə bərabər, müxalifətçi siyasi partiyalar da fəaliyyətlərini davam etdirirlər. Azərbaycan Respublikasının Milli Məclisində iqtidar partiyasının üstünlüyü ilə yanaşı, siyasi müxalifət partiyalarını təmsil edən deputatlar sərbəst şəkildə özlərinin fikir və mövqelərini ifadə

edirlər. Siyasi plüralizm müstəqil Azərbaycan Respublikasının demokratik inkişafının əsas prinsiplərindən biri kimi qorunub saxlanılır və inkişaf etdirilir.

Ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, qarşılıqlı etimad və əməkdaşlıq prinsiplərini əsas tutur. Əsası görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil xarici siyasət xətti düşünülmüş prinsiplər əsasında uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "xarici siyasətdə bizim prioritetlərimiz kifayət qədər dəqiq ifadə edilmişdir. Biz istəyirik və çalışırıq ki, bütün ölkələrlə çox səmimi, rəvan, proqnozlaşdırıla bilən münasibətlərimiz olsun və hesab edirəm ki, buna nail olmuşuq. Biz etibarlı tərəfdaşıq. Biz özümüzü təmin edən ölkəyik və buna görə də hansısa beynəlxalq maliyyə mərkəzlərindən, yaxud siyasi mərkəzlərdən asılı deyilik".

Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarda çoxtərəfli əməkdaşlıq funksiyasını ardıcıl olaraq həyata keçirir. Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının, ATƏT-in, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin üzvü olan Azərbaycan Respublikası dünyada beynəlxalq birliyin qarşılıqlı əməkdaşlığının inkişaf etdirilməsinə sanballı töhfələr verir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin xarici siyasət sahəsindəki əsas uğurlarından biridir.

İqtisadiyyat sahəsində də müstəqil Azərbaycan dövləti özünəməxsus inkişaf modeli formalaşdırmışdır. Bazar iqtisadiyyatı ölkəmizin iqtisadi sahədəki inkişafının əsas strategiyasını müəyyən edir. Görkəmli dövlət xadimi Heydər Əliyevin möhkəm siyasi iradəsi və böyük uzaqgörənliyi sayəsində 20 sentyabr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" müstəqil Azərbaycan dövlətinin iqtisadiyyatında mühüm yer tutan neft strategiyasının əsasını təşkil edir.

Beynəlxalq əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti "Əsrin müqaviləsi"nin mühüm nəticələridir. Bununla yanaşı, ölkəmizdə neft gəlirləri hesabına qeyri-neft sektorunun inkişaf etdirilməsi siyasəti uğurla həyata keçirilməkdədir. Qloballaşma dövrünün bazar iqtisadiyyatındakı özünəməxsusluqları Azərbaycanda iqtisadi sahədə neft gəlirlərindən asılı olmamaq siyasətini meydana çıxarmışdır. Hazırda bu istiqamətdə aparılan məqsədyönlü dövlət siyasəti aqrar sahənin, turizmin, nəqliyyat sektorunun, xidmət sahələrinin inkişaf etdirilməsinə ciddi təkan verir. Azərbaycan Respublikasının iqtisadiyyatında özəl sektorun yeri və rolu artmaqda davam edir. Şaxələndirilmiş çoxprofilli iqtisadiyyat modeli ölkə iqtisadiyyatını irəli aparır. İllərdən bəri müvəffəqiyyətlə həyata keçirilən regionların iqtisadi inkişafı proqramları ölkəmizin hərtərəfli tərəqqisində mühüm rol oynayır.

Milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilərək möhkəmləndirilməsi müasir Azərbaycanın inkişaf strategiyasında xüsusi yer tutur. Millilik amili, mənəvi zənginlik, davamlı adət-ənənələrin yaşadılması, soykökə bağlılıq, milli-tarixi yaddaşa qayıdış və müasirlik yeni dövr Azərbaycan vətəndaşının əsas simasını təcəssüm etdirir. Müasir Azərbaycan cəmiyyəti bəşəri dəyərlərə sadiq qalmaqla milli-mənəvi dəyərlər əsasında inkişaf etdirilir. Milli dövlətçilik rəmzlərinin: ölkə himninin, dövlət bayrağının, respublikanın gerbinin, dövlət dilinin daim uca tutulması hər bir vətəndaşın şərəfli və məsuliyyətli borcuna çevrilməsinin bariz nümunəsidir. Yüksək milli-mənəvi dəyərlərə və dövlət rəmzlərinə malik olmaq Azərbaycanda dövlət müstəqilliyinin real nəticəsi və təntənəsidir.

Göründüyü kimi, Azərbaycan Respublikası müstəqil dövlət kimi özünəməxsus inkişaf modeli, siyasi-iqtisadi və mədəni yüksəliş konsepsiyası əsasında irəliyə doğru tarixi yolunu davam etdirməkdədir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xətti ölkəmizdə ardıcıllıqla və yaradıcılıqla davam etdirilir. Heydər Əliyev siyasi kursu və ölkəmizin Prezidenti İlham Əliyevin modernləşmə xətti yeni Azərbaycanı uğurla böyük gələcəyə doğru aparır. Müstəqil dövlətçiliyin Azərbaycan modeli müasir inkişafın əsas hədəflərini özündə əks etdirir və daha işıqlı sabahlara çatmaq üçün real təminat verir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" 12 oktyabr 2016-cı il tarixli sərəncamında deyildiyi kimi, "nüfuzu beynəlxalq miqyasda ilbəil möhkəmlənən Azərbaycan dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur". Formalaşmış güclü dövlətçilik sisteminə və zəngin yeraltı və yerüstü sərvətlərə, ən başlıcası isə inkişaf etmiş insan kapitalına malik olan Azərbaycan Respublikası müstəqil dövlətçiliyin müasir inkişafına əyani sübutdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın görkəmli lideri kimi ölkəmizi böyük inamla daha uğurlu sabahlara doğru aparır.

Müstəqil Azərbaycanın mükəmməl dövlətçilik modeli yeni müstəqillik qazanmış ölkələr üçün də nümunədir.

Azərbaycan.-2016.-19 oktyabr.-№230.-S.6.

Независимый Азербайджан пользуется большим авторитетом в мире, занимает сильную международную позицию

Новруз Мамедов,
заместитель руководителя Администрации Президента Азербайджанской Республики,
заведующий отделом внешних связей

После распада Советского Союза Азербайджан 18 октября 1991 года восстановил свою независимость. Тем самым, Азербайджан, обладающий богатыми традициями государственности, спустя 70 лет во второй раз в течение последних 100 лет обрел государственную независимость. Если в 1918-1920-х годах первая независимость Азербайджанской Демократической Республики длилась лишь 23 месяца, то сегодня наша республика уже 25 лет является независимым субъектом международного права – суверенным государством.

В первые годы обретения независимости Азербайджан переживал крайне сложный и трудный период. С одной стороны, продолжалась армянская военная агрессия, а с другой, в связи с падением существовавшей системы, экономика оказалась в парализованном состоянии, в стране была нарушена внутренняя стабильность. Азербайджанская государственность в полном смысле слова находилась под угрозой.

Именно в этих условиях возвращение в июне 1993 года великого лидера Гейдара Алиева по требованию народа к власти стало решающим с точки зрения спасения азербайджанской государственности. В результате политических, социальных и экономических реформ, проведенных начиная с середины 90-х годов XX века под руководством великого лидера, были созданы основа азербайджанской государственности и база для ее дальнейшего развития, заложенная на прочном фундаменте. Продолжение Президентом Ильхамом Алиевым данного курса создало условия для расширения осуществляемых широкомасштабных реформ, достижения страной более высокой ступени социального развития.

Большой путь, пройденный Азербайджаном в политической, социальной и экономической сферах, сегодня налицо. Азербайджан превратился в лидирующую в регионе страну, добившуюся стабильной внутренней политической ситуации, политической системы, совершенствуемой постоянными реформами и отвечающей интересам общества, гармонии в отношениях между государством и гражданами, устойчивого экономического развития, занимающую достойное место среди государств мира. Конечно, все это является результатом целенаправленной напряженной работы, деятельности.

Для того, чтобы увидеть реальную картину достигнутых Азербайджаном успехов, достаточно обратить внимание на ряд экономических и финансовых показателей. Только за последние 12 лет валовой внутренний продукт (ВВП) увеличился более чем втрое, а бюджетные доходы – в 20 раз. Одновременно уровень бедности понизился с 49 до 5 процентов. На этом же уровне находится безработица. В последние 12 лет в Азербайджане было открыто 1 миллион 500 тысяч рабочих мест. В настоящее время экономика Азербайджана составляет 75 процентов экономики Южного Кавказа.

Эти успехи Азербайджана подтверждаются и со стороны международных организаций. В индексе глобальной конкурентоспособности Всемирного экономического форума Азербайджан занимает 37-е место, в этой области наша страна лидирует на пространстве СНГ. Высоко оценивают рейтинг Азербайджана такие международные рейтинговые агентства, как Fitch, Standard and Poor's и Moody's. В настоящее время Азербайджан по классификации Всемирного банка относительно валового национального дохода входит в группу стран с «верхне-средними доходами», а в индексе человеческого развития (III) Программы развития ООН – в группу стран с «высоким человеческим развитием».

С точки зрения экономического развития переходный период в Азербайджане уже завершился. В настоящее время Азербайджан наметил новые приоритеты, перспективы развития. Как отметил Президент Ильхам Алиев, Азербайджан намерен превратить «черное золото в человеческое золото - человеческий капитал». Для этого в стране повышается инвестирование образования, современных технологий, предпринимаются важные шаги в области диверсификации экономики. В 2013 году Азербайджан, выведя на орбиту первый телекоммуникационный спутник, вошел в число космических стран. Центр «ASAN xidmət» стал уже азербайджанским брендом в мире.

Азербайджанская модель внешней политики

Сегодня Азербайджан проводит сбалансированную внешнюю политику, основанную на многовекторном сотрудничестве, равноправном партнерстве и национальных интересах. В первые годы

независимости Азербайджан был изолирован от международного сообщества, его отношения с большинством соседних государств обострились, усилиями армянского лобби находился в блокаде на мировом информационном пространстве. Проводимая внешняя политика полностью изменила позицию нашей страны на глобальной арене. Азербайджан уже является не просто участником на глобальной политической сцене, а инициатором и участником важных проектов в регионе, страной, отличающейся своим влиянием на международной арене.

Проводимая Азербайджаном активная внешняя политика основана не на соперничестве, а на дружбе, сотрудничестве и взаимной поддержке. Азербайджан отличается конструктивной позицией в происходящих в мире процессах, формировании миропорядка, который обеспечит всеобщее благосостояние. Проводимая активная внешняя политика создает возможность для того, чтобы наша республика играла важную роль в международных организациях. Азербайджан является одной из немногих стран мира, являющихся членом как Организации исламского сотрудничества, так и Совета Европы. Азербайджан при поддержке 155 стран был избран на 2012-2013 годы в непостоянные члены Совета Безопасности ООН, что является одним из самых больших успехов нашей внешней политики. Это означает, что политика, проводимая официальным Баку в регионе и на международной арене, воспринимается странами мира с одобрением, получает полную поддержку со стороны 155 из 193 государств-членов ООН. Как член Совета Безопасности ООН, Азербайджан в период председательства в структуре вынес на обсуждение важные вопросы, связанные с обеспечением международного мира и безопасности, выдвинул инициативу укрепления сотрудничества в борьбе с международным терроризмом.

Успехи, достигнутые в последние годы Азербайджанской Республикой, значительно повысили имидж страны на мировой арене. Осуществляется тесное сотрудничество с самыми влиятельными международными структурами мира. В 2011 году Азербайджан стал членом Движения неприсоединения – второй после ООН крупной организации по числу участников. В мае-октябре 2014 года Азербайджан успешно председательствовал в Комитете Министров Совета Европы.

Азербайджан также является надежным партнером в обеспечении международного мира и безопасности и активным участником международной антитеррористической коалиции. Именно Азербайджан стал одной из первых стран, присоединившихся к международным антитеррористическим призывам во всем мире. Наши военные служили в командовании НАТО в Афганистане, Ираке. В настоящее время Азербайджан также играет важную роль в грузоперевозках НАТО в Афганистан.

Вопросы регионального сотрудничества носят приоритетный характер во внешней политике Азербайджана. Наши связи с четырьмя соседними странами – Турцией, Россией, Ираном и Грузией, не считая Армении, весьма позитивны. Одновременно Азербайджан является инициатором нескольких форматов трехстороннего сотрудничества в региональной плоскости. Созданные в последние годы трехсторонние платформы Азербайджан-Иран-Турция, Азербайджан-Грузия-Турция, Азербайджан-Турция-Туркменистан и Азербайджан-Россия-Иран являются важными инициативами с точки зрения обсуждения региональных вопросов, развития сотрудничества.

Всегда на самом высоком уровне находилось сотрудничество с мусульманскими странами, основанное на общей истории, культуре, религии, взаимных интересах. В резолюции, принятой на последнем Саммите Организации исламского сотрудничества, государства-участники также однозначно поддержали Азербайджан, а армянская агрессия подверглась решительному осуждению. На этом Саммите также была создана Контактная группа Организации исламского сотрудничества в связи с армяно-азербайджанским, нагорно-карабахским конфликтом.

Постоянно расширяются связи Азербайджана и с европейскими странами. Сформировавшиеся в двустороннем формате прекрасные связи отражаются и на развитии связей между Азербайджаном и Европейским Союзом. Азербайджан строит отношения на базе равноправного сотрудничества, основанного на взаимных интересах, и проводит свою политику в этом направлении. На сегодняшний день между Азербайджаном и 9 европейскими странами были подписаны или приняты документы о стратегическом партнерстве. Это – треть стран-участниц Европейского Союза.

По восходящей развиваются основанные на взаимовыгодном сотрудничестве отношения со странами Дальнего Востока, Африки, а также Латинской Америки. В последние годы Азербайджан открыл в этих регионах новые посольства, что служит наглядным примером значения, придаваемого развитию связей с государствами региона, основанных как на двустороннем, так и многостороннем взаимовыгодном сотрудничестве. В настоящее время в Африке функционирует 5 (Египет, Марокко, Алжир, Эфиопия, ЮАР), а в Латинской Америке - 3 (Мексика, Бразилия, Аргентина) посольств Азербайджана.

Надежное партнерство в энергетическом секторе

В основе всех достигнутых Азербайджаном успехов, несомненно, лежит энергетический фактор, его правильное использование для социально-экономического развития страны. Сформированная общенациональным лидером Гейдаром Алиевым и еще более усовершенствованная сегодня Президентом Ильхамом Алиевым энергетическая политика является важнейшим средством в обеспечении национальных интересов страны. Эта политика позволила Азербайджану стать лидирующим в регионе государством, а также одним из ведущих участников региональных и глобальных экономических проектов.

Как отметил Президент Азербайджанской Республики господин Ильхам Алиев, энергетическая политика должна консолидировать страны, а не разъединять их. Энергетический фактор не следует использовать для постановки и достижения тех или иных политических целей. Именно благодаря такому подходу Азербайджан сегодня является надежным партнером в энергетическом секторе, в частности, играет важную роль в обеспечении энергетической безопасности европейских стран.

Основа всего этого была заложена еще в 1994 году с подписанием «Контракта века». Этим контрактом Азербайджан впервые открыл Каспийское море иностранным компаниям для совместной работы и привлек к эксплуатации нефтяных ресурсов многомиллиардные иностранные инвестиции. Как продолжение работы в этом направлении, была создана транспортная инфраструктура, соединяющая Каспийское море с Черным и Средиземным морями. Реализованный благодаря решительной позиции Азербайджана нефтепровод Баку-Тбилиси-Джейхан, сданный в эксплуатацию в 2006 году, наряду с поставкой азербайджанской нефти на мировые рынки, являлся одновременно историческим проектом для открытия нового коридора. Данный проект основательно перекроил энергетическую карту не только региона, но и всего континента с точки зрения существующих реалий и дальнейших перспектив.

Сегодня, когда речь заходит об энергетической безопасности, в первую очередь, уделяется внимание фактору природного газа. Азербайджан и в этом направлении является страной, проводящей независимую политику и осуществляющей успешное сотрудничество с партнерами. Освоение месторождения «Шахдениз» способствовало присоединению Азербайджана к странам, экспортирующим газ. Подписание такого контракта, когда природный газ еще не играл ведущей роли в энергетическом обеспечении стран мира, свидетельствует о том, насколько продуманную политику проводит Азербайджан, о том, что подготовка к проделанной в последнее время работе началась еще в те времена. Успешная реализация данного проекта позволила Азербайджану полностью обеспечить свою энергетическую независимость и превратиться из страны, импортирующей газ, в экспортирующую его страну.

Сдача в 2007 году в эксплуатацию газопровода Баку-Тбилиси-Эрзурум явилась важным событием для региона. Достаточно сказать, что благодаря данному трубопроводу Азербайджан, взяв на себя газоснабжение Грузии, переживавшей экономические трудности, еще раз подтвердил имидж надежного партнера. А транспортировка по этому трубопроводу газа, добываемого на месторождении «Шахдениз», в Турцию явилась началом поставки газа на европейские рынки.

Для того, чтобы увидеть реальную картину успехов, достигнутых Азербайджаном в последние годы в энергетическом секторе, достаточно рассмотреть процессы, происходящие вокруг освоения II фазы месторождения «Шахдениз». Азербайджан подписал с Турцией контракт по строительству трубопровода TANAP, по которому газ с месторождения Шахдениз будет поставляться в Европу. Это был первый реальный шаг на пути осуществления Южного газового коридора.

Тот факт, что Азербайджан является инициатором такого проекта, свидетельствует о том, что он превратился в геополитический актор в качестве регионального лидера. Это одновременно является блестящим показателем пути успешного развития, пройденного Азербайджаном в период после обретения независимости. Если в 1994 году Азербайджан для реализации таких проектов нуждался в поддержке зарубежных государств, то сегодня берет на себя основную финансовую нагрузку проекта, которому предстоит сыграть серьезную роль в обеспечении энергетической безопасности Европы. Решение о выборе проекта Трансадриатического трубопровода в качестве основного экспортного маршрута, по которому газ с месторождения «Шахдениз» будет транспортироваться в Европу, свидетельствует о том, что без участия и согласия Азербайджана в регионе не может быть реализован ни один проект глобального значения.

Мультикультурализм – государственная политика, основанная на образе жизни

Азербайджан, расположенный на стыке Востока и Запада, Севера и Юга, ислама и христианства, на всех исторических этапах находился в центре внимания геополитических процессов. Азербайджан

объединяет в себе и оберегает наследие различных цивилизаций и культур. Все это проявляется в образе жизни, истории развития, политике Азербайджана.

Азербайджан – это мост, точка соединения между Востоком и Западом. Азербайджанское общество с обеих сторон приняло ценности, соответствующие его национальным особенностям, и создало свою модель развития. В этом контексте Азербайджан также объединяет восточные и западные ценности, является их носителем. Восток и Запад в нашей стране не только могут успешно сочетаться, но и прекрасно дополняют друг друга. В Азербайджане, наряду с исламскими ценностями, была построена первая на Востоке демократическая республика, были первая национальная опера, национальный театр. Именно в Азербайджане впервые в восточном мире женщинам было предоставлено право голосования. По обеспечению этого фундаментального права наша страна опередила даже большинство западных стран.

Азербайджан является мусульманской страной, где вместе живут представители различных религий и культур. Здесь веками без всяких проблем живут и христиане, и евреи. Это можно наблюдать и в архитектуре столицы – города Баку. Баку является одним из немногочисленных городов мира, где бок о бок действуют мечети, церкви и синагоги. Сегодня совершенно очевидно, что мультикультурализм переживает на Западе кризис. Для Азербайджана же многокультурие тысячелетиями является образом жизни. Все народы в Азербайджане, независимо от этнической или религиозной принадлежности, пользуются всеми правами, живут как одна семья, так как мультикультурализм, толерантный подход для нас – это повседневный образ жизни и философия жизни, а не политика.

Именно благодаря этому Азербайджан в настоящее время играет одну из ведущих ролей в позитивных тенденциях, происходящих в области мультикультурализма, межцивилизационного диалога. В последние годы Азербайджан уже известен в мире, как страна, где обсуждаются проблемы межкультурной интеграции и диалога, проводятся международные мероприятия, представляющие важное значение. В Баку организуются международные мероприятия, саммиты, международные конференции, где обсуждаются актуальные проблемы современности, вопросы сотрудничества. В их числе можно отметить Всемирный форум по межкультурному диалогу, Глобальный форум открытых обществ, Всемирный саммит религиозных лидеров, Всемирный форум молодежи, Давосский всемирный экономический форум, конкурс песни «Евровидение», Бакинский гуманитарный форум, VII Глобальный форум Альянса цивилизаций ООН и др. В этом контексте хотелось бы отметить проведенные летом 2015 года в Азербайджане I Европейские игры. Это было не просто спортивное мероприятие. Считаю, что решение о проведении I Европейских игр именно в Азербайджане – мусульманской стране явилось оценкой роли Азербайджана в сотрудничестве между цивилизациями и культурами.

Все это по сути является своего рода инвестицией Азербайджана в отношения и сотрудничество между народами и государствами. Мы считаем, что решения глобальных проблем можно добиться лишь в результате доброго сотрудничества и взаимодействия, а не противоречий и конфликтов.

Нагорно-карабахский конфликт – самое большое препятствие для развития региона

Важнейшим вызовом, стоящим сегодня перед Азербайджаном, является урегулирование нагорно-карабахской проблемы. Первостепенная задача, стоящая перед Азербайджаном в его деятельности на региональном и международном уровне, - восстановление своей территориальной целостности. Армяно-азербайджанский, нагорно-карабахский конфликт является основным препятствием для развития не только Азербайджана, но и всего региона.

Вот уже более 20 лет Нагорный Карабах, являющийся неотъемлемой частью Азербайджана, и прилегающие к нему 7 районов, находятся под армянской оккупацией. В результате осуществленной Арменией военной агрессии и политики этнической чистки были оккупированы 20 процентов наших земель, более 1 миллиона человек в стране оказались в положении беженцев и вынужденных переселенцев. Позиция Азербайджана заключает в том, что конфликт должен быть урегулирован лишь в соответствии с нормами международного права, в рамках территориальной целостности Азербайджана.

Мировое сообщество и международные организации также признают территориальную целостность Азербайджана и поддерживают справедливое урегулирование конфликта в соответствии с нормами международного права. Правовые основы разрешения конфликта опираются на Устав ООН, Хельсинкский заключительный акт, 4 резолюции Совета Безопасности ООН, резолюцию, принятую Генеральной Ассамблеей ООН в 2008 году, а также постановления и резолюции Движения неприсоединения, ОБСЕ, Совета Европы, НАТО, Европейского парламента, Организации исламского сотрудничества и других международных организаций, нормы и принципы международного права. Все эти документы подтверждают суверенитет, территориальную целостность и неприкосновенность признанных на международном уровне границ Азербайджана.

Привлекают внимание шаги, предпринятые в последние годы Азербайджаном в рамках международных организаций. Принятые в этой области меры свидетельствуют о том, что деятельность азербайджанской дипломатии в рамках международных организаций в основном направлена на активизацию международных усилий в деле урегулирования нагорно-карабахского конфликта в рамках суверенитета, территориальной целостности и признанных на международном уровне границ нашей страны.

Заслуживают внимания 5 документов, принятых в этом направлении в течение последнего года на международном уровне. Резолюция «Агрессия Республики Армения против Азербайджанской Республики», принятая на заседании Совета министров Организации исламского сотрудничества 27-28 мая 2015 года, постановление Европейского суда по правам человека от 16 июня 2015 года, резолюция «О приверженности Хельсинкским принципам в межгосударственных отношениях на пространстве ОБСЕ», принятая на заседании Парламентской Ассамблеи ОБСЕ, проведенном 5-9 июля 2015 года, резолюция «Рост насилия в Нагорном Карабахе и других оккупированных территориях Азербайджана» Комитета по политическим вопросам и демократии ПАСЕ от 4 ноября 2015 года и Итоговая декларация, принятая в 2016 году на Стамбульском саммите Организации исламского сотрудничества. Во всех этих документах нашел подтверждение факт оккупации азербайджанских территорий и была подчеркнута необходимость урегулирования конфликта на основе принципов государственного суверенитета Азербайджана и обеспечения его территориальной целостности.

Говоря о конфликте, нельзя не вспомнить Ходжалинский геноцид. Так, в ночь с 25 на 26 февраля 1992 года армянские вооруженные силы при непосредственном участии находившихся на территории Азербайджана в Нагорном Карабахе армянских вооруженных отрядов и дислоцированных в Ханкенди личного состава и техники 366-го мотострелкового полка бывшего СССР, захватив город Ходжалы, совершили геноцид. Во время оккупации Ходжалы в одну ночь с особой жестокостью, под пытками были убиты 613 мирных жителей, в том числе 63 ребенка, 106 женщин, 70 стариков, людям отсекли головы, выкололи глаза, штыками вспороли животы беременным женщинам. В последние годы Ходжалинский геноцид признали парламенты Мексики, Пакистана, Колумбии, Чешской Республики, Боснии и Герцеговины, Перу, Румынии, Панамы, Иордании, Судана, Гондураса, Гватемалы. Соответствующие резолюции также были приняты в законодательных органах американских штатов Вест Вирджиния, Калифорния, Массачусетс, Техас, Нью-Джерси, Мэн, Нью-Мексико, Арканзас, Джорджия, Оклахома, Теннесси, Пенсильвания, Коннектикут, Флорида, Миссисипи, выдвинуто требованием привлечь зачинщиков геноцида в Ходжалы к ответственности. Губернаторы американских штатов Гавайи и Монтана также подписали специальную декларацию, связанную с признанием Ходжалинской трагедии. Цель кампании «Справедливость к Ходжалы!», осуществленной по инициативе вице-президента Фонда Гейдара Алиева Лейлы ханум Алиевой более чем в 40 странах мира, заключается в обстоятельном информировании международной общественности об этом кровавом событии.

Цель Минской группы ОБСЕ, созданной в марте 1992 года, заключается в посредничестве в мирном урегулировании армяно-азербайджанского нагорно-карабахского конфликта. С декабря 1996 года в Минской группе сопредседательствуют три государства – Россия, США, Франция. Но, к сожалению, конфликт все еще остается неразрешенным. На переговорах, проводимых при посредничестве Минской группы, по сей день не достигнуты подвижки. Армения не заинтересована в урегулировании конфликта. Она пытается сохранить положение «ни мира, ни войны». Однако, напряженность в начале апреля 2016 года на линии соприкосновения войск в результате провокации армянских вооруженных сил, сопровождавшаяся многочисленными человеческими жертвами, еще раз показала, что пребывание конфликта в замороженном состоянии в любой момент может привести к войне. А международные посредники, хотя и поддерживают территориальную целостность Азербайджана, тем не менее, почему-то не демонстрируют в связи с этим однозначную позицию. Мы ждем, чтобы государства, являющиеся сопредседателями Минской группы ОБСЕ, а также мировая общественность предприняли конкретные шаги для справедливого урегулирования конфликта. Несоблюдение принципа справедливости ведет к кризису не только регион, но и весь мир.

Несмотря на все трудности и несправедливости, Азербайджан уже 25 лет является достойной независимой страной. Азербайджан, обладающий большим авторитетом в мире и сильной международной позицией, являющийся автором и участником крупных энергетических проектов, обеспечивший в стране политическую стабильность и социально-экономическое благосостояние, успешно развивается по своему пути. В основе всего этого, несомненно, лежит согласие народа и власти. Результаты последнего референдума, который обеспечит достижение более высокого уровня развития Азербайджана, также еще раз наглядно доказали поддержку народом политики властей. Естественно, что господин Ильхам Алиев поблагодарил азербайджанский народ за большое доверие, но и народ благодарен своему главе государства. Народ понимает, с каким давлением он столкнулся, каким трудом обеспечил

стабильность и устойчивое развитие Азербайджана на фоне сегодняшнего хаоса в мире. В основе всего этого, несомненно, лежит то, что глава государства уверенно идет «по пути Гейдара Алиева».

Бакинский рабочий.-2016.-19 октября.-№ 192.-С. 3.

Müstəqil dövlətçilik fəlsəfəsi

Dövlət müstəqilliyimizin bərpası – 25

İlham Məmmədzadə,
AMEA Fəlsəfə İnstitutunun direktoru, professor

Azərbaycan Prezidenti, möhtərəm İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bəyan edib: " Biz 25 ildir ki, müstəqil yaşayan ləyaqətli ölkəyik". Əslində, Prezidentimizin bu sözlərində həm dərin məna var, həm də müstəqil dövlətimizin dərin, çoxmənalı fəlsəfəsi öz əksini tapıb. Düzdür, bu gün dünyada təxminən 200 müstəqil dövlət vardır, lakin, əlbəttə, heç də onların hamısı müstəqillik fəlsəfəsinə malik deyil. Çoxu yalnız başqa dövlətlərin təsiri altındadır.

Biz ancaq onu vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti zəmanəmizin yeni çağırışını dəqiq ifadə etdi: böhranlar, münaqişələr və böyük güclü dövlətlərin ikili standartları şəraitində yalnız o dövlət müstəqil olacaq ki, onun öz ləyaqət fəlsəfəsi olsun. Onu da qeyd edək ki, bu keyfiyyəti azərbaycanlılar tarixən həmişə yüksək qiymətləndiriblər. Buradan filosofların, dövlət fəlsəfəsi üzrə mütəxəssislərin, sosial fənlər üzrə alimlərin qarşısında müstəqil dövlət fəlsəfəsinin aktuallığı barədə, müasir dövrdə müstəqillik və ləyaqət haqqında, dövləti cansız mexanizm kimi qəbul edərkən tərəqqi etməyin mümkün olmadığı barədə düşünmək vəzifəsi irəli gəlir.

Əlbəttə, müstəqillik mürəkkəb, çoxtərkibli anlayışdır, onu yalnız milli-azadlıq hərəkatı və azadlığın əldə olunması ilə məhdudlaşdırmaq olmaz. Öz tale və həyatını Vətənin azadlığı uğrunda qurban vermiş bir çox azərbaycanlı nəsillərin qarşısında biz baş əyməliyik. Fəqət, bu gün formal cəhətdən müstəqil, lakin, əslində, müstəqillikdən məhrum olan bir sıra dövlətlər vardır. Prezidentimiz bizi dövlətimizin ləyaqətini qoruyub saxlamağa çağırır, bu isə sadə çağırış, vəzifə deyil və bizim hamımızdan məsuliyyət və müəyyən etika, ola bilər, davranış standartlarını seçməyi tələb edir.

Elm aləmində bu məsələlərə həsr olunmuş işlər azdır. Yəqin həm də ona görə ki, böyük dövlətlər yerdə qalanları onların geosiyasi məqsəd və planlarının həyata keçirilməsinə, onları qane edən dünya nizamını yaratmağa mane olmamasını istərdi. Lakin problem getdikcə aktuallaşır. Və o, dövlətlərin müasir qarşılıqlı asılılığı, inteqrasiya axınları şəraitində dövlətimizin əsl müstəqilliyini tam reallaşdırmağa yol verən dünya nizamının bərqərar edilməsi üçün şərait, qüvvə, imkan tapmaqdan ibarətdir. Bunun üçün iqtisadi qərarlar qəbul etmək, siyasi sistemi islah etmək, cəmiyyətin mədəni və maarif potensialını artırmaq, texnologiyaları inkişaf etdirmək, dövlətin ərazi toxunulmazlığının qorunub saxlanılmasını, yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün tərəfdaş dost dövlətlərin sayının artırılmasını təmin edən xarici siyasət həyata keçirilməlidir. Dövlətimizin kompleks şəkildə tətbiq etdiyi bu tədbirlər öz mənafeyini, dəyərlərini, hüquqlarını qorumağa imkan verir ki, elə məhz bu da ləyaqətli müstəqillik deməkdir.

Aydındır ki, bu məsələlər qlobal, böyük dövlətləri az maraqlandırır, lakin qalan dövlətlər həmin anlayışlara məna verən siyasət aparmasa, nəhəng dövlətlərin pressinqinə tab gətirməyəcək. Müasir Avropa İttifaqının təcrübəsi inteqrasiya edənlər üçün də, inteqrasiya axınlarından müəyyən məsafədə duranlar üçün də müstəqilliyin zəruri olduğunu aydın şəkildə göstərir Əlbəttə, bu, başqalarına qarşı avtarkiya siyasətini (tam müstəqilliyi nəzərdə tutan qapalı iqtisadiyyat) aparmağın lazım olduğu demək deyil, bu, dövlətin başqaları illə öz dəyər və maraqlarına hörmətlə yanaşaraq münasibətlərdə olması deməkdir.

Siyasət aləmi çoxçeşidli, dəyişkəndir, siyasi arenada müxtəlif dövlətlər də mövcuddur. Müstəqillik uğrunda mübarizənin mənası bu özünəməxsusluğun qorunub saxlanmasından ibarətdir. Kimsə keçən əsrin 80-ci illərinin axırlarında hesab edə bilərdi ki, dövlət yalnız mexanizmdir, lakin indi aydındır ki, dövlət mexanizm deyil, daha mürəkkəb bir fenomendir. Bunu öz dövlətçiliyini itirənlərin, qaçqın və miqrant olanların taleyi göstərir. Bu halda dövlətin ləyaqəti başqa dövlətlərə, onların maraq və dəyərlərinə tam hörmətlə yanaşaraq, onlarla rəqabətə özünün dözə bilməsini reallaşdırmaq məqsədi ilə müstəqilliyi bütün birliyin inkişafı üçün tətbiq etməkdən ibarətdir.

Söhbət müstəqillik haqqında gedərkən, onun hansı rakursda nəzərdən keçirildiyi haqqında konkret, əsaslandırılmış təsəvvürə malik olmaq lazımdır. Aydındır ki, onun xarici və daxili aspektləri vardır, lakin o da aydındır ki, bu aspektlər bir-birindən qarşılıqlı surətdə asılıdır. Bu asılılıq həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəniyyətdə özünü göstərir. Əgər ölkədə, bizim Azərbaycanda olduğu kimi, insanlar arasında sülh və sabitlik üstünlük təşkil edirsə, onda bu cür dövlət xarici siyasətində sülhsevərlik, başqa ölkələrlə əməkdaşlığa meyil və s. nümayiş etdirəcək. Lakin bu cür sabitlik dövlət üçün müdafiə və təhlükəsizliyin müxtəlif forma və vasitələrinin zəruri olduğunu da nəzərdə tutur. Məsələnin belə qoyuluşu da, əlbəttə, müstəqillik fəlsəfəsi ilə

bağlıdır. Məhz o, problemi bütövlükdə, kompleks şəkildə əhatə edir, onu müxtəlif tərəflərdən, həm qarşılıqlı əlaqələr, həm də qarşılıqlı təsirlər baxımından nəzərdən keçirir. Belə yanaşma bizi dövlət müstəqilliyi nəzəriyyəsinin siyasi, hüquqi, psixoloji, sosioloji, antropoloji və digər aspektlərinin bir-birindən fərqləndiyinin dərk olunmasına gətirib çıxarır.

Ölkə müstəqillik əldə edən kimi, bir çox problemlərlə üzləşir və biz bununla artıq tanışıq. Kimləri isə seçməkdə yanılmaq, təbii ehtiyatlara arxayın olmaq, yalnız keçmişdəki nailiyyətlərlə fəxr etmək və s. bu kimi hallar ola bilər. Amma əgər müstəqillik qazanılana qədər o, bir arzu, xəyal idisə, ona nail olandan sonra gündəlik, çox zəhmət və səbr tələb edən, daha doğrusu, çox məsuliyyətli iş başlayır və o, azadlıq və müstəqillik əldə etməkdən heç də asan iş deyil. Bu iş, yaxud belə deyək, çoxsaylı problemlərin həlli – iqtisadiyyat və təsərrüfatların yaradılması, hüquqi dövlətin qurulması və cəmiyyətin hüquq sisteminin formalaşdırılması, Konstitusiyanın qəbul edilməsi, təhsil, mədəniyyət və elm sistemlərinin təşkil edilməsi və bir sıra digər işlər – bütün bunlar aysberqin yalnız görünən hissəsidir. Bu işlər səriştəli, müdrik, qətiyyətli liderin olmasını tələb edir. Və etiraf etmək lazımdır: Azərbaycanın bəxti gətirib ki, o, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqilliyi əldə edib, ilk addımlarını atıb, bugünkü və gələcək addımlarını isə İlham Əliyevin rəhbərliyi ilə atır və atacaq.

Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü tamam olur. Bu, həm azdır, həm də çox. Tarix miqyasında bu, bir andır, bir ləhzədir. Lakin bu müddət ərzində ölkədə çox iş görülüb. Ümummilli liderimizin dövründə "Əsrin müqaviləsi" imzalandı, o, nəinki böyük neft verdi, həm də əsl müstəqilliyə yol açdı, alternativlər yaratdı. Konstitusiya qəbul edldi. İndi biz dəqiqləşdirə, konkretləşdirə bilərik, amma bütün dövlətimizin hüquqi bünövrəsi 1995-ci ildə qoyulub. Ümummilli liderimizin dövründə çoxvektorlu xarici siyasətin strategiyası və əsasları, inkişaf strategiyası və ölkədə multikultural sülh kimi başa düşülən azərbaycançılıq ideologiyasının təməli yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, bir çox cəhətdən gələcəyi görən siyasəti bu nailiyyətlərin bu günün tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi ilə nəticələndi. Burada varislik və yenilik, müasir dövrün yeni çağırışlarının nəzərə alınması dialektik şəkildə birləşdirilmişdir.

Bizim dövlət və cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində ciddi nailiyyətlərimiz var. Belə ki, az qala sıfırdan başlayaraq böyük perspektivləri olan iqtisadiyyat yaradılıb. Biz dünyanın bütün inkişaf reytinqlərində MDB ölkələri arasında liderik. Hətta böhran dövründə belə, energetika ilə bağlı inkişaf paradiqmasından qeyri-neft paradiqmasına keçmək lazım olan zaman, biz və bütün dünya ölkənin iqtisadi əsaslarının sabit olduğuna əminik. Və burada marksizmin ardınca vurğulamaq istərdik ki, ən başlıcası iqtisadiyyatdır. Bəli, o, vacibdir, amma təkcə, o, yox. İnnovasiyalar, kreativ, yaradıcı şüur, informasiya texnologiyaları vacibdir, amma təkcə bunlar da yox. Və məsələ təkcə Dağlıq Qarabağ münaqişəsi, işğalçı qonşu və onu müdafiə edən dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən törədilən təhlükələrdə deyil.

Tarix və müasir dövrdə baş vermiş bir çox hadisələr ordunun dövlətin müstəqilliyi üçün əhəmiyyətinin böyük olduğunu sübut edir. Və Azərbaycanın güclü, yaxşı silahlanmış və aprel döyüşlərində şərəflə sınaqdan çıxmış ordusu var. Bütün uğurlarına baxmayaraq, ordu inkişaf etməyə, möhkəmləndirilməyə və yenidən silahlanmağa hazır olmalıdır. Bu isə təkcə iqtisadiyatdan deyil, bir çox başqa parametrlərdən də asılıdır. Böyük dövlətlərin maraqlarının toqquşduğu qeyri-sabit regionda yerləşən kiçik bir dövlət üçün onun Baş Komandanının istedadı, idarəçilik dühası, güclü ideologiya, hakimiyyətlə cəmiyyət arasında birlik, nüfuzlu xarici siyasət və ümumiyyətlə, dövlətin dünyada hörməti, ləyaqəti çox böyük əhəmiyyət kəsb edir. Amma biz də olduqca çox səy göstərməliyik ki, dövlətimizdə hər şey alınsın, bərqərar olsun.

Burada vurğulamaq lazımdır ki, Azərbaycan hakimiyyət və cəmiyyəti birləşdirən, milli dəyərlərin inkişafına xidmət edən, birlik və vətənpərvərlik üçün bizdə məsuliyyət yaradan güclü ideologiyaya malikdir. Onun mərkəzində ümummilli lider Heydər Əliyevin mənəvi irsi yerləşir. Bəs bizim üçün bu irsdə həlledici nədir? İlk növbədə, Azərbaycanın müstəqilliyi ölkənin bütün vətəndaşları üçün başlıca dəyərdir. Həm də ona görə belədir ki, bu, ümummilli lider üçün başlıca dəyər idi. Bunu təkcə biz özümüz yox, həm də dünyanın keçmiş və müasir siyasi liderləri etiraf edirlər.

Corc Buş Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunmasına şəxsi töhfəsini, onun Cənubi Qafqaz ərazisində uzun müddət ərzində ən nüfuzlu şəxsiyyət olduğunu vurğulayırdı. Onun avtoritetini öz prezidentliyi dövründə Bill Klinton etiraf edirdi. Vladimir Putin onu dünyada hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi adlandırırdı. Rusiya Prezidentinin fikrincə, Heydər Əliyev Rusiya və Azərbaycan arasında strateji əməkdaşlığın əsasını qoymuşdur. Rusiya Prezidenti Heydər Əliyevin strateji əməkdaşlığın əsasını qoymuş olduğunu vurğulayırsa, bu, çox böyük əhəmiyyət kəsb edir. Axı müstəqillik bir çox hallarda bu əməkdaşlıqdan asılıdır.

Ümummilli lider Heydər Əliyevin mənəvi irsi bir çox tanınmış alim və mütəfəkkirlər tərəfindən öyrənilir. Bizim məsələnin kontekstində mühüm olanı təkcə onun irsinin hüquqi Azərbaycan dövləti və demokratiyanın, çoxvektorlu xarici siyasətin, güclü sosial siyasətin inkişafını müəyyən etməsi deyil, həm də, hər şeydən əvvəl, ölkə ideologiyasında mühüm yeri maarifləndirilmiş vətənpərvərliyin, humanizm və mənəvi amillərin, tolerantlıq prinsipinin etirafının tutmasıdır. Yaxın kemişdə bu amillərin əhəmiyyətini, vacibliyini heç də hamı

etiraf etmirdi. Lakin Heydər Əliyev əvvəlcədən yaxın gələcəyin necə olacağını görürdü. XX əsrin 90-cı illərinin sonunda, XXI əsrin əvvəllərində dünyanın ictimai şüurunda F. Fukuyamanın ideologiyaların və tarixin sonu haqqında, S. Hantinqtonun sivilizasiyaların toqquşması barəsindəki əsərləri hökm sürürdü. Və etiraf etmək lazımdır ki, bu alimlərin yazdıqlarından bir çox şey, hərçənd, bu, dünya üçün xeyirli olmasa da, reallaşdı. Məhz buna görə də bizim dövrümüzdə mənəvi və humanitar amillərin əhəmiyyəti üstünlük təşkil edir.

Ümummilli lider dəfələrlə bizi xəbərdar etmişdi ki, cəmiyyətimizdəki tolerantlıq və humanizm mühiti xalqımızın yaddaşı sayəsində mövcuddur. Bu mühit Azərbaycan xalqının dözümlülük və insanpərvərlik kimi yüksək mənəvi keyfiyyətlərinə əsaslanır. O, xalqın mədəniyyətinin tərəqqisinə, elmin, təhsilin inkişafına xüsusi önəm verirdi.

Müasir qloballaşma dövründə müstəqil dövlətçilik fəlsəfəsinin aktuallığını xatırlayanların sayı azdır. Bu mövzu XIX və XX əsrlərdə aktual idi. Bundan başqa, o vaxtlar bəşəriyyətin tərəqqi perspektivləri milli dövlət müstəqilliyi ilə əlaqələndirilmiş idi. Hegel və onun ardıcılları üçün siyasi dövlət vətəndaş cəmiyyəti və hüquq sistemiindən daha çox əhəmiyətə malik idi, onlarda söz ölkə və vətəndaşların ləyaqəti üçün əsas olmalı mənəvi kamilliyin, xüsusi növ azadlığın ən yüksək formasından gedirdi. Bu xətt ümummilli lider Heydər Əliyev siyasəti üçün həlledici idi və irsən o, Prezident İlham Əliyev üçün ən mühüm xətt olaraq qalır. Xatırlamaq kifayətdir ki, 2016-cı il "Multikulturalizm ili" elan olunub və ölkədə müxtəlif din və etnik qrupların nümayəndələri arasında sülh qorunub saxlanılır. Respublikada beynəlxalq humanitar forumları təşkil edilir. Təkcə 2016-cı ilin sentyabrında humanitar sahədə Azərbaycanın yüksək nüfuzunu bir daha təsdiq etmiş V Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Roma Papasının Bakıya səfəri bir daha göstərdi ki, Prezidentimizin həyata keçirdiyi ləyaqət siyasəti müxtəlif siyasi və ictimai qüvvələr tərəfindən bəyənilir və dəstəklənir.

Müstəqillik və azadlıq uğrunda mübarizəni güclü, özünə əmin olan insanlar aparırlar. Elələri də var ki, ondan qaçır və azadlıqdan qorxur, onlar digər dövlətlərin himayəsində olduqlarından razı qalaraq buna sevinirilər. Ölkə üçün azadlıq qazananlar dərk etməlidirlər ki, bundan sonra onu inkişaf etdirmək lazımdır. Müstəqillik müdrik, mərd, cəsarətli və intizamlı insanlara nəsib olur.

Xalq qəzeti.-2016.-18 oktyabr.-№229.-S.4.

Heydər Əliyev və Azərbaycanın müstəqillik konsepsiyası...

I yazı

İradə SARIYEVA

Azərbaycan Respublikasının dövlət müstəqilliyinə qovuşması üçün xalqımızın verdiyi mücadilələr, apardığı mübarizələr haqqında indiyə qədər çox müzakirələr açılıb. Xalqımızın mübarizə əzmi sayəsində ölkəmiz müstəqil dövlət olub.

1991-ci ilin 18 oktyabr tarixində Azərbaycanın Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktının qəbul olunması böyük tarixi hadisədir. Bilirik ki, 1993-cü ildən bəri hər il 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü kimi qeyd edilir.

Ölkəmizin öz suverenliyini qoruyub saxlamasında Azərbaycan Respublikasının sabiq Prezidenti, mərhum Heydər Əliyevin böyük əməyi, güclü siyasi iradəsi, yorulmaz fəaliyyəti önəmli rol oynayıb.

Heydər Əliyev hər zaman vurğulayırdı ki, Azərbaycanın müstəqilliyini qorumaq hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının borcudur. Onun "Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!" - fikri həqiqətən də tarixi bir deyim və həqiqətdir. Azərbaycançılığın ruhundan doğan dövlət müstəqilliyimiz bizim üçün dünyada ən böyük sərvətdir.

Tarixçilər vurğulayır ki, Heydər Əliyevin memarı olduğu Azərbaycan dünyada mütərəqqi bir ölkə kimi tanınır.

Heydər Əliyev deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır". Xalqımızın böyük oğlunun Azərbaycanla, onun müstəqilliyi ilə bağlı fikirləri hər zaman aktualdır. Heydər Əliyev bildirirdi: "Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün, harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur".

Tarixçilər, fikir adamları qeyd edir ki, XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının nəticəsi, titanik siyasi fəaliyyətinin bəhrəsidir. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının əsas istiqamətləri kimi müəyyənləşdirdi.

Tarixçilər vurğulayır ki, 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət gərginləşdi və hakimiyyət böhranı yarandı. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşır, fərarilik artırdı. Erməni təcavüzü gündən-günə güclənirdi. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1993-cü ilin yayında isə Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Vətənin belə ağır günündə xalq Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Heydər Əliyev çox qısa zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Tarixçilər qeyd edir ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıb. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılıb, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınıb, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunub.

Qeyd edilənə görə, Azərbaycanın daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanıb ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Tədqiqatçılar bildirir ki, Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulub, ölkədə cinayətkarlığın qarşısı tam alınıb, bütün qanunsuz silahlı dəstələr ləğv olunub. Bu da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaradıb. Azərbaycan dövlətçiliyinin

mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınıb, dövlət müstəqilliyi qorunub saxlanıb. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət alıb ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə də Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Tədqiqatçıların yazdığına görə, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulub. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olub.

Böyük öndər demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı.

Siyasi elmlər namizədi İlham İsmayılov Heydər Əliyev və Azərbaycanın Müstəqillik Konsepsiyası" məqaləsində yazır: "Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" - deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqətli, faciəli anlar, ağrılı günlər öz izini qoyub. Ulu öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapıb. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Doğrudur, ümummilli lider milli müstəqillik probleminə həsr edilmiş xüsusi elmi əsərlər yazmayıb. Lakin özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirib. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaradıb. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük.

Sxolastik düşüncə tərzini kəskin tənqid edən Heydər Əliyevin müstəqillik konsepsiyası mühüm nəzəri-praktik model kimi milli reallıqlarımızın və bu reallıqların xarici faktorlarla şərtlənməsinin analitik, yaradıcı dərkinin məhsuludur. Odur ki, biz Heydər Əliyevin müstəqillik konsepsiyasının formalaşmasının ilkin şərtləri olan xarici və daxili faktorlara toxunmaq istərdik.

Kontinental imperiya olmuş Sovetlər İttifaqının dağılmasından sonra "soyuq müharibə", "qorxunun tarazlığı", "nüvə qışı" kimi düşüncələri narahat edən metaforik ifadələrin qlobal siyasi şüurdan hələ tam psixoloji mənada sıxışdırılmadığı bir beynəlxalq şəraitdə Azərbaycan Respublikasının dünya inteqrasiya proseslərinə qoşulması hakimiyyətə qayıdışının ilk günlərindən ulu öndərin başlıca və ardıcıl dövlətçilik idealı olub".

İ.İsmayılov qeyd edir ki, konsepsiyanın beynəlxalq dəyərindən söhbət salarkən belə bir tarixi paraleli xüsusi göstərmək lazımdır ki, Heydər Əliyev milli varlığımızın təminatı olan müstəqillik konsepsiyasını işləyərkən sabiq Fransa prezidenti F.Mitteranın Avropa konfederasiyası, ABŞ prezidenti C.Buşun (ata) bütöv demokratik Avropa, Almaniyanın xarici işlər naziri Q.Qenşerin Avropada yeni dünya nizamı haqqında konseptual mülahizələri irəli sürülürdü. Deməli, Azərbaycan üçün o dövrdə öz müstəqilliyini təsdiq etdirmək dünya birliyinə tədricən inteqrasiya etmək zərurəti idi. Alim vurğulayır ki, bu mənada müstəqillik konsepsiyasını zamanın konkret sosial-siyasi vəziyyət məcrasında nəzərdən keçirmək lazımdır: "Məsələ burasındadır ki, konsepsiyanın işləndiyi ziddiyyətli dövrdə, yəni Azərbaycanda 80-ci illərin sonu və 90-cı illərin əvvəlində fərdi, ictimai və milli şüur haçalanmışdı. Kütləvi şüurda qarşıdurmaya və başdan-başa dağıdıcılığa olan meyl sosial həyatın təşkilinin pozitiv prinsiplərini üstələyirdi. Sovet rejiminin struktur böhranının tələblərini analitik təhlil edən Heydər Əliyev görürdü ki, 1989-cu ildən başlayaraq yenidənqurmanın əsas problemlərinin həllinin uğursuzluğa düçar olması nəticəsində ölkə uçurum qarşısındadır.

Yeniliklərlə ayaqlaşan idarəçilik konsepsiyasının olmaması və rəhbərliyin açıq-aşkar zəifliyi və acizliyi ucbatından yenidənqurmanın "sosializmi yeniləşdirmək" kimi ritorik nəzəriyyəçiliyə aludə olmuş Moskva "memarları" tarixi məqamı ötürmüş, mərkəzin yeni orqanları isə səriştəli qərar qəbul etmək qabiliyyətini itirmişlər. Belə halda, onların fikrincə, kontinental imperiyanın iflası daha geniş miqyas, qlobal xarakter alacaq və bu, yeni demokratiyaların müstəqillik uğrunda mübarizəsinə qlobal təsir göstərəcəkdir. Sonralar dünya miqyasında baş verən qlobal transformasiya prosesləri, onların yeni demokratiyaların formalaşmasına təsiri ulu öndərin müdrik uzaqgörənliyini təsdiq etdi. Bəs Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlığı və həyatiliyi nədədir? Bunun nəzəri fikir tariximizdə yeri və önəmliliyini şərtləndirən amillər hansılardır?

Birincisi, özünün müstəqillik konsepsiyasını işləyərkən ulu öndər konkret və real cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ilə bağlı real Azərbaycan gerçəkliyindən çıxış edirdi. Lakin o həmişə "qlobal düşünüb lokal hərəkət etmək lazımdır" prinsipinə riayət edərək Azərbaycan xalqının müstəqilliyinin qorunmasını dünya hadisələri məcrasında həll etməyə çalışıb. Təcrübəli dövlət başçısı diplomatiyanın belə bir ümdə prinsipindən çıxış edib ki, daxildə aparılan nadan və səriştəsiz siyasət ölkənin nəinki dünya birliyinə daxil olmasına mane olur, daha çox, məsələn, Azərbaycanın nümunəsində götürsək, xaricdə onun başına gələn müsibətlərə laqeyd münasibət yaradır. Xalqımız cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə ölkəmizdə baş verənlərin timsalında bunun şahidi olub. Dünya proseslərindən kənarda qalmağın xalqın tarixi şüuruna, onun milli identifikasiyasına vurduğu mənəvi ziyanı başa düşmək çətin deyil. Daxildə isə bu, xalqın etimad hissini öldürmək, onun dövlətçiliyinə olan inamını şərəfsizcəsinə qırmaq deməkdir. Bu mənada Heydər Əliyevin əqidəsincə, milli müstəqillik millətin mədəniyyətini, iqtisadiyyatını, elmini, incəsənətini inkişaf etdirməklə özünürealizə və özünütəsdiq üçün şərait yaratmaq və bununla başqa dövlətlərdən asılılığı minimuma endirmək deməkdir, çünki prinsipcə, bütün dünya dövlətləri inteqrasiya şəraitində bir-birindən asılıdır".

Bakı xəbər.-2016.-18 oktyabr.-№186.-S.15.

Müstəqilliyimizi əbədi və dönməz edən dahi

Fəxrəddin Məmmədov,
Azərbaycan Tibb Universiteti İctimai fənlər kafedrasının professoru, tarix elmləri doktoru.

Bu gün Azərbaycan respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illik yubileyini təntənə ilə qeyd edirik. Bu xalqımızın çox böyük tarixi nailiyyəti və əziz bayramıdır. Çünki Azərbaycan xalqı əsrlər boyu müstəqillik arzusu ilə yaşamış, öz azadlığı uğrunda çox böyük çarpışmalardan keçmişdir. Beş min illik bir tarixlə ölçülən dövlətçiliyimiz azman tarixin müəyyən dönəmlərində xarici basqınlar, işğallar nəticəsində itirilmiş, lakin çox böyük qanlar bahasına dönə-dönə bərpa edilmiş, yaşı yüz illərlə ölçülən dövlətlərimiz olmuşdur. Onlardan min illik tarixi olan Şirvanşahlar dövlətimiz, əsl fəxr yerimizdir.

XIX əsrin əvvəlləri üçün xalqımız yenə də dövlətçiliyini, müstəqilliyini itirdi. Məmləkətin şimal hissəsi çar Rusiyasının müstəmləkəsinə çevrildi, cənubu isə şah İranının istibdadı altına düşdü. İstər şimalda, istərsə də cənubda vətən oğulları dəfələrlə ayağa qalxdı, müstəmləkəçiliyə, isdibdada qarşı ölüm-dirim savaşına girdi və nəhayət, XX yüzilliyin əvvəlində Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı, xalqımız öz müstəqilliyini dünyaya bəyan etdi. 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikası xalqımızın çoxəsrlik arzusunun həyata keçirilməsinin ilk addımı oldu. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın beynəlxalq hüquqa və demokratiyaya əsaslanan dövlət qurmaq əzmini dünyaya bəyan etmək yolunda bir çox tədbirlərini gördü.

Təəssüflə qeyd edilməlidir ki, ovaxtkı tarixi şərait üzündən Azərbaycan Demokratik Respublikası çox yaşamadı. Cəmi 23 ay fəaliyyət göstərdi və XI qırmızı ordunun hücumu, erməni xəyanəti, bolşevizmin xalqı tutduğu yoldan sapdırması nəticəsində suqut etdi. O vaxt Azərbaycanda sovet hakimiyyəti quruldu, Azərbaycan sovet imperiyasının boyunduruğu altına düşsə də, bu dövr xalqımız üçün bir çox eybəcərlikləri nəzərə almasaq, əhəmiyyətli və məhsuldar mərhələ oldu. O, yaşadı, yaratdı və mövcud iqtisadi, sosial-siyasi sistem daxilində öz həyatını qurdu, inkişaf etdirdi. Bununla belə Azərbaycan xalqının qəlbində azadlıq ruhu, müstəqillik ruhu sönmədi, daim yaşadı.

Tariximizin ağır anlarında Böyük Yaradan öz seçimini edir və xalqa öz xilaskarını bəxş edir. Onların da həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Zaman keçdikcə, Böyük Yaradan tərəfindən seçilmişlər dövrünün fövqünə yüksələrək, layiq olduqları yeri tuturlar. Belə nadir şəxsiyyətlərdən biri də ötən əsrin və yeni minilliyin görkəmli siyasi dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. O, billur kimi saf əməlləri ilə bütün ömrünü doğma xalqına həsr etdiyinə görə dahilik zirvəsini fəth etmiş və əbədiyaşarlıq qazanmış, azman tariximizə öz şərəfli adını qızıl hərflərlə yazmışdır. Dahilik sadə bir söz deyildir. O, yüksək düşüncə bacarığına malik olmaqla yanaşı, əql-qüdrət sahiblərinin öz ömür yollarında qazandıqları ən kamil davranış vərdişi, milli-mənəvi dəyərlərə sadiqlik, bir çox ideyaların sirlərini mənimsəmə qabilliyyəti və onları həyata tətbiq etmək bacarığıdır. Bütün bunlarsa ağılın gücündən, qüdrətindən məharətlə istifadə etmək bacarığı olan düşüncəli insanların şəxsiyyətini bütövləşdirən amillərdir.

Azərbaycan xalqının taleyüklü hadisələrlə dolu 30 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində o, Azərbaycanı zamanın sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisinə nail olmuş qüdrətli səxsiyyətdir. O, XX və XXI əsrin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdı. Ulu öndər xalqının milli sərvəti, onun bəxtinə düşmüş tanrı payıdır. ABŞ-nın keçmiş prezidenti Corc Buş bu dahi şəxsiyyəti belə xarakterizə etmişdir: "Heydər Əliyev kimi liderlərlə işləmək şansı əldə etdiyimə görə çox minnətdaram. O, Cənubi Qafqazda uzun müddət ərzində əsas şəxsiyyət olmuşdur". Rusiya Federasiyasının prezidenti Vladimir Putin isə onun haqqında ən səmimi fikirlərini söyləmişdir: "Mən Heydər Əlirza oğluna, sadəcə münasibət bəsləmirdim, ona məhəbbət bəsləyirdim, ona məhəbbətlə yanaşırdım. Mübaliğəsiz deyə bilərəm ki,o, siyasət nəhəngidir".

1969-cu ilin iyulundan Azərbaycana rəhbər təyin olunmuş Heydər Əliyev keçmiş SSRİ-də baş verən proseslərin hansı müstəvidə inkişaf edəcəyini uzaqgörənliklə qiymətləndirir, gələcək müstəqil dövlətin siyasi-iqtisadi bazasının, kadr potensialının yaradılmasına böyük səylə çalışırdı. Ulu öndər yüksək isdedadı və uğurlu siyasəti nəticəsində SSRİ-də hakimiyyətin yüksək zirvələrinə qədər ucalmış və bu imkanlardan xalqının ictimai-iqtisadi tərəqqisi, milli oyanışı üçün məharətlə istifadə etmişdir. Onun təşəbbüsü və siyasi iradəsi sayəsində Azərbaycanın iqtisadiyyatını yenidən qurmaq, inkişaf etdirmək üçün 1977-ci illərdə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin beş mühüm qərarı qəbul edildi. İqtisadiyatda, sənayenin qabaqcıl mütərrəqi sahələri,maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada, neft və qaz hasilatı, energetika, qara metallurgiya və digər mədən sənayesində yenidənqurma prosesləri ilə eyni vaxtda struktur siyasətinin prinsipial şəkildə yeni istiqamətləri işlənib hazırlandı.

70-80-cı illərdə Azərbaycan iqtisadiyyatının böyük yüksəlişi ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbüsü, inadlı fəaliyyəti sayəsində mümkün olmuşdur. Çünki Heydər Əliyev o zaman yaşadığımız bu günləri görürdü. Yeni Azərbaycanı hələ o vaxtdan qurmağ başlamışdı.

Həmin dövrdə Heydər Əliyev kommunist rejiminin xalqımıza etdiyi haqqsızlıqlara qarşı cəsarətlə mübarizə aparırdı, rejimin ağır təqiblərinə, xalqın çəkdiyi əzablara cavab olaraq uzaqgörən kəskin addımlar atırdı. Xüsusən də kommunist rejiminin havadarlıq etdiyi ermənilərin Azərbaycanın hüquqlarının pozulmasına qarşı yönələn bütün cəhdlərinin qarşısı alındı, onların 70-80-cı illərdə bir neçə dəfə qabartmış olduqları Dağlıq Qarabağın statusu məsələsi Heydər Əliyevin atmış olduğu qətiyyətli addımlar nəticəsində dəf olundu.

Ölkə rəhbəri kimi fəaliyyətə başladığı ilk günlərdən Heydər Əliyevin irəli sürdüyü və həyata keçirdiyi əsas məsələ Respublikada milli dəyərlərin qorunması, ədəbiyyata, mədəniyyətə, ana dilinə qyğı olmuşdu. Onu rəhbərliyi altında hazırlanmış Azərbaycan SSR-in yeni konstitusiyasında xalqın mənəvi sərvəti olan ana dilinin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə Azərbaycan dili Respublikada dövlət dili statusunu aldı.

1982-1987-ci illərdə Heydər Əliyev SSRİ rəhbərliyində Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi yüksək vəzifələrdə çalışmışdı. Bu dövrdə Kreml rəhbərləri, xüsusən də M.Qorboçov Heydər Əliyevi özlərinə həmişə rəqib hesab edirdilər. Buna da əsas səbəb onun azərbaycanlı olması idi, bundan da əlavə onun zəngin, tükənməz hərtərəfli dövlət idarəçiliyi isdedadının qarşısında kremlin savadsız və səriştəsiz rəhbərlərinin acizliyi idi. Nəhayət, 1987-ci ildə M.Qorboçovun fitnəkar niyəti ilə xalqın sevimlisi Heydər Əliyev tutduğu vəzifələrdən uzaqlaşdırıldı. Bundan kremldə əyləşən erməni çinovnikləri və Ermənistan rəhbərliyi məharətlə istifadə etdi. Erməni fitnəkarları Dağlıq Qarabağın statusu məsələsini nəinki qabartdılar, daha da irəli gedərək Erməni fitnəkarları onu Ermənistana birləşdirmək çəhdini etdilər.

1987-1990-cı illər ərzində ulu öndər Heydər Əliyev kreml rəhbərləri tərəfindən edilən təzyiqlərə baxmayaraq,xalqın qabaqcıl nümayəndələri və ziyalılarımızla sıx əlaqə saxlamış, SSRİ- nin dağılmaqda olduğu şəraitdə öz vətəni üçün çıxış yolları axtarmışdı. Öz qanuni hüquqlarının təmin olunmasını tələb edən insanların 1990-cı ilin 20 Yanvarında sovet ordusu tanklarının altında əzildiyi, Azərbaycan rəhbərliyinin qaçıb gizləndiyi bir vaxtda Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bütün dünyaya öz sözünü dedi. Heydər Əliyev çıxışında 20 Yanvar faciəsinə siyasi qiymət verərək, kütləvi qırğına göstəriş verənlərin, törədənlərin cəzalandırılmasını tələb etdi. Bununla da o, bütün təzyiqlərə baxmayaraq, daima xalqının yanında olduğunu və doğma xalqının dərdinə şərik olduğunu göstərdi. Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. O, belə bir ağır gündə xalqını həmrəyliyə və birliyə çağırdı. Təklənən, heç nəyə əli çatmayan xalqın qəlbində ümid çırağı yandı. Əhalinin müstəqillik arzusunda olduğu bir vaxtda Azərbaycanın ovaxtki rəhbərliyi xalqın iradəsinə zidd olaraq martın 17-də respublikanın guya Sovetlər İttifaqı tərkibində qalması barədə biabirçı referendum keçirdi. Bir çox ciddi cəhdlərə baxmayaraq, Sovetlər İttifaqının süqutunun qarşısını almaq mümkün olmadı. Ulu öndərin təbirincə desək, "İkinci Dünya Müharibəsindən sonra bir çox imperatorluqlar ardıcıl surətdə dağıldığına görə belə böyük imperiya da, sovetlər imperiyası da dağılmağa məhkum idi, dağılacaqdı və dağıldı da".

Demokratik qüvəllərin təzyiqi altında 1991-ci il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında Bəyannamə qəbul olundu. 1991-ci il oktyabrın 18- də isə, 25 il bundan öncə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi. Bununla da Azərbaycan müstəqil bir dövlət kimi özünü dünyaya bəyan etdi. Bu, çox böyük tarixi hadisə,xalqımızın həyatında yeni bir dönüş nöqtəsi idi. Bununla da xalqımız inkişaf etmiş dövlətlər sırasına çıxmaq, ölkəni dünyaya tanıtmaq imkanı əldə etdi. Lakin təəsuflər olsun ki, bu sevincimiz içərisində çox acılı, məşəqətli günlərimiz də oldu. Müstəqilliyin əldə olunmasından sonra onu qoruyub saxlamaq, demokratik cəmiyyət formalaşdırmaq ən böyük vəzifə olaraq qarşıda dururdu. 1991-1993-cü illərin xaosu buna ən böyük maneə idi. Eyni zamanda, Ermənistan tərəfindən hələ 1988-ci ildən başlanmış hərbi təcavüz bu illərdə daha da güclənmişdi. Belə bir hal həm respublikamızın daxilində olan vəziyyəti gərginləşdirmiş, həm də Azərbaycanın xarici siyasətinə çox böyük maneələr törətmişdi. Bu müharibə dövründə buraxılmış böyük səhvlər və ayrı-ayrı qrupların xalqımıza qarşı etdiyi xəyanətlər nəticəsində ölkə ərazisinin 20 faizi erməni silahlı qüvələri tərəfindən işğal olunmuş, bir milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. Çox təəssüf ki, bu illər ərzində xalqın qüvvəsini toplayıb düşmənə qarşı mübarizə aparmaq, beynəlxalq aləmdə Azərbaycanın mövqeyini möhkəmləndirmək əvəzinə, respublikamızın daxilində ayrı-ayrı qüvvələr hakimiyyət mübarizəsi ilə məşğul olmuşlar. Onlar vəzifə hərisliyinə düşərək öz mənafeylərini ümummilli mənafeylərdən üstün tutaraq respublikada qarışıqlıq yaratmağa çalışmış, ölkəni vətəndaş müharibəsi həddinə çatdırmış, parçalanma, müstəqilliyin itirilməsi, dünya xəritəsindən silinmə təhlükəsi ilə üz-üzə qoymuşdular. Belə bir şəraidə xalqın, ölkənin güclü bir liderə ehtiyacı yarandı. AXC liderləri arasında hakimiyyət uğrunda mübarizə getdiyi bir vaxtda Heydər Əliyevin rəhbərliyi altında vətənpərvər partiyası olan Yeni Azərbaycan Partiyası yarandı. Xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı ölkədə vətəndaş müharibəsi, dövlətçiliyimizin itirilməsi təhlükəsini aradan qaldırdı. Bununla da ulu öndərin Vətən naminə mücadiləsində yeni dövr başlandı.

Bu gün bayram etməyə hazırlaşdığımız dövlət müstəqilliyinin bərpasından 25 il keçir. Xalq yaxşı dərk edir ki, Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtmasaydı, yenidən bərpa edilmiş müstəqilliyimizin tarixi elə 1993-cü ildə başa çatmış olacaqdır. Xilaskar missiyasını öz ciyinləri üzərinə götürmüş ulu öndər məmləkətimizi azadlığımızı iflazdan xilas etdi. Azman tarixin təcrübəsindən aydındır ki, ən kəskin məqamlarda, millətin taleyi həll olunduğu, xüsusi ilə azadlıq yolunu seçdiyi və bu yolda minlərlə şəhid verdiyi zaman kəsiyində xalqın liderlərə böyük ehtiyacı olur. Əlbəttə söhbət təkcə xalqın azadlıq mücadiləsində tökülən qanlara hazır olmasından deyil, həm də dövlət müstəqilliyi uğrunda verilən qurbanların ucalığını qiymətləndirməyi bacaran, onu qoruyub saxlamağı, millətin ulu məqsədinə qovuşmasını təmin edən dövlət başçısından gedir.

Həmin dövr Azərbaycan cəmiyyəti üçün zəruri və həyatı əhəmiyyət kəsb edən başlıca problem ondan ibarət idi ki, ölkədə anarxiya meyllərinin qarşısı alınsın və sabilik bərpa edilsin. Aydındır ki, siyasi sabitlik olmadan cəmiyyətin digər problemlərini həll etmək mümkün deyildi. Başıpozuq hərbi birləşmələrin buraxılması, ordu quruculuğuna ciddi şəkildə başlanılması, dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınması siyasi sabitlik sahəsində görülən mühüm tədbirlər idi. Ulu öndər siyasi sabitliyi yüksək dəyərləndirirdi: "Azərbaycanda hər bir şəxs, hər bir partiya, milli birlik vətəndaş həmrəyliyi istiqamətində hərəkət etməli, fəaliyyət göstərməlidir. Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirmək yox, yaranmış sabitliyi daha da möhkəmləndirmək lazımdır. Çünki bu Azərbaycanın yaşaması, onun müstəqilliyinin qorunması üçün əsas şərtdir".

Siyasi sabitliyin ardınca köklü islahatlar gəlməli idi və Heydər Əliyev bu yöndə növbəti uğurlu addımlarını atdı. "Əsrin müqaviləsi"nin bağlanması, özəlləşmə və torpaq islahatlarının həyata keçirilməsi, mühüm qanunların qəbul edilməsi, əhalinin maddi-rifah halının yaxşılaşdırılması, iqtisadiyyatın bərpa edilib inkişaf və yüksəliş yoluna düşməsi elmimizin, mədəniyyətimizin, təhsilimizin inkişafı məhz ölkədə əldə edilən sabitliyin nəticələri idi.

O, heç vaxt xalqa fantastik və populist vədlər vermirdi, əksinə real vəziyyəti və konkret şəraitdə əldə edilə biləcək nəticələri olduğu kimi təqdim edirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik, qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm və iradə verib və bütün uğurlarımı təmin edib".

Ulu öndərin neft strategiyası ölkə üçün böyük əhəmiyyət kəsb edirdi. Heydər Əliyev zəkasının, onun gərgin, inadlı fəaliyyətinin nəticəsi olan Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin, həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin region ölkələri üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyi göz qabağındadır.

Heydər Əliyev Azərbaycanın Respublikası üçün Şərq-Qərb dəhlizi açdı. Böyük İpək Yolunun bərpası Azərbaycanı dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevirdi. Böyük İpək Yolunun bərpası təkcə Azərbaycanın deyil, bütün türk dünyasının iqtisadi-mənəvi oyanışında misilsiz rol oynadı.

Həyatın ən mühüm sahələrindən birini təşkil edən səhiyyədə ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra gördüyü işləri xatırlamamaq mümkün deyil. Ulu öndər həmişə olduğu kimi yenə də səhiyyə sistemimizin yenidən qurulmasına, onun bazar iqtisadiyyatına uyğunlaşdırılmasına xüsusi qayğıyla yanaşırdı. Səhiyyə sistemimizdə yenidənqurma və islahatların keçirilməsi üçün ilk növbədə onun hüquqi bazası yaradılmalı idi. İslahatların hüquqi bazasının yaradılmasında ulu öndərin təşəbbüslərinin və əməyinin rolu xüsusi ilə qeyd edilməlidi. Bu sahədə ilk addım 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikasının referendumunda qəbul edilmiş Azərbaycan respublikasının konstitutsiyasında öz əksini tapdı. Konstitusiyanın "Sağlamlığın qorunması hüququ" adlı 41 -ci maddəsində deyilir:

1. Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

2. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkan yaradır.

3. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən bütün faktları gizlədən vəzifəli şəxslər qanun əsasında məhsuliyyətə cəlb edilirlər.

Ulu öndərimizin Azərbaycanın çiçəklənməsi, yüksək səviyyədə inkişaf etməsi üçün həyata keçirdiyi islahatlar təkcə iqtisadi sferanı deyil, mədəni həyatımızı da əhatə etmişdi. Azərbaycanın böyük simaları Fizulinin, Üzeyir Hacı bəylinin, Səməd Vurğunun, Cəlil Məmmədquluzadənin və digərlərinin beynəlxalq səviyyədə keçirilən yubileyləri, bir çox incəsənət adamlarının, şairlərin yaradıcılıq gecələri məhz ulu öndərin şəxsi qayğısı himayəsi ilə həyata keçirilmişdir.

Dövlət Müstəqilliyimizin bərpasından sonra, ulu öndərin ikinci dəfə hakimiyyətə qaydışı, on il respublikaya rəhbərliyi müasir tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş və əsrə bərabər tutulan bu illər ərzində Azərbaycan Böyük inkişaf yolu keçmiş, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə böyük uğurlar qazanmışdı. O, müəllifi olduğu müstəqil Azərbaycanı həmişəyaşar, əbədi etmişdir.

Heydər Əliyev dövlətçilik ənənələrinin qorunub saxlanılmasına, onun müəyyənləşdirdiyi kursun siyasi varisliyinin təmin olunmasına xalqın ciddi əhəmiyyət verməsi məhz bu məntiqə söykənirdi. Cəmiyyətdə qəti

olaraq belə bir rəy formalaşdı ki, cənab İlham Əliyev ulu öndərin siyasi kursunun müəyyənləşdirdiyi prioritetlərin varisliyini təmin edə biləcək alternativsiz şəxsidir.

Ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin siyasi fəaliyyət fəlsəfəsi ondan ibarətdir ki, o, mövcud reallıqları obyektiv və operativ olaraq qiymətləndirməyi bacarır, sosial sifarişə uyğun cevik qərarlar qəbul edir. Xususilə ölkənin sosial-iqtisadi problemlərinə onun münasibəti daha həssasdır. Prezident İlham Əliyev həm də istedadlı strateq olaraq Azərbaycanın geosiyasi mövqeyini düzgün qiymətləndirir. Prezidentin siyasi-psixoloji portretinin əsasını təşkil edən komponentlər onun Azərbaycan və dünya siyasi arenası üçün uğurlu sima olduğunu birmənalı olaraq sübut etdi. Möhtərəm prezident bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə həm də yeni nəfəs, siyasi ruh və müasirlik gətirdi. Ulu öndərin ərməğan qoyub getdiyi dövlət müstəqilliyimizi daha da möhkəmləndirdi, onun əbədiliyi, dönməzliyini dünyaya bir daha bəyan etdi. Tam əminik ki, qərinələr ötəcək, əsrlər keçəcək nəsillər dəyişəcək, dövlət müstəqilliyimizlə ümummilli lider Heydər Əliyevin adı qoşa çəkiləcəkdir. Yazımızı ulu öndərin dövlət müstəqilliyimizə verdiyi dəyərlə bağlı sözləri ilə tamamlayırıq: "Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan dövlətçiliyinin müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, Müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

Respublika.-2016.-18 oktyabr.-№229.-S.12.

День независимости

25 лет назад Азербайджан вступил на путь суверенного развития

Айдын Байрамов

Азербайджан празднует 25-летие своего суверенитета. 18 октября 1991 года, с принятием парламентом страны Конституционного акта о государственной независимости, было положено начало современной Азербайджанской Республике.

Как для каждого народа, День независимости имеет священную ценность и для азербайджанцев. Он напоминает нам, что мы есть как единый народ, доказавший себе и всему миру свое право жить свободной жизнью.

Наше государство восстановило свою независимость спустя 71 год после падения Азербайджанской Демократической Республики. Современная Азербайджанская Республика провозгласила себя преемницей АДР и в этом качестве не только приняла ее государственную атрибутику (флаг, герб, гимн), но и объявила себя носительницей демократических идеалов, провозглашенных нашей страной еще в 1918 году.

Последние 25 лет в жизни нашего народа настолько значимы с точки зрения укрепления национального суверенитета, что могут быть сопоставимы с целой эпохой. За эти годы мы стали в подлинном смысле нацией-государством, определяющим свой путь развития, достойно участвующим в глобальной политике. И это при том, что в начальный период независимости перед Азербайджаном неумолимо стоял вопрос выживания.

В 1991-1993 годах невиданный размах приняла армянская агрессия, направленная на завоевание Карабаха. Внутри самого Азербайджана царили политическая нестабильность, экономический кризис, социальная напряженность. К этому примешивалось и давление определенных внешних сил, не жалевших усилий для того, чтобы Азербайджан свернул с пути свободы. Пути, который был освящен кровью жертв 20 января и карабахской трагедии…

Так что одного провозглашения независимости оказалось недостаточно для реального самоутверждения азербайджанского государства. Этой задачи удалось достичь после того, как к руководству страной во второй половине 1993 года вернулся общенациональный лидер Гейдар Алиев. Его громадный политический опыт и талант государственника позволили в кратчайшие сроки восстановить стабильность в стране, укрепить фундамент азербайджанской независимости. За сравнительно короткий период времени с мнением и волей Азербайджана стали считаться все ведущие силовые центры международной политики. Наша страна превратилась в ключевое государство на Южном Кавказе, а с реализацией проекта ОЭТ Баку–Тбилиси–Джейхан, который сам Гейдар Алиев считал своим «детищем», других крупных экономических проектов закрепилась в качестве одной из связующих опор интеграции на Евразийском перекрестке и пространстве Великого Шелкового пути.

Стратегическое сотрудничество Азербайджана с НАТО и другими евроатлантическими структурами, участие нашей страны в деятельности международных антитеррористических коалиций позволили ей укрепить свои политические позиции в диалоге с Западом. Заложенная Гейдаром Алиевым сбалансированная внешняя политика, которую успешно продолжает президент Ильхам Алиев, превратила нашу страну в важнейший фактор регионального мира, без которого невозможно себе представить формирование новой системы безопасности на Кавказе и в Прикаспии.

Конечно, 25 лет независимости, с учетом столь небольшого отрезка времени, не могли увенчаться разрешением всех насущных для Азербайджана проблем. Предстоит приложить еще много усилий, прежде чем мы достигнем всех целей, ради которых встали на путь национальной независимости. «Мы усиливаем нашу экономику, политическую систему, — отметил в одном из своих интервью президент Ильхам Алиев. — Наша цель — стать развитой страной. Без сильных демократических институтов это невозможно. Поэтому в Азербайджане одновременно осуществляются политические, демократические и экономические реформы. Мы придаем большое значение дальнейшему росту уровня жизни, ликвидации бедности и безработицы, созданию мощного среднего слоя, сильного частного сектора. А это, в свою очередь, способствует экономической и политической свободе».

В только что изданном 32-м томе многотомника «Ильхам Алиев. Развитие — наша цель» процитированы, в частности, слова главы государства о том, что «мы должны беречь нашу страну, защищать и укреплять независимость Азербайджана». «Мы делаем и будем делать все, что нужно для обеспечения национальных интересов нашей страны.., — подчеркивает он. — Наша общая цель должна состоять в том, чтобы защищать интересы нашей страны, защитить ее от всех бед, продолжить

стабильность и развитие. Азербайджанский народ должен жить в условиях мира, спокойствия, безопасности и благополучия».

Конечно, главная цель, стоящая перед азербайджанским государством, — скорейшее восстановление своей территориальной целостности, освобождение оккупированного Арменией Карабаха. Дай Бог, эта цель будет достигнута в скором времени и мы водрузим трехцветный флаг нашей Родины во всех городах и селениях родного Карабаха! Залогом нашей уверенности является мощь азербайджанского государства и его доблестных Вооруженных сил, доказавших в ходе масштабных военных действий в апреле нынешнего года способность успешно решать любые боевые задачи. В течение четырех дней рухнула хваленая вражеская «линия обороны» и азербайджанской армии удалось вернуть под свой контроль ряд стратегических позиций на оккупированных землях.

Как заявил президент Ильхам Алиев на заседании Кабинета министров, посвященном итогам социально-экономического развития за девять месяцев 2016 года, Азербайджан никогда не согласится признать независимость Нагорного Карабаха — неотъемлемой части нашей страны.

Вчера в Центре Гейдара Алиева в Баку был устроен официальный прием, посвященный 25-й годовщине восстановления государственной независимости Азербайджанской Республики. В официальном приеме принял участие президент Ильхам Алиев, который выступил с речью, посвященной достижениям Азербайджана за последние четверть века, ознаменовавшиеся утверждением государственной независимости нашей страны.

Азербайджанские известия.-2016.-18 октября.-№ 113.-С. 1.

Müstəqil dövlətçilik fəlsəfəsi

Dövlət müstəqilliyimizin bərpası – 25

İlham Məmmədzadə,
AMEA Fəlsəfə İnstitutunun direktoru, professor

Azərbaycan Prezidenti, möhtərəm İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bəyan edib: " Biz 25 ildir ki, müstəqil yaşayan ləyaqətli ölkəyik". Əslində, Prezidentimizin bu sözlərində həm dərin məna var, həm də müstəqil dövlətimizin dərin, çoxmənalı fəlsəfəsi öz əksini tapıb. Düzdür, bu gün dünyada təxminən 200 müstəqil dövlət vardır, lakin, əlbəttə, heç də onların hamısı müstəqillik fəlsəfəsinə malik deyil. Çoxu yalnız başqa dövlətlərin təsiri altındadır.

Biz ancaq onu vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti zəmanəmizin yeni çağırışını dəqiq ifadə etdi: böhranlar, münaqişələr və böyük güclü dövlətlərin ikili standartları şəraitində yalnız o dövlət müstəqil olacaq ki, onun öz ləyaqət fəlsəfəsi olsun. Onu da qeyd edək ki, bu keyfiyyəti azərbaycanlılar tarixən həmişə yüksək qiymətləndiriblər. Buradan filosofların, dövlət fəlsəfəsi üzrə mütəxəssislərin, sosial fənlər üzrə alimlərin qarşısında müstəqil dövlət fəlsəfəsinin aktuallığı barədə, müasir dövrdə müstəqillik və ləyaqət haqqında, dövləti cansız mexanizm kimi qəbul edərkən tərəqqi etməyin mümkün olmadığı barədə düşünmək vəzifəsi irəli gəlir.

Əlbəttə, müstəqillik mürəkkəb, çoxtərkibli anlayışdır, onu yalnız milli-azadlıq hərəkatı və azadlığın əldə olunması ilə məhdudlaşdırmaq olmaz. Öz tale və həyatını Vətənin azadlığı uğrunda qurban vermiş bir çox azərbaycanlı nəsillərin qarşısında biz baş əyməliyik. Fəqət, bu gün formal cəhətdən müstəqil, lakin, əslində, müstəqillikdən məhrum olan bir sıra dövlətlər vardır. Prezidentimiz bizi dövlətimizin ləyaqətini qoruyub saxlamağa çağırır, bu isə sadə çağırış, vəzifə deyil və bizim hamımızdan məsuliyyət və müəyyən etika, ola bilər, davranış standartlarını seçməyi tələb edir.

Elm aləmində bu məsələlərə həsr olunmuş işlər azdır. Yəqin həm də ona görə ki, böyük dövlətlər yerdə qalanları onların geosiyasi məqsəd və planlarının həyata keçirilməsinə, onları qane edən dünya nizamını yaratmağa mane olmamasını istərdi. Lakin problem getdikcə aktuallaşır. Və o, dövlətlərin müasir qarşılıqlı asılılığı, inteqrasiya axınları şəraitində dövlətimizin əsl müstəqilliyini tam reallaşdırmağa yol verən dünya nizamının bərqərar edilməsi üçün şərait, qüvvə, imkan tapmaqdan ibarətdir. Bunun üçün iqtisadi qərarlar qəbul etmək, siyasi sistemi islah etmək, cəmiyyətin mədəni və maarif potensialını artırmaq, texnologiyaları inkişaf etdirmək, dövlətin ərazi toxunulmazlığının qorunub saxlanılmasını, yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün tərəfdaş dost dövlətlərin sayının artırılmasını təmin edən xarici siyasət həyata keçirilməlidir. Dövlətimizin kompleks şəkildə tətbiq etdiyi bu tədbirlər öz mənafeyini, dəyərlərini, hüquqlarını qorumağa imkan verir ki, elə məhz bu da ləyaqətli müstəqillik deməkdir.

Aydındır ki, bu məsələlər qlobal, böyük dövlətləri az maraqlandırır, lakin qalan dövlətlər həmin anlayışlara məna verən siyasət aparmasa, nəhəng dövlətlərin pressinqinə tab gətirməyəcək. Müasir Avropa İttifaqının təcrübəsi inteqrasiya edənlər üçün də, inteqrasiya axınlarından müəyyən məsafədə duranlar üçün də müstəqilliyin zəruri olduğunu aydın şəkildə göstərir Əlbəttə, bu, başqalarına qarşı avtarkiya siyasətini (tam müstəqilliyi nəzərdə tutan qapalı iqtisadiyyat) aparmağın lazım olduğu demək deyil, bu, dövlətin başqaları illə öz dəyər və maraqlarına hörmətlə yanaşaraq münasibətlərdə olması deməkdir.

Siyasət aləmi çoxçeşidli, dəyişkəndir, siyasi arenada müxtəlif dövlətlər də mövcuddur. Müstəqillik uğrunda mübarizənin mənası bu özünəməxsusluğun qorunub saxlanmasından ibarətdir. Kimsə keçən əsrin 80-ci illərinin axırlarında hesab edə bilərdi ki, dövlət yalnız mexanizmdir, lakin indi aydındır ki, dövlət mexanizm deyil, daha mürəkkəb bir fenomendir. Bunu öz dövlətçiliyini itirənlərin, qaçqın və miqrant olanların taleyi göstərir. Bu halda dövlətin ləyaqəti başqa dövlətlərə, onların maraq və dəyərlərinə tam hörmətlə yanaşaraq, onlarla rəqabətə özünün dözə bilməsini reallaşdırmaq məqsədi ilə müstəqilliyi bütün birliyin inkişafı üçün tətbiq etməkdən ibarətdir.

Söhbət müstəqillik haqqında gedərkən, onun hansı rakursda nəzərdən keçirildiyi haqqında konkret, əsaslandırılmış təsəvvürə malik olmaq lazımdır. Aydındır ki, onun xarici və daxili aspektləri vardır, lakin o da aydındır ki, bu aspektlər bir-birindən qarşılıqlı surətdə asılıdır. Bu asılılıq həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəniyyətdə özünü göstərir. Əgər ölkədə, bizim Azərbaycanda olduğu kimi, insanlar arasında sülh və sabitlik üstünlük təşkil edirsə, onda bu cür dövlət xarici siyasətində sülhsevərlik, başqa ölkələrlə əməkdaşlığa meyil və s. nümayiş etdirəcək. Lakin bu cür sabitlik dövlət üçün müdafiə və təhlükəsizliyin müxtəlif forma və vasitələrinin zəruri olduğunu da nəzərdə tutur. Məsələnin belə qoyuluşu da, əlbəttə, müstəqillik fəlsəfəsi ilə

bağlıdır. Məhz o, problemi bütövlükdə, kompleks şəkildə əhatə edir, onu müxtəlif tərəflərdən, həm qarşılıqlı əlaqələr, həm də qarşılıqlı təsirlər baxımından nəzərdən keçirir. Belə yanaşma bizi dövlət müstəqilliyi nəzəriyyəsinin siyasi, hüquqi, psixoloji, sosioloji, antropoloji və digər aspektlərinin bir-birindən fərqləndiyinin dərk olunmasına gətirib çıxarır.

Ölkə müstəqillik əldə edən kimi, bir çox problemlərlə üzləşir və biz bununla artıq tanışıq. Kimləri isə seçməkdə yanılmaq, təbii ehtiyatlara arxayın olmaq, yalnız keçmişdəki nailiyyətlərlə fəxr etmək və s. bu kimi hallar ola bilər. Amma əgər müstəqillik qazanılana qədər o, bir arzu, xəyal idisə, ona nail olandan sonra gündəlik, çox zəhmət və səbr tələb edən, daha doğrusu, çox məsuliyyətli iş başlayır və o, azadlıq və müstəqillik əldə etməkdən heç də asan iş deyil. Bu iş, yaxud belə deyək, çoxsaylı problemlərin həlli – iqtisadiyyat və təsərrüfatların yaradılması, hüquqi dövlətin qurulması və cəmiyyətin hüquq sisteminin formalaşdırılması, Konstitusiyanın qəbul edilməsi, təhsil, mədəniyyət və elm sistemlərinin təşkil edilməsi və bir sıra digər işlər – bütün bunlar aysberqin yalnız görünən hissəsidir. Bu işlər səriştəli, müdrik, qətiyyətli liderin olmasını tələb edir. Və etiraf etmək lazımdır: Azərbaycanın bəxti gətirib ki, o, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqilliyi əldə edib, ilk addımlarını atıb, bugünkü və gələcək addımlarını isə İlham Əliyevin rəhbərliyi ilə atır və atacaq.

Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümü tamam olur. Bu, həm azdır, həm də çox. Tarix miqyasında bu, bir andır, bir ləhzədir. Lakin bu müddət ərzində ölkədə çox iş görülüb. Ümummilli liderimizin dövründə "Əsrin müqaviləsi" imzalandı, o, nəinki böyük neft verdi, həm də əsl müstəqilliyə yol açdı, alternativlər yaratdı. Konstitusiya qəbul edldi. İndi biz dəqiqləşdirə, konkretləşdirə bilərik, amma bütün dövlətimizin hüquqi bünövrəsi 1995-ci ildə qoyulub. Ümummilli liderimizin dövründə çoxvektorlu xarici siyasətin strategiyası və əsasları, inkişaf strategiyası və ölkədə multikultural sülh kimi başa düşülən azərbaycançılıq ideologiyasının təməli yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, bir çox cəhətdən gələcəyi görən siyasəti bu nailiyyətlərin bu günün tələblərinə uyğun olaraq daha da inkişaf etdirilməsi ilə nəticələndi. Burada varislik və yenilik, müasir dövrün yeni çağırışlarının nəzərə alınması dialektik şəkildə birləşdirilmişdir.

Bizim dövlət və cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində ciddi nailiyyətlərimiz var. Belə ki, az qala sıfırdan başlayaraq böyük perspektivləri olan iqtisadiyyat yaradılıb. Biz dünyanın bütün inkişaf reytinqlərində MDB ölkələri arasında liderik. Hətta böhran dövründə belə, energetika ilə bağlı inkişaf paradiqmasından qeyri-neft paradiqmasına keçmək lazım olan zaman, biz və bütün dünya ölkənin iqtisadi əsaslarının sabit olduğuna əminik. Və burada marksizmin ardınca vurğulamaq istərdik ki, ən başlıcası iqtisadiyyatdır. Bəli, o, vacibdir, amma təkcə, o, yox. İnnovasiyalar, kreativ, yaradıcı şüur, informasiya texnologiyaları vacibdir, amma təkcə bunlar da yox. Və məsələ təkcə Dağlıq Qarabağ münaqişəsi, işğalçı qonşu və onu müdafiə edən dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən törədilən təhlükələrdə deyil.

Tarix və müasir dövrdə baş vermiş bir çox hadisələr ordunun dövlətin müstəqilliyi üçün əhəmiyyətinin böyük olduğunu sübut edir. Və Azərbaycanın güclü, yaxşı silahlanmış və aprel döyüşlərində şərəflə sınaqdan çıxmış ordusu var. Bütün uğurlarına baxmayaraq, ordu inkişaf etməyə, möhkəmləndirilməyə və yenidən silahlanmağa hazır olmalıdır. Bu isə təkcə iqtisadiyatdan deyil, bir çox başqa parametrlərdən də asılıdır. Böyük dövlətlərin maraqlarının toqquşduğu qeyri-sabit regionda yerləşən kiçik bir dövlət üçün onun Baş Komandanının istedadı, idarəçilik dühası, güclü ideologiya, hakimiyyətlə cəmiyyət arasında birlik, nüfuzlu xarici siyasət və ümumiyyətlə, dövlətin dünyada hörməti, ləyaqəti çox böyük əhəmiyyət kəsb edir. Amma biz də olduqca çox səy göstərməliyik ki, dövlətimizdə hər şey alınsın, bərqərar olsun.

Burada vurğulamaq lazımdır ki, Azərbaycan hakimiyyət və cəmiyyəti birləşdirən, milli dəyərlərin inkişafına xidmət edən, birlik və vətənpərvərlik üçün bizdə məsuliyyət yaradan güclü ideologiyaya malikdir. Onun mərkəzində ümummilli lider Heydər Əliyevin mənəvi irsi yerləşir. Bəs bizim üçün bu irsdə həlledici nədir? İlk növbədə, Azərbaycanın müstəqilliyi ölkənin bütün vətəndaşları üçün başlıca dəyərdir. Həm də ona görə belədir ki, bu, ümummilli lider üçün başlıca dəyər idi. Bunu təkcə biz özümüz yox, həm də dünyanın keçmiş və müasir siyasi liderləri etiraf edirlər.

Corc Buş Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunmasına şəxsi töhfəsini, onun Cənubi Qafqaz ərazisində uzun müddət ərzində ən nüfuzlu şəxsiyyət olduğunu vurğulayırdı. Onun avtoritetini öz prezidentliyi dövründə Bill Klinton etiraf edirdi. Vladimir Putin onu dünyada hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi adlandırırdı. Rusiya Prezidentinin fikrincə, Heydər Əliyev Rusiya və Azərbaycan arasında strateji əməkdaşlığın əsasını qoymuşdur. Rusiya Prezidenti Heydər Əliyevin strateji əməkdaşlığın əsasını qoymuş olduğunu vurğulayırsa, bu, çox böyük əhəmiyyət kəsb edir. Axı müstəqillik bir çox hallarda bu əməkdaşlıqdan asılıdır.

Ümummilli lider Heydər Əliyevin mənəvi irsi bir çox tanınmış alim və mütəfəkkirlər tərəfindən öyrənilir. Bizim məsələnin kontekstində mühüm olanı təkcə onun irsinin hüquqi Azərbaycan dövləti və demokratiyanın, çoxvektorlu xarici siyasətin, güclü sosial siyasətin inkişafını müəyyən etməsi deyil, həm də, hər şeydən əvvəl, ölkə ideologiyasında mühüm yeri maarifləndirilmiş vətənpərvərliyin, humanizm və mənəvi amillərin, tolerantlıq prinsipinin etirafının tutmasıdır. Yaxın kemişdə bu amillərin əhəmiyyətini, vacibliyini heç də hamı

etiraf etmirdi. Lakin Heydər Əliyev əvvəlcədən yaxın gələcəyin necə olacağını görürdü. XX əsrin 90-cı illərinin sonunda, XXI əsrin əvvəllərində dünyanın ictimai şüurunda F. Fukuyamanın ideologiyaların və tarixin sonu haqqında, S. Hantinqtonun sivilizasiyaların toqquşması barəsindəki əsərləri hökm sürürdü. Və etiraf etmək lazımdır ki, bu alimlərin yazdıqlarından bir çox şey, hərçənd, bu, dünya üçün xeyirli olmasa da, reallaşdı. Məhz buna görə də bizim dövrümüzdə mənəvi və humanitar amillərin əhəmiyyəti üstünlük təşkil edir.

Ümummilli lider dəfələrlə bizi xəbərdar etmişdi ki, cəmiyyətimizdəki tolerantlıq və humanizm mühiti xalqımızın yaddaşı sayəsində mövcuddur. Bu mühit Azərbaycan xalqının dözümlülük və insanpərvərlik kimi yüksək mənəvi keyfiyyətlərinə əsaslanır. O, xalqın mədəniyyətinin tərəqqisinə, elmin, təhsilin inkişafına xüsusi önəm verirdi.

Müasir qloballaşma dövründə müstəqil dövlətçilik fəlsəfəsinin aktuallığını xatırlayanların sayı azdır. Bu mövzu XIX və XX əsrlərdə aktual idi. Bundan başqa, o vaxtlar bəşəriyyətin tərəqqi perspektivləri milli dövlət müstəqilliyi ilə əlaqələndirilmiş idi. Hegel və onun ardıcılları üçün siyasi dövlət vətəndaş cəmiyyəti və hüquq sistemiindən daha çox əhəmiyətə malik idi, onlarda söz ölkə və vətəndaşların ləyaqəti üçün əsas olmalı mənəvi kamilliyin, xüsusi növ azadlığın ən yüksək formasından gedirdi. Bu xətt ümummilli lider Heydər Əliyev siyasəti üçün həlledici idi və irsən o, Prezident İlham Əliyev üçün ən mühüm xətt olaraq qalır. Xatırlamaq kifayətdir ki, 2016-cı il "Multikulturalizm ili" elan olunub və ölkədə müxtəlif din və etnik qrupların nümayəndələri arasında sülh qorunub saxlanılır. Respublikada beynəlxalq humanitar forumları təşkil edilir. Təkcə 2016-cı ilin sentyabrında humanitar sahədə Azərbaycanın yüksək nüfuzunu bir daha təsdiq etmiş V Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Roma Papasının Bakıya səfəri bir daha göstərdi ki, Prezidentimizin həyata keçirdiyi ləyaqət siyasəti müxtəlif siyasi və ictimai qüvvələr tərəfindən bəyənilir və dəstəklənir.

Müstəqillik və azadlıq uğrunda mübarizəni güclü, özünə əmin olan insanlar aparırlar. Elələri də var ki, ondan qaçır və azadlıqdan qorxur, onlar digər dövlətlərin himayəsində olduqlarından razı qalaraq buna sevinirilər. Ölkə üçün azadlıq qazananlar dərk etməlidirlər ki, bundan sonra onu inkişaf etdirmək lazımdır. Müstəqillik müdrik, mərd, cəsarətli və intizamlı insanlara nəsib olur.

Xalq qəzeti.-2016.-18 oktyabr.-№229.-S.4.

İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir

Musa QASIMLI,
Milli Məclisin deputatı, AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, professor

Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpa edilməsinin 25-ci ildönümü tamam olur. Bu 25 ilin 13 ili Prezident İlham Əliyevin rəhbərliyi altında keçmişdir. Məlum olduğu kimi, cənab İlham Əliyevin 2003-cü ildə keçirilən prezident seçkilərində qələbə qazanaraq hakimiyyətə gəlməsi ilə qədim və zəngin dövlətçilik ənənələri olan Azərbaycan tarixində yeni keyfiyyət mərhələsi başladı.

İlham Əliyevin prezidentliyinin ilk 13 ilində ölkəmizdə daxili siyasətdə-dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görülmüşdür.Tamamilə yenidən qurulan Azərbaycan müasirləşmiş, modern bir ölkəyə çevrilmişdir.

Xarici siyasət sahəsində əhəmiyyətli fəaliyyət göstərilmişdir. Azərbaycan beynəlxalq neft-qaz, nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırıldığı ölkə olmuş, mövqeləri möhkəmlənmiş, nüfuzu artmışdır.

Məlum olduğu kimi, tarixi şəxsiyyət konkret məkan və zaman daxilində fəaliyyət göstərdiyindən onun dövrünə də məhz həmin baxımdan yanaşılır. Lakin zamandan uca olanlar, xalqının bir neçə on illər və bəzən də yüz illər sonrakı inkişaf yolunu əvvəlcədən müəyyənləşdirənlər, ömrünü xalqın tərəqqisi üçün başlıca şərt olan dövlətin qüdrətlənməsinə həsr edənlər dahilər olurlar, onlardan sonra hakimiyyətə gələn və dövlətini güclü etmək istəyən rəhbərlər adətən həmin dövlət rəhbərlərinin fəaliyyətlərinə, təcrübəsinə müraciət edirlər. Məhz həmin meyarlar baxımından Prezident İlham Əliyev şəxsiyyətinə diqqət yetirmək, bir sıra suallara elmi cəhətdən əsaslandırılmış və məntiqi cavab vermək müstəqillik dövrü tarixinin 13 ilini doğru bilmək, qiymətləndirmək və düzgün nəticələr çıxarmaq baxımından əhəmiyyətlidir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ötən 25 ilin zirvəsindən cənab İlham Əliyev prezidentliyinin ilk 13 ilində dövlət və siyasi xadim olaraq necə görünür və həmin fəaliyyət hansı dərslər verir?

Azərbaycan Respublikasının BMT Baş Məclisində nitq söyləyən ilk Baş naziri

Cənab İlham Əliyev Azərbaycan Respublikasının BMT Baş Məclisinin sessiyasında nitq söyləyən ilk Baş naziri olmuşdur. Məlum olduğu kimi, 2003-cü ilin sentyabr ayında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğuladı və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirdi. Cənab İlham Əliyev çıxışında regional və beynəlxalq təhlükəsizliyə qarşı olan təhdidlərlə bağlı fikirlərini açıqladı, dünyada cərəyan edən mürəkkəb proseslərdə BMT-nin yenidən strukturlaşmasını, onun perspektiv fəaliyyət strategiyasında əsaslı dəyişiklilər etməsini ön plana çıxardı. Azərbaycanın hökumət başçısının fikrincə, BMT Təhlükəsizlik Şurasında "həm bugünkü, həm də yarıməsrlik reallıqlar öz əksini tapmalıdır". Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etdi. Eyni zamanda, Şərqi Avropa dövlətlərindən bir ölkənin Təhlükəsizlik Şurasının üzvlüyə qəbul edilməsinin vacibliyini bildirdi. O zaman bir çoxları belə bir təklifin nə üçün edildiyini və mahiyyətini dərk etmirdi. Cənab İlham Əliyevin bu təklifinin məqsədinin uzaqgörənliyi özünü yalnız səkkiz il sonra göstərdi.

Azərbaycan Respublikasını BMT Təhlükəsizlik Şurasının üzvü seçdirən Prezident

Cənab İlham Əliyevin tariximizdə yaratdığı ilklərdən biri yürütdüyü uğurlu xarici siyasət nəticəsində Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi olmuşdur. 2011-ci ildə də 2012-2013-cü illər üçün Təhlükəsizlik Şurasının 5 qeyri-daimi üzvü seçilməli idi. Məlum olduğu kimi, Təhlükəsizlik Şurası dünyada sülh və təhlükəsizliyin təmin edilməsi üzrə BMT-nin məsul qurumu olaraq 5 daimi və 10 qeyri-daimi üzvdən ibarətdir. BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə əsasən hər il BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən 5-i yenilənir. Təhlükəsizlik Şurasına üzv olmağın bir sıra şərtləri vardır. O dövlət bu quruma üzv ola bilər ki, sülhə, təhlükəsizliyə, tolerantlığa, iqtisadi inkişafa, millətlərarası və sivilizasiyalararası münasibətlərə, dialoqa konkret töhfələr verir.

BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçkilərdə namizədlər regional qruplar tərəfindən irəli sürülür. O zaman Afrikadan və Asiya-Sakit okean regionundan beş ölkə öz namizədliyini irəli sürmüşdü. Bunlar Qırğızıstan, Mavritaniya, Mərakeş, Pakistan və Toqo idi. Onlar 2011-ci il dekabrın 31-də Qabon, Livan və Nigeriya tərəfindən azad olunan yerlər uğrunda mübarizə aparırdılar. İlin sonunadək Bosniya və Herseqovinanın

tutduğu yerə Şərqi Avropa dövlətləri qrupundan üç ölkə - Azərbaycan, Macarıstan və Sloveniya iddia edirdi. Reqlamentə görə qeyri-daimi üzvlüyə seçkilər gizli səsvermə yolu ilə həyata keçirilir. Azərbaycan, Qırğızıstan və Qvatemaladan başqa digər ölkələr artıq əvvəllər BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuşdular.

BMT Təhlükəsizlik Şurasına iki illik qeyri-daimi üzvlük üçün 17 raundluq səsvermə keçirildi. Səsvermənin ilk raundu 21 oktyabr tarixində oldu. Şərqi Avropa qrupundan namizədliyini irəli sürən Sloveniya və Macarıstan ilə mübarizə aparan Azərbaycan seçkilərin 16 mərhələsində əvvəl Macarıstan, sonra isə Sloveniya üzərində üstünlük qazanaraq 17-ci mərhələdə qələbə üçün tələb olunan 129 səsdən də çox olan 155 səs əldə etdi. Bundan əvvəl baş tutan səsvermənin 16-cı mərhələsində Azərbaycan 116, Sloveniya isə 77 səs toplamışdı. Səsvermənin axırıncı mərhələsindən əvvəl Sloveniya tərəfi namizədliyini geri götürdü. Axırıncı mərhələdə isə Azərbaycanın lehinə 155 ölkə səs verdi, 24 ölkə bitərəf qaldı və 13 ölkə yenə də Sloveniyaya səs verdi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən başladı və 2013-cü il dekabrın 31-nə qədər davam etdi. Azərbaycan Respublikası iki il ərzində Şərqi Avropa dövlətlər qrupunu bu qurumda təmsil etdi.

Ən qəribəsi və gülünc görünən bu idi ki, Şərqi Avropa ölkələri qrupundan təcavüzkar Ermənistan da Təhlükəsizlik Şurasının üzvu seçilmək iddiasına düşmüşdü. Amma bu ölkənin hansı əməli işi ilə bu quruma üzv olmaq istəyi məntiqsiz idi.Rüsvay olacaqlarını və heç birinci turdan belə keçməyəcəklərini anladıqları üçün ermənilər namizədlikdən imtina etdilər.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul edilməsi böyük tarixi əhəmiyyət daşıyan hadisə idi. Bu, Azərbaycan dövləti və xalqının tarixində qürurverici bir ilk idi. Hər şeydən əvvəl ona görə ki, Azərbaycan Respublikası özünün müstəqilliyinin 20-ci ilində artıq dünya siyasətini müəyyən edən 15 ölkədən birinə çevrilmişdi. Bu möhtəşəm hadisə Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı, regionun lideri statusunu möhkəmləndirdi. Həm də onu göstərdi ki, siyasi iradə və əzm olan yerdə istənilən hədəfə çatmaq olar. Bu, sadəcə üzv qəbul olunmaq məsələsi deyil, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisinin təsdiqi idi. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə oldu. Bu da rəmzi bir hal idi ki, Azərbaycan tarixi qələbəni BMT-nin təsis edildiyi gün olan oktyabrın 24-də əldə etmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı olaraq verdiyi bəyanatında deyirdi:

"...Bir neçə saat bundan əvvəl ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə baş vermişdir. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilmişdir. Bu böyük qələbə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, həqiqətən də böyük qələbədir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və Azərbaycan müstəqil dövlət kimi artıq bu qurumun üzvüdür.

...Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir..."

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycan diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkənin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu oldu. Azərbaycan sabit inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyətləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdi. Səsvermə Azərbaycan Respublikasının beynəlxalq aləmdə artan çəkisinin, ərazi bütövlüyü və sərhəd toxunulmazlığının bir daha təsdiqlənməsi oldu. Digər tərəfdən, bu hadisə son illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsini göstərirdi.

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyəti müddətində dövlətimiz bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail oldu. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həll edilməmiş qaldığından Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək, özünün təhlükəsizlik problemlərini, ilk növbədə, pozulmuş ərazi bütövlüyü məsələsini BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxartmaq, xüsusilə, 2012-ci ilin mayında və 2013-cü ilin sentyabrında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını icra edərkən BMT Təhlükəsizlik Şurasının problemlə bağlı qəbul edilmiş dörd qətnaməsinin yerinə yetirilməsi üçün yeni təşəbbüslə çıxış etmək və Təhlükəsizlik Şurasında Ermənistanın işğalçılıq siyasəti ilə bağlı yenidən məsələ qaldırmaq, beynəlxalq hüququn normalarının bərpasını tələb etmək hüququ qazanırdı.

Azərbaycan dövlətinin BMT Təhlükəsizlik Şurasına üzv olması Ermənistanda faciə kimi qarşılandı. Lakin təcavüzkar ölkənin təxribatları və iyrənc fəaliyyətləri heç bir nəticə vermədi. Çünki ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzvlərlə birgə Azərbaycanın da dünyanın bir nömrəli beynəlxalq təşkilatının ən ali qurumunda iştirakı Azərbaycan Respublikası dövlətinin tutduğu yolun dünya tərəfindən dəstəklənməsinin əyani təsdiqi, həm də beynəlxalq birliyin Azərbaycanda yürüdülən siyasətə və Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin təzahürü, dünya ictimaiyyətinin ölkəmizə olan inam və etimadının ifadəsini özündə ehtiva edirdi. Azərbaycanın yürütdüyü siyasətin yanında Ermənistan çox cılız görünürdü.

Prezident İlham Əliyevin tövsiyəsi əsasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasının üzvü olaraq qarşıdan gələn iki il müddətində öz təcrübəsinə uyğun sahələrdə, xüsusilə də sivilizasiyalararası dialoq, iqtisadi cəhətdən az inkişaf etmiş dövlətlərə yardım və digər humanitar məsələlərə dair yeni layihələr hazırladı.

Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclasında sədrliyi və nitqi

Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclasına sədrlik edən və orada nitq söyləyən Azərbaycan Respublikasının ilk dövlət başçısıdır. 2012-ci il mayın 4-də Azərbaycan Respublikası dövləti BMT Təhlükəsizlik Şurasına sədrlik etdi. O, bu estafeti aprel ayında şuraya sədrlik etmiş ABŞ-dan almışdı. 4 may tarixində Prezident İlham Əliyev BMT Baş Məclisinin iclasına sədrlik etdi və orada dərin məzmun daşıyan nitq söylədi. Bu, Azərbaycan tarixində möhtəşəm bir ilk idi. Prezident İlham Əliyevin sədrliyi ilə keçən iclasında dövlət başçısı iclasın gündəliyinin "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusuna həsr olunduğunu diqqətə çatdırdı. BMT-nin Baş katibi Pan Gi Mun, Almaniyanın xarici işlər naziri Guido Vestervelle, Toqonun xarici işlər və əməkdaşlıq naziri Eliot Ohin, Barak Obama kabinetinin üzvü, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Susan Rays, Mərakeşin xarici işlər və əməkdaşlıq naziri Yusif Əmrani, Rusiya Federasiyası Prezidentinin terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə xüsusi nümayəndəsi Aleksandr Zmeyevski, Kolumbiyanın çoxtərəfli işlər nazirinin müavini Patti Londono, Çin Xalq Respublikasının nümayəndəsi, Pakistan, Böyük Britaniya, Hindistan, Cənubi Afrika Respublikası, Qvatemala, Fransa və Portuqaliya nümayəndələri də çıxışlarında Azərbaycan Respublikasının tarixində ilk dəfə BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyini bildirərək, bu münasibətlə təbriklərini çatdırdılar, söylədilər ki, terror dünyadan hələ də əl çəkməmişdir və ona qarşı mübarizə tədbirləri davam etdirilməlidir.

4 may tarixli iclasa sədrlik edən Azərbaycan Respublikası Prezidentinin dünya problemlərinin həllinin önə sürüldüyü dərin məzmunlu nitq söyləməsi müasir müstəqil Azərbaycan tarixində qürurverici bir ilk idi. Nitqində Prezident İlham Əliyev vurğulayırdı:

"...Terrorçuluq beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən bütün üzv dövlətlərdə insan hüquqlarının, fundamental azadlıqların, demokratiyanın, siyasi müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və nəhayət, sosial və iqtisadi inkişafın bərqərar olunmasına ciddi təhdiddir.

Azərbaycan terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyir. Biz hesab edirik ki, bütün terror aktları ağır cinayətdir, onlar pislənməli və bunu törədənlər isə cəzalandırılmalıdırlar. Terrorçulara öz əməllərini əsaslandırmaq üçün heç vaxt imkan verilməməlidir. Səbəblərindən asılı olmayaraq, heç bir terror aktı əsaslandırıla bilməz. Terrorçuluğun dəyişən mahiyyəti və siması, bir çox hallarda onun təcavüzkar separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa bağlılığı vardır.

Silahlı münaqişələrə məruz qalan yerlərdə, xüsusən də xarici hərbi işğal altında olan ərazilərdə terrorçuluq ilə həmin məkanda olanlar arasında bir qayda olaraq sövdələşmənin yaranmasına şəraitlər formalaşır. Azərbaycan müxtəlif yollarla terrorçuluğa məruz qalmışdır. Azərbaycan kənardan təşkil olunan terror fəaliyyətinin birbaşa hədəfinə çevrilmişdir. Ermənistan Respublikası Azərbaycanın mülki əhalisi və infrastrukturuna qarşı onlarla terror aktı törətmişdir. Bunun nəticəsində 2 mindən artıq azərbaycanlı həyatını itirmişdir. Ermənistan öz güc strukturlarının bilavasitə iştirakı ilə hazırladığı həmin terror aktlarını beynəlxalq terror qruplarından istifadə edərək törətmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal fazasında Ermənistan etnik təmizləməyə nail olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı geniş şəkildə terror aktlarından da istifadə etmişdir. Həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı əhalisinin məhv edilməsi ilə kulminasiya nöqtəsinə çatdı. Həmin vaxt 613 günahsız insan, o cümlədən qadınlar, uşaqlar və yaşlılar öz həyatı ilə vidalaşmışdır. Yüzdən artıq qadın, altmış üç uşaq qətlə yetirilmişdir. Ermənistan həmçinin münaqişə zonasından uzaq məsafədə də ictimai nəqliyyatda və mühüm infrastruktur yerlərində, 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər əməllər kimi terror aktlarını törədərək, mülki əhaliyə qarşı mübarizə apardı.

Bu gün Ermənistanın terror risklərindən irəli gələrək, biz əsasən terror hədələrinin tərəfimizdən zərərsizləşdirilməsinə baxmayaraq, bu risk yenə də yüksək olaraq qalır. Bir sıra terror aktlarının, o cümlədən Azərbaycanın mülki infrastrukturlarına, xüsusən su rezervuarları və bəndlərinə, neft kəmərləri şəbəkəsinə hücum edilməsi kimi əməllərin legitim hərbi taktikası olması ilə bağlı açıq bəyanatlar və fikirlər hələ də müşahidə edilir. Bunlar birmənalı surətdə mülki əhali arasında yüz minlərlə tələfatın olması ilə nəticələnə bilər. Beynəlxalq terror təşkilatlarının elementləri Ermənistanın təhlükəsizlik və müdafiə sektoruna inteqrasiya edilib. Avropa dəyərlərinə və universal dəyərlərə sadiq olduğunu göstərməyə çalışan ölkə tərəfindən beynəlxalq terror təşkilatlarının üzvlərini qəhrəman kimi qələmə vermək və onlara abidələr ucaltmaq səylərini görmək təəssüf doğurur".

Azərbaycan Respublikası BMT üzvləri arasında cəmi 20 il əvvəl dövlət müstəqilliyini bərpa etmiş bir ölkə olsa da, bu qurumda tutduğu rəhbər mövqenin və Prezident İlham Əliyevin nitqinin böyük tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, dövlət rəhbərinin nitqi Azərbaycanın təkcə XXI əsr tarixi üçün deyil, həm də bütün dövlətçilik tarixi üçün yaddaqalan və möhtəşəm idi. Çünki Azərbaycanın dövlət başçısı ilk dəfə olaraq

Təhlükəsizlik Şurasının iclasına sədrlik edir və nitq söyləyirdi. Bu nitq Azərbaycan dövlətinin beynəlxalq təşkilatda təmsil olunması, dünya siyasətindəki bu və ya digər uğuru, respublikanın müstəqil ölkə kimi təsdiqi baxımından əhəmiyyətli idi. Ona görə də BMT kimi dünyanın nüfuzlu beynəlxalq təşkilatında edilən nitq mühüm mahiyyət daşıyır. Söylənən nitq Prezident İlham Əliyevin nüfuzuna təsir edən və onun dünya miqyasında çəkisini göstərən beynəlxalq amil idi. Prezident İlham Əliyev buna qədər də xarici ölkələrdə və beynəlxalq təşkilatların toplantılarında dəfələrlə nitqlər söyləmiş və rəğbətlə qarşılanmışdı. Azərbaycan Prezidenti etdiyi nitqləri və siyasi-dövlətçilik fəaliyyəti ilə bəzən mövcud diplomatiya çərçivələrini aşıb keçən liderlər sırasına daxildir. Təhlükəsizlik Şurasında etdiyi nitq də bu baxımdan diqqəti cəlb edirdi. Adətən dövlət başçıları Təhlükəsizlik Şurasında etdikləri nitqlərində bitərəf mövqe tutur, öz ölkələrinin problemlərini gündəliyə gətirməkdən çəkinirlər. Lakin Azərbaycan Prezidenti belə etmədi. O, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, dünya terror şəbəkələrində aparıcı mövqe tutması problemlərindən bəhs etdi. Azərbaycan Prezidentinin söylədikləri erməni terrorunun təkcə Azərbaycan deyil, bütün dünya üçün təhlükəli olduğunu dünyaya çatdırmaq baxımından da əhəmiyyətli idi. Çünki Ermənistan terrorçuluğu dəstəkləyir və Azərbaycanın işğal olunmuş ərazilərində terrorçuların düşərgələrini saxlayır və digər qanunsuz fəaliyyətləri həyata keçirir, terroru dövlət səviyyəsində himayə edir. Azərbaycan isə terrora məruz qalan ölkədir və terrora qarşı mübarizə aparan ölkələrin yanındadır.

Azərbaycanın birinci sədrliyi dövründə BMT Təhlükəsizlik Şurasının 13 açıq, 16 qapalı iclası keçirildi. Bu müddət ərzində BMT Təhlükəsizlik Şurasının 2-si Sudandakı vəziyyətə, 1-i isə Qvineya-Bisaudakı hərbi çevrilişə dair olmaqla 3 qətnaməsi; habelə mətbuat üçün 7 bəyanatı qəbul edildi.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasında 2013-cü ilin oktyabr ayından başlayan ikinci sədrliyi də səmərəli oldu. Əsas mövzu kimi 2013-cü il 28 oktyabr tarixində "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda qurumun yüksək səviyyəli iclası təşkil edildi. Bu dövrdə Təhlükəsizlik Şurasının gündəliyi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri əhatə etdi. Təhlükəsizlik Şurasında dörd qətnamə, altı bəyanat qəbul edildi. Beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində öz səylərini əsirgəməyən və davamlı şəkildə fəaliyyət göstərən Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasının sədri qismində beynəlxalq səviyyədə ədalətin və hüququn prinsiplərinin bərqərar olmasına öz mühüm töhfələrini verdi.

Ümumiyyətlə, Prezident İlham Əliyevin liderliyində Azərbaycan Respublikası dövləti BMT Təhlükəsizlik Şurasına üzvlüyü və sədrliyi dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi, dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdi, beynəlxalq hüquq normalarının və ədalətin müdafiəsinə çalışdı, sülh və beynəlxalq təhlükəsizliyə dair qlobal, yaxud regional əhəmiyyətli məsələlərin gündəliyini müəyyənləşdirdi. Azərbaycan diplomatiyasının səyləri dövlətimizin milli maraqlarının qlobal səviyyədə genişləndirilməsinə yönəldi. Terrordan və işğaldan əziyyət çəkən ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim diqqətdə saxladı.

Azərbaycan dövləti iki il ərzində qurumun qeyri-daimi üzvü kimi uğurlu fəaliyyətini davam etdirdi, sədrliyi dövründə beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfələrini verdi, şuranın gündəliyində dayanan məsələlərin müzakirəsində fəal rol oynadı və daim öz qətiyyətli mövqeyini ortaya qoydu.

Azərbaycanın Təhlükəsizlik Şurasında hər iki sədrliyi müddətində qurumun 59 açıq və qapalı iclası keçirildi, 7 qətnamə, şura sədrinin 3 bəyanatı və mətbuat üçün 13 bəyanat qəbul edildi. Bu, Azərbaycan millətinə qürur verən bir hadisə oldu. Lakin bu, sonuncu ilk olmadı. Müstəqillik tarixində Prezident İlham Əliyevin həyata keçirdiyi digər ilklərdən biri Azərbaycanın dünya xəritəsində axtarılmasına son qoyulması oldu.

Azərbaycanın xəritədə axtarılmasına son qoyulması

Prezident İlham Əliyevin Azərbaycan tarixində yaratdığı ilklərdən biri Eurovision mahnı yarışmasının Bakıda ən mükəmməl şəkildə təşkil edilməsi, yarışma zamanı maddi-mənəvi mədəniyyətimizin təbliğ edilməsi ilə ölkəmizin xəritədə axtarılmasına son qoyulması olmuşdur. Məlum olduğu kimi, 2011-ci ildə Almaniyanın Düsseldorf şəhərində 25 ölkə təmsilçisinin iştirakı ilə keçirilən 56-cı Eurovision mahnı müsabiqəsində Azərbaycan təmsilçiləri 221 bal toplayaraq qalib gəldikləri üçün qaydalara uyğun olaraq növbəti yarış Azərbaycanda keçirilməli idi.

2012-ci ilin may ayında Bakı şəhərində "Eurovision 2012" mahnı müsabiqəsinin keçirilməsi üzrə Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 19 may 2011-ci il tarixli sərəncamı ilə yaradıldı. Təşkilat Komitəsinin sədri UNESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva oldu. 2012-ci ildə Bakıda keçirilən 57-ci Eurovision mahnı müsabiqəsi müasir Azərbaycan və Avropa mədəniyyəti tarixində mühüm yerlərdən birini tutdu. Bütün dünyanın nəzərləri Azərbaycana yönəldi, minlərlə turist ölkəmizə gəldi. Müxtəlif ölkələrdən insanlar Azərbaycana axın etdilər. Həqiqətləri öz gözləri ilə gördülər. Azərbaycan tarixi və mədəniyyəti təbliğ edildi. Azərbaycanın xəritədə axtarılmasına son qoyuldu.

Dövlət canlı orqanizmdir

Prezident İlham Əliyev tariximizdə indiyədək rast gəlinməyən daha bir ilkə imza atmış, nitqlərində ölkə qarşısında dayanan belə bir strategiyanı müəyyənləşdirmişdir: dövlət canlı orqanizmdir-daim genişlənməlidir. Bu, uzunmüddətli strategiya olub Azərbaycanın nəinki indisini, eyni zamanda gələcək zamanlarını da əhatə edir. Genişlənmə müasir beynəlxalq münasibətlərdə artıq hakim olan və təsdiq edilən coğrafi-siyasi mövcudiyyətinin dəyişdirilməsini deyil, maliyyə-iqtisadi və nüfuz baxımından genişlənməni özündə ehtiva edir. Məhz bu məqsədi həyata keçirmək yolunda Prezident İlham Əliyev dərin məna daşıyan addımlar atdı. Azərbaycanın müasirləşməsinin vacibliyini irəli sürdü. Bəs müasirləşmə Azərbaycana nə üçün lazımdır?

Tarixinin təcrübəsi göstərir ki, hər hansı bir ölkənin çoxlu maliyyə vəsaitləri, təbii sərvətləri ola bilər. Lakin əgər dövlət hakimiyyəti həmin təbii sərvətləri milli sərvətlərə çevirmirsə, yeni texnologiyaların tətbiqini həyata keçirmirsə, insanlar əməyi yadırğayırlarsa, ölkə digərlərindən geri qalır və çox vaxt da rəqabətə tab gətirmir. Geri gedən ölkə isə heç bir zaman nüfuz baxımından genişlənə bilməz. Buna dair çoxlu nümunələr gətirmək olar. Məlum olduğu kimi, uzun tarix boyu mövcud olmuş xalqların və ölkələrin bir çoxu məhz zamanla ayaqlaşa, ona uyğunlaşa bilmədikləri üçün hazırda dünyanın siyasi səhnəsində mövcud deyillər. Zamanla ayaqlaşmayan, dövrün şərtlərinə uyğunlaşmayan və özü yaşayış şərtlərini irəli sürməyən xalqların çoxu hazırda dünya siyasətində söz sahibi deyillər. Bir zamanlar Roma və Bizans imperatorluqları, Portuqaliya, İspaniya, Hollandiya, Osmanlı dövləti, Avstriya-Macarıstan dünya siyasətinə ya hökmranlıq edər, ya da xeyli nüfuzlu idilər. Lakin zaman-zaman onların bəziləri həm dünyada gedən müasirləşmə proseslərinə uyğunlaşmadıqları üçün, həm də onları parçalamağa çalışan xarici güclərin təzyiqlərinə tab gətirə bilməyərək zəiflədilər, bəziləri isə dağılıb dünya səhnəsindən getdilər. Bu dövlətlərin və imperatorluqların taleyi bəzi nəticələr çıxarmağa, ibrət dərsləri almağa imkan verir.

Müasirləşmə rəqabətədavamlı Azərbaycanın qurulması və vətəndaşın daha yaxşı yaşayışını təmin etmək üçün lazım idi. Artıq rəqabətə-davamlı Azərbaycan dövləti yaranmışdır. Ötən illər tarix baxımından qısa olsa da, həyata keçirilən tədbirlər, islahatlar və inkişaf baxımından bir sıra ölkələrin keçdikləri yüz illərə bərabərdir.

Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan müasirləşən bir ölkəyə çevrilmişdir. Sovet dövrü başa çatdıqdan sonra yaranmış boşluqda Azərbaycan xalqının əməyə yadırğamasının qarşısı alınmışdır. Cənab İlham Əliyev Azərbaycan xalqının minillikləri tarixində Qurucu Prezident adını qazanmışdır. Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasına baxmayaraq, ölkə tərəqqi etmiş, tikinti-quruculuq işləri genişləndirilmişdir.

Güclü bir Azərbaycan dövləti qurulmuşdur. Tarixi təcrübə göstərir ki, təbii sərvətlər heç də xalqın inkişafının başlıca şərti deyildir. Əsas məsələ təbii sərvətləri milli sərvətə çevirmək və uğurla əməkdaşlıq etmək bacarığıdır.

Bir zamanlar Azərbaycan qaz və elektrik enerjisi təchizatı sarıdan digər ölkələrdən asılı vəziyyətdə idi. Həmin dövlətlər istədikləri vaxt Azərbaycana satdıqları qazı və elektrik enerjisini dayandırar və ondan siyasi təzyiq vasitəsi kimi istifadə etməyə çalışardılar. Nəinki rayonlarda və kəndlərdə, hətta Bakıda insanlar axşamlar bəzən şam və ağ neft lampalarının ümidinə qalardılar. Ötən illər ərzində Azərbaycanda yürüdülən siyasət nəticəsində bu vəziyyətə son qoyulmuşdur. Azərbaycan enerji təhlükəsizliyini təmin edən bir ölkə olmuşdur.

Bəzi ölkələrdən ərazisi baxımından kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq Azərbaycan Respublikası qaz təchizatını nəinki təmin etmiş, eyni zamanda Avropanın tələbatının ödənilməsində mühüm rol oynayan bir ölkəyə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri təkcə iqtisadi deyil, böyük siyasi və strateji əhəmiyyət daşıyan, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynayan kəmərlərdir. TANAP və TAP layihələri Azərbaycanın qoca qitənin dövlətləri və xalqları üçün nə qədər əhəmiyyətli bir ölkə olduğunu göstərmişdir.

Azərbaycan nəqliyyat təhlükəsizliyini də təmin etmişdir. Böyük ipək yolu, Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr Azərbaycanı yenidən dünyanın tranzit, nəqliyyat və ticarət mərkəzlərindən birinə çevirmişdir. Çoxşaxəli nəqliyyat kəmərlərinin yaradılması və inkişaf etdirilməsi Azərbaycanın iqtisadi qüdrətinin artmasına təsir edən amillərdəndir. Bakı-Tbilisi-Qars, Naxçıvan-Məşhəd dəmir yolu xətlərinin tikintisinin, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat-kommunikasiya xəttinin uğurla başa çatması ilə Azərbaycan dünyanın böyük nəqliyyat qovşağı olan ölkəyə çeviləcəkdir. İnfrastruktur inkişaf edəcək, yeni iş yerləri açılacaq, əhalinin həyat şəraiti daha da yaxşılaşacaqdır.

Yürüdülən siyasət nəticəsində Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75 faizi Azərbaycanın payına düşür. Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılmasına yönələn siyasət genişləndirilmişdir. Xüsusən, turizm, kənd təsərrüfatı və yeni texnologiyaların tətbiqinə başlıca yer ayrılır.

Dünyada gedən mürəkkəb maliyyə-iqtisadi və siyasi proseslərə, ərazisinin 20 faizinin Ermənistanın işğalı altında olmasına baxmayaraq Azərbaycan həm də tikinti-quruculuq meydanına çevrilmişdir. Ölkədə geniş inşaat işləri aparılır, yeni iş yerləri yaradılır, qaçqın və məcburi köçkünlər üçün evlər tikilir. Başqa hər hansı bir ölkə belə şəraitdə olsaydı, çox ağır bir vəziyyətə düşərdi.

Azərbaycan borc alan ölkədən borc verən, kapital ixrac edən ölkəyə çevrilmişdir. Bir zamanlar Azərbaycan xarici ölkələrdən borc istəsə də, verməzdilər. Çünki borcun qaytarılmasına ümid və sabaha inam yox idi. Artıq Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan şirkətlərinin Avropanın "göbəyində" - Balkanlarda, Gürcüstan, Türkiyə və başqa ölkələrdə nəhəng layihələrdə iştirak etməsi dövlətimizin beynəlxalq fəaliyyətinin tərkib hissəsi olan xarici iqtisadi siyasətin qürurverici səhifələrindən biridir.

Azərbaycan dövləti ötən illərdə ölkəni xarici hərbi müdaxilədən qorumaq qabiliyyətində olan güclü ordu və müasir hərbi-sənaye kompleksi yaratmışdır. Azərbaycan beynəlxalq silah sərgilərində özünəməxsus yer tutur.

Prezident İlham Əliyevin hakimiyyətinin ilk 13 ilində qədim və zəngin Azərbaycan mədəniyyətinə yeni bir nəfəs gəlmişdir. Azərbaycanın bir sıra maddi və qeyri-maddi irsi UNESCO-nun irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidenti xalqının dünya mədəniyyəti yaradan bir xalq olduğunu bir daha sübut edərək, ona böyük yaradıcılıq imkanları yaratmışdır.

Azərbaycan Prezidentinin yaratdığı ilklərdən biri Bakıda Bayraq meydanının yaradılması olmuşdur. Bununla da dövlətçilik tariximizdə, bundan sonrakı bütün tariximizdə yaşayacaq gözəl bir ənənənin əsası qoyulmuşdur.

Ana dilinə qayğı Azərbaycan Prezidentinin fəaliyyətinin sahələrindən biridir. Azərbaycan Prezidentinin ana dilimizin saflığının qorunması haqqında imzaladığı sənədlər qloballaşma şəraitində dilçilik elmimizin inkişafında yeni imkanlar açmışdır.

Prezident İlham Əliyevin hakimiyyəti illərində xalqın milli ruhu yüksəlmiş və özünəinamı artmışdır. Xalq və dövlət arasında birlik, hakimiyyətin qanadları arasında səmərəli əməkdaşlıq qurulmuşdur. Demokratikləşdirmə, vətəndaş cəmiyyətinin qurulması məqsədi ilə geniş islahatlar həyata keçirilmişdir. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirilmişdir. Azad mətbuat formalaşaraq inkişaf etmişdir.

Prezident İlham Əliyev əslində ölkədə möcüzə yaratmış, dünyaya yeni bir model vermişdir. Bu, Azərbaycan modelidir.

Kosmos klubunun üzvü

Prezident İlham Əliyevin müstəqil Azərbaycan tarixindəki ilklərindən biri Azərbaycan Respublikasını kosmos dövləti etməsi olmuşdur. Azərbaycan 2013-cü ilin fevral ayında kosmik fəzaya ilk peykini buraxdı.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin hələ 2008-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında "Azərbaycan Respublikasında yeni və ən texnoloji sənaye sahəsi olan kosmik sənayenin yaradılması və telekommunikasiya peykinin orbitə çıxarılması" barədə verdiyi tapşırıq əsasında konkret fəaliyyət proqramının müəyyənləşdirilməsi istiqamətində işlərin görülməsinə başlanıldı. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" 4 noyabr 2008-ci il tarixli 27 nömrəli sərəncamı imzalandı. Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2009-cu il tarixli 443 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" təsdiq edildi. Sərəncam və dövlət proqramı ilə telekommunikasiya peykinin hazırlanaraq orbitə çıxarılması konkret vəzifə kimi qarşıya qoyulur və müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Telekommunikasiya peykinin hazırlanması, orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli 885 nömrəli sərəncamı ilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti təsis edildi. Bunun ardınca, 2010-cu ilin may ayında Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Malayziyanın peyk operatoru olan "Measat Satellite Systems" şirkəti arasında ilk telekommunikasiya peykinin Malayziya hökumətinə məxsus 46°Ş orbital mövqeyə çıxarılmasına dair razılaşma əldə edildi. Telekommunikasiya peykinin hazırlanması məqsədilə elan edilmiş tenderin qalibi ABŞ-ın "Orbital Sciences Corporation" şirkəti, peykin orbitə buraxılması ilə bağlı raketdaşıyıcı şirkətin seçilməsi ilə bağlı tenderin qalibi isə Fransanın "Arianespace" şirkəti seçildilər.

Peyk vasitəsi ilə aşağıdakı xidmətlər həyata keçirilir: Transponder icarəsi: transponderin tam iş dövründə icarəsi, transponderin çevik əməliyyatlar zamanı icarəsi, qısa müddətli tutumdan istifadə; Televiziya yayımı: kanalların yayımı, peyk xəbərləri toplusu; Telekommunikasiya: çox kiçik apertura terminalı, uzaqdan əlaqə, peyk üzərindən İP; Yer səthinin məsafədən müşahidə edilməsi: ağ-qara şəkillərin çəkilməsi; rəngli (multi-spektral) şəkillərin çəkilməsi.

Fevralın 8-də Azərbaycanın müstəqillik tarixinin ən önəmli hadisələrindən biri yaşandı. Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki - "Azərspace-1" uğurla orbitə buraxıldı. Dövlət başçısı "Azərkosmos" ASC-nin yeni inzibati binasının açılışını da etdi. Prezident İlham Əliyev Azərbaycan Respublikasının ilk peyki - "Azərspace-1"in uğurla orbitə buraxılması münasibəti ilə xalqımıza xitabən etdiyi təbrikində deyirdi:

"Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün birinci Azərbaycan telekommunikasiya peyki orbitə çıxarıldı. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik

edirəm. Bu, doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. Bu hadisə münasibətilə bu işdə iştirak etmiş bütün qurumlara, bütün insanlara, ilk növbədə Azərbaycan mütəxəssislərinə minnətdarlığımı bildirmək istəyirəm".

Azərbaycanda kosmik sənayenin yaradılmasının və peyklərin orbitə buraxılmasının böyük əhəmiyyəti var. İlk növbədə informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkədə yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, tam təchizatlı maddi-texniki bazanın yaradılması, elmtutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılmasına təsir edir.

"Azərspace-1" peykinin istismara verilməsi Azərbaycan vətəndaşlarının gündəlik həyatına da öz müsbət təsirini göstərir. Belə ki, əgər əvvəllər bir sıra xarici ölkələrin peyklərindən yayımlanan televiziya kanallarını izləmək üçün adətən iki çanaq antenası və ya digər texniki avadanlıqlardan istifadə etmək məcburiyyətində qalırdıqsa, artıq öz peykimizə istiqamətlənmiş bir çanaq antenasından istifadə edirik. Bu isə, ilk növbədə, vətəndaşlar üçün iqtisadi səmərəliliyə imkan yaradan əsas üstünlükdür. Peykin resurslarının 20 faizi Azərbaycanın tələbatını ödəmək üçün istifadə olunur, qalan 80 faizi isə dünya bazarlarına ixrac edilir. Buraxıldığı vaxtdan az sonra peykin resurslarının 40 faizinin satışı üçün şərti müqavilələr imzalanmışdır.

İnformasiya-kommunikasiya texnologiyalarının ölkə iqtisadiyyatında neftdən sonra ikinci əsas sahə elan olunduğu, bu sahənin iqtisadiyyatda xüsusi çəkisinin yüksələn xətlə inkişaf etdiyi və bu mənada peyk rabitəsinin xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə alınarsa, yaxın illərdə həyata keçirilməsi nəzərdə tutulan peyk layihələrinin yalnız siyasi və ya kommersiyal səciyyə daşımadığını, ölkənin uzunmüddətli inkişaf strategiyasına yönəldiyini göstərir.

Milli peyk layihəsinin reallaşdırılması Azərbaycana bir sıra üstünlüklər verir. Məlum olduğu kimi, hər hansı bir ölkədə kosmik sənayenin yaradılması ilk növbədə həmin ölkənin iqtisadi inkişafı və yüksək rifah səviyyəsi ilə bağlıdır. Azərbaycanın hazırkı inkişaf sürəti yeni bazar tələblərinə cavab verilməsi və ölkənin gələcəkdə dayanıqlı inkişafının təmin edilməsi baxımından iqtisadiyyatın şaxələndirilməsi və innovasiyaya əsaslanan yeni sənaye sahələrinin yaradılmasını zəruri edir.

İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsində xarici ölkələrdən asılılığının aradan qaldırılmasını zəruri edir.

Azərbaycanın dünya kosmik ailəsinə daxil olması son dərəcə qürurverici haldır. Ölkə sənayesinin gələcəyi isə, heç şübhəsiz ki, müasir dünya trendlərinə cavab verən innovativ, elmtutumlu müəssisələrin yaradılması ilə bağlıdır. Respublikada informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir və böyük gələcəyə malikdir. Azərbaycanın yeni sənaye quruculuğu siyasətində bir sıra üstün istiqamətlər də müəyyənləşdirildi.

I Avropa Oyunlarının keçirilməsi və Azərbaycan standartının yaradılması

Prezident İlham Əliyevin Azərbaycan tarixində yaratdığı möhtəşəm ilklərdən biri I Avropa Oyunlarının keçirilməsi olmuşdur. İlk Avropa Oyunlarının keçirilməsinə dair məsələ 8 dekabr 2012-ci il tarixində Romada baş tutmuş Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında müzakirə edildi. Baş Assambleya üzvləri arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 səsdən 38 səs ilə (əleyhinə 8 səs, bitərəf 2 səs) ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar qəbul edildi. Ermənistan nümayəndələri səsvermədə iştirakdan imtina etdi. Bakıda keçiriləcək I Avropa Oyunlarına məsul olan Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə quruldu. Komitəyə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədrlik etdi. Müxtəlif ölkələrin dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin iştirak etdiyi və yüksək səviyyədə təşkil edilən açılış mərasimində qədim və zəngin Azərbaycan tarixi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, turizm yerləri ən yaxşı şəkildə təqdim edildi. Avropanın gözü Azərbaycanda idi. Qitənin 50 Milli Olimpiya Komitəsini birləşdirən Avropa Olimpiya Komitəsi tərəfindən yüksək səviyyədə keçirilən oyunlarda 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançı yarışdı.

Yarışlara həm hazırlıq prosesində, həm də gedişində Avropa Oyunlarının Azərbaycan standartı yaradıldı. Azərbaycana gələnlər ölkənin gözəlliklərini, xalqımızın qonaqpərvərliyini əyani olaraq gördülər. I Avropa Oyunlarının keçirilməsi tariximizdə möhtəşəm ilk kimi özünə yer tutmuşdur.

Keçmiş prezidentlər haqqında qanunun qəbul edilməsi tariximizin ilki kimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə düşmənçilik, kin-küdurət yaddır. O, Azərbaycan cəmiyyətinə yeni bir nəfəs gətirdi. Məhz onun hakimiyyətinin ilk 13 ilində keçmiş prezidentlər haqqında qanunun qəbul olunması ilə Azərbaycan cəmiyyətində yeni siyasi mədəniyyət bərqərar edildi. Keçmiş prezidentlər və onların ailələrinin statusu müəyyənləşdirildi. Bu da tariximizin yaddaqalan qərarlarından biridir.

* * *

Ümumiyyətlə, 2003-cü ildən sonrakı dövrün təhlili göstərir ki, Prezident İlham Əliyev Azərbaycan tarixində daim yaşayacaq bir sıra möhtəşəm ilklərə imza atmışdır. Azərbaycan xalqı və dövlətinə başucalığı və qürur gətirən bu ilklərə daim müraciət ediləcək və onlardan öyrəniləcəkdir.

Azərbaycan.-2016.-16 oktyabr.-№228.-S.1, 4.

Müstəqil dövlətimiz - tarixi əmanətimizdir

Tağı ƏHMƏDOV,
YAP Yasamal Rayon Təşkilatının sədri.

Azərbaycanın zəngin və şərəfli dövlətçilik tarixinin ən mühüm dövrü iyirminci əsrin payına düşmüşdür. Məhz həmin əsrin əvvəlində bu çoğrafi ərazidə Şərqin ilk demokratik respublikası qurulmuş, xalqımızın müstəqillik arzusu gerçəkləşmiş, sonra milli azadlığın buxovlandığı sovetlər dövrü yaşanmış, əsrin axırlarında isə yenidən əsl istiqlaliyyət əldə edilərək, onun qorunub saxlanması təmin olunmuşdur. 1918-ci ilə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması böyük rus imperiyasının, 1991-ci ildə onun varisi kimi Azərbaycan Respublikasının öz müstəqilliyini elan etməsi isə sovet imperiyasının süqutu nəticəsində mümkünləşsə də, milli dövlətçiliyimizin ideya-mənəvi təməli ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə xalqımızın azadlıq mübarizəsi gedişində qoyulmuşdur.

Azadlıq və müstəqillik heç də hər bir xalqın, millətin qismətinə düşməyən müqəddəs bir sərvətdir. Ulu Öndərimiz deyirdi: "Azərbaycan adlı dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir". Xalqımızın azadlığa qovuşması, müstəqilliyini bərpa etməsi asanlıqla başa gəlməmiş, bu yolda ağır sınaqlar, məhrumiyyətlər, ağrılı itkilər olmuş, şəhidlər verilmişdir. Azadlığı və müstəqilliyi qoruyub saxlamaq üçün güclü dövlətin formalaşdırılması ən ümdə şərtdir. Dövlətin gücü və qüdrəti isə onun sükanı arxasında dayanan, həmin dövləti idarə edən həqiqi liderin varlığı ilə birbaşa bağlıdır.

Hər bir xalqın taleyinin müəyyənləşməsində onun yetişdirdiyi dahi şəxsiyyətlərin, nadir dühaların əvəzsiz yeri olur. Tarixin gedişinə həlledici təsir göstərən belə müdrik şəxsiyyətlərdən biri də müasir Azərbaycan dövlətinin banisi və qurucusu Ulu Öndər Heydər Əliyevdir. İyirmi beş il əvvəl "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi ilə hüquqi əsası qoyulan müstəqilliyimiz, faktiki olaraq, məhz bu dahi şəxsiyyətin dəmir iradəsi və uzaqgörən siyasəti nəticəsində reallaşdırılmış, möhkəmlənmişdir.

O illər elə də uzaqda deyil və baş vermiş hadisələrin canlı şahidləri olan orta və yaşlı nəslin nümayəndələri ölkəmizin və xalqımızın hansı sınaqlarla qarşılaşdığını yaxşı xatırlayırlar. Dövlət müstəqilliyinin bərpası ərəfəsində Azərbaycanda hökm sürən xaos və hərc-mərclik daxili vəziyyəti gərginləşdirməklə yanaşı, yüz illər boyu torpaqlarımıza göz dikən xəyanətkar ermənilərə ərazi iddiası qaldırmaq üçün fürsət verdi. Xain erməni qonşularımızın fəallaşması və hələ o zaman mövcud olan Sovet İttifaqının satqın başçılarından dəstək alması isə xalqımızın qeyrətli və millətsevər oğlu Heydər Əliyevin siyasi fəaliyyətdən təcrid edilməsi ilə birbaşa əlaqədar idi. Ən acınacaqlı hal o idi ki, respublikanın həmin dövrdəki qorxaq və səriştəsiz rəhbərləri tükənməz xalq məhəbbəti qazanmış bu böyük və vətənpərvər siyasətçinin həyat və idarəçilik təcübəsindən faydalanmaq əvəzinə, onu təqib edir, paytaxt Bakıda sadəcə qalıb yaşamasına belə mane olurdular.

Bütün bünlara görə də Ulu Öndərimiz həm fiziki, həm də mənəvi baxımdan dinclik tapmaq, xalqla birlikdə olmaq üçün doğma Naxçıvana üz tutdu, öz ata-baba yurdunda, sadə və səmimi insanların arasında yaşamağa başladı. Milli azadlıq ruhunun, sovet imperiyasına qarşı etirazın çox güclü olduğu bu qədim diyarda Heydər Əliyev dühasına, onun siyasi düşüncəsinə və təcrübəsinə ehtiyac vardı. Çünki hələ Azərbaycan öz müstəqilliyini elan etməmiş, Naxçıvan sovet əsarətindən qurtarmağı qərara almış, xalq hərəkatı fəalları bu yolda cəsarətli addımlar atmışdılar. 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarıldı, milli istiqlalımızın rəmzi olan üçrəngli bayraq dövlət bayrağı kimi qəbul edildi.

Beləliklə, milli dövlətçiliyimizin bərpası istiqamətində ilk cəsarətli təşəbbüslər məhz Naxçıvanda başlanmış, həmçinin dünya azərbaycanlılarının birliyinin və həmrəyliyinin bünövrəsi burada qoyulmuşdur. Sonralar müstəqil dövlətçiliyimizin xilasında əhəmiyyətli rol oynayan və iqtidara gələrək, xalqın ağır bəlalardan, ölkəni parçalanmaq təhlükəsindən qurtarılmasında öz yaradıcısı və rəhbəri Heydər Əliyevə fəal dəstək verən Yeni Azərbaycan Partiyası da burada təsis olunmuşdur.

Azərbaycanın 1991-ci ildə kağız üzərində qazandığı müstəqillik yalnız Ulu Öndərin ölkə rəhbərliyinə möhtəşəm qayıdışından sonra reallığa çevrildi. Buna qədər iki ilə yaxın bir müddətdə ölkə siyasi çəkişmələrlə çalxalanmış, hakimiyyət çevrilişləri adi hal almış, dövlətin idarəçiliyi əldən-ələ keşmiş, qorxaq, səbatsız, səriştəsiz bir qrupu davakar, avantürist siyasətbazlar dəstəsi əvəzləmiş, milli iqtisadiyyat dağıdılıb məhv edilmiş, əhalinin yaşayış səviyyəsi tam pisləşmiş, xarici düşmənlərimiz yaranmış vəziyyətdən yararlanaraq torpaqlarımızı işğal etmişdilər. Gəncədə başlanmış qiyam, ümumi narazılıq zəminində digər bölgələrdə getdikcə qızışan separatçılıq Azərbaycanı qardaş qırğını, parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Müharibə alovları Dağlıq Qarabağın hüdudlarını keçib ölkənin içərilərinə doğru irəliləyir, Ermənistan silahlıları öz havadarlarının köməyi ilə asanlıqla, ciddi bir müqavimətlə rastlaşmadan yeni-yeni ərazilərimizi zəbt edirdilər. O günləri göz önünə gətirəndə indinin özündə də daxili bir həyəcan keçirməmək mümkün deyildir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Nisbi sabitliyin bərqərar edilməsi təbii sərvətlərlə zəngin ölkəmizə dünya birliyinin inam və marağının artmasını şərtləndirdi, elə bu əsasda da qısa bir vaxtda "Əsrin müqaviləsi"ni imzalamaq, xarici sərmayədarları Xəzərin neft-qaz yataqlarının işlənməsinə, milli iqtisadiyyatımızın diçəldilməsinə rəvac verən neft strategiyasının həyata keçirilməsinə cəlb etmək mümkün oldu. Bu strategiyanın uğurla həyata keçirilməsi Azərbaycanın sosial-iqtisadi problemlərinin qısa müddətdə həll edilməsinə, iri infrastruktur layihələrinin icra olunmasına, ən başlıcası, neft kapitalının "insan kapitalı"na çevrilməsinə şərait yaratdı.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" Sərəncamında qeyd edildiyi kimi, dövlət neft strategiyasının həyata keçirilməsi ilə yanaşı bu illər ərzində ölkəmizdə müasir iqtisadiyyatın əsaslarının yaradılması, torpaq islahatlarının həyata keçirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, maliyyə-bank sisteminin qurulması, ticarətin liberallaşdırılması və əhalinin sosial müdafiəsinin təmin olunması istiqamətlərində mühüm layihələr gerçəkləşdirilmişdir. Keçid dövrünü uğurla başa vuran ölkəmiz iqtisadiyyatının həcmini bir neçə dəfə artıraraq bu gün davamlı inkişaf prinsiplərinə sadiq, güclü infrastruktur və inkişaf potensialına malik iqtisadiyyat qurmuşdur.

Ulu Öndərin son dərəcə gərgin və yorulmaz fəaliyyəti nəticəsində xalqımızı narahat edən bir sıra xoşagəlməz və təhlükəli halların, xüsusən dövlət çevrilişinə cəhdlərin qarşısı alındı, cinayətkarlığa qarşı kəskin mübarizə aparılmasına başlandı və dövlət quruculuğu prosesi vüsət aldı. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi üçün möhkəm zəmin oldu. Heydər Əliyevin işləyib hazırladığı ümumbəşəri dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası müstəqil dövlətimizin əsas ideoloji sütunu kimi cəmiyyətin ideyaca monolitliyini təmin etdi. Uğurlu daxili siyasət nəticəsində ölkədə yeni iqtisadi münasibətlərə söykənən hərtərəfli davamlı inkişaf təmin olundu, insan hüquq və azadlıqlarının başlıca prinsipləri bərqərar edildi, düşünülmüş və tarazlı xarici siyasət isə dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə milli maraqlara uyğun əlaqələrin qurulmasına imkan yaratdı. 1992-93-cü illərdə cəmi bir günlük çörək ehtiyatı olan Azərbaycan Heydər Əliyevin ağlı, zəkası sayəsində zəngin bir ölkəyə çevrildi. O vaxtlar rayonlara növbə ilə iki saatlığa elektrik enerjisi verilirdisə, indi nəinki evlərdə bol işıq var, hətta binaların fasadları, küçələrimiz də işıqlandırılır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir.

Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrün əhəmiyyəti barədə Prezident cənab İlham Əliyev demişdir: "1993-2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmişdir, dövlətin əsasları qoyulmuşdur. Məhz buna görə biz həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, bizim ölkəmiz Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. O, heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı bu qanlı cinayət törədilsin. Müstəqilliyimizin ilk illərində baş vermiş hadisələr bizə çox baha başa gəldi. O hadisələri yada salarkən bir daha görürük ki, bu gün Azərbaycan sözün əsl mənasında inkişaf yolundadır. Bu gün Azərbaycan müstəqil dövlət kimi özünü dünya miqyasında təsdiqləyib...".

Heydər Əliyev dühası ilə müstəqilliyin inamlı və işıqlı yoluna çıxmış Azərbaycan indi Prezident İlham Əliyevin rəhbərliyi altında dünya miqyasında özünəməxsus inkişaf modeli ilə seçilir. Regionun lider dövləti, Avropanın enerji təhlükəsizliyinin təminatçılarından biri kimi tanınan respublikamızın qlobal iqtisadi böhran şəraitində belə öz dayanıqlı inkişafını qoruyub saxlaması çox böyük nailiyyətdir. Azərbaycanın müxtəlif xarakterli - siyasi, idman, səhiyyə, iqtisadi və sair tədbirlərin keçirildiyi məkan, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə mərkəzlərdən biri olması müstəqil dövlətimizin dünyadakı nüfuzunu təsdiq edən mühüm faktorlardandır. Bu tədbirlər həm ölkəmizin beynəlxalq mövqelərini gücləndirir, dünyada hörmətini artırır, həm də gücünü və imkanlarını nümayiş etdirir.

Azərbaycan dövlətçiliyinin bundan sonra da uzun illər davam edəcək İlham Əliyev dövrünün ən mühüm xüsusiyyəti onun tam müstəqil siyasət yürüdən ölkə kimi tanınmasıdır. Möhtərəm Prezidentimizin milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu xətti, effektiv ardıcıl və məqsədyönlü diplomatik fəaliyyəti müstəqil dövlətçiliyimizin möhkəmliyini təmin edir.

Azərbaycan sürətli inkişaf yolunda qazandıqlarının hamısını öz hesabına, dövlətimizin başısının mükəmməl idarəçilik istedadı, düşünülmüş siyasəti və xalqı yaradıcı, qurucu əməyə, iqtisadi fəallığa təşviq etməsi sayəsində əldə etmişdir. Cənab İlham Əliyevin qürurla bəyan etdiyi kimi, bizə heç kim kömək etməmişdir, etmir

və etməyəcəkdir, heç buna ehtiyac da yoxdur. Bütün sahələr üzrə işlənib hazırlanmış konkret proqramlar ölkəmizin qarşısında duran bütün problemlərin həllinə imkan verir. Son illərdə dünyada neftin qiymətinin 3-4 dəfə aşağı düşməsinə baxmayaraq, Azərbaycanda maaşlar və pensiyalar artırılır, sosial məsələlər öz həllini tapır.

Ölkəmizdə postneft dövrünün başlanması iqtisadi islahatların yeni istiqamətlərinin müəyyənləşdirilməsi zərurəti yaratmışdır. Möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən islahatların başlıca məqsədi yerli sənaye və kənd təsərrüfatı potensialından, qeyri-neft sektorunun və azad sahibkarlığın imkanlarından istifadə etməklə müstəqil dövlətimizin iqtisadi əsaslarını möhkəmləndirmək və xalqın həyat səviyyəsini daha da yaxşılaşdırmaq, işsizliyin minimuma endirilməsinə, hər bir vətəndaşın rifah içərisində yaşamasına nail olmaqdır. Həyata keçirilən islahatlara dünyada da böyük maraq var və təsadüfi deyildir ki, bu yaxınlarda Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görmüşdür. Dünyanın hələ böhran yaşadığı və onun təsirinin bizdən də yan keçmədiyi bir vaxtda bu, Azərbaycan iqtisadiyyatına verilən yüksək qiymətdir və tarixi göstəricidir. Belə ki, Azərbaycan MDB məkanında, həmişə olduğu kimi, birincidir və liderliyini saxlayır.

Bu gün müstəqil dövlətimizin qarşısında duran əsas vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Möhtərəm Prezidentimiz İlham Əliyev bu istiqamətdə həm siyasi, həm də diplomatik amillərdən istifadə edərək bütün zəruri tədbirləri görür və nəticədə danışıqlar prosesində mövqeyimiz güclənməkdədir. Bütün sahələrdə Azərbaycan Ermənistan üzərində öz üstünlüyünü bütün dünyaya nümayiş etdirir. Təkcə siyasi və iqtisadi sahələrdə deyil, həm də hərbi sahədə, ordu quruculuğu sahəsində... Bu il aprel ayının əvvəllərində cəbhənin Füzuli, Tərtər və Cəbrayıl istiqamətlərində ordumuzun qazandığı qələbələr bunu bir daha təsdiqlədi.

Müstəqil dövlətçiliyimizin inkişafına və daha da möhkəmlənməsinə xidmət edən mühüm siyasi tədbirin - Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı bu il 26 sentyabrda keçirilmiş referendumun uğurla başa çatması xalqla iqtidar arasındakı birliyin bariz ifadəsi oldu. Seçicilərin mütləq əksəriyyəti Konstitusiyaya təklif olunan dəyişiklikləri dəstəkləmiş və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti müdafiə etmişlər. Yeni Azərbaycan Partiyasının nümayəndəsi və siyasətçi kimi deyə bilərəm ki, referendumun nəticələri Azərbaycanın daha da güclənməsinə, xalqımızın rifahının davamlı yüksəlişinə sanballı təkan verəcəkdir. Dövlət başçısı cənab İlham Əliyev bu mühüm siyasi əhəmiyyətli tədbirin yekunlarını dəyərləndirərkən demişdir: "Azərbaycan xalqı referendumun nəticələrini dəstəkləyir. Onların iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Bu, onu göstərir ki, kim nə deyirsə-desin, hansı uydurma ortaya atırsa-atsın, Azərbaycan demokratiya yolu ilə gedir. Bizim siyasətimizə alternativ siyasət yoxdur. Alternativ siyasət fəlakət ola bilər, yenə Azərbaycanı uçuruma apara bilər, yenə Azərbaycanı qırğın meydanına çevirə bilər. Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyərək referendumda "hə" dedi. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da bu yolla gedəcəyəm, Azərbaycanın inkişafını təmin edəcəyəm və heç bir kənar qüvvə bizi bu yoldan çəkindirə bilməz".

...Xalqımız öz milli-mənəvi dəyərlərinə, yaradıcı potensialına, vətənpərvərliyinə və qurub-yaratmaq əzminə arxalanaraq, 25 il ərzində suveren dövlət çərçivəsində misilsiz inkişaf yolu keçmişdir. Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyi kimi qorumaq, onun müdafiəsinə daim hazır olmaq hər bir vətəndaşımızın müqəddəs borcudur. Çünki müstəqil dövlətdə yaşamağı xalqımızın bir şox nəsilləri arzulasa da, bu səadət indiki nəsilə qismət olmuşdur. Biz müstəqil, azad Azərbaycan Respublikasının vətəndaşı olmaqdan qürur duyur, bunu həyatımızın ən böyük amalı kimi qiymətləndiririk. Ulu Öndər Heydər Əliyevin bizə əmanəti olan, onun layiqli müdrik siyasi varisi Prezidentimiz İlham Əliyevin səriştəli və qətiyyətli idarəçiliyi ilə öz qüdrətini durmadan artıran müstəqil dövlətimizi daha gözəl və parlaq bir gələcək gözləyir. Çünki getdiyimiz yol Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcək Heydər Əliyev yoludur!

Respublika.-2016.-15 oktyabr.-№227.-S.4.

Azərbaycanın dövlət müstəqilliyi - 25 zirvə hadisə

1. “Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nın qəbul olunması

1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının lehinə Ali Sovetin 360 deputatından 258-i səs verib. Konstitusiya Aktında göstərilib ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Konstitusiya Aktı 6 fəsil, 32 maddədən ibarətdir. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılıb və əhalinin 95 faizi səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə səs verib.

2. Azərbaycanın BMT-nin tamhüquqlu üzvlüyünə qəbul olunması

Azərbaycan Respublikası 1992-ci ilin 2 mart tarixində BMT-nin üzvlüyünə qəbul edilmiş və 1992-ci il mayın 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır.

3. Azərbaycanın milli valyutasının dövriyyəyə buraxılması

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra suverenliyin əsas atributlarından sayılan milli valyuta - manat tədavülə buraxılıb. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 7 fevral 2005-ci il tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" imzalanmış fərmana uyğun olaraq 2006-cı il yanvarın 1-dən etibarən yeni nəsil pul nişanları dövriyyəyə buraxılmışdır.

4. Yeni Azərbaycan Partiyasının yaradılması

1992-ci il oktyabrın 16-da xaos və qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq, məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya olan dövlətimizi xilas etmək məqsədilə xalqımızın milli maraqlar ətrafında birləşmiş sağlam qüvvələri - 91 nəfər ziyalı Ulu öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi.

5. Ulu öndər Heydər Əliyevin möhtəşəm qayıdışı

Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında olarkən xalqımız 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə “rəhbərlik” edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Beləliklə, iyunun 9-da Ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Böyük xilaskarın Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

6. Separatizmin aradan qaldırılması

Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuş separatizm meyillərindən xilas etdi. Etnik və milli zəmində baş qaldırmış müxtəlif qeyri-qanuni silahlı birləşmələrin fəaliyyətinə son qoyuldu. Azərbaycan xalqının Ulu öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi.

7. Xaos və anarxiyanın cilovlanması, sabitliyin təmin edilməsi

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayandırılması və “Əsrin müqaviləsi”nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratdı.

8. Atəşkəs rejiminin elan olunması

12 may 1994-cü ildə cəbhə bölgəsində atəşkəsin əldə edilməsini nəzərdə tutan Bişkek Protokolu imzalanmışdır. Atəşkəsin əldə edilməsindən sonra həm ölkə daxilində sabitliyin təmin olunması, həm də Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diplomatik danışıqların aparılması üçün real fürsət yaranmışdır.

9. 1994 və 1995-ci illərdə dövlət çevrilişləri cəhdlərinin qarşısının alınması və siyasi sabitliyin təmin edilməsi

1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Ulu öndər Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini

dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu.

10. Azərbaycan Milli Ordusunun yaradılması

Hazırda Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın ən böyük uğurlarından biri də qarşıya qoyulan istənilən vəzifəni yerinə yetirməyə, ölkənin ərazi bütövlüyünü təmin etməyə qadir olan güclü ordu quruculuğu ilə bağlıdır. Son 12 ildə ölkəmizin dövlət büdcəsində ordu üçün nəzərdə tutulan xərclər 20 dəfədən çox artıb. Hazırda ordumuzun arsenalında olan ən müasir tanklar, artilleriya qurğuları, döyüş təyyarələri və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir.

11. "Əsrin müqaviləsi"nin imzalanması

Karbohidrogen ehtiyatları ilə zəngin olan Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın təməli Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörənliyi ilə 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə qoyulub. Bakıda dünyanın altı dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərdəki "Azəri-Çıraq-Günəşli" yatağının birgə işlənməsinə dair "Əsrin müqaviləsi" adını alan beynəlxalq kontraktın imzalanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu.

12. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması

Ulu öndər Heydər Əliyevin gərgin əməyi sayəsində 1995-ci il noyabr ayının 12-də xalq referenduma gələrək öz dövlətçiliyinin əsas hüquqi istiqamətlərini müəyyənləşdirəcək başlıca siyasi-hüquqi sənəd olan Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etdi. 24 avqust 2002-ci il, 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı il tarixlərində keçirilən ümumxalq səsverməsi-referendumlar qanunvericilik bazasının zənginləşməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsinə, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına, idarəetmənin daha da təkmilləşməsinə mühüm töhfələr verib.

13. Müstəqil Azərbaycanda ilk parlament seçkilərinin keçirilməsi

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul olundu. Həmin gün müstəqillik dövründə ilk dəfə parlamentə seçkilər keçirildi və I çağırış Milli Məclis işə başladı.

14. Torpaq islahatlarının həyata keçirilməsi

Azərbaycanda MDB məkanında ilk dəfə olaraq torpaq üzərində mülkiyyət hüququnun dəyişdirilməsini, torpaqdan səmərəli istifadənin hüquqi bazasının yaradılmasını və kənd təsərrüfatının daha sürətli inkişafını təmin etmək məqsədilə genişmiqyaslı torpaq islahatları həyata keçirildi.

15. "Şahdəniz" qaz yatağı üzrə müqavilənin imzalanması

Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənməsinə, istifadə edilməsinə dair müqavilənin imzalanması Azərbaycanın enerji sektorunun inkişafında, enerjidaşıyıcılarının dünya bazarlarına çıxarılmasında mühüm mərhələ olmuşdur.

16. Azərbaycanda ilk dəfə olaraq yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə seçkilərin keçirilməsi

1999-cu ilin dekabrın 12-də Azərbaycanda ilk dəfə olaraq bələdiyyə seçkiləri keçirilmişdir. Demokratik qaydada, seçicilərin yüksək fəallığı ilə keçirilmiş seçkilər nəticəsində Azərbaycan Respublikasında 51 şəhər, 8 şəhərdə rayon, 123 qəsəbə və 2 409 kənd bələdiyyəsi seçilmişdir. 1999-cu ildə keçirilən ilk bələdiyyə seçkiləri Yeni Azərbaycan Partiyasının inamlı zəfəri ilə başa çatmışdır.

17. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul olunması

17 yanvar 2001-ci ildə Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasinin Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilmişdir. 25 yanvar 2001-ci il tarixində Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərlik etdiyi geniş nümayəndə heyəti iştirak etmişdir. 24-27 aprel 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) plenar sessiyası keçirilmişdir. Azərbaycan Respublikasının AŞPA-da nümayəndə heyəti cənab İlham Əliyevin rəhbərliyi ilə ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etmişdir.

18. Ölkəmizdə latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi

Müstəqilliyimizin bərpasından sonra ölkədə tədricən latın qrafikalı əlifba tətbiq olunub. 2001-ci ilin 18 iyununda Ümummilli lider Heydər Əliyev tərəfindən "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalanıb, Azərbaycanda latın qrafikalı əlifbaya keçid qətiləşib. Həmin il avqustun 9-da isə "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman imzalanıb.

19. Azərbaycan Respublikasında növbəti prezident seçkilərinin keçirilməsi - cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi

2003-cü il oktyabrın 15-də keçirilən seçkilər nəticəsində cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 % səsini qazanan cənab İlham Əliyev ikinci dəfə

Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Cənab İlham Əliyev 2013-cü il oktyabr ayının 9-da keçirilən Prezident seçkilərində 84,54 faiz səs toplayaraq üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

20. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi

"Əsrin müqaviləsi" ilə əsasa qoyulan uğurlu enerji siyasəti Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı–Tbilisi-Ərzurum qaz kəməri və digər strateji əhəmiyyətli layihələrin reallaşdırılması ilə davam etmişdir. Bu layihələr ölkəmizin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinin təminatında da müstəsna əhəmiyyət kəsb edir.

21. Bakıda dünyanın ən uca bayrağının inşası

Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Bu Sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə Sərəncam imzalamışdı. Həmin il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində Dövlət Bayrağı Meydanının təməli qoyulub. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb.

22. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi

24 oktyabr 2011-ci il tarixində 155 ölkənin lehinə səsverməsi nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi.

23. Azərbaycanda "Eurovison" beynəlxalq musiqi müsabiqəsinin keçirilməsi

2012-ci ildə Azərbaycan Respublikasının paytaxtı Bakıda "Eurovision" beynəlxalq mahnı müsabiqəsi keçirilmişdir. "Eurovision-2012" mahnı müsabiqəsinin keçirilməsi üzrə Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidentinin 19 may 2011-ci il tarixli Sərəncamı ilə yaradılmışdır. 2012-ci ilin may ayında Bakıda keçirilən 57-ci "Eurovision" mahnı müsabiqəsində iştirak edən ölkələrin sayı 2008 və 2011-ci illərdəki rekordu təkrarlayıb.

24. Azərbaycanda "Bakı 2015" ilk Avropa Oyunlarının keçirilməsi

12-28 iyun 2015-ci il tarixlərində Azərbaycanın paytaxtı Bakı şəhərində ilk Avropa Oyunları keçirilib. Yarışlarda Avropanın 50 ölkəsinin 10 min idmançısı mübarizə aparıb. 2015 Avropa Oyunlarının təşkili üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 yanvar 2013-cü ildə imzaladığı Sərəncamla təşkilat komitəsi yaradılmışdır. Qərara əsasən, təşkilat komitəsinin sədri UNESCO və İSESCO-nun xoş məramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təyin edilmişdir.

25. Paytaxt Bakının yenidən qurulması

"Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində Bakının siması tamamilə dəyişmiş və bu gün ölkəmizin paytaxtı xarici turistlərin yüksək dəyər verdiyi ən gözəl şəhərlərdən olmaqla yanaşı, müxtəlif xarakterli nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir.

Səs.-2016.-15 oktyabr-№ 189.-S.7.